**PREZİDENT**

# İLHAM ƏLİYEV

**və**

# MƏDƏNİYYƏT

**(2013-2018)**

**2 cilddə**

I cild

Qəbullar, nitqlər, çıxışlar,
görüşlər və mərasimlər,
səfərlər, müsahibələr

**Bakı - 2018**

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

AZƏRTAC

**Azərbaycan Dövlət İnformasiya Agentliyi**

| | |
|---|---|
| **Layihənin rəhbəri:** | **Əbülfəs Qarayev**<br>**Azərbaycan Respublikasının**<br>**mədəniyyət və turizm naziri** |
| **Məsləhətçilər:** | **Vaqif Əliyev**<br>**Ədalət Vəliyev**<br>**Sevda Məmmədəliyeva**<br>**Nazim Səmədov**<br>**Rafiq Bayramov** |
| **Tərtibçilər:** | **Lətifə Məmmədova**<br>**Mayıl Əhmədov** |

KBT 70/79(5Aze)
UOT 008
Ə 65

**PREZİDENT İLHAM ƏLİYEV VƏ MƏDƏNİYYƏT (2013-2018). 2 cilddə. I cild.**
Bakı, 2018, 584 səh., fotolar 32 səh.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası və Azərbaycan Dövlət İnformasiya Agentliyi ilə (AzərTAc-la) birgə layihəsi əsasında tərtib olunmuş "Prezident İlham Əliyev və mədəniyyət (2013-2018)" ikicildlik kitabında Prezident İlham Əliyevin 2013-2018-ci illəri əhatə edən üçüncü prezidentliyi dövründə Azərbaycanın mədəniyyət, incəsənət, ədəbiyyat xadimləri ilə görüşləri, söhbətləri, mədəniyyət məsələləri ilə bağlı nitqləri, çıxışları, səfərləri, müsahibələri, təbrikləri, bu sahəyə dair rəsmi materiallar, habelə qanun, fərman və sərəncamlar toplanmışdır.

"Prezident İlham Əliyev və mədəniyyət (2013-2018)" ikicildliyin 1-ci cildinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu illər ərzində milli-mədəni irsimizə, mənəvi dəyərlərimizə bağlılığını, ehtiramını, qayğısını ifadə edən nitqləri, çıxışları, müsahibələri, mədəniyyət və turizm obyektlərinin açılış və təməlqoyma mərasimində iştirakı və s. materiallar daxil edilmişdir.

"Prezident İlham Əliyev və mədəniyyət (2013-2018)" ikicildlik kitabı son beş ildə ölkəmizin mədəniyyət və turizm sahələrinin hüquqi bazasının formalaşmasının və inkişafının xronikasını əks etdirən mötəbər salnamə olmaqla Prezident İlham Əliyevin mədəniyyət və turizm sahəsində həyata keçirdiyi mütərəqqi siyasətini araşdıran alim və tədqiqatçılar üçün zəngin məlumat mənbəyidir.

Kitab, eyni zamanda Prezident İlham Əliyevin son beş ildə mədəniyyət və turizm sahəsində mütərəqqi fəaliyyətinin informativ xəritəsidir.

**ISBN** 978-9952-37-042-3
978-9952-37-043-0

© Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi

# GİRİŞ SÖZÜ

Azərbaycanın çox zəngin tarixi, çox zəngin mədəniyyəti vardır... Bu gün Azərbaycanının uğurlu inkişafı üçün bizim milli-mənəvi dəyərlərimiz çox böyük rol oynayır.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Müasir Azərbaycan xalqı, dövləti və cəmiyyəti XX əsr dünya tarixinin yetirdiyi ən parlaq və heyrətamiz zəka sahiblərindən biri, Azərbaycan Respublikasının memarı, milli ideologiyamızın banisi ulu öndər Heydər Əliyevin müəyyən etdiyi mütərəqqi dövlətçilik ideyaları, müdrik və ideal dövlət proqramı əsasında inkişaf edir. Ümummilli lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin praqmatik və sistematik şəkildə həyata keçirilməsi nəticəsində çiçəklənən bir diyara çevrilən Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında özünün dinamik və hərtərəfli mövqeyi ilə seçilir.

Ulu öndərin xalqımıza bəxş etdiyi ən qiymətli töhfə onun milli maraq və mənafeyə hədəflənmiş böyük ideyalarını uğurla həyata keçirən, ümummilli inkişaf konsepsiyasını müvəffəqiyyətlə realizə edən, intensiv sürət və geniş vüsətlə gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir. Müasir dövrün yeni lideri olan İlham Əliyevin dövlətimizə rəhbərlik etdiyi 15 il ərzində ictimai-siyasi, sosial-mədəni sahələrdə imza atdığı çoxsaylı uğurlar, Azərbaycanın regionda nüfuz, güc sahibinə çevrilməsi, modernləşməsi ulu öndər Heydər Əliyevin vaxtilə dediyi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" - sözlərinin parlaq uzaqgörənlik nümunəsi olmasının canlı təsdiqidir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində yerini müəyyənləşdirən, milli dövlətçiliyimizin ideya əsasını özündə cəmləşdirən, milli şüurun yüksəlişinə xidmət edən, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaradan ümummilli lider Heydər Əliyevin banisi olduğu Azərbaycançılıq məfkurəsinin və dövlətçilik fəlsəfəsinin hər gün daha da güclənməsi, qüdrətlənməsi üçün böyük əzmlə çalışan və ümumxalq məhəbbəti qazanmış kamil dövlət xadimi kimi respublika vətəndaşlarının qəlbində böyük ehtiram ünvanı qazanmışdır.

Geniş dünyagörüşünə və dərin intellektə, çevik və müasir idarəetmə praktikasına malik dövlət başçısı kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fəaliyyətində prioritet istiqamətlərdən biri məhz mədəniyyət sahəsidir. Mədəniyyət sahəsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ümummilli inkişaf konsepsiyasının ayrılmaz tərkib hissəsidir. Digər sahələrdə olduğu kimi mədəniyyət sahəsində də Heydər Əliyevin müdrik tövsiyələrini əsas götürən İlham Əliyev özünün istər birinci, istər ikinci, istərsə də üçüncü prezidentliyi dövründə həyata keçirdiyi çoxsaylı layihələr, gördüyü işlərlə ulu öndərin "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir" - sözlərini əldə rəhbər tutmuş, devizə çevirmişdir.

Prezident İlham Əliyevin mədəniyyət sahəsində gördüyü işlər innovasiya zənginliyi, tarixi miqyası, strateji perspektivi ilə seçilir. Tarixi varislik və milli mədəniyyət xalqın

özünüdərk vasitəsi, onun özünəməxsus, təkrarsız mentalitetinin göstəricisi, gənc nəslin düzgün formalaşmasına təkan verən qürur mənbəyidir. Xalq özünü mədəniyyətində təsdiq və təsbit edir. Mədəni yüksəliş iqtisadi və sosial-siyasi uğurların nəticəsi, milli mövcudluğun bütün sahələrində qazanılan nailiyyətlərə vurulan yekundur. Odur ki, yetişməkdə olan nəsil müasir dünya sivilizasiyasının ən son yeniliklərindən xəbərdar olmaqla yanaşı, öz milli-mənəvi dəyərlərinin səlahiyyətli varisi olduğunu dərindən dərk etməli, planetar insan olmaqla bərabər milli mənsubiyyətini də unutmamalıdır. Biz həmişə və hər yerdə fəxr etməliyik ki, azərbaycanlıyıq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çoxşaxəliliyi ilə seçilən mədəni kursunun ana xəttində, məğzində, mahiyyətində, başlıca ideyasında məhz bu konsepsiya dayanır.

Bu nöqteyi-nəzərdən Bakıda Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliklərində şəxsən iştirakı dövlət başçımızın minillərdən gələn milli-mənəvi dəyərlərə böyük ehtiramının ifadəsi olduğu kimi, müxtəlif bölgələrdə tarix-diyarşünaslıq, tarix-memarlıq və şəhər-tarix muzeylərinin, arxeoloji mərkəzlərin açılışı, tarixi abidələrimizdə bərpa-konservasiya işlərinin görülməsi, yeni muzey ekspozisiyalarının yaradılması da öz növbəsində tarixi keçmişimizə diqqət və qayğısının göstəricisidir. Cənab Prezidentin əlamətdar tarixi günlər, xüsusən 28 may Respublika və 9 may Qələbə günləri ilə bağlı dərin məzmunlu, vətənpərvər və humanist ruhlu çıxışları, eyni zamanda müvafiq günlərdə ümummilli lider Heydər Əliyevin əziz xatirəsinin yad edilməsi, müxtəlif bölgələrdə Heydər Əliyev mərkəzləri və parklarının, Bayraq meydanı və Bayraq muzeylərinin açılması dövlətimizin yaxın və ən yaxın tarixi keçmişimizə, müqəddəs dövlətçilik atributlarına necə böyük önəm verməsini, dərin hörmət bəsləməsini göstərir. Prezidentin dünyanın müxtəlif yerlərində tarixi əhəmiyyətli abidələri ziyarət etməsi isə bu ehtiramın planetar miqyasından xəbər verir.

Cənab Prezidentin Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu yaratmaq çağırışı ilə dünya ölkələrinə müraciəti, bu qlobal təşəbbüsün Avropa Şurası, YUNESKO, İSESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı və digər beynəlxalq təşkilatlar tərəfindən dəstəklənməsi göstərir ki, müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasındakı qarşılıqlı təmas və ünsiyyət nöqtələrinin axtarıb tapılması İlham Əliyevin mədəniyyət siyasətinin aparıcı istiqamətlərindən biridir. Məhz dövlət başçımızın bu təşəbbüsü nəticəsində mədəniyyətlərarası dialoqun yeni mərhələsi - Bakı prosesi başlandı. Bakıda dəfələrlə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan olunması, Azərbaycanın BMT Sivilizasiyalar Alyansının Qlobal Forumuna ev sahibliyi etməsi beynəlxalq humanitar əməkdaşlığı gücləndirməklə yanaşı "Tolerantlıq və multikulturalizm Azərbaycanda dövlət siyasəti və həyat tərzidir" fikrinin gerçəkliyini göstərdi. Fərqli dinlərə mənsub təşkilat nümayəndələrinin dövlət başçımız tərəfindən eyni hörmət və ehtiramla qarşılanması, ölkə ərazisində fərqli inanclara etiqad edənlər üçün ibadətgahların inşası isə bu fikri bir daha təsdiq etdi.

"Bizim siyasətimizin mərkəzində Azərbaycan insanı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır" deyən respublika Prezidenti bütün intellekt və bacarığını ümummilli rifahın yüksəldilməsinə yönəltmiş, bu məqsədlə öncəki dövrlərdə olduğu kimi üçüncü prezidentliyi dövründə də elm, ədəbiyyat, incəsənət, təhsil, mədəniyyət, turizmin intensiv və dinamik inkişafını diqqət mərkəzində saxlamışdır. Bir sıra teatr binalarının, musiqi məktəblərinin, təhsil və istirahət mərkəzlərinin, müasir tipli muzeylərin açılması və ya yenidən qurulması, görkəmli elm, incəsənət, ədəbiyyat xadimlərinə fəxri adlar, mükafat və təqaüdlərin verilməsi, onların yubileylərinin dövlət səviyyəsində qeyd olunması, elm və ədəbiyyat qarşısında xidmətləri ilə seçilən bir çox elm, incəsənət və mətbuat

nümayəndələrinin fərdi mənzillərlə təmin olunması, paytaxtda və bütün bölgələrdə mədəniyyət və istirahət parklarının, park-bulvarların salınması və yenidən qurulması, milli qoruqların yaradılması bu sahədə görülən genişmiqyaslı işlərin yalnız bir qismidir.

Möhtərəm cənab Prezidentin mədəniyyət siyasəti milli tarix və milli-mədəni ənənələrlə sıx bağlı olduğu qədər də üzü gələcəyə və üzü dünyaya baxır, perspektiv istiqaməti daim diqqət mərkəzində saxlayır. Bu cəhət bir sıra digər sahələrdə olduğu kimi özünün ən qabarıq ifadəsini həm də dövlətimizin gənclər siyasətində tapır. Azərbaycan gəncliyinə dövlət tərəfindən göstərilən diqqət və qayğı gənclərin asudə vaxtının səmərəli təşkili və yaradıcılıq potensialını düzgün oriyentasiya etmək məqsədilə paytaxt və bölgələrdə gənclər mərkəzlərinin yaradılması ilə yekunlaşmamış, ölkənin gələcək qurucuları kimi gəncliyin qarşıdan gələn illərdə mənəvi-intellektual irəliləyişini, maddi təminatını, ümumən hərtərəfli inkişafını nəzərdə tutan Dövlət Proqramında öz əksini tapmışdır.

Bu gün Azərbaycan gəncliyinin düşüncəsi tarixin sınağından çıxmış milli-mənəvi dəyərlərə sədaqətini qoruyub saxlamaqla yanaşı, müasir dünyanın ritminə köklənərək utilitar fəaliyyətdən tutmuş bəşəri mədəniyyətin, elmi yeniliklərin öyrənilməsinə hədəflənən çağdaş dünyanın mənəvi-intellektual orbitinə inteqrasiya etməkdədir.

Azərbaycanın çiçəklənən bir məmləkətə, yüksək rifaha malik insanların yaşadığı qabaqcıl, modern bir ölkəyə çevrilməsi kimi məsuliyyətli və şərəfli işdə cənab Prezidentə ən böyük dəstək olan ölkənin birinci xanımı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevadır. O özünün ictimai-mədəni həyatda fəal iştirakı, sosial ədalət və humanizm çağırışları ilə istər ölkə daxilində, istərsə də onun hüdudlarından kənarda ictimai və siyasi xadim kimi tanınır, böyük rəğbətlə qarşılanır. Təsadüfi deyil ki, milli-mədəni irsin qorunması və dünyada təbliğində, mədəniyyət, təhsil, səhiyyə, idmanın inkişafında, ölkədə multikultural və tolerantlıq mühitinin formalaşmasında, Azərbaycan və dünya mədəniyyətlərinin qarşılıqlı inteqrasiyasında, ölkəmizin planetar miqyasda müsbət imicinin formalaşmasında səmərəli fəaliyyətinə görə Mehriban xanım Əliyeva istər respublikamızın, istərsə də dünyanın müxtəlif ölkələrinin orden, medalları, beynəlxalq əhəmiyyətli ödülləri, fəxri adları ilə təltif olunmuş, dünyanın ən nüfuzlu qurumlarının keçirdiyi ictimai rəy sorğularına əsasən müxtəlif vaxtlarda "İlin adamı" və "İlin qadını" seçilmişdir.

Azərbaycan dövləti və onun təmsilçilərinin - Respublika Prezidenti İlham Əliyev və respublikanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın ən böyük dəstəyi, şübhəsiz ki, çoxmilyonlu Azərbaycan xalqıdır. Cənab İlham Əliyevin ötən prezident seçkilərindəki ardıcıl və birmənalı qələbələri göstərir ki, xalq özünün fədakar və gərgin əməyi ilə Azərbaycanı dünyanın ən mədəni, müasir ölkələrindən birinə çevirən əzmkar dövlət başçısını alternativsiz qəbul edir, öz dəstəyini ondan əsirgəmir və gələcəkdə də heç vaxt əsirgəməyəcək.

Çünki İlham Əliyevin həyata keçirdiyi müdrik və praqmatik xarici siyasət nəticəsində Azərbaycan diplomatiyasının bütün sahələrdə təntənəsini özündə ehtiva edən və şanlı tariximizə həkk olunan digər illər kimi son beş il də ölkəmiz üçün böyük uğur və müvəffəqiyyətlə zəngin təqvim kimi müasir Azərbaycanın tarixçəsinə çevrildi. Ötən 15 il ərzində ölkəmiz bəşəri humanizm, beynəlxalq ictimaiyyət üçün epoxal əhəmiyyətə malik meqalayihələrin təşəbbüskarı və ən layiqli icrası yönündə dünya dövlətləri arasında böyük nüfuz qazanmış, etibarlı tərəfdaş kimi tanınmışdır.

Eyni zamanda Azərbaycan Respublikası müasir dönəmdə beynəlxalq inteqrasiya prosesində uğurla iştirak etməklə özünün sülhpərvər və tərəqqipərvər xarici siyasət kursu ilə çağdaş dünyanın, xalqlararası əməkdaşlığın inkişafına və sivilizasiyalararası dialoqa yeni və mühüm töhfələr verməklə regionun iqtisadi, siyasi, mədəni və humanitar mərkəzi

kimi çıxış edir və beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında günbəgün yüksəlişə doğru inamla addımlayır.

İki cilddən ibarət Prezident "İlham Əliyev və mədəniyyət (2013-2018)" kitabının ölkə başçısının üçüncü prezidentlik dövründə mədəniyyət və turizm sahələrində həyata keçirdiyi və yuxarıda qısa xülasəsini verdiyimiz ümumxalq, ümumrespublika əhəmiyyətli və qlobal miqyaslı işlərin xronikasını əks etdirir. Bu, cənab Prezidentin birinci və ikinci prezidentliyi dövründə mədəniyyət və turizm sahələrində mütərəqqi fəaliyyətinin salnaməsini özündə ehtiva edən müvafiq ikicildliklər seriyasının davamı və bu silsilədən üçüncü kitabdır.

"Prezident İlham Əliyev və mədəniyyət (2013-2018)" yaşadığımız ən yaxın illərin salnaməsidir. Bu kitabın müəllifi həyatını xalqın rifahına həsr edən Prezident, öz Prezidentinə yekdilliklə dəstək verən xalq və onların birliyini əks etdirən zamandır. İnanırıq ki, mədəniyyətimizin müvafiq dövrü ilə bağlı araşdırma aparan tarixçilər, ədəbiyyatşünaslar, kulturoloqlar, müəllim və tələbələr, aspirant və dissertantlar, ümumən Azərbaycan mədəniyyəti tarixi ilə maraqlanan hər kəs subyektiv yanaşma və fərdi izahlardan uzaq, obyektiv faktlardan ibarət bu kitaba əvəzsiz mənbə kimi yanaşacaq, Prezidentlə xalqın sarsılmaz birliyini ciddi arqumentlər vasitəsilə əks etdirən bu mənbəyə öz tədqiqatlarında dönə-dönə qayıdacaqlar.

**Əbülfəs Qarayev**
**Azərbaycan Respublikasının**
**mədəniyyət və turizm naziri**

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKININ ƏHMƏDLİ YAŞAYIŞ MASSİVİNDƏKİ YENİDƏN QURULAN PARKDA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Paytaxtın digər rayonları kimi, Xətai rayonunda da mühüm sosial infrastruktur layihələri həyata keçirilir. Rayonun inkişaf etdirilməsi istiqamətində atılan addımlar, həyata keçirilən uğurlu layihələr paytaxtın mənzərəsini daha da gözəlləşdirir. Təbii ki, vətəndaşlarımızın rifahını, onların rahatlığını hər zaman diqqət mərkəzində saxlayan dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində hazırda paytaxtda park və xiyabanların salınmasına ciddi fikir verilir. Bu işlər zövqlə, yüksək peşəkarlıqla yerinə yetirilir.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, Bakının inkişafı ilə bağlı icra olunan layihələr şəhər həyatının ayrılmaz parçasına çevrilir. Şübhəsiz ki, paytaxtın gözəlliyinə yeni salınan və əsaslı təmir edilən parklar öz töhfəsini verir. Əhmədli yaşayış massivindəki Rahib Məmmədov küçəsində yenidən qurulan park da bu sahədə həyata keçirilən işlərin tərkib hissəsidir.

Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov Prezident İlham Əliyevə məlumat verdi ki, əhalinin sıx yaşadığı bu ərazidə sakinlərin istirahətinin təşkili məqsədi ilə geniş imkanlara malik istirahət zonası yaradılmışdır. Ərazisi 1,8 hektar olan istirahət mərkəzində müasir üslubda fəvvarələr kompleksi qurulmuş, diametri 20 metr olan musiqili fəvvarə yaradılmışdır. Müasir işıqlandırma sistemi ilə təchiz edilən fəvvarə müxtəlif rəng çalarlarına malikdir. Burada quraşdırılan şəlalə parka xüsusi gözəllik verir. Parkda monitor da quraşdırılmışdır.

Parkda uşaqlar üçün əyləncə kompleksi yaradılmışdır. Buradakı ana və uşaq kafesi, əyləncə sahəsi, müxtəlif attraksionlar və sürüşkənlər balacaların istirahətinin maraqlı və yaddaqalan olmasına imkan verəcəkdir. Min kvadratmetrlik kompleks paytaxt parklarının içərisində ən böyük əyləncə mərkəzlərindən biridir. Bununla yanaşı, rayonun florasının zənginləşdirilməsi məqsədi ilə 7 min kvadratmetr ərazidə yaşıllıq salınmışdır. İstirahət məkanında dekorativ ağac və gül kolları əkilmiş, avtomatik suvarma sistemi qurulmuşdur. Parkboyu bütün binalar müasir, zövq oxşayan forma və üslubda bərpa edilmiş, fasadları yenilənmişdir.

Aparılan quruculuq və abadlıq işləri, yeni park və xiyabanların salınması sayəsində bu gün paytaxtımız yeni görkəm almış və dünyanın ən gözəl şəhərləri sırasında öz yerini daha da möhkəmləndirir. Bakının inkişafı ilə bağlı həyata keçirilən tədbirlər hər gün paytaxtın gözəlliyini daha da artırır. Doğma Bakımızın simasına xüsusi yaraşıq verən bu parklar ölkəmizdə aparılan geniş abadlıq-quruculuq işlərinin daha bir nümunəsidir.

***18 oktyabr 2013-cü il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏT BAYRAĞI MEYDANINDA OLMUŞDUR

Fəxri qarovul dəstəsinin rəisi Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı əsgərləri salamladı.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Azərbaycan Respublikası Prezidentinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının şərəfinə yaylım atəşi açıldı.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlətimizin başçısının qarşısından keçdi.

Prezident İlham Əliyev hakimiyyəti illərində xalqımızın mənəvi dəyərlərinə, dövlət rəmzlərinə böyük önəm vermişdir. Dövlət Bayrağı Meydanının yaradılması və Dövlət Bayrağı Gününün təsis olunması bunun bariz təsdiqidir.

Dövlət Bayrağı Meydanı 2010-cu il sentyabrın 1-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin iştirakı ilə təntənəli surətdə açılmışdır. Bakıdakı bayraq dirəyi hündürlüyünə görə 2010-cu il mayın 29-da Ginnesin rekordlar kitabına daxil edilmişdir. İyirmi min kvadratmetr ərazisi olan meydanda ucaldılan bayraq dirəyinin hündürlüyü 162 metr, bayrağın eni 35, uzunluğu 70 metrdir.

Bu gün paytaxtla yanaşı, regionlarda da müasir bayraq meydanlarının tikilməsi xalqımızın milli qürur mənbəyi – dövlət bayrağımıza olan dərin sevgidən qaynaqlanır. Bu, həm də Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dövlət atributlarına olan məhəbbətini bir daha nümayiş etdirir.

Sonda xatirə şəkli çəkdirildi.

*19 oktyabr 2013-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKININ NƏRİMANOV RAYONU ƏRAZİSİNDƏ YENİ SALINAN DƏDƏ QORQUD PARKINDA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞ OLMUŞDUR

Parkda görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, parkda paytaxt sakinlərinin istirahəti üçün bütün lazımi şəraitin yaradılması istiqamətində işlər ardıcıl olaraq həyata keçirilir. İnşaat işləri ilə yanaşı, parkda yeni yaşıllıq zolaqları salınır, abadlıq və quruculuq işləri görülür. Parkda Azərbaycan mədəniyyətinin nadir nümunələrindən olan Dədə Qorqud dastanına ucaldılan abidə kompleksi üzərində tamamlama işləri də həyata keçirilir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva parkın ərazisini gəzdilər, inşaat işlərinin gedişi ilə maraqlandılar.

Dövlətimizin başçısı görüləcək işlərlə bağlı müvafiq tapşırıqlarını verdi.

*22 oktyabr 2013-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV İSESKO-NUN BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TUVEYCRİNİ QƏBUL ETMİŞDİR

İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri dövlətimizin başçısını prezident seçkilərində uğurlu qələbəsi münasibətilə təbrik etdi.

Görüşdə III Bakı Beynəlxalq Humanitar Forumu mədəni, humanitar və digər sahələrdə dünyada gedən proseslərin müzakirəsi üçün növbəti əlverişli fürsət kimi dəyərləndirildi.

Söhbət zamanı Azərbaycan ilə İSESCO arasında əməkdaşlığın yüksək səviyyədə olduğu və əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik bildirildi.

*31 oktyabr 2013-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV III BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMUNUN İŞTİRAKÇILARI ÜÇÜN VERİLMİŞ İŞÇİ NAHARDA İŞTİRAK ETMİŞDİR

III Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçıları üçün işçi nahar verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva naharda iştirak etmişlər.

*31 oktyabr 2013-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV ÜÇÜNCÜ BEYNƏLXALQ HUMANİTAR FORUMUNUN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak etmişlər.

Bakı Beynəlxalq Humanitar Forumu aktual humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir məkandır. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal yerdir. Forumun keçirilməsi haqqında qərar 2010-cu ilin yanvarında Bakıda təşkil olunmuş Humanitar Əməkdaşlıq üzrə birinci Azərbaycan-Rusiya Forumunda qəbul edilmişdir.

Forumun həmsədrləri Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putindir.

Üçüncü Bakı Beynəlxalq Humanitar Forumunda dünyanın müxtəlif ölkələrindən çoxsaylı nümayəndələr iştirak edir. Onlar arasında nüfuzlu ictimai-siyasi xadimlər, sabiq dövlət başçıları, Nobel mükafatı laureatları və digər şəxslər vardır. İki gün ərzində Forumda səkkiz sahə üzrə "dəyirmi masa"lar təşkil ediləcəkdir. Humanitar Forumda "Texnologiyaların konvergensiyası və gələcəyin konturları: XXI əsrin əsas çağırışları", "İqtisadi inkişafın humanitar aspektləri", "Elmi innovasiyalar və onların təhsil mühitinə transferi", "Multikulturalizm və özgünlük: cəmiyyətdə dəyər konsensusu axtarışında", "Postmodern dövründə milli özünüdərk", "Davamlı inkişaf və ekoloji sivilizasiya", "Molekulyar biologiya və biotexnologiyanın nailiyyətləri: nəzəriyyədən təcrübəyə", "Qloballaşan informasiya məkanında medianın aktual məsələləri" mövzularında "dəyirmi masa"lar keçiriləcəkdir.

Dövlətimizin başçısı Forumun açılış mərasimində nitq söylədi.

### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram, bütün qonaqlara "Xoş gəlmisiniz" deyirəm.

Bu gün Üçüncü Bakı Beynəlxalq Humanitar Forumu öz işinə başlayır. Bu, gözəl hadisədir. Ölkəmizin həyatında çox əlamətdar bir hadisədir. Qeyd etməliyəm ki, artıq bu Forum gözəl bir ənənəyə çevrilibdir. Xatırlayıram, keçən il ikinci Forumun açılışında çıxış edərkən demişdim ki, ümid edirəm üçüncü, dördüncü, beşinci Forum da keçiriləcəkdir və

görürəm ki, artıq bu, reallıqdır. Bu, onu göstərir ki, beynəlxalq əməkdaşlıq məsələlərinə çox böyük diqqət göstərilir. Bu məsələlər daim diqqət mərkəzində olmalıdır. Çünki humanitar məsələlər, humanitar əməkdaşlıq xalqları, ölkələri birləşdirən amillərdir.

Forumun işinə çox böyük maraq vardır. Yetmiş ölkədən 800-ə yaxın qonaq iştirak edir. Demək olar ki, dünya birliyinin böyük bir hissəsinin intellektual elitası bu gün bizim qonağımızdır.

Azərbaycanda humanitar əməkdaşlığa bütün dövrlərdə böyük diqqət göstərilmişdir. Bu, daim diqqət mərkəzində olan bir məsələdir. Hesab edirəm ki, ölkəmizdə bu sahədə artıq gözəl təcrübə də toplanıbdır.

Bu gün Bakıda siyasi, iqtisadi, enerji məsələləri ilə yanaşı, humanitar məsələlər də yüksək səviyyədə müzakirə edilir. Qeyd etməliyəm ki, Azərbaycanda son illər ərzində müxtəlif mövzularla bağlı mötəbər beynəlxalq tədbirlər, sammitlər, beynəlxalq konfranslar keçirilir. Bakı bir növ beynəlxalq əməkdaşlığın mərkəzlərindən birinə çevrilmişdir. Bu il Cənubi Qafqazda və Mərkəzi Asiyada ilk dəfə olaraq Bakıda Davos Ümumdünya İqtisadi Forumu, Madrid Klubunun toplantısı keçirilmişdir. Artıq iki dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Bakı Beynəlxalq Humanitar Forumunun da bu sırada öz yeri vardır. Əminəm ki, Forum çərçivəsində aparılacaq diskussiyalar, fikir mübadiləsi beynəlxalq humanitar əməkdaşlığa öz töhfəsini verəcəkdir.

Belə tədbirlərin Azərbaycanda keçirilməsi yəqin ki, təbiidir. Çünki bütün dövrlərdə Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələri sülh, əmin-amanlıq, qardaşlıq şəraitində yaşamışlar. Azərbaycanda hökm sürən ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycan dözümlülük, tolerantlıq məkanı olmuşdur. Bu gün müstəqil Azərbaycan öz siyasətini bu möhkəm təməl üzərində qurur.

Bu gün Azərbaycanda çoxmillətli, çoxkonfessiyalı cəmiyyət mövcuddur. Bu, bizim böyük sərvətimiz, böyük dəyərimizdir. Biz bu sərvəti qoruyuruq və qoruyacağıq. Bütün xalqların, bütün dinlərin nümayəndələrinin tarixi abidələri qorunur, bərpa edilir. Azərbaycanda qədim Zərdüştlük məbədi bərpa edilmişdir. Qafqazın ən qədim kilsəsi də Azərbaycanda yerləşir. O da əsaslı şəkildə bərpa edilibdir. Dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidi əsaslı təmir edilibdir. Bu məscidin 1270 yaşı vardır. Yəni, bütün dinlərin abidələrinin bərpası, qorunması dövlət siyasətidir. Əlbəttə ki, Azərbaycanda toplanmış bu gözəl tarixi təcrübə bu gün müasir şəraitdə özünü büruzə verir. Vətəndaş cəmiyyətinin formalaşması, millətlərarası münasibətlərin müsbət istiqamətdə inkişafı hesab edirəm ki, bizim böyük nailiyyətimizdir.

Bir daha qeyd etmək istəyirəm, təsadüfi deyil ki, humanitar əməkdaşlıqla bağlı məsələlər Bakıda müzakirə edilir. Əminəm ki, Forumun gözəl gələcəyi olacaqdır və bu beynəlxalq əməkdaşlıq platforması dünyada gedən müsbət proseslərə müsbət təsirini göstərəcəkdir.

Forumun çox geniş gündəliyi vardır, çox maraqlı mövzular müzakirə ediləcəkdir. Ancaq mənə verilən məlumata görə, ən böyük maraq doğuran bölmə, "dəyirmi masa" multikulturalizmlə bağlı olan məsələlərdir. Deyə bilərəm ki, Forumun mərkəzində məhz bu mövzu yerləşir. Çünki bu mövzu daim diqqət tələb edir və bu mövzu ilə bağlı dünyada müxtəlif fikirlər vardır. Əlbəttə, müsbət təcrübə də, mənfi təcrübə də vardır. Hesab edirəm ki, bizim hamımızın işi ondan ibarət olmalıdır ki, multikulturalizmin müsbət tərəfini qeyd edək, onları təbliğ edək və dünyada bu mövzu ilə bağlı mövcud olan ayrı-seçkiliyi aradan götürək.

Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Qeyd etməliyəm ki, artıq tarixi keçmişimiz də bunu diktə edir. Eyni zamanda, multikulturalizm Azərbaycanda həyat tərzidir. Biz gündəlik həyatımızda bu prinsiplər əsasında fəaliyyət göstəririk. Bu prinsiplər cəmiyyətin mütləq əksəriyyəti tərəfindən dəstəklənir, müdafiə edilir.

XXI əsrdə multikulturalizmə alternativ yoxdur. Əlbəttə ki, biz XXI əsrdə ayrı-seçkilik, diskriminasiya, ksenofobiya, islamafobiya kimi xoşagəlməz meyillərə biganə yanaşa bilmərik. Ona görə multimədəniyyətli cəmiyyətlərin formalaşması, bu ideyaların təbliği hesab edirəm ki, hər bir məsuliyyətli siyasətçinin, ictimai xadimin fəaliyyətinin tərkib hissəsi olmalıdır. Əfsuslar olsun, bəzi hallarda biz başqa fikirləri də eşidirik ki, multikulturalizmin gələcəyi yoxdur. Bəzi ölkələrdə bu məsələ ilə bağlı çox bədbin əhval-ruhiyyə hökm sürür. Hesab edirəm ki, biz dünyada müsbət təcrübə üzərində öz təhlilimizi aparmalıyıq və müsbət təcrübəni təbliğ etməliyik. Çünki dünyada multikulturalizmin bir çox ünvanları vardır. Dünyanın əksər ölkələrində çoxmillətli cəmiyyətlər mövcuddur və müxtəlif dinlərin, müxtəlif xalqların birgə yaşaması zəmanənin tələbidir. Yəni, bəşəriyyət bu istiqamətdə inkişaf edir. Bu gün ümumbəşəri dəyərlər hər bir normal cəmiyyətdə əsas təşkil edir. Belə olan halda multikulturalizmlə bağlı problemlər əlbəttə ki, açıq şəkildə müzakirə edilməlidir. Biz bu problemləri gizlətməməliyik, ört-basdır etməməliyik. Onlar açıq şəkildə müzakirə edilməlidir, müsbət, mənfi təcrübələr təhlil olunmalıdır. Bir daha demək istəyirəm, bizim əsas amalımız ondan ibarət olmalıdır ki, multimədəniyyətli cəmiyyətlərin inkişafı üçün öz töhfəmizi verək. Deyə bilərəm ki, Azərbaycanda bu istiqamətdə toplanan təcrübə müsbət təcrübədir. Qeyd etdiyim kimi, bu, bizim dövlət siyasətimizdir, həyat tərzimizdir.

Humanitar Forumun məhz Bakıda keçirilməsi hesab edirəm ki, bu təcrübənin müsbət tərəflərinin qiymətləndirilməsidir. Bununla bərabər, deyə bilərəm ki, əfsuslar olsun Azərbaycan humanitar fəlakətlə də üzləşmişdir. Uzun illərdir ki, bizim beynəlxalq birlik tərəfindən tanınan torpaqlarımız işğal altındadır. Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağ və onun ətrafında yerləşən yeddi bölgə erməni işğalçı qüvvələrinin işğalı altındadır. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə salınmışdır. Torpaqlarımızın 20 faizi işğal altındadır. İşğal edilmiş ərazilərdə bütün mədəni sərvətimiz, tarixi, dini abidələrimiz dağıdılıbdır.

Beynəlxalq təşkilatlar, xüsusilə ATƏT işğal edilmiş bölgələrə iki dəfə faktaraşdırıcı missiyalar göndərmişdir və onların məruzələrində açıq-aydın göstərilir ki, hər şey dağıdılıbdır. Beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz prinsipial mövqeyini sənədlərdə əks etdirmişlər. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi erməni işğalçı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxarılmasını tələb edir. Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və digər təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Ancaq əfsuslar olsun ki, bu qərarlar, qətnamələr icra edilmir. Burada biz beynəlxalq təşkilatların səmərəliliyindən söhbət açmalıyıq. Onların qəbul etdiyi qərarlar kağızda qalır, icra edilmir. Əlbəttə, bu, dözülməz bir faktdır. Bəzi hallarda beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamələr saatlar içərisində icra edilir. Bizə gəldikdə isə 20 ildən çoxdur ki, bu qətnamələr kağız üzərində qalır.

Məsələ ilə bağlı danışıqlar aparılır və əlbəttə ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyü bərpa edilməlidir. Bir milyondan artıq qaçqın və köçkün öz doğma torpaqlarına qayıtmalıdır. Bu, onların fundamental hüquqlarıdır. Bu münaqişə, eyni zamanda, insan haqlarının kobudcasına pozulması deməkdir. Bir milyondan artıq Azərbaycan vətəndaşı öz doğma torpağına qayıda bilmir. Bu çox böyük humanitar fəlakət əlbəttə ki, ölkəmizin ümumi inkişafına çox böyük zərbə vurmuşdur.

Azərbaycanın bugünkü inkişafı diqqəti daha çox cəlb edir. Çünki bu inkişafı biz işğal edilmiş vəziyyətdə əldə edə bilmişik. Forumun mövzularından biri iqtisadi inkişafın humanitar aspektləridir. Hesab edirəm ki, bu, çox maraqlı bir mövzudur. Yenə də Azərbaycanın təcrübəsi burada hesab edirəm ki, maraqlı ola bilər. Çünki baxmayaraq ki, biz etnik

təmizləməyə məruz qalmışıq və torpaqlarımız işğal altındadır, bir milyondan artıq qaçqın, köçkün vardır və dövlət onlara maliyyə yardımı, qayğı göstərir. Bizim iqtisadi inkişafımız son 10 il ərzində dünya miqyasında ən sürətli olmuşdur. Son 10 il ərzində aparılan islahatlar nəticəsində ölkə iqtisadiyyatı 3,4 dəfə artmışdır. Bu, əgər belə demək mümkündürsə, dünya rekordudur. Eyni zamanda, Azərbaycanda sosial məsələlərin həllinə də böyük diqqət göstərilmişdir. Çünki köklü iqtisadi islahatlar aparılarkən bir çox hallarda insanların yaşayış səviyyəsi aşağı düşür. Azərbaycan son 20 il ərzində transformasiya dövrünü yaşamış bir ölkə kimi əlbəttə ki, bu risklərdən də özünü qorumalı idi. Çünki bizim müstəqilliyimizin cəmi 22 yaşı vardır və 22 il ərzində biz müstəqil, azad ölkə kimi fəaliyyət göstəririk. Eyni zamanda, cəmi 20 ildir ki, Azərbaycan öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qurur. Biz nəinki müstəqil deyildik, eyni zamanda, Sovet İttifaqında mövcud olan iqtisadi sistem də əlbəttə ki, səmərəli fəaliyyət göstərə bilməzdi. Ona görə bizim üçün transformasiya iki istiqamətdə gedirdi. İlk növbədə, biz dövlətçiliyin əsaslarını qoymalı, möhkəmləndirməli idik, bütün demokratik təsisatlar qurulmalı idi, Azərbaycan dünya birliyinə inteqrasiya etməli idi. Eyni zamanda, iqtisadi sahədə köklü islahatlar aparılmalı idi, çünki bunsuz inkişafımız mümkün olmazdı.

Əlbəttə, bu islahatların aparılması bir çox hallarda insanların yaşayış səviyyəsinə mənfi təsir göstərə bilərdi. Ancaq bizim siyasətimiz və ciddi sosial siyasət ona gətirib çıxardı ki, sürətli iqtisadi inkişaf, eyni zamanda, insanların rifah halına da müsbət təsir göstərmişdir. Bunu sübut etmək üçün mən bir neçə rəqəmi misal gətirmək istəyirəm. Qeyd etdiyim kimi, iqtisadiyyat 10 ildə 3,4 dəfə artmışdır. Büdcə gəlirləri 20 dəfə, maaşlar təxminən 6 dəfə, pensiyalar 9 dəfə artmışdır.

On il bundan əvvəl Azərbaycanda yoxsulluğun səviyyəsi 49 faiz idi. Aparılmış islahatlar nəticəsində bu gün cəmi 5,5 faizdir. Aparılan islahatlar nəticəsində 10 ildə Azərbaycanda bir milyon 200 min iş yeri açılmışdır. Hazırda Azərbaycanda işsizlik 4,8 faizdir.

Bütün bu məsələlər əlbəttə ki, iqtisadi islahatların nəticəsidir. Eyni zamanda, bütün bu məsələlərin bilavasitə humanitar sahəyə dəxli vardır. Çünki Azərbaycan siyasətinin təməlində və mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, təhlükəsizliyi və rifahı dayanır. Ciddi və məqsədyönlü sosial siyasət bizə imkan verdi ki, ölkə inkişaf etsin və insanların rifah halı yaxşılaşsın.

Eyni zamanda, iqtisadi sahədə bizim əsas hədəfimiz qeyri-neft iqtisadiyyatını artırmaq idi. Bu gün biz buna nail ola bilmişik. Bizim ümumi daxili məhsulumuzda qeyri-neft sektoru üstünlük təşkil edir. Davos Ümumdünya İqtisadi Forumunun reytinqinə əsasən Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünyada 39-cu yerdədir. Razılaşın ki, cəmi 20 il bazar iqtisadiyyatı prinsipi əsasında yaşayan ölkə üçün bu nailiyyət hesab edirəm tarixi nailiyyətdir.

İqtisadi inkişafın sosial və humanitar aspektləri hesab edirəm ki, hər bir ölkənin inkişafı üçün çox böyük maraq doğuran məsələ olmalıdır. Bu məsələ ilə bağlı nəinki müzakirələr, hesab edirəm ki, tövsiyələr də verilməlidir. Çünki bəzi hallarda sosial məsələlərin həlli üçün ayrılan vəsait gələcəkdə o ölkələr üçün iqtisadi problemlərin yaranmasına gətirib çıxarır. Biz bunu dünyada davam edən iqtisadi və maliyyə böhranının təzahürlərində görürük. Bir çox hallarda siyasətçilərin qeyri-real, populist seçkiqabağı vədləri gələcəkdə iqtisadi problemlərə gətirib çıxarır.

Keçən Forumda mən bu məsələ ilə bağlı öz fikirlərimi bildirmişdim, siyasətçilərin məsuliyyəti haqqında danışmışdım. Hesab edirəm ki, bu mövzu hələ diqqət mərkəzində qalacaqdır. Çünki populist vədlər və ondan sonra onların icrası bir çox hallarda əsassız borclanmaya gətirib çıxarır. Bəzi ölkələrin dövlət borcu ümumi daxili məhsulun yüz faizini, ondan da çoxunu təşkil edir. Daim borc götürən ölkələr o borcu qaytarmalıdırlar. Belə olan

halda ilk növbədə o borcun qaytarılması üçün sosial proqramların ixtisarı, maaşların kəsilməsi hesabına bunu etməyə çalışırlar. Ona görə, iqtisadi inkişafın və eyni zamanda, iqtisadi tənəzzülün sosial-humanitar aspektləri çox ciddi təhlilə məruz qalmalıdır. Bizim təcrübəmiz ondan ibarətdir ki, biz iqtisadi islahatların aparılmasında ancaq öz daxili imkanlarımıza güvənirik. Ona görə, bizim xarici borcumuz ümumi daxili məhsulun cəmi 7-8 faizini təşkil edir. Biz istənilən vaxt bu borcu qaytara bilərik. Çünki Azərbaycanın valyuta ehtiyatları ümumi daxili məhsulun 70 faizini təşkil edir. Bu göstəriciyə görə də biz dünyada ön sıralardayıq. Daxili resurslarımıza arxalanmaq hesab edirəm ki, ən düzgün siyasətdir.

Biz çox ciddi sosial siyasət aparmışıq, aparırıq və aparacağıq. Ancaq bunun mənbəyi Azərbaycan iqtisadiyyatıdır. İqtisadi inkişaf sosial məsələlərin həllinə də gətirib çıxarmalıdır. Burada əlbəttə ki, uzlaşma düzgün aparılmalıdır. Çünki hər bir ölkənin inkişafı ilk növbədə insanların həyat tərzində özünü göstərməlidir və insanların yaşayış səviyyəsi qalxdıqca, yeni imkanlar yarandıqca, əlbəttə ki, ölkə iqtisadiyyatı daha da sürətlə inkişaf edəcəkdir. Azərbaycanın bu sahədə təcrübəsi vardır. Hesab edirəm ki, bu, qonaqlar üçün maraqlı ola bilər.

Forum çərçivəsində, eyni zamanda, elmi innovasiyalar haqqında "dəyirmi masa"lar keçiriləcəkdir. Azərbaycan bu sahədə də çalışır ki, ön sıralarda olsun. Elmin inkişafına böyük diqqət göstərilir. Xüsusi fond yaradılmışdır - Elmin İnkişafı Fondu. Yüksək texnologiyalara investisiya qoyulur. Bu ilin fevralında Azərbaycan kosmik dövlətlərin sırasına daxil edilibdir. Birinci Azərbaycan peyki fəzaya qaldırılmışdır. Bu gün "Azərspace-1" Azərbaycan peyki dövlətimizə, xalqımıza xidmət edir. Bu gün internet texnologiyalarının inkişafı daim diqqət mərkəzindədir.

Forumda qloballaşan dövrdə medianın aktual məsələləri müzakirə ediləcəkdir. Bu "dəyirmi masa" da çox böyük diqqət cəlb edir. Bu da əlbəttə ki, çox maraqlı mövzudur. Bu mövzu ilə bağlı bilirəm ki, müxtəlif fikirlər və bu fikirlər arasında çox böyük fərq vardır. Bir tərəfdən biz internet dünyasında yaşayırıq və bu, böyük üstünlüyümüzdür. Qeyd etməliyəm ki, Azərbaycanda internet tam azaddır və əhalimizin 70 faizi internet istifadəçisidir. Belə olan halda azad medianın inkişafı əlbəttə ki, əsas şərtdir. Digər tərəfdən, qloballaşan dünyada hər bir sözün, hər bir informasiyanın təsiri də çox böyükdür. İstənilən yerdə deyilən hər bir söz dərhal əks-səda verə bilər.

Bu gün insanlar daha çox informasiyanı, xəbərləri internet vasitəsilə alırlar. Burada həm siyasətçilərin, həm media nümayəndələrinin, ictimai xadimlərin məsuliyyəti də əlbəttə ki, ön plana çıxır. Əfsuslar olsun ki, dünya mediasında, o cümlədən Azərbaycanda da daha çox qanqaraldıcı xəbərlər ön plandadır, daha çox sensasiyalara, fəlakətlərə, terror aktlarına üstünlük verilir. Medianı izləyərkən elə bir təsəvvür yarana bilər ki, dünya alovlanıb yanır, hər yerdə toqquşmalar, müharibələr, partlayışlar, terror aktları baş verir. Ancaq dünyada nə qədər gözəl, müsbət hadisələr baş verir. Əfsuslar olsun ki, onlar bir qədər arxa plana keçir. Burada əlbəttə ki, söhbət media nümayəndələrinin məsuliyyətindən gedir. Əgər biz dünyada əməkdaşlığı, sivilizasiyalararası dialoqu gücləndirmək istəyiriksə, bütün imkanlardan istifadə etməliyik. Əlbəttə ki, dünyada baş verən müsbət hadisələr də medianın əsas mövzularına çıxarılmalıdır. Çünki belə olmasa, informasiya ancaq birtərəfli olacaqdır. Əlbəttə ki, siyasətçilər bu məsələyə müdaxilə edə bilməzlər və Azərbaycanda azad media mövcuddur. Burada heç bir müdaxilədən söhbət gedə bilməz. Sadəcə olaraq, mən bir vətəndaş kimi fikirlərimi bölüşmək istərdim.

Medianın məsuliyyəti getdikcə artacaqdır. Məsuliyyətli yanaşma hesab edirəm ki, hər birimizin marağına xidmət göstərəcəkdir.

Ümid edirəm ki, Forumda ümumiyyətlə bu məsələlərə konseptual yanaşma ilə bağlı müzakirələr aparılacaqdır. Dünyanın gələcəyi hansı istiqamətdə aparılacaqdır?! Biz hesab

edirik ki, dünyanın gələcəyi yalnız əməkdaşlıq, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət, sivilizasiyalararası dialoq üzərində qurulmalıdır. Əgər belə olmasa, onda bəşəriyyət böyük fəlakətlərlə, problemlərlə üzləşə bilər. Ancaq biz müasir dünyada bəzi hallarda başqa bir mənzərə ilə üzləşirik. Hazırda dünya siyasətində etimad böhranı yaşanır. Bu da çox təhlükəli meyildir. Bəzi hallarda ən yaxın ölkələr, müttəfiqlər arasında ziddiyyətlər, anlaşılmazlıqlar yaranır. Yəni, etimad azalır. Etimad olmadan heç bir beynəlxalq əməkdaşlıqdan söhbət gedə bilməz. Beynəlxalq əməkdaşlıq, o cümlədən siyasi və humanitar əməkdaşlıq ancaq qarşılıqlı etimad əsasında, səmimiyyət üzərində qurula bilər. Bəziləri hesab edir ki, səmimiyyət siyasi kateqoriya deyildir. Ola bilər. Ancaq biz elə etməliyik ki, səmimiyyət siyasi kateqoriyaya çevrilsin. Əgər belə olsa, onda hesab edirəm ki, dünya daha da təhlükəsiz olacaqdır.

Bu gün dini zəmində gedən münaqişələr, müharibələr bizi çox narahat edir. Çünki bunlar çox təhlükəli tendensiyalardır. Humanitar məsələlərin müzakirəsi, humanitar əməkdaşlıq müsbət istiqamətdə atılan addımdır. Mən hesab edirəm ki, humanitar əməkdaşlığın hər bir aspekti dünya gündəliyinin mərkəzində olmalıdır. Çünki bir daha demək istəyirəm ki, bir çox hallarda siyasi və iqtisadi məsələlər təbii ki, ön plana çıxarkən bu məsələlər bir az diqqətdən kənarda qalır. Buna imkan vermək olmaz.

Bu gün təhsillə bağlı məsələlər müzakirə ediləcəkdir. Azərbaycan bu sahədə də ciddi islahatlar aparır. Elmin, təhsilin inkişafı bizim gələcəyimizdir, hər bir dövlətin gələcəyidir. Mən dəfələrlə qeyd etmişəm ki, ölkəmizin gələcəyi elmlə, təhsillə bağlı olacaqdır. Biz xoşbəxtik ki, Azərbaycanda savadlılığın səviyyəsi çox yüksəkdir – təxminən 100 faizdir. Bu, bizə imkan verir ki, təhsilin keyfiyyəti, elmin inkişafı daha da sürətlə getsin. Çünki bu, hər bir ölkənin gələcəyidir. Eyni zamanda, savadlı, bilikli, yüksək təhsil almış gənclər radikalizmdən uzaq olurlar. Onları yoldan çıxarmaq o qədər də asan olmur. Ona görə elmin, təhsilin inkişafı, bilikli gənclərin yetişdirilməsi ölkənin uzunmüddətli dayanıqlı inkişafını təmin edəcəkdir. Əlbəttə, bu gün bizim qonaqlarımızın arasında inkişaf etmiş ölkələrin nümayəndələri kifayət qədər çoxdur. Onlar daha yaxşı bilirlər ki, inkişaf etmiş ölkələrin uğurlarını təbii resurslar deyil, elm, elmi-texniki tərəqqi, bilik təmin edib. Bizdə də belə olmalıdır. Bizdə təbii resurslar sadəcə olaraq bir vasitə idi ki, ölkəmizin inkişafına təkan verilsin. Bundan sonra Azərbaycanın dayanıqlı inkişafı elmi-texniki tərəqqi, müasir texnologiyalar, azad, demokratik cəmiyyət üzərində qurulmalıdır. Ölkəmizdə bu istiqamətdə böyük addımlar atılır. Azərbaycanda demokratiyanın inkişafı, insan hüquqlarının qorunması, azad cəmiyyətin formalaşması istiqamətində çox ciddi islahatlar aparılmışdır. Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır.

Deyə bilərəm ki, iki il bundan sonra Bakıda Birinci Avropa Oyunları keçiriləcəkdir. Bu da tarixi hadisə olacaqdır. Çünki bu günə qədər Avropa Oyunları keçirilməmişdir. Panamerika, Asiya oyunları, Afrika oyunları keçirilmişdir. Olimpiya hərəkatı Avropada yaranmışdır və Avropada da bərpa edilmişdir, ancaq nədənsə Avropa Oyunları keçirilməmişdir. Birinci oyunları keçirmək missiyası, bu şərəfli missiya bizim üzərimizə düşür və 2015-ci ildə Azərbaycanda, müsəlman ölkəsində birinci Avropa Oyunları keçiriləcəkdir. Hesab edirəm ki, bu hadisənin nəinki idman, eyni zamanda, böyük ictimai mənası vardır. Ondan iki il sonra – 2017-ci ildə Azərbaycanda İslam Həmrəylik Oyunları keçiriləcəkdir.

Bu iki hadisə özlüyündə ölkəmizin dünyadakı rolunu əks etdirir. Azərbaycan həm Avropa Şurasına, həm İslam Əməkdaşlıq Təşkilatına üzvdür və nadir ölkələrdəndir ki, hər iki təşkilatda təmsil olunur. Bizim coğrafi vəziyyətimiz belədir ki, biz Asiya ilə Avropa arasında bir körpüyük. Bizim siyasətimiz də bu funksiyanı gücləndirir.

Humanitar əməkdaşlıqla bağlı olan məsələlər də Azərbaycanı sivilizasiyalararası dialoqun aparılması üçün bir mərkəzə çevirir. Bu, böyük, şərəfli missiyadır. Eyni zamanda,

böyük məsuliyyətdir. Biz bu məsuliyyətə hazırıq, bu məsuliyyəti öz üzərimizə götürmüşük və bugünkü toplantı bunun bariz nümunəsidir. Mən əminəm ki, Forum iştirakçıları bütün mövzularla bağlı öz fikirlərini bölüşəcəklər. Burada aparılacaq müzakirələr çox maraqlı olacaqdır. Mən bunu bilirəm. Əminəm ki, bu müzakirələr, qəbul edilmiş qərarlar və gələcək birgə fəaliyyətimiz dünyada beynəlxalq humanitar əməkdaşlığın inkişafına böyük töhfə olacaqdır.

Bir daha Sizi ürəkdən salamlayıram, Forumun iştirakçılarına uğurlar arzulayıram. Əminəm ki, Forum çox böyük, uğurlu bir hadisə olacaqdır. Sağ olun!

***31 oktyabr 2013-cü il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VATİKAN DÖVLƏTİNİN MƏDƏNİYYƏT ÜZRƏ PONTİFİK ŞURASININ PREZİDENTİ KARDİNAL CANFRANKO RAVAZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Dövlətimizin başçısı kardinal Canfranko Ravazinin ölkəmizə səfərinin uğurlu olacağına və Azərbaycan ilə Vatikan arasında əlaqələrin inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi. İkitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev həyata keçirilən birgə layihələrin önəmini qeyd etdi. Azərbaycan ilə bağlı sərgilərin Vatikan muzeylərində nümayişinə toxunan dövlətimizin başçısı son illər əməkdaşlığımızın yeni formatda inkişafından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Vatikan Dövləti arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə Vatikan Dövlətinin mədəniyyət üzrə pontifik şurasının prezidenti kardinal Canfranko Ravazinin Azərbaycanın ən yüksək mükafatlarından olan "Dostluq" ordeni ilə təltif olunduğunu dedi və ordeni kardinal Canfranko Ravaziyə təqdim etdi.

Kardinal Canfranko Ravazi Azərbaycanın "Dostluq" ordeninə layiq görüldüyünə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirərək bunu Azərbaycan ilə Vatikan arasında uzun müddət ardıcıl olaraq inkişaf edən əlaqələrə verilən qiymət kimi dəyərləndirdi. Canfranko Ravazi yenidən Prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, Azərbaycan ilə Vatikan arasında əlaqələrin inkişaf etdirilməsində göstərdiyi xidmətlərə görə Prezident İlham Əliyevin Müqəddəs Taxt-Tacın ən yüksək və nadir mükafatlarından biri olan "Medalla Sede Vacante" medalına layiq görüldüyünü dedi və Müqəddəs Taxt-Tacın adından medalı dövlətimizin başçısına təqdim etdi. Kardinal Canfranko Ravazi ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidmətlərini xüsusi qeyd etdi.

Qonaq ikitərəfli münasibətlərimizin gələcəkdə də inkişaf etdiriləcəyinə əminliyini bildirdi.

Sonda xatirə şəkli çəkdirildi.

***4 noyabr 2013-cü il***

## PREZİDENT İLHAM ƏLİYEV ANITQƏBİRİ ZİYARƏT ETMİŞDİR

Dövlətimizin başçısı böyük Atatürkün məzarını ehtiramla ziyarət etdi.
Prezident İlham Əliyev Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoydu.
Türk dünyasının böyük oğlunun əziz xatirəsi yad edildi.
Sonra xatirə şəkilləri çəkdirildi.
Dövlətimizin başçısı Xatirə kitabına ürək sözlərini yazdı.
Sonra Prezident İlham Əliyev Anıtqəbirin muzeyi ilə tanış oldu.
Burada Mustafa Kamal Atatürkün həyat və fəaliyyətindən, onun Türkiyə Cümhuriyyətinin qurulmasındakı tarixi xidmətlərindən bəhs edən eksponatlar, sənədlər qorunub saxlanılır.

*12 noyabr 2013-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ANKARADA YENİDƏN QURULAN HEYDƏR ƏLİYEV PARKI İLƏ TANIŞ OLMUŞDUR

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin parkda ucaldılan abidəsi önünə gül dəstəsi qoyaraq xatirəsini yad etdi.
Azərbaycan dövlətinin başçısı parkla tanış oldu.
Türkiyənin müxtəlif şəhərlərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan onlarla küçə, park, meydan, təhsil müəssisəsi vardır. Ulu Öndərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində görülən işlərdən biri də Türkiyə paytaxtında yaradılan bu parkdır. Hələ 2004-cü ildə salınmış parkda bir müddət əvvəl əsaslı yenidənqurma işləri aparılmışdır. Nəticədə, bu park Türkiyə paytaxtının ən gözəl istirahət mərkəzlərindən birinə çevrilmişdir.
Heydər Əliyev Parkının konsepsiyası bir növ dahi şəxsiyyətin mənalı ömür yolu və zəngin siyasi fəaliyyəti, eyni zamanda, bu fəaliyyətin ən böyük əsəri olan müstəqil Azərbaycanın bugünkü surətli inkişafı və ölkəmizin qardaş Türkiyə ilə münasibətlərinin yüksək səviyyəsini əks etdirir.
Azərbaycan Prezidentinə məlumat verildi ki, parkın giriş meydanının ümumi sahəsi 19,23 kvadratmetrdir və bu rəqəm Ulu Öndərin anadan olduğu 1923-cü ilin rəmzidir. Buradakı şəlalə yaşam rəmzi kimi düşünülmüşdür.
Park 8 hektar sahəni əhatə edir. Bu istirahət məkanındakı şərait - mərasim meydanı, idman meydançası, uşaq əyləncə sahəsi bütün yaş qrupundan olan şəhər sakinlərinin öz zövqünə uyğun istirahət etmələri üçün imkanlar yaradır. Təbiətin qorunması, ətraf mühitə qayğı Heydər Əliyevin xüsusi önəm verdiyi sahələrdən olmuşdur. Ulu Öndərin adını daşıyan parkda bu işə xüsusi diqqət yetirilmişdir. Belə ki, burada ilk dəfə olaraq xüsusi texnologiyadan istifadə edilərək, "ağıllı drenaj sistemi" adlanan yeni sistem tətbiq edilmişdir.
Azərbaycan Prezidentinin diqqətinə çatdırıldı ki, parkda aparılan işlərdə Ankaranın iqlim şəraiti də nəzərə alınmış və yenidənqurma işlərində ən yüksək keyfiyyətə malik materiallardan istifadə olunmuşdur. Bütövlükdə incə zövqlə görülən işlər nəticəsində ulu öndər Heydər Əliyevin adını daşıyan parkda ankaralıların və şəhərin qonaqlarının mənalı istirahəti üçün hər cür şərait yaradılmışdır. Parkın girişində ağ mərmərdə əks edilən "Heydər Əliyev Parkı" sözləri axşam saatlarında Azərbaycan bayrağının rəngləri ilə işıqlandırılır.

*13 noyabr 2013-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV "BAKI AĞ ŞƏHƏR" BULVARINDA GÖRÜLƏN TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni salınacaq "Bakı Ağ şəhər" bulvarında həyata keçirilən tikinti işlərinin gedişi ilə tanış olmuşlar.

"Bakı Ağ şəhər" bulvarında görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verildi.

İnşaat işlərinin gedişi ilə yaxından tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

*14 noyabr 2013-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKI VƏ AZƏRBAYCAN YEPARXİYASININ PRAVOSLAV DİNİ-MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan hər zaman fərqli dinlərin, müxtəlif millətlərin qardaşlıq şəraitində yaşadığı ölkə olmuşdur. Xalqımız tarixin hər bir dönəmində dünyaya tolerantlıq nümunəsi nümayiş etdirmişdir. Ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdən Azərbaycanda bütün dinlərə mənsub insanların sərbəst şəkildə öz inanclarına etiqad etməsinə, bütün millətlərin nümayəndələrinin ölkənin bərabərhüquqlu vətəndaşı qismində hüquq əldə etməsinə lazımi şərait yaradılmışdır. Ümummilli Lider xalqın dini-mənəvi, milli dəyərlərinin qorunub saxlanılması istiqamətində çox mühüm işlər görmüşdür. Prezident İlham Əliyev digər sahələrdə olduğu kimi, bu sahədə də Ulu Öndərin siyasətini uğurla davam etdirir. Azərbaycan Respublikasının Konstitusiyasında da dinindən, dilindən asılı olmayaraq bütün vətəndaşların qanun qarşısında bərabərliyinin təsbit olunması ölkəmizdəki tolerantlığın bariz sübutudur.

Müasir Azərbaycan dünyaya dini tolerantlıq, millətlərarası münasibətlərin inkişafı modelini nümayiş etdirir. Dinlərarası dialoq daha da gücləndirilir. Bu gün ölkəmizdə tarixi, dini abidələrə xüsusi diqqət göstərilir, məscidlər, kilsələr, sinaqoqlar təmir edilir, yenidən qurulur. Heydər Əliyev Fondu da bu işə öz töhfəsini verir.

Prezident İlham Əliyevi Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr və Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə qarşıladılar.

Azərbaycan Prezidentinin şərəfinə kilsə zəngi çalındı.

Dövlətimizin başçısına duz-çörək təqdim edildi.

Azərbaycan Prezidenti Moskva Patriarxlığının nümayəndələri, Berlin və Alman arxiyepiskopu Feofan, Moskva Yeparxiyasının vikariyi, Verey arxiyepiskopu Yevgeni, protoierey Vsevolod Çaplin, Azərbaycandakı dini icmaların rəhbərləri və digər qonaqlarla görüşdü.

Prezident İlham Əliyev əvvəlcə Jen-Mironosits kilsəsində oldu.

Burada kilsə xoru dua oxudu.

Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr kilsənin tarixi barədə məlumat verdi. Bildirildi ki, Müqəddəs Jen-Mironosits kilsəsi 1907-ci ildə tikilmişdir. 2001-ci ildə burada aparılan yenidənqurma işlərindən sonra ulu öndər Heydər Əliyev dini məbədin açılış

mərasimində iştirak etmişdir. Bununla da kilsədə Azərbaycanda yaşayan pravoslavların dini ayinlərini rahat icra etmələri üçün hər cür şərait yaradılmışdır.

Dövlətimizin başçısı Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi ilə tanış oldu. Mərkəz Prezident İlham Əliyevin tapşırığı ilə inşa edilmişdir. 2012-ci ildə başlanılan tikinti işləri nəticəsində dördmərtəbəli binada müxtəlif tədbirlərin, o cümlədən konfrans və seminarların keçirilməsi üçün otaqlar, kilsə təhsilinin verilməsi məqsədilə bazar günü məktəbinin fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmışdır.

Diqqətə çatdırıldı ki, buradakı müxtəlif dini komitələr - yeparxiya, kanonik ayinlər, kataxizasiya, eləcə də kilsə mediası üçün ayrıca otaqlar nəzərdə tutulmuşdur. Mərkəzdə kitabxana da fəaliyyət göstərir, qonaqlar üçün xüsusi otaqlar vardır.

Bakı və Azərbaycan Yeparxiyası adından Prezident İlham Əliyevə "Fərəh və Təsəlli" adlı Müqəddəs Məryəmin ikonası hədiyyə edildi.

Dövlətimizin başçısı mərkəzin xatirə kitabına ürək sözlərini yazdı.

Daha sonra Prezident İlham Əliyev çay süfrəsi arxasında mərasim iştirakçıları ilə söhbət etdi.

**Prezident İlham ƏLİYEV dedi:**

-Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Dini-Mədəniyyət Mərkəzinin açılışı münasibətilə hamımızı təbrik edirəm. Bu, ölkəmizin həyatında əlamətdar hadisədir. Biz bunu çoxdan gözləyirdik və əlbəttə, belə bir mərkəzin açılması Azərbaycanda dinlərarası münasibətlərin göstəricisidir.

Azərbaycanda Rus Pravoslav Kilsəsinin fəaliyyəti böyük tarixə malikdir. Lakin təəssüf ki, bütün başqa dini abidələr kimi, Müqəddəs Jen-Mironosits kilsəsi də dağıntılara məruz qalmışdır. Məscidlərin də, sinaqoqların da, katolik kilsəsinin də aqibəti belə olmuşdur. Sovet hakimiyyətinin ilk illərində onların çoxu dağıdılmış, lakin indi hamısı bərpa edilmişdir. Əlbəttə, bu dini abidənin xüsusi əhəmiyyəti ondan ibarətdir ki, Rus Pravoslav Kilsəsinin hər iki başçısı – Müqəddəs II Aleksi və Müqəddəs Kiril bu kilsəyə baş çəkmişlər. Hər ikisi burada olmuşdur. Yəqin ki, Rusiya hüdudlarından kənarda Rus Pravoslav Kilsəsinin iki patriarxının baş çəkdiyi və xeyir-dua verdiyi kilsələrin sayı o qədər də çox deyildir.

Əlbəttə, kilsənin nəzdində Yeparxiyanın rəhbərliyi üçün ofis kimi də xidmət edən bir mədəniyyət mərkəzinin, dini-mədəniyyət mərkəzinin olması zəruri idi. Müəyyən çətinliklər də vardı, çünki 1990-cı illərin əvvəlində, Azərbaycanda hərc-mərclik, xaos dövründə çox işlər düzgün görülmürdü. O cümlədən, kilsənin ətrafındakı ərazi də əslində zəbt olunmuşdu. Lakin sonradan biz təsirli tədbirlər gördük. Bu ərazi Yeparxiyaya verildi və Azərbaycan dövləti burada belə bir gözəl bina inşa etdi. Bu da Azərbaycanda dinlərarası münasibətlərin göstəricisidir. Bu kilsənin böyük tarixi vardır. Bu məbəd keçən əsrin əvvəlində bir azərbaycanlı mesenatın fəal iştirakı ilə tikilmiş və artıq müstəqillik dövründə bir azərbaycanlı sahibkarın vəsaiti hesabına bərpa edilmişdir. Dini-mədəniyyət mərkəzi isə Azərbaycan dövlətinin vəsaiti ilə tikilmişdir. Bu, çox müsbət təcrübədir. Belə bir təcrübənin dərin kökləri var. Eyni sözləri məscidlərin bərpası barədə də demək olar. Onlar əsasən dövlət vəsaitləri hesabına bərpa edilmişdir. Eyni sözləri sinaqoq haqqında da demək olar, o da dövlət vəsaiti ilə tikilmişdir, katolik kilsəsinin bərpasında da dövlət iştirak etmişdir.

Biz bütün dini abidələri bərpa edirik. Azərbaycan elə bir ölkədir ki, orada müxtəlif dinlər mövcuddur, xalqlar həmişə sülh, həmrəylik, əməkdaşlıq şəraitində yaşamışlar. Biz haqlı olaraq fəxr edirik ki, Qafqazda ən qədim kilsə Azərbaycanda, Şəki şəhərinin yaxınlığındakı kiçik bir kənddə yerləşir. Ən qədim məscidlərdən biri də Azərbaycanda, Şamaxıda yerləşir. 743-cü ildə tikilmiş həmin məscid bu il bərpa olunmuşdur. Bakıdakı Atəşgah da bizim tarixi keçmişimizin, zərdüştilik dövrünün abidəsidir. Katolik kilsəsi

də bərpa edilmişdir, sinaqoqlar da tikilir. Yəni, bunlar bizim cəmiyyətimizin inkişafının göstəricisidir, ilk növbədə cəmiyyətin durumunun, həmçinin dövlət siyasətinin göstəricisidir. Sevindirici haldır ki, bu məsələlərdə cəmiyyətin durumu da, dövlətin siyasəti də, necə deyərlər, yanaşı dayanır.

Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir. Bu günlərdə keçirilmiş Üçüncü Bakı Beynəlxalq Humanitar Forumunda multikulturalizm ən çox müzakirə edilən mövzu idi. Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir. Biz diqqəti ona görə bu məsələlər üzərində cəmləşdiririk ki, bu mövzuya yanaşmalar müxtəlifdir. Təəssüf ki, belə fikirlər də var ki, bəzi ölkələrdə multikulturalizm iflasa uğramış, özünü doğrultmamışdır. Bunlar çox narahatlıq doğuran bəyanatlar, tendensiyalardır. Əgər bu həqiqətən belədirsə, onda bu ciddi müzakirə mövzusudur. Azərbaycanda isə belə hesab edirəm ki, biz öz siyasətimizlə də, cəmiyyətin durumu ilə də sübut edirik ki, elə deyil, multikulturalizm yaşayır. O, yaşayır, möhkəmlənir, dərin köklərə malikdir və gələcəkdə bəşəriyyətin inkişafının yeganə yoludur. Ona görə ki, qloballaşma dövründə, informasiya mübadiləsinin və bütövlükdə inteqrasiya proseslərinin fəallaşdığı bir vaxtda özünütəcrid ilə məşğul olmaq sadəcə məhvə məhkumdur. Dünya ölkələrinin əksəriyyəti multimədəni ölkələrdir. Bu ölkələrdə müxtəlif xalqların və müxtəlif dinlərin nümayəndələri əsrlər boyu yaşayırlar. Müxtəlif dinlərin nümayəndələri arasında dostluq və qardaşlıq münasibətləri bütün ölkələrin gələcək inkişafının əsasıdır. Buna görə də bugünkü hadisə sadəcə Azərbaycanda Rus Pravoslav Kilsəsinin normal fəaliyyəti üçün şərait yaradılmasından daha vacib məna daşıyır. Bu, böyük rəmzi məna daşıyır. Bu gün bu hadisə ölkəmizin, xalqımızın tarixinə əsaslanır, bizim həyata keçirdiyimiz siyasətin nəticəsidir. Müsəlmanların, pravoslavların, katoliklərin və yəhudilərin bütün tədbirlərində, bütün bayramlarında bütün konfessiyaların rəhbərləri həmişə bir yerdə, bir masa arxasında olur. Zənnimcə, bu da ölkəmizin qiymətli sərvətlərindən biridir.

Sizi bir daha səmimi qəlbdən təbrik edirəm. Çox şadam ki, bu gün biz gözəl hadisəni birlikdə və qonaqlarımızın iştirakı ilə bayram edirik. Əminəm ki, burada işləmək üçün hər cür şərait olacaqdır. Müzakirə etdiyimiz mövzuları daim diqqət mərkəzində saxlayırıq. Bu mövzular daim çox yaxşı nəticələr verəcəkdir. Bir daha sizi təbrik edirəm, qonaqlara bir daha "Xoş gəlmisiniz!" deyirəm.

Bakı və Azərbaycan arxiyepiskopu ALEKSANDR dedi:

-Zati-aliləri, cənab Prezident!

İcazə verin, bu əlamətdar hadisədə iştirak etməyinizə görə Sizə səmimi qəlbdən təşəkkürümü bildirim. Siz vurğuladınız ki, bu, sadəcə Azərbaycanda Rus Pravoslav Kilsəsinin həyatına yeni təkan verən hadisə deyil, həm də multikulturalizm deyilən prosesin təzahürü olacaqdır. Əlbəttə, Heydər Əliyevin sözləri həmişə yadımdadır. Onun bir gözəl ifadəsini mən öz çıxışlarımda həmişə misal gətirirəm: "çoxmillətlilik bizim sərvətimizdir". Bu, Azərbaycan Respublikasının daxili siyasətinin mənasıdır. Bu, çox vacibdir. Rus Pravoslav Kilsəsinin rəhbəri Zati-müqəddəsləri patriarx Kiril üç dəfə Azərbaycanda olmuşdur – bir dəfə Kilsənin xarici əlaqələr şöbəsinin sədri kimi, sonra Sizin dəvətinizlə, möhtərəm şeyximizin dəvəti ilə Rus Pravoslav Kilsəsinin rəhbəri kimi bu ilin fevral ayında Arxiyerey məclisində məruzəsinin bütöv bir abzasını Azərbaycanda dini həyatla bağlı vəziyyətə həsr etmiş, dinlərarası münasibətlərin inkişafına Sizin xüsusi töhfənizi ayrıca vurğulamışdır. Biz artıq tolerantlıq barədə, yəni bir-birimizə münasibətdə dözümlülük barədə deyil, konstruktiv dinlərarası dialoq barədə danışırıq, həyatın və cəmiyyətin din xadimləri qarşısında qoyduğu müxtəlif problemləri birgə səylərimizlə həll etməyə çalışırıq.

Zati-müqəddəsləri Patriarx Kiril bu əlamətdar hadisə münasibətilə təbrik göndərmişdir.

* * *

Verey Arxiyepiskopu YEVGENİ dedi:
-Zati-aliləri, çox hörmətli cənab prezident.
Zati-müqəddəsləri möhtərəm şeyx.
Diplomatik korpusun hörmətli nümayəndələri.
Dini konfessiyaların nümayəndələri.
Əziz bacılar və qardaşlar.
Əziz dostlar.

Bu gün təkcə Rus Pravoslav Kilsəsinin və Bakı Yeparxiyasının həyatında deyil, həm də Azərbaycan Respublikasında çox mühüm bir hadisə baş verir. Dövlət başçısının, respublika Prezidentinin burada iştirak etməsi bugünkü hadisəyə xüsusi əhəmiyyət verir.

Hörmətli cənab Prezident, Siz artıq bu hadisənin xüsusi əhəmiyyətini və vacibliyini qeyd etdiniz. Rus Pravoslav Kilsəsinin rəhbəri Zati-müqəddəsləri Patriarx Kiril bu cür hadisələrə həmişə xüsusi diqqət yetirir və o da təbrik göndərmişdir. Həmin təbriki oxumaq şərəfi mənə nəsib olmuşdur.

Verey Arxiyepiskopu Yevgeni Moskvanın və bütün Rusiyanın patriarxı Kirilin təbrikini oxudu:

"Zati-müqəddəsləri, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandra.

Bakı şəhərində pravoslav dini-mədəniyyət mərkəzinin təntənəli açılış mərasiminin iştirakçılarına.

Zati-müqəddəsləri.

Əziz qardaşlar və bacılar.

Azərbaycan paytaxtında pravoslav Dini-Mədəniyyət Mərkəzinin açılışı mərasiminin bütün iştirakçılarını ürəkdən salamlayıram. Əlamətdar haldır ki, bu mühüm hadisə Müqəddəs Jen-Mironosits Kafedral Kilsəsinin bərpasının on illiyi ilə bir vaxta düşmüşdür.

Fərəhlə qeyd edirəm ki, Azərbaycan dövlətinin rəhbərliyi ölkənin pravoslav icmasının ehtiyaclarına diqqətlə yanaşır və Bakı Yeparxiyasının bir sıra layihələrini fəal dəstəkləyir. Pravoslav Dini-Mədəniyyət Mərkəzinin inşası üçün torpaq sahəsi ayrılması barədə prinsipial qərar qəbul etmiş və bu mühüm təşəbbüsün həyata keçirilməsinə yardım göstərmiş Prezident İlham Heydər oğlu Əliyevin xidmətlərini xüsusi qeyd etmək istərdim.

Zati-müqəddəslərinizə və təntənəli tədbirin bütün iştirakçılarına möhkəm cansağlığı, xeyirxah əməllərinizdə və təşəbbüslərinizdə Ulu Tanrıdan kömək arzulayıram. Tanrıdan hamınıza mərhəmət diləyirəm.

Moskvanın və bütün Rusiyanın patriarxı Kiril".

* * *

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun. Zati-müqəddəslərinə mənim təşəkkürümü çatdırmağınızı xahiş edirəm. Bu məktuba görə mənim adımdan ona təşəkkür edin. Bakıda onunla görüşlərimizi xatırlayıram. Bu görüşlər mənim yaddaşımda silinməz iz qoymuşdur. Biz diqqət tələb edən çox mühüm məsələləri, o cümlədən ölkələrimiz arasında dövlətlərarası münasibətlərin inkişafı məsələlərini müzakirə etmişik. Bizim aramızda tam qarşılıqlı anlaşma var və baxışlarımız üst-üstə düşür.

Onu da deməliyəm ki, kilsə təltiflərinə, kilsənin iki mükafatına layiq görüldüyüm üçün qürur duyuram. Zati-müqəddəsləri Patriarx II Aleksi məni Birinci dərəcəli "Sergi Radonejski" ordeni ilə, Zati-müqəddəsləri Patriarx Kiril isə Birinci dərəcəli "Şərəf və şöhrət" ordeni ilə təltif etmişdir. Beləliklə, Rus Pravoslav Kilsəsi məni kilsənin iki təltifinə layiq görmüşdür və yəqin ki, bu təltiflər Azərbaycanda dinlərarası dialoq çərçivəsin-

də, ölkəmizdə yaşayan xalqlar arasında, bütün dinlərin nümayəndələri arasında münasibətlərin möhkəmlənməsi çərçivəsində görülən işləri əks etdirir.

Möhtərəm arxiyepiskop Aleksandrın qeyd etdiyi kimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi ki, çoxmillətlilik bizim sərvətimizdir. Bu, həqiqətən belədir. Biz xoşbəxtik ki, müstəqillik dövründə cəmiyyətin inkişafının müsbət meyillərini qoruyub saxlamışıq. Multimədəni cəmiyyət qurulması işində qazandığımız uğurlar ölkəmizdə yaşayan bütün xalqların və bütün dinlərin nümayəndələrinin ümumi xidmətidir.

Artıq qeyd etdiyim kimi, Azərbaycanda bu istiqamətdə də çox ciddi dövlət siyasəti həyata keçirilir. Lakin belə demək mümkündürsə, ictimai sifariş olmasa, dövlətin bu siyasətinin səmərəsi olmazdı. Mənim fikrimcə, vəziyyətin nadirliyi məhz ondan ibarətdir ki, cəmiyyət də, Azərbaycandakı bütün xalqların və dinlərin nümayəndələri də, dövlət də öz qarşısında cəmiyyətin qardaşlıq, dostluq və qarşılıqlı hörmət əsasında yaxınlaşması, birləşməsi məqsədini qoymuşdur.

Azərbaycanın pravoslav icmasının nümayəndələri Azərbaycan dövlətinin çox böyük vətənpərvərləridir. Onlar ölkəmizin inkişafına, mədəniyyətin, incəsənətin, təhsilin, iqtisadiyyatın inkişafına böyük töhfələr verirlər. Biz bunu çox qiymətləndiririk, bu, bizim sərvətimizdir. Bir daha demək istəyirəm, cəmiyyət o vaxt sağlam olur ki, həm ölkənin inkişafının qlobal məsələlərinə, həm də millətlərarası, dinlərarası dialoq məsələlərinə dair ictimai konsensus mövcud olsun. Mənim fikrimcə, indiki halda bu amil Rusiya ilə Azərbaycan arasında çox səmərəli, dinamik, müsbət istiqamətdə inkişaf edən dövlətlərarası münasibətlərin möhkəmlənməsində də çox mühüm rol oynayır. Biz hamımız bir məqsədə - quruculuq, inkişaf, dostluğun, qarşılıqlı anlaşmanın, dözümlülüyün və həmrəyliyin möhkəmlənməsi kimi nəcib məqsədə xidmət edirik. Bir daha xahiş edirəm, bu məktuba görə mənim ən xoş arzularımı və təşəkkürümü çatdırın.

* * *

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür PAŞAZADƏ dedi:

- Biz əlbəttə, bu gün çox sevinirik ki, burada bir yerdə görüşürük. Deyə bilərəm ki, bu gün tolerantlıq günüdür. Bununla bərabər, cənab Prezident, Sizin bu gün buraya gəlməyiniz və bir masa arxasında birlikdə əyləşməyimiz artıq ənənə halı almışdır. Bu ənənənin bünövrəsini qoyan dostum, qardaşım ulu öndər Heydər Əliyev həzrətləri olmuşdur. O, həmişə bu gün bizi yığardı, bizimlə danışardı və bizə tövsiyələr edərdi. Bu gün onun bəhrəsini görürük və Siz də bunu davam etdirirsiniz.

Əlbəttə, bizi çox sevindirir ki, Azərbaycan dövləti son illərdə böyük uğurlar qazanmışdır. Mən fəxr edirəm ki, bizim belə Prezidentimiz vardır. Budəfəki Prezident seçkiləri Həcc ziyarəti dövrünə, Qurban bayramı ərəfəsinə təsadüf etmişdir. Ziyarətdə olan dindarlarımız müqəddəs Məkkədə Prezidentimizə səs vermiş, dualar etmişlər. Demək istəyirəm ki, Azərbaycan dünyanın diqqət mərkəzindədir. Dünya dövlətləri onun təcrübəsini öyrənə bilərlər.

Əlbəttə ki, bizim bir-birimizə münasibətimiz, din-dövlət münasibətləri də çox yüksək səviyyədə inkişaf edibdir. Əgər dövlətimizin rəhbəri bizə diqqət və qayğı göstərməsəydi, əlbəttə, biz dindarlar bu işləri görə bilməzdik. Ona görə də biz Sizə təşəkkürümüzü bildiririk, Prezident həzrətləri. Siz həmişə dinindən, dilindən asılı olmayaraq bütün dindarlara öz xoş münasibətinizi bildirmisiniz. Bu gün Sizin burada iştirakınız özü də elə bunun əyani sübutudur.

Qaldı ki, bizim Rusiya ilə, rus-pravoslav kilsəsi ilə olan qardaşlıq münasibətlərimizə bu gün də davam edir və inşallah, bundan sonra da davam edəcəkdir. Bu günlərdə mən patriarx həzrətlərindən bir məktub almışam. Məktubda gələcəkdə birgə sammitin keçiril-

məsi təklif olunur. Hələ tam razılaşdırılmayıb, ola bilər ki, bu sammit 2014-cü ildə Rusiyada, yaxud Azərbaycanda keçirilsin.

Ona görə də biz Sizə minnətdarlığımızı bildirmək istəyirik. Mən istərdim bütün dindarlar, buradakı iştirakçılar adından üçüncü dəfə Prezident seçilməyiniz münasibətilə Sizi bir daha təbrik edim, Allah-Təaladan Sizə, ailənizə cansağlığı diləyim. Allah-Təala bir xalqı istəyəndə həmişə ona müdrik dövlət rəhbəri göndərir ki, o xalq öz doğru yolunu tapa bilsin. Allah-Təala da Heydər Əliyevi, Sizi bizə doğru yol göstərmək üçün müdrik bir şəxs, rəhbər göndərib. Allah-Təala Heydər Əliyevə rəhmət etsin. Sizə gələcəkdə xoşbəxtlik arzu edirəm. İnşallah, hələ çox böyük işlər görəcəksiniz. Allah Sizi qorusun. Sağ olun.

* * *

Sonra Bakı dağ yəhudiləri dini icmasının sədri Milix YEVDAYEV çıxış etdi:

- May ayında biz Xarici İşlər Nazirliyinin nümayəndə heyətinin tərkibində İsraildə olduq. Knessetin sədri ilə görüşdə dedim ki, Azərbaycan Prezidenti yaxın vaxtlarda bizə - yəhudilərə gözəl bir sinaqoq hədiyyə etmişdir.

Oktyabrın 14-dən 17-dək Kiyevdə antisemitizmə qarşı mübarizəyə həsr edilmiş beynəlxalq forum keçirilirdi. Həmin foruma mən də dəvət edilmişdim. Mən dedim ki, bizim Azərbaycanda bütün xalqlar sülh, əmin-amanlıq şəraitində xoşbəxt yaşayır. Azərbaycanda heç vaxt dinlərarası, millətlərarası zəmində hər hansı mübahisələr, çəkişmələr, digər xoşagəlməz hallar olmamışdır. Belə hal yoxdur. Nə üçün? Ona görə ki, Ulu Öndərin dediyi kimi, tolerantlıq yüksək mədəniyyətin nəticəsidir. Azərbaycanda əsrlər boyu tolerantlıq olmuşdur, var və olacaqdır.

* * *

Protoierey Vsevolod ÇAPLİN dedi:

- Moskvanın və bütün Rusiyanın Zati-müqəddəs patriarxları – mərhum Patriarx Aleksi və indiki Patriarx Kiril Azərbaycanda kilsə ilə dövlət arasında və dinlərarası münasibətlərin vəziyyətini qiymətləndirmişlər. Bu gün baş yepiskop Patriarx Kirilin Arxiyerey məclisində son məruzəsini xatırladı. Arxiyerey məclisi müəyyən dövriliklə keçirilir. Qeyd etməliyəm ki, Avrasiyanın bir sıra ölkələrində kilsə-dövlət münasibətlərində müəyyən mürəkkəbliklər olduğuna baxmayaraq, bir neçə il bundan əvvəl mərhum Patriarx da, indiki Patriarx da Azərbaycanda həm bizim kilsənin vəziyyəti, həm də dinlərarası dialoq sahəsində olan təcrübə barədə həmişə yalnız müsbət fikir söyləmişlər. Biz təkcə kilsənin həyatı ilə bağlı məsələləri müzakirə etmirik, Avrasiyada və dünyada dinlərarası dialoqun perspektivlərini də Zati-müqəddəsləri Şeyx ilə və ölkənin digər dini icmaları ilə birlikdə müzakirə edirik. Müəyyən yeni təşəbbüslər vardır. Biz bu müsbət təcrübəmizin, birgə fəaliyyət təcrübəmizin, ünsiyyət təcrübəmizin xristianlarla müsəlmanların münasibətləri, dinin və dövlətin münasibətləri, dinlərarası sülhyaratma dialoqu sahəsində dünyada baş verənlərə daha çox təsir göstərməsi üçün Rusiyada da, Bakıda da görüşəcəyik.

* * *

**Prezident İlham ƏLİYEV:**

- Siz tamamilə haqlısınız. Buna böyük ehtiyac vardır. III Bakı Beynəlxalq Humanitar Forumunun nəticələrinə əsasən beynəlxalq əməkdaşlığın bu cür formatı artıq yaranmışdır. Biz bundan əvvəl də dünya dinlərinin liderlərinin zirvə görüşünü keçirmişik. Bu iki format bir-birini tamamlayır, çünki dinlərarası münasibətlərin gələcək inkişafına dair ciddi diskussiyalara və ümumi yanaşmalar işləyib hazırlamağa ehtiyac çoxdur çünki dünyanın müxtəlif hissələrində - həm Yaxın Şərqdə, həm də Avropada baş verən proses-

lər bizi düşünməyə vadar edir və narahatlıq doğurur. Bəzən yaxınlaşma prosesi əvəzinə ayrılma prosesi gedir. Bəzən müəyyən bəyanatlar və ya hərəkətlər həmrəyliyə deyil, əksinə, etimadsızlığa səbəb olur. Ona görə də, mənim fikrimcə, bu halda bütün xalqlar arasında müsbət əməkdaşlıq tarixinə malik olan ölkələrin, çoxmillətli ölkələrin təcrübəsinə əsaslanmaq lazımdır. Zənnimcə, bu halda Rusiya və Azərbaycan qlobal miqyasda məhz dinlərarası, mədəniyyətlərarası dialoqun birləşdirici amili ola bilər. Ona görə ki, burada oxşar cəhətlər, əlaqələr çoxdur. Bundan əlavə, biz iki qonşu dövlətik, Qafqaz da bizi birləşdirir, Rusiya və Azərbaycan iki Qafqaz ölkəsidir. Buna görə din xadiminin, hörmətli insanın sözü həmişə sanballı olmuşdur. İndiki halda dövlətin siyasəti və din tamamilə eyni məcrada həyata keçirilir. Məqsədlər eynidir – inkişaf, rifah, dəyərlər, qloballaşma dövründə ənənəvi dəyərlərin itirilməməsi, gənc nəslin özünün etnik və dini köklərindən ayrılmaması. İdentiklik itirilməməlidir, qloballaşma adı altında cəmiyyətin mənəvi əsasları sarsıdılmamalıdır. Bu əsaslar olmadan heç bir ölkə, heç bir xalq mövcud ola bilməz.

*15 noyabr 2013-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV KİYEVDƏKİ HEYDƏR ƏLİYEV PARKINDA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞ OLMUŞDUR

Park bu il aprelin 25-də - ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi ərəfəsində açılmışdır.

Prezident İlham Əliyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin parkda ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Dövlətimizin başçısı parkı gəzdi.

Parkda Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən kompozisiya elementləri yüksək peşəkarlıqla işlənmişdir. Burada işıqlandırmadan tutmuş nadir “Şeyx Səfi” xalısının surətinədək hər şey fərdi sifariş əsasında Ukrayna, İtaliya, Almaniya və Azərbaycanda hazırlanmışdır. Parkın inşaat kompozisiyası Azərbaycanın qədim rəmzləri olan Bakının Qala divarları, Şirvanşahlar dövlətinin gerbi, “Şeyx Səfi” xalısının maketləri əsasında qurulmuşdur. Parkın landşaft kompozisiyası isə dövlətimizin coğrafi şəraitinin və florasının müxtəlif elementləri ilə tamamlanır.

Yeni salınan parkda aparılan yaşıllaşdırma işləri zamanı əsasən Azərbaycan florasına məxsus nadir ağaclara və bitkilərə üstünlük verilmişdir. Bu da parkın özünəməxsusluğunu artıran amillərdir.

Sonda xatirə şəkli çəkdirildi.

*18 noyabr 2013-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV “QOLODOMOR” QURBANLARININ XATİRƏSİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT ETMİŞDİR

Kiyevdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Qolodomor” qurbanlarının - 1930-cu illərdə aclıqdan həlak olanların xatirəsinə ucaldılmış abidəni ziyarət etmişdir.

Dövlətimizin başçısı abidənin önünə ətrafına buğda sünbülü düzülmüş yanan şam qoydu, aclıq qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Prezident İlham Əliyev Ukrayna paytaxtının hündür nöqtəsindən qədim Kiyevin mənzərəsini seyr etdi.

Azərbaycan Prezidentinə Ukrayna paytaxtında görülən işlər barədə məlumat verildi.

*18 noyabr 2013-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV "NAMƏLUM ƏSGƏR" ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kiyev şəhərindəki "Naməlum əsgər" abidəsini ziyarət etmişdir.

Abidənin qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev "Əbədi məşəl"in önünə əklil qoydu, 1941-1945-ci illərin Böyük Vətən müharibəsində həlak olmuş döyüşçülərin xatirəsini ehtiramla yad etdi.

Azərbaycanın və Ukraynanın dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsi dövlətimizin başçısının qarşısından keçdi.

*18 noyabr 2013-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ "JURNALİSTLƏRİN DOSTU" MÜKAFATI TƏQDİM EDİLMİŞDİR

Bütün media işçiləri adından Prezident İlham Əliyevi ikinci dəfə "Jurnalistlərin dostu" mükafatına layiq görülməsi münasibətilə təbrik edən Azərbaycan Mətbuat Şurasının sədri Əflatun AMAŞOV dedi:

- Hörmətli cənab Prezident!

İcazə verin, çıxışıma başlamamışdan əvvəl "Jurnalistlərin dostu" adını ikinci dəfə qazanmağınız münasibətilə bütün həmkarlarım adından Sizi təbrik edim, Sizə ən xoş duyğularımı bildirim. "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi "Jurnalistlərin dostu" mükafatını 1997-ci ildə təsis edib. Niyyətimiz cəmiyyətdə söz və mətbuat azadlığı prinsiplərini təbliğ və inkişaf etdirmək, bu məqsədlə dövlət məmurlarımızın, ictimai-siyasi təşkilatların tanınmış nümayəndələrinin kütləvi informasiya vasitələri ilə əlaqələrinin möhkəmlənməsinə nail olmaq, bununla da mediaya qayğı ənənələrini stimullaşdırmaqdır.

Ümummilli liderimiz Heydər Əliyevin 2002-ci ildə "Jurnalistlərin dostu" mükafatının qalibi kimi çıxışı, Azərbaycan mediasının dünəni, bu günü və sabahı ilə bağlı fikirlərini bölüşməsi hamımız üçün böyük şərəf və hər zaman fərəhlə anılan, unudulmaz xatirədir. İndi 2013-cü ilin qalibini təbrik etdiyim bir gündə 11 il öncəki tarixi də yada salmaqdan böyük məmnunluq duyuruq.

"RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin bu ilin sentyabrında təşkil etdiyi sorğuda ölkədə ictimai fikrə təsir göstərən 30 gündəlik, 15 həftəlik, 4 bölgə qəzetinin, 6 jurnalın, 11 informasiya agentliyinin, 12 xəbər portalının, 7 telekanalın, 4 radionun və 11 jurnalist təşkilatının rəyləri öyrənilibdir. Sorğunun nəticələrinə görə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 89 faiz səslə qalib gəlibdir.

Cənab Prezident, bizim sorğuda ikinci və üçüncü yerləri tutanları da biz qeyd edirik. İkinci və üçüncü yerləri Azərbaycan Respublikası Prezidenti Administrasiyasının icti-

mai-siyasi məsələlər şöbəsinin müdiri və "Bakcell" şirkətinin baş icraçı direktoru bölüşüblər. Onların da hər birinə təbrikimizi yetiririk.

Hörmətli mərasim iştirakçıları, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ikinci dəfədir ki, jurnalistlərin dostu seçilir. Milli jurnalistikamızın mənsubları ilk seçimlərini 2010-cu ildə ediblər. Seçimi zəruriləşdirən amillərə diqqət çatdırmaq istərdim. Əvvəlcə media ilə bağlı önəmli yaşantıları yada salardım. Milli mətbuatımızın 135 illik yubileyi bütün ölkədə bayram kimi qeyd olundu. Dövlətimizin başçısının imzaladığı Sərəncama əsasən Bakıda və bütün bölgələrdə çoxsaylı tədbirlər həyata keçirildi, 100-dən çox media təmsilçisi "Əməkdar Jurnalist", "Əməkdar Mədəniyyət İşçisi" fəxri adlarına, "Tərəqqi" medalına layiq görüldü. Ən böyük sevinclərdən biri Mətbuat Şurasında yaşandı.

Hörmətli cənab Prezident, Mətbuat Şurasının şəxsi diqqətinizlə ərsəyə gəlmiş yeni binasının açılışını bildirən lenti kəsdiniz. Şuranın idarə heyətinin üzvləri ilə keçirdiyiniz görüşdə medianın inkişafı ilə bağlı konseptual baxışınızı ifadə etdiniz. Bu baxış Azərbaycan mediasının perspektivlərini müəyyənləşdirmək baxımından son dərəcə önəmli idi. 2010-cu il iyulun 22-də jurnalistlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasını nəzərdə tutan Sərəncam imzalamaqla milli mətbuatımızın 135 illik yubileyi təntənəsinə yeni ovqat bəxş etdiniz. Artıq 156 mənzilli binanın sakinləri məlumdur. Bu il jurnalistlər üçün yeni yaşayış binasının təməlini qoydunuz. Daha neçə-neçə həmkarımızı onun sakininə çevirmək üçün ümidləndirdiniz, cənab Prezident. Söz yox ki, o amil də jurnalistlərimizin 2013-cü il seçiminə təsirsiz ötüşməyib. Amma qalibiyyəti yalnız bu faktla bağlamaq istəməzdim.

Ölkə mediası sözün əsl mənasında keyfiyyət dəyişiklikləri dövrünü yaşayır. Artıq internet Azərbaycan vətəndaşlarının operativ informasiya tələbatını ödəyən dünyəvi ünsiyyət vasitəsinə çevrilibdir.

Çoxsaylı internet, televiziya və radiolar on minlərlə insana yenilikləri çatdırır. Facebook şəbəkəsi ölkənin bir milyondan çox vətəndaşını əhatə edir. Otuz mindən çox bloqqer sərbəst və maneəsiz fikir və mülahizələrini cəmiyyətlə bölüşür. Jurnalist ictimaiyyətimiz bütün bunları, 2013-cü ilin "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan olunmasının məntiqi nəticələrini əyani surətdə görür və dəyərləndirir. Mətbuat Şurası da fəaliyyətini zamanın tələblərinə uyğun şəkildə qurur. Bilavasitə peşəkarlıq prinsiplərinin onlayn medianı da əhatə etməsinə yönələn layihələr reallaşdırır.

Son beş ilin mühüm yeniliklərindən biri də KİV-lərə dövlət dəstəyinin sistemli mexanizminin yaranmasıdır. Bu, özünü mətbuat orqanlarının maddi–texniki bazasının möhkəmlənməsində, jurnalistlərin peşəkarlığının yüksəlməsində göstərməkdədir. Davamlı proseslər ictimai missiya yerinə yetirən jurnalistləri təkcə peşələrinə bağlamır, eyni zamanda, medianın cəmiyyətdəki nüfuzunu yüksəldir, ümumən, demokratik cəmiyyət quruluculuğunda dövlətin jurnalistikaya dəyər verdiyini, etimadını bir daha təsdiqləyir. Hamımız yaxşı bilirik ki, bütün bunların qarantı dövlətimizin başçısıdır, cənab Prezident, Sizsiniz.

İnsan amilinin, dövlətin vətəndaşına qayğısının üzərində xüsusi dayanmaq istərdim. Bu qayğının sırf jurnalistə yönələn nümunəsinə "Teleqraf.az" saytının baş redaktoru Nicat Dağların şəxsində şahidlik etdik. Bir müddət əvvəl bu jurnalistimizin həyatı təhlükədə idi, cənab Prezident. Siz çox vacib bir anda insan taleyinə reaksiya verdiniz. Şəxsi göstərişiniz əsasında onun Almaniyada dövlət hesabına müalicəsi təşkil olundu. Bu gün şükürlər olsun ki, o aramızdadır. Belə həssas münasibətinizə görə, Sizə bir daha dərin minnətdarlığımızı bildiririk.

Möhtərəm cənab Prezident, jurnalistlər cəmiyyətin düşünən beynidir. Onlar hadisə və proseslərə özlərinə xas yanaşmaları ilə seçilirlər. Bu mənada Azərbaycan jurnalistləri

Sizin şəxsinizdə təkcə dövlətin onlara göstərdiyi qayğını deyil, eyni zamanda, yeritdiyiniz daxili və xarici siyasət kursunu yaxından izləyirlər. Söz yox ki, onların Sizi özlərinə ikinci dəfə dost seçmələri, eyni zamanda, yüksək səriştəli dövlət adamı olmağınızdan, prinsipial dəst-xəttinizdən, Azərbaycanın dövlət müstəqilliyini qətiyyətlə qorumağınızdan, Vətənimizi beynəlxalq aləmdə layiqincə təmsil etməyinizdən, son 10 ildə ölkəmizi dinamik iqtisadi inkişaf müstəvisinə çıxarmağınızdan, bir sözlə, Azərbaycanın dünya dövlətləri arasında layiqli yerini tutmasından qaynaqlanır.

Heç şübhəsiz, bütün bunlar öz nəticəsini insanların rifah halının yüksəlməsində, onların həyat şəraitinin durmadan yaxşılaşmasında göstərir. Media cəmiyyətin güzgüsüdür. Azərbaycan cəmiyyəti 9 oktyabr seçkisində Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçdi. Sizi bu münasibətlə ölkə jurnalistləri adından bir daha təbrik edir, qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayırıq.

Cənab Prezident, Siz "Jurnalistlərin dostu" mükafatının qalibisiniz. Media təmsilçilərimiz Sizi həmişə özlərinin dostu biliblər. Sizi növbəti dəfə bu mükafatın qalibi seçməklə sadiq dostlarına olan ehtiramlarını bir daha nümayiş etdiriblər. Bu dostluq media təmsilçiləri ilə hər görüşünüzdə qaldırılan məsələlərə həssas münasibətinizdən, irəli sürülən təkliflərin real, əməli iş müstəvisinə daşınmasından qaynaqlanır. Bu mərasimin də yaddaşlarda eyni ruhda qalacağına tam əminik.

Sizi bir daha "Jurnalistlərin dostu" adını qazanmağınız münasibətilə ürəkdən təbrik edirik.

İcazə verin, cənab Prezident, mükafatı Sizə təqdim edək.

Mətbuat Şurasının sədri Əflatun Amaşov "Jurnalistlərin dostu" mükafatını Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı mərasimdə giriş nitqi söylədi.

## PREZİDENT İLHAM ƏLİYEVİN GİRİŞ NİTQİ

- Hörmətli qonaqlar, media nümayəndələri.

İlk növbədə yenidən məni "Jurnalistlərin dostu" mükafatına layiq gördüyünüz üçün sizə minnətdaram. Doğrudan da mənim üçün böyük şərəfdir ki, ikinci dəfə bu ada layiq görülürəm. Çalışacağam ki, bundan sonra da "Jurnalistlərin dostu" kimi Azərbaycanda azad mətbuatın inkişafı üçün səylərimi əsirgəməyim.

Bu mükafatın verilməsi böyük məna daşıyır. Çünki ölkə Prezidentini "Jurnalistlərin dostu" adına sizin tərəfdən layiq görməyiniz, əlbəttə ki, Azərbaycanda azad mətbuatın inkişafında görülən işlərə işarə vurur. Mən bundan sonra da çalışacağam ki, Prezident kimi Azərbaycanda azad medianın inkişafı üçün dəstəyimi verim və beləliklə, ölkəmizin sürətli və uğurlu inkişafını təmin edim. Çünki müasir dünyada inkişaf etmiş ölkələrdə azad medianın səviyyəsi hər bir ölkənin səviyyəsini göstərir. Azərbaycanın qarşısında isə belə məqsəd qoyulub ki, Azərbaycan gələcəkdə inkişaf etmiş ölkələrin sırasına daxil edilsin. Belə olan halda Azərbaycanda media ilə bağlı məsələlər ən yüksək səviyyədə öz həllini tapmalıdır.

Bildiyiniz kimi, Azərbaycanda azad jurnalistikanın yaradılması prosesi 1980-ci illərin sonlarına təsadüf edir. Ondan sonra 1990-cı illərin əvvəllərində bu prosesə daha da böyük təkan verilmişdir. Ancaq sirr deyil ki, 1998-ci ilə qədər Azərbaycanda mediada olan senzura imkan vermirdi ki, mətbu orqanlar tam şəkildə azad və sərbəst fəaliyyət göstərsin. 1998-ci ildə ulu öndər Heydər Əliyevin qərarı ilə senzuranın ləğv edilməsi bu sahədə də dönüş yaratdı, bu sahədə də Azərbaycanın siyasətini əks etdirdi. Çünki 1990-cı illərin

ortalarından başlayaraq Azərbaycanın inkişaf konsepsiyası icra edilir. Bu konsepsiyanın əsas istiqamətləri bu gün artıq reallıqdır.

Azərbaycan dünya birliyinə inteqrasiya etməli idi. Azərbaycan öz iqtisadi potensialını azad iqtisadiyyat üzərində qurmalı idi. Azərbaycanda azad, demokratik cəmiyyət qurulmalı idi. 1998-ci ildə bu qərarın verilməsi, əlbəttə ki, təsadüfi deyildi və bir çox ölkələr üçün nümunə idi. Hesab edirəm ki, o gündən bu günə qədər Azərbaycanda azad medianın inkişafı ilə bağlı çox önəmli qərarlar qəbul edilmişdir. İldən-ilə bu sahəyə ayrılan dövlət diqqəti, dəstəyi artıb. Son illər ərzində, hesab edirəm ki, Azərbaycan bu sahədə müxtəlif parametrlər üzrə çox böyük irəliləyişə nail ola bilmişdir.

Demokratik cəmiyyətin qurulması işində azad medianın xüsusi rolu vardır. Bu salonda əyləşən jurnalistlər, media nümayəndələri, media rəhbərləri o insanlardılar ki, Azərbaycanda azad medianın yaradılmasında xüsusi rol oynamışlar və bu gün də öz fəaliyyətlərini davam etdirirlər. Deyə bilərəm ki, bu gün bu salonda Azərbaycanda medianın inkişafı ilə bağlı istiqamətverici qurumların nümayəndələri iştirak edirlər. Əlbəttə, jurnalist cəmiyyətinin fəaliyyəti və jurnalist cəmiyyətindən cəmiyyətə gələn sifariş hesab edirəm ki, azad jurnalistikanın, müstəqil medianın yaradılmasında mühüm rol oynayır. Ancaq, eyni zamanda, dövlət siyasəti olmadan bu proseslər lazımi səviyyədə təşkil edilə bilməz. Hesab edirəm ki, Azərbaycanda bax, bu iki əsas istiqamətin birləşməsi bugünkü müsbət dinamikanı təmin etmişdir.

Azərbaycanda bütün azadlıqlar vardır. Azərbaycanda demokratik cəmiyyət qurulur. İqtisadi islahatlarla yanaşı, siyasi islahatların aparılması, əlbəttə ki, ölkəmizin gələcəyini müəyyən edəcəkdir. Bu istiqamətdə atılan addımlar, hesab edirəm ki, gözəl bir nümunədir. Çünki bizim bütün istiqamətlər üzrə siyasətimiz açıqdır, aydındır. Dəfələrlə bu barədə mən fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan müasir dövlət qurur, müstəqil dövlət qurmuşdur və Azərbaycanın gələcək inkişafı iqtisadi və siyasi islahatlardan asılı olacaqdır. Mən hesab edirəm, son illər ərzində bu sahədə əldə edilmiş nailiyyətlər deməyə əsas verir ki, biz gələcəkdə də hər iki istiqamət üzrə inamla irəliyə gedəcəyik. Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri artıq tam reallaşıbdır. Gələcək illərdə demokratik inkişafla bağlı aparılacaq islahatlar, hesab edirəm ki, bu sahədə də Azərbaycandakı vəziyyəti ən yüksək səviyyəyə çatdıracaqdır.

Eyni zamanda, qeyd etməliyəm ki, demokratik inkişaf baxımından bu gün ölkəmiz heç bir ölkədən geridə qalmır. Azərbaycanda söz azadlığı, mətbuat azadlığı, siyasi fəaliyyət azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan azadlığı təmin edilib. Hesab edirəm ki, bizim gündəlik həyatımız dediklərimi təsdiq edir. Azərbaycan o ölkələrdəndir ki, azad internet mövcuddur və internet istifadəçilərinin sayı 70 faizdən çoxdur. Heç bir məhdudiyyət yoxdur. Yüzlərlə mətbuat orqanı fəaliyyət göstərir. Bir sözlə, medianın inkişafı ilə bağlı dövlət tərəfindən yalnız dəstək göstərilir. Siz də qeyd etdiyiniz kimi, bəzi məsələlərdə, xüsusilə, media nümayəndələrinin məişət problemlərinin həlli işində Azərbaycan ön yerlərdədir. Bu barədə mən bu ilin yayında öz fikirlərimi bildirmişəm. Hesab edirəm ki, bu düzgün yanaşmadır. Çünki jurnalistlərin o qədər də böyük maddi imkanları yoxdur. Onlar iş adamları, başqa kateqoriyadan olan insanlar kimi öz fəaliyyəti hesabına layiqli mənzillərə sahib ola bilmirlər. Ona görə dövlət öz dəstəyini mütləq verməlidir.

Hesab edirəm ki, Azərbaycanda bütün başqa sahələrdə dinamik inkişafın təmin edilməsi üçün ictimai-siyasi sahədə də müsbət dinamika olmalıdır. Bu ilin prezident seçkiləri onu göstərdi ki, Azərbaycanda ictimai-siyasi vəziyyət müsbətdir. Cəmiyyətdə ölkəmizin ümumi inkişafı ilə bağlı fikir ayrılığı yoxdur. Azərbaycan cəmiyyəti artıq əsas hədəflər üzərində səfərbər olunubdur. Müstəqillik, dövlətçilik, müasirlik prinsipləri bizim üçün üstünlük təşkil edir. Müstəqil Azərbaycan gənc dövlətdir, ancaq buna baxmayaraq, öz ma-

raqlarını müdafiə etməyə qadirdir, dünya miqyasında özünəlayiq yer tuta bilibdir. İqtisadi müstəqilliyin əldə edilməsi nəticəsində siyasi müstəqillik də təmin edilir. Azərbaycan bu gün xarici siyasətlə bağlı nəinki bölgədə, regionda, dünya miqyasında öz rolunu oynayır. Daxildə gedən proseslər ölkəmizi daha da gücləndirir. Son illərdə Azərbaycanda aparılan islahatlar, həyata keçirilən infrastruktur layihələri, sosial məsələlərin həlli ölkəmizi böyük dərəcədə gücləndirmişdir.

Əlbəttə, bütün bu müsbət nəticələrlə, nailiyyətlərlə yanaşı, demokratik inkişafla bağlı irəliləyiş olmalı idi. Biz bunu görürük. Əlbəttə ki, hələ görüləsi işlər çoxdur, nöqsanlar da, çatışmayan cəhətlər də vardır. Ancaq əsas məsələ ondan ibarətdir ki, Azərbaycanın dövlət rəhbərliyində bu məsələlərlə bağlı çox dəqiq təsəvvür və çox güclü siyasi iradə vardır.

Müstəqillik tarixi bir şans idi. Bu salonda əyləşənlərin əksəriyyəti sovet dövründə yaşamış, fəaliyyət göstərmiş insanlardır. Biz hamımız o illəri yaxşı xatırlayırıq. Yaxşı xatırlayırıq ki, müstəqillik Azərbaycan xalqına çox baha başa gəldi. Ona görə bu tarixi şansı biz nəinki əldən verməməliyik, heç vaxt əldən verməyəcəyik. Eyni zamanda, müstəqillik dövründən maksimum səmərə ilə istifadə etməliyik. Elə dövlət qurmalıyıq ki, bu dövlətin əsasları sarsılmaz olsun, bu dövlət daim yaşasın, Azərbaycan xalqı bundan sonra daim müstəqillik, azadlıq şəraitində yaşasın.

Ancaq müstəqillik sadəcə olaraq dövlət atributları deyildir, müstəqil siyasət aparmaq imkanları da olmalıdır. Biz bir sıra müstəqil ölkə tanıyırıq ki, onların müstəqil siyasət aparmaq imkanları məhduddur. Azərbaycan o ölkələrdəndir ki, bütün çətinliklərə baxmayaraq, müstəqillik dövründə bu şansı əldən verməyib, dövlət müstəqilliyini möhkəmləndirə bilibdir, güclü dövlət əsasları qurulubdur, yaradılıbdır. Bu gün Azərbaycanın gələcək inkişafı ilə bağlı nə cəmiyyətdə, nə də ekspert cəmiyyətində heç bir şübhə yoxdur. Biz yalnız inkişaf yolunu gedəcəyik, öz qüdrətimizi artıracağıq, müstəqil xəttimizi bundan sonra da aparacağıq və güclü dövlət yaradacağıq. Bu istiqamətdə artıq bir çox məsələlər öz həllini tapmışdır. Güclü dövlət quruculuğu işində demokratik prinsiplər xüsusi yer tutur.

Onu da qeyd etməliyəm ki, məhz 1990-cı illərin ortalarında Azərbaycanın inkişaf konsepsiyası qəbul edilmişdir. Bu konsepsiyada azadlıqlar, demokratik inkişaf məsələləri xüsusi yer tutur. Çünki demokratik cəmiyyət qurulmasa, bizim uğurlarımızın dayanıqlılığı təmin edilə bilməz. Ona görə bir daha demək istəyirəm ki, Azərbaycan rəhbərliyində demokratiyanın inkişafı ilə bağlı çox güclü siyasi iradə vardır. Cəmiyyətin dəstəyi, o cümlədən media nümayəndələrinin fəal iştirakı ilə biz bu istiqamətdə daha da böyük uğurlara çatacağıq.

Eyni zamanda, biz bütün siyasətimizi elə qurmalıyıq ki, ölkəmizin dayanıqlı inkişafı təmin edilsin. Çünki bu gün Azərbaycana qarşı dünyada çox böyük qüvvələr hərəkətə keçiblər. Əlbəttə ki, ilk növbədə erməni lobbisi Azərbaycana qarşı kampaniya aparır, mütəmadi qaydada ölkəmizi qaralamaq, ləkələmək, Azərbaycan haqqında təhrif edilmiş rəy yaratmaq üçün fəaliyyət göstərir.

XXI əsr informasiya mübarizəsi əsridir. İnternetin mövcudluğu əlbəttə ki, bu mübarizəni daha da kəskinləşdirir. Biz buna hazır olmalıyıq, biz öz reallıqlarımızı dünya birliyinə çatdırmalıyıq. Burada əlbəttə ki, əsas vəzifəni ilk növbədə dövlət öz üzərinə götürür. Ancaq media nümayəndələri də çalışmalıdırlar ki, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqeyimizi dünya birliyinə çatdırsınlar. Müxtəlif dillərdə internet resursları yaradılmalıdır. Dağlıq Qarabağla bağlı tarixi həqiqətlər dünya birliyinə çatdırılmalıdır. Belə olan halda biz informasiya mübarizəsində daha da böyük uğurlara nail ola biləcəyik. Hər halda, son illər ərzində Azərbaycan informasiya blokadasından çıxa bilmişdir. Bir çox hallarda erməni lobbisinə çox böyük zərbələr endirə

bilmişdir. Ancaq bu mübarizə davam edir və davam edəcəkdir. Ona görə də biz buna hazır olmalıyıq.

Yəqin siz onu da yaxşı bilirsiniz ki, ölkəmizin uğurlu inkişafını, müstəqil siyasətini bəzi xarici dairələr qəbul etmək istəmirlər. Bəzi xarici dairələr Azərbaycana qarşı "qara piar" kampaniyası aparırlar. Xüsusilə, "Eurovision" ərəfəsində biz bunun şahidi olmuşuq.

Azərbaycana qarşı düşünülmüş, koordinasiya edilmiş, məqsədyönlü qaralama kampaniyası aparılırdı və əlbəttə ki, bu məsələ də diqqətimizi çəkmişdi. Biz də öz tərəfimizdən lazımi tədbirləri gördük ki, buna son qoyulsun. Mən hesab edirəm ki, hər sahədə olduğu kimi, bu sahədə də biz müdafiə prinsipləri ilə yox, hücum taktikasından istifadə etməliyik və etdik də. Hesab edirəm ki, ölkəmizin maraqlarını və imicini qoruya bildik.

Ancaq o da həqiqətdir ki, bu gün dünyada gedən proseslər, təsir uğrunda aparılan mübarizələr, - açıq və gizli mübarizələr, - əlbəttə ki, Azərbaycandan da yan keçə bilməz. Ölkəmizin önəmi, təbii resurslarımızın mövcudluğu, müstəqil siyasətimiz və öz gücümüzə olan inamımız, əlbəttə ki, Azərbaycanı bu sahədə çox cəlbedici ölkəyə çevirir. Azərbaycanı təsir altına salmaq, təzyiq etmək, öz tərəfinə çəkmək cəhdləri son 10 il ərzində durmadan aparılır. Bəzi məsələlərdən media nümayəndələri xəbər tuturlar, bəzi məsələləri onlar çox düzgün təhlil edirlər. Məhdud da olsa məlumatdan istifadə edib düzgün təhlil aparmaq üçün imkanlar vardır. Amma bir çox məsələlər cəmiyyət üçün qaranlıq olaraq qalır.

Ancaq deyə bilərəm ki, bu mübarizə davam edir və Azərbaycanın müstəqil xətti, xüsusilə xarici siyasət, enerji resurslarının nəqli, daxili siyasət, Qarabağ məsələsi ilə bağlı barışmaz mövqeyi bəzi dairələri hərəkətə gətirir. Belə olan halda ölkəmizin inkişafı ilə bağlı atılan addımlarımız bəzi dairələrdə narahatlıq doğurur. Belə olan halda müxtəlif üsullardan istifadə edilə bilər və istifadə də edirlər - "qara piar" kampaniyası, ölkəmizi ləkələmək cəhdləri. Azərbaycanı qeyri-demokratik ölkə kimi təqdim etməyə çalışırlar, seçkilərlə bağlı hərdənbir, yəni beş ildə bir dəfə fürsət düşdükcə istifadə edirlər. Bütün bu reallıqları Azərbaycan cəmiyyəti bilir və bilməlidir. Belə olan halda biz özümüzü, müstəqil xəttimizi qorumaq üçün, əlbəttə ki, daha da güclü olmalıyıq.

Azərbaycan cəmiyyəti iqtisadi cəhətdən, siyasi cəhətdən və ictimai fikir baxımından daha da sıx birləşməlidir. Hesab edirəm ki, burada medianın çox böyük rolu vardır və ola bilər. İlk növbədə hesab edirəm, əsas məsələ ondan ibarətdir ki, bizim yerli mediamız xarici təsirdən azad olsun. Əlbəttə, biz demokratik cəmiyyətdə, plüralizm şəraitində yaşayırıq, müxtəlif fikirlər, siyasi baxışlar ola bilər. Mediamızın bir hissəsi hələ ki, siyasi partiyalara bağlıdır. Bu, ayrı bir mövzudur. Mənim bu məsələ ilə bağlı öz fikirlərim vardır. İstəmirəm bu barədə geniş danışım. Amma hər halda inkişaf etmiş ölkələrin praktikası onu göstərir ki, güclü medialar siyasi təsirdən bir qədər azad olmalıdır. Ancaq hələ ki, bu, belədir. Əlbəttə ki, ölkəmizin gələcək inkişafı ilə, ölkədə aparılan siyasətlə bağlı müxtəlif fikirlər vardır və olmalıdır. Bu, təbiidir. Ancaq bir məsələdə - dövlət maraqlarımızın qorunması məsələsində, hesab edirəm ki, vahid fikir olmalıdır. Çünki Azərbaycanın gələcək inkişafı bizdən asılıdır. Azərbaycan xalqı bu gün öz taleyinin sahibidir və bizim siyasətimiz əsasında Azərbaycanın inkişafı təmin edilir. Ona görə, ilk növbədə, mediamızı xarici təsirdən azad etmək üçün əgər dövlətin əlavə dəstəyi lazımdırsa, biz bunu etməyə hazırıq.

Azərbaycanın problemləri ölkə daxilində müzakirə edilməlidir. Özünə hörmət edən hər bir cəmiyyət və ölkə məhz bu əsaslarla fəaliyyət göstərir. Biz bir çox hallarda inkişaf etmiş ölkələrin təcrübəsini əsas götürməyə çalışırıq. Orada da belədir. Bir neçə qonşu ölkədə də belədir. Azərbaycanda da belə olmalıdır. Daxili problemlər, siyasi mübarizə ilə bağlı olan məsələlər, müxalifət-iqtidar münasibətləri daxildə müzakirə edilməlidir. Bu məsələlər hüdudlarımızın kənarına çıxdıqda, ilk növbədə, Azərbaycan haqqında bir

rəy yaranır ki, bu ölkədə bax, onlar özləri öz aralarında münasibətləri həll edə bilmirlər. Bu, ilk növbədədir. Ondan sonra bu, Azərbaycanın uğurlu inkişafını istəməyən qüvvələrə əlavə imkan, əlavə fürsət verir və bu fürsətlərdən istifadə edilir. Biz bunu bilirik. Biz bilirik hansı imkanlardan istifadə edilir ki, Azərbaycanın daxilində proseslər başqa istiqamətdə getsin. Ona görə, əgər jurnalistika ilə məşğul olan aparıcı simalar bu məsələdə də həmrəylik göstərərlərsə, hesab edirəm ki, bu, cəmiyyətimiz üçün də yaxşı olar.

Bax, bu barədə mən öz əsas fikirlərimi bildirmək istəyirdim. Əvvəlki görüşlərimizdə də biz jurnalistikanın inkişafı ilə bağlı fikir mübadiləsi aparmışıq. Jurnalistlərin peşəkarlığı, məsuliyyəti, dəqiq informasiyanın ötürülməsi – bütün bu məsələlər çox vacibdir. Siz özünüz də bunu hamıdan yaxşı bilirsiniz. Bilirəm ki, bu məsələlər Mətbuat Şurasında mütəmadi qaydada müzakirə edilir. Azərbaycan mediası daim inkişaf etməlidir. Əgər biz keçmiş illərə nəzər salsaq görərik ki, son illərdə Azərbaycan jurnalistikası doğrudan da böyük yol keçmişdir. Bu, sadəcə xoş sözlər deyil, bu, həqiqətdir. Əgər 15 il bundan əvvəlki qəzetləri vərəqləsək görərik ki, orada daha çox böhtan, təhqir, iftira mövzuları üstünlük təşkil edirdi. Bəzi hallarda bu, bu gün də vardır. Ancaq onların miqdarı xeyli azalıbdır. Ona görə məsuliyyət və peşəkarlıq, dəqiq informasiya mütləq hər bir medianın imicini göstərir.

Eyni zamanda, əlbəttə ki, cəmiyyətdə mövcud olan problemlərlə bağlı media daim öz sözünü deməlidir. Dövlət maraqlarının təmin edilməsi, o cümlədən nöqsanların aşkarlanmasından keçir. Azərbaycanda xoşagəlməz halların mövcudluğu barədə mediada kifayət qədər dolğun məlumatlar vardır. Mən bunu alqışlayıram. Xüsusilə, bürokratiya, korrupsiya, rüşvətxorluq, özbaşınalıq, yekəxanalıqla bağlı olan mövzular, araşdırmalar bizim ümumi işimizə dəstək verir. Milli mənəvi dəyərlərlə bağlı olan məsələlər, bəzi məmurlar tərəfindən bu dəyərlərə məhəl qoyulmaması - bütün bunlar diqqət çəkir. Eyni zamanda, media qurumlarının bu məsələlər ətrafında işləmələri diqqəti bu məsələlərə yönəldir və istər-istəməz müsbət təsir göstərir. Ona görə cəmiyyətin yaralarını aşkarlamaq, sağaltmaq üçün biz birlikdə çalışmalıyıq. Mən hesab edirəm ki, medianın bu funksiyası da çox önəmlidir.

Ümid edirəm ki, xoşagəlməz halların sayı gələcəkdə ölkəmizin sürətli və hərtərəfli inkişafı hesabına azalacaqdır. Hər halda biz buna çalışırıq, çalışmalıyıq. Bir daha demək istəyirəm ki, biz müasir dövlət qururuq. Müasir dövlət quruculuğu üçün bizim bütün imkanlarımız vardır. İlk növbədə, biz siyasi iradəmizi, müstəqil siyasətimizi davam etdirməli, eyni zamanda, dünyadakı müsbət praktikanı Azərbaycanda tətbiq etməliyik. Burada mən heç bir problem görmürəm. Bizim şəraitimizə, milli adətlərimizə uyğun ən mütərəqqi təcrübə Azərbaycanda tətbiq edilməlidir. Ona görə inkişaf etmiş ölkələrin, xüsusilə, demokratik inkişafla, media azadlıqları ilə bağlı təcrübəsi bizim üçün çox maraqlıdır, cəlbedicidir. Biz bu təcrübədən istifadə edirik və edəcəyik.

Mən bu mükafata görə bir daha sizə minnətdarlığımı bildirmək istəyirəm. Mən ikinci dəfə bu yüksək ada layiq görülürəm. Bu, mənim üçün böyük şərəfdir. Mənim həyatımda çoxlu mükafatlar, təltiflər olubdur. Ancaq Azərbaycan mediasının mükafatı onların içində xüsusi yer tutur. Jurnalistlərin dostu kimi çalışacağam ki, bundan sonra da azad jurnalistikanın inkişafı üçün öz səylərimi əsirgəməyim. Mən dostluqda sadiq adamam və hesab edirəm ki, bizim dostluğumuz bundan sonra da uğurla davam edəcəkdir. Sağ olun.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə yekun nitqi söylədi.

# PREZİDENT İLHAM ƏLİYEVİN YEKUN NİTQİ

- Çox sağ olun, əziz dostlar! Dediyiniz sözlərə, mənim ünvanıma dediyiniz xoş sözlərə görə sizə minnətdaram. Burada bir neçə təklif səsləndi. İstərdim ki, bu təkliflərə öz münasibətimi bildirim. Qabiliyyət imtahanları ilə bağlı hesab edirəm ki, bu, çox düzgün təklifdir və bunu biz nəzərə almalıyıq. Çünki jurnalistika xüsusi bir peşədir. Burada sadəcə olaraq gələcək jurnalistlərin peşəkarlığı, bacarığı testlə ölçülə bilməz. Ona görə hansısa formada, - əgər bu qabiliyyət imtahanı olarsa, - mən buna etiraz etmirəm. Baxın hansı formada bunu etmək mümkündür.

Seriallarla bağlı Aqil müəllim öz fikirlərini bildirdi ki, Azərbaycanda televiziya seriallarına dövlət öz dəstəyini verir. Doğrudan da belədir. Bilirsiniz, bunun səbəbi ondan ibarət idi ki, Azərbaycan telekanallarında daha çox xarici seriallar nümayiş etdirilirdi. Bir çox hallarda bu seriallar xarici ölkələrin həyat tərzini, məişət münasibətlərini əks etdirirdi. Seriallar əslində milli seriallar olmalıdır ki, Azərbaycan vətəndaşlarının maraqlarını təmin etsin. Ona görə qərar qəbul edildi ki, xarici seriallar müvəqqəti olaraq Azərbaycan televiziyalarından çıxarılsın. Belə olan halda məsələ qalxdı ki, bəs yerli serialları çəkmək üçün imkan yoxdur. Ona görə də biz belə qərar qəbul etdik. Bu gün görürəm ki, müəyyən çətinliklər olsa da, hər halda artıq yerli seriallar maraq doğurur və burada bir neçə məqsəd güdülür. İlk növbədə biz öz mövzularımız ətrafında tamaşaçılara məlumat veririk. Eyni zamanda, serialların çəkilişi, xüsusilə dövlət vəsaiti hesabına olanda iş yerlərinin yaradılmasına gətirib çıxarır ki, bu da aktyorlar, rejissorlar, ssenari müəllifləri və bu işlərlə məşğul olanlar üçün əlavə qazanc mənbəyidir. Əlbəttə ki, Azərbaycanda bundan sonra da həm kino, həm də seriallar çəkiləcəkdir. Azərbaycan dövləti bu sahəyə öz dəstəyini bundan sonra da əsirgəməyəcəkdir.

Şirməmməd müəllimin çıxışı mənim üçün çox böyük maraq doğurdu. Doğrudan da bu, bir qədər gözlənilməz oldu. Sözün düzü, mən bilmirdim ki, siz babam Əziz Əliyevlə təmasda olmusunuz. Bu, mənim üçün də çox maraqlı, əziz xatirələrdir. Doğrudan da 1950-ci illərdə babamla görüşmüsünüz.

Sizə öz hörmətimi bildirmək istəyirəm. Mən sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm. Yadımdadır ki, 1970-ci illərdə siz Azərbaycan televiziyasında siyasi icmal verilişi aparırdınız. Mən o vaxt sizin verilişinizi maraqla izləyirdim. O vaxt sovet televiziyasında belə bir veriliş var idi - "Politiçeskoye obozreniye". Onu Zorin aparırdı, ondan sonra başqaları aparırdı, bizdə isə siz aparırdınız. O vaxt xarici siyasətlə, başqa ölkələrdə baş verən hadisələrlə bağlı bizim məlumatımız yox idi. Çünki qəzetlərdə bu məlumatlar çox az verilirdi. Ona görə bu icmaldan biz məlumat əldə edirdik və o vaxtdan sizi mən qiyabi tanıyıram, sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm.

Azərbaycan xalqı, xüsusilə, Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı sizin işinizə çox yüksək qiymət veribdir. Bu, doğrudan da bizim tariximizin şanlı səhifəsidir, müsəlman aləmində ilk demokratik respublika olmuşdur. Respublikanın baniləri Azərbaycan xalqı qarşısında çox böyük xidmətlər göstərmişlər. Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, digər rəhbərlər, onların dünyagörüşü, cəsarəti, xalqa olan bağlılığı hər bir azərbaycanlı üçün bir nümunədir. Ona görə onların əziz xatirəsi bizim üçün daim qürur mənbəyidir. Müstəqillik mövzularında araşdırmalar nəticəsində yaradılan əsərlərə böyük ehtiyac vardır. Çünki bugünkü Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və bizim əsas müstəqillik bayramımız da 28 May bayramıdır. Çünki o vaxt Azərbaycanın dövlətçilik əsasları qoyulmuşdur.

Ancaq biz yaxşı bilirik, siz də hamıdan yaxşı bilirsiniz, o vaxt ölkə ətrafında və hətta ölkə daxilində gedən proseslər imkan vermədi ki, bu müstəqillik qorunsun. Cəmi 2 ildən

sonra müstəqillik əlimizdən alınmışdır. O vaxt bolşeviklərin böyük yalanlarından biri də məhz bu olmuşdur. Çünki biz yaxşı bilirik ki, bolşeviklər bir neçə əsas şüarla hakimiyyətə gəlmişdilər - torpaq kəndlilərə, fabriklər fəhlələrə, xalqlara müstəqillik, özgürlük, hürriyyət. Heç birini də etmədilər. Axırıncını da, müstəqilliyi də əlimizdən aldılar. Amma tarixi şans elə gətirdi ki, bu xoşbəxtlik Azərbaycana bir daha nəsib oldu. Olmaya da bilərdi. Çünki o vaxt Sovet İttifaqı əlbəttə ağır vəziyyətdə idi, amma çökməyə də bilərdi. O vaxt çökməsəydi ola bilsin ki, bu gün də, necə deyərlər, ölkə hələ yaşaya bilərdi. Hər halda belə ehtimal da olmuşdur. Ona görə də bu tarixi şans idi. Azərbaycanda xalq hərəkatı, müstəqillik uğrunda gedən mübarizə, digər bəzi postsovet ölkələrində gedən mübarizə əlbəttə ki, Sovet İttifaqının süqutunu şərtləndirmişdir.

Bir daha demək istəyirəm ki, biz bu şansı əldən verə bilmərik. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində proseslər narahatedici idi. Bu gün isə bizim dövlət müstəqilliyimiz artıq sarsılmazdır. Müstəqillik mövzuları daim gündəlikdə olmalıdır və tarixi paralellər aparılmalıdır. Buna da böyük ehtiyac vardır. Müstəqilliyin üstünlükləri, - mən həmişə bu barədə danışıram, - nədən ibarətdir. Bu gün Azərbaycan heç vaxt tarixdə olmadığı kimi güclü bir ölkədir. Bugünkü Azərbaycan dünya miqyasında böyük hörmətə malik olan ölkədir. Bizim incəsənətimiz, idmanımız tarixdə ən yüksək səviyyəyə qalxmışdır. Bir neçə gün bundan əvvəl mən şahmat komandamızın nümayəndələrini qəbul etdim. Avropa çempionu olmuş Azərbaycan şahmat komandası yenə də Avropa çempionudur. Sovet dövründə bunu heç təsəvvür etmək mümkün deyildi. Bir-iki şahmatçımız var idi. Onlar da şahmat cədvəlində təqribən 10-cu, 15-ci yerlərdə idilər. Bax, budur müstəqilliyin üstünlükləri - müstəqil siyasət, güclü iqtisadiyyat, cəmiyyətdə hökm sürən ab-hava, milli həmrəylik. Bütün bunlar müstəqilliyimizin üstünlükləridir. Hesab edirəm ki, jurnalistlər də bu mövzular ətrafında bundan sonra da öz sözünü deyəcəklər.

Biz ahıl jurnalistlərin vəziyyəti ilə bağlı qaldırılan məsələyə də baxa, dövlət dəstəyini göstərə bilərik. Bu hansı formada ola bilər, onu siz müəyyən edin. Biz buna mütləq baxmalıyıq. Çünki Azərbaycanda, ümumiyyətlə, hər bir sahədə xidmət göstərmiş, böyük işlər görmüş veteranlara çox böyük diqqət göstərilir. Bu, belə də olmalıdır. Bu, bizim cəmiyyətimizin əsaslarını təşkil edir. Hər bir cəmiyyətin, o cümlədən Azərbaycan cəmiyyətinin mənəvi dayaqları, sütunları vardır. Bunların içində yaşlı nəslə münasibət, hesab edirəm ki, ön plandadır. Heç də hər bir ölkədə belə deyildir. Azərbaycanda bu sahədə də tarixdən gələn meyllər, sifarişlər onu göstərir ki, bizim cəmiyyətimiz bu sahədə də nümunə ola bilər. Bir qədər bundan əvvəl mən yeni tikilmiş ahıllar evinə baş çəkdim, maraqlandım. Əlbəttə, orada şərait çox gözəl idi, beşulduzlu otelə bənzəyirdi. Ancaq maraqlandım və mənə məlumat verdilər ki, Azərbaycanda cəmi bir neçə belə ahıllar evi vardır. Nəyə görə, çünki buna ehtiyac yoxdur. Çünki bizdə böyüklərə, yaşlı insanlara hörmət həmişə cəmiyyətimizin dayağı olmuşdur. Bu gün də belədir və hər bir cəmiyyətin dayaqları möhkəm olmalıdır. Bizim milli adət-ənənələrimiz, milli bayramlarımız, böyüklərə olan hörmət, böyük- kiçik münasibətləri daim qorunmalıdır və qloballaşan dünyada buna daha da böyük diqqət verilməlidir. Çünki qloballaşma bir çox hallarda eyniləşmə prinsipi əsasında təsvir edilir. Buna yol vermək olmaz. Biz öz milli və dini adət-ənənələrimizi qorumalıyıq, saxlamalıyıq və gələcək nəsillər, gənc nəsil də milli ruhda böyüməlidir. Mən bu barədə də dəfələrlə fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm və əminəm, siz hamınız bununla razılaşarsınız ki, gənclər milli ruhda, vətənpərvərlik ruhunda böyüməlidirlər və yaşlı nəslə olan hörmət, eyni zamanda, bu gözəl hissləri daha da gücləndirir.

Burada medianın problemləri ilə bağlı qaldırılan digər məsələlərə də toxunmaq istərdim. Satışla bağlı. Hesab edirəm ki, burada da əlbəttə ciddi düzəlişlərə ehtiyac vardır. Deyə bilərəm ki, Bakıya yeni köşklərin gətirilməsi təşəbbüsü də məndən gəlmişdir. Çünki

şəhərimizin hər bir tərəfi gözəlləşir, abadlaşır və gördüm ki, köhnə, sınıq-salxaq köşklər bizim şəhərimizə yaraşmır. Ona görə dövlət hesabına yeni köşklər alınmış və fəaliyyətə başlamışdır. Amma ondan bir müddət sonra şəhərdə, şəhərin müxtəlif yerlərində olarkən görürdüm ki, bu köşklər bir növ kiçik bazarlara çevrilir, onun ətrafında meyvə-tərəvəz, ət məhsulları və s. satılır. Ciddi irad tutdum ki, bunu yığışdırın. Köşkün daxili o qədər rahat qurulub ki, orada qəzetlər, şokolad, əşyalar, hər şey satıla bilər. Amma biz köşkün ətrafını bazara çevirməməliyik.

Eyni zamanda, mən hər zaman orada qəzetlərin də asıldığını görürdüm. Əgər indi məsələ qaldırılır ki, orada qəzetlər satılmır, mən bu məsələni aydınlaşdıracağam. Əgər belədirsə, göstəriş veriləcəkdir ki, bu köşklərdə ilk növbədə qəzetlər satılsın, heç bir məhdudiyyət olmasın. Əli Həsənov bu barədə mənə məlumat verdi ki, bəzi hallarda qəzetlər asılır, ancaq məhdud sayda. Vətəndaşlar istədikləri qədər qəzet ala bilmirlər. Biz bu məsələni yoluna qoyacağıq. Burada heç bir məhdudiyyət ola bilməz. Qəzet satışı ilə bağlı heç bir məhdudiyyət yoxdur və olmamalıdır.

Onu da qeyd etməliyəm, bəzi hallarda bizi bəzi beynəlxalq, xüsusilə qeyri-hökumət təşkilatları əsassız tənqid etməyə çalışırlar ki, Azərbaycanda mediaya qarşı siyasət düzgün deyildir, media boğulur, medianın problemləri vardır. Mən həmişə cavab olaraq deyirəm ki, Azərbaycanda azad internet vardır və internet istifadəçilərinin sayı 70 faizdən yuxarıdır. Bu gün Azərbaycan dövləti hər bir şəhərə dövlət hesabına genişzolaqlı internet çəkir. Bu layihə dövlət tərəfindən icra ediləcəkdir. Əminəm ki, yaxın bir neçə il ərzində hər bir şəhərə genişzolaqlı internet çəkiləcəkdir. Eyni zamanda, indi kəndlərdə də internet vardır. Mənim göstərişimlə nazirlərin bölgələrə səfərləri əsnasında, o cümlədən əhalidən gələn təkliflər də təhlil edilir. Onların içində bir təklif də ondan ibarətdir ki, qəbula gələn bir kənd sakini demişdi ki, bizim kənddə internet pis, fasilələrlə işləyir, mən işləyə bilmirəm. Yəni, dövlət bu işi öz üzərinə götürmüşdür.

Azad internet olan halda heç bir məhdudiyyətdən söhbət gedə bilməz. Əgər kimsə qəzet satışını qadağan edirsə, yaxud da ki, məhdudiyyət qoyursa, bu, dözülməzdir. Buna yol vermək olmaz. Bax, yəqin ki, indi məni eşidəcəklər. Əlavə göstərişlər də verəcəyəm ki, heç bir məhdudiyyət olmasın.

Medianın bəzi hallarda diqqəti mənfi məsələlərə cəlb etməsinə Rəşad da toxundu, mən də bu barədə demişəm. Doğrudan da bu, belədir. Bu, necə deyərlər, bir meyldir - Qərbdən gələn meyldir. İlk xəbərlər ancaq mənfi reaksiya doğura biləcək xəbərlərdir - ya zəlzələ, ya maşın qəzası, ondan sonra hansısa ölüm hadisəsi. Əlbəttə bu, insanların şüuruna da müsbət təsir etmir. Çünki cəmiyyətimizin üstünlüyü ondan ibarətdir və bunu Azərbaycana gələn qonaqların demək olar əksəriyyəti qeyd edir ki, cəmiyyətdə çox gözəl ab-hava vardır. Xarici qonaqları qəbul edərkən bir çox hallarda mənə deyirlər ki, əlbəttə, Bakının gözəlliyi, inkişafı onları təsirləndirir. Amma insanların üzündə olan təbəssüm, xoş əhval-ruhiyyə onları doğrudan da daha çox təəccübləndirir. Çünki biz bir çox şəhərlərdə başqa mənzərə ilə üzləşirik. Mən də xaricdə olarkən görürəm, siz də olursunuz, görürsünüz. Yəqin ki, bu, bizim cəmiyyətimizin üstünlüyüdür. Ola bilər ki, ölkədə gedən müsbət proseslər, insanların rifah halının yaxşılaşması, ümumiyyətlə, sabitlik, sakitlik, təhlükəsizlik - bütün bu amillərə biz, necə deyərlər, artıq vərdiş etmişik. Amma heç də hər yerdə belə deyildir. Ona görə cəmiyyətdə müsbət meyllərin inkişafı üçün mən demirəm ki, bütün xəbərlər ancaq xoş xəbərlər olsun. Əlbəttə ki, müxtəlif xəbərlər ola bilər. Amma hər halda burada balans gözlənilməlidir, saxlanılmalıdır ki, Azərbaycan cəmiyyəti həmişə olduğu kimi, nikbin olsun. Hesab edirəm bu, Azərbaycanı bir çox ölkələrdən fərqləndirən amillərdən biridir ki, Azərbaycana gələn hər bir qonaq özünü çox rahat hiss edir.

Xalqımız çox qonaqpərvər, tolerant xalqdır. Eyni zamanda, Azərbaycanda ictimai asayiş qorunur, təhlükəsizlik tədbirləri yüksək səviyyədədir. Başqa ölkələrlə müqayisədə cinayətkarlıq çox aşağı səviyyədədir. Gün ərzində ölkə üzrə təxminən 30-40 cinayət baş verir, onların böyük əksəriyyəti məişət xarakteri daşıyır. Ona görə əlbəttə ki, mən bu barədə hər hansı göstəriş verməkistəməzdim. Amma hesab edirəm ki, müsbət və necə deyərlər, digər xəbərlərin balansı gözlənilərsə pis olmaz.

Bizim görüşümüzün bazar gününə təsadüf etməsi də mənim üçün adi iş cədvəlidir. Mənim üçün bazar günləri də iş günüdür. Bu gün hələ bir görüşüm də olacaqdır. Dünən də olubdur. Elə olur ki, mən həftələr ərzində bazar günlərində də işləyirəm. Elə olur ki, istirahət üçün daha çox vaxt olur. Prezidentlərin işi belədir ki, heç bir cədvələ sığmır. Mən ötən bazar gününü Kiyevdə keçirmişəm, ondan sonra Avstriyada. Bakıda qonaqlar olub. Dünən, bu gün, sabah. Həyat davam edir. İş çoxdur. Əgər biz doğrudan da böyük nailiyyətlərə çatmaq istəyiriksə, gərək hamımız fəal işləyək. Əminəm ki, işin nəticələrini görəndə hər bir vətəndaş sevinir. O cümlədən, görəndə ki, media cəmiyyətində də xoş əhval-ruhiyyə var, bu, məni doğrudan da çox sevindirir. Belə də olmalıdır.

Bir daha demək istəyirəm ki, siyasi baxışlar müxtəlifdir. Bu, təbiidir. Siyasi mübarizə aparılır, aparılmalıdır. Əlbəttə, mən istərdim ki, bu mübarizə daha çox sivil qaydada aparılsın. Son prezident seçkiləri və ondan sonrakı dövr onu göstərir ki, Azərbaycanda siyasi mədəniyyət artır.

Media nümayəndələri, iqtidar-müxalifət nümayəndələri də öz aralarında məsələlərini həll etməlidirlər. Biz hamımız Azərbaycan vətəndaşlarıyıq. Hamımızın bir Vətəni vardır – Azərbaycan. Hamımız vətənpərvərik, Vətənimizi sevirik. Ola bilər ki, ölkəmizin inkişafı ilə bağlı müxtəlif fikirlərimiz olsun. Kimsə kimisə istəməyə bilər. Bu da təbiidir. Ancaq biz əsas amallar ətrafında daim bir yerdə olmalıyıq. Bugünkü görüş hesab edirəm ki, onu göstərir. Media məsələlərinin, digər məsələlərin həlli ilə bağlı Azərbaycanda heç bir ayrı-seçkilik yoxdur, ola bilməz. Jurnalistlər üçün mənzillərin verilməsi bir daha bunu göstərdi. O tədbirdən gedəndən sonra mənə dedilər ki, açıq, şəffaf şəkildə püşkatma da oldu. Belə də olmalıdır.

Mən hesab edirəm ki, bizim belə görüşlərimiz böyük məna daşıyır. Biz görüşürük. Deyə bilmərəm ki, tez-tez görüşürük, amma vaxtaşırı görüşürük. Əminəm ki, bundan sonra da belə görüşlərimiz olacaqdır. Ancaq burada bir problem ola bilər. Gələcəkdə, əgər bundan sonra da mən mediaya dəstəyimi verəcəyəmsə və bunu artıracağamsa istisna edilmir ki, siz məni üçüncü dəfə "Jurnalistlərin dostu" seçəcəksiniz. Bir daha bu mükafata görə Sizə minnətdaram. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*24 noyabr 2013-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLUNU QƏBUL ETMİŞDİR

Baş katib Ekmələddin İhsanoğlu yenidən Prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, İslam Əməkdaşlıq Təşkilatını təmsil edən böyük müşahidə missiyasının seçkilərin azad, şəffaf və demokratik şəraitdə keçirilməsi ilə bağlı fikirlərini diqqətə çatdırdı. Ölkəmizin İslam Əməkdaşlıq Təşkilatının ən fəal üzvlərindən biri ol-

duğunu vurğulayan Ekmələddin İhsanoğlu təşkilatın layihələrinə Azərbaycanın verdiyi dəstəyin önəmini qeyd etdi.

Görüşdə Azərbaycan ilə İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın gələcəkdə daha da genişləndiriləcəyinə əminlik ifadə olundu.

*25 noyabr 2013-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV XALÇA MUZEYİNİN YENİ BİNASINDA SƏRGİLƏRİN TƏRTİBATININ TƏŞKİLİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan xalçaçılıq sənəti sahəsində dünyanın aparıcı ölkələrindən birdir. Tətbiqi sənətin nadir nümunələrinin toplandığı Xalça Muzeyi ayrı-ayrı dövrlərdə müxtəlif ünvanlarda yerləşmişdir. Ölkəmizin nadir incilərindən olan xalçaların daha geniş və səmərəli nümayişi məqsədilə Prezident İlham Əliyevin Sərəncamına əsasən Muzey üçün xüsusi binanın tikilməsi qərara alınmışdı. Hazırda orijinal üslubda inşa olunmuş binada tikinti-quraşdırma işləri tam başa çatdırılaraq son tamamlama işləri aparılır. Burada 15 mindən çox eksponatdan ibarət nadir kolleksiya mühafizə olunur. Bu kolleksiyanın tamaşaçılara təqdimatı üçün binada müasir tipli sərginin nümunəsi yaradılır.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev məlumat verdi ki, müəllifi tanınmış avstriyalı memar Frans Yants olan Muzeyin yeni binasının əsas təyinatına ekspozisiya sərgilərinin təşkili, maarifləndirici proqramların işlənib hazırlanması, qeyri-maddi mədəni irsin qorunması, beynəlxalq əlaqələrin inkişaf etdirilməsi daxildir.

Muzeydə suvenir mağazası fəaliyyət göstərəcəkdir. Muzeyin kolleksiyasında, həmçinin XIX əsrin sonundan XX əsrin əvvəlinədək ölkəmizin müxtəlif bölgələrində hazırlanmış zərgərlik sənətinin nadir nümunələri toplanmışdır. Zirzəmidəki seyf otağı məhz həmin məmulatın saxlanılması üçün nəzərdə tutulmuşdur. Burada yaradılmış "A1" kateqoriyalı qoruma sisteminə əsasən seyf yalnız barmaq izi ilə açılır.

Dövlətimizin başçısı fondların qorunması otağına da baxdı. Burada ilk dəfə Azərbaycanda elektron idarəetmə və elektron yaddaşlı sistem qurulmuşdur.

Diqqətə çatdırıldı ki, Xalça Muzeyinin eksponatlarının sonradan yeni binanın müasir fondların qorunması otağında yerləşdirilməsi məqsədilə onların müvafiq vəziyyətə gətirilməsi üçün bir neçə ay vaxt tələb olunur. Muzeyin ekspozisiyası xalça sənətində əsas bədii istiqamətləri dəqiq əks etdirməklə onların özünəməxsus xüsusiyyətlərini, həmçinin materiallarını, işləmələrin texnikasını, incə və çox dərin bədii xüsusiyyətləri ilə ahəngdarlığını, aydın şəkildə təsnifatını açıq göstərir.

Prezident İlham Əliyev Xalça Muzeyinin yeni binasında ekspozisiyanın yerləşdirilməsi sxeminə baxdı. Burada Muzeyin 3D görüntüsü də təqdim olunur.

Xalçaların toxunması və naxışları barədə qısa filmin təqdimatından sonra dövlətimizin başçısı sərgilənən xalçalarla tanış oldu.

Ekspozisiyadakı xalçalar arasında XVII, XVIII, XIX və XX əsrlərdə toxunan dünya şöhrətli kompozisiyalara rast gəlmək olar. Burada, həmçinin zamanın diktə etdiyi ənənəvi xalq üslublu süjetlərin müəllifi olan rəssamların müasir işləri əks etdirilir.

Prezident İlham Əliyev Azərbaycanda ən böyük ölçülü xalçaya baxdı.

Muzeyin sərgi konsepsiyası adi sərgilərdən fərqlənir. Əsas eksponatlar – xalçalar qövsşəkilli divarlardan asılır, onların da əksi bütün yuxarı mərtəbələrdən görünür. Bunun sayəsində sərginin böyük hissəsini müxtəlif rakurslardan izləmək mümkündür. Hər mərtəbədə muzeyin fondundan digər əşyaların və eksponatların sərgilənməsi üçün vitrin-

lər və platformalar quraşdırılmışdır ki, bu da sərgiyə tam dolğunluq verir və tamaşaçıların sərgini daha yaxşı izləməsinə şərait yaradır. Muzeydə nümayiş zalı da vardır. Burada xalçalar, naxışlar, xalçaçılıq sənətindəki ənənələr barədə filmlər nümayiş olunacaqdır.

Dövlətimizin başçısı buradakı xidməti otaqlara da baxdı.

Bildirildi ki, terrasda açıq səma altında sərgilərin təşkili mümkün olacaqdır.

Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin yeni binasında sərgilərin tərtibatının təşkili ilə tanış olan Prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.

*2 dekabr 2013-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından on il keçir. Ulu öndər Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaqdır. Bu böyük insan öz xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş ən böyük azərbaycanlıdır. Heydər Əliyev Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan, əfsanəvi şəxsiyyət, ulu öndər, ümummilli lider, müasir müstəqil Azərbaycanın qurucusu, xalqının sevimli övladı kimi qalmışdır və qalacaqdır.

Dahi şəxsiyyət Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının Ümummilli Liderinə, dünya siyasətinin nəhənglərindən birinə çevirmişdir. Ona görə də Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq öyünür. "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi və mədəni inkişafına xidmət olmuşdur", - deyən ulu öndər Heydər Əliyev 30 ildən artıq bir müddətdə - istər sovet dövründə istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya dövlətləri sırasında layiqli yerə çıxarmışdır. Azərbaycan tarixinin Heydər Əliyev mərhələsi kimi qiymətləndirilən bu dövrdə Ulu Öndərimiz tərəfindən görülən böyük işlərin, onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının məntiqi nəticəsidir ki, bu gün xalqımız demokratik və hüquqi bir dövlətdə yaşamaq imkanı əldə etmiş, xoşbəxt gələcəyi üçün bütün təminatları yaratmış, ən başlıcası isə siyasi və iqtisadi müstəqilliyə nail olmuşdur.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasından sonra hər il olduğu kimi, Ulu Öndərin vəfatının onuncu ildönümü günü – dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri Fəxri xiyabanda xalqımızın ümummilli liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allah-Taaladan rəhmət diləyirdilər.

Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.

Milli Məclisin deputatları, nazirlər, komitə, şirkət və idarə rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

*12 dekabr 2013-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DƏDƏ QORQUD PARKININ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının tarixi keçmişini əks etdirən möhtəşəm sənət abidəsidir. Əsərdə vətənpərvərlik, qəhrəmanlıq, müdriklik, Azərbaycan xalqının tarixi keçmişi, Oğuz türklərinin dünyagörüşü, mənəvi dəyərləri, adət-ənənələri, Azərbaycan toponimləri əks olunmuşdur. Dastan dilimizin qədim incəliklərini, tarixi hadisələri və şəxsiyyətləri, xalqımızın mədəniyyətini öyrənməkdə əvəzsiz mənbədir.

Müasir dövrdə "Kitabi-Dədə Qorqud" dastanının öyrənilməsi, dünyada geniş tanıdılması və təbliği ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Hələ 1975-ci ildə Heydər Əliyevin tapşırığına əsasən, Azərbaycanda tanınmış sənət xadimlərinin iştirakı ilə "Dədə Qorqud" bədii filmi çəkilmişdir. Ulu öndər Heydər Əliyevin Fərmanı ilə dastanın 1300 illiyi türkdilli ölkə rəhbərlərinin iştirakı ilə dövlət səviyyəsində qeyd olunmuşdur. Ümummilli lider Heydər Əliyevin 2000-ci ildə imzaladığı Fərmana əsasən Bakıda Dədə Qorqud heykəlinin ucaldılması və "Dədə Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması qərara alınmışdır. Bu tarixi abidənin qorunmasına dövlət səviyyəsində göstərilən diqqətin nəticəsidir ki, Prezident İlham Əliyev 2004-cü ildə Brüsseldə Dədə Qorqud abidəsinin təntənəli açılışında iştirak etmişdir. Dövlətimizin başçısının 2007-ci ildə imzaladığı "Azərbaycandakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında" Sərəncama əsasən, Dədə Qorqud heykəli və "Dədə Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması ilə bağlı müvafiq tədbirlərin görülməsi haqqında tapşırıq verilmişdir. Geniş tikinti və abadlıq işləri nəticəsində Bakının Nərimanov rayonunda 6 hektar ərazidə Dədə Qorqud parkı salınmışdır. Parkın mərkəzində "Kitabi-Dədə Qorqud" abidəsi ucaldılmışdır.

Dövlətimizin başçısı kompleksdə həyata keçirilən tikinti-quruculuq işlərini daim nəzarətdə saxlamış, mütəmadi olaraq əraziyə gələrək müvafiq tapşırıq və tövsiyələrini vermişdir. Yeni salınan park Bakı şəhərinin simasının daha da gözəlləşməsinə geniş imkanlar açaraq paytaxt sakinlərinin istirahəti baxımından xüsusi əhəmiyyət daşıyır.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov Prezident İlham Əliyevə park haqqında ətraflı məlumat verdi.

Dövlətimizin başçısının Bakı şəhərində park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən, bu ərazidə xüsusi layihə üzrə müasir səviyyədə yeni park salınmışdır. Bu istirahət məkanı paytaxtın ən böyük parklarından biridir. Parkda sakinlərin istirahəti üçün hər bir şərait yaradılmış, geniş yaşıllıq zolaqları salınmış, müasir standartlara uyğun işıqlandırma sistemi qurulmuşdur. Dədə Qorqud parkı həm də qədim Azərbaycan tarixinin və mədəniyyətinin açıq havada nümayişi meydanıdır. Park Azərbaycan Diplomatik Akademiyasının yanında salınmışdır. Burada ölkəmizin qədim tarixi və

zəngin mədəniyyəti ilə bağlı toplanan məlumatlar şübhəsiz ki, şəhər sakinlərinin, qonaqların, xüsusilə də Azərbaycan Diplomatik Akademiyasının yerli və əcnəbi tələbələrinin informasiya almasında mühüm rol oynayacaqdır.

Parkda yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev mərasimdə iştirak edən elm, təhsil və mədəniyyət ictimaiyyətinin tanınmış nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

## PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün çox əlamətdar bir gündür. Biz Bakıda Dədə Qorqud abidəsinin açılışına toplaşmışıq. Mən sizin hamınızı bu münasibətlə ürəkdən təbrik edirəm.

Bu abidənin ucaldılması böyük hadisədir. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur. Əsərin qəhrəmanlarının adlarını Azərbaycanın çoxsaylı yaşayış məntəqələrində görmək olar. Bu əsərdə Azərbaycan toponimləri əks olunmuşdur. Bir sözlə, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalq ədəbiyyatının yazılı abidəsidir. Bu dastan hər bir azərbaycanlı üçün əzizdir. Bu gün bu abidənin ucaldılması Azərbaycan xalqının bir daha öz tarixi keçmişinə, mədəniyyətinə olan münasibətinin təzahürüdür.

Bildiyiniz kimi, 1950-ci illərə qədər "Kitabi-Dədə Qorqud" Sovet İttifaqında qadağan edilmişdi. Ancaq 1950-ci illərdən sonra Azərbaycan alimlərinin səyləri nəticəsində bu əsər tədqiq edilməyə başlanmışdır. Təsadüfi deyil ki, bu əsərin tədqiqi ilə bağlı olan elmi işlər Azərbaycan alimlərinə məxsusdur. Bu, bir daha onu göstərir ki, bu əsər bizim xalqımıza, bütün türk dünyasına məxsusdur. Amma Azərbaycanda "Kitabi-Dədə Qorqud" dastanına xüsusi münasibət vardır. Əsərdə Oğuz eli kimi coğrafi məfhum bütün Azərbaycan ərazilərini əhatə edir. 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin tövsiyəsi ilə əsərin təbliği, onun sovet, dünya ictimaiyyətinə çatdırılması ilə bağlı konkret qərarlar qəbul edilmişdir. Ulu Öndərin tövsiyəsi ilə 1970-ci illərdə bədii film çəkilmişdir. Ondan sonra, müstəqillik dövründə - 1993-2003-cü illərdə artıq bu dastanı dünya ictimaiyyətinə çatdırmaq üçün çox böyük işlər görülmüşdür.

2000-ci ildə Bakıda dastanın 1300 illik yubileyi təntənəli şəkildə keçirilmişdir. Bütün türkdilli ölkələrin dövlət başçılarının, UNESCO-nun baş direktorunun iştirakı ilə böyük təntənəli mərasim keçirilmişdir. "Dədə Qorqud" ensiklopediyası nəşr olunmuşdur. Ulu öndər Heydər Əliyev Dədə Qorqud heykəlinin ucaldılması haqqında Sərəncam vermişdir. Yəni, bütün bunlar bir daha onu göstərir ki, Dədə Qorqud Azərbaycan xalqının qəlbində daim yaşayırdı, yaşayır və yaşayacaqdır. "Kitabi-Dədə Qorqud" dastanı, eyni zamanda, bütün türk dünyasını daha da sıx birləşdirir. Azərbaycan türkdilli dövlətlərin daha da sıx birləşməsi üçün öz səylərini əsirgəmir. Bu, bizim xarici siyasətimizin ayrılmaz hissəsidir, əsas istiqamətlərindən biridir. Türkdilli ölkələrin dövlət başçılarının Azərbaycanda keçirilmiş Zirvə görüşləri bunun əyani sübutudur. Bakıda, Naxçıvanda, Qəbələdə keçirilmiş bu Zirvə görüşləri türk dünyasını daha da sıx birləşdirir. Son Zirvə görüşündə mən qeyd etmişdim və bir daha demək istəyirəm ki, XXI əsr türk dünyasının əsri olmalıdır.

Türk dünyasında gedən inkişaf, qarşılıqlı əməkdaşlıq, müsbət demoqrafik dinamika əlbəttə ki, bizi daha da gücləndirəcək və bütün türkdilli dövlətlərin əməkdaşlığı, bir-birinə olan dəstəyi hesabına hər bir dövlət öz milli maraqlarını daha da böyük dərəcədə qoruya biləcəkdir.

Bizim ölkələrimizi əlbəttə ki, siyasi maraqlar, iqtisadi sahədəki əməkdaşlıq bağlayır. Ancaq əməkdaşlığımızın təməlində ortaq tarix, tarixi köklər dayanır, o cümlədən "Kitabi-Dədə Qorqud" dastanı burada çox böyük rol oynayır. Ona görə, mən hesab edirəm ki, bugünkü mərasim bütün türk dünyasında gözəl əks-səda verəcəkdir.

Eyni zamanda, bu gün biz gözəl parkın - Dədə Qorqud parkının açılışını qeyd edirik. Yəqin ki, hamımız yaxşı xatırlayırıq, bu ərazi çox baxımsız vəziyyətə düşmüşdü. Burada böyük abadlıq işlərinə ehtiyac var idi. Bu parkın ərazisi genişləndirilmişdir, gözəl süni göl yaradılmışdır. Bu gölün sahəsi üç hektardır. Gəzinti zolaqları yaradılmışdır. Yəni, bu park Bakı sakinlərinin sərəncamına verilir və əminəm ki, bu, növbəti gözəl istirahət zonası olacaqdır. Onu da qeyd etmək istəyirəm ki, Ulu Öndərin Sərəncamı ilə Dədə Qorqud heykəlinin məhz bu parkda ucaldılması nəzərdə tutulmuşdur. Sadəcə olaraq, biz Ulu Öndərin siyasətinə sadiq qalaraq bu işləri başa çatdırdıq. Mən çox şadam ki, bu gün bu gözəl park və abidə açılır.

Bakı şəhəri artıq parklar, bağlar şəhərinə çevrilmişdir. Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmişdir və bizim bu sahədəki fəaliyyətimiz getdikcə genişləncəkdir. Bakıda yeni istirahət zonalarının yaradılması ilə bağlı planlarımız vardır. Onların bir hissəsi icra edilir, bir hissəsi icra edilmişdir.

Bakı nadir bir şəhərdir. Təkcə gözəlliyinə görə yox, ona görə ki, Bakıda bir neçə mərkəz vardır. Adətən, şəhərlərdə, hətta böyük şəhərlərdə bir, ya iki mərkəz olur, ancaq Bakıda bir neçə mərkəz vardır.

İçərişəhər Bakının mərkəzidir. Azadlıq Meydanı, Bulvar şəhərin mərkəzidir. Yeni Bulvar, tikilməkdə olan Ağ Şəhər Bulvarı, Heydər Əliyev Mərkəzi artıq şəhərin mərkəzinə çevrilmişdir. Heydər Əliyev Sarayının önündə və arxa hissəsində salınmış yeni parklar, - onların uzunluğu bir kilometrdən çoxdur, - mərkəzə çevrilmişdir. Yəni, bu, şəhərimizin xüsusiyyətidir. Əlbəttə, bu parkın açılması həm insanların istirahəti üçün yeni imkanlar yaradacaq, eyni zamanda, şəhərin bu hissəsinin abadlaşdırılmasına xidmət göstərəcəkdir. Biz gözəl şəhərimizin daha da gözəlləşdirilməsi işində bundan sonra daha böyük işlər görəcəyik.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan bu gün dünya miqyasında siyasi və iqtisadi mərkəzlərin birinə çevrilmişdir. Yüksək səviyyəli çoxsaylı tədbirlərin, zirvə görüşlərinin, iqtisadi forumların, dünyanın bir nömrəli iqtisadi forumu olan Davos Forumunun Azərbaycanda keçirilməsi əlbəttə ki, ölkəmizin siyasi və iqtisadi mərkəz kimi təqdim edilməsinə xidmət göstərir.

Eyni zamanda, Azərbaycan bu gün dünyanın humanitar mərkəzlərinin birinə çevrilmişdir. Ölkəmizdə keçirilən humanitar forumlar, Mədəniyyətlərarası Dialoq Forumunun iki toplantısı, digər tədbirlər Azərbaycanı artıq dünya miqyasında bir humanitar mərkəz kimi təqdim etmişdir. Bizim bu sahədəki rolumuz getdikcə artacaqdır. Çünki müasir, qloballaşan, ziddiyyətlə, toqquşmalarla dolu olan dünyada humanitar əməkdaşlığın əhəmiyyəti daha da artmalıdır. Azərbaycan bu sahədə nəinki bu tədbirlərə ev sahibliyi edir, eyni zamanda, öz təcrübəsini bölüşür, öz reallıqlarını ortaya qoyur və sübut edir ki, humanitar sahədə əməkdaşlıq təkcə humanitar sahə ilə məhdudlaşmır. Humanitar sahədə əməkdaşlıq dünyada gedən siyasi proseslərə müsbət təsir edir və etməlidir. Azərbaycanın siyasi konsepsiyası bu təməl üzərində qurulubdur - əməkdaşlıqdan maraqların təmin edilməsinə, qarşılıqlı yardımdan daha da dərin əməkdaşlığa. Bizim bu sahədə siyasətimiz yenə də demək istəyirəm ki, təkcə humanitar məsələlərlə məhdudlaşmır.

Əslində bütün dünya humanitar əsaslar üzərində qurulubdur. Bir daha demək istəyirəm ki, müasir, qloballaşan, böyük çətinliklərlə üzləşən dünyada humanitar əməkdaşlığın çox böyük mənası vardır. Ona görə mədəniyyət sahəsinə ayrılan diqqət, dövlət siyasəti hesab edirəm ki, xalqımız və dünya üçün lazımdır, vacibdir. Azərbaycan cəmiyyəti, əgər belə demək müm-

kündürsə, çox zəngin mədəni həyatı ilə yaşayır. Ölkəmizdə, Bakıda və bölgələrdə keçirilən çoxsaylı mədəni tədbirlər, festivallar, müsabiqələr artıq bir ənənəyə çevrilmişdir. Azərbaycana gələn qonaqlar dünyanın incəsənət və mədəniyyət elitasını təmsil edirlər, ölkəmizlə tanış olurlar, ölkəmizdən çox gözəl təəssüratlarla ayrılırlar. Bu da Azərbaycanın dünya miqyasında tanınmasında öz rolunu oynayır. Eyni zamanda, xaricdə, dünyanın aparıcı ölkələrində keçirilən Azərbaycan günləri bizim zəngin mədəniyyətimizi bir daha dünya birliyinə çatdırır. Dünyanın aparıcı şəhərlərində açılan Azərbaycan mədəniyyət mərkəzləri öz rolunu oynayır. Xaricdə Azərbaycan sərgilərinin keçirilməsi adi hala çevrilibdir. Yəni, mən hesab edirəm ki, mədəni, humanitar sahələrdə Azərbaycan böyük uğurlara imza atmışdır və cəmiyyətimizin normal, sağlam yaşaması üçün bu sahəyə daim böyük diqqət göstərilməlidir. Mən şadam ki, ölkəmizdə bu sahədə də Heydər Əliyev siyasəti davam etdirilir. Əminəm ki, biz gələcəkdə bu sahədə daha da böyük işlər görə biləcəyik.

Əziz dostlar, bu gözəl hadisə münasibətilə bir daha sizi ürəkdən təbrik etmək istəyirəm. Artıq Bakıda Dədə Qorqud parkı, Dədə Qorqud abidəsi vardır. Bir neçə dəqiqədən sonra biz hamımız bu abidənin açılışını qeyd edəcəyik.

Hər bir Azərbaycan vətəndaşına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram. Sağ olun.

* * *

Sonra Azərbaycan Prezidenti abidənin üzərindəki örtüyü götürdü.

"Kitabi-Dədə-Qorqud" abidəsində dastanın müqəddiməsi və 12 boyundan hissələr əks olunmuşdur. Buradan da görünür ki, Oğuz türklərinin tarixini əks etdirən "Kitabi-Dədə Qorqud" yüksək bəşəri ideralların tərənnümçüsü kimi dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olmuşdur. Dastanın dilində və bədii məzmununda Azərbaycan və digər türk xalqlarına məxsus qədim izləri görmək mümkündür. Dastandakı bir çox hadisələr Dərbənd, Bərdə, Gəncə, Əlincə, Göyçə gölü və digər yerlərdə baş verir. Epos Azərbaycan tarixinin öyrənilməsi üçün tarixi-etnoqrafik məlumatlarla zəngindir.

Abidənin önündə xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev və mərasim iştirakçıları Dədə Qorqud parkında yaradılan süni gölə də baxdılar. Üç hektar sahəsi olan gölün tikintisi və onun mühəndislik həlli bütövlükdə xarici mütəxəssislər tərəfindən layihələndirilmişdir. Gölün inşası zamanı bu sahədə ən son nailiyyətlər tətbiq edilmişdir. On min kvadratmetrə yaxın əraziyə təbii yaşıl örtük döşənmişdir. Parka istirahətə gələnlər xüsusi qayıqlarla gəzintiyə çıxa biləcəklər. Bunun üçün iki liman inşa edilmişdir. Bundan əlavə, süni şəlalənin alt hissəsində, habelə xüsusi su bitkiləri üçün nəzərdə tutulan kiçik körfəzin üzərində gəzinti üçün körpülər inşa olunmuşdur. Ümumilikdə gölün iki yerində xüsusi su bitkiləri ilə örtüləcək kiçik körfəzlər yaradılmışdır. Ümumi su tutumu 25 min kubmetrə yaxın olan göl üçün əlavə olaraq 1200 kubmetr tutumu olan yeraltı ehtiyat hovuz inşa edilmişdir. İdarəolunma nəzarət otağından həyata keçirilir. Burada quraşdırılan xüsusi monitorlar vasitəsilə həm gölün texniki stansiyasında baş verən prosesləri, həm də onun altındakı geotermal sistemin fəaliyyətini müşahidə etmək mümkündür. Parka istirahətə gələnlər monitorlarda əks olunan məlumatları canlı izləyə biləcəklər.

*13 dekabr 2013-cü il*

# PREZİDENT İLHAM ƏLİYEV QUSARDA "ŞAHDAĞ", "PİK PALAS" OTELLƏRİNİN AÇILIŞINDA VƏ 2013-CÜ İLİN İDMAN YEKUNLARINA HƏSR OLUNAN MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "Şahdağ" qış-yay turizm kompleksində olmuşlar.

Dövlətimizin başçısı və xanımı "Şahdağ", "Pik Palas" otellərinin açılışında və 2013-cü ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak etmişlər.

"Şahdağ" qış-yay turizm kompleksi dünyadakı bu tipli komplekslərdən nadirliyi və universallığı ilə fərqlənir. Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə Şahdağ Milli Parkının ərazisində yerləşən kompleksin tikintisinin hazırlıq işlərinə 2006-cı ildən başlanılmışdır. Həmin il keçirilən tenderdə dünyanın aparıcı şirkətləri qalib gəlmişdir. Bu kompleksin təməli 2009-cu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulmuşdur. O vaxtdan etibarən görülən işlər nəticəsində "Şahdağ" qış-yay turizm kompleksinə çəkilən avtomobil yolu genişləndirilmiş, körpülər tikilmiş, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilmişdir.

Dəniz səviyyəsindən 1300-2300 metr yüksəklikdə yerləşən turizm kompleksinin ərazisi 2058 hektardır. Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən olan "Şahdağ" qış-yay turizm kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənir və ilboyu fəaliyyət göstərmək iqtidarındadır. Bu layihənin reallaşdırılması Azərbaycanda dağ-xizək və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açır.

Azərbaycanda sürətlə inkişaf edən turizm sektoruna böyük töhfə olan "Şahdağ" qış-yay turizm kompleksində inşa edilən otellər bu istirahət məkanına marağı daha da artırır. Qonaqların istirahətinin yüksək səviyyədə təmin olunduğu bu otellərdə yaradılan şərait bir daha təsdiqləyir ki, bu gün ölkəmizdə turizm sektorunun inkişafına xüsusi fikir verilir. Prezident İlham Əliyevin rəhbərliyi altında bütün ölkə üzrə turizm marşrutlarının müəyyənləşdirilməsi və bununla bağlı bölgələrdə genişmiqyaslı tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Təsadüfi deyildir ki, son bir neçə ildə beşulduzlu otellərin açılması ilə dünyanın ən məşhur otel brendləri Azərbaycana gəlmişdir.

2011-ci il Azərbaycanda "Turizm ili" elan edilmiş və bu istiqamətdə bir çox tədbirlər görülmüşdür. Paytaxtla yanaşı, regionlarda da müasir turizm və istirahət obyektlərinin, mehmanxana komplekslərinin tikilib istifadəyə verilməsi Azərbaycanda bu sahənin inkişafına göstərilən diqqətin göstəricisidir. Bu çərçivədə "Şahdağ" qış-yay turizm kompleksində inşa edilən otellərdə təqdim edilən yüksək şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını bir daha təsdiqləyir və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını göstərir.

Ölkəmizdə qeyri-neft sektoruna mühüm töhfə olan "Şahdağ" qış-yay turizm kompleksi Azərbaycan tarixində ilk dağ-xizək kurortudur. Kompleksin inşası bir neçə mərhələdə aparılmışdır. Prezident İlham Əliyev 2011-ci ilin fevralında kompleksin 2 nömrəli kanat yolunun və xizək enişinin açılışında iştirak etmişdir. Bu möhtəşəm obyektin inşasını daim diqqət mərkəzində saxlayan dövlətimizin başçısı dəfələrlə əraziyə gələrək tikintinin gedişi ilə tanış olmuş, bir neçə obyektin və otelin açılışında iştirak etmişdir. Artıq ötən qış mövsümündə kompleks ilk turistləri qəbul etməyə başlamışdır.

Kompleksin birinci mərhələsi üzrə tikinti işləri dövlət tərəfindən maliyyələşdirilir. Tikintiyə nəzarəti Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan "Şahdağ" qış-yay turizm kompleksinin müdiriyyəti həyata keçirir.

Dövlətimizin başçısı və xanımı əvvəlcə beşulduzlu "Pik Palas" otelinin açılışında iştirak etdilər.

Azərbaycanın birinci xanımına gül dəstəsi təqdim olundu. Prezident İlham Əliyev otelin rəmzi açılışını bildirən lenti kəsdi.

Paytaxtdan 230 kilometr şimalda, "Şahdağ" qış-yay turizm kompleksində yerləşən "Pik Palas" oteli dağların əzəmətli gözəlliyi ilə əhatə olunmuşdur və onun hər bir elementi məmnunluq doğurur.

Dövlətimizin başçısı otelin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Otel yeni qurulan "PAŞA Hotels and Resorts" şirkəti tərəfindən idarə olunur. "Pik Palas" oteli geniş çarpayılar, rahat qonaq və iş guşələri, döşəmədən tavana qədər uzanan pəncərələr və fransız üslublu eyvanları ilə 167 geniş yataq otağı və lüks nömrələri qonaqlara təqdim edir. Bütün qonaq otaqları müasir avadanlıqla təchiz olunmuşdur. Oteldəki restoranlar, barlar və istirahət guşələri dağlarda zövqlə nahar etmək üçün nadir vəhdət yaradır.

Mehmanxananın lobbisində yerləşən "Chocolat Patisserie" cah-calallıq və rahatlıq aurası yaradır. Burada şokolad trüfeli hazırlanan guşə mövcuddur. "Alpina Brasserie & Wine Bar" gün ərzində nahar etmək üçün nadir inqrediyentlər və orijinal yeməklər təqdim edir. "Fujisan Restaurant & Bar" Yaponiya və Koreya yeməklərinin nadir vəhdətini təcəssüm etdirən mətbəxi ilə fərqli təcrübə təklif edir. Xüsusi bayramlar və ya özəl nahar görüşləri üçün bu restoran ideal məkandır. Fitnes xidmətlərinə idman zalı, saunalar və buxar otağı, qapalı üzgüçülük hovuzu və cakuzi, açıq havada günəş şüası qəbul etmək üçün isidilmiş üzgüçülük hovuzu daxildir. Dəbdəbəli SPA məkanında çalışan təcrübəli terapevtlər müxtəlif aromaterapiya, masajlar və SPA prosedurları, o cümlədən kosmetik qulluq və müalicə təqdim edirlər. Sütunsuz, hündür tavanlı, təbii gün işığı ilə işıqlanan "Akasiya" ziyafət zalında ayaqüstü tədbirlər üçün 600-ə qədər, banket üslubunda 350-dək qonağı yerləşdirmək mümkündür.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni tikilmiş beşulduzlu "Şahdağ" otelinin açılış mərasimində iştirak etdilər.

Azərbaycan Prezidenti otelin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə 2013-cü ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak etdilər.

Azərbaycan Prezidenti mərasimdə nitq söylədi.

## PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz dostlar, hörmətli xanımlar və cənablar.

Biz hər ilin sonunda idmançılarla görüşürük, ilin idman yekunlarını müzakirə edirik. Əslində mənim ildə bir neçə dəfə idmançılarla görüşlərim olur. Ancaq bu, ilin sonunda bir ənənədir. Hər il bu görüşlər Milli Olimpiya Komitəsinin binasında keçirilir. Bu dəfə biz bu görüşü Şahdağda keçiririk. Hesab edirəm ki, bu da bir ənənə olacaqdır. Çünki Şahdağ bu gün Azərbaycanın turizm və idman mərkəzinə çevrilmişdir.

Bu gün, eyni zamanda, "Şahdağ" və "Pik Palas" otellərinin açılışı günüdür. Bu gün Azərbaycanda, Qusar rayonunda, Şahdağda iki beşulduzlu otel açılır. Bu münasibətlə də sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm.

Buraya gələrkən mən ilk dəfə bu dağlarda olduğumu yada saldım. Yadımdadır ki, biz Azərbaycanda dağ turizmini inkişaf etdirmək istəyəndə yerin seçilməsi ilə məşğul idik. Xarici mütəxəssisləri dəvət etdik. İlk dəfə burada olarkən mən heç təsəvvür edə bilməz-

dim ki, Şahdağ qısa müddət ərzində beynəlxalq turizm mərkəzinə çevriləcəkdir. Əlbəttə ki, bizim konkret planlarımız var idi. Çox məhdud vaxt müddəti də qoyulmuşdu. Ancaq deyə bilərəm ki, biz bu dərəcədə inkişaf etmiş və dünyanın ən yüksək səviyyəsinə çatan kurortun yaradılmasını arzulayırdıq, amma bəlkə də təsəvvür edə bilmirdik. Çünki burada heç nə yox idi. Dağlar idi, qar idi. Heç yaşayış yeri də yox idi. Bu yerdə biz ilk növbədə infrastruktur layihələrinin icrasına başlamışdıq. Yollar, elektrik, qaz, su xətləri çəkildi, bütün digər infrastruktur layihələri icra edildi. Qaldırıcılar tikilməyə başlandı. Birinci otelin tikintisi ilə bağlı konkret qərar verildi. Bu otelin tikintisi təsdiqləndi və tikinti başlandı. Ondan sonra mən hesab etdim ki, Şahdağ bir çox turistləri cəlb edəcəkdir. Belə olan halda burada bir otelin tikintisi yəqin ki, tələbatımızı ödəyə bilməyəcəkdi. Ondan sonra digər otellərin tikintisi ilə bağlı məsələlər qalxdı. Şadam ki, artıq bu meydanda üç otelin tikintisi başa çatır. İki otel bu gün açılır, üçüncü otel isə yəqin ki, bir neçə aydan sonra açılacaqdır.

Bu ilin əvvəlindən artıq turistlər buraya gəlməyə başlamışlar. Baxmayaraq ki, burada qalmağa da yer yox idi. Aşağıda kiçik bir "Zirvə" oteli fəaliyyət göstərir. Ancaq şənbə, bazar günlərində buraya Bakıdan, digər yerlərdən, Qusar rayonundan minlərlə insan gəlmiş, istirahət etmiş, xizək idman növü ilə tanış olmuşdur.

Beləliklə, artıq bir ildir ki, bu kurort yaşayır. Bu iki otelin açılması əlbəttə ki, bu kurortun inkişafına yeni təkan verəcəkdir. Əminəm ki, bundan sonra da Azərbaycan və xarici iş adamları, investorlar burada yeni otellərin tikintisi ilə bağlı təkliflərini verəcəklər. Ümid edirəm ki, gələcəkdə burada bir çox otellər tikiləcəkdir. Beləliklə, biz Azərbaycanda ilk dəfə olaraq dağ xizəyi kurortunun yaradılmasına nail ola bilmişik.

"Şahdağ" kurortunun yaradılması əlbəttə ki, Azərbaycanda turizmin inkişafına xidmət göstərir. Eyni zamanda, ölkəmizin imkanlarını göstərir. Çünki bir halda ki, biz bir neçə il ərzində dünya səviyyəli kurortu yarada bilmişiksə, deməli, bütün başqa sahələrdə də böyük işlər görməyə qadirik. Əslində bugünkü Azərbaycan reallıqları bunu təsdiqləyir. Biz strateji xəttimizə sadiqik, hədəflər düzgün seçilir, qərarlar, konkret tapşırıqlar verilir, icra müddəti müəyyən edilir və məsələlər öz həllini tapır.

Sovet dövründə Azərbaycanda heç vaxt dağ kurortları olmamışdır. Baxmayaraq ki, qonşu bölgələrdə olmuşdur. Ona görə qərar verildi ki, Azərbaycanda da olsun və Azərbaycanda bu kurort ən yüksək standartlara cavab verməlidir. İnfrastruktur, otellər, qaldırıcılar, sürüşmə zolaqları və əlbəttə ki, insanların rahatlığı üçün burada çox böyük işlər görülmüşdür.

Deyə bilərəm ki, dünya miqyasında, Avropada dağ xizəyi kurortları arasında Şahdağ artıq öz layiqli yerini tutub. Daxili turizm çox sürətlə inkişaf edir. Ancaq biz çalışmalıyıq ki, xarici qonaqlar da bu imkanlardan istifadə etsinlər. Onsuz da Azərbaycana gələn turistlərin sayı ildən-ilə artır. Əminəm ki, qış kurortlarına da xarici qonaqlar gələcəklər. Eyni zamanda, deyə bilərəm ki, bu layihə Qəbələ rayonunda da dağ xizəyi kurortunun yaradılmasına təkan vermişdir. Orada da artıq kurort hazırdır və xizək idman növündən istifadə etmək mümkün olacaqdır.

Azərbaycanın sürətli inkişafı bütün sahələri əhatə edir. Bu layihə deyə bilərəm ki, ölkəmizin turizm sektoruna qoyulan ən böyük sərmayədir. Bizim ən böyük dövlət sərmayəmiz Qusar rayonunun turizm potensialına qoyulubdur və qoyulacaqdır. Bu, eyni zamanda, qeyri-neft sektorunun, sahibkarlığın inkişafı deməkdir. Bu kurortun fəaliyyətə başlaması yüzlərlə, gələcəkdə isə minlərlə yeni iş yerinin açılmasına gətirib çıxaracaqdır. Burada fəaliyyət göstərən qurumlardan tələbim və xahişim ondan ibarətdir ki, yerli insanları bu işlərə daha çox cəlb etsinlər, Qusarda və ətraf rayonlarda yaşayan vətəndaşlar işlə təmin olunsunlar. Yəni, bu kurortun yaradılması bir neçə məqsədi güdür. Bu, bizə qeyri-neft sektorunun, turizmin inkişafı, ölkəmizi dünyada daha da dolğun şəkildə tanıtmaq imkanlarını yaradır. Bu, Azərbaycan vətəndaşları üçün çox gözəl şərait yaradır. Çünki

mən bilirəm ki, xizək idman növü Azərbaycanda populyarlaşır və vətəndaşlarımız xarici ölkələrə üz tuturlar. Artıq Azərbaycanda dünyanın ən yüksək standartlarına cavab verən gözəl bir yer vardır.

Eyni zamanda, bu gün biz idmançıların uğurlarını qeyd edirik. 2013-cü il Azərbaycan idmanı üçün uğurlu il olmuşdur. 2012-ci ildə Olimpiya Oyunlarında qazanılmış qələbələr 2013-cü ildə davam etmişdir. Azərbaycan idmançıları Tələbələrin Yay Universiadasında böyük uğurlara imza atmışlar - komanda hesabında 15-ci yerə layiq görülmüşlər, 16 medal qazanmışlar. Ümumiyyətlə ölkə idmançıları 780-dən çox medal qazanmışlar ki, onlardan 280-ni qızıl medaldır. Eyni zamanda, Olimpiya idman növləri üzrə dörd dünya çempionumuz olmuşdur. Bu da çox böyük göstəricidir.

Azərbaycan idman dövlətidir. Bunu artıq dünya idman aləmi etiraf edir, qəbul edir. Əlbəttə ki, idmanın dayanıqlı inkişafı üçün çox böyük işlər görülür. Azərbaycanda mütəmadi qaydada beynəlxalq yarışlar, dünya, Avropa çempionatları keçirilir. Yeniyetmələr, gənclər idmana böyük maraq göstərirlər. İndi idmanla məşğul olmaq üçün bizim gözəl imkanlarımız vardır. Qırx regional olimpiya mərkəzi fəaliyyət göstərir. Bölgələrdə beş mərkəz tikilməkdədir, beş mərkəzin tikintisi nəzərdə tutulur. Beləliklə, bölgələrdə Olimpiya komplekslərinin sayı 50-yə çatacaqdır. Bakıda böyük idman qurğuları tikilir. Hazırda 65 minlik Olimpiya Stadionu, Böyük Su İdman Növləri Sarayı, Gimnastika Mərkəzi, Stend Atıcılığı Mərkəzi tikilir. Yəni, bunlar böyük infrastruktur layihələridir, Azərbaycanda istənilən beynəlxalq yarışın keçirilməsi üçün imkan yaradan infrastrukturdur.

Əlbəttə ki, 2014-cü ildə biz birinci Avropa Oyunlarına hazırlıqla bağlı daha da böyük addımlar atacağıq. Çünki gələn il oyunlara hazırlıq üçün həlledici il olacaqdır. Birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi dövlətimizin, xalqımızın böyük qələbəsidir. Bu, tarixdə qalacaqdır. Biz elə etməliyik ki, bu oyunlar ən yüksək səviyyədə keçirilsin.

Bu günə qədər Avropa Oyunları keçirilməmişdir. Avropa Oyunlarının tarixi yoxdur, baxmayaraq ki, Olimpiya hərəkatı Avropada yaranmışdır və Avropada bərpa edilmişdir. Ona görə Avropa Oyunlarının hansı standartlara cavab verəcəyini biz müəyyən edəcəyik. Bizim standartlar artıq oyunlar başa çatandan sonra Avropa Oyunlarının standartları kimi qəbul ediləcəkdir. Biz isə istəyirik ki, bu oyunları ən yüksək səviyyədə, Yay Olimpiya Oyunları səviyyəsində keçirək və buna imkan vardır. O vaxta qədər bizim idman obyektlərimiz tam hazır olacaqdır. Eyni zamanda, Əl Oyunları Sarayında, Heydər Əliyev İdman Mərkəzində əsaslı təmir işləri aparılır. Bakıda artıq ona yaxın beşulduzlu otel fəaliyyət göstərir. Dünyanın bütün aparıcı otel şirkətləri Azərbaycandadır. Yol infrastrukturu yeniləşir, təhlükəsizlik tədbirləri yüksək səviyyədə təmin edilir. Əminəm ki, Azərbaycanda bütün texniki məsələlər yüksək səviyyədə həll olunacaqdır. Çünki biz artıq dünya və Avropa çempionatlarının keçirilməsində böyük təcrübə toplamışıq.

Bir sözlə, əminəm ki, Avropa Oyunları Avropanın, dünyanın diqqətini çəkən oyunlar olacaqdır. Ona görə biz çalışmalıyıq ki, bu oyunları ən yüksək səviyyədə keçirək. Əminəm ki, biz buna nail olacağıq. Təşkilat Komitəsi yaranmışdır. Təşkilat Komitəsi fəal işləyir. Biz tanınmış idmançılarımızı da bu işlərə cəlb etməliyik ki, onlar da, könüllülər də fəal iştirak etsinlər. Bir sözlə, gələn il bu oyunlara hazırlıq üçün həlledici il olacaqdır. Ondan iki il sonra - 2017-ci ildə Azərbaycanda İslam Həmrəyliyi Oyunları keçiriləcəkdir. Azərbaycan yeganə ölkə olacaqdır ki, həm Avropa, həm İslam Həmrəyliyi Oyunları keçiriləcəkdir.

Əminəm ki, bu oyunlar həm Avropanı, həm İslam aləmini biri-birinə daha da yaxın edəcəkdir. Biz bu məsuliyyəti öz üzərimizə götürmüşük. Dünyanı, qitələri, xalqları, sivilizasiyaları birləşdirən ölkələrdən biri də Azərbaycandır. Ölkəmizdə mövcud olan xoş əhval-ruhiyyə, xoş niyyət, dözümlülük, mehribanlıq bu gün artıq dünya ictimaiyyəti tərəfindən təqdirlə qeyd edilir. Çoxsaylı forumlar, humanitar forumlar, iqtisadi, siyasi tədbirlər keçirilir.

İki gün bundan əvvəl Azərbaycanda tarixi hadisə baş vermişdir. "Şahdəniz-2" layihəsinə start verilmişdir. Bu layihə XXI əsrin layihəsidir, Azərbaycanın böyük tarixi uğurudur. Xalqımızın rifahı, ölkəmizin inkişafı üçün bu layihənin müstəsna rolu olacaqdır. Bütün bu uğurları biz öz zəhmətimiz hesabına əldə etmişik.

Azərbaycanın enerji siyasəti birmənalıdır, düşünülmüş siyasətdir. İki gün bundan əvvəl Avropanın bir çox ölkələrindən dövlət, hökumət başçılarının iştirakı ilə keçirilən tədbir bir daha ölkəmizin önəmini ortaya qoyur.

Azərbaycan etibarlı tərəfdaşdır, layiqli dövlətdir, güclü dövlətdir, iqtisadiyyatı güclüdür, güclü siyasət aparır, idmanı güclüdür, infrastrukturu yenilənir. Ən önəmlisi Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi özünü rahat hiss edir. Azərbaycan bizim hamımızın Vətənidir, hamımızın evidir. Elə etməliyik ki, bundan sonra da ölkəmizin uğurlu inkişafı təmin edilsin.

İdman isə hər bir ölkənin ümumi inkişaf potensialını göstərir. Əgər idman sahəsində aparıcı ölkələrə nəzər salsaq görərik ki, onların arasında mütləq əksəriyyət inkişaf etmiş ölkələrdir. İnkişaf etmiş ölkələrdə idman da güclü olur.

Azərbaycan bu gün sürətlə inkişaf edən ölkədir. Gələcəkdə inkişaf etmiş ölkəyə çevriləcəkdir. İdman isə bizim gücümüzü göstərir. İdmançılar ölkəmizi ləyaqətlə təmsil edirlər, bayrağımızı göylərə qaldırırlar. Onların qələbələri hər birimizin qəlbində gözəl əks-səda verir. 2013-cü il də bu sahədə uğurlu il olmuşdur. Biz hər ilin sonunda idmançıları mükafatlandırırıq, onlara mənzillər verilir. Bu da gözəl ənənəyə çevrilibdir. Bu ənənə bu gün də davam etdiriləcəkdir.

Mən bütün idmançıları, turizm sahəsinin bu gün bu salonda əyləşən işçilərini və bütün Azərbaycan xalqını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm. Hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun!

* * *

Sonra Prezident İlham Əliyev müxtəlif beynəlxalq yarışlarda fərqlənən, ölkəmizdə idmanın inkişafına töhfə verən bir qrup idmançıya və idman xadiminə yeni mənzillərin orderlərini, habelə Milli Olimpiya Komitəsinin fəxri fərmanlarını təqdim etdi.

Yunan-Roma güləşi üzrə Tələbələrin XXVII Universiadasının qalibi Rəsul Çunayevə, yunan-Roma güləşi üzrə Avropa çempionu Rafiq Hüseynova, sərbəst güləş üzrə məşqçi Firdovsi Ömərova, sərbəst güləş üzrə məşqçi Elşad Allahverdiyevə, sərbəst güləş üzrə məşqçi Elçin Zeynalova, boks üzrə dünya çempionu Cavid Çələbiyevə, boks üzrə məşqçi Yadigar Məmmədova, ağır atletika üzrə İslam Olimpiya Oyunlarının bürünc mükafatçısı Zülfüqar Süleymanova, Atletika üzrə Dünya Tələbələrinin Universiadasının və İslam Həmrəyliyi Oyunlarının qalibi Hayle İbrahimova, taekvondo üzrə Avropa çempionu Fəridə Əzizovaya, London Yay Paralimpiya Oyunlarının qalibi Natali Proninaya, London Yay Paralimpiya Oyunlarının qalibi Ramin İbrahimova, Paralimpiya üzrə marafon yarışının qalibi İmran Hüseynova, şahmat üzrə beynəlxalq dərəcəli hakim və məşqçi Lütfiyar Rüstəmova, şahmat üzrə məşqçi Rəsul İbrahimova, Respublika Yüksək İdman Ustalığı Məktəbinin müəllimi Nabat Camalovaya, pauerliftinq üzrə Avropa və dünya çempionu İbrahim İbrahimova, milli karate üzrə baş məşqçi Rəhman Hətəmova, universal döyüş üzrə məşqçi Vasif İsgəndərova, Azərbaycan Kikboksinq Federasiyasının milli komandasının rəisi Sadıx Bağırova, basketbol üzrə məşqçi Fikrət Həsənova, bədii gimnastika üzrə yığma komandanın baş məşqçisi Mariana Vasilyevaya yeni mənzillərin orderləri təqdim edildi.

Kunq-fu üzrə Avropa və dünya çempionu Əli Mirələkbərli, pauerliftinq üzrə dünya çempionu Raif Süleymanov, kikboksinq üzrə dünya və Avropa çempionu Rail Rəcəbov isə Milli Olimpiya Komitəsinin Fəxri Fərmanı ilə təltif olundular.

* * *

Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "Şahdağ" otelində yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, bu otel yüksək səviyyəli dəbdəbəni, qonaqpərvərliyin ən üst səviyyəsini əməkdaşlarının səmimiyyəti ilə qonaqlarına təqdim edən gözəl istirahət məkanıdır. Burada təklif olunan müasir interyer və yüksək xidmətlər, xoş əhval yaradan otaqlar qonaqlara unudulmaz təəssürat bağışlayacaqdır.

Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, 173 otağın olduğu otel nömrələri 5 kateqoriyaya bölünür - superior, deluxe, junior suite, suite və yüksək səviyyəli qonaqlar üçün nəzərdə tutulan nömrələr. Otaqlarda qonaqların rahatlığı üçün hər cür şərait yaradılmış, termostatik duş, kabel televiziyası, havalandırma sistemi quraşdırılmış, internet və digər xidmətlər təklif olunur. Oteldə fəaliyyət göstərən restoranlar şəbəkəsində milli və dünya mətbəxinin ləziz nümunələri təqdim edilir. Bar və kafelərdə də yüksək xidmətin göstərilməsi üçün hər cür şərait yaradılmışdır. "Ovdan SPA" və "SPA Bar" Azərbaycanda olan ən böyük SPA mərkəzlərindən biridir. Bundan əlavə, oteldə bir qapalı hovuz, zəruri avadanlıqla təchiz olunan idman zalı, uşaq bağçası, xizək avadanlığının satıldığı alış-veriş mərkəzi fəaliyyət göstərir. Buradakı üç iclas və konfrans zallarında müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılmış, ən son səs avadanlığı quraşdırılmışdır.

"Şahdağ" qış-yay turizm kurortu qonaqlara il boyu sonsuz həyəcanlı idman və əyləncə növləri təklif edir. Qonaqların burada möhtəşəm təbiət gözəlliyinin mərkəzində, dağ havasının təravətində müxtəlif əyləncə növlərinin əhatəsində olmaq şansı vardır. Burada müxtəlif səviyyəli idmançılar və həvəskarlar üçün 19-dan çox xizəklə sürüşmə yamacları planlaşdırılmışdır. Buradakı xizəksürmə məktəbi müxtəlif kurslar təklif edir. Kompleksdə hər yaş kateqoriyasından olan insanlara müxtəlif yay əyləncələri də təklif ediləcəkdir. Bölgəni yenidən kəşf etmək istəyənlər, macəra axtarışında olanlar üçün raftinq, paraşütlə tullanma, qayaya dırmanma, velosipedlə gəzinti, göldə üzgüçülük və başqa idman əyləncələri də gələcəkdə qonaqların istifadəsinə təqdim olunacaqdır. Bundan əlavə, böyük qolf sahəsinin, maraqlı aqvaparkların və hovuzların da tikilməsi planlaşdırılmışdır.

* * *

Dövlətimizin başçısı və xanımı "Şahdağ" qış-yay turizm kompleksində tikintisi başa çatmaq üzrə olan yeni beşulduzlu oteldə aparılan tikinti-quraşdırma işləri ilə də tanış oldular.

Xüsusi memarlıq üslubunda inşa olunmuş binada aparılan tikinti-quraşdırma işləri zamanı ilk növbədə qonaqların istirahətinin və rahatlığının təmin edilməsi diqqət mərkəzində saxlanılmışdır. Ümumi sahəsi 22 min kvadratmetrdən çox olan oteldə 164 nömrə yaradılacaqdır. Onlardan 149-u standart, 13-ü suit, 2-si isə dupleks suit nömrədir. Burada müxtəlif restoran, kafe və barlar fəaliyyət göstərəcəkdir. Oteldəki 112, 65, 52 və 45 nəfərlik restoran və kafelərdə qonaqlara keyfiyyətli xidmət göstərilməsi üçün hər cür şərait yaradılacaqdır. Burada 130 nəfərlik konfrans zalı da qurulur. Otelə biznes mərkəzi, müxtəlif trenajorların quraşdırıldığı idman zalı, dörd prosedur otağını özündə birləşdirən SPA, hovuz və digər xidmət obyektləri daxildir. Binanın altında 77 yerlik avtomobil dayanacağı da inşa olunmuşdur.

*19 dekabr 2013-cü il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "RIXOS QUBA AZERBAIJAN" OTEL KOMPLEKSİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Avropa və Asiya arasında körpü rolu oynayan Azərbaycanda iqtisadiyyat, idman, mədəniyyət, incəsənət və digər sahələrdə əldə olunan yüksək nailiyyətlər xarici iş adamları ilə yanaşı, turistlərin də ölkəmizə marağını artırmışdır. Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində ölkəmizdə turizmin inkişafı istiqamətində mühüm layihələrin icrası da buna əlverişli zəmin yaradır. Bu baxımdan Azərbaycanda otel biznesinin daha da inkişafı üçün kompleks tədbirlər reallaşdırılır. Bu otellərdə müştərilərə yüksək səviyyəli xidmətlər göstərilir.

Dünyada mövqeyini daha da möhkəmləndirməyi qarşıya məqsəd qoyan Azərbaycan artıq ən mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edən ölkədir. Bundan başqa, Azərbaycanda qeyri-neft sektorunun aparıcı sahəsi kimi turizmin inkişafı da başlıca prioritetlərdəndir. Hazırda ölkəmizdə otel biznesinin dünya standartları səviyyəsində qurulması, qonaqların və turistlərin qəbulu üçün silsilə tədbirlər reallaşdırılır.

Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində bu gün ölkəmizin bütün bölgələri kimi, Quba da öz qədim və tarixi görkəmini saxlamaqla müasirləşir. Rayonda 2011-ci ilin aprelində tikintisinə başlanmış və artıq istismara hazır olan "Rixos Quba Azerbaijan" otel kompleksi də həmin istiqamətdə atılan addımlardan biridir. Prezident İlham Əliyev bu ilin sentyabrında Qubaya səfər edərkən bu otelin mükəmməl infrastruktura və müasir xidmət şəbəkəsinə malik bir kompleks kimi formalaşması üçün müvafiq tapşırıq və tövsiyələrini vermişdi. Ölkəmizdə bu cür komplekslərin sayının çoxalması Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, həm də respublikamıza gələn turistlərin sayının artmasına zəmin yaradır. "Rixos Quba Azerbaijan" oteli təkcə Quba rayonu üçün deyil, bölgə üçün də əhəmiyyətli turizm obyektidir. Otel mükəmməl infrastruktura malikdir.

Dövlətimizin başçısı otelin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, "Rixos Quba Azerbaijan" oteli Qudyalçayın sahilində inşa olunmuşdur. Yüksək keyfiyyətli müxtəlif xidmətlərin göstəriləcəyi otel kompleksi maraqlı memarlıq üslubunda tikilmişdir. Avanqard və modern memarlıq üslublarının sintezi əsasında inşa edilən binanın interyerinin tərtibatında xaricdə hazırlanan mebel və aksessuarlardan istifadə olunmuşdur. Turistlərin Heydər Əliyev Beynəlxalq Aeroportundan "Rixos Quba Azerbaijan" otelinə çatdırılması üçün özəl VİP servis və helikopter xidməti göstəriləcəkdir.

Prezident İlham Əliyev komplekslə tanış oldu. Bildirildi ki, otel kompleksi yeddimərtəbəli əsas binadan, 16 villadan, üç restoran və bir gecə klubundan, əyləncə parkından, qolf sahəsində və digər müasir xidmət obyektlərindən ibarət olmaqla 210 hektar ərazini əhatə edir. Oteldə tennis kortu, voleybol, basketbol, mini futbol sahələri də yaradılmışdır. Villalar 7 otaqdan ibarətdir. Bundan əlavə, sauna, masaj otağı, idman salonu, ev kinoteatrı, istirahət otağı, terraslar və digər xidmət infrastrukturu müştərilərin ixtiyarına veriləcəkdir.

Otelin "The Challette" restoranı yüksəklikdə - mənzərəli ərazidə yerləşir. Restorana getmək üçün kanat və avtomobil yolları vardır. Restoran qonaqlara müxtəlif çeşiddə yeməklər təklif edir. Ərazisi 2,6 hektar olan süni gölün ətrafında qurulmuş "Le Coquet" restoranında isə dəniz məhsullarından yeməklər hazırlanır. "Mosaic restaurant" isə otelin əsas iaşə obyekti kimi, qonaqlara səhər, nahar və şam yeməkləri təklif edir. Eyni zamanda, bu restoranda dünya mətbəxinin ləziz nümunələri də təklif olunur. Qonaqlar 24 saat ərzin-

də otaqlara yemək və içki sifariş verə bilərlər. Burada fəaliyyət göstərən "Planet Quba" əyləncə mərkəzi 1000 nəfər üçün nəzərdə tutulmuş əlavi məkandır. Əyləncə mərkəzi bütün növ xidmətlər və hər cür oyun avadanlığı ilə təchiz olunmuşdur. Oteldə 4-12 yaşındakı uşaqlar üçün nəzərdə tutulan "Rixy clubda" balacalara əyləncəli proqram təşkil edilir. Burada müxtəlif mərasimlər keçirmək üçün gözəl şərait vardır.

Diqqətə çatdırıldı ki, kompleksdəki "Rixos SPA & Welness" sağlamlıq mərkəzinin ümumi ərazisi 1800 kvadratmetrdir. Burada açıq və qapalı hovuz, masaj otağı, trenajor zalı və gözəllik salonu vardır. Əsas binadakı otaqlar ən modern mebel, yataq dəsti, avadanlıqla təchiz olunmaqla zövqlə tərtib edilmişdir. "Rixos Quba Azerbaijan"da "Şimal", "Xəzər" və "Bakı" adlı üç görüş zalı vardır. "Xəzər" zalında görüşlərdən əlavə, 1500 nəfərlik təntənəli tədbirlər, forumlar və şənliklər keçirmək planlaşdırılır. Oteldə meşədə gəzinti, xüsusi maşınlarla "safari" bölgə turu təşkil olunacaqdır.

Kompleksə xüsusi gözəllik verən qolf sahəsinin ərazisi 68 hektardır. Burada Azərbaycanda ilk və yeganə qolf kursları təşkil olunacaqdır. Kanat yolu ilə qonaqlar üçün xüsusi dağ gəzintisi xidmətləri göstəriləcəkdir. Kompleksin ərazisi tam abadlaşdırılmışdır. "Rixos Quba Azerbaijan" otelində 300-dən çox daimi iş yerinin açılması nəzərdə tutulur.

Komplekslə tanışlıqdan sonra dövlətimizin başçısı otelin kollektivi ilə görüşdü.

Azərbaycan Prezidentinə məlumat verildi ki, oteldə xidmət göstərəcək heyət yüksək hazırlıq kursu keçmişdir və onların əksəriyyətini yerli kadrlar təşkil edir.

Otelin kollektivini salamlayan Prezident İlham ƏLİYEV dedi:

- Otelin açılışı münasibətilə sizi təbrik edirəm. Gözəl oteldir, ən yüksək standartlara cavab verir. "Rixos" otellər qrupu dünya səviyyəsində məşhur brenddir. Şadam ki, artıq Azərbaycanda da "Rixos" oteli vardır və məhz bölgələrdə, Quba rayonunda. Bu da ölkəmizin ümumi inkişafını göstərir. Bu, onu göstərir ki, Azərbaycanda, ölkəmizin hər bir yerində gözəl xidmət sahələri yaranır.

Son illər ərzində Bakıda bir neçə beşulduzlu otel açılmışdır. Təkcə son iki ildə "Kempinski", "Hilton", "Marriott", "Four Seasons", "Jumeirah", "Fairmont" otelləri tikilmişdir, daha əvvəl "Hyatt" oteli var idi. Yəni, Bakıda dünya şöhrətli səkkiz otel şəbəkəsi vardır. Bu proses artıq bölgələrdə başlamışdır. Qubada da bu, birinci beşulduzlu oteldir. Dünən Qusar rayonunda, Şahdağda iki beşulduzlu otel açılmışdır. Üçüncüsünün inşası davam edir. Yəqin ki, gələn ilin ortalarına qədər o da hazır olacaqdır. Yəni, bu, şimal zonasının ümumi inkişafını şərtləndirən sahədir. Mən dəfələrlə demişəm ki, şimal zonasının inkişafı daha çox turizmlə bağlı olmalıdır və biz artıq bunu görürük. Belə otellər hər bir böyük şəhərə yaraşıq verə bilər. Şadam ki, Quba rayonunda belə gözəl otel vardır.

Mən sentyabr ayında burada olmuşam. O vaxt biz qolf meydançasının açılışını qeyd etdik. Ondan sonra villalarla da tanış oldum. Burada o vaxt hələ inşaat gedirdi. İndi demək olar ki, otel tam hazırdır. Bilirəm ki, Yeni il ərəfəsində çoxlu qonaqlar gözlənilir. Əminəm ki, burada hər kəs özünü rahat hiss edəcəkdir.

Hesab edirəm ki, bütövlükdə gələcəkdə ölkəmizin digər bölgələrində də beşulduzlu, dördulduzlu, üçulduzlu otellər tikiləcəkdir. Çünki bu gün Azərbaycanı dünyada tanıyırlar. Azərbaycanda gedən inkişaf dünya ictimaiyyətinin diqqətini çəkir. Azərbaycanda inkişaf üçün bütün imkanlar - gözəl təbiət, gözəl iqlim, qonaqpərvər insanlar, təhlükəsizlik, - Azərbaycan bəlkə də dünyanın ən təhlükəsiz yerlərindən biridir, - insanların xoş münasibəti vardır. Əlbəttə ki, xidmət də yüksək səviyyədə olmalıdır. Mənim buna şübhəm yoxdur. Çünki bir daha demək istəyirəm ki, "Rixos" dünya miqyasında tanınmış brenddir.

Bu otelin tikintisi ölkəmizin ümumi inkişaf dinamikasını göstərir. Hətta dünyanı bürümüş böhran illərində də ölkəmizə böyük investisiyalar qoyulur. Dövlət və özəl qurumlar investisiyalar qoyur. Dövlət və özəl sektorun tərəfdaşlığı bu gün Azərbaycanda özünü

göstərir. Əminəm ki, gələcəkdə Qubada və ətraf rayonlarda yeni gözəl otellər, istirahət zonaları tikiləcəkdir.

Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm. Sizə uğurlar arzulayıram.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*20 dekabr 2013-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV QUSARDA "ŞAHDAĞ" QIŞ-YAY TURİZM KOMPLEKSİNDƏ YARADILAN YÜKSƏK XİDMƏT ŞƏRAİTİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-20-də "Şahdağ" qış-yay turizm kompleksində tikilmiş yeni otellərin açılışında iştirak etmiş, yaradılmış yüksək xidmət şəraiti ilə tanış olmuşdur.

Ölkəmizdə ilk dəfə yaradılan və dünya standartlarına cavab verən bu layihənin reallaşdırılması respublikada dağ-xizək və digər qış idman növlərinin, xüsusilə də turizmin inkişafı üçün geniş imkanlar açır.

Dəniz səviyyəsindən 1300-2300 metr yüksəklikdə yerləşən turizm kompleksinə gələnlərin sayı gündən-günə artır. Azərbaycanda sürətlə inkişaf edən turizm sektoruna böyük töhfə olan "Şahdağ" qış-yay turizm kompleksində inşa edilən və bir gün əvvəl Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən otellər bu istirahət məkanına olan marağı daha da artırır. Kompleksdə yaradılan şərait bir daha təsdiqləyir ki, bu gün ölkəmizdə turizm sektorunun inkişafı əsas prioritetlərdəndir.

*20 dekabr 2013-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QIZ QALASINDA HƏYATA KEÇİRİLƏN KONSERVASİYA İŞLƏRİ VƏ YENİ YARADILAN MUZEY EKSPOZİSİYASI İLƏ TANIŞ OLMUŞDUR

Paytaxt Bakının qədim tarixi rəmzlərindən biri, milli memarlığımızın nadir nümunəsi, UNESCO-nun Dünya İrs Siyahısına daxil edilən Qız qalasında konservasiya və yeni muzey ekspozisiyasının yaradılması işləri başa çatmışdır.

Dekabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qız qalasında həyata keçirilən konservasiya işləri və yeni yaradılan muzey ekspozisiyası ilə tanış olmuşlar.

Son illər tarixi abidələrimizin qorunub saxlanması və bərpası məqsədilə dövlət səviyyəsində silsilə kompleks tədbirlər həyata keçirilir. Qədim İçərişəhərdə yerləşən abidələrin konservasiyası və bərpası istiqamətində görülən işlər də bu tədbirlərin tərkib hissəsidir.

Maddi mədəniyyət nümunələrinin mühafizəsinə və təbliğinə həssaslıqla yanaşan Heydər Əliyev Fondu Azərbaycanın tarixi memarlıq ənənələrini və irsini dolğun şəkildə əks etdirən İçərişəhərdə aparılan təmir və bərpa işlərinə də dəstəyini əsirgəmir.

Əsrlər bir-birini əvəzlədikcə Qız qalası təbii proseslərin təsiri nəticəsində zədələnərək ciddi təhlükə ilə üz-üzə qalsa da, bu möhtəşəm abidə tarixin bütün sınaqlarına sinə gərərək ümumilikdə öz ilkin görkəmini və struktur quruluşunu qoruyub saxlaya bilmişdir. Ötən əsrin 60-cı illərində aparılan bərpa işlərindən sonra bu abidə muzey kimi fəaliyyət göstərmişdir. Dünya əhəmiyyətli bu abidənin qorunub saxlanması və mövcud görkəmdə gələcək nəsillərə çatdırılması üçün Prezident İlham Əliyevin tapşırıqları əsasında 2009-2013-cü illərdə burada konservasiya işləri aparılmışdır. Konservasiya işləri Avstriyanın məşhur bərpaçı eksperti, dünyanın müxtəlif yerlərində 400-dən çox abidəni, o cümlədən İçərişəhərdəki Məhəmməd məscidini bərpa edən Erix Pummerin rəhbərliyi altında xarici və yerli mütəxəssislərə həvalə edilmişdir. Həmin layihə çərçivəsində həyata keçirilən konservasiya tədbirlərində başlıca məqsəd tikilinin zahiri görünüşünə xələl gətirmədən təbii dağılma prosesinin və insan amilinin abidəyə əsrlər boyunca vurduğu ziyanın aradan qaldırılması idi. Elmi araşdırmalara əsaslanan bu layihənin reallaşdırılması zamanı müasir texnologiyalardan geniş istifadə edilmişdir. Burada aparılan işlər nəticəsində Qız qalasının təkrarolunmaz görkəmi tam bərpa edilmiş, bu bənzərsiz abidə yenidən istifadəyə verilmişdir.

Dövlətimizin başçısı və xanımı Qız qalasında mövcud olmuş xarakterik zədələri, abidənin müqayisəli görüntülərini, köçəri quşların (uzunqanadlıların) alternativ yuvalarla təmin edilməsi ilə bağlı görülmüş işləri əks etdirən stendə baxdılar.

“İşərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi Samir Nuriyev Azərbaycan Prezidenti İlham Əliyevə və xanımı Mehriban Əliyevaya Qız qalasında həyata keçirilən yenidənqurma işləri barədə ətraflı məlumat verdi.

Qeyd olundu ki, 2013-cü ilin oktyabrında Qız qalasının həm fasadında, həm də daxilində bərpa və konservasiya işləri uğurla yekunlaşdırılmışdır. Bununla yanaşı, qalanın daxilində beynəlxalq standartlara uyğun müasir muzey ekspozisiyası yaradılmışdır. Konservasiya prosesi dövründə abidənin tarixinin və təyinatının öyrənilməsində mühüm rol oynaya biləcək elmi tədqiqatlar da aparılmışdır. Milli mənəvi dəyərlərimizin, maddi mədəniyyət abidələrimizin qorunub saxlanmasına və təbliğinə həssaslıqla yanaşan Heydər Əliyev Fondu konservasiya tədbirləri zamanı yaxından dəstəyini, o cümlədən ekoloji məsələlərin həllinə hərtərəfli köməyini əsirgəməmişdir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva görülən işlərlə yaxından tanış oldular.

Bildirildi ki, yeni muzey ekspozisiyası təcrübəli mütəxəssislərin köməyi ilə yaradılmışdır. Qaladakı pilləkən yenisi ilə əvəz edilmişdir. Qız qalasının mərtəbələrində xüsusi monitorlarda bu abidənin tarixi, daxili strukturu, tikintisində məqsəd, təyinatı və sair məsələlərlə bağlı fərziyyələr, əfsanələr və digər maraqlı faktlar əks olunmuşdur. Ekspozisiyadakı stenddə qədim sənətkarlıq məmulatları barədə məlumat verilir. Hər bir mərtəbədə ekspozisiyaya uyğun işıqlandırma sistemi quraşdırılmışdır. Burada Qız qalasının müdafiə, istehkam, dini, rəsədxana və digər təyinatı barədə fərziyyələrlə, elmi araşdırmalarla tanış olmaq mümkündür. Monitorlarda Qız qalasının təyinatı barədə film nümayiş etdirilir.

Ekspozisiyada Qız qalasının özünəməxsus və bənzərsiz memarlığı geniş əksini tapmışdır. Burada orijinal maket qurulmuşdur. Maketin üzərindəki monitorda qalanın daxili strukturu barədə müfəssəl məlumat yerləşdirilmişdir. Qalada aparılan bərpa işlərindən sonra hər bir mərtəbədə ən müasir təhlükəsizlik, yangından mühafizə sistemləri və digər müvafiq sistemlər quraşdırılmışdır.

Qız qalası hazırda dünyanın ən gözəl şəhərlərindən birinə çevrilən Bakının əsas rəmzlərindən biridir. Bu reallıq muzey ekspozisiyasının "Bakının qəlbi" bölməsində geniş əksini tapmışdır. Köhnə Bakını əks etdirən monitorda şəhərin iqtisadi, gündəlik həyatı, dini və şəhərsalma mövzularına geniş yer verilmişdir.

Burada Qız qalası haqqında əfsanələrlə də tanış olmaq mümkündür. Ekspozisiyanın növbəti bölməsində Qız qalasının müdafiə obyekti rolunu oynaması ilə bağlı fərziyyə və elmi araşdırmalardan bəhs edilir. Buradakı stenddə qədim silah nümunələri nümayiş olunur. Monitorlarda İçərişəhərin hərbi tarixi və burada baş verən döyüşlər əksini tapmışdır. Qalada uşaqların böyük marağına səbəb olacaq "İçərişəhərin müdafiəsi" adlı interaktiv oyun da təqdim edilir.

"Qədim məbəd" bölməsindəki heliodispley də orijinallığı ilə diqqəti cəlb edir.

Ekspozisiyada Qız qalasının qədim rəsədxana rolunu oynaması fərziyyəsinə də geniş yer ayrılmışdır. Bəzi fikirlərə əsasən, Qız qalası əsas etibarilə Günəşin illik dövriyyəsini izləmək və bu prosesin önəmli məqamlarını öyrənmək məqsədilə ucaldılmışdır.

Qız qalasının ən üst qatına çıxış insanların rahatlığını və təhlükəsizliyini təmin etmək şərti ilə yenidən qurulmuşdur. Burada damın ortasında quraşdırılan stendin üzərində müxtəlif obyektlərin təsvirləri təqdim olunur.

Ümumilikdə, bu maddi mədəniyyət abidəsində həyata keçirilən konservasiya işləri və yeni yaradılan muzey ekspozisiyası zəngin təəssürat və xoş ovqat yaradır, insanı Qız qalasının doğurduğu heyranlığın mahiyyətinə daha dərindən varmağa yönəldir.

Sonda dövlətimizin başçısı və xanımı xatirə şəkli çəkdirdilər.

*30 dekabr 2013-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QƏBƏLƏDƏ "TUFAN" DAĞ-XİZƏK YAY-QIŞ İSTİRAHƏT KOMPLEKSİNİN BİRİNCİ MƏRHƏLƏSİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Son illər iqtisadi inkişaf templərinə görə dünyada ön sırada olan Azərbaycanda qeyri-neft sektorunun inkişafına xüsusi diqqət göstərilir. İqtisadiyyatımızın neft amilindən asılılığının azaldılmasına xidmət edən qeyri-neft sektorunun inkişafı indi bir çox sahələrin tərəqqisi ilə müşayiət olunur. Prezident İlham Əliyev bir neçə mühüm sahə ilə yanaşı, Azərbaycanda turizmin inkişafını da qeyri-neft sektorunun əsas sahələrindən biri elan etmişdir və bu istiqamətdə atılan addımlar artıq öz bəhrəsini verir. Qəbələdəki "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksi bu sırada mühüm yer tutur. Bu iri kompleksin inşası göstərir ki, Azərbaycanda turizmin inkişafına və bu sahədə infrastrukturun yaradılmasına xüsusi diqqət göstərilir. Paytaxt ilə yanaşı, indi bu prosesə regionlar da cəlb olunmuşdur və bölgələrimizdə irimiqyaslı turizm layihələri icra edilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, son bir neçə ildə dünyanın ən məşhur otel brendləri Azərbaycana gəlmiş, ölkədə çoxsaylı beşulduzlu otellər istifadəyə verilmişdir. 2011-ci il Azərbaycanda "Turizm ili" elan edilmişdir. Son iki ildə inşası sürətlə davam edən "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksi də ölkəmizdə turizmin yeni istiqamətinin meydana çıxması baxımından xüsusi əhəmiyyətə malikdir. Dövlətimizin başçısı respublikanın bütün regionlarına olduğu kimi, Qəbələyə etdiyi mütəmadi səfərlər zamanı kompleksə gələrək burada aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

Layihə çərçivəsində indiyədək "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksində nəhəng infrastruktur yaradılmış, avtomobil yolunun çəkilməsi, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri görülmüşdür. Ərazidə insanların rahat istirahəti üçün hər cür şəraitə malik infrastrukturun, o cümlədən mehmanxana, ofislər, uşaqlar üçün istirahət guşəsi və digər müvafiq obyektlərin yaradılması istiqamətində işlər davam etdirilir. Xizək kompleksinə yaxın ərazidə "Qolf resort" idman və istirahət mərkəzinin tikintisi də nəzərdə tutulmuşdur.

Prezident İlham Əliyev "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksinin birinci mərhələsinin açılışını bildirən lenti kəsdi.

Qeyd edildi ki, kompleksin tikintisinin birinci mərhələsi çərçivəsində dörd kanat xətti tam inşa olunmuş, on xizək yolundan beşində inşaat işləri başa çatmışdır. Digər işlər isə mərhələli şəkildə həyata keçirilir. Bu qış mövsümündə kanat xətlərində gəzinti, xizəklə sürüşmək və iaşə obyektlərinin xidmətlərindən istifadə etmək mümkün olacaqdır. Burada turistlərin istirahətinin təşkili üçün hər cür şəraiti olan restoranlar da yaradılmışdır. Ümumiyyətlə, bu nəhəng istirahət məkanı ilin bütün fəsillərində turistlərə kanat gəzintisinə, qış mövsümündə xizəklə sürüşməyə, xizəkçilik məktəbindən, otel və digər xidmətlərdən istifadə etməyə imkanlar verir.

Prezident İlham Əliyevə kompleksin yönləndirici planı və ikinci mərhələ çərçivəsində görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, kompleksin əhəmiyyətini artıran mühüm amillərdən biri də burada turistlərin trassa sistemini özlərinə uyğun seçmək imkanlarının olmasıdır. Hər bir qonaq enmə zolağı, maillik və çətinlik dərəcəsinə görə trassa seçə bilər. Bütün dağ-xizək trassası süni qar yaratma generasiya sistemi ilə təchiz edilmişdir. Bütünlükdə "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksi gün ərzində üç min nəfərə xidmət göstərmək imkanına malikdir.

Bu layihənin reallaşdırılması respublikada dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün də hərtərəfli imkanlar açır. Bu, gələcəkdə qış idman növlərində milli idmançılarımızın yetişməsində əvəzsiz rol oynayacaqdır.

Azərbaycan isti iqlim qurşağında yerləşməsinə baxmayaraq, nadir ölkələrdəndir ki, ən yüksək dünya standartlarına cavab verən nəhəng qış turizm infrastrukturları və kompleksləri yaradır. Bu da təbii ki, ölkəmizin hərtərəfli sürətli iqtisadi tərəqqisinin, turizmin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin təzahürüdür.

Həm Qusar rayonundakı "Şahdağ" Qış-Yay Turizm, həm də Qəbələdəki "Tufan" Dağ-Xizək Qış-Yay İstirahət komplekslərində görülən işlər Azərbaycanın turizmin inkişafı sahəsində əldə etdiyi uğurların miqyasını göstərir. Prezident İlham Əliyevin uzaqgörənliyi sayəsində Qəbələdə bir neçə il əvvəl turizmin inkişafı ilə bağlı görülən işlər, bu çərçivədə onlarla otelin tikilməsi də indi bu prosesə mühüm töhfə verir.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kompleksin "Riverside" kanat xəttinin aşağı stansiyasında oldular. Bu stansiyanı kompleksin girişi də adlandırmaq olar. Burada turistlərin istirahəti üçün hər cür şərait yaradılmış, xizəklərin satışı və kirayəsi xidmətlərini göstərən ayrıca bölmə qurulmuşdur. Bundan əlavə, ərazidə idman malları mağazası və kafe də fəaliyyət göstərir.

Yaradılan şərait bir daha təsdiqləyir ki, artıq turistlər ilin bütün fəsillərində Qəbələyə qonaq gələcəklər. Yay mövsümündə minlərlə qonağı qarşılayan Qəbələ bundan sonra qışda da turistlərin maraq göstərdiyi əsas məkanlardan birinə çevriləcəkdir. Artıq "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksi ölkəmizin turizm brendi kimi çıxış etməyə başlamışdır.

***3 yanvar 2014-cü il***

## PREZİDENT İLHAM ƏLİYEV ŞƏHİDLƏR XİYABANINDA 20 YANVAR ŞƏHİDLƏRİNİN ƏZİZ XATİRƏSİNİ YAD ETMİŞDİR

1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur. İyirmi dörd il əvvəl yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun qoşun birləşmələri Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin ermənilərə havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı hərbi əməliyyatlara başladı. Doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək, şəhidlik zirvəsinə ucalmışlar.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğından 24 il keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecəni daim xatırlayır, həmin faciənin ağrısı ilə yaşayır, bu vəhşiliyi törədənlərə dərin nifrətini bildirir. Hər il yanvarın 20-də minlərlə insan Şəhidlər xiyabanını ziyarət edir, Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad edir.

20 Yanvar faciəsi mahiyyətinə görə dövlətin öz xalqına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Bu qanlı qırğın keçmiş SSRİ, Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. O gecə keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsini, beynəlxalq hüquq normalarını, həmçinin iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını pozmuşdur. Respublikanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin isə bu faciədən sonra da yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən əllərini çəkmədilər. Həmin vaxt Moskvada yaşayan ümummilli liderimiz Heydər Əliyev onların əksinə olaraq, həyatını təhlükədə qoyaraq faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi və Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndərimiz cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Lakin bu qanlı qırğın Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışından sonra 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

* * *

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldi.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsi önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndi.

*20 yanvar 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖYGÖLƏ SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ BAYRAQ MEYDANI KOMPLEKSİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Göygölə səfəri çərçivəsində Bayraq Meydanı Kompleksinin açılışında iştirak etmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayraq ötən əsrin sonlarında yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilmişdir. Bu tarixi iş Ümummilli Liderin dahiyanə ideyalarından biri idi. Ölkəmiz yenidən müstəqilliyini bərpa etdikdən sonra bu bayrağın ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvanda qaldırılması bunun əyani təzahürüdür. İndi Azərbaycan bayrağı dünyanın ən nüfuzlu beynəlxalq təşkilatları və mötəbər məclislərində qürurla dalğalanır. Vətənə və dövlətin atributlarına hörmət və ehtiram Ulu Öndərin bizə ən böyük əmanətidir. Hər bir azərbaycanlı dövlət bayrağını özünün qürur mənbəyi hesab edir.

Prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşması da bunu şərtləndirən əsas səbəblərdən biridir. Paytaxtla yanaşı, respublikanın bölgələrində də bayraq meydanlarının inşası dövlətin bu sahədə həyata keçirdiyi siyasətin nəticəsidir.

Göygöl rayonunda salınan Bayraq Meydanı kompleksində ucaldılan üçrəngli bayrağımız, quraşdırılan gerbimiz möhtəşəmliyi ilə diqqəti cəlb edir və hər kəsin qəlbində iftixar və qürur hissləri oyadır. Kompleksdə yaradılan şərait, həmçinin “Azərbaycan dövlətinin rəmzləri muzeyi” milli atributlarımızın tarixi və onların gələcək nəsillərə çatdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.

Prezident İlham Əliyevə məlumat verildi ki, kompleksin tikintisinə 2012-ci ilin may ayında başlanmışdır. Meydanda 50 metr yüksəkliyə qaldırılmış dövlət bayrağı rayonun hər yerindən aydın görünür. Kompleksdə geniş əraziyə malik gəzinti zolaqları yaradılmışdır.

Nəfis şəkildə işlənən dövlət gerbi kompleksi daha da gözəlləşdirir.

Dövlətimizin başçısına meydanın tikinti prosesini əks etdirən fotostend təqdim olundu. Bütövlükdə geniş yaşıllıq işlərinin aparıldığı kompleks rayonda gedən abadlıq-quruculuq tədbirlərinin ardıcıl xarakter daşıdığına dəlalət edir. Müasir səviyyədə inşa olunan bu kompleks indi rayonun ən gözəl yerlərindən birinə çevrilmişdir.

Prezident İlham Əliyev “Azərbaycan dövlətinin rəmzləri muzeyi”ndə də oldu. Muzeydə Azərbaycanın müxtəlif dövrlərdəki gerbləri, o cümlədən Nuxa, Yelizavetpol, Naxçıvan, Quba, Şuşa, Şamaxı, Lənkəran, Zaqatala qəzaları və Bakı quberniyasının, Azərbaycan SSR-in, Azərbaycan İctimai Şuralar Cəmiyyətinin və müstəqil Azərbaycanın gerbinin fotoları nümayiş etdirilir. Burada Azərbaycanın Səfəvilər, Ağqoyunlular, Qaraqoyunlular və Eldəgizlər dövlətləri dövründəki, həmçinin 1918-1920-ci illər və 1991-ci ildəki xəritələri də vardır. Tarixin müxtəlif dövrlərində atribut kimi qəbul edilmiş bayraqlar da böyük maraq doğurur.

*21 yanvar 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV GÖYGÖL GƏNCLƏR MƏRKƏZİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Göygölə səfəri çərçivəsində Gənclər Mərkəzi ilə tanış olmuşdur.

Ölkəmizdə gənclər siyasətinin formalaşdırılması istiqamətində mühüm tədbirlər görülür. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasəti 2003-cü ildən

başlayaraq uğurlu nəticələrlə yadda qalmışdır. 2005-2009-cu illəri əhatə edən "Azərbaycan Gəncliyi Dövlət Proqramı" bu proseslərdə çox mühüm rol oynamışdır. Hazırda həyata keçirilən "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı" bu tədbirlərin məntiqi davamıdır. Bu gün gənclərin vətənpərvərlik və dövlətçilik prinsipləri, həmçinin tarixi-mədəni keçmişimizə, milli mənəvi dəyərlərə rəğbət ruhunda tərbiyəsi prioritet istiqamətlərdəndir. Bölgələrdə gənclər üçün müasir tələblərə cavab verən sosial infrastruktur obyektlərinin tikintisi də bu amala xidmət edir. Göygöldə Gənclər Mərkəzinin yaradılması da gənclərin rayonun həyatında fəal mövqe tutmalarına yeni stimul vermək məqsədi daşıyır.

Gənclər Mərkəzi ilə tanışlıq zamanı Prezident İlham Əliyevə məlumat verildi ki, rayon gənclərinin fəallığının artırılması, onların intellektual potensialının üzə çıxarılması məqsədilə yaradılan mərkəz indi gənclərin ən çox üz tutduqları məkandır. Buradakı internet–kafe, diskoteka və digər əyləncə növləri və stolüstü oyunlar gənclərin asudə vaxtlarının səmərəli təşkilinə xidmət edir. Burada müxtəlif maraqlı tədbirlərin keçirilməsi üçün müasir zal da gənclərin ixtiyarına verilmişdir. Bütövlükdə belə mərkəzlərin yaradılmasında əsas məqsəd yetişməkdə olan nəslin cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul verməkdir.

*21 yanvar 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GƏNCƏYƏ SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ "VEGO" OTELİNDƏ YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

"VEGO" oteli Gəncə şəhərinin mərkəzində yerləşir. Otel ən müasir standartlar səviyyəsində inşa olunmuşdur.

Prezident İlham Əliyevə məlumat verildi ki, burada dünya otel biznesində mövcud olan ən yüksək xidmət göstəriləcəkdir. Otaqlarda qonaqların istirahəti üçün maksimum şərait yaradılmışdır. Diqqətə çatdırıldı ki, təkcə Gəncə üçün deyil, bölgə üçün də əhəmiyyətli turizm obyekti olan bu otel mükəmməl infrastruktura malikdir.

"VEGO" otelinin istifadəyə verilməsi bölgəyə gələn turistlərin sayına da müsbət təsirini göstərəcəkdir. Otelin ətrafında Şah Abbas məscidi və Çökək hamam yerləşir. Çökək hamam 1606-cı ildə memar Şeyx Bahəddin Məhəmməd Amilin layihəsi əsasında tikilmişdir. Bina günbəzlidir. Hamamda yenidənqurma işləri aparılarkən tarixi görkəm olduğu kimi saxlanılmışdır. Gəncənin tarixi memarlıq abidəsi sayılan Çökək hamama otelin birinci mərtəbəsindən birbaşa yeraltı tunel vardır.

*21 yanvar 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV GƏNCƏ DÖVLƏT FİLARMONİYASININ BİNASINDA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncə Dövlət Filarmoniyasının yeni binasında aparılan inşaat işləri ilə tanış olmuşdur.

Dövlətimizin başçısı filarmoniya binasının layihəsini əks etdirən stendə baxdı.

Gəncə Dövlət Filarmoniyası binasının təməli 2012-ci il yanvarın 21-də Azərbaycan Prezidentinin iştirakı ilə qoyulmuşdur. Filarmoniya binasında hazırda tikinti işləri sürətlə davam etdirilir.

Məlumat verildi ki, burada 1200 tamaşaçı yeri olan konsert zalı, açıq yay kinoteatrı, rəsm qalereyası, urban mərkəzi, baxış qülləsi yaradılacaqdır. Binada iaşə xidməti obyektləri, həmçinin yeraltı qaraj və yardımçı otaqlar fəaliyyət göstərəcəkdir. Binanın fasadında Azərbaycan musiqi korifeylərinin heykəlləri ucaldılacaqdır.

Prezident İlham Əliyev tikinti işlərinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi ilə bağlı tapşırıqlarını verdi.

*21 yanvar 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GƏNCƏ QALA QAPILARI – ARXEOLOGİYA VƏ ETNOQRAFİYA MUZEYİ ABİDƏ KOMPLEKSİ İLƏ TANIŞ OLMUŞDUR

Dövlətimizin başçısına məlumat verildi ki, kompleksin inşasına 2012-ci ilin yanvarında başlanılmışdır. Bu möhtəşəm abidənin yüksək səviyyədə, tarixi ənənələrə uyğun inşası 2014-cü ilin yanvarında başa çatdırılmışdır. Tarixi Gəncə qalasının beş qapısı olmuşdur. Yeni yaradılan bu abidə şəhərin "Məqbərə qapısı" adlanan qapılarının bərpa olunan variantıdır. Gəncə-Bakı magistral yolunun hər iki tərəfində inşa edilən, ümumi uzunluğu 50 metr, bürclərinin hündürlüyü 22 metr olan qalanın əsas hissəsi beşmərtəbəli, baş sütun hissəsi ilə birlikdə yeddimərtəbəlidir. Qarşıda 75 metr hündürlüyündə dövlət bayrağı ucaldılmış, ətrafında park salınmışdır. Abidə kompleksinin sağ cinahında Gəncənin gerbi yaradılmışdır. Uzunluğu 62 metr olan yeraltı tunel hər iki qalanı birləşdirir. Bakıdan gələn yolun sağ cinahında xronoloji ardıcıllıqla İran-Turan müharibəsinin əks olunduğu pannolarda türk sərkərdəsi Əfrasiyabın fars hökmdarı Keyxosrovu məğlub etməsi və romalıların Gəncəyə hücumu, usta Bəndərin rəhbərliyi ilə gəncəlilərin xarəzmlərə, Cavad xanın isə ruslara qarşı mübarizə səhnələri, sol cinahda isə Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun Gəncəyə gəlişi, 1920-ci ilin mayında bolşevizmə qarşı tarixi Gəncə üsyanı və nəhayət, ümummilli lider Heydər Əliyevin Gəncədə vətəndaş müharibəsinin qarşısını alması və Milli Qurtuluş hərəkatının Gəncədən başlaması salnaməsi əks olunmuşdur. Kompleksin sol cinahının yol istiqamətinə yönəlmiş hissəsində ulu öndər Heydər Əliyevin, sağ cinahda isə Prezident İlham Əliyevin Gəncə ilə bağlı fikirləri həkk olunmuşdur. Qalanın sağ hissəsindəki papiruslardan birində Gəncənin Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxt şəhəri olması, digərində isə Milli Qurtuluş hərəkatının Gəncədən başlaması göstərilmişdir. Kompleksə xüsusi əzəmət verən dəmir darvazalar quraşdırılmışdır.

Darvazalar 1063-cü ildə gəncəli usta İbrahim Osman oğlu tərəfindən düzəldilən Qədim Gəncə qapılarının eskizləri əsasında hazırlanmışdır. Həmin qapılar 1139-cu ildə zəlzələ nəticəsində Gəncə dağılarkən gürcü çarı Demetre tərəfindən Gürcüstana aparılmış və Kutaisinin Helat Monastırında saxlanılır.

Qalanın hər iki tərəfindəki birinci mərtəbələrdə və yeraltı keçiddə dahi Azərbaycan şairi Nizami Gəncəvinin sələfləri və xələflərinin şəkillərindən ibarət qalereya yaradılmışdır. Burada Gəncənin 26 görkəmli şəxsiyyətinin abidəsi qoyulmuşdur. Muzeyin sağ tərəfində ikinci mərtəbədə Gəncənin hərb tarixi muzeyi yaradılmışdır. Burada xronoloji ardıcıllıqla Gəncənin hərb tarixinin qədim vaxtlarından başlayaraq 1918-1920-ci illərədək olan dövrü əhatə edilmişdir. "1918-1920-ci illərdə Gəncənin hərb tarixi"nə aid vitrində o

dövrün silah-sursatı və 1919-cu il Gəncə qarnizonu döyüşçüsünün fotoşəkli nümayiş olunur. Ekspozisiyanın sonunda tərtib edilmiş rəmzi bölmədə Vətən uğrunda həlak olanların şərəfinə "Əbədi məşəl" və döyüşçülərin təsvirləri nümayiş etdirilir.

Qalanın üçüncü mərtəbəsində Gəncə əhalisinin məişəti, mədəniyyəti, həyatı haqqında məlumat verən etnoqrafik muzey yaradılmışdır. Tarix boyu sənətkarlıq mərkəzi olmuş Gəncədə 30-dan çox sənət sahəsinin yüksək səviyyədə inkişaf etməsindən xəbər verən nümunələr öz nəfisliyi ilə göz oxşayır. Etnoqrafik muzeydə xalça məmulatları, Şərq süfrə mədəniyyətinə xas çay dəstgahı, dulusçuluq məhsulları, misgərlik sənəti nümunələri və digər etnoqrafik əşyalar təqdim olunur.

Qalanın dördüncü mərtəbəsində Gəncənin qədim və zəngin süfrə mədəniyyətini, qonaqpərvərlik ənənələrini yaşatmaq məqsədilə milli kulinariya mətbəxi yaradılmışdır. Muzeydə, həmçinin Gəncə şəhərində mövcud olmuş Azərbaycanda ilk dövlət əhəmiyyətli qədim tikililərin rəsm və fotoları nümayiş etdirilir. Dördüncü mərtəbədən qalanın bürclərinə qalxmaq mümkündür. Buradan şəhərin mənzərəsi göz oxşayır. "Azərbaycan milli geyimləri" sərgisində ölkəmizin müxtəlif regionlarına məxsus geyimlər və bəzək əşyaları nümayiş olunur. Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında tərtib edilmiş "Azərbaycan – qədim sivilizasiya məkanı" sərgisində müxtəlif bölgələrə aid 120-dən artıq qiymətli arxeoloji eksponat sərgilənir. Muzeydə Azərbaycan xalqının formalaşdığı ərazinin kosmosdan görüntü xəritəsi, Dərbənd qalasının maketi və digər eksponatlar böyük maraq doğurur.

Dövlətimizin başçısı kompleksdə yaradılmış şəraitdən razılığını bildirdi.

*21 yanvar 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV FONDUNUN DƏSTƏYİ İLƏ GƏNCƏDƏ İNŞA OLUNMUŞ NİZAMİ GƏNCƏVİ MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun dəstəyi ilə Gəncədə inşa olunan Nizami Gəncəvi Muzeyinin açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Nizami Gəncəvi yaradıcılığı səkkiz əsrdən artıqdır ki, xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmişdir. Böyük sənətkarın bütün həyatı və zəngin ədəbi fəaliyyəti həmin dövrdə təkcə Azərbaycanın və Qafqazın ən iri şəhəri deyil, eyni zamanda, Yaxın və Orta Şərqin mühüm mədəniyyət mərkəzi kimi tanınan Gəncə ilə bağlıdır. Şair ömrü boyu burada yaşayıb yaratmış və dünya poeziyasına bir-birindən dəyərli söz sənəti inciləri bəxş etmişdir. Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkkürünü elmi-fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Mütəfəkkir şairin məşhur "Xəmsə"si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur. Qüdrətli söz ustasının bəşəriyyətin bədii fikir salnaməsində yeni parlaq səhifə açmış ölməz əsərləri bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərir. Nizami Gəncəvinin dünyanın ən zəngin kitabxanalarını bəzəyən əsərləri Şərqdə incəsənətin, xüsusən də miniatür sənətinin inkişafına təkan vermişdir. Nizami irsi uzun zamandan bəri dünya elmi-ədəbi fikrinin diqqət mərkəzindədir. Ölkəmizdə dahi şairin ədəbi irsinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüşdür. Bu proseslərin intensiv şəkil almağa başlaması əsasən Nizami Gəncəvinin anadan olmasının

800 illik yubileyi ərəfəsinə təsadüf edir. Dahi şairin yubileyinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı ilk qərar 1939-cu ildə qəbul edilmişdir. Lakin İkinci Dünya müharibəsinin başlaması nəticəsində yubileyin yalnız 1947-ci ildə keçirilməsi mümkün olmuşdur. O illərdən etibarən Nizaminin dövrü, həyatı və yaradıcılığı ilə bağlı yeni-yeni araşdırmalar aparılmışdır. Gəncədə dəfn olunduğu yerdə dahi Nizaminin möhtəşəm məqbərəsi ucaldılmış, xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmişdir.

Ötən əsrin 70-ci illərində respublikamızda klassik ədəbi irsimizin öyrənilməsi baxımından tamamilə yeni mərhələ başlamışdır. Həmin mərhələ bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilən "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 1979-cu il 6 yanvar tarixli qərar bu istiqamətdə qarşıya kompleks vəzifələr qoyaraq dahi şairin irsinin və ümumən orta əsrlər Azərbaycan mədəniyyətinin sistemli araşdırılması üçün geniş perspektiv açmışdır. 1981-ci ilin avqustunda Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərar isə nizamişünaslıqda əsaslı dönüş yaratmışdır. Nizami Gəncəvi ilə bağlı son yubiley tədbirləri dahi sənətkarın 850 illiyi ilə əlaqədar 1991-ci ildə keçirilməli idi. Lakin ölkədəki dərin siyasi, iqtisadi və sosial böhran buna imkan vermədi. Bütün bunları nəzərə alan Prezident İlham Əliyev 2011-ci ildə dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin geniş şəkildə qeyd olunması üçün Sərəncam imzalamışdır. Dövlətimizin başçısının tapşırıqlarına əsasən Gəncədə dahi şairin muzeyi inşa olunmuşdur.

Prezident İlham Əliyevə məlumat verildi ki, Nizami Gəncəvi Muzeyinin tikintisinə 2012-ci ilin sonlarında başlanmışdır. Muzeyin Nizami Gəncəvi məqbərəsinin yaxınlığında tikilməsi buraya gələn turistlərə həm məqbərəni ziyarət etməyə, həm də dahi şairin həyat və yaradıcılığı haqda geniş məlumat öyrənməyə imkan yaradır. Muzeyin qarşısında Nizami Gəncəvinin büstü qoyulmuşdur.

Dövlətimizin başçısı muzeyin binasında yaradılan şəraitlə tanış oldu. Muzeydə ulu öndər Heydər Əliyev və Nizami Gəncəvi guşələri yaradılmış, şairin həyat və yaradıcılığını əks etdirən monitor quraşdırılmışdır. Elmi tədqiqat şöbəsində elmi araşdırmalar üçün hər cür şərait vardır. Muzeydə dahi mütəfəkkirin həyat və yaradıcılığı haqqında geniş məlumatlarla zəngin elektron məlumat köşkü quraşdırılmışdır. Nizami Gəncəvinin zəngin irsini əks etdirən eksponatların yerləşdiyi muzeydə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Nizami Gəncəvinin yubileylərinin keçirilməsi, məqbərəsinin bərpa edilməsi, əsərlərinin tərcümə və tədqiq olunması ilə bağlı sərəncam və qərarları sərgilənir. Burada dahi şairin 800, 840 illik yubileyləri münasibətilə nəşr olunan kitab və monoqrafiyalar nümayiş etdirilir. Şairin 870 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən nəşr olunan "Xəmsə" və monoqrafiyalar Avstriya, Rusiya, Almaniya, Böyük Britaniya milli kitabxanalarında, Misirin İsgəndəriyyə kitabxanası, Fransanın Strasburq kitabxanası və ABŞ-ın Metropol Muzeyində qorunan nadir "Xəmsə" əlyazmalarının və miniatürlərinin orijinalları və nüsxələrindən ibarət guşə yaradılmışdır. Nizami irsinin daim aktual olduğu nəzərə alınaraq hazırkı mərhələdə respublikamızda gənc nizamişünas kadrların yetişdirilməsi, şairin əsərlərinin filoloji tərcüməsinin təkmilləşdirilərək yenidən nəşrə hazırlanması və müxtəlif dillərə tərcümə olunması, habelə dünyanın mötəbər kitabxana və arxivlərində şairin yeni əlyazmalarının üzə çıxarılması Azərbaycan mədəniyyətinin öyrənilməsi işində mühüm əhəmiyyət daşıyır. Nizami dövrü, ədəbi irsi və məktəbi məsələləri müasir humanitar düşüncənin tələbləri kontekstində və azərbaycançılıq məfkurəsi işığında tədqiqini gözləyir. Bütün bunları nəzərə aldıqda Gəncədə inşa olunan bu Muzeyin əhəmiyyəti olduqca böyükdür.

Muzeydə elmi tədbirlər üçün nəzərdə tutulmuş konfrans zalı fəaliyyət göstərir. Muzeyə gələn qonaqlar və turistlər üçün istirahət guşələri də yaradılmışdır. Binada Nizami Gəncəvinin, Məhsəti Gəncəvinin yüksək zövqlə toxunmuş xalça portretləri diqqəti cəlb edir.

*21 yanvar 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV FONDUNUN DƏSTƏYİ İLƏ GƏNCƏDƏ İNŞA OLUNMUŞ MƏHSƏTİ GƏNCƏVİ MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun dəstəyi ilə Gəncədə inşa olunmuş Məhsəti Gəncəvi Mərkəzinin açılışında iştirak etmişdir.

Qədim İpək Yolunun əsas mərkəzlərindən sayılan Gəncənin abadlaşdırılması istiqamətində son illərdə həyata keçirilən tədbirlər bu tarixi şəhərin simasına maraqlı elementlərin əlavə olunması ilə yadda qalır. Bu gün Gəncə həm də öz tarixini yaşadır, yetişdirdiyi şəxsiyyətləri təbliğ edir, onların xatirəsini əbədiləşdirir. Prezident İlham Əliyev 2013-cü il yanvarın 16-da Məhsəti Gəncəvinin yaradıcılığının 900 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncam çərçivəsində çoxsaylı tədbirlər, sərgilər, konsertlər təşkil edilmişdir. Sənədə əsasən Gəncədə Məhsəti Gəncəvi Mərkəzi inşa olunmuşdur. Məhsəti Gəncəvinin zəngin irsinin sərgiləndiyi Mərkəzin qarşısında şairənin möhtəşəm heykəli qoyulmuş, Məhsəti bağı salınmışdır.

Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyevə məlumat verildi ki, Mərkəzin tikintisinə 2013-cü ilin aprelində başlanılmışdır. Klassik memarlıq üslubunda tikilmiş binada şairənin yaradıcılığına həsr olunan rəsm qalereyası, tədqiqatçılar üçün oxu zalı və yardımçı otaqlar yerləşir. Oxu zalında ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin və mədəniyyətimizin hamisi olan Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın həyat və fəaliyyətini işıqlandıran kitablar yer almışdır. Buradakı elektron köşkdə Məhsətinin rübailəri Azərbaycan, rus və ingilis dillərində təqdim olunur. Məhsəti və Nizaminin ədəbi irsini, Azərbaycan xalçaçılığının zənginliyini işıqlandıran kitablar da burada sərgilənir. Azərbaycanın zəngin mədəniyyətini Fransada yaxından tanıtmaq məqsədi ilə müxtəlif tədbirlər hazırlayıb həyata keçirən Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ötən ilin noyabr və dekabr aylarında bu ölkənin qədim Reyms və Miluz şəhərlərində Məhsəti Gəncəvinin 900 illiyinə həsr olunan sərgi və konsertlər təşkil edilmişdir. Həmin tədbirləri əks etdirən fotolar da Mərkəzdə nümayiş olunur.

Mərkəzdə milli musiqi alətləri sərgisi yaradılmışdır. Burada Məhsəti Gəncəvinin həyat və yaradıcılığı ilə yanaşı, Azərbaycanın görkəmli şair və mütəfəkkirləri və musiqisi haqqında geniş elmi məlumatlar əldə etmək mümkündür. Mərkəzin milli geyimlər sərgisində əsas diqqət Məhsəti dövrü, xüsusilə də İntibah dönəmində xanımlara xas milli geyim nümunələri sərgilənir. Rəsm qalereyasında Məhsəti Gəncəvi obrazı və rübailərinə həsr edilmiş müxtəlif tablolar, sənət nümunələri, monumental əsərlər nümayiş etdirilir. Məhsəti otağında şairənin heykəli ucaldılmışdır. Burada proyektor vasitəsilə miniatür və rəsm əsərləri təqdim edilir. Mərkəzdə musiqi studiyası, not kitabxanası, muğam, fortepiano şöbələri və iclas zalı vardır.

Prezident İlham Əliyev Mərkəzin ətrafını və Məhsəti parkını gəzdi.

Dövlətimizin başçısı görülən işlərdən razılığını bildirdi və müvafiq tapşırıqlarını verdi.

*21 yanvar 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV GƏNCƏ ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV PARK-KOMPLEKSİNİN VƏ HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı əvvəlcə yenidən qurulan Heydər Əliyev Parkında Ulu Öndərin abidəsini ziyarət etdi.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev Prezident İlham Əliyevə Heydər Əliyev Parkında aparılan yenidənqurma və abadlıq işləri barədə məlumat verdi. Qeyd olundu ki, parkda yenidənqurma işlərinə 2012-ci ildə başlanılıb. Heydər Əliyev Parkının girişində möhtəşəm "Zəfər tağı"ı ucaldılıb. Orijinal layihə əsasında inşa olunan bu istirahət ocağında muzey və kafe də fəaliyyət göstərəcəkdir. Buraya gələn qonaqlar "Zəfər tağı"nın açıq seyrəngahından şəhərin və Heydər Əliyev Parkının mənzərəsini seyr edə biləcəklər. Göz oxşayan xiyabanda böyük həcmdə yaşıllaşdırma işləri həyata keçirilmiş və burada istirahət üçün hər cür şərait yaradılmışdır. Parkda yaradılan süni göl və orijinal şəlalə bu məkana xüsusi gözəllik verir. Bundan başqa, park kompleksində müxtəlif məişət obyektləri, əyləncə mərkəzi, istirahət guşələri və uşaqlar üçün nağıl qəhrəmanlarını canlandıran "Disneyland" əyləncə mərkəzi də fəaliyyət göstərəcəkdir.

Hazırda parkda Gənclər üçün əyləncə mərkəzi və qış parkının tikintisi davam etdirilir.

Qeyd olundu ki, ümummilli lider Heydər Əliyev hələ sovet dövründə burada Gəncənin rəmzi sayılan çinar ağacları əkib. Həmin ağaclar parka xüsusi gözəllik verir.

Daha sonra Prezident İlham Əliyev Gəncədə möhtəşəm layihə əsasında yeni tikilən Heydər Əliyev Mərkəzinin açılışında iştirak etdi.

Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Mərkəzlə tanış olan Prezident İlham Əliyevə burada görülən işlər barədə ətraflı məlumat verildi.

Bildirildi ki, Ulu Öndərə gəncəlilərin sonsuz məhəbbətinin təcəssümü olan Heydər Əliyev Mərkəzinin tikintisinə 2012-ci ildən başlanılıb. Mərkəzin əhatə etdiyi ərazidə orijinal memarlıq üslubunda fəvvarələr və müasir işıqlandırma sistemi quraşdırılıb. Ərazidə əsaslı abadlıq və yaşıllaşdırma işləri görülüb.

Dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Mərkəzinin tikintisində şəhərsalma memarlığının son nailiyyətlərindən, həmçinin keyfiyyətli və müasir materiallardan istifadə olunub. Binanın fasadında böyük peşəkarlıqla işlənən milli memarlıq elementləri diqqəti cəlb edir. Mərkəz perimetr boyunca səkkizbucaqlı sütunlarla əhatə olunub. Üçmərtəbəli Mərkəzdə şüşədən müasir günbəz quraşdırılıb. Günbəzdə Azərbaycanın xəritəsi əks olunub. Burada fəaliyyət göstərəcək Heydər Əliyev Muzeyi Ulu Öndərin keçdiyi zəngin həyat yolu və çoxşaxəli fəaliyyətini dolğun əks etdirir. Muzeydə Heydər Əliyevin uşaqlıq və gənclik illəri ilə yanaşı, onun zəngin fəaliyyətinin bütün dövrləri barədə ətraflı məlumat almaq mümkündür. Ulu Öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri və Azərbaycan Respublikasının Prezidenti kimi 1993-2003-cü illərdə həyata keçirdiyi böyük işlər, Azərbaycanın rifahı, gözəl gələcəyi naminə apardığı düşünülmüş siyasət, ölkəmizin hərtərəfli sosial-iqtisadi inkişafına yol açan layihələr, ordu quruculuğu, xarici siyasət, mədəniyyət və digər sahələrə dair maraqlı fotolar, müxtəlif sənədlər, o dövrlərə aid kitablar, qəzetlər və digər materiallara muzeydə geniş yer verilib. Burada ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinə müxtəlif illərdə tarixi səfərlərini əks etdirən kitablar və qəzetlər də nümayiş etdirilir.

Muzeydə Gəncənin son illərdə keçdiyi əsaslı sosial-iqtisadi inkişaf yolu, Prezident İlham Əliyevin Gəncəyə göstərdiyi diqqət və qayğının bariz nümunələrinə də geniş yer ayrılıb. Ekspozisiyada informasiya-kommunikasiya texnologiyalarının imkanlarından

da peşəkarlıqla istifadə olunması diqqəti cəlb edir. Heydər Əliyev Mərkəzində oxu zalı, elektron kitabxana, xarici dil kursları, "IDEA" İctimai Birliyi resurs mərkəzi, videokonfrans salonu, hərtərəfli təchizatı olan iclas və konfrans zalları vardır. Akt zalında şəhərin ictimai-siyasi həyatında baş verən mühüm hadisələr və əlamətdar günlərlə bağlı tədbirləri yüksək səviyyədə keçirmək mümkündür. Xalçaçılıq tədris mərkəzi, rəqs dərnəyi və sərgi salonu da muzeyin layihəsinin orijinallığına dəlalət edir.

Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Gəncə şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Mərasim iştirakçılarını salamlayan Prezident İlham ƏLİYEV dedi:

- Biz bu möhtəşəm Heydər Əliyev Mərkəzinin açılışına toplaşmışıq. Bu gözəl hadisə münasibətilə sizi və bütün gəncəliləri ürəkdən təbrik edirəm.

Düz iki il bundan əvvəl - 2012-ci il yanvarın 21-də bu parkın təməl daşı qoyulmuşdur. Gözəl təsadüfdür ki, düz iki ildən sonra biz parkın və möhtəşəm Mərkəzin açılışını qeyd edirik. Bu parkın və Mərkəzin yaradılması çox böyük hadisədir. Möhtəşəm Mərkəz Ulu Öndərin xatirəsinə gözəl abidədir, burada Ulu Öndərin həyat və fəaliyyətinin bütün anları, bütün mərhələləri əks olunub. Eyni zamanda, istənilən beynəlxalq tədbirin keçirilməsi üçün də gözəl imkanlar vardır.

Eyni zamanda, bu böyük parkın yaradılması bir möcüzədir. Deyə bilərəm ki, Azərbaycanın ən böyük parkıdır. Ərazisi 450 hektar, uzunluğu 2 kilometrdir. Gəzinti, istirahət üçün bütün imkanlar vardır. Cəmi iki il ərzində demək olar ki, yeni gözəl bir məhəllə yaradılmışdır. Əminəm ki, bu parkın ətrafında gələcəkdə yeni yaşayış binaları da tikiləcəkdir. Belə layihələr vardır.

Dünyada bir neçə böyük park vardır. Onlardan biri də Gəncə parkıdır. Dünyanın beş ən böyük parkı arasında artıq Gəncə parkı da vardır. Bu, əlbəttə ki, bizim hamımızı - nəinki gəncəliləri, bütün Azərbaycan xalqını sevindirir. Çünki boş ərazidə iki il ərzində belə möhtəşəm parkın, Mərkəzin yaradılması gəncəlilərin öz diyarına olan məhəbbətinin əlamətidir. Mən sizi bütün bu uğurlar münasibətilə ürəkdən təbrik edirəm.

Burada bundan sonra da abadlıq işləri aparılacaqdır. Minlərlə, bəlkə də on minlərlə ağac əkilmişdir və bu ağaclar getdikcə böyüyəcək, yeni ağaclar əkiləcək, yeni binalar, yaşayış binaları tikiləcəkdir. Gözəl bir göl, amfiteatr yaradılıbdır. Yəni, bu, doğrudan da bir möcüzədir. Əminəm ki, gəncəlilər və şəhərin qonaqları buraya gələrkən buradan ən xoş təəssüratlarla ayrılacaqlar. Belə möhtəşəm layihənin icra edilməsi üçün gəncəlilər çox böyük səylər göstərmişlər, xüsusilə, yerli icra hakimiyyəti və fəallar, Gəncə sakinləri. Bu, doğrudan da gözəl hadisədir. Bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm.

Belə işlər, sözün əsl mənasında, öz xalqına, öz şəhərinə, diyarına olan məhəbbətin təzahürüdür. Ümumiyyətlə, Gəncə gözəlləşir, abadlaşır. Bu, mənim Gəncəyə 12-ci səfərimdir. Mən demək olar ki, son on il ərzində hər il, yaxud da ildə iki dəfə Gəncədə olmuşam və hər dəfə yeniliklər, dəyişikliklər, abadlıq, quruculuq görürəm. İndi binalar təmir edilir, küçələr genişlənir, gözəl bərpa işləri aparılır. Gəncəyə xas olan xüsusi memarlıq üslubu qorunur, saxlanılır, harada lazımdırsa bərpa edilir, ictimai yerlər salınır. Bu da çox önəmlidir. Mən dəfələrlə demişəm ki, Bakıda və bütün başqa şəhərlərdə ictimai yerlər yaradılmalıdır - parklar, bağçalar, ictimai zonalar ki, insanlar burada öz asudə vaxtlarını keçirsinlər. Bu ictimai yerlərin arasında ən böyüyünü siz yaratmısınız. Ən böyük park, ictimai mərkəz Gəncədədir. Parkın gələcək inkişafı, abadlaşması, yeni mədəniyyət ocaqlarının yaradılması əlbəttə ki, bütün gəncəliləri buraya cəlb edəcəkdir.

Gəncənin mədəni həyatı zəngindir. Həmişə belə olubdur. Gəncə Azərbaycanın, o cümlədən mədəniyyət mərkəzlərindən biri olmuşdur. Hazırda şəhərin mədəni həyatı kifayət qədər zəngindir. Yeni muzeylər açılır. Nizami Muzeyi, Məhsəti Gəncəvi Mədəniy-

yət Mərkəzi, ondan əvvəl bir neçə muzey açılmışdır, filarmoniyanın tikintisi davam edir. Hesab edirəm ki, işlər daha da sürətlə getməlidir. Bu məqsədlə əlavə tədbirlər görüləcək ki, filarmoniya da qısa müddət ərzində istifadəyə verilsin. Bilirəm ki, gəncəlilərin böyük arzusudur ki, filarmoniya olsun, olacaqdır. Artıq daş işləri başa çatmaq üzrədir. Hesab edirəm ki, biz bu il də olmasa, gələn il filarmoniyanın açılışını bərabər qeyd edəcəyik. Yəni, şəhərin çox zəngin və dolğun ictimai, mədəni həyatı vardır və bu, əlbəttə ki, məni sevindirir, çünki Gəncə Azərbaycanın qədim şəhəridir, ikinci şəhəridir, Nizami yurdudur. Əlbəttə ki, Gəncənin tarixi keçmişini, zəngin tarixi irsini qorumaq hər bir Azərbaycan vətəndaşının borcudur.

Eyni zamanda, Gəncə müasirləşir, burada yeni binalar tikilir, o cümlədən sənaye inkişaf edir, böyük sənaye kompleksləri yaradılır, iş yerləri açılır. Gəncə Azərbaycanın sənaye mərkəzinə çevrilir. Mən bu barədə bir neçə dəfə fikirlərimi bildirmişəm. Burada yeni sənaye komplekslərinin – alüminium və poladəritmə komplekslərinin tikintisi nəzərdə tutulur. Burada, ümumiyyətlə, iş yerlərinin açılması ilə bağlı gələcək planlar da həyata keçiriləcəkdir. Ola bilər ki, yaxın gələcəkdə başqa rayonlardan da işləmək üçün Gəncəyə gələcəklər. Bir sözlə, şəhərin inkişafı çox sürətlidir, təqdirəlayiqdir. Gəncənin gələcək inkişafı ilə bağlı konkret fikirlər, planlar vardır. Əminəm ki, onların hamısı reallaşacaq və Gəncənin inkişafı üçün əlavə işlər də görüləcəkdir.

Bütövlükdə ölkəmizdə işlər yaxşı gedir. Biz 2013-cü ili yaxşı nəticələrlə başa vurmuşuq. 2014-cü il də yaxşı başlayıbdır. Biz ilin birinci ayında sizinlə görüşürük. Əminəm ki, 2014-cü il də Gəncə, bütün başqa şəhər və rayonlarımız üçün uğurlu il olacaqdır. Çünki iqtisadiyyat artır, sosial məsələlər öz həllini tapır, Azərbaycan beynəlxalq müstəvidə öz yerini möhkəmləndirir. Bir sözlə, bu ili də uğurla başa vurmaq üçün bütün imkanlar vardır. Sadəcə olaraq, biz fəal işləməliyik, hərə öz yerində öz zəhməti, işi ilə doğma Vətənimizin inkişafına töhfəsini verməlidir. Mən gəncəlilərin fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Siz həmişə öz dövlətinizə çox bağlı olmusunuz, müstəqilliyimizin möhkəmlənməsində də fəal olmusunuz. Azərbaycan Demokratik Respublikası da Gəncədən başlayıbdır. Bu dövlətçilik ənənələri yaşayır, yaşayacaqdır. Ölkəmizin inkişafı üçün bütün lazımi tədbirlər görülür, görüləcəkdir. Azərbaycan bundan sonra da yalnız irəliyə gedəcəkdir. Bir daha sizi ürəkdən salamlayıram və təbrik edirəm.

* * *

Olimpiya çempionu Toğrul Əsgərovun məşqçisi Elçin ZEYNALOV dedi: Cənab Prezident, mən Sizə gəncəlilərin səmimi salamını çatdırıram.

Prezident İlham ƏLİYEV: Biz keçən ay görüşmüşük.

Elçin ZEYNALOV: Bəli, Qusarda. Gəncəlilər Sizinlə fəxr edir. Mən də fəxr edirəm, sevincimdən səhərədək yatmamışam.

Prezident İlham ƏLİYEV: Sağ olun, Toğrul necədir?

Elçin ZEYNALOV: Yaxşıdır, Allaha şükür.

Prezident İlham ƏLİYEV: Məşq edir?

Elçin ZEYNALOV: Bəli edir, bu Olimpiada da bizi sevindirəcəkdir.

Sonra Prezident Toğrul Əsgərovla görüşdü.

Prezident İlham ƏLİYEV: Toğrul qəhrəmandır, Gəncənin və Azərbaycanın şöhrətini ucaldıb.

* * *

Prezident İlham ƏLİYEV dedi:

- Çox sağ olun, xoş sözlərə görə sizə minnətdaram. Siz doğrudan da çox vacib mövzulara toxundunuz. Dediyiniz sözlər bir daha onu göstərir ki, ölkəmiz hərtərəfli şəkildə inkişaf edir.

Mən bunu dəfələrlə demişəm ki, Azərbaycan hərtərəfli şəkildə inkişaf edir. Hər bir sahə üzrə konkret proqram, planlar, iş planı vardır. Biz hər bir istiqamət üzrə inkişaf görürük. Mədəniyyət sahəsində - ölkə üzrə tikilən mədəniyyət sarayları, tarixi abidələrimizin bərpası, tariximizi, mədəniyyətimizi dünyaya çatdırmağımız, beynəlxalq forumlarda Azərbaycan haqqında dolğun, düzgün məlumatın çatdırılması - bütün bunlar Azərbaycanı dünyaya müasir və eyni zamanda, böyük tarixə, mədəniyyətə malik olan ölkə kimi təqdim edir.

Sənaye ilə bağlı siz tamamilə haqlısınız, Gəncənin çox böyük sənaye potensialı vardır. Gəncənin inkişaf planı elə tərtib edilməlidir ki, biz uzunmüddətli inkişaf strategiyamızı düzgün quraq. Çünki Gəncə də böyüyəcək, Azərbaycan da böyüyəcək, əhali də artır. Gəncədə əlbəttə ki, gələcəkdə bir milyon əhali yaşayacaqdır. Şəhərsalma strategiyası düzgün qurulmalıdır. Eyni zamanda, gələcəkdə iş yerləri ilə təmin etmək üçün əlavə tədbirlər görülməlidir. Biz bir milyondan artıq iş yeri yaratdıq. Ancaq əhali artır. Bax, keçən il Azərbaycanda 170 min uşaq doğulubdur. Əhali artır, artacaqdır. Ona görə, Azərbaycanın inkişafı, sənayenin inkişafı, şəhərsalma strategiyamız buna uyğun olmalıdır. Sənaye və iqtisadiyyat sahələrindən danışarkən deməliyəm ki, bu gün Azərbaycan iqtisadiyyatı dünya miqyasında ən qabaqcıl yerlərdədir. Son on il ərzində dünya miqyasında ən sürətlə inkişaf edən iqtisadiyyat Azərbaycan iqtisadiyyatı olmuşdur. Təsadüfi deyil ki, dünya iqtisadiyyatlarının rəqabət qabiliyyətliliyinə görə Azərbaycan 39-cu yerdədir. İki yüz ölkə arasında 39-cu yerdə olmaq çox böyük bir nailiyyətdir. Neft strategiyamız, qaz siyasətimiz bu gün dünyanın diqqətini cəlb edir. Bizim qəbul etdiyimiz qərarlar gələcəkdə regionumuzda və müəyyən mənada Avropada enerji təhlükəsizliyi məsələlərini həll edəcəkdir.

Bizim beynəlxalq mövqeyimiz birmənalıdır, çox prinsipialdır, qeyd etdiyiniz kimi, dünya birliyinin rəğbətini qazanıbdır. Bizə nəyə görə səs verdilər? Ona görə, gördülər ki, ədalət bizim tərəfimizdədir. Ona görə, gördülər ki, biz ədaləti müdafiə edəcəyik. Biz heç bir təzyiqə boyun əyməyəcəyik. Biz prinsipial, ədalətli mövqeni müdafiə edəcəyik və iki il ərzində Təhlükəsizlik Şurasında bunu da etdik.

Azərbaycanda hər bir sahə - təhsil, səhiyyə üzrə, ictimai proseslər çox müsbət istiqamətdə gedir. Siz qeyd etdiniz ki, müxtəlif forumlar keçirilir. Biz buna artıq öyrəşmişik. Amma demək olar ki, Azərbaycanda hər ay zirvə görüşləri, prezidentlər, dövlət, hökumət başçıları səviyyəsində tədbirlər, beynəlxalq forumlar keçirilir. Nizami Gəncəvi Beynəlxalq Cəmiyyətinin işi artıq genişlənir. Bu, nəinki bölgədə, dünya miqyasında böyük bir ictimai hərəkata çevrilmişdir. Madrid Klubu dünyanın mötəbər təşkilatlarından biridir, artıq Nizami Gəncəvi Cəmiyyəti ilə elə bil ki, vahid siyasət aparır.

Gəncədə tədbirlər keçirilir, gələcəkdə də keçiriləcəkdir. Gəncə 2016-cı ildə Avropa gənclərinin paytaxtı elan edilibdir. Bir sözlə, ölkəmizin strateji inkişafı ilə bağlı düzgün seçilmiş siyasət artıq özünü göstərir. Ona görə, ictimai proseslər də müsbət istiqamətdə gedir, Azərbaycan xalqı rahat, təhlükəsiz şəraitdə yaşayır. Biz indi dünyada gedən prosesləri izləyirik. Yaxın ətrafda hansı hadisələr baş verir. Bu barədə danışmaq istəmirəm. Amma biz bu gün informasiya əsrində yaşayırıq. Hər kəs hər şeyi görür, bilir. Bizim yerləşdiyimiz bölgədə proseslər mürəkkəbdir. Ancaq Azərbaycan bir sabitlik, inkişaf adasıdır, həmrəylik diyarıdır. Bu, bizim ən böyük üstünlüyümüzdür. Humanitar forumlar, Mədəniyyətlərarası Dialoq forumları, bu gün Azərbaycan artıq dünya miqyasında milli və dini münasibətlər məsələlərinin həllində nümunə ölkə kimi göstərilir. Əslində bu, həmişə belə olubdur. Azərbaycan xalqı həmişə xeyirxah, dözümlü xalq olubdur. Ancaq bunu dünyada bilmirdilər. Biz bunu dünyaya çatdırdıq. Ona görə, biz gələcəkdə ölkəmizin əlbəttə ki, uğurlu inkişafını təmin edəcəyik, ancaq müxtəlif tədbirlərlə Azərbaycan haqqında dünyaya daha da dolğun məlumat çatdırmalıyıq. Bunların içərisində ən gözəl tədbirlər Azərbaycanda keçirilən tədbirlərdir. Çünki son on il ərzində mən bildiyiniz kimi, dəfələr-

lə xaricdə müxtəlif forumlarda, tədbirlərdə, konfranslarda Azərbaycan haqqında danışmışam, reallıqları təqdim etmişəm. Əlbəttə, bunun da böyük əhəmiyyəti vardır. Ancaq yenə də bəziləri fikirləşir ki, Prezident gəlib öz ölkəsini tərifləyir. Amma Azərbaycana, Gəncəyə, başqa şəhərlərə gələndə bunu artıq öz gözləri ilə görürlər ki, Azərbaycan necə ölkədir. Azərbaycanın uğurlu inkişafı deyə bilərəm ki, bəzilərini qıcıqlandırır, bəzilərini, necə deyərlər, paxıllıq hisslərinə sürükləyir. Bu da inkişafın və uğurun qiymətidir. Eybi yoxdur, qoy həmişə bizə paxıllıq etsinlər ki, biz həmişə irəliyə gedək.

Bir daha sizi ürəkdən salamlayıram, təbrik edirəm, sizə cansağlığı arzulayıram. Bizim görüşlərimiz, Gəncədə gözəl hadisələr hələ çox olacaqdır. Sağ olun.

* * *

Sonra xatirə şəkli çəkdirildi.

* * *

Dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin həyətində ağac əkdi.

* * *

Heydər Əliyev Mərkəzində Müasir İncəsənət Muzeyi və Amfiteatr da inşa edilmişdir. Burada tanınmış rəssamların müxtəlif əl işləri və digər sənət nümunələri nümayiş etdirilir.

*21 yanvar 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA GÖRKƏMLİ BƏSTƏKAR QARA QARAYEVİN ABİDƏSİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak etmişlər.

**Prezident İlham ƏLİYEV mərasimdə çıxış edərək dedi:**

- Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün biz Bakının mərkəzində böyük bəstəkar Qara Qarayevin abidəsinin açılışına toplaşmışıq. Böyük bəstəkarın doğum günü ərəfəsində bu abidənin açılışı münasibətilə Qara Qarayevin ailə üzvlərini, Azərbaycanın musiqi ictimaiyyətini, bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Qara Qarayev Azərbaycan xalqının böyük oğludur, böyük şəxsiyyətdir, dahi bəstəkardır. O, Azərbaycanı, Azərbaycan xalqını ləyaqətlə təmsil edirdi. Onun fəaliyyəti sayəsində Azərbaycanı sovet məkanında və dünyada daha da yaxından tanıdılar. O, Azərbaycan xalqını, Azərbaycan musiqi mədəniyyətini dünyaya tanıtdırırdı. Onun yaşayıb-yaratdığı dövrdə Azərbaycan müstəqil deyildi və ancaq Azərbaycan xalqı incəsənət, ədəbiyyat, musiqi sahəsində öz istedadını dünya ictimaiyyətinin diqqətinə çatdıra bilirdi. Əlbəttə, Qara Qarayevin əsərlərini dinləyən tamaşaçılar anlayırdılar ki, ancaq istedadlı xalqın nümayəndəsi belə gözəl əsərləri yarada bilər.

Qara Qarayevin əsərləri ölməzdir. Onlar bu gün də yaşayır, bundan sonra da yaşayacaqdır, əbədi yaşayacaqdır. Bir sözlə, bu böyük şəxsiyyət bizim milli fəxrimizdir. Azərbaycan klassik musiqisinin inkişafında onun danılmaz və müstəsna xidmətləri vardır. Eyni zamanda, bildiyiniz kimi, o, milli musiqiyə də çox bağlı idi. Xalq mahnıları, bizim milli musiqimiz onun fəaliyyətinə, yaradıcılığına böyük təsir göstərmişdir.

Eyni zamanda, Qara Qarayev gözəl müəllim idi. Azərbaycan Dövlət Konservatoriyasının rektoru vəzifəsində işləyirdi. Onun davamçıları öz növbəsində Azərbaycan musiqi mədəniyyətini zənginləşdirmişlər. Bir sözlə, çox istedadlı adam idi, dostluğa da çox sadiq idi. Bildiyimə görə, onun dostluqla bağlı fikirləri çox maraqlı idi. Ulu öndər Heydər Əliyev ilə onların çox yaxın münasibətləri var idi. Qarşılıqlı hörmət, qarşılıqlı rəğbət əsasında qurulmuş bu münasibətlər nümunəvi xarakter daşıyırdı. Mən də gənclik, yeniyetməlik dövrümdə bir neçə dəfə onların bir yerdə təşkil etdiyi məclislərdə iştirak edirdim. O səmimi münasibətləri görürdüm, duyurdum və belə də olmalı idi. Çünki bir daha demək istəyirəm ki, Qara Qarayev Azərbaycan xalqının görkəmli nümayəndəsidir, milli fəxrimizdir. Hər bir Azərbaycan vətəndaşı haqlı olaraq fəxr edir ki, onun Qara Qarayev kimi böyük nümayəndəsi olmuşdur və vardır.

Qara Qarayev Sovet İttifaqı çərçivəsində ən yüksək mükafatlarla təltif edilmişdir. Haqlı olaraq təltif edilmişdir, gənc yaşlarında bu mükafatlara layiq görülmüşdür. Ona ən yüksək ordenlər, ən yüksək mükafatlar verilmişdir. Əlbəttə, əgər o, müstəqillik illərində yaşasa idi, müstəqil Azərbaycan dövlətinin ən böyük mükafatları ilə təltif olunardı. Əfsuslar olsun ki, o, həyatdan tez getdi. Daha çox yaşaya bilərdi, daha çox yarada bilərdi. Ancaq onun yaratdığı əsərlər Azərbaycan musiqisinin zirvəsidir. Biz hamımız bir daha onun ölməz xatirəsi qarşısında baş əyirik. Mən çox şadam ki, bu gün bu gözəl yerdə, tarixi yerdə, onun yaşadığı evin yaxınlığında bu gözəl abidə açılır.

Azərbaycan musiqi mədəniyyəti çox zəngindir. Biz haqlı olaraq fəxr edirik ki, gözəl musiqimiz vardır. Xalq musiqimiz, muğam sənəti ümumdünya musiqi sənətinin zirvəsidir. Bu gün Azərbaycan musiqisini inkişaf etdirən bəstəkarlar, sənət adamları öz töhfəsini verirlər ki, bu ənənələr davam etsin, bu ənənələr kəsilməsin, istedadlı musiqiçilər, bəstəkarlar yetişsin. Bu məqsədlə Azərbaycan dövləti əlindən gələni edir və edəcəkdir.

Azərbaycanın musiqi həyatı zəngindir, ölkəmizdə müxtəlif beynəlxalq tədbirlər, dünya səviyyəli festivallar, müsabiqələr keçirilir. Eyni zamanda, biz Azərbaycan musiqisini dünyada da təqdim edirik. Müxtəlif konsertlər, müsabiqələr, festivallar keçirilir. Yəni, hesab edirəm ki, bu gün Azərbaycan, o cümlədən bu istiqamətdə də uğurla inkişaf edir. Mədəniyyətlə, tarixlə bağlı olan bütün tədbirlər yüksək səviyyədə keçirilir. Bizim tarixi irsimiz qorunub saxlanılır. Memarlıq abidələri bərpa edilir. Muzeylər, teatrlar, konsert salonları təmir edilir, tikilir. Bakıda, bölgələrdə mədəniyyət mərkəzləri açılır. Yəni, bu, Azərbaycan dövlətinin bu sahəyə göstərdiyi diqqətin nəticəsidir.

Hər bir ölkənin inkişafı üçün onun mədəni həyatı xüsusi əhəmiyyət daşıyır. Biz uzun illər, əsrlər boyu müstəqillikdən məhrum idik. Ancaq müstəqilliyə olan sevgimizi ürəyimizdə yaşatmışdıq. Musiqimiz, ana dilimiz, ədəbiyyatımız, incəsənətimiz bizi bir xalq kimi qorudu və bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir. Bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən dövlətdir.

Qara Qarayevin xatirəsi müstəqil Azərbaycan dövləti tərəfindən əbədiləşdirilib. Onun adına prospekt, metro stansiyası, incəsənət məktəbi vardır. Bu gün onun gözəl abidəsi Bakının tarixi yerində açılır. Bu münasibətlə bir daha bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Bir daha ümumi fikri ifadə edərək demək istəyirəm ki, Qara Qarayevin əziz xatirəsi və onun ölməz əsərləri Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Sağ olun.

* * *

Sonra Prezident İlham Əliyev abidənin açılışını etdi.

Dövlətimizin başçısı və xanımı abidənin önünə gül dəstəsi qoydular.

Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva musiqi ictimaiyyətinin nümayəndələri ilə xatirə şəkli çəkdirdilər, onlarla səmimi söhbət etdilər.

* * *

Qara Qarayevin adı görkəmli bəstəkar və pedaqoq kimi Azərbaycanın mədəniyyət və incəsənət tarixinə düşüb. SSRİ Xalq Artisti, Sosialist Əməyi Qəhrəmanı və bir sıra digər nüfuzlu mükafatların laureatı, SSRİ Ali Sovetinin deputatı, Azərbaycan Elmlər Akademiyasının akademiki olmuş Qara Qarayev nəinki Azərbaycan mədəniyyətinə, eləcə də dünya musiqi xəzinəsinə əvəzsiz töhfələr verib. Onun geniş şöhrət qazanmış və musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuş baletləri, simfonik poemaları, simfoniyaları, kamera-instrumental əsərləri, kinofilm və teatr tamaşalarına yazılmış musiqisi dünya mədəniyyətinin incilərindən hesab edilir.

*3 fevral 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASININ YENİ İNZİBATİ-TƏDRİS KOMPLEKSİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.

Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 2000-ci ildə imzaladığı Fərmanla yaranan Azərbaycan Milli Konservatoriyası müstəqillik dövründə fəaliyyətə başlayan ilk ali məktəblərdən biridir. Milli Konservatoriya milli mədəniyyətin öyrənilməsi, tədrisi və ixtisaslaşması kimi məsələlərin ölkəmizin ictimai-mədəni həyatında aktuallıq kəsb etdiyi bir vaxtda meydana gəldi. Elə həmin dövrdə muğam, milli alət ifaçılığı üzrə ali təhsilli kadrlara, muğamların nəzəri tədqiqinə və tətbiqinə yeni yanaşma zərurətinin ortaya çıxması Milli Konservatoriya ideyası ilə vəhdət təşkil etdi. Ulu Öndərin 2001-ci il 10 avqust tarixli "Azərbaycan Milli Konservatoriyasının maddi-texniki bazasının yaradılması haqqında" Sərəncamı ilə Bakı Musiqi Kolleci və respublika İncəsənət Gimnaziyası Milli Konservatoriyanın tərkibinə daxil edildi. Beləliklə, ümummilli lider Heydər Əliyevin təhsilin və mədəniyyətin inkişafına göstərdiyi qayğı yeni tarixi dövrdə xalqımıza daha bir təhsil ocağını - Milli Konservatoriyanı bəxş etdi.

Sonrakı dövrdə Milli Konservatoriyanın fəaliyyəti dövlətimizin başçısı İlham Əliyevin diqqətindən kənarda qalmadı. 2006-cı ildən Milli Konservatoriyanın yeni inzibati-tədris kompleksinin tikintisinə başlandı. 2012-ci ildə Prezident İlham Əliyev bu təhsil ocağının inşası ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzaladı və müvafiq maliyyə vəsaiti ayrıldı. Bütün bunlar da ondan irəli gəldi ki, dövlətimizin başçısı ölkədə mədəniyyətin inkişafına xüsusi diqqətlə yanaşır, son illərdə bu sahənin tərəqqisi istiqamətində həyata keçirilən tədbirlər mühüm uğurlarla müşayiət olunur. Bütün ölkə miqyasında mədəniyyət ocaqları yenidən qurulur, qədim tarixi abidələrimizə yeni həyat verilir, mədəniyyət xadimlərinin, bu sahədə çalışanların sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı əhəmiyyətli addımlar atılır. Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən bu işlərə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva da öz layihələri ilə dəstək verir. Azərbaycan mədəniyyətinin dünya miqyasında təbliği, milli muğam sənətinin yaşadılması ilə bağlı görülən işlər indi ölkəmizin beynəlxalq imicinin formalaşmasında mühüm rol oynayır.

Dövlətimizin başçısına məlumat verən Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq Artisti Səyavuş Kərimi bildirdi ki, binada tədrisin yüksək səviyyədə aparılması

üçün hər cür şərait yaradılmışdır. Burada xalqımızın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin Azərbaycanda mədəniyyətin inkişafı ilə bağlı həyata keçirdikləri işləri əks etdirən muzey yaradılmışdır. Muzeydə həm Ulu Öndərin, həm də dövlətimizin başçısının müxtəlif mədəniyyət tədbirlərində iştirakından və incəsənət xadimləri ilə görüşlərindən çəkilmiş fotoşəkillərə geniş yer verilmişdir.

Milli Konservatoriyanın kitabxanası da zəruri ədəbiyyatla təchiz olunaraq tələbələrin istifadəsinə verilmişdir. Lazımi avadanlıqla təmin edilən sinif otaqlarında tədris prosesinin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılmışdır. Tələbələrin ixtiyarında olacaq idman zalında da müxtəlif yarışların keçirilməsi üçün hər cür imkan vardır.

Azərbaycan Milli Konservatoriyası ifaçılıq və tarix-nəzəriyyə fakültələrindən ibarətdir. Bu fakültələrin nəzdində dekanlıq və 8 kafedra fəaliyyət göstərir. Hazırda 287 tələbənin təhsil aldığı konservatoriyanın yeni binası 1000 tələbənin burada oxumasına imkan verir. Azərbaycan Milli Konservatoriyasının professor-müəllim heyətinin tərkibi xalq çalğı alətləri üzrə görkəmli ifaçılar, peşəkar dirijor, xanəndə, tanınmış musiqişünas, bəstəkar və ictimai fənlər sahəsində bir çox alimlərdən ibarətdir. Milli Konservatoriyada təhsil və elmin əlaqələndirilməsi məqsədilə "Milli musiqinin tətbiqi" və "Milli musiqi alətlərinin araşdırılması" elmi laboratoriyaları yaradılmışdır. Bu laboratoriyalarda qədim xalq çalğı alətlərimizin bərpası, təkmilləşdirilməsi, onların ifaçılıq və tədrisdə tətbiqinə xüsusi diqqət göstərilir. Elmi-praktik fəaliyyətin çox ciddi istiqamətlərindən biri xalq musiqisi nümunələrinin toplanılması, sənədləşdirilməsi, nota yazılması və tədrisdə istifadə edilməsidir.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Milli Konservatoriyanın müəllim heyəti, görkəmli mədəniyyət xadimləri ilə görüşdülər.

**Mərasim iştirakçılarını salamlayan Prezident İlham ƏLİYEV dedi:**

- Bu gün çox gözəl bir gündür, əlamətdar bir gündür. Bakıda Azərbaycan Milli Konservatoriyasının yeni binası açılır. Bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm. Artıq konservatoriyanın da öz gözəl binası vardır. Mənə indi göstərdilər əvvəlki vəziyyəti necə idi. Əlbəttə ki, indiki vəziyyətlə onu müqayisə etmək mümkün deyildir. Bu şərait ən yüksək səviyyədədir. Gözəl sinif otaqları, konsert salonları, idman kompleksi də vardır. Mənə dedilər ki, burada səsyazma studiyası, muğam klubu vardır. Yəni, bütün şərait var və əminəm ki, bundan sonra konservatoriyanın fəaliyyəti daha da uğurlu olacaqdır. Çünki daha da çox tələbə qəbul etmək üçün imkan olacaqdır. Məncə, burada tələbələrin sayını bəlkə də iki dəfə artırmaq olar. Ancaq əlbəttə ki, burada seçim düzgün aparılmalıdır. Bunu da siz hamıdan yaxşı bilirsiniz.

Bütövlükdə Azərbaycanda son illərdə tikilmiş ali məktəblərin səviyyəsi bax bu cürdür. Orta məktəblər, ali məktəblər təmir olunur, tikilir və bu, artıq Azərbaycan standartlarıdır. Bu gün ölkəmizdə gedən quruculuq işləri bu sahəyə də öz təsirini göstərmişdir. Bizim tikilən, təmir edilən bütün ali məktəblərimiz gözəl səviyyədədir. Əlbəttə ki, burada tədris prosesi də yüksək səviyyədə təşkil edilməlidir. Mən buna şübhə etmirəm. Bir halda ki, sizin kimi məşhur sənət adamları konservatoriyanın fəaliyyətinə öz dəstəyinizi verirsiniz, əminəm, burada oxuyan tələbələr gələcəkdə sizin yerinizi tutacaqlar. Buna ehtiyac vardır. Çünki Azərbaycan musiqi sənəti çox zəngindir, dünya miqyasında tanınır və bizim musiqi sənətimizin əsası milli musiqimizdir. Milli musiqi Azərbaycan xalqının istedadını göstərir, nə qədər istedadlı xalq olduğumuzu dünyaya nümayiş etdirir. Milli ənənələrimizin qorunması üçün milli musiqimizin çox böyük yeri vardır. Milli musiqimizi ifaçılar, sənətkarlar, bəstəkarlar yaşadırlar. Ona görə əminəm ki, bundan sonra da bu gözəl ənənələr davam edəcəkdir.

Nəzərə almalıyıq ki, gənclərin milli musiqiyə çox böyük marağı vardır. Ölkəmizdə keçirilən müsabiqələr, festivallar bu marağı daha da artırır. Canlı efirdə göstərilən muğam

festivalları, muğam müsabiqələri cavanları da, gəncləri də bu istiqamətə sövq edir. Bizim böyük bəstəkarlarımızın da yaradıcılığında milli musiqimizin sədaları eşidilir və böyük klassik əsərlərimiz də milli musiqi zəminində yaradılıbdır.

Bizdə veteran ifaçılara da diqqət göstərilir. Bizim dahi bəstəkarlarımızın xatirəsi böyük hörmətlə qorunur. Bakıda Üzeyir Hacıbəylinin, Müslüm Maqomayevin, son illərdə Fikrət Əmirovun, Bülbülün, Qara Qarayevin abidələri ucaldılmışdır. Bu, dövlətin və xalqın dahi bəstəkarlarımızın, ifaçılarımızın xatirəsinə olan hörmətin əlamətidir.

Bütövlükdə Azərbaycanın musiqi həyatı çox zəngindir, çoxsaylı tədbirlər - festivallar, beynəlxalq muğam müsabiqələri məhz Azərbaycanda keçirilir. Bu, bir daha onu göstərir ki, muğamın vətəni Azərbaycandır. Artıq bu müsabiqədə iştirak edənlər də bunu etiraf edirlər. Bu, çox vacibdir, çünki biz ilk növbədə çalışmalıyıq ki, bu nadir sənətimiz daim yaşasın, digər tərəfdən dünya da bunu bilsin. Çünki muğam sənəti ümumdünya musiqi sənətinin zirvəsidir və Bakıda tikilmiş Beynəlxalq Muğam Mərkəzi, Azərbaycanda keçirilən muğam müsabiqələri, Qəbələ musiqi festivalı, digər festivallar bizim musiqi həyatımızı daha da zənginləşdirir və Azərbaycanı bu bölgənin mədəniyyət mərkəzinə çevirir. Bu gün sirr deyil ki, Azərbaycan bölgənin iqtisadi və siyasi mərkəzidir. Artıq bu, reallıqdır və eyni zamanda, Azərbaycan humanitar sahədə, mədəniyyət sahəsində öz liderlik rolunu nümayiş etdirir. Ölkəmizdə keçirilən beynəlxalq humanitar forumlar, musiqi festivalları diqqəti cəlb edir və bizə imkan verir ki, özümüzü dünyada daha da dolğun şəkildə təmsil edək.

Eyni zamanda, başqa sahələrdə də ifaçılarımız böyük uğurlar qazanırlar. "Eurovision" mahnı müsabiqəsində Azərbaycan ifaçıları qısa müddət ərzində birinci yeri tutmuşlar. Beynəlxalq caz festivallarında ifaçılarımız ən qabaqcıl yerlərdədir. Milli musiqi ilə bağlı keçirilən müsabiqələrdə də biz ön yerlərdəyik. Bu, nəyi göstərir? Onu göstərir ki, xalqımız istedadlı xalqdır. Çox şadam ki, milli musiqimiz digər sahələrə də - klassik musiqiyə, estrada musiqisinə də müsbət təsir göstərir. Xüsusilə indi dünyada qloballaşma prosesi gedir və bu proses istər-istəməz müxtəlif sahələri əhatə edir. Son zamanlar qloballaşmanın daha çox mənfi cəhətləri haqqında diskussiyalar gedir, bu da təbiidir. Çünki bu proses istər-istəməz milli əsasları bir növ sarsıdır. Ona görə biz elə etməliyik ki, gənc nəsil milli ruhda böyüsün, vətənpərvər, Vətənə sadiq olsun, Vətən üçün işləsin, çalışsın. Bunu etmək üçün güclü vətənpərvərlik hissi və milli ruh lazımdır. Milli ruhun da təməlində milli ənənələr, musiqi, ədəbiyyat, ana dili dayanır. Ona görə bu sahə ümumiyyətlə, ölkəmizin gələcək inkişafı üçün çox önəmlidir.

Biz hamımız çalışmalıyıq ki, milli musiqimiz yaşasın, inkişaf etsin, zənginləşsin. Sizin kimi ifaçılar bu gün milli musiqimizi tərənnüm edirsiniz, qoruyursunuz, gənclərə də yol göstərirsiniz. Bax, televiziyada yüz minlərlə tamaşaçı muğam müsabiqələrini seyr edir, həm gənc ifaçıların ifasını dinləyir, mənim üçün də maraqlıdır. əlbəttə ki, eyni zamanda, sizin təhliliniz maraqlıdır. Çünki o təhlildə bilmədiyimiz məqamlar üzə çıxır və bir növ hamımız üçün bir dərs keçirilir.

Ona görə sizin bu sahədəki fəaliyyətinizi mən bir daha qeyd etmək istəyirəm. Sizə böyük hörmətim vardır. Əminəm ki, siz bundan sonra da bu gözəl şəraitdə gənclərə öz təcrübənizi çatdıracaqsınız.Siz də təklif hazırlayın, biz bunu hansı yollarla tənzimləyə bilək ki, istedadlı uşaqlar kənarda qalmasınlar. Bir də ki, bildiyimə görə indi konservatoriyada yataqxana da vardır.

Səyavuş KƏRİMİ: Bəli, biz "E" korpusunda 70 yerlik yataqxana hazırlayırıq. İndi orada komplektləşmə gedir.

Prezident İlham ƏLİYEV: Yəni olacaqdır.

Səyavuş KƏRİMİ: Bəli olacaqdır. Bizim fikrimiz odur ki, buraya xarici tələbələri cəlb edək. Ən vacibi budur.

Prezident İlham ƏLİYEV: O da yaxşı olar. Eyni zamanda, bölgələrdən uşaqlar da gəlib burada qala bilərlər. Əlbəttə ki, xaricdən tələbələri cəlb etmək də düzgün fikirdir. Beləliklə, Azərbaycan bir musiqi mərkəzi kimi özünü daha da çox göstərəcəkdir. Əlbəttə ki, xaricdən gələnlər də burada yüksək təhsil, bilik alacaqlar.

O ki qaldı Ağaxan müəllimin sözlərinə, əlbəttə, burada olan və olmayan böyük sənətkarlarımız bizim milli sərvətimizsiniz. Bu, həqiqətdir, bu, sadəcə söz deyildir. Doğrudan da siz milli musiqimizi yaşadırsınız, təbliğ edirsiniz. Gənclərə öz təcrübənizi çatdırırsınız. Ona görə, təbiidir ki, əgər Allah eləməsin hər hansı bir xoşagəlməz hal baş verərsə, dövlət və ictimai qurum olan Heydər Əliyev Fondu mütləq öz sözünü deməlidir. Mehriban xanım elə insandır ki, o, hər kəsə kömək etməyə hazırdır. Xüsusilə, xalq üçün, Vətən üçün çox böyük xidmətlər göstərmiş insanların sağlamlığı ilə bağlı bütün lazımi tədbirlər görülür. Biz çox şadıq ki, müalicə də yaxşı nəticə verdi. Allah sizin hamınıza cansağlığı, uzun ömür versin. Siz dövlətə, xalqa, gənclərə lazımsınız. Əminəm ki, uzun illər bundan sonra da siz müəllim, ifaçı, münsiflər heyətinin üzvü kimi fəal işləyəcəksiniz və cəmiyyətdə bu istiqamətdə daha da çox maarifləndirmə işləri aparılacaqdır. Buna da böyük ehtiyac vardır. Çünki əgər indi Azərbaycanda muğam müsabiqələri keçirilməsəydi, burada oturan laureatları heç kim tanımazdı. Bizdə daha çox estrada müğənniləri tanınır. Mən etiraz etmirəm tanınsın, ancaq milli musiqimizi yaşadanlar da kənarda qalmasınlar. Onlar da əsl ulduz olmalıdırlar. Çünki milli sənət budur.

Mən təsadüfi demədim ki, qloballaşma gedir və sərhədlər silinir. O cümlədən mədəniyyət, incəsənət sahəsində bir eyniləşmə prosesi gedir. Əlbəttə, biz bilirik ki, bu proses kimin xeyrinədir. Ancaq özünə hörmət edən hər bir dövlət və xalq öz milli xüsusiyyətlərini qorumalıdır. Qorumasa onda müəyyən müddətdən sonra bir xalq kimi yaşaya da bilməyəcəkdir. Biz ən çətin illərdə öz milli musiqimizi, adətlərimizi, həyat tərzimizi qoruya bilmişik. Biz əsrlər boyu başqa dövlətlərin tərkibində yaşamışıq. Başqa dövlətlərin təsiri altında olmuşuq, müstəqil olmamışıq. Mən dəfələrlə bunu demişəm, bir daha demək istəyirəm, tam əminəm ki, bizi bir xalq kimi qoruyan mədəniyyətimiz olubdur. Əgər o da əlimizdən alınsaydı, bu gün heç müstəqilliyimiz də olmayacaqdı. Biz bir xalq kimi də qalmayacaqdıq. Assimilyasiyaya uğraya bilərdik. Mədəniyyət, ana dili, musiqi, poeziya - bizi bunlar qorudu. Yəni, əgər müstəqil olmadığımız bir dövrdə bunu qorumuşuqsa, müstəqillik dövründə biz bunu necə itirə bilərik?! Amma belə təhlükə var? Əlbəttə ki, var. Hər bir ölkə üçün, xüsusilə o qədər də böyük olmayan ölkələr üçün belə bir təhlükə vardır. Bu təhlükədən özümüzü qorumaq üçün milli mənəvi dəyərlər möhkəm olmalıdır. Mənəvi dəyərlərin də tərkib hissəsi bizim milli musiqidir. Ona görə, biz həm öz keçmişimizə hörmətlə yanaşmalıyıq, eyni zamanda, gələcəyə baxaraq, bu müsbət meylləri cəmiyyətdə gücləndirməliyik ki, Azərbaycan dəyərləri sarsılmasın, əriməsin, bizim həyat tərzimiz daim ənənəvi olsun və milli musiqimiz yaşasın.

Mən görürəm ki, indi bəzi ölkələrdə artıq bu proseslər mənfi istiqamətdə gedir. Bəzi ölkələrdə milli musiqi anlayışı artıq yoxdur. Bütün efiri ancaq ümumi, ya klassik, ya estrada musiqisi zəbt edibdir. Yəni, milli musiqi sadəcə olaraq folklor, yəni ekzotika kimi haradasa qalıbdır, müxtəlif festivallarda nümayiş etdirilir. Amma cəmiyyətdə milli musiqi anlayışı yoxdur. Biz indi dünyada, ölkələrdə gedən prosesləri, işləri bilirik. Amma bizim üstünlüyümüz ondadır ki, musiqi mədəniyyətimizin böyük hissəsi milli musiqidir. Elə də

olmalıdır. Biz milli musiqimizin ümumi musiqi mədəniyyətimizdə faiz dərəcəsini qaldırmalıyıq. Azalmamalıdır, qalxmalıdır. Belə olan halda, necə deyərlər, biz öz yolumuzu da qoruyacağıq, ənənələrimizi də yaşadacağıq və gənclər də milli ruhda yaşayacaqlar, çalışacaqlar. Azərbaycan gələcəkdə daim müstəqillik yolu ilə gedəcəkdir.

* * *

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban ƏLİYEVA çıxış edərək dedi:

- İlk növbədə, mən Sizin hamınızı bu Milli Konservatoriyanın açılışı münasibətilə ürəkdən təbrik edirəm. Əlbəttə, böyük bir hadisədir. Əminəm ki, ölkəmizin milli mədəniyyətinin inkişafına böyük bir təkan verəcəkdir. Əlbəttə, belə bir şəraitdə gənc nəsil böyüyəcək, siz ustadların təcrübəsindən bəhrələnəcəkdir.

Amma mən bu gün üzümü sizlərə - bizim ustadlara tutub ilk növbədə, sizə olan dərin hörmətimi və məhəbbətimi çatdırmaq istəyirəm. Sizinlə bizim hər görüşümüz, ünsiyyətimiz mənim üçün çox dəyərlidir. Bu gün biz çox sözlər eşitdik. Bütün bunların hamısı həqiqətdir. Amma mən bir şeyi də qeyd etmək istərdim ki, siz hamınız əlbəttə, böyük incəsənət xadimisiniz. Amma bununla yanaşı, siz böyük şəxsiyyətsiniz. Sizin məhz Prezident dediyi kimi, sizin Azərbaycan xalqının ən gözəl ənənələrinə sadiq olmağınız, həyat tərziniz, təvazökarlığınız həm gənclər, həm də, ümumiyyətlə, Azərbaycan cəmiyyəti üçün çox böyük əhəmiyyət daşıyır. Ona görə bizim cəmiyyətdə ümumbəşəri dəyərlərin yaşaması, - çünki bu, doğrudan da bu gün çox vacibdir, - humanizm dəyərlərinin yaşaması üçün mən sizə cansağlığı və uzun ömür arzulayıram. Mən də hər zaman əlimdən gələni etməyə hazıram. Sizə cansağlığı diləyirəm.

* * *

Səyavuş KƏRİMİ: Cənab Prezident, Bakıda və Şuşada milli musiqi alətləri istehsal edən kiçik fabriklər var idi.

Prezident İlham ƏLİYEV: Olubdur, bəli.

Səyavuş KƏRİMİ: İndi nə Bakıda var, nə də təbii ki, Şuşada. Biz bunu nəzərə aldıq. Bu Konservatoriyanın zirzəmisində çox böyük - təqribən 600 kvadratmetrdən böyük olan bir sahəni ayırdıq ki, gələcəkdə bunu kiçik bir fabrikə çevirək. Çünki bilirsiniz, tar bahalı alətdir. Hər bir ailənin bunu almağa imkanı yoxdur. Ya da bilmir ki, uşağı gələcəkdə ifa edəcək, yoxsa yox. Eləcə də kamança və digər alətlər. Ona görə əvvəllər, yadıma gəlir, xüsusən sovet vaxtı mağazalarda, univermaqlarda öyrənmək üçün 18, 20 manata tar satırdılar ki, alsınlar, öyrənsinlər. Əgər öyrənə bilirdilərsə, artıq gedib sifariş edirdilər. Yəni, biz bunu nəzərə alaraq belə bir laboratoriya yaratmışıq. İndi istəyirik ki, müxtəlif bölgələrdən ustaları cəlb edək və ümumiyyətlə, bu prosesi burada qura bilək.

Bundan başqa yeni alətlər istehsalı barədə də fikirləşirik. Yeni alətlər də olmalıdır. Yəni, biz bunu da fikirləşirik: yeni alətlər, milli musiqidə yeni rənglər, yeni tembrlər, tembr xüsusiyyətlərinə cavab verə biləcək alətlər. Çünki bizim milli musiqimiz zil səslidir. Bunu harmoniyalaşdırmaq mümkün deyildir. Ona görə müxtəlif tembrlər lazımdır ki, bunu harmoniya edə bilək. Niyə bizim xalq çalğı alətləri orkestri Motsartın və yaxud Sviridovun, Şostakoviçin əsərlərini çalmasın? Çalsın. Yaxud da ki, tarı, kamançanı Avropaya çıxarmaq lazımdır. Bizdə simfonik əsərlər vardır ki, orada məsələn, solonu tar aləti ifa edir. Yəni, tar bizim alətimizdir. Gitara ispan alətidir. Bu aləti bütün dünya çalır. Niyə tar aləti sabah ümumdünyəvi alət ola bilməsin. Yəni, bunun üçün belə fikirlərimiz, addımlarımız vardır.

Prezident İlham ƏLİYEV: Çox yaxşı. Emalatxananın fəaliyyəti çox vacibdir. Əlbəttə ki, burada istehsal təşkil ediləcəkdir. İndi alətlər harada istehsal olunur? Fərdi qaydada?

Səyavuş KƏRİMİ: Bəli, fərdi qaydada istehsal olunur.

Prezident İlham ƏLİYEV: Bəlkə də qədimdən qalan, indi istifadə olunmayan alətləri də bərpa etmək olar. Çünki bölgələrdə tarix-diyarşünaslıq muzeylərində qədim alətlər nümayiş etdirilir. O alətlərdən indi heç kim istifadə etmir. Bəlkə onlara da bir nəzər salmaq, onları, necə deyərlər, dövriyyəyə qaytarmaq olar ki, həmin alətlərdən də istifadə edilsin.

Səyavuş KƏRİMİ: Bu sahədə bizim milli musiqi alətlərinin təkmilləşdirmə laboratoriyası fəaliyyət göstərir, eyni vaxtda iş gedir. Biz balaban alətinin müxtəlif modifikasiyalarını, kamançanın bəm variantını yaratdıq. İndi yeni alət, burada qoyulub, Azərbaycan santurunu yaratmışıq, gələcəkdə bunun digər modifikasiyaları yaradıla bilər. Sadəcə bunların ifaçılarını yetişdirmək məsələsi vardır. Bəzi alətlərdən artıq bizim xalq çalğı alətləri orkestrində istifadə edilir. İndi biz çox arzu edirik ki, Siz bizim Konservatoriyaya, buradakı konsertlərə tez-tez gələsiniz. Əlbəttə, biz çalışacağıq ki, Sizi təəccübləndirə bilək.

Bizim tələbələrimiz, Arif müəllimin bir tələbəsi var. Çox maraqlıdır. Dünyanın çox maraqlı regionlarından – Koreyadan gəlib bizdə muğam öyrənir.

Arif BABAYEV: Biz onu öyrənə bilmədik, o, muğamı necə öyrədəcək, məəttəl qaldıq.

Prezident İlham ƏLİYEV: Öyrəndi?

Səyavuş KƏRİMİ: Mən ona dedim ki, muğamı öyrənmək sənin nəyinə lazımdır? O dedi ki, mən gedib öz vətənimdə məktəb açacağam. Mən bir az fantaziya etdim. Mən təəccüb etmərəm ki, 20-25 ildən sonra hansısa bir koreyalı muğam ifaçısı buraya qastrola gəlib konsert versin. Təbii ki, o, gedəndə özü ilə Alim Qasımovun, Ağaxan müəllimin, Arif müəllimin disklərini aparacaq, orada təbliğ edəcək, öyrədəcəkdir. O, buraya ödənişli qaydalarla gəlib və istəyəcək ki, öz vəsaitini geri götürsün. İrandan Türkiyədən gəlirlər.

Ağaxan ABDULLAYEV: Səyavuş müəllim, hətta birinci beynəlxalq müsabiqədən sonra bir isveçrəli gəldi və o zamanlar mənim sinfimdə muğam öyrənirdi.

Səyavuş KƏRİMİ: Çox gəlirlər. Maraq çox böyükdür.

Prezident İlham ƏLİYEV: Çox maraqlıdır. Maraq böyükdür. Ona görə yaxşı fikirdir ki, gəlin belə edək. Həm ənənəvi, yəni qonşu ölkələrdən, həm də Avropadan maraq böyükdürsə, qoy gəlsinlər öyrənsinlər. Yəni, onda muğam Azərbaycan ifaçılıq sənəti kimi dünyada daha da geniş şəkildə tanınacaqdır.

Səyavuş KƏRİMİ: Bir qədər əvvəl mən bizim emalatxana haqqında Sizə məlumat verdim. Hörmətli Mehriban xanımın çox böyük səyi nəticəsində tar ifaçılığı təxminən bir il bundan əvvəl UNESCO-nun bəşəriyyətin qeyri-mədəni irs siyahısına daxil edilmişdir. Bu gün musiqi alətlərindən tar ən güclü silahımızdır. Ona görə bizim ustalar, - çox yaxşı ustalarımız vardır, - bizim iki milli alətimizi Sizin üçün hədiyyə kimi düzəldiblər, tar və kamança alətlərini. İcazə versəydiniz, biz onları Sizə təqdim edərdik.

Prezident İlham ƏLİYEV: Çox sağ olun.

* * *

Tədbirin sonunda Prezident İlham Əliyevə milli musiqi alətlərimiz olan tar və kamança hədiyyə olundu.

Mərasimdə muğam səsləndi.

Sonra xatirə şəkli çəkdirildi.

Daha sonra Prezident İlham Əliyevə Milli Konservatoriyanın maketi təqdim olundu, gələcəkdə burada görüləcək işlər barədə məlumat verildi.

Dövlətimizin başçısı yeməkxanada yaradılan şəraitlə də tanış oldu. Qeyd edildi ki, binanın daxilində yüksək zövqlə tərtib olunan üzgüçülük hovuzu da qurulmuşdur.

***13 fevral 2014-cü il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSESKO-NUN BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə İSESKO arasında əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

*24 fevral 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SUMQAYITDAKI NƏSİMİ ADINA ŞƏHƏR MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKINDA GÖRÜLƏN İRİMİQYASLI ABADLIQ VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Azərbaycan Prezidenti İlham Əliyevə məlumat verdi ki, 2011-ci ildən başlayaraq davam etdirilən işlər nəticəsində parkın 100 hektardan çox olan ərazisində əhalinin istirahətinin təmin olunması məqsədilə geniş tikinti işləri aparılmışdır.

Dövlətimizin başçısına Bakı-Quba avtomagistralından şəhərin Koroğlu küçəsinədək yolun genişləndirilməsi planı ilə bağlı məlumat verildi. Bundan əlavə, Sumqayıtda inşa ediləcək "Yaşıl teatr"ın layihəsi təqdim olundu. Bildirildi ki, şəhərdə həyata keçiriləcək abadlıq və yenidənqurma işləri sırasında Nəsimi parkında sahilboyu yolun çəkilməsi də planlaşdırılır.

Prezident İlham Əliyev 20 Yanvar və Xocalı faciələrinə həsr olunan abidələrin layihəsinə də baxdı.

İndiyədək Nəsimi adına mədəniyyət və istirahət parkında bir çox iaşə obyektləri tikilmişdir və bu proses davam etdirilir. Xatırladaq ki, 1967-ci ildə yaradılan bu mədəniyyət və istirahət parkında o vaxtlar nadir ağac növləri əkilmiş və bu ənənə hazırda aparılan yenidənqurma işləri çərçivəsində qorunub saxlanır. 1978-ci ildən isə park dahi Azərbaycan şairi Nəsiminin adını daşıyır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il tarixli qərarı ilə bu mədəniyyət və istirahət parkı ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələri siyahısına daxil edilmişdir.

*25 fevral 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ ANMA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 22-ci ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev anma mərasimində iştirak etmişdir.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anma mərasiminin iştirakçıları abidənin önünə tər qızılgüllər, qərənfillər düzdülər.

* * *

Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşmiş, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etmişlər.

Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirilmiş, 487 nəfər şikəst olmuş, 1275 dinc sakin əsir götürülmüş, 155 nəfərin taleyi isə hələ də məlum deyildir. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini itirmişdir.

Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülmüş, 3 nəfər diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, bədən əzaları və başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarnı süngü ilə yarılmışdır. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi Xocalı faciəsinin beynəlxalq hüquqa əsasən məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirmişdir.

Bu qanlı gecədə erməni təcavüzkarlarının törətdikləri vəhşilik yaddaşlardan heç zaman silinməyəcəkdir. Çünki həmin gecə baş verənlər təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir iş görməmişdi.

Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra bu qanlı faciəyə hüquqi-siyasi qiymət verilmişdir. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etmişdir.

Hər il bu müdhiş faciənin ildönümü ölkəmizdə, dünyanın müxtəlif dövlətlərində yaşayan soydaşlarımız və digər dost xalqların nümayəndələri tərəfindən ürəkağrısı ilə qeyd olunur.

Bu günlərdə dünyanın bir çox ölkəsində Xocalı qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, ermənilərin vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər, materiallar nümayiş etdirilir. Dünya ölkələrinin nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap olunur, televiziya və radio kanallarında verilişlər yayımlanır.

Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun da xüsusi xidmətləri vardır. Fondun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə fəaliyyət göstərən "Xocalıya ədalət!" kampaniyası uğurla davam edir. Kampaniyanın məqsədi Xocalı qətliamının insanlığa qarşı törədilmiş ən böyük cinayət kimi beynəlxalq ictimaiyyət tərəfindən tanınmasıdır.

Görülən işlərin nəticəsidir ki, yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq dünya ictimaiyyəti Xocalı həqiqətlərini qəbul etməyə başlayır. Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya və Honduras parlamentləri, eləcə də ABŞ-ın Massaçusets, Texas, Nyu-Cersi, Men, Nyu-Meksiko, Arkanzas, Corciya, Oklahoma, Tennesi, Pensilvaniya, Qərbi Virciniya, Konnektikut, Florida, Missisipi ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanımışlar.

Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilmişdir. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunmuşdur. Bu işğalçı ölkənin terrorçuluq siyasəti uzun illərdir dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki beynəlxalq hüquq normalarına, BMT və ATƏT-in prinsiplərinə görə, dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir. Ərazi bütövlüyünün və suverenliyin pozulması yolverilməzdir. BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş torpaqlarının qeyd-şərtsiz azad edilməsi haqqında 4 qətnamə qəbul etsə də, işğalçı Ermənistan bunları hələ ki, yerinə yetirmir.

Xocalı soyqırımını törətməklə erməni millətçiləri Azərbaycan xalqını qorxutmaq, vahimə yaratmaq, onun mübarizə əzmini qırmaq, torpaqlarının işğalı faktı ilə barışmağa məcbur etmək kimi məkrli məqsədlər güdmüşdür. Amma hiyləgər və amansız düşmənin niyyətləri baş tutmadı, xalqımız dövlətin suverenliyinin müdafiəsində yüksək qəhrəmanlıq nümunəsi göstərdi.

Azərbaycan xalqı qəti əmindir ki, hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilmiş, dünyada mövqeyini daha da möhkəmləndirmiş, hərbi qüdrətini təmin etmiş dövlətimiz düşmən tapdağı altında olan torpaqlarını istənilən yolla azad edəcək, şəhidlərimizin qanı yerdə, günahkarlar isə cəzasız qalmayacaqdır.

*26 fevral 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Dövlətimizin başçısı İyad bin Amin Mədənini İslam Əməkdaşlıq Təşkilatının baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi. İyad bin Amin Mədəninin yeni vəzifəyə seçildikdən sonra ölkəmizə səfər etməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev bunu əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirdi. Ölkəmizin İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal əməkdaşlıq etdiyini vurğulayan dövlətimizin başçısı bu əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəni baş katib seçilərkən Azərbaycanın verdiyi dəstəyə görə minnətdarlığını ifadə etdi.

Görüşdə ölkəmiz ilə İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın daha da genişləndirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı, təşkilata üzv olan ölkələrin iqtisadi, elm, təhsil, mədəniyyət və digər sahələrdə sıx əməkdaşlığının əhəmiyyəti qeyd olundu, beynəlxalq aləmdə baş verən proseslərlə bağlı islam ölkələrinin vahid mövqedən çıxış etmələrinin önəmi vurğulandı.

***5 mart 2014-cü il***

## PREZİDENT İLHAM ƏLİYEV DƏNİZKƏNARI MİLLİ PARKIN YENİ BULVAR HİSSƏSİNDƏ MÜASİR ATTRAKSİON-PANORAMIN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılışda iştirak etmişlər.

Prezident İlham Əliyevin tapşırığı ilə Dənizkənarı Milli Parkın Dövlət Bayrağı Meydanına qədər uzadılması layihəsinin uğurla icra olunması Bakının simasını tamamilə dəyişmişdir. Şəhər sakinlərinin və eləcə də paytaxtımıza gələn qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün qısa vaxt ərzində burada ən müasir infrastruktur yaradılmışdır. Burada müasir tələblərə cavab verən yeni-yeni müxtəlif xidmət və iaşə obyektləri tikilib istifadəyə verilmişdir. Bakı Bulvarı özünəməxsus gözəlliyi ilə turistlərin diqqətini cəlb edir. Ərazidə uşaqların və yeniyetmələrin əyləncəsini təşkil etmək üçün də yeni layihələrin icrasına başlanılmışdır.

Qeyd edək ki, müasir attraksion-panoramın tikinti-quraşdırma işlərinə Hollandiyanın Dutch Wheels (Daç Vilz) şirkəti ilə bağlanmış müqaviləyə əsasən, 2013-cü ilin sentyabrında başlanılmışdır. Tikinti-quraşdırma işləri yüksək keyfiyyətlə həyata keçirilmişdir.

Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya yeni qurğunun texniki göstəriciləri və xidməti imkanları barədə məlumat verildi.

Qeyd edildi ki, diametri 60 metr olan yeni qurğuda hərəsində 8 nəfərlik yer olmaqla 30 kabinə vardır.

Dövlətimizin başçısı və xanımı yeni qurğu ilə yaxından tanış oldular.

Yeni attraksion-panoram yaxın günlərdə paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının istifadəsinə veriləcəkdir.

***10 mart 2014-cü il***

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞİRVANŞAHLAR SARAYI KOMPLEKSİNDƏ YENİ YARADILMIŞ MUZEY EKSPOZİSİYASI İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni ekspozisiya ilə tanış olmuşlar.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Bakının qədim tarixinin rəmzlərindən olan, min illik tarixə malik Şirvanşahlar dövləti hökmdarlarının iqamətgahı, orta əsr Şərq memarlığının nadir incilərindən biri, UNESCO-nun Dünya İrsi siyahısına daxil edilmiş Şirvanşahlar Sarayı Kompleksində yeni muzey ekspozisiyasını təqdim etmişdir.

Dövlət tarix-memarlıq qoruq-muzey statusunu almış Şirvanşahlar Sarayı Kompleksi tarixində ilk dəfə olaraq qonaqları müasir dünya standartlarına cavab verən muzey ekspozisiyası ilə qarşılayacaqdır. İçərişəhər ərazisində yerləşən çoxsaylı tarixi abidələrin qorunub saxlanılması, bərpası və təbliği sahəsində həyata keçirilən genişmiqyaslı işlər Prezident İlham Əliyevin milli mədəni irsimizə göstərdiyi daimi diqqət və qayğısı nəticəsində mümkün olmuşdur.

Ölkəmizin mədəni dəyərlərinin, o cümlədən zəngin tarixi-memarlıq irsinin incilərindən biri olan İçərişəhərin qorunmasında və dünyada tanıdılmasında Azərbaycanın birinci xanımı, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun böyük rolu xüsusi qeyd edilməlidir. Məhz, Heydər Əliyev Fondunun təşəbbüsü ilə maddi-mədəniyyət abidələrimizin, xalqımızın zəngin mənəvi irsinin qorunması və təbliği istiqamətində müxtəlif layihələrin ardıcıl olaraq həyata keçirilməsi nəticəsində Azərbaycan mədəniyyəti dünya miqyasında tanınmağa başlamışdır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Şirvanşahlar Sarayı Kompleksində yeni yaradılmış muzey ekspozisiyası ilə yaxından tanış oldular.

Bildirildi ki, Şirvanşahlar Sarayı Kompleksində muzey ekspozisiyasının hazırlanması prosesində abidənin tarixi, memarlıq xüsusiyyətləri, saray həyatı və burada yaşamış hökmdarlar haqqında elmi tədqiqatlar aparılmış, müvafiq məlumatlar toplanaraq sistemləşdirilmişdir. Yeni ekspozisiyanın yaradılmasına yerli və xarici mütəxəssislər cəlb olunmuş və bu işlər dünya muzeylərinin tərtibatı sahəsində ixtisaslaşan Avstriyanın "Arteks" şirkəti ilə birgə həyata keçirilmişdir. Ekspozisiyada zəngin muzey eksponatları ilə yanaşı, videoproyeksiya, animasiyalı multimedia, audio və video təqdimatlardan da geniş istifadə olunmuşdur. Bununla yanaşı, Şirvanşahlar Sarayı Kompleksində qonaqlar ilk dəfə multimedia bələdçilərindən də faydalana biləcəklər. "İpad Mini" bazasında hazırlanmış multimedia bələdçisi vasitəsilə ekspozisiyanın mövzuları ilə bağlı audio yazını Azərbaycan, ingilis, rus, alman və fransız dillərində dinləmək, müvafiq foto və video materiallarla tanış olmaq mümkün olacaqdır. Sarayın taxt-tac zalının tərtibatı və burada nümayiş etdirilən eksponatlar və video təqdimatlar Şirvanşahlar dövründə olan ab-havanı və interyer elementlərini təsəvvür etməyə imkan yaradacaq, Şirvanşahların tarixinin həcmli animasiyalı modeli isə buraya gələnlərdə xüsusi maraq doğuracaqdır. Muzeydə, həmçinin saray həyatı, şəhər memarlığı, etnoqrafiya, musiqi, xəttatlıq, arxeologiya kimi maraqlı mövzular da təqdim olunur.

Dövlətimizin başçısı və xanımı kompleksin ayrı-ayrı sahələrini gəzdilər, burada yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, yeni muzey ekspozisiyası, həmçinin Saray Kompleksinin ikimərtəbəli yaşayış binasının əvvəllər bura gələnlər üçün bağlı olan aşağı mərtəbəsini də əhatə edir. Binanın aşağı mərtəbəsinin otaqlarında Şirvanşahların dənizdən müdafiə is-

tehkamına - Bayıl Qəsrinə aid geniş ekspozisiya da təqdim edilir. Bununla yanaşı, muzey ekspozisiyasına hazırlıq mərhələsində Saray Kompleksinə daxil olan yaşayış binasının divarlarının əzəli daş hörgüsü bərpa edilmiş, ərazidə abadlıq işləri aparılmışdır.

*17 mart 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV NOVRUZ BAYRAMI MÜNASİBƏTİ İLƏ KEÇİRİLƏN ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Novruz şənliyində iştirak etmişlər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər.

Milli geyimli uşaqlar Azərbaycan Prezidentinə bayram xonçası təqdim etdilər. Uşaqlar Prezident İlham Əliyevi və Mehriban xanım Əliyevanı Novruz bayramı münasibətilə təbrik etdilər.

İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.

Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.

Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.

Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.

## PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqına yeni uğurlar, xoşbəxtlik arzulayıram.

Novruz bayramı Azərbaycan xalqının ən sevimli bayramlarından biridir. Novruz bayramı bizim milli dəyərimizdir, sərvətimizdir. Əsrlər boyu Azərbaycan xalqı bu bayramı qeyd edirdi. Bu gün müstəqil Azərbaycanda Novruz bayramı dövlət bayramıdır.

Biz öz milli dəyərlərimizə həmişə sadiq olmuşuq, həmişə onları qorumuşuq. Bu gün müstəqillik şəraitində milli dəyərlər, Azərbaycan dəyərləri bizim üçün əsas dəyərlərdir. Azərbaycan dəyərləri ümumbəşəri dəyərlərin tərkib hissəsidir. Azərbaycan xalqı həmişə ənənələrə, milli dəyərlərə sadiq olmuşdur. Bu gün müstəqil Azərbaycan dövləti milli dəyərlər üzərində qurulubdur.

Biz müstəqillik şəraitində yaşayarıq. Müstəqilliyimizin banisi Heydər Əliyev bütün sahələrdə olduğu kimi, müstəqil Azərbaycanın ideoloji əsaslarını da qoymuşdur. 1993-cü ildə bütün istiqamətlər üzrə strateji xətt müəyyən edilmişdir. Azərbaycan bu gün bu istiqamətlər üzrə inkişaf edir. Bizim strategiyamız dəyişməz olaraq qalır. Milli ideologiyamız möhkəm əsaslar üzərində qurulubdur. Müstəqillik, azərbaycançılıq, müasirlik, vətənpərvərlik, milli və dini dözümlülük. Bizim əsas ideoloji dayaqlarımız bunlardır. Müstəqil Azərbaycanın uğurlu inkişafı onu göstərir ki, taleyimiz öz əlimizdə olduğu hal-

da xalqımız böyük zirvələrə çata bilər və çatmışdır. Bu gün müstəqil Azərbaycan istənilən sahə üzrə uğurla, inamla inkişaf edir. Biz müstəqilliyimizi qoruyuruq, qoruyacağıq və ildən-ilə müstəqilliyimiz möhkəmlənir.

Xarici siyasətlə bağlı addımlarımız beynəlxalq hüquqa və ədalətə söykənir. Bu iki anlayış bizim üçün əsasdır. Bəzi hallarda beynəlxalq münasibətlərdə beynəlxalq hüquq və ədalət ziddiyyət təşkil edir. Ancaq buna baxmayaraq, Azərbaycan bütün məsələlərdə öz prinsipial mövqeyini ifadə edir, bu mövqeyə sadiqdir. Bundan sonra da Azərbaycan bütün məsələlərin beynəlxalq hüquq çərçivəsində ədalətli şəkildə həll edilməsində öz sözünü deyəcəkdir.

Bizim xarici siyasətimiz tam müstəqildir, Azərbaycan xalqının milli maraqlarına söykənir. Biz milli maraqlarımızı şərəflə, uğurla qoruyuruq. Deyə bilərəm ki, bu gün bölgədə gedən proseslərdə Azərbaycan dövlətinin təsiri artır. Bir çox hallarda beynəlxalq layihələrin təşəbbüskarı da məhz Azərbaycan dövlətidir.

Xarici siyasətimizin uğurlu olmasını BMT-də iki il bundan əvvəl aparılmış seçkilər də təsdiqləyir. Azərbaycan dünya ictimaiyyətinin mütləq əksəriyyətinin, 155 ölkənin dəstəyi ilə dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına üzv olmuşdur. İki il ərzində bu təşkilatda ləyaqətlə iştirak edirdi. Dediyim kimi, beynəlxalq hüququ, ədaləti müdafiə edirdi.

Xarici siyasətlə bağlı əsas problemimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Uzun illərdir ki, beynəlxalq hüquq, ədalət pozulur. Çünki Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, bizim tarixi, əzəli torpağımızdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşamışdır, yaratmışdır. Dağlıq Qarabağda bütün toponimlər Azərbaycan xalqının mədəniyyətini, tarixini əks etdirir. Nəinki Dağlıq Qarabağ, indiki Ermənistanın böyük bir hissəsi qədim Azərbaycan torpaqlarıdır.

Tarixi ədalət, beynəlxalq hüquq pozulub. Çünki bütün dünya ictimaiyyəti Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və Azərbaycanın ərazi bütövlüyü bu məsələnin həllində əsas rol oynayacaqdır. Bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Ölkələrin ərazi bütövlüyü ölkələrin razılığı olmadan dəyişdirilə bilməz. Bu, beynəlxalq hüququn əsas baza prinsipləridir və Helsinki Yekun Aktında məhz bu prinsiplər əsas götürülmüşdür.

Mən əminəm ki, bu münaqişə ədalətli və beynəlxalq hüquq əsasında öz həllini tapacaq, Azərbaycan ərazi bütövlüyünü, suverenliyini bərpa edəcəkdir. Biz azərbaycanlılar Dağlıq Qarabağa, işğal edilmiş digər torpaqlara və bütün tarixi Azərbaycan torpaqlarına qayıdacağıq. Mən buna əminəm, buna şübhə etmirəm və buna nail olmaq üçün biz daha da güclü olmalıyıq.

Bu gün dünyada beynəlxalq münasibətlərin həllində beynəlxalq hüquq, eyni zamanda, güc amili də ön plana çıxır. Belə olan halda hər bir ölkə öz gücünü artırmalıdır. Biz bu məsələlərlə uzun illərdir ki, məşğuluq. Uzun illərdir ki, güclü iqtisadi potensialımızı yaradırıq. Bu potensial bizə imkan verir ki, müstəqil siyasət aparaq. Çünki iqtisadi müstəqillik, hərbi güc olmadan müstəqil siyasət aparmaq çox çətindir.

Ona görə son illərdə ordu quruculuğuna çox böyük diqqət göstərilmişdir. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti, nizam-intizam artır. Ordumuz hərbi texnika ilə təchiz edilir və hərbi büdcəmiz ildən-ilə artaraq böyük rəqəmlərə çatmışdır. Təkcə onu demək kifayətdir ki, bu gün bizim hərbi büdcəmiz Ermənistanın bütün dövlət büdcəsindən iki dəfə çoxdur. Hərbi büdcə, döyüş hazırlığı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas rol oynayacaqdır.

Bizim ideoloji əsaslarımız aydındır. Bu barədə mən artıq öz fikirlərimi bildirdim. Ermənistan isə faşist dövlətdir. Onların milli ideologiyası faşizmdir, ayrı-seçkilikdir, millətçilikdir. Bu ideologiyanın qurbanları məhz erməni xalqıdır ki, öz müstəqil inkişafından

məhrumdur. Müstəqillik böyük bir şans, böyük bir nemət, sərvət idi. Azərbaycan bu gün bu imkanlardan tam şəkildə istifadə etmişdir. Ermənistan haqqında isə müstəqil dövlət sözünü ifadə etmək çox çətindir. Çünki nə müstəqil siyasəti, nə müstəqil iqtisadiyyatı vardır.

Azərbaycan isə öz prinsipial mövqeyi ilə bütün dövrlərdə seçilmişdir. Bir daha demək istəyirəm ki, hər bir məsələ ilə bağlı bizim prinsipial, birmənalı mövqeyimiz vardır. Biz şərəflə yaşayırıq, biz ləyaqətli siyasət aparırıq və bizim siyasətimiz, bir daha demək istəyirəm ki, ümumbəşəri prinsiplər üzərində qurulubdur.

Ermənistan-Azərbaycan münaqişəsi həll olunandan sonra əminəm ki, Ermənistan üçün də müstəqil ölkə kimi yaşamaq imkanları yaranacaqdır. İnanmıram ki, erməni xalqı indiki vəziyyətlə razılaşa bilsin. Çünki hər bir xalq azad, hər bir dövlət müstəqil olmaq istəyir. Bu gün Ermənistan haqqında bunu demək mümkün deyildir. Çünki Ermənistan ən yaxşı halda forpost kimi özünü göstərir. Bölgə təhlükə mənbəyidir və bütün bölgədə xoşagəlməz proseslərin təşəbbüskarı da Ermənistandır.

Mən tam əminəm ki, Azərbaycanın artan gücü, bizim potensialımız və xarici siyasətlə bağlı apardığımız düşünülmüş, ölçülüb-biçilmiş siyasət bizə imkan verəcək ki, ərazi bütövlüyümüzü bərpa edə bilək. Bunun başqa yolu yoxdur. Tarixin gedişatı, bizim demoqrafik inkişafımız, iqtisadi potensialımız bunu deməyə əsas verir ki, Azərbaycanın milli bayrağının Şuşada, Xankəndidə dalğalanacağı gün uzaqda deyildir.

Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq. Çünki biz görürük ki, beynəlxalq aləmdə ikili standartlar mövcuddur. Biz də ikili standartların qurbanıyıq. Beynəlxalq münasibətlərin həllində güc amili ön plana çıxır. Biz daha da güclü olmalıyıq, daha da güclü olacağıq.

Əlbəttə ki, əsas məsələ burada iqtisadi potensialdır. Son on il ərzində Azərbaycan kimi iqtisadi sahədə sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. Bu, böyük tarixi nailiyyətimizdir. Ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir, iqtisadi potensialımız artır, iqtisadiyyat üç dəfədən çox artmışdır. Ölkədə böyük sosial layihələr, sosial proqramlar icra edilir, iqtisadi islahatlar, eyni zamanda, sosial məsələlərin həllində də bizə kömək göstərir.

Bu gün sosial cəhətdən az təmin edilmiş vətəndaşlara da Azərbaycan dövləti öz yardımını əsirgəmir.

İqtisadi potensialımızın artırılması üçün daha da gözəl imkanlar vardır. Çünki biz artıq iqtisadiyyatımızı şaxələndirə bilmişik. Keçən il qeyri-neft sektorumuz təxminən 10 faiz, bu ilin iki ayında təxminən 9 faiz artmışdır. Yəni, bu, onu göstərir ki, iqtisadiyyatla bağlı qarşıda duran əsas vəzifələr uğurla icra edilir. Gələcək illərdə bu sahədə islahatlar davam etdiriləcəkdir. Azərbaycanda çox güclü sənaye potensialı yaradılacaqdır. Bundan sonra Azərbaycan iqtisadiyyatı qeyri-neft sektoru hesabına inkişaf edəcəkdir. Artıq biz bunu görürük və bölgələrdə aparılan işlər, sənayenin, kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyi məsələləri ilə bağlı olan təşəbbüslər öz səmərəsini verməkdədir.

Biz iqtisadi sahədə apardığımız islahatlarla dünyanın aparıcı iqtisadi qurumlarının da yüksək qiymətlərinə layiq ola bilmişik. Bu gün dünyanın aparıcı iqtisadi qurumu olan Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə 39-cu yerə layiq görmüşdür. Bu, islahatlar nəticəsində əldə edilmiş uğurlardır. Ancaq istənilən islahat ilk növbədə, insanların həyat şəraitinin yaxşılaşmasında özünü büruzə verməlidir və bu, özünü göstərir. Bu gün yoxsulluq şəraitində yaşayan soydaşlarımızın sayı getdikcə azalır, işsizlik aradan götürülür. Ölkə iqtisadiyyatı inkişaf edir və inkişaf edəcəkdir.

Əlbəttə, Azərbaycan dünyada çox önəmli enerji təchizatçısı kimi öz rolunu oynayır. Biz keçən ilin sonunda Avropanın ən böyük infrastruktur layihəsinə Bakı şəhərində start verdik. Azərbaycan bu sahədə də liderlik göstərə bilmişdir, nəhəng, qlobal layihənin

təşəbbüskarıdır, aparıcı qüvvəsidir. Uzun illərdir ki, "Cənub" qaz dəhlizinin yaradılması ilə bağlı danışıqlar gedirdi. Mən təqribən son 7-8 il ərzində ondan çox beynəlxalq tədbirdə iştirak etmişəm. Ancaq bu tədbirlərin nəticəsi olmamışdır. Bəyanatdan başqa heç bir praktiki addımlar atılmamışdır. Azərbaycan dövləti bu sahədə də liderliyi, bütün məsuliyyəti, siyasi, iqtisadi, maliyyə məsuliyyətini üzərinə götürərək bu layihəyə də start verdi. Bu layihə bizim uğurlu gələcəyimizi təmin edəcək, Azərbaycanda sosial problemlərin həllinə kömək göstərəcəkdir. Bu layihə Azərbaycanı dünya miqyasında önəmli güc mərkəzi kimi təqdim edəcək və bizim uzunmüddətli, dayanıqlı inkişafımızı şərtləndirəcəkdir.

Azərbaycan bütün bu məsələlərdə prinsipial mövqe sərgiləyir. Əgər bizim prinsipial mövqeyimiz olmasaydı, əgər kimdənsə asılılığımız olsaydı və kimdənsə çəkinsəydik biz heç vaxt bu böyük layihələrə imza atmazdıq. Bizim siyasətimizin təməlində müstəqillik dayanır, ədalət dayanır, cəsarət dayanır. Biz bütün addımlarımızı Azərbaycan xalqının maraqlına xidmət etmək üçün atırıq. Azərbaycanın maraqları hər şeydən üstündür, hər bir vətəndaş üçün də hər şeydən üstün olmalıdır. Bir sözlə, ölkəmizin gələcək inkişafı ilə bağlı bizim çox nikbin fikirlərimiz vardır. Əslində bu gələcəyi biz yaradırıq.

Son illər ərzində aparılan siyasi, iqtisadi islahatlar, enerji siyasətimiz bu reallığı mümkün etmişdir. Gələcək inkişafımızla bağlı bu ilin əvvəlində də önəmli addımlar atılmışdır. Keçən ay regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilmişdir. Qalan sosial və iqtisadi məsələlər də 2018-ci ilə qədər bu proqramın icrası nəticəsində öz həllini tapmalıdır.

Beləliklə, Azərbaycan bundan sonra da inamla inkişaf edəcəkdir. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramı da icra edilir. 2016-cı ilə qədər bu proqram tam şəkildə icra edilməlidir və beləliklə Bakıda bir dənə də olsun sosial infrastruktur problemi, iqtisadi problem qalmamalıdır. Qarşıya məhz belə vəzifə qoyulmuşdur. Bu proqramların icrası nəticəsində ölkəmiz daha da sürətlə inkişaf edəcəkdir. Proqramların icrası təmin ediləcəkdir. Bu günə qədər verdiyimiz bütün vədlərə sadiq olmuşuq, bütün proqramları icra etmişik və bundan sonra da bu yolla gedəcəyik.

Bakımız da gözəlləşir, abadlaşır. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu Bakı sakinləri, digər bölgələrdən gələn qonaqlar görürlər, xarici qonaqlar bunu qeyd edirlər. Bakının gələcək inkişafı ilə bağlı bizim böyük planlarımız vardır. Bakıda ictimai yerlərin yaradılması, yeni infrastruktur layihələrinin icra edilməsi, şəhər nəqliyyatı ilə bağlı böyük planlarımız vardır. Artıq onların bir hissəsi icra edilir. Bakının ən cəlbedici yerlərindən biri olan milli parkımız, bulvarımız gözəlləşir, abadlaşır, bulvarın ənənəvi hissəsi ən yüksək səviyyədə təmir edilmişdir. İndi yüz minlərlə insan xüsusilə yaz-yay aylarında bu imkanlardan istifadə edir. Bayraq Meydanına qədər uzanan yeni bulvar istifadəyə verilmişdir. Bayraq Meydanından Bibiheybət istiqamətinə gedən bulvar tikilir, ümid edirəm ki, ilin sonuna qədər o hissə də ictimaiyyət üçün açıq olacaqdır. Orada yeni şəhərciklər - "Bakı Art City" adlanan incəsənət şəhərciyi, idman şəhərciyi yaradılır. Yəni, o hissə bir ildən sonra şəhərimizin ən gözəl yerlərindən birinə çevriləcəkdir.

Bulvarın əks istiqamətində işlər aparılır, "Ağ şəhər bulvarı" tikilir. Bu ilin sonuna qədər o istiqamətdə də əlavə 2 kilometr bulvar, avtomobil yolu, ictimai yerlər, parklar salınacaqdır. Beləliklə, bulvarın uzunluğu "Ağ şəhər"dən Bibiheybətə qədər uzanacaqdır. Bu da təqribən 16 kilometr məsafədir. Bu məqsədlə artıq göstəriş verilmişdir ki, bulvarda ekoloji cəhətdən təmiz kiçik xüsusi avtobuslar da fəaliyyətə başlasın. Çünki bu 16 kilometri piyada qət etmək o qədər də asan olmayacaqdır.

Xalça Muzeyi tikilir, yaxın zamanlarda istifadəyə veriləcəkdir. Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni, möhtəşəm binası tikilir, bu yaxınlarda istifadəyə veriləcəkdir. Bir sözlə, Bakının inkişafı, abadlaşması, tarixi abidələrimizin bərpası ilə bağlı çox ciddi işlər aparılır. Bakının simvolu olan Qız qalasının təmiri bu yaxınlarda başa çatmışdır. Bir

neçə gün bundan əvvəl digər tarixi yerimiz – Şirvanşahlar Sarayında aparılan təmir işlərindən sonra artıq açılış olmuşdur.

Bir sözlə, Bakı bizim paytaxtımızdır, gözəl, sevimli şəhərimizdir. Şəhərimizin gələcək inkişafı, infrastruktur, abadlıq işlərinin aparılması ilə bağlı konkret tapşırıqlar verilmişdir və biz birinci Avropa Oyunlarına hazırlaşırıq, böyük hazırlıq gedir. Bu oyunlar Azərbaycanı bir daha dünyaya müasir, dinamik inkişaf edən ölkə kimi təqdim edəcək, Azərbaycanın potensialını nümayiş etdirəcək, xalqımızın istedadını göstərəcəkdir. Biz bu oyunları Yay Olimpiya Oyunlarının səviyyəsində keçirmək əzmindəyik. Əminəm ki, biz buna nail olacağıq.

Əziz dostlar, bu gözəl gündə, gözəl bayram ərəfəsində bir daha bütün Azərbaycan xalqına öz hörmətimi, məhəbbətimi ifadə edirəm. Dünyada yaşayan bütün azərbaycanlıları bu gözəl bayram münasibətilə təbrik edirəm, bütün Azərbaycan xalqına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dənizkənarı Milli Parka gəldilər.

Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar.

Kosa və Keçəl Prezidenti və xanımını bayram münasibətilə təbrik etdilər, dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər.

Daha sonra Prezident İlham Əliyev və Mehriban Əliyeva aşıqların, muğam ifaçılarının çıxışlarını dinlədilər.

Milli Parkda təşkil edilən "Şərq bazarı" bayram şənliyinə xüsusi çalar qatırdı. Burada ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və hazırlanmış sənətkarlıq nümunələri maraqla qarşılandı. Bir tərəfdə isə gənc pəhləvanlar xalça üzərində qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər.

Dövlətimizin başçısı və xanımı zorxana güləşçiləri ilə xatirə şəkli çəkdirdilər.

Azərbaycan Prezidenti və xanımı manqalda bişirilən kababın dadına baxdılar. Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu mərasimdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də təqdim edilirdi.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və şənliyin digər iştirakçıları bu səhnələri maraqla izlədilər, qədim el sənətlərinin nümunələrinə baxdılar.

Dövlətimizin başçısı və xanımı burada nümayiş etdirilən Azərbaycan xalçalarının nümunələri ilə tanış oldular.

Prezident İlham Əliyev və Mehriban Əliyeva, həmçinin gənc rəssamların, modelyerlərin və el sənətkarlarının əl işlərinə tamaşa etdilər.

Dövlətimizin başçısı və xanımı bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsulların bayram şənliyi çərçivəsində təşkil edilmiş sərgisi ilə tanış oldular. Müxtəlif rayonlardan gətirilmiş Novruz mətbəxinin nümunələri də şənlik iştirakçılarında maraq doğurdu.

Azərbaycan Prezidenti İlham Əliyevə və xanımı Mehriban Əliyevaya hədiyyələr təqdim edildi.

Prezident və xanımı bayram şənliyində nümayiş etdirilən "Bakı-2015" Birinci Avropa Oyunları ilə bağlı təqdimata baxdılar, idmanın müxtəlif növləri üzrə idmançıların çıxışlarını izlədilər.

Azərbaycan Prezidenti onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirdi.

Novruz bayramı münasibətilə keçirilən şənliklərdə Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

Bayram şənliyi incəsənət ustalarının, el sənətkarlarının ifasında rəngarəng konsert proqramı ilə davam etdi.

*19 mart 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "AITF-2014" XIII AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində "AITF-2014" XIII Azərbaycan Beynəlxalq turizm və səyahətlər və "HOREX Caucasus-2014" VIII Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olmuşlar.

Bu gün Azərbaycan sürətli iqtisadi və sosial inkişafı ilə dünyanın diqqət mərkəzindədir. Əlverişli coğrafi mövqeyi, zəngin iqlimi, flora və faunası, qədim tarixi və mədəniyyəti ölkəmizin turizm mərkəzi kimi də bütün dünyada tanınmasında mühüm rol oynayır. Azərbaycana gələn turistlərin sayının ildən-ilə artmasına bu sahəyə göstərilən yüksək dövlət qayğısı, Bakı ilə yanaşı, regionlarda da müasir turizm infrastrukturunun yaradılması müsbət təsir göstərir. Azərbaycanda turizm sektorunun inkişafına göstərilən diqqət və qayğının nəticəsidir ki, ölkədə dünya səviyyəli turizm brendlərinin tətbiqi geniş vüsət almışdır. Bakıda və bölgələrdə beşulduzlu mehmanxana komplekslərinin tikilməsi və istifadəyə verilməsi məhz bu amilə əsaslanır. Bütün bunlar da ölkədə geniş şəbəkəyə malik turizm infrastrukturunun yaradılmasına və inkişafına xidmət edir.

Son illər Azərbaycanın turizm potensialını nümayiş etdirmək məqsədilə keçirilən bir sıra mühüm tədbirlər də bu sahəyə marağı artırmışdır. Bu baxımdan Bakıda hər il keçirilən beynəlxalq turizm və səyahətlər, o cümlədən mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgilərinin xüsusi rolu vardır. Azərbaycan beynəlxalq turizm və səyahətlər sərgisi ölkəmizin, ümumilikdə Cənubi Qafqaz regionunun turizm sənayesinin ən böyük ixtisaslaşdırılmış tədbiri hesab edilir. Məhz buna görə də ildən-ilə marağın artdığı bu sərgi böyük nüfuz qazanmışdır. Builki sərgidə əvvəlki illərlə müqayisədə milli stendlərin sayı da xeyli çoxdur. Sərgidə Azərbaycan ilə yanaşı, Argentina, Bolqarıstan, Macarıstan, Yunanıstan, Dominikan Respublikası, Xorvatiya, Hindistan, İndoneziya, İtaliya, Çin, Malayziya, Mərakeş, Tailand, Türkiyə, Fransa, Monteneqro, Çex Respublikası və digər ölkələrdən 24 milli və regional qrup iştirak edir. Bundan əlavə, bu il sərgiyə Litva, Xorvatiya, Rusiya və Monteneqrodan turizm sənayesi üzrə beynəlxalq ekspertlər və Rusiyanın Stavropol diyarından, eləcə də digər ölkələrdən nümayəndə heyətləri qatılmışlar. Tədbirin daha bir mühüm xüsusiyyəti turizm xidmətlərinin geniş çeşidini nümayiş etdirmək, turagentlik və turoperatorları, milli qrupları, beynəlxalq nümayəndəlikləri, avtomobil, hava və dəniz daşımaları üzrə şirkətləri, müxtəlif ölkələrin mehmanxana biznesi üzrə nümayəndələrini, turizm və ticarət assosiasiyalarını, eləcə də fəal və ekstremal istirahət turlarının təşkilatçılarını bir yerə toplamaqdır.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirdi ki, sərgidə bu il də iştirakçıların sayında xeyli artım müşahidə olunur. 2002-ci ildə sərgiyə 14 ölkə qatılmışdısa,

indi onların sayı 38-ə çatmışdır. Ümumilikdə, bu ölkələrdən 351 şirkət və təşkilat sərgidə xidmətlərini təqdim edir. Sərgi iştirakçılarının 60 faizdən çoxunu xarici, 40 faizini isə yerli şirkətlər təşkil edir. Ölkəmizin turizm sənayesinin inkişafında böyük əhəmiyyət kəsb edən bu sərgiyə maraq son illər Azərbaycanda turizm sahəsində həyata keçirilən mühüm infrastruktur layihələrinin dünya turizm aləmində böyük rəğbət və maraqla qarşılandığını göstərir. Bu tədbirlər həm də ölkəyə gələn turistlərin sayının xeyli artmasına səbəb olur.

Azərbaycan regionlarının milli pavilyonları sərgini daha da maraqlı və koloritli edir. Regional ekspozisiyada Azərbaycanın müxtəlif rayonlarının turizm imkanları nümayiş etdirilir. Burada turizm fəaliyyətinin müxtəlif növləri, o cümlədən kənd və ekoloji turizm, dağ-xizək və dəniz kurortları nümayiş etdirilir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sərginin pavilyonları ilə tanış oldular.

Litvanın stendi ilə tanışlıq zamanı məlumat verildi ki, bu ölkə turizmin müxtəlif istiqamətlərini, o cümlədən sanatoriya, tibbi klinikalar üzrə xidmətlərini nümayiş etdirir. Bir neçə dəfə sərgidə iştirak edən Litva bu dəfə 18 şirkətlə təmsil olunur.

Prezident İlham Əliyev ikinci dəfə sərgiyə qatılan Monteneqronun stendinə də baxdı. Ötənilki sərgidən sonra yay mövsümündə Azərbaycandan Monteneqroya birbaşa çarter reysləri həyata keçirilmişdir. Builki turizm mövsümündə də çarter reysləri bərpa ediləcəkdir.

İndoneziya da ardıcıl olaraq bu sərgidə təmsil olunur. Bu ölkənin stendində İndoneziyanın turizm imkanları və turizm marşrutları təqdim edilir.

Dövlətimizin başçısı Rusiyanın Stavropol vilayətinin stendinə də baxdı. Sərgidə çoxlu şirkətlərlə təmsil olunan bu vilayət əsasən tibbi turizm istiqamətində xidmətlərini nümayiş etdirir. Ümumilikdə, sərgidə Stavropol diyarının Mineralnıye Vodı, Pyatiqorsk, Yessentuki və Kislovodskda olan turizm-sağlamlıq obyektlərinin xidmətləri təqdim edilir.

Şamaxıda yerləşən və Naftalan nefti ilə müalicə imkanlarını təqdim edən sanatoriya da sərgidə iştirak edir. Naftalan neftinin şöhrəti bütün dünyada məşhurdur. Naftalan şəhərindəki mənbələrdən çıxarılan neft nadirliyi ilə seçilir və bununla bağlı xidmətlər indi ölkəmizin müxtəlif regionlarında da təqdim olunur.

Prezident İlham Əliyev "Horex Caucasus-2014" VIII Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgisi ilə də tanış oldu. Burada Azərbaycan, Almaniya, Gürcüstan, Niderland Krallığı, Birləşmiş Ərəb Əmirlikləri, Rusiya, Türkiyə və İsveçrədən olan aparıcı şirkətlər məhsullarını nümayiş etdirir. Sərginin daimi iştirakçıları arasında bir sıra aparıcı şirkətlərin olması onun beynəlxalq nüfuzundan xəbər verir.

Dominikan Respublikası da ilk dəfə bu sərgidə iştirak edir. Bu ölkəyə məxsus stenddə əsasən ekzotik turizm növləri təqdim olunur.

Dövlətimizin başçısı Mərakeş və Yunanıstan stendlərinə də baxdı. Hər iki ölkə ikinci dəfədir ki, sərgiyə qatılır. Mərakeşə məxsus pavilyonda ölkənin kurort zonaları, mədəni və ekskursiya turizmi, bir neçə şirkətlə təmsil olunan Yunanıstan stendində isə əsasən yay turizmi, xüsusilə də ekskursiyalar, dəniz səyahəti təqdim edilir.

Sloveniya isə sərgidə 11 şirkətlə təmsil olunur.

Əvvəlki sərgilərdə olduğu kimi, bu il də Türkiyə sərgiyə geniş tərkibdə - 30 turizm şirkəti ilə qatılmışdır. Bu ölkəyə məxsus stenddə alternativ turizm də daxil olmaqla bütün istiqamətlər nümayiş etdirilir. Türkiyəni təmsil edən şirkətlərin müxtəlif stendlərində ölkənin turizm marşrutları, yaradılan infrastruktur barədə geniş məlumatlar əksini tapmışdır.

Bolqarıstan da bu sərgiyə olduqca böyük maraq göstərir. Bu ölkə də turizm potensialını qonaqlara yüksək səviyyədə təqdim edir.

Diqqətə çatdırıldı ki, "Bütün dünya – Bir sərgi" devizini tam doğruldan "AITF-2014"-də 80-dən çox turizm marşrutu nümayiş olunur. Eyni zamanda, bu sərgi turizm bazarında həm maraqlı istiqamətlərin, həm də yeniliklərin nümayişi ilə seçilir. Sərginin debütantları arasında Şri-Lanka, Keniya və Cənubi Afrika Respublikasının turizm şirkətləri də yer almışdır.

Bildirildi ki, "AITF-2014" sərgisində tibbi turizm istiqamətini nümayiş etdirən iştirakçıların sayı xeyli artmışdır.

Sonra "City Sightseeing Baku" şirkətinin təqdimatı oldu.

Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi ilə bu şirkət dünya brendi kimi tanınan və 33 ölkənin 100-dən çox şəhərində fəaliyyət göstərən "City Sightseeing Worldwide" şirkəti arasında bağlanmış razılaşmaya əsasən yaradılmışdır. "City Sightseeing Baku" ötən il mindən çox avtobusla 10 milyondan çox insana ekskursiya xidməti göstərmişdir. Şirkətin fəaliyyəti turistlərə Bakının mədəni irsinin və turizm potensialının geniş təbliğ olunması sahəsində mühüm əhəmiyyət kəsb edir. Avtobuslarda turistlər üçün bütün şərait yaradılmışdır. Nəqliyyat vasitələrində xüsusi sistemlə yaradılan avadanlıq turistlərə paytaxtın görməli və tarixi yerləri barədə məlumat əldə etməyə imkan verir.

Prezident İlham Əliyev sərginin işinə uğurlar arzuladı.

*4 aprel 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ NAXÇIVAN GƏNCLƏR MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.

Ölkəmizdə gənclər siyasətinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər sistemli xarakter almışdır. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasəti 2003-cü ildən başlayaraq Azərbaycanda uğurlu nəticələrlə yadda qalmışdır. 2005-2009-cu illəri əhatə edən "Azərbaycan gəncliyi Dövlət Proqramı" bu istiqamətdə mühüm rol oynamışdır. Hazırda həyata keçirilən "Azərbaycan gəncliyi: 2011-2015-ci illərdə" Dövlət Proqramı bu tədbirlərin məntiqi davamıdır. Bu gün ölkəmizdə gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri, həmçinin tarixi-mədəni keçmişimizə, milli mənəvi dəyərlərə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir. Əsas məqsəd onların cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul verməkdir. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihələr və proqramlar həyata keçirilir. Bölgələrdə müasir tələblərə cavab verən sosial infrastruktur obyektlərinin və Gənclər mərkəzlərinin, o cümlədən Naxçıvanda Gənclər Mərkəzinin yaradılması da bu məqsədə xidmət edir.

Dövlətimizin başçısı Gənclər Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gənclər Mərkəzində yaradılan şərait barədə Prezident İlham Əliyevə məlumat verdi.

Gənclər Mərkəzində kompyuter otağı, elektron kitabxana, intellektual və stolüstü oyun zalları, interaktiv tir və kafe vardır. Mərkəzdə informasiya texnologiyalarının ən son nailiyyətləri tətbiq edilmiş, kompyuterlərin hər birinin internetə çıxışı təmin olunmuşdur.

Mərkəzdə xarici dillərin tədrisi üçün linqafon sinifləri yaradılmışdır. Gənclər burada istənilən xarici dil üzrə həm nəzəri biliklərə, həm də praktik olaraq düzgün tələffüz vərdişlərinə yiyələnə biləcəklər. Mərkəzin elektron kitabxanasının bazasında minə yaxın ədəbiyyat vardır. Binada gənclərin asudə vaxtlarının səmərəli təşkili və onların intellektual səviyyələrinin artırılması da nəzərə alınmış, mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün intellektual zal istifadəyə verilmişdir.

Dövlətimizin başçısı "Xəmsə" intellektual oyununa baxdı.

Tir otağında pnevmatik tüfəng və tapançadan atəş açmaq məşqləri təşkil olunacaqdır. Altızolaqlı tirdə gənclər idmanın atıcılıq növünə daha yaxşı yiyələnmək imkanı əldə edəcəklər. Oyun zallarında yaradılan şərait isə gənclərin stolüstü idman növləri ilə məşğul olmalarına imkan verəcəkdir.

Binada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu üçün iş otaqları ayrılmış və fonda xidməti avtomobil verilmişdir.

Diqqətə çatdırıldı ki, dövlət gənclər siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Son illər gənclərin muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, bütövlükdə, dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində atılan mühüm addımlardır. Muxtar respublikada gənclik mərkəzləri, kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları və digər obyektlər gənclərin istifadəsinə verilmişdir. Naxçıvan Muxtar Respublikasında gənclər artıq cəmiyyət həyatında mühüm rol oynayırlar. Bu gün muxtar respublikada gənclərin sosial müdafiəsinin və məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda böyüməsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği də diqqət mərkəzindədir. "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il tarixli Fərman muxtar respublikada gənclərə göstərilən yüksək diqqət və qayğının daha bir ifadəsidir. Həmçinin Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"nın təsis edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması regionda gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır. Son illər muxtar respublikanın şəhər və rayonlarında Olimpiya İdman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman və şahmat məktəblərinin, orta məktəblərdə idman zallarının və sadə tipli idman qurğularının istifadəyə verilməsi gənc nəslin fiziki sağlamlığının qorunması və kütləvi bədən tərbiyəsinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Yeni inşa olunan Naxçıvan Gənclər Mərkəzi də bu sahədə atılan növbəti uğurlu addımdır. Bu sosial obyekt gənclərin xüsusi layihələr vasitəsilə vahid bir məkanda toplanması və asudə vaxtlarının səmərəli təşkili baxımından xüsusi əhəmiyyətə malikdir.

*7 aprel 2014-cü il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YENİ YARADILAN "NAXÇIVANQALA" TARİX-MEMARLIQ MUZEY KOMPLEKSİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycanda tarixi, mədəni, dini abidələrin qorunması işinə yüksək diqqət göstərilir. Dövlətin bu sahədə həyata keçirdiyi konkret və çoxsaylı layihələr nəticəsində indi belə obyektlərin hamısı qorunaraq bərpa edilir. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması bu istiqamətdə Azərbaycan dövlətinin atdığı addımların nəticələrinin genişmiqyaslı olduğunu göstərir.

Naxçıvan Muxtar Respublikasının ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Bunun nəticəsidir ki, tarixin bütün dövrlərinə aid bu ərazidə zəngin mədəniyyət və memarlıq nümunələri yaradılmışdır. Bu abidələr arasında "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin mühüm əhəmiyyəti vardır. Belə abidələrin bərpası və qorunması gələcək nəsillərə Azərbaycanın qədim tarixinin çatdırılması, eyni zamanda, Naxçıvana turistlərin marağının artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. XVII əsrin ortalarınadək müdafiə istehkamı kimi mövcud olmuş Naxçıvanqala müharibələr nəticəsində dağıdılmış və əvvəlki möhtəşəmliyini itirmişdir. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanmış, tarixi ərazidə yenidənqurma işləri aparılmış, qalanın əvvəlki görkəmi özünə qaytarılmışdır. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə ötən il burada "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması barədə qərar qəbul edilmişdir.

Kompleksin ətrafında və daxilində geniş abadlıq-quruculuq işləri aparılmış, işıqlandırma sistemi quraşdırılmış və yaşıllıq zolaqları salınmışdır.

Kompleksin muzeyi ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, orijinal tərtibatı ilə seçilən muzeydə Naxçıvan Muxtar Respublikasının ərazisində aşkarlanan tarixi əşyalar xronoloji ardıcıllıqla düzülmüşdür. Eramızdan əvvəl V minilliyə aid təsərrüfat küpü, eramızdan əvvəl V-III minilliyə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrünə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, zirehli geyim hissələri muzeyin qiymətli eksponatlarındandır. Burada, həmçinin xalça və XIX əsrə aid milli geyimlər də nümayiş olunur. Bu muzeydəki eksponatlar bir daha sübut edir ki, Naxçıvanda tapılan tarixi-memarlıq abidələri dünya miqyasında böyük maraqla qarşılanır. Belə abidələr Azərbaycan xalqının tarixinin, mədəniyyətinin və adət-ənənələrinin qədim köklərə malik olduğunu göstərir.

Muzeyin, ümumilikdə kompleksin yaradılması bəşər sivilizasiyasının ilk beşiklərindən olan Naxçıvan diyarının əsrlər boyu Şərqin ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzi olduğunu və bu torpağın antik, orta əsrlər, yeni və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə zənginliyini sübut edir. Naxçıvan Muxtar Respublikasının ərazisindəki abidələrin 600-ə yaxını dünya və ölkə əhəmiyyətli tarix və mədəniyyət abidəsidir. Buranın tarixi əhəmiyyətini artıran mühüm amillərdən biri də qala divarları yaxınlığında Nuh peyğəmbərin məzarının olmasıdır. Bizim eradan əvvəl I əsrdə yəhudi tarixçisi İosif Flavi və bizim eranın II əsrində yunan coğrafiyaşünası Klavdiy Ptolemey Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi xatırlatmış, rus tədqiqatçısı K.A.Nikitin isə 1882-ci ildə nəşr etdirdiyi məqaləsində Naxçıvan şəhərinin əsasının Nuh peyğəmbər tərəfindən qoyulduğunu qeyd etmişdir.

Dünyanın ən qədim insan məskənlərindən biri olan Azərbaycanın Naxçıvan Muxtar Respublikasının ərazisində xalqımız tarixin bütün dövrlərində zəngin mədəniyyət və memarlıq nümunələri yaratmışdır. Tarixi araşdırmalar göstərir ki, bu memarlıq abidələri arasında özünəməxsus yeri olan Naxçıvanqala yalnız müdafiə məqsədi daşımamışdır. Bu

qala, eyni zamanda, burada formalaşmış ilkin şəhər mədəniyyətinin ayrılmaz elementinə çevrilmişdir. İlk orta əsrlərə aid mənbələrdə tarixçilər Naxçıvan şəhərini ətrafı möhkəmləndirilmiş qala kimi xarakterizə edirlər. Naxçıvan şəhərinin 1827-ci ilə aid planında Naxçıvanqalanın sxematik təsviri də verilmişdir. Plana əsasən, qala iki hissədən – kiçik qala, yəni Narınqala və Böyük qaladan ibarət olmuşdur. Xalqımız Narınqalanın qalıqlarını günümüzədək qoruyub saxlaya bilmişdir. Daş qatışığı olan möhrədən tikilən qala divarları yarımdairəvi bürclərlə möhkəmləndirilmişdir. Yaşayış binaları, əsasən, qala divarları boyunca salınmış, onların damından döyüşçülərin və qala keşikçilərinin hərəkət etməsi üçün istifadə olunmuşdur. Ötən əsrin ortalarında Naxçıvanqalada aparılan tədqiqatlar zamanı zəngin arxeoloji materiallar - saxsı qablar və Tunc dövründə duz mədənlərində əmək aləti kimi istifadə olunmuş daş gürzlər aşkar edilmişdir. Bu hadisə sənətkarlığın inkişaf etdiyi və şəhər mədəniyyətinin formalaşdığı tarixi-etnoqrafik ərazilərdən biri kimi Naxçıvanqalanın əhəmiyyətini daha da artırır.

Diqqətə çatdırıldı ki, kompleksdəki mağarada da bərpa işləri aparılmışdır. Bir neçə istiqamətə, o cümlədən Naxçıvan çayına çıxışı olan mağaradan sakinlər hərbi hücumlar və mühasirələri yarmaq üçün istifadə etmişlər. Qalanın xüsusiyyətlərindən biri də onun altından kəhrizlərin keçməsidir. Bu fakt həm dinc, həm də mühasirə və müharibə dövrlərində qala sakinlərinin su ilə təminatına və ərzaq məhsullarının saxlanmasına şərait yaratmışdır.

Muzey kompleksi ilə tanış olan Prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.

*7 aprel 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRİ, MİSİRİN İSGƏNDƏRİYYƏ KİTABXANASININ DİREKTORU İSMAİL SERAGELDİNİ QƏBUL ETMİŞDİR

Dövlətimizin başçısı II Qlobal Açıq Cəmiyyətlər Forumunun təşkilinə verdiyi dəstəyə görə İsmail Serageldinə təşəkkürünü bildirdi. Forumun artıq beynəlxalq təsisata çevrilməkdə olduğunu vurğulayan Prezident İlham Əliyev tədbirin bundan sonra da uğurla fəaliyyət göstərəcəyinə ümidvar olduğunu dedi.

Öz növbəsində II Qlobal Açıq Cəmiyyətlər Forumunun yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldin Forumun qısa vaxt ərzində dünyada tanınmasının önəmini qeyd etdi.

*28 aprel 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA İKİNCİ QLOBAL AÇIQ CƏMİYYƏTLƏR FORUMUNUN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılışında iştirak etmişdir.

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Madrid Klubunun təşkilatçılığı, BMT, Dünya Elmlər və Mədəniyyət Akademiyası, Roma Klubu, İsgəndəriyyə Kitabxanası və digər təşkilatların birgə əməkdaşlığı çərçivə-

sində keçirilən II Qlobal Açıq Cəmiyyətlər Forumu 2015-ci il və ondan sonrakı mərhələdə dünyanın davamlı inkişafına həsr olunmuşdur. İki gün davam edəcək bu mötəbər beynəlxalq tədbirdə 30 ölkədən sabiq dövlət və hökumət başçıları, ümumilikdə 200-dək tanınmış siyasi və ictimai xadim, ekspert və elm adamı iştirak edir.

II Qlobal Açıq Cəmiyyətlər Forumunun açılışında çıxış edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi idarə heyətinin həmsədri, Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail SERAGELDİN bildirdi ki, dünyada insanları bir araya gətirməyi, onlar üçün daha yaxşı həyat şəraitinin yaradılması ilə bağlı təşəbbüslərin irəli sürülməsinə nail olmağı əsas məqsədinə çevirən bu Forum qloballaşma dövründə açıq cəmiyyətlərin qurulmasına xüsusi əhəmiyyət verir. İsmail Serageldin dedi:

- Zati-aliləri!

Xanımlar və cənablar!

Belə bir möhtəşəm toplantıya xoş gəlmisiniz. Bizim buraya toplaşmaqda məqsədimiz bütün dünyada yaşayan insanları bir araya gətirmək, onların arasında təmaslar yaratmaq, onlar üçün daha yaxşı həyat tərzini və səviyyəsini təmin etməkdir.

Bu gün biz dünyada olan vəziyyətə, havanın qlobal istiləşməsi, münaqişələr, müharibələr, su resurslarının idarə edilməsi və digər problemlərə diqqət yetirəcəyik. Cəmiyyətlər daxilindəki təcridolunma hallarına nəzər yetirsək görə bilərik ki, açıq cəmiyyətlərin qurulması xüsusi əhəmiyyət kəsb edir. Buna görə, biz diqqətimizi məhz tariximizin səhifələrinə yetirməliyik, özümüz üçün müəyyən etməliyik ki, həyatın cövhəri nədir, biz həyati dəyərlərimizi nə dərəcədə qoruyub saxlaya bilmişik, yoxsa biz onları itirmişik, yoxsa biz onları diqqətdən kənarda qoymuşuq?! Buna görə, bu il yenidən bizim Bakıda toplaşmağımız 2013-cü ildə keçirilmiş birinci Forumda qaldırılmış məsələləri daha ətraflı şəkildə müzakirə etmək imkanı yaradır.

Hər zaman biz belə bir mühüm tədbirləri ilk növbədə ev sahibinə, Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıq sözləri ilə başlayırıq.

* * *

Dövlətimizin başçısı Forumda nitq söylədi.

## PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Sizin hamınızı Azərbaycanda salamlayıram və ümidvar olduğumu bildirmək istəyirəm ki, ölkəmizdə olacağınız günlər uzun müddət ərzində sizin yaddaşınızda qalacaqdır. Burada Azərbaycana ilk dəfə səfər edən qonaqlarımız da vardır. Ümidvaram ki, bizim ölkəmiz, tariximiz, mədəniyyətimiz haqqında yaxşı təəssüratlarınız olacaqdır. Mən xüsusi olaraq həmkarlarımı - keçmiş dövlət və hökumət başçılarını salamlamaq istəyirəm. Təxminən otuzdan artıq keçmiş dövlət və hökumət başçısı qonaqlarımız sırasındadır. Bu, əlbəttə ki, tədbirimizin əhəmiyyətini göstərir.

Mən, həmçinin Madrid Klubuna təşəkkürümü bildirmək istəyirəm ki, onlar bizim ölkəmizin yaxşı tərəfdaşıdır. Bizim əməkdaşlığımız bir neçə il öncə qurulub və bu, çox məhsuldar və fəal işbirliyidir. Mən, həmçinin çox məmnunam ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi bu yaxınlarda yaradılmış bir qurum kimi olduqca qısa müddət ərzində kifayət qədər nüfuzlu beynəlxalq təsisata çevrilmişdir və artıq Madrid Klubu ilə birlikdə bu cür mühüm toplantını təşkil edir. Dostlarımıza, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə

dəstək verənlərə apardıqları fəaliyyətə görə olduqca minnətdaram. Bu Mərkəz Azərbaycan xalqının istedadının və müdrikliyinin rəmzi olan Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyır.

Forumun gündəliyi çox genişdir və həyatımızın bütün mühüm aspektlərini əhatə edir. Əlbəttə ki, bu gün və sabah keçiriləcək sessiyalar zamanı hər kəs üçün bərabər imkanlar və lazımi həyat standartlarını təmin etmək məqsədilə keçmişdə baş verənlər və gələcəkdə görülməli işlər barədə mühüm bəyanatlar veriləcəkdir. Açıq cəmiyyət elə bir cəmiyyətdir ki, onun bütün üzvləri özlərini rahat hiss edir, şərəfli həyat tərzi sürür, iş yerləri vardır və öz övladlarının gələcəyinə əmindirlər.

Bizim öz təcrübəmiz vardır. Müstəqillik baxımından ölkəmiz gəncdir. Müstəqilliyimizin əldə edilməsindən sonra cəmi 22 il keçməsinə baxmayaraq, belə bir qısa tarixi müddətdə müxtəlif məsələləri həll etməli olduq. Başlanğıcda bir çox problemlərdən, siyasi və iqtisadi çətinliklərdən əziyyət çəkmişik. İndi isə, Azərbaycan dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatlardan biri olduğu dövrdə bu dəyişiklik sadəcə gözlərimiz qarşısındadır və şadıq ki, biz bu prosesin bir hissəsi olmuşuq və həmçinin Azərbaycanın müasir dövlətə çevrilməsində fəal iştirak edirik. Xalqımızın gözəl tarixi, adət-ənənələri, mədəniyyəti vardır, lakin müstəqil ölkə kimi biz gəncik. Ötən əsrin əvvəlində müstəqillik dövrümüz olub, lakin bu, rus imperiyası dağıldıqdan və bolşevik inqilabından sonra baş verib və qısa sürüb, yalnız iki il çəkib. İnqilabın o vaxt şüarları var idi: Zavodlar fəhlələrə, torpaqlar kəndlilərə verilməli, azadlıq isə rus imperiyasının bütün xalqları üçün təmin edilməli idi. Lakin həmin vədlərin heç biri reallığa çevrilmədi.

Buna görə, iki ildən sonra biz müstəqillikdən məhrum olduq və Azərbaycan digər ölkənin bir hissəsinə çevrildi. Əlbəttə ki, bu, həyatımızın, tariximizin bir hissəsi olub. Ona görə keçmiş sovet məkanında yaşayan insanlar, fikrimcə, onlar öz müstəqilliyini, müstəqil seçimini, azad olmaq, öz dövlətinə malik olmaq hüququnu daha yüksək dəyərləndirirlər və onlar öz dövlətləri ilə fəxr edirlər. Azərbaycanın təcrübəsi göstərir ki, gələcəyimiz, taleyimiz öz əlimizdə olduğu zaman biz əvvəlki vaxtlarla müqayisədə daha çox iş görə bilərik. Çünki qısa müstəqillik dövrümüz göstərir ki, bütün çətinliklərə, iqtisadi və siyasi böhranlara, 1990-cı illərin əvvəlində vətəndaş müharibəsinə baxmayaraq, biz həmin çətinliklərin öhdəsindən gələ bildik. Bu gün gələcəyimizi planlaşdırdıqda həyat tərzimizi daha da yaxşılaşdırmaq və daha güclü olmaq haqqında düşünürük.

Bu cür dəyişikliklərin əsas səbəblərindən birinə, yəni, ilkin şərtlərə gəldikdə, bu, islahatlar siyasətidir. Çünki həyatımızın hər bir aspektini dəyişməli idik, biz azad və müstəqil, öz dövlətimizə malik olmağı və bir siyasi sistemdən digər sistemə keçməyi öyrənməli idik. Bunu isə etmək asan deyildi. Lakin bu, baş verdi. Bu gün dövlətçiliyimizin möhkəm əsasları vardır. Biz geniş şəkildə ölkəmizi müasirləşdirən siyasi və iqtisadi islahatlar apardıq. Demokratiyanı inkişaf etdirdik, əsas azadlıqları, o cümlədən indiki həyatımızın ayrılmaz hissəsi olan toplaşmaq azadlığı, media azadlığı, azad interneti təmin etdik.

İyirmi iki il öncə biz bunu sadəcə arzulaya bilərdik. Eyni zamanda, aydın anladıq ki, möhkəm iqtisadi əsaslar olmasa, müstəqilliyimiz tam ola bilməz. Buna görə də siyasi islahatlarla iqtisadi islahatlar paralel həyata keçirilir. Burada qeyd etməliyəm ki, uğurlarımızın əsas səbəblərindən biri xarici sərmayələrin cəlb edilməsi idi. İyirmi il öncə üzləşdiyimiz eyni çətinliklərlə üzləşən ölkələrə gəldikdə isə, bizim təcrübəmiz ölkəni necə dəyişmək, vətəndaşlara daha yaxşı həyat təmin etmək üçün yaxşı nümunə ola bilər.

Biz xarici sərmayələri cəlb etməyi bacardıq. Həmin sərmayələri inkişaf etdirmək istədiyimiz, həmçinin sərmayədarlar üçün cəlbedici olan iqtisadiyyat sahələrinə istiqamətləndirdik. Biz münbit sərmayə şəraitini yaratdıq və çox çalışdıq ki, hətta 15 il öncə mövcud olmuş məhdud resurslarla çox sayda iş yerləri yaradaq. Biz bu gün də düzgün

istiqamətdə irəliləyirik. Aydın şəkildə anladıq ki, müstəqilliyimizin gücləndirilməsində, onun əbədi, dönməz olmasında irəliyə doğru yol ondan ibarətdir ki, biz iqtisadi baxımdan azad, müstəqil və güclü olmalıyıq. İndi isə mən söyləyə bilərəm ki, illər boyu aparılan və bu gün də davam edən islahatlardan sonra Azərbaycan çox aydın gələcəyə malik olan ölkə kimi qəbul edilə bilər. Biz son 10 il ərzində dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatlardan biri olmuşuq. Bizim üçün davamlı inkişaf gələcək üçün planlaşdırma deməkdir. Bizim "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyamız vardır. Bu sənəd gələcəyimizin əsas bələdçi sənədi kimi qəbul edilib.

Maliyyə vəziyyətimiz sabitdir. Xarici borcumuzun səviyyəsi çox azdır, ümumi daxili məhsulun cəmi 8 faizini təşkil edir. Bu, o deməkdir ki, biz beynəlxalq maliyyə təsisatları ilə daha fəal şəkildə işləmək planlarını qura bilərik. Eyni zamanda, iqtisadiyyat inkişaf etdirilmək üçün şaxələndirilməlidir. Çünki əlbəttə, təbii sərvət hesab edilən neft və qaz uğurlarımızın aparıcı meyarı olub. Hazırda şaxələndirilmə bizim əsas prioritetimizdir. Çünki neft və qaz sektoru hesabına çox iş yerləri açılmır. Buna görə, iqtisadiyyatın şaxələndirilməsi, sosial infrastruktura yatırımlar uzaq bölgələrdə belə lazımi həyat tərzini təmin edir, hər bir şəhərə genişzolaqlı internet çıxışını yaradır. Üç min orta məktəbin, beş yüz xəstəxananın tikilməsi və digər amillər cəmiyyətimizə tamamilə yeni mühit yaratmaq imkanını verdi. İlk addım olaraq, biz xaricə miqrasiyanı, yəni, Azərbaycandan digər ölkələrə axını dayandırdıq. Bu, sonra ölkədaxili miqrasiya, yəni, insanların kiçik kənd yerlərindən Bakıya axını ilə əvəzləndi. İndiki məqsəd isə bu miqrasiyanı da dayandırmaqdır. Bu məsələ də ilbəil öz həllini tapır.

İqtisadi inkişaf olduqca ciddi sosial proqramlarla dəstəklənir. Çünki bilirik ki, bəzi hallarda radikal iqtisadi islahatlar insanların gündəlik həyatında müəyyən çətinliklər yaradır. Buna görə də hökumətimiz üçün sosial məsələlər hər zaman prioritet xarakter daşıyıb. Yaşayış standartlarının yaxşılaşdırılması, iş yerlərinin açılması, işsizliyin azaldılması, bütün bunlar göstərir ki, bunu etmək olar. Birinci olaraq, bizə sadəcə sabitlik lazımdır. Çünki sabitlik olmadan bütün bunlar mümkünsüzdür. İkincisi, əhalimizin əksər hissəsi tərəfindən dəstəklənən olduqca aydın daxili siyasətimiz vardır və biz nəticələrə nail olmalıyıq, verdiyimiz vədləri yerinə yetirməliyik, üzərimizə götürdüyümüz vəzifələri icra etməliyik. Bu halda olduqca mühüm məqama, siyasətçilərin məsuliyyətinə toxunuruq. Bu şəxslər işlərin başında dayanır. Bir sıra hallarda daha çox dəstək və daha çox səslərin qazanılması üçün bəzi həmkarlarımız populist vədlərlə çıxış edirlər. Lakin onlar yerinə yetirilməyəndə insanlar məyus olurlar. Siyasətçilərin məsuliyyəti onların özləri üçün olduqca çox vacibdir. Çünki bu, onlara etimad səviyyəsini artırır və cəmiyyəti daha da gücləndirir. Buna görə, nəticələrin əldə edilməsi əsas məqsədimiz idi. Bu nəticələr iqtisadi və statistik göstəricilərdə əks olunur. Hazırda yoxsulluq səviyyəsi təxminən 5 faizdir. Halbuki 10 il öncə 49 faiz olub. Surətli iqtisadi inkişaf Azərbaycan ətrafında olduqca yaxşı beynəlxalq mühit yaradır, çünki ölkəmiz daha çox tanınmağa başlayır. İndi daha çox insan Azərbaycanı tanıyır.

Hazırda biz tarixdə heç vaxt olmadığı kimi beynəlxalq təsisatların dəstəyinə malikik. Bunun bir nümunəsi bizim BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməyimizdə 155 ölkənin lehimizə səs verməsi oldu. Bu, o deməkdir ki, beynəlxalq ictimaiyyətin tam əksəriyyəti bizi dəstəklədi. Hətta ikitərəfli münasibətlərimiz o qədər fəal olmayan ölkələr belə bizi dəstəklədi. Onlar bizə etimad göstərdilər. Çünki bilirdilər ki, biz öz vədlərimizi yerinə yetirəcəyik. BMT-nin Təhlükəsizik Şurasının üzvü kimi əsas gündəliyimiz hüququn aliliyini və ədaləti qorumaq idi. Fikrimcə, bunlar indiki dünyanın iki ən əsas elementidir. Əfsuslar olsun ki, onların hər ikisi kobud şəkildə pozulub. Bu pozulmaya reaksiya yoxdur, çünki erməni qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxa-

rılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır. Həmin qətnamələrdən heç biri həyata keçirilməyib. İşğal davam edir. Biz etnik təmizləməyə məruz qalmışıq. Ölkəmizin tarixi hissəsi olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon 20 ildən çoxdur ki, işğal altındadır. Beynəlxalq təşkilatlar, əlbəttə ki, qətnamələri qəbul ediblər. Bununla bağlı digər beynəlxalq təşkilatlar - ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və əlbəttə ki, BMT-nin Baş Məclisi və Təhlükəsizlik Şurası qərarlar qəbul ediblər. Lakin onlardan heç biri yerinə yetirilməyibdir. Görünür, onların icra mexanizmləri yoxdur.

Zənnimcə, 1990-cı illərin əvvəllərində baş verənlər göstərdi ki, biz azad olmaq, müstəqillik üçün böyük qurbanlar verməli idik. Lakin cəmiyyətimizin bütün üzvləri tam əmin idi ki, bu vəziyyət uzun çəkə bilməz. Biz doğma torpaqlarımıza qayıdacağıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Azərbaycan xalqı, 1 milyon qaçqın və məcburi köçkün hazırda işğalçılar tərəfindən zəbt olunmuş torpaqlarında, doğma yurdlarında yaşamaq hüququnu bərpa edəcəkdir. 1990-cı illərin əvvəllərində Dağlıq Qarabağda ermənilər qeyri-qanuni referendum keçirdilər. Bundan öncə, Dağlıq Qarabağın əhalisinin üçdəbirini təşkil edən etnik azərbaycanlılar oradan qovulmuşdur. Bu hadisədən sonra qeyri-qanuni referendum keçirildi. Bu səbəbdən, dünyanın heç bir ölkəsi nə həmin "referendum"u, nə də qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımır. Bir sözlə, beynəlxalq hüquq, ədalət və tarix mövqeyimizi dəstəkləyir. Lakin aydın şəkildə anlayırıq ki, ədaləti və beynəlxalq hüququ bərpa etmək üçün bu, kifayət deyildir. Bunu etmək üçün biz daha güclü olmalıyıq. Əfsuslar olsun, görürük ki, güc yenidən beynəlxalq münasibətlərin gündəliyində əsas yer tutur. Onda regionumuzun ölkələri, bizim kimi ölkələr nə etməlidir? Əminəm ki, belə bir sual bu Forumda müzakirə olunacaqdır. Müxtəlif ssenarilər vardır. Lakin bir məsələ tam aydındır ki, siz öz taleyinizin sahibi olmalısınız. Siz daha güclü olmalısınız. Cəmiyyəti əsas prioritetlər ətrafında səfərbər etmək üçün ürəkdən çalışmalısınız. Bizim üçün əsas prioritet ərazi bütövlüyümüzün bərpa edilməsi, müstəqilliyimizin gücləndirilməsidir və daha yaxşı həyat standartlarının xalqımız üçün təmin edilməsidir. Bütün bu elementlər bir-biri ilə bağlıdır. Əgər insanlar hökumətin gördüyü işin nəticələrini görürlərsə, gündəlik əsaslarla onların həyat tərzi yaxşılaşırsa, öz ölkəsi ilə fəxr edirlərsə, onda cəmiyyət güclü olur, parçalanmır. Cəmiyyət əsas məqsədlər ətrafında səfərbər olunur, öncə qeyd etdiyim kimi, müstəqillik və suverenlik məqsədi ətrafında toplaşır. Əlbəttə ki, Azərbaycanın inkişafı, çatışmazlıqlar və problemlər barədə cəmiyyətimizdə müxtəlif fikirlər vardır. Biz cəmiyyətimiz daxilində bu müzakirələri hər zaman yüksək dəyərləndiririk. Lakin həyatımızın strateji aspektinə gəldikdə, biz birik, yekdilik. Bu birlik bizi beynəlxalq səhnədə gücləndirir, bizə bu gün dünyanın üzləşdiyi problemlər haqqında açıq danışmaq, öz mövqeyimizi, beynəlxalq hüququ müdafiə etmək imkanını verir. Belədir ki, var.

Bu gün Azərbaycan açıq şəkildə bəyan edilən mövqeyə malik olan ölkədir. Bu, bir daha ədalətə və beynəlxalq hüquqa əsaslanır. Lakin, eyni zamanda, biz on, iyirmi, otuz il əvvələ baxmalıyıq və siyasətimizi elə planlaşdırmalıyıq ki, dayanıqlı inkişaf davam etsin. Davamlı inkişaf isə bu gün hər bir ölkə üçün ən vacib prioritetlərdən biridir. Hətta ən inkişaf etmiş ölkələrə gəldikdə, onların öz problemləri vardır. Onların iqtisadi problemləri, miqrasiya məsələləri vardır. Onlara əlavə işçi qüvvəsi lazımdır. Lakin, eyni zamanda, bu, cəmiyyətlərdə müəyyən gərginlik yaradır. Bizim fərqli problemlərimiz vardır. Fikrimcə, bu, problem deyil, əslində üstünlükdür. Bizim artan, gənc, dinamik əhalimiz vardır. Bu, o deməkdir ki, iqtisadiyyatımız hər zaman əhalinin artım tempindən daha surətlə inkişaf etməlidir. Çünki belə olmasa, biz günlərin bir günündə çətinliklər və işsizliklə üzləşə bilərik. Buna görə, surətli iqtisadi inkişaf, yeni iş yerlərinin açılması, sərmayələrin cəlb edilməsi və enerji əməliyyatlarından əldə edilən gəlirlərin

iqtisadiyyatımızın ən vacib sahələrinə istiqamətləndirilməsi prioritetdir. Biz bu yolla davamlı inkişafa nail ola bilərik.

Cəmiyyətimizdə sosial və siyasi razılığın ən vacib elementlərindən biri multikulturalizmdir. Biz bir neçə beynəlxalq tədbir keçirmişik. Sivilizasiyalararası dialoq mövzusunda söhbətlər aparmışıq, beynəlxalq humanitar forumlar təşkil etmişik ki, bu mühüm mövzuları nəzərdən keçirək. Fikrimcə, bu kimi məsələlər bu günə qədər belə açıq şəkildə müxtəlif beynəlxalq təsisatlarda müzakirə olunmur. Çünki bu vəziyyətlə bağlı müxtəlif yanaşmalar vardır. Bəzi insanlar hesab edir ki, bu ideya baş tutmayıb. Lakin hesab edirəm ki, yaxşı misallar vardır və onlar yaxşı şəkildə nəzərdən keçirilməlidir ki, burada hər hansı bir bədbinlik olmasın. Multikulturalizm uçurum kimi qəbul edilərsə, bu dünyada yaşamağın başqa üsulu yoxdur. Çünki belə olmasa, xalqlar özlərini təcrid olunmuş vəziyyətdə hiss edəcəklər. Bu, nə iqtisadi, nə də sosial baxımdan mümkün deyildir. Buna görə, fikrimcə, Azərbaycanın, o cümlədən digər ölkələrin tarixi ənənələrinə əsaslanan müsbət misallar var ki, onlar təfərrüatlı şəkildə nəzərdən keçirilməlidir. Biz bu dəyərləri təşviq etməliyik. Bu da bizim vacib elementlərimizdən biridir ki, mən onları qeyd edirəm. Müsbət təcrübənin təşviqi bəzən bizim üçün çatışmır. Lakin, fikrimcə, dəyərlərin qorunması, qlobal siyasətdə müsbət meyllərin gücləndirilməsi üçün biz müsbət təcrübəyə diqqətimizi yönəltməliyik və bunu yaymalıyıq. Çünki bunun başqa bir yolu yoxdur ki, ölkələr gələcəkdə başqa yolla əməkdaşlıq etsinlər.

Əminəm ki, Forum çərçivəsində bir çox maraqlı müzakirələr aparılacaq və gələcək inkişafla bağlı hökumətlər üçün tövsiyələr veriləcəkdir. Bu cür sessiyaların üstünlüyü ondan ibarətdir ki, məşhur siyasətçilər, keçmiş dövlət və hökumət başçıları öz fərdi təcrübələrini, biliklərini, ekspert bacarıqlarını çox açıq şəkildə bölüşə bilərlər. Çünki hazırkı və keçmiş prezidentlər və baş nazirlər arasındakı fərq ondan ibarətdir ki, hazırkı dövlət başçıları ictimaiyyət qarşısında söylədiyi şərhlərdə müəyyən çərçivə daxilindədirlər, məhdud imkanları vardır. Bəzi hallarda sən söylədiyindən də artıq danışmaq istəyirsən. Lakin keçmiş siyasətçilər hər hansı məsələ ilə bağlı fikir söyləməkdə azaddırlar. Onların bu söhbəti məhz bu tərəqqinin əldə edilməsi üçün vacibdir. Ona görə, əminəm ki, Forumumuzun əsas məqsədi tövsiyələr və təhlillər vermək, baş verənləri müzakirə etməkdir. Bu məqsəd bizə öz işlərimizi dinc şəraitdə davam etdirmək, şərəfli həyat tərzi sürmək və geniş şəkildə beynəlxalq əməkdaşlıq aparmaq imkanı yaradacaqdır.

Hörmətli dostlar, Azərbaycana bir daha xoş gəlmisiniz! Forumun işinə uğurlar arzulayıram. Sağ olun.

* * *

Bununla da Forumun əsas plenar iclası başa çatdı.

*28 aprel 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV AĞDAŞDA HEYDƏR PARKINDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Son illərdə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi, regionların simasına yeni elementlərin daxil olması ilə müşayiət edilir. Ölkəmizin şəhər və rayonlarında aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması, yenidən qurulması da diqqətdən kənarda qalmır. Bu sahədə həyata keçirilən işlər çərçivəsində Ağdaş şəhərindəki Heydər Parkının yenidən qurulması da xüsusi əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən Ağdaşda da yenilənən Heydər Parkı, ilk növbədə rayon sakinlərinin istirahətinin yüksək səviyyədə təşkilinə xidmət edir. Müasir tələblər səviyyəsində qurulan və Ağdaşın mərkəzi hissəsinə xüsusi yaraşıq verən bu park Azərbaycanın tərəqqisi, ölkəmizin və onun bölgələrinin inkişafını bir daha sübut edir.

Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, rayon sakinlərinin mənalı istirahəti, ağsaqqalların, gənclərin və uşaqların asudə vaxtının səmərəli təşkili üçün 7 hektar ərazidə yerləşən Heydər Parkında ardıcıl olaraq yenidənqurma və tikinti-quraşdırma işləri aparılır. Ötən dövrdə bu parkda aparılan yenidənqurma işləri zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılmışdır. Yenidənqurma işlərindən sonra Heydər Parkı özünəməxsus elementlər və formalarla zənginləşdirilmişdir. Ərazidə yeni yollar və cığırlar salınmışdır.

Parkda yaradılan iki süni göl və 11 fəvvarə bu istirahət məkanının gözəlliyini daha da artırmışdır. Burada müasir işıqlandırma sistemi, müxtəlif attraksionlar, ana və uşaq istirahət mərkəzi, gənclər kafesi, mini avtodrom yaradılmışdır. Görülən işlər çərçivəsində açıq fitnes, 5D kino zalı, tir atıcılıq mərkəzi də qurulmuş, müasir dizaynda oturacaqlar qoyulmuşdur. Parkın ərazisinin yaşıllaşdırılması məqsədilə ağac və dekorativ gül kolları əkilmiş, geniş ərazidə çəmənlik salınmışdır.

*1 may 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AĞDAŞDA BAYRAQ MEYDANINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdaşda Bayraq Meydanında yaradılan şəraitlə tanış olmuşdur.

Ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayrağın yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində mümkün olmuşdur. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra milli bayrağımız ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvanda qaldırılmışdır. Odur ki, dövlətin atributlarına hörmət və ehtiram Ulu Öndərin bizə ən böyük əmanətidir. İndi bu bayraq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərində qürurla dalğalanır. Bu gün hər bir azərbaycanlı dövlət bayrağını özünün qürur mənbəyi hesab edir. Bu mühüm amili şərtləndirən əsas səbəblərdən biri də Prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşmasıdır. Fərəhli haldır ki, dünyanın ən hündür bayraq dirəyinin ucaldığı Bakıdan sonra ölkənin əksər bölgələrində də üçrəngli bayrağımızın şərəfinə meydanlar yaradılır, bununla bağlı xüsusi layihələr həyata keçirilir. Ağdaşda salınan Bayraq Meydanı və burada ucaldılan dövlət bayrağı da öz möhtəşəmliyi ilə diqqəti cəlb edir.

Qeyd olundu ki, Bayraq Meydanının inşasına ötən ilin fevralında başlanılmış və bu ilin aprelində sona çatdırılmışdır. Bayraq dirəyinin hündürlüyü 52 metrdir. Təbii mərmərlə üzlənmiş postamentin üzərində Azərbaycanın xəritəsi, dövlət himni və gerbi əks olunmuşdur. Meydan inşa olunarkən burada Azərbaycan milli memarlıq məktəbinin elementlərindən geniş istifadə edilmişdir.

Bayraq Meydanının ərazisində geniş abadlıq işləri görülmüş, yaşıllıq zolağı salınmış və müasir işıqlandırma sistemi quraşdırılmışdır. Ağdaş sakinlərinin istirahəti üçün meydanda hər cür şərait yaradılmışdır.

*1 may 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV AĞDAŞDA HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycan dövlətçiliyinin möhkəm əsaslar üzərində qurulmasında, respublikanın hərtərəfli inkişafında, ölkədə bütün sahələrin canlandırılmasında böyük xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi üçün mühüm tədbirlər görülür. Dünya şöhrətli siyasi xadimin anadan olmasının 91-ci ildönümü münasibətilə hazırda vacib layihələr reallaşdırılır. Bu layihələr sırasında paytaxt Bakıda və bölgələrdə yaradılan Heydər Əliyev mərkəzlərinin dahi şəxsiyyətin siyasi irsinin öyrənilməsində mühüm rolu vardır.

Belə mərkəzlərdən biri də Ağdaş şəhərində tikilmişdir. Bu Mərkəzin yaradılması, ilk növbədə ağdaşlıların dünya şöhrətli siyasi xadimin xatirəsinə ehtiramını nümayiş etdirir. Bu, həm də Ulu Öndərin zəngin və çoxşaxəli irsinin təbliğində və öyrənilməsində mühüm rol oynayır. Mərkəzdəki foto və eksponatlar bir daha sübut edir ki, Azərbaycanın tənəzzül dövründən yüksəliş mərhələsinə qədəm qoyması və indiki hərtərəfli inkişafı, beynəlxalq nüfuzunun artması məhz ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri ilə bağlıdır.

Prezident İlham Əliyevə məlumat verildi ki, Mərkəzin inşasına 2012-ci ilin avqustunda başlanmışdır. İnşaat işləri ən yüksək standartlar səviyyəsində həyata keçirilmişdir. Ümumi sahəsi 5 min 800 kvadratmetr olan ikimərtəbəli bina zəruri avadanlıqla təchiz edilmişdir.

Girişdə Mərkəzin qonaqlarına inzibati binanın maketi təqdim olunur. Birinci mərtəbədə ümummilli lider Heydər Əliyevin büstü qoyulmuşdur. Buradakı ekspozisiya zalında Ulu Öndərin həyat və fəaliyyəti ilə bağlı sənədlər böyük maraq doğurur. Dahi şəxsiyyətin müxtəlif dövrlərdə çəkilmiş fotoları 6 guşədə yerləşdirilmişdir. Bu fotolarda Ümummilli Liderin istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərlik edərkən Ağdaşın inkişafına da xüsusi diqqət göstərməsi dolğun əksini tapmışdır. Ulu Öndərin rayondakı müxtəlif obyektlərin açılışında iştirak etməsi, ictimaiyyət nümayəndələri, ziyalılar və zəhmətkeşlərlə görüşləri ağdaşlıların xatirəsində dərin izlər buraxmışdır. Mərkəzdə xarici dil kursları, foto-video-audio studiya, informasiya texnologiyaları otağı, xalq çalğı alətləri dərnəyi, rəqs studiyası, internet klub, kafe, 3D kino zalı və s. fəaliyyət göstərəcəkdir.

Prezident İlham Əliyevin müxtəlif illərdə Ağdaşa səfərlərini əks etdirən fotoguşənin də yaradıldığı Mərkəzdə rayonun ictimai-siyasi həyatında baş verən mühüm hadisələr və əlamətdar günlərlə bağlı tədbirləri yüksək səviyyədə keçirmək üçün hərtərəfli imkan vardır. Mərkəzin böyük və kiçik konfrans zallarında ictimai-siyasi və mədəni-kütləvi tədbirlərin, o cümlədən ulu öndər Heydər Əliyevin zəngin irsinin geniş təbliği məqsədi ilə açıq dərslərin keçirilməsi də nəzərdə tutulmuşdur. Açıq sərgi salonunda maraqlı rəsm nümunələri nümayiş etdirilir. Burada rəsm və heykəltəraşlıq studiyası, xalq sənətkarlığı emalatxanası, dizayn və kompyuter kursları, elektron kitabxana fəaliyyət göstərəcəkdir.

İntellektual oyunlar otağında müxtəlif oyunların təşkili planlaşdırılır.

Son illər respublikamızda fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində yeni ailə quran gənclərin nikah mərasimlərinin keçirilməsi nəzərə alınaraq, burada da müvafiq şərait yaradılmışdır.

Mərkəzlə tanışlıqdan sonra dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

**Mərasim iştirakçılarını salamlayan Prezident İlham ƏLİYEV dedi:**

- Sabahınız xeyir olsun.

Sizi ürəkdən salamlayıram. Bu gün biz Ağdaş rayonunda yenidən görüşürük. Mən Ağdaş rayonunda dəfələrlə olmuşam. Bu dəfə də burada görülən işlərlə tanış olacağam.

Biz bu gün ilk növbədə Heydər Əliyev Mərkəzinin açılışını qeyd edirik. Bu, gözəl hadisədir. Möhtəşəm Mərkəzdir. Həm memarlıq, həm də daxili dizayn baxımından göz oxşayır. Bu gözəl Mərkəz bir memarlıq abidəsidir. Eyni zamanda, Mərkəzdə yerləşən studiyalar, dərnəklər əlbəttə ki, onun funksional əhəmiyyətini də artıracaqdır.

Belə mərkəzlərin bölgələrdə açılması həm Azərbaycan xalqının Ulu Öndərə olan ehtiramının təzahürüdür, eyni zamanda, mərkəzlərdə Heydər Əliyevin keçdiyi yolla bağlı ekspozisiyalar quraşdırılır, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi üçün gördüyü işlər, müasir Azərbaycan tarixi öz əksini tapır. Bu mərkəzlərdəki sənədlər, fotomateriallar, ekspozisiyalar bizim yaxın tariximizi əks etdirir.

Mərkəzlərin böyük mənəvi funksiyaları vardır. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdə, bildiyiniz kimi, çox ağır vəziyyətdə idi. Demək olar ki, müstəqilliyimiz əldən gedirdi, xaos, anarxiya hökm sürürdü, vətəndaş müharibəsi başlamışdı.

Azərbaycan xalqının tələbi ilə Ulu Öndərin hakimiyyətə gəlməsi nəticəsində bütün xoşagəlməz hallara son qoyuldu və Azərbaycan inkişaf yoluna qədəm qoydu. Beləliklə, 1993-cü ildən bu günə qədər ölkəmiz inkişaf və sabitlik dövrü yaşayır. Hər bir ölkənin inkişafı üçün sabitlik başlıca şərtdir. Bu gün Azərbaycanın uğurlu inkişafı məhz əldə edilmiş sabitliyin nəticəsidir.

Biz Ulu Öndərin siyasətinə sadiqik. Azərbaycan onun qoyduğu yolla gedir və uğurla gedir. Son 20 ilin inkişafı onu göstərir ki, bu, düzgün yoldur. Başqa yol ola bilməz. Azərbaycan bu gün dünya miqyasında çox etibarlı ölkə, tərəfdaş kimi tanınır. Bizim beynəlxalq nüfuzumuz artır. Xarici siyasətimizin təməlini də Heydər Əliyev qoymuşdur. Bu siyasət müstəqillik əsasında qurulur. Bu gün bizim iqtisadi imkanlarımız artdıqca əlbəttə ki, dünyada, beynəlxalq arenada istənilən məsələ ilə bağlı sözümüzü açıq ifadə edirik. Bizim hər bir məsələ ilə bağlı prinsipial mövqeyimiz vardır və bu mövqe ədalətə əsaslanır.

Bu gün Azərbaycan artıq beynəlxalq tədbirlərin keçirilməsi üçün də öz rolunu oynayır. Azərbaycan nəinki bölgədə, dünya miqyasında bir mərkəzə çevrilibdir. Demək olar ki, hər həftə beynəlxalq tədbirlər keçirilir. Yüzlərlə, minlərlə yüksək vəzifəli qonaq Azərbaycana gəlir. Hər bir qonaq bilirəm ki, böyük təəssüratlarla öz vətəninə qayıdır. Çünki bizdə olan inkişafa, quruculuğa, abadlığa bu gün dünyada nadir hallarda rast gəlmək olur.

Bütün bunları biz özümüz yaratmışıq, Azərbaycan xalqı yaradıbdır. Biz Ulu Öndərin qoyduğu yolla gedirik. Biz bütün bu nailiyyətləri Azərbaycan xalqının zəhməti, istedadı hesabına əldə etmişik. Biz bu nailiyyətləri ildən-ilə möhkəmləndiririk.

Əlbəttə ki, iqtisadi sahədə aparılan islahatlar bizim gücümüzü artırmışdır. Əgər bu, olmasa idi, biz asılı vəziyyətə düşər, xarici maliyyə qurumlarının kreditlərindən asılı olardıq.

Ancaq bu gün Azərbaycan özü bəzi ölkələrə kreditlər verir. Azərbaycan özü xaricə investisiyalar qoyur. Bu gün dünyada hələ də yaşanan iqtisadi-maliyyə böhranı Azərbaycan kimi ölkələrin əhəmiyyətini böyük dərəcədə artırır. Çünki bizim iqtisadi siyasətimiz milli maraqlar üzərində qurulub, düşünülmüş siyasətdir. Həm islahatlar aparılır, həm də insanların rifah halının yaxşılaşması üçün işlər görülür. Bir sözlə, Azərbaycan bu gün öz iqtisadi gücünü artırır. Təsadüfi deyildir ki, Azərbaycan son 10 il ərzində dünyada ən sürətlə inkişaf edən ölkə kimi artıq qəbul edilib. İqtisadi inkişaf hər bir sahəyə müsbət təsir göstərir.

Bu il üçüncü regional inkişaf proqramı da qəbul edilmişdir. 2004-cü ildə birinci, 2009-cu ildə ikinci və bu il üçüncü proqram qəbul edilib. Bu proqram çox dəqiqdir, müfəssəldir. Hər bir məsələ orada öz əksini tapıb. Hər bir rayonun inkişafı da o proqramda nəzərə alınıbdır. Hər bir rayonun, hər bir kəndin problemi həll olunandan sonra ölkəmizdə heç bir problem qalmayacaqdır.

Əvvəlki dövrlərdə də iki proqramın icrası nəticəsində Ağdaş rayonunda böyük işlər görülmüşdür. Bax, burada yerləşən Olimpiya İdman Mərkəzini, böyük xəstəxananı, bütün bu sosial obyektləri biz bir yerdə açmışıq və onlar insanlara xidmət göstərir. Rayonda sosial infrastrukturun yaradılması, məktəblərin tikintisi davam edir. Bilirəm, hələ də qəzalı, yararsız vəziyyətdə məktəblər vardır, ancaq tədricən onlar da təmir olunacaqdır. Beləliklə, üçüncü proqramın icrası nəticəsində 2018-ci ilə qədər sosial infrastrukturla, ümumiyyətlə, infrastruktur layihələri ilə bağlı heç bir problem qalmamalıdır.

Ağdaşda infrastruktur layihələri icra edilir, qazlaşdırma aparılır. Kəndlərin əksəriyyəti qazlaşdırılıbdır. Növbəti illərdə Ağdaşda qazlaşdırma 100 faizə çatmalıdır. Hər bir yaşayış məntəqəsində təbii qaz olmalıdır. Şəhərdə də köhnə borular dəyişdiriləcək və beləliklə, qaz təsərrüfatı ən yüksək səviyyədə olacaqdır. İçməli su layihələri icra edilir. Əminəm ki, bu məsələ də yaxın gələcəkdə tam şəkildə öz həllini tapacaqdır. Kənd yolları tikilir. Biz bu gün bir neçə kəndi birləşdirən kənd yolunun açılışını qeyd edəcəyik.

Yəni, insanların normal yaşaması üçün bütün şərait yaradılır və şəhər də gözəlləşir, abadlaşır. Bax bu yer, şəhərin yeni sahəsidir, yeni inkişaf zonasıdır. Yadımdadır, burada birinci tikilən Olimpiya Mərkəzi olmuşdur. Ondan sonra xəstəxana tikildi, daha sonra meydan yaradıldı. İndi isə Heydər Əliyev Mərkəzi, icra hakimiyyətinin, Yeni Azərbaycan Partiyasının inzibati binaları açılır. Yəni, bura bir mərkəz olubdur. Ağdaşın ənənəvi mərkəzi vardır. Orada da abadlıq işləri aparılır. Ancaq bu, yeni mərkəzdir. Görün, bütün işlər nə qədər böyük səliqə ilə, zövqlə görülübdür, ağaclar əkilir, qazonlar salınır. Bu binalar da memarlıq nümunəsidir.

Bu gün Azərbaycan elə bir səviyyədədir ki, hər bir rayon mərkəzi, hər bir şəhər dünyanın aparıcı şəhərlərindən geri qalmamalıdır. Çünki Azərbaycan vətəndaşları daha da yaxşı həyata layiqdirlər. Biz hakimiyyət olaraq bu şəraiti yaradırıq və yaratmalıyıq.

Bu gün, eyni zamanda, burada sənaye müəssisələrinin açılışı nəzərdə tutulur. Bu il bilirsiniz ki, Azərbaycanda "Sənaye ili"dir. Bizim gələcək iqtisadi inkişafımız sənaye ilə bağlıdır. Qeyri-neft sənayesi ilə bağlıdır ki, biz bu sahəni daha da inkişaf etdirək. Kənd təsərrüfatı, emal sənayesi - bütün bunlar həm iş yerlərinin açılmasına gətirib çıxarır, həm milli gəlirimizi artırır, ümumiyyətlə, ölkəmizin inkişafı üçün lazım olan məsələlərdir.

Yəni, hər bir sahə diqqət mərkəzindədir, elə də olmalıdır, elə də olacaqdır. Əminəm ki, Ağdaşda bundan sonra daha da gözəl işlər görüləcəkdir. Ancaq bu günə qədər görülən işlər hesab edirəm ki, təqdirəlayiqdir. Bu nailiyyətlər münasibətilə sizi ürəkdən təbrik edirəm və sizə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*1 may 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI" ELMİ MƏRKƏZİNİN YENİ BİNASININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda gedən sürətli inkişaf prosesləri bir çox sahələrlə yanaşı, elmin tərəqqisi və milli mənəvi dəyərlərin qorunması sahəsində də sürətli yüksəlişə geniş imkanlar açmışdır. Bu sırada "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin inkişafı ilə bağlı tədbirlərin görülməsi də diqqət mərkəzində saxlanılmışdır. Çünki Azərbaycanda ensiklopediya mədəniyyətinin öz tarixi vardır.

Bu mühüm və dəyərli fəaliyyətin ən böyük yüksəliş çağları ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin fəal dəstəyi ilə 1976-1987-ci illərdə çap edilən "Azərbaycan Sovet Ensiklopediyası" ölkə tarixinə bilik və məlumatların bütün sahələrini əhatə edən ilk fundamental əsər kimi daxil olmuşdur. O vaxt böyük elmi potensialın cəlb edilməsi ilə hazırlanan bu oncildlik ensiklopediyanın nəşri Azərbaycanın elmi və mədəni həyatında tarixi hadisəyə çevrilmişdi.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra universal milli ensiklopediyanın nəşri məsələsi yenidən aktuallaşdı. Azərbaycan Milli Ensiklopediyası xalqımızın tarixi inkişaf mərhələlərini, milli mənəvi sərvətlərini, habelə dünyanın elm və mədəniyyət nailiyyətlərini özündə əks etdirən elmi nəşr olmalı idi. Prezident İlham Əliyev dövlət əhəmiyyətli bu mühüm işin həyata keçirilməsini, ensiklopediyanın yüksək elmi səviyyədə hazırlanıb nəşri üçün tələb olunan maddi-texniki bazanın yaradılmasını təmin etmək məqsədilə müxtəlif illərdə "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", həmçinin "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin yaradılması haqqında" sərəncamlar imzalamışdır.

Yeni milli ensiklopediyanın hazırlanmasında azərbaycançılıq ideologiyası təməl prinsip kimi önə çəkilmiş, onun respublikamızın yeni dövrdəki tələblərinə cavab verməsi, xalqımızın həyatındakı mühüm tarixi, ictimai-siyasi, elmi və mədəni hadisələri obyektiv şəkildə əks etdirməsi kimi mühüm vəzifələr müəyyənləşdirilmişdir. Redaksiya heyətinin sədri Prezident İlham Əliyev olan Azərbaycanın Milli Ensiklopediyasının artıq ilk cildləri oxucuların istifadəsinə verilmişdir. Dövlətimizin başçısı elmi araşdırmaların səmərəliliyini artırmaq, tədqiqat işlərinin müasir texnologiyalar əsasında aparılmasına, məlumatların daha ətraflı və geniş formatda hazırlanmasına nail olmaq məqsədilə 2012-ci il iyulun 25-də daha bir mühüm sənədi imzalamışdır. Azərbaycan Milli Elmlər Akademiyasının "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin yeni binasının tikintisi ilə bağlı tədbirlər haqqında Prezident İlham Əliyevin imzaladığı Sərəncam elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Sərəncamda binanın tikintisi üçün dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Milli Elmlər Akademiyasına ilkin olaraq 5 milyon manat vəsait ayrılması qərara alınmışdı. Tikintisi yüksək standartlara uyğun aparılan "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin yeni binası artıq istifadəyə hazırdır.

Prezident İlham Əliyev "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Qeyd edildi ki, Akademiya şəhərciyinin həyətində ən müasir texnologiyalar əsasında tikintisi başa çatdırılan yeni mərkəzdə ölkə həyatının bütün sahələrini dəqiq və hərtərəfli əhatə edən elmi məqalələrin hazırlanıb Milli Ensiklopediyada toplanması üçün ən müasir şərait yaradılmışdır. Binanın foyesində Azərbaycanın ilk ensiklopediyasının yaradılması təşəbbüsünü irəli sürən ümummilli lider Heydər Əliyevin büstü qoyulmuşdur.

Prezident İlham Əliyev mərkəzin kitabxanası ilə tanış oldu.

"Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin direktoru, redaksiya heyətinin məsul katibi, akademik Tofiq Nağıyev bildirdi ki, burada Azərbaycan Milli Ensiklopediyasının "Azərbaycan" xüsusi cildi nümayiş olunur. Bütövlükdə Azərbaycan Respublikasına həsr olunmuş cilddə ölkəmizin dünəni və bu günü: qədim tarixi və müasir həyatı, təbii sərvətləri və geosiyasi mövqeyi, elm, təhsil və mədəniyyət sahələrində qazandığı nailiyyətlər əksini tapmışdır. Bununla da Azərbaycan haqqında indiyə qədər bənzəri olmayan yeni və müfəssəl məlumat toplusu hazırlanmışdır. Nəşr 2007-ci ildə Azərbaycan, 2012-ci ildə isə rus dillərində işıq üzü görmüşdür. Hazırda "Azərbaycan" cildinin ingilis dili versiyası üzərində iş görülür.

Kitabxanada 847-ci ildə nəşr olunan dünyanın ilk ensiklopediyasının surəti də nümayiş etdirilir. 2012-ci ildə nəşr olunan "Azərbaycan Muğam Ensiklopediyası"nın redaksiya heyətinin sədri Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevadır.

Mərkəzin kitabxanasında Azərbaycan Milli Ensiklopediyasının digər yeni nəşrləri və onlar barədə biblioqrafik məlumatlardan ibarət bukletlər sərgilənir. Mərkəzdə həm redaksiya heyətinin, həm də əməkdaşların fəaliyyəti üçün hər cür şərait mövcuddur.

Prezident İlham Əliyev mərkəzin akt və konfrans zalları ilə tanış oldu. Zallarda beynəlxalq və respublika əhəmiyyətli tədbirlərin keçirilməsi üçün bütün tələblər nəzərə alınmışdır. Kitab anbarı, mini mətbəə, müasir informasiya texnologiyalarının tətbiqinə imkan verən rabitə sistemi ölkə həyatının keçmişinin və bu gününün Milli Ensiklopediyada daha dolğun əksini tapması imkanlarını genişləndirəcəkdir. Ümumi tikinti sahəsi 7500 kvadratmetr olan mərkəzin ərazisində əsaslı abadlıq və yaşıllaşdırma işləri görülmüşdür.

Prezident İlham Əliyev görülən işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.

Sonda xatirə şəkli çəkdirildi.

*5 may 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI MƏRKƏZİ KİTABXANASININ YENİ BİNASININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı kitabxananın rəmzi açılışını bildirən lenti kəsdi.

Mərkəzi Kitabxananın yeni binası Prezident İlham Əliyevin 2011-ci il 29 aprel tarixli Sərəncamına əsasən tikilmişdir. Həmin ilin noyabrında dövlətimizin başçısı kitabxananın yeni binasının təməlini qoymuşdur. Yeni binanın tikintisi üçün ilkin olaraq Prezidentin ehtiyat fondundan 2 milyon manat vəsait ayrılmışdır. İnşaat işlərinin başa çatdırılması üçün 2011-2013-cü illərdə Nazirlər Kabinetinin sərəncamları əsasında ümumilikdə 34 milyon manatdan çox vəsait xərclənmişdir.

AMEA-nın prezidenti, akademik Akif Əlizadə dövlətimizin başçısına məlumat verdi ki, "Akademiya şəhərciyi"ndə tikilmiş yeni binanın ümumi sahəsi 28 min kvadratmetrdən çoxdur. Bu kitabxana respublikamızda milli və dünya əhəmiyyətli elmi nəşrlərin zəngin fondlarına malik olan ən iri, universal təmayüllü, aparıcı elmi kitabxanadır. Akademiyanın struktur bölməsi kimi fəaliyyət göstərən Mərkəzi Kitabxana kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitab tarixi və informasiyalaşdırma sahəsində fəaliyyət göstərir. Bu zəngin tarixə malik elm və mədəniyyət ocağı AMEA sistemində aparılan bütün kompleks və sahəvi problemlər üzrə ixtisaslaşdırılmış məlumat-informasiya mərkəzi və ölkə miqyasında baş elmi-texniki informasiya müəssisəsidir. Mərkəzi Kitabxananın yaradılması istiqamətində ilkin tədbirlər 1923-1924-cü illərdə həyata keçirilmişdir. 1945-ci ildən özünün yeni inkişaf mərhələsinə qədəm qoyan bu kitabxana xüsusilə ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə əsaslı inkişaf yolu keçmişdir. 2003-cü ilin yanvarında isə Azərbaycan Prezidentinin müvafiq Fərmanı əsasında Mərkəzi Kitabxana elmi status almışdır. Ötən illərdə əsaslı struktur dəyişiklikləri baş verən və bilavasitə elmi tədqiqatla məşğul olan yeni şöbələrin yaradıldığı Mərkəzi Kitabxananın binasında beynəlxalq standartlara uyğun səmərəli fəaliyyət üçün hər cür şərait yaradılmışdır.

Qeyd edildi ki, altımərtəbəli yeni bina orijinal layihəsi və müasirliyi ilə diqqəti cəlb edir. İnşaat işlərində yerli və beynəlxalq memarlığın ən qabaqcıl təcrübəsindən istifadə olunmuşdur. Ətrafda əsaslı abadlıq və yaşıllaşdırma işləri aparılmışdır.

Binanın girişində ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur.

Dövlətimizin başçısının tapşırığına uyğun olaraq Mərkəzi Kitabxanada ən son elmi-texniki yeniliklərə əsaslanan informasiya-kommunikasiya texnologiyalarının tətbiqi xüsusi diqqətdə saxlanılmışdır.

Prezident İlham Əliyevə AMEA-nın Mərkəzi Kitabxanasının ilk oxucu kartı təqdim edildi.

Məlumat verildi ki, kitabxanaya üzv olmaq istəyənlərə oxucu bileti avtomatik qaydada təqdim edilir. Ölkəmizin kitabxanaçılıq tarixində ən müasir avadanlıq və sistemlər ilk dəfə məhz bu kitabxanada tətbiq olunmuşdur. Girişdəki elektron köşklərdə kitabxananın strukturu, hər bir mərtəbənin sxemi, müxtəlif bölmələrin yerləşdiyi mərtəbələr, kitablar, o cümlədən fonda yeni daxil olan nəşrlər barədə müfəssəl məlumat almaq mümkündür. Hərəkət qabiliyyəti məhdud insanların informasiya almaları üçün burada xüsusi köşk quraşdırılmışdır. Kitabxananın bütün mərtəbələrində quraşdırılan monitorlarda fonda daxil olan ən son yeniliklər barədə dolğun məlumatlar əksini tapmışdır. Burada kitabların sifarişi də elektron qaydada aparılır.

Diqqətə çatdırıldı ki, kitabxanada 300 kompyuter quraşdırılmışdır. Server vasitəsilə sistemə qoşulan kompyuterlər vahid şəbəkə təşkil edir və müvafiq tələblərə uyğun müasir proqramlarla təchiz edilmişdir. Bu da abunə haqqını ödəmək şərti ilə dünyanın aparıcı kitabxana resurslarına qoşulmaq imkanı yaradır.

Kitabxanada 1945-ci il martın 27-də təsis olunmuş Azərbaycan Elmlər Akademiyasının 15 nəfərdən ibarət ilk tərkibinə həsr edilən xüsusi guşə də yaradılmışdır. Bu elm ocağının akademikləri üçün zal da hərtərəfli təminatı ilə diqqəti cəlb edir. Həmin zalda eyni vaxtda 50 akademik elmi araşdırmaları ilə bağlı səmərəli iş apara bilər. Mərkəzi Kitabxananın yeni binasındakı 14 oxu zalında 1000-dən çox oxucunun eyni vaxtda elektron və çap məhsullarından istifadə etmək imkanı olacaqdır. Bilavasitə Akademiya işçiləri üçün nəzərdə tutulan abunə xidmətlərindən 80 oxucu eyni zamanda yararlana biləcəkdir. Ölkəmizin müxtəlif guşələrində yaşayan virtual abunəçilərin sorğularının cavablandırılması üçün də burada hər cür şərait yaradılmışdır.

Qeyd edildi ki, kitabxanada dissertasiya zalı da fəaliyyət göstərir. Burada səmərəli fəaliyyət üçün bütün imkanlar vardır. Müzakirə otağı və müasir texnika ilə təchiz edilən digər otaqlar da oxucuların istifadəsindədir.

Məlumat verildi ki, yeni binada kitab fondunun ənənəvi qaydada zənginləşdirilməsi ilə yanaşı, Azərbaycanda fəaliyyət göstərən kitabxana, fond, muzey, orta məktəblər, ali təhsil ocaqları, elmi tədqiqat institutları, media qurumları, arxivlər, şəxsi kolleksiyalar, yaradıcılıq ittifaqlarının fondları, dövlət foto arxivi, həmçinin dünya muzeyləri, sərgi salonları və elmi tədqiqat mərkəzlərində Azərbaycana aid müxtəlif məlumatlar, incəsənət nümunələri, əlyazmalar, eksponat və sənədlərin elektron kataloqu yaradılacaq və sistemləşdirilərək “Milli rəqəmsal yaddaş” bazasına daxil ediləcəkdir. Bu isə istər həmyerlilərimiz, istərsə də xaricilər üçün Azərbaycan haqında dolğun və obyektiv məlumatlardan istifadə imkanı yaradacaqdır.

Kitabxanada Akademiyanın bölmələrinə uyğun ixtisaslaşmış zallar fəaliyyət göstərir. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün böyük konfrans salonu da yaradılmışdır.

Bildirildi ki, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı əsasında yeni binada Mərkəzi Kitabxana ilə yanaşı, İnformasiya Resursları Mərkəzi də fəaliyyət göstərəcəkdir. Hər iki qurumun başlıca məqsədi yüksək səviyyəli elmi araşdırmaların aparılması üçün müasir informasiya bazasını təmin etməkdən ibarətdir. Yeni binada 3,5 milyon kitabı əhatə edən əsas fond, eləcə də böyük miqdarda çertyoj, xəritə, film və digər informasiya daşıyıcıları saxlanacaqdır. Ümumilikdə akademiyanın istifadəsinə verilən Mərkəzi Kitabxananın yeni binası həm alimlərə dünya kitabxanalarının zəngin fondlarından faydalanmaq imkanı yaradacaq, həm də burada bütün struktur vahidlərinin

məqsədyönlü fəaliyyəti nəticəsində informasiya idarə olunan və əlaqələndirilə bilən strateji resursa çevriləcəkdir.

Qeyd olundu ki, buradakı sistemləşdirmə şöbəsində də ən son elmi-texniki yeniliklər tətbiq edilmişdir. Həmin şöbədə sürətli skaner vasitəsilə bütün növ kitabların qısa müddətdə nüsxələrinin hazırlanması və digər əməliyyatlar üçün müasir avadanlıq quraşdırılmışdır.

Dövlətimizin başçısına müasir rəqəmsal mətbəənin yaradılması, elektron arxiv idarəetmə kompleksinin sxemi və digər texnologiyalar barədə də ətraflı məlumat verildi. Kitabxanada, həmçinin yeni nəşrlərin mütəmadi sərgisi keçiriləcəkdir.

Diqqətə çatdırıldı ki, kitabxananın 4 milyona yaxın kitabın saxlanılmasına imkan verən qapalı və xüsusi şəraitli fondu vardır. Kitabxananın imkanlarından görmə qabiliyyəti zəif olan insanların da hərtərəfli yararlanmaları üçün müvafiq şərait yaradılmışdır.

Prezident İlham Əliyevə AMEA-nın Rəyasət Heyətinin, yeni layihələndirilən Riyaziyyat və Mexanika İnstitutunun, Respublika Seysmoloji Xidmət Mərkəzinin, həmçinin Akademiyanın əməkdaşlarının Mərdəkan qəsəbəsindəki istirahət zonasının memarlıq eskizləri təqdim olundu.

AMEA-nın Mərkəzi Kitabxanasının yeni binası ilə tanış olan Prezident İlham Əliyev kollektivi bu əlamətdar hadisə münasibətilə təbrik etdi, tapşırıq və tövsiyələrini verdi.

*5 may 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİRZƏ FƏTƏLİ AXUNDZADƏ ADINA AZƏRBAYCAN MƏDƏNİYYƏTİ MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstana işgüzar səfəri çərçivəsində Tbilisidə Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi ilə tanış olmuşdur.

Dövlətimizin başçısına məlumat verildi ki, bina vaxtilə Tiflisdə yaşayıb işləyən M.F.Axundzadənin öz vəsaiti ilə inşa edilmişdir. Gürcüstanın azərbaycanlı ziyalılarının müraciətinə əsasən 1982-ci ildə binada M.F.Axundzadənin ev-muzeyi yaradılmışdır. 1996-cı ildə ulu öndər Heydər Əliyevin Gürcüstana rəsmi səfərindən sonra bu mədəniyyət ocağı əsaslı təmir olunmuş və həmin vaxtdan Azərbaycan Mədəniyyəti Mərkəzi kimi fəaliyyət göstərmişdir.

2007-ci ildə Gürcüstan Prezidentinin Sərəncamına əsasən Mərkəzə Azərbaycan Mədəniyyəti Muzeyi statusu verilmişdir.

Bildirildi ki, 2013-cü ildə Azərbaycan Respublikasının maliyyə dəstəyi ilə Muzeydə əsaslı təmir və yenidənqurma işləri həyata keçirilmişdir. Həmin il mayın 8-də Muzeyin açılışı olmuşdur.

Hazırda Muzeyin nəzdində mədəniyyət mərkəzi fəaliyyət göstərir. Mərkəzdə xalçaçılıq, musiqi, muğam, rəsm və dil kursları vardır. Muzeyin əsas fəaliyyət istiqamətləri Azərbaycan mədəniyyətini, xalqımızın mədəni irsini Gürcüstanda qoruyub saxlamaq, təmsil və təbliğ etməkdir.

Muzey Gürcüstanda fəaliyyət göstərən müxtəlif muzeylərin fondlarından Azərbaycanın mədəni irsinə aid milli dəyərlərimizi aşkarlayaraq tədqiq edir, onların sərgilərini keçirir. Muzeydə mədəni tədbirlər, konfranslar da təşkil olunur. Burada Mirzə Şəfi Vazehin 1820-1830-cu illərdə Gəncədə qurduğu "Divani-Hikmət" ədəbi məclisinin fəaliyyətini davam etdirən "Müdriklər Məclisi" yaradılmışdır.

Muzeyin 6 ekspozisiya zalı vardır. Bu zallarda Azərbaycanın milli musiqi alətləri, geyimlər, xalq sənətinin müxtəlif sahələrinə aid nümunələr, M.F.Axundzadənin həyat və fəaliyyətini əks etdirən eksponatlar, onun şəxsi əşyaları, müxtəlif dillərdə nəşr olunmuş əsərlərinin üz qabıqlarının, görkəmli Azərbaycan dramaturqu ilə sıx təmasda olmuş şair və yazıçıların fotoşəkilləri, o dövrdəki konsert afişalarının surətləri nümayiş etdirilir.

Zallardan biri Azərbaycan-Gürcüstan dostluğuna həsr olunmuşdur. Burada Azərbaycan və Gürcüstan heykəltəraşlarının xalqlarımızın dostluq münasibətlərini əks etdirən əsərləri, Tbilisi şəhərində ulu öndər Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkının, M.F.Axundzadə adına məktəbin və kitabxananın, Bakı şəhərindəki Tbilisi prospektinin və “Dostluq abidəsi”nin fotoşəkilləri yer almışdır.

Muzeydə Tbilisi şəhərində yeganə olan Azərbaycan dilli kitabxana fəaliyyət göstərir. Həmçinin binada incəsənət qalereyası və “Müsyö Jordan” kafe-kitabxanası yerləşir.

*6 may 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV TBİLİSİDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Tbilisidə Heydər Əliyev adına mədəniyyət və istirahət parkında xalqımızın Ümummilli Liderinin abidəsini ziyarət etmişdir.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.

Azərbaycanın Gürcüstandakı səfiri Azər Hüseyn Prezident İlham Əliyevə parkda görülmüş işlər barədə məlumat verdi.

Ulu öndər Heydər Əliyevin adını daşıyan park 2004-cü il iyunun 14-də Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstanın sabiq Prezidenti Mixeil Saakaşvilinin iştirakı ilə açılmışdır.

Ümumi sahəsi bir hektar olan parkda Tbilisi şəhərinin sakinləri və qonaqlarının istirahəti üçün hər cür şərait yaradılmışdır.

*6 may 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV 9 MAY - QƏLƏBƏ GÜNÜ MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Müharibə veteranları ilə görüşən Prezident İlham Əliyev onları Qələbə bayramı münasibətilə təbrik etdi və ən xoş arzularını çatdırdı.

Dövlətimizin başçısına xatirə hədiyyələri təqdim olundu.

Azərbaycan faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr vermişdir. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salmışdır. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmamışdır. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170 mindən çox əsgər və zabitimiz isə müxtəlif orden və medallarla təltif edilmişdir. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmişdir. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Sta-

linqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşmüşlər. Həmyerlilərimiz Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak etmişlər.

Partizan hərəkatında iştirak edən soydaşlarımız da saysız-hesabsız qəhrəmanlıq nümunələri göstərmişlər. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının qəhrəmanlıq və şücaəti heç vaxt yaddaşlardan silinmir, gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir.

Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl şücaət və əzmkarlıq göstərmişdir. İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynamışdır. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşmüşdür. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında cövlan edən 7 min hərbi təyyarənin yanacaq təchizatında da mühüm rol oynamışdır.

Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərmiş, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəal mövqeyi ilə seçilmişdir. Azərbaycan faşizm üzərində Qələbə naminə bütün imkanlarını maksimum səfərbər etmişdir.

Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirmiş və onlara hərtərəfli qayğı ilə yanaşmışdır. Məhz Ulu Öndərin ədaləti uca tutması sayəsində İkinci Dünya müharibəsi iştirakçılarının mənəvi haqları müstəqilliyin ilk illərində özlərinə qaytarılmışdır və 1994-cü ildən başlayaraq Azərbaycanda Qələbə Günü qeyd olunur. Ölkəmizdə müharibə veteranlarına qayğının və onların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir.

Ulu öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır. Qələbə bayramı ərəfəsində 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi, 1941-1945-ci illər Böyük Vətən müharibəsində iştirak etmiş bəzi kateqoriyadan olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması, 1941-1945-ci illər Böyük Vətən müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi avtonəqliyyatla təmin edilməsi barədə Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamlar Azərbaycanın dövlət siyasətinin insan amilinə söykənməsi və humanist mahiyyət kəsb etməsinin növbəti bariz nümunəsidir.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoyan Prezident, Ali Baş Komandan İlham Əliyev İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin, xalqımızın igid oğul və qızlarının, tarixi Qələbənin qazanılmasında payı olan milyonlarla insanın əziz xatirəsini dərin ehtiramla yad etdi.

Dövlətimizin başçısı İkinci Dünya müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Ali Baş Komandanın qarşısından keçdi.

Azərbaycan Prezidenti iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri ilə görüşdü, onları Qələbə bayramı münasibətilə təbrik etdi.

Prezident İlham Əliyev veteranları bir daha Qələbə bayramı münasibətilə təbrik etdi, ən xoş arzularını bildirdi.

Veteranlar göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıq edərək dedilər: Allah Sizi qorusun. Ölkəmizdə bolluqdur, əmin-amanlıqdır. Siz respublikamızı Heydər Əliyev yolu ilə aparırsınız.

Prezident İlham ƏLİYEV: Sağ olun. Əlbəttə, belə də olmalıdır. Sizə bir daha cansağlığı, uzun ömür arzulayıram. Bu, böyük bayramdır. Sizi bayram münasibətilə ürəkdən təbrik edirəm. Veteranlara böyük diqqət, qayğı göstərilir. Siz qəhrəmanlıq göstərmisiniz.

VETERANLAR: Çox sağ olun. Hamımız Sizə dua edirik. Dalbadal üç Sərəncam imzaladınız. Heç bir respublikada veteranlara belə diqqət və qayğı göstərilmir. Bunu hamı yaxşı bilir. Səhər də, axşam da Sizə dua edirik. Allah Sizə cansağlığı versin. Dünyada bizim Prezidentimizdən yoxdur. Mehriban xanıma salamlarımızı çatdırın.

Prezident İlham ƏLİYEV: Sağ olun. Çatdıraram.

* * *

Mərasimdə Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

*9 may 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 91-Cİ İLDÖNÜMÜNƏ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN YARADILMASININ 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Əvvəlcə Heydər Əliyev Fondunun 10 illik fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilmişdir.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Bu gün biz ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünü qeyd edirik. Keçən il biz Ulu Öndərin adını daşıyan bu möhtəşəm Mərkəzdə Heydər Əliyevin 90 illik yubileyini qeyd etmişdik. 2012-ci il mayın 10-da isə biz bu Mərkəzin açılışını qeyd etmişdik. Bu il Ulu Öndərin adını daşıyan Fondun 10 illiyidir. Bir qədər bundan əvvəl Fondun fəaliyyətinə həsr edilmiş film göstərilmişdir. Filmdə Fondun çoxşaxəli fəaliyyəti haqqında qısa bir məlumat verilmişdir. Çünki Fondun 10 il ərzində gördüyü işlər o qədər böyükdür ki, əlbəttə, bir filmdə o işləri göstərmək mümkün deyildir.

Fonda 10 il ərzində Mehriban Əliyeva rəhbərlik edir. Onun rəhbərliyi ilə Fond nəinki Azərbaycanda, eyni zamanda, regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir. Mehribanın rəhbərliyi ilə bir neçə istiqamət üzrə konkret proqramlar icra edilmişdir. Bir çox hallarda Fondun təşəbbüsləri bir qədər sonra həm ictimai təşkilatlar, eyni zamanda, dövlət qurumları tərəfindən dəstəklənmiş və bir növ dövlət proqramına çevrilmişdir. Xüsusilə Fondun təşəbbüsü ilə başlanmış "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi bu gün geniş vüsət almışdır və dövlət bu proqrama qoşularaq son 10 il ərzində 3 minə yaxın yeni məktəb tikdirə bilmişdir. "Xocalıya ədalət!" kampaniyası da məhz Fondun təşəbbüsü ilə başlamışdır. Ondan sonra dövlət qurumları, ictimai qurumlar bu təşəbbüsə qoşulmuşlar və nəticə etibarilə qısa müddət ərzində 10-dan çox ölkə Xocalı soyqırımını rəsmən soyqırımı kimi qəbul etmişdir.

Səhiyyə ilə bağlı təşəbbüslər geniş vüsət almışdır. Azərbaycan mədəniyyətinin, mədəni irsimizin qorunması, dünyada təbliği işində Fond əvəzsiz rol oynamışdır. Bizim milli sərvətimiz olan muğam sənəti UNESCO-nun dünya qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Əlbəttə ki, bütün bunlar filmdə öz əksini tapıbdır. Sadəcə olaraq mən bu gün Fondun fəaliyyətinə öz münasibətimi bildirmək istəyirəm. Deyə bilərəm ki, bu 10 il ərzində bu məsələ ilə bağlı mənim ilk çıxışımdır. Ona görə Azərbaycan dövləti adından Fonda, Fondun bütün işçilərinə minnətdarlığımı bildirmək istəyirəm. Onu da qeyd etmək istəyirəm ki, Fondun işçilərinin sayı o qədər də çox deyildir. Fondun işçilərinin tərkibi çox məhdud saydadır. Ancaq buna baxmayaraq peşəkardırlar, enerjilidirlər, biliklidirlər və işçilərin mütləq əksəriyyəti gənclərdir.

Bu gün Heydər Əliyev Fondu Ulu Öndərin adını şərəflə daşıyır, Ulu Öndərin xatirəsinə layiq fəaliyyət göstərir. Heydər Əliyev tarixi şəxsiyyətdir, müstəqil Azərbaycan dövlətinin qurucusudur, bizim xilaskarımızdır. Bir-biri ilə tamamilə ziddiyyət təşkil edən iki dövlət quruluşunda Azərbaycana rəhbərlik etmişdir. 1969-1982-ci və 1993-2003-cü illər Azərbaycan tarixində Heydər Əliyevin rəhbərliyi ilə inkişaf illəri kimi qalacaqdır. İki tamamilə fərqli bir ictimai-siyasi mühitdə Azərbaycan ən yüksək zirvələrə qalxa bilmişdir.

Birinci mərhələdə Azərbaycan müstəqil deyildi, başqa ölkənin tərkibində idi. Eyni zamanda, sistem də tam başqa idi. Demokratik sistem deyildi.

İkinci dövr isə müstəqillik, demokratiyanın inkişafı və sürətli inkişaf dövrü idi. 1969-cu ildə isə Azərbaycan müttəfiq respublikalar arasında deyə bilərəm ki, ən axırıncı yerdə idi. Bunu statistik göstəricilər də təsdiq edir. Bu illəri xatırlayan insanlar da deyə bilərlər ki, o vaxt sovet məkanında Azərbaycan ən geridə qalmış bir respublika idi.

Heydər Əliyevin rəhbərliyi ilə aparılan böyük quruculuq işləri nəticəsində Azərbaycan 12 il ərzində SSRİ-də ən qabaqcıl yerlərə çıxa bilmişdir. Sovet İttifaqı dağılanda məlum olmuşdur ki, bu İttifaqda cəmi iki respublika özünü tam şəkildə təmin edirdi və donor kimi fəaliyyət göstərirdi. Onlardan biri də Azərbaycan idi. Məhz o illərdə Azərbaycanda o vaxta uyğun olaraq müasir sənaye kompleksi yaradılmışdır. Azərbaycan aqrar respublikadan sənaye respublikasına çevrilmişdir. Xüsusilə neft-qaz sənayesi üçün çox vacib olan məsələlər məhz o illərdə öz həllini tapmışdır. O layihələr bu gün də müstəqil Azərbaycana xidmət göstərir. Sənaye potensialının, kənd təsərrüfatının inkişafı o vaxt Azərbaycan üçün böyük imkanlar açmışdır. İnsanların rifah halı yaxşılaşmışdır. Bir daha demək istəyirəm ki, Azərbaycan o illərdə imkanlardan maksimum istifadə edib öz inkişaf dövrünü yaşayıb.

Respublikamızın çox zəngin mədəni həyatı vardır. Bütün bunlar Ulu Öndərin şəxsiyyəti ilə bağlı olan məsələlər idi. Məhz o illərdə deyə bilərəm ki, sovet məkanında ilk dəfə olaraq korrupsiya və rüşvətxorluğa qarşı mübarizə başlamışdır və bu, sovet məkanında bir yenilik idi. Bu yeniliyin müəllifi Heydər Əliyev olmuşdur. 1982-ci ildə Moskva dövrü başlamışdır. O dövr də çox əhəmiyyətli idi. Çünki Heydər Əliyev böyük, super dövlətin rəhbərliyində təmsil olunurdu. Baş nazirin birinci müavini idi. Azərbaycana da əlbəttə ki, öz qayğısını göstərirdi.

Ancaq Azərbaycanda artıq 1982-ci ildən başlayaraq işlər yavaş-yavaş tənəzzülə uğramağa başlamışdır. İlk illərdə hələ inersiya gücü var idi. Ondan sonra isə durğunluq dövrü başlanmışdır. Təsadüfi deyil ki, Heydər Əliyev 1987-ci ildə bütün vəzifələrdən gedəndən sonra Azərbaycan çox böyük problemlərlə, fəlakətlərlə üzləşmişdir. O, siyasi hakimiyyətdən gedəndən sonra cəmi 2 həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirməklə bağlı məsələ qaldırmışdır. Məhz Heydər Əliyevin siyasi hakimiyyətdə olmaması erməniləri ruhlandırırdı. Çünki Heydər Əliyev amili imkan vermirdi ki, onlar bu çirkin iddiaları irəli sürsünlər. Ondan sonra Azərbaycana qarşı elan olunmamış müharibə başlamışdır, Qanlı Yanvar faciəsi törədilmişdir. O ağır, faciəvi

anlarda yenə də Heydər Əliyev öz haqq səsini ucaltdı. Moskvada Azərbaycanın daimi nümayəndəliyində sovet hakimiyyətinin hərəkətlərini pislədi, Sovet İttifaqının başında duran şəxsi pislədi. Bütün dünyaya bu faciə haqqında öz sözlərini bəyan etdi. Bu, böyük cəsarət tələb edən bir addım idi. Çünki Sovet İttifaqının dağılmasına hələ 2 il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, nə vaxtsa Sovet İttifaqı dağıla bilər.

Heydər Əliyev sadəcə olaraq susa bilmirdi. O ağır anlarda öz xalqına mənəvi dəstək vermişdir. Ondan sonra təbii ki, totalitar maşın, totalitar dövlət ona qarşı hərəkətə keçdi. Onun həbs edilməsi ilə bağlı hazırlıq işləri aparılırdı. Moskvadan Bakıya gəlməyə məcbur olmuşdur. Burada da yaşamağa imkan vermədilər. Öz doğulduğu yerə - Naxçıvana üz tutdu. Beləliklə, onun həyatında Naxçıvan dövrü başlayır. Bu dövr də həm Naxçıvan üçün, həm müstəqilliyimiz üçün həlledici dövrdür. Çünki Azərbaycanın dövlət müstəqilliyinin əsasları məhz Naxçıvanda qoyulmuş, məhz Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı elan edilmişdir. Sovet İttifaqının saxlanması ilə bağlı referendum Naxçıvanda keçirilməmişdir. Naxçıvanı blokadadan çıxarmaq üçün böyük səylər göstərildi. Erməni işğalçılara böyük zərbə vuruldu. Naxçıvan qorundu, Naxçıvanın ərazi bütövlüyü qorundu və saxlanıldı.

Təsadüfi deyil ki, Azərbaycanda vətəndaş müharibəsi başlayanda və torpaqlarımızın bir hissəsi işğal altına düşəndə xalq öz ümidini Heydər Əliyevin adı ilə bağlamışdır. 1993-cü ildə qardaş qırğını başlamışdır. O vaxt antimilli, xəyanətkar AXC-Müsavat hakimiyyəti qardaş qanını axıtdı. Bir tərəfdən torpaqlarımız işğal altına düşürdü, digər tərəfdən isə vətəndaş müharibəsi baş alıb gedirdi. Belə ağır vəziyyətdə xalqın tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıtması Azərbaycanı böyük bəlalardan xilas etdi.

O dövrü təhlil edərkən daim bir məsələ diqqət çəkir: Əgər Heydər Əliyev Azərbaycanda olsaydı, əgər müstəqilliyin lap əvvəlindən, Sovet İttifaqı dağılan zaman Azərbaycanda rəhbərlikdə olsaydı, heç vaxt Dağlıq Qarabağ və ətraf bölgələr işğal altına düşməzdi. Ancaq tarix tarixdir. 1993-cü ildə xalqın dəstəyi, etimadı və tələbi ilə Heydər Əliyev Azərbaycanın Prezidenti seçildi. Bundan sonra ölkəmiz üçün yeni bir dövr başlanmışdır - sabitlik, təhlükəsizlik və inkişaf dövrü. Köklü islahatlar başlanmışdır, dövlətçiliyin əsasları qurulmuşdur, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir, cəmiyyətimizin ideoloji əsasları formalaşdırılmışdır, azərbaycançılıq məfkurəsi dövlət ideologiyası kimi qəbul edilmişdir, demokratik inkişaf, insan hüquqları ilə bağlı çox ciddi islahatlar başlamışdır. Azərbaycan beynəlxalq təşkilatlara üzv olmuşdur, Azərbaycana qarşı aparılan təbliğat kampaniyasına tutarlı cavablar verilməyə başlamışdır. Biz informasiya blokadasını yara bilmişdik. Məhz o illərdə xarici siyasətimizin əsas prinsipləri müəyyən edilmişdir və biz bu gün də bu prinsiplərə sadiqik.

Bir sözlə, ölkəmiz üçün ən ağır, faciəvi bir dövrdə Heydər Əliyevin şəxsi keyfiyyətləri, biliyi, cəsarəti, uzaqgörənliyi və xalqa olan məhəbbəti öz həlledici sözünü demişdir. Azərbaycan bu ağır sınaqdan şərəflə çıxa bilmişdir.

1993-2003-cü illərdə ölkəmizin hərtərəfli inkişafı ilə bağlı müxtəlif proqramlar qəbul edilmişdir, islahatlar aparılmışdır. Heydər Əliyev neft strategiyası müəyyən edilmişdir və bu gün hər bir Azərbaycan vətəndaşı öz gündəlik həyatında bu siyasətin əlamətlərini görür. Çünki bizim uğurlu iqtisadi inkişafımızın təməli məhz o illərdə qoyulmuşdur.

Bu gün Azərbaycan inamla, uğurla inkişaf edir. Biz Heydər Əliyevin davamçıları onun siyasi xəttinə sadiqik. Son on il ərzində Azərbaycan bu yolla gedir, Heydər Əliyevin siyasi vəsiyyətinə sadiqdir və ölkəmizin bugünkü reallıqları, bugünkü vəziyyəti bu yolun nə qədər düzgün olmasını əyani şəkildə sübut edir.

2003-cü ildə xalq Heydər Əliyev siyasətinə səs vermişdir. Mən isə söz vermişdim ki, bu siyasətə sadiq qalacağam. Bizim verdiyimiz bütün vədlər həyatda öz əksini tapmışdır və 2008-ci ildə yenidən Azərbaycan xalqı öz etimadını göstərmişdir. Ölkəmizin son on il

ərzindəki dünya miqyasında iqtisadi sahədə analoqu olmayan inkişafı əlbəttə ki, 2013-cü ildə xalqın seçiminə təsir göstərmişdir.

Bu gün isə yeni dövr başlayır - yeni onillik dövr. Bu dövrdə biz əvvəlki illərdə əldə edilmiş möhkəm təməl üzərində möhkəm Azərbaycan dövlətini gücləndirəcəyik. Son on il ərzində biz bütün istiqamətlər üzrə böyük uğurlara imza atdıq. Biz beynəlxalq aləmdə çox etibarlı tərəfdaş kimi özümüzü təsdiq etdik. Beynəlxalq ictimaiyyət bizim mövqeyimizi dəstəkləyir. Beynəlxalq ictimaiyyətin mütləq əksəriyyəti öz səsini Azərbaycana vermişdir. BMT Təhlükəsizlik Şurasına seçildikdə 155 ölkə bizə inandı, bizi dəstəklədi. Əminəm ki, öz seçimində haqlı olduğunu gözəl anlayır və bizim namizədliyimizə öz səsini verdiyinə görə peşman olmadı.

İqtisadi sahədə son on ildə dünya miqyasında Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Bu da bizim böyük nailiyyətimizdir, aparılan siyasətin nəticəsidir. Müstəqil siyasətin nəticəsidir. Azərbaycanda şaxələndirmə ilə bağlı işlər aparılır. Enerji təhlükəsizliyi məsələləri Azərbaycanda həll olunur və burada biz liderlik mövqelərimizi daha da möhkəmləndiririk. Nəzərdə tutulmuş bütün layihələr uğurla icra edilmişdir. Çox ağır şəraitdə həm iqtisadi, həm geosiyasi vəziyyəti nəzərə alaraq bu layihələrin icra edilməsi tarixi nailiyyətdir.

Azərbaycanda regionların inkişafı ilə bağlı qəbul edilmiş proqramlar artıqlaması ilə icra edilmişdir. On il ərzində bu proqramların icrası nəticəsində işsizlik demək olar ki, aradan götürülübdür. Yoxsulluq kimi bəla demək olar ki, aradan götürülübdür. Əldə edilmiş bu uğurlar və daha da artan gücümüz imkan verəcək ki, biz növbəti illərdə də nəzərdə tutulan bütün məsələləri həll edək.

Yeni dövr başlayıb. Bu, 10 illik dövrüdür. 2023-cü ilə qədər nəzərdə tutulan bütün işlər görüləcəkdir. Əminəm ki, o vaxta qədər Azərbaycan indikindən bir neçə dəfə güclü olacaqdır. Bunu deməyə əsas verən bizim 20 illik tariximizdir, ardıcıl inkişafdır, strateji baxışlarımızdır və konkret addımlarımızdır.

Azərbaycan müstəqil dövlət kimi müstəqil siyasət aparır. Bu gün bizim iqtisadi gücümüz müstəqilliyimizin əsasını təşkil edir. Bu günə qədər görülən işlər və indi başlanan layihələr bizim gücümüzü bir neçə dəfə artıracaqdır. Bu, faktdır. Yəni, bu, bizim gördüyümüz və görüləcək işlərin nəticəsində olacaqdır.

Azərbaycan bölgədə möhkəm mövqelərə malikdir. Bu mövqelər ildən-ilə ancaq və ancaq möhkəmlənəcəkdir. Çünki artıq bizim iştirakımız olmadan bölgədə heç bir məsələ öz həllini tapa bilməyəcəkdir. Bir sözlə, biz ölkəmizin inkişafı ilə bağlı uzunmüddətli strategiyamızı müəyyən etmişik.

Ölkəmizin inkişafı ilə bağlı fundamental istiqamətlər Ulu Öndər tərəfindən müəyyən edilmişdir. Ancaq təbii ki, həyat yerində durmur, dünya dəyişir, prinsiplər dəyişir, beynəlxalq vəziyyət dəyişir. Biz görürük ki, öz yerimizi möhkəmləndirmək üçün daha da güclü olmalıyıq, daha da güclü iqtisadiyyata, sənaye potensialına, orduya malik olmalıyıq. Daha da güclü beynəlxalq mövqelərimiz olmalıdır. Bizim sözümüz bütün mötəbər tribunalardan səslənir. Biz sözümüzü deyirik. Bizim sözümüz ədalətdir və həqiqətdir. Ədalət və həqiqət bizim tərəfimizdədir. Ona görə strateji xəttimizi nəzərə alaraq biz öz ardıcıl addımlarımızı atırıq və atacağıq. Əminəm ki, hər bir vətənpərvər Azərbaycan vətəndaşı bu gün cəmiyyətdə mövcud olan həmrəylik, vətənpərvərlik duyğuları ilə fəxr edir. Fəxr edir ki, Azərbaycan bu zirvələrə çata bilmişdir.

Cəmiyyətdə səfərbərlik, həmrəylik də çox önəmlidir. Elə cəmiyyətlər vardır ki, onlar ideoloji məsələlər ətrafında bir-biri ilə mübahisə aparırlar. Elə cəmiyyətlər vardır ki, orada bölgü coğrafi xarakter daşıyır. Azərbaycan cəmiyyəti monolitdir. Bizi bir-birimizə bağlayan əsas amil həmrəylikdir və düzgün seçilmiş hədəfdir. Hədəf isə çox aydındır.

Biz müasir dövlət qururuq, azad cəmiyyət yaradırıq, demokratiyanın inkişafı əsas şərtdir, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə bundan sonra daha da ciddi aparılacaqdır. Biz ancaq və ancaq öz gücümüzə güvənirik. Bu siyasət öz səmərəsini vermişdir. İqtisadi gücümüz artdıqca müstəqillik də möhkəmlənəcəkdir. Müstəqillik isə bizim ən böyük sərvətimizdir, ən böyük nailiyyətimizdir. Tarixə baxsaq, Azərbaycanda müxtəlif dövrlərdə dövlətçilik ənənələri olmuşdur. Amma Azərbaycan heç vaxt bugünkü qədər güclü və müstəqil olmamışdır.

Bu gün - Ulu Öndərin doğum günündə bir daha yaxın tarixə nəzər salırıq. Heydər Əliyevin Azərbaycan xalqı üçün nə qədər böyük və tarixi işlər gördüyünü bir daha görürük. Ona görə Azərbaycan xalqı Heydər Əliyevin xatirəsini öz qəlbində saxlayır, yaşadır. Biz - onun davamçıları isə bundan sonra da Ulu Öndərin siyasi xəttinə sadiq qalaraq doğma Vətənimizi irəliyə aparacağıq.

Sağ olun!

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI

- Hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

Əziz qonaqlar.

Bu yubiley gecəsində sizin hamınızı səmimi qəlbdən salamlayıram.

Bu gün biz Heydər Əliyev Fondunun yubileyinə toplaşmışıq və hər şeydən öncə, cənab Prezident, Heydər Əliyev Fondunun bütün əməkdaşları adından bizim fəaliyyətimizə verdiyiniz yüksək qiymətə görə Sizə öz dərin minnətdarlığımı bildirirəm.

On il bundan əvvəl – 2004-cü il mayın 10-da Heydər Əliyev Fondu öz fəaliyyətinə başladı. Fond müasir Azərbaycan dövlətçiliyinin əsaslarını qoymuş, müstəqil Azərbaycanın siyasi, iqtisadi və mənəvi dirçəlişini təmin etmiş şəxsin adını daşıyır. Biz fəaliyyətimizin ilk günündən atdığımız addımlarla, gördüyümüz işlərlə bu yüksək ada layiq olmağa çalışmışıq. On il ərzində biz xeyli nailiyyətlər əldə etmişik. Bizim ən böyük nailiyyətimiz və uğurumuz Azərbaycan xalqının inamını və etimadını qazanmağımızdır. Bu, əvəzsiz bir mükafatdır.

Biz diqqətimizi ölkəmizdə həllini tapmayan problemlərin aradan qaldırılmasına yönəltdik. Biz Azərbaycanda çoxəsrlik köklərə malik olan xeyriyyəçilik və mərhəmət ənənələrinə arxalanaraq, köməyə ehtiyacı olan hər kəsin yanında olmağa çalışdıq. Biz valideyn himayəsindən məhrum olan uşaqlara, qocalara, qaçqın və məcburi köçkünlərə, müxtəlif xəstəliklərdən əzab çəkən insanlara qayğı göstərməyi, onlara mənəvi dayaq olmağı prioritet məsələ kimi daim diqqət mərkəzində saxladıq. Ölkəmizdə mövcud olan uşaq evləri və internat məktəblərini tamamilə yenidən qurub onlarda ailə mühitinin formalaşdırılması, fiziki qüsurlu insanların cəmiyyətə qovuşmaları üçün normal şəraitin yaradılması, uşaq evlərini tərk edən gənclər üçün yaşayış binaları, qaçqın və məcburi köçkün ailələri üçün yaşayış massivlərinin inşa olunması sübut etdi ki, belə insanlara qayğı, belə insanlara kömək bizim fəaliyyətimizin əsas amillərindən biridir.

Əziz qonaqlar, bir az əvvəl siz Fondun fəaliyyəti haqqında filmə baxdınız. Doğrudan da filmi hazırlayarkən biz müəyyən çətinliklərlə üzləşdik. Çünki bu 10 il ərzində Fond tərəfindən icra olunan layihələr, proqramlar ölkəmizin həyatının bir çox sahələrini əhatə edir və əldə olunan nəticələr o qədər genişdir ki, qısa bir filmdə görülən bütün işləri əks etdirmək o qədər də asan deyildi.

Fond tərəfindən icra olunan irimiqyaslı layihələr – "Yeniləşən Azərbaycana yeni məktəb", "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Xocalıya ədalət", "Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması", "Tolerantlığın ünvanı Azərbaycan" və s. Bütün bu layihələrin nəticələrini biz bu gün görürük və əslində görülən bütün bu işlər Azərbaycanın ümumi inkişaf strategiyasının tərkib hissəsinə çevrilib.

Siz, cənab Prezident, tamamilə düz qeyd etdiniz və bu, bizi şad edir ki, çox hallarda Fond tərəfindən start verilən layihələr, Fondun təşəbbüsləri sonradan dövlət tərəfindən dəstəklənir və ölkədə daha geniş bir şəkildə icra olunur. 2005-ci ildə Fond "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsini başladı və bu layihə çərçivəsində Fondun dəstəyi ilə ölkəmizdə 412 yeni məktəb inşa olundu. Sonradan bu proqramı dövlət dəstəklədi və ölkəmizdə 3 mindən artıq məktəb təmir olundu və yaxud yenidən quruldu.

Bir neçə il bundan əvvəl ölkəmizdə genetik xəstəliklərin yayılmasının qarşısını almaq üçün Fond tərəfindən "Talassemiyasız həyat naminə" proqramına başladıq və bu proqram çərçivəsində paytaxtımızda regionun ən böyük Talassemiya Mərkəzini inşa etdik. Bu gün bu xəstəliklərlə mübarizə üçün dövlət tərəfindən xüsusi proqram hazırlanır.

Bizim fəaliyyətimizin digər çox vacib istiqaməti Azərbaycanın zəngin tarixi və mədəni irsinin qorunub saxlanması, təbliğ edilməsi və dünya ictimaiyyətinə tanıdılmasıdır. Fondun dəstəyi ilə Azərbaycanın müxtəlif regionlarında onlarla tarixi-memarlıq, dini abidələr bərpa olunub. Bakıda məscidlər, kilsələr, sinaqoqlar təmir və bərpa olunub. Məhz Fondun təşəbbüsü ilə paytaxtımızda Beynəlxalq Muğam Mərkəzi inşa olunub və hər il muğam müsabiqəsi keçirilir. Qəbələ Beynəlxalq musiqi festivalı, Rostropoviç və Şostakoviç festivalları artıq ənənəvi şəkildə keçirilir və öz auditoriyasını qazanıb. Azərbaycanın qədim xalçaçılıq sənəti artıq UNESCO-nun Ümumbəşəri Mədəni İrs Siyahısına daxil edilib və bizim xalçalar dünyanın ən məşhur muzeylərində nümayiş olunur.

Biz dünyanın müxtəlif ölkələrində Azərbaycan günləri və Azərbaycan gecələri keçirməklə Azərbaycanın keçmişini, Azərbaycanın tarixini, mədəniyyətini, bu gününü, müstəqil Azərbaycanın nailiyyətlərini, ölkəmizdə hökm sürən tolerantlıq və dözümlülük ab-havasını bütün dünyaya göstərmək, bütün dünyaya tanıtmaq istəyirik. Belə görüşlərdə insanlar Azərbaycanı özləri üçün yenidən kəşf edirlər. Dünyanın ən möhtəşəm zallarında qədim Azərbaycan muğamı səslənir və sərgilərdə müasir Azərbaycanın müasir incəsənət xadimlərinin əsərləri ilə tarixi artefaktlar birgə nümayiş olunur.

Eyni zamanda, biz hər bir xalqın mədəni irsini ümumbəşəri dəyər kimi qəbul edirik. Bu irsin qorunmasına Azərbaycandan kənarda da öz töhfəmizi veririk. Heydər Əliyev Fondunun dəstəyi ilə Strasburq Kafedral kilsəsinin vitrajları, Versal sarayındakı abidələr, Fransanın müxtəlif regionlarında yerləşən kilsələr, Berlin qəsri, Roma katakombaları, Vatikan kitabxanasında saxlanılan dəyərli foliantlar bərpa olunur.

Bu 10 il ərzində biz fəaliyyətimizi genişləndirərək bir sıra çox nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq qurmuşuq, birgə layihələr icra etmişik. Bizim tərəfdaşlarımız arasında UNESCO, İSESCO, UNİCEF, BMT İnkişaf Fondu kimi nüfuzlu beynəlxalq qurumlar vardır. Fondun Rusiya, Türkiyə, Rumıniya, Amerika Birləşmiş Ştatlarındakı nümayəndəlikləri çox uğurla fəaliyyət göstərir.

Çox sevindirici haldır ki, son zamanlar Azərbaycan gəncləri Fondun təşəbbüslərinə çox geniş şəkildə qatılır. Ətraf mühitin qorunması sahəsində Fond tərəfindən hazırlanan proqramlar, təşəbbüslər artıq ölkəmizdə yeni bir gənclər hərəkatına çevrilib və IDEA kampaniyası çərçivəsində Azərbaycanda 3 milyondan çox ağac əkilib.

Eyni zamanda, biz ölkəmizin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həqiqətlərini dünya ictimaiyyətinə çatdırırıq. Hər il Fond müxtə-

lif dillərdə yüzlərlə nəşrlər hazırlayır, onu bütün dünyaya yayır. Biz bu gün "Xocalıya ədalət!" kampaniyasının müsbət nəticələrini görürük.

Bir sözlə, əziz qonaqlar, 10 il ərzində görülən işlərin sayı çoxdur. Əldə edilən nəticələr də çox gözəldir. Bizim Fondun əməkdaşlarını birləşdirən amillər çox sadədir. Bu, vətənpərvərlik, mərhəmət, insansevərlik, doğma xalqımıza və ölkəmizə xidmət etməkdir. Bu gün mən fürsətdən istifadə edərək, Fondun bütün əməkdaşlarına, bizim komandamıza bu 10 il ərzində göstərdikləri işgüzarlıq, peşəkarlıq, insansevərlik, vətənpərvərlik keyfiyyətlərinə görə dərin minnətdarlığımı bildirirəm. Bizimlə əməkdaşlıq quran, bizi dəstəkləyən, bizə kömək edən hər bir quruma, hər bir təşkilata, hər bir insana bu gün mən öz dərin minnətdarlığımı bildirirəm.

Qarşıda bizi yeni çağırışlar, yeni hədəflər, yeni qələbələr gözləyir və mən əminəm ki, biz bütün çətinliklərin öhdəsindən birgə gələrək yeni nailiyyətlərə imza atacağıq.

Bir daha bu axşam bizimlə olduğunuza görə sizə öz dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun. Sizə xoş axşam arzulayıram.

* * *

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 10 illiyinə həsr olunmuş təntənəli mərasimin bədii hissəsini Azərbaycan Respublikasının Xalq Artisti Teymur Göyçayevin rəhbərliyi ilə Qara Qarayev adına Azərbaycan Dövlət kamera orkestri və Gülarə Əliyeva adına "Dan ulduzu" instrumental ansamblı davam etdirdi.

*10 may 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 91-Cİ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ PAYTAXTDA TƏŞKİL EDİLMİŞ GÜL BAYRAMINDA İŞTİRAK ETMİŞDİR

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Gül bayramında iştirak etmişlər.

Heydər Əliyev Sarayının qarşısındakı park və sarayın arxasında yerləşən Şəhər Mərkəzi Parkı öz görkəmini tam dəyişmiş, paytaxt sakinləri və qonaqların sevimli istirahət yeri olan bu ərazi bu gün möcüzəli gül bağına çevrilmişdi. Hər il məhz Heydər Əliyev Sarayının qarşısındakı parkda təşkil olunan gül bayramı bu il də ənənəvi təntənəsini yaşadı və öz ərazisini daha da genişləndirdi.

Mayın 10-da Gül bayramına Heydər Əliyev Sarayının arxasında yerləşən Şəhər Mərkəzi Parkı da qoşuldu, ərazi güllərdən ibarət olan maraqlı kompozisiyalarla bəzədildi. Paytaxt sakinlərinin, şəhərimizin qonaqlarının sevimli bayramlarından olan Gül bayramı ənənə üzrə ən sevimli istirahət məkanlarından birində baş tutur. Parkda müxtəlif çiçəklərdən gül xalıları, maraqlı kompozisiyalar yığılmışdır. Bakı Şəhər İcra Hakimiyyətinin təşkil etdiyi bu bayramda çiçək və bitkilərdən, yarpaqlardan hazırlanan rəngarəng kompozisiyalar görünüşü və ifadəliyi ilə seçilir, gözəlliyin hədsiz imkanlarını nümayiş etdirir, hər kəsdə xoş ovqat yaradır.

Burada diqqəti Parkın mərkəzində müstəqil dövlətimizin qurucusu, xalqımızın dahi oğlu, anadan olmasının 91-ci ildönümünü qeyd etdiyimiz ulu öndər Heydər Əliyevin ucalan əzəmətli abidəsi cəlb edir. Abidənin postamenti güllərlə bəzədilmişdir. Xalqımızın

Ümummilli Liderinin abidəsinin ucaldığı parkda Gül bayramının təşkil olunması dahi Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olmaqla yanaşı, həm də paytaxt sakinlərinin xoş istirahətinin təşkili baxımından da gözəl addımdır.

Parkda rəngbərəng güllərdən hörülən, yazın gəlişinə həsr olunan kompozisiyalar nümayiş etdirilir. Gül bayramında hər yan göz oxşayır, hər tərəf al-əlvan rəngə bürünmüşdür. Rənglər o qədər əlvandır ki, istər-istəməz insanda xoş ovqat yaradır. Fəvvarələr də güllərlə əhatə olunmuşdur. Minlərlə çiçəyin, gülün bir arada toplandığı bu məkanda heç nə bir-birini təkrarlamır. Elə buraya toplaşan uşaqlar da güllər kimi saf və ətirlidir. Onların gülləri xatırladan müxtəlif libaslarda bayrama təşrif buyurması bu gözəl gündə insanların ovqatını daha da artırır.

Əzəmətli kompozisiyalardan biri də Heydər Əliyev Sarayı qarşısında qurulmuşdur. Bu kompozisiyanı Ulu Öndərin portreti bəzəyir.

Dövlətimizin başçısı, xanımı və ailə üzvləri parka toplaşan uşaqlarla səmimi söhbət etdilər, xatirə şəkli çəkdirdilər.

Bu il Gül bayramının daha bir maraqlı məqamı ondan ibarət oldu ki, yüzlərlə uşaq bu ərazidə yürüş etdilər.

Prezident İlham Əliyev Bakının müxtəlif ərazilərində yaradılacaq müvəqqəti avtomobil duracaqlarının sxemi ilə tanış oldu. Bildirildi ki, Dövlət Yol Polisi və Bakı Şəhər İcra Hakimiyyətinin Xüsusi Təyinatlı Avtonəqliyyat İdarəsinin birgə işi nəticəsində müəyyən olunmuş küçələrin sağ və sol hissələrində avtomobillər üçün bircərgəli dayanacaqlar yaradılacaqdır. Ödəniş etmək üçün dayanacaqlarda xüsusi bankomatlar quraşdırılacaqdır. Bu sistem şəhərdə tıxacların qarşısının alınmasına xidmət edəcəkdir.

Ümummilli lider Heydər Əliyevin xatirəsinin bahar çiçəkləri ilə anılması əlbəttə ki, Ulu Öndərə xalqımızın dərin hörmət və ehtiramını nümayiş etdirir. Parkda müxtəlif dibçək və kəsilmə güllərindən, qurudulmuş gül və bitki kollarından, göz oxşayan eksponatlardan ibarət sadə və eyni zamanda, orijinal üslublu kompozisiyalar qurulmuşdur. Hər tərəf baharın xoş ovqatına bürünmüşdür.

Artıq Bakıda ənənə halı alan Gül bayramı dünyanın ən nadir gözəlliklərini bir arada toplamaqla ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi, Ümummilli Liderin doğum gününün bu cür möhtəşəm formada qeyd olunması ilə yadda qalır, özü də ən xoş hisslərlə.

***10 may 2014-cü il***

## PREZİDENT İLHAM ƏLİYEV ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

Hər il Ümummilli Liderimizin ad günü ərəfəsində olduğu kimi, mayın 10-da da səhər tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana üz tutur, ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, təzə-tər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edir, ruhuna dua oxuyurlar.

Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, Ulu Öndərin doğmaları, yaxınları onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Prezident İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin ruhu qarşısında baş əydi.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Prezident İlham Əliyevin xanımı Mehriban Əliyeva və ailə üzvləri Ümummilli Liderin abidəsi önünə gül dəstələri qoydular.

Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarlarını ziyarət etdilər və gül dəstələri qoydular.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.

***10 may 2014-cü il***

## AZƏRBAYCAN VƏ FRANSA PREZİDENTLƏRİ İÇƏRİŞƏHƏR DÖVLƏT TARİX-MEMARLIQ QORUĞUNU GƏZMİŞLƏR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Fransa Respublikasının Prezidenti Fransua Olland mayın 11-də İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunu gəzmişlər.

Fransa Prezidentinə Azərbaycan tarixinin və mədəniyyətinin incisi olan İçərişəhər barədə məlumat verildi. Bildirildi ki, tariximizin canlı əfsanəsi olan İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunda yerləşən Qız qalası və Şirvanşahlar Saray Kompleksi UNESCO-nun dünya mədəni irs siyahısına daxil edilmişdir.

Prezident Fransua Ollandın diqqətinə çatdırıldı ki, İçərişəhər ərazisində alimlərimizin apardığı arxeoloji qazıntılar zamanı Azərbaycan tarixinə dair bir çox qiymətli maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. İndi Azərbaycan muzeylərinin ən qiymətli eksponatları olan bu tapıntılar tariximizin qədim dövrlərinin öyrənilməsi üçün geniş imkanlar açır. Vaxtaşırı Bakıda olan qonaqlar hər zaman İçərişəhərə böyük həvəslə gəlir, buradakı nadir ab-hava bu mədəniyyət ocağına turistlərin marağını azalmağa qoymur.

Sonra dövlət başçıları Muğam klubuna gəldilər.

Fransa Prezidentinə klubun tarixi barədə məlumat verildi.

* * *

İçərişəhərlə tanışlıqdan sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və Fransa Prezidenti Fransua Olland birgə nahar etdilər.

***11 may 2014-cü il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞAMAXI RAYONUNDA "ŞAMAXI PALACE PLATINUM BY RIXOS" OTELİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Avropa və Asiya arasında körpü rolu oynayan Azərbaycanda iqtisadiyyat, turizm, idman, mədəniyyət, incəsənət və digər sahələrdə əldə olunan yüksək nailiyyətlər xarici iş adamları ilə yanaşı, turistlərin də ölkəmizə marağını artırmışdır. Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində ölkəmizdə turizmin inkişafı istiqamətində mühüm layihələrin icrası da buna əlverişli zəmin yaradır. Bu baxımdan Azərbaycanda otel biznesinin daha da inkişafı üçün kompleks tədbirlər həyata keçirilir. Bu otellərdə müştərilərə yüksək səviyyəli xidmətlər göstərilir.

Azərbaycan artıq ən mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edən ölkədir. Bundan başqa, Azərbaycanda qeyri-neft sektorunun aparıcı sahəsi kimi turizmin inkişafı da başlıca prioritetlərdəndir. Hazırda ölkəmizdə otel biznesinin dünya standartları səviyyəsində qurulması, qonaqların və turistlərin qəbulu üçün silsilə tədbirlər reallaşdırılır.

Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində bu gün ölkəmizin bütün bölgələri kimi, Şamaxı da öz qədim və tarixi görkəmini saxlamaqla müasirləşir. Rayonda tikintisinə 2011-ci ildə başlanmış "Şamaxı Palace Platinum By Rixos" oteli də həmin istiqamətdə atılan addımlardan biridir. Ölkəmizdə bu cür komplekslərin sayının çoxalması Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, həm də respublikamıza gələn turistlərin sayının artmasına zəmin yaradır. "Şamaxı Palace Platinum By Rixos" oteli təkcə Şamaxı rayonu üçün deyil, bölgə üçün də əhəmiyyətli turizm obyektidir. Mükəmməl infrastruktura malik bu otel kompleksindəki şərait böyük turizm potensialına malik olan Şamaxıda turistlərin yüksək səviyyədə qəbulu üçün geniş imkanlar açacaqdır.

Dövlətimizin başçısı otelin rəmzi açılışını bildirən lenti kəsdi.

"Rixos" otellər şəbəkəsinin idarə heyətinin sədri Fəttah Tamincə Prezident İlham Əliyevə otel kompleksi barədə məlumat verdi. Bildirildi ki, 43 min 370 kvadratmetr ərazidə inşa olunan oteldə yüksək keyfiyyətli müxtəlif xidmətlər göstəriləcəkdir. Otel kompleksi maraqlı memarlıq üslubunda inşa edilmişdir. Avanqard və klassik arxitektura elementlərinin sintezi əsasında inşa edilən binanın interyerinin tərtibatında orijinal mebel və aksessuarlardan istifadə olunmuşdur.

Prezidentin diqqətinə çatdırıldı ki, oteldə xidmət göstərəcək heyət yüksək hazırlıq kursu keçmişdir və onların əksəriyyətini yerli kadrlar təşkil edir. Bu əməkdaşlar otelin istənilən xidmət sahəsində qonaqlara yüksək səviyyəli qulluğun göstərilməsi ilə bağlı xüsusi təlim kurslarına cəlb olunmuşlar.

Otel kompleksində müxtəlif toplantı və konfransların keçirilməsi üçün geniş imkanları olan 200 nəfərlik konfrans zalı, müasir restoranlar şəbəkəsi də fəaliyyət göstərir. Restoranlarda turistlərə Azərbaycan və dünya mətbəxinin nümunələri təqdim olunacaqdır.

Dövlətimizin başçısı otel nömrələri ilə tanış oldu. Məlumat verildi ki, oteldə müxtəlif kateqoriyadan olan nömrələr ən müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir. Bütün bunlar sübut edir ki, paytaxt Bakı ilə yanaşı, regionlarda da müasir turizm və istirahət obyektlərinin, mehmanxana komplekslərinin tikilib istifadəyə verilməsi Azərbaycanda bu sahənin inkişafına göstərilən diqqətin nəticəsidir. Bu çərçivədə "Şamaxı Palace Platinum By Rixos" otelində yaradılan gözəl şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını bir daha təsdiqləyir.

Oteldə uşaqların da istirahətinin təşkili üçün lazımi şərait yaradılmışdır. Burada uşaqlar üçün müxtəlif əyləncə və idman sahələri qurulmuşdur. Oteldə qonaqların vaxtlarını səmərəli keçirmələri üçün bilyard və boulinq zalları da vardır.

Bu oteldə qonaqlara təqdim olunan xidmətlər çoxçeşidliliyi ilə fərqlənir. Təklif olunan bəzi xidmət sahələri pulsuzdur. Burada quraşdırılan müxtəlif trenajorlar, müasir idman avadanlığı və hovuzlar qonaqların istirahət imkanlarını daha da artırır.

Otel kompleksi ilə tanışlıqdan sonra dövlətimizin başçısı kollektivlə görüşdü.

**Kollektiv üzvlərini təbrik edən Prezident İlham ƏLİYEV dedi:**

- Sabahınız xeyir olsun.

Mən sizi salamlayıram. Bu gün Şamaxı rayonunda çox əlamətdar bir gündür. Şamaxıda belə gözəl, möhtəşəm otel açılır, "Şamaxı Palace" oteli. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm.

Bu, doğrudan da "Palace" oteldir, yəni saraydır, saraya oxşayır. Həm xarici görünüşü, daxili dizaynı, rahatlığı, əlbəttə ki, ən yüksək səviyyədədir. Ən yüksək standartlar tətbiq

edilib, otaqlar genişdir, rahatdır, istirahət üçün gözəl imkan vardır. “Rixos” kimi dünya miqyaslı şirkət bu oteldə xidmət göstərəcəkdir. Bu, Azərbaycanda artıq üçüncü oteldir ki, “Rixos” şirkəti onu idarə edir. Bundan əvvəl Qubada gözəl otelin açılışında iştirak etmişəm, Naftalan şəhərində “Rixos” fəaliyyət göstərir və indi Şamaxıda.

Bu, özlüyündə bir göstəricidir. Çünki bu, Azərbaycanın inkişafına inamın əlamətidir. Azərbaycan inkişaf edir. Hər sahə inkişafdadır, o cümlədən turizm sahəsi. Son illərdə Azərbaycana gələn turistlərin sayının artması və yeni otellərin açılışı ölkəmizin dinamik inkişafını göstərir. Çünki bundan sonra biz qeyri-neft sektorunun inkişafı ilə daha da ciddi məşğul olacağıq və ölkəmizi hərtərəfli – həm iqtisadi cəhətdən, həm regional baxımdan inkişaf etdirəcəyik.

Bildiyiniz kimi, Bakıda son 2-3 il ərzində bir neçə beşulduzlu otel açılmışdır. Bu otellər dünyanın ən yüksək otel şəbəkələrinin otelləridir. “Four Seasons”, “Fairmont”, “Marriott”, “Hilton”, “Kempinski” “Jumeirah”, “Sheraton”, “Hyatt”, yəni, dünyanın səkkiz aparıcı otel brendi bir şəhərdədir, özü də Bakı şəhərində. Yəni, biz bunu ancaq dünyanın ən inkişaf etmiş şəhərlərində görə bilərik. Yenə də otellər tikilir. Hazırda Bakıda “İnturist” oteli tikilir. Bu da çox əlamətdar hadisədir. Çünki Bakının vaxtilə - 1950-1960-cı illərdə ən məşhur oteli “İnturist” idi. Sonra “Yeni İnturist” tikildi, bunun adı oldu “Köhnə İnturist”. Sonra isə əfsuslar olsun ki, o, sökülmüşdür, yerində başqa bina tikilmişdir. Ancaq bakılıların xatirəsində həmişə “İnturist” oteli yaşayır.

Mən çox şadam ki, hazırda biz bu tarixi ədaləti bərpa edirik. “İnturist” oteli tikilir. Adı da “İnturist” olacaqdır. Təxminən əvvəlki “İnturist”in yerinə çox yaxın bir yerdə tikilir. Dənizə mənzərəsi açılır və Yeni Bulvarın arxasında yerləşir. Eyni zamanda, Ağ şəhər bulvarında - bulvarın əks istiqamətində yeni böyük otel tikilir. Beləliklə, Bakıda beşulduzlu otellərin sayı ən azı ona çatacaqdır. Yəni, bir neçə il ərzində beşulduzlu on otelin fəaliyyətə başlaması özlüyündə ölkəmizin nə qədər sürətlə inkişaf etdiyini göstərir.

Turistlərin sayı, qonaqların sayı artır və hər qonaq, hər halda mənimlə görüşən xarici qonaqlar Bakı haqqında, Azərbaycan haqqında çox yüksək fikirdədirlər. Azərbaycanın inkişafı, Bakının gözəlliyi onları heyran edir. Keçən ay Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksi istifadəyə verilmişdir. Bu da dünya miqyasında ən gözəl aerovağzal komplekslərindən biridir. Həm xarici görünüşü, dizayn, interyer, həm də zövq baxımından ən yüksək səviyyədədir. Ona görə hazırda bax bu turizm və nəqliyyat infrastrukturu bizə imkan verir ki, bu sektoru sürətlə inkişaf etdirək.

Məni daha çox sevindirən odur ki, hazırda bölgələrdə ən müasir səviyyədə otellər tikilir. Şimal-qərb zonasında, bax, Şamaxıda artıq ikinci oteldir. Biri də tikilir. Qəbələ şəhəri artıq Azərbaycanın turizm mərkəzinə çevrilmişdir. Beynəlxalq Aeroport və dörd, ya da ki, beş beşulduzlu otel artıq fəaliyyət göstərir. Şəki bizim qədim şəhərimizdir. Orada da otellər tikilib. Şimal istiqamətində “Rixos” artıq Qubada fəaliyyət göstərir. Böyük qolf meydançası da vardır, burada dünya çempionatları keçirmək mümkündür. “Şahdağ” qış-yay turizm mərkəzi. Orada artıq üç otel açılıbdır - “Şahdağ”, “Pik Palas”, “Zirvə”, dördüncüsü də tikilir. Qusar və Qəbələ rayonlarında dağ xizəyi kompleksləri açılmışdır. Bu, Azərbaycanda heç vaxt olmamışdır. Yəni, turizm Azərbaycanda hazırda ən sürətlə inkişaf edən sahələrdən biridir. Bunu beynəlxalq qurumlar da qeyd edirlər. Dünya Turizm Təşkilatının rəhbərliyi Azərbaycanda görülən işlərə çox yüksək qiymət verir.

Ölkəmiz çox gözəldir, zəngindir. Təbiətimiz, havamız, iqlimimiz böyük sərvətimizdir. Eyni zamanda, Azərbaycanda tarixən müalicə üçün də yerlər olmuşdur. Onların içində mən Naftalanı qeyd etmək istəyirəm. Orada da “Rixos” fəaliyyət göstərir və biz Naftalanın keçmiş şöhrətini bərpa edirik. Sovet vaxtında hər il 50-60 min insan Naftalana müalicə üçün gəlirdi.

Müstəqilliyin ilk illərində Azərbaycan erməni işğalına məruz qalmışdır. Məcburi köçkün soydaşlarımız o otellərdə, sanatoriyalarda məskunlaşmışdı. Biz onlar üçün yeni evlər tikdik, qəsəbələr yaratdıq. Onlar çox gözəl yerlərə köçürüldü. İndi Naftalanda Azərbaycanın müalicə mərkəzi tikilir. "Çinar", "Rixos" otelləri və tikilməkdə olan "Qarabağ" oteli də artıq Naftalanı bir turizm, istirahət, müalicə mərkəzi kimi dünyaya təqdim edəcəkdir.

Yəni, ərazisi o qədər də böyük olmayan ölkədə görün, artıq nə qədər turizm mərkəzləri vardır. Bakı dəniz sahilində istirahət üçün imkanlar yaradır. Qusar, Qəbələ dağ xizəyi, Şamaxı, Naftalan. Biz Qalaaltını da buraya əlavə etməliyik. Çünki sovet vaxtında Qalaaltı da ümumittifaq kurortu idi. Burada müalicəvi su da çox keyfiyyətlidir. İndi Qalaaltıda çox gözəl, yeni otel tikilir.

Əlbəttə ki, bu, uzunmüddətli strategiyamıza uyğundur. Çünki bu sahəyə qoyulan sərmayə uzun müddətə, Azərbaycanın gələcəyinə qoyulan sərmayədir. Əgər investorların inamı olmasaydı, Azərbaycana bir manat da qoymazdılar. Həm yerli, həm xarici investorlar turizm, otel sektorlarına, böyük maraq göstərirlər, investisiyalar qoyurlar və beləliklə, ölkəmiz bu gün dünyada turizm mərkəzi kimi tanınır.

Bizim məqsədimiz məhz bundan ibarət idi. Çünki Azərbaycanı daha çox neftə, qaza görə tanıyırdılar. Amma mən istəyirəm ki, Azərbaycanı gözəlliyə, rahatlığa görə tanısınlar, turizm mərkəzi kimi tanısınlar. Bütün imkanlar vardır - belə təbiət, gözəl hava, istedadlı insanlar, ölkəmizdə hökm sürən sabitlik, təhlükəsizlik. Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. Bakı da ən təhlükəsiz şəhərdir. Əlbəttə ki, nə qədər çox inkişaf getsə, insanlar nə qədər çox zənginləşsələr, varlı olsalar, ölkəmiz də bir o qədər çox inkişaf edəcək və Azərbaycan daim inkişaf yolu ilə gedəcəkdir. Sabitlik, gələcəyə inam və düzgün siyasət bu gün Azərbaycanın inkişafını şərtləndirir.

Təsadüfi deyildir ki, son on il ərzində dünya miqyasında iqtisadi inkişaf baxımından ən sürətlə inkişaf edən ölkə Azərbaycandır. Belə gözəl, möhtəşəm otelin Şamaxıda yaradılması əlbəttə ki, çox əlamətdar hadisədir. Şamaxı inkişaf edir. Mən keçən il Şamaxıda olmuşam. Keçən il tariximiz, milli dəyərlərimizin qorunması üçün çox əlamətdar hadisə baş vermişdir. 743-cü ildə tikilmiş, Azərbaycanda və müsəlman aləmində ən qədim məscidlərdən biri olan Şamaxı Cümə məscidi əsaslı bərpadan sonra açılmışdır. Bu, bizim tariximizə, dinimizə, adət-ənənələrimizə verdiyimiz töhfədir, mənəvi borcumuzdur.

Ölkədə milli dəyərlər və müasirlik vəhdət təşkil edir. Bizim uğurumuzun əsas səbəbi məhz bundan ibarətdir. Dərin mənəvi köklər üzərində müasir dövlət qururuq və belə gözəl otellər görülən işlərin kiçik bir parçasıdır.

Siz burada fəaliyyət göstərəcəksiniz. Mənə verilən məlumata görə, indi buraya gəlmək istəyən qonaqların sayı çoxdur. Müraciətlər edilir. Siz əlbəttə ki, "Rixos" markasını yüksək tutacaqsınız, gözəl xidmət göstərəcəksiniz və ölkəmiz üçün gözəl işlər görəcəksiniz.

Sizi təbrik edirəm, sizə uğurlar arzulayıram.

* * *

Sonra xatirə şəkli çəkdirildi.

* * *

Otelin ərazisində geniş tikinti-quruculuq işləri də həyata keçirilmişdir. Tamaşaların və müxtəlif əyləncə proqramlarının təşkil olunması üçün 200 tamaşaçı yerlik amfiteatr yaradılmışdır. Bundan əlavə, ərazidəki tennis, futbol, basketbol, voleybol, mini qolf meydançalarında hər cür şərait vardır.

"Şamaxı Palace Platinum By Rixos" otelinin təqdim etdiyi xidmətlərə təbiət qoynuna gəzintilərin təşkil olunması, idmanın dağ velosipedi növü üzrə xidmətlərin göstərilmə-

si də daxildir. Beləliklə, qonaqların istirahətinin yüksək səviyyədə təmin olunduğu bu otellərdə yaradılan şərait bir daha təsdiqləyir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün ölkə üzrə turizm marşrutlarının müəyyənləşdirilməsi və bölgələrdə bununla bağlı genişmiqyaslı tədbirlərin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılır. Təsadüfi deyildir ki, son bir neçə ildə beşulduzlu otellərin açılması ilə dünyanın ən məşhur otel brendləri Azərbaycana gəlmişdir və bu proses ardıcıl olaraq davam etdirilir.

*14 may 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN RƏSMİ QƏBULDA İŞTİRAK ETMİŞDİR

Salona toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Azərbaycanın dövlət himni səsləndi.

Azərbaycan Prezidenti İlham Əliyev rəsmi qəbulda nitq söylədi.

### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar.

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn

Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm, bu gözəl bayram ərəfəsində bütün Azərbaycan xalqına xoşbəxtlik, yeni uğurlar arzulayıram.

Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, müsəlman aləmində ilk demokratik respublika məhz Azərbaycanda yaradılmışdır. Azərbaycanın mütərəqqi nümayəndələri bu respublikanı yaratmışlar. Bu, tarixi hadisə idi. Doxsan altı il bundan əvvəl müsəlman aləmində ilk demokratik respublikanın yaradılması böyük hadisə idi və ondan sonra digər müsəlman ölkələrində respublika quruluşu yaradılmışdır. Ancaq ilk təcrübə məhz Azərbaycan xalqının istedadı, zəhməti, uzaqgörənliyi hesabına mümkün olmuşdur. Əfsuslar ki, respublikanın ömrü uzun olmamışdır. Azərbaycan cəmi iki il müstəqil ölkə kimi yaşamışdır. Ancaq bu illər ərzində böyük işlər görülmüşdür. Azərbaycan xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə həmişə böyük hörmətlə yanaşır və onların əziz xatirəsi həmişə bizim ürəyimizdədir. O illərdə demokratik təsisatlar qurulmuş, ordu quruculuğu sahəsində böyük işlər görülmüş, qadınlara səsvermə hüququ verilmişdir. Bir sözlə, Azərbaycanın gələcək uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır. Əgər 1920-ci ildə müstəqillik əlimizdən alınmasaydı, mən tam əminəm ki, bu gün Azərbaycan dünyada ən zəngin ölkələrdən biri olacaqdı.

Əfsuslar olsun ki, müstəqillik əlimizdən alındı, 1920-ci ildə respublika süqut etdi və beləliklə, Azərbaycanın uğurlu inkişafına son qoyuldu. Bizim təbii sərvətlərimizi, coğrafi vəziyyətimizi, xalqımızın istedadını, mütərəqqi insanların fəaliyyətini nəzərə alaraq tam əminliklə deyə bilərəm ki, əgər biz müstəqil həyat yaşasaydıq bu gün çox qabağa gedə bilərdik. Ancaq nə edək, Azərbaycan Xalq Cümhuriyyətinin böyük gücü yox idi ki, öz müstəqilliyini qoruya bilsin. Bu, təbiidir və 71 il ərzində biz Sovet İttifaqı tərkibində yaşamışıq. Əlbəttə, xalqımız o illərdə inkişaf etmişdir, Azərbaycan da inkişaf etmişdir və deyə bilərəm ki, sovet dövrünün ən parlaq səhifəsi ulu öndər Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır. Çünki məhz 70-ci illərdən sonra Azərbaycanda sürətli inkişaf dövrü başlamışdır. Deyə bilərəm ki, biz o vaxta qədər müttəfiq respublikalar arasında axırıncı yerdə idik. An-

caq 70-ci illərin sonlarında artıq birinci yerlərə çıxmışdıq. İki donor respublika var idisə, onlardan biri də Azərbaycan idi. Məhz o illərdə sənaye potensialımız yaradılmış, xüsusilə neft sənayesi inkişaf etmişdir. O potensial bu gün də bizə böyük dəstəkdir. Kənd təsərrüfatının yüksəlişi, infrastruktur layihələrinin icrası, əlbəttə ki, Azərbaycanın inkişafını təmin edirdi. Ancaq biz müstəqil, azad deyildik və taleyimiz əlimizdə deyildi.

İkinci şans bizə 1991-ci ildə nəsib oldu. Sovet İttifaqının dağılması nəticəsində başqa müttəfiq respublikalarla bərabər biz də müstəqilliyə qovuşduq. Ancaq o illəri biz hamımız yaxşı xatırlayırıq. Azərbaycan üçün çox ağır, təhlükəli illər idi. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində bu tarixi şansdan o vaxtkı rəhbərlik istifadə edə bilməmişdir. Ölkədə xaos, böhran hökm sürürdü - iqtisadi böhran, siyasi böhran. Nəticədə bu, vəziyyəti hərbi böhrana gətirib çıxarmışdı və vətəndaş müharibəsi başlamışdı. Yəni, iki ildən sonra demək olar ki, bizim müstəqilliyimiz yenə də sual altına qoyulurdu. Sanki tarix təkrarlanırdı, sanki birinci demokratik respublikanın təcrübəsi, yəni, mənfi mənada o təcrübəsi yenə təkrarlanırdı və təkrarlana da bilərdi. Biz bunu yaxşı bilirik. Çünki o vaxt iqtisadiyyat tamamilə çökmüşdü, sənaye istehsalı dayanmışdı, ölkə iflic vəziyyətində idi, erməni işğalı, daxili çəkişmələr, rəhbərlikdə olan şəxslərin fəaliyyətsizliyi və xəyanətkarlığı nəticəsində müstəqillik əldən gedirdi. Xüsusilə AXC-Müsavat hakimiyyətinin yarıtmaz, xəyanətkar, faciəvi hakimiyyəti nəticəsində ölkəmiz uçuruma gedirdi. Torpaqlar itirilirdi, Şuşa, Laçın, Kəlbəcər işğal altına düşdü, daxildə vəziyyət çox ağır idi və nəticədə vətəndaş müharibəsi başlamışdı. Biz o illəri yaxşı xatırlayırıq və bu gün qonşuluqda baş verən hadisələri izləyərkən yenə də əminəm ki, hər bir Azərbaycan vətəndaşı o illərə qayıdır, o illəri xatırlayır və bir daha əmin olur ki, Azərbaycan xalqının böyük xoşbəxtliyi ondan ibarət idi ki, xalqımız həlledici anlarda düzgün seçim etmişdir, müdriklik göstərmişdir və Ulu Öndərə üz tutub onu hakimiyyətə dəvət etmişdir. Əgər Heydər Əliyev o illərdə Azərbaycan rəhbərliyinə gəlməsəydi, ölkə tamamilə dağıla bilərdi.

Ona görə 1993-cü il əslində real müstəqilliyimizin ilk ili olmuşdur. Məhz Heydər Əliyevin qətiyyəti, cəsarəti, təcrübəsi, dünyagörüşü və düşünülmüş siyasəti nəticəsində Azərbaycan o ağır vəziyyətdən çıxa bildi, sabitlik yarandı və inkişaf dövrü başlandı. Qanunsuz silahlı birləşmələr tərk-silah edildi, separatçı qüvvələrə böyük zərbə vuruldu və Azərbaycan inkişaf yoluna qədəm qoydu.

Azərbaycanda demokratik təsisatlar məhz Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış və möhkəmləndirilmişdir. Müstəqil Azərbaycanın Konstitusiyası da Heydər Əliyevin əsəridir. 1995-ci ildə Konstitusiya qəbul edilmişdir. Siyasi sistem formalaşmışdır. Siyasi sistemin formalaşmasında da yenə də Ulu Öndərin rolu danılmazdır. Məhz 1992-ci ildə müxalifət partiyası kimi qurulan Yeni Azərbaycan Partiyası müasir siyasi sistemin yaradılmasında müstəsna rol oynamışdır. Azərbaycanda siyasi islahatlar aparılmağa başlanmışdır. Dünyaya inteqrasiya dövrü başlanmışdır. Azərbaycanı dünyada tanımağa başlamışlar. Bizə qarşı aparılan müharibə sadəcə olaraq erməni işğalı ilə bitmirdi. Azərbaycana qarşı informasiya müharibəsi aparılırdı. Biz informasiya blokadası şəraitində yaşayırdıq və bu blokadanı aradan götürmək, Azərbaycanı dünyaya təqdim etmək və Azərbaycanın potensialını nümayiş etdirmək üçün Ulu Öndər böyük səylər qoymuşdur və bu səylər öz gözəl nəticələrini vermişdir.

İqtisadi islahatlar siyasi islahatlarla paralel şəkildə aparılırdı. Milli ideologiyamız məhz o illərdə yaradılmışdır, - bu gün də bizim inkişafımız üçün bu, əsasdır, - dövlətçiliyin əsasları qoyulmuşdur və əlbəttə ki, ölkəmizin inkişafı üçün müstəsna əhəmiyyət kəsb edən neft kontraktları imzalanmışdır. İndi Azərbaycanın inkişafını neft sənayesiz təsəvvür etmək mümkün deyildir. Ancaq hamımız yaxşı bilirik, mütəxəssislər də yaxşı bilirlər ki, Sovet İttifaqı dağılanda bizim neft sənayemiz artıq dağılmış vəziyyətdə idi. Neft hasilatı

təxminən 10 milyon ton səviyyəsində idi. Bu, heç bizim gündəlik tələbatımızı ödəmək üçün kifayət etmirdi. Bütün ölkədə zülmət, qaranlıq müşahidə olunurdu, elektrik enerjisi çatışmazlığı, elementar infrastruktur layihələrinin olmaması – yəni, bu idi bizim o vaxtkı vəziyyətimiz. Ona görə neft kontraktlarının, xüsusilə "Əsrin kontraktı"nın, - o gündən artıq 20 il keçir, - imzalanması dönüş yaratdı. Həm iqtisadi, həm siyasi sahədə.

1993-2003-cü illər tarixdə sabitlik, inkişaf illəri kimi qalacaqdır. Azərbaycanın müstəqil ölkə kimi yaşamasını təmin edən bir dövr kimi tarixdə qalacaqdır. Biz bu gün öz fəaliyyətimizi o illərdə müəyyən edilmiş strategiya çərçivəsində aparırıq, Azərbaycanı inkişaf etdiririk. Siyasi xətt dəyişməz olaraq qalır. Bu xəttin alternativi yoxdur. Ölkədə aparılan, dərinləşən siyasi və iqtisadi islahatlar bu gün Azərbaycanı çox güclü bir ölkə kimi, regional dövlət kimi artıq dünyaya təqdim edir.

Son on il ərzindəki nailiyyətlər haqqında çox danışmaq istəmirəm. Bütün bunlar artıq bəllidir. Bu da tarixdir. Son on ilin təcrübəsi sürətli inkişaf tarixidir. Bu da tarixdə qalacaqdır. Çünki son on il ərzində iqtisadi sahədə Azərbaycan kimi inkişaf edən ikinci ölkə olmamışdır.

Bütün statistik göstəricilər bunu təsdiqləyir. Bizim gündəlik həyatımız da bunun əyani sübutudur. Son on il ərzində biz islahatları dərinləşdirərək, cəmiyyətimizi səfərbər edərək, Azərbaycan cəmiyyətində həmrəylik hisslərini gücləndirərək böyük və uğurlu yol keçmişik. Bu yolun təməli 1993-cü ildə qoyulmuşdur. Müstəqilliyimizin, real müstəqilliyimizin ilk ilində qoyulmuşdur. Biz bu gün beynəlxalq arenada söz sahibiyik. Bizimlə hesablaşırlar, bizim mövqeyimiz böyük əhəmiyyət daşıyır. Bizim mövqeyimiz ədalətə, beynəlxalq hüquqa söykənir. Əminəm ki, prinsipial mövqeyimiz həm bölgədə, həm dünyada bizə əlavə hörmət qazandırır.

Hər bir məsələ ilə - istər daxili siyasət, istər xarici siyasət ilə bağlı bizim konkret mövqeyimiz vardır. Biz bunu gizlətmirik, ifadə edirik. Öz niyyətimizi, siyasətimizi açıq şəkildə bəyan edirik və bizim addımlarımız da siyasətimizin davamıdır. Sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Ona görə bizim sözümüz imzamız qədər dəyərlidir və əhəmiyyətlidir. Əgər söz veririksə, onu yerinə yetiririk. Əlbəttə ki, qarşı tərəflərdən də eyni yanaşmanı gözləyirik.

Son on il ərzində iqtisadi sahədə, regionların inkişafı sahəsində, infrastruktur layihələrin icrası istiqamətində tarixi nailiyyətlər əldə edilmişdir. Beynəlxalq aləmdə Azərbaycan dünyanın bir nömrəli qurumu olan BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Böyük dəstək hesabına, inam hesabına. Biz bu şərəfli missiyanı ləyaqətlə icra etmişik. Bizə hörmət daha da artmışdır və bu gün biz nəinki regional məsələlərin həllində, qlobal məsələlərdə də öz sözümüzü deyirik.

Bu illər ərzində biz güclü enerji potensialı yaratmışıq. Bu gün heç kimə sirr deyil ki, enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyini təmin edir. Bəlkə hərbi potensialdan sonra ikinci yerdə dayanan enerji təhlükəsizliyidir. O ölkələr ki, enerji təhlükəsizliyini təmin edib, onlar özlərini rahat hiss edə bilərlər. Biz bunu etmişik. Zəhmətimiz hesabına, aparılan siyasət nəticəsində. Bu, göydən düşən nemət deyildir. Buna biz özümüz nail olmuşuq. Buna Azərbaycan xalqı nail olub. Bizim siyasətimiz bu sahədə də öz səmərəsini bir daha göstərmişdir.

Bu gün Azərbaycan başqa ölkələrin də enerji təhlükəsizliyinə töhfə verərək həm iqtisadi, həm siyasi maraqlarını tam şəkildə təmin edir. Bizim maliyyə vəziyyətimiz bütün ölkələr üçün örnək ola bilər. Yəni, bu sözləri sadəcə olaraq özümüzü tərifləmək üçün demirəm. Sadəcə olaraq ona görə deyirəm ki, bu, reallıqdır. Bizim böyük maddi imkanlarımız, maliyyə imkanlarımız vardır. Biz heç bir beynəlxalq maliyyə qurumunun dəstəyindən asılı deyilik. Bu da bizim müstəqilliyimizi möhkəmləndirir. Nədir müstəqilliyimizi şərtləndirən əsas amillər? Müstəqil

siyasət, müstəqil xarici siyasət, güclü ordumuz müstəqilliyimizin dayağıdır, əsasıdır. İqtisadi müstəqillik, enerji təhlükəsizliyi, nəqliyyat təhlükəsizliyi, hər bir ölkənin öz coğrafi vəziyyətindən səmərəli şəkildə istifadə etmək imkanları - bunlardır bugünkü dünyada müstəqilliyi müəyyən edən amillər. Fəxr edirik ki, biz sözün əsl mənasında müstəqilik, müstəqillik bizim üçün ən böyük sərvətdir və ən böyük nailiyyətdir.

Əlbəttə ki, bu gözəl bayram ərəfəsində biz gələcək işlər haqqında bir daha öz fikirlərimizi ifadə edirik. Əslində bizim gələcək fəaliyyətimizlə bağlı bütün proqramlar ictimaiyyət üçün açıqdır. Biz istər xarici siyasətlə, istər daxili siyasətlə, istərsə də iqtisadi sahə ilə bağlı bunları bəyan etmişik. Sadəcə olaraq bir neçə istiqamət üzrə fikirlərimi bu gözəl gündə ifadə etmək istəyirəm.

Daxili siyasətlə bağlı deməliyəm ki, biz Azərbaycanda bundan sonra da sabitliyi qoruyacağıq. Sabitliyin təmin edilməsinin əsas şərti xalqla iqtidar arasındakı birlikdir. Bu da vardır. Azərbaycan bu gün nadir ölkələrdəndir ki, əsas mövzular ətrafında cəmiyyətdə heç bir fikir ayrılığı yoxdur. Əlbəttə ki, islahatların sürəti, çatışmayan cəhətlərin tezliklə aradan qaldırılması və bunun yolları, iqtisadi sahədə islahatlar, siyasətlə bağlı, xarici siyasətlə bağlı müxtəlif fikirlər ola bilər. Bu, təbiidir. Ancaq ölkəmizin ümumi inkişafı ilə bağlı fikir ayrılığı yoxdur, o cümlədən daxili siyasətimizlə bağlı. Ona görə sabitliyin qorunması Azərbaycanda təbii bir prosesdir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Azərbaycan dövləti və hökuməti islahatları apararaq daha da yaxşı şərait yaratmaqla bu sabitliyi möhkəmləndirir. Dünyanın müxtəlif yerlərində sabitlik pozulduqda təhlil aparılır. Nə üçün belədir? Hansı səbəblər buna şərait yaradır? Biz görürük inamsızlıq, idarəetmə qaydalarında kobud səhvlər, iqtisadi və sosial problemlər – bax, bunlar istənilən yerdə sabitliyi poza biləcək amillərdir.

Biz isə bütün məsələlərə düşünülmüş şəkildə yanaşırıq. Bizim əsas məqsədimiz Azərbaycanı daha da güclü dövlətə çevirməkdir, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaqdır. Biz daxili siyasətlə bağlı prinsipial xəttimizi bundan sonra da aparacağıq. İslahatlar dərinləşəcəkdir. Demokratiyanın inkişafı, insan hüquqlarının qorunması, azad cəmiyyətin formalaşması istiqamətində islahatlarımız davam etdiriləcəkdir. Bu islahatları kiminsə xoşuna gəlmək üçün deyil, gələcəyimiz üçün edirik, aparırıq və aparacağıq.

Bu gün Azərbaycan müasir dövlətdir və bu dövlətin çox möhkəm əsasları vardır. Bu əsaslar bizim milli dəyərlərimizdir, Azərbaycan dəyərləridir. Bu da çox önəmlidir. Daxili siyasətdə bu amil daim diqqət mərkəzindədir. Biz bundan sonra da ölkəmizin inkişafı üçün bütün tədbirləri görəcəyik. Biz bu möhkəm təməli daha da möhkəmləndirəcəyik.

Şadam ki, gənc nəsil də milli ruhda böyüyür, vətənpərvərlik ruhunda tərbiyə alır. Vətənpərvərlik ruhunda tərbiyə almaq üçün bütün imkanlar vardır. Çünki bu gün hər bir vətənpərvər insan fəxr edir ki, Azərbaycan kimi müasir və güclü dövlətin vətəndaşıdır. O dövlətin ki, öz vətəndaşlarını darda qoymur. O dövlətin ki, öz vətəndaşlarının arxasında dayanır. O dövlətin ki, öz vətəndaşlarının rifahı üçün əlindən gələni əsirgəmir. Milli dəyərlərin üzərində müasir dövlətin qurulması, əlbəttə ki, bu gün bizi fərqləndirən cəhətlərdən biridir.

Daxili siyasətlə bağlı islahatlar davam etdiriləcəkdir. Cəmiyyəti incidən, narazılıq yaradan xoşagəlməz hallara qarşı mübarizə daha da ciddi aparılacaqdır. Xüsusilə, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə daha da ciddi aparılmalıdır. Əlbəttə, son illərdə bu istiqamətdə çox böyük nailiyyətlər, uğurlar vardır. Bu, bizi sevindirir, daha da ruhlandırır. Cəmiyyəti də ruhlandırır. Cəmiyyətdə bu işlərin aparılmasına böyük dəstək, inam vardır. Biz bu yolla gedəcəyik. Çünki Azərbaycanda xoşagəlməz hallar olmamalıdır. Azərbaycan cəmiyyəti nümunəvi cəmiyyət olmalıdır. Azad, müstəqil və güclü dayaqları olan cəmiyyət olmalıdır. Biz bu yolla gedirik və gedəcəyik.

Bizim xarici siyasətlə bağlı təşəbbüslərimiz gözəl nəticələr verir. Biz xarici siyasətdə ikitərəfli formata üstünlük veririk. Mən hesab edirəm ki, bu, ən məqbul formatdır. Əlbəttə, digər formatlar da vardır. Onlardan da istifadə olunur. Ancaq ikitərəfli format ən böyük səmərə verən formatdır. Bütün ölkələrlə bizim yaxşı münasibətlərimiz vardır. Biz çalışırıq, çalışacağıq ki, ikitərəfli münasibətləri həm region ölkələri ilə, həm də başqa ölkələrlə inkişaf etdirək. Buna nail olmaq üçün böyük imkanlar vardır. O cümlədən bizim artan iqtisadi imkanlarımız və yeni investisiya siyasətimiz vardır. Biz artıq investisiyaları xarici ölkələrə yönəldirik. Beləliklə, xarici tərəfdaşlar üçün Azərbaycan təkcə bir siyasi mərkəz kimi yox, eyni zamanda, bir investisiya mənbəyi kimi də maraqlıdır.

Əlbəttə ki, ilk növbədə, qonşu ölkələrlə münasibətlər daha da möhkəm olmalıdır. Burada bizim bütün qonşu ölkələrlə, təbii ki, Ermənistan istisna olmaqla, fikirlərimiz üst-üstə düşür. Bütün qonşularla münasibətlər bərabər hüquqlu, qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri üzərində qurulmuşdur. Gələcəkdə qonşu ölkələrlə əməkdaşlıq bizim xarici siyasətimiz üçün prioritet olaraq qalacaqdır. Böyük imkanlar vardır. Həm iqtisadi sahədə, həm də regional əməkdaşlıq sahəsində. Biz ikitərəfli formatdan maksimum dərəcədə fayda götürməliyik. Eyni zamanda, Azərbaycanın təşəbbüsü ilə artıq bir neçə üçtərəfli format da yaradılmışdır. Dünən Bakıda Azərbaycan, Türkiyə və Türkmənistan xarici işlər nazirlərinin birinci üçtərəfli görüşü keçirilmişdir. Biz buna böyük əhəmiyyət veririk. Bundan əvvəlki dövrdə Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Türkiyə-İran üçtərəfli formatları olmuşdur. Artıq bu formatlar fəaliyyət göstərir. Əlbəttə ki, hər üç formatda Azərbaycan öz yerini tutur. Beləliklə, regional təhlükəsizlik, əməkdaşlıq, siyasi və iqtisadi maraqlarımızın təminatı üçün bu formatlar çox böyük məna daşıyır. Biz gələcəkdə bu üçtərəfli görüşləri əlbəttə ki, davam etdirəcəyik. Bu, artıq mütəmadi xarakter alıbdır.

Biz beynəlxalq təşkilatlarda da fəal iştirak edirik və edəcəyik. Mən BMT-ni xüsusi vurğulamaq istəyirəm. Qeyd etmək istəyirəm ki, BMT dünyanın bir nömrəli təşkilatıdır, bütün dünyanı əhatə edir. BMT-də bizim mövqelərimiz kifayət qədər möhkəmdir və 155 ölkənin dəstəyi ilə Təhlükəsizlik Şurasına seçilməyimiz də bunu göstərir. Bundan sonra da öz fəaliyyətimizi davam etdirəcəyik. Biz digər təşkilatlarda da fəal iştirak edirik. Qoşulmama Hərəkatı BMT-dən sonra üzvlərinin sayına görə ikinci böyük təşkilatdır. Orada da bizim mövqeyimiz kifayət qədər möhkəmdir. Biz bu təşkilata üzv olandan dərhal sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini dəstəkləyən qətnamə də qəbul edilmişdir. İslam Əməkdaşlıq Təşkilatında biz çox fəal rol oynayırıq. Bakıda çoxsaylı tədbirlər, nazirlər səviyyəsində tədbirlər keçirilir. Əlbəttə ki, İslam Əməkdaşlıq Təşkilatında bizim fəaliyyətimiz bundan sonra da uğurla davam etdiriləcəkdir. Çünki biz İslam aləminin bir parçasıyıq. Bizim milli dəyərlərimizin təməlində İslam dəyərləri dayanır. Eyni zamanda, Avropa Şurası ilə bağlı əməkdaşlıq üçün yaxşı imkanlar, perspektivlər vardır. Biz artıq Avropa Şurasına da sədrlik edirik. Əlbəttə ki, bu sədrlik növbəlilik əsasında olan sədrlikdir. Ona görə hesab etmirəm ki, biz bundan, necə deyərlər, xüsusi bir qürur hissi ilə danışmalıyıq. Sadəcə olaraq, növbəmiz gəlib çatıb. Ancaq hər halda biz də bu imkanlardan səmərəli şəkildə istifadə edəcəyik. Avropada demokratiyanın inkişafı, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, islamofobiyaya qarşı mübarizəmiz daha da təsirli olacaqdır.

Əlbəttə ki, müxtəlif beynəlxalq təşkilatlarda üzvlüyümüz bizim siyasi maraqlarımıza xidmət göstərir. Biz bütün bu təşkilatlarda fəaliyyətimizi uğurla davam etdirəcəyik, prinsipial mövqeyimizi həmişə ifadə edəcəyik.

Əlbəttə, xarici siyasətimizin əsas məsələsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Əfsuslar olsun ki, Minsk qrupunun 20 ildən artıq fəaliyyətinə baxmayaraq, bu sahədə heç bir irəliləyiş olmamışdır. Ona görə ki, Ermənistan tərəfi bunu istəmir.

Artıq heç kimə sirr deyil ki, məsələnin həll olunmaması Ermənistanın qeyri-konstruktiv mövqeyindən asılıdır. Ermənistan status-kvonu saxlamaq istəyir. Baxmayaraq ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçıları status-kvonun qəbuledilməz olduğunu dəfələrlə demişlər, Ermənistan isə buna məhəl qoymur. Bu səbəbdən də məsələ öz həllini tapmır. Ancaq mən hesab edirəm ki, artıq münaqişənin həlli üçün bütün lazımi diplomatik və hüquqi əsaslar qoyulubdur və bu əsasları biz qoymuşuq. Çünki münaqişə ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini tapa bilər. Beynəlxalq hüquq isə bizim mövqeyimizi dəstəkləyir və müdafiə edir. Ölkələrin ərazi bütövlüyü mübahisə mövzusu deyil, o cümlədən Azərbaycanın ərazi bütövlüyü mübahisə mövzusu deyildir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar predmeti olmamışdır və olmayacaqdır. Münaqişə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi əsasında öz həllini tapmalıdır. Başqa həll variantı yoxdur. Biz imkan verməzik ki, öz ərazimizdə ikinci qondarma erməni dövlətini yaratsınlar. Birinci erməni dövləti bizim ərazimizdə, qədim Azərbaycan torpağında, İrəvan, Göyçə, Zəngəzurda qurulubdur. İkinci erməni dövləti olmayacaqdır. Heç vaxt qondarma Dağlıq Qarabağa heç bir hüquqi status verilməyəcəkdir. Beləliklə, məsələnin həlli üçün hüquqi və diplomatik əsaslar vardır. Bu əsaslar kifayət edirmi ki, məsələ öz həllini tapsın? Yox! Əgər kifayət etsəydi, məsələ öz həllini tapardı. Əlavə nə edilməlidir ki, məsələ öz həllini tapsın?! Biz bunu da çox yaxşı bilirik. Əlavə, iqtisadiyyat daha da güclü olmalıdır. Biz Ermənistanı bundan sonra da mümkün qədər təcrid vəziyyətində saxlamalıyıq. Halbuki indi tam təcrid deyil və onun digər ölkələrlə qapıları açıqdır. Ancaq biz Ermənistanı bütün regional layihələrdən təcrid etmişik və bunun nəticəsində Ermənistandan kütləvi köç müşahidə olunur. Onların statistik məlumatlarına əsasən ölkədən hər il 80-90 min insan həmişəlik gedir və gedəcəkdir. Nə qədər ki, Ermənistanın rəhbərliyində kriminal, korrupsiyalaşmış diktatura rejimi varsa, o qədər də tez Ermənistanın vəziyyəti daha da ağır olacaqdır. Ona görə, əgər erməni xalqı qonşularla mehribanlıq şəraitində yaşamaq istəyirsə, ilk növbədə, kriminal, qaniçən, qanunsuz rejimdən imtina etməlidir, onları tarixin arxivinə göndərməlidir. Ermənistan işğal edilmiş torpaqlardan çıxmalıdır ki, bir qədər nəfəs ala bilsin. Əks təqdirdə bu ölkənin taleyi çox qaranlıq olacaqdır.

Biz isə öz səylərimizi davam etdirəcəyik. Biz heç vaxt indiki vəziyyətlə barışmayacağıq. Orduya daha da böyük dəstək veriləcəkdir, daha da böyük vəsait ayrılacaqdır. Bu gün dünyada və bölgədə gedən proseslər bir daha onu göstərir ki, ordu quruculuğuna ayrılan böyük diqqət müstəqilliyimizin əsasıdır.

Biz gələcək illərdə hərbi potensialımızın gücləndirilməsi üçün nə qədər lazımsa, o qədər vəsait ayıracağıq, ən müasir texnika alınır və alınacaqdır. Azərbaycan Ordusu dünya miqyasında texniki təchizat baxımından güclü ordular sırasındadır. Ordu quruculuğunda, orduda gedən islahatlar bizim döyüş qabiliyyətimizi artırır, orduda nizam-intizam möhkəmlənir, struktur islahatları aparılır, təmas xəttində əlavə işlər görülür və görüləcəkdir.

Biz həmsədr ölkələrdən etimad tədbirləri haqqında dəfələrlə eşidirik. Ən gözəl etimad tədbiri erməni işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasıdır. Başqa etimad tədbiri ola bilməz. Nə qədər ki, torpaqlarımız işğal altındadır, müharibə bitmiş hesab oluna bilməz. Mən dəfələrlə demişəm ki, müharibə davam edir. Müharibənin birinci mərhələsi başa çatıbdır. Əgər Ermənistan istəmirsə ki, ikinci mərhələ başlasın, onda düzgün nəticə çıxarsın, işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxsın. Bəlkə o vaxt gələcəkdə müstəqil erməni dövləti xəritədə qala bilər. Halbuki bu gün də erməni dövlətini müstəqil adlandırmaq olmaz. Bir sözlə, biz bundan sonra da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində prinsipial mövqeyimizdən dönməyəcəyik və bütün imkanlardan istifadə edib Ermənistanı işğalçı, kriminal ölkə kimi ifşa edəcəyik.

İqtisadi siyasətimizlə bağlı proqramlar dərc edilib. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası dərc edilibdir. Bu barədə çox danışmaq istəməzdim. Sadəcə, onu demək istəyirəm ki, 2020-ci ilə qədər və bəlkə də ondan da tez ölkəmizdə mövcud olan bütün əsas infrastruktur layihələri başa çatmalıdır. Proqramlar var, büdcədə vəsait var və biz bunu edəcəyik.

Qeyri-neft sektorunun inkişafı bizim diqqətimizi daha çox cəlb edir. Bu istiqamətdə də bizim verdiyimiz bütün tapşırıqlar yerinə yetirilir. Qeyri-neft sektorumuz hər il təxminən 10 faiz artır. Əgər bu, növbəti illərdə davam edərsə, - buna mən şübhə etmirəm, - o zaman iqtisadiyyatımızın şaxələndirilməsi tam təmin ediləcəkdir.

Nəhayət, enerji təhlükəsizliyi barədə bir-iki kəlmə demək istərdim. Azərbaycan artıq özü üçün enerji təhlükəsizliyi məsələlərini çoxdan həll edibdir. Başqa ölkələrin enerji təhlükəsizliyinə töhfə verir. Bu gün bizim qarşımızda duran əsas layihə TANAP layihəsidir. Bu layihənin də təşəbbüskarı biz olmuşuq. 2012-ci ildə Türkiyə və Azərbaycan arasında saziş bağlamışıq. Bu da "Cənub" qaz dəhlizinin yaradılması işində dönüş nöqtəsi olmuşdur. Çünki o vaxta qədər, təqribən 7-8 il ərzində ancaq danışıqlar gedirdi və "Cənub" qaz dəhlizinin yaradılması üçün kifayət qədər beynəlxalq səylər göstərilməyib. Biz vəziyyəti təhlil etdik və gördük ki, belə davam edərsə, bu danışıqlar hələ bir 10 il də davam edəcək, heç bir fayda vermədən. Ona görə də məsuliyyəti və təşəbbüsü öz üzərimizə götürərək çox düşünülmüş addım atdıq. TANAP layihəsi bu gün bölgənin enerji xəritəsini dəyişdirən bir layihədir. Azərbaycan bu layihənin əsas səhmdarıdır, əsas təşəbbüskarıdır və əsas icraçısıdır. Əminəm ki, bu qlobal layihə vaxtında - 2018-ci ilə qədər icra ediləcəkdir. Bunu etmək üçün bütün imkanlarımız - həm maliyyə, həm də texniki imkanlarımız vardır. Bizim peşəkar mütəxəssislərimiz vardır. Bu layihəni icra etmək üçün bizim siyasətimiz davam etdirilməlidir.

Azərbaycan seçdiyi yolla getməlidir və gedəcəkdir. Bizim yolumuz azadlıq yoludur, inkişaf yoludur, müstəqillik yoludur. Biz müstəqillik illərində sübut etmişik ki, müstəqil ölkə kimi yaşaya bilərik, yaxşı yaşaya bilərik, inkişaf edə bilərik. Ən böyük sərvətimiz olan müstəqilliyimizi bundan sonra da qorumalıyıq və qoruyacağıq. Sağ olun!

* * *

Rəsmi qəbul incəsənət ustalarının maraqlı konsert proqramı ilə davam etdirildi.

*27 may 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT ETMİŞDİR

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın həyatına böyük və tarixi hadisə kimi daxil olmuşdur. Müstəqil, azad, demokratik respublika qurulmasını qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirmişdir.

1918-ci il mayın 28-də Tiflisdə qəbul edilmiş "İstiqlal Bəyannaməsi"ndən – "Əqdnamə"dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirmişdir.

XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarmışdır. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görmüş, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etmişdir. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoymuşdur.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoymuşdur. Xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı bu şərəfli tarixi - 28 Mayı Respublika Günü kimi qeyd edir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə mayın 27-də ziyarət etmişdir.

Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.

Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.

*27 may 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV NEFTÇALA ŞƏHƏRİNDƏKİ BAYRAQ MEYDANINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağının yenidən müstəqil Azərbaycanın dövlət rəmzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində mümkün olmuşdur. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra milli bayrağımız ilk dəfə ulu öndər Heydər Əliyevin təşəbbüsü Naxçıvanda qaldırılmışdır. Bu mənada dövlət atributlarına hörmət və ehtiram ümummilli lider Heydər Əliyevin xalqımıza ən böyük əmanətidir. İndi bu bayraq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə qürurla dalğalanır. Bu gün hər bir azərbaycanlı dövlət bayrağını özünün qürur mənbəyi hesab edir. Bu mühüm amili şərtləndirən əsas səbəblərdən biri də Prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşmasıdır. Fərəhli haldır ki, dünyanın ən hündür bayraq dirəyinin ucaldığı Bakıdan sonra ölkənin əksər bölgələrində üçrəngli bayrağımızın şərəfinə meydanlar yaradılır, bununla bağlı xüsusi layihələr həyata keçirilir. Neftçalada salınan Bayraq Meydanı və burada ucaldılan dövlət bayrağı da öz möhtəşəmliyi ilə diqqəti cəlb edir. Neftçaladakı Bayraq Meydanı ölkəmizdə dövlət atributlarına hörmət və ehtiramın ən yüksək səviyyədə olmasının daha bir əyani nümunəsidir.

Dövlətimizin başçısına məlumat verildi ki, bayraq dirəyinin hündürlüyü 36 metrdir. Bu da qürur mənbəyimiz olan dövlət bayrağımızın şəhərin hər yerindən görünməsinə imkan verir. İnşasına 2012-ci ildə başlanan Bayraq Meydanı həm də rayonda aparılan abadlıq-quruculuq işlərinin göstəricisidir. Bayraq Meydanının ərazisində geniş abadlıq işləri aparılmış, yaşıllıq zolağı salınmış və müasir işıqlandırma sistemi quraşdırılmışdır. Meydanda sakinlərin istirahəti üçün hər cür şərait yaradılmışdır.

*28 may 2014-cü il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NEFTÇALADA HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Müstəqilliyimizin daimi, əbədi, dönməz olmasında, dövlətçiliyimizin möhkəmlənməsində, respublikamızın hərtərəfli inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsi Azərbaycanın hər yerində əziz tutulur, böyük hörmət və rəğbətlə anılır. Ulu Öndərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə bütün bölgələrdə mühüm işlər görülür, vacib layihələr reallaşdırılır. Bu tədbirlər sırasında dahi şəxsiyyətin adını daşıyan, onun siyasi irsinin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edən mərkəzlərin rolu böyükdür.

Belə mərkəzlərdən biri də Neftçalada yaradılmışdır. Orijinal layihə əsasında tikilən bu mərkəz ümummilli lider Heydər Əliyevin xatirəsinə dərin ehtiramın parlaq nümunəsidir. Burada dahi rəhbərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar sərgilənir. Müstəqilliyin möhkəm dayaqlar üzərində bərqərar olması, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, ölkəmizin indi bütün sahələrdə qazandığı uğurlar məhz Ulu Öndərin adı ilə bağlıdır. Müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısını alan, iqtisadiyyatı ağır böhran vəziyyətindən xilas edərək inkişaf yoluna çıxaran, qüdrətli ordu quruculuğu istiqamətində tarixi işlər görən Ümummilli Liderin xatirəsi xalqımızın qəlbində daim yaşayacaqdır. Belə mərkəzlərin yaradılması isə dahi rəhbərin siyasi irsinin öyrənilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, Mərkəzin tikintisinə 2012-ci ildə başlanılmışdır. Binanın ətrafında geniş abadlıq-quruculuq işləri görülmüşdür. Müasir interyeri ilə diqqəti cəlb edən foyedə Ümummilli Liderin büstü qoyulmuşdur. Mərkəzdə yaradılan Heydər Əliyev Muzeyində Ulu Öndərin müxtəlif dövrlərdə, o cümlədən Neftçala rayonuna səfərləri zamanı çəkilən fotoları nümayiş olunur. Bundan başqa, muzeydə ümummilli lider Heydər Əliyev ilə bağlı kitablar, sənədlər və digər maraqlı eksponatlar sərgilənir.

Mərkəzdə elektron kitabxana, xalçaçılıq və toxuculuq, rəqs və xalq çalğı alətləri dərnəkləri fəaliyyət göstərəcəkdir. Bu dərnəklər gənclərin müxtəlif sənətlərin sirlərinə yiyələnməsinə, onların asudə vaxtının səmərəli təşkil edilməsinə geniş imkanlar yaradır. Mərkəzdəki xarici dil kursları, 3D kinozalı, Olimpiya və interaktiv tirlər, intellektual oyun zalı, fotostudiya da müasirliyi ilə diqqəti cəlb edir. Müasir akustik sistemlə təchiz edilən 400 yerlik konfrans zalında Neftçala rayonunun ictimai-siyasi həyatında baş verən mühüm hadisələr və əlamətdar günlərlə bağlı tədbirləri yüksək səviyyədə keçirmək mümkün olacaqdır.

Qeyd edildi ki, Mərkəzdə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və bununla bağlı mərasimlərin təşkili də nəzərdə tutulur. Binada Prezident İlham Əliyevin Neftçalaya səfərlərini əks etdirən fotolardan ibarət stend də maraq doğurur. Mərkəzin tikintisində şəhərsalma memarlığının son nailiyyətlərindən istifadə olunmuşdur. Burada sərgi salonu, kafe, istirahət otağı və digər yardımçı otaqlar vardır.

Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

## PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- İlk növbədə sizi Respublika Günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu gün böyük bayramdır, Respublika Günüdür, müstəqillik günüdür. Dünən Bakıda təntənəli

tədbir keçirilmişdir və bu gün bu bayramı qeyd etmək üçün mən Neftçalaya gəlmişəm. Bu gün - bu gözəl bayram günündə Heydər Əliyev Mərkəzi açılır. Bu hadisə də rəmzi xarakter daşıyır. Çünki bizim müstəqilliyimizin banisi məhz Heydər Əliyevdir. Məhz onun fəaliyyəti, səyləri nəticəsində Azərbaycan dövlət müstəqilliyini möhkəmləndirdi və 20 ildən artıqdır ki, uğurla inkişaf edir.

Bu gözəl Mərkəz göz oxşayır. Həm xarici görünüşü, eyni zamanda, daxili dizaynı da çox gözəldir, zövqlə tikilibdir. Eyni zamanda, bu Mərkəzin funksional cəhəti də çox müsbətdir. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün gözəl şərait var, dərnəklər, xarici dil kursları, kompyuter mərkəzi fəaliyyət göstərəcəkdir. Bir sözlə, bu Mərkəz doğrudan da bir mərkəz olacaqdır. Əminəm ki, Neftçala rayon sakinləri, gənclər bu Mərkəzdən səmərəli şəkildə istifadə edəcəklər.

Neftçalanın bu hissəsi abadlaşır, gözəlləşir, rayon mərkəzində quruculuq işləri aparılır. İstərdim ki, hər bir kənddə də işlər bu səviyyədə olsun. Bizim əsas məqsədimiz də bundan ibarətdir. Çünki regional inkişaf proqramlarının qəbulu məhz bu məqsədi daşıyırdı. Hər bir rayonda inkişaf olmalıdır. Hər bir rayonda, hər bir kənddə quruculuq işləri aparılmalıdır.

Biz bu gün - müstəqillik günündə görülən işlərə bir daha qiymət veririk və görüləcək işlər haqqında da əlbəttə ki, öz fikirlərimizi ifadə edirik. Mən dünən rəsmi qəbulda gələcək planlarımız haqqında fikirlərimi bildirdim, onları təkrarlamaq istəmirəm. Sadəcə olaraq bu gün burada olarkən bir daha regionların inkişafı ilə bağlı bir neçə kəlmə demək istəyirəm. Qəbul edilmiş proqramlar icra olunur. Bu, çox müsbət haldır. Deyə bilərəm ki, iki proqram artıqlaması ilə icra edilmişdir. İndi üçüncü proqram icra edilir, 2018-ci ilə qədər tamamilə icra olunacaq və o vaxta qədər bütün rayonlarımızda əsas infrastruktur layihələri başa çatmalıdır. Əminəm ki, biz buna nail olacağıq. Çünki bunlar çox konkret proqramlardır. Proqramların icrası üçün maddi təminat da vardır. Bu gün Azərbaycanın maliyyə vəziyyəti elədir ki, biz istənilən layihəni özümüz icra edə bilərik və edirik. Bunun üçün dövlət büdcəsindən vəsait ayrılır, regionların inkişafı ilə bağlı nəzərdə tutulmuş məsələlər öz həllini tapır. Əsas məsələ ondan ibarətdir ki, bütün işlər vaxtında və keyfiyyətlə görülsün. Əminəm ki, biz buna nail olacağıq və artıq bütün bölgələrdə infrastruktur layihələri 2018-ci ildə başa çatacaqdır. O cümlədən Neftçala rayonunda da həllini gözləyən layihələr icra edilir və ediləcəkdir.

İlk növbədə yolların tikintisi diqqət mərkəzində olmalıdır. Bu məqsədlə iki il bundan əvvəl burada bir neçə kəndi birləşdirən yolun tikintisinə vəsait ayrılmışdır və o layihə icra edilib. Salyan-Neftçala avtomobil yolunun əsaslı təmiri nəzərdə tutulur. İndi cari təmir aparılmışdır, ancaq bu yol əsaslı təmir olunacaqdır və biz yaxın zamanlarda buna da başlayacağıq. Bakı-Salyan yolunun böyük hissəsi artıq istifadəyə verilib, dördzolaqlı çox gözəl yoldur. Yəni, buradan həm Bakı, həm digər rayonlarla əlaqələr daha da möhkəm olacaqdır. Kənd yollarının tikintisi də gündəlikdə duran məsələdir. Biz bütün rayonlardan, həm yerli icra orqanlarından, eyni zamanda, vətəndaşlardan təkliflər almışıq. Neftçalada böyük bir yol layihəsinin icrası həllini gözləyir. Bu da 61 kilometr uzunluğunda, təqribən 20-dən çox kəndi birləşdirən bir yol olacaqdır. Beləliklə, həm o yol, həm də hazırda icra edilmiş yol layihələri demək olar ki, kənd yolları problemini bütünlüklə həll edəcəkdir.

Digər məsələlər də, digər problemlər də vardır. Siz onları yaxşı bilirsiniz, mən də bilirəm. Biz onları da tədricən həll edirik. Burada əsas problem içməli su məsələsidir. Biz çalışmışıq ki, son illər ərzində bu məsələni tədricən həll edək. İyirmidən çox kənddə təmizləyici qurğular quraşdırılmışdır və bu qurğular əhalinin təxminən 50 faizini təmin edir. Ancaq biz Neftçala sakinlərini təmiz içməli su ilə tam şəkildə təmin etməliyik və bunu edəcəyik. Layihələr hazırlanır, yəqin ki, yaxın vaxtlarda onların icrasına başlanacaqdır. Modul tipli layihələr də əlbəttə ki, davam etdiriləcəkdir. Ancaq şəhərin yeni şəbəkəsi qu-

rulmalıdır. Yeni mənbələr aşkar edilməlidir və əlbəttə ki, infrastruktur işləri aparılmalıdır. Bu, gündəlikdə duran məsələdir və bu məsələ öz həllini tapacaqdır.

Qazlaşdırma ilə bağlı problemlər vardır. O mənada ki, Neftçala rayonu hələ 100 faiz qazlaşdırılmayıbdır. Təxminən 50 faiz qazlaşdırılıbdır. Əhalinin 50 faizi qazla təmin edilir. Neftçala rayonunda qazlaşdırma 100 faiz olmalıdır və qarşıya belə vəzifə qoyulubdur. Hesab edirəm ki, bu məsələlərlə məşğul olan dövlət qurumları bu işləri daha da sürətlə aparmalıdırlar.

Sosial infrastrukturun yaradılması əlbəttə, daim diqqət mərkəzindədir. Mərkəzi xəstəxanada təmir işləri başlanır, vəsait ayrılıbdır. Yeni Olimpiya Kompleksi tikiləcəkdir. Məktəblər təmir edilir, tikilir. Yəni, bax, bütün bu sosial və infrastruktur məsələlərinin həlli gündəlikdədir. Biz bu məsələləri bilirik, onları icra edirik və edəcəyik.

Şübhəsiz ki, Neftçala rayonunda yeni iş yerlərinin açılması da çox vacib məsələdir. Burada bir neçə müəssisə fəaliyyət göstərir. Ancaq hesab edirəm ki, onların sayı daha da çox olmalıdır. Xüsusilə nəzərə alaq ki, bu il "Sənaye ili" elan edilmişdir. "Sənaye ili"nin xüsusiyyəti ondan ibarətdir ki, bu sahəyə daha da böyük diqqət göstərilir. Bizim bir neçə böyük sənaye mərkəzimiz vardır və onların inkişafı əlbəttə ki, prioritet xarakter daşıyır. Ancaq, eyni zamanda, mən göstəriş vermişəm ki, hər bir rayonda sənaye zonaları yaradılsın. Hər bir rayonun xüsusiyyətlərinə görə bu zonalarda müxtəlif istehsalat sahələri yaradılsın. O cümlədən Neftçala rayonunda da belə zona olmalıdır. Yəqin ki, ictimaiyyət və rayon rəhbərliyi o yerləri müəyyən edəcəkdir. Orada dövlət hesabına infrastruktur layihələri icra olunacaqdır. Bütün kommunikasiyalar çəkiləcək və sahibkarlara şərait yaradılacaqdır ki, onlar orada öz sənaye müəssisələrini qursunlar. Dövlət də öz tərəfindən maliyyə dəstəyini göstərəcəkdir. Çünki sahibkarlığın inkişafı üçün hər il dövlət büdcəsindən təxminən 300 milyon manat güzəştli şərtlərlə kreditlər verilir və bu, özəl sahibkarlığı stimullaşdırır.

Son illərdə bölgələrin, qeyri-neft sektorunun inkişafı sahəsində böyük işlər görülmüşdür. Bu, bizə bu gün iqtisadiyyatımızın böyük hissəsinin qeyri-neft sektorunda formalaşmasına imkan verib. Bu, böyük nailiyyətdir və çalışmalıyıq ki, qeyri-neft sektoru, sahibkarlıq, kənd təsərrüfatı sahələrində daha da böyük uğurlara nail olaq. Buna nail olmaq üçün bütün imkanlar vardır - dövlət siyasəti, maliyyə resursları, sahibkarlığa dəstək siyasəti. Əlbəttə ki, yerlərdə təşəbbüs də göstərilməlidir. İctimaiyyət, iş adamları, rayon rəhbərliyi burada vahid mövqe göstərməlidirlər. Belə olan halda hər bir rayonda güclü sənaye inkişaf edəcəkdir. Bu, bizim siyasətimizdir, arzumuzdur, belə də olacaqdır. Çünki bizim bütün proqramlarımız yerinə yetirilir. Bir dənə də olsun, proqram yarımçıq qalmamışdır. O cümlədən regional inkişaf proqramları dediyim kimi, artıqlaması ilə icra edilibdir.

Üçüncü proqram qəbul edilərkən yerlərdən təkliflər verilmişdir. Bu təkliflər əsasında proqram da tərtib olunub, dərc edilib və yəqin ki, siz də tanışsınız. Çünki hər rayon üzrə görüləcək işlər orada göstərilibdir. Bax, budur bizim gələcəklə, regionların inkişafı ilə bağlı olan yanaşmamız.

Əminəm ki, biz bundan sonra da ölkəmizin sürətli inkişafını təmin edəcəyik. Müstəqilliyimiz möhkəmdir, Azərbaycan inkişaf edir, taleyimiz öz əlimizdədir. Müstəqillik dövrü bir daha onu göstərir ki, xalqımız ancaq müstəqil olan zaman uğurla inkişaf edə bilər.

Bu gün Azərbaycan dünya miqyasında seçilən ölkələrdəndir ki, burada inkişaf var, sabitlik hökm sürür, biz vətəndaş həmrəyliyi şəraitində yaşayırıq. Bizim məqsədimiz də birdir - ölkəmizi daha da inkişaf etdirmək, gücləndirmək, daha da güclü Azərbaycan yaratmaq. Biz bu məqsədə doğru uğurla gedirik. Əgər hər bir bölgədə və hər bir kənddə bütün məsələlər öz həllini taparsa, onda ölkənin bütün məsələləri həll olunacaqdır.

Mən sizi bu gözəl bayram münasibətilə bir daha ürəkdən təbrik edir, sizə yeni uğurlar arzulayıram.

* * *

Prezident İlham ƏLİYEV: Sağ olun. Əlbəttə, rayonun inkişafı üçün bütün lazım olan tədbirlər görüləcəkdir. Əlbəttə, uşaq incəsənət məktəbinin binası da təmir ediləcəkdir. Bütövlükdə, Neftçala rayonunun hərtərəfli inkişafı üçün əlavə tədbirlər görüləcəkdir.

Siz də çox vacib məsələlərə toxundunuz - gənclərin tərbiyəsi. Gənclər indi azad ölkədə yaşayırlar. Onların xoşbəxtliyi ondan ibarətdir ki, bugünkü gənclər gözlərini açan kimi müstəqillik görmüşlər və müstəqillik, azadlıq şəraitində yaşayırlar. Biz keçmiş dövrü də görmüşük, xatırlayırıq. Müqayisə aparmaq üçün əlbəttə ki, imkanlar kifayət qədər genişdir. Müqayisə apararkən hər dəfə, hər gün bir daha əmin oluruq ki, xalqımız ancaq müstəqillik şəraitində yaxşı yaşaya bilər. Azərbaycan sovet məkanında iki respublikadan biri idi ki, donor kimi fəaliyyət göstərirdi, yəni, özünü təmin edirdi. Ancaq müstəqillik əldə olunanda bizdə vəziyyət necə idi?! Dağılmış sənaye, iqtisadiyyatda durğunluq, maliyyə vəziyyətimiz çox ağır idi, xəzinə boş idi, neft hasilatı aşağı düşmüşdü, kütləvi işsizlik, inflyasiya 1000, ya 2000 faizə qalxmışdı və böhran hökm sürürdü. Baxmayaraq ki, Azərbaycan sovet dövründə ümumittifaq xəzinəsinə böyük töhfələr vermişdi, İkinci Dünya müharibəsi zamanı Azərbaycan nefti olmasaydı, müharibənin nəticələri başqa cür ola bilərdi. Ancaq buna baxmayaraq, biz müstəqilliyi bərpa edəndə çox ağır vəziyyətdə idik. Ona görə, Ulu Öndərin səyləri, siyasəti nəticəsində biz 20 il ərzində ayağa qalxdıq, ayaqda möhkəm durmuşuq, güclü ölkə yaratmışıq. Bu siyasət bu gün də davam edir və davam edəcəkdir.

Gənclər vətənpərvərlik ruhunda tərbiyə alırlar, almalıdırlar. Onlar fəxr edirlər ki, Azərbaycan vətəndaşlarıdır. Onlar gələcəkdə ölkəmizi idarə edəcəklər. Ona görə, ilk növbədə, onlar öz Vətəninə bağlı olmalıdırlar, Vətəni sevməlidirlər, bilikli, savadlı olmalıdırlar. Çünki əgər bilikli, savadlı olarlarsa, o zaman heç bir kənar təsir onların hərəkətlərinə mənfi cəhətdən təsir edə bilməz.

Biz bilirik ki, bu gün Azərbaycan dünya miqyasında çox önəmli ölkəyə çevrilibdir. Bir çox məsələlər bizim qərarlarımızdan asılıdır. Həm siyasi, həm iqtisadi, enerji və digər sahələrlə bağlı bizim qərarımızdan çox şey asılıdır. Ona görə Azərbaycana, bizim siyasətimizə təzyiq və təsir etmək cəhdləri vardır, gələcəkdə də olacaqdır. Biz, əlbəttə, heç vaxt imkan verə bilmərik ki, maraqlarımıza zidd olan bir təşəbbüs burada reallaşsın. Ancaq bizdən sonra gələnlər də eyni fikirdə olmalıdırlar. Bizdən sonra gələnlər də Vətəni bizim qədər sevməlidirlər və müstəqilliyi hər şeydən üstün tutmalıdırlar. Ona görə müəllimlərin rolu həddindən artıq böyükdür. Həm gənc nəslə bilik verməlidirlər ki, onlar savadlı olsunlar, eyni zamanda, öz Vətənini sevsinlər, müstəqilliyi hər şeydən üstün tutsunlar.

Bu gün Azərbaycan elə sürətlə inkişaf edir ki, hər bir vətəndaş haqlı olaraq Azərbaycan vətəndaşı olmağı ilə fəxr edir. Biz ardıcıllığı təmin etməliyik. Artıq 20 ildir ki, Azərbaycanda ardıcıllıq təmin edilir və bu, bizim uğurumuzun əsas səbəbidir. Düşünülmüş, uzunmüddətli siyasət. Biz öz siyasətimizi 20-30 il bundan sonra da bu istiqamətdə aparmalıyıq ki, ölkəmiz daim inkişafda olsun, sabitlik, rifah, əmin-amanlıq olsun. Ölkəmizin inkişafı hər bir rayonun inkişafından asılıdır. Ona görə mənim bölgələrə səfərlərim də bax, bu məqsədi daşıyır – həm vəziyyətlə tanış olmaq, əlavə tapşırıq və tövsiyə vermək.

Sizi bir daha bayram münasibətilə təbrik edir, sizə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

***28 may 2014-cü il***

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BODRUMDA TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ IV ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMİŞDİR

Türkiyə Prezidenti Abdullah Gül Zirvə toplantısında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşıladı.

Sonra prezidentlər birgə foto çəkdirdilər.

Zirvə toplantısında iştirak edən dövlət başçılarını bir daha salamlayan Türkiyə Prezidenti Abdullah Gül türkdilli dövlətlərlə əlaqələrin genişlənməsində bu təşkilatın böyük rolu olduğunu bildirdi. Qeyd etdi ki, təşkilat çərçivəsində dövlət başçıları arasında əlaqələr də səmərəlidir və bu da öz növbəsində ikitərəfli münasibətlərin inkişafına xidmət edir. 2009-cu ildə Naxçıvan Zirvə toplantısında təsis olunan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının ötən dövrdə böyük inkişaf yolu keçdiyini deyən Abdullah Gül builki Zirvə toplantısının mövzusunun turizmə həsr olunduğunu diqqətə çatdırdı. Bu istiqamətin ölkələrimiz arasında işbirliyinin genişlənməsində mühüm rol oynayacağını vurğuladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdi.

## PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Əziz qardaşım, hörmətli Prezident Abdullah Gül.

Hörmətli dövlət başçıları.

Əziz dostlar.

Cənab Prezident, ilk növbədə bizə göstərdiyiniz qonaqpərvərliyə və bu Zirvə toplantısını yüksək səviyyədə təşkil etdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Deyə bilərəm ki, bu gün biz sədrliyi Türkiyəyə təhvil veririk. Bir il bundan əvvəl Qəbələ şəhərində Qırğızıstandan Şuraya sədrliyi təhvil almışıq və il ərzində çalışmışıq ki, Şuranın işi uğurlu olsun. Hesab edirəm ki, il ərzində görülən işlər bizim birliyimizi daha da möhkəmləndirəcəkdir. Əlbəttə ki, növbəti dövr üçün Türkiyəyə sədrlik işində uğurlar arzulayıram.

Keçən il ərzində müxtəlif istiqamətlər üzrə əməkdaşlığımız davam etmişdir. Bu gün sadəcə olaraq bir neçə məqamı qeyd etmək istərdim. İl ərzində BMT Məclisi çərçivəsində xarici işlər nazirlərinin görüşü keçirilmişdir. Bu, Şuranın siyasi məsələlərinin həlli üçün önəmli bir addım idi. Eyni zamanda, iqtisadi sahədə görülən işlər də təqdirəlayiqdir. Biznes forum keçirilmişdir. Diaspor təşkilatlarının fəaliyyətini təkmilləşdirmək üçün önəmli addımlar atılmışdır. Təhsil, nəqliyyat nazirlərinin görüşləri keçirilmişdir. Çox şadam ki, Azərbaycanın təşəbbüsü ilə Türk Mədəniyyəti və İrsi Fondunun yaradılması da artıq reallaşır. Əminəm ki, bu Fond yaranandan sonra müxtəlif layihələri, mədəniyyətlə, incəsənətlə, ortaq tariximizlə bağlı tədbirləri keçirmək üçün yaxşı imkanlar olacaqdır.

Eyni zamanda, qeyd etməliyəm ki, keçən il Qəbələdə Azərbaycan tərəfi bir təşəbbüslə çıxış etmişdir ki, biz beynəlxalq turizm sərgilərində birgə stendlərlə çıxış edək. Şadam ki, artıq birinci addım atılmışdır. Bakıda keçirilmiş beynəlxalq turizm sərgisində Əməkdaşlıq Şurasına üzv ölkələrin birgə fotostendi də nümayiş etdirilmişdir. Yəni, bu, birinci addımdır. Hesab edirəm ki, növbəti illərdə biz başqa ölkələrdə birgə turizm potensialımızı təqdim etməliyik. Bunun həm də birliyimiz üçün önəmi vardır. Çünki bu, birliyimizin bir təzahürü və praktik nöqteyi-nəzərdən önəmli addım olacaqdır. Biz dünən söhbət əsnasında bu barədə fikir mübadiləsi aparmışıq.

Mən bu gün xüsusilə TÜRKSOY-un fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. Çünki TÜRKSOY bizi mənəvi cəhətdən, mədəniyyət sahəsində birləşdirən təşkilatdır.

Bizim birliyimizin təməlində əlbəttə ki, ortaq köklər, ortaq mədəniyyət, tarix dayanır və bu gün biz bu möhkəm təməl üzərində gözəl əməkdaşlıq yaradırıq. Buna görə, TÜRKSOY-un gələcəkdə də fəaliyyətini gücləndirmək üçün əlimizdən gələni edəcəyik.

Əlbəttə, siyasi məsələlərin həllinə gəldikdə, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstəyə böyük ehtiyac vardır. Mən çox şadam ki, biz üzv olduğumuz təşkilatlarda bir-birimizi dəstəkləyirik, xüsusilə BMT-də, İslam Əməkdaşlıq Təşkilatı, ECO təşkilatı çərçivəsində bir-birimizin dəstəyini hiss edirik, görürük.

Eyni zamanda, ölkələrimizin üzv olmadığı bəzi təşkilatlarda Əməkdaşlıq Şurasına üzv ölkələrin fəaliyyəti də böyük önəm daşıyır. Mən bu gün xüsusilə hörmətli Nursultan Nazarbayevin addımını qeyd etmək istəyirəm. O, bu yaxınlarda Astanada Avrasiya İqtisadi İttifaqının təsis toplantısında Ermənistanın bu təşkilata üzvlüyü ilə bağlı Azərbaycan tərəfinin narahatlığını ifadə etmişdir. Biz buna görə hörmətli Nursultan Abişeviçə minnətdarlığımızı bildirmək istəyirik. Azərbaycan xalqı bunu yüksək qiymətləndirir. Bu, əsl dostluq, qardaşlıq addımı idi. Eyni zamanda, bu addım ədalətə və beynəlxalq hüquqa söykənir. Çünki ölkələrin beynəlxalq birlik, BMT tərəfindən tanınan sərhədləri toxunulmazdır. Ölkələrin ərazi bütövlüyü toxunulmazdır. Ərazi bütövlüyü hər bir ölkənin suverenliyini əks etdirən əsas məsələdir.

Bildiyiniz kimi, Azərbaycanın ərazi bütövlüyü uzun illərdir ki, pozulubdur. Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasəti aparır. Bu siyasət nəticəsində 20 faiz torpağımız işğal altındadır, bir milyondan artıq qaçqın-köçkün vardır. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır, Xocalı soyqırımı törədilmişdir. Bu gün dünyanın 10 ölkəsi Xocalı soyqırımını rəsmən soyqırımı kimi tanıyır.

Beynəlxalq təşkilatların bu məsələ ilə bağlı mövqeyi bəllidir. BMT Təhlükəsizlik Şurası Ermənistan işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasına dair dörd qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, bu qətnamələr bu günə qədər icra edilməyib. Qoşulmama Hərəkatı, Avropa Parlamenti, Avropa Şurası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı – bütün bu mötəbər təşkilatlar öz qərar və qətnamələrində ədaləti, beynəlxalq hüququ və əslində Azərbaycanın mövqeyini dəstəkləmişlər. Ancaq əfsuslar olsun ki, işğalçı ölkə buna məhəl qoymur və işğal davam edir. Bu məsələnin həlli yalnız beynəlxalq hüququn norma və prinsipləri üzərində mümkündür. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi qeyd-şərtsiz icra edilməlidir. Ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir və soydaşlarımız öz dədə-baba torpaqlarına qayıtmalıdırlar. Baxmayaraq ki, orada artıq hər şey dağıdılıb. ATƏT-in faktaraşdırıcı missiyaları işğal edilmiş torpaqlara iki dəfə səfər etmişlər və onların məruzələrində orada bütün dağıntılar öz əksini tapıbdır. O cümlədən bizim tarixi, dini abidələrimiz ermənilər tərəfindən vəhşicəsinə dağıdılıbdır.

Bu münaqişə böyük regional təhlükədir, eyni zamanda, bizim üçün iqtisadi cəhətdən də böyük problemlər yaradır. Buna baxmayaraq, Azərbaycan iqtisadiyyatı son illərdə uğurlu inkişaf dövrünü yaşayır. Hesab edirəm ki, biz Şura çərçivəsində iqtisadi əməkdaşlığı daha da dərinləşdirməliyik. Bu sahədə investisiya layihələrinin icrası xüsusi önəm daşıyır. Deyə bilərəm ki, Azərbaycan hazırda Türkiyəyə böyük həcmdə investisiya qoymağa başlamışdır. Növbəti 5-6 il ərzində bu investisiyaların həcmi ən azı 20 milyard dollar olacaqdır. Hesab edirəm ki, qarşılıqlı investisiyaların qoyuluşu həm bizim maraqlarımızı təmin edəcək, eyni zamanda, birliyimizi daha da möhkəmləndirəcəkdir.

Biznes forumların keçirilməsi, investisiya imkanlarının araşdırılması, üçüncü ölkələrə birgə investisiya layihələri ilə çıxmağımız hesab edirəm ki, növbəti dövr üçün diqqətəlayiq məsələlərdən biridir.

Eyni zamanda, bizim birliyimizi nəqliyyat infrastrukturu ilə möhkəmləndirmək üçün Azərbaycan öz səylərini qoyur. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi tarixi hadisədir. Əminəm ki,

gələn ildən başlayaraq bu yol açıq olacaqdır. Beləliklə, yeni dəmir ipək yolu bərpa ediləcəkdir. Bu layihənin həyata keçirilməsi Şuranın bütün üzvləri üçün əlavə fayda gətirəcəkdir. Çox şadam ki, həm Azərbaycanda, həm Qazaxıstanda, həm Türkmənistanda mövcud olan limanlar genişləndirilir. Eyni zamanda, Xəzərdə yeni ticarət limanları tikilir ki, gələcəkdə biz yük daşımalarının artırılmasına tam şəkildə hazır olaq. Limanların, Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi, ticarət dövriyyəsinin artırılması, əlavə yüklərin və mövcud olan yüklərin bu yolla nəqli iqtisadi maraqlarımızı artıracaqdır, eyni zamanda, işimizi konkret tədbirlərlə zənginləşdirəcəkdir.

Enerji sahəsində əməkdaşlıq uğurludur. Bu gün Azərbaycan Xəzərin şərq sahilindən Qərb istiqamətinə neft məhsullarının, neftin nəqlini təmin edir, yəni, tranzit rolunu oynayır. Bakı-Tbilisi-Qars dəmir yolu işə düşəndən sonra bu rol daha da artacaqdır. Biz enerji sahəsində əməkdaşlığı daha da dərinləşdirmək əzmindəyik. Buna nail olmaq üçün bütün imkanlar vardır. Bizi birləşdirən coğrafiya geniş coğrafiyadır. Bizim ölkələrimizin bir neçəsi təbii resurslarla zəngindir. Bu resurslar artıq müxtəlif yollarla dünya bazarlarına çıxarılır. Yəni, həm Türkmənistanın, həm Qazaxıstanın, həm Azərbaycanın müstəqil və çoxşaxəli ixrac yolları vardır. Yəni, heç bir ölkə ixracla bağlı heç bir problem yaşamır. Ancaq maraqlarımızı daha da dolğun şəkildə təmin etmək, birliyimizi möhkəmləndirmək üçün biz bu sahədə birgə tədbirləri görməliyik və əminəm ki, görəcəyik.

Beləliklə, əməkdaşlığımız növbəti illərdə daha da möhkəm olacaqdır. Yeni təşəbbüslər irəli sürüləcəkdir. Hesab edirəm ki, müəyyən mərhələdə biz birgə investisiya fondunun yaradılması haqqında da düşünməliyik. Çünki ölkələrimizin maliyyə vəziyyəti çox sabitdir, yaxşıdır. Biz heç bir problem yaşamırıq. Hətta özümüz də başqa ölkələrə kredit verməyə başlamışıq.

Bir daha qeyd etməliyəm ki, Azərbaycan Şuradakı fəaliyyətinə çox böyük əhəmiyyət verir. Biz çox şadıq ki, Şura artıq güclü bir beynəlxalq təşkilata çevrilib. Əminəm ki, qardaş Türkiyənin sədrliyi ilə biz yeni uğurlara imza atacağıq. Təşəkkür edirəm.

* * *

Zirvə toplantısında iştirak edən digər dövlət başçıları da çıxış etdilər.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısına yekun vuran Türkiyə Prezidenti Abdullah Gül tədbirdə müzakirə olunan məsələlərin türkdilli dövlətlər arasında əməkdaşlığın daha da genişləndirilməsinə yeni təkan verəcəyini vurğuladı.

Prezident Abdullah Gül V Zirvə toplantısının Qazaxıstanda keçiriləcəyini bildirdi.

Sonra dövlət başçıları Zirvə toplantısının birgə Bəyannaməsini, Türk Şurası baş katibinin və müavinlərinin təyin olunması, eləcə də Türk Akademiyasının prezidentinin seçilməsi ilə bağlı qərarı imzaladılar.

Qərara əsasən, Ramil Həsənov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yeni baş katibi seçildi. Türk Akademiyasının prezidenti vəzifəsinə isə Darxan Kıdırəli təyin olundu.

Bununla da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısı işini başa çatdırdı.

*5 iyun 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV VƏ AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZU HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ OLMUŞLAR

Prezident İlham Əliyev Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə birlikdə Heydər Əliyev Mərkəzini gəzdilər.

Mərkəzin fəaliyyəti ilə tanış olan qonaq əvvəlcə 1969-cu ildən 2003-cü ilədək Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə xidməti istifadəsində olan avtomobillərə baxdı. Ulu Öndərin xatirəsinin əbədiləşdirildiyi muzey təşkil olunarkən burada ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunmasına xüsusi diqqət yetirilmişdir.

Mərkəzdə "Azərbaycan inciləri" sərgisi də fəaliyyət göstərir. Bölmədə Azərbaycan tarixini və mədəniyyətini əks etdirən, ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsinə dair nadir eksponatlar nümayiş olunur.

Prezident İlham Əliyev və Joze Manuel Barrozu Mərkəzdə məşhur britaniyalı heykəltəraş Toni Kreqqin fərdi sərgisinə də baxdılar. Sərgidə heykəltəraşın bir-birindən maraqlı əsərləri nümayiş olunur.

Sonra qonaq Mərkəzin "Auditorium" və konfrans zallarına baxdı.

Daha sonra Prezident İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Heydər Əliyev Mərkəzinin parkında tanınmış fransız rəssam və heykəltəraş Lorens Cenkellin fərdi sərgisi ilə tanış oldular. Burada nadirliyi ilə fərqlənən və müxtəlif ölkələrin bayraqlarını özündə təcəssüm etdirən kompozisiyalar nümayiş olunur.

*14 iyun 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AFİNA AKROPOLUNDA OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Afina Akropolunda olmuşlar.

Altı min illik tarixi olan Afina dünyanın ən qədim şəhərlərindən biridir. Şəhər müdriklik ilahəsi Afinanın adını daşıyır. Bütün dünyada azadlıq, demokratiya və incəsənətin rəmzi hesab olunan Afinaya xüsusi yaraşıq verən, şəhərin özəlliyini artıran tarixi məkanlar arasında Akropol xüsusi yer tutur. "Yuxarı şəhər" mənasını verən və Afinanın rəmzi hesab olunan bu müqəddəs qaya qədim sivilizasiya ilə müasirliyi bir araya gətirir.

Afinanın mərkəzində hündürlüyü 156 metrə çatan qayalıq meydançada yerləşən, dünya tarixinin və mədəniyyətinin şah əsərləri sırasında olan Akropol 3 min illik tarixə malik memarlıq abidələri ilə zəngindir və sanki muzeyi xatırladır. Qədim Afinanın həm dövlət, həm də dini mərkəzi sayılan Akropolun qorunmasına afinalılar bütün dövrlərdə ciddi fikir vermişlər. Hətta Perikl zamanında Akropolun bərpası üçün xeyli vəsait ayrılmış, tikintiyə minlərlə insan cəlb edilmişdir. İndiyə qədər gəlib çatan bir çox tarixi abidələr də məhz elə o dövrdə inşa olunmuşdur. Akropolun əhəmiyyətini artıran mühüm amillər sırasında təbii ki, dünya memarlığının nadir inciləri olan Panteon, Afina və Erektion məbədləri də vardır ki, bu tarixi abidələrin böyük hissəsi günümüzə qədər gəlib çatmışdır. Məsələn, yunan memarlığının ən böyük əsəri hesab edilən Panteon məbədinin xarici görünüşündə istifadə olunan heykəltəraşlıq nümunələri yunan sənətinin ən yüksək zirvəsi kimi qəbul edilir.

Tarixən Afinanın həm hərbi, həm də dini mərkəzi rolunu oynayan Akropolun görkəmli yerində şəhərin hamisi ilahə Afinanın şərəfinə ucaldılmış Parfenon məbədi yerləşir.

Akropolun aşağı hissəsində isə bir zamanlar Afinanın ticarət və mülki mərkəzi hesab olunan qədim Aqora yerləşir. Keçmişdə Sokrat və Platon kimi görkəmli filosoflar gəzinti və söhbət üçün məhz bu məkanı seçmişdilər. Aqora ərazisində yerləşən memarlıq abidələri müxtəlif tarixi dövrlərə aiddir. Burada hətta eramızdan əvvəl XI əsrə aid abidələrə də rast gəlmək mümkündür.

Sənayenin ətraf mühitə vurduğu ziyanın aradan qaldırılması ilə bağlı hazırlanan böyük bərpa proqramı çərçivəsində 1980-ci ildən etibarən Akropolda mütəmadi bərpa işləri həyata keçirilir.

Akropol öz möhtəşəmliyi ilə onu görməyə gələn hər bir turistin qəlbində unudulmaz hisslər yaradır.

*15 iyun 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV AFİNADA "NAMƏLUM ƏSGƏR" ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Yunanıstanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da naməlum əsgərin məzarını ziyarət etmişdir.

Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev naməlum əsgərin məzarı önünə əklil qoydu.

Hərbi orkestrin ifasında Azərbaycanın və Yunanıstanın dövlət himnləri səsləndirildi.

*16 iyun 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİNİ VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİNİ QƏBUL ETMİŞDİR

Görüş iştirakçılarını salamlayan Prezident İlham ƏLİYEV dedi:

- Hörmətli səfirlər, mən sizi ürəkdən salamlayıram. Müqəddəs Ramazan ayında bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. Bizim ölkələrdə ənənələrə böyük hörmət vardır. Bir çox məsələlər, ənənələr bizim xalqlarımızı birləşdirir. Fürsətdən istifadə edərək xahiş edirəm ki, mənim səmimi salamlarımı və ən xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Biz sizinlə il ərzində müxtəlif tədbirlərdə dəfələrlə görüşürük, təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarının, digər yüksək vəzifəli şəxslərin Azərbaycana səfərləri zamanı. Bir sözlə, il ərzində biz tez-tez təmasda oluruq. Amma müqəddəs Ramazan ayında bizim görüşümüzün əlbəttə ki, xüsusi əhəmiyyəti vardır.

Mən çox şadam ki, təmsil etdiyiniz ölkələr ilə Azərbaycanın çox sıx əlaqələri vardır. Bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir, humanitar sahədə, mədəniyyətlə bağlı məsələlərin həllində biz çox fəal əməkdaşlıq edirik.

Əlbəttə, biz hamımız istərdik ki, iqtisadi sahədə də əlaqələr yüksək səviyyədə olsun və buna çalışırıq. Hesab edirəm ki, indiki şəraitdə birgə iqtisadi təşəbbüslər, investisiya layihələri, biznes qurumlarının birgə fəaliyyəti əlaqələrimizi möhkəmləndirə bilər.

Bu yaxınlarda Azərbaycan səfirləri ilə keçirdiyim görüşdə qeyd etdim ki, müsəlman ölkələri ilə bizim əlaqələrimiz xarici siyasətimizin prioritetlərindən biridir. Biz hamımız çalışmalıyıq ki, İslam həmrəyliyini gücləndirək, müsəlman ölkələri arasındakı birliyi daha da möhkəmləndirək.

Mən şadam ki, beynəlxalq arenada biz daim bir-birimizi dəstəkləyirik, beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlıq edirik, xüsusilə BMT-də. BMT-də bir-birimizə göstərdiyimiz dəstək bizim mövqelərimizi gücləndirir və haqq-ədalət də bunu tələb edir. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həlli işində müsəlman ölkələrinin BMT-də göstərdiyi dəstək bizi xüsusilə sevindirir. Uzun illərdir ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan əraziləri işğal altındadır. Beynəlxalq hüquq normaları Ermənistan tərəfindən kobudcasına pozulub. Ermənilər bizə qarşı etnik təmizləmə siyasəti aparmışlar, Xocalı soyqırımını törətmişlər. İşğal edilmiş torpaqlarda bizim bütün tarixi, dini abidələrimiz ermənilər tərəfindən dağıdılmışdır.

Bu münaqişə dünyada nadir münaqişələrdəndir ki, BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılması ilə bağlı dörd qətnamə qəbul etmişdir. Ona görə əlbəttə ki, Azərbaycanın mövqeyinin dəstəklənməsi həm beynəlxalq hüquqa göstərilən hörmətdir, eyni zamanda, qardaşlıq, dostluq nümunəsidir.

Biz də öz tərəfimizdən üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda müsəlman ölkələrinin maraqlarını müdafiə edirik, bundan sonra da müdafiə edəcəyik. Bilirsiniz ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də çox fəal iştirak edir, öz rolunu artırır. İslam Əməkdaşlıq Təşkilatının beynəlxalq nüfuzunun qaldırılması işinə biz praktiki töhfəmizi veririk. İki il ərzində Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvü olmuşdur. Bu iki il ərzində iki dəfə bu mötəbər quruma sədrlik etmişdir. İki dəfə bizim tərəfimizdən irəli sürülmüş təşəbbüs nəticəsində məsələlər müzakirəyə çıxarılmışdır. Onlardan biri beynəlxalq terrorizmə qarşı mübarizə məsələlərinə aid idi. Beynəlxalq terrorizmə qarşı mübarizə bizim ümumi işimizdir. İkinci mövzu isə İslam Əməkdaşlıq Təşkilatı ilə BMT arasındakı əməkdaşlıq məsələləri idi. Bu, əslində bizim prioritetlərimizi əyani şəkildə göstərir. Əminəm ki, gələcəkdə də bizim ölkələrimiz İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində uğurla əməkdaşlıq edəcək və biz bir-birimizi daim dəstəkləyəcəyik.

Eyni zamanda, mədəniyyətlərarası dialoqun gücləndirilməsi üçün Azərbaycan praktiki addımlar atır. Bildiyiniz kimi, İslam Əməkdaşlıq Təşkilatı ilə Avropa Şurası arasındakı əlaqələrin inkişafında bizim xüsusi rolumuz vardır. 2008-ci ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatı və Avropa Şurası ölkələrinin nazirlərinin birinci birgə tədbiri keçirilmişdir. Bu təşəbbüsə "Bakı prosesi" adı verilmişdir. Artıq "Bakı prosesi" beynəlxalq aləmdə tanınan və hörmətlə qəbul edilən bir prosesdir.

Hazırda Azərbaycan Avropa Şurası Nazirlər Komitəsinə sədrlik edir, öz prioritetlərini açıq şəkildə bəyan etmişdir. Çalışacağıq ki, mədəniyyətlərarası, dinlərarası dialoqun gücləndirilməsi üçün əlavə töhfəmizi verək. Buna çox böyük ehtiyac vardır. Əfsuslar olsun ki, Avropanın bəzi ölkələrində İslamafobiyaya qarşı adekvat münasibət göstərilmir. Bəzi ölkələrdə antimüsəlman meyilləri güclənir və aidiyyəti dövlət qurumları adekvat tədbirləri görmürlər. Biz öz tərəfimizdən çalışırıq ki, İslam mədəniyyəti, dini, tarixi haqqında Avropa ictimaiyyətini geniş şəkildə məlumatlandıraq, göstərək ki, İslam sülh, mərhəmət dinidir.

Bizim ölkələrimizin çox zəngin və qədim tarixi, mədəniyyəti vardır. Bu məqsədlə müxtəlif ölkələrdə Azərbaycan günləri, Azərbaycan mədəniyyət tədbirləri mütəmadi qaydada keçirilir. Hesab edirəm ki, bəzi tədbirləri biz təmsil etdiyiniz ölkələrlə birgə keçirə bilərik.

Bildiyiniz kimi, yaxın üç il ərzində Bakıda həm Avropa, həm İslam Həmrəyliyi Oyunları keçiriləcəkdir. Əlbəttə ki, bu oyunlar böyük idman bayramı olacaqdır. Ancaq, eyni zamanda, hesab edirəm ki, bu oyunların keçirilməsi mədəniyyətlərarası dialoqun inkişafına da öz müsbət təsirini göstərəcəkdir.

Bir sözlə, əziz dostlar, birgə səylərimiz, fəaliyyətimiz nəticəsində əminəm ki, bizim ölkələrdə, bölgədə və dünyada proseslər daha müsbət istiqamətdə gedəcəkdir.

Müsəlman ölkələrinin çox böyük potensialı, böyük əhalisi, təbii resursları, iqtisadi potensialı vardır. Çalışmalıyıq səyləri birləşdirək ki, xalqlarımız üçün daha da gözəl gələcək yaradaq. Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*9 iyul 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV ROMADA DAHİ AZƏRBAYCAN ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də Romadakı məşhur "Villa Borghese" parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.

Bu abidə "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 dekabr tarixli Sərəncamına əsasən ucaldılmışdır. Həmin Sərəncama əsasən Nizami Gəncəvinin yubileyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə 2012-ci ilin aprelində abidənin açılışı olmuşdur.

*13 iyul 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ROMANIN "MERCATI DI TRAIANO" MUZEYİNDƏ ŞƏHƏRİN MERİ İQNATSİO MARİNO İLƏ GÖRÜŞMÜŞDÜR

## PREZİDENT İLHAM ƏLİYEV İTALİYA JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ VERMİŞDİR

Prezident İlham Əliyevi Roma şəhərinin meri İqnatsio Marino qarşıladı.

Dövlətimizin başçısına Romanın "Mercati di Traiano" muzeyi barədə ətraflı məlumat verildi. Bildirildi ki, nadir eksponatların qorunduğu bu muzey qədim Roma tarixinin öyrənilməsində müstəsna əhəmiyyətə malikdir. Muzeyin yerləşdiyi ərazidə müxtəlif vaxtlarda aparılan arxeoloji qazıntılar bir çox nadir memarlıq nümunələrini üzə çıxarıb. Digər tərəfdən, bu qazıntılar qədim dövr tarixinin müxtəlif mərhələlərinin tədqiqinə geniş imkanlar açıb. Ona görə də "Mercati di Traiano" muzeyinin əhəmiyyəti heç vaxt azalmır, onun ümumbəşəri dəyəri getdikcə daha da artır.

Daha sonra keçirilən görüşdə Roma şəhərinin meri İqnatsio Marino Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi, enerji sahələrində əlaqələrin genişləndiyini bildirdi, ölkəmizdə gedən inkişaf proseslərinin məmnunluq doğurduğunu diqqətə çatdırdı. O, Azərbaycan ilə mədəniyyət sahəsində əlaqələrin inkişafında maraqlı olduqlarını bildirdi. Bunun ölkələrimizin və xalqlarımızın bir-birini daha yaxından tanımaları üçün yaxşı imkan yaratdığını dedi. Roma şəhərinin meri Heydər Əliyev Fondu ilə geniş əməkdaşlıq əlaqələrinə toxunaraq Fondun dünyada ümumbəşəri dəyəri olan bir çox mədəni və humanitar layihələri uğurla həyata keçirdiyindən xəbərdar olduğunu bildirdi. İqnatsio Marino Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ilə Romada keçirilən görüşünü xatırladı,

Heydər Əliyev Fondu ilə birgə reallaşdırılan layihələrin əhəmiyyətinə toxundu. "Mercati di Traiano" muzeyinin ərazisində arxeoloji qazıntı işlərinin aparılmasında Heydər Əliyev Fondunun xidmətlərini yüksək qiymətləndirən mer buna görə təşəkkürünü çatdırdı.

Prezident İlham Əliyev bu memarlıq və mədəniyyət mirasının təkcə Romaya deyil, bütün bəşəriyyətə aid olduğunu dedi, arxeoloji qazıntı işlərində Azərbaycanın da iştirak etməsindən fərəh hissi keçirdiyini bildirdi. "Düşünürəm ki, bu, bizim ikitərəfli əlaqələrimizin vacib elementidir", - deyən dövlətimizin başçısı mədəniyyət sahəsində əlaqələrin inkişafının xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırdı. Prezident İlham Əliyev İtaliya tarixinin və mədəniyyətinin Azərbaycanda yaxşı tanındığını, ölkəmizin mədəniyyətinin də İtaliyada təbliğinin mühüm əhəmiyyətə malik olduğunu qeyd etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin çox yüksək səviyyəyə çatdığını deyərək İtaliyanın Avropada və dünyada Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu bildirdi. Hazırda tərəfdaşlığımızın enerji sektorunda uğurla həyata keçirildiyini, Avropanın enerji xəritəsini dəyişəcək TAP layihəsinin Azərbaycan üçün də böyük önəm təşkil etdiyini deyən dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, əməkdaşlıq əlaqələri gələcəkdə infrastruktur, tikinti, yüksək texnologiyalar və iqtisadiyyatın digər sahələrini də əhatə edəcəkdir.

Görüşdən sonra Prezident İlham Əliyev muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Daha sonra dövlətimizin başçısı İlham Əliyev Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Roma şəhər meriyası arasında sazişin imzalanması mərasimində iştirak etdi.

Bu saziş "Mercati di Traiano" muzeyinin yerləşdiyi ərazidə arxeoloji qazıntı işlərinin aparılmasına maliyyə vəsaitinin ayrılmasını nəzərdə tutur.

Sonra İqnatsio Marino Roma şəhərinin rəmzi olan xatirə hədiyyəsini Prezident İlham Əliyevə təqdim etdi.

Mərasim başa çatdıqdan sonra dövlətimizin başçısı və Roma şəhərinin meri arxeoloji qazıntı işlərinin aparılacağı ərazini, həmçinin Roma şəhərinin mənzərəsini seyr etdilər.

Sonda Prezident İlham Əliyev İtaliya jurnalistlərinə müsahibə verdi.

**Prezident İlham ƏLİYEV dedi:**

- Yenidən gözəl Roma şəhərində olmaqdan çox şadam. Bu gün əlaqələrimizdə çox vacib bir gündür. İtaliya-Azərbaycan əlaqələri çox uğurla inkişaf edir, müxtəlif sahələri əhatə edir. Biz yaxşı dost və tərəfdaşlarıq. Biz fəxr edirik ki, Azərbaycan sizin tarixi memarlıq irsinizin bərpasında iştirak edir. Sizin tarixiniz, mədəniyyətiniz, memarlığınız bütün bəşəriyyətə məxsusdur. Azərbaycan fəxr edir ki, bu prosesin iştirakçısıdır.

Bu gün biz merlə müzakirələr apardıq və əməkdaşlığımızı davam etdirəcəyik. Bu gün imzalanan Saziş o deməkdir ki, biz yeni əməkdaşlıq mərhələsinə qədəm qoyuruq. Siyasi, iqtisadi, enerji məsələləri bizim üçün çox vacibdir və ölkələrimizi birləşdirir. Lakin mədəniyyət təkcə siyasətçiləri, ölkələri yox, həm də insanları birləşdirir. Bu gün ölkələrimiz arasında mədəniyyətlərarası münasibətlər, insanlar arasında təmaslar, bir-birimizin tarixinə göstərdiyimiz qarşılıqlı maraq bu tərəfdaşlığı gücləndirir. Ona görə də biz bu gün ölkələrimiz arasında yüksək səviyyəli əməkdaşlıqdan danışa bilərik, çünki o həyatın bir çox sahələrini əhatə edir.

Bu yerdən sizin şəhərinizə açılan füsunkar mənzərəyə baxmaq çox gözəldir. Çünki mənim əvvəllər Romaya dəfələrlə səfərlərim olub, lakin bu yerdən Romaya baxmamışdım. Ümid edirəm ki, biz birlikdə tezliklə bu ərazilərdə əhəmiyyətli tapıntılar aşkarlayacağıq.

Mer İqnatsio MARİNO dedi:

- Bizə göstərdiyi bu yardıma görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarıq. Bu yardım sayəsində biz Aleksandria küçəsində arxeoloji qazıntı işlərini aparacağıq. Söz veririk ki, cənab Prezidentin İtaliyaya növbəti səfəri zamanı biz gördüyümüz işlərin nəticələrini nümayiş etdirəcəyik.

Onu da deyim ki, ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunuq. Təbii ki, bu gün Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi ilə Roma şəhər meriyası arasında imzalanmış bu mühüm Saziş ölkələrimizin mədəniyyət sahəsində əlaqələrinin inkişafından xəbər verir. Biz buna böyük əhəmiyyət veririk. Əminəm ki, bu sənəd əməkdaşlığımızın gələcəkdə daha da genişlənməsinə töhfəsini verəcəkdir.

*14 iyul 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV ROMADA "NAMƏLUM ƏSGƏR" ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

İtaliya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də Romadakı "Altare dell Patria" memorial kompleksində naməlum əsgər abidəsini ziyarət etmişdir.

Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev naməlum əsgər abidəsinin önünə əklil qoydu.

*14 iyul 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başladı.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür PAŞAZADƏ mərasimdə çıxış edərək dedi:

- Bismillahir-rəhmanir-rəhim!

Möhtərəm Prezident İlham Əliyev həzrətləri!

Hörmətli məclis iştirakçıları, əziz qonaqlar!

Ənənəvi iftar süfrəmizə verdiyiniz şərəfə, burada iştirakınıza görə sizə "Xoş gəlmisiniz" deyir və xoş arzular diləyirəm.

Allah-Təalanın bizə bəxş etdiyi Quranın nazil olduğu bu mübarək Ramazan ayında iftar süfrəmizə təşrif gətirdiyinizə, bu müqəddəs aya hörmətinizə görə sizə xoş arzularımı çatdırır, təşəkkürümü bildirirəm.

İftar süfrəsi arxasında sizinlə görüşmək bir ənənəyə çevrilmişdir. Bu ənənənin bünövrəsini qoyan əziz dostum, qardaşım ulu öndər Heydər Əliyev həzrətləri olmuşdur. Allah-Təala Ulu Öndərimizə və ömür-gün yoldaşı Zərifə xanıma rəhmət etsin, qəbirləri nurla dolsun, inşallah! Həm də bu iftar süfrəsi başına toplaşmağımız qardaşlıq, dostluq, dinlər, millətlər arasında dialoq, vicdan azadlığı və tolerantlıq deməkdir. Mən Rəbbin dərgahına şükür edirəm ki, Allah-Təala bu görüşün səadətini və bu ayın nemətini bizə nəsib etdi.

İftar süfrəsi arxasında bu görüş əlbəttə biz müsəlmanlar üçün çox xoşdur. Ötən iftar süfrəsindən keçən bir il ərzində ən mühüm hadisələrdən biri və ən önəmlisi Zati-aliləri

İlham Əliyev həzrətlərinin Allahın istəyi və xalqın dəstəyi ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi olmuşdur. Həmin dövrlərdə zəvvarlarımız Məkkədə, müqəddəs Kəbə evində Allaha dua edib Azərbaycanın bu gününə və sabahına səs verdilər. Bu gün də dindarlarımız həmin səsverməni Allahın lütfü hesab edirlər.

Siz gözəl bilirsiniz, həmin dövrü yaşamısınız. Mən də həmin dövrü yaşamışam. Bir vaxtlar Azərbaycan parçalanmaq, dağılmaq ərəfəsində idi. Müstəqilliyimiz şübhə altında idi. Xalqın çağırışı ilə ulu öndər Heydər Əliyev həzrətləri yenidən hakimiyyətə qayıtdı. Nəinki Azərbaycanı parçalanmaqdan xilas etdi, yeni və daha gözəl bir Azərbaycan yaratdı.

Heydər Əliyev böyük siyasət xadimi, müdrik insan idi. Bu gün bir çox dövlətlərin rəhbərlərində məhz Heydər Əliyev siyasətinin çatışmazlığı görünür. Əgər onlar Heydər Əliyev siyasi məktəbindən öyrənsəydilər, bu gün dünyada baş verən hadisələr başqa məcrada inkişaf edə bilərdi. Bu gün ulu öndər Heydər Əliyev həzrətləri cismən olmasa da, ruhən bizimlədir, yaşayır və həmişə də yaşayacaqdır. Onun bizə göstərdiyi yol, bizim üçün miras qoyduğu dövlətçilik məktəbi, həyat verdiyi müstəqillik yaşayır və yaşamaqdadır.

Özü qədər inandığı İlham Əliyev həzrətləri Heydər Əliyev siyasətini şərəflə uca tutur. Bu gün Azərbaycan heç də 1990-cı illərin Azərbaycanı deyil. İndi Azərbaycan regionda möhkəm, iradəli, inkişaf etmiş lider dövlətdir. Azərbaycan bir çox mötəbər təşkilatların üzvüdür və onlara sədrlik edir. Bu il Azərbaycan Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik edir və həm də İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Azərbaycan dünyada baş verən qlobal və regional məsələlərdə yaxından iştirak edir və onların həlli yollarını tapır. Əlbəttə bu, bizi çox sevindirir.

Heydər Əliyevin, - Allah rəhmət etsin, - müəllifi olduğu "Əsrin müqaviləsi" əgər Azərbaycan dövlətinin birliyinə yönəlmişdisə, Zati-aliləri, Sizin müəllifi olduğunuz XXI əsrin müqaviləsi – "Şahdəniz-2" qaz layihəsi Azərbaycanın inkişafı, bu günü və sabahı üçün atılan bir addımdır.

Azərbaycan dövləti və rəhbərliyi yalnız siyasi-iqtisadi məsələlərə deyil, həm də milli mənəvi dəyərlərə böyük önəm verir. Azərbaycanda dinindən, dilindən asılı olmayaraq hər bir vətəndaşa öz dini etiqadını yerinə yetirmək üçün bütün şərait yaradılmışdır. Azərbaycanda din xadimlərinə, dini ibadət yerlərinə dövlətimizin başçısı tərəfindən yüksək diqqət və qayğı göstərilir. Buna görə bir ağsaqqal kimi mən bütün dindarlar adından, Zati-aliləri, Sizə təşəkkürümü bildirirəm.

Azərbaycanda keçirilən beynəlxalq humanitar forumlar, din-dövlət məsələləri, millətlərarası, dinlərarası dialoqlar, dünya dini liderlərinin Azərbaycanda görüşü, patriarxların, İslam dini liderlərinin tez-tez Azərbaycana gəlməsi və Zati-aliləri ilə görüşməsi bizim üçün fəxarətdir.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşavirliyinin, Dini Mədəniyyətin İnkişaf Fondunun yaradılması bir daha göstərir ki, Azərbaycanda hərtərəfli inkişaf gedir.

Əlbəttə, burada Heydər Əliyev Fondunun da gördüyü çox böyük işlər vardır. Fondun prezidenti Mehriban xanım Əliyeva öz zərif çiynində Azərbaycan qədər böyük milli mənəvi dəyərlərimizə əvvəl həyat verdi, yaşatdı, onu dünya miqyasına qaldırdı və bütün dünyada təbliğ etdi.

Bu gün Azərbaycanı yalnız nefti, qazı, qaz kəmərləri ilə deyil, həm də mədəniyyəti, dünyagörüşü, mənəviyyatı, tolerantlığı ilə tanıyırlar. Ona görə də biz Heydər Əliyev Fondunun prezidenti Mehriban xanıma, Fondun vitse-prezidenti Leyla xanıma və bütün işçilərinə Allah-Təaladan xeyir dualar diləyirik.

Heydər Əliyev həzrətlərinin Təzəpirdən, Bibiheybətdən başladığı mənəviyyat yolu bu gün uğurla davam edir. Bakıda Əjdərbəy, Şamaxıda ən qədim Cümə məscidlərinin

yenidən inşa olunması, Gəncədə İmamzadə kompleksinin əsaslı şəkildə yenidən qurulması, ən mühümü isə Binəqədi rayonunda yeni, gözəl, ən böyük bir məscidin tikilməsi ilə bərabər, həm də sinaqoqların, kilsələrin, katolik və udin kilsələrinin bərpa edilib və tikilib dindarların istifadəsinə verilməsi bunun əyani təsdiqidir.

Mən bir məsələni də qeyd etmək istərdim ki, bayaq dediyim kimi, əgər Azərbaycanda Binəqədi məscidinin 95 metrlik minarəsi ucalırsa, bununla bərabər həm də dünyada ən hündür bayraq Azərbaycan üzərində dalğalanır. Bu da hərtərəfli inkişaf deməkdir. Amma mən çox heyfsilənirəm ki, bunu gözü götürməyən qüvvələr də vardır. Açığı bizdə də məzhəblər arasında nifaq salmaq, dinlər arasında iğtişaş yaratmaq istəyirlər.

Zati-aliləri, mən Sizi əmin edirəm ki, dinindən, dilindən asılı olmayaraq Azərbaycan vətəndaşları öz Vətəninə, torpağına, dədə-baba adətinə sadiqdirlər və heç bir qüvvə onları bu yoldan döndərə, başqa yollara apara bilməz. Çünki bu dövlətin, din-dövlət əlaqələrinin bünövrəsini ulu öndər Heydər Əliyev həzrətləri qoymuşdur. Ulu öndər Heydər Əliyev həzrətləri deyirdi ki, müstəqilliyimiz həmişəyaşardır, əbədidir, inşallah. Amma buna inanmayan, ola bilsin şübhə ilə yanaşan bəzi qüvvələr varsa onlar Şəhidlər xiyabanına getsinlər, - Allah bütün şəhidlərə rəhmət etsin, Zati-aliləri, Qarabağ torpaqlarımızın tezliklə azad olunmasını da Sizin rəhbərliyinizlə bizə nəsib etsin, - gözləri ilə görsünlər orada uyuyan, canından, qanından keçən qardaşlarımız, oğullarımız, o dövrdə heç soruşurdular ki, kim hansı millətdəndir? Orada Azərbaycanda yaşayan bütün xalqların və dinlərin nümayəndələri uyuyur. Bəs onları birləşdirən amal nə idi? Onları birləşdirən Vətən, torpaq, sevgi, qardaşlıq idi.

Bizim qurum - Qafqaz Müsəlmanları İdarəsi Heydər Əliyevə, onun siyasətinə, onun vəsiyyətlərinə həmişə sadiq olmuşdur. Allah-Təala bizə ömür versin. Ömrümüzün axırına qədər bu əqidədə qalacağıq. Əlbəttə, Heydər Əliyev çox böyük şəxsiyyət, dahi siyasət xadimi, həm də vəfalı dost, sözünə, əməlinə sadiq bir insan idi.

Zati-aliləri, Sizin bu iftar süfrəsində bizimlə birlikdə olmağınızı mən bu sədaqətin, bu vəfanın davamı hesab edirəm. Ona görə də öz adımdan, ailəm adından, dindarlar adından Sizə minnətdarlığımı bildirirəm. Mən bilirəm ki, Siz də Mehriban xanım da çox işləyirsiniz. Bəzən yorğunluq olur. Sizin gözəl nəvələriniz vardır. Onları yanınıza gətirirlər, onlarla görüşəndən beş-on dəqiqə sonra yorğunluğunuz yaddan çıxır.

Bu gecələr duaların qəbul edildiyi əhya gecələridir. Zati-aliləri, mən dua edirəm ki, Allah-Təala Sizə və Mehriban xanıma oğlunuzdan nəvə nəsib etsin, inşallah. Onunla bərabər olasınız, görüşəsiniz və bütün bu yorğunluqlar yaddan çıxsın.

Allah-Təaladan arzu edirəm ki, Sizin ailənizi xoşbəxt etsin. Bütün Azərbaycan xalqına xoşbəxtlik arzu edirəm. Allah-Təala xəstələrə şəfa versin, dualarımızı, ibadətlərimizi qəbul etsin, növbəti iftarı da bizə nəsib etsin, inşallah.

Bir daha "Xoş gəlmisiniz" deyirəm.

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu!

* * *

Azərbaycan Prezidenti İlham Əliyev iftar mərasimində çıxış etdi.

## PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli şeyx həzrətləri.

Hörmətli din xadimləri.

Hörmətli məclis iştirakçıları.

İlk növbədə mənim ünvanıma deyilən bütün xoş sözlərə görə sizə minnətdaram. Mən çox şadam ki, bu gün Azərbaycan uğurla, inamla inkişaf edir. Bu gün dünyada Azərbaycan böyük hörmətlə, böyük ehtiramla qarşılanır. Bizə olan hörmət, rəğbət gündən-günə artır. Çünki dünya bilir ki, artıq biz etibarlı tərəfdaşıq. Dünya bilir ki, Azərbaycanda gedən proseslər nəinki ölkəmizin inkişafını müəyyən edir, eyni zamanda, bölgəyə də çox müsbət təsir göstərir.

Artıq gözəl bir ənənədir ki, biz mübarək Ramazan ayında şeyx həzrətlərinin iftar süfrəsinə toplaşırıq. Təxminən bir il bundan əvvəl bu salonda görüşmüşük. Günlər, aylar tez keçir. Keçən il ərzində Azərbaycan daha da güclənmiş, beynəlxalq mövqelərini daha da möhkəmləndirə bilmişdir. Bizim inamlı, dayanıqlı inkişafımız əminəm ki, bundan sonra da təmin ediləcəkdir.

Bu gözəl ənənənin səbəbkarları - ulu öndər Heydər Əliyev və şeyx həzrətləri doğrudan da çox gözəl bir ənənənin təməlini qoymuşlar. Çünki Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bildiyiniz kimi, müstəqilliyimizin ilk illəri ölkəmiz, xalqımız üçün çox ağır keçmişdir. Böyük problemlərlə, fəlakətlərlə üzləşmişdik. Azərbaycanda vətəndaş müharibəsi baş vermişdi. Ulu Öndər siyasi hakimiyyətə qayıtdıqdan sonra bütün istiqamətlər üzrə konkret inkişaf strategiyamız müəyyən edilmişdir. İqtisadi islahatlar, siyasi islahatlar, ordu quruculuğu, sosial proqramların icrası, eyni zamanda, din-dövlət münasibətlərinin qurulması, yaradılması da Ulu Öndər tərəfindən irəli sürülmüş çox müdrik bir təşəbbüs idi. Təbii ki, müstəqillikdən əvvəl bizim dövlətimiz yox idi və təbii ki, din-dövlət münasibətləri də mövcud deyildi. Bu münasibətlər möhkəm və sağlam təməl üzərində qurulubdur və bu gün ölkəmizin uğurlu inkişafında din-dövlət münasibətləri xüsusi yer tutur. Deyə bilərəm ki, Azərbaycanda bu münasibətlər nümunəvi xarakter daşıyır. Əlbəttə, burada Ulu Öndərin və şeyx həzrətlərinin şəxsi dostluğu öz rolunu oynamışdır və bu gün bütün istiqamətlər üzrə olduğu kimi, bu sahədə də ənənələr, ardıcıllıq davam edir. Bizim də şeyx həzrətləri ilə dostluğumuz həm ürəyimizdən gələn bir sifarişdir, bir duyğudur, eyni zamanda, ölkəmizin inamlı inkişafı üçün də mühüm amildir. Bu gün din-dövlət münasibətləri uğurla inkişaf edir. Əminəm ki, bundan sonra da bu istiqamətdə ardıcıllıq davam etdiriləcəkdir.

Azərbaycan öz milli, dini dəyərlərinə sadiqdir. Bizim dini dəyərlərimiz milli dəyərlərimizin tərkib hissəsidir və milli dəyərlərimizi dini dəyərlərsiz təsəvvür etmək mümkün deyil. Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır. Dövlətçiliyimizin möhkəm siyasi dayaqları vardır. Müstəqil Azərbaycan artıq dünya miqyasında sözünü açıq deyən, müstəqil siyasət aparan bir ölkədir və daxili siyasət xarici siyasətlə tamamlanır və siyasi dayaqlarımız kifayət qədər möhkəmdir.

Bu gün Azərbaycan kimi son on il ərzində iqtisadi sahədə inkişaf edən ikinci ölkə yoxdur. Bu da müstəqilliyimizin möhkəmləndirilməsinə xidmət göstərir. Eyni zamanda, mənəvi dayaqlar - cəmiyyətimizin mənəvi dayaqları bizim uğurlu inkişafımızın əsas şərtidir. Çünki iqtisadiyyat güclü ola bilər, - biz tarixdən bilirik ki, ölkələr inkişaf edir, ondan sonra tənəzzülə uğrayır, - ancaq əgər mənəvi sütun, dayaq yoxdursa, bu ölkənin gələcəyi yoxdur.

Ona görə gənc nəslimizi vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə etmək hər bir şüurlu vətəndaşın, dövlətin borcudur. Dövlət öz üzərinə düşən vəzifəni icra edir. Mən şadam ki, Azərbaycanda çox dəyərli, bilikli, savadlı gənc nəsil yetişir. O gənc nəsil ki, gələcəkdə ölkəmizi idarə edəcək. Bu gün gənclərimiz qürur hissi ilə deyirlər ki, onlar Azərbaycan vətəndaşlarıdır. Çünki doğrudan da bu gün ölkəmizdə gedən uğurlu inkişaf prosesi hər bir vətənpərvər insanın qəlbini qürurla doldurur. Milli mənəvi dəyərlər, ənənələr, bizim dini dəyərlərimiz əminəm ki, bundan sonra da inkişafımızın əsas istiqaməti olacaqdır.

Bu gün iftar məclisimizdə dinlərarası münasibətlər haqqında danışıldı. Azərbaycanda bu münasibətlərə də çox böyük diqqət yetirilir. Deyə bilərəm ki, burada iki mühüm amil cəmləşir. Həm dövlət siyasəti, eyni zamanda, cəmiyyətimizin vəziyyəti və statusu. Çünki sadəcə olaraq dövlət siyasəti yeritməklə istədiyimizə nail olmaq mümkün deyildir. Ona görə Azərbaycanda çox nadir bir ab-hava, nadir bir vəziyyət yaranıbdır. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Əsrlər boyu bu, belə olub. Bu gün, müstəqillik dövründə bu müsbət meyillər daha da güclənir və bizim gücümüz birliyimizdədir. Biz bütün dini bayramlarımızı birlikdə qeyd edirik. Bu gün biz bu masa arxasında bir yerdə əyləşmişik. Azərbaycan cəmiyyətində bütün xalqların, bütün dinlərin nümayəndələri bərabər hüquqlara malikdirlər. Əlbəttə, bu, Konstitusiyada təsbit edilib. Ancaq, eyni zamanda, real həyatda da bu, belədir. Deyə bilərəm ki, bu gün bu əlamətə görə Azərbaycan dünyada böyük dərəcədə fərqlənir, seçilir. Ölkəmizə gələn qonaqlar bir çox hallarda təəccüb hissi ilə bunu qeyd edirlər ki, siz buna necə nail ola bilmisiniz, sizdə dini, milli zəmində nəinki heç bir qarşıdurma, heç anlaşılmazlıq da yoxdur. Reallıq bundan ibarətdir ki, dövlət siyasəti, din xadimlərinin müdrikliyi, eyni zamanda, cəmiyyətdə müsbət ab-havanın mövcudluğu və əlbəttə ki, ölkəmizin sürətli dinamik inkişafı burada əsas rol oynayır. Bu, bizim böyük sərvətimizdir.

Biz indi internet dövründə dünyada gedən proseslər haqqında dərhal xəbər tuturuq. Əfsuslar olsun ki, bu xəbərlər heç də müsbət deyildir. Dünyanın müxtəlif yerlərində - Avropada, Yaxın Şərqdə, bizim bölgədə dini zəmində, məzhəb zəminində, başqa səbəblər üzündən qan tökülür, müharibələr, vətəndaş müharibələri aparılır, qarşıdurmalar baş verir. Azərbaycan sabitlik adasıdır. Azərbaycan əslində bölgədə sabitləşdirici rol oynayır. Yəni, ölkə daxilində gedən bu gözəl proseslər bölgəyə də müsbət təsir göstərir. Bu gün Azərbaycansız bölgə siyasətini təsəvvür etmək mümkün deyildir. Çünki biz öz addımlarımızla, təşəbbüslərimizlə, siyasi, iqtisadi, digər istiqamətlər üzrə atılan addımlarla böyük dərəcədə bölgənin gündəliyini müəyyən edirik.

Bizim qərarlarımızın əhəmiyyəti böyük dərəcədə artır və bütün qərarlarımız müsbət istiqamətə yönəlibdir. Regional əməkdaşlığı dərinləşdirmək, ölkə daxilindəki vəziyyəti və Azərbaycan xalqının rifah halını daha da yaxşılaşdırmaq bizim əsas vəzifəmizdir.

Daxili sabitliyin möhkəmləndirilməsi üçün əsas şərt xalqla iqtidar arasındakı birlikdir. Bu birlik vardır. Birliyin təməlində dövlət siyasəti dayanır. Mən bu barədə öz fikirlərimi dəfələrlə bildirmişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, təhlükəsizliyi, qayğıları, rifahı dayanır. Ona görə, xalq-iqtidar birliyi Azərbaycanda sabitliyin əsas şərtidir. Görəndə ki, başqa bölgələrdə, başqa yerlərdə sabitlik pozulur və qardaş qanı tökülür, əlbəttə, bu, bizi çox incidir, üzür və eyni zamanda, Azərbaycan təcrübəsinə dünyanın diqqətini bir daha cəlb edir.

Azərbaycanda milli, dini, məzhəb zəminində heç vaxt qarşıdurma olmamışdır və olmayacaqdır. Bunun qarantı Azərbaycan dövlətidir, Azərbaycan xalqıdır. Biz dünyanın müxtəlif yerlərində baş verən xoşagəlməz hadisələri təhlil edərkən öz siyasətimizi bundan sonra daha da inamla aparmalıyıq. Azərbaycan vətəndaşları təhlükəsizlik şəraitində yaşayırlar, yaşayacaqlar. Azərbaycanda ictimai-siyasi asayiş tam şəkildə təmin edilir. Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. Bu əsas şərtlər imkan verir ki, biz gələcəyimizi planlaşdıraq, gələcəyə böyük nikbinliklə baxaq.

Bu gün dinlərarası, millətlərarası dialoqdan söhbət açılanda hesab edirəm ki, ilk növbədə Azərbaycan göz önünə gəlir. Azərbaycanda isə dinlərarası dialoq çoxdan təmin edilibdir. Bu gün Azərbaycanda dinlərarası, millətlərarası dostluq, qardaşlıq meyilləri güclənir. Budur bizim üstünlüyümüz. Təsadüfi deyildir ki, multikulturalizm, dinlərarası dialoq üzrə beynəlxalq forumlar məhz Azərbaycanda keçirilir. Bu forumların təşəbbüskarı da

bizik. Mən şübhə etmirəm ki, bizim bu istiqamətdə inkişaf edən doğma Vətənimiz gələcəkdə daha da böyük mövqelərə malik olacaqdır. Bu gün onsuz da beynəlxalq aləmdə kifayət qədər güclü mövqelərə malikik. Biz həm Avropa Şurasının, həm İslam Əməkdaşlıq Təşkilatının üzvüyük. Gələn il Bakıda birinci Avropa Oyunları, 2017-ci ildə İslam Həmrəyliyi Oyunları keçiriləcəkdir. Yəni, bu, nadir bir vəziyyətdir. Azərbaycan nəinki sivilizasiyalararası bir körpüdür, biz, eyni zamanda, öz əməyimizlə, siyasətimizlə müsbət meyillərin güclənməsinə təkan veririk. Ancaq burada da deyildiyi kimi, əfsuslar olsun ki, heç də hər yerdə belə deyildir. Dini ayrı-seçkilik müşahidə olunur, məzhəb davası aparılır. Bu, böyük fəlakətdir və uçuruma aparan yoldur.

Biz çalışırıq, çalışmalıyıq öz səylərimizi daha da böyük dərəcədə qoyaq ki, dünyada meyillər müsbət istiqamətdə getsin. Burada şeyx həzrətlərinin rolunu xüsusilə qeyd etmək istəyirəm. Şeyx həzrətlərinin dünya dinlərarası dialoqun inkişafında böyük rolu, dünyada böyük hörməti vardır. Həm öz həmkarları ilə sıx əlaqələri, həm də ictimaiyyətdə çox böyük təşəbbüsləri vardır. Bu, əlbəttə ki, ölkəmiz üçün böyük üstünlükdür. Hesab edirəm ki, dinlərarası münasibətlərin sağlam zəmində təmin edilməsi üçün Azərbaycan təcrübəsi öyrənilməlidir və əminəm, öyrəniləcəkdir. Çünki bu, doğrudan da nadir bir təcrübədir.

Mən bir daha qeyd etmək istəyirəm ki, bu iftar məclisimiz ənənəvi xarakter daşıyır. Bunun həm bizim, həm də cəmiyyət üçün çox böyük əhəmiyyəti vardır. Cəmiyyət də görür ki, baxmayaraq Konstitusiyaya görə din dövlətdən ayrıdır, ancaq din və dövlət bir yerdədir, çünki bizim amalımız birdir - daha güclü Azərbaycan qurmaq, yaratmaq.

Bizim amalımız ölkəmizi inkişaf etdirmək, əsas məqsədimiz ərazi bütövlüyümüzü bərpa etməkdir. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq. Çünki əfsuslar olsun ki, - artıq bu, heç kəs üçün sirr deyil, - dünyada daha çox beynəlxalq hüquq yox, güc amili rol oynayır. Biz daha da güclü olmalıyıq. Biz güclənirik. Buna vaxt lazımdır. Ancaq baxsaq, görsək qısa müddət ərzində haradan-haraya gəlmişik, onda tam əminliklə deyə bilərik ki, gücümüzü daha da artıracağıq və bu güc, siyasət hesabına biz öz hədəfimizə çatacağıq.

Bu gün işğaldan əziyyət çəkən Azərbaycan vətəndaşları, soydaşlarımız öz dədə-baba torpaqlarına qayıdacaqlar, qayıtmalıdırlar, orada yaşamalıdırlar, yaşayacaqlar. Biz hamımız - Azərbaycan vətəndaşları hər gün, hər an o müqəddəs günü yaxınlaşdırırıq və yaxınlaşdırmalıyıq.

Mən bir neçə gün bundan əvvəl müsəlman ölkələrinin səfirləri ilə görüşmüşəm. Bu gün də onlar və digər ölkələrin səfirləri bizim aramızdadırlar. Mən hesab edirəm ki, bu gün Azərbaycan həm İslam aləmində, həm Avropada etibarlı tərəfdaş və dost kimi tanınır. Bu şərəfli adı biz öz əməyimizlə, siyasətimizlə qazanmışıq.

Fürsətdən istifadə edib bütün dünya müsəlmanlarını qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bütün Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, mən bundan sonra da ölkəmizin inkişafı, təhlükəsizliyin təmin edilməsi və strateji hədəflərimizə çatmaq üçün öz səylərimi əsirgəməyəcəyəm. Azərbaycan xalqına bir daha söz verirəm ki, mən bundan sonra da doğma xalqımıza sədaqətlə xidmət edəcəyəm. Sağ olun.

*17 iyul 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV CƏFƏR CABBARLI PARKINDA YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xızıya səfəri çərçivəsində Cəfər Cabbarlı parkında yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

İqtisadiyyatın güclənməsi nəticəsində əldə edilən gəlirlər hesabına regionların sosial-iqtisadi tərəqqisinə yönəldilən tədbirlərin sayı xeyli artıb. Bu tədbirlər sırasında yeni park, xiyaban və istirahət mərkəzlərinin salınmasına və ya günün tələbləri səviyyəsində yenidən qurulmasına xüsusi diqqət yetirilir. Müasir səviyyədə yenidən qurulan parklardan biri də Xızıdakı Cəfər Cabbarlı parkıdır. Bu istirahət məkanının yenidən qurulması sosial məna daşımaqla yanaşı, həm də mənəvi əhəmiyyətə malikdir. Bu park həm də Xızıda doğulmuş Azərbaycanın görkəmli dramaturqu Cəfər Cabbarlının xatirəsinə olan ehtiramı nümayiş etdirir.

Dövlətimizin başçısı Cəfər Cabbarlının parkda ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.

Azərbaycan Prezidentinə parkda aparılan abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verildi. Bildirildi ki, ümumi sahəsi 5800 kvadratmetr olan parkda sakinlərin istirahəti üçün hərtərəfli şərait yaradılıb, geniş yaşıllıq zolağı salınıb. Parkda aparılan yenidənqurma işləri zamanı ən xırda detallar da nəzərə alınıb. Bunun nəticəsidir ki, park Xızının ən gözəl və görkəmli yerlərindən birinə çevrilib. Burada yaradılan şərait həm də ümumilikdə rayonda aparılan abadlıq-quruculuq işlərinin həcmini aydın göstərir. Azərbaycan teatr sənətinin inkişafında böyük xidmətləri olmuş, görkəmli dramaturq Cəfər Cabbarlının adını daşıyan bu parkda yaradılan şərait istər rayon sakinlərinin, istərsə də Xızıya gələn qonaqların istirahətinin mənalı təşkili üçün geniş imkanlar açır.

*22 iyul 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XIZIDA HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Azərbaycan dövlətçiliyinin möhkəm əsaslar üzərində qurulmasında, respublikamızın hərtərəfli inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə ölkəmizin bütün bölgələrində, o cümlədən Xızıda mühüm işlər görülür və vacib layihələr reallaşdırılır. Rayonun mərkəzində yeni tikilən Heydər Əliyev Mərkəzi Ümummilli Liderin xatirəsinə dərin ehtiramın nümunəsidir. Mərkəzdə Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar toplanıb. Burada Heydər Əliyevin Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, bu böyük şəxsiyyətin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, iqtisadiyyatın ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm qoyması, qüdrətli ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən foto, kitab və digər vəsaitlərə geniş yer verilib. Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin təbliği, Azərbaycan vətəndaşlarının dünyada gedən müasir proseslər çərçivəsində öz vətəni, milləti və xalqının taleyi ilə bağlı genişmiqyaslı layihələrdə iştirakının təmin olunması, onların arzu və niyyətlərini gerçəkləşdirmək əzminin reallaşması baxı-

mından mühüm əhəmiyyət daşıyan Heydər Əliyev Mərkəzi həm də Azərbaycanın müasir reallıqlarını əks etdirir.

Dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, Mərkəzin tikintisinə 2013-cü ilin aprelində başlanıb. Binanın ətrafında geniş abadlıq-quruculuq işləri görülüb. Müasir interyeri ilə diqqəti cəlb edən Mərkəzin foyesində Ümummilli Liderin büstü qoyulub. Mərkəzdə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə dair tarixi sənədlərə geniş yer verilib. Burada Ümummilli Liderin həyatının uşaqlıq, gənclik və tələbəlik illəri, həmçinin sovet və müstəqillik dövrünə aid müxtəlif fotoları maraqla qarşılanır. Bu fotolarda Ümummilli Liderin istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərliyinin müxtəlif məqamları əks olunub. Bundan başqa, Mərkəzdə Ümummilli Liderlə bağlı kitablar, sənədlər və digər maraqlı eksponatlar sərgilənir. Binada, həmçinin Prezident İlham Əliyevin Xızıya səfərlərini əks etdirən fotolardan ibarət stend də maraq doğurur. Son illərdə respublikamızda fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində yeni ailə quran gənclərin nikah mərasimlərinin təşkili kimi xoşməramlı tədbirlərə də başlanıb. Qeyd edildi ki, bu Mərkəzdə də vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və bununla bağlı mərasimlərin təşkili də nəzərdə tutulur.

Mərkəzin tikintisində şəhərsalma memarlığının son nailiyyətlərindən istifadə olunub. Burada sərgi salonu, kafe, istirahət və digər yardımçı otaqlar var. Açıq sərgi salonunda maraqlı rəsm nümunələri sərgilənir. Mərkəzdə elektron kitabxana, kulinariya, xalq sənətkarlığı emalatxanası, musiqi və heykəltəraşlıq dərnəkləri fəaliyyət göstərəcək. Bu dərnəklər gənclərin müxtəlif sənətlərin sirlərinə yiyələnməsinə, onların asudə vaxtının səmərəli təşkilinə geniş imkanlar yaradır. Mərkəzdəki kompyuter otağı, rəsm və dizayn studiyaları, virtual sinif də müasirliyi ilə diqqəti cəlb edir. Burada rayonun ictimai-siyasi həyatında baş verən mühüm hadisələr və əlamətdar günlərlə bağlı tədbirləri yüksək səviyyədə keçirmək üçün hərtərəfli imkan yaradılıb. Mərkəzdəki 230 yerlik akt və kiçik konfrans zallarında ictimai-siyasi və mədəni-kütləvi tədbirlərin, o cümlədən ulu öndər Heydər Əliyevin zəngin irsinin geniş təbliği məqsədilə açıq dərslərin keçirilməsi nəzərdə tutulub. Buraya gələnlər 3D kino zalından, pnevmatik tir zallarından istifadə edə bilərlər.

Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan sonra dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Rayon ictimaiyyətinin nümayəndələrini salamlayan Prezident İlham ƏLİYEV dedi:

- Sizi ürəkdən salamlayıram. Yenidən Xızıda olmağımdan çox şadam. Bu, Xızıya mənim üçüncü səfərimdir. Yadımdadır, keçən dəfə xəstəxananın açılışını qeyd etmişik.

Bu gün də bu möhtəşəm Heydər Əliyev Mərkəzinin açılışında bir yerdəyik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu, çox gözəl Mərkəzdir, çox gözəl binadır. Həm xarici görünüşü, həm daxili tərtibatı ən yüksək səviyyədədir. Çox böyük zövqlə tikilibdir. Əminəm ki, Xızı rayonunun sakinləri bu Mərkəzdən səmərəli şəkildə istifadə edəcəklər. Çünki bu Mərkəzdən gənclər, yeniyetmələr, yaşlı nəslin nümayəndələri müxtəlif istiqamətlər üzrə istifadə edə bilərlər. Həm funksional, həm memarlıq baxımından çox gözəl bir yerdir. Burada fəaliyyət göstərəcək dərnəklərdə gərək gənclər iştirak etsinlər və bu Mərkəz yaşamalıdır. Çünki belə gözəl bina tikilib və əlbəttə ki, bunun funksional tərəfi də yüksək səviyyədə təşkil edilməlidir.

Mərkəz Ulu Öndərin adını daşıyır və bu da təbiidir. Çünki Heydər Əliyev müstəqilliyimizin banisidir. Məhz onun fəaliyyəti nəticəsində bu gün Azərbaycan müstəqil dövlət kimi yaşayır, güclənir. Ölkəmiz üçün ən ağır dövrdə xalqın tələbi ilə rəhbərliyə gəlmiş Heydər Əliyev müstəqilliyi təmin edib, vətəndaş müharibəsinə son qoyub, ölkəmizi inkişaf yoluna çıxarıb. Bu gün biz bu siyasətə bütün istiqamətlər üzrə sadiqik və ölkəmi-

zin uğurlu inkişafı bu siyasətin nəticəsidir. Bu inkişafı biz Xızı rayonunun timsalında da görürük. Çünki bildiyiniz kimi, Xızı o qədər də böyük rayon deyil, əhali də 15 min civarındadır.

Buna baxmayaraq, Xızının sosial-iqtisadi inkişafı üçün bütün lazımi tədbirlər görülür. Biz bu tədbirləri ardıcıllıqla görürük ki, bütün insanları narahat edən məsələlər öz həllini tapsın. Magistral yoldan Xızıya gözəl bir yol çəkilib. Bu yol əvvəlki dövrdə o qədər də yaxşı vəziyyətdə deyildi. İndi ən gözəl standartlara uyğundur. Burada digər yol layihələri icra edilir. Bu yaxınlarda kənd yollarının tikintisi üçün əlavə vəsait ayrılmışdır. Altıağac kəndinə qədər gedən yol əsaslı şəkildə tikiləcəkdir. Digər yol layihələri indi həllini gözləyir və o məsələlər də həll olunacaqdır. Şurabad kənd yolu da tikilməlidir. Bu məqsədlər üçün də vəsait ayrılacaq. Yəni, yol infrastrukturu əsasdır və indi ölkəmizin bütün yerlərində kənd yolları prioritet kimi gündəlikdədir. Yol olanda əlbəttə ki, rahatlıq da, inkişaf da olur. Xızının turizm potensialı çox böyükdür. Burada çox gözəl təbii şərait var - gözəl dağlar, təmiz hava. Bu gün mənə yeni layihə təqdim olundu. Gözəl otelin tikintisi nəzərdə tutulur. Yəni, bu sahədə əlavə tədbirlərin görülməsi əlbəttə ki, rayonun iqtisadi potensialını artıracaqdır. Çünki ilk növbədə yol olmalıdır, infrastruktur layihələri icra edilməlidir. Hər rayon üçün onun spesifikasına uyğun olaraq iqtisadi inkişaf planı da nəzərdə tutulur, o cümlədən Xızı üçün. Bildiyiniz kimi, üçüncü regional inkişaf proqramında Xızı rayonunun inkişafı üçün bütün lazımi tədbirlər nəzərə alınıb.

Keçən dəfə burada olarkən biz xəstəxananın açılışını qeyd etmişik. Bu, çox gözəl tibb ocağıdır. Həm gözəldir, həm də ki, orada quraşdırılan bütün avadanlıq dünya klinikalarından geri qalmır. Hesab edirəm ki, bu da insanların sağlamlığına çox böyük töhfədir.

Xızı rayonunda kənd təsərrüfatının inkişafı üçün çox önəmli addım atılmışdır. Suvarma layihəsinə start verildi və bu layihənin reallaşması Taxtakörpü su anbarının tikintisindən sonra mümkün olmuşdur. Taxtakörpü su anbarının tikintisi ölkədə son vaxtlar qeyri-neft sektorunda infrastruktur layihələri arasında bəlkə də ən böyüyüdür, kənd təsərrüfatının inkişafı üçün xüsusi əhəmiyyətə malikdir. Samur-Abşeron kanalı, Taxtakörpü su anbarı, elektrik stansiyası, Taxtakörpü-Ceyranbatan kanalı - bu layihələr artıq icra edilibdir. Beləliklə, biz Samur çayının sularından istənilən həcmdə istifadə edirik. İndi isə biz artıq bu kanal üzərində yerləşən rayonların kənd təsərrüfatına da ciddi diqqət göstəririk.

Siyəzən, Şabran və Xızı rayonlarında böyük həcmdə yeni torpaq sahələri dövriyyəyə buraxılacaqdır. Xızı rayonunda isə doqquz min hektar torpaq su ilə təmin ediləcəkdir. Hazırda Xızı rayonunda suvarılan torpaqların sahəsi üç min hektardır. Yəni, indikindən üç dəfə çox torpaq suvarılacaqdır. Beləliklə, fermerlər üçün əlavə imkanlar yaranacaqdır. Fermerlər gərək o torpaqlardan səmərəli şəkildə istifadə etsinlər. Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, yerli icra hakimiyyəti birlikdə bu işlərlə məşğul olmalıdırlar ki, biz bu torpaqlarda əkiləcək məhsulların nomenklaturasını müəyyən edək.

Yəni, bu, kənd təsərrüfatının inkişafı üçün çox böyük layihədir, böyük töhfədir. Əminəm ki, yaxın vaxtlarda artıq bütün lazımi şəbəkə qurulacaqdır. İndi boru xətləri və kanallar tikilməlidir ki, hazırda səhraya bənzəyən o torpaqlar artıq gülüstana çevrilsin.

Bax, budur bizim konkret gördüyümüz işlər. Xızı rayonunun gələcək inkişafı ilə bağlı, əlbəttə ki, əlavə tədbirlər görüləcəkdir. Mən bilirəm ki, problemlər də vardır. Onların arasında birinci problem içməli su problemidir. Bildiyiniz kimi, indi ölkə üzrə bu problem tədricən öz həllini tapır. Əminəm ki, üçüncü regional inkişaf proqramının icrası nəticəsində bizim bütün şəhərlərimizdə içməli su layihələri təmin ediləcəkdir, o cümlədən Xızı rayonunda.

Bilirəm ki, mənbənin müəyyən edilməsi ilə bağlı müxtəlif çətinliklər vardır. O məsələ də öz həllini tapacaqdır. Yəni, Xızı rayonuna da təmiz içməli su gətiriləcəkdir. Çünki biz

indi bu layihələrə böyük diqqət göstəririk. Artıq son vaxtlar bir neçə şəhərə təmiz içməli su gətirilibdir. Eyni zamanda, kanalizasiya layihələri də bərabər aparılır, o cümlədən Xızıda da bu məsələ öz həllini tapacaqdır.

Yəni, son vaxtlar aparılan işlər onu göstərir ki, biz bütün problemləri ardıcıllıqla həll edirik və həll edəcəyik. Misal üçün, bu gün Xızıda qazlaşma doxsan faiz təşkil edir. Amma vaxtilə burada qaz yox idi, yollar yox idi. Yollar tikilibdir. Xəstəxana yox idi, xəstəxana tikilibdir. İndi içməli su layihəsi də icra ediləndən sonra demək olar ki, əsas infrastruktur məsələləri həll olunacaqdır.

Suvarma layihəsinə start verildi. Fermerlərə güzəştli şərtlərlə kreditlər verilir. Təkcə o qalıb ki, insanlar bu imkanlardan səmərəli şəkildə istifadə etsinlər, işləsinlər və öz əməyi ilə ölkəmizi daha da möhkəmləndirsinlər. Bizim ümumi inkişafımız göz qabağındadır. Azərbaycan öz sürətli inkişaf dövrünü yaşayır və ölkədə böyük quruculuq işləri aparılır.

İqtisadiyyatımız artır, sosial məsələlər həll olunur. Ölkədə sabitlik və vətəndaş həmrəyliyi hökm sürür. Bir sözlə, bu gün Azərbaycan məhz görülən işlərə görə dünya miqyasında diqqət mərkəzinə çevrilib. Biz bu işləri ardıcıllıqla görürük. Hər bir istiqamət üzrə bu işlər konkret proqram əsasında aparılır, o cümlədən rayonların inkişafı və Xızı rayonunun gələcək inkişafı ilə bağlı bizdə heç bir şübhə yoxdur. Daha da böyük işlər görüləcəkdir, insanlar daha da yaxşı yaşayacaqlar.

Əminəm ki, dediyim məsələlərin reallaşması nəticəsində biz hələ sizinlə çox görüşəcəyik. Çünki gələcəkdə burada yenə də böyük açılışlar olacaqdır.

Sizi bir daha salamlayıram. Sizə ən xoş arzularımı çatdırıram.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*22 iyul 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV XIZIDAKI HEYDƏR ƏLİYEV PARKINDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi, regionların simasına yeni elementlərin əlavə edilməsi ilə müşayiət olunur. Şəhər və rayonlarımızda aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması və ya yenidən qurulması da diqqətdən kənarda qalmır. Bu sahədə həyata keçirilən işlər çərçivəsində Xızı rayonundakı Heydər Əliyev Parkının yenidən qurulması da xüsusi əhəmiyyət kəsb edir. Rayon mərkəzində yerləşən bu mədəniyyət və istirahət parkının ərazisi tamamilə yenidən qurulub. Xızının mərkəzi hissəsinə xüsusi yaraşıq verən bu park rayon sakinlərinin istirahətinin yüksək səviyyədə təşkilinə xidmət edir.

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov parkda görülən abadlıq və quruculuq işləri barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, rayon sakinlərinin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün 3,6 hektar ərazidə salınmış parkda ardıcıl olaraq yenidənqurma və tikinti-quraşdırma işləri aparılır. Yenidənqurma işləri zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, orijinal elementlər və formalarla zənginləşdirilib. Parkın ərazisində çoxlu ağac və dekorativ gül kolları əkilib, çəmənlik salınıb.

Ölkəmizdə aparılan abadlıq-quruculuq işləri əhalinin istirahətinin təşkilində ciddi dəyişikliklərə səbəb olub. Şəhər və rayonlarımızın simasını daha da gözəlləşdirən yeni

parkların salınması, həmçinin mövcud parkların yenidən qurulması diqqət mərkəzində saxlanılır. Bu da regionlarda həyata keçirilən quruculuq işlərinin davamlı və kompleks xarakter daşımasına əyani sübutdur.

Prezident İlham Əliyevə Xızı şəhərinin mərkəzi hissəsinin yenidən qurulması layihəsi barədə ətraflı məlumat verildi.

Bildirildi ki, layihədə nəzərdə tutulan "Xızı Grand Hotel" ən yüksək standartlar səviyyəsində inşa olunacaqdır.

*22 iyul 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BƏRDƏ ŞƏHƏRİNDƏ YENİ SALINAN HEYDƏR ƏLİYEV PARKINDA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞ OLMUŞDUR

Ölkənin ümumi inkişaf tempinə uyğun olaraq sürətlə müasirləşən və gözəlləşən Bərdə şəhərində yeni park-bulvar kompleksi tikilir. Ulu öndər Heydər Əliyevin adını daşıyacaq bu kompleks ölkənin regionlarında salınmış ən böyük mədəniyyət və istirahət mərkəzlərindən biri olacaq.

Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev dövlətimizin başçısına məlumat verdi ki, uzunluğu 1500 metr olacaq park-bulvar kompleksi ilkin mərhələdə 40 hektar ərazini əhatə edəcək və gələcəkdə daha da genişləndiriləcək.

İnşaat işləri aparılarkən Bərdənin qədim tarixini özündə yaşadan abidələrə xüsusi həssaslıqla yanaşılıb. Belə ki, Tərtər çayının yatağında göl və şəlalələr yaradılarkən VII əsrə aid nadir tarixi tikilinin qalıqları qorunub saxlanılıb. Hazırda iki istiqamətdən həmin abidəyə asma körpü çəkilir. 14 fəvvarənin bir-birinə körpülər vasitəsilə birləşdirilməsi parkın ecazkarlığını daha da artıracaq.

Ulu öndər Heydər Əliyevin kompleksdə ucaldılacaq abidəsinin yerləşdiyi 4 min kvadratmetr ərazidə qranit örtüklü monument yaradılır, 5 fəvvarədən ibarət yeni kompleks salınır. Bütövlükdə park-bulvarda 16 min kvadratmetr qranit işləri görüləcək.

Parkın giriş qapısı da öz əzəməti ilə diqqəti cəlb edir. Eni 36 metr, hündürlüyü 12 metr olan qapı milli memarlıq üslubunda ucaldılıb. Yeni tikiləcək mədəniyyət sarayına da 3 istiqamətdən giriş qapıları qoyulub. Burada keçiriləcək müxtəlif tədbirləri nəhəng monitor vasitəsilə izləmək mümkün olacaq. Park-bulvara üz tutanların istirahətinin mənalı təşkili üçün 1000 tamaşaçı yeri olan süni örtüklü stadion, geniş ərazidə uşaq əyləncə mərkəzi, ana-uşaq kafesi, ikimərtəbəli çay evi, istirahət köşkləri, ticarət və iaşə obyektləri, 1,2 kilometr uzunluğunda velosiped yolu, 300 yerlik avtomobil dayanacağı yaradılır.

Parka 27 kilometr uzunluğunda yeni su xətti çəkilib, İtaliya istehsalı olan 460 işıq dirəyi, 10 ədəd relyef birləşdirici pilləkən quraşdırılıb. Həmçinin 21 hektarda yaşıllaşdırma işləri aparılıb, 6 minə qədər ağac və bəzək kolları əkilib.

Gələcəkdə parkın daha da genişləndirilməsi, 30 hektar ərazidə təbii göllərin yaradılması, Tərtər çayı boyunca bulvarın ümumi uzunluğunun 4,3 kilometrə çatdırılması nəzərdə tutulur.

Prezident İlham Əliyev park-bulvar kompleksinin tikintisi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

*6 avqust 2014-cü il*

# PREZİDENT İLHAM ƏLİYEV XALÇA MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

RAzərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Azərbaycan xalçaçılıq sənəti sahəsində dünyanın aparıcı ölkələrindən biridir. 2010-cu ildə Azərbaycanın ənənəvi xalçaçılıq sənəti UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsin reprezentativ siyahısına salınıb. Tətbiqi sənətin nadir nümunələrinin toplandığı Xalça Muzeyi ayrı-ayrı dövrlərdə müxtəlif ünvanlarda yerləşib.

Ölkəmizin nadir incilərindən olan xalçaların daha geniş və səmərəli nümayişi məqsədilə Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən muzey üçün xüsusi bina tikilməsi qərara alınıb və 2008-ci il mayın 15-də Dənizkənarı Milli Parkın ərazisində binanın təməlqoyma mərasimi keçirilib.

Muzeyin yeni binasının yaradılması işində Heydər Əliyev Fondunun və UNESCO-nun müvafiq dəstəyi və köməyi olub. Orijinal üslubda inşa olunan bina bükülmüş xalçanı xatırladır. Hazırda muzeyin sərgi və fondlarında 13 min 300-dən artıq eksponat və əşya saxlanılır. Muzeydə xalça və xalça məmulatları, metal məmulatlar, parça, geyim və tikmə, keramika, şüşə, ağac, kağız, zərgərlik əşyaları, kitablar, fotoşəkillərdən ibarət nadir kolleksiya mühafizə olunur. Bu kolleksiyanın ziyarətçilərə təqdimatı üçün binada ideal şərait yaradılıb. Muzeyin fondunda mövcud olan xalça və xalça məmulatlarının saxlanılması və konservasiyası 2013-cü ildə Bakıya dəvət edilmiş və bu sahədə zəngin təcrübəsi ilə dünyada məşhur olan Viktoriya və Albert Muzeyinin parçalarının konservasiyası üzrə mütəxəssis Luis Squirerin tövsiyələri və tərtib etdiyi təlimatlar əsasında təmin olunur.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva muzeyin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdilər.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev muzeydə görülən işlərlə bağlı dövlətimizin başçısına və xanımına məlumat verdi.

Müəllifi tanınmış avstriyalı memar Frans Yants olan muzey binasında Azərbaycan xalçaçılıq məktəbinin bütün istiqamətləri, yaşı yüz illərlə ölçülən xalça və xalça məmulatlarının geniş çeşidi təqdim edilir.

Azərbaycan Prezidenti və xanımı burada fəaliyyət göstərən suvenir mağazası ilə tanış oldular.

Dövlətimizin başçısı Xalça Muzeyinin yeni binasının yaradılması mərhələlərini əks etdirən fotoşəkillərə baxdı.

* * *

**Açılış mərasimində çıxış edən Prezident İlham ƏLİYEV dedi:**

- Əziz dostlar, bu gün ölkəmizin həyatında çox gözəl və əlamətdar bir gündür. Şəhərimizin mərkəzində, bulvarda Azərbaycan üçün çox böyük dəyər kəsb edən Xalça Muzeyi açılır. Bu gözəl hadisə münasibətilə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Azərbaycanda Xalça Muzeyi 1960-cı illərin sonlarında görkəmli alim, professor, rəssam Lətif Kərimovun təşəbbüsü ilə açılmışdır. Ancaq muzeyin öz binası olmamışdır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə muzeyin fondlarının zənginləşdirilməsi üçün vəsait ayrılmışdı və birinci ekspozisiya İçərişəhərdə Cümə məscidində 1972-ci ildə nümayiş etdirilmişdi. Müstəqillik dövründə isə Xalça Muzeyi Muzey Mərkəzində fəaliyyət göstərirdi. Yadımdadır, 2006-cı ildə Muzey Mərkəzində olarkən, o cümlədən Xalça Muzeyinə də baş çəkdim və əlbəttə, elə o vaxt dərhal qərar qəbul etdim ki, mütləq Azərbaycanda Xalça

Muzeyi üçün ayrıca bina tikilməlidir. Çünki orada həm saxlanma yerləri bizim tələblərimizə uyğun deyildi, eyni zamanda, ekspozisiya üçün də yer çox məhdud idi. Ona görə 2007-ci ildə Sərəncam imzalanmışdır ki, Azərbaycanda Xalça Muzeyinin binası tikilsin və 2008-ci ildə bax burada UNESCO-nun baş direktoru cənab Matsuuranın iştirakı ilə bu gözəl, möhtəşəm binanın təməli qoyulmuşdur.

Əlbəttə ki, Azərbaycanda tikiləcək Xalça Muzeyi həm daxili tərtibatı, eyni zamanda, xarici görünüşü ilə də fərqlənməli idi. Çünki xalça bizim milli sənətimizdir. Azərbaycanı xalçasız, xalçanı isə Azərbaycansız təsəvvür etmək mümkün deyil. Ona görə layihələndirmə işlərinə böyük diqqət göstərilmişdir və nəticədə Avstriya memarlarının zəhməti hesabına bu layihə təqdim edilmişdir. Bu layihə öz nadirliyi ilə seçilir, fərqlənir. Bu bina xalçanı əks etdirir və əlbəttə ki, Xalça Muzeyinin yerləşdirilməsi ilə bağlı məndə heç bir tərəddüd olmamışdır. Çünki Xalça Muzeyi Bakının ən gözəl yerində, bulvarda olmalı idi. Bu, nadir memarlıq əsəridir.

Azərbaycanın çox zəngin və qədim memarlıq əsərləri vardır ki, onlar UNESCO tərəfindən qorunur. İçərişəhər, Şirvanşahlar sarayı, Qız qalası bizim milli sərvətimizdir. Eyni zamanda, son illərdə Azərbaycanın və Bakının müasir memarlıq nümunələri də göz oxşayır. Bakıda qədim memarlıq abidələri və müasir abidələr bir vəhdət, vahid ansambl təşkil edir və son illərdə Heydər Əliyev Mərkəzi, Alov Qüllələri, Bayraq meydanı kimi müasir Azərbaycan simvolları yaradılmışdır. Bu memarlıq əsərləri müasir Azərbaycanın gücünü, inkişafını göstərir. Əlbəttə ki, bu memarlıq əsərləri təkrarolunmaz əsərlərdir. Deyə bilərəm ki, Xalça Muzeyinin binası da bu sıradadır. Bu da öz nadirliyi ilə seçilir və ümid edirəm ki, gələcəkdə heç kim bu memarlıq nümunəsini təkrar etmək istəməyəcək. Çünki Azərbaycanda yaradılan müasir memarlıq əsərlərini bəzi hallarda başqa yerlərdə də görmək olur. Ancaq bu, artıq Azərbaycan məhsuludur və çox şadam ki, bu gözəl, möhtəşəm muzey bu gün açılır.

Əminəm ki, Bakı sakinləri, qonaqlar üçün burada nümayiş etdirilən ekspozisiya çox böyük maraq doğuracaqdır. Çünki muzeydə 15 minə yaxın eksponat var. Burada həm ekspozisiya çox orijinal tərzdə nümayiş etdirilir, - mən burada tikinti zamanı dəfələrlə olmuşam, - eyni zamanda, saxlanma yerləri də müasir standartlara cavab verir. Burada əlbəttə ki, xüsusi temperatur rejimi də var. Yəni, bütün işlər ən müasir səviyyədə qurulub və burada həm daxili tərtibat, bizim milli sərvətimiz olan xalça nümunələri, eyni zamanda, nadir memarlıq birləşir və bu, məni çox sevindirir. Çünki bu, bizim xalqımızın nə qədər istedadlı xalq olduğunu bir daha göstərir. Çünki xalça bizim milli sənətimizdir. Biz hesab edirik ki, Azərbaycan xalça sənətinin vətənidir, xalça muğam, memarlıq abidələri kimi bizim milli dəyərimizdir, sərvətimizdir. Təsadüfi deyil ki, muzeyin tikintisinə başlayandan sonra bizim təşəbbüsümüzlə Azərbaycan xalçaçılıq sənəti UNESCO-nun qeyri-maddi irsi üzrə reprezentativ siyahısına daxil edilmişdir.

Biz öz xalçamızı, xalçaçılıq sənətimizi qoruyuruq. Azərbaycan xalçasının qorunması və inkişaf etdirilməsi haqqında müvafiq qanun da qəbul edilmişdir. Bu, bizim böyük sərvətimizdir və əlbəttə çalışmalıyıq ki, gənc nəsil bu sənətə maraq göstərsin. Biz bunu təşviq etməliyik.

Hazırda həm Bakıda, həm də müxtəlif bölgələrdə xalça muzeyləri fəaliyyət göstərir. Bakıda artıq bu gündən fəaliyyət göstərəcəkdir. Eyni zamanda, son illər ərzində demək olar ki, bütün bölgələrdə Heydər Əliyev mərkəzlərinin nəzdində xalçaçılıq dərnəkləri fəaliyyət göstərir. Bu, bizə imkan verəcək ki, bu sənət inkişaf etsin və nəsillər arasındakı körpülər daha da möhkəm olsun. Bizim görkəmli xalçaçılıq ustaları əlbəttə ki, öz təcrübəsini gənc nəslə ötürməlidirlər. Eyni zamanda, bu gündən burada nümayiş etdirilən bizim gözəl xalçalarımız əminəm ki, gəncləri də bu sənətə gətirəcək və beləliklə, Azərbaycan xalçaçılıq sənəti bundan sonra da inkişaf etdiriləcəkdir.

Bizim mədəni irsimiz, tariximiz, mədəniyyətimiz çox zəngindir. Son illər ərzində dünyanın müxtəlif yerlərində Azərbaycanla bağlı təqdimatlar, sərgilər, konsertlər keçirilir. Əlbəttə ki, xalça o təqdimatların mərkəzində yerləşir. Çünki bu, doğrudan da dünya miqyasında böyük bir dəyərdir. Mən hesab edirəm ki, Azərbaycan xalçası dünyada xalçaçılıq sənətinin etalonudur. Təsadüfi deyil ki, bizim xalçalarımız dünyanın ən məşhur muzeylərində nümayiş etdirilir.

Onu da qeyd etməliyəm ki, mən çoxsaylı xarici səfərlərim zamanı müxtəlif yerlərdə, müxtəlif ölkələrdə prezident saraylarında Azərbaycan xalçasını görmüşəm. Qeyd etmişəm, öz həmkarlarıma bildirmişəm ki, bax bu xalça Azərbaycan xalçasıdır və onlar bunu bilirlər. Yəni, bu gün Azərbaycan xalçası dünyada məhz Azərbaycan xalçası kimi tanınır.

Uzun illər, əsrlər boyu bizim Azərbaycan xalçaları dünyada nümayiş etdirilirdi. Ancaq biz müstəqil ölkə olmadığımız üçün bu xalçalar Azərbaycan xalçaları kimi təqdim edilmirdi. Ona görə biz - həm dövlət, hökumət, müvafiq qurumlar, həm də ictimai təşkilatlar çox böyük iş apardıq ki, xalçamızı, Azərbaycan xalqına məxsus olan bu böyük sənəti məhz Azərbaycan xalçası kimi təqdim edək. Hesab edirəm ki, bu muzeyin fəaliyyətə başlaması bu işdə əlavə imkanlar yaradacaqdır. Çünki əminəm ki, Bakıya gələn qonaqların əksəriyyəti buraya gələcəklər. Eyni zamanda, hesab edirəm ki, biz bu muzeyin ekspozisiyasını və ümumiyyətlə, muzeylə bağlı məlumatları xarici ölkələrə də çatdırmalıyıq. Biz Azərbaycan xalçasının sərgilərini mütəmadi qaydada dünyanın aparıcı ölkələrində nümayiş etdirməliyik. Bunu biz indi edirik. Bu, sistemli xarakter almalıdır. Bir sözlə, haqlı olaraq fəxr edirik ki, bizim nadir sənətimiz - xalçaçılıq sənəti bu gün var, yaşayır, yaşayacaqdır. Hesab edirəm ki, Azərbaycan xalqının istedadını dünyaya təqdim etmək üçün xalça xüsusi yerə malikdir.

Bütövlükdə Azərbaycanın tarixi abidələrinin, tarixi irsimizin qorunması ilə bağlı müntəzəm olaraq işlər aparılır. Bu işlər öz nəticəsini verməkdədir. Milli dəyərlər - bizim mədəniyyətimiz, incəsənətimiz müstəqilliyimizin əsasıdır. Humanitar sahəyə Azərbaycanda çox böyük diqqət göstərilir. Təsadüfi deyil ki, Beynəlxalq Humanitar forumların Azərbaycanda keçirilməsi artıq ənənəyə çevrilmişdir. Dünyanın ən məşhur adamları, Nobel mükafatı laureatları, alimlər, ictimai xadimlər bu forumlarda mütəmadi qaydada iştirak edirlər. Azərbaycanda dinlərarası dialoq forumları keçirilir. Bakıda ən məşhur sərgilər keçirilir. Bu gün Heydər Əliyev Mərkəzi dünya miqyasında bir sərgilər mərkəzinə çevrilmişdir. Musiqi festivalları, müsabiqələr, beynəlxalq muğam müsabiqələri - bütün bunlar Azərbaycanın mədəni həyatını zənginləşdirir və Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir.

Bu gün biz Azərbaycanı həm inkişafda olan, eyni zamanda, böyük dəyərlərə malik olan və bu dəyərləri qoruya bilən ölkə kimi təqdim edirik. Azərbaycana gələn xarici qonaqlar əlbəttə ki, Bakının gözəlliyini qeyd edirlər. Ölkəmizin inkişafını görürlər, eyni zamanda, bizim dəyərlərimizlə tanış olurlar. Memarlıq dəyərlərimiz, musiqi sənətimiz, rəssamlıq məktəbimiz və əlbəttə ki, xalçaçılıq sənəti bizim qürur mənbəyimizdir.

Mən çox şadam ki, Azərbaycanda bu sahədə işlər ardıcıllıqla aparılır. Son illərdə Bakının bütün muzeyləri əsaslı təmir edilmişdir. Artıq bəzilərində indi təmir işləri gedir. Bakıda bir dənə də təmirsiz muzey qalmamışdır. Bölgələrdə, Bakıda yeni muzeylər yaradılır - Müasir İncəsənət Muzeyi, digər muzeylər, Xalça Muzeyi. Bu, əlbəttə ki, ölkəmizin ümumi inkişaf templərini göstərir, eyni zamanda, dövlət siyasətini əks etdirir.

Qeyd etdiyim kimi, xalçaçılıq sənətinin qorunması ilə bağlı qanunvericilikdə ciddi addımlar atılmışdır. Biz praktiki həyatda belə gözəl əsərləri yaratmaqla ölkəmizi zənginləşdiririk. Bütün dünyaya nümayiş etdiririk ki, Azərbaycan müstəqil ölkə kimi uğurla yaşayır. Müstəqilliyin bütün üstünlükləri Azərbaycan xalqı üçün artıq bəllidir. Müstəqillik

bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Biz var gücümüzlə müstəqilliyimizi qoruyuruq və qoruyacağıq. Biz məhz müstəqillik dövründə belə gözəl əsərləri yarada bilmişik. Qısa müddətdə - cəmi 23 illik müstəqillik dövründə Azərbaycan çox böyük və şərəfli yol keçmişdir. Əgər biz müstəqilliyi 1991-ci ildə yox, 1971-ci ildə, yaxud 1950-ci illərdə qazansaydıq, bu gün Azərbaycan dünyada ən inkişaf etmiş ölkəyə çevrilərdi. Ancaq biz bu yolla gedirik. Ölkəmizi gücləndiririk, inkişaf etdiririk. Hər bir sahə üzrə konkret proqramlar var. Siyasi, iqtisadi islahatlar aparılır. Regional inkişaf proqramları icra edilir. Əlbəttə ki, mədəni həyatımızla, tarixi irsimizlə, mədəniyyətimizlə bağlı bütün işlər ardıcıl şəkildə aparılır. Bugünkü tədbir bunun bariz nümunəsidir.

Bu gözəl hadisə münasibətilə sizi və bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqına yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

Ad günü münasibətilə Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu.

* * *

Daha sonra Xalça Muzeyi ilə tanışlıq oldu.

Muzeyin ekspozisiyası xalça sənətində əsas bədii istiqamətləri dəqiq əks etdirməklə onların özünəməxsus xüsusiyyətlərini, həmçinin materiallarını, işləmə texnikalarını, incə və çox dərin bədii xüsusiyyətləri ilə ahəngdarlığını aydın şəkildə göstərir.

Muzeyin "qızıl fondu"nu xovlu xalçalar təşkil edir. Onlar bütün kompozisiyaları ilə Azərbaycanın 7 əsas məktəbini - Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbriz xalça məktəblərini təmsil edir. Bu xalçalar insanların, heyvanların, quşların üslublaşdırılmış təsviri, bitkilərin ornamentləri, xalqın həyatını təsvir edən süjetli motivlərlə bəzənib.

Muzeyin kolleksiyası müxtəlif növ xovsuz xalçaların nadir nümunələrini də əks etdirir. Burada çoxobrazlı kompozisiya silsiləsi, motivlərin orijinallığı və gözəl koloritliliyi ilə fərqlənən palazlar, cecimlər, kilimlər, sumaxlar, həmçinin xalça məmulatları – məfrəşlər, çullar, xurcunlar, corablar və rəngarəngliyinə və toxuma texnikasına görə seçilən bir çox eksponatlar təqdim olunur.

Muzeyin kolleksiyasında və ekspozisiyasında digər nadir eksponatlar – bədii naxış tikmələri, parçalar və milli geyimlər, həmçinin metal, keramika, şüşə məmulatlardan və çini qablardan ibarət əl işləri nümayiş və mühafizə olunur. Bu eksponatlar bürünc dövründən başlayaraq bizim günlərədək olan müddəti əhatə edir.

Muzeydə quraşdırılmış xüsusi monitor Azərbaycan xalçalarının dünya kolleksiyalarında, Avropa rəssamlarının əsərlərində əks olunduğunu göstərir. Burada, həmçinin Böyük Britaniyanın Viktoriya və Albert Muzeyində saxlanılan məşhur "Şeyx Səfi" xalçasının surəti də var. Ekspozisiyada sərgilənən və saxlanclarda yerləşən xalçalar arasında XVII, XVIII, XIX və XX əsrlərdə toxunmuş məşhur kompozisiyalara da rast gəlmək mümkündür. Burada, həmçinin zamanın diktə etdiyi ənənəvi xalq üslublu süjetlərin müəllifləri olan rəssamların müasir işləri əks olunur.

Muzeyin sərgi konsepsiyası adi sərgilərdən fərqlənir. Əsas eksponatlar - xalçalar qövsşəkilli divarlardan asılır. Bunların da əksi bütün yuxarı mərtəbələrin əksər yerlərindən görünür. Bunun sayəsində sərginin böyük hissəsini müxtəlif rakurslardan görmək olur. Muzeyin terrasında - açıq səma altında sərgilərin təşkili mümkün olacaq.

Sonda xatirə şəkli çəkdirildi.

***26 avqust 2014-cü il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYLƏQANDA GƏNCLƏR MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Bildirildi ki, Mərkəzin binasında inşaat işləri yüksək keyfiyyətlə həyata keçirilib.

Binanın foyesində ümummilli lider Heydər Əliyevin Beyləqana səfərlərini əks etdirən fotolardan ibarət guşə yaradılıb. Burada, həmçinin Prezident İlham Əliyevin rayona səfərlərini və gənclərlə görüşlərini əks etdirən fotolardan ibarət stend var.

Mərkəzdə gənclər kafesi, tir atıcılıq mərkəzi, karaoke, 3D kino zalları fəaliyyət göstərəcək. Binadakı 120 yerlik iclas və 14 yerlik akt zallarında gənclərin müxtəlif toplantı və görüşlərinin keçirilməsi üçün bütün şərait var. Bu zallarda rayonda qeyd edilən əlamətdar günlərlə bağlı tədbirlər keçirmək də mümkün olacaq. Burada yaradılan elektron kitabxana, oxu zalı, linqafon otağı, internet kafe, bədii gimnastika və rəqs zalları da gənclərin ixtiyarına veriləcək.

Bu cür mərkəzləri yaratmaqda və ümumilikdə, belə tədbirləri reallaşdırmaqda əsas məqsəd yetişməkdə olan nəslin cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul verməkdir. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramlar davamlı xarakter alıb. Bölgələrdə müasir tələblərə cavab verən sosial infrastruktur obyektlərinin və Gənclər mərkəzlərinin istifadəyə verilməsi də məhz həmin məqsədlərə xidmət edir.

Mərkəzlə tanışlıqdan sonra Prezident İlham Əliyev rayon gənclərinin və ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Müəllimə Aytən Mirzəyeva, məktəb direktoru Əziz Əkbərov gənclərimizə göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

Sonda xatirə şəkli çəkdirildi.

*28 avqust 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV FÜZULİ RAYON TARİX-DİYARŞÜNASLIQ MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən bu muzeydə ibtidai dövr, tunc dövrü, orta əsrlər, yeni və ən yeni dövrlərə aid bölmələr var. Xüsusi memarlıq üslubunda tikilən bina bütün lazımi kommunikasiya xətləri və müvafiq avadanlıqla təchiz olunub.

Bildirildi ki, bu muzey 1981-ci ildə yaradılıb. 1993-cü ildə Qarabağ müharibəsinin gedişində muzeyin 7 mindən çox eksponatı rayondan çıxarılaraq Bakıdakı "İstiqlal" muzeyində saxlanılıb. Mədəniyyət və Turizm Nazirliyi toplanmış çoxsaylı eksponatların tarixi əhəmiyyətini nəzərə alaraq 2006-cı ildə rayonun Bala Bəhmənli kəndində Füzuli Tarix-Diyarşünaslıq muzeyinin filialını açıb. Hazırda filialın fondunda xalqımızın qədim tarixinin və dövlətçilik ənənələrinin müxtəlif dövrlərinə işıq salan 1000-ə yaxın eksponat var. Muzeydə Azıx mağarasının maketi və ibtidai dövrdə istifadə olunan məişət və əmək alətləri nümayiş etdirilir. Bu eksponatların hamısı vaxtilə Füzuli rayonu ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkar olunub. Tunc və dəmir dövrləri bölmələrində

sərgilənən eksponatların böyük hissəsi isə qədim qəbirlərdən tapılıb. Ulu əcdadlarımızın döyüşlərdə istifadə etdikləri silah nümunələri, məişət avadanlıqlarının qalıqları orta əsrlər dövrünə aid bölmədə yerləşdirilib. Muzeyin əhəmiyyətini artıran mühüm amillərdən biri də burada Füzuli rayonunun etnoqrafik xüsusiyyətlərinin geniş əks olunmasıdır. Belə ki, muzeydə tarixin müxtəlif dövrlərində Füzuli sakinlərinin həyat tərzini və məişətini əks etdirən eksponatlar da sərgilənir. Dəmirçi, dulusçu və xalçaçı emalatxanalarının, evlərin kiçik maketləri əhalinin qədim dövrlərdəki yaşayış tərzini və məşğuliyyətini əks etdirir. Rayonun görkəmli şəxsiyyətləri, o cümlədən Qarabağ müharibəsi zamanı xüsusi fədakarlıq və igidlik göstərmiş füzulililər haqqında məlumatların toplandığı muzeydə "Qələbə qığılcımı" başlığı altında xüsusi bölmə də yaradılıb. Burada Füzuli rayonundan olan Milli qəhrəmanların həyatı, onların döyüş yolu, ulu öndər Heydər Əliyevin tarixi xidmətləri sayəsində rayonun işğaldan azad olunan 22 kəndi, o cümlədən Horadiz şəhəri və ötən dövrdə bu ərazilərdə aparılan bərpa, yenidənqurma işləri barədə məlumatlar verilir.

Prezident İlham Əliyev Füzuli rayonundan olan Musa Yaqubovun hazırladığı 16 musiqi aləti ilə tanış oldu.

*28 avqust 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HORADİZ ŞƏHƏRİNDƏ BAYRAQ MEYDANINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Horadiz şəhərində Bayraq Meydanında yaradılan şəraitlə tanış olub.

Dövlətimizin başçısına məlumat verildi ki, 10 hektar ərazidə salınan Bayraq Meydanından bütün Horadiz şəhəri görünür. Burada geniş yaşıllaşdırma və abadlıq işləri görülüb. Meydana qalxmaq üçün sağ və sol tərəflərdə hər biri 287 pillədən ibarət olan sütunlu pilləkən tikilib. Əraziyə avtomobil yolu çəkilib və dayanacaq inşa olunub. Bayraq dirəyinin yerdən hündürlüyü 68 metrdir və demək olar ki, bütün ətraf ərazilərdən aydın görünür. Meydanın əhəmiyyətini artıran mühüm amillərdən biri də burada 3 istirahət guşəsinin yaradılmasıdır. Beləliklə, Horadizdəki Bayraq Meydanı və burada ucaldılan dövlət bayrağı da öz möhtəşəmliyi ilə diqqəti cəlb edir.

*28 avqust 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV BEYLƏQANDA YENİ İSTİFADƏYƏ VERİLMİŞ GƏNCLƏR MƏRKƏZİNDƏ RAYON GƏNCLƏRİNİN VƏ İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Beyləqanda Gənclər Mərkəzinin açılışında iştirak edib.

Dövlətimizin başçısı mərkəzlə tanışlıqdan sonra rayon gənclərinin və ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Prezident İlham Əliyev görüşdə çıxış edib.

# PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Bu gün Beyləqan rayonunda Gənclər Mərkəzi açılır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Çox gözəl mərkəzdir və qısa müddətdə - il yarım ərzində tikilmişdir. Gənclərin burada asudə vaxtlarını səmərəli şəkildə keçirmələri üçün bütün şərait, bütün imkanlar var.

Son vaxtlar ölkəmizin müxtəlif bölgələrində Gənclər mərkəzləri tikilir. Bu, məni çox sevindirir. Çünki bizim gənclər siyasətimiz çox dəqiqdir, çox səmərəlidir və gözəl nəticələr verir. Qarşıya vəzifə qoyulub ki, hər bir şəhərdə müasir Gənclər Mərkəzi tikilsin. Burada gənclər həm istirahət etsinlər, həm öz biliklərini artırsınlar və bir-biri ilə ünsiyyətdə olsunlar.

Bildiyiniz kimi, əvvəlki dövrdə biz Olimpiya mərkəzlərinin tikintisi ilə ciddi məşğul idik. Bu proses bu gün də davam edir və fürsətdən istifadə edərək demək istəyirəm ki, Beyləqan rayonunda da müasir Olimpiya-İdman Mərkəzinin tikintisi nəzərdə tutulur. Bax, burada bu dəqiqə Gənclər və İdman Nazirliyinə göstəriş verirəm ki, layihəni hazırlasınlar və tezliklə tikintiyə başlasınlar. Yer də seçilibdir və hesab edirəm ki, biz tezliklə gözəl idman mərkəzini də yaradacağıq.

Gənclər mərkəzlərinin yaradılması da gənclər siyasətinin tərkib hissəsidir. Bizim gənclərimiz həm fiziki cəhətdən sağlam, eyni zamanda, bilikli, savadlı olmalıdırlar. Deyə bilərəm ki, Olimpiya mərkəzlərinin yaradılması nəticəsində bu gün Azərbaycanda nəinki peşəkar idman sürətlə inkişaf edir, eyni zamanda, gənclər, yeniyetmələr idmana böyük maraq göstərirlər və gözəl nəticələr əldə edirlər. Azərbaycan bu gün dünya miqyasında idman dövləti kimi tanınır. Son Olimpiya Oyunlarında böyük qələbə - 10 medal qazanmışıq və komanda hesabında 30-cu yerə layiq görülmüşük. Əlbəttə ki, gənc idmançılarımızın hazırlanması işində bölgələrdə fəaliyyət göstərən Olimpiya mərkəzləri xüsusi yer tutur.

Onu da qeyd etməliyəm ki, dünən Çində yeniyetmələrin Olimpiya Oyunları başa çatdı və bizim gənc idmançılarımız çox böyük qələbələr əldə etmişlər. Bu münasibətlə onları, məşqçilərini, bütün idman ictimaiyyətimizi təbrik edirəm. Azərbaycan komanda hesabında 10-cu yerdədir. Bu Olimpiya Oyunlarında 200-dən çox ölkə təmsil olunurdu. Azərbaycan 10-cu yerdədir. Avropa ölkələri arasında 6-cı, müsəlman ölkələri arasında isə 1-ci yerdədir. On iki medal qazanmışıq, onlardan 5-i qızıl medaldır. Bu, bir daha onu göstərir ki, gənclərimiz nə qədər istedadlıdır, güclüdür və Vətənə bağlıdır.

Bu yaxınlarda Ümumdünya Şahmat Olimpiadası da keçirilmişdir. Orada da Azərbaycan idmançıları ən yüksək yerlərə qalxmışlar və deyə bilərəm ki, həm Ümumdünya Şahmat Olimpiadasında, həm yeniyetmələrin Olimpiya Oyunlarında Azərbaycan Ermənistandan qat-qat yüksək pilləyə qalxmışdır. Bu, onu göstərir ki, biz həm fiziki, eyni zamanda, intellektual cəhətdən daha güclüyük, üstünük və bu üstünlük hər yerdə özünü büruzə verir. Ermənistan ilə Azərbaycan iqtisadiyyatları müqayisəedilməzdir. Bizim iqtisadiyyatımız Ermənistan iqtisadiyyatından təxminən 20 dəfə böyükdür. İdmanda, həm Olimpiya Oyunlarında, həm yeniyetmələrin Olimpiya Oyunlarında, intellektual oyunlarda - hər yerdə biz üstünlüyü əldə etmişik. O cümlədən döyüş meydanında Azərbaycan üstünlüyü əldə edibdir və təmas xəttində Azərbaycan öz iradəsini diktə edir.

Azərbaycan ictimaiyyəti bilir ki, bu ayın əvvəlində Ermənistan təmas xəttində təxribat törətmək istəmişdi. Ancaq Azərbaycan Ordusu düşmənə layiqli cavab vermişdir. Onlarla işğalçı məhv edilmişdir və onların təxribatı baş tutmamışdır. Bu təxribatın səbəbləri də aydındır. Çünki bildiyiniz kimi, Soçi görüşü ərəfəsində Ermənistan rəhbərliyi çalışırdı ki, özü üçün daha da münasib mövqe əldə etsin və Azərbaycanı qane etməyən hansısa

məsələyə razı sala bilsin. Ancaq bu, baş tutmadı və əksinə, Azərbaycan mövqeyi Soçidə daha da güclü səsləndi, qəhrəman Azərbaycan əsgərləri və zabitlərinin cəsarəti nəticəsində düşmənə sarsıdıcı zərbə vurulmuşdur və hələ ki, onlar o zərbədən özlərinə gələ bilmirlər.

Ermənistanda təlaş, təşviş hökm sürür və ən yüksək səviyyədə etiraf olunur ki, ölkədən kütləvi şəkildə köç başlamışdır. Daha doğrusu, bu proses çoxdan gedir. Sadəcə olaraq təmas xəttindəki son hadisələr bunu daha da sürətləndirmişdir. On minlərlə erməni vətəndaşı ölkəni həmişəlik tərk edir və son hadisələr bu prosesə yeni təkan vermişdir. Düzdür, Ermənistan rəhbərliyi bunu izah etmək üçün müxtəlif üsullara əl atır. Bu yaxınlarda hətta etiraf edilmişdir ki, bunun əsas səbəbi diasporun güclü olmasıdır, eyni zamanda, Qarabağ münaqişəsidir. Yəni, artıq Ermənistan rəhbərliyi etiraf edir ki, demoqrafik böhranın əsas səbəbi qorxudur. Ermənistan cəmiyyəti qorxu içindədir. Əlbəttə, güclənən Azərbaycan və qüdrətli Azərbaycan Ordusu, qəhrəman Azərbaycan əsgəri onlar üçün daim qorxu mənbəyidir və bu qorxunu aradan qaldırmaq üçün sadəcə olaraq Ermənistan beynəlxalq hüquq normalarına əməl etməlidir və işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi də bunu tələb edir. Əminəm ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Beynəlxalq hüquq normaları bizim mövqeyimizi dəstəkləyir. Azərbaycan dünya miqyasında nüfuz sahibidir və bizimlə hesablaşırlar, məsləhətləşirlər. Bu gün bizim beynəlxalq nüfuzumuz yüksək səviyyədədir.

Biz Ermənistanı iqtisadi cəhətdən dəfələrlə üstələyirik. Hərbi potensial baxımından Azərbaycan Ordusu nəinki Ermənistanla müqayisədə, dünya miqyasında güclü ordular sırasındadır. Gündən-günə gücümüz artır. Bilirsiniz ki, böyük vəsait ayrılır və ayrılacaqdır. Hərbi xərclər bizim dövlət büdcəmizin əsas xərcləridir və bu, gələcək illərdə də belə olacaq. Biz xərcləri artıracağıq. Ordumuzun peşəkarlığı artır, vətənpərvərlik ruhu yüksək səviyyədədir və Azərbaycan cəmiyyəti bir amal uğrunda birləşibdir. Bu, Azərbaycanın inkişafı, müasir dövlət quruculuğu prosesi və işğal edilmiş ərazilərimizin qaytarılması məsələləridir. Bu işdə əlbəttə ki, gənclərin xüsusi rolu vardır.

Mən şadam ki, bizim gənclərimiz vətənpərvərdirlər və milli ruhda böyüyürlər, tərbiyə alırlar. Bu, çox önəmlidir, gənclərlə çoxsaylı görüşlərim əsnasında mən bu məsələlərə xüsusi diqqət yetirirəm. Bizim gənclərimiz bilikli, savadlı olmalıdırlar. Çünki müasir dünyada bilik, savad demək olar ki, hər şeyi həll edir.

İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, o uğurların təməlində intellektual potensial, texnoloji tərəqqi, elmin inkişafı və təhsilin səviyyəsi dayanır. Gələcəkdə bu amillər daha da böyük rol oynayacaq. Çünki bu gün istər iqtisadi sahədə, sənaye istehsalının inkişafında, hər bir sahədə müasir texnologiyalar hər şeyi həll edir. Ona görə bizim gənclərimiz yaxşı oxumalıdır, bilik sahibi olmalıdır, gənclər peşəkar olmalıdırlar. Çünki bu gün Azərbaycanda bütün imkanlar var. İqtisadiyyat inkişaf edir, yeni iş yerləri, yeni sənaye müəssisələri, xidmət sahələri açılır ki, peşəkar kadrlara böyük ehtiyac var. Mən çox istəyirəm ki, bizim əsas, aparıcı sahələrimizin inkişafında Azərbaycan gəncləri öz rolunu oynasınlar. Belə göstərişlər verilmişdir. Ona görə bilik, savad, əlbəttə ki, hər bir gənc üçün, ölkə üçün, gələcəyimiz və hər bir insan üçün prioritet olmalıdır. Çünki əgər biliyin, savadın varsa, sən gələcəkdə özün üçün layiqli yer tapa bilərsən, yaxşı işlə təmin olunarsan, yaxşı maaş alarsan və beləliklə, həm özün, həm ölkə üçün daha da böyük fayda verə bilərsən.

Gənclər əlbəttə ki, fiziki cəhətdən sağlam olmalıdır. Əlbəttə ki, burada həm idmanın inkişafının, həm olimpiya komplekslərinin tikintisinin mühüm rolu var, eyni zamanda, hər bir insan gənc yaşlarından öz sağlamlığına fikir verməlidir. İndi ölkəmizin bütün yerlərində müasir diaqnostika mərkəzləri, xəstəxanalar fəaliyyət göstərir. Hər bir insan gərək ildə bir dəfə müayinədən keçsin. Yəqin sizin də xəbəriniz var ki, son vaxtlar Azərbaycan-

da kütləvi şəkildə dispanserizasiya aparılmışdır. Yüz minlərlə insan pulsuz müayinədən keçmişdir. Bu müayinələr nəticəsində əlbəttə ki, xəstəliklər də aşkarlanmışdır və onların müalicəsi təmin edilmişdir. Yəni, fiziki sağlamlıq, bilik, savad, əlbəttə ki, mənəvi sağlamlıq vacibdir.

Bizim gözəl ənənələrimiz, milli dəyərlərimiz var. Biz onları qoruyuruq və siz gənclər onları yaşatmalısınız. Bu, böyük bir mirasdır, böyük mədəni irsdir, bizim zənginliyimizdir. Bizim musiqimiz, xalçaçılıq sənətimiz, incəsənətimiz, ədəbiyyat, ana dili - bütün bunlar bizim ən böyük sərvətlərimizdir. Biz bu sərvətləri bütün dövrlərdə - çar Rusiyası, Sovet İttifaqı dövrlərində qorumuşuq. Ona görə bir xalq kimi biz bu gün inkişaf edirik. Özümüzü dünyaya təqdim etmişik. Əlbəttə ki, biz müstəqillik dövründə bu dəyərləri daha da qorumalıyıq. Dövlət siyasəti var və mən Prezident kimi bu məsələlərə xüsusi diqqət göstərirəm. Bütün dövlət qurumları, eyni zamanda, ictimai təşkilatlar bu işlərlə məşğul olurlar. Ancaq burada ardıcıllıq təmin edilməlidir. Bu ardıcıllığı siz gənclər təmin edəcəksiniz. Ona görə gənclər milli ruhda tərbiyə almalıdırlar. Bunu biz məktəblərdə də, ailələrdə də təşkil etməliyik. Bizim milli ənənələrimiz var. Biz onları qiymətləndiririk. Onlar bizim həyatımızın əsasıdır.

Azərbaycanın dəyərləri bizim üçün əsas dəyərlərdir. Əlbəttə ki, biz ümumbəşəri dəyərləri bölüşürük. Azərbaycan dəyərləri ümumbəşəri dəyərlərin tərkib hissəsidir. Ancaq bizim xalqımızın özünə xas olan dəyərləri var. Biz onları qoruyuruq, qorumalıyıq. Əlbəttə ki, gənclər Vətənə bağlı olmalıdırlar. Bu gün Azərbaycan o qədər sürətlə inkişaf edir ki, Vətəni sevən hər bir insan qürur hissi ilə deyir: Mən Azərbaycan vətəndaşıyam! Ümumiyyətlə, hər bir insan öz Vətənini sevməlidir. Ancaq daha inkişaf etmiş ölkələrdə təbii ki, bu, özünü daha da yüksək səviyyədə büruzə verir. Hesab edirəm ki, vətənpərvərlik, bilik, savad, fiziki hazırlıq, öz keçmişinə bağlılıq, milli ruhda tərbiyə bizim üçün əsas amillər olmalıdır.

Əlbəttə, dövlət siyasətimiz bu istiqamətdə aparılır. Biz islahatları dərinləşdiririk. Azərbaycanda azad cəmiyyət formalaşıbdır, bütün demokratik təsisatlar var və onlar uğurla fəaliyyət göstərir. Bütün azadlıqlar - söz azadlığı, vicdan azadlığı, mətbuat azadlığı, internet azadlığı var. Heç bir senzura yoxdur. Siz gənclər bunu yaxşı bilirsiniz. Facebook, Twitter, internet. İndi bir milyondan artıq Azərbaycan vətəndaşı facebookda fikirlərini paylaşır və yaxud hansısa məlumat əldə edir. Heç də hər bir ölkədə belə deyil, senzuralar, məhdudiyyətlər vardır. İndi bəzi digər tədbirlər görülür. Bizdə isə bu, sərbəstdir, azaddır. Çünki Azərbaycan cəmiyyəti azad cəmiyyətdir və bu, bizim böyük nailiyyətimizdir. Ona görə siyasi islahatların, eyni zamanda, iqtisadi islahatların dərinləşməsi nəticəsində son 10 ildə bir milyondan artıq yeni iş yeri açılmışdır. Bu proses davam edir və davam etməlidir. Çünki bizim əhalimiz artır.

Ermənistandan fərqli olaraq bizdə demoqrafik vəziyyət çox müsbətdir. Hər il orta hesabla 170-180 min körpə dünyaya gəlir. Beləliklə, iş yerlərinin açılması daimi proses olmalıdır. Çünki əhalinin artımı əlbəttə ki, bizim üçün böyük güc mənbəyidir. Əhali artır və artmalıdır. Eyni zamanda, bu, əlbəttə ki, hökuməti də düşündürür. Çünki iş yerlərinin, yeni müəssisələrin açılması gərək elə sürətlə getsin ki, işsizlik aşağı səviyyədə olsun. Hazırda işsizlik beş faiz səviyyəsindədir. Bəzi bölgələrdə işsizlik orta hesabla daha da yüksəkdir. Biz bunu bilirik, bu məsələlər üzərində işləyirik. Yəni, bütün sahələr üzrə islahatlar aparılır və aparılacaqdır. Ölkəmizin uğurlu inkişafı təmin ediləcəkdir. Ancaq bütün bu işlərin əsasında, təməlində bizim milli dəyərlərimiz dayanır.

Bu gün nəinki bizim üçün, bütün ölkələr üçün müəyyən təhlükələr var. Yəni, qloballaşma və digər proseslər gedir. İndi bəzi xarici dairələr qloballaşma adı altında öz iradələrini tətbiq etmək istəyirlər. Xüsusilə gənclər arasında iş aparılır, müxtəlif fondlar vasitə-

silə guya ki, hansısa layihələrin icrası üçün vəsait ayrılır. Əslində gəncləri öz dövlətinə qarşı çevirmək, istiqamətləndirmək üçün işlər aparılır. Biz bunları bilirik.

Bu gün Azərbaycanın uğurlu inkişafını heç də hər kəs qəbul etmir. Ölkə daxilində də milli satqınlar var ki, onlar xarici antiazərbaycan dairələrinə öz vicdanını satıblar. Xarici dairələr var ki, çalışırlar Azərbaycanda sabitlik pozulsun, inkişaf dayansın, Azərbaycan asılı vəziyyətə düşsün. Biz bunu bilirik. Mən Prezident kimi gündəlik fəaliyyətimdə bu qüvvələrə qarşı açıq mübarizə aparıram. Ona görə də Azərbaycana qarşı mediada qara-yaxma, böhtan kampaniyaları aparılır. Bunun səbəbi odur ki, biz müstəqilliyimizi qoruyuruq. Azərbaycan xalqının haqlı tələbini, müstəqil olmaq arzusunu qoruyuruq, qoruyacağıq. Siz də, gələcəkdə Azərbaycanı idarə edəcək insanlar da bax bu yolla getməlisiniz.

İndi heç kəs üçün sirr deyil ki, müxtəlif fondlar vasitəsilə, müxtəlif ölkələrdə kütləvi iğtişaşların, qarşıdurmanın yaradılması üçün praktiki addımlar atılır. Əgər 10 il bundan əvvəl bu, daha da məxfi formada aparılırdısa, hazırda artıq bütün maskalar yırtılıbdır, heç gizlətmirlər. Məqsəd də odur ki, təbii resurslarla zəngin, böyük potensiala, əlverişli coğrafi mövqeyə malik ölkələr təsir altına düşsün və başqasının diktəsi ilə hərəkət etsin, oturub-dursun. Bu isə o ölkələri məhvə aparır.

Biz yaxın tarixdən bunu bilirik. Bizim qonşuluğumuzda baş vermiş hadisələrin nələrə gətirib çıxardığı da gözümüzün qabağındadır. Bilin ki, Azərbaycan üçün də oxşar ssenarilər yazılmışdır. Sadəcə olaraq bizim iqtidarımızın dəmir iradəsi imkan vermədi ki, bu ssenarilər burada həyata keçirilsin və heç vaxt imkan verməyəcəyik.

Ona görə, siz gənclər bunu yaxşı bilməlisiniz və bizim gənclərimiz xarici dairələrin təsiri altına düşməməlidir. Xarici qüvvələr Azərbaycanın inkişafını bizdən artıqmı istəyirlər? Əlbəttə ki, yox. Onların maraqları başqadır və biz bilirik bunun səbəbi nədir. Onlar da bilirlər ki, bu, bizimlə keçməyəcək və sizinlə də keçməməlidir. Ona görə, siz də bu məsələləri daim diqqət mərkəzində saxlamalısınız.

Bizə xaricdən heç bir yardım, kömək lazım deyil. Lazım olanda onsuz da heç kim bizə kömək etməyib. Azərbaycan ağır vəziyyətdə olanda kim gəlib bizə kömək edib? Heç kim. Mənim yadımdadır, vaxt var idi ki, biz beynəlxalq qurumlardan kredit ala bilmirdik, vermirdilər kredit. Amma indi biz özümüz başqa ölkələrə kredit veririk. Yəni, bizim iqtisadi inkişafımız sırf Azərbaycan dövlətinin, hökumətinin uğurudur və aparılan siyasətin nəticəsidir. Ona görə bizə yardım etmək üçün heç kimə müraciət etməmişik və buna ehtiyac yoxdur. Amma yardım adı altında Azərbaycana hər il milyonlarla dollar pul ötürülür. O pul müxalifət qurumlarının cibinə gedir. Düzdür, bizim müxalifət pula o qədər meyllidir ki, o, ayrılan qrantların 70-80 faizini öz cibinə qoyur. Ona görə o pullar onu göndərənlərin iradəsi ilə xərclənmir. Ancaq fakt budur. Biz bunu bilirik, burada heç nəyi gizlətmək mümkün deyil. Bütün bank hesablarına nə qədər gəlir, kimə gəlir, o pul sonra hara gedir və bilin ki, verilən o vəsait ölkəmizin maraqlarının əleyhinə işləyən vəsaitdir. Onsuz da lap o miqdarı on dəfə artırsalar da bunun xeyri olmayacaq. Çünki Azərbaycanda sabitliyin, inkişafın təminatçısı Azərbaycan xalqıdır, görülən işlərdir, abadlaşan şəhərlər və inkişafda olan ölkəmizdir. Ona görə hesab edirəm ki, Azərbaycanda sabitliyi pozmaq cəhdləri yersizdir. Bunu artıq o cəhdləri edənlər də tamamilə başa düşürlər.

Ancaq biz bunu bilməliyik və siz də bunu bilməlisiniz. Ona görə biz ancaq gələcəkdə də öz gücümüzə güvənəcəyik. Azərbaycan xalqının iradəsi Prezident kimi mənim üçün əsasdır. Siz gənclər peşəkar, bilikli, həm fiziki, həm mənəvi cəhətdən sağlam olmalısınız və elə etməlisiniz ki, Azərbaycan daim inkişaf etsin və müstəqil ölkə kimi daim öz sözünü desin, formal olaraq yox, real. Çünki dünyada iki yüzdən çox müstəqil ölkə var. Bu ölkələrin hamısı müstəqil deyil. Elə götürək Ermənistanı. O ölkəyə müstəqil ölkə demək mümkün deyil. O bir koloniyadır, müstəmləkədir və qul psixologiyası ilə yaşayan Ermənistan iqtidarı ölkəni artıq

tamamilə asılı vəziyyətə salıbdır. İnanmıram ki, erməni xalqının arzuladığı müstəqillik bu gün onları təmin edir. Hər bir xalq, insanlar kimi ölkələr də istəyir ki, müstəqil olsun, öz sözünü desin, heç kimdən asılı olmasın. İnsan üçün azadlıq ən böyük dəyərlərdən biridir. Hər kəs dünyaya azad gəlir və azad olmaq istəyir, təbii ki, qanun çərçivəsində. Ona görə real müstəqilliyi əbədi, dönməz etmək üçün sizdən çox şey asılıdır.

Mən deyə bilərəm ki, Azərbaycan gəncləri öz vətəninə bağlıdırlar, onlar ölkəmizin inkişafına böyük töhfə verirlər. Mən sadəcə olaraq istəyirəm ki, bu məsələ ilə bağlı öz sözümü deyim, sizə öz məsləhətlərimi verim və siz də bunu rəhbər tutaraq gələcəkdə öz fəaliyyətinizi uğurla davam etdirəsiniz. Bir daha sizi salamlayıram və bu gözəl mərkəzin açılışı münasibətilə təbrik edirəm.

* * *

**Prezident İlham ƏLİYEV dedi:**

- Sağ olun. Mən artıq üçüncü dəfədir ki, Beyləqan rayonunda səfərdəyəm. Əvvəlki səfərlərdə də açılışlar olubdur. Bu dəfə də şahmat məktəbi, Gənclər Mərkəzi, stadion açıldı. İndi artıq Olimpiya İdman Mərkəzinin tikilməsi ilə bağlı qərar verilmişdir. Əvvəlki dövrdə biz əsaslı təmirdən sonra xəstəxananın və digər obyektlərin açılışını qeyd etmişik. Əlbəttə ki, burada sosial infrastrukturun yaradılması vacib məsələdir. Məktəblər, uşaq bağçaları, idman, səhiyyə ocaqları tikilir. Əlbəttə, Beyləqan rayonunun iqtisadi potensialı da çox böyükdür. Siz də qeyd etdiyiniz kimi, bizim birinci pilot taxılçılıq layihəmiz məhz Beyləqan rayonunda həyata keçirilir. Bu, çox uğurlu bir təcrübədir. Artıq bu layihəni biz başqa rayonlarda da həyata keçiririk, orada da tətbiq olunacaqdır. Amma birinci pilot layihəsi məhz Beyləqanda bir neçə min hektar torpaq sahəsində icra edilmişdir. Biz əyani şəkildə görürük ki, bu layihələrin icrası nəticəsində taxılda məhsuldarlıq orta hesabla təqribən iki dəfə artmışdır - yəni, 50 sentner, bəlkə də daha da çox. Ölkə üzrə bu rəqəm təqribən 25-27 sentnerdir. Ona görə iş yerlərinin və bu iri fermer təsərrüfatlarının yaradılması prosesi gələcəkdə də gedəcək.

Əlbəttə ki, Beyləqanın iqtisadiyyatı daha çox kənd təsərrüfatına bağlıdır. Burada böyük imkanlar vardır. Eyni zamanda, həyata keçirilən içməli su və kanalizasiya layihəsi də böyük sosial layihədir. Çünki insanlar təmiz, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin olunacaqlar. Kənd yolları tikilir. Birinci layihə artıq icra edilib. İndi ikinci böyük layihə icra edilir. Bu layihələrin icrası nəticəsində minlərlə, on minlərlə vətəndaşımız yeni kənd yolları ilə təmin ediləcək. Bu yollar onlarla kəndi birləşdirir. Bu proses, əlbəttə ki, davam etdiriləcəkdir.

Qazlaşdırma prosesi gedir. Beyləqan rayonunda qazlaşdırma 100 faiz olmalıdır. Biz buna əlbəttə ki, nail olmalıyıq. Hesab edirəm ki, 2016-cı ilin sonuna qədər Beyləqan rayonunun qazsız bir kəndi də olmamalıdır. Hazırda ümumi qazlaşdırma təqribən 40 faiz səviyyəsindədir. Biz bunu 100 faizə çatdıracağıq. Hər bir evdə qaz olacaq.

Şəhərdə və ətraf kəndlərdə içməli su, kanalizasiya layihəsi icra edilir. Sosial infrastrukturun yaradılması prosesi davam etdiriləcək. Hələ ki, təmirsiz məktəblər, uşaq bağçaları, digər sosial obyektlər var. Yollar çəkilir. Bu gün səhər mən iki yol layihəsini açdım. Biri Şirvan şəhərində körpünün açılışı, digəri isə Saatlıda. Artıq Bəhrəmtəpəyə qədər yol çəkilibdir. Bunun Beyləqana, Horadizə qədər davamı olacaq. Orada məsafə o qədər də böyük deyil. Biz yolları dünya səviyyəsində tikirik, təmir edirik. Bu gün biz artıq həm məktəblərin, həm xəstəxanaların tikintisində Azərbaycan standartlarından da danışa bilərik. Çünki bizdə tətbiq olunan standartlar, keyfiyyət, avadanlıq artıq dünyanın ən yüksək səviyyəsindədir. Biz öz standartlarımızı tətbiq edirik. Azərbaycan xalqı yaxşı yaşamağa layiqdir və yaxşı yaşamalıdır. İqtisadi, sosial cəhətdən təmin olunmalıdır. Çətin vəziyyətdə olanlar üçün sosial proqramlar icra edilir. Kasıb

ailələr dövlətdən müavinət alırlar. Biz iş yerləri yaradırıq ki, insanlar işlə təmin olunsunlar. Yoxsulluq azalsın, yoxsul olmasın, imkanlar olsun və imkanlar var. İnvestisiyalar qoyulacaq. İnfrastruktura qoyulan investisiyalar artıq Beyləqan rayonunda da canlanmaya gətirib çıxarmışdır. Pilot fermer təsərrüfatlarının yaradılması artıq həyata keçirilib. Bu, davamlı proses olacaq. Siz də, burada yaşayanlar da baxın ki, biz əlavə nə etməliyik. Çünki regionların sosial-iqtisadi inkişafı üzrə üçüncü Dövlət Proqramı artıq icra edilir və 2018-ci ildə başa çatacaq. Bu Proqramda əsas məsələlər nəzərdə tutulub ki, həll olunsun. Biz ondan sonrakı dövrə də hazırlaşmalıyıq ki, bu, ölkə üzrə hər bir rayonda və hər bir kənddə daimi inkişaf prosesi olsun. Əminəm ki, biz buna nail olacağıq.

Sizi bir daha təbrik edirəm, salamlayıram, sizə yeni uğurlar arzulayıram. Sağ olun.

*28 avqust 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QƏBƏLƏ ARXEOLOJİ MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Qəbələ Arxeoloji Mərkəzinin açılışında iştirak edib.

Uzun illərdir Azərbaycanın qədim bölgələrində aparılan və bu gün də davam etdirilən arxeoloji qazıntılar sirli tariximizin maraqlı səhifələrini açaraq dünyaya nümayiş etdirir. Arxeoloji qazıntıların aparıldığı bölgələrimizdən biri də təqribən 800 il Qafqaz Albaniyasının paytaxtı olan Qəbələdir. Bu bölgədə arxeoloji tədqiqatlar 1926-cı ildən başlayaraq müəyyən fasilələrlə, 1959-cu ildən isə ardıcıl şəkildə aparılır. Qəbələnin zəngin tarixinin üzə çıxarılmasında son illərdə SEBA - Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının gördüyü işlər mühüm yer tutur. Son illərdə azərbaycanlı alimlərin koreyalı mütəxəssislərlə birgə apardıqları arxeoloji tədqiqatlar və qazıntılar nəticəsində Qəbələ tarixinin açılmamış yeni səhifələri ortaya çıxıb. Bu məlumatlarla SEBA-nın dəstəyi ilə tikilən Qəbələ Arxeoloji Mərkəzində tanış olmaq mümkündür.

Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü və Qəbələ arxeoloji ekspedisiyasının rəhbəri İlyas Babayev Prezident İlham Əliyevə mərkəzdə görülən işlərlə bağlı ətraflı məlumat verdi.

Bildirildi ki, Qəbələ Arxeoloji Mərkəzinin üçmərtəbəli binası sərgi salonu, arxeoloji fond, bərpa laboratoriyası, konfrans zalı və arxeoloqların çalışdığı otaqlardan ibarətdir. Burada, həmçinin Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun ofisi də fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev mərkəzin sərgi salonu ilə tanış oldu.

Burada toplanan zəngin eksponatlar bir daha sübut edir ki, Qəbələnin tarixi keçmişi də təbiəti qədər zəngindir və Azərbaycan tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. Bu yurdun adı çəkiləndə ilk öncə qədim Qafqaz Albaniyasının uzun bir dövr ərzində paytaxtı olmuş Qəbələ şəhəri və onun bu günə gəlib çatmış möhtəşəm qala divarları xatırlanır. Rayon mərkəzindən 20 kilometr cənub-qərbdə, indiki Çuxur Qəbələ kəndinin şimal-şərq hissəsində Corlu və Qara çaylarının suayrıcında yerləşən qədim Qəbələ şəhəri öz möhtəşəmliyi, mühüm siyasi, iqtisadi və ticarət mərkəzi kimi dünyanın Babil, Troya, Pompey, Karfagen və digər mühüm şəhərləri ilə müqayisə olunur. Burada aparılan çoxillik arxeoloji tədqiqatlar nəticəsində antik dövrə aid böyük binaların, qala divarlarının qalıqları, istehsal və sənətkarlıqla bağlı maddi-mədəniyyət abidələri aşkara çıxarılıb.

2400 illik tarixi olan, qədim "İpək yolu"nun üzərində yerləşən Qəbələ şəhərinin adı hələ eramızın I əsrində yaşamış Roma alimi Böyük Plininin "Təbii tarix" əsərində Kabalaka adlandırılıb. Yunan coğrafiyaşünası Ptolemey Qəbələni Xabala, ərəb tarixçisi Bəlazuri isə Xəzər kimi təqdim edib. İlk dəfə Azərbaycan alimi Abbasqulu Ağa Bakıxanov "Gülüstani-İrəm" əsərində Kabala və ya Xabalanın Qəbələ olduğunu göstərib. Beləliklə, əsrlər boyu Azərbaycan torpaqlarına göz dikən yadelli işğalçıların amansız hücumlarına mərdliklə sinə gərən Qəbələ şəhəri tarixin yaddaşına alınmaz, məğlubedilməz qala-şəhər kimi daxil olub. Məhz bu amil şəhərdə zəngin maddi-mədəniyyət abidələrinin yaranmasına rəvac verib. Qəbələ Arxeoloji Mərkəzi də şəhərin tarixi keçmişini və bu gününü öyrənmək, qoruyub saxlayaraq gələcək nəslə çatdırmaq baxımından əvəzedilməz məkandır.

Diqqətə çatdırıldı ki, artıq bir neçə ildir rayonda AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Qəbələ arxeoloji qrupu və SEBA-nın dəstəyi ilə Koreya arxeoloqları birgə qazıntı işləri həyata keçirirlər. Arxeoloji qazıntılar əsasən Qəbələnin antik şəhər yeri, Səlbir və Qala ərazilərində aparılır. Qazıntılar zamanı əldə olunan 1500-ə yaxın eksponat sərgidə nümayiş etdirilir. Əldə olunan yeni eksponatlar Arxeoloji Mərkəzdə ən müasir texnologiyalara cavab verən laboratoriyalarda bərpa olunduqdan sonra nümayiş etdirilir. Əldə edilən bütün eksponatlar haqqında dövri hesabatlar və tapıntı kitabları nəşr olunub.

*22 sentyabr 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV İSMAYILLIDA UŞAQ İSTİRAHƏT VƏ ƏYLƏNCƏ PARKINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Dövlətimizin başçısına burada aparılan əsaslı təmir işləri barədə məlumat verildi. Bildirildi ki, ümumi ərazisi iki hektar olan bu istirahət mərkəzində balacalar üçün hər cür şərait yaradılıb, yaşıllıq zolaqları salınıb, müxtəlif dekorativ ağac və kollar əkilib, hovuz, kafe, 250 yerlik açıq kinoteatr, iki uşaq-əyləncə meydançası inşa olunub. Burada müxtəlif heyvan fiqurları qoyulub ki, bu da balacaların marağına səbəb olur. Bu istirahət ocağı İsmayıllının ən gözəl və görməli yerlərindən birinə çevrilib.

Uşaq istirahət və əyləncə parkında yaradılan şərait həm də ümumilikdə rayonda aparılan abadlıq-quruculuq işlərinin miqyasını aydın göstərir. Beləliklə, bu parkda yaradılan şərait istər uşaqlar, istər rayon sakinləri, istərsə də İsmayıllıya gələn qonaqların istirahətinin mənalı təşkili üçün geniş imkanlar açır.

*22 sentyabr 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSMAYILLI RAYON MƏDƏNİYYƏT SARAYINDA ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN YENİ ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsmayıllı Rayon Mədəniyyət Sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

Bildirildi ki, ikimərtəbəli bina yüksək zövqlə təmir edilib. İnşaat işlərində keyfiyyətə xüsusi diqqət yetirilib. Foyedə ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Burada ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısı İlham Əliyevin İsmayıllıya səfərləri

zamanı çəkilən fotolardan ibarət stendlər qurulub. Mədəniyyət sarayının iş, məşq, dərnək, rejissor və qrim otaqları müasir səviyyədədir. Burada 270 nəfərlik zal da yaradılıb. Zal səs və işıq effekti yaradan ən müasir sistemlə təchiz edilib. Zalda rayonun həyatında baş verən əlamətdar hadisələrlə bağlı toplantılar keçirmək üçün geniş imkanlar var. Mədəniyyət sarayında sərgi qalereyası da fəaliyyət göstərəcək. Binada 60 nəfərlik konfrans zalı və foto-laboratoriya yaradılıb.

Bu işlər bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən daxili siyasət bütün sahələri, o cümlədən mədəniyyət sahəsini əhatə edir. Bu Sarayda yaradılan şərait rayonun mədəniyyət və incəsənət xadimləri üçün böyük hədiyyə olmaqla yanaşı, gənc nəsildə bu sahəyə marağı artıracaq.

*22 sentyabr 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV İSESKO-NUN BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİNİ QƏBUL ETMİŞDİR

Görüşdə Azərbaycan ilə İSESCO arasında uzun illər davam edən səmərəli əməkdaşlığın uğurla inkişaf etdiyi məmnunluqla qeyd olundu, əlaqələrimizin bundan sonra daha da inkişaf etdiriləcəyinə əminlik bildirildi. Söhbət zamanı Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyətindən danışıldı, xalqlararası əlaqələrin və mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi baxımından Forumun önəmi vurğulandı.

*1 oktyabr 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÖRDÜNCÜ BEYNƏLXALQ HUMANİTAR FORUMUN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər.

Bakı Beynəlxalq Humanitar Forumu ən geniş humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir məkandır. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal yerdir.

Forum XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavab axtarmaq, humanitar əməkdaşlıqla bağlı ən mühüm məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq üçün beynəlxalq miqyasda nüfuzlu elmi-siyasi platformadır.

Dövlətimizin başçısı Forumun açılışında nitq söylədi.

### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Bakı Beynəlxalq Humanitar Forumu öz işinə başlayır. Forumun bütün iştirakçılarını səmimiyyətlə salamlayıram. Bu gün Forumda 60-dan çox ölkədən 500-ə yaxın qonaq iştirak edir. Bütün qonaqlara "Xoş gəlmisiniz" deyirəm.

Forumun keçirilməsi çox əlamətdar hadisədir. Artıq bu, gözəl ənənəyə çevrilib. Forum dördüncü dəfədir ki, keçirilir. Bu, əslində onu göstərir ki, belə müzakirələrə böyük ehtiyac var. Dünyada gedən proseslər, bəzi hallarda narahatedici məqamlar tələb edir ki, humanitar sahəyə daha da böyük diqqət göstərilsin. Əminəm ki, Forum çərçivəsində aparılacaq diskussiyalar, fikir mübadiləsi humanitar əməkdaşlığın dərinləşməsinə xidmət edəcəkdir. Biz Azərbaycanda bu sahəyə çox böyük diqqət göstəririk. Təsadüfi deyil ki, bu Forum da məhz Azərbaycanda keçirilir. Deyə bilərəm ki, hazırda dünyada humanitar məsələlərin müzakirəsi, təhlilin aparılması üçün bu Forumun müstəsna rolu vardır. Əlbəttə, buna görədir ki, Foruma maraq durmadan artır. Bu, artıq beynəlxalq aləmdə önəmli bir formata çevrilibdir.

Biz Azərbaycan olaraq ölkələr arasındakı əlaqələrin inkişafı üçün humanitar aspektlərə daim böyük diqqət göstərmişik. Çünki bizim tarixi keçmişimiz, mədəniyyətimiz bunu diktə edir. Əsrlər boyu Azərbaycanda çoxkonfessiyalı, çoxmillətli cəmiyyət formalaşıb, mövcuddur və müstəqillik dövründə bu müsbət meyillər daha da gücləndi. Azərbaycanda bütün xalqlar dostluq, mehribanlıq şəraitində, bir ailə kimi yaşayır. Heç vaxt Azərbaycanda dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmayıb və bu, bizim böyük sərvətimizdir. Çünki hər bir ölkənin gücünü əlbəttə ki, bir neçə amil müəyyən edir – siyasi imkanlar, iqtisadi güc və eyni zamanda, cəmiyyətdə mövcud olan ab-hava, sağlam mühit və həmrəylik duyğuları. Hesab edirəm ki, bu baxımdan Azərbaycanın təcrübəsi çox müsbətdir və biz öz işimizlə dünyada gedən proseslərə müsbət töhfəmizi veririk.

Multikulturalizm Azərbaycanda həyat tərzidir. Düzdür, bu termin nisbətən yenidir. Ancaq əsrlər boyu Azərbaycanda multimədəniyyətli cəmiyyətlər mövcud olub. Xalqlar arasındakı dostluq və həmrəylik bunun bariz nümunəsidir. Biz bu gün də çalışırıq ki, öz təşəbbüsümüzlə regionda və dünyada gedən proseslərə müsbət təsirimizi göstərək. Təsadüfi deyil ki, Azərbaycan tərəfindən irəli sürülmüş bir neçə təşəbbüs artıq həyatda öz yerini tapıbdır və bu təşəbbüslər ətrafında yeni imkanlar yaranır. Misal üçün qeyd etməliyəm ki, 2008-ci ildə Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini dəvət etdik və birgə toplantı keçirdik. Bu, tarixdə ilk dəfə baş vermişdir və Azərbaycan həm Avropa Şurasına, həm İslam Əməkdaşlıq Təşkilatına üzv olduğu üçün bu təşəbbüsü öz üzərinə götürmüşdür. 2009-cu ildə artıq Bakıda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısına biz Avropa Şurasından mədəniyyət nazirlərini dəvət etmişdik. Yəni, bu təşəbbüsə "Bakı prosesi" adı verilmişdir. Bu gün "Bakı prosesi" yaşayır və inkişaf edir. Bakıda sivilizasiyalararası dialoq forumları keçirilmişdir. Bizim təşəbbüsümüzlə bir neçə il bundan əvvəl dünya dini liderlərinin Zirvə görüşü keçirilmişdir və Bakı Beynəlxalq Humanitar Forumunun mahiyyəti də məhz bundadır.

Əminəm ki, Forumda iştirak edən görkəmli dövlət xadimləri, ictimai xadimlər, alimlər, mütəxəssislər, ekspertlər bu günlər ərzində öz maraqlı fikirlərini bizimlə bölüşəcəklər və beləliklə, biz birgə səylərlə humanitar sahəyə öz töhfəmizi vermiş olacağıq. Biz gələcəkdə də humanitar əməkdaşlığın dərinləşməsi üçün öz səylərimizi göstərəcəyik. Əlbəttə, hesab edirəm, sirr deyil ki, bu Forum artıq hər il keçiriləcək və beləliklə, bu format yaşayacaqdır.

Onu da qeyd etməliyəm ki, humanitar əməkdaşlığa, humanitar məsələlərin həllinə həmişə böyük diqqət göstərməyimizə baxmayaraq, xalqımız və dövlətimiz humanitar fəlakətlə üzləşmişdir. Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. Bizə qarşı işğalçı siyasət aparılır. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazisi Ermənistanın işğalı altındadır. Bu işğal nəticəsində torpaqlarımızın 20 faizi ermənilər tərəfindən zəbt edilibdir. Bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür və bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Xocalı soyqırımı törədilmişdir ki, yüzlərlə gü-

nahsız insan bu soyqırımının qurbanı olmuşdur. Xocalı soyqırımını 10-dan çox ölkə rəsmi şəkildə soyqırımı kimi tanıyıbdır. Bu münaqişə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bütün mötəbər beynəlxalq təşkilatlar qərar və qətnamələr qəbul etmişlər. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir ki, orada erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması tələb olunur. Əfsuslar olsun ki, bu qətnamələr icra edilmir və biz burada böyük ədalətsizliklə, ikili standartlarla üzləşirik. Çünki biz yaxşı bilirik ki, bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir gün ərzində icra edilir. Ancaq bizim üçün ən vacib məsələdə 20 ildən artıqdır ki, bu qətnamələr kağız üzərində qalıbdır. ATƏT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qərar və qətnamələr qəbul etmişlər və bu format, bu hüquqi baza münaqişənin həlli üçün yeganə yoldur.

Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır və qeyd-şərtsiz bərpa edilməlidir. İşğaldan əziyyət çəkən, öz yerindən didərgin düşən soydaşlarımız doğma torpaqlarına qayıtmalıdırlar. Baxmayaraq ki, o torpaqlarda artıq həyat yoxdur, hər şey dağıdılıb. ATƏT-in faktaraşdırıcı və qiymətləndirmə missiyaları işğal edilmiş torpaqlara iki dəfə ezam olunmuşdur və onların məruzələrində açıq-aydın göstərilir ki, hər şey dağıdılıb. Bizim məscidlərimiz, əcdadlarımızın qəbirləri, tarixi abidələrimiz dağıdılıb, muzeylərimiz talan edilib. Yəni, bu, böyük humanitar fəlakətdir və Azərbaycan təkbaşına, öz gücü hesabına bu humanitar məsələnin həlli, köçkünlərin yerləşdirilməsi, onları işlə təmin etmək üçün böyük işlər görüb və hələ bu işlər davam edir. Çünki köçkünlərin bir hissəsi hələ ki, ağır vəziyyətdə yaşayır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bölgə üçün ən böyük təhlükədir. Bu münaqişənin tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunması bölgəyə sülh, daha da böyük inkişaf gətirəcək, regional əməkdaşlıq üçün də yeni imkanlar yaradacaqdır. Bu ağır vəziyyətə baxmayaraq, Azərbaycanın inkişafı dayanıqlı olmuşdur, o cümlədən biz humanitar sahədə son illərdə böyük uğurlara imza atmışıq. Humanitar sahə bizim hökumətimiz üçün prioritet sahələrdən biridir və bu sahəyə investisiyalar qoyulur. Eyni zamanda, hesab edirəm ki, Azərbaycanda humanitar məsələlər uğurla öz həllini tapır.

Təhsilə böyük diqqət göstərilir. Son 10 il ərzində 3 minə yaxın yeni məktəb tikilibdir. Təhsilin keyfiyyətinin artırılması üçün islahatlar aparılır. Hesab edirəm ki, biz yaxın gələcəkdə bu islahatların gözəl nəticələrini görəcəyik. Eyni zamanda, Azərbaycan gəncləri dövlət vəsaiti hesabına dünyanın aparıcı ali məktəblərinə oxumağa göndərilirlər və onlar gələcəkdə ölkəmizin inkişafında öz sözlərini deyəcəklər.

Səhiyyə sisteminin təkmilləşdirilməsi məsələsi çox aktualdır. Nəzərə alsaq ki, müstəqilliyimizin ilk illərində səhiyyə sisteminin maddi-texniki bazası tamamilə yararsız vəziyyətə düşmüşdü və biz böyük investisiyalar qoymaqla müasir səhiyyə infrastrukturunu yaratmışıq. Son 10 ildə 500-dən çox səhiyyə ocağı tikilib, təmir edilib və bu gün onların bir çoxu ən yüksək standartlara cavab verir.

Bizim mədəniyyətlə bağlı təşəbbüslərimiz öz nəticəsini verir. Azərbaycanda mütəmadi qaydada beynəlxalq tədbirlər, festivallar, konkurslar keçirilir. Bizim tarixi abidələrimiz bərpa edilir, xüsusi proqram icra olunubdur. Azərbaycanda çoxlu qədim tarixi abidələr var. Onlar bizim milli sərvətimizdir, o cümlədən dini abidələrimiz dövlət tərəfindən bərpa edilir və yeniləri tikilir. Qeyd etməliyəm ki, dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidi əsaslı şəkildə bərpa edilibdir. Bu məscid 743–cü ildə Şamaxı şəhərində tikilmişdir və müsəlman aləmində ən qədim məscidlərdən biridir. Şəki rayonunun Kiş kəndində Qafqazın ən qədim kilsəsi yerləşir. O kilsə də bərpa edilib və bu, bizim

milli sərvətimizdir. Azərbaycanda pravoslav kilsələr, katolik kilsə, sinaqoqlar dövlətin dəstəyi ilə əsaslı şəkildə təmir edilib. Yəni, bu, bizim böyük sərvətimizdir və bir daha demək istəyirəm ki, multimədəniyyətli cəmiyyət, dinlərarası dialoq, xalqlar arasındakı dostluq, qardaşlıq bizim dövlətimizi gücləndirir. Çünki bu, cəmiyyətdə çox gözəl ab-hava yaradır. Bir daha demək istəyirəm ki, bu, həm dövlət siyasətidir, eyni zamanda, cəmiyyətin sifarişidir. Yəni, hesab edirəm ki, biz bu istiqamətdə uğurla inkişaf edəcəyik. Onu da qeyd etməliyəm ki, bu sahədə əldə edilmiş təcrübə başqa ölkələr üçün də maraqlı ola bilər.

Biz, eyni zamanda, iqtisadi sahəyə böyük diqqət göstəririk. Çünki güclü iqtisadiyyat olmasa, humanitar təşəbbüsləri irəli sürmək də o qədər asan olmayacaq. Ona görə çalışırdıq ki, iqtisadi təhlükəsizliyimizi təmin edək, dövlətimizi gücləndirək və eyni zamanda, ağır vəziyyətdə yaşayan soydaşlarımız üçün yeni imkanlar yaradaq. Bizim sosial siyasətimiz məqsədyönlü şəkildə aparılır. Son 10 il ərzində pensiyalar, maaşlar dəfələrlə artmışdır, yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşmüşdür. Yoxsulluq cəmi 10 il ərzində 49 faizdən 5,3 faizə düşmüşdür. Demək olar ki, yoxsulluqla mübarizə artıq başa çatmaq üzrədir. Hesab edirəm ki, yaxın bir neçə il ərzində yoxsulluq Azərbaycanda bir amil kimi tamamilə aradan götürüləcəkdir.

İşsizliklə bağlı mübarizə də, ilk növbədə, humanitar xarakter daşıyır. Çünki son illər ərzində 1 milyon 200 mindən çox iş yeri yaradılmışdır və işsizlik də kəskin şəkildə aşağı düşmüşdür. İndi 5 faizdən azdır. Artıq Azərbaycana başqa ölkələrdən iş tapmaq üçün miqrantlar gəlir. Yəni, bütün bunların təməlində düşünülmüş siyasət dayanır. Çünki iqtisadi inkişaf çox sürətlidir. Son 10 il ərzində Azərbaycan iqtisadi inkişaf baxımından dünyada ən sürətlə inkişaf edən ölkə olmuşdur. Bizim bütün iqtisadi göstəricilərimiz müsbətdir. İqtisadiyyat son 10 ildə 3 dəfədən çox artmışdır. Xarici dövlət borcu çox aşağı, 8 faiz səviyyəsindədir. Büdcə gəlirləri son 10 il ərzində 20 dəfədən çox artmışdır. Büdcə gəlirlərinin düzgün bölüşdürülməsi, sosial proqramların icrası, infrastruktur layihələrinin həyata keçirilməsi ölkəmizin inkişafını təmin etmişdir.

Əlbəttə, Azərbaycan dünyada neft-qaz ölkəsi kimi tanınır. Bu, bizim böyük sərvətimizdir. Ancaq biz bilirik ki, bəzi ölkələrdə bu böyük sərvət heç də uğur gətirmir, əksinə, problemlər yaradır, müharibələrə, cəmiyyətdə təbəqələşməyə yol açır. Azərbaycanda isə biz bunun tam əksini görürük. Bizim təbii sərvətlərimiz hər bir insanın həyatında öz müsbət təsirini göstərib. Çəkilən yollar, açılan xəstəxanalar, artan maaşlar, abadlaşan şəhərlər bunun bariz nümunəsidir. Azərbaycanda neft gəlirlərindən düzgün istifadə etmək, "qara qızıl"ı insan kapitalına necə çevirmək, - artıq biz buna nail olmuşuq, - sahəsində nadir təcrübə toplanmışdır. Gələcəkdə bizim iqtisadiyyatımız çoxşaxəli formatda inkişaf edəcək. Bu gün biz yeni texnologiyalara investisiyalar qoyuruq.

Bu gün Azərbaycan artıq kosmik sənayeyə malik olan ölkədir, kosmik ölkələrin klubuna daxil edilibdir. Biz innovasiyalara, yeni texnologiyalara, elmin inkişafına çox böyük önəm veririk. Elmin İnkişafı Fondu yaradılmışdır. İqtisadi inkişaf, sosial məsələlərin həlli, humanitar sahəyə diqqət, deyə bilərəm ki, son illərdə Azərbaycanın uğurlu inkişafını şərtləndirən əsas amillər olmuşdur. Hesab edirəm ki, biz iqtisadi sahədə öz işimizlə bölgədə gedən regional əməkdaşlığa da müsbət təsir göstəririk. Bir çox hallarda nəhəng regional layihələrin, enerji, nəqliyyat layihələrinin təşəbbüskarı Azərbaycan olmuşdur və əsas iqtisadi riskləri də öz üzərinə götürmüşdür. Deyə bilərəm ki, bizim bütün təşəbbüslərimiz, iqtisadiyyatla, enerji ilə, nəqliyyatla bağlı layihələrimiz uğurla nəticələnir. Bir dəfə də olsun uğursuzluq olmamışdır və əminəm ki, olmayacaqdır.

Azərbaycan hazırda iqtisadi, siyasi cəhətdən müstəqil bir ölkədir, müstəqil xarici siyasəti var. Bu siyasət dünyanın əksər ölkələri tərəfindən dəstəklənir. Bu sözləri əyani şəkildə təsdiqləmək üçün sadəcə olaraq demək istəyirəm ki, Azərbaycan bir neçə il bundan

əvvəl BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. BMT Təhlükəsizlik Şurası dünyanın ən mötəbər qurumudur və gənc müstəqil dövlət Azərbaycan 155 ölkənin dəstəyi ilə o mötəbər təşkilata üzv olmuşdur. Yəni, bu da bizim dünyadakı rolumuzu, müstəqil xarici siyasətimizi əks etdirir. Çünki dünya birliyinin böyük əksəriyyəti bizə inanır və öz səsini verməklə bizə dəstəyini göstərmişdir.

Hesab edirəm ki, əgər hər bir ölkə müstəqil xarici siyasət aparsa, onda dünyada müharibələr də az olar, anlaşılmazlıq da azalar. Hər bir ölkə digər ölkəyə hörmətlə yanaşmalıdır. Hər bir ölkə digər ölkənin seçiminə də hörmətlə yanaşmalıdır - həm beynəlxalq müstəvidə, həm dinlərarası dialoq, humanitar sahədə. Bütün bunlar bir-biri ilə bağlıdır. Burada əyləşən nümayəndələr, 60-dan çox ölkədən gələn qonaqlar müxtəlif ölkələri təmsil edirlər, amma biz bir yerdə yığışırıq, müzakirə aparırıq. Çalışırıq necə yol tapaq ki, dünyada gedən prosesləri daha çox müsbət tərəfə istiqamətləndirək. Çünki bu gün gedən proseslər çox narahatedici proseslərdir. Həm müsəlman aləmində, həm Avropada radikalizm, ayrı-seçkilik, irqçilik artır. Bu meylləri biz görürük və bunu narahatlıqla izləyirik.

Biz burada - Bakıda bu günlər ərzində çalışacağıq ki, bu meyllərin qarşısını almaq üçün hansı işlər görülməlidir. Əsas məsələ bundan ibarətdir. Çünki biz sivilizasiyalararası dialoqdan söhbət açırıq. Amma, eyni zamanda, bəzi bəyanatlar bizi məyus edir ki, multikulturalizm iflasa uğradı, multikulturalizmin gələcəyi yoxdur. Bu, çox təhlükəli bəyanatlardır. Qeyd etməliyəm ki, multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu da çox aydındır. Bu, ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir. Biz bu təhlükəli meyllərə qarşı öz səsimizi ucaltmalıyıq. Əlbəttə ki, bunu, ilk növbədə, dövlətlər etməlidirlər. Amma, eyni zamanda, dövlətlərin bu siyasətini böyük dərəcədə hər bir cəmiyyətin siyasi və ictimai-elmi elitası, ictimai rəy müəyyən edir. Heç bir dövlət və hökumət başçısı ictimai rəyi nəzərə almaya, ona məhəl qoymaya bilməz. Ona görə hesab edirəm ki, biz birgə səylərimizlə bu məsələləri açmalıyıq, danışmalıyıq. Narahatedici məsələlər ətrafında fikirlərimizi bildirməliyik, lazım gəldikdə irad tutmalıyıq. Biz tərəfdaş kimi, dost kimi bu məsələlərə öz fikrimizi bildirməliyik. Biz Azərbaycanda çalışırıq ki, yaşadığımız bölgədə regional əməkdaşlıq inkişaf etsin, millətlərarası münasibətlər daha da yaxşılaşsın, dinlərarası dialoq güclənsin. Bizim imkanımız var. Çünki bizim keçmişimiz, dediyim kimi imkan verir ki, bu məsələlərə böyük diqqətlə yanaşaq. Biz bu məsələləri bilirik. Çünki həm Azərbaycan özü çoxmillətli, çoxkonfessiyalı ölkədir, həm də keçmişdə müxtəlif dinlərin nümayəndələri Azərbaycanda birgə yaşamışdır. Qeyd etdiyim kimi, biz bu gün həm Avropa Şurasının, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının üzvü kimi bu missiyanı öz üzərimizə götürmüşük. Biz istəyirik ki, daha da çox əməkdaşlıq, qarşılıqlı anlaşma olsun. Biz bundan sonra da öz rolumuzu bunda görürük.

Müsəlman aləmində gedən xoşagəlməz proseslər də bizi çox narahat edir. Çünki biz müsəlman aləminin bir parçasıyıq. Bu gün müharibələr, toqquşmalar, qanlı toqquşmalar demək olar ki, ölkələri məhv edir. Bu, çox ciddi prosesdir. Biz bu prosesə təcrid edilmiş proses kimi baxa bilmərik. Müasir dünyada biz hamımız bir-birimizlə bağlıyıq. Eyni zamanda, Avropa qitəsində miqrantlara qarşı münasibətin pisləşməsi, "multikulturalizm iflasa uğrayıb" kimi bəyanatların verilməsi və ayrı-seçkiliyə meyilli olan siyasi qüvvələrin daha da böyük səs toplaması, əlbəttə ki, hamımızı narahat etməlidir.

Yenə də deyirəm, bu Forumun keçirilməsi də bu məqsədi güdür. Çünki hesab edirəm ki, müasir dünyada həm coğrafi, eyni zamanda, humanitar baxımdan Azərbaycanın nadir rolu var. Biz Avropa ilə Asiya arasında, qədim "İpək yolu" üzərində yerləşən bir ölkəyik

və biz Avropanı da yaxşı anlayırıq, müsəlman ailəsinin də bir parçasıyıq. Biz çalışırıq ki, bu sivilizasiyalararası dialoq, humanitar dialoq daha da güclü olsun, daha da güclənsin.

Əlbəttə ki, müzakirələrdə bu məsələlərə diqqət göstəriləcəkdir. Əmənəm ki, müzakirələr çox uğurlu keçəcək. Dediyim sözləri təsdiq etmək üçün qeyd etməliyəm ki, nəinki humanitar sahədə, digər sahələrdə də bir çox təşəbbüslər hesab edirəm uğurlu olmuşdur.

İki il bundan əvvəl Azərbaycanda Avropanın və bəlkə də dünyanın ən mötəbər mahnı yarışı – "Eurovision" müsabiqəsi böyük uğurla keçirilmişdir. Bütün qonaqlar çox razı qalmışdılar.

Gələn il birinci Avropa Oyunları, - buna qeyri-rəsmi Avropanın Olimpiya Oyunları deyirlər, - Bakıda keçiriləcək. Bu da çox əlamətdar hadisədir. Çünki Avropada bu günə qədər Olimpiada səviyyəsində yarışlar keçirilməmişdir. Burada da Azərbaycan öz namizədliyini irəli sürmüşdür və Avropanın olimpiya ailəsi bizə böyük etimad göstərmişdir.

2017-ci ildə isə İslam Həmrəylik Oyunları Bakıda keçiriləcəkdir. Cəmi iki il ərzində həm Avropa, həm İslam Oyunları Azərbaycanda keçiriləcək. Bu da dediyim sözlərin təsdiqidir. Bu, bizim rolumuzdur və biz çalışırıq ki, xalqları birləşdirək. Onu da qeyd etmək istəyirəm ki, keçən ay bizim üçün çox önəmli və tarixi qərar qəbul edilmişdir - futbol üzrə Avropa çempionatı 2020-ci ildə, o cümlədən Bakıda keçiriləcək. Cəmi 13 şəhər - Avropanın 13 şəhəri seçilmişdir. Onlardan biri də Bakıdır. Yəni, budur bugünkü Azərbaycan. Biz Avropa ailəsinin üzvüyük, müsəlman ailəsinin üzvüyük və sübut edirik ki, bu, mümkündür. Biri o birisini inkar etmir və etməməlidir. Bu gün inkişafda olan ölkəmiz göstərir ki, düşünülmüş siyasət, cəmiyyətdə müsbət meyillər güclü olanda böyük uğurlara imza atmaq mümkündür.

Əziz qonaqlar, mən sizi bir daha səmimiyyətlə salamlayıram. Bilirəm ki, qonaqlar arasında ölkəmizlə tanış olan nümayəndələr vardır. İlk dəfə gələnlər də var. Əminəm ki, bu Forumun keçirilməsi sizin üçün çox maraqlı olacaq. Siz öz dəyərli fikirlərinizi bölüşəcək, eyni zamanda, ölkəmizlə yaxından tanış olacaqsınız.

Forumun iştirakçılarına uğurlar arzulayıram. Sağ olun!

* * *

Rəsmi açılış mərasimi başa çatdıqdan sonra Forum öz işini plenar iclasla davam etdirib.

*2 oktyabr 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV XIRDALANDA MUSİQİ MƏKTƏBİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Xırdalan şəhərində musiqi məktəbinin açılışında iştirak edib.

Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev musiqi məktəbi ilə tanış oldu.

Son illərdə ölkədə mədəniyyətin inkişafına göstərilən diqqət və qayğı artıq öz bəhrəsini verməkdədir. Bu da ondan irəli gəlir ki, mədəniyyətin inkişafına göstərilən qayğı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Həm Prezident İlham Əliyev, həm də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu məsələyə xüsusi diqqət və qayğı göstərirlər. Ölkəmizdə mədəniyyət xadimlərinə diqqət getdikcə artır, onların sosial rifahının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər görülür. Bundan əlavə, zəngin Azərbaycan mədəniyyətinin dünyada tanıdılması və təbliği ilə bağlı layihələr icra olunur və bu prosesin önündə Heydər Əliyev

Fondu gedir. Son illərdə paytaxtla yanaşı, bölgələrdə yaradılan mədəniyyət ocaqları da bu sırada xüsusi yer tutur.

Yüksək zövqlə və xüsusi memarlıq üslubunda inşa edilən məktəbin foyesində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkədə mədəniyyətin inkişafı istiqamətində xidmətlərinin əks olunduğu fotolar nümayiş etdirilir. Geniş sinif otaqlarının yaradıldığı məktəbdə şagirdlərin musiqi biliklərinə yiyələnmələri üçün hər cür şərait var. Bütün siniflər musiqi alətləri ilə təchiz olunub. Müəllimlər üçün də yüksək iş şəraiti yaradılıb. Kitabxana zəruri musiqi ədəbiyyatı ilə təchiz olunub. 82 nəfərlik akt zalında müxtəlif tədbirlərin, konsert proqramlarının keçirilməsi üçün bütün imkanlar var. Bir sözlə, son illərdə ölkəmizdə mədəniyyət sahəsində həyata keçirilən irimiqyaslı işlərin tərkib hissəsi olan bu musiqi məktəbi gənclərdə musiqi zövqünün formalaşmasında xüsusi rol oynayacaq.

*3 oktyabr 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XIRDALAN ŞƏHƏRİNDƏ YARADILAN "PARK ABŞERON" ƏYLƏNCƏ MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xırdalan şəhərində yaradılan "Park Abşeron" əyləncə mərkəzində yaradılan şəraitlə tanış olub.

Artıq ölkəmizin regionlarında da əhalinin istirahətinin təşkili istiqamətində mühüm layihələr həyata keçirilir. Xırdalanda yaradılan yeni "Park Abşeron" əyləncə mərkəzi də öz dizaynına, memarlıq quruluşuna görə şəhərin simasına xüsusi yaraşıq verir. İndi Xırdalan şəhərinin mənzərəsinin maraqlı elementinə çevrilən bu modern əyləncə mərkəzində yaradılan şəraitdən məqsəd ilk növbədə, insanların mənalı istirahətini təşkil etmək, onlara mənəvi zövq yaşatmaqdır. Beləliklə, Xırdalan şəhərində daha bir maraqlı ticarət və istirahət məkanı bundan sonra sakinlərin istifadəsində olacaq.

Dövlətimizin başçısına məlumat verildi ki, 1400 kvadratmetr ərazisi olan əyləncə mərkəzində buz meydançası yaradılıb. Bu da həm uşaqlar, həm də gənclər üçün maraqlı istirahət imkanı yaradır. Bundan əlavə, mərkəzdə 3D sinema, kafe, 3D tir otağı, boulinq zalı fəaliyyət göstərir. Yay kafesinin də olduğu mərkəzdə yerli əhalinin və qonaqların istirahətinin təşkili üçün bütün imkanlar var.

*3 oktyabr 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV XIRDALANDA BAYRAQ MEYDANINDA OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xırdalan şəhərindəki Bayraq Meydanında olub.

Dövlətimizin başçısına məlumat verildi ki, bayraq dirəyinin hündürlüyü 65 metrdir. Burada müxtəlif videogörüntülərin nümayiş etdirilməsi üçün böyük monitor da quraşdırılıb.

Bütün bunlar Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan, bu gün müstəqil ölkəmizin başı üzərində dalğalanan üçrəngli, ay-ulduzlu bayrağımıza dövlət səviyyəsində olan ehtiramın göstəricisidir. Təsadüfi deyil ki, indi hər bir azərbaycanlı dövlət bayrağını özünün qürur mənbəyi hesab edir. Dövlət atributlarına xüsusi ehtiramla yanaşan Prezident

İlham Əliyev bu məsələdə hər zaman həssas münasibəti ilə seçilib. Odur ki, paytaxtla yanaşı, bölgələrimizdə də Bayraq meydanları salınıb. Abşeron rayonundakı Bayraq Meydanı da öz möhtəşəmliyi ilə diqqəti cəlb edir.

*3 oktyabr 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XIRDALANDA HEYDƏR ƏLİYEV ADINA MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKINDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xırdalan şəhərində Heydər Əliyev adına mədəniyyət və istirahət parkında aparılan yenidənqurma işləri ilə tanış olub.

Son illərdə Abşeron rayonunda həyata keçirilən abadlıq işləri sırasında Xırdalan şəhərindəki Heydər Əliyev adına mədəniyyət və istirahət parkının yenidən qurulması mühüm əhəmiyyət daşıyır. Bu da ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla bölgələrimizin daha da gözəlləşməsinə xidmət edir. Bu, bir daha təsdiqləyir ki, şəhər və rayonlarımızda aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması, mövcud olanlarının isə yenidən qurulması diqqətdən kənarda qalmır. Xırdalan şəhərinin mərkəzində yerləşən bu mədəniyyət və istirahət parkında yenidənqurma işləri ən yüksək səviyyədə görülüb, parkın ərazisi tamamilə yenidən qurulub.

Dövlətimizin başçısına məlumat verildi ki, ərazisi 12 hektar olan parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıb. Yenidənqurma işləri zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, orijinal elementlər və formalarla zənginləşdirilib. Parkın ərazisində çoxlu ağac və dekorativ gül kolları əkilib, çəmənlik salınıb.

Xırdalan şəhərindəki Heydər Əliyev adına parkda aparılan yenidənqurma işləri ölkədə əhalinin istirahətinin yüksək səviyyədə təşkil olunmasının davamlı və kompleks xarakter daşıdığını təsdiqləyir.

*3 oktyabr 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV XIRDALANDA HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan dövlətçiliyinin möhkəm əsaslar üzərində qurulmasında, respublikanın hərtərəfli inkişafında, ölkədə bütün sahələrin canlandırılmasında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə mühüm layihələr reallaşdırılır. Bu tədbirlər sırasında dahi şəxsiyyətin adını daşıyan, onun siyasi irsinin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edən mərkəzlərin rolu böyükdür. Bu cür mərkəzlərdən biri də Abşeron rayonunda inşa olunub. Orijinal layihə əsasında tikilən Heydər Əliyev Mərkəzi Ümummilli Liderin xatirəsinə dərin ehtiramın parlaq nümunəsidir.

Mərkəzdə Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar yer alıb. Burada dünyanın nüfuzlu siyasətçilərindən olan ulu öndər Heydər Əliyevin Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, bu böyük şəxsiyyətin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində müstəqilliyinin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, iqtisadiyyatın ağır böhrandan in-

kişaf yoluna çıxarılması, güclü ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən foto, kitab və digər vəsaitlərə geniş yer verilib. Ümummilli Liderin azərbaycançılıq fəlsəfəsinin təbliği, gələcəkdə Azərbaycan vətəndaşlarının dünyada gedən müasir proseslər çərçivəsində öz Vətəni, milləti və xalqının taleyi ilə bağlı genişmiqyaslı layihələrdə iştirakının təmin olunması, onların arzu və niyyətlərini gerçəkləşdirmək əzminin reallaşması baxımından mühüm əhəmiyyət daşıyan Heydər Əliyev Mərkəzinin inşası Azərbaycanın müasir reallıqlarını əks etdirir.

Prezident İlham Əliyev Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısı Ulu Öndərin həyatının və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunduğu fotolara baxdı.

Məlumat verildi ki, mərkəzin özəlliyini artıran mühüm amillərdən biri də burada interaktiv məlumat tablolarına geniş yer verilməsidir. Mərkəzdə Ümummilli Liderin xatirəsinin əbədiləşdirildiyi muzey də yaradılıb. Ekspozisiya zallarının hamısı zəruri avadanlıqla təchiz olunub. Mərkəzin funksionallığını artırmaq məqsədilə burada gənclər üçün müzakirə və diskussiya zalları qurulub, elektron kitabxana yaradılıb. Sərgi zalından əlavə, mərkəzdə linqafon, internet və rəssamlıq otaqları, fotostudiya və rəqs zalı da var. Yaradılan bu şərait gənclərin müxtəlif sənətlərin sirlərinə yiyələnməsinə, onların asudə vaxtının səmərəli təşkil edilməsinə geniş imkanlar açır.

Son illərdə respublikamızda fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində yeni ailə quran gənclərin nikah mərasimlərinin təşkili kimi xoşməramlı tədbirlərə də başlanıb. Qeyd edildi ki, bu mərkəzdə də vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və bununla bağlı mərasimlərin təşkili nəzərdə tutulur. 280 yerlik böyük akt zalı istifadəyə verilib ki, burada da rayonla bağlı bir çox tədbirlərin keçirilməsi üçün böyük imkanlar var. Bir sözlə, Ulu Öndərin zəngin siyasi irsinin öyrənilməsi üçün burada hər cür şərait yaradılıb.

Sonra dövlətimizin başçısı Abşeron rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

**Prezident İlham ƏLİYEV çıxış edərək dedi:**

- İlk növbədə, sizi qarşıdan gələn Qurban bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə, Abşeron rayonunun bütün sakinlərinə, bütün Azərbaycan xalqına xoşbəxtlik, yeni uğurlar arzulayıram. Bu gözəl bayram ərəfəsində bu gün bu möhtəşəm mərkəzi biz birlikdə açırıq. Heydər Əliyev Mərkəzi doğrudan da, həm xarici görünüşü, həm də daxili dizaynı baxımından zövq oxşayır. Gözəl binadır, burada Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən videomateriallar, fotoşəkillər, interaktiv lövhələr var. Müasir səviyyədə tikilmiş çox gözəl bir mərkəzdir. Mərkəzin yerləşdiyi meydan da abadlaşıb, gözəlləşib.

Mən əvvəllər də burada olmağımı xatırlayıram və görürəm ki, Abşeron rayonunda, Xırdalan şəhərində çoxlu işlər görülüb. Xırdalana şəhər statusu veriləndən sonra burada inkişaf daha da sürətli olmuşdur. İndi Xırdalan gözəl, abad şəhərdir və burada binalar tikilir, bərpa edilir, eyni zamanda, yollar salınır, sosial obyektlər inşa olunur, artıq Bayraq Meydanı yaradılıbdır. Bir sözlə, son illərdə Xırdalanın inkişafı çox sürətli olmuşdur və rayonda çox böyük işlər görülmüşdür. Yollar çəkilir, məktəblər, xəstəxanalar tikilir. Bir daha demək istəyirəm ki, bütün bunlar məni çox sevindirir. Çünki bizim əsas inkişaf istiqamətimiz sosial sahənin inkişafı ilə bağlıdır.

Bütün bölgələrdə, rayonlarda quruculuq işləri aparılır, şəhərlər abadlaşır və insanların yaşayış səviyyəsi yaxşılaşır. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, beynəlxalq mövqelərimiz daha da möhkəm olsun, insanlar daha da yaxşı yaşasınlar.

Bizim uğurlu inkişafımızın təməlini məhz ulu öndər Heydər Əliyev qoymuşdur. 1993-cü ildən bu günə qədər biz ancaq inkişaf yolu ilə gedirik. Ona görə Ulu Öndərin

xatirəsini bu əziz bayram ərəfəsində biz böyük ehtiramla yad edirik. Biz Abşeron rayonunun timsalında Azərbaycanda aparılan iqtisadi, sosial islahatları görürük. Ümumiyyətlə, ölkəmizin sürətli inkişafı hər bir yerdə özünü göstərir. Əminəm ki, gələcək illərdə də Abşeron rayonunun inkişafı sürətlə gedəcək, burada bütün məsələlər öz həllini tapacaq, sosial problemlər bundan sonra da həll olunacaq.

Abşeron rayonu artıq böyük rayondur, 400 minə yaxın əhalisi var. Xırdalan şəhəri də böyük şəhərdir, 150 min əhalisi var. Əlbəttə ki, şəhərin gələcək inkişafı da diqqət mərkəzində olmalıdır. Çünki Azərbaycanda demoqrafik vəziyyət çox yaxşıdır, əhali artır, şəhərlər böyüyür. Şəhərlərin gələcək inkişafı ilə bağlı xüsusi plan tərtib edilməlidir ki, şəhərlər bundan sonra hansı istiqamətdə inkişaf etsin.

Əlbəttə ki, bizim bütün uğurlarımızın təməlində düşünülmüş siyasətimiz dayanır. İki həftə bundan əvvəl biz "Əsrin kontraktı"nın 20-ci ildönümünü qeyd etmişik. Əgər o vaxt "Əsrin kontraktı" imzalanmasaydı, bu gün bu uğurlardan söhbət açmaq mümkün olmazdı. Neft-qaz sektorumuzun inkişafı, gəlirlərin düzgün bölüşdürülməsi bizi bu vəziyyətə gətirib çıxarıbdır. Mötəbər beynəlxalq təşkilatların hesablamalarında Azərbaycanda bu sahədə görülən işlər yüksək qiymətləndirilir.

Dünən Bakıda IV Beynəlxalq Humanitar Forumu öz işinə başlamışdır. Forumda iştirak edən qonaqlar, beynəlxalq təşkilatların nümayəndələri, dövlət xadimləri Azərbaycanda gedən inkişafı yüksək qiymətləndirmişlər. Onlar öz çıxışlarında Azərbaycanda sosial sahədə, xüsusilə yoxsulluğun azaldılmasında görülən işlərə yüksək qiymət vermiş və Azərbaycanı nümunə kimi göstərmişlər. Həqiqətən bu, belədir. Çünki son 10 il ərzində iqtisadi inkişaf templərinə görə bizim ölkəmiz qədər inkişaf edən ölkə olmamışdır. Bütün bunlar xalqın rifahı üçün edilir.

Ölkəmizin həm beynəlxalq mövqeləri möhkəmlənir, həm sosial sahədə böyük işlər görülür. Dünən işə başlamış Forum artıq dünya miqyasında nadir bir müzakirə meydanına çevrilibdir. Bunu biz etmişik. Çünki bu gün Azərbaycan bu bölgənin həm iqtisadi, həm mədəni mərkəzidir və bütün bunları biz özümüz yaratmışıq. Bütün bunlar Azərbaycan xalqının zəhməti hesabına yaradılıb. Biz bunu qiymətləndiririk və gələcəyimiz də çox uğurlu olacaqdır. Çünki hazırda icra edilən infrastruktur layihələri, regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrası bizə əlavə imkanlar yaradacaq ki, - bu proqram 2018-ci ilədək başa çatacaq, - o vaxta qədər Azərbaycanda bir dənə də olsun icra edilməmiş infrastruktur layihəsi qalmasın.

O ki qaldı Abşeron rayonuna, burada işlər, qeyd etdiyim kimi, sürətlə gedir – həm sosial sahədə, eyni zamanda, abadlıqla bağlı böyük işlər görülür. Xırdalan şəhərinin siması tamamilə dəyişmişdir, indi gözəl, müasir şəhərdir və belə də olmalıdır. Çünki bizim bütün şəhərlərimiz gözəl olmalıdır. Azərbaycan xalqı buna layiqdir, biz də öz işimizlə çalışırıq ki, hər sahədə daha da yaxşı nəticələr olsun.

Bu gün bir neçə obyektin açılışı gözlənilir. Onlar da çox önəmlidir. Xırdalan üçün yeni imkanlar açılır və əminəm ki, həm Abşeron rayonunun, həm də ümumiyyətlə, ölkəmizin sürətli inkişafı bundan da güclü olmalıdır və olacaq.

Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanın əldə etdiyi uğurlar bu gün ən mötəbər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir və bizim təcrübəmiz indi başqa ölkələrdə də öyrənilir. Bunu biz etmişik, biz yaratmışıq.

Bu gün mənim Abşeron rayonuna səfərimin məqsədi həm sizlərlə görüşmək, həm də yeni obyektlərin açılışında iştirak etməkdir. Biz möhtəşəm mərkəzin açılışını qeyd edirik. Əlbəttə, gələcək inkişafla bağlı əlavə tədbirlər görüləcək. Bu məqsədlər üçün həm rayon səviyyəsində xərclərdən, həm də dövlət büdcəsinin xərclərindən istifadə olunacaq.

Bir sözlə, biz çox sürətli temp götürmüşük və çalışacağıq ki, gələcək illərdə də bu tempi saxlayaq. Çünki hələ görüləsi işlər çoxdur. Sizi, Abşeron rayonunun bütün sakinlərini bir daha qarşıdan gələn gözəl Qurban bayramı münasibətilə təbrik edirəm. Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*3 oktyabr 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜŞƏNBƏDƏ İSMOİLİ SOMONİ ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Düşənbənin "Dusti" meydanındakı "Tacikistanın milli həmrəyliyi və dirçəlişi" xatirə kompleksində İsmoili Somoni abidəsini ziyarət edib.

Dövlətimizin başçısının şərəfinə burada fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

*16 oktyabr 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV DAŞKƏSƏNDƏ GƏNCLƏRİN TƏLİM VƏ İSTİRAHƏT MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 17-də Daşkəsəndə Gənclərin Təlim və İstirahət Mərkəzinin açılışında iştirak ediblər.

Ölkəmizdə gənclər siyasətinin formalaşdırılması istiqamətində çoxşaxəli tədbirlər görülür. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasəti uğurlu nəticələrlə yadda qalıb. 2005-2009-cu illəri əhatə edən Azərbaycan Gəncliyi Dövlət Proqramı bu proseslərdə çox mühüm rol oynayıb. Hazırda həyata keçirilən "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı bu tədbirlərin məntiqi davamıdır.

Ölkəmizdə artıq gənclər siyasəti ilə bağlı müxtəlif beynəlxalq tədbirlər də keçirilir. Oktyabrın 28-30-da Bakıda keçiriləcək Gənclər Siyasəti üzrə birinci Qlobal Forum bunun əyani sübutudur. Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi çərçivəsində baş tutacaq tədbirdə dünyanın 160 ölkəsindən parlament nümayəndələrinin, gənclər siyasətinə məsul şəxslərin, gənclər təşkilatları rəhbərlərinin və digər rəsmilərin iştirakı gözlənilir. Forumun 5 əsas tərəfdaşı Avropa Şurası, UNESCO, BMT-nin İnkişaf Proqramı, BMT-nin gənclər siyasəti üzrə elçisi və Azərbaycan hökumətidir. Qeyd edək ki, BMT-nin baş katibi Pan Gi Mun ikinci dəfə bu vəzifəyə seçilərkən təqdim etdiyi 5 əsas istiqamətdən birinin gənclər siyasəti olduğunu vurğulamışdı.

Azərbaycan gənclər siyasətini dəstəkləyən və müxtəlif layihələri təqdim edən ölkələrdən biri olub. Bu gün, həmçinin ölkəmizdə gənclərin vətənpərvərlik, dövlətçilik prinsiplərinə, həmçinin tarixi-mədəni keçmişimizə, milli mənəvi dəyərlərə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir. Əsas məqsəd təbii ki, onların cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul verməkdir. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq gənclərin intellektual və

yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramlar həyata keçirilir. Ölkəmizin bölgələrində müasir tələblərə cavab verən sosial infrastruktur obyektləri və gənclər mərkəzləri, o cümlədən Daşkəsəndə Gənclərin Təlim və İstirahət Mərkəzinin yaradılması da bu məqsədə xidmət edir.

Prezident İlham Əliyev Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, ərazisi 2250 kvadratmetr olan mərkəz respublikada ən böyük gənclər mərkəzlərindən biridir. Mərkəzin foyesində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ictimai-siyasi fəaliyyətlərinin müxtəlif məqamlarını, həmçinin gənclərlə görüşlərini əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Binanın birinci mərtəbəsində stolüstü oyunlar zalı və kafe bütün lazımi avadanlıqla təchiz olunub. Video-studiyada ən son texnologiyalar quraşdırılıb. Burada gənclərin müxtəlif növ verilişlər hazırlamaq imkanı olacaq.

Bildirildi ki, Mərkəzin yaradılmasında əsas məqsəd yeniyetmələr arasında elmi-texniki biliklərin təbliği, onların elmi-yaradıcı təşəbbüslərinin artırılması, bu sahədə istedadlı gənclərin üzə çıxarılmasıdır.

Prezident İlham Əliyevə məlumat verildi ki, binanın ikinci mərtəbəsində mehmanxana fəaliyyət göstərəcək. Burada həm təlim keçən gənclərin, həm də idmançıların rahat istirahəti üçün hər cür şərait yaradılıb. Mərkəzdə kompyuter bilikləri və xarici dil üzrə xüsusi kursların təşkili də planlaşdırılır.

Konfrans zalı müasir üslubda yaradılıb. Burada müxtəlif mövzularda "dəyirmi masa"lar keçirmək mümkün olacaq. Yaradıcılıq mərkəzində gənclər həm sənət öyrənəcəklər, həm də onların əl işləri sərgilənəcək.

Prezident İlham Əliyev açıq havada quraşdırılan idman qurğuları ilə də tanış oldu. Burada futbol, basketbol və voleybol meydançaları var.

Dövlətimizin başçısına məlumat verildi ki, kompleksdə 6 kottec inşa olunub. Burada da istirahət üçün hər cür şərait yaradılıb.

Dövlətimizin başçısı görülən işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.

*17 oktyabr 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DAŞKƏSƏNDƏ HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan dövlətçiliyinin möhkəm əsaslar üzərində qurulmasında, respublikanın hərtərəfli inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə respublikamızda çox mühüm tədbirlər görülür. Bu tədbirlər sırasında dahi şəxsiyyətin adını daşıyan, onun siyasi irsinin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edən mərkəzlərin rolu böyükdür. İndi bu cür mərkəzlər paytaxtla yanaşı, bölgələrdə də inşa olunur. Bu mərkəzlərdən biri də Daşkəsən rayonunda tikilib.

Bu Mərkəz Daşkəsənin görkəminə xüsusi gözəllik verir. Mərkəzdəki foto və eksponatlar bir daha sübut edir ki, Azərbaycanın tənəzzül dövründən yüksəliş mərhələsinə qədəm qoyması və hazırkı hərtərəfli inkişafı, beynəlxalq nüfuzunun artması məhz ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri ilə bağlıdır. Bu cür mərkəzlər Azərbaycanın Heydər Əliyev irsinə əsaslanan davamlı inkişaf konsepsiyasının mahiyyətinin aydın şəkildə öyrənilməsinə real zəmin yaradır.

Mərkəzin birinci mərtəbəsində ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Buradakı ekspozisiya zalında Ulu Öndərin həyat və fəaliyyəti ilə bağlı sənədlər böyük maraq doğurur. Fotostendlərdə Ümummilli Liderin uşaqlıq, yeniyetməlik, tələbəlik, Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi dövr, hakimiyyətdə olduğu illərdə bölgələrə etdiyi səfərlər əks olunub. Bu fotolardan da görünür ki, Ümummilli Lider hər zaman əhalinin rifahını diqqət mərkəzində saxlayıb, onun regionlara səfərlərinin də əsas məqsədi ölkəmizdəki inkişafı hər bir soydaşımızın həyatına daxil etmək idi. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizin tarixinin intensiv inkişaf mərhələsi olub. Respublikamızda mükəmməl idarəçilik məktəbini yaradan Heydər Əliyevin görkəmli ictimai-siyasi xadim kimi tanınmasında onun Azərbaycana, ölkəmizin timsalında regiona, nəticə etibarilə dünyaya sülh, sabitlik, davamlı inkişaf və harmoniya gətirməklə gördüyü böyük işlər mühüm rol oynayıb.

Məlumat verildi ki, Mərkəzdə gənclərin müasir texnoloji yeniliklərlə yaxından tanış olmalarına, onların bilik və bacarıqlarının inkişaf etdirilməsinə yönələn kurslar təşkil ediləcək. Bunun üçün internet sinfi, elektron kitabxana və kompyuter mərkəzi qurulub. Məktəblilərin Azərbaycanın zəngin tarixini dərindən öyrənmələri üçün xüsusi dərnəklər də mövcuddur. Burada, həmçinin rəsm studiyası və xalçaçılıq kursları da fəaliyyət göstərəcək.

*17 oktyabr 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV NAFTALANDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Naftalan şəhərinə səfərə gəliblər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Naftalan şəhərinin mərkəzindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydular.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Natiq Aslanov son vaxtlar şəhərdə görülən işlər və Ulu Öndərin abidəsinin ətrafında aparılan geniş abadlıq tədbirləri barədə Prezident İlham Əliyevə məlumat verdi.

*17 oktyabr 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "NAFTALAN HOTEL BY RIXOS" OTELİNİN YENİ KORPUSUNDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "Naftalan Hotel by Rixos" otelinin yeni korpusunda yaradılan şəraitlə tanış olublar.

Məlumat verildi ki, bu otelin təməli 2008-ci ildə qoyulub. Səkkiz hektardan çox ərazisi olan otel 200 yerlikdir. Ötən ilin aprelinədək "Qaşaltı" sanatoriyası adı altında fəaliyyət göstərən oteldə keçən il yenidənqurma işləri aparılıb. Klassik və avanqard arxitektura elementlərinin sintezi əsasında yaradılan yeni korpusun interyerinin tərtibatında orijinal mebel və aksessuarlardan istifadə olunub.

Sağlamlıq Mərkəzi Korpusunda Naftalan terapiyası ilə yanaşı, SPA terapiya, fizioterapiya və reabilitasiya, o cümlədən fitnes bölmələri fəaliyyət göstərir. Restoranlarda

turistlərə Azərbaycan və dünya mətbəxinin nümunələri təqdim ediləcək. Oteldə su prosedurları korpusu da yaradılıb ki, o da özündə üzgüçülük hovuzunu, yod-brom vannasını, sualtı idman hərəkətləri hovuzunu, sauna və digər bölmələri birləşdirir. Yaxın gələcəkdə sanatoriyanın imkanları nəzərə alınaraq burada müasir rentgen, ultrasəs müayinəsi, stomatologiya, urologiya, kardiologiya, laboratoriya, hərəkət orqanları və dəri xəstəlikləri şöbələri fəaliyyət göstərəcək.

Müxtəlif əyləncə bölmələrinin də olduğu oteldə trenajor zalı, günəş vannası terrası və fəvvarələr kompleksi var. Oteldə hazırda dünya şöhrətli "Rixos" qrupunun nəzarəti altında 182 nəfər çalışır. Heyət yüksək hazırlıq kursu keçib və onların əksəriyyətini yerli kadrlar təşkil edir.

Dövlətimizin başçısı otelin nömrələrində yaradılan şəraitlə tanış oldu.

Bildirildi ki, otelin 92 otaqlı yataq korpusuna daha 71 otaq əlavə edilib. Burada müxtəlif kateqoriyadan olan 163 nömrə müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir. "Naftalan Hotel by Rixos" otelində yaradılan gözəl şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını bir daha təsdiqləyir.

*17 oktyabr 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV NAFTALANDA "QARABAĞ SPA AND RESORT" OTEL KOMPLEKSİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Naftalanda "Qarabağ SPA and Resort" otel kompleksinin açılışında iştirak ediblər.

Avropa ilə Asiya arasında körpü olan respublikamızda idman, mədəniyyət, incəsənət və digər sahələrdə əldə olunan yüksək nailiyyətlər xarici iş adamları ilə yanaşı, turistlərin də ölkəmizə marağını artırıb. Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində ölkədə turizmin inkişafı istiqamətində mühüm layihələrin icrası da buna möhkəm zəmin yaradır.

Son illərdə Azərbaycana böyük turist axını müşahidə olunmaqdadır. Məhz bu baxımdan respublikamızda otel biznesinin daha da inkişafı üçün kompleks tədbirlər görülür. Bu otellərdə qonaqlara yüksək səviyyəli xidmətlər göstərilir. Digər tərəfdən, dünyanın inkişaf etmiş ölkələri sırasında mövqeyini daha da möhkəmləndirməyi qarşıya məqsəd qoyan Azərbaycan artıq ən mötəbər beynəlxalq tədbirlərin tez-tez keçirildiyi məkana çevrilib. Bununla bərabər, ölkəmizdə qeyri-neft sektorunun inkişafı da başlıca prioritetlərdəndir.

Naftalanda inşası yenicə başa çatan "Qarabağ SPA and Resort" otel kompleksi də bu istiqamətdə həyata keçirilən əsaslı addımlardan biridir. Son illərdə bölgələrdə istifadəyə verilən müasir mehmanxana kompleksləri arasında özəlliyi ilə seçilən bu müalicə və istirahət məkanında yaradılan yüksək şərait bir daha təsdiqləyir ki, bu cür komplekslərin sayının çoxalması Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, həm də ölkəyə gələn turistlərin sayının artmasına zəmin yaradır. Bu kompleks təkcə Naftalanın deyil, bütün bölgənin əhəmiyyətli turizm obyektidir.

Prezident İlham Əliyev otel kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, burada tikinti işlərinə 2012-ci ildən başlanıb. Görülən işlər nəticəsində orijinal memarlıq üslubunda gözəl istirahət məkanı yaradılıb. Sahəsi 13 hektardan çox olan kompleksin əhəmiyyətini artıran mühüm cəhətlərdən biri onun yerləşdiyi ərazidə çoxsaylı istirahət məkanlarının olmasıdır. Burada balacalardan tutmuş böyüklərə qədər

hamının maraq dairəsi nəzərə alınıb, onlar üçün guşələr yaradılıb. Tennis kortu, basketbol meydançası, qolf sahəsi istirahətə gələnlərə unudulmaz anlar bağışlayacaq. Helikopter meydançasının da olduğu kompleksdə 8 kilometr uzunluğunda gəzinti yolları, geniş yaşıllıq zolaqları salınıb.

Diqqətə çatdırıldı ki, otelin beşmərtəbəli binasında turistlərə ən yüksək səviyyədə xidmət göstəriləcək. Müxtəlif korpusları özündə birləşdirən kompleksdə yaradılan ideal şərait bir daha ölkəmizdə turizm sektorunun inkişafına dövlət səviyyəsində göstərilən diqqəti nümayiş etdirir. SPA terapiya üsullarına geniş yer verilən oteldə müxtəlif restoranlar və kafelər burada istirahətə gələnlərin istək və arzularının yerinə yetirilməsinə imkan verir.

Bildirildi ki, 264 yerlik oteldə bütün zəruri avadanlıqla təchiz olunmuş 132 otaq var. Digər mühüm cəhət burada çalışanların böyük əksəriyyətinin yerli işçilər olmasıdır. Onların ixtisaslarının artırılması ilə bağlı müvafiq işlər gedir və bu, gələcəkdə də davam etdiriləcək.

Sonra Prezident İlham Əliyev otelin əməkdaşları ilə görüşdü.

Şəhər ictimaiyyətinin nümayəndələrini salamlayan Prezident İlham ƏLİYEV dedi:

- Sizi "Qarabağ" otelinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Çox gözəl oteldir, böyük zövqlə tikilib. Həm xarici görünüşü, həm daxili tərtibatı ən müasir standartlara cavab verir. Əminəm ki, qonaqlar burada yaxşı istirahət edəcək, yaxşı müalicə alacaqlar. Müalicə üçün də bütün imkanlar var. Mən indi otellə tanış oldum, burada ən müasir avadanlıq quraşdırılıb və bütün lazımi şərait yaradılıb. Ərazisi də abadlaşdırılıb, yəni, gəzinti üçün gözəl imkanlar var.

Bu otel ölkəmizdə turizmin inkişafı üçün öz rolunu oynayacaq. Çox şadam ki, Naftalanda otellərin sayı artır. Bu vaxta qədər Naftalanda tikilən bütün yeni otellərin açılışlarında şəxsən iştirak etmişəm – "Çinar" oteli, "Qaşaltı", - indi onun adı "Rixos" olmuşdur, - indi də "Qarabağ" oteli. Adı da, özü də gözəldir və bu, əslində Naftalanı dünyaya beynəlxalq turizm mərkəzi kimi geniş şəkildə təqdim edəcək.

Naftalanın çox böyük tarixi, şöhrəti var. Biz bu şöhrəti indi bərpa edirik. Sovetlər vaxtında 80 minə qədər turist gəlirdi. Biz son illərdə bu praktikanı bərpa edirik. Bu il 15 minə qədər turistin gəlişi gözlənilir. Hələ ki, biz sovet səviyyəsinə çatmamışıq, ancaq əminəm ki, çatacağıq.

Siz yəqin bilirsiniz ki, bir neçə il bundan əvvəl "Çinar" otelinin yenidən qurulub istifadəyə verilməsi ilə Naftalanda otel biznesi sürətlə inkişaf etməyə başlamışdır. O vaxta qədər Naftalanın inkişafı o qədər də sürətlə getmirdi. Erməni işğalından əziyyət çəkən soydaşlarımız burada məskunlaşmışdılar. Bütün keçmiş sanatoriyalarda, pansionatlarda məcburi köçkünlər məskunlaşmışdılar. Biz ilk növbədə, onların problemlərini həll etməyə başladıq və buna nail olduq. Onlar indi gözəl evlərə köçürülüblər və məcburi köçkünlər üçün çox gözəl şərait yaradılıb. Köhnə, sovet vaxtından qalan sanatoriyaların yerlərində bax, belə gözəl otellər tikilir.

Vaxtilə burada "Qarabağ" sanatoriyası yerləşirdi. Tamamilə yararsız vəziyyətdə idi, söküldü və yerində yenə də "Qarabağ" adını saxlamaq şərti ilə gözəl, ən yüksək dünya səviyyəsinə uyğun otel tikilib. Beləliklə, hazırda Naftalanda beşulduzlu 3 otel fəaliyyət göstərir. Əminəm ki, gələcəkdə bu otellərin sayı daha da artacaq. Çünki əgər sovet dövründə Naftalana daha çox sovet məkanından gəlirdilərsə, indi biz istəyirik ki, həm əlbəttə, postsovet məkanından, eyni zamanda, başqa xarici ölkələrdən də turistlər gəlsinlər. Çünki indi bütün imkanlar var. Gəncə Beynəlxalq Aeroportu tikilib, yaxşı yollar salınıb. Naftalan şəhəri gözəlləşir, abadlaşır, bütün binalar bərpa edilir, ictimai yerlər, parklar yaradılır. Yəni, Naftalan əslində dünya miqyasında bir turizm mərkəzinə çevrilir.

Yəqin bilirsiniz ki, dünyada, xüsusilə dünyanın qabaqcıl ölkələrində tibbi turizm də inkişafdadır. Hesab edirəm ki, Azərbaycan da bu sahədə öz sözünü deməlidir. Azərbay-

canda tibbi-müalicəvi turizmin inkişafına məhz Naftalanda start verilmişdir. Əminəm ki, bu proseslər, bu meyillər uğurla davam edəcək. Çünki Azərbaycanda belə müalicəvi yerlər kifayət qədər çoxdur. Onlardan biri də Qalaaltıdır. Orada da insan orqanizmi üçün çox xeyirli su mənbəyi vardır. İndi orada da otel tikilir. Yəqin ki, gələn il istifadəyə veriləcəkdir. Naxçıvanda duz mağaralarında, digər yerlərdə müalicəvi xidmətlər göstərilir. Yəni, biz öz təbii imkanlarımızdan maksimum dərəcədə istifadə edirik ki, gözəl şərait yaradaq.

Naftalana gələnlərin arasında Azərbaycan vətəndaşları üstünlük təşkil edir. Yəni bu, əslində daxili turizmin inkişafıdır və getdikcə daha da çox Azərbaycan vətəndaşları gələcəklər. Çünki xalqımızın rifah halı, maddi vəziyyəti yaxşılaşır, işsizlik demək olar ki, aradan götürülübdür. Beləliklə, həm ölkə daxilindən, həm xaricdən buraya gələnlərin sayı çoxalacaq. Hazırda "Çinar" və "Rixos" otellərində demək olar ki, otaqların orta hesabla 70 faizi artıq doludur. Əminəm ki, burada da elə olacaq. Bəlkə də burada otaqların hamısı dolacaqdır. Əminəm ki, buraya gəlmək istəyənlərin sayı çox olacaqdır.

Biz Naftalanın infrastruktur layihələrinin icrasını da paralel olaraq həll edirik. Mən keçən il burada olmuşam. Biz içməli su layihəsinin açılışını qeyd etdik. Digər layihələr icra edilir. Bir sözlə, gözəl təbiəti olan, dağların əhatəsində yerləşən Naftalan müasir şəhərə çevrilmişdir. Buraya ilk gəlişimdə əlbəttə ki, mənzərə tam başqa idi. Onu indiki mənzərə ilə müqayisə etmək mümkün deyil. Hər yerdə belə olmalıdır. Bax, bu səviyyə Azərbaycan standartlarıdır, biz buna belə deyirik və biz bu standartları ölkəmizin hər bir bölgəsində tətbiq etməyə çalışırıq.

Bütövlükdə Azərbaycanda turizmin inkişafı sürətlə gedir. Bakıda dünyanın ən aparıcı otellər şəbəkələri fəaliyyət göstərir. Son iki-üç il ərzində Bakıda altıdan çox beşulduzlu otel tikilmişdir. Onlar həm xarici görünüşü ilə şəhərimizi gözəlləşdirir, eyni zamanda, dünyanın aparıcı otel markaları Bakıdadır. Bu da ölkəmizin ümumi inkişafını göstərir.

"Four Seasons", "Fairmont", "Hilton", "Mariott" "Kempinski" "Jumeirah", "Sheraton", "Hyatt", "Radisson" – yəni, bunlar aparıcı otel şəbəkələridir ki, Bakıda fəaliyyət göstərir. Nəyə görə? Çünki investorların ölkəmizin gələcəyinə böyük inamı var. Ona görə ki, Azərbaycan inkişaf edir, gözəl işlər görülür, təhlükəsizlik tam şəkildə təmin edilir. Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. Böyük imkanlar var. Biznes imkanları genişlənir, tarixi yerlərimiz kifayət qədər çoxdur, gələnlər bizim zəngin mədəniyyətimizlə tanış olurlar. Ona görə aparıcı otel brendləri Bakıdadır və bu proses gedir. Hazırda Bakıda iki gözəl yeni otel tikilir. Birinin adı "İnturist" olacaq. Çünki əfsuslar olsun ki, bir neçə il bundan əvvəl Bakının simvollarından biri olan "İnturist" oteli sökülmüşdür. Ancaq o yerdən o qədər də uzaq olmayan bir yerdə eyni memarlıq üslubunda yeni otel tikilir, adı da "İnturist" olacaq. Yəni, biz köhnə "İnturist"i yenidən qururuq. Hazırda "Ağ Şəhər" bulvarında otaqlarının sayına görə bəlkə də Azərbaycanda ən böyük otel tikilir. İndi ictimaiyyət üçün o yerlər bağlıdır, çünki işlər gedir. Ancaq təqribən bir neçə aydan sonra "Ağ Şəhər" bulvarı açılacaq, yeni otellər fəaliyyətə başlayacaq. Bir daha demək istəyirəm ki, bu, ölkəmizin ümumi inkişafının göstəricisidir və nəinki Bakıda, Naftalanda, başqa şəhərlərdə belə gözəl əsərlər yaradılır. Siz - burada işləyənlər, əlbəttə ki, ən yüksək xidmət göstərəcəksiniz. Buna əminəm. Siz təlim keçmisiniz ki, buraya gələn qonaqlar hər şeydən razı qalsınlar.

Sizi bir daha təbrik edirəm. Sağ olun.

* * *

Daha sonra xatirə şəkli çəkdirildi.

Dövlətimizin başçısı və xanımı elektromobillə otelin ərazisini gəzdilər.

*17 oktyabr 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GORANBOYDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Goranboy rayonuna səfərə gəliblər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Goranboy rayonunun mərkəzindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydular.

Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev son vaxtlar rayonda görülən işlər və Ulu Öndərin yeni ucaldılan abidəsinin ətrafında aparılan geniş abadlıq tədbirləri barədə Prezident İlham Əliyevə məlumat verdi.

Bildirildi ki, ümummilli lider Heydər Əliyevin adını daşıyan parkda aparılan abadlıq-quruculuq işləri nəticəsində burada əhalinin istirahəti üçün hər cür şərait yaradılıb. Geniş yaşıllıq zolaqlarının salındığı parkda orijinal memarlıq quruluşuna malik Heydər Əliyev Mərkəzi inşa edilib.

*18 oktyabr 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV GORANBOYDA HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Goranboyda Heydər Əliyev Mərkəzinin açılışında iştirak ediblər.

Ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə paytaxtla yanaşı, respublikanın bütün bölgələrində də silsilə tədbirlər həyata keçirilir. Goranboyda yeni inşa olunan Heydər Əliyev Mərkəzi də bu tədbirlərin ardıcıl xarakter aldığını bir daha göstərir. Bu, ilk növbədə Goranboy sakinlərinin əbədiyaşar lider, dahi rəhbərin xatirəsinə olan ehtiramını nümayiş etdirir. Yeni Mərkəzin yaradılması həm də Ulu Öndərin zəngin və çoxşaxəli irsinin təbliğində və öyrənilməsində mühüm rol oynayır. Mərkəzdəki fotolar və digər eksponatlar sübut edir ki, Azərbaycanın tənəzzül dövründən inkişaf mərhələsinə qədəm qoyması və indiki hərtərəfli inkişafı, beynəlxalq nüfuzunun artması məhz ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri ilə bağlıdır. Bu cür mərkəzlər Azərbaycanın Heydər Əliyev irsinə əsaslanan və indi də uğurla davam etdirilən inkişaf konsepsiyasının hərtərəfli öyrənilməsinə real zəmin yaradır. Bu, bir daha göstərir ki, Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçib. Bunun sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrilib, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil edib. Ümummilli lider Heydər Əliyev öz titanik fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaradıb, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəlib. Ulu Öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müasir müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazıb. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil olub. Onun Azərbaycana rəhbərlik etdiyi illər milli intibah dövrü kimi əbədiləşib.

Prezident İlham Əliyev Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısı Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunduğu fotolara baxdı. 4300 kvadratmetr ərazisi olan Mərkəzdə Ümummilli Liderin

xatirəsinin əbədiləşdirildiyi muzey yaradılıb. Bu muzeyin ekspozisiya zalının zənginliyi bir daha təsdiqləyir ki, ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı xidmətləri ölçüyəgəlməzdir. Ulu öndər Heydər Əliyev özünün qeyri-adi intellektini yalnız xalqa, dövlətə və Vətənə xidmətə həsr edib. Ona görə də haqlı olaraq müstəqil Azərbaycan dövlətini Heydər Əliyevin şah əsəri adlandırırlar.

Bildirildi ki, Mərkəzdə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və bununla bağlı mərasimlər təşkil olunacaq. Mərkəzin funksionallığını artırmaq məqsədilə burada diskussiya zalları qurulub. Böyük akt zalı 134 yerlikdir və burada bir çox tədbirlərin keçirilməsi üçün hər cür imkan var. Həmçinin Mərkəzdə elektron kitabxana və linqafon otağı yaradılıb. Burada internet-kafe, rəssamlıq və atıcılıq otaqları, fotostudiya, xalçaçılıq və tikiş bölməsi qurulub. Bir sözlə, Ulu Öndərin zəngin siyasi irsinin öyrənilməsi üçün Mərkəzdə hər cür şərait var.

*18 oktyabr 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GƏNCƏDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Gəncə şəhərinə səfərə gəliblər.

Dövlətimizin başçısı və xanımı ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev ərazidə aparılan yenidənqurma işləri barədə Prezident İlham Əliyevə məlumat verdi.

*18 oktyabr 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV GƏNCƏ ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV PARKI İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Gəncə şəhərindəki Heydər Əliyev Parkında olublar.

Məlumat verildi ki, orijinal layihə əsasında salınan, möhtəşəmliyi və əzəməti ilə seçilən parkın girəcəyindəki "Zəfər tağı"nın açıq seyrəngahından şəhərin və Heydər Əliyev Parkının mənzərəsini seyr etmək mümkündür. Göz oxşayan xiyabanda geniş yaşıllaşdırma işləri həyata keçirilib və istirahət üçün hər cür şərait yaradılıb. Parkda yaradılan süni göl və orijinal şəlalə bu məkana xüsusi gözəllik verir. Bundan başqa, park kompleksində müxtəlif iaşə obyektləri, əyləncə mərkəzləri, istirahət guşələri var.

Ümummilli lider Heydər Əliyev hələ sovet dövründə burada Gəncənin rəmzi sayılan çinar ağacları əkib. İndi həmin ağaclar parka xüsusi gözəllik verir.

Dövlətimizin başçısı və xanımı elektromobillə parkın ərazisini gəzdilər.

*18 oktyabr 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GƏNCƏ DÖVLƏT FİLARMONİYASININ BİNASINDA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə tanış olublar.

Prezident İlham Əliyev 2012-ci il yanvarın 21-də Gəncədə olarkən Dövlət Filarmoniyası binasının təməlini qoymuşdu. Hazırda binanın tikintisi davam etdirilir.

Prezident İlham Əliyev və xanımı binanın tərtibat işlərində istifadə olunacaq materiallara baxdılar.

Dövlətimizin başçısına məlumat verildi ki, burada 1200 tamaşaçı yeri olan konsert zalı, açıq havada yay kino-teatrı, rəsm qalereyası, urban mərkəzi, baxış qülləsi yaradılacaq. Binada iaşə obyektləri, həmçinin yeraltı qaraj və yardımçı xidməti otaqlar fəaliyyət göstərəcək. Binanın fasadında Azərbaycan musiqi korifeylərinin heykəlləri qoyulacaq. Bina 6 mərtəbəlidir, qüllə ilə birlikdə hündürlüyü 26 metrdir. Obyektdə tikinti-quraşdırma işləri yekunlaşmaq üzrədir.

Azərbaycan Prezidenti İlham Əliyev tikinti işlərinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi ilə bağlı tapşırıqlarını verdi.

*18 oktyabr 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GƏNCƏ DÖVLƏT DRAM TEATRININ YENİ BİNASININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Gəncə Dövlət Dram Teatrının yeni binasının təməlqoyma mərasimində iştirak ediblər.

Məlumat verildi ki, Gəncə Dövlət Dram Teatrının yeni binası Gəncə çayının sağ sahilində, Əhməd Cəmil və Mirzə Abbas Abbaszadə küçələrinin kəsişməsində, Məhsəti Gəncəvi Mərkəzinin qarşısında tikiləcək. Prezident İlham Əliyev bu ilin yanvarında Gəncə şəhərinə səfəri zamanı bir sıra mədəniyyət ocaqlarının açılışını etməklə yanaşı, Dövlət Dram Teatrı binasının tikintisi üçün də göstəriş vermişdi.

Dövlətimizin başçısının Sərəncamı ilə teatrın yeni binasının tikintisinə ilkin mərhələdə 3 milyon manat vəsait ayrılıb.

Yeni binanın inşası üçün bir hektar torpaq sahəsi ayrılıb. Ümumi sahəsi 13 min kvadratmetr olacaq Gəncə Dövlət Dram Teatrının binası müasir standartlara cavab verəcək. Binanın tamaşaçı zalı 520 nəfər üçün nəzərdə tutulub. Burada 150 yerlik yeraltı avtomobil dayanacağı, restoran, çayxana, kafe və digər iaşə obyektləri fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev Gəncə Dövlət Dram Teatrının yeni binasının təməlini qoydu.

Dövlətimizin başçısına ətrafda aparılan abadlıq-quruculuq işləri barədə də məlumat verildi.

*18 oktyabr 2014-cü il*

# PREZİDENT İLHAM ƏLİYEV "İMAMZADƏ" KOMPLEKSİNDƏ APARILAN TƏMİR-BƏRPA VƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 18-də Gəncə şəhərindəki "İmamzadə" kompleksində aparılan təmir-bərpa və tikinti işlərinin gedişi ilə tanış olublar.

Qafqaz Müsəlmanları İdarəsinin qərb bölgəsi üzrə nümayəndəsi dövlətimizin başçısına müqəddəs Qurani-Kərim hədiyyə etdi.

Dövlətimizin başçısı və xanımı kompleksin eskiz layihələrinə baxdılar.

Məlumat verildi ki, VIII əsrə aid tarixi memarlıq abidəsi - xalq arasında Göy günbəz, Göy məscid, yaxud Göy İmam kimi tanınan "İmamzadə" kompleksi Gəncə şəhərinin və bütövlükdə ölkənin ən maraqlı memarlıq abidələrindən biridir. Türbə bu kompleksin ən qiymətli abidəsidir. Burada beşinci imam Məhəmməd Bağırın oğlu İbrahim dəfn olunub. Memarlıq quruluşuna görə türbənin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi ehtimal edilir. Türbə sonralar ziyarətgaha çevrilib və onun ətrafında müxtəlif binalar inşa edilib. Orta əsr Azərbaycan memarlığının dəyərli nümunələrindən olan "İmamzadə" piri Şərqin qədim karvan-ticarət yolunun üzərində yerləşib. "İmamzadə" əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahına çevrilib. Bu dini abidə Gəncənin qədimliyini sübut etməklə yanaşı, şəhərin İslam aləmindəki yerini və nüfuzunu da göstərir. Prezident İlham Əliyev bu abidə-ziyarətgahın da təmiri və bərpası ilə bağlı xüsusi Sərəncam imzalayıb. Sərəncama əsasən 2010-cu ildən kompleksin əsaslı şəkildə yenidən qurulması davam etdirilir. "İmamzadə"nin bərpası və təmiri üçün dövlətimizin başçısı İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Prezidentin ehtiyat fondundan 9 milyon manat, bu ilin mayında isə daha 3 milyon manat vəsait ayrılıb. Dövlətimizin başçısı burada görülən işlərlə şəxsən 2 dəfə tanış olub, müvafiq tapşırıq və tövsiyələrini verib.

Prezident İlham Əliyevə və xanımına məlumat verildi ki, kompleksin ərazisinin 10 min kvadratmetrinə asfalt örtüyü salınıb, səkilərə bəzək daşları döşənib, müasir işıqlandırma sistemi quraşdırılıb, mükəmməl infrastruktur yaradılır. Burada 42 metr hündürlüyündə 2 minarə, namazgah və ziyarət zalı tikilib. Ərazidə 500 avtomobil üçün 2 dayanacaq inşa edilib. İki zaldan ibarət namazgahda nəfis xəttatlıq işləri görülüb və kaşı materialla örtülüb. Layihəni icra edən "Gəncəkörpütikinti-2" Səhmdar Cəmiyyəti ziyarətgahda təmir bərpa və tikinti işlərini apararkən qədim memarlıq üslubunu saxlamağa xüsusi diqqət yetirib.

Dövlətimizin başçısı və xanımı beşinci imam Məhəmməd Bağırın oğlu İbrahimin məzarının yerləşdiyi türbədə oldular. Burada dua oxundu. Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya müqəddəs Qurani-Kərim bağışlandı.

Bildirildi ki, 200 kvadratmetr ərazini əhatə edən qurbangahda da işlər tamamlanır. Ziyarətgahın üçmərtəbəli əsas binasında təmir işləri başa çatır. Birinci mərtəbəsi dəstəmazgah, ikinci mərtəbəsi inzibati otaqlar, üçüncü mərtəbəsi isə mehmanxanadan ibarət olan binada zəvvarlar üçün hər cür şərait yaradılıb.

Dövlətimizin başçısına və xanımına ziyarətgahın digər sahələrində, həmçinin 1000 nəfərlik zaldan və mətbəxdən ibarət ehsanxanada hazırda davam etdirilən işlər barədə məlumat verildi.

Prezident İlham Əliyev kompleksdə təmir-bərpa işlərinin uğurla yekunlaşdırılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

*18 oktyabr 2014-cü il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA GƏNCLƏR SİYASƏTİ ÜZRƏ BİRİNCİ QLOBAL FORUMUN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı açılış mərasimində nitq söyləyib.

## PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Əvvəlcə, mən bütün qonaqlarımızı Azərbaycanda salamlamaq istərdim. Gənclər siyasəti ilə bağlı ölkəmizdə keçirilən ilk qlobal forum bizim üçün çox vacib tədbirdir. Bu qədər çox ölkənin nümayəndələrini qəbul etməkdən böyük şərəf hissi duyuruq. Əminəm ki, ölkəmizdə keçirəcəyiniz vaxt sizin xatirənizdə qalacaq. Gənclər siyasəti ilə bağlı ilk forumun burada keçirilməsindən fərəh hissi duyuruq. Əlbəttə ki, gələcəkdə bir çox digər forumlar da keçiriləcək. Lakin bu forum tarixdə ilk forum kimi qalacaq. Biz qəbul edən ölkə kimi Azərbaycanı seçdiklərinə görə təşkilatçılara minnətdarıq. Bunu hökumətimizin idman və gənclər, fəal inkişaf siyasəti sahəsində göstərdiyi səylərin yüksək qiymətləndirilməsi kimi qəbul edirik. Gənclər, idman, incəsənət bir-biri ilə bağlıdır. Ölkəmiz və hökumətimiz həyatımızın bu sahələrinə böyük əhəmiyyət verir.

Bizim üçün mühüm prioritetlərdən biri də təhsildir. Fərəhlənirik ki, Azərbaycanda savadlılıq səviyyəsi demək olar ki, yüz faiz təmin edilib. Gənclər siyasətinə gəldikdə, həmçinin olduqca mükəmməl qanunvericilik bazası mövcuddur. Gənclər siyasəti ilə bağlı qanun var. Azərbaycanda gənclərlə bağlı iki Dövlət Proqramı qəbul edilib və uğurla həyata keçirilib. Bu yaxınlarda biz Gənclər Fondunu yaratmışıq. Dövlət büdcəsindən bu fonda ayrılan vəsaitlər gənclərə özlərini cəmiyyətdə təqdim etməyə şərait yaradır. Onlar mədəniyyət, təhsil və sosial sahələrə, eləcə də siyasi islahatlara aid olan layihələr üzərində işləyirlər. Başqa sözlə desək, bu fond gənc nəslə öz istedadını müəyyən etməyə, özünü cəmiyyətə təqdim etməyə və beləliklə, ölkəmizin inkişafına töhfə verməyə yardım edir.

Təhsil və savadlılıq məsələlərinə toxundum. Həmçinin bildirmək istəyirəm ki, təhsil də hökumətimiz üçün əsas prioritetlərdən biridir. Çünki biz tamamilə əminik ki, yalnız təhsilli, müxtəlif sahələrdə biliklərə malik insanlar həm ölkənin, həm özlərinin inkişafına kömək edə bilərlər. Əgər dünyada inkişaf etmiş ölkələrin keçdiyi yola və əldə etdiyi nailiyyətlərə nəzər yetirsək, görərik ki, uğurlu inkişafın əsas vasitələri enerji sərvətləri, mineral ehtiyatlar, neft və qaz yox, məhz təhsil, elm və texnoloji yeniliklərdir. Yalnız təhsil, bilik və texnologiya bütün bəşəriyyətin aparıcı qüvvəsidir. Bütövlükdə bəşəriyyət innovasiyalardan, müasir texnologiyalardan faydalanır. Buna görə də təhsil Azərbaycanda prioritetlərdən biridir. Hesab edirik ki, beynəlxalq təhsil mərkəzləri ilə sıx əməkdaşlıq edərək biz daha böyük nailiyyətlər qazana bilərik. Bu səbəbdən uzun illər ərzində hökumətimiz gənc nəsillərimiz üçün dünyanın aparıcı universitetlərində təhsil proqramlarını maliyyələşdirir. Bu il təqribən 40 milyon avroya yaxın vəsait gənclərimizin xaricdə təhsili üçün sərf edilib. Eyni zamanda, biz Azərbaycanda təhsilin səviyyəsini artırmaq üçün bu sahəyə böyük sərmayələr yatırırıq və universitetlərimizlə dünyanın aparıcı təhsil ocaqları arasında beynəlxalq əlaqələri daha da artırmağa çalışırıq.

Biz bu siyasətin faydasını görürük. Bu gün Azərbaycanın gənc nəsli yeni, müasir və müstəqil ölkənin qurulmasında fəal iştirak edir.

Hökumətimiz üçün prioritetlərdən biri də idmandır. Həmçinin bizim burada da yaxşı nailiyyətlərimiz var. İdmançılarımız Azərbaycanı beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında, eləcə də Olimpiya Oyunlarında layiqincə təmsil edirlər. Sonuncu Olimpiya Oyunları bizim üçün tarixi əhəmiyyətə malikdir. Çünki 2012-ci il London Yay Olimpiya Oyunlarında Azərbaycan əvvəlki illərlə müqayisədə ən yüksək nəticəni əldə etdi. Azərbaycan demək olar ki, 200 ölkə arasında 30-cu oldu. Gənclər arasında Olimpiya Oyunları da Azərbaycan üçün əlamətdar oldu. Yığmamız təxminən 200 ölkə arasında 10-cu oldu. Bu, onu göstərir ki, Olimpiya hərəkatının inkişafı, müasir idman qurğularının yaradılması siyasəti nəticə verir. Eyni zamanda, idman cəmiyyətimizin həyatının ayrılmaz hissəsinə çevrilib. Gənc nəslin idman fəaliyyətinə qoşulması və həvəsləndirilməsi məqsədini daşıyan Dövlət proqramları nəinki ölkənin beynəlxalq yarışlarda nüfuzu, o cümlədən gənclərə uğurlu yolun göstərilməsi baxımından vacibdir. Eyni zamanda, fiziki sağlamlıq gənclərə bütün həyatları boyu yardımçı olur. Bunun sayəsində gənclər pis vərdişlərdən, alkoqoldan, siqaret çəkməkdən və narkotik maddələrdən uzaq olurlar.

Buna görə siyasətimizin sosial sahəsi vacibdir. Həmçinin fərəhlənirik ki, Azərbaycan Avropa və dünya çempionatlarını qəbul edən ölkəyə çevrilib. Gələn il Azərbaycanda ilk Avropa Oyunlarını keçirəcəyik. Bu, bizim üçün tarixi hadisə olacaq. Panamerika, Asiya, Afrika Oyunlarından fərqli olaraq, Avropa Oyunları əvvəllər heç zaman keçirilməyib. Bu tədbir ilk dəfə burada keçiriləcək. Bu Oyunlara 6 mindən çox atlet qatılacaq. Bu idman tədbirini Yay Olimpiya Oyunları səviyyəsində keçirməyi planlaşdırırıq.

Biz 2016-cı ildə Dünya Şahmat Olimpiadasını keçirəcəyik. Şahmat komandamızın uğurlarından da hamımız fərəhlənirik. Yeri gəlmişkən deyim ki, bu komandanın bütün üzvləri gənc nəslin nümayəndələridir. Onların sırasında Avropa çempionları var. 2017-ci ildə isə İslam Həmrəyliyi Oyunları keçiriləcək. Görürsünüz ki, qısa müddət ərzində Avropa və İslam Həmrəyliyi Oyunları bir-birini əvəzləyəcək. Əslində, bu, Azərbaycanın beynəlxalq məsələlərdə oynadığı rolu aydın şəkildə nümayiş etdirir.

Biz nadir ölkələrdən biriyik ki, hazırda həm Nazirlər Komitəsində sədrlik etdiyimiz Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvüyük. Biz 2008-ci ildə başlamış "Bakı prosesi"nin təşəbbüskarıyıq. Həmin vaxt biz Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin iclasına onların İslam Əməkdaşlıq Təşkilatındakı həmkarlarını da dəvət etdik. İlk dəfə idi ki, bu iclasda Avropa və müsəlman aləmini təmsil edən 100-dən artıq ölkə iştirak edirdi. Sonradan bu tədbir davam etdirildi. Biz eyni tədbirləri gələn il ərzində də keçirəcəyik. Ona görə ki, bu təşəbbüslər sivilizasiyalar, xalqlar və ölkələr arasında daha çox anlaşmaya xidmət edir.

Azərbaycanın ən böyük nailiyyətlərindən biri ondan ibarətdir ki, burada mədəni müxtəliflik, etnik və dini tolerantlıq mühiti hökm sürür. Azərbaycan çoxmillətli, çoxdinli ölkədir. Bütün vətəndaşlarımız sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Biz sivilizasiyalar dialoquna töhfə veririk. İki dəfə mədəniyyətlərarası dialoq forumlarını keçirmişik. Mədəni müxtəlifliyə, multikulturalizmə aid, dünyanın müxtəlif yerlərində yaşayan insanların hansı şəkildə birgə işləməsinə, əməkdaşlığına və qarşılıqlı fəaliyyətinə həsr olunmuş Bakı Beynəlxalq Humanitar Forumunu dörd dəfə təşkil etmişik. Çünki hamımız bilirik ki, bu gün ən böyük təhdidlərdən biri sivilizasiyalar arasında ayrılmadır. Biz Azərbaycanda tariximizi, adət-ənənələrimizi və coğrafi mövqeyimizi, Avropa və müsəlman təşkilatlarına üzvlüyümüzü nəzərə alırıq. Biz sıx əməkdaşlığa, daha çox anlaşmaya, dəstəyə töhfə verməyə çalışırıq. Hesab edirəm ki, həmin səylər yaxşı nəticələr verəcək. Bu gün biz burada, Bakıda bütün dünyadan gəlmiş təmsilçiləri qəbul edirik. Siz gənclər cəmiyyətlərinizin fəal təbəqəsinin nümayəndələrisiniz. Ölkələrinizdə sizi böyük gələcək gözləyir. Buna görə tanış olmaq, birgə çalışmaq, bir-birinizin problemlərini anlamaq və yardım

etmək cəhdləri, fikrimcə, çox vacibdir. Hazırkı qlobal forum, həmçinin bu baxımdan çox əhəmiyyətli olacaq.

Gənc nəslimiz innovasiyalarla bağlı məsələlərdə fəal iştirak edir. Gənc nəsil çox yaradıcıdır, dinamikdir. Həmçinin, Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində də sürətlə inkişaf edir. Hazırda ilk peykimiz var. Biz kosmos sənayesinə malik olan ölkəyik. Buna görə informasiya texnologiyaları çox sürətlə inkişaf edir və burada gənc nəslimiz aparıcı qüvvədir.

Biz iki ildən az müddət öncə "ASAN" adlanan yeni dövlət xidmətləri sistemini tətbiq etməyə başlamışıq. İngiliscə bu, "easy" yəni, "asan" deməkdir. Eyni yerdə "bir pəncərə" prinsipi ilə təqribən 30 növ xidmət göstərilir. "ASAN" sistemində çalışanların və könüllülərin tam əksəriyyəti gənc nəslin nümayəndələridir. Buna görə bu gün biznes fəaliyyətinin bir çox sahələrində bilikli, vətənpərvər, Azərbaycanın inkişafına çox sədaqətli gənc idarəetmə mütəxəssisləri var. Əminəm ki, gələn illərdə bu meyil daha da güclənəcək. Bir sözlə, bunlar bizim üçün əhəmiyyətli olan əsas sahələrdir.

Azərbaycan müstəqillik baxımından gənc ölkədir, yalnız 23 ildir ki, müstəqildir. Eyni zamanda, əhali də çox gənc, dinamik və fəaldır. Gənc nəslimizi iqtisadi və siyasi həyatımızın hər bir sahəsinə qoşmaq məqsədilə apardığımız fəal dövlət siyasəti hazırda yaxşı bəhrə verir.

Təhlükəsizlik məsələlərinə gəldikdə, biz, həmçinin yalnız gənc nəslə güvənirik. Sərhədlərimizi qoruyan, hazırda erməni təcavüzkarları ilə üzbəüz səngərdə dayanan gənc azərbaycanlılar Vətənini qoruyur. Erməni təcavüzü zamanı əziyyət çəkmiş insanlarımızın əksər hissəsi gənc nəslin nümayəndələri olub. Bu, regional təhlükəsizliyə ən böyük təhdiddir. Əfsuslar olsun ki, ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlində Azərbaycan Ermənistanın silahlı təcavüzü, etnik təmizləmə siyasəti və tarixi torpaqlarımızı işğal etməsi ilə üzləşdi. Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir, əsrlər boyu azərbaycanlılar bu bölgədə yaşayıblar. Ermənistanın dəstəklədiyi təcavüzkar separatizm bu vəziyyəti yaratdı. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təqribən 20 faizi iyirmi ildən çoxdur ki, Ermənistanın işğalı altındadır. Bir milyon insan həmin təcavüz nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılıb. Ermənilər tərəfindən Xocalı soyqırımı törədilib və 600-dən çox günahsız insan, - onlardan 100-dən artıq qadın, 60-dan çox uşaq, - yalnız azərbaycanlı olduqlarına görə qətlə yetirilib.

Bu gün Ermənistandakı diktatorluq, kriminal rejim beynəlxalq və regional təhlükəsizliyə və sabitliyə ən böyük təhlükədir. Bütün beynəlxalq təşkilatlar mövqeyimizi dəstəkləyir. BMT Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Bu qətnamələr kağız üzərində qalır və iyirmi ildən çoxdur ki, icra olunmur. ATƏT eyni qərarları qəbul edib. Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digərləri belə qərarlar qəbul ediblər. Onlar mövqeyimizi və Azərbaycanın ərazi bütövlüyünü tam dəstəkləyir. Dünyanın bütün ölkələri Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Lakin münaqişə hələ ki, praktiki baxımdan həll olunmayıb. Onun həlli beynəlxalq təşkilatların, xüsusən də BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrinə əsaslanmalıdır. Çünki BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir. Görürük ki, bəzi hallarda onlar bir neçə gün ərzində icra olunur. Bizə gəldikdə isə onlar iyirmi ildən çoxdur kağız üzərində qalır.

Biz daha güclü, daha təsirli olmalıyıq və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə, Azərbaycanın ərazi bütövlüyünə əsaslanaraq həllinə nail olmaq üçün ürəkdən çalışmalıyıq. Əminəm ki, o gün gələcək və biz öz doğma torpaqlarımıza - Dağlıq Qarabağa, eləcə də işğal olunmuş digər ərazilərə qayıdacağıq. Beynəlxalq ictimaiyyət

nəinki bu məsələ ilə əlaqədar, ümumiyyətlə, bizi qəti surətdə dəstəkləyir. Bunun bariz nümunəsi Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi oldu. Biz iki il - 2012-2013-cü illər ərzində Təhlükəsizlik Şurasının üzvü olduq. Biz beynəlxalq ictimaiyyətin tam əksəriyyətinin dəstəyi ilə seçildik, 155 ölkə Azərbaycanın lehinə səs verdi. Bu, bizim üçün xüsusilə vacib idi. Çünki o vaxt cəmi iyirmi il öncə müstəqillik qazanmış Azərbaycan beynəlxalq birliyin mühüm üzvünə çevrildi və biz 155 ölkənin bu cür güclü dəstəyinə nail olduq.

Bu, yalnız bizim fəal diplomatiyamızın və beynəlxalq səviyyədə səylərimizin sayəsində deyil, o cümlədən Azərbaycanın artıq etibarlı tərəfdaş, müstəqil xarici siyasət yürüdən, regional və beynəlxalq problemlərə gəldikdə, öz mövqeyi ilə seçilən ölkə kimi tanınması nəticəsində mümkün oldu. Biz öz mövqeyimizi təkcə ifadə etmirik, onu müdafiə edirik və mövqeyimizin bu və ya digər səbəblərə, tarixi hadisələrə və regionumuz haqqında biliklərimizə əsaslandığını sübut edirik. Bu baxımdan hesab edirik ki, biz bu siyasətə görə etibarlı tərəfdaş olmuşuq. Biz müstəqilliyimizin son iyirmi ildən artıq müddətində dünyanın bu qədər ölkəsinin dəstəyini qazandıq. Bu, həmçinin böyük məsuliyyətdir.

Biz Təhlükəsizlik Şurasının üzvü olduğumuz iki il ərzində öncədən bəyan etdiyimiz kimi, ədaləti və beynəlxalq hüququ müdafiə etdik. Əgər həmin iki element hər bir ölkənin prioriteti olarsa, əminəm ki, gərginlik, toqquşma, müharibələr və qan tökülməsi daha az olar. Beynəlxalq hüquq ayrı-ayrı tərəflər üçün deyil, hamı üçün işləməlidir. Ədalət hamı üçün olmalıdır. Çünki bizim hamımız beynəlxalq birliyin üzvləriyik. Beynəlxalq birliyin bütün ölkələri bərabər hüquqlara, eyni öhdəliklərə malikdirlər. Onların hamısına hörmət və ehtiramla yanaşmaq lazımdır. Belə olan halda dünya daha yaxşı proqnozlaşdırıla bilər.

Əfsuslar olsun ki, bizi, yəni, Azərbaycanı əhatə edən regionlarda - Orta Şərqdə, Avropada və dünyanın digər bölgələrində çox mürəkkəb hadisələrin və bəzən onların çox faciəli nəticələrinin şahidi oluruq. Bu səbəbdən dünya terrorçuluğa qarşı mübarizədə, beynəlxalq hüququn və ədalətin müdafiəsində bir yerdə olmalıdır.

Azərbaycan yerləşdiyi regionda beynəlxalq təhlükəsizlik və sabitlik baxımından mühüm rol oynayır. Azərbaycan sanki sabitlik, inkişaf adasıdır və proqnozlaşdırılan ölkədir. Biz regionda sabitləşdirici qüvvə, amil kimi öz rolumuzu oynayırıq. Çünki biz regional əməkdaşlıq, iqtisadi təşəbbüslər, enerji və daşımalar sahəsinə aid olan addımlarla böyük nailiyyətlər əldə edə bilərik.

Siyasətimiz çox aydındır. Bu, regional əməkdaşlıq və qarşılıqlı dəstək vasitəsilə milli maraqlara, o cümlədən iqtisadi maraqlara, təhlükəsizliyə və sabitliyə doğru yönələn siyasətdir. Hər bir ölkə, əlbəttə ki, maksimal səviyyədə sabitlik və təhlükəsizliyə nail olmağa çalışır. Çünki bu, inkişaf üçün ilkin şərtdir. Əgər sabitlik və təhlükəsizlik olmasa, onda sərmayələr də olmayacaq. Sərmayəsiz isə bu gün dünyanın hətta inkişaf etmiş ölkələri belə irəliyə doğru gedə bilməz. Eyni zamanda, hər bir ölkə öz hüdudlarından kənarda da təhlükəsizlik və sabitlikdə maraqlı olmalıdır. Axı, siz ayrıca adada yaşamırsınız, sizin qonşularınız var. Ona görə biz öz sərhədlərimizdən kənarda, o cümlədən daxildə - Azərbaycanda proqnozlaşdırılan və sabit vəziyyətin olmasında maraqlıyıq. Biz regional təhlükəsizlik və əməkdaşlıq məsələlərinə bu cür yanaşırıq.

İrəli sürdüyümüz iqtisadi, enerji və daşımalar təşəbbüsləri bütün iştirakçılara fayda verir. Maksimal nəticələri yalnız bütün tərəflərin faydalandığı halda əldə etmək olar. Biz Azərbaycanda qitələrarası daşımalar üzrə mühüm beynəlxalq layihələrə başlamışıq. Bu layihələr enerji təhlükəsizliyinə, enerji mənbələrinin şaxələndirilməsinə aiddir. Bu təşəbbüslərə qoşulmuş bütün ölkələr bundan bəhrələnir. Belə halda əməkdaşlıq davamlı, proqnozlaşdırılan və faydalı olur. Bu səbəbdən fəaliyyətimizin bu hissəsi möhkəm iqtisadi bünövrəyə əsaslanır və inkişafın əsas qüvvəsidir.

Müstəqilliyimizi bərpa etdiyimiz zaman iqtisadiyyatımız demək olar ki, sıfır səviyyəsində idi. Siyasi, hərbi böhran, erməni işğalı, vətəndaş müharibəsi, iqtisadiyyatın tam tənəzzülü 1990-cı illərin əvvəllərindəki vəziyyətin səciyyəvi cəhətləri idi. Lakin davamlı səylərlə siyasi sabitlik, siyasi islahatlar, demoqrafik inkişaf, müasir demokratik təsisatlar, azad mətbuat formalaşdı. Bu gün bizdə internet azaddır və əhalimizin 70 faizdən çoxu internetdən istifadə edir. Digər siyasi azadlıqlar, qanunun aliliyi, iqtisadi tərəqqi və islahatlar uğurlu inkişafı şərtləndirdi. Siyasi islahatlar və azadlıqlar olmadan davamlı uğur qazanmaq mümkün deyildi. Çünki siz uğuru müəyyən vaxt üçün əldə edə bilərsiniz, lakin davamlı uğur üçün insanlara əsas azadlıqları təmin etməlisiniz. Çünki hər bir kəs anadan azad doğulur və insanlar azad cəmiyyətdə, təhlükəsizlikdə və bütün əsas azadlıqların müdafiə olunduğu şəraitdə yaşamalıdırlar.

Buna görə siyasi islahatlara iqtisadi islahatlarla dəstək verdik. İqtisadi islahatlar olmadan siyasi islahatları həyata keçirmək çox çətindir. Özünü təmin edən güclü iqtisadiyyatın qurulması bizim məqsədimiz idi. Bunun sayəsində etimad, iqtisadi müstəqillik və nəhayət, siyasi müstəqillik təmin olundu. Siyasi müstəqilliyi, müstəqil siyasəti iqtisadi əsaslar olmadan təmin etmək çətindir. Özünü təmin edən iqtisadiyyata malik olmayan, digər ölkələrdən asılı olan ölkələrə gəldikdə isə, onların özləri də müəyyən dərəcədə siyasi baxımdan asılıdır. Buna görə hər bir ölkə əvvəlcə özünün iqtisadi müstəqilliyini təmin etməlidir. Belə halda siz özünüzü azad, əmin, güclü hiss edəcəksiniz və öz mülahizələrinizi irəli sürə bilərsiniz. Onlar da bir daha ədalətə və beynəlxalq hüquqa əsaslanmalıdır.

Azərbaycanda bu gün də davam etdirdiyimiz iqtisadi islahatlar rəqəmlərdə əks olunur. Son on il ərzində Azərbaycan iqtisadiyyatı dünyada ən sürətlə artan iqtisadiyyat olub. Bizim üçün ən böyük nailiyyətlərdən biri təkcə ondan ibarət deyil ki, son illər ərzində iqtisadiyyatımız üç dəfə artıb. Həmçinin, yoxsulluq və işsizlik də 5 faizə qədər azalıb. Bu, həmçinin daha çox gənclərə yardımçı olan amildir. Çünki biz böyük əmək qüvvəsinə, müsbət demoqrafik vəziyyətə malik olan ölkəyik. Buna görə iş yerlərinin yaradılması daim həyata keçirilməlidir. Biz son on il ərzində 1 milyon 300 min iş yeri açmışıq və işsizlik sosial bəla kimi Azərbaycanda artıq mövcud deyil. Xarici borcumuz ümumi daxili məhsula nisbətdə çox aşağıdır. Bu, yalnız 8 faiz təşkil edir və o deməkdir ki, biz daha çox maliyyə resurslarını cəlb edə bilərik, lakin biz bu rəqəmi keçməməyə çalışırıq. Çünki ümumi daxili məhsul-xarici borc nisbəti iqtisadi sabitliyin əsas elementlərindən biridir. Eyni zamanda, bilirik ki, daim borc götürən ölkələr bir gün onu yüksək faizlə qaytarmalıdırlar.

Biz burada siyasətçilərin məsuliyyəti məsələsinə toxunuruq. Çünki burada gələcəyin bir çox mühüm siyasətçilərini görürəm. Siz ölkələrinizdə yüksək vəzifələr tutacaqsınız. Buna görə siyasi xadimlərin siyasi məsuliyyəti, iqtisadiyyat üzərində məsuliyyət, həmçinin çox əhəmiyyətli məsələdir. Bilirik ki, bəzən müəyyən ölkələrdə bəzi seçki kampaniyalarında, siyasi vəziyyətlərdə insanlara böyük vədlər verilir ki, onların əməkhaqları, pensiyaları artacaq və cənnət yaranacaq. İnsanlar bu sözlərə inanaraq həmin siyasətçilərə səs verirlər. Siyasətçilər isə öz vədlərini yerinə yetirməlidirlər, lakin bunu edə bilmirlər, çünki iqtisadi məhdudiyyətlər var. Bu halda onlar nə edirlər? Başlayırlar beynəlxalq maliyyə təsisatlarından, digər ölkələrdən borc götürməyə. Bu, bir piramidaya oxşayır. Dayanmadan kreditlər yığırlar və bir gün hər şey dağılır. Lakin kim əziyyət çəkir? Yenə də adi insanlar. Həmin populist bəyanatlara aldanmış insanlar əziyyət çəkir, çünki onların maaşları, pensiyaları azaldılır, iş yerləri ixtisar edilir və s.

Buna görə hər bir ölkənin iqtisadi mövqeyi real vəziyyətə əsaslanmalıdır. İslahatları necə aparmaq lazımdır? Bunu etmək çətin deyil. Sərmayələri necə cəlb etmək lazımdır? Yaxşı biznes mühiti, sabit siyasi vəziyyət və proqnozlaşdırılan gələcək olmalıdır. Bu

halda sərmayədar gələ bilər, çünki onları sərmayə qoymağa başqa cür dəvət etmək çox çətindir. Qlobal bazarlarda iqtisadi və maliyyə böhranı yenə də davam edir. Bu sahədə müəyyən təcrübəmiz var, iqtisadiyyatımız davamlıdır, çoxşaxəlidir və irəliyə doğru rəvan şəkildə gedir. Davamlı inkişaf isə əsas hədəfimiz olub.

Sessiyalarda sizi müzakirələr gözləyir. Bildirmək istəyirəm ki, qonaqlarımızı burada qəbul etmək bizim üçün böyük şərəfdir. Fikrimcə, forum nəinki müzakirələr, o cümlədən Azərbaycan haqqında çox şeyi bilmək, ölkəmizi daha yaxşı tanımaq imkanı baxımından vacib olacaq. Ümid edirəm ki, bu günlər xatirinizdə qalacaq. Azərbaycan öz prioritetlərini və məqsədlərini aydın şəkildə müəyyən etmiş gənc, müstəqil, dinamik və müasir ölkədir. Biz Azərbaycan gəncləri kimi böyük potensial, uğurumuzun aparıcı qüvvəsi ilə gələcəkdə daha böyük nailiyyətlərə imza atacağıq.

Bu forumda bizimlə iştirak etdiyinizə görə minnətdaram. Sizə ən xoş arzularımı çatdırır və uğurlar arzulayıram. Çox sağ olun.

* * *

Rəsmi açılışdan sonra forum sessiyalarla öz işini davam etdirib.

*29 oktyabr 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV BAKININ XƏTAİ RAYONU ƏRAZİSİNDƏKİ FƏVVARƏLƏR VƏ ŞƏLALƏLƏR KOMPLEKSİNDƏ İŞLƏRİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də paytaxtın Xətai rayonu ərazisindəki fəvvarələr və şəlalələr kompleksində həyata keçirilən tikinti işlərinin gedişi ilə tanış olub.

Dövlətimizin başçısının tapşırığı ilə Bakı şəhərində parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığı üçün istirahət guşələrinin yaradılması istiqamətində ardıcıl tədbirlər davam etdirilir. Salınan yeni parklar və yaşıllıq zolaqları, bağlarda və xiyabanlarda ən müasir tələblərə cavab verən infrastrukturun yaradılması, müasir iaşə obyektləri Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi məqsədinə xidmət edən əhəmiyyətli tədbirlərdəndir.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Qeyd edildi ki, 150 metr uzunluğunda olan kompleks ən müasir tələblər səviyyəsində qurulacaq. Fəvvarələr və şəlalələr kompleksinin altında müasir texniki infrastruktur və idarəetmə mərkəzi yerləşəcək. Müxtəlif rəngli 700-dən artıq işıq effekti fəvvarələrə xüsusi yaraşıq verəcək. Kompleksin ətraf ərazilərində abadlıq və yaşıllaşdırma işləri aparılacaq, qranit plitələr döşənəcək, ən müasir işıqlandırma sistemi qurulacaq.

Fəvvarələr və şəlalələr kompleksində işlərin gedişi ilə yaxından tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

*3 dekabr 2014-cü il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 11 il keçir. Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün il boyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıtmış, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınmış böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 11-ci ildönümü günü – dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın Ümummilli Liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirlər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və Ulu Öndər özünün müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.

Milli Məclisin deputatları, nazirlər, komitə, şirkət və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva Ulu Öndərin ömürgün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov və digər rəsmi şəxslər iştirak ediblər.

***12 dekabr 2014-cü il***

## PREZİDENT İLHAM ƏLİYEV ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULAN SABİRABAD RAYON MƏDƏNİYYƏT EVİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı şəkildə yenidən qurulan Sabirabad rayon Mədəniyyət Evində yaradılan şəraitlə tanış olub.

Bu gün Azərbaycanda bütün sahələrə olduğu kimi, mədəniyyət sahəsinə də xüsusi diqqət göstərilir. İndi paytaxtla yanaşı, respublikanın bölgələrində də fəaliyyət göstərən mədəniyyət ocaqları əsaslı təmir edilir və yeniləri tikilir. Sabirabad rayon Mədəniyyət Evinin binasının əsaslı şəkildə təmir edilməsi ölkədə mədəniyyətin və incəsənətin inkişafına diqqətin daha bir göstəricisidir.

Qeyd edildi ki, Mədəniyyət Evi 1976-cı ildə istifadəyə verilib. O vaxtdan bəri burada əsaslı təmir işləri aparılmayıb. İndi yenidən qurulan bu bina ən müasir səviyyəyə çatdırılıb, incəsənət adamlarının fəaliyyəti üçün geniş imkanlar yaradılıb.

Bildirildi ki, Mədəniyyət Evinin ikimərtəbəli binasında əsaslı təmir işlərinə 2013-cü ilin aprelində başlanılıb və bu ilin dekabrında başa çatdırılıb. Bölgələrdə mədəniyyət ocaqlarının yenidən qurulması, müasir tipli yeni mədəni infrastrukturun yaradılması bu sahənin regionlarda hərtərəfli inkişafına stimul verir. Bütün bu tədbirlər bir daha onu göstərir ki, qədim və zəngin mədəni dəyərlərə malik olan Azərbaycanda mədəniyyət məsələləri daim diqqətdə saxlanılır. Bu gün mədəniyyət xadimləri, incəsənət adamları ən yüksək səviyyədə qayğı ilə əhatə olunublar. Onların sosial məsələlərinin həllinə dövlət səviyyəsində həmişə diqqət göstərilib.

Binada ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizdə mədəniyyətin inkişafına göstərdikləri qayğıdan bəhs edən fotostend yaradılıb. Ulu öndər Heydər Əliyevin 1976-cı ildə Sabirabada səfəri zamanı bu Mədəniyyət Evinin açılışında iştirakının əbədiləşdiyi foto diqqəti xüsusilə cəlb edir.

Diqqətə çatdırıldı ki, binanın 377 yerlik akt zalında Sabirabadın mədəni həyatında baş verən hadisələri qeyd etmək, həmçinin respublika və rayon əhəmiyyətli müxtəlif tədbirləri keçirmək üçün hər cür şərait var. Bütün bunlar rayonun mədəniyyət və incəsənət işçilərinə yeni uğurlar əldə etmək üçün həm stimul verir, həm də geniş imkanlar yaradır.

Mədəniyyət Evinin zəngin kitab fondu, oxu zalı və 20 yerlik konfrans zalı da var. Musiqi alətləri otağı, rəqs zalı, ədəbiyyat, muğam, aşıq sənəti, təsviri incəsənət, evdarlıq, heykəltəraşlıq dərnəkləri gənclərin asudə vaxtlarını səmərəli keçirmələri baxımından mühüm əhəmiyyət kəsb edir.

*15 dekabr 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BAKU SPORT CITY"DƏ, SU İDMANI SARAYINDA VƏ DÖVLƏT BAYRAĞI MEYDANININ ƏRAZİSİNDƏ İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Azərbaycanın birinci xanımı, "Bakı 2015" Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva ailə üzvləri ilə birlikdə "Baku Sport City"də, Su İdmanı Sarayında və Dövlət Bayrağı Meydanının ərazisində həyata keçirilən inşaat işlərinin gedişi ilə tanış olublar.

2015-ci ildə Azərbaycan daha bir mötəbər idman yarışına ev sahibliyi edəcək. Birinci Avropa Oyunları ilk dəfə olaraq Bakıda keçiriləcək. Avropa Olimpiya Komitəsinin bununla bağlı qərarı beynəlxalq idman ictimaiyyətinin ölkəmizin Olimpiya hərəkatında oynadığı rola, idmanın inkişafına göstərdiyi yüksək dəstəyə verilən önəmin ifadəsidir. Bakının 2015-ci il Avropa Oyunlarının keçirilməsi üçün böyük potensiala malik olmasını beynəlxalq idman təşkilatları da təsdiqləyib. Müasir idman infrastrukturu olan Azərbaycan, eyni zamanda, beynəlxalq yarışları keçirmək təcrübəsinə də malikdir.

Birinci Avropa Oyunlarına hazırlıqla bağlı işlər yüksək səviyyədə həyata keçirilir. "Baku Sport City" ərazisində su polosu, çimərlik voleybolu və futbolu, basketbol yarışları üçün qurğular inşa edilir. Ərazidə, eyni zamanda, iclas və konfrans zalları, mətbuat üçün çəkiliş sahəsi, eləcə də avtomobil dayanacağı və digər xidmət sahələrinin də yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, dövlətimizin başçısı Azərbaycanda su idmanı növlərinin inkişaf etdirilməsi, yerli və beynəlxalq səviyyəli yarışların təşkili məqsədilə 2012-ci il avqustun 30-da Bakıda müasir standartlara cavab verən Su İdmanı Sarayının tikilməsi haqqında Sərəncam imzalayıb. Altı hektar ərazidə tikinti işləri yüksək sürət və keyfiyyətlə aparılır. Ümumi sahəsi 66 min kvadratmetr olan Su İdmanı Sarayı Beynəlxalq Üzgüçülük Federasiyasının tələblərinə tam cavab verir. Burada 3 üzgüçülük hovuzu olacaq. Uzunluğu 50, eni 25 metr olacaq hovuz yarışlar üçün nəzərdə tutulub. İkinci hovuzda isə məşqlər keçiriləcək.

"Baku Sport City"də həyata keçirilən inşaat işlərinin gedişi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Dövlət Bayrağı Meydanı ərazisinə gəldilər.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva meydanın ətrafında yaradılan yeni mədəniyyət və incəsənət obyektləri, o cümlədən sərgi salonlarında aparılan tikinti işlərinə baxdılar, ictimai yerlər və xiyabanlar, insanların rahatlığı və istirahəti üçün yaradılan gəzinti yerlərində yenidənqurma və təmir işlərinin gedişi ilə tanış oldular.

Son illərdə Dənizkənarı Milli Parkın genişləndirilməsi istiqamətində görülən işlər, Dövlət Bayrağı Meydanı, onun ətrafında həyata keçirilən abadlıq, quruculuq tədbirləri şəhərimizin daha da gözəlləşməsinə, insanların rahatlığına xidmət edir və paytaxt sakinlərində xoş təəssüratlar, dərin məmnunluq hissi yaradır. Açılışı 2010-cu ilin sentyabrında olan Dövlət Bayrağı Meydanı artıq sürətlə inkişaf edən Bakının yeni rəmzlərindən birinə çevrilib. Azərbaycan paytaxtının görkəminə xüsusi yaraşıq verən bu meydan həm də şəhərimizə gələn çoxsaylı qonaqların böyük marağına səbəb olur. Çünki Dövlət Bayrağının dirəyi 2010-cu ildə hündürlüyünə görə Ginnesin rekordlar kitabına düşüb və bu meydanın ətrafında həyata keçirilən irimiqyaslı tikinti-quruculuq işləri indi ərazini Bakının ən orijinal və görməli yerlərindən birinə çevirib. Hazırda meydana yaxın ərazilərdə abadlıq işləri sürətlə davam etdirilir. Bir vaxtlar ərazidə mövcud olan köhnə zavodların, sosial və iqtisadi səmərəsini itirmiş, böyüyən paytaxtın tələblərinə cavab verməyən, ən çox da ekoloji tarazlığı pozan müəssisələrin yerində indi geniş yaşıllıq zolaqları, təbii landşaft salınır, şəhərimizin sakinlərinin və qonaqlarının istifadəsi üçün iaşə və əyləncə məkanları yaradılır. Bütün bunlar bu ərazinin həm idman, həm də istirahət məkanı kimi şəhərimizin arxitekturasına xüsusi yaraşıq verəcəyini bir daha təsdiqləyir və onun əhəmiyyətini artırır. Çünki gələn il Bakıda keçiriləcək birinci Avropa Oyunlarının proqramına daxil olan yarışlardan bir neçəsi məhz bu ərazidə təşkil olunacaq. Həmçinin bulvarın Bibiheybət buxtasına qədər uzadılması ilə bağlı layihənin icrası da davam etdirilir. Bundan əlavə, Prezident İlham Əliyevin tapşırıqlarına əsasən ərazidəki tarixi əhəmiyyətli binaların bərpası və qorunması istiqamətində də mühüm addımlar atılır. Odur ki, son illərdə xaricdən Bakıya gələn qonaqların hamısı Şərq və Qərb koloritinin, qədimliklə müasirliyin nadir formada

əks olunduğu bu şəhərin gözəlliklərinə heyranlıqlarını gizlətmirlər. Onlar vurğulayırlar ki, Bakıda həyata keçirilən böyük tikinti-quruculuq işləri Azərbaycan paytaxtını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Dövlət Bayrağı Meydanı ərazisində həyata keçirilən işlərlə yaxından tanış oldular.

Dövlətimizin başçısı görülən işlərlə bağlı müvafiq tapşırıqlarını verdi.

*23 dekabr 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV BAKIDA İNŞA OLUNAN HEYDƏR MƏSCİDİNDƏ SON TAMAMLAMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva paytaxtın Binəqədi rayonunun ərazisində inşa edilən Heydər məscidində aparılan son tamamlama işlərinin gedişi ilə tanış olublar.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov tikintinin başa çatdığını, hazırda burada son tamamlama işlərinin həyata keçirildiyini bildirdi. Dövlətimizin başçısının tapşırığı ilə inşa olunan bu yeni məscid 12 min kvadratmetr sahədə salınıb. Artıq məscidin fasadında bütün işlər görülüb, 95 metr hündürlüyündə 4 minarənin inşası başa çatdırılıb.

Prezident İlham Əliyev məscidin tikintisini daim diqqət mərkəzində saxlayıb, həyata keçirilən inşaat işlərinin gedişi ilə yaxından maraqlanıb, mütəmadi olaraq buraya gələrək görülən işlərlə bağlı müvafiq tapşırıqlarını verib.

Məscidin fasadı Şirvan-Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənib. Tikinti işləri zamanı bəzək elementləri xüsusi ustalıqla yerinə yetirilib. Ornamentlərin zənginliyi məscidin fasadının arxitekturasında xüsusi harmoniya yaradıb. Ümumi sahəsi 4200 kvadratmetr olan məscidin daxilində də tamamlama-bəzək işləri başa çatmaq üzrədir. Burada da xüsusi bəzək elementlərindən istifadə olunub, günbəzin kənarlarına Quran ayələri yazılıb. Hündürlükləri 55 metr və 35 metr olan baş və ikinci günbəzlər məscidin daxilinə xüsusi gözəllik verir.

Maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan dövlətimizin başçısının sərəncamları ilə son bir neçə ildə qədim tarixi abidələrin, ziyarətgahların bərpası ilə bağlı görülən silsilə tədbirlər dini-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisidir. Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirib. Dini, mədəni və tarixi abidələrin bərpasına, onların yenidən xalqın qan yaddaşına qaytarılmasına həssaslıqla yanaşan, bu sahədə həyata keçirilən layihələrə ciddi dəstək verən Prezident İlham Əliyevin son illərdə bir çox dini abidələrin bərpası ilə bağlı imzaladığı sərəncamlar, verdiyi tapşırıqlar artıq ölkəmizdə mövcud olan milli mənəvi dəyərlər sisteminin ayrılmaz hissəsinə çevrilib. Bunun nəticəsidir ki, son illərdə Təzəpir, Bibiheybət, Əjdərbəy məscidlərində geniş tikinti və yenidənqurma işləri həyata keçirilib. Hazırda Prezident İlham Əliyevin tapşırıqlarına əsasən Gəncədəki "İmamzadə" kompleksində təmir-bərpa işləri aparılır. Artıq Azərbaycan və Şərq memarlığının nadir incilərindən olan Şamaxı "Cümə" məscidi də dindarların istifa-

dəsinə verilib. Bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyev tarixi keçmişimizin unudulmasına imkan vermir və çalışır ki, gələcək nəsillər xalqımızın milli mənəvi dünyasına daha çox bağlı olsunlar.

Prezident İlham Əliyev məsciddə son tamamlama işlərinin yüksək keyfiyyətlə yerinə yetirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

*24 dekabr 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "YASAMAL" PARKININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Bakıda "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin "+82 Qərb" su anbarının ərazisində yeni salınan "Yasamal" parkının açılışında iştirak edib.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov parkın tikintisi ilə bağlı dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq əhalinin istirahətinin təmin edilməsi və abadlıq-yaşıllıq işlərinin aparılması məqsədilə "Azərsu" ASC-nin "+82 Qərb" su anbarının ərazisində, Yasamal rayonunun Akim Abbasov və Zahid Xəlilov küçələrinin kəsişməsində yeni istirahət parkı salınıb. Park salınarkən su anbarlarının təhlükəsizliyi üçün əvvəlcədən bütün texniki tədbirlər görülüb. Xüsusi dizayn əsasında layihələndirilən parkın inşasına bu ilin əvvəllərində başlanılıb və bir ildən də az müddətə başa çatdırılıb.

Dövlətimizin başçısı parkın rəmzi açılışını bildirən lenti kəsdi.

Layihə çərçivəsində "+82 Qərb" su anbarının giriş və çıxış hissələri də abadlaşdırılıb, seyrəngahlar yaradılıb. Yeni salınan parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait var. Burada görülən işlər ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla paytaxtımızın daha da gözəlləşməsinə xidmət edir. Bu, bir daha təsdiq edir ki, şəhər və rayonlarımızda aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması diqqətdən kənarda qalmır. Parkda abadlıq-quruculuq işləri yüksək zövqlə həyata keçirilib, geniş yaşıllıq işləri görülüb. Burada çoxillik ağaclar, gül və bəzək kolları əkilib. Parkda iki uşaq oyun meydançası və böyüklər üçün idman meydançası yaradılıb. Bu meydançalarda trenajorlar, müxtəlif əyləncə vasitələri quraşdırılıb. Eyni zamanda, parkın ərazisində iki kafe fəaliyyət göstərəcək. Parkın salınması zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, istirahət məkanı orijinal elementlər və formalarla zənginləşdirilib. Həmçinin parkın ərazisində müxtəlif fəvvarələr, süni şəlalələr və xüsusi dizaynla hazırlanmış bulaqlar quraşdırılıb.

Dövlətimizin başçısının tapşırığı ilə Bakı şəhərində parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində son illərdə paytaxtda ardıcıl tədbirlər davam etdirilir. Yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. "Yasamal" parkı da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir.

Prezident İlham Əliyev "+82 Qərb" su anbarları kompleksinin 3-cü, 4-cü və 5-ci anbarları ilə də tanış oldu.

*25 dekabr 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEV RUSİYANIN ŞİMALİ QAFQAZ RESPUBLİKALARININ DİN XADİMLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Heydər məscidinin açılışında iştirak etmək üçün Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından gələn din xadimlərini qəbul edib.

Prezident İlham Əliyev Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından gəlmiş din xadimlərinə Heydər məscidinin açılışında iştiraklarına görə təşəkkür etdi və bunu xalqlarımız arasında dostluq və qardaşlığın göstəricisi kimi dəyərləndirdi. Belə tədbirlərin Qafqaz müsəlmanlarını bir-birinə daha da yaxınlaşdırdığını və regionda sülhə və sabitliyə xidmət etdiyini deyən dövlətimizin başçısı qonaqların təmsil etdikləri Şimali Qafqaz respublikalarında gedən inkişaf proseslərinin məmnunluq doğurduğunu diqqətə çatdırdı. Yeni məscidin açılışını Azərbaycan üçün tarixi hadisə kimi qiymətləndirən Prezident İlham Əliyev tarix boyu xalqımızın öz dini–mənəvi dəyərlərinə sadiq qaldığını vurğuladı. Prezident İlham Əliyev dinin azad olduğu müasir dövrdə mövcud olan təhlükənin – müəyyən dairələrin gəncləri öz tarixi köklərindən ayırmaq cəhdlərinin olduğunu söylədi və bu prosesin qarşısının alınmasında, eləcə də gənc nəslin milli adət-ənənələrə sədaqət ruhunda tərbiyə olunmasında dini liderlərin rolundan, həmçinin dinlərarası dialoqun genişləndirilməsinin əhəmiyyətindən danışdı. Dövlətimizin başçısı qonaqları qarşıdan gələn Yeni il münasibətilə təbrik etdi.

Şimali Qafqaz Müftilərinin Əlaqələndirmə Şurasının sədri, Rusiya Federasiyası Qaraçay-Çərkəz müftisi İsmayıl Berdiyev yeni məscidin açılışında iştiraka dəvətə görə minnətdarlığını bildirdi. Qonaq Heydər məscidinin çox gözəl tikildiyini və öz əzəməti ilə ulu öndər Heydər Əliyevin adına layiq olduğunu söylədi. İsmayıl Berdiyev qeyd etdi ki, Azərbaycanda belə bir möhtəşəm məbədin istifadəyə verilməsi Heydər Əliyev müdrikliyini yaşadan Prezident İlham Əliyevin xidmətləri sayəsində mümkün olub. Belə məscidlərdə hər zaman sülhün, əmin-amanlığın bərqərar olması üçün Tanrıya dua etdiklərini və dualar zamanı işğal altındakı Qarabağ torpağını unutmadıqlarını bildirən İsmayıl Berdiyev, bu məsələnin tezliklə həllini tapacağına əminliyini ifadə etdi.

*26 dekabr 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA HEYDƏR MƏSCİDİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısının tapşırığı ilə inşa olunan bu yeni məscid 12 min kvadratmetr sahədə salınıb. Məscidin fasadı Şirvan-Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənib, ornamentlərin zənginliyi fasadda xüsusi arxitektura harmoniyası yaradıb. Burada 95 metr hündürlüyündə 4 minarə inşa olunub.

Qeyd edək ki, Prezident İlham Əliyev məscidin tikintisini daim diqqət mərkəzində saxlayıb, burada həyata keçirilən inşaat işlərinin gedişi ilə yaxından maraqlanıb, mütəmadi olaraq buraya gələrək görülən işlərlə bağlı müvafiq tapşırıqlarını verib. Ümumi sahəsi 4200 kvadratmetr olan məscidin daxilində də xüsusi bəzək elementlərindən istifadə olu-

nub, günbəzin kənarlarına Quran ayələri yazılıb. 55 metr hündürlüyündə olan baş günbəz, o cümlədən hündürlüyü 35 metr olan ikinci günbəz məscidin daxilinə xüsusi gözəllik verir.

Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Heydər məscidinin açılışı münasibətilə keçirilən mərasimdə iştirak etdilər.

Mərasim "Qurani-Kərim"dən ayənin oxunması ilə başladı.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

## PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli şeyx həzrətləri.

Hörmətli din xadimləri, hörmətli qonaqlar, mərasim iştirakçıları.

Bu gün ölkəmizin həyatında çox əlamətdar və tarixi bir gündür. Bu gün biz Azərbaycanın ən böyük məscidi olan Heydər məscidinin açılışına toplaşmışıq. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu gün ölkəmizin hər bir rayonundan dindarlar, ictimai xadimlər, nümayəndələr gəlmişlər və bu mərasimdə iştirak edirlər. Eyni zamanda, Şimali Qafqaz müftiləri də bizim qonaqlarımızdır. Mən onları səmimiyyətlə salamlayıram. Mənim dəvətimi qəbul edib bugünkü mərasimdə iştirak etdiklərinə görə onlara minnətdaram. Onların bu mərasimdə iştirakı Qafqaz müsəlmanlarının birliyini bir daha təsdiq edir.

İki il bundan əvvəl bu məscidin tikintisi ilə bağlı müvafiq Sərəncam verilmişdir. 2012-ci ilin sentyabr ayında bu məscidin tikintisi başlamışdır. Cəmi iki il ərzində belə möhtəşəm memarlıq əsəri yaradılmışdır. Tikinti zamanı mən dəfələrlə burada olmuşam, işlərin gedişi ilə maraqlanmışam. Şadam ki, biz Heydər məscidinin tikintisinə qısa müddət ərzində nail ola bildik. Bu ərazi genişləndirildi, yeni yollar salındı. Bu məscidə üç istiqamətdən yeni yollar çəkilib, ərazi abadlaşdırılıb, mərasim zalı tikilib.

Bu, doğrudan da tarixi hadisədir. Çünki bu, Azərbaycanın gücünü, inkişaf dinamikasını, bizim öz milli, dini ənənələrimizə nə qədər sadiq olduğumuzu göstərir. Bu məscid ulu öndər Heydər Əliyevin adını daşıyır. Bu da təbiidir. Heydər Əliyev dahi şəxsiyyətdir. Azərbaycan xalqına bütün dövrlərdə ləyaqətlə xidmət etmişdir. Onun rəhbərliyi altında hələ sovet dövründə - 1970-1980-ci illərdə Azərbaycanda böyük inkişaf prosesi getmişdir. Azərbaycan qabaqcıl respublikaya çevrilmişdir. Məhz o illərdə yaradılan böyük sənaye potensialı bu gün müstəqil Azərbaycanın uğurlu inkişafına xidmət göstərir. O illərdə - sovet dövründə Ulu Öndər milli dəyərlərə böyük diqqət göstərirdi. Onun bu sahədəki fəaliyyəti xalq tərəfindən yüksək qiymətləndirilibdir. Heydər Əliyev öz xalqına həmişə çox bağlı olub və onun məşhur kəlamı - "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam" bu gün hər bir azərbaycanlı üçün yol göstərir.

Müstəqillik dövründə Ulu Öndərin xalq qarşısında əvəzolunmaz xidmətləri olmuşdur. Hətta müstəqilliyə qədər olan dövrdə müstəqilliyə aparan yola da Heydər Əliyev birinci qədəm qoymuşdur. Məhz onun təşəbbüsü ilə hələ sovet dövründə Naxçıvanda, Naxçıvanın Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi təsdiq edilmişdir. Yəni, budur müstəqilliyə aparan yollarımız.

Azərbaycan xalqı Ulu Öndərə böyük etimad göstərərək onu özünə rəhbər seçəndən sonra ölkədə vəziyyət müsbətə doğru dəyişməyə başlamışdır. Biz o illəri yaxşı xatırlayırıq. Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçmişdir. Ölkəmizin, ümumiyyətlə, müstəqil ölkə kimi yaşaması sual altında idi. İqtisadi böhran, siyasi böhran, sənaye istehsalının tənəzzülü, demək olar ki, ölkə iflic vəziyyətinə düşmüşdü. Bundan əlavə, er-

məni işğalı, vətəndaş müharibəsi Azərbaycanı sarsıdırdı, dağıdırdı. Azərbaycan xalqı öz müdrikliyini bir daha göstərərək Ulu Öndərə üz tutub onu hakimiyyətə dəvət etmişdir və böyük dəstək göstərərək 1993-cü ildə Heydər Əliyevi Prezident vəzifəsinə seçmişdir.

Ondan sonra Azərbaycanda sabitlik və inkişaf dövrü başlamışdır. Məhz Ulu Öndərin dünyagörüşü, baxışları, siyasi bacarığı sayəsində Azərbaycan bütün ağır sınaqlardan şərəflə, üzüağ çıxa bilmişdir. Onun qoyduğu strateji xətt bu gün də dəyişməz olaraq qalır. Ulu öndər Heydər Əliyev Azərbaycanın bütün istiqamətlər üzrə strateji hədəflərini müəyyən etmişdir. Biz bu hədəflərə çatmaq üçün bu gün də çalışırıq və bu yolda böyük uğurlara imza atmışıq.

Eyni zamanda, məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində o illərdə sağlam zəmində dövlət-din münasibətləri qurulmuşdur. O, həmişə qeyd edirdi ki, biz öz milli, dini adət-ənənələrimizə sadiq olaraq müasir, güclü dövlət qurmalıyıq. Bu idi onun strateji baxışları. Dövlət-din münasibətlərinin qurulması, formalaşması böyük nailiyyətimizdir. Bu gün də bu siyasət davam etdirilir.

Heydər Əliyevin dövründə Azərbaycanda 500-dən çox məscid tikilmişdir. Yüzlərlə məscid təmir edilmişdir. Ulu Öndər müqəddəs Kəbənin içində namaz qılmışdır. Mən xoşbəxtəm ki, bu xoşbəxtlik mənə də nəsib olmuşdur. Yəni, o illərdə milli, dini dəyərlərə göstərilən diqqət və müəyyən edilmiş istiqamət bugünkü Azərbaycanın güclənməsinə xidmət edirdi. Çünki indi bizim güclü iqtisadiyyatımız var. Siyasi dayaqlarımız da möhkəmdir. Ən önəmlisi, cəmiyyətdə ölkəmizin inkişafı ilə bağlı vahid yanaşma, vahid mövqe var. İctimai-siyasi vəziyyət müsbətdir və əlbəttə ki, dövlət-din münasibətləri burada böyük rol oynayır.

Bir sözlə, Ulu Öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir, əvəzolunmazdır. Azərbaycan xalqı Ulu Öndərin xatirəsinə olan məhəbbətini öz ürəyində daim saxlayır. Biz - onun davamçıları isə onun yolu ilə gedərək ölkəmizi daha da gücləndiririk, onun müəyyən etdiyi siyasi xətti davam etdiririk.

Azərbaycan bu gün dünyada ən sürətlə inkişaf edən ölkədir. Heydər Əliyev siyasəti bu gün Azərbaycanda yaşayır, möhkəmlənir, yeni formalarla zənginləşdirilir. Azərbaycanda çox gözəl ictimai-siyasi vəziyyət hökm sürür, xalqla iqtidar arasındakı birlik möhkəmdir, sarsılmazdır. Bu birliyin təməlində xalq tərəfindən bizim siyasətimizə olan dəstək dayanır. Bizim siyasətimiz isə milli maraqlara söykənir. Azərbaycan xalqının maraqları bizim üçün hər şeydən üstündür.

Azərbaycan iqtisadi sahədə dünyada ən böyük nailiyyətlərə çata bilibdir. Bunu bütün mötəbər beynəlxalq qurumlar qeyd edir. İqtisadi inkişaf, iqtisadi islahatlar, sosial məsələlərin həlli, insanlara göstərilən diqqət, regionların inkişafı, bütün bunlar reallıqdır. Qeyd etdiyim kimi, bu gün bu məscidin açılışı mərasimində iştirak edən soydaşlarımız Azərbaycanın bütün rayonlarını təmsil edirlər. Onlar, orada yaşayan insanlar yaxşı görürlər ki, bu dəyişikliklər insanlara nə qədər yeni imkanlar açır, rahatlıq verir. İnfrastruktur layihələri, sosial layihələr, iqtisadi inkişaf, yoxsulluğun, işsizliyin aradan qaldırılması, bütün bunlar Azərbaycan reallıqlarıdır.

Bütün bunlara biz o qədər də asan olmayan beynəlxalq vəziyyətdə nail olmuşuq. Dünyada indi maliyyə-iqtisadi böhranın artıq ikinci mərhələsi yaşanır. Ancaq mən həmişə demişəm ki, Azərbaycan sabitlik adasıdır. Biz Azərbaycanı bütün bəlalardan qoruyuruq və qoruyacağıq. Azərbaycan xalqı təhlükəsizlik şəraitində, rifah içində yaşamalıdır. Biz təhlükəsizliyi qoruyuruq, ölkəmizin sürətli inkişafını təmin edirik və beləliklə, Ulu Öndərin yoluna bir daha öz işimizlə, əməlimizlə sadiq olduğumuzu sübut edirik.

Azərbaycan bu gün dünyada söz sahibidir. Bizim beynəlxalq nüfuzumuz gündən-günə möhkəmlənir. Dünya birliyinin üzvlərinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir və

bu dəstəyi bizə verilən səslərdə ifadə edir. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi özünü təsdiq edibdir. Azərbaycanın regional inkişaf üçün gördüyü işlər həlledici rol oynayır. Regional təhlükəsizlik, əməkdaşlıq, regional məsələlərin həlli – bunlar bizim bu bölgədə ümumi işimizə verdiyimiz töhfələrdir.

Bir sözlə, ictimai-siyasi vəziyyət sabitdir, ölkə daxilindəki problemlər öz həllini tapmaqdadır. Beynəlxalq mövqelərimiz kifayət qədər möhkəmdir, iqtisadi dayaqlar isə bu gün özünü göstərir. Hətta dünyada, bölgədə, yaxın qonşuluqda yaşanan istənilən xoşagəlməz hallar Azərbaycana təsir etmir. Ona görə yox ki, biz özümüzü təcrid etmişik, əksinə, biz dünyaya açığıq. Ona görə ki, Azərbaycanda aparılan siyasət milli maraqlara söykənir. O ölkələrdə ki, siyasət milli maraqlara söykənir, o ölkələrdə sabitlik də, inkişaf da olacaq. Dəfələrlə demişəm, Ulu Öndərin adını daşıyan möhtəşəm məsciddə bir daha demək istəyirəm ki, Azərbaycan müstəqillik yolu ilə gedir, müstəqil siyasət aparır, öz məsələlərini özü həll edir. Mənim üçün Prezident kimi əsas vəzifə xalqın etimadını doğrultmaqdır, xalqa xidmət etməkdir. Mən bütün dövlət məmurlarını dəfələrlə buna çağırmışam, onlara öz göstərişlərimi vermişəm. Demişəm ki, biz hamımız - Prezident başda olmaqla xalqın xidmətçiləriyik. Budur bizim vəzifəmiz.

Azərbaycanda bütün azadlıqlar - mətbuat azadlığı, söz azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan azadlığı təmin edilir. Azərbaycanda bütün dini azadlıqlar tam şəkildə təmin edilir. Bu da hesab edirəm ki, bizim ümumi inkişafımızda çox böyük əhəmiyyətə malik olan bir sahədir. Din, etiqad azadlığı Azərbaycanda tam şəkildə təmin edilir.

Son 11 il ərzində Azərbaycanda 250-yə yaxın məscid tikilmiş və ya təmir edilmişdir. Xalqımız üçün çox böyük dəyər kəsb edən Bibiheybət, Təzəpir, Əjdərbəy, 743-cü ildə tikilmiş Şamaxı məscidi onların arasındadır. Hazırda İmamzadə dini, tarixi, mədəni mərkəzində təmir-bərpa işləri aparılır. Bu gün ölkəmizin ən böyük, möhtəşəm, əzəmətli Heydər məscidi açılır. Azərbaycanda digər başqa dinlərin məbədləri, o cümlədən dövlət vəsaiti hesabına tikilir, təmir edilir. Onu da qeyd etməliyəm ki, bu məscid dövlət vəsaiti hesabına tikilmişdir, necə ki, rus pravoslav, katolik, alban kilsələrinin tikintisi, təmiri işlərində dövlət öz dəstəyini vermişdir. Azərbaycanda sinaqoqlar tikilir, təmir edilir. Yəni, Azərbaycanda bu sahədə nadir təcrübə əldə edilibdir. Bu, bizim üçün təbiidir. Çünki bu, bizim üçün normal həyat tərzidir, cəmiyyətin normal yaşamasıdır. Eyni zamanda, bu, bizim dövlət siyasətimizdir. Bax, bu iki amil bu müsbət ab-havanı yaradır. Həm cəmiyyətdən gələn istəklər, sifarişlər, eyni zamanda, dövlət siyasətimiz.

Azərbaycanda təhlükəsizlik tam şəkildə təmin edilib. İctimai iqlim müsbətdir. Burada dövlət-din münasibətləri və dinlərarası münasibətlər xüsusi yer tutur. Bu gün bu, belədir, sabah da belə olacaqdır. Azərbaycanda bütün xalqların, bütün konfessiyaların, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar və yaşayacaqlar. Heç vaxt ölkəmizdə dini zəmində heç bir qarşıdurma olmamışdır və olmayacaqdır. Hətta heç bir anlaşılmazlıq da olmamalıdır və yoxdur. Biz bu yolla gedirik və dünyaya bu yolu göstəririk.

Bu gün sivilizasiyalararası dialoq haqqında müxtəlif fikirlər, fərziyyələr irəli sürülür. Alimlər, jurnalistlər, ictimai xadimlər, hətta siyasətçilər də bəzi hallarda bu münasibətlərin gələcəyinə o qədər də müsbət baxmırlar, yanaşmırlar. Çox təəssüf edirəm. Gəlsinlər Azərbaycanın təcrübəsini görsünlər, öyrənsinlər. Görsünlər ki, bir ölkədə bütün dinlərin nümayəndələri mehribanlıq şəraitində necə yaşaya bilərlər, bütün millətlərin hüquqları necə təmin edilə bilər. Biz buna necə nail ola bilmişik? Bəzi hallarda xarici qonaqlar məndən bunu soruşurlar. Bunu izah etmək üçün gərək bir neçə gün vaxt sərf edəsən. Çünki yenə də deyirəm ki, bu, dövlət siyasətimizdir. Eyni zamanda, tarixən belə olubdur. Azərbaycan da və cəmiyyət də bu gözəl mənzərəni görərək öz töhfəsini verir ki, bu proses daim davam etsin.

Eyni zamanda, biz bu gün beynəlxalq aləmdə dinlərarası dialoqun möhkəmləndirilməsi üçün öz dəyərli töhfəmizi veririk. Təsadüfi deyil ki, məhz Azərbaycan dünyanın multikulturalizm mərkəzlərindən birinə çevrilmişdir. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, dialoqlar, mədəniyyətlərarası dialoq, humanitar forum, dünya dinlərinin liderlərinin zirvə görüşləri - bütün bunlar bu gün Azərbaycan reallıqlarıdır. Biz çalışırıq bu tədbirlərin keçirilməsi ilə ümumi işimizə töhfəmizi verək ki, dünyada da dini, milli zəmində heç vaxt anlaşılmazlıq, qarşıdurma olmasın. Əfsuslar olsun ki, biz bir çox hallarda bunun əksini görürük. Yaxın Şərqdə, Avropada, digər yerlərdə dini amil əsasında müharibələr, davalar, qanlı toqquşmalar baş verir. Bu, əlbəttə ki, bizi çox narahat edir. Yenə də deyirəm, ümid edirəm ki, Azərbaycan öz müsbət təcrübəsini başqa ölkələrlə bölüşərək ümumbəşəri dəyərlərə qiymətli töhfəsini verir və verəcəkdir.

Bir daha demək istəyirəm ki, biz Azərbaycanda bütün məsələləri ardıcıllıqla, məqsədyönlü şəkildə həll edirik. Bizim siyasətimizin mənbəyi Azərbaycan xalqıdır. Azərbaycan xalqının arzularını Azərbaycan iqtidarı gerçəkləşdirir. Biz bundan sonra da bu yolla gedəcəyik. Əminəm ki, ölkənin qarşısında duran bütün vəzifələr uğurla icra ediləcəkdir. O cümlədən ən ağrılı problem - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi də öz həllini tapacaq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək.

Bu gün güclü Azərbaycan ordusu, güclü Azərbaycan iqtisadiyyatı, beynəlxalq mövqelərimiz imkan verir ki, biz bu istiqamətdə istədiyimizə nail olaq. Bizim istədiyimiz bizim haqqımızdır. Haqlı tələblərimiz var. Biz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik. Biz istəyirik ki, azərbaycanlılar bütün tarixi Azərbaycan torpaqlarında, Dağlıq Qarabağda, digər işğal edilmiş torpaqlarda yaşasınlar. Vaxt gələcək azərbaycanlılar bizim tarixi torpaqlarımızda - İrəvan xanlığında, Göyçə, Zəngəzur mahallarında da yaşayacaqlar. Ona görə biz daha da fəal işləməliyik, çalışmalıyıq, hər bir vətəndaş öz sahəsində ümumi işimizə töhfə verməlidir. Mən tam əminəm ki, gün gələcək biz Şuşa məscidini, Ağdam məscidini və hazırda Azərbaycanın erməni vəhşiləri tərəfindən dağıdılmış bütün digər məscidlərini bərpa edəcəyik, orada birlikdə namaz qılacağıq. Biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik.

Mən bir daha Sizi və bütün Azərbaycan xalqını bu tarixi hadisə - Heydər məscidinin açılışı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı gəlir. Bu bayramlar münasibətilə bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm. Azərbaycan xalqına rifah, sülh, tərəqqi arzulayıram. Sağ olun.

* * *

Sonra Prezident İlham Əliyev mərasimdə iştirak edən Şimali Qafqaz respublikalarının din xadimləri ilə görüşdü.

* * *

Daha sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gəldilər.

Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin məzarını ziyarət edərək üzərinə gül dəstəsi qoydu.

Görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın da xatirəsi yad olundu.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri anıldı.

*26 dekabr 2014-cü il*

# PREZİDENT İLHAM ƏLİYEV NƏRİMANOV RAYONUNDA YENİ SALINAN PARKDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakının Nərimanov rayonunun Koroğlu Rəhimov küçəsində yeni salınan istirahət parkında yaradılan şəraitlə tanış olublar.

Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev parkın tikintisi ilə bağlı dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq əhalinin istirahətini təmin etmək və abadlıq-yaşıllıq işlərinin aparılması məqsədilə Nərimanov rayonu Koroğlu Rəhimov küçəsi 3a ünvanında hazırda son tamamlama işləri aparılan 7 mərtəbəli yaşayış binasının qarşısındakı ərazidə yeni istirahət parkı salınıb. Birinci mərhələdə akademik Həsən Əliyev, Əlövsət Əbdülrəhimov və Koroğlu Rəhimov ünvanlarındakı istismar müddəti başa çatmış yaşayış binalarının sakinləri müasir tipli yeni binalara köçürülüblər. Sökülən binaların yerində isə parkın birinci hissəsi salınaraq sakinlərin istifadəsinə verilib. Layihənin ikinci mərhələsində Fətəli xan Xoyski və Koroğlu Rəhimov küçələrində yerləşən 2 yaşayış binasının sakinləri Atatürk prospektində yeni inşa olunan binalara köçürülüblər. Koroğlu Rəhimov küçəsi 3a ünvanında yeni tikilən yaşayış binasının qarşısında sakinlərin istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün 3 hektardan artıq ərazidə ikinci park salınıb. Yeni salınan parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait var. Burada görülən işlər ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla paytaxtımızın daha da gözəlləşməsinə xidmət edir. Bu, bir daha təsdiq edir ki, Bakıda aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması diqqətdən kənarda qalmır.

Parkda abadlıq-quruculuq işləri yüksək zövqlə həyata keçirilib, geniş yaşıllıq tədbirləri görülüb. Parkın salınması zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, istirahət məkanı orijinal elementlər və formalarla zənginləşdirilib. Parkın ərazisində müxtəlif fəvvarələr quraşdırılıb. Bu da istirahət məkanına əlavə gözəllik verir.

Dövlətimizin başçısının tapşırığı ilə Bakı şəhərində parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində son illərdə paytaxtda ardıcıl tədbirlər davam etdirilir. Yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Nərimanov rayonu ərazisində yeni salınan bu park da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir.

Parkın altında ikimərtəbəli avtomobil dayanacağı da inşa edilib. Yeraltı dayanacağa enmək üçün iki lift və müasir eskalatorlar quraşdırılıb.

Dövlətimizin başçısı və xanımı burada yaradılan şəraitlə də tanış oldular. 650 avtomobil tutumuna malik yeraltı dayanacaq "Safe Life" şirkəti tərəfindən ən müasir texniki avadanlıqla təchiz olunub. 24 saat açıq olacaq yeraltı avtomobil dayanacağında təhlükəsizlik sistemlərindən olan su ilə avtomatik söndürmə, ünvanlı yanğın siqnalizasiya, havalandırma və tüstüsovurma, yanğın səsləndirmə və təxliyyənin idarə olunması, videonəzarət, park naviqasiya, park ödəmə sistemləri və istiqamət lövhələri qurulub. Bu sistemlərdə dünyanın qabaqcıl şirkətlərinin ən keyfiyyətli avadanlığından istifadə olunub. Yeraltı avtomobil dayanacağına, texniki və xidməti otaqlara vizual nəzarət etmək üçün videonəzarət sistemindən istifadə edilib. Sistem sayəsində dayanacaq ərazisinə və

giriş-çıxışa tam nəzarət etmək, insan gözündən yayına biləcək vəziyyətlərə belə diqqət yetirmək mümkün olacaq. Yeraltı dayanacaqda avtomobillərin təhlükəsizliyi ən yüksək səviyyədə nəzərə alınıb.

*29 dekabr 2014-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "XƏYAL ADASI" LAYİHƏSİ ÜZRƏ GÖRÜLƏN İŞLƏRİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

"Azərsun Holdinq" Şirkətlər Qrupunun Müşahidə Şurasının sədri Abdulbari Gözəl dövlətimizin başçısına "Xəyal Adası"nda görülən işlərlə bağlı ətraflı məlumat verdi. Bildirildi ki, Heydər Əliyev Beynəlxalq Aeroportuna gedən yolun üzərində yerləşən "Xəyal Adası"nın ərazisi 320 hektardır. Bu, yüksək standartlara cavab verən yaşayış, ticarət, əyləncə və idman sahələrini əhatə edən layihədir.

Azərbaycan Prezidenti "Xəyal Adası" qolf klubunda yaradılan şəraitlə də tanış oldu.

Dövlətimizin başçısına burada qolf oyunlarında istifadə olunan avadanlıq və klub-kar barədə məlumat verildi.

"Xəyal Adası"nın layihəsi ilə tanış olan Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, yaşayış sahəsində müasir tələblərə cavab verən yüksək keyfiyyətli 2100 mənzil, fərqli ölçülərdə və konseptlərdə 300 villa inşa olunur. "Xəyal Adası" layihəsi burada yaşayacaq insanların bütün ehtiyaclarını ödəməyə hesablanıb. Buna görə də layihə çərçivəsində məktəb kompleksi, ticarət mərkəzləri, mehmanxana, beynəlxalq səviyyəli yarışların keçirilməsinə imkan verən Qolf Mərkəzi, göllər və peyzaj sahələri yaradılır.

Dövlətimizin başçısı layihədən bəhs edən videoçarxa baxdı.

Qeyd olundu ki, "Xəyal Adası"nda "ASAN xidmət" mərkəzi də yaradılacaq. Burada fəaliyyət göstərəcək məktəb kompleksində uşaq bağçası, aşağı və yuxarı siniflər üçün təhsil, gimnastika və idman binaları, futbol meydançası istifadəyə veriləcək. Bunun üçün təhsil sahəsində keyfiyyəti ilə fərqlənən "SABİS" sisteminin tətbiq olunduğu məktəblər şəbəkəsi seçilib. Ən yüksək ekoloji standartlara uyğun olaraq inşa edilən "Xəyal Adası"nda gələcəkdə müasir səhiyyə komplekslərinin yaradılması da nəzərdə tutulub. "Xəyal Adası" layihəsinin həyata keçirilməsi ölkəmizdə beynəlxalq turizmin və qeyri-neft sektorunun inkişafına da mühüm töhfə verəcək.

Prezident İlham Əliyev elektromobillə qolf sahəsini gəzdi.

Bildirildi ki, beynəlxalq səviyyəli yarışların təşkil edilməsinə imkan verəcək 18 çalalı qolf sahəsində son tamamlama işləri aparılır.

Son illərdə Azərbaycanda idmanın kütləviliyinin artırılması istiqamətində əsaslı islahatlar həyata keçirilir. Bu islahatlar nəticəsində idmanla məşğul olanların sayının sürətlə artması müşahidə edilir. "Xəyal Adası"nda qolf klubunun yaradılması bir daha təsdiqləyir ki, Azərbaycanda idmanın bütün növlərinin inkişafı diqqət mərkəzindədir. Qolf klubundakı şərait dünya standartlarına tam cavab verəcək. Buna görə də gələcəkdə burada müxtəlif beynəlxalq yarışların yüksək səviyyədə keçirilməsi mümkündür. Burada yaradılan Qolf Akademiyası isə gələcəkdə ölkəmizin adını bütün dünyada ləyaqətlə təmsil edəcək idmançıların yetişdirilməsində böyük rol oynayacaq.

Prezident İlham Əliyev Qolf Akademiyasında yaradılan şəraitlə də tanış oldu. Burada idman avadanlığı mağazası və kafe də fəaliyyət göstərəcək. Akademiyada kiçik yaşlarından başlayaraq uşaqlara peşəkarlar tərəfindən qolf öyrədiləcək, müxtəlif treninqlər keçiriləcək.

Sonra dövlətimizin başçısı ərazini gəzdi, tikintisi davam etdirilən villalarda yaradılacaq şəraitlə tanış oldu. Qeyd edildi ki, layihədəki otel, ticarət mərkəzləri, məktəb kompleksi, villalar, mənzillər, göllər və peyzaj sahələrində tikinti işləri davam edir. İlkin mərhələdə kommunal xidmətlər üçün nəzərdə tutulmuş infrastruktur artıq hazırdır. Villalarda və mənzillərdə isə beton işləri başa çatıb. Fasad və kosmetik işlər isə yekunlaşmaq üzrədir. Layihənin reallaşmasında iki mindən artıq yerli işçi çalışır. "Xəyal Adası" həm də ətraf ərazilərdə yaşayan insanlar üçün böyük məşğulluq mərkəzi olacaq. Belə bir layihənin həyata keçirilməsi həm də turizm sektorunun inkişafına mühüm töhfə verəcək.

Prezident İlham Əliyev tikinti işlərinin yüksək səviyyədə həyata keçirilməsi üçün müvafiq tapşırıq və tövsiyələrini verdi.

*12 yanvar 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV SUMQAYITA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ NƏSİMİ ADINA ŞƏHƏR MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKINDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Sumqayıta səfəri çərçivəsində Nəsimi adına şəhər mədəniyyət və istirahət parkında aparılan yenidənqurma işləri ilə tanış olub.

Son illərdə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi, regionların simasına yeni elementlərin əlavə olunması ilə müşayiət edilir. Şəhər və rayonlarımızda aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması, mövcud olanların isə yenidən qurulması diqqətdən kənarda qalmır. Bu sahədə həyata keçirilən işlər çərçivəsində Sumqayıtdakı Nəsimi adına şəhər mədəniyyət və istirahət parkının yenidən qurulması da xüsusi əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən yenilənən bu park, ilk növbədə, şəhər sakinlərinin istirahətinin yüksək səviyyədə təşkilinə xidmət edir. Müasir tələblər səviyyəsində qurulan bu park Sumqayıtın gözəlliyini daha da artırır.

Dövlətimizin başçısına parkda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi. Bildirildi ki, "Şəhidlər xiyabanı"nın yaxınlığındakı 10 hektarlıq ərazidə geniş abadlıq işləri aparılıb. Burada 10 metr hündürlüyündə "20 Yanvar" abidəsi ucaldılıb. Bu da 25 illiyini qeyd etməyə hazırlaşdığımız 20 Yanvar hadisələri zamanı şəhid olan soydaşlarımızın xatirəsinin hər zaman dövlətimiz tərəfindən əziz tutulduğunu göstərir.

Parkda Xocalı soyqırımı qurbanlarının xatirəsinə də abidə qoyulub. Qranit abidə kompleksi soyqırımı qurbanlarının heç zaman unudulmadığını, onların daim xalqımızın qəlbində yaşadığını göstərir.

Qeyd edildi ki, şəhər sakinlərinin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün salınan parkda ardıcıl olaraq yenidənqurma və tikinti-quraşdırma işləri aparılır. Yenidənqurma işləri zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, maraqlı elementlər və formalardan istifadə edilib. Ərazidə çoxlu ağac və dekorativ gül kolları əkilib, yaşıllıq salınıb. Park müasir işıqlandırma sistemi ilə təchiz edilib.

Prezident İlham Əliyev Nəsimi parkının digər hissələrində aparılan abadlıq-quruculuq işləri ilə də tanış oldu. Sumqayıtın əsas magistral yolu olan Səməd Vurğun küçəsindən başlayaraq Xəzər dənizinin sahilinədək uzanan parkın ümumi sahəsi hazırda 80 hektardır.

Nazirlər Kabinetinin qərarına əsasən, 2001-ci ildən Nəsimi adına şəhər mədəniyyət və istirahət parkı ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələri siyahısına daxil edilib.

Prezident İlham Əliyev Nəsimi parkında yeni inşa olunan "Yaşıl teatr"da yaradılan şəraitlə də tanış oldu.

Bildirildi ki, həm respublika, həm də şəhər səviyyəli mədəni-kütləvi tədbirlərin keçirilməsi məqsədilə tikilən, 350 tamaşaçı yeri olan bu teatr ən müasir standartlar səviyyəsindədir. Ümumi sahəsi min kvadratmetrə yaxın olan "Yaşıl teatr"da ən son texnologiyaya əsaslanan səs və işıq sistemləri qurulub.

*13 yanvar 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SUMQAYITDA GƏNCLƏR EVİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Sumqayıtda Gənclər Evinin açılışında iştirak edib.

Son dövrlərdə digər sahələrdə olduğu kimi, gənclər siyasəti istiqamətində də çox mühüm nailiyyətlər əldə edilib. Bütün bu uğurlar ölkəmizdə gənclər siyasətinin formalaşdırılması üçün həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir. Bu sahənin inkişafı da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkədə həyata keçirilən gənclər siyasəti 2003-cü ildən başlayaraq uğurlu nəticələrlə yadda qalıb. 2005-2009-cu illəri əhatə edən Azərbaycan Gəncliyi Dövlət Proqramı bu məsələdə çox mühüm rol oynayıb. Hazırda həyata keçirilən "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı bu tədbirlərin məntiqi davamıdır.

Hazırda ölkə gəncləri vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsiplərinə, həmçinin tarixi keçmişimizə, milli mənəvi dəyərlərimizə rəğbət ruhunda tərbiyə olunurlar. Bu məsələ respublikamızda prioritet istiqamətlərdən biridir. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramlar həyata keçirilir. Bölgələrdə müasir tələblərə cavab verən sosial infrastruktur obyektlərinin və gənclər mərkəzlərinin, gənclər evlərinin istifadəyə verilməsi də məhz həmin məqsədlərə xidmət edir. Belə gənclər evlərindən biri də Sumqayıtda yaradılıb.

Dövlətimizin başçısı Gənclər Evinin rəmzi açılışını bildirən lenti kəsdi.

Gənclər və idman naziri Azad Rəhimov Prezident İlham Əliyevə burada yaradılan şərait barədə məlumat verdi.

Binanın foyesində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Sumqayıta səfərlərini, həmçinin gənclərlə görüşlərini əks etdirən fotolardan ibarət stend yaradılıb. Bu Gənclər Evi Prezidentin 2011-ci ildə imzaladığı Sərəncamla təsdiq edilmiş "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramına əsasən Gənclər və İdman Nazirliyinin sifarişi ilə tikilib. Binanın inşası üçün şəhərin 5-ci mikrorayon ərazisində 246 kvadratmetr torpaq sahəsi ayrılıb. Üç mərtəbə və terrasdan ibarət binada caz klub, səhnəsi olan böyük kafe-bar, art-studiya, internet klub yaradılıb. Burada, həmçinin biznes və hüquqi məsləhət mərkəzləri, vətənpərvərlik klubu, gənclər üçün "Qaynar xətt" xidməti, peşəyönümü mərkəzi, bütün müasir və zəruri avadanlıqla təchiz edilmiş videostudiya da gənclərin ixtiyarına veriləcək.

Gənclər Evinin masaüstü oyunlar otağında asudə vaxtın daha səmərəli təşkili üçün hər cür şərait var. Burada, həmçinin istedadların hazırlığı laboratoriyası və xarici dillər üzrə danışıq klubu da fəaliyyət göstərəcək.

Binadakı "dəyirmi masa" zalı da müasirliyi ilə diqqəti cəlb edir. Bir sözlə, burada gənclərin potensialını üzə çıxarmaq və onu inkişaf etdirmək üçün bütün şərait yaradılıb.

Gənclər Evinin 110 yerlik müasir akt zalı da vardır. Burada gənclərlə bağlı müxtəlif tədbirləri ən yüksək səviyyədə təşkil etmək mümkün olacaq. Tədbirlər zamanı regionlardan gələn gənclərin qalmaları üçün bir və iki nəfərlik 10 otaq yaradılıb. Binanın sonuncu mərtəbəsində açıq havada 50 nəfərlik restoran gənclərin ixtiyarına veriləcək. Binanın inzibati bölməsindəki otaqların hamısı zəruri avadanlıqla təmin olunub.

Dövlətimizin başçısı Gənclər Evində Olimpiya Hərəkatı Muzeyi və Beyləqanda inşa edilən Olimpiya kompleksinin eskiz layihəsinə də baxdı.

*13 yanvar 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMXALQ HÜZN GÜNÜNDƏ 20 YANVAR ŞƏHİDLƏRİNİN ƏZİZ XATİRƏSİNİ YAD ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də - Ümumxalq Hüzn Günündə 20 Yanvar şəhidlərinin xatirəsini yad edib.

Qanlı Yanvar hadisələrindən 25 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 25 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın o zamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən tutmaqda davam etdilər.

Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcəkdir.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını pozmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

* * *

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldi.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsi önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndi.

* * *

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.

***20 yanvar 2015-ci il***

## PREZİDENT İLHAM ƏLİYEV "ŞAHDAĞ" QIŞ-YAY TURİZM KOMPLEKSİNİN 1 NÖMRƏLİ KANAT YOLUNUN VƏ XİZƏK ENİŞİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "Şahdağ" qış-yay turizm kompleksinin 1 nömrəli kanat yolunun və xizək enişinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısına məlumat verildi ki, kompleksdə inşası nəzərdə tutulan 9 kanat yolundan 7-si artıq hazırdır. Bundan başqa, ümumi uzunluğu 5860 metr olan 4 "xalça cığırı" və ümumi uzunluğu 12 min 430 metr olan 11 dağ xizək enişi inşa olunub. Həmçinin sahəsi 41,5 hektar olan enişlərin süni qarlaşdırma sistemi yaradılıb. Burada qonaqlar və turistlər üçün müxtəlif istirahət guşələri də tikilib.

Dövlətimizin başçısı 1 nömrəli kanat yolunu işə saldı.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kanat yolunu sınaqdan keçirdilər.

Qeyd edək ki, kanat yollarının çəkilişi qış turizm kompleksinin əsas infrastrukturlarından sayılır və bu işi böyük təcrübəsi olan Avstriya şirkəti həyata keçirir. Beləliklə, "Şahdağ" qış-yay turizm kompleksi qonaqlara il boyu sonsuz həyəcanlı idman və əyləncə növləri təklif edir. Qonaqların burada bənzərsiz təbiət gözəlliyinin mərkəzində, dağ havasının təravətində müxtəlif əyləncə növlərinin əhatəsində olmaq şansı var. Burada

xizəklə sürüşmək üçün 19-dan çox yamacın yaradılması planlaşdırılıb. Xizəksürmə məktəbi müxtəlif kurslar da təklif edir. Kompleksdə hər yaş kateqoriyasından olan insanlara müxtəlif yay əyləncələri də təklif ediləcək. Bölgəni yenidən kəşf etmək istəyənlər, macəra axtarışında olanlar üçün gələcəkdə raftinq, paraşütlə tullanma, qayaya dırmanma, velosipedlə gəzinti, göldə üzgüçülük və başqa idman əyləncələri də təşkil olunacaq. Bundan əlavə, burada böyük qolf sahəsinin, maraqlı aqvaparkların və hovuzların da tikilməsi planlaşdırılıb.

*29 yanvar 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "ŞAHDAĞ" QIŞ-YAY TURİZM KOMPLEKSİNDƏ "PARK CHALET" OTELİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qusar rayonunda "Şahdağ" qış-yay turizm kompleksində olublar.

Dövlətimizin başçısı və xanımı "Park Chalet Shahdag" otelinin, həmçinin kompleksin 1 nömrəli kanat yolunun və xizək enişinin açılışlarında iştirak ediblər.

"Şahdağ" qış-yay turizm kompleksi dünyadakı bu tipli komplekslərdən nadirliyi və universallığı ilə fərqlənir. Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə Şahdağ Milli Parkının ərazisində yerləşən kompleksin tikintisinin hazırlıq işlərinə 2006-cı ildən başlanılıb. Həmin il keçirilən tenderdə dünyanın aparıcı şirkətləri qalib gəlib. Bu kompleksin təməli 2009-cu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulub. O vaxtdan görülən işlər nəticəsində "Şahdağ" qış-yay turizm kompleksinə çəkilən avtomobil yolu genişləndirilib, körpülər tikilib, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilib. Dəniz səviyyəsindən 1300-2300 metr yüksəklikdə yerləşən turizm kompleksinin ərazisi 2058 hektardır.

Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən olan "Şahdağ" qış-yay turizm kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənir və il-boyu fəaliyyət göstərmək iqtidarındadır. Bu layihənin reallaşdırılması Azərbaycanda dağ-xizək və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açır. Azərbaycanda sürətlə inkişaf edən turizm sektoruna böyük töhfə olan "Şahdağ" qış-yay turizm kompleksində inşa edilən otellər bu istirahət məkanına marağı daha da artırır. Qonaqların istirahətinin yüksək səviyyədə təmin olunduğu bu otellərdə yaradılan şərait bir daha təsdiqləyir ki, bu gün ölkəmizdə turizm sektorunun inkişafına xüsusi fikir verilir. Prezident İlham Əliyevin rəhbərliyi altında bütün ölkə üzrə turizm marşrutlarının müəyyənləşdirilməsi və bununla bağlı bölgələrdə genişmiqyaslı tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Təsadüfi deyil ki, son bir neçə ildə beşulduzlu otellərin açılması ilə dünyanın ən məşhur otel brendləri Azərbaycana gəlib. Paytaxt Bakı ilə yanaşı, regionlarda da müasir turizm və istirahət obyektlərinin, mehmanxana komplekslərinin tikilib istifadəyə verilməsi Azərbaycanda bu sahənin inkişafına göstərilən diqqətin nümunəsinə çevrilib. Bu çərçivədə "Şahdağ" qış-yay turizm kompleksində inşa edilən otellərdə təqdim edilən yüksək şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını bir daha təsdiqləyir və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını göstərir.

"Şahdağ" qış-yay turizm kompleksi Azərbaycanda ilk dağ-xizək kurortudur. Kompleksin inşası bir neçə mərhələdə aparılır. Bu möhtəşəm obyektin inşasını daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev dəfələrlə əraziyə gələrək tikintinin gedişi ilə tanış olub, bir neçə obyektin və otelin açılışında iştirak edib. Layihənin həyata keçirilməsi

Mədəniyyət və Turizm Nazirliyinə həvalə olunub. Tikintiyə nəzarəti isə nazirliyin tabeliyində olan "Şahdağ" qış-yay turizm kompleksinin müdiriyyəti həyata keçirir.

Prezident İlham Əliyev otelin rəmzi açılışını bildirən lenti kəsdi.

"Park Chalet Shahdag" oteli Bakıdan 210 kilometr şimal qərbdə yeganə alp üslublu dəbdəbəli məkandır. Əzəmətli dağlarla əhatə olunan otelin 164 eleqant qonaq otağı var.

"Park Chalet" otelinin baş meneceri Stüart De San Nikolas bildirdi ki, bu otel yeni yaradılan "Absheron Hotel Group" şirkətinin ikinci otelidir. İlk otel olan "Pik Palace Şahdağ"ın açılışı 2013-cü ilin dekabrında Prezident İlham Əliyev tərəfindən həyata keçirilib. "Park Chalet" otelinin dizaynı ənənəvi Avropa üslubundan ilhamlanaraq, ABŞ-da Aspen xizək stilli otellərin üslubunu da özündə əks etdirir. "Park Chalet" oteli "Marriott" brendinin xüsusi portfeli sayılan eksklüziv və müstəqil lüks otel və kurortların cəmləşdiyi "Autograph Collection"un rəsmi üzvüdür. "Park Chalet"in bu qrupa daxil olması təsadüfi deyil. Belə ki, bu qrupa namizəd otellər beynəlxalq standartlara cavab verməsi, yerləşdiyi ərazi, orijinallığı və digər spesifik xüsusiyyətləri ilə seçilən otellərdir.

Dövlətimizin başçısı və xanımı otelin nömrələrində yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, oteldə müxtəlif kateqoriyadan olan nömrələr ən müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir. Bütün bunlar sübut edir ki, paytaxtla yanaşı, regionlarda da müasir turizm və istirahət obyektlərinin, mehmanxana komplekslərinin tikilib istifadəyə verilməsi Azərbaycanda bu sahənin inkişafına göstərilən diqqətin nəticəsidir. Bu çərçivədə "Park Chalet" otelində yaradılan gözəl şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını bir daha təsdiqləyir. Oteldə müasir restoranlar şəbəkəsi də fəaliyyət göstərir. Restoranlarda turistlərə Azərbaycan və dünya mətbəxinin nümunələri təqdim olunacaq. Oteldəki restoranlar, barlar və istirahət guşələri dağlarda zövqlə nahar etmək üçün nadir vəhdət yaradır. Bu oteldə qonaqlara təqdim olunan xidmətlər çoxçeşidliliyi ilə fərqlənir. Burada quraşdırılan müxtəlif trenajorlar, müasir idman avadanlığı və hovuzlar qonaqların istirahət imkanlarını daha da artırır. "Park Chalet" otelində tam təchizatlı fitness və SPA mərkəzləri, 20 metrlik qapalı hovuz qonaqlarını gözləyir. Dəbdəbəli SPA mərkəzində çalışan təcrübəli terapevtlər müxtəlif aromaterapiya, masajlar və prosedurlar, o cümlədən kosmetik qulluq və müalicə təqdim edirlər. 130 nəfərədək qonağı qəbul etmək iqtidarında olan çoxfunksiyalı və banket üslubundakı konfrans zalı Günəş işığı ilə işıqlanır və möhtəşəm dağ mənzərəsi ilə əhatə olunub. Konfrans zalı, həmçinin 3 ayrı hissələrə bölünə bilir və bu da müxtəlif məzmunlu və həcmli tədbirlərin həyata keçirilməsi üçün əlverişlidir. Otelin biznes mərkəzi 7 gün 24 saat fəaliyyətdədir.

Otellə tanışlıqdan sonra Prezident İlham Əliyev kollektivlə görüşdü.

Kollektivin üzvlərini salamlayan Prezident İlham ƏLİYEV dedi:

- Sizi salamlayıram. Bu gözəl otelin açılışı münasibətilə sizi təbrik edirəm. Şadam ki, hər il Şahdağda bir-birindən gözəl yeni otellər açılır. Bu otel - "Park Chalet" oteli sayca beşinci oteldir. Burada bütün lazımi şərait yaradılıb, otel ən yüksək standartlara cavab verir. Həm xarici görünüşü, həm daxili tərtibatı, bütün xidmət sahələri ən yüksək səviyyədədir. Bu, məni çox sevindirir. Çünki Şahdağ kurort mərkəzi bir neçə ildir ki, yaradılır. İlk dəfə altı il bundan əvvəl burada olarkən Azərbaycanda dağ xizəyi kurortunun yaradılması haqqında qərar qəbul etdim və 2009-cu ildə təməl daşı qoyuldu. O zaman bu ərazilər boş idi. Bu gözəl dağlar arasında gözəl turizm mərkəzi yaradılıbdır. Bu gün dünya səviyyəli turizm mərkəzidir. Bütün infrastruktur layihələri icra edildi, yollar, elektrik, qaz, su xətləri çəkildi. İlk növbədə, infrastruktur yaradılmalı idi. O layihələr icra edilməsə idi, burada otelin tikintisi mümkün olmazdı.

Ondan sonra birinci otel – "Şahdağ" oteli tikilmişdir. Daha sonra "Qaya", "Zirvə", "Pik Palas" və indi "Park Chalet". Yəni, qısa müddətdə, təxminən 3-4 il ərzində Azər-

baycanda dünya səviyyəli beynəlxalq turizm mərkəzi yaradılıbdır. Hesab edirəm ki, bu, rekord göstəricidir. Çünki adətən, belə turizm mərkəzlərinin yaradılması onilliklər tələb edir. Biz isə bunu 4-5 il ərzində yarada bilmişik. Burada həm dövlət vəsaitindən istifadə edilmişdir, - çünki bütün infrastruktur layihələri, elə birinci otel – "Şahdağ" oteli dövlət büdcəsi hesabına tikilmişdir, - həm də özəl sektor fəaliyyət göstərir. Belə də olmalıdır. Azərbaycanda turizm yerlərinin yaradılması bu istiqamətdə inkişaf edir: dövlət infrastruktur yaradır, yollar çəkir, bütün kommunikasiyalar təmin edilir, özəl sektor isə öz növbəsində, investisiyaları təşkil edir.

Bu zona, ümumiyyətlə, çox böyük inkişaf dövrünü yaşayır. Bu otellərdə - Şahdağ kurort mərkəzində işləyənlərin 80 faizi yerli insanlardır, Qusar rayonunun sakinləridirlər. Yadımdadır, təməl daşını qoyanda demişdim ki, bu mərkəz, eyni zamanda, iş yerlərinin yaradılmasına xidmət göstərəcək. Çünki turizm sektoru çoxsaylı iş yerlərinin açılmasına gətirib çıxarır. Nəzərə alsaq ki, biz hələ birinci mərhələdəyik, demək olar, bizim bütün planlarımız otellərin tikintisi ilə artıq reallaşıb. Ancaq Şahdağ turizm mərkəzinin əsas fəaliyyət dövrü bundan sonra başlayacaq. Çünki hazırda buraya gələn qonaqların əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Bu da çox müsbət haldır ki, belə gözəl şərait olan yerdə Azərbaycan vətəndaşlarının indi dincəlmək üçün xaricə getmələrinə ehtiyac yoxdur. Ancaq ümid edirəm ki, gələcəkdə xarici qonaqların sayı da çoxalacaq. Beləliklə, burada – Qusar rayonunda inkişaf daha da sürətlə gedəcək.

Qusar rayonunun inkişafı daim diqqət mərkəzindədir. Həm abadlıq-quruculuq, infrastruktur işləri görülmüş, gözəl xəstəxana tikilmişdir. Məktəblər inşa olunur, yollar çəkilir. Bu mərkəz Azərbaycanda ən böyük turizm mərkəzidir və dövlət xətti ilə turizm infrastrukturuna qoyulan ən böyük vəsait Qusar rayonuna yatırılıb.

Bu mərkəzin gözəl gələcəyi var. Xarici qonaqlar artıq bu yeri tanıyırlar. İnternet saytları da var. Bu il Azərbaycanda keçiriləcək Avropa Oyunlarının qonaqları da əminəm ki, gələcəklər. Baxmayaraq ki, bu, oyunlar yay mövsümündə olacaq. Ancaq əminəm ki, bu mərkəz yay mövsümündə də uğurla fəaliyyət göstərəcək.

Hazırda buraya şənbə-bazar günlərində daha çox qonaq gəlir. Amma vaxt gələcək ki, bütün həftə boyu onların sayı çoxalacaq və əminəm, yay mövsümündə də bu mərkəz kifayət qədər səmərəli işləyəcək.

Turizm Azərbaycanda inkişaf edir. Bir neçə turizm mərkəzi yaradılıbdır. Onlardan biri Şahdağdır. Eyni zamanda, indi Naftalan turizm mərkəzi fəaliyyət göstərir. Qalaaltı turizm mərkəzi bu yaxınlarda açılacaqdır. Cənub bölgəsində - Lənkəran-Astara zonasında, Lerikdə gözəl turizm imkanları var. Qəbələ turizm mərkəzinə çevrilibdir, burada beşulduzlu bir neçə otel fəaliyyət göstərir. Qərb bölgəsində Gəncə və onun ətrafında yerləşən rayonlar da əlbəttə ki, turizm üçün çox gözəl yerlərdir. Azərbaycanın təbiəti elədir ki, hər yerdə gözəl, səfalı məkanlar, dağlar, meşələr, çaylar çoxdur. Bu, bizim böyük sərvətimizdir. Biz bu sərvətdən səmərəli şəkildə istifadə etməliyik. Belə gözəl, müasir otellər tikilir və Azərbaycan vətəndaşlarına xidmət edir.

Əlbəttə, Azərbaycanın ən böyük turizm mərkəzi Bakıdır. Bakıda indi dünyanın bütün aparıcı otelləri fəaliyyət göstərir. Qısa müddət ərzində Bakıda beşulduzlu altı otel tikilmişdir. Hesab edirəm ki, bu da rekord göstəricidir, 5-6 il ərzində bir şəhərdə beşulduzlu altı beynəlxalq otel inşa olunmuşdur. Bakıya gələn hər bir qonaq paytaxtımıza aşiq olur. Çünki Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Mən isə istəyirəm ki, Azərbaycanın bütün şəhərləri gözəl olsun. Bütün şəhərlərdə gözəl şərait olsun, insanlar rahat yaşasınlar. Bu gün biz bunu təmin edirik. Azərbaycan inkişaf edir. Heç bir böhran bizə təsir edə bilməz. Biz inamla inkişaf edirik və regionlarımız da inkişaf edir.

İki gün bundan əvvəl regionların sosial-iqtisadi inkişafına dair üçüncü proqramının birinci ilinin yekunlarına həsr olunmuş konfransda bir daha bütün rəqəmlər səsləndi və Azərbaycanın regionlarının inkişafı bundan sonra da uğurla təmin ediləcək.

Çox şadam ki, mənim təşəbbüsüm qısa müddət ərzində reallaşır. Bu yerlərdə gözəl otellər, binalar, istirahət zonaları yaradılıb.

Sizə uğurlar arzulayıram və əminəm ki, yaxşı işləyəcəksiniz, qonaqlara yaxşı xidmət göstərəcəksiniz. Sağ olun.

* * *

Sonra xatirə şəkli çəkdirildi.

* * *

Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, oteldə xidmət göstərəcək heyət yüksək hazırlıq kursu keçib və onların əksəriyyətini yerli kadrlar təşkil edir. Bu əməkdaşlar qonaqlara yüksək səviyyəli qulluğun göstərilməsi ilə bağlı xüsusi təlim kursları keçiblər.

Prezident İlham ƏLİYEV: Əminəm ki, xidmət ən yüksək səviyyədə olacaq. Azərbaycana gələn hər kəs burada təkcə gözəl mehmanxanalar deyil, həm də yüksək xidmət görməlidir.

Otelin əməkdaşı: Ona görə də çalışırıq ki, yerli kadrları cəlb edək.

Prezident İlham ƏLİYEV: Burada işləyənlərin 80 faizi yerli kadrlardır.

Otelin əməkdaşı: Bəli, o uşaqlar hamısı yerlilərdir. Bu gəncləri texnikumdan, kollecdən, haradan imkan var cəlb edirik. Mən Bakıdanam.

Prezident İlham ƏLİYEV: Çox yaxşı. Mən o vaxt elə də demişdim. Demişdim ki, burada çoxlu iş yeri yaradılacaq, başqa rayonlardan da buraya işləməyə gələcəklər.

Otelin əməkdaşı: Gəlirlər, Qubadan da var. Statistika aparılır.

Prezident İlham ƏLİYEV: Qubadan, Xaçmazdan gəlirlər. Sizə uğurlar arzulayıram, sağ olun.

Otelin əməkdaşları: Təşəkkür edirik. Çox sağ olun.

* * *

Onu da deyək ki, kompleksin ərazisində otellərə, bu otellərin avtomobil dayanacaqlarına, xizək yollarına, kanatlara və digər yerlərə rahat gedib-gəlmək üçün yeraltı tunellər də tikilib.

*29 yanvar 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV XƏTAİ RAYONU ƏRAZİSİNDƏ YENİ YARADILAN FƏVVARƏLƏR VƏ ŞƏLALƏLƏR KOMPLEKSİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Bakının Xətai rayonu ərazisində yeni yaradılan fəvvarələr və şəlalələr kompleksi ilə tanış olub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Uzunluğu 150 metr olan kompleks ən müasir tələblər səviyyəsində qurulub. Fəvvarələr və şəlalələr kompleksinin altında müasir texniki infrastruktur və idarəetmə mərkəzi yaradılıb. Müxtəlif rəngli 700-dən artıq işıq effekti fəvvarələrə xüsusi yaraşıq verəcək.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq son illər Bakı şəhərində park və xiyabanların əsaslı şəkildə qurulması və yeni parkların, yaşıllıq zolaqlarının salınması, müasir tələblərə cavab verən istirahət guşələrinin yaradılması istiqamətində tədbirlər ardıcıl olaraq davam etdirilir. Salınan yeni parklar və yaşıllıq zolaqları, əhaliyə xidmət göstərən iaşə obyektləri, bağlarda və xiyabanlarda ən müasir tələblərə cavab verən infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Xətai rayonu ərazisində yeni yaradılan fəvvarələr və şəlalələr kompleksi də paytaxtda və respublikamızın digər bölgələrində həyata keçirilən abadlıq və quruculuq işlərinin davamıdır. Kompleksdə müasir işıqlandırma sistemi qurulub, yeni yaşıllıq zolağı salınıb, abadlıq işləri aparılıb, əraziyə keyfiyyətli plitələr döşənib.

Fəvvarələr və şəlalələr kompleksində yaradılan şəraitlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tövsiyələrini verdi.

*4 fevral 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XALQ ARTİSTİ POLAD BÜLBÜLOĞLUNUN 70 İLLİK YUBİLEY MƏRASİMİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN BAKIYA GƏLƏN BİR QRUP TANINMIŞ MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT XADİMİ İLƏ GÖRÜŞÜB

Fevralın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva xalq artisti, Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlunun 70 illik yubiley mərasimində iştirak etmək üçün Bakıya gələn bir qrup tanınmış mədəniyyət və incəsənət xadimi ilə görüşüblər.

Qonaqları salamlayan Prezident İlham ƏLİYEV dedi:

- Sizin hamınızı görməyimə şadam. Azərbaycana xoş gəlmisiniz. Əksəriyyətinizlə çoxdan tanışam, bəzi qonaqları ilk dəfədir görürəm. Ümidvaram ki, Bakı sizdə xoş xatirələr doğuracaq. Siz buraya bizim əziz Polad Bülbüloğlunun yubiley tədbirlərində iştirak etmək üçün onun yaxın dostları kimi gəlmisiniz. Bu, çox dəyərlidir. Ona görə ki, onilliklərlə davam edən dostluğunuz həmişə hamıya gözəl nümunədir. Bu, xoş münasibətləri qurmaq, qiymətləndirmək və dostluğu ömür boyu davam etdirmək nümunəsidir. Mən çox şadam ki, Polad Bülbüloğlu öz yubileyini Vətənində, dostları və yaxınlarının əhatəsində qeyd edir. Bu da bizim üçün, Bakı üçün xüsusi ab-hava yaradır. Düşünürəm ki, belə bir yubiley günündə bizim görüşümüz böyük əhəmiyyət kəsb edir.

Qeyd etdiyim kimi, mən burada iştirak edənlərin əksəriyyətini tanıyıram, bəzilərini isə ilk dəfədir görürəm. Amma düşünürəm ki, bizim münasibətlərimiz həm ənənəvi, həm də yeni tanışlıqla davam edəcək. Hər dəfə Rusiyadan bizə mədəniyyət və yaradıcılıq kollektivlərindən ibarət nümayəndə heyəti gələndə mühüm məsələləri, qarşılıqlı fəaliyyəti, o cümlədən də humanitar mövzuları müzakirə etmək üçün yaxşı imkanlar yaranır. Amma bu gün bizim mövzumuz bir qədər başqadır. Biləndə ki, Rusiyadan çoxlu qonaqlarımız gələcək, mənə çox xoş oldu.

Bizi Polad Bülbüloğlu ilə 40 ildən artıqdır ki, dostluq əlaqələri birləşdirir. Demək olar ki, 40 ildir bir-birimizi tanıyırıq. O vaxtlar mən yeniyetmə idim, Polad Bülbüloğlu isə məşhur müğənni və bəstəkar idi. Mənim valideynlərim Polada səmimi münasibət bəsləyirdilər. Mən də həmişə ona belə münasibət bəsləmişəm. Sonradan Moskvada təhsil

aldığım illərdə onunla mütəmadi ünsiyyətdə olmuşuq. Bu dostluğu uzun illərdir ki, davam etdiririk. Dünən söhbətimizdə qeyd etdiyimiz kimi, növbəti yubileyə qədər də tez-tez görüşəcəyik. Bu, mənim Polad Bülbüloğluna təqdim etdiyim ilk mükafat deyil, 10 il əvvəl ona "İstiqlal" ordeni təqdim edilmişdi, bu gün isə "Şərəf" ordeni təqdim edilir.

Polad Bülbüloğlunun yaradıcılığı hamıya yaxşı məlumdur. Bildirmək istəyirəm ki, onun yaradıcılığının milli köklərə yaxınlığı, eyni zamanda, keçmiş Sovet İttifaqı respublikalarında rəğbətlə qarşılanması məni daim heyrətə gətirirdi. Ona görə də hesab edirəm ki, Polad Bülbüloğlunun yaradıcılığı xalq yaradıcılığıdır. Onun yaradıcılığının kökləri Azərbaycan tarixinin ən dərin izlərinə gedib çıxır. O, böyük sənətkarımız, Azərbaycan xalqının fəxri olan, xalqımızın tarixində görkəmli ifaçı və vətəndaş kimi qalan müğənni Bülbülün ailəsində anadan olub. Təbii ki, bu, onun yaradıcılığına təsir göstərib. Onun mahnıları keçmiş Sovet İttifaqı məkanında hitə çevrilib. Əvvəllər belə termin işlədilmirdi, amma indi bu termini işlətmək olar, bu mahnılar indiyə kimi yaşayır. Xüsusi qeyd etmək istəyirəm ki, o, ancaq özünün bəstələdiyi mahnıları oxuması ilə unikaldır. Bu da bir daha onun istedadının dərinliyini əks etdirir. O, həyatı boyu sevimli işi ilə məşğul olur. Əsas da elə budur: həm musiqiçi, həm ifaçı, həm də yaradıcı insan və bu gün də Azərbaycanın Rusiyadakı səfiri kimi. Şadam ki, o, bu sahədəki fəaliyyətinə də yaradıcı yanaşır və ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı üçün çox işlər görür. Azərbaycan dövləti, Azərbaycan xalqı adından onu yubiley münasibətilə bir daha təbrik etmək və yüksək mükafatı təqdim etmək istəyirəm.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ən yüksək mükafatlarından biri olan "Şərəf" ordenini Polad Bülbüloğluna təqdim etdi.

* * *

Azərbaycanda həmişə sənətə və sənət adamlarına hörmətlə yanaşıldığını bildirən, yubiley tədbirində iştirak edən mədəniyyət və incəsənət xadimlərini ölkəmizdə görməkdən şad olduğunu vurğulayan Prezident İlham ƏLİYEV dedi:

- Bakı həmişə dostlarını qəbul edən, ağuşunu onlara geniş açan, qonaqpərvərliyi ilə seçilən şəhər olub. Bu, hansısa təzahürün nümayişi olmayıb, sadəcə, bu, cəmiyyətin öz istəyindən yaranan müsbət duyğulardır. Bunu həm şəhərin, həm də insanların görünüşündən hiss etmək olar. Xüsusilə də belə bir mötəbər beynəlxalq, mədəni birliyin görkəmli nümayəndə heyəti təşrif buyuranda böyük məmnunluq duyulur. Buna görə də həmişə şadıq, tez-tez gəlin. Sizi görməyimizə şad olarıq. Bizdə hər il sizin də iştirak etdiyiniz Beynəlxalq Humanitar Forum, Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Biz tez-tez həm də multikulturalizm mövzusunda tədbirlər keçiririk. Bu yaxınlarda mənim Fərmanımla, zənnimcə, dünyada hələ ki, yeganə olan Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Bu mövzu çox vacibdir. Biz bu mövzu ilə hələ müasir təhlükələrin olmadığı bir vaxtda - cəmi bir-iki il bundan əvvəl təhlükələrin yaranmadığı dövrdən məşğul olmağa başlamışıq. Bəlkə də belə təhlükələr var idi, bundan xəbərdar olanlar az olub.

Mədəniyyətlərarası dialoq, bir ölkədə yaşayan müxtəlif xalqların, dinlərin və konfessiyaların nümayəndələri arasındakı münasibətlər uğurlu inkişafın rəhnidir. Buna görə də düşünürəm ki, Azərbaycanın bu istiqamətdəki irəliləyişi çox müsbət haldır. Təəssüf ki, biz başqa nümunələrə də rast gəlirik. Həm sərhədlərimizin ətrafında, həm Yaxın Şərqdə, həm də Avropada münaqişələr, düşmənçilik münasibətləri artmaqdadır. Çox vaxt bu cür münasibətlər müəyyən siyasi dairələr, bəzən media nümayəndələri tərəfindən süni şəkildə təlqin olunur. Biz öz cəmiyyətimizi və ölkəmizi bu cür meyillərdən qorumağa çalışırıq. Buna görə də mədəniyyətlərarası dialoq çərçivəsində keçirdiyimiz tədbirlər təkcə görkəmli xadimlərin formal toplantı-

sı deyil, belə mərasimlər bizim cəmiyyətimizə müsbət ovqat bəxş edir. Çünki Azərbaycanın uğurlu inkişafı, ilk növbədə, insan potensialı deməkdir. Biz bu gün bu barədə danışmışıq. Tamamilə haqlısınız, bütün görülən işlərin, gördüklərinizin, gözə görünməyənlərin də əsasında insan kapitalı dayanır. Mən ilk çıxışlarımdan birində demişəm ki, biz nefti - "qara qızıl"ı insan kapitalına çevirməliyik. Biz bu istiqamətdə də işləyirik. Bu gün bizim iqtisadiyyatımızda neft əsas amil deyil, buna görə də digər sahələr artıq inkişaf etməkdədir. Tamamilə razıyam ki, bütün bunların əsasında cəmiyyətin mənəvi vəziyyəti və sağlamlığı durur. Buna isə yalnız bu cür ictimai həmrəyliklə nail olmaq mümkündür.

Əlbəttə ki, hər bir hökumətin və dövlətin öz siyasi xətti var, həmin siyasət də cəmiyyətin həyatına əhəmiyyətli dərəcədə təsir göstərir. Lakin ictimai rəy və cəmiyyətin nikbin əhval-ruhiyyəsi olmadan heç nəyə nail olmaq mümkün deyil. Buna görə də bugünkü tədbir multiplikativ effektə malikdir və cəmiyyətimizə müəyyən müddət üçün nikbinlik ovqatı bəxş edəcək. Bayaq sizin söylədiyiniz şeirin misraları ilə tam razıyam.

* * *

Prezident İlham ƏLİYEV: Siz bayaq qeyd etdiniz ki, bu cür əlaqələri məhv etmək mümkün deyil, hərçənd belə cəhdlər olur. Biz isə Azərbaycanda buna yol vermirik, əksinə, əlaqələri möhkəmləndirməyə çalışırıq və istərdik ki, ən başlıcası sizin nümunənizdə gənclər ibrət götürsünlər. Çünki biz vaxtilə bir ölkədə yaşamışıq, bizi ümumi keçmiş, əlbəttə ki, hamımızın ünsiyyət saxladığımız rus dili birləşdirirdi. Keçmiş sovet məkanında yaşayan indiki nəslin nümayəndələri isə bizim nəslimiz kimi belə əlbir deyil. Bu da təbiidir. Buna görə də biz öz müsbət nümunəmizlə gələcək nəsillərə yaxşı siqnallar ötürməliyik. Çünki bundan heç kəs zərər görməyəcək. Əksinə, daha yaxşı olacaq. Çünki düşmənçilikdənsə dostluq və əməkdaşlıq daha yaxşıdır. Biz buna əsaslanırıq. Gəldiyinizə və münasibətinizə görə sizə bir daha təşəkkür edirəm. Bütün bunlar çox dəyərlidir. Sizə ən xoş arzularımı çatdırıram.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*4 fevral 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV MİNGƏÇEVİRDƏ "AĞSARAY" OTELİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Məlumat verildi ki, 2,5 hektar sahəsi olan otel ən müasir səviyyədə inşa edilir. Otel kompleksi 5 korpusdan ibarətdir. Ümumilikdə, oteldə 55 otaq olacaq. Burada restoran, kafe-bar, əyləncə mərkəzi, konfrans zalı yaradılacaq. Bundan başqa, oteldə uşaq və böyüklər üçün qapalı və açıq hovuzlar, sauna, fitnes zalı, masaj otaqları, günəş vannası qəbulu üçün terraslar da qonaqların ixtiyarına veriləcək. İnşaat işləri zamanı Kür çayının üzərindən asma kanat yolunun çəkilməsi də nəzərdə tutulur. Otelin kottecləri də olacaq.

Yeni otelin istifadəyə verilməsi həm də iş yerlərinin açılması baxımından əhəmiyyətlidir. Belə ki, kompleks istifadəyə veriləndən sonra burada 40 nəfər işlə təmin ediləcək. Otelin ilk Avropa Oyunları başlayanadək istifadəyə verilməsi nəzərdə tutulur.

Bu cür komplekslərin inşası, ilk növbədə, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafının göstəricisidir. Digər tərəfdən, belə obyektlər bir neçə aydan sonra ölkəmizdə keçiriləcək birinci Avropa Oyunlarının iştirakçılarını yüksək səviyyədə qəbul etməyə, onlara müasir xidmət göstərməyə geniş imkanlar yaradır. Belə layihələrin icrası onu da sübut edir ki, indi Azərbaycanın bölgələri də ən müasir infrastrukturla təchiz edilir, regionlarda

dünya standartları səviyyəsində istirahət məkanları inşa olunur. "Ağsaray" otelinin inşası Mingəçevirə turist axınının artmasına səbəb olacaq.

Prezident İlham Əliyev otelin inşası ilə bağlı tapşırıq və göstərişlərini verdi.

*24 fevral 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİNGƏÇEVİRDƏ HEYDƏR ƏLİYEV PARKINDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Mingəçevirdə Heydər Əliyev Parkında aparılan yenidənqurma işlərinin gedişi ilə tanış olub.

Məlumat verildi ki, Heydər Əliyev Parkının yenidən qurulmasına 2014-cü ilin may ayında başlanılıb. Hazırda tikinti işləri sürətlə davam etdirilir. Ümumi sahəsi 3 hektar olan parkda sakinlərin və qonaqların istirahəti üçün hərtərəfli imkanlar yaradılacaq, yeni yaşıllıq zolaqları salınacaq. Bu layihənin həyata keçirilməsi bir daha sübut edir ki, Azərbaycan dövlətinin vətəndaşların sosial məsələlərinin həlli, onların asudə vaxtlarının səmərəli təşkili istiqamətində atdığı addımlar ardıcıl xarakter daşıyır.

Bu parkın yenidən qurulması, ümumilikdə, ölkəmizdə geniş vüsət alan abadlıq-quruculuq işlərinin bir hissəsidir. Digər tərəfdən, belə istirahət mərkəzlərinin müasir səviyyədə qurulması, yeni park və xiyabanların salınması şəhər və rayon mərkəzlərinin simasını gözəlləşdirir. Bu baxımdan, Mingəçevirdə Heydər Əliyev Parkında aparılan yenidənqurma işləri şəhərin gözəlliyini daha da artırır, onun simasına müasir elementlər əlavə edir.

Prezident İlham Əliyevə şəhərin Heydər Əliyev prospektində görüləcək işlər, o cümlədən tikintisi nəzərdə tutulan "Mingəçevir Sənaye Parkı" barədə də məlumat verildi. Bildirildi ki, Mingəçevir toxuculuq fabrikinin 15 hektaradək ərazisi Sənaye Parkına veriləcək. Burada yüngül sənaye üzrə müxtəlif istehsal müəssisələrinin yaradılması planlaşdırılır. Sənaye Parkında mahlıc, iplik, toxuculuq, boyama, tikiş və digər sahələr yaradılacaq, həmin müəssisələrdə 2 mindən çox sakin işlə təmin olunacaq. Yaradılacaq müəssisələrin ilkin dəyəri 100 milyon manatdır və bu layihələrin müəyyən hissəsi İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdiriləcək.

"Kür" Mədəniyyət Mərkəzinin layihəsinə baxan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, Kür çayının Mingəçevirdən keçən hissəsinin üzərində körpü inşa olunacaq. Bildirildi ki, şəhərdəki yaşayış binalarının fasadlarında, o cümlədən Heydər Əliyev prospektindəki keçiddə də son vaxtlar geniş yenidənqurma işləri aparılıb.

Dövlətimizin başçısı işlərin yüksək səviyyədə yerinə yetirilməsinə dair tapşırıq və tövsiyələrini verdi.

*24 fevral 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV MİNGƏÇEVİRDƏKİ "DOSTLUQ" PARKINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Ümumi sahəsi 6 hektar olan parkda müasir işıqlandırma sistemi və fəvvarə quraşdırılıb, geniş yaşıllıq zolaqları salınıb, dekorativ ağac və kollar əkilib. Parkda yay konsert səhnəsi tikilib. Burada açıq havada şəhər əhəmiyyətli müxtəlif tədbirlər və konsert proqramları təşkil olunur. Parkda müxtəlif istirahət guşələri, həmçinin uşaq əyləncə meydançaları yaradılıb, müasir attraksionlar və yelləncəklər quraşdırılıb. Aparılan yenidənqurma işləri sayəsində park şəhər əhalisinin və qonaqların ən sevimli istirahət mərkəzlərindən birinə çevrilib.

*24 fevral 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ ANMA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

İyirmi üç il əvvəl - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törədiblər.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 23-cü ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev anma mərasimində iştirak edib.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Türkiyənin ölkəmizdə səfərdə olan xarici işlər naziri Mövlud Çavuşoğlu abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anma mərasiminin iştirakçıları abidənin önünə tər qızılgüllər, qərənfillər düzdülər.

* * *

Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşmiş, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etdilər.

Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin əsir götürüldü, 155 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı faciəsi qurbanlarının xatirəsini yad edirlər.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları və başları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürək ağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

*26 fevral 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV SOFİYADA "NAMƏLUM ƏSGƏR" ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Martın 4-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sofiyanın Aleksandr Nevski meydanında naməlum əsgərin məzarını ziyarət edib.

Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev naməlum əsgərin məzarı önünə əklil qoydu.

*4 mart 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜQƏDDƏS SOFİYA KİLSƏSİNDƏ OLMUŞDUR

Bolqarıstan paytaxtının mərkəzi hissəsində yerləşən Müqəddəs Sofiya kilsəsi bu ölkənin diqqəti cəlb edən ən qədim məbədidir.

Kilsənin ayrı-ayrı guşələri və eksponatları ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, tarixi mənbələrdə burada ilk kilsənin 311-313-cü illərdə tikildiyi göstərilir. Sonralar məbəd imperator I Konstantin tərəfindən daha da genişləndirilib. Sonrakı əsrlərdə müxtəlif müharibələr zamanı kilsə dağıntılara məruz qalıb. 537-ci ildə imperator I Yustinian məbədi yenidən bərpa etdirib. Orta əsrlərdə bu tikili imperiyanın baş məbədi olub. Osmanlı imperiyası dövründə məbəd bir müddət məscid funksiyasını yerinə yetirib. Bolqarıstan paytaxtının adı da ilkin mənbəyini artıq 1700 ildir ki, dindarların əsas ibadət yeri kimi fəaliyyət göstərən bu məbəddən götürüb. XIII əsrdən başlayaraq yerli əhali bu şəhərə yunanca mənası "müdriklik" olan Sofiya adını verib. XIV əsrdən başlayaraq bolqar çarlarının bütün sənədlərində paytaxt şəhər Sofiya olduğu göstərilir. Bu kilsə dini məbəd olmaqla yanaşı, tarixi abidə kimi Bolqarıstanın diqqətçəkən turizm obyektlərindən sayılır.

Prezident İlham Əliyev məbədin xatirə kitabına ürək sözlərini yazdı.

*4 mart 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV BƏRDƏDƏ 1 NÖMRƏLİ UŞAQ İNCƏSƏNƏT MƏKTƏBİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Bərdəyə səfəri çərçivəsində 1 nömrəli Uşaq İncəsənət Məktəbinin açılışında iştirak edib.

Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.

Son illərdə Azərbaycan mədəniyyəti dünya miqyasında yüksək səviyyədə təbliğ edilir. Bu gün paytaxt Bakı ilə yanaşı, regionlarda da müşahidə olunan inkişaf gənc nəslin mənəvi zənginləşməsinə geniş imkanlar açır. Hazırda ölkəmizdə bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilir. Bərdədə istifadəyə verilən 1 nömrəli Uşaq İncəsənət Məktəbi də məhz bu məqsədə xidmət edir. Bu gün Bərdə rayonunda təhsil, mədəniyyət, səhiyyə, idman və digər sahələrdə işlər yüksək səviyyədə aparılır. Rayon əhalisinin rifah halının yüksəldilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər görülür. Uşaqların təlim-tərbiyəsi və onların sağlam böyümələri də daim diqqət mərkəzindədir. Bu baxımdan Bərdə Şəhər 1 nömrəli Uşaq İncəsənət Məktəbi üçün yeni binanın

tikilib istifadəyə verilməsi xüsusi önəm daşıyır. Məktəbin ərazisində yaşıllıqlar salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb.

Bildirildi ki, məktəbin tikintisinə 2014-cü ilin əvvəlində başlanılıb. Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni irsin qorunması, inkişafı və bərpası üzrə Dövlət Xidməti tərəfindən inşaat işləri yüksək səviyyədə aparılıb və bu ilin mart ayında başa çatdırılıb.

İncəsənət Məktəbi üçmərtəbəlidir. Foyedə ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin müxtəlif illərdə Bərdə rayonuna səfərlərini əks etdirən fotostendlər var. Məktəb Bərdədə uşaqların musiqinin sirlərinə mükəmməl səviyyədə yiyələnmələri üçün lazımi avadanlıqla təchiz olunub.

Məktəbin binası ilə tanışlıq zamanı diqqətə çatdırıldı ki, məktəbin 32 sinif otağı və digər yardımçı otaqları var. Burada xalq çalğı alətləri, fortepiano və nəzəri fənlər, rəsm və rəqs şöbələri fəaliyyət göstərəcək, bir neçə ixtisas – tar, kamança, nağara, fortepiano, skripka, qarmon, klarnet, balaban, xanəndəlik üzrə dərslər keçiləcək. İncəsənət məktəbi həm də regionda mədəni həyatın canlanması, yeni istedadların üzə çıxarılması, gənc nəslin hərtərəfli inkişafı istiqamətində atılan növbəti addımdır. Məktəbin akt zalında rayon və respublika səviyyəli konsertlərin, musiqi müsabiqələrinin keçirilməsi mümkündür.

Prezident İlham Əliyev şagirdlərin ifasını dinlədi.

Sonda xatirə şəkli çəkdirildi.

*12 mart 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BƏRDƏ TÜRBƏSİNDƏ APARILAN TƏMİR İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Bərdə türbəsində aparılan təmir işlərinin gedişi ilə tanış olub.

Qeyd edək ki, 1322-ci ildə Əcəmi memarlıq məktəbinin nümayəndələrindən olan Əhməd bin Əyyub Əl Hafiz Naxçıvani tərəfindən inşa olunmuş və hündürlüyü 12,5 metr olan türbənin yerüstü hissəsi üç əsas memarlıq quruluşundan ibarətdir.

Türbə daşdan hörülmüş kürsülük, dairəvi gövdə və çadırvarı günbəzdən, yeraltı hissəsində dəfn üçün ayrılmış sərdabadan, yerüstü hissəsi isə xatirə abidəsindən ibarət olub. Bolşeviklərin Azərbaycanı işğal etmələrindən sonra abidənin kitabələri dağıdılıb, üzərində ərəb əlifbası ilə yazılan sözlərin bir hissəsi silinib. Uzun illər baxımsız qalan türbənin qala qapıları uçub dağılmış, özü bərbad vəziyyətə düşmüş, həyətyanı sahədə ağaclar qurumuş və yaxud qırılıb məhv edilmişdi. Abidənin ərazisinin xeyli hissəsi ayrı-ayrı şəxslər tərəfindən zəbt olunaraq müxtəlif məqsədlər üçün istifadə edilirdi.

Sonralar tariximizin yadigarı, əsrlər boyu yadelli istilaçılara boyun əyməyib bu günümüzədək gəlib çıxan türbənin ətrafı təmizlənmiş, zəbt olunmuş həyətyanı sahələr geri alınmış və bir sıra əlavə işlər görülmüşdü. Buna baxmayaraq, türbənin bərpası və təmiri mümkün olmamışdı.

Nəhayət tarixi keçmişimizə, abidələrimizə həssaslıqla yanaşan Prezident İlham Əliyevin göstərişi ilə 2011-ci ildə Bərdə rayonunda başlanan genişmiqyaslı abadlıq və bərpa işləri türbənin təmirini gündəmə gətirmişdir. Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni irsin qorunması, inkişafı və bərpası üzrə Dövlət Xidməti tərəfindən Bərdə türbəsində bərpa işlərinə başlanıb və bu proses davam etdirilir. Bərpaçılar tarixi abidəni əzəli görkəminə qaytarmaq üçün qiymətli tikinti materiallarından istifadə edirlər. Həyətyanı sahədə abadlıq-tikinti işləri aparılır.

*12 mart 2015-ci il*

# PREZİDENT İLHAM ƏLİYEV BƏRDƏDƏ HEYDƏR ƏLİYEV ADINA PARK-BULVARIN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı park-bulvarın rəmzi açılışını bildirən lenti kəsdi.

Ölkənin ümumi inkişaf tempinə uyğun olaraq sürətlə müasirləşən və gözəlləşən Bərdə şəhərində yeni park-bulvar kompleksi yaradılıb. Ulu öndər Heydər Əliyevin adını daşıyan bu kompleks Gəncə şəhərindəkindən sonra ən böyük mədəniyyət və istirahət mərkəzlərindən biridir. Uzunluğu 2400 metr olan park-bulvar kompleksi ilkin mərhələdə 47 hektar ərazini əhatə edir və gələcəkdə daha da genişləndiriləcək. Parkın giriş qapısı öz əzəməti ilə diqqəti cəlb edir. Eni 36 metr, hündürlüyü 12 metr olan giriş qapısı milli memarlıq üslubunda ucaldılıb. Kompleksə əlavə 6 istiqamətdən giriş qapısı tikilib. İnşaat işləri aparılarkən Bərdənin qədim tarixini özündə yaşadan abidələrə xüsusi həssaslıqla yanaşılıb. Belə ki, Tərtər çayının yatağında göl və şəlalələr yaradılarkən VII əsrə aid nadir tarixi tikilinin qalıqları saxlanılıb. Abidəyə iki istiqamətdən asma körpü çəkilib. On iki fəvvarənin bir-birinə körpülər vasitəsilə birləşdirilməsi parkın ecazkarlığını daha da artırır.

Parkın mərkəzində ulu öndər Heydər Əliyevin möhtəşəm abidəsi ucaldılıb. Abidə ətrafında yerli çay daşlarından rəmzi olaraq çay yatağını xatırladan kompozisiya quraşdırılıb. Ətrafda 5 fəvvarədən ibarət kompleks yaradılıb. Bütövlükdə park-bulvarda 16 min kvadratmetr qranit işləri görülüb.

Dövlətimizin başçısına məlumat verildi ki, hakimiyyətdə olduğu bütün dövrlərdə Bərdəyə xüsusi həssaslıqla yanaşmış Ümummilli Liderin adına layiq mədəniyyət və istirahət parkının yaradılması təşəbbüsü bərdəlilərin Ulu Öndərin əziz xatirəsinə ehtiramının nəticəsidir. Elə bu ərazidə 1979-cu ilin sentyabrında Ulu Öndərin öz əli ilə əkdiyi sərv ağacının indiyədək qorunub mühafizə olunması da Ümummilli Liderin xatirəsinə ehtiramın bir nümunəsidir. Ümumilikdə 12 fəvvarə, 2 süni göl, 2 su aşırımından ibarət olan, gözəl tərtibatı ilə zövqləri oxşayan kompleksdə istirahət üçün bütün zəruri infrastruktur yaradılıb.

Prezident İlham Əliyev parkda ağac əkdi.

Komplekslə tanışlıq zamanı bildirildi ki, 10 hektar ərazini əhatə edən süni göllər üçün alınmış qayıqlar istirahət edənlərin ixtiyarına veriləcək. Bulvarın qurtaracağında quraşdırılan 3 fəvvarə burada gözəl mənzərə yaradır. Kompleksdə keçiriləcək müxtəlif tədbirləri nəhəng monitor vasitəsilə izləmək mümkün olacaq. Burada velosiped həvəskarları üçün 1,2 kilometr uzunluğunda yol salınıb və 10 ədəd velosiped alınıb. Park-bulvara üz tutanların istirahətinin mənalı təşkili üçün min tamaşaçı yeri olan süni örtüklü stadion, örtülü əl oyunları meydançası, min yerlik yay kinoteatrı, 2 min kvadratmetr ərazidə uşaq əyləncə mərkəzi, ana-uşaq kafesi, ikimərtəbəli çay evi, istirahət köşkləri, ticarət və iaşə obyektləri, inzibati bina inşa olunub.

Burada dövlətimizin başçısına Bərdə şəhərində Tərtər çayı üzərində tikiləcək yeni asma körpünün layihəsi təqdim olundu.

Hazırda mövcud olan körpünün əvəzində tikiləcək yeni qurğunun uzunluğu 128 metr, eni 18,5 metr olacaq.

Prezident İlham Əliyevə, həmçinin tikilməsi nəzərdə tutulan Qarabağ dövlət tarix muzeyinin eskiz layihələri də təqdim olundu.

Parka avtomobillə gələnlər 300 yerlik dayanacaqdan istifadə edə biləcəklər.

Prezident İlham Əliyev parkın ərazisini elektromobillə gəzdi.

Tərtər çayının sağ sahilində yaradılmış süni təpə və yaşıllıq massivi, həmçinin əkilmiş 20 mindən çox çiçək, gül kolu və ağaclar parkın füsunkarlığına əlavə çalarlar qatır.

Prezident İlham Əliyev parkın ərazisində qorunan qədim körpü qalıqlarına baxdı.

Vaxtilə karvan yolu üzərində yerləşmiş bu körpü lap qədimdən Bərdənin yaxın və Orta Şərqdə iri ticarət və mədəniyyət mərkəzi kimi formalaşmasında mühüm rol oynayıb.

Yeni salınmış park–bulvara 22 kilometr su xəttinin, 27 kilometr yeraltı elektrik xəttinin çəkilişi, subartezian quyusunun qazılması, çoxlu sayda işıqlandırma nöqtələrinin və 10 ədəd relyef birləşdirici pilləkən quraşdırılması bu möhtəşəm mədəniyyət və istirahət mərkəzində görülən işlərin həcminin göstəricisidir.

Dövlətimizin başçısına məlumat verildi ki, gələcəkdə parkın daha da genişləndirilməsi, 30 hektar ərazidə təbii göllərin yaradılması, Tərtər çayı boyunca bulvarın ümumi uzunluğunun 4,3 kilometrə çatdırılması nəzərdə tutulur.

Prezident İlham Əliyev yeni park-bulvarın imkanlarından səmərəli istifadə edilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

*12 mart 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QARSDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Qarsda Heydər Əliyev adına parkda Ümummilli Liderin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

*17 mart 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı, xanımı və ailə üzvləri əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər.

Milli geyimli qızlar və oğlanlar Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Novruz bayramı münasibətilə təbrik etdilər.

Bahar qız dövlətimizin başçısına səməni təqdim etdi.

İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.

Ulu Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.

Milli geyimli qızlar və oğlanlar meydanda rəqs edirdilər. Musiqi sədası ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.

Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.

### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Hər bir Azərbaycan vətəndaşına yeni uğurlar, xoşbəxtlik arzulayıram.

Novruz bizim əziz, sevimli bayramımızdır, milli sərvətimizdir. Xalqımız əsrlər boyu Novruzu əziz bayram kimi qeyd edir. Ancaq müstəqillik dövründə biz bu bayramı rəsmi bayram kimi qeyd etməyə başlamışıq və sabahdan 9 gün istirahət günüdür. Bizim müstəqilliyimiz də milli dəyərlər, ənənələr üzərində qurulubdur. Müstəqilliyimizin möhkəmləndirilməsi üçün çox böyük işlər görülübdür. İyirmi dörd ilə yaxındır ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır və inkişaf edir.

Müstəqilliyimizin ilk illəri ölkəmiz, xalqımız üçün çox ağır keçmişdir. Vətəndaş qarşıdurması, vətəndaş müharibəsi, torpaqlarımızın işğal altına düşməsi, iqtisadi və siyasi böhran əlbəttə ki, müstəqilliyimizə çox böyük zərbə vurmuşdu. Ancaq ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra vəziyyət sabitləşdi. Azərbaycanda siyasi və iqtisadi islahatlar aparılmağa başlanmış və ölkəmiz inkişaf yoluna qədəm qoymuşdur. O vaxtdan – 1990-cı illərin ortalarından bu günə qədər 20 il ərzində Azərbaycan sürətli inkişaf dövrünü yaşayır, müstəqilliyimiz möhkəmlənir, güclənir və Azərbaycan bu gün dünya miqyasında çox dəyərli ölkə, tərəfdaş kimi tanınır.

Biz müstəqil siyasət aparırıq. Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Əsrlər boyu xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq öz milli xüsusiyyətlərini qoruyub saxlaya bilmişdir. İlk növbədə, biz milli dəyərlərimizi, bayramlarımızı, ədəbiyyatımızı, incəsənətimizi, doğma ana dilimizi, xalq kimi özümüzü qoruya bilmişik. Bu gün isə biz azadıq. Azərbaycan xalqı öz taleyinin sahibidir. Bu günün reallıqları göstərir ki, ancaq müstəqillik dövründə bizim xalqımız yüksək zirvələrə çata bilər. Bugünkü dövr əgər bizim bütün tariximizi nəzərə alsaq, ən sürətli inkişaf dövrüdür. Biz bundan sonra da müstəqil həyatımızı təmin edəcəyik. Xalqımızın rahat yaşamasını təmin edəcəyik. Ancaq o da təbiidir ki, Azərbaycan gücləndikcə bizə təzyiqlər də artır. Bizim müstəqil siyasətimiz heç də hamıya xoş gəlmir. Belə olan halda bizə qarşı təzyiqlər də artır və təzyiq mexanizmləri də işə salınır. Bunun nəticəsidir ki, bu gün bəzi xarici dairələr Azərbaycana qarşı açıq kampaniya aparırlar. Biz buna hazırıq. Bu kampaniya əslində heç vaxt dayanmamışdır. Sadəcə olaraq önəmli beynəlxalq tədbirlər ərəfəsində bu kampaniya daha da eybəcər formalar alır. Biz bunu üç il bundan əvvəl – 2012-ci ildə "Eurovision" müsabiqəsi ərəfəsində görmüşük. Bu gün də birinci Avropa Oyunları ərəfəsində bunu görürük. Bu, koordinasiya şəklində təşkil edilmiş, bir və ya bir neçə mərkəzdən idarə olunan antiazərbaycan kampaniyasıdır ki, bunun məqsədi ölkəmizi ləkələmək, qaralamaq, işlərimizə kölgə salmaq və Azərbaycanı geridə qalmış, qeyri-demokratik, azad olmayan ölkə kimi təqdim etməkdir. Bütün bunlar təbii ki, yalan üzərində qurulur. Ona görə nə Azərbaycan xalqı, nə dünya ictimaiyyəti buna inanmır. Azərbaycan xalqı hər şeyi öz gözü ilə görür. Son illərin inkişafı, şəhərlərimizin abadlaşdırılması, ölkəmizin iqtisadi, sosial inkişafı, beynəlxalq nüfuzumuzun artırılması göz qabağındadır. Eyni zamanda, bizim işlərimiz dünya ictimaiyyəti üçün də artıq sirr deyil. Çoxsaylı tədbirlər, sərgilər, konfranslar, Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təqdimatı artıq beynəlxalq ictimaiyyətə də Azərbaycan haqqında kifayət qədər dolğun məlumatın çatdırılması üçün şərait yaradır.

Ancaq buna baxmayaraq, biz görürük ki, dırnaqarası ekspertlər, politoloqlar, keçmiş dövlət xadimləri, mətbuat orqanları sanki Azərbaycana qarşı soyuq müharibə elan etmişlər. Bir daha demək istəyirəm ki, bütün bu səylərin heç bir nəticəsi yoxdur, ola da bilməz. Dünyada elə qüvvə yoxdur ki, Azərbaycan xalqının iradəsinə təsir edə bilsin.

Azərbaycanda bütün azadlıqlar təmin edilib. Azərbaycanda azad cəmiyyət formalaşıb. Hər kəs azaddır. Azad mətbuat təmin edilib. İnternetə heç bir məhdudiyyət qoyulmur, azad internet var. Sərbəst toplaşmaq azadlığı təmin edilib. Vicdan, din azadlığı bəzi ölkələrdən fərqli olaraq tam şəkildə təmin edilibdir. Ancaq bizi ittiham etmək istəyən dairələrin öz ölkələrindəki vəziyyətə baxın. Bax elə dünən Avropanın mərkəzində yüz-

lərlə nümayişçi döyülərək, söyülərək həbs edilibdir. Başqa yerlərdə insanlar boğularaq, güllələnərək öldürülürlər. Heç kim də buna görə məsuliyyət daşımır. Haradadır o qeyri-hökumət təşkilatları ki, bizi ittiham edirlər? Niyə susurlar? Niyə öz səslərini ucaltmırlar? Niyə o ölkələri ittiham etmirlər? Cürətlərimi çatmır? Yoxsa ki, bu, ikili standartlar siyasətidir?! Yəqin ki, hər ikisidir. Nə üçün beynəlxalq qurumlar bəyanatlar yaymırlar, vermirlər? Nə üçün qətnamələr qəbul edilmir? Bax bu suallara cavab almaq çox çətindir. Mən həm xarici həmkarlarımla, həm beynəlxalq təşkilatların rəhbərləri ilə çoxsaylı görüşlərimdə bu sualları açıq şəkildə onların üzünə deyərək verirəm. Bəlkə buna görə də Azərbaycana qarşı təzyiqlər daha da kəskinləşir. Əfsuslar olsun ki, bu gün dünya siyasətində beynəlxalq hüquq yox, riyakarlıq, ikili standartlar, ayrı-seçkilik, irqçilik, islamofobiya, ksenofobiya hökm sürür. Budur bugünkü reallıqlar. Ona görə, biz buna hazır olmalıyıq və biz hazırıq. Biz ölkəmizi gücləndiririk, ölkəmizi inkişaf etdiririk. Bir daha demək istəyirəm ki, Azərbaycanda bütün azadlıqlar mövcuddur – siyasi azadlıqlar, vicdan azadlıqları, iqtisadi sərbəstlik. Bu gün Azərbaycan istər iqtisadi inkişaf, istər dinlərarası dialoq baxımından nümunəvi bir ölkədir.

Bu gün hər tərəf alovlanır, Yaxın Şərq, Avropa, MDB məkanı, ya qanlı toqquşmalar, yaxud da ki, etnik, dini zəmində qarşıdurmalar, qarşılıqlı ittihamlar. Baxın, Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Bu, bizim siyasətimizdir, xalqın da sifarişidir. Azərbaycan bu gün dünya üçün əhəmiyyətli ölkəyə çevrilibdir. Bizi beynəlxalq aləmdə dəstəkləyən ölkələrin sayı durmadan artır. Dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə seçilmişik. Qoy bizi ittiham etməyə çalışan ölkələr 155 ölkənin dəstəyi ilə seçilsinlər, görək necə seçilirlər. Bax budur reallıq. Ona görə, əlbəttə ki, Azərbaycan xalqını bu ədalətsizlik, ikili standartlar siyasəti, riyakarlıq və siyasi mədəniyyətsizlik üzür. Ancaq bu, bizim iradəmizə heç vaxt təsir edə bilməz.

Avropa Oyunları isə sadəcə olaraq bir bəhanədir. Sanki bəzi xarici qüvvələr var ki, bunu bizə çox görürlər. Baxmayaraq ki, biz öz üzərimizə böyük məsuliyyət götürmüşük. Yəni, bu Oyunları iki il yarım ərzində hazırlamaq çox çətin məsələdir. Bu Oyunlar Olimpiya Oyunlarının səviyyəsində keçiriləcək. Olimpiya Oyunlarını keçirmək üçün yeddi il vaxt verilir. Biz isə cəmi iki il yarıma bunu edirik və ən aşağı büdcə ilə bunu edirik. Dünən Avropanın mərkəzində nümayişçilərin etirazına səbəb bir binanın inşası olmuşdur. Bizim bütün Avropa Oyunlarına hazırlıq işlərinə xərclədiyimiz vəsait bir binaya xərclənib. Bəs haradadır "Transparency International"? Niyə bu işlərdə öz sözünü demir? Avropada nəqliyyatla bağlı bir infrastruktur obyekti var. On ildir inşa edilir. Bizim Avropa Oyunlarının hazırlanmasına xərclədiyimizin ikiqatı qədər oraya pul xərclənib, hələ ki, tikintisi qurtarmayıb. Bəs niyə bu barədə danışmırlar? Niyə bu barədə yazmırlar? Bu, ritorik suallardır. Ancaq biz bu sualları verməliyik və veririk. Çünki biz ədalətin tərəfdarıyıq. Hər yerdə ədalət olmalıdır - cəmiyyətdə, ailədə, beynəlxalq münasibətlərdə. Ədalət pozulduqda hər şey pozulur, inam pozulur. Sanki dünyada yeni bir dəyərlər sistemi formalaşır. Ədalət əvəzinə qeyri-ədalətli yanaşma, bərabərlik əvəzinə qeyri-bərabərlik, düzgünlük əvəzinə riyakarlıq, yalan. Bax, biz buna qarşı mübarizə aparırıq. Əlbəttə, Azərbaycan böyük dövlət deyil, amma bizim də kifayət qədər gücümüz var ki, öz sözümüzü deyək, bölgədə və qitədə gedən proseslərə təsir edək.

Bizim əsas problemimiz - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi əfsuslar olsun ki, həll olunmur. Keçən il vasitəçilər tərəfindən səylər göstərilmişdir. Bilirsiniz ki, avqust, sentyabr, oktyabr aylarında Minsk qrupuna həmsədrlik edən ölkələrin başçıları, yüksək vəzifəli şəxslər səylər göstərmişdilər, üç görüş keçirilmişdir. Sonuncu görüş Parisdə hər iki tərəfin fikrinə görə uğurlu keçmişdir. Ancaq o görüşdən bir həftə keçməmiş Ermənistan növbəti təxribata əl atdı. Ağdamda, işğal edilmiş torpaqlarda genişmiqyaslı hərbi təlimlərə

başladı ki, bizi yenə də təxribata çəksin. Biz təxribata getmək istəmirdik. Çünki öz beynəlxalq öhdəliklərimizə sadiqik. Bir daha bildirmək istəyirəm ki, oktyabrın sonunda Parisdə keçirilən görüşdə demişik ki, biz gərək təmas xəttindəki gərginliyi azaldaq, sülh danışıqlarının mahiyyətinə daha da çox fikir verək. Ona görə çox təmkinlə özümüzü aparmışıq. Amma düşmən bizim bu davranışımızı başqa cür yozub və mövqelərimizə hücum çəkib. Belə olan halda təbii ki, Azərbaycan əsgəri rəşadət göstərərək düşmənin vertolyotunu məhv edib. Ondan sonra bizdən qisas almağa çalışmağa başlamışlar. Hətta Ermənistanın ən yüksək rütbəli, vəzifəli şəxsləri demişlər ki, biz qisas alacağıq. O faşist ideologiyasının nəticəsində onlarla erməni əsgəri təmas xəttində həlak olmuşdu. Mən demişəm və bir daha demək istəyirəm ki, ölmək istəmirsinizsə Ağdama, Füzuliyə getməyin, oturun öz yerinizdə. Qisasa gəldikdə isə qisası biz almalıyıq və alırıq da. Biz Xocalı qurbanlarının qisasını alırıq və alacağıq. Şəhidlərimizin qanı yerdə qalmamalıdır və qalmır.

Bu gün bizim ordumuz təmas xəttində vəziyyətə tam şəkildə nəzarət edir. Bizim əsgərlərimiz Vətəni ləyaqətlə qoruyurlar. Biz tam üstünlüyü əldə etmişik. Mən tam əminəm ki, biz istədiyimizə nail olacağıq, tarixi ədaləti, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Ondan sonra biz azərbaycanlılar əlbəttə ki, bütün qədim torpaqlarımıza qayıdacağıq - İrəvana da, Göyçəyə, Zəngəzur mahalına da. Bütün bunlar bizim qədim torpaqlarımızdır. Gənc nəsil də bunu bilməlidir ki, bizim torpaqlarımız sadəcə olaraq bugünkü müstəqil Azərbaycan torpaqları deyil. Biz o torpaqlara da qayıtmalıyıq və qayıdacağıq. Biz hər gün çalışmalıyıq ki, o günü yaxınlaşdıraq.

Ona görə biz daha da güclü olmalıyıq. Daha da güclü orduya sahib olmalıyıq. Ordu quruculuğu bizim üçün indi əsas vəzifədir. Ona görə bu məqsədlər üçün nə qədər lazımdırsa, o qədər də vəsait ayrılır. Bu gün Azərbaycan Ordusu həm hazırlıq, texniki təchizat, silah baxımından dünya miqyasında, dünyanın ən qabaqcıl orduları sırasındadır. Bunu biz yaratmışıq. Çünki başqa cür mümkün deyil.

Bu gün dünyada beynəlxalq hüquq işləmir, beynəlxalq müqavilələr sadəcə olaraq kağız parçasıdır, heç bir dəyəri yoxdur. Kimin gücü var o müqavilələrə məhəl qoymur. Yəni, dünyada yeni bir dövr başlayıbdır, bunu biz bilməliyik. Bu dövrü biz başlamamışıq. Biz həmişə beynəlxalq hüquqa əsaslanmışıq və bütün siyasətimizi belə qurmuşuq. Öz səsimizi ucaltmışıq ki, nə üçün BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilmir. Orada birbaşa yazılıb ki, Azərbaycan torpaqları işğaldan qeyd-şərtsiz və dərhal azad edilməlidir. Yəni, beynəlxalq hüquq sadəcə olaraq güclü dövlətlər üçün bir alətdir ki, güclü olmayan dövlətləri nəyə isə məcbur etsin. Amma onların özləri üçün beynəlxalq hüquq heç bir şeydir. Bunu biz görürük, bunu görməyən yoxdur. Dünyanın bütün yerlərində biz bunu görürük, kim güclüdür o da haqlıdır. Bu nəyi göstərir? Onu göstərir ki, güclü olmaq lazımdır. Biz də bunu çoxdan başlamışıq: güclü ordu, güclü iqtisadiyyat, vətəndaş həmrəyliyi və əlbəttə ki, düşünülmüş siyasət və sosial ədalət.

Azərbaycanda ictimai-siyasi vəziyyət çox müsbətdir, xalqla iqtidar arasında birlik möhkəmdir. Bizim islahatlarımız, siyasi addımlarımız, beynəlxalq səviyyədə apardığımız işlər xalq tərəfindən dəstəklənir və bugünkü Azərbaycan reallıqları bunu göstərir. Son illər ərzində Azərbaycan kimi sürətlə inkişaf edən ikinci ölkə olmamışdır.

Bax, bu yaxınlarda - iki gün bundan əvvəl biz qədim türk torpağı olan Qars şəhərində TANAP layihəsinə start verdik. Yəni, bu, tarixi layihədir. TANAP layihəsi "Cənub" qaz dəhlizinin bir hissəsidir, önəmli hissəsidir. Amma "Cənub" qaz dəhlizi dörd hissədən ibarətdir: "Şahdəniz" yatağı, Cənubi Qafqaz qaz kəməri, TANAP və TAP. Azərbaycan bütün bu layihələrdə fəal iştirakçıdır və bu gün biz yeni reallığı yaradırıq. Çünki enerji

təhlükəsizliyi bu gün milli təhlükəsizlik qədər önəmlidir. Heç bir ölkə öz milli təhlükəsizliyini enerji təhlükəsizliyini təmin etmədən sığortalaya bilməz. Azərbaycan öz enerji təhlükəsizliyini təmin edib. Görün, Azərbaycan qazı bu gün Avropa üçün, Avrasiya üçün, bu bölgə üçün nə qədər böyük əhəmiyyət daşıyır. Yəni, yeni enerji xəritəsi yaradılır. Bunu biz yaradırıq, öz tərəfdaşlarımızla birlikdə. Ona görə təbii ki, görülən bu işlər Azərbaycanın geosiyasi əhəmiyyətini artıracaq və bizim gücümüzü də artıracaq, təsir imkanlarımız da artacaq. Bu gün də kifayət qədər güclüdür. Bu gün bölgədə nə iqtisadi, nə siyasi, nə başqa sahələrdə heç bir layihə bizim razılığımız olmadan icra edilə bilməz. Bunu yaxın tarix göstərib.

Azərbaycan bu gün bölgənin aparıcı ölkələrindən biridir və bizim siyasət ədalətli siyasətdir. Biz bütün ölkələrlə bərabərhüquqlu, qonşularla mehriban münasibətlərin tərəfdarıyıq. Biz bərabərliyin tərəfdarıyıq. Biz hesab edirik ki, dünyada böyük-kiçik ölkə anlayışı olmamalıdır. Bütün ölkələr bərabər hüquqa malikdir. Ona görə biz bütün ölkələrlə öz siyasətimizi bu prinsiplər əsasında qururuq. Heç bir ölkə qarşısında öhdəlik götürməmişik və bu, mümkün deyil. Beynəlxalq təşkilatlarda ki, biz üzvük, o öhdəlikləri biz yerinə yetiririk, onlara hörmətlə yanaşırıq, vəssalam. Bizim başqa heç bir öhdəliyimiz yoxdur. Əgər kimsə hesab edir ki, Azərbaycanı nəyə isə təhrik etmək, sövq etmək, məcbur etmək mümkündür, səhv edir və bu səhv siyasətindən əl çəkməlidir. Son illərin tarixi bunu göstərir. Biz öz yolumuzla gedirik. Bu yol tərəqqi, inkişaf yoludur. Bu yol azadlıq-müstəqillik yoludur və biz bu uğurları bu yolda əldə etmişik.

Bizim şəhərlərimiz abadlaşır, insanların rifah halı yaxşılaşır. Azərbaycan bu gün dünya miqyasında nümunəvi ölkə kimi tanınır. Bakımız gözəlləşir. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bakının qədim tarixi, bizim milli sərvətimiz olan Qız qalası, Şirvanşahlar sarayı, İçərişəhər - bu, dünya miqyaslı sərvətdir. Eyni zamanda, Bakının yeni simvolları, yeni rəmzləri yaradılır - Bayraq Meydanı, Heydər Əliyev Mərkəzi, Alov qülləri, Ağ şəhər, Xalça Muzeyi, bu yaxınlarda açılan bulvar. Onun uzunluğu artıq 16 kilometrə çatır. Yəni, budur bu gün bizim ölkəmiz. Azərbaycana gələn hər bir qonaq əgər o, qərəzli deyilsə, bunu görür, etiraf edir. Dostlarımız sevinir, düşmənlərimiz peşman olurlar.

Biz öz yolumuzla gedəcəyik, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik və ölkəmizi daha da gücləndirəcəyik.

Bayramınız mübarək olsun!

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və ailə üzvləri Dənizkənarı Milli Parka gəldilər.

Burada Azərbaycanın müxtəlif bölgələrindən gələn özfəaliyyət dərnəklərinin üzvləri, rəqs və mahnı qrupları çıxış edirdilər.

Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar.

Kosa və Keçəl Prezidenti və ailə üzvlərini bayram münasibətilə təbrik etdilər, dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər.

Xalqımızın qədim ənənələrini, dəyərlərini, mətbəxini, məişətini əks etdirən stendlər Milli Parkda təşkil olunan bayram şənliyinə xüsusi çalar qatırdı. Burada ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və hazırlanmış sənətkarlıq nümunələri maraqla qarşılandı. Bir tərəfdə isə gənc pəhləvanlar qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər.

Dövlətimizin başçısı və ailə üzvləri bərəkətli Azərbaycan torpağında yetişdirilən məhsulların bayram şənliyi çərçivəsində təşkil edilmiş sərgisi ilə tanış oldular. Müxtəlif rayonlardan gətirilmiş Novruz mətbəxinin nümunələri şənlik iştirakçılarında maraq doğururdu.

Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu şənlikdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də yer almışdı.

Xatırladaq ki, 2010-cu ildə BMT-nin qərarı ilə martın 21-i Beynəlxalq Novruz Günü elan olunub. Bu, böyük bir arealda yaşayan 200 milyondan çox insanın milli mənəvi yaddaşına dünyanın ən mötəbər qurumu səviyyəsində verilən dəyərin təzahürüdür. Qədim tarixə malik Novruz həm də əcdadlarımızın bizə töhfəsi, onlardan qalan mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, mühüm insani dəyərləri tərənnüm edir. Varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlər boyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə aparıb. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıb.

Prezident İlham Əliyev və ailə üzvləri pəhləvanların, güləşçilərin çıxışlarını izlədilər, aşıqların ifalarını dinlədilər.

Burada çay süfrəsinə qonaq olan dövlətimizin başçısı və ailə üzvləri daha sonra Azərbaycan xalçalarının nümunələrinə və kəlağayılara baxdılar.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya bayram hədiyyəsi edildi.

İndi Azərbaycan dünya idman tarixində mühüm hadisə kimi qalacaq ilk Avropa Oyunlarına hazırlaşır. Bununla bağlı builki Novruz mərasiminin təşkil olunduğu Dənizkənarı Milli Parkda xüsusi guşələr yaradılıb.

Burada Prezident İlham Əliyevə birinci Avropa Oyunlarına ilk onlayn bilet təqdim olundu.

Avropa Oyunlarının Bakıda keçirilməsinə qərar verilməsi təbii ki, ölkəmizin beynəlxalq nüfuzundan, dünyada formalaşdırdığı müsbət imicdən qaynaqlanır. Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ilk Avropa Oyunlarının Təşkilat Komitəsinə sədr təyin olunması ölkəmizin bu sınaqdan da uğurla çıxacağına əminlik yaradır. Təbii ki, Avropa idman ailəsinin bu qərarı Azərbaycandakı ictimai-siyasi sabitlikdən, son illərdə əldə olunan yüksək iqtisadi nailiyyətlərdən irəli gəlir. Digər tərəfdən, ölkəmizin qədim tarixi, zəngin mədəniyyəti, coğrafi mövqeyi, güclü idman infrastrukturu, ən başlıcası beynəlxalq yarışları keçirmək təcrübəsi Avropa Olimpiya Komitəsinin qərarını şərtləndirən mühüm amillər sırasında olub.

Ötən dövrdə Təşkilat Komitəsi fəal iş aparıb. Avropa Oyunlarının Koordinasiya Komissiyasının müxtəlif vaxtlarda keçirilən iclasları da hazırlıq işlərinin yüksək səviyyədə aparılmasına geniş imkanlar açıb, infrastruktur layihələrinin icrası təmin olunub. İlk Avropa Oyunlarının keçiriləcəyi əsas arenada - Bakı Olimpiya Stadionunda artıq tikinti işləri başa çatıb və Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə açılışı olub. İlk Avropa Oyunlarının xaricdə təbliğinə də xüsusi əhəmiyyət verilir. Bununla bağlı Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə Avropanın iri şəhərlərində təntənəli təqdimat mərasimləri təşkil olunub. İyunun 12-dən 28-dək keçiriləcək birinci Avropa Oyunları 20 idman növünü əhatə edəcək. Buraya Olimpiya və qeyri-olimpiya idman növləri daxildir. 6 mindən çox idmançının mübarizə aparacağı ilk Avropa Oyunlarının əhəmiyyətini artıran mühüm amil onun 8 idman növü üzrə Rio-de-Janeyro Yay Olimpiya Oyunları üçün təsnifat xarakteri daşımasıdır. Çox qısa müddətdə görülən işlər bir daha təsdiqləyir ki, ilk Avropa Oyunlarının Bakıda keçirilməsi ölkəmizdə yaşanan Olimpiya hərəkatına verilən dəyərin təzahürüdür. Bu hadisə həm də Azərbaycanda idman sahəsində yaşanan inkişaf proseslərinə

beynəlxalq miqyasda göstərilən marağın nümunəsidir. Heç şübhəsiz ki, bu mötəbər idman yarışı Azərbaycan idmançılarının parlaq qələbəsi ilə yadda qalacaq və ölkəmizin idman tarixinə şanlı səhifə kimi həkk olunacaq.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bayram şənliyində "Bakı-2015" birinci Avropa Oyunlarına həsr olunmuş stendlərin qarşısında idmançıların çıxışlarını izlədilər.

"Bakı-2015" birinci Avropa Oyunlarının rəmzləri olan "Ceyran" və "Nar" dövlətimizin başçısına və xanımına hədiyyələr təqdim etdilər.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilk Avropa Oyunlarının könüllüləri ilə xatirə şəkli çəkdirdilər.

Bayram şənliyi incəsənət ustalarının, el sənətkarlarının ifasında rəngarəng konsert proqramı ilə davam etdi.

***19 mart 2015-ci il***

## PREZİDENT İLHAM ƏLİYEV "BAKI AĞ ŞƏHƏR" BULVARINDA HƏYATA KEÇİRİLƏN İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Dövlətimizin başçısına layihə çərçivəsində görülən işlər barədə məlumat verildi.

Bakı Ağ Şəhər bulvarı Prezident İlham Əliyevin tapşırığı ilə əvvəllər paytaxtın "Qara şəhər" kimi tanındığı və bir çox sənaye müəssisələrinin yerləşdiyi ərazisində ən müasir standartlara uyğun şəkildə salınır. 2013-cü ilin mayında Prezident İlham Əliyev tərəfindən təməli qoyulan yeni bulvarın inşası ekologiyası bərpa edilən sənaye zonasında həyata keçirilən və dünyanın ən iri müasir layihələrindən biri olacaq "Bakı Ağ Şəhər" layihəsini tamamlamaqla paytaxtımızın simasını daha da gözəlləşdirəcək. Prezident İlham Əliyev təməli qoyulduğu ilk gündən başlayaraq Ağ Şəhər bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə mütəmadi olaraq maraqlanır, vaxtaşırı tikinti meydançalarını gəzir, layihənin yüksək zövqlə icra olunmasına şəxsən nəzarət edir.

Bakı sakinlərinin və şəhərimizin qonaqlarının istirahəti üçün Ağ Şəhər bulvarında infrastruktur ən müasir tələblər səviyyəsində olacaq, müasir iaşə və xidmət obyektləri yaradılacaq. Burada dənizkənarı piyada yolları çəkiləcək, xüsusi yaşıllıq zonaları yaradılacaq, müxtəlif sahilbərkitmə işləri həyata keçiriləcək. Həmçinin bulvarda hərəkətin təhlükəsizliyini təmin etmək üçün piyada keçidləri də inşa ediləcək.

Bu nəhəng istirahət guşəsi sürətlə böyüyən və inkişaf edən Bakının görməli və gəzməli yerlərinə yeni bir ünvan da artıracaq. Bakı Ağ Şəhər bulvarı Ağ Şəhərdən Xəzərə açılan mənzərəni xüsusi bir yaraşıqla daha da cazibədar edəcək.

Dövlətimizin başçısı yeni bulvarın müxtəlif yerlərində aparılan inşaat işlərinin gedişi ilə maraqlandı və müvafiq tapşırıqlarını verdi.

***30 mart 2015-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYALI KİNOREJİSSOR NİKİTA MİXALKOVU QƏBUL ETMİŞDİR

Nikita Mixalkov Azərbaycana səfərindən dərin məmnunluq hissi keçirdiyini bildirdi. Bakıda misli görünməmiş inkişafın şahidi olduğunu vurğulayan kinorejissor filmlərindən birinin epizodunun Bakıda çəkildiyini məmnunluqla xatırladı. Ölkəmizdə gedən böyük

inkişaf proseslərinə toxunan Nikita Mixalkov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bu istiqamətdə göstərdiyi müstəsna xidmətlərin önəmini vurğulayaraq Ulu Öndərin Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlətçiliyin qurulması və möhkəmləndirilməsindəki rolunu xüsusi qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən humanitar sahədə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Rusiya Kinematoqrafçılar İttifaqının sədri, kinorejissor Nikita Mixalkovun Azərbaycana səfərinin ölkələrimiz arasında mədəniyyət sahəsində əlaqələrin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyini bildirdi. Dövlətimizin başçısı ölkəmizdə mədəniyyətin, o cümlədən kinematoqrafiyanın inkişafına dövlət səviyyəsində qayğı göstərildiyini, Azərbaycan mədəniyyətinin dünyada təbliğ olunması istiqamətində ardıcıl işlər aparıldığını da qeyd etdi.

Görüşdə ölkələrimiz arasında mədəniyyət, o cümlədən kinematoqrafiya sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Sonra Nikita Mixalkov Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

*1 aprel 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV "AITF-2015" XIV AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 3-də Bakı Ekspo Mərkəzində "AITF-2015" XIV Azərbaycan Beynəlxalq turizm və səyahətlər, "HOREX Caucasus-2015" IX Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar, həmçinin "CIBS-2015" II Xəzər Beynəlxalq kater və yaxtalar sərgiləri ilə tanış olublar.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısına və xanımına XIV Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi barədə məlumat verdi. Bildirildi ki, Beynəlxalq turizm və səyahətlər sərgisi Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə keçirilir, Dünya Turizm Təşkilatı, Azərbaycan Turizm Assosiasiyası və Beynəlxalq Turizm Sərgiləri Assosiasiyası tərəfindən dəstəklənir. Bu sərginin əhəmiyyəti, burada iştirak edən ölkə və şirkətlərin sayı ildən-ilə artmaqdadır. 2002-ci ildə sərgiyə 14 ölkə qatılmışdısa, bu il onların sayı 42-yə çatıb. Bu ölkələrdən gələn 371 şirkət sərgidə ümumilikdə 80-dək turizm istiqamətini təqdim edir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Mədəniyyət və Turizm Nazirliyinin stendi ilə tanış oldular.

Qeyd edildi ki, əlverişli coğrafi mövqeyi, zəngin iqlimi, flora və faunası, qədim tarixi və mədəniyyəti olan Azərbaycan sürətli iqtisadi və sosial inkişafı ilə dünyanın diqqət mərkəzindədir. Bu gün ölkəmiz turizm mərkəzi kimi də bütün dünyada tanınır. Son illərdə Azərbaycanın turizm potensialını nümayiş etdirmək məqsədilə bir sıra mühüm tədbirlər keçirilir. Onların arasında Bakıda hər il keçirilən beynəlxalq turizm və səyahətlər sərgisinin xüsusi rolu var. Bu sərgi ümumilikdə Cənubi Qafqaz regionunun turizm sənayesinin ən böyük ixtisaslaşdırılmış tədbiri hesab edilir. Məhz buna görə də getdikcə sərgiyə maraq artır. Odur ki, turizm və səyahətlər sərgisi müxtəlif turizm imkanları ilə bol olan məkana çevrilib. Sərgi həm turizm peşəkarlarına, həm də bütün səyahət həvəskarlarına gözəl imkanlar yaradır. Eyni zamanda, sərgi Azərbaycanın zəngin turizm potensialını xarici iş-

tirakçılara əyani şəkildə göstərir. Bu sərgi bütövlükdə turizm sənayesi üzrə beynəlxalq görüş platforması kimi regionda liderdir.

Bildirildi ki, Azərbaycan Turizm Assosiasiyası 2009-cu ildə yaradılıb. Qurum turizm şirkətlərini birləşdirir, onların fəaliyyətini əlaqələndirir. Assosiasiya Dünya Turizm Təşkilatının üzvüdür. Bu quruma 100-dən çox turizm şirkəti və 80-dən çox mehmanxana kompleksi daxildir.

Naxçıvan stendi ilə tanışlıq zamanı məlumat verildi ki, muxtar respublika burada 6 otel kompleksi ilə təmsil olunur. 1995-2015-ci illərdə Naxçıvana gedən turistlərin sayı 20 dəfədən çox artıb. Turizm sahəsinə göstərilən dövlət qayğısı, Bakı ilə yanaşı, regionlarda da müasir turizm infrastrukturunun yaradılması Azərbaycana gələn turistlərin sayının ildən-ilə artmasına səbəb olub. Ölkəmizin regionları da sərgidə geniş təmsil olunur. Burada bölgələrimizin turizm imkanları ilə bərabər milli adətlərimiz, mətbəximiz, tarixi abidələrimiz barədə ətraflı məlumat verilir.

Sərgidə təmsil olunan "Dalğa beach Aquapark" istirahət mərkəzi Abşeron yarımadasının ən mənzərəli yerlərindən olan Mərdəkanda yerləşir. Burada müştərilərin istirahətini yüksək səviyyədə təşkil etmək üçün zəruri şərait yaradılıb.

Bu sərginin daha bir mühüm xüsusiyyəti turizm xidmətlərinin geniş çeşidini nümayiş etdirmək, turagentlik və turoperatorları, milli qrupları, beynəlxalq nümayəndəlikləri, avtomobil, hava və dəniz daşımaları üzrə şirkətləri, müxtəlif ölkələrin mehmanxana biznesi üzrə nümayəndələrini, turizm və ticarət assosiasiyalarını, eləcə də fəal və ekstremal istirahət turlarının təşkilatçılarını bir yerə toplamaqdır.

Sərgidə regionun aparıcı aviaşirkəti olan "Azərbaycan Hava Yolları" QSC və onun tərəfdaşı kimi "SilkWay" şirkəti də iştirak edir. Məlumat verildi ki, Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni terminalı dünyanın 18 ən yaxşı dörduldüzlu terminalları sırasındadır.

İran İslam Respublikası da sərgidə iştirak edir. İran sərgiyə 5 şirkətlə qatılıb. Onlar Təbriz, Urmiya, Ərdəbil və digər şəhərləri təmsil edir. İran stendində bir otel komlpeksi də imkanlarını nümayiş etdirir.

Maldiv Respublikası isə ilk dəfədir Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisinə qatılıb və 5 turizm şirkəti ilə təmsil olunur. Maldivdən gələn şirkətlər əsasən yay və ekzotik turizm növləri üzrə xidmətlərini təqdim edir.

Malayziyanın turizm şirkətləri isə sərgiyə gələn qonaqlara əsasən ekzotik turizm marşrutları üzrə xidmətləri təklif edirlər.

Macarıstan artıq 3-cü dəfədir ki, sərgiyə qatılıb. Bu ölkənin stendində milli stendlə yanaşı, 3 turizm operatoru da xidmətlərini təklif edir. Burada təklif olunan turizm istiqamətləri əsasən ekskursiya, ov və tibbi istiqamətlər üzrədir.

Budəfəki sərgidə Argentina bu ölkənin Turizm Nazirliyinin milli stendi ilə təmsil olunur. Stenddə Argentinanın çayı, mətbəxi, şirniyyatları və adətləri barədə məlumat verilir.

Hindistan isə sərgiyə 2010-cu ildən qatılır. Bu dəfə əvvəlki illərlə müqayisədə buraya gələn şirkətlərin sayı artaraq 7-yə çatıb. Bu şirkətlər ekzotik və tarixi maşrtutlar üzrə turizm imkanlarını nümayiş etdirir.

İkinci dəfə sərgiyə qatılan Dominikan Respublikası 16 turizm şirkəti ilə təmsil olunur. Bu il Dominikanın turizm imkanlarını nümayiş etdirən stendin sahəsi xeyli genişlənib. Bu ölkənin şirkətləri Azərbaycan vətəndaşları üçün eksklüziv təkliflərlə çıxış edir.

Sərgidə qardaş Türkiyə 30-dan çox turizm şirkəti və idarəsi ilə təmsil olunur. Qars, Ərdahan, İqdır, Ərzurum, Alanya, Antalya, Bodrum, Mardin kimi səfalı məkanların geniş turizm imkanlarının təqdim olunduğu stenddə ziyarətçilərə yay-qış turizminin bir çox xidmətləri təklif edilir.

Sloveniyanın stendində 16 turoperator öz xidmətlərini təklif edir. Buraya əsasən tibbi-müalicəvi istiqamətlər daxildir.

Builki turizm sərgisinə Litva 16 şirkətlə qatılıb.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva "HOREX Caucasus-2015" IX Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgisi ilə də tanış oldular.

Sərgidə Azərbaycan, İtaliya, Koreya Respublikası, Litva, Rusiya və Türkiyənin aparıcı şirkətləri iştirak edir. Sərgi iştirakçıları arasında dünyanın nüfuzlu şirkətləri də var. Ölkədə mehmanxana, restoran, idman kompleksləri və biznes mərkəzlərinin intensiv tikintisi ilə əlaqədar bu sərginin keçirilməsi olduqca aktualdır. Sərgidə dünyanın aparıcı şirkətlərindən olan "Lactalis" şirkəti də məhsullarını nümayiş etdirir. Dünyanın 37 ölkəsində müəssisələri olan şirkət dünyada pendir istehsalı üzrə liderlərdən biridir.

Dövlətimizin başçısı "CIBS-2015" II Xəzər Beynəlxalq katerlər və yaxtalar sərgisinə də baxdı. Bu sərgi Xəzər regionunda katerlər, yaxtalar, müxtəlif növ dəniz avadanlığı, yaxt-klublar, su idmanı, su nəqliyyatı və bu istiqamətdə digər sektorlarda fəaliyyət göstərən şirkətləri özündə birləşdirən yeganə ixtisaslaşdırılmış tədbirdir. İştirakçıların coğrafiyası Azərbaycan, ABŞ və Ukraynanı əhatə edir.

Sərgilərlə tanışlıqdan sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevaya "Bakı-2015" birinci Avropa Oyunlarının açılış mərasiminə biletlər təqdim olundu.

Dövlətimizin başçısı sərgilərin işinə uğurlar arzuladı.

*3 aprel 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Ciddədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibi İyad bin Amin Mədəni ilə görüşü olub.

İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəni Prezident İlham Əliyevi salamladı.

Sonra İslam Əməkdaşlıq Təşkilatının baş katibinin adından Prezident İlham Əliyevin şərəfinə nahar verildi.

Baş katib İyad bin Amin MƏDƏNİ çıxış edərək dedi:

- Cənab Prezident.

Dəvətimizi qəbul edib bizimlə görüşə gəldiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk və şərəf hissi duyuruq. Özünüzü öz evinizdəki kimi hiss etməyiniz üçün əlimizdən gələni etmişik. Bizim üçün böyük şərəfdir.

Biz Zati-alinizə, eləcə də ölkənizə - Azərbaycana böyük diqqətlə və böyük ümidlə yanaşırıq. Zati-aliləri, Sizin rəhbərlik keyfiyyətlərinizdə bir çox məqamları qeyd edirəm, necə ki, atanızın, - Allah ona rəhmət etsin, - timsalında gördüyüm kimi, güclü ölkəni qurmaq əzmkarlığını Sizdə də görürəm. Həmçinin rəhbərliyiniz altında Azərbaycanın irəli sürdüyü bir çox təşəbbüsləri də vurğulamaq istəyirəm.

Bakıya, Azərbaycana səfər edən hər kəs əvvəlki vəziyyəti indiki ilə müqayisə etdikdə ölkənizdəki tərəqqini, irəliləyişi dərhal görür. Bu işlər ölkənin mənafeyinə, tarixinə və özünəməxsusluğuna uyğun olaraq davam edir.

Eyni zamanda, Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının istər siyasi, istər iqtisadi, istərsə də əlaqələrimizi möhkəmləndirdiyimiz digər sahələrdə dəstəklənməsində hər

zaman tutduğu mövqeyinə görə olduqca minnətdarıq. Zati-aliləri, icazənizlə bir neçə misal gətirim. Tədbirlərə gəldikdə, Bakı bu yaxınlarda İƏT əmək nazirlərinin görüşünü təşkil etmişdir. Daha sonra, təşkilatımızın turizm nazirlərinin toplantısını qəbul etdi. Bundan əlavə, İƏT-ə üzv olan dövlətlərdə islam ənənələri və dəyərlərinə uyğun olaraq, qadınların oynadığı rolun daha da gücləndirilməsi mövzusunda mühüm görüş keçirilib.

Həmçinin Azərbaycan əsas məsələmizə, işimizə - fələstinli qardaşlarımızın dəstəklənməsinə sadiqliyini nümayiş etdirib. Burada həm siyasi dəstək, siyasi təsisatlara dəstək, həm Qüdsün, Qəzzanın və bütün işğal edilmiş ərazilərin əhalisinə göstərilən birbaşa yardım nəzərdə tutulur.

Zati-aliləri, həmçinin bilirik ki, ölkələrimizin əhalisinin əsas hissəsi gənclərdir. Bu sahədə Azərbaycanın irəli sürdüyü təşəbbüslər nümunəvidir və gənclərə hansı şəkildə yanaşmanın nümunəsi ola bilər. Zati-aliləri, gənclərdə gələcəyə ümidin, inamın olması çox mühüm məsələdir. Hər hansı mənfi, radikal ünsürlərə onların daxilində müqavimət olmalıdır.

Zati-aliləri, bütün bunları biz Azərbaycanın yanaşmasında, onun özünəməxsusluğunda görürük. Ölkəniz İslam dininin yayıldığı ölkədir. Ölkəniz, həmçinin bəşəriyyətin qədim beşiyi olub. Əldə edilmiş arxeoloji tapıntılar da buna dəlalət edir. Cənab Prezident, Azərbaycan Asiya ilə Avropa arasında körpüdür. Ölkəniz, həmçinin ən qədim vaxtlardan neft ilə zəngin ölkə olub. Bu səbəbdən, burada Siz özünüzü evinizdəki kimi hiss etməlisiniz.

Bir sözlə, Azərbaycanın bu cür özünəməxsusluğu, tutduğu qəti mövqeyi və cənab Prezident, İslam Əməkdaşlıq Təşkilatında dəyərləndirdiyimiz hər bir məsələyə şəxsi diqqətiniz bizim üçün fərəh mənbəyidir, arxalandığımız meyardır və hesab edirik ki, ümumi dəyərlərimizə doğru irəlilədiyimiz yolda bunları daim hiss edəcəyik.

Mən, həmçinin Sizi müşayiət edən bütün nümayəndə heyətini salamlayıram. BMT-nin Təhlükəsizlik Şurasında Azərbaycanın sədrliyi zamanı tutduğu mövqeyinə görə minnətdarıq. Burada, həmçinin işgüzar və bank dairələrinin nümayəndələri əyləşiblər. Ümid edirəm ki, bu səfər onların arasında fikir mübadiləsi üçün fürsət yaratdı.

Cənab Prezident, verdiyiniz töhfəyə görə İslam Əməkdaşlıq Təşkilatı və üzv dövlətlər adından minnətdarlığımı bildirirəm. Üzv dövlətlər arasında sərmayələr artmalıdır. Bir sözlə, işləmək, fikir mübadiləsi aparmaq üçün imkanlar genişdir. İƏT-in üzvü olan dövlətlər arasında eyni layihələr və investorlarla rəqabətə girmək yox, əvəzləmə prinsipi əsasında çalışmalıyıq. Biz, həmçinin Əlahəzrət Şahzadəni burada salamlayırıq. Bizim üçün çox xoşdur ki, o, dəvətimizi qəbul edib, bu gün bizimlə buradadır. Bu, bir daha onu göstərir ki, Səudiyyə Ərəbistanı Azərbaycana xüsusi əhəmiyyət verir.

Bizə verdiyiniz şərəfə görə bir daha minnətdarıq. Biz Sizə, inşallah, səfərinizin uğurlu davam etməsini arzu edirik. Bu gün ziyafətə gəlmiş bütün qonaqlara təşəkkür edirəm. Sağ olun cənab Prezident.

Azərbaycan Prezidenti İlham ƏLİYEV çıxış edərək dedi:

- Əlahəzrət Şahzadə.

Cənab baş katib.

Əziz dostlar.

Əvvəlcə, göstərilən qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istərdim. Səudiyyə Ərəbistanında yenidən olmağımdam çox şadam. Dünən gözəl ölkənizə rəsmi səfərim başlayıb. Əlahəzrət, Səudiyyə Ərəbistanının Kralı, İki Müqəddəs Ocağın Xadimi ilə ikitərəfli münasibətlərimizə dair bir çox məsələləri və regional prosesləri müzakirə etmək şərəfinə nail oldum.

Biz tərəfdaşlığımızın strateji xarakterini bir daha təsdiqlədik. Səudiyyə Ərəbistanı və Azərbaycan qardaş və dostdurlar. Bütün beynəlxalq təsisatlarda hər zaman bir-birimizi dəstəkləyirik və dəstəkləməkdə davam edəcəyik.

Eyni zamanda, dünən ölkənizin nazirləri ilə görüşlər zamanı iqtisadi və siyasi əməkdaşlığa dair müxtəlif layihələri, qarşılıqlı ticarətin həcminin artırılması imkanlarını müzakirə etdik. İqtisadi tərəfdaşlığımızı siyasi əməkdaşlığımız səviyyəsinə qaldırmalıyıq. Gələn ay ölkəmizə səfər edəcək Səudiyyə Ərəbistanının iş adamlarından ibarət böyük nümayəndə heyəti və noyabr ayında Sizin ölkəyə yollanacaq bizim nümayəndə heyətimiz, fikrimcə, iqtisadi əməkdaşlıq üçün çox məhsuldar format yaradacaq. Başqa sözlə, əminəm ki, səfərim ölkələrimiz arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndirəcək.

Bu gün, həmçinin Azərbaycanın fəal üzv olduğu İslam Əməkdaşlıq Təşkilatında olmaq mənim üçün böyük şərəfdir. Cənab baş katib, artıq qeyd etdiyiniz kimi, son bir neçə il ərzində Azərbaycanda nazirlər səviyyəsində müxtəlif görüşlər keçirilib. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının üzvü kimi olduqca fəal rol oynamağa və dünyada İslam həmrəyliyi işinə töhfə verməyə çalışır. Cənab baş katib, düzgün qeyd etdiyiniz kimi, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında qeyri-daimi üzv olduğumuz zaman biz BMT ilə İƏT arasında əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirirdik və beləliklə, təşkilatımızın fəaliyyətinə daha çox diqqətin cəlb edilməsinə nail olduq.

Fürsətdən istifadə edərək, ölkəmizin BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlük üçün Azərbaycanın namizədliyinə verdiyi güclü dəstəyə görə İslam Əməkdaşlıq Təşkilatına təşəkkürümü bildirmək istəyirəm. Həmin vaxt mən çox aydın şəkildə bəyan etdim ki, əgər seçilərsə, Azərbaycan nəinki özünü, eləcə də bütün müsəlman aləminin ölkələrini təmsil və müdafiə edəcək.

Biz İslam həmrəyliyinin gücləndirilməsi üçün daha çox çalışacağıq. Azərbaycan 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarını qəbul edəcək. Bu, həmçinin birliyimizə verilən töhfədir. Çünki Oyunlar təkcə idman yarışı olmayacaq, eyni zamanda, birliyimizin, müsəlman aləmində gənc nəsillərimizin həmrəyliyinin günləri olacaq. Biz qardaşlıq ənənələrimizi bizi əvəzləyəcək gənc nəsillərə ötürməliyik. Nəzərə almaq lazımdır ki, bu gün media, qloballaşma və gündəlik həyatımızın digər elementləri müxtəlif aspektlər baxımından öz rolunu oynayır. Əfsuslar ki, onlar bəzən köklərimizi, ənənələrimizi sual altında qoyaraq, mənfi rol da oynayır. Qloballaşma özlüyündə yaxşı bir prosesdir. Lakin o bəzən kökləri, ənənələri, dini, bayramları və dəyələri yaddan çıxarmaq mənasını daşıyırsa, onda biz bu cür qloballaşmanı dəstəkləmirik.

Bu səbəbdən, müsəlman aləminin gənc nəsilləri milli, ənənəvi dəyərlərimizə əsaslanaraq tərbiyələndirilməlidirlər. Əlbəttə, Səudiyyə Ərəbistanının bu baxımdan oynadığı rol çox əhəmiyyətlidir. Azərbaycan da öz növbəsində dəyərlərimizi təşviq etmək üçün əlindən gələni edir. Biz müsəlman aləminin mədəniyyətini nümayiş etdirmək, İslamı sülh, qardaşlıq və tolerantlıq dini kimi təqdim etmək məqsədilə dünyanın müxtəlif yerlərində bir çox konfranslar, sərgilər və digər mədəni tədbirlər təşkil etmişik.

İslamı dünyaya təhlükə kimi təqdim etmək istəyənlərə imkan verməmək üçün biz daha çox çalışmalıyıq, səylərimizi birləşdirməliyik. İslam sülh və qardaşlıq dinidir. Biz bunu bilirik. Hər kəs bunu bilməlidir. Dəyərlərimizi təşviq etmək və keçmişimizi, bu günümüzü və gələcəklə bağlı planlarımızı düzgün şəkildə çatdırmaq üçün daha fəal olmalıyıq.

İştirak etdiyimiz bütün beynəlxalq forum və təşkilatlarda müsəlman qardaşlarımızı dəstəkləməkdə davam edəcəyik, öz məqsədlərimizə nail olacağıq, müsəlman aləmində hamımız üçün çox zəruri olan daha güclü tərəfdaşlıq və birlik quracağıq. Hesab edirəm ki, hazırda aparıcı beynəlxalq təşkilatlardan birinə çevrilmiş İslam Əməkdaşlıq Təşkilatı ilə öz məqsədlərimizə nail olacağıq.

Mən göstərilən qonaqpərvərliyə görə bir daha Səudiyyə Ərəbistanının rəhbərliyinə və İslam Əməkdaşlıq Təşkilatına öz minnətdarlığımı bildirmək istəyirəm. Dünəndən etibarən burada özümü öz evimdəki kimi hiss edirəm. Bu, qardaşlığımızın təzahürüdür və əməkdaşlığımızın mahiyyətidir.

Bir daha çox sağ olun. Sizin hamınızı Azərbaycana səfərə dəvət edirəm.

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəninin görüşü oldu.

Görüşdə Azərbaycan ilə İƏT arasında yüksək səviyyəli əməkdaşlığın həyata keçirildiyi bildirildi. Bu görüşün əlaqələrimizin daha da genişlənməsi baxımından əhəmiyyəti qeyd edildi. İslam Əməkdaşlıq Təşkilatının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli məsələsində tutduğu ədalətli mövqe yüksək qiymətləndirildi.

Söhbət zamanı ikitərəfli əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

*6 aprel 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV MƏDİNƏDƏ PEYĞƏMBƏR MƏSCİDİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri çərçivəsində aprelin 7-də Mədinə şəhərində olub.

Dövlətimizin başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri burada Peyğəmbər məscidini ziyarət ediblər.

Peyğəmbər məscidində din xadimləri dövlətimizin başçısını böyük hörmət və ehtiramla qarşıladılar.

Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Peyğəmbər məscidində namaz qıldılar.

Peyğəmbər məscidi və ya Məscid ən-Nəbəvi adlanan bu müqəddəs məkan dünyanın ən böyük məscidlərindən biridir. İslamda Məkkədəki Əl-Həram məscidindən sonra ikinci müqəddəs ocaq hesab olunan Peyğəmbər məscidi hicrətdən sonra Mədinədə Məhəmməd peyğəmbər və əshabı tərəfindən inşa edilib. Sahəsi 400 min kvadratmetr olan məscidin 10 minarəsi var.

Bu məsciddə Məhəmməd peyğəmbərin dəfn olunduğu yerə müstəsna hallarda ali qonaqların daxil olmasına icazə verilir. Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri çərçivəsində böyük hörmətlə qarşılanan Prezident İlham Əliyevə olan yüksək münasibətin və onun nüfuzunun nəticəsi idi ki, dövlətimizin başçısına Peyğəmbər məscidində dərin ehtiram göstərildi, Məhəmməd peyğəmbərin dəfn olduğu yer müstəsna hal kimi ali qonağın və ailə üzvlərinin ziyarəti üçün açıldı.

Məscidlə tanışlıq zamanı buraya toplaşan insanlar da Azərbaycan Prezidentinə öz hörmət və ehtiramlarını bildirdilər, onlar dövlətimizin başçısına səmimi salamlarını çatdırdılar.

Məhəmməd peyğəmbərin vaxtında bu məscid Rəsulullahın Mədinədə bütün fəaliyyətinin mərkəzi olub. Buna görə də Peyğəmbər məscidi faktiki olaraq həmin dövrdə İslam ümmətinin mərkəzi hesab edilirdi. Miladi təqvimlə 632-ci ildə həzrəti Məhəmməd (s) dünyasını dəyişdikdə hazırda Peyğəmbər məscidi kompleksinə daxil olan evində dəfn edilib. Hər il Məkkəyə Həcc ziyarətinə gedən zəvvarlar ənənəvi olaraq Mədinəyə gələrək Peyğəmbər məscidində həzrəti Məhəmmədin məzarını da ziyarət edirlər.

Məscid kompleksi müasir texnologiyalar, həmçinin Şərq və İslam mədəniyyətinin vəhdət təşkil etdiyi gözəl memarlıq üslubunda yenidən inşa edilib, ərazisi genişləndirilib. Hazırda burada 650 min müsəlmanın eyni vaxtda ibadətlə məşğul olmaq imkanı var.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri aprelin 7-də başa çatıb.

*7 aprel 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏKKƏDƏ ÜMRƏ ZİYARƏTİNDƏ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri İslam dünyasının əsas müqəddəs şəhəri Məkkədə ümrə ziyarətində olublar.

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri xüsusi zəvvar libası geyinərək Əl-Həram məscidinə gəldilər.

Bir neçə mərtəbəli və doqquz minarəli məscid öz gözəlliyi və əzəməti ilə insanı heyran edir.

Ziyarətgahın yüksək səviyyəli din xadimləri dövlətimizin başçısını mehribanlıqla qarşıladılar.

Azərbaycan Prezidenti İlham Əliyev və onu müşayiət edən şəxslər Kəbənin ətrafına dolanıb təvaf etdilər və məsciddə namaz qıldılar. Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Kəbəyə daxil oldular, burada da namaz qıldılar.

Bildiyimiz kimi, Kəbə evinin qapıları müstəsna hallarda ali qonaqlar üçün açılır. Bu dəfə Kəbənin qapıları Azərbaycan Prezidenti İlham Əliyev və ailə üzvləri üçün açıldı. Bu da Prezident İlham Əliyevin şəxsiyyətinə və fəaliyyətinə İslam dünyasında verilən önəmin ifadəsidir. Bu, həm də Səudiyyə Ərəbistanı Krallığı rəhbərliyinin dövlətimizin başçısına olan böyük hörmətinin və dərin səmimi münasibətinin təzahürüdür.

Sonra Səfa və Mərvə təpələrinin ziyarəti başlandı. Azərbaycan Prezidenti və ailə üzvləri bu iki təpə arasındakı məsafəni İslam dininin ayinlərinə uyğun olaraq yeddi dəfə qət etdilər.

Həzrəti Məhəmməd (s) bu torpaqda doğulub, peyğəmbərliyə çatıb, İslam dini Məkkədə yaranıb. Məkkədəki Allah evi Kəbə həzrəti Məhəmməd Peyğəmbərin (s) dövründən başlayaraq bütün dünya müsəlmanlarının ən müqəddəs ziyarətgahına çevrilib. Sonralar Kəbə və müqəddəs "Zəmzəm" çeşməsi, Səfa və Mərvə təpələri arasında əzəmətli məscid tikilib. Hər il həcc ziyarəti zamanı dünyanın müxtəlif guşələrindən gələn milyonlarla müsəlman Kəbənin ətrafına dolanır, müqəddəs Qara daşı öpür, məsciddə namaz qılır.

Ayə və hədislərdən də bəlli olduğu kimi, Kəbə Yer üzündə insanlar üçün məbəd olaraq tikilən ilk evdir. Aləmlərə uğur, bərəkət və hidayət qaynağı olaraq qurulan Kəbə haqqında Allah-Təala "Qurani Kərim"in "Al İmran" surəsində belə buyurur: "Həqiqətən, insanlar üçün ilk bina olunan ev Məkkədəki evdir ki, o, şübhəsiz, bütün aləmlərdən ötrü bərəkət və doğru yol qaynağıdır. Orada aydın nişanələr, İbrahimin məqamı var". Tarix boyu bir çox dəyişikliklərə məruz qalan Kəbə müxtəlif dövrlərdə qismən, ya da tamamilə yenidən inşa olunub və bugünkü möhtəşəmliyinə çatıb.

Ümrə ziyarəti başa çatdıqdan sonra dövlətimizin başçısı Əl-Həram məscidini seyr etdi.

Azərbaycan Prezidentinə məscid haqqında ətraflı məlumat verildi.

*7 aprel 2015-ci il*

# PREZİDENT İLHAM ƏLİYEV LƏNKƏRAN MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Lənkəranda əsaslı şəkildə yenidən qurulan Mədəniyyət Mərkəzində yaradılan şəraitlə tanış olub.

Bildirildi ki, bu gün Azərbaycanda bütün sahələrə olduğu kimi, mədəniyyət sferasına da xüsusi diqqət göstərilir. İndi paytaxtla yanaşı, respublikanın hər yerində yerləşən mədəniyyət ocaqları əsaslı təmir edilir və yeniləri tikilir. Lənkəran şəhər Mədəniyyət Mərkəzinin binasında əsaslı yenidənqurma işlərinin aparılması ölkədə mədəniyyət və incəsənətin inkişafına diqqətin daha bir təzahürüdür. Lənkəranın ictimai-siyasi və mədəni həyatında Mədəniyyət Mərkəzinin böyük rolu olub. 1982-ci ildə istifadəyə verilən mərkəz uzun müddət Lənkəran şəhər 2 nömrəli Mədəniyyət Evi adı ilə fəaliyyət göstərib. O vaxtdan keçən dövr ərzində burada əsaslı təmir işləri aparılmayıb. İndi yenidən qurulan bina ən müasir səviyyəyə çatdırılıb, incəsənət adamlarının fəaliyyəti üçün burada geniş imkanlar yaradılıb. Mədəniyyət Mərkəzinin binasının əsaslı təmir işlərinə 2014-cü ilin aprelində başlanılıb və bu ilin aprelində başa çatdırılıb. Bölgələrdə mədəniyyət ocaqlarının əsaslı təmir olunması, müasir tipli yeni mədəni infrastrukurun yaradılması regionlarda bu sahənin hərtərəfli inkişafına stimul verir. Bütün bu tədbirlər bir daha onu göstərir ki, qədim və zəngin mədəni dəyərlərə malik olan Azərbaycanda mədəniyyət məsələləri daim diqqətdə saxlanılır. Bu gün mədəniyyət xadimləri, incəsənət adamları ən yüksək səviyyədə qayğı ilə əhatə olunublar. Onların sosial məsələlərinin həllinə dövlət səviyyəsində həmişə diqqət göstərilib.

Dövlətimizin başçısına Mədəniyyət Mərkəzində yaradılan şərait barədə ətraflı məlumat verildi. Bildirildi ki, burada ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Lənkərana səfərlərindən və ölkədə mədəniyyətin inkişafına göstərdikləri qayğıdan bəhs edən fotostend yaradılıb. Üçmərtəbəli bina ən yüksək səviyyədə, müasir üslubda təmir edilib. 550 yerlik akt zalında Lənkəranın mədəni həyatında baş verən hadisələri qeyd etmək, həmçinin respublika və rayon əhəmiyyətli müxtəlif tədbirləri keçirmək üçün hərtərəfli şərait var. Bu, ümumilikdə rayonun incəsənət və mədəniyyət işçilərinə yeni uğurlar əldə etmək üçün həm stimul, həm də geniş imkanlar yaradır.

Dövlətimizin başçısı Lənkəran şəhər uşaq musiqi məktəblərinin birləşmiş xorunun ifasını dinlədi.

Sonra Prezident İlham Əliyev məktəblilərlə xatirə şəkli çəkdirdi.

Diqqətə çatdırıldı ki, Lənkəranda tez-tez mədəniyyət tədbirlərinin keçirilməsi və rayonda bir çox incəsənət kollektivinin fəaliyyət göstərməsi nəzərə alınaraq, Mərkəzdə rejissor, qrim, istirahət otaqları, dekorasiya və tikiş sexləri də yaradılıb. Mədəniyyət Mərkəzinin zəngin kitab fondu, oxu zalı və 50 yerlik konfrans zalı var. Buradakı rəqs zalı, ingilis dili, kompyuter kursu və digər dərnəklər gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün mühüm əhəmiyyət kəsb edir.

Bildirildi ki, burada etnoqrafiya sərgisi də yaradılıb. Bu sərgi Lənkəranın qədim tarixi haqqında geniş məlumatlar əldə etməyə imkan verəcək. Son illərdə ölkəmizdə mədəniyyətin inkişafına göstərilən yüksək diqqət özünü mədəniyyət ocaqlarına və bu sahədə çalışan insanların qayğı ilə əhatə olunmasında, həmçinin ölkəmizin beynəlxalq səviyyəli mədəni tədbirlərə ev sahibliyi etməsində daha çox büruzə verir. Bu baxımdan Heydər Əliyev Fondunun mədəniyyətimizin inkişafı, onun dünyada təbliği, Azərbaycanın zəngin mədəni irsinin, musiqi ənənələrinin qorunması ilə bağlı həyata keçirdiyi layihələr xüsusi önəm kəsb edir. Bölgələrdə müasir mədəniyyət ocaqlarının yaradılması bu sahənin regi-

onlarda da hərtərəfli inkişafına töhfələr verir. Lənkəranda əsaslı şəkildə yenidən qurulan Mədəniyyət Mərkəzi də bu baxımdan əhəmiyyətlidir.

Prezident İlham Əliyev Mərkəzlə tanışlıqdan sonra şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

* * *

Şəhər ictimaiyyətinin nümayəndələrini salamlayan Prezident İlham ƏLİYEV dedi:

- Bu gün çox gözəl gündür. Lənkəranda Mədəniyyət Mərkəzi əsaslı təmirdən sonra açılır. Gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Çox şadam ki, bu bina yenidən qurulub, bərpa edilib. Bildiyiniz kimi, bina 1970-ci illərdə tikilmişdir və təmirə ehtiyacı var idi. Hazırda bu, ən yüksək səviyyədə qurulmuş bir Mədəniyyət Mərkəzidir. Zallar, geniş otaqlar, iclas zalları. Burada konfranslar, konsertlər, müxtəlif tədbirlər keçiriləcək. Yəni, Lənkərana yaraşan bir mədəniyyət ocağıdır. Bu, məni çox sevindirir. Çünki Azərbaycanın hər bir yerində mədəniyyət ocaqlarının təmiri, bərpası sürətlə gedir, geniş vüsət almışdır. Həm qədimdən qalan tarixi abidələr, eyni zamanda, sovet dövründə tikilmiş mədəniyyət mərkəzləri də təmir olunur, yenidən qurulur. Bu gün Lənkəranda Tarix-Diyarşünaslıq Muzeyinə də baş çəkdim. Bu da tarixi binadır. Gözəl təmir olunub, uzun illər təmirə ehtiyacı var idi. Orada göstərilən fotoşəkillər o tarixi binanın köhnə görüntülərini əks etdirir. Burada, bu binanın həyətində də onun əvvəlki vəziyyətini əks etdirən şəkillər var.

Bu gün isə mənzərə tam fərqlidir. Bu gün Lənkəranda və demək olar ki, ölkəmizin hər bir yerində tarixi-mədəni obyektlərimiz bərpa edilir və bu, belə də olmalıdır, xüsusilə Lənkəranda. Lənkəranın çox qədim mədəniyyəti, tarixi var. Biz bu mədəniyyəti, tarixi qoruyuruq. Tarix-Diyarşünaslıq Muzeyində nümayiş etdirilən eksponatlar göstərir ki, bu diyarın nə qədər zəngin tarixi və mədəni irsi var.

Son illərdə bütövlükdə Lənkəranda görülən işlər ölkəmizin ümumi inkişaf dinamikasını əks etdirir. Son vaxtlar cənub bölgəsində, xüsusilə Lənkəranda infrastruktur layihələrinin icrası sürətlə aparılmışdır. Bu gün deyə bilərik ki, əsas infrastruktur layihələri icra edilib. İki il bundan əvvəl şəhərə içməli suyun verilməsini qeyd etmişik. İndi şəhər içməli su ilə tam şəkildə təmin edilib. Qazlaşdırma sürətlə gedir. Şəhər tam qazlaşdırılıb. Kənd əhalisinin təxminən 80 faizi artıq təbii qaz alır, ilin sonuna qədər yəqin ki, 100 faizə yaxın bir rəqəm ortaya çıxacaq. Eyni zamanda, bu ilin əvvəlində "Azərişıq" qurumunun yaradılması nəticəsində hazırda bütün bölgələrdə elektrik enerjisi ilə təchizatla bağlı əlavə tədbirlər görülür. Vaxtilə biz kifayət qədər böyük həcmdə generasiya gücləri yaratmışıq, o cümlədən bu bölgədə "Astara" elektrik stansiyası, "Şirvan" elektrik stansiyası. Yəni, elektrik güclərimiz kifayət qədər böyükdür. Ancaq ötürücü xətlərin, transformatorların yenilənməsinə böyük ehtiyac var idi. Hazırda "Azərişıq" bu işlərə çox fəal qoşulub. Əminəm ki, bir neçə ildən sonra bizim bütün bölgələrimizdə elektrik enerjisi ilə təminat Bakıda olan səviyyəyə qalxacaq.

Kənd yollarının tikintisi gedir. Lənkəranda bir neçə kənd yolu layihəsi icra edilmişdir. Bu da əlbəttə ki, həm inkişafa təkan verir, eyni zamanda, böyük sosial məna daşıyır. Çünki Azərbaycan əhalisinin təxminən 50 faizi aqrar bölgələrdə, kəndlərdə yaşayır. Kənd yolları layihəsi, ümumiyyətlə, bütün ölkəmizi əhatə edibdir.

Hazırda Bakı-Astara magistral avtomobil yolu tikilir. Əminəm ki, yaxın illərdə istifadəyə veriləcək. Beləliklə, avtomaşınla gəlib-getmək üçün daha da gözəl imkan olacaq. Lənkəran aeroportu artıq neçə ildir ki, fəaliyyət göstərir. Aeroport sovet dövründə tikilmişdi, amma sonra fəaliyyət göstərmirdi. Yadımdadır, aeroportun ərazisinə baş çəkəndə gördüm ki, hər şey dağılıb və o vaxt qərar qəbul etdim ki, biz yenidən aeroport tikməli-

yik. Müxtəlif fikirlər var idi ki, bəs bu qədər vəsait qoyulacaq, kim istifadə edəcək, yəni, sadəcə olaraq, bir tikinti obyekti kimi istifadəsiz qalacaq. Amma bu gün biz görürük ki, bunun nə qədər böyük əhəmiyyəti var. Lənkərandan birbaşa Moskvaya, Rusiyanın digər şəhərlərinə və başqa yerlərə uçuşlar təşkil edilir. Nəinki lənkəranlılar, bütün cənub zonasının sakinləri bu aeroportun xidmətindən istifadə edirlər. Biz ən müasir təyyarələr almışıq. Ölkəmizdə 7 aeroport tikilib. Onlardan 5-i beynəlxalq statusa malikdir, biri də Lənkəran aeroportudur.

Yəni, biz bu məsələlərə kompleks şəkildə yanaşırıq. Əlbəttə, sosial sahə heç vaxt yaddan çıxmır, əksinə, həmişə bizim prioritetimiz kimi qalır. Lənkəranda Mərkəzi Rayon Xəstəxanası yaradılmışdır. Ondan əvvəl Diaqnostika Mərkəzi yaradılmışdır. Birinci Diaqnostika Mərkəzi məhz Lənkəranda yaradılmışdır. Uşaq xəstəxanası, məktəblər, mədəniyyət ocaqları tikilir. Yəni, bu cür yanaşma imkan verir ki, ölkəmizin hər bir regionu, hər bir rayonu hərtərəfli inkişaf etsin. Eyni zamanda, hər bir rayonda normal yaşamaq, işləmək üçün bütün şərait yaradılır.

Bu gün mən, eyni zamanda, Lənkəranda yaradılan yeni kənd təsərrüfatı layihəsinə də fikir verdim, tanış oldum. Bu da bir yenilik olacaq. Xarici mütəxəssislərin dəstəyi ilə burada müasir texnologiyalar əsasında meyvə bağları salınır. Əlbəttə, bu, həm Lənkəranın iqtisadiyyatına, eyni zamanda, ixrac potensialına da müsbət təsir göstərəcək. Çünki biz çalışmalıyıq ki, bundan sonra öz təbii imkanlarımızdan maksimum dərəcədə istifadə edək.

Bizim əlbəttə, böyük enerji resurslarımız, neft–qaz yataqlarımız var. Bu gün bunlar Azərbaycan xalqına xidmət edir və dünya miqyasında öz rolunu oynayır. Eyni zamanda, gözəl təbii şəraitimiz, Lənkəran kimi gözəl məkanımız var. Digər bölgələrdə də təbii şərait unikaldır. Xoşbəxtik ki, belə gözəl ölkədə yaşayırıq - 9 iqlim qurşağı, hər cür təbii şərait, münbit torpaqlar, dağlar, çaylar, Xəzər dənizi, bulaqlar var. Yəni, bu, böyük sərvətdir və biz bu sərvətdən səmərəli şəkildə istifadə edirik.

Bu gün Azərbaycan müstəqil dövlətdir və öz taleyini özü müəyyən edir. Azərbaycan xalqı da görür ki, biz ancaq müstəqillik dövründə yaxşı yaşaya bilərik. Biz əsrlər boyu müstəqillikdən məhrum idik və Azərbaycan xalqı öz potensialını tam realizə edə bilmirdi. İyirmi üç ildir ki, müstəqil dövlət kimi yaşayırıq və bu gün çiçəklənən Azərbaycan bu müstəqilliyin bəhrəsidir. Biz müstəqilliyi qoruyuruq, qoruyacağıq. Bizim yolumuz inkişaf yoludur, ölkəmiz inkişafdadır, hər bir bölgə inkişafdadır. Birinci regional inkişaf proqramı hələ 2004-cü ildə qəbul edilmişdi və 11 il keçəndən sonra hər kəs bu gün hər bir rayonda bu proqramın nəticələrini görür. O ki qaldı Lənkəranın gələcək inkişafına, biz çalışacağıq ki, əlavə investisiyalar qoyulsun. Dövlət tərəfindən infrastruktur layihələri davam etdiriləcək. Hələ ki, məktəb tikintisinə, təmirinə ehtiyac var, kənd yollarına vəsait qoyulacaq, şəhərdaxili yollar da gərək təmir olunsun. Mənzil fondunun bərpası məsələləri var. Yəni, hələ görüləsi işlər çoxdur. Ancaq əsas infrastruktur layihələri artıq arxada qalıb. Biz onları icra etmişik.

Biz Lənkəranın turizm potensialından da maksimum dərəcədə istifadə etməliyik. Çünki Azərbaycana gələn turistlərin sayı ildən-ilə artır, indi 2 milyondan çoxdur. Lənkəran Beynəlxalq Aeroportu da bir vasitə olacaq ki, biz xarici turistləri cəlb edək. Daxili turizm də inkişaf etməlidir. Təkcə bu məqsədlə yox, eyni zamanda, ölkəmizi gənclər daha yaxşı tanısınlar deyə, biz indi "Ölkəmizi tanıyaq" proqramını icra edirik. Müxtəlif bölgələrdən gənclər Lənkərana, Lənkərandan isə başqa zonalara səfərlər edirlər. Gələcəkdə bu, daxili turizmin inkişafına da təsir göstərəcək. Yəni, təbii sərvətlərimizdən səmərəli şəkildə istifadə edərək ölkəmizi daha da gücləndirməliyik, insanların daha da yaxşı həyatını təmin etməliyik.

Lənkəranın inkişafı daim diqqət mərkəzindədir. Bu, son 11 il ərzində mənim Lənkərana 10-cu səfərimdir. Bu, özlüyündə göstərir ki, bu bölgəyə, bu şəhərə nə qədər diqqət göstərilir. Görəndə ki, belə gözəl, müasir abidələr yaradılıb sizin qədər mən də sevinirəm. Təbrik edirəm və yeni uğurlar arzulayıram.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*11 aprel 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LƏNKƏRAN TARİX-DİYARŞÜNASLIQ MUZEYİNDƏ APARILAN YEDNİDƏNQURMA VƏ BƏRPA İŞLƏRİNDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Aprelin 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lənkəran Tarix-Diyarşünaslıq Muzeyində aparılan yenidənqurma və bərpa işlərindən sonra yaradılan şəraitlə tanış olub.

Məlumat verildi ki, hazırda Xan evi kimi tanınan bu nadir bina Lənkəran xanı Mirəhməd xan tərəfindən həyat yoldaşı Tuğra xanımın şərəfinə 1912-1913-cü illərdə inşa edilib. Bina fransız memarları tərəfindən layihələndirilib və tikinti işləri onların rəhbərliyi ilə aparılıb. Binanı xarici və yerli ustalar inşa ediblər. Tikinti materialları isə Bakıdan gəmi ilə daşınıb. Xan evinin tikintisində Şərq və Qərb memarlıq üslubundan istifadə edilib, kərpic və ağ daş materiallarına üstünlük verilib. Üçmərtəbəli bina 12 otaqdan ibarətdir. Sahəsi 812 kvadratmetr olan Xan evi 1913-cü ildə Lənkəranda ilk dəfə xüsusi elektrik qurğusu quraşdırılmaqla elektrik enerjisi ilə təmin edilib. 1978-ci ildən Xan evi Lənkəran Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyətə başlayıb. Uzun illər təmir edilmədən fəaliyyət göstərən muzey binası, tədricən aşınıb, dam örtüyü sıradan çıxıb, mərtəbələrarası örtüklər, döşəmələr, qapılar, pəncərələr keyfiyyətini itirərək yararsız vəziyyətə düşmüşdü.

Tarixi binanın əsaslı təmirinə 2013-cü ilin sentyabrından başlanılıb. Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni irsin qorunması, inkişafı və bərpası üzrə Dövlət Xidməti tərəfindən inşaat işləri yüksək səviyyədə aparılıb və bu ilin aprel ayında başa çatdırılıb.

Dövlətimizin başçısı muzeyin ekspozisiya zallarına baxdı. Ekspozisiya zallarında adı qədim yazılı mənbələrdə çəkilən Lənkəranın ərazisində tapılmış və bu diyarın tarixini, etnoqrafiyasını, maddi və mənəvi dəyərlərini, məişətini əks etdirən əşyalar, alətlər, rayonun tarixində baş vermiş mühüm hadisələri əks etdirən sənədlər toplanıb. Eksponatların tarixi ardıcıllıqla və hər biri haqqında geniş və ətraflı məlumat verilməklə nümayişi və etibarlı şəkildə qorunması üçün əlverişli şərait yaradılıb. Bina qədim olsa da burada infrastruktur tam müasir tələblərə uyğun qurulub. Yanğın təhlükəsizliyini təmin etmək üçün müasir tələblərə uyğun yanğın xəbərvermə və yanğınsöndürmə sistemləri, mərkəzləşmiş video-müşahidə qurğusu quraşdırılıb.

Diqqətə çatdırıldı ki, baş plana əsasən ərazidə qazanxana binası, transformator yarımstansiyası, generator, su anbarları və digər zəruri avadanlıqlar, həmçinin otaqlarda temperaturu sabit saxlamaq üçün döşəmə tipli havalandırma sistemi quraşdırılıb. Muzeyin ətrafında geniş abadlıq işləri görülüb, ərazinin asfalt örtüyü yenilənib.

*11 aprel 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV ASTARANIN DƏNİZKƏNARI PARK-BULVAR KOMPLEKSİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Astaranın dənizkənarı park-bulvar kompleksində yaradılan şəraitlə tanış olub.

Məlumat verildi ki, son illərdə ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi, regionların simasına yeni elementlərin əlavə edilməsi ilə müşayiət olunur. Şəhər və rayonlarımızda aparılan quruculuq işləri çərçivəsində yeni park və xiyabanların salınmasına, mövcud olanların isə yenidən qurulmasına xüsusi diqqət yetirilir. Bu sahədə görülən işlər sırasında Astarada dənizkənarı park-bulvar kompleksinin salınması mühüm əhəmiyyət kəsb edir.

Şəhərin mərkəzində yerləşən bu mədəniyyət və istirahət kompleksində yenidənqurma işləri ən yüksək səviyyədə görülüb, parkın ərazisi tamamilə yenidən qurulub. Prezident İlham Əliyevin park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən yaradılan bu dənizkənarı park-bulvar kompleksi, ilk növbədə, şəhər sakinlərinin istirahətinin yüksək səviyyədə təşkilinə xidmət edir. Müasir tələblər səviyyəsində qurulan və şəhərə xüsusi yaraşıq verən bu istirahət ocağı Azərbaycanın tərəqqisi, ölkəmizin və onun bölgələrinin inkişafını bir daha sübut edir.

Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, park-bulvar kompleksi Astara şəhərində Xəzər dənizinin sahil boyunca bir kilometr uzunluğunda olan ərazini əhatə edir. Kompleksin inşasına 2014-cü ilin mart ayında başlanıb və artıq tikinti-quraşdırma işləri başa çatdırılıb. Burada park-bulvarın sahəsi 6 hektar, çimərliyin sahəsi 2 hektardır. Park-bulvarda fəvvarə kompleksi, süni şəlalələr, yay-qış uşaq əyləncə mərkəzləri, açıq fitnes meydançası, kafe-çay evi tikilib. Bundan əlavə, ərazidə uşaq əyləncə attraksionları quraşdırılıb.

Burada dövlətimizin başçısı Astarada icrası nəzərdə tutulan sosial infrastruktur layihələrinin eskizinə baxdı.

Prezident İlham Əliyev görüləcək işlər barədə tapşırıq və tövsiyələrini verdi.

*11 aprel 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇANAQQALA ZƏFƏRİNİN 100 İLLİYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Təntənəli mərasimə 21 dövlətin başçısı, 70-dən çox ölkədən rəsmi şəxslər, beynəlxalq təşkilatların nümayəndələri qatılıblar.

Mərasim Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “Mehmetçik” abidəsinin önünə xatirə əklili qoyması ilə başladı. Britaniya taxt-tacının vəliəhdi, Uels şahzadəsi Çarlz isə abidənin önünə ittifaq dövlətləri adından çələng qoydu.

Çanaqqala savaşlarında həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra yaylım atəşləri açıldı, Türkiyə Respublikasının dövlət himninin sədaları altında türk bayrağı səmada dalğalandı.

Çanaqqala savaşlarında həlak olanların ruhuna Qurani-Kərimdən ayə oxundu.

Sonra Türkiyə Diyanət İşləri başqanı Mehmet Görmez Çanaqqalada şəhid olanların ruhuna dua oxudu, bəşəriyyətə sülh və qardaşlıq arzularını çatdırdı.

Xristian din xadimi də savaşda həlak olanların ruhuna dua etdi.

İttifaq dövlətləri adından çıxış edən Britaniya taxt-tacının vəliəhdi, Uels şahzadəsi Çarlz Çanaqqala savaşında bir çox millətlərin nümayəndələrinin iştirak etdiyini vurğuladı. 1915-ci ildə baş verən bu döyüşdə minlərlə insanın öz ailə və doğmalarını geridə qoyaraq buradakı dəhşətlərə sinə gərdiyini, saysız qəhrəmanlıq nümunələri göstərdiklərini deyən Çarlz bu savaşın tarixə alicənab savaş kimi düşdüyünü diqqətə çatdırdı. Çanaqqala döyüşünün dünya miqyasında ciddi dəyişikliklərə səbəb olduğunu deyən şahzadə Çarlz nifrəti və dözümsüzlüyü aradan qaldırmaq üçün bundan sonra da bütün insanların üzərinə ciddi vəzifələrin və məsuliyyətin düşdüyünü bildirdi.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında bildirdi ki, mərasimin keçirildiyi Gelibolu yarımadası Birinci Dünya müharibəsinin ən vacib cəbhələrindən biri olub. "Çanaqqalada yaşanan savaş türklərin və bu müharibədə iştirak edən millətlərin taleyini müəyyən etdi", - deyən Ərdoğan bildirdi: "Bizim üçün Çanaqqala zəfər rəmzidir, eyni zamanda, itkilərimiz baxımından bir hüzn ifadəsidir". Türkiyə Prezidenti bu torpaqlarda yüzlərlə gəncin gələcəyinin dəfn olunduğunu diqqətə çatdırdı. İndi dünyanın əmin-amanlığa böyük ehtiyacının olduğunu deyən Prezident Rəcəb Tayyib Ərdoğan şəhidlərin əziz xatirəsi naminə yer üzündə sülhün bərqərar olması üçün bütün dövlətlərin əllərindən gələni etmələrinin vacibliyini vurğuladı.

Çıxışında Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Uzaq diyarlardan övladlarını hərbə göndərən analar, göz yaşlarınızı dayandırın. Övladlarınız bizim bağrımızda hüzur içindədir. Onlar bu torpaqlarda canlarını verdikdən sonra artıq bizim övladlarımız olublar" sözlərini sitat gətirən Rəcəb Tayyib Ərdoğan bu torpaqlar uğrunda canını qurban verən bütün gənclərin xatirəsini bir daha ehtiramla yad etdi. Bildirdi ki, gələcək nəsillər Çanaqqalada əldə olunan müqəddəs amalları qorumalıdır. Çanaqqala dostluğun, sevginin və sülhün örnəyinə çevrilməlidir.

Sonra dünyanın müxtəlif ölkələrindən olan, fərqli dillərdə danışan uşaqlardan təşkil edilən xorun ifasında türk, fransız və ingilis dillərində "Sülhün səsli nəğməsi" oxundu.

Türkiyə Silahlı Qüvvələrinin "Mehteran" orkestri də öz çıxışlarını nümayiş etdirdi.

Daha sonra Türkiyə Silahlı Qüvvələrinin bölükləri də daxil olmaqla ittifaq dövlətlərinin hərbi birliklərinin fəxri keçidi oldu.

Dövlət başçıları Çanaqqala döyüşlərində həlak olan əsgərlərin məzarlarını ziyarət etdikdən sonra "Mehmetçik" abidəsinin önündə "Şəhidlik dəftəri"ni imzaladılar.

Mərasimin ən maraqlı anlarından biri dənizdə Türkiyə, İngiltərə, Fransa, Avstraliya və Yeni Zelandiya hərbi gəmilərinin keçidi oldu. Bunun ardınca "Türk yıldızları" səmada nümunəvi manevrlər etdilər.

Xatırladaq ki, Çanaqqala döyüşü Birinci Dünya müharibəsi dövründə Osmanlı dövləti ilə Antanta dövlətləri arasında baş verib. İttifaq üzvləri Osmanlı dövlətinin paytaxtı İstanbulu alaraq boğazları idarə etmək hüququnu özlərində saxlamaq istəyirdilər. Lakin onlar türk xalqının dəmir iradəsini sarsıda bilmədilər. Səkkiz ay davam edən və böyük itkilərin qeydə alındığı döyüşlərdə məğlub olan ittifaq dövlətləri geri çəkilmək məcburiyyətində qaldılar. Bu döyüş məhv olmaq vəziyyətindəki bir ölkənin möhtəşəm qələbəsi kimi əfsanələşdi və Çanaqqala zəfəri adı ilə tarixə düşdü. Türklər bu qanlı mübarizədə 250 mindən çox şəhid verdilər. Bir o qədər hərbçi itirən müttəfiq qüvvələr üçün isə bu döyüş hərbi fəlakət rəmzi kimi qiymətləndirilir.

Çanaqqala zəfərinin əldə olunmasında azərbaycanlılar da yaxından iştirak ediblər və üç mindən çox soydaşımız şəhidlik zirvəsinə ucalıb.

***24 aprel 2015-ci il***

## PREZİDENT İLHAM ƏLİYEV III QLOBAL BAKI FORUMUNUN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun rəsmi açılış mərasimində iştirak edib.

Misirin İsgəndəriyyə Kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail SERAGELDIN Forumu açaraq dedi:

- Zati-aliləri.

Xanımlar və cənablar sabahınız xeyir olsun.

Mən böyük şərəf hissi ilə Prezident İlham Əliyevin dəvətini qəbul edib buraya gəlmişəm.

Bugünkü görüşümüzün məqsədi yeni formalaşan dünya durumunda etimadın qurulmasına aiddir. Təbii ki, İkinci Dünya müharibəsindən sonra yaranmış vəziyyət və həmin vəziyyətdən sonrakı durum necə olmalıdır? Bizim qarşımızda problemlər var, çağırışlar mövcuddur, dövlətlər, xalqlar arasında etimad məsələləri gündəliyimizdə vacib yer tutur. Buna görə də, biz bu gün gündəlikdə duran həmin məsələləri fəal müzakirə etməliyik. Biz indi özümüz üçün müzakirələr aparmalıyıq ki, hansı yeni durum olmalıdır? Henri Kissincer əslində bu sahədə görüləcək tədbirlərin çərçivəsinin hüdudsuz olduğunu qeyd etmişdir. Biz müəyyənləşdirməliyik ki, bir siyasi sistemin digər siyasi sistemə mənfi təsirinin qarşısının alınması hansı tədbirlərə əsaslanmalıdır? Bu məsələ bu gün bizi narahat edir. Buna görə də aydınlaşdırmalıyıq ki, bu gün dünya durumunda məhz hansı yeni sərhədlər, üfüqlər açılır.

Bu gün Bakıya yüksək səviyyəli nümayəndələr, təmsilçilər təşrif gətiriblər. Bu, bizim üçün böyük şərəfdir. Biz Bakı Forumumuzu artıq illik əsaslarla keçiririk. Mən indi böyük məmnuniyyətlə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə söz vermək istəyirəm.

Dövlətimizin başçısı Forumun rəsmi açılışında nitq söylədi.

### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Sizi Azərbaycanda salamlayıram, hər birinizə "Xoş gəldiniz!" deyirəm. Çox şadam ki, bu gün biz Bakıda 60-dan çox dövlətin nümayəndələrinin iştirakı ilə belə bir vacib, mühüm tədbir təşkil etmişik. Hazırkı və keçmiş prezidentlər, baş nazirlər, siyasətçilər, dövlət və ictimai xadimlər bu gün Bakıda dünya siyasəti ilə bağlı məsələləri nəzərdən keçirəcəklər. Onların baxışları dəyərli bilikləri və təcrübələrinə əsaslanır. Düşünürəm, bu nadir fürsətdir ki, burada bu dərəcədə yüksək səviyyəli qonaqların sayəsində bizi gələcəkdə hansı işlərin, hansı çağırışların gözlədiyini və bu gün dünyanın bütün yerlərində mövcud olan gərginliyin azaldılması üçün hansı tədbirlərin görülməli olduğunu müzakirə edək.

Olduqca məmnunam və fəxr edirəm ki, qısa bir zaman kəsiyində çox mühüm beynəlxalq təsisata çevrilmiş bu Mərkəz dahi azərbaycanlı Nizami Gəncəvinin adını daşıyır. Nizami ilə fəxr etməyən azərbaycanlı tapmaq çox çətindir və mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri - xanım Prezident Vayra Vike-Freyberqaya və cənab Serageldinə dünya səviyyəli beynəlxalq təsisatın yaradılması ilə bağlı diqqətəlayiq fəaliyyətləri və töhfələrinə görə minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi gələcəkdə dünya siyasətinin mühüm məsələlərinə müraciət

edəcək və irəli getmək yollarının müəyyənləşdirilməsində, gərginliyin azaldılmasında, əməkdaşlıq və qarşılıqlı anlaşma mühitinin yaradılmasında daha da vacib rol oynayacaq.

Eyni zamanda, şadam ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi vaxtaşırı tədbirlərini Azərbaycanın qədim şəhəri və Nizaminin vətəni olan Gəncədə təşkil edir. Mərkəz əsasən humanitar məsələlərlə məşğul olan təsisatdan bu gün dünya siyasətinə aid bütün məsələləri – iqtisadi inkişafla, sosial problemlərlə, münaqişələrin həlli ilə bağlı məsələləri müzakirə edən bir təşkilata çevrilmişdir. Əlbəttə, humanitar aspekt də burada vacib rol oynayır.

Əsrlər boyu Azərbaycan sivilizasiyaların bir araya gəldiyi məkan olmuşdur. Bizim coğrafi yerləşməmiz və xalqımızın tarixi irsi Azərbaycanda xüsusi ab-hava yaratmışdır. Azərbaycan Avropa və Asiya arasında təbii coğrafi körpüdür. Əminəm ki, Azərbaycan hazırda Avropa ilə müsəlman dünyası arasında mədəni və siyasi körpü rolunu oynayır. Bizim cəmiyyətdə multikulturalizm ənənələri dərin köklərə malikdir. Siyasi quruluşdan asılı olmayaraq, Azərbaycanda müxtəlif millətlərin, dinlərin və etnik azlıqların nümayəndələri hər zaman sülh və ləyaqət şəraitində yaşamışlar. Müstəqil olandan sonra Azərbaycan bu səbəbdən dünya multilkulturalizm mərkəzlərindən birinə çevrilmişdir. Gələn ay biz III Beynəlxalq Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi edəcəyik.

Biz hər il Beynəlxalq Humanitar Forum təşkil edirik. Bu tədbir əsasən sülh şəraitində birgə yaşayış, etimadın artırılması və dünyada müxtəlif dövlətlər arasında mövcud olan gərginliyin azaldılması məsələlərini müzakirə edir. Ancaq böyük tarix və mədəniyyətimizə baxmayaraq, Azərbaycan 20 ildən bir qədər çoxdur ki, müstəqildir və bu illər diqqətəlayiq transformasiya illəri olmuşdur.

Bugünkü nailiyyətlərimiz aydın nümayiş etdirir ki, yalnız müstəqil olduğumuz illərdə bizim insanlar böyük uğur əldə edə bilər, öz gələcəyini müəyyən edə bilər, planlar qura bilər və dünyadakı mövqelərini müəyyən etməklə böyük iqtisadi transformasiya və uğura nail ola bilər.

Bəli, Azərbaycan hər zaman enerji resursları ilə zəngin ölkə olmuşdur. Ancaq, eyni zamanda, xatırlayırıq ki, Azərbaycan müstəqil olmayan dövrdə biz bu resursların bəhrəsini görə bilmirdik. XX əsrin əvvəlində Azərbaycan bütün dünyada hasil olunan neftin yarısından çoxunu istehsal edirdi. Siz o vaxtkı mənzərəyə baxsanız çiçəklənmə, bərabərlik və sosial firavanlıq görə bilməzsiniz. Sovet dövründə, xüsusilə də İkinci Dünya müharibəsi zamanı Azərbaycan nefti faşizmlə mübarizədə çox mühüm rol oynamışdır. Sovet İttifaqının neftinin 70 faizini Azərbaycan təmin etmişdir. Lakin müstəqil olandan sonra biz ekoloji fəlakət, neft sənayesinin dağılması, iqtisadi və sənaye tənəzzülü ilə üzləşdik. Yəni, çox qısa bir zamanda - yalnız taleyimiz öz əlimizdə olanda biz uğura nail ola bilmişik. Bu çox çətin dövr idi, çünki biz yalnız dövlət və dövlətçiliyin əsaslarını yaratmaqla kifayətlənməli deyildik. Biz, eyni zamanda, bütün sistemi transformasiya etməli idik – həm siyasi, həm də iqtisadi. Biz planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına, təkpartiyalı sistemdən çoxpartiyalı sistemə, totalitarizmdən demokratiyaya keçməli idik.

Düşünürəm ki, siyasi və iqtisadi islahatların paralel aparılması, sürətli transformasiya, sabitlik proqnozlaşdırıla bilən iqtisadi və sosial inkişafı təmin etmişdir. Bu gün Azərbaycan bütün azadlıqlardan faydalanır, bizim cəmiyyət azaddır, bizdə bütün azadlıqlar təmin edilir - media azadlığı, azad, senzurasız internet, ifadə və toplaşma azadlığı, din azadlığı var. Siyasi transformasiya davam edir. Biz bundan sonra da hüquq sistemimizin təkmilləşdirilməsi üzərində çalışmalıyıq. Çünki ədalət - cəmiyyətdə ədalət, ailədə ədalət və ümumiyyətlə, hər yerdə ədalət istənilən cəmiyyətin normal inkişafı və sabitliyi üçün ən əsas elementlərdəndir. Həmçinin Azərbaycan özünün dünya xəritəsindəki yerini müəyyən edə bilmişdir. Bizim ölkəmiz həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Biz dünyada çox az sayda dövlətlərdənik ki, hər iki təsisatın üzvüyük.

Azərbaycanın bu təşkilatlarda güclü mövqeyi var və biz fərqli tarixə, ənənəyə və mədəniyyətə sahib olan ölkələri daha da yaxınlaşdırmaqda mühüm rol oynayırıq. Azərbaycan həm də Qoşulmama Hərəkatının üzvüdür. Bu da bizim prioritetlərimizin göstəricisidir. Biz bir neçə il əvvəl 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilməyimizlə fəxr edirik. Bu da aydın göstərir ki, beynəlxalq ictimaiyyətin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir, Azərbaycana etibar edir və belə bir vacib səsvermə prosesində öz mövqeyini ifadə edir.

Dünyanın ən aparıcı beynəlxalq qurumu olan BMT Təhlükəsizlik Şurasına üzv seçiləndə biz aydın şəkildə bildirdik ki, ədaləti və beynəlxalq hüququ müdafiə edəcəyik. Təəssüf ki, beynəlxalq hüquq artıq heç də bütün dövlətlər tərəfindən hörmət olunan məfhum deyil. Bir daha təəssüf edirəm ki, artıq bu, reallıqdır. Belə bir təsəvvür yaranır ki, beynəlxalq hüquq yalnız kifayət qədər güclü olmayan ölkələrə mütləq şamil edilir və onlar digər vasitələrlə məqsədlərinə nail ola bilmirlər. Biz bunu aydın görürük ki, ara-sıra dünyanın aparıcı dövlətləri beynəlxalq hüquq normalarını kobud şəkildə pozur və bu da müharibədən sonrakı beynəlxalq münasibətlər sisteminin bütün konstruksiyasına xələl gətirir.

Düşünürəm ki, bu, bizim çox açıq və aydın şəkildə müzakirə etməli olduğumuz bir məsələdir. Biz imkanlarımızdan, intellektual potensialımızdan və beynəlxalq nüfuzumuzdan istifadə etməyə çalışmalıyıq ki, bu gün mövcud olan beynəlxalq münasibətlər sistemini gücləndirə bilək. Beynəlxalq hüquqa hörmət etməliyik. Beynəlxalq təşkilatların qətnamələrinə hörmətlə yanaşmalıyıq. Çünki bəzi hallarda qətnamələr dərhal icra olunur, - mən BMT Təhlükəsizlik Şurasının qətnamələrini nəzərdə tuturam,- digər hallarda isə onlar illər, onilliklər boyu icra edilmir.

O zaman, beynəlxalq hüquq, siyasi maraqlar və siyasi prioritetlər arasında ziddiyyət yaranır. Bu isə məyusluğa gətirib çıxarır. Belə bir vəziyyətin yaranmasına səbəb olur ki, ikili standartlar istisna deyil, bir qaydaya çevrilir. Bir ölkə olaraq biz bunun nə qədər ağrılı olduğunu yaxşı bilirik, çünki biz ikili standartlardan, beynəlxalq hüququn kobud şəkildə pozulmasından əziyyət çəkirik.

Bildiyiniz kimi, Azərbaycanın tarixi və beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən işğalı uzun illərdir ki, davam edir. Baxmayaraq, BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir ki, onlar Ermənistan qoşunlarının Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Dağlıq Qarabağ Azərbaycanın tarixi, ayrılmaz parçasıdır və dünyanın heç bir ölkəsi "Dağlıq Qarabağ Respublikası" adlanan bu qanunsuz qurumu müstəqil olaraq tanımamışdır.

Biz işğaldan əziyyət çəkirik. Bizim ərazimizin 20 faizdən artıq hissəsi hələ də işğal altındadır və bir milyondan artıq azərbaycanlı öz torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Biz etnik təmizləmədən əziyyət çəkmişik, bizə qarşı Xocalı soyqırımı törədilib və bu soyqırımı artıq dünyanın 10 ölkəsi tərəfindən tanınıb və həmin proses davam edir.

Ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipidir. Bu, BMT Nizamnaməsində əks olunub, bu, Helsinki Yekun Aktında da beynəlxalq hüququn fundamental prinsipi kimi təsbit edilib. Burada heç bir ziddiyyət olmamalıdır və aydın başa düşülməlidir ki, müqəddəratın müəyyən edilməsi hüququ dövlətlərin ərazi bütövlüyünü pozmamalıdır və istənilən dövlətin ərazi bütövlüyü ölkənin hökuməti və xalqının razılığı olmadan dəyişdirilə bilməz. Azərbaycanın ərazi bütövlüyü digər dövlətlərin ərazi bütövlüyü qədər dəyərlidir. Təəssüflər ki, dünyanın müxtəlif yerlərində aqressiv separatçılıq parçalanma siyasətini həyata keçirməyə çalışır. Ərazi bütövlüyünün pozulması münaqişələrin yaranmasına səbəb olur və Dağlıq Qarabağ münaqişəsi bu vaxta qədər həll edilsə idi, bəlkə də digər münaqişələrin şahidi olmazdıq.

Azərbaycan bu münaqişənin beynəlxalq hüquq normaları və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsasən, sülh yolu ilə həll edilməsinə olduqca sadiqdir. Yeri gəlmişkən, digər vacib beynəlxalq təsisatlar – Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı buna bənzər qətnamələr qəbul etmişdir ki, münaqişə beynəlxalq hüquq prinsipləri və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Əlbəttə, bu, bizim ölkəmiz üçün ən böyük problem, inkişafımız üçün ən böyük maneədir. Lakin buna baxmayaraq, Azərbaycanın inkişafı çox uğurlu olmuşdur və son on il ərzində bizim iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Biz iqtisadiyyatımızın şaxələndirilməsi və enerji sektorundan asılılığı azaltmağa müvəffəq olmuşuq. Bu gün enerji sektoru ümumi daxili məhsulun təqribən 30 faizini təşkil edir. Beləliklə, şaxələndirmə siyasəti böyük tərəqqiyə səbəb olmuşdur və hətta bu gün neftin qiymətinin aşağı düşdüyü bir vaxtda, ilin birinci rübündə Azərbaycan iqtisadiyyatı 5 faizdən çox artmışdır.

Biz şaxələndirmə siyasəti, sərmayələr və müasir infrastrukturun, əlverişli işgüzar mühitin yaradılması sayəsində özümüzü neftin qiymətinin qeyri-sabitliyindən qoruya bilmişik. Azərbaycan xarici sərmayələr üçün açıq ölkədir. Müstəqillik illəri ərzində Azərbaycana 200 milyard ABŞ dollarından çox xarici sərmayə yatırılmışdır. Ötən il 27 milyard, yəni, 30 faiz birbaşa xarici sərmayə qoyulmuşdur. Beləliklə, Azərbaycan xarici investorlar üçün cəlbedici ölkədir. Çünki bizdə çox yaxşı işgüzar və sərmayə mühiti var. Davos Dünya İqtisadi Forumunun qiymətləndirilməsinə görə, rəqabət qabiliyyəti baxımından Azərbaycan iqtisadiyyatı 38-ci yerdədir.

Yəni, bir daha qeyd edirəm ki, bu, enerji resursları sayəsində deyil, islahatlar və son illər ərzində görülən işlər nəticəsində mümkün olmuşdur. Biz demək olar ki, işsizliyi tam aradan qaldıra bilmişik və hazırda bu göstərici 5 faizdən azdır. Yoxsulluq kəskin şəkildə azalaraq, 2003-cü ildə 49 faiz olduğu halda, 2013-cü ildə 5 faizə enmişdir. Hesab edirəm ki, iqtisadi və siyasi islahatlar, eyni zamanda, çox fəal sosial siyasət və insanların sosial müdafiəsi, enerji sektorunun inkişafından əldə edilən gəlirlərin toplanması, dövlət vəsaitinin xərclənməsində şəffaflıq bizim inkişafımız üçün, həmçinin vacib rol oynamışdır.

Növbəti illərdə biz daha çox saxələndirməyə diqqət yetirməliyik və bizim hökumətimizin diqqət yönəltdiyi sahələr müasir texnologiya və kənd təsərrüfatıdır. Azərbaycan artıq kosmik sənayeyə malik ölkədir, bizim iki peykimiz var və kosmik sənayenin sürətli inkişafı bizim planlarımızın göstəricisidir. Çünki əhalimiz artır, iqtisadiyyatımız da artmaqdadır. İqtisadiyyat əhalinin artımından daha sürətlə inkişaf etməlidir. Əks təqdirdə, müəyyən mərhələdə biz çətinliklərlə üzləşə bilərik. Bu səbəbdən islahatlar davam etməlidir. Biz heç zaman özümüzü arxayın hiss etməməliyik. Biz çox çalışmalıyıq, dövlətçiliyimizi və müstəqilliyimizi gücləndirməliyik. İqtisadi müstəqillik bizə müstəqil xarici siyasət yürütmək imkanı verir. Zəif və asılı olduqda, sən təsir altına düşürsən, fərq etməz kimdən, ancaq yenə də təsir altına düşürsən.

Güclü iqtisadiyyat qurmaqla biz özümüzü istənilən xarici təsirdən qorumuş olduq. Biz istədiyimiz kimi yaşamaq istəyirik. Əsrlər boyu Azərbaycan imperiyaların, digər dövlətlərin tərkibində olub. Bu gün biz azadıq və bizim insanlar müstəqillikdən həzz alır və onun üstünlüklərini görürlər. Biz öz seçimimizi müdafiə etməliyik və seçimimizi müdafiə edəcəyik. Bizim seçimimiz demokratiya, sosial firavanlıqdır. Bizim seçimimiz Azərbaycan xalqı daxilində sülhdür, multikulturalizm, dinlərarası dialoq, dünyanın bütün ölkələri ilə əməkdaşlıq, habelə regional və hamımız üçün faydalı qitə əhəmiyyətli layihələrin həyata keçirilməsidir.

Enerji təhlükəsizliyinə gəldikdə, enerji təminatının şaxələndirilməsində Azərbaycan öz vacib rolunu oynayır. 20 il ərzində biz elə bir neft strategiyası yürütmüşük ki, onun

sayəsində regionda yeni enerji xəritəsi yaranmışdır. Biz bir neçə neft boru kəməri vasitəsilə Xəzər dənizini Qara və Aralıq dənizləri ilə birləşdirə bilmişik və bu gün Xəzər dənizinin nefti - təkcə Azərbaycanın resursları deyil, Xəzərin şərq sahillərinin nefti də beynəlxalq bazarlara məhz Azərbaycan vasitəsilə nəql edilir.

Hazırda biz Avropanın ən iri infrastruktur layihəsini həyata keçiririk. Azərbaycan burada da təşəbbüs irəli sürmüş və aparıcı rol oynamağa başlamışdır. Bu layihə "Cənub" Qaz Dəhlizi adlanır və o, 4 hissədən ibarətdir. Birincisi, dünyanın ən böyük qaz yataqlarından olan "Şahdəniz" yatağının işlənilməsi, növbəti mərhələ Azərbaycan və Gürcüstanı birləşdirən boru kəmərləri sisteminin inşasını nəzərdə tutan Cənubi Qafqaz Boru Kəməri, Trans-Anadolu Boru Kəməridir ki, onun inşası nəzərdə tutulmuşdur. Hazırda artıq bütün Türkiyə ərazisində - ölkənin şərq sərhədindən qərb sərhədinədək tikinti işləri başlayıb və Trans-Adriatik Boru Kəməri – TAP-dır ki, Türkiyə-Yunanıstan sərhədindən başlayaraq inşa ediləcək və Albaniya ərazisindən İtaliyaya uzanacaq.

Bundan əlavə, Bolqarıstan da bizim enerji siyasətimizin bir hissəsidir. Biz görürük ki, Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli formatı daha böyük formata çevrilmişdir. Əminəm ki, qarşıdan gələn illərdə Balkan ölkələri bizim boru kəmərləri sistemimizə qoşulacaq, xüsusilə nəzərə alsaq ki, hazırda Avropada əlaqələndirici kəmərlər inşa edilir. Biz bunu tam dəstəkləyirik, çünki Azərbaycan nəhəng qaz ehtiyatlarına və tikilməkdə olan infrastruktura malikdir. Bizim planlarımıza görə, 2018-2020-ci illərdə mənim adını çəkdiyim bütün bu layihələr yekunlaşmalıdır. Bu, 45 milyard dollarlıq sərmayədir, texniki baxımdan olduqca mürəkkəbdir. Əlbəttə, bizim geniş əlaqələndirməyə və əməkdaşlığa ehtiyacımız var. Bu məqsədlə Azərbaycan "Cənub" Qaz Dəhlizinin Məşvərət Şurasını təsis etmiş və cari ilin fevral ayında onun ilk iclasını keçirmişdir.

Həmin iclas mənim sadaladığım ölkələrin, eləcə də Birləşmiş Ştatlar və Avropa Komissiyasının yüksək rütbəli nümayəndələrinə bu məsələni müzakirə etmək imkanını yaratdı. Biz mətbuat üçün birgə bəyanat da qəbul etdik ki, orada Azərbaycanın aparıcı rolu aydın şəkildə müəyyən edilmişdir. Bu, bizim Avropa İttifaqı ilə əməkdaşlığımızın bir hissəsidir, ancaq əməkdaşlığımız bununla bitmir. Bununla yanaşı, biz anlayırıq ki, Avropa İttifaqı üçün enerjinin şaxələndirilməsi deyərdim, milli təhlükəsizlik məsələsidir və biz həmin məsələyə məhz bu şəkildə yanaşmalıyıq. Enerji təhlükəsizliyi milli təhlükəsizlikdən ayrıla bilməz. Daha bir vacib məsələ mənbələrin şaxələndirilməsidir. Marşrutların şaxələndirilməsi də vacibdir. Ancaq mənbə eynidirsə, şaxələndirilmənin heç bir mənası yoxdur. Bizim halda, söhbət mənbələrin şaxələndirilməsindən gedir və Avropa üçün yeganə yeni qaz mənbəyi Azərbaycandır. Əlbəttə, mən demək istəmirəm ki, digər mənbələr əhəmiyyətli deyil və biz heç kimlə rəqabət aparmağa çalışmırıq. Lakin digər mənbələr artıq istifadə olunur və yeganə yeni mənbə Xəzərdir, Azərbaycandır. Hesab edirəm ki, biz burada vacib rol oynayırıq və bu, davam edəcəkdir.

Bununla yanaşı, bizim Avropa İttifaqı ilə əməkdaşlıq formatımız mövcuddur və gələn ay Riqada "Şərq Tərəfdaşlığı"nın növbəti Zirvə toplantısı keçiriləcəkdir. Azərbaycan bu proqramın fəal iştirakçısıdır və demək istərdim ki, biz, eyni zamanda, Avropa İttifaqının üzv dövlətləri ilə ikitərəfli əlaqələrimizi gücləndiririk. Bu günədək Azərbaycan artıq ittifaqın 7 ölkəsi ilə Strateji Tərəfdaşlığa dair saziş imzalamış və ya birgə bəyanat qəbul etmişdir. Bu, Avropa İttifaqı üzvlərinin dörddəbiridir və düşünürəm ki, növbəti illərdə Avropa İttifaqı tərəfindən "Şərq Tərəfdaşlığı" Proqramına üzv olan dövlətlərə qarşı daha da fərqləndirilmiş yanaşma olmalıdır. Çünki bunlar fərqli ölkələrdir, fərqli hədəflərə və fərqli iqtisadi inkişafa malik dövlətlərdir. Bu səbəbdən bizim üçün ən münasib format strateji tərəfdaşlıqdır. O, bizim münasibətlərimizin mahiyyətini və gələcəyini əks etdirəcəkdir.

Yekunda bizim üçün prioritet olan məsələ ilə bağlı bir neçə söz demək istərdim, bu da təhsildir. Təhsil bilikdir, təhsil gələcəkdir, bizim üçün təhsil müasirləşmə deməkdir. Bizim bəxtimiz gətirib ki, Azərbaycanda savadlılığın səviyyəsi 100 faizə bərabərdir. Hökumətimiz ildə 40 milyon avroya yaxın vəsait xərcləyir ki, bizim gənclər dünyanın aparıcı universitetlərində təhsil alsınlar. Təhsil həm də, radikallaşmadan müdafiədir. Bu da bu regionda yerləşən ölkə üçün çox vacibdir. Radikallaşmadan müdafiə əlbəttə ki, cəmiyyətdə sabitlik və ədalət, habelə onun iqtisadi inkişafı, yoxsulluğun və işsizliyin aradan qaldırılması deməkdir. Çünki radikallar yoxsulluq, işsizlik, sosial və siyasi ədalətsizlikdən istifadə edirlər. Radikallar bu vasitələrdən istifadə edərək gənclərin beyinlərini korlayırlar və özlərinin məqsədlərinə nail olmaq üçün onları öz sıralarına cəlb edirlər.

Bu səbəbdən bizim üçün təhsil radikallaşmadan müdafiə, müasirləşmə və inkişaf deməkdir. Biz Azərbaycanı məhz belə görmək istəyirik və Azərbaycanın hansı şəkildə inkişaf etməli olması ilə bağlı cəmiyyətimizdə tam konsensus var. Bizim inkişaf yolumuz azadlıq, demokratiya, iqtisadi və sosial tərəqqi, bütün tərəfdaşlarımızla yaxşı münasibətlər yoludur ki, müstəqilliyimizi gücləndirək və seçimimizi qoruya bilək.

Əziz dostlar, sizi bir daha Azərbaycanda salamlayıram və Foruma uğurlar diləyirəm.

* * *

Xatırladaq ki, üçüncü dəfə Bakıda keçirilən Foruma Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, Madrid Klubu və Roma Klubunun üzvü olan sabiq dövlət və hökumət rəhbərləri, tanınmış ictimai və siyasi xadimlərdən ibarət 200-ə yaxın nümayəndə qatılıb. Aprelin 30-dək davam edəcək tədbirdə nüfuzlu siyasi liderlər qloballaşmanın geniş vüsət aldığı bir dövrdə dünyanı narahat edən məsələlər - etnik və digər zəmində baş verən münaqişələr, terror təhdidləri, demokratiyanın inkişafı, təhsil, ekologiya və digər sahələrdə mövcud problemləri geniş müzakirə edəcək, onların aradan qaldırılması istiqamətində qarşıda duran mühüm vəzifələrlə bağlı fikir mübadiləsi aparacaqlar.

*28 aprel 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV III QLOBAL BAKI FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLƏN ZİYAFƏTDƏ İŞTİRAK ETMİŞDİR

Prezident İlham Əliyevin, xanımı Mehriban Əliyevanın və qızı Arzu Əliyevanın iştirak etdikləri ziyafətdə Bolqarıstanın və Makedoniyanın dövlət başçıları, Maltanın Baş naziri, bir sıra ölkələrin sabiq liderləri, dünya siyasətində əhəmiyyətli rol oynamış ictimai-siyasi xadimlər, ekspertlər və mütəxəssislər iştirak ediblər.

Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa mərasimdə çıxış etdi.

Sonra dövlətimizin başçısı çıxış etdi.

### PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Əvvəlcə xanım həmsədr Vike-Freyberqaya ölkəmiz, bizim etməyə çalışdığımız işlər, nisbətən qısa müddətdə əldə edə bildiklərimiz haqqında xoş sözlərinə görə təşəkkürü-

mü ifadə etmək istəyirəm. Həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin məşhur siyasətçilərin, dövlət və ictimai xadimlərin, hakimiyyətdə olan, o cümlədən sabiq dövlət və hökumət başçılarının iştirak etdiyi belə bir mötəbər tədbiri qısa vaxtda təşkil etmək iqtidarında olan dünya səviyyəli beynəlxalq təsisata çevrilməsi işində möhtəşəm nailiyyətlərinə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu, dünyada nadir bir hadisədir. Biz prezidentlər olaraq bir çox beynəlxalq tədbirlərdə iştirak etmişik. Hesab edirəm ki, Bakı Forumunun dünyanın siyasi xəritəsində məxsusi yeri var. Bu Forum intellektualların, təcrübəli siyasətçilərin, öz ölkələrinə və xalqlarına ləyaqətlə xidmət etmiş və xidmət etməkdə olan insanların, təcrübəyə və biliyə malik insanların toplantısıdır.

Bu gün sürətlə dəyişən dünyada bəzən hadisələrə qısa müddət ərzində tez reaksiya vermək tələb olunduqda mütəxəssis biliyi, biliklər, reallıqların dərk edilməsi bəlkə də heç vaxt olmadığı kimi bir zərurətə çevrilib. Bakıda ötəndəfəki görüşümüzdən bəri baxın görün, dünyada nə qədər hadisələr baş verib. Bu hadisələrin əksəriyyəti yumşaq desək, narahatlıq doğurur. Bu hadisələrin əksəriyyəti gərginliyin artmasına, toqquşmalara, qan tökülməsinə, insan hüquqlarının tapdalanmasına, beynəlxalq səviyyədə tanınan sərhədlərin pozulmasına gətirib çıxarır. Bu, çox məyusedicidir. Belə ki, biz dünyanın heç də istəmədiyimiz istiqamətdə irəlilədiyini müşahidə edirik. Dünyanın müxtəlif yerlərində qarşıdurmalar, yeni toqquşma əraziləri və müharibələri görürük. Beləliklə, buradakı müzakirələr, açıq müzakirələr, planetimizin inkişafı üçün mühüm qərarlar verən şəxslərə tövsiyələr çox dəyərli və əhəmiyyətlidir.

Mən xanım həmsədrə və doktor Serageldinə onların möhtəşəm fəaliyyətinə və töhfəsinə görə təşəkkürümü ifadə etmək istəyirəm. Bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzi çox mötəbər və əhəmiyyətli beynəlxalq təsisatdır.

Mən burada bütün həmkarlarımı və dostlarımı da salamlamaq istəyirəm. Bu gün aramızda olan insanların çoxu ilə biz prezident olaraq sıx çalışmışıq. Mən Bakıdakı, təmsil etdiyiniz ölkələrdəki görüşləri xatırlayıram. Biz bir yerdə olanda aramızda çox səmimi və dostluq münasibətləri formalaşmışdır. İndi isə sizlərin artıq ayrı statusda olduğunuz, mənim isə əvvəlki statusda olduğum halda biz hələ də bu dostluq münasibətlərimizi davam etdiririk və mən sizi bu gün Bakıda görməyimə çox şadam.

Bakı həqiqətən də müxtəlif növ tədbirlərin keçiriləcəyi bir məkana çevrilir. Ənənəvi xarakter daşıyan Mədəniyyətlərarası Dialoq Forumu may ayında Bakıda üçüncü dəfə keçiriləcək. Mədəni müxtəliflik və multikulturalizm məsələlərinin müzakirə olunduğu Humanitar Forum bu ilin payızında beşinci dəfə keçiriləcək. Nizami Gəncəvi Forumunun artıq dünya xəritəsində öz yeri var. Həmçinin iqtisadi gündəmə aid tədbirlər keçirilir. Əlbəttə ki, bu gün enerji və təhlükəsizlik məsələləri müəyyən dərəcədə Bakıdan ünvanlanır. Bakıda qəbul edilən qərarlar qitəmizin gələcək enerji siyasətinə və enerji təhlükəsizliyinə ciddi şəkildə təsir göstərir.

Bu il iki aydan da az müddət sonra biz ilk Avropa Oyunlarına ev sahibliyi edəcəyik. Hələ iki gün əvvəl Oyunların məşəlinin alovlandırılması ilə bağlı möhtəşəm bir mərasim təşkil edilmişdi. Xoşbəxtlikdən, bizim məşəli alovlandırmaq üçün də yerimiz var. Azərbaycan sivilizasiyaların və müxtəlif dinlərin mövcud olduğu qədim məkandır. Azərbaycanın tarixi abidələrindən biri olan Atəşgah alov–zərdüştlük məbədidir. Mərasim orada təşkil olundu və məşəlin bütün ölkə miqyasında səyahətinə start verildi. İki il sonra - 2017-ci ildə biz bütün müsəlman ölkələrindən idmançıların dəvət ediləcəyi İslam Həmrəylik Oyunlarına ev sahibliyi edəcəyik. Beləliklə, iki il müddətində, Bakıda, bir şəhərdə Avropa Oyunları və İslam Həmrəylik Oyunları keçiriləcək. Bu da Azərbaycanın əsl mahiyyətidir. Bu, bizim tariximiz, mədəniyyətimiz, ənənələrimizdir. Bizim dərin ənənəvi köklərimiz var. Biz müsəlman dünyasının bir hissəsiyik, eyni zamanda, bizim üzərimizdə həmişə güclü Avropa təsiri olub. Bu gün bizim siyasətimizə

və fəaliyyətimizə nəzər yetirsəniz görəcəksiziniz ki, bizim xarici siyasətimizin prioritetlərindən biri də Avropa ilə yaxından əməkdaşlıq etməkdir. Azərbaycan Sülh Tərəfdaşlıq Formatının bir üzvü kimi bu əlaqələrin inkişafına da töhfə verir.

Bu gün qonaqlarımız arasında Avropa, Asiya, Latin Amerikası və müsəlman ölkələrindən məşhur siyasətçilər, dövlət xadimləri var. Bizim hamımızı sülh, əməkdaşlıq, yəqinlik, ləyaqət, insan hüquqları və demokratiya ideyaları birləşdirir. Bunlar bizi birləşdirir. Bir çox ölkələrin nümayəndələrinin bu gün Bakıda bizimlə olması çox sevindirici və qürurverici haldır. Biz əməkdaşlığa, inkişafa töhfə vermək və bütün tərəflərə bir daha hamımızın sülh və əməkdaşlıq içində yaşamağın, bir-birimizlə mübarizə aparmamağın, bir-birimizə hücum etməməyin və zorakılığa son qoymağın gərək olduğunu bildirən ismarıcı göndərmək üçün işimizin öhdəsindən gəlirik. Çünki təəssüflər olsun ki, zorakılıq artmaqdadır. Azərbaycan sabit inkişafa malik olan ölkədir. Azərbaycan müasir və gənc ölkədir, lakin eyni zamanda, iqtisadi və siyasi cəhətdən müəyyən vəsaitlərə və potensiala malikdir. Biz sülh, əməkdaşlıq və inkişafı gücləndirmək üçün öz səylərimizdən, potensialımızdan istifadə edirik.

Fürsətdən istifadə edərək sizi Avropa Oyunlarının açılış mərasiminə dəvət etmək istəyirəm. Oyunlar Avropada ilk dəfə keçiriləcək, bu da bir az qəribədir. Belə ki, Olimpiya Oyunları Avropada, Yunanıstanda başlayıb və Baron de Kuberten tərəfindən Avropada bərpa olunmasına baxmayaraq, Avropanın heç zaman öz oyunları olmayıb. Avropa Olimpiya Komitəsi tərəfindən bu Oyunların müsəlman əhalisi olan bir ölkədə - Azərbaycanda təşkil edilməsi qərarı müasir tarixin ən müdrik qərarlarındandır. Bu, tolerantlığın, əməkdaşlığın və bizə hörmətin göstəricisidir. Biz də qonaqlarımızın iyun ayının xoş günlərində Bakıda özlərini rahat hiss etmələri üçün əlimizdən gələni edirik.

Bir daha xoş gəlmisiniz! Mən sizə və ölkələrinizə ən xoş arzularımı çatdırıram!

*28 aprel 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV BAKI KONQRES MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Arzu Əliyeva açılışda iştirak ediblər.

Maliyyə naziri Samir Şərifov Mərkəzdə görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Heydər Əliyev Mərkəzinin yaxınlığında yüksək zövqlə inşa olunan bu Mərkəzin tikintisinə 2014-cü ilin fevralında başlanıb. Mərkəzin ümumi sahəsi 6,2 hektar, tikintialtı sahəsi isə 46,6 min kvadratmetrdir. Ətrafda geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb. Bina bütün zəruri infrastrukturla təmin olunub.

Prezident İlham Əliyev Bakı Konqres Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.

Binanın foyesində 405 kvadratmetrlik monitor quraşdırılıb. Bu, dünyada qapalı məkanda quraşdırılan ən böyük və ən çox pikselli monitordur. Ümumilikdə isə binada müxtəlif ölçülü 50-dən artıq monitor quraşdırılıb. Mərkəzdə 17 konfrans zalı yaradılıb. Onların ümumi tutumu 2500 nəfərdən çoxdur. Konfrans zallarında yaradılan şərait onların tutumunu tədbirə qatılan qonaqların sayına uyğun olaraq dəyişdirməyə imkan verir. Məsələn, konfrans zallarının tamaşaçı tutumunu təşkilatçının istəyinə uyğun olaraq 50 nəfərdən 250 nəfərədək dəyişmək mümkündür. Bina bütün zəruri kommunikasiya, o cümlədən havalandırma sistemləri ilə təchiz olunub. Burada restoran, inzibati və digər otaqlar da var. Mərkəzdə canlı yayım aparmaq üçün də müasir şərait yaradılıb. Burada qonaqlara eskalatorlar və 16 lift xidmət göstərəcək.

Bakı Konqres Mərkəzinin auditoriya zalı da ən müasir səviyyədə yaradılıb. Zal 3500 yerlikdir. Burada müasir texnologiyanın ən son yeniliklərinin tətbiq olunduğu avadanlıq quraşdırılıb. Zalın akustika sistemi dünyanın aparıcı şirkətlərinin məhsuludur. Buranın işıqlandırılmasında müasir texnologiyadan istifadə edilib.

Ölkəmizdə hökm sürən siyasi-iqtisadi sabitlik, bütün sahələrin davamlı inkişafı və yaradılan şərait artıq Azərbaycanı mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevirib. Bu gün ölkəmizdə siyasət, iqtisadiyyat, mədəniyyət, idman, ümumilikdə bütün sahələrə aid region, qitə və dünya əhəmiyyətli mötəbər tədbirlər təşkil olunur. Belə bir Mərkəzin istifadəyə verilməsi ölkəmizin beynəlxalq tədbirləri daha da yüksək səviyyədə keçirməsi üçün geniş imkanlar yaradır.

Bildirildi ki, bu Mərkəzdə ilk beynəlxalq tədbir mayın 2-dən 5-dək Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci İllik Toplantısı olacaq. Bu mötəbər tədbir Cənubi Qafqaz regionunda ilk dəfə məhz Azərbaycanda keçiriləcək. Toplantıda 3 minə yaxın iştirakçının, o cümlədən üzv ölkələrin maliyyə nazirləri və digər hökumət rəsmilərinin, habelə mərkəzi bank rəhbərləri ilə yanaşı, özəl sektor, beynəlxalq maliyyə institutları və vətəndaş cəmiyyəti nümayəndələrinin, eləcə də tanınmış alimlərin və ekspertlərin iştirakı nəzərdə tutulur. Belə bir mühüm tədbirin ölkəmizdə baş tutması Azərbaycanın bu sahədəki təcrübəsi, Bakıda yaradılmış yüksək standartlara uyğun infrastruktur, tranzit və logistika sahəsində ölkəmizin əlverişli imkanları ilə yanaşı, Bakı Konqres Mərkəzi kimi memarlıq nümunələrinin inşa olunması ilə də sıx bağlıdır.

Bu möhtəşəm bina inşa olunduğu əraziyə də gözəllik verir, Heydər Əliyev Mərkəzinin yerləşdiyi məkanın füsunkarlığını daha da artırır. Orijinal üslubda tikilən Mərkəz ümumilikdə, paytaxtda aparılan abadlıq-quruculuq işlərinin davamlı olduğunu bir daha təsdiqləyir.

*29 aprel 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA "İNTURİST" OTELİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı otelin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyevə otel barədə ətraflı məlumat verildi. Qeyd edildi ki, beşulduzlu bu otel "Absheron Hotel Group"a aiddir. Yeni otel vaxtilə Bakıdakı "İnturist" mehmanxanasının arxitektura üslubunda inşa edilib. Bu mehmanxana nəinki Azərbaycanda, eləcə də keçmiş SSRİ-də çox məşhur idi. 1934-cü ildə istifadəyə verilən keçmiş "İnturist" mehmanxanası fəaliyyət göstərdiyi 70 il ərazində Bakının ən sevilən məkanı olub. Yeni otel köhnə "İnturist" barədə xatirələri yaşatmaqla bərabər, nadir memarlıq quruluşu ilə diqqəti cəlb edir. Beşmərtəbəli binada 150 standart və suit nömrə var. Otaqların hamısı müasirliyi və rahatlığı ilə seçilir. Otelin özəlliyini artıran cəhətlərdən biri də otaqların eyvanlarından Xəzər dənizinə və sahilboyu Bakı bulvarına açılan mənzərədir. Otaqların hamısı sürətli internet, havalandırma və digər zəruri sistemlərlə təchiz olunub.

Oteldə SPA, kitabxana, iclas zalı, restoran da var. Terrasından dənizə gözəl mənzərə açılan restoranda dünya mətbəxinin təamları təqdim ediləcək. Buradakı şərait Bakının keçmiş əfsanəvi "İnturist" mehmanxanasının ab-havasını xatirələrdə canlandırır. Yeni "İnturist" fərqli və nadir mühiti ilə Bakının otel biznesində özünə layiqli yer tutacaq.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində son illər digər sahələrdə olduğu kimi, turizmin, o cümlədən müasir otel sisteminin inkişafı istiqamətində mühüm nailiyyətlər əldə edilib. Təsadüfi

deyil ki, Azərbaycanda yaradılan müasir otel idarəçiliyi və bu sahənin inkişafı ölkəmizdə beynəlxalq səviyyəli bir çox mehmanxana brendlərinin açılması ilə nəticələnib. Son illərdə ölkənin sosial-iqtisadi inkişafı sayəsində yaradılan müasir turizm infrastrukturunda yeni "İnturist" otelinin də xüsusi rolu olacaq. Azərbaycandakı sabitlik, ölkəmizin qədim tarixi, zəngin mədəniyyəti, incəsənəti, mətbəxi və ən əsası qonaqpərvərliyimiz dünyada böyük maraqla qarşılanır. Bunu son illərdə ölkəmizə gələn turistlərin sayındakı artım da göstərir. Ölkəyə turistlərin cəlb olunmasında, əlbəttə ki, müasir otellərin yaradılmasının rolu böyükdür. Belə müasir otelin bütün dünyanın diqqət mərkəzində olan "Bakı-2015" ilk Avropa Oyunları ərəfəsində istifadəyə verilməsi bu Oyunlarla bağlı ölkəmizə gələn turistlərin rahatlığını təmin etmək baxımından da müstəsna əhəmiyyətə malikdir. Bu cür infrastruktur layihələrinin icrası Bakının turizm potensialını artırmaqla yanaşı, paytaxtın müasir simasının yaradılması işinə də öz töhfəsini verir.

Otellə tanışlıqdan sonra dövlətimizin başçısı kollektivlə görüşdü.

Mehmanxananın kollektivini salamlayan Prezident İlham ƏLİYEV dedi:

- Sabahınız xeyr. Bu gün şəhərimizin həyatında çox əlamətdar bir gündür. Yeni gözəl mehmanxana açılır. Bu hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. "İnturist" mehmanxanasının açılışı, doğrudan da tarixi hadisədir. Bildiyiniz kimi, vaxtilə Azərbaycanda, Bakıda "İnturist" mehmanxanası olub. Səksən il bundan əvvəl tikilmişdi. Əfsuslar olsun ki, sonra söküldü və onun yerində indi başqa bina tikilib.

Ancaq "İnturist" mehmanxanası yaşlı nəslin xatirəsində həmişə yaşayırdı. Ona görə, çox şadam ki, belə bir qərar qəbul olundu və bu tarixi ədalət bərpa edildi. Gözəl yer seçilib. Əvvəlki "İnturist" mehmanxanasının yeri də buradan bir o qədər də uzaqda deyil. Amma bu yer də çox gözəldir. Çox gözəl mənzərə açılır. Bir daha demək istəyirəm ki, "İnturist" bundan sonra da yaşayacaqdır. Bu, doğrudan da təqdirəlayiq hadisədir. Biz öz tariximizə çox bağlıyıq, tarixi irsimizə sadiqik və çalışırıq ki, həmişə tarixi ədaləti bərpa edək.

Eyni zamanda, onu da deməliyəm ki, bu mehmanxana ən yüksək standartlara cavab verir. Çox gözəl şərait yaradılıb. Adam burada özünü sanki öz evindəki kimi hiss edir. Xüsusilə burada gözəl ab-hava var. Əminəm ki, yüksək xidmət də göstəriləcək və qonaqlar burada özlərini çox rahat hiss edəcəklər.

Son vaxtlar Azərbaycanda turizm sektoru sürətlə inkişaf edir. Kadr hazırlığı da lazımi səviyyədədir. Son illər ərzində Azərbaycanda, xüsusilə Bakıda çoxsaylı otellər tikilmişdir. Bu gün bütün müasir və ən qabaqcıl otellərin brendləri Bakıda vardır. Son 2-3 il ərzində görün nə qədər gözəl otellər tikilib. "Four Seasons", "Fairmont", "Mariott", "Kempinski", "Jumeirah", "Hilton", "Sheraton", - bunlardan əvvəl "Hyatt" var idi, - indi də "İnturist" oteli. "İnturist" mehmanxanasının da bu otellər sırasında öz yeri var. Əminəm ki, gələcəkdə bu proses davam edəcək. Çünki yaxın gələcəkdə yeni "Ağ şəhər" bulvarında "Bulvar" oteli də açılacaq. Bulvarın uzunluğu artıq 16 kilometrə çatıb. "Ağ şəhər" bulvarı yaxın günlərdə insanların sərəncamına veriləcək. Beləliklə, Bakıya gələn qonaqlar şəhərimizi gəzəcək və bir daha görəcəklər ki, Azərbaycan nə qədər güclü ölkədir, Azərbaycan nə qədər sürətlə inkişaf edir. Bakıya gələn bütün qonaqlar bunu görür və qeyd edirlər.

Bakı dünyanın ən gözəl şəhərlərindən biridir və mənim üçün ən gözəl şəhərdir. Çünki Bakıda həm tarix, həm mədəniyyət, həm müasirlik bir vəhdət təşkil edir. Son vaxtlar o qədər ictimai yerlər açılıb ki, indi bu ictimai yerlərdə istirahət edə biləcək insanların sayı bəlkə də milyonlarla ölçülür. Bakı bulvarının dünyada analoqu yoxdur. Uzunluğu 16 kilometr olan bu bulvarda rahat, geniş gəzinti və velosiped zolaqları var. Digər ictimai yerlər də gözəldir. Yəqin, siz də izləyirsiniz, vaxtilə zəbt edilmiş bəzi torpaq sahələrini biz indi gözəl parklara çeviririk. Yəni, ictimai yer insanlar üçündür. Bu gün Bakıda istirahət etmək, rahat dincəlmək üçün kifayət qədər geniş imkanlar var. Bu proses davam etdirilir.

Bax bu otellə üzbəüz yerlər vaxtilə sənaye zonası idi və dəniz görünmürdü. Burada gəmi təmiri zavodu, ondan sonra hərbi dəniz qüvvələrinə məxsus zavodlar yerləşirdi. Onların hamısı köçürüldü və bu gözəl yerlər artıq insanların sərəncamına verildi. Eyni mənzərəni biz "Ağ şəhər" bulvarında görürük. Orada da bütün o yerlər ya zəbt edilmişdi, ya da vaxtilə sovet dövründə tikilmiş zövqsüz binalar yerləşirdi. Bu gün o ərazi insanlar üçün açıqdır. Ona görə, Azərbaycana investisiyalar da qoyulur. Bax, budur bugünkü ölkəmiz. Azərbaycana gələn hər bir qonaq bax, bunu qeyd edir.

Dünən Bakıda Asiya İnkişaf Bankı Rəhbərlər Şurasının illik toplantısı keçirildi. Tədbirə minlərlə qonaq gəlmişdi və mənimlə söhbətlər əsnasında onların hamısı Bakı haqqında, Azərbaycan haqqında çox müsbət sözlər dedilər. Dedilər ki, Azərbaycanın bu qədər inkişaf etmiş ölkə olduğunu təsəvvür edə bilmirdilər. Bu, həqiqətən belədir və gələn ay ölkəmizə gələcək Avropa idmançıları da bunu görəcəklər. Mənə verilən məlumata görə, artıq otelin bütün otaqları sifariş edilib və siz qonaqlara yaxşı xidmət göstərəcəksiniz.

Bir daha bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*5 may 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV MOSKVADA QƏLƏBƏNİN 70 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN BAYRAM TƏDBİRLƏRİNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Rusiya dövlətinin başçısı Vladimir Putin Kremldə qarşıladı.

Fəxri qonaqlar bayram təntənələrinin keçirildiyi Qızıl meydana gəldikdən sonra hərbi parad başladı.

Rusiyanın müdafiə naziri Sergey Şoyqu və Quru Qoşunlarının Baş komandanı Oleq Salyukov paradı qəbul etdilər.

Mərasim iştirakçılarını təbrik edən Rusiya Prezidenti Vladimir Putin dünya əhalisinin 80 faizinin cəlb olunduğu İkinci Dünya Müharibəsində qazanılan qələbədə keçmiş sovet xalqlarının, həmçinin antihitler koalisiyasını təmsil edən ölkələrin xidmətlərinin heç vaxt unudulmayacağını bildirdi. Qələbə gününün həmin xalqların və dövlətlərin ümumi bayramının olduğunu vurğulayan Vladimir Putin bildirdi ki, heç vaxt unudulmayacaq bu tarix müasir dövr üçün də bir örnəkdir.

Daha sonra paradda hərbçilərin təntənəli keçidi başladı. Meydana MDB və antihitler koalisiyası ölkələrinin hərbçiləri daxil oldu. Dəstənin önündə Azərbaycan hərbçiləri gedirdi. Mayor Mehdi Mahmudovun rəhbərliyi ilə 70 Azərbaycan hərbçisindən ibarət parad heyəti Qızıl meydanda tribunalar qarşısından keçdi.

Azərbaycanlı zabit və əsgərlər faşizm üzərində Qələbənin əldə olunmasında müstəsna və tarixi rol oynayıblar, ən ağır döyüşlərdən qəhrəman kimi çıxıblar. Odur ki, tarixi Qələbənin qazanılmasında ölkəmizin əvəzsiz xidmətləri danılmazdır. O vaxt Sovet İttifaqının tərkibində olan Azərbaycandan cəbhəyə 700 minə yaxın hərbçi yollandı. Böyük Qələbənin qazanılmasında misilsiz xidmətlər göstərən hərbçilərimizin 300 mini döyüş meydanlarında həlak oldu. 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü, 30 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edildi, 170 min əsgər və zabitimiz isə müxtəlif orden və medallarla mükafatlandırıldılar.

Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdi, yüzlərlə həmyerlimiz partizan dəstələrinin tərkibində vuruşdu. Azərbaycanın əsgər və zabitləri Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belorus, Pribaltika cəbhələrində cəsarətlə vuruşdular. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci milli diviziyalar Simferepolun, Odessanın, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya isə Yuqoslaviyanın azadlığı uğrunda fəal iştirak etdilər.

* * *

Faşizm üzərində Qələbənin 70 illiyi münasibətilə keçirilən hərbi parad zirehli texnikanın keçidi ilə davam etdi. Dəstənin önündə əfsanəvi "T-34" tankı gedirdi. Bundan əlavə, paradda nümayiş etdirilən çoxsaylı döyüş maşınları arasında Rusiya istehsalı olan "Armata" ağır zirehli piyada maşını, həmçinin "Yarus" raket kompleksinin ilk nümunələri, raket kompleksləri də var idi.

Qeyd edək ki, Qələbənin qazanılmasında yalnız qəhrəman övladlarımız deyil, həm də Azərbaycan neftinin böyük rolu olub. Bakı neftinin Böyük Vətən müharibəsinin taleyini həll etməsi fikri elə müharibənin ilk illərində öz təsdiqini tapıb. Düz 5 il Bakı nefti ön və arxa cəbhəni yüksək keyfiyyətli yanacaqla təmin edib. Müharibə dövründə SSRİ-də ümumilikdə 110 milyon ton neft çıxarılıb. Bu neftin 75 milyon tonunu, cəbhəyə göndərilən neft məhsullarının isə 85-90 faizini Azərbaycan verib. Ön cəbhədəki hər 4 tankdan 1-i, təyyarələrin böyük əksəriyyəti Azərbaycan nefti ilə hərəkət edib. Məhz bu səbəbdən də Bakını İkinci Dünya müharibəsinin taleyini həll edən şəhər adlandırırlar. Bakı neftinin müharibənin gedişi üçün həlledici rol oynadığını yaxşı bilən Hitler məhz buna görə Almaniyanın birinci tank ordusuna 1942-ci il sentyabrın 25-də Bakını zəbt etmək əmrini vermişdi. Hitler "Qafqaza hücuma başlayanda biz mütləq Bakını tutmalıyıq, əgər biz Bakı neftini ələ keçirməsək müharibəni uduzacağıq", - demişdi. Düşmən 1942-ci ildə 71, 1943-cü ildə 3 dəfə Bakı səmasını zəbt etməyə çalışıb. Qəhrəman təyyarəçilərimiz isə bu hücumların qarşısını alır, düşmənin 96 təyyarəsini məhv edirlər. Burada daha bir məqamı da xüsusi vurğulamaq lazımdır. Bakının neft emalı müəssisələri alimlərin və mühəndis-texniki işçilərin səyi nəticəsində cəbhə üçün yüksək oktanlı benzin istehsalını da uğurla həyata keçirdilər. 1941-ci ilin yayında Bakıda ilk hidrogen birləşmələri qrupu hazırlandı. Akademik Yusif Məmmədəliyevin başçılığı altında bir qrup alim 28 gün laboratoriyadan çıxmayaraq neft-kimya elmində böyük nailiyyət hesab edilən yüksək oktanlı aviasiya yanacağı əldə etdilər. Bu, müharibədə motorlar döyüşündə ciddi dönüşə səbəb oldu.

Parad zamanı Moskva səmasında hərbi hava qüvvələrinin də nümunəvi çıxışları oldu. Onların arasında "TU-160" strateji bombardmançı, dünyanın "AN-124", "Ruslan" kimi ən böyük hərbi nəqliyyat təyyarələri də var idi. Rusiyanın məşhur "SU-24", "SU-34" və "MİQ-29" qırıcılarının pilot qrupları da səmada öz məharətlərini nümayiş etdirdilər.

Havada yanacaq dolduran təyyarələrin çətin tapşırığı məharətlə yerinə yetirməsi və hərbi vertolyotların manevrləri maraqla qarşılandı. On beş təyyarədən ibarət dəstə Qələbənin yubiley rəmzi olan 70 rəqəmini səmaya yazdılar.

Hərbi paraddan sonra dövlət və hökumət başçıları Naməlum Əsgər abidəsi önünə əklil qoydular.

Sonra birgə xatirə şəkli çəkdirildi.

* * *

Bununla da Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri başa çatdı.

***9 may 2015-ci il***

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 92-Cİ İLDÖNÜMÜNƏ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN YARADILMASININ 11 İLLİYİNƏ HƏSR OLUNAN TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi

## PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümüdür. Bu gün Azərbaycan xalqı Ulu Öndərin əziz xatirəsinə bir daha hörmət və ehtiramını bildirir.

Heydər Əliyev tarixi şəxsiyyətdir, müstəqil Azərbaycanın qurucusudur, onun memarıdır. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Azərbaycan onun rəhbərliyinin hər iki dövründə çox sürətlə inkişaf edib. Birinci dəfə sovet dövründə, 1969-cu ildə rəhbər təyin olunandan sonra Azərbaycanda əsaslı dəyişikliklər baş verdi. O vaxtdan Azərbaycan onun rəhbərliyi ilə sürətlə inkişaf edərək 13 il ərzində Sovet İttifaqında ən qabaqcıl yerlərdə oldu. O vaxt Sovet İttifaqında cəmi iki respublika özünü tam təmin edirdi və ümumittifaq büdcəsinə öz töhfəsini verirdi. Onlardan biri Azərbaycan idi. Məhz o illərdə müasir sənaye komplekslərinin yaradılması, kənd təsərrüfatının inkişafı sürətlə gedirdi. Azərbaycan sovet məkanında mədəniyyət, incəsənət sahələrində öz sözünü deyirdi və respublikamızın ovaxtkı tarixi çox uğurlu idi.

Məhz ona görə 1990-cı illərin əvvəllərində Azərbaycan xalqı bir daha Ulu Öndərə üz tutaraq onu hakimiyyətə dəvət etmişdir. Çünki o, 1970-80-ci illərin əvvəllərində öz işləri, xalqa olan bağlılığı və cəsarətli siyasəti ilə xalqın böyük sevgisini, rəğbətini qazanmışdı.

Bilirsiniz ki, Ulu Öndərin həyatında bir neçə dövr olmuşdur. Hər dövrün öz böyük mənası var. Hər dövrdə çalışdığı bütün vəzifələrdə o, ləyaqətli siyasi xadim, cəsarətli insan, öz xalqına bağlı olan vətənpərvər kimi hərəkət edirdi. Heydər Əliyevin Azərbaycanda uğurlu fəaliyyəti nəzərə alınaraq 1982-ci ilin sonunda o, Sovet İttifaqının ən ali qurumu olan Siyasi Büroya üzv seçilmiş və Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdi. Onun kurasiyasında bir çox sahələr var idi. Bu sahələr çox ciddi diqqət tələb edirdi və o, ona tapşırılan bütün işlərə çox böyük məsuliyyətlə yanaşırdı. Onun gördüyü işlərin çox böyük səmərəsi var idi. Eyni zamanda, Azərbaycana daim diqqət yetirir, öz köməyini göstərməyə çalışırdı ki, burada da işlər yaxşı getsin. Ancaq əfsuslar olsun ki, o, Azərbaycandan gedəndən sonra respublikada vəziyyət tədricən tənəzzülə uğramağa başlamışdır və demək olar ki, Azərbaycanda durğunluq müşahidə olunurdu. Yəni, artıq onun dövründə olan canlanma, fəal iş yox idi.

Onun sonrakı taleyi ilə bağlı kifayət qədər kitablar, məqalələr, elmi əsərlər yazılmışdır. Burada oturanlar əlbəttə ki, o tarixi yaxşı bilirlər, gənc nəsil də bilməlidir, öyrənməlidir. Çünki bu, bizim şanlı tariximizdir və 1987-ci ildə Heydər Əliyev böyük ədalətsizliklə üzləşmişdi. O vaxt sovet dövlətinin başında dayanan insan ona qarşı ədalətsizlik göstərmişdi. Bu ədalətsizliyin də səbəbləri var idi. Ona qarşı paxıllıq, riyakarlıq və digər mənfi hallar Heydər Əli-

yevin istefasını şərtləndirdi. Bu, Azərbaycan üçün böyük itki idi. Çünki Heydər Əliyev sovet hakimiyyətində təmsil olunurdu. Təsadüfi deyil ki, o, istefaya gedəndən iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək haqqında məsələ qaldırdılar. Əfsuslar oşlun ki, ovaxtkı sovet rəhbərliyi bu məsələ ilə bağlı onlarla həmfikir idi, onların mövqeləri üst-üstə düşürdü. Eyni zamanda, son vaxtlar üzə çıxan faktlar da onun göstərir ki, hətta xarici dövlətlərdən də Sovet İttifaqının rəhbərliyinə Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı müraciətlər göndərilirdi. Bu, ümumiyyətlə, beynəlxalq münasibətlərdə dözülməz bir praktikadır. Ancaq bu, tarixdir, bu, həqiqətdir və ondan sonra Azərbaycanın bütün problemləri başladı.

Azərbaycana o vaxt qəsdən heç bir nüfuzu, heç bir siyasi təcrübəsi, heç bir milli ruhu olmayan fərdlər hakimiyyətə gətirildi. Onların əsas vəzifəsi Azərbaycan xalqını incitmək, Azərbaycanın xalq təsərrüfatını dağıtmaq və Azərbaycanın inkişafını əngəlləmək idi. O vaxt sovet dövləti hələ güclü idi və mərkəzləşdirilmiş idarəetmə sistemi var idi. Ona görə, Azərbaycan xalqı öz haqlı etirazını ifadə edə bilmirdi.

Heydər Əliyev özünü vətənpərvər, cəsarətli insan kimi bir daha 1990-cı ilin yanvar ayında göstərmişdir. O günlər mənim yaxşı xatirimdədir. Azərbaycan xalqına qarşı böyük cinayət törədilmişdi, günahsız insanlar qətlə yetirilmişdi. Sovet ordusu Bakıya müdaxilə edərək kütləvi qırğın törətmişdi. Yüzlərlə insan həlak olmuş, yaralanmış, itkin düşmüşdü. Bu, böyük cinayət idi. Ancaq əfsuslar olsun ki, Azərbaycanın ovaxtkı rəhbərliyi bu barədə öz etiraz səsini qaldırmamışdı. Yenə də xalqın yeganə ümid yeri Heydər Əliyev idi. O vaxt Heydər Əliyev pensiyada idi, fəal işlərlə məşğul olmurdu. O vaxt ona qarşı həm sovet rəhbərliyi, həm də Azərbaycanda vəzifədə olanlar tərəfindən çirkin kampaniya aparılırdı. O vaxt da "beşinci kalon" var idi və onlar anonim məktublar, donoslar yazaraq onun əleyhinə iş aparırdılar. Bu gün donoslar başqa yerlərə ünvanlanır, o vaxt Moskvaya yazılırdı. 1990-cı il yanvar ayının 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək öz etiraz səsini bütün dünyaya çatdırdı. Fəxr edirəm və çox xoşbəxtəm ki, mən də o gün onunla bərabər orada idim. Heç vaxt yadımdan çıxmaz ki, o vaxt orada böyük insan kütləsi toplaşmışdı. Azərbaycanın daimi nümayəndəliyinə minlərlə azərbaycanlı öz həmrəyliyini, etirazını, öz hisslərini ifadə etməyə gəlmişdi.

Biz oraya gələndə insanlar Heydər Əliyevi tanımışdılar və dərhal sükut yarandı. İnsanlar sanki canlı dəhliz yaratdılar ki, o, dəhlizlə binanın içərisinə keçsin. Bax, o vaxt Azərbaycan xalqı Heydər Əliyevə bir daha öz hörmət, etimad, inamını göstərmişdi. O, pensiyada idi və ona qarşı mətbuatda, digər vasitələrlə çox çirkin kampaniya aparılırdı, buralarda mitinqlər təşkil olunurdu, insanları məcbur edirdilər ki, onun əleyhinə danışsınlar və digər çirkin tədbirlər görülürdü. Buna baxmayaraq, Azərbaycan xalqı bu faciəvi gündə bir daha onun ətrafında birləşdi və o, yanvarın 21-də məhz orada Sovet İttifaqı Kommunist Partiyasını, sovet dövlətinin rəhbərini ittiham etdi, onu günahlandırdı, bu cinayəti pislədi və öz haqq səsini ucaltdı.

O vaxt Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi və heç kim təsəvvür edə bilməzdi ki, Sovet İttifaqı dağıla bilər. Yəni, bu addım, bu vətənpərvərlik nümunəsi bir daha göstərdi ki, Heydər Əliyev öz xalqına nə qədər bağlıdır və o, nə qədər cəsarətli, ədalətli şəxsiyyətdir. Təbii olaraq, təcrübəli siyasi xadim kimi o, dərk edirdi ki, bundan sonra ona qarşı böyük təzyiqlər başlayacaq, onun həyatına təhlükə ola bilər, belə də oldu. Əgər o, Moskvada bir qədər çox qalsaydı həbs olunacaqdı. O, Azərbaycana üz tutdu, Bakıya gəldi. Ancaq Bakıdakı ovaxtkı rəhbərlik imkan vermədi ki, o, öz doğma vətənində yaşasın və məcbur olub doğulduğu yerə - Naxçıvana üz tutdu. Naxçıvanda insanlar onu çox böyük coşqu ilə qarşılamışdılar. Elə Bakıda da. Yadımdadır, o vaxt Bakıya gələndən sonra şəhərdə gəzməyə çıxmışdı. Minlərlə insan onun ardınca gedirdi. O, hara gedirdisə

onlar da onun ardınca gedirdilər. Hətta ovaxtkı rəhbərlik təşvişə düşmüş və milis göndərmişdi ki, guya siz burada kütləvi aksiya keçirirsiniz. O da demişdi ki, mən heç bir aksiya keçirmirəm. Mən gəzməyə çıxmışam və insanlar mənim ardımca gəlirlər. Yəni, bütün Azərbaycan xalqı Heydər Əliyevi ürəkdən sevirdi və o sevginin əsas səbəbi məhz 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər və xalqımızın faciəvi günlərində haqqın, ədalətin yanında olması idi.

Naxçıvanda Heydər Əliyevi ilk növbədə muxtar respublikanın parlamentinə, sonra isə Azərbaycan parlamentinə deputat seçdilər. Sonra xalq onu Naxçıvan Ali Məclisinin sədri vəzifəsinə seçmişdir. O vaxt artıq Azərbaycan rəhbərliyinin rəyi heç bir məna kəsb etmirdi və xalq Naxçıvanda əsl vətənpərvərlik, cəsarət, müdriklik göstərmişdir.

Naxçıvan dövrü də çox zəngin olmuşdur. Bu dövr çox ağır və eyni zamanda, çox şərəfli bir dövr idi. Çünki məhz Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti müstəqilliyə gedən yolda əsas rol oynamışdır. Məhz onun təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda rəsmi dövlət bayrağı kimi təsdiq edildi və Azərbaycan Ali Sovetinə müraciət edildi və vəsatət qaldırıldı ki, bu bayraq Azərbaycanın rəsmi bayrağı kimi təsdiq edilsin. Sovet İttifaqının saxlanmasına dair referendumun keçirilməsi məhz Naxçıvanda mümkün olmadı. Çünki Heydər Əliyev buna imkan vermədi. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişildi və Naxçıvan Muxtar Respublikası adı təsdiq edildi. Bu, müstəqilliyə gedən yolların müxtəlif istiqamətləri idi və o da təsadüfi deyil ki, məhz o illərdə Azərbaycan dövlətçiliyinin gələcəyi müəyyən edilirdi. Çünki o vaxt Bakıda rəhbərlikdə təmsil olunan insanlar öz şəxsi maraqları haqqında düşünürdülər. Ölkənin, xalqın maraqları onları heç düşündürmürdü. Bunun nəticəsi olaraq 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlayanda xalq yenə də Ulu Öndərə üz tutdu, onu siyasi hakimiyyətə dəvət etdi, Prezident vəzifəsinə seçdi və beləliklə, Azərbaycanda quruculuq, sabitlik, inkişaf dövrü başladı. Sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu, qeyri-qanuni silahlı birləşmələr tərksilah edildi və Azərbaycan islahatlar yoluna qədəm qoydu. Dövlətçiliyin əsasları məhz o illərdə qoyulmuşdur. Ancaq antimilli qüvvələr öz çirkin niyyətlərindən əl çəkmək istəmirdilər. 1994-cü və 1995-ci illərdə dövlət çevrilişlərinə cəhd göstərilmişdir. Bu cəhdlərin arxasında xarici qüvvələr dayanmışdır. Bu da heç kəs üçün sirr deyil. Ancaq yenə də Azərbaycan xalqı Heydər Əliyevin rəhbərliyi ilə bu cəhdlərə son qoydu və bu cəhdləri törətmək istəyən ünsürlər öz layiqli cəzasını aldılar.

1995-ci ildə artıq vəziyyət tam sabitləşmiş, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmiş, hüquqi dövlət quruculuğu prosesi, iqtisadi islahatlar, siyasi islahatlar, Heydər Əliyev neft strategiyası icra edilməyə başlamışdır. Bu da Azərbaycanın indiki uğurlu inkişafının təməlində dayanan məsələdir.

1993-2003-cü illər tarixdə sabitlik və inkişaf dövrü kimi qalacaq. Heydər Əliyevin strateji qərarları ölkəmizin strateji inkişaf istiqamətlərini müəyyən etdi. O vaxt bizim qarşımızda müxtəlif seçimlər var idi, müxtəlif dövlət quruluşu yarana bilərdi. Heydər Əliyevin xalq arasında nüfuzu o qədər yüksək idi ki, o, Azərbaycanda istənilən dövlət quruluşunu tətbiq edə bilərdi. Ancaq uzun illər Kommunist Partiyasının üzvü olan, Qanlı Yanvar hadisələrindən sonra isə Kommunist Partiyasının sıralarını tərk edən bir insan kimi o, demokratiya, inkişaf, bazar iqtisadiyyatı yolunu seçmişdir. Bu, onun üçün çox ciddi bir seçim idi. Çünki o, tamamilə fərqli bir ictimai-siyasi mühitdə formalaşmışdır. Gənc yaşlarından o dövrün nümayəndəsi kimi Sovet İttifaqına, öz xalqına, Kommunist Partiyasına qulluq edirdi. Ona görə, bu, onun üçün çox ciddi bir seçim idi. Onun müdrikliyi, gələcəyə strateji baxışları o seçimi şərtləndirdi və bu gün Azərbaycan azad, demokratik, hüquqi dövlətdir.

Azərbaycanda bütün azadlıqlar var, siyasi islahatlar aparılır, demokratik inkişaf sürətlə gedir. Azərbaycan bu gün dünya miqyasında demokratiyanın inkişafı baxımından seçilən ölkələrdəndir. Məhz bu strateji seçim 1990-cı illərin ortalarında qəbul edilmişdir və bu gün biz Ulu Öndərin siyasi xəttinə sadiq qalaraq müsbət meyilləri daha da gücləndiririk.

2003-cü ildən sonra isə yeni dövr başlayır. Əslində bu, əvvəlki dövrün məntiqi davamıdır. O vaxt da Azərbaycan xalqı bir daha həlledici məqamda öz müdrik sözünü demişdir. O vaxt xalq Heydər Əliyev siyasətinə, onun davamçılarına səs vermişdir. Çünki istəyirdi ki, bu siyasət davam etsin. İstəmirdi ki, yenə də hərc-mərclik, xaos, anarxiya, özbaşınalıq, mədəniyyətsizlik, talançılıq hökm sürsün. Azərbaycan xalqı xoşbəxt həyata layiq idi. Azərbaycan xalqı 1991-1992-ci illəri, 1993-cü ilin əvvəllərini yaxşı xatırlayırdı. Azərbaycanı kimlər idarə edirdi? Hansı səviyyəsiz qüvvələr hakimiyyət başına gəlmişdilər? Əslində hakimiyyəti zorla zəbt etmişdilər. O, tariximizin qara səhifələridir. Səriştəsizlik, bacarıqsızlıq, mədəniyyətsizlik, cəsarətsizlik, qorxaqlıq, riyakarlıq - bu idi o vaxt Azərbaycan rəhbərliyini əks etdirən epitetlər. Azərbaycan xalqı istəmirdi ki, yenə o qara günlər qayıtsın. İstəyirdi ki, insanlar rahat yaşasınlar, ölkəmiz inkişaf etsin, sabitlik pozulmasın. Düzgün seçim edərək bir daha Heydər Əliyev siyasətinə səs verdi və əminəm, bu gün bütün Azərbaycan xalqı bir daha görür ki, nə qədər düzgün bir seçim edib.

Bu gün Azərbaycan inkişafdadır. Bu gün müstəqil dövlətimiz özünün ən uğurlu dövrünü yaşayır. Çoxəsrlik tarixində Azərbaycan heç vaxt indiki qədər güclü olmamışdır. Bu gün Azərbaycanda aparılan islahatlar xalqımızın gələcək inkişafını təmin edir. Azərbaycan dövləti çox möhkəm dayaqlar üzərində qurulubdur. Milli mənəvi dəyərlər birinci şərtdir. Biz öz milli mənəvi dəyərlərimizə sadiqik və onları hər şeydən üstün tuturuq. Bu, möhkəm təməldir. Bizim milli ideologiyamız ulu öndər Heydər Əliyev tərəfindən formalaşıbdır. Biz bunu, bu ideologiyanı inkişaf etdiririk, zənginləşdiririk. Azərbaycançılıq ideologiyası bu gün artıq bir nümunə kimi mövcuddur.

Azərbaycanda dinlərarası, mədəniyyətlərarası münasibətlərin nə qədər düzgün tənzim olunması bu gün dünya üçün artıq bəllidir. Bizim nümunəmiz öyrənilir. Təsadüfi deyil ki, bu gün məhz Azərbaycan bu mövzu ilə bağlı dünyada mərkəzlərdən birinə çevrilmişdir. Bizim beynəlxalq nüfuzumuz çox yüksək səviyyədədir. Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, inama malik olan bir ölkədir. Belə olmasaydı, beynəlxalq aləmin mütləq əksəriyyəti bizi dəstəkləməzdi.

Bu gün Azərbaycanda keçirilən beynəlxalq tədbirlər bunu əyani şəkildə sübut edir. Baxın, son iki həftə ərzində Nizami Gəncəvi Beynəlxalq Forumu və Asiya İnkişaf Bankı Rəhbərlər Şurasının illik toplantısı Bakıda keçirilmişdir. Birinci tədbirdə 60-dan çox ölkədən nümayəndələr iştirak edirdilər. Onların arasında çoxlu sayda fəaliyyətdə olan və keçmiş dövlət, hökumət başçısı iştirak edirdi, əsasən də Avropa qitəsindən. Ondan bir neçə gün sonra Bakıda Asiya İnkişaf Bankı Rəhbərlər Şurasının illik toplantısı keçirilmişdir. Orada da 70-ə yaxın ölkənin ən yüksək səviyyəli vəzifəli şəxsləri təmsil olunurdu. Yəni, iki həftə ərzində təxminən 130 ölkədən ən qabaqcıl, ən tanınmış, nüfuzlu simalar Azərbaycanda idilər. Mənim o tədbirlər əsnasında çoxsaylı görüşlərim zamanı onların hər biri böyük heyranlıqla və eyni zamanda, təəccüblə deyirdilər ki, biz Azərbaycanın bu qədər inkişaf etmiş ölkə olduğunu təsəvvür etmirdik. Azərbaycan bu qədər zəngin ölkədir, Bakı bu qədər gözəl şəhərdir. Onların hər biri bunu qeyd edirdi. Yəni, budur bugünkü Azərbaycan.

Azərbaycan bu gün dünya miqyasında öz nüfuzunu daha da artırır. Çünki hər bir mövzu ilə bağlı prinsipial mövqe ortaya qoyulur. Hər bir məsələ ilə bağlı müstəqil siyasət kursumuz var. Bizim siyasətimizə təsir etmək mümkün deyil. Məncə artıq bunu bilməyən

yoxdur. Cəhdlər var və yəqin ki, olacaq. Ancaq o cəhdlərin səmərəsi sıfıra bərabərdir. Nəyə görə? Çünki Azərbaycan dövləti möhkəm təməl üzərində qurulubdur. Çünki xalqla iqtidar arasında birlik var. Bizim gücümüzün əsas mənbəyi Azərbaycan xalqıdır. Azərbaycana gələn qonaqlar bir çox hallarda soruşurlar ki, bu sürətli inkişafın sirri nədir? Ölkədə bu qədər inkişaf gedir, təhlükəsizlik hökm sürür, insanların üzü gülür, gözəl ab-hava var. Nədir bunun sirri? Bilirsiniz ki, bunu bir görüş zamanı izah etmək mümkün deyil. Bunun bir çox səbəbləri var. Amma əsas səbəb xalqla iqtidar arasındakı birlikdir. Əgər bu varsa, deməli, hər şey olacaq, əgər yoxdursa, heç nə kömək etməyəcək. Nə enerji resursları, nə valyuta ehtiyatları, nə ordu, heç nə. Bax, indi müxtəlif regionlarda baş verən hadisələrə nəzər salaraq görürük, harada ki, bu yoxdur, sabitliyi süni şəkildə saxlamaq mümkün deyil. Ancaq xalqla iqtidar arasındakı birliyi əldə etmək, bunu möhkəmləndirmək üçün xalqa xidmət etmək lazımdır. Bax, mən bunu, necə deyərlər, yığcam formada bu cür izah edərdim: Xalqa Ulu Öndər kimi xidmət etmək lazımdır. O, bütün dövrlərdə öz xalqına xidmət edib. Biz də çalışırıq onun yolu ilə gedək. Bugünkü Azərbaycan reallıqları onu göstərir ki, biz onun yolu ilə uğurla gedirik.

Beynəlxalq nüfuzumuz bundan sonra da artacaq. Azərbaycan beynəlxalq aləmin dəyərli üzvüdür. Bundan sonra görüləcək işlər nəticəsində bizim təsir imkanlarımız daha da genişlənəcək. Bizim təsir imkanlarımız bizə ona görə lazımdır ki, Azərbaycanın maraqlarını təmin edək. Eyni zamanda, regional əməkdaşlıq məsələlərində də istədiyimizə nail olaq. Bizim istədiyimiz əməkdaşlıqdır, qarşılıqlı mənfəətdir, qarşılıqlı dəstəkdir. Bizim başqa fikrimiz yoxdur. Ona görə, regional inkişaf, regional təhlükəsizlik, enerji təhlükəsizliyi məsələlərində Azərbaycan çox önəmli bir ölkəyə çevrilibdir.

Beynəlxalq nüfuz, iqtisadi inkişaf, enerji təhlükəsizliyi, infrastruktur layihələrinin icrası - bütün bunlar Azərbaycan reallıqlarıdır. Azərbaycan rəhbərliyinin hər bir məsələ ilə bağlı çox dəqiq, düşünülmüş proqramı və inkişaf strategiyası var. Biz ölkəmizi gələcəkdə necə inkişaf etdirəcəyik?! Bu barədə bizim bütün proqramlarımız var, bu barədə vaxtaşırı məlumatlar verilir və xalq tərəfindən dəstəklənir.

Azərbaycan bir neçə gündən sonra tarixdə ilk dəfə keçiriləcək Avropa Oyunlarını qəbul edəcək. 2017-ci ildə isə İslam Həmrəylik Oyunlarını qəbul edəcək. Bu da ölkəmizin nadirliyini əks etdirən ən gözəl göstəricidir.

Azərbaycan Asiya ilə Avropa arasında yerləşən ölkədir. Bu coğrafi yerləşmə əlbəttə ki, bizim tariximizə də, bugünkü vəziyyətimizə də təsir edir. Biz isə çalışırıq ki, bu coğrafi mövqeyimizdən maksimum səmərə ilə istifadə edək. Bu coğrafi mövqe bizə bəlalar da, faciələr də gətirə bilərdi. Ancaq bu gün düşünülmüş, cəsarətli və dürüst xarici siyasətimiz nəticəsində biz bu əlverişli mövqeyi artıq müsbət amil kimi görürük. Bunu müsbət amilə çevirən məhz bizik. Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır. Bu isə bizim nüfuzumuzu qaldırır, önəmimizi artırır. İki il ərzində həm Avropa, həm İslam Oyunlarının keçirilməsi nadir bir göstəricidir, bunun analoqu yoxdur, bəlkə də heç vaxt olmayacaq.

O da aydındır ki, bu dərəcədə sürətli inkişaf heç də hamının xoşuna gəlmir. Azərbaycan xalqının mütləq əksəriyyəti bizim bütün təşəbbüslərimizi dəstəkləyir. Biz xarici və daxili siyasətlə bağlı bu dəstəyi tam görürük. Ancaq bizim uğurumuzu istəməyən, inkişafımıza paxıllıqla yanaşan dairələr də var. Biz bu barədə həm o dairələrin nümayəndələri ilə açıq danışırıq, həm də öz xalqımıza bu barədə məlumat veririk. Çünki Azərbaycan xalqı bilməlidir ki, nələr baş verir. Ölkə daxilində Azərbaycanın xarici siyasəti ilə bağlı biz heç nəyi gizlətmirik. Azərbaycan xalqı hər şeyi bilməlidir. Bilirəm, bu gün Azərbaycan xalqını incidən odur ki, bizə qarşı əsassız iddialar, ittihamlar səslənir. Bu ittihamların heç bir əsası yoxdur. Onlar süni şəkildə yaradılan ittihamlardır. Bir çox hallarda bu itti-

hamları bizə ünvanlayan dairələr sanki səhər durub güzgüyə baxmırlar. Amma baxsalar pis olmazdı. Kimisə ittiham etməkdənsə, elə öz daxili həyatına nəzər salmaq daha xeyirli ola bilər.

Ona görə, bu kampaniyalar əslində heç vaxt dayanmayıb. Sadəcə olaraq, önəmli hadisələr ərəfəsində özünü daha da qabarıq şəkildə büruzə verir. Üç il bundan əvvəl "Eurovision" mahnı müsabiqəsi ərəfəsində Azərbaycana qarşı nə qədər çirkin qarayaxma, şantaj, böhtan kampaniyaları aparılmışdı. Bütün bunları biz yaxşı xatırlayırıq. İndi də təxminən eyni mənzərə ilə üzləşirik. Ancaq o vaxt da bunun heç bir təsiri, əhəmiyyəti yox idi, bu gün də yoxdur. Çünki Bakıya gələcək minlərlə idmançı, onların nümayəndə heyətləri öz gözləri ilə görəcəklər ki, Azərbaycan dövləti nəyə qadirdir, müstəqillik dövründə biz nələr yaratmışıq, Azərbaycan xalqı necə yaşayır. Azərbaycan xalqı azad, qürurlu, öz milli dəyərlərinə sadiq xalq kimi yaşayır. Azərbaycan ictimaiyyəti bütün bu müsbət dəyişiklikləri görür, onları təqdirlə qarşılayır.

Ona görə, bu yüksək kürsüdən mənim üçün çox əziz bir gündə bir daha demək istəyirəm ki, bütün bunlara fikir vermək lazım deyil. Bizim siyasətimizə bunun heç bir təsiri olmayacaq. Bizim siyasətimizə ancaq Azərbaycan xalqı, onun iradəsi təsir edə bilər. Biz ölkəmizi Azərbaycan xalqının iradəsi ilə idarə edirik. Milli maraqlarımız bizim üçün hər şeydən üstündür. Bundan sonra da biz öz prinsipial mövqeyimizdən kənara çıxmayacağıq. Biz ölkəmizin inkişafı, xalqımızın rifahı üçün bundan sonra da səmərəli işləyəcəyik, Ulu Öndərin siyasi xəttinə sadiq qalacağıq. Azərbaycanın dövlət müstəqilliyi bizim ən böyük sərvətimizdir, ən böyük xoşbəxtliyimizdir. Mən dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, bizdən əvvəlki nəsillər müstəqillik həsrəti ilə yaşamışlar. Ancaq müstəqilliyi görə bilməmişlər. Bu xoşbəxtlik bizə nəsib oldu. Eyni zamanda, bu gün müstəqil dövləti inkişaf etdirmək, irəliyə aparmaq da bizə nəsib oldu. Bu, böyük xoşbəxtlikdir, böyük məsuliyyətdir.

Mən əminəm ki, Azərbaycan xalqı bundan sonra da Ulu Öndərin siyasi xəttinə sadiq qalaraq sürətlə inkişaf edəcək. Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirəcək. Bizim yolumuz haqq, inkişaf, tərəqqi yoludur. Bu yolda bütün Azərbaycan xalqına qələbələr arzulayıram. Sağ olun.

* * *

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 11 illiyinə həsr olunan təntənəli mərasim bədii hissə ilə davam etdi.

***10 may 2015-ci il***

## PREZİDENT İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 92-Cİ İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ TƏŞKİL OLUNMUŞ GÜL BAYRAMINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Gül bayramında iştirak ediblər.

Paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının sevimli istirahət yeri olan Heydər Əliyev Sarayının qarşısındakı park və Şəhər Mərkəzi Parkı bu gün öz görkəmini tam dəyişib, möcüzəli gül bağına çevrilib.

Hər il təşkil olunan Gül bayramı bu il də ənənəvi təntənəsini yaşadı. Ərazi güllərdən ibarət maraqlı kompozisiyalarla bəzədildi. Bakı Şəhər İcra Hakimiyyətinin təşkil etdiyi bu

bayramda çiçək, yarpaq və bitkilərdən hazırlanan rəngarəng kompozisiyalar görünüşü və ifadəliyi ilə seçilir, gözəlliyin hədsiz imkanlarını nümayiş etdirir, hər kəsdə xoş ovqat yaradır. Müstəqil dövlətimizin qurucusu, xalqımızın dahi oğlu, ulu öndər Heydər Əliyevin parkda ucalan əzəmətli abidəsi diqqəti daha çox çəkir. Abidənin postamenti güllərlə bəzədilib.

Təxminən bir aydan sonra Bakının ev sahibliyi edəcəyi ilk Avropa Oyunlarına həsr olunan guşələr xüsusi maraq doğurur. Beynəlxalq ictimai rəydə ölkəmizin davamlı imicinin formalaşdırılması üçün önəmli amil olan "Bakı-2015" Avropa Oyunları dünyanın müxtəlif yerlərindən Azərbaycana səfər edənlərə Vətənimiz, xalqımızın mədəniyyəti, mövcud multikultural mühit ilə daha yaxından tanış olmaq imkanı yaradacaq. Birinci Avropa Oyunları Azərbaycanın mötəbər beynəlxalq tədbirlərin təşkilatçısı kimi mövqelərini daha da möhkəmləndirəcək, bu sahədə dövlətimizin və xalqımızın yüksək potensiala sahib olduğunu bir daha ortaya qoyacaq.

Parkda rəngbərəng güllərdən hörülən, yazın gəlişinə həsr olunan kompozisiyalar nümayiş etdirilir. Fəvvarələr də güllərlə əhatə olunub. Minlərlə güldən-çiçəkdən əlvan libas geymiş bu məkanda heç nə bir-birini təkrarlamır. Elə buraya toplaşan uşaqlar da güllər kimi saf və ətirlidir. Onların gülləri xatırladan müxtəlif libasları bayram ovqatını daha da artırır.

Əzəmətli kompozisiyalardan biri də Heydər Əliyev Sarayının qarşısında qurulub. Heydər Əliyev Mərkəzinin maketi üzərində yaradılan bu kompozisiyanı Ulu Öndərin portreti bəzəyir.

Dövlətimizin başçısı, xanımı və ailə üzvləri parka toplaşan uşaqlarla səmimi söhbət etdilər, xatirə şəkilləri çəkdirdilər.

Parkda müxtəlif dibçək və kəsilmə güllərindən, qurudulmuş gül və bitki kollarından, göz oxşayan eksponatlardan ibarət sadə və eyni zamanda, orijinal üslublu kompozisiyalar qurulub. Hər tərəf baharın xoş ovqatına bürünüb. Zəriflik nümunəsi olan çiçəklərin orijinal təqdimatı bayrama gələnlərin zövqünü oxşayır.

Artıq ölkəmizdə ənənə halı alan Gül bayramı dünyanın nadir gözəlliklərini təcəssüm etdirməklə ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi, Ümummilli Liderin doğum gününün bu cür möhtəşəm formada qeyd olunması ilə yadda qalır.

*10 may 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü günüdür. Qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər on ikinci ildir ki, bu dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.

Ümummilli Liderimizin doğum günündə - mayın 10-da sübh tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə tər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edirlər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən

Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və Ulu Öndər özünün müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, Ulu Öndərin doğmaları, yaxınları onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, onun xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarlarını ziyarət edərək üzərinə gül dəstələri qoydular.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.

*10 may 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV "BAKI AĞ ŞƏHƏR" BULVARINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Bakı Ağ Şəhər bulvarında layihə çərçivəsində işlər yüksək səviyyədə həyata keçirilib. Bu bulvar əvvəllər paytaxtın "Qara şəhər" kimi tanınan və bir çox sənaye müəssisələrinin yerləşdiyi ərazisində Prezident İlham Əliyevin tapşırığı ilə ən müasir standartlara uyğun şəkildə salınıb. Dövlətimizin başçısı tərəfindən 2013-cü ilin mayında təməli qoyulan yeni bulvarın inşası ekologiyası bərpa edilən sənaye zonasında həyata keçirilən və dünyanın ən iri müasir layihələrindən biri olacaq "Bakı Ağ Şəhər" layihəsini tamamlamaqla paytaxtımızın simasını daha da gözəlləşdirir.

Prezident İlham Əliyev təməli qoyulduğu ilk gündən başlayaraq Ağ Şəhər bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə mütəmadi maraqlanıb, layihənin yüksək keyfiyyətlə icra olunmasına şəxsən nəzarət edib. Bakı sakinlərinin və şəhərimizin qonaqlarının istirahəti üçün Ağ Şəhər bulvarında infrastruktur ən müasir tələblər səviyyəsində yaradılıb. Bulvarda hərəkətin təhlükəsizliyini təmin etmək üçün piyada keçidləri də inşa edilib. Bu gözəl istirahət məkanı sürətlə böyüyən və inkişaf edən Bakının görməli və gəzməli yerlərinə yeni bir ünvan da artırır. Bakı Ağ Şəhər bulvarı Ağ Şəhərdən Xəzərə açılan mənzərəni daha da cazibədar edir.

*15 may 2015-ci il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA "BULVAR HOTEL"İN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı otelin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, bu, "Absheron Hotel Group"a daxil olan dördüncü oteldir. Ağ Şəhərdə yerləşən yeni otel həm də "Marriott" brendinin xüsusi portfeli sayılan məxsusi otel və kurortların cəmləndiyi "Autograph Collection"un rəsmi üzvüdür.

Bakı buxtasında yerləşən beşulduzlu "Bulvar Hotel" yüksək səviyyədə və müasir üslubda inşa olunub. Otelin paytaxtın əsas işgüzar və mədəni mərkəzlərinə yaxın olması qonaqlara vaxtlarını daha səmərəli keçirmək üçün hərtərəfli imkanlar yaradır.

Nəfis tərtibatla qurulan otelin interyeri müasirliyi ilə diqqəti cəlb edir. Otelin yaradılması zamanı əsas meyar qonaqların rahatlığını yüksək səviyyədə təmin etməkdən ibarət olub. Burada kafe, mağaza, biznes mərkəzi, kitabxana da var.

"Bulvar Hotel"də müxtəlif beynəlxalq, regional və yerli əhəmiyyətli tədbirlər keçirmək üçün də əlverişli şərait yaradılıb. Kompleksdə 5 iclas otağı var. Bu otaqlarda müxtəlif görüşlər, təlimlər, təqdimatlar təşkil etmək mümkündür.

Otelin ziyafət zalı da müasirliyi ilə seçilir. Burada 1000-dən çox qonağın iştirakı ilə müxtəlif formatlı tədbirləri yüksək səviyyədə təşkil etmək mümkündür. Ziyafət zalının sahəsi 1300 kvadratmetrdir. Zal bütün zəruri avadanlıqla təchiz edilib.

Otelin sağlamlıq mərkəzi müasir tələblərə cavab verən fitnes və SPA xidmətləri təklif edir. Burada 25 metrlik qapalı üzgüçülük hovuzu və müasir avadanlıqla təchiz olunmuş idman zalı fəaliyyət göstərir. Oteldə 818 nömrə var. Otelin pəncərələrindən Xəzər dənizinə və Bakı bulvarına açılan möhtəşəm mənzərəni seyr etmək mümkündür. Otaqların interyeri məşhur memarlıq şirkətləri tərəfindən dizayn edilib.

Dövlətimizin başçısı və xanımı otelin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar.

"Bulvar Hotel"də yaradılan 3 restoranda qonaqlara müxtəlif növ təamlar təqdim ediləcək. Restoranların nadir bədii konsepti tanınmış dizayn şirkəti tərəfindən yaradılıb. Ən xırda detalların belə nəzərə alındığı qeyri-adi interyer otelin tarixini, müasir dizaynla uyğunlaşdırılmış irsini və kosmopolit dinamikliyini özündə cəmləşdirir. "The White City Lounge", "The Green House Kitchen" və "Black City Cafe" restoranlarında qonaqların zövqünə uyğun xidmət göstərmək üçün hərtərəfli şərait var. Fasiləsiz xidmət göstərən bu məkanların hər birinin ayrı-ayrılıqda açıq havada da xüsusi sahələri var.

Bütün sahələrdə olduğu kimi, turizm, o cümlədən bu sektorun əsas xidmət sahələrindən olan müasir otel sisteminin yaradılması istiqamətində son illər mühüm nailiyyətlər əldə edilib. Bu, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində mümkün olub. Son illərdə ölkəmizdə bir çox məşhur otel brendləri istifadəyə verilib. Bu da təsadüfi deyil. Azərbaycanda yaradılan müasir otel idarəçiliyi və bu sahənin inkişafı həmin məsələdə mühüm əhəmiyyət kəsb edir.

Son illərdə ölkənin sosial-iqtisadi inkişafı sayəsində yaradılan müasir turizm infrastrukturunda bu otelin də xüsusi rolu olacaq. Azərbaycanda ictimai, siyasi və iqtisadi sahələrdə sabitlik, ölkəmizin qədim tarixi, zəngin mədəniyyəti, incəsənəti, mətbəxi və ən əsası qonaqpərvərliyimiz dünyada böyük maraqla qarşılanır. Bu fakt son illərdə Azərbaycana gələn turistlərin sayındakı artımda da özünü aydın göstərir. Ölkəyə turistlərin cəlb olunmasında bu cür müasir otellərin yaradılmasının rolu danılmazdır. Belə müasir turizm obyektinin bütün dünyanın diqqət mərkəzində olan "Bakı-2015" ilk Avropa Oyunları

ərəfəsində istifadəyə verilməsi isə xüsusi əhəmiyyət daşıyır. Bu cür layihələr ilk Avropa Oyunları ilə bağlı ölkəmizə gələn turistlərin rahatlığını təmin etməyə və paytaxt Bakının turizm potensialını nümayiş etdirməyə də imkan yaradır.

Otellə tanışlıqdan sonra Prezident İlham Əliyev kollektivlə görüşdü.

* * *

**Otelin kollektivini salamlayan Prezident İlham ƏLİYEV dedi:**

- "Bulvar Hotel"in açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Otellə tanış oldum, çox gözəl oteldir, ən müasir səviyyədə tikilib. Xarici görünüşü, daxili dizaynı ən yüksək səviyyədədir. Bu, Azərbaycanın, bəlkə də bölgənin ən böyük otelidir. Belə böyük otelin tikintisi əslində onu göstərir ki, Azərbaycana gələn qonaqların sayı gündən-günə artır. Baxmayaraq ki, son iki-üç il ərzində Bakıda 10-a yaxın müasir otel istifadəyə verilib, ən böyük otelin tikintisinə də ehtiyac var idi.

Otelin yerləşməsi də çox gözəldir. Ağ Şəhər bulvarında yerləşir. Bu da yenilikdir. Çünki bildiyiniz kimi, bu ərazilərdə vaxtilə sənaye müəssisələri, zövq oxşamayan digər tikililər olmuşdur. İndi isə bütün bu ərazi ictimai zona, bulvarın davamı kimi Bakının sakinlərinin sərəncamına verilir.

Ağ Şəhər bulvarı nadir bir memarlıq əsəridir, əslində Bakı bulvarının davamıdır. Bu gün Ağ Şəhər bulvarı, köhnə bulvar, yeni bulvar, Bayraq Meydanı bulvarı və Bayıl bulvarı vahid bir kompleks təşkil edir. Uzunluğu isə 16 kilometrə bərabərdir. Müqayisə üçün deyə bilərəm ki, 100 il bundan əvvəl salınmış Bakı bulvarının uzunluğu cəmi 3,5 kilometr olub. Yəni, bütün bu ərazilərdə vaxtilə sənaye müəssisələri, zavodlar, hərbi təyinatlı müəssisələr var idi ki, onlar köçürüldü və bu gün dünya miqyasında Bakı bulvarı kimi ikinci gözəl yer, ikinci gözəl bulvar yoxdur. Çox şadam ki, yeni yaranan Ağ Şəhər bulvarında "Bulvar Hotel" tikilib və istifadəyə verilir. Bu, bir daha onu göstərir ki, ölkəmiz sürətlə inkişaf edir. Ölkəmiz öz qapılarını bütün qonaqlarının üzünə açmışdır. Bakıya gələn turistlərin sayı artıq milyonlarla ölçülür. Əminəm ki, Avropa Oyunlarından sonra gələn qonaqların sayı daha da artacaq. Çünki Bakı gözəl şəhərdir. Mənim fikrimcə, dünyanın ən gözəl şəhəridir, bunu indi demək olar. Şəhərimizə gələn hər bir qonaq qeyd edir ki, Bakıdan getmək istəmir, yaxud da çalışır ki, sonra Bakıya qayıtsın. Çünki şəhərimizin tarixi memarlığı, ab-hava, təhlükəsizlik, yüksək xidmət sahələri, müasir otellər, istirahət zonaları əlbəttə ki, qonaqları cəlb edir. Ancaq biz Bakıda görülən işləri, ilk növbədə, Azərbaycan vətəndaşları, onların rahatlığı, istirahəti üçün edirik. Bu gün Bakı sakinləri bütün bu gözəl imkanlardan istifadə edirlər.

Bir daha demək istəyirəm ki, bölgənin, regionun ən böyük otelinin Bakıda tikilməsi, xüsusilə son illər ərzində "Hyatt", "Sheraton" "Four Seasons", "Marriott", "Kempinski", "Jumeirah", "Hilton", nəhayət, "İnturist" - bütün bu otellər tikiləndən sonra yenə də böyük otelin inşası inkişafımızın ən gözəl göstəricisidir. Mənə verilən məlumata görə, burada 700-dən çox iş yeri açılıbdır ki, onların əksəriyyəti Azərbaycan vətəndaşları üçün nəzərdə tutulub. Bu da çox gözəl əlamətdir. Həm yüksək maaş verilir, həm də ki, insanlar işlə təmin olunurlar. Görürəm ki, işləyənlərin əksəriyyəti gənclərdir və burada artıq gözəl təcrübə toplamısınız. Əminəm ki, gələcəkdə daha da yüksək vəzifələrdə çalışacaqsınız. Sizi bir daha ürəkdən salamlayıram və sizə uğurlar arzu edirəm.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*15 may 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV YUNESKO-NUN BAŞ DİREKTORU XANIM İRİNA BOKOVANI QƏBUL ETMİŞDİR

Görüşdə UNESCO-nun baş direktoru xanım İrina Bokovanın Üçüncü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakı yüksək dəyərləndirildi. Forumun artıq ənənəvi olaraq keçirildiyi və tədbirə marağın ildən-ilə artdığı məmnunluqla qeyd edildi. Beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından Forumun əhəmiyyəti xüsusi vurğulandı.

Söhbət zamanı Azərbaycan ilə UNESCO arasında uğurlu əməkdaşlığın bundan sonra daha da genişləndiriləcəyinə əminlik ifadə olundu.

*17 may 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN SİVİLİZASİYALAR ALYANSI ÜZRƏ ALİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 17-də BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nassir Abdulaziz Al-Nasseri qəbul ediblər.

Nassir Abdulaziz Al-Nasser ölkəmizə səfərindən ötən dövr ərzində Bakıda gedən yüksək inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. Qonaq qeyd etdi ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan böyük uğurlar əldə edib və Bakıda keçiriləcək birinci Avropa Oyunları mühüm əhəmiyyət daşıyır. Üçüncü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəmindən danışan Nassir Abdulaziz Al-Nasser təmsil etdiyi qurumun Forumun etibarlı tərəfdaşı olmasından məmnunluğunu vurğuladı. O, ölkəmizdə millətlər, dinlər, mədəniyyətlərarası dialoqun və qarşılıqlı anlaşma siyasətinin davam etdirilməsi işini yüksək dəyərləndirdi, "Bakı prosesi"nə verdiyi töhfəyə görə Prezident İlham Əliyevə minnətdarlıq etdi.

Qonaq 2016-cı ildə Bakıda keçiriləcək BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunda dünyanın ən nüfuzlu qurumlarının və görkəmli şəxsiyyətlərinin iştirak edəcəklərini də bildirdi.

BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nassir Abdulaziz Al-Nasserin fikirlərinə razılığını bildirən dövlətimizin başçısı ölkəmizdə keçirilən digər beynəlxalq tədbirlər kimi, 2016-cı ildə Bakıda BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunun da yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə etdi.

Görüşdə 2016-cı ildə Bakıda keçiriləcək BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumuna hazırlıq prosesi ilə bağlı məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

*17 may 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV YUNESKO-NUN SABİQ BAŞ DİREKTORU KOİŞİRO MATSUURANI QƏBUL ETMİŞDİR

Görüşdə UNESCO-nun keçmiş baş direktoru Koişiro Matsuura Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə çox böyük inkişafın şahidi olduğunu məmnunluqla qeyd etdi. O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşünü də ehtiramla xatırladı.

Söhbət zamanı Bakıda keçiriləcək Üçüncü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəmi vurğulandı, bu tədbirin sivilizasiyalararası dialoqun möhkəmləndirilməsi işinə verdiyi töhfə yüksək dəyərləndirildi.

*17 may 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ISESKO-NUN BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR

Görüşdə Azərbaycan ilə İSESCO arasında əməkdaşlığın hazırki səviyyəsindən məmnunluq ifadə edildi, Bakıda keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun xalqlar və mədəniyyətlərarası dialoqun inkişafı baxımından əhəmiyyəti yüksək qiymətləndirildi. Bakının artıq mühüm məsələlərin müzakirə olunduğu mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edən məkana çevrilməsinin əhəmiyyəti vurğulandı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyi bildirildi.

Söhbət zamanı Azərbaycan ilə İSESCO arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

*18 may 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ İYAD BİN AMİN MƏDƏNİNİ QƏBUL ETMİŞDİR

Görüşdə Azərbaycan ilə İslam Əməkdaşlıq Təşkilatı arasında əlaqələrin uğurla inkişaf etdiyi bildirildi. Müxtəlif sahələrdə həyata keçirilən birgə layihələrin önəmi qeyd olundu. Prezident İlham Əliyev bu ilin aprelində Səudiyyə Ərəbistanına rəsmi səfərini xatırlayaraq bu səfərin uğurla keçdiyini və müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi baxımından səmərəli olduğunu diqqətə çatdırdı.

İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəni paytaxtımızda həyata keçirilən genişmiqyaslı abadlıq işlərinin, gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. Artıq Bakıda üçüncü dəfə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətindən danışan İyad bin Amin Mədəni bu tədbirin müxtəlif fikirlərin dinlənilməsi və onların tətbiqi baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirdi. Söhbət zamanı Azərbaycan ilə İslam Əməkdaşlıq Təşkilatı arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

*18 may 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA III ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNUN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

# PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Azərbaycana xoş gəlmisiniz.

Çox şadam ki, bu gün Bakıda III Mədəniyyətlərarası Dialoq Forumu öz işinə başlayır. Bu, yaxşı göstərici və ənənədir. Biz üçüncü dəfədir ki, bu qlobal Forumu təşkil edirik. Bu, mədəniyyətlərarası dialoq məsələlərinin müzakirə olunmasının artan əhəmiyyətini nümayiş etdirir.

Bu gün yüzdən artıq dövlətin nümayəndələri Bakıdadır. Bu isə bir daha belə müzakirələrin vacibliyini təsdiqləyir. Əminəm ki, mədəniyyətlərarası münasibətlərə müsbət dinamika verilməsi üçün Forumun keçirildiyi günlərdə dəyərli fikirlər səslənəcək. Azərbaycan bu sahədə öz səylərini hər zaman göstərir və xalqları, dövlətləri, sivilizasiyaları bir araya gətirməyə çalışır.

Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşir. Biz Avropa və Asiya arasında yerləşirik. Əlbəttə ki, bu coğrafi yerləşmə Azərbaycanın mədəni müxtəlifliyində öz rolunu oynamışdır. Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və ləyaqət şəraitində bir ailə kimi yaşamışlar. Biz fəxr edirik ki, bu müsbət meyillər müstəqillik illərində daha da güclənmişdir. Bizim tarixi abidələrə nəzər salmaq yetər ki, Azərbaycanın mədəni müxtəlifliyi aydın görünsün.

Biz tarixi və mədəni irsimizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən olan, 743-cü ildə inşa edilmiş məscid Azərbaycanın qədim Şamaxı şəhərində yerləşir. Dünyanın ən qədim kilsələrindən biri - Qafqaz albanlarının kilsəsi Azərbaycanın digər qədim Şəki şəhəri yaxınlığındadır. Pravoslav və katolik kilsələr, sinaqoqlar, atəşpərəstlər məbədi bizim mədəni irsimizin tərkib hissəsidir və biz bununla fəxr edirik.

Bu gün Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri yaşayır və ölkəmizin uğurlu inkişafına öz töhfələrini verirlər. Düşünürəm ki, bu, bizim ən böyük sərvətlərimizdəndir. Biz bundan qürur duyuruq və multikulturializm dəyərlərinin, sülh, əməkdaşlıq və qarşılıqlı anlaşmanın təşviqi üçün müxtəlif beynəlxalq tədbirlər keçiririk. Hesab edirəm ki, müsbət meyillərin güclənməsi üçün dünyada belə tədbirlərə, açıq müzakirələrə və fikir mübadiləsinə ehtiyac var.

Təəssüflər olsun ki, bu gün dünyanın müxtəlif yerlərində baş verənlər dərin narahatlıq doğurur. Biz mənfi istiqamətdə cərəyan edən meyillərin şahidi oluruq. Bu səbəbdən ölkələri, sivilizasiyaları və dinləri daha da yaxınlaşdırmaq üçün hansı işlərin görülməli olduğunu açıq və səmimi müzakirə etməliyik. Gərginliyin və nifrətin azaldılması beynəlxalq gündəmin ən mühüm məsələlərindəndir. Bizim ölkədə multikulturalizm ənənələri hər zaman güclü olub və Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması bu dəyərlərin təşviqi istiqamətində hökumətimizin atdığı daha bir addım idi.

Multikulturalizmin alternativi yoxdur. Hesab edirəm ki, siyasətçilərin, ictimai xadimlərin, beynəlxalq təsisatların, qeyri-hökumət təşkilatlarının və medianın bu məsələdə məsuliyyəti artmaqdadır. Bildiyimə görə, Forumun mövzularından biri məhz ictimai xadimlər və siyasətçilərin məsuliyyətinə həsr edilib. Biz bəzi hallarda görürük ki, dini nifrət süni şəkildə yaradılır. Bəzən dünyanın müxtəlif yerlərində etnik və dini zəmində zorakılığın şahidi oluruq və o zaman siyasətçilərin və vəziyyətə təsir edə bilən insanların məsuliyyəti artır. Düşünürəm ki, bu səbəbdən multikulturalizm dəyərlərini birgə səylərlə təşviq etməliyik. Bilirəm ki, bununla bağlı müxtəlif fikirlər və bəzən də pessimist ideyalar var. Lakin multikulturalizmin müsbət nümunələri də var və Azərbaycan onlardan biridir.

Hesab edirəm ki, multikulturalizmi gələcəyi olmayan məfhum kimi təqdim etmək təhlükəlidir, əksinə səylərimizi dayandırsaq, dünyada vəziyyət daha da pisləşəcək. Bu səbəbdən artıq dünyada multikulturalizm məzkəzlərindən biri olaraq tanınan Azərbaycan kimi ölkələrin nümunəsi yaxşı göstəricidir ki, multikulturalizm yaşayır və biz müsbət meyilləri stimullaşdırmalıyıq. Bunun alternativi nədir? Təcridolunma, ayrı-seçkilik, ksenofobiya, islamofobiya, antisemitizm kimi təhlükəli amillərdir ki, onlar artıq bəşəriyyət tarixində sivilizasiyaların və xalqların fəlakətinə səbəb olub.

Dərin multikulturalizm köklərinə malik ölkə və xalq kimi, biz qlobal arenada bu müsbət dəyərlərin təşviqində müvafiq rol oynamağa çalışırıq. Azərbaycan müsəlman dünyasına mənsub olan ölkədir, ancaq eyni zamanda, onun Avropa ilə güclü bağlılığı var. Müsəlman dünyasının ilk demokratik respublikası 1918-ci ildə Azərbaycanda yaradılıb və dərhal qadınlara seçki hüququ verilib. Bu da bir sıra Avropa ölkələrindən əvvəl baş tutub. Beləliklə, bizim etnik və mədəni özünəməxsusluğumuz, habelə Avropanın təsiri cəmiyyətimizdə xüsusi ab-hava yaradıb. Əsrlər boyu biz dəyərlərimizi qoruya bilmişik. Biz fərqli siyasi və ictimai şəraitdə yaşamışıq, müxtəlif dövlət və imperiyaların tərkibində olmuşuq. Artıq biz müstəqilik, ancaq bu müsbət meyil davam edir və bu dəyərlərin təşviqi məsələsinə sadiqik.

Mədəni müxtəliflik və mədəniyyətlərarası dialoqun təşviqinin ən vacib elementlərindən biri əlbəttə ki, təhsildir. Biz təhsilə böyük diqqət yetiririk və fəxr edirik ki, Azərbaycanda savadlılıq 100 faizə bərabərdir. Təhsil gələcəyin, inkişafın yoludur. Elə inkişaf etmiş ölkələr var ki, onlar tərəqqini təbii sərvətlərlə deyil, təhsil, elm və texnologiyaların inkişafı sayəsində təmin ediblər. Eyni zamanda, təhsil ekstremizmə, radikalizmə, fundamentalizmə, terrorçuluğa qarşı təminatdır. Bu, müasir həyatın təhlükəli elementlərinə qarşı sığortadır. Bildiyimə görə, bu mövzu ətrafında müzakirələr Forumun diqqət mərkəzində olacaq və hesab edirəm ki, Azərbaycanın təcrübəsi də maraq doğuracaq. Çünki biz də bu gün təhsil sistemimizi transformasiya edirik və onu beynəlxalq standartlara çatdırırıq. Biz məmnunuq ki, gənc nəsil azərbaycanlılar həyatda öz layiqli yerlərini tutmaq və ölkənin potensialını gücləndirmək üçün daha çox öyrənmək, qabiliyyətlərini artırmaq arzusundadırlar. Eyni zamanda, biz fəxr edirik ki, gənc nəsil vətənpərvərdir. Vətənpərvərlik insanların ölkəsini sevməsi deməkdir. Habelə bu, dövlətlər və xalqlar arasında birliyi gücləndirən amildir. Biz hər zaman hesab edirik ki, ölkəyə, xalqa, dinə olan hörmət digərlərinin ənənələrinə və dəyərlərinə hörmətdən başlayır. Yalnız bu yolla uğura nail olmaq mümkündür.

Təəssüflər olsun ki, bu gün biz daha çox bu haqda danışmalı oluruq. Çünki biz bu gün dünyanın müxtəlif yerlərində etnik, dini, məzhəb zəminində ayrı-seçkiliyi görürük. Bu da faciəvi bir haldır. Biz bunu öz qonşuluğumuzda görürük. Biz, həmçinin neofaşizm hərəkatı kimi təhlükəli meyillərin şahidi oluruq. Beynəlxalq ictimaiyyət, onun liderləri bu məsələyə çox ciddi şəkildə yanaşmalıdırlar. Çünki biz bu döyüşdə qalib gəlməliyik və bunu yalnız birgə səylərimizlə edə bilərik. Bu səbəbdən bu gün burada təşkil etdiyimiz Mədəniyyətlərarası Forum kimi tədbirlər çox əhəmiyyətlidir. Hesab edirəm ki, Bakı bu gün belə məsələlərin müzakirə edildiyi məkandır.

Müstəqil Azərbaycan nisbətən gənc dövlətdir, yalnız 24 ildir ki, müstəqildir. Lakin bu illər islahat, transformasiya, inkişaf illəri olub. Biz dövlətimizi qurmaq fürsəti əldə etdik. Biz ənənələr və mədəniyyət ölkəsiyik. Siz Bakının abidələrini görürsünüz. Ölkəmizin digər yerlərinə səyahət etsəniz xalqımızın memarlıq, tarixi və dini abidələrini görərsiniz. Bu da bizim mədəni irsimizin bir hissəsidir. Ancaq müstəqil ölkə kimi biz gəncik və biz dövlətimizi, siyasi sistemimizi qurmalı idik. Hesab edirəm, qısa bir zamanda bizim ölkəmizin təcrübəsi onu nümayiş etdirib ki, inkişafa, tərəqqiyə sadiqlik, cəmiyyətin dəstəyi varsa, transformasiya uğurlu ola bilər.

Bu gün Azərbaycan beynəlxalq ictimaiyyətin nüfuzlu üzvüdür, regional müstəvidə çox müsbət rol oynayır. Bizim təşəbbüslərimiz regional əməkdaşlığın gücləndirilməsinə istiqamətləndirilib. Enerji təhlükəsizliyi ilə bağlı siyası və iqtisadi məsələlər diqqət mərkəzindədir. İrəli sürdüyümüz təşəbbüs və layihələr regionun hüdudlarını aşıb. Bu layihələr ölkələri və qitələri birləşdirir. Enerji təhlükəsizliyi məsələsinə nəzər saldıqda aydın görünür ki, Azərbaycan burada artıq Avropanın enerji təhlükəsizliyi üçün mühüm rol oynayır. Nəqliyyat infrastrukturuna gəldikdə, biz bu gün tarixi İpək Yolunu bərpa edirik. Asiya və Avropa arasında yeni dəmir yolu əlaqəsini yaradırıq. Biz təkcə iqtisadi inkişafa və daha təkmil nəqliyyat infrastrukturuna deyil, xalqlararası təmaslara sərmayə yatırırıq. Tarixi İpək Yolu Azərbaycandan keçmişdir. Biz bu gün onu müasir texnologiyaların tətbiqi və qonşu dövlətlərin iştiraki ilə bərpa edirik. İqtisadi və sosial inkişafla bağlı bütün layihələrimiz regional əməkdaşlığı, xalqlar və ölkələr arasında qarşılıqlı anlaşmanı gücləndirir.

Bununla yanaşı, beynəlxalq arenada oynadığımız rol dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Biz fəxr edirik ki, müstəqilliyimizin bərpasından ötən qısa müddət ərzində Azərbaycan 155 dövlətin dəstəyi ilə ən mötəbər beynəlxalq qurum olan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Bu, o deməkdir ki, beynəlxalq ictimaiyyətin mütləq əksəriyyəti bizi dəstəkləmişdir. Səmimi deyə bilərəm ki, bizim heç də bu 155 dövlətin hər biri ilə fəal əlaqələrimiz yoxdur. Lakin düşünürəm ki, müstəqilliyimizin bərpasından ötən qısa müddət ərzində bizim etibarlı tərəfdaş kimi davranışımız, birgə dəyərlər və milli maraqlara əsaslanmış müstəqil mövqeyimiz ölkəmizə müsbət münasibət yaratmışdır.

Biz siyasi və iqtisadi transformasiyaya böyük sərmayə yatırmışıq. Müstəqilliyi bərpa etdikdə biz dövlətimizi qurmalı və siyasi sistemimizi transformasiya etməli idik. Bu səbəbdən siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılırdı. Biz aydın başa düşdük ki, təbii sərvətlər ölkənin transformasiyası və Azərbaycanın davamlı inkişafının təmin olunması üçün kifayət etməyəcək. Bu səbəbdən siyasi islahatlar, demokratik proses və azadlıqlarla bağlı məsələlər bizim diqqət mərkəzimizdə olmuşdur. Bu gün Azərbaycanda bütün fundamental azadlıqlar - siyasi azadlıq, media azadlığı, azad internet, din azadlığı təmin edilib. Bu isə inkişafın əsası və təməli deməkdir.

Bununla yanaşı, Azərbaycanın təbii sərvətlərinə və potensialımıza əsaslanan iqtisadi siyasət müstəqilliyimizin ilk illərində müəyyənləşdirdiyimiz məqsədlərə nail olmağa imkan vermişdir. Bu da iqtisadi müstəqillik idi. Bizim xarici borcumuz olduqca aşağı səviyyədədir - ümumi daxili məhsulun 10 faizinə bərabərdir. Yəni, biz donorlardan, sponsorlardan, ianələrdən və beynəlxalq maliyyə qurumlarının yardımlarından asılı deyilik. Halbuki biz onlarla çox fəal əməkdaşlıq edirik. Biz ölkəmizin enerji təhlükəsizliyini maksimum dərəcədə təmin edə bilmişik və bu gün biz digərlərinin enerji təhlükəsizliyini təmin edirik.

Həmçinin işsizlik və yoxsulluq kimi sosial məsələlər həll olunur. Burada çox müsbət dinamika görürük. Bu gün Azərbaycan yoxsulluq və işsizliyin ən aşağı səviyyədə olduğu ölkələrdəndir. Bu göstərici 5 faizə bərabərdir. Təbii ki, bu da cəmiyyətdə müsbət dinamika yaradır. Bu amillərin birləşməsi Azərbaycanın əhəmiyyətinin artırılmasında vacib rol oynayır. Əlbəttə ki, daha çox diqqəti daxili məsələlərə yönəldirik.

Məqsədlərimizə nail olmaq və inkişaf etmiş dövlətə çevrilmək üçün görüləcək işlərimiz çoxdur. Halbuki Davos İqtisadi Forumunun qiymətləndirməsinə əsasən iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə Azərbaycan dünyada 38-ci yerdədir. Buna isə təbii sərvətlər hesabına yox, islahatlar hesabına nail olunub. Bununla yanaşı, biz xalqları daha da yaxınlaşdıran müxtəlif layihələrin təşəbbüskarıyıq. Bunlar enerji, iqtisadiyyat, siyasi əlaqələr sahələrinə, habelə humanitar sektora aiddir. Biz hər il Bakıda Beynəlxalq Humanitar Forum, Dünya Dini Liderlərinin Zirvə Görüşünü təşkil edirik. Bugünkü Forum da artıq üçüncü dəfədir təşkil edilir.

Üç həftədən, yəni, bir aydan da az vaxtdan sonra Azərbaycan ilk Avropa Oyunlarına ev sahibliyi edəcək. 2012-ci ilin sonunda qəbul edilmiş qərar çox müdrik qərar idi. Həcminə görə Yay Olimpiya Oyunlarına bərabər oyunların 2 il yarım müddətdə təşkil edilməsi böyük çağırış idi. Avropa Olimpiya Komitəsinin dünyada ilk Avropa Oyunlarının müsəlman əhaliyə malik Azərbaycanda keçirilməsi ilə bağlı qərarı son illər qəbul edilmiş ən müdrik qərarlardan biridir. Biz 6000 Avropa idmançısını bir araya gətirəcəyik. Artıq hazırlıq prosesinin yekun mərhələsindəyik. Bu, yalnız böyük idman tədbiri deyil, həm də dostluq və tərəfdaşlıq tədbiri olacaq. Bizim üçün isə bu, təbii ki, ölkəmizi və qonaqpərvərliyimizi nümayiş etdirmək baxımından yaxşı fürsət olacaq. İki ildən sonra isə biz İslam Həmrəyliyi Oyunlarını keçirəcəyik. Yəni, iki il ərzində eyni ölkədə, eyni şəhərdə həm Avropa, həm də İslam Həmrəyliyi Oyunları keçiriləcək. Hesab edirəm ki, iki il ərzində hər iki oyunun eyni ölkədə təşkil edilməsi Avropa idman tarixində nadir hal olacaq.

2008-ci ildə də "Bakı prosesi" bizim təşəbbüsümüzlə başlamışdır. Bizim təşəbbüsümüz idi ki, Avropa Şurasının mədəniyyət nazirlərinin iclasına İslam Əməkdaşlıq Təşkilatının nazirləri dəvət edilsin. Bu, ilk belə hal idi. Çünki Azərbaycan hər iki təşkilata üzv olan azsaylı ölkələrdəndir. Daha sonra - 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatı mədəniyyət nazirlərinin iclasına Avropa Şurası mədəniyyət nazirləri dəvət edildi. Bunlar bizim təşəbbüslərimiz idi və artıq buna "Bakı prosesi" adı verilib.

Bu gün mədəniyyətlərarası və sivilizasiyalararası dialoq, multikulturalizmə aid məsələlər "Bakı prosesi"nə daxildir. Biz səylərimizi davam etdirəcəyik və 100-dən artıq dövlətdən olan nümayəndələrin Bakıya səfər edərək bu mühüm məsələləri müzakirə etməsi bizdə məqsədlərimizə nail olmaqla bağlı ruh yüksəkliyi yaradır. Biz dostluq, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfəmizi verməyə calışacağıq.

Əziz dostlar, bir daha Azərbaycana xoş gəlmisiniz.

* * *

Daha sonra UNESCO tərəfindən Mədəniyyətlərin yaxınlaşması üzrə beynəlxalq onillik münasibətilə nəşr edilən "Fərqli fikirlərlə razılaşmaq" adlı kitabın təqdimatı oldu.

Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirak etdikləri mərasimdə çıxış edən UNESCO-nun baş direktoru İrina Bokova bu kitabın tolerantlığa, qarşılıqlı hörmət, ləyaqət və mərhəmətə əsaslandığını bildirdi.

"Fərqli olmağa razılaşmaq belə təlatümlü dövrdə zəruridir", - deyən İrina Bokova bəzən insanlar arasındakı münasibətlərdə yeni texnoloji alətlərdən istifadənin yetərsiz olduğunu dedi, daha çox paylaşmaq və bölüşmək kimi ideyaların bütün cəmiyyətlərdə bərqərar olmasının əhəmiyyətinə toxundu. O, Bakı Forumunun əhəmiyyətini vurğulayaraq UNESCO-nun fəaliyyətinə, BMT-nin Mədəniyyətlərin yaxınlaşması beynəlxalq onilliyində göstərdiyi dəstəyinə görə Azərbaycana təşəkkür edərək dedi:

-Xanımlar və cənablar, inanıram ki, bu gün təşkil edilən bu dünya Forumu çox əhəmiyyətlidir. Bütün fəaliyyətlərimizdə, o cümlədən BMT Mədəniyyətlərin yaxınlaşması beynəlxalq onilliyində göstərdiyi rəhbərlik və dəstəyinə görə Azərbaycan Respublikasına təşəkkür etmək istəyirəm. İnanıram ki, birgə yaşamaq anlayışımızın nöqtələrini birləşdirərək bir-birimizlə necə münasibət quracağımızı görə biləcəyik. Nəşrimizi təqdim etdiyim bu qısa müraciətimdən sonra icazə verin, çox səmimi şəkildə Prezident İlham Əliyevə və Azərbaycana təşəkkür edim.

Cənab Prezident, səhər söylədiyiniz nitq hamımız üçün çox güclü ilham mənbəyi idi. Siz Azərbaycanın qədim tarixi haqqında - ilk məscidlərdən biri, ilk kilsələrdən biri, burada hər zaman sərbəst olan yəhudi cəmiyyətindən danışdınız. Siz tarixdən, bütün bu müxtəliflikdən dərs alaraq müasirliyə doğru gedirsiniz. Düşünürəm ki, bir çox cəmiyyətlər üçün bu günlərdə

ən böyük çağırış müasirliklə, dəyişən dünyanın tələbləri ilə ayaqlaşmaqdır. İnanıram ki, irəli getmək üçün keçmişi bilməli və ondan dərslər almalıyıq. Dünyada Azərbaycanın etdiyi kimi keçmişdən dərs alan çox az ölkə var. Təsadüfi deyil ki, biz burada - Bakıda toplaşmışıq. Bakı dünya şəhəridir - həm qədim, həm də çox müasir şəhərdir. Biz UNESCO - irsi qoruyan, irsin mədəniyyətlər arasında dialoq vasitəsi olduğuna inanan təşkilat kimi başqalarının irsini dünya irsi siyahısına yazaraq qiymətləndiririk. Məscidlər, kilsələr, sinaqoqlar, başqa mədəniyyətlərin və xalqların irsini siyahıya əlavə etməklə biz dialoqun mücəssəməsini görürük.

Baş direktor UNESCO-nun Mədəniyyətlərin yaxınlaşması üzrə beynəlxalq onillik münasibətilə nəşr etdirdiyi kitabı Prezident İlham Əliyevə təqdim etdi.

Sonra İrina Bokova qədim kəlağayı sənətinin UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi haqqında komitənin keçən il qəbul etdiyi qərarı Azərbaycanın birinci xanımı, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya təqdim edərək dedi:

- İstəyirəm Azərbaycanın birinci xanımı, UNESCO-nun şifahi ənənələr və musiqi ənənələri üzrə xoşməramlı səfiri xanım Mehriban Əliyevaya qədim kəlağayı sənətinin UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi haqqında komitənin keçən il qəbul etdiyi qərarı təqdim edim. Yəqin ki, azərbaycanlı qadınları kəlağayı geyərkən görmüsünüz. Biz bununla və xoşməramlı səfirimiz xanım Mehriban Əliyeva ilə çox böyük qürur duyuruq. Əminəm ki, xanım Mehriban Əliyeva bütün Azərbaycan xalqı adından bu sertifikatı almağa layiqdir.

* * *

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev çıxışında mədəniyyətlərarası dialoqun yayılması üzrə bütün fəaliyyətlərə göstərdiyi dəstəyə və töhfəyə görə Prezident İlham Əliyevə təşəkkür etdi. Bildirdi ki, mədəniyyətlər və sivilizasiyalar arasında dialoq və tərəfdaşlığa, habelə 2008-ci ildə Prezident İlham Əliyev tərəfindən elan edilən "Bakı prosesi"nə töhfələr vermiş Forum iştirakçılarına təqdim etmək üçün simvol hazırlanıb.

Əbülfəs Qarayev sülh və mədəniyyətlərarası dialoq üzrə "Bakı prosesi"nin simvolunu BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nassir Abdulaziz Al-Nasserə, UNESCO-nun baş direktoru İrina Bokovaya, İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amid Mədəniyə, ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tüveycriyə və digər şəxslərə təqdim etdi.

Sonda xatirə şəkli çəkdirildi.

* * *

Sonra Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən yüksək səviyyəli qonaqların şərəfinə nahar verildi.

*18 may 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV BÖYÜKŞOR BULVARININ VƏ PARKININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 22-də Böyükşor gölünün bərpası layihəsinin birinci mərhələsi çərçivəsində görülmüş işlərlə tanış olublar.

Dövlətimizin başçısı və xanımı göl sahilində salınmış Böyükşor bulvarının və parkının açılışında iştirak ediblər.

Azərbaycan Prezidenti və xanımı əvvəlcə Böyükşor gölünün bərpasının ilkin mərhələsi çərçivəsində görülmüş işlərə dair stendə baxdılar.

İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev Böyükşor gölünün bərpasının birinci mərhələsi çərçivəsində görülən işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi.

Sonra Prezident İlham Əliyev Böyükşor bulvarının və parkının rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva elektromobil və avtobusla Böyükşor bulvarının və parkının ərazisini gəzdilər.

Bu layihə Prezident İlham Əliyevin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na və "Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və istifadəsi sahəsində əlavə tədbirlər haqqında" 2013-cü il 26 dekabr tarixli Fərmanına uyğun olaraq həyata keçirilir.

Layihə ilk növbədə, böyük sosial əhəmiyyəti ilə diqqət çəkir. Vaxtilə sürətlə inkişaf edən paytaxtın tələblərinə uyğun gəlməyən, ekoloji tarazlığı pozan bu ərazidə çox qısa zamanda bu cür nəhəng infrastruktur layihəsinin reallaşdırılması Prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin uğurlarının əyani təsdiqidir. Birinci Avropa Oyunlarına daxil olan tədbirlərin böyük əksəriyyətinin Böyükşor gölünün şərq sahilində yerləşən Bakı Olimpiya Stadionunda və digər infrastruktur komplekslərində keçirilməsi isə bu layihənin əhəmiyyətini daha da artırır. Layihənin birinci mərhələsi çərçivəsində həyata keçirilən tikinti işləri zamanı gölün şərq və cənub sahilində bulvar və park salınıb. Ümumi abadlıq işlərinin sahəsi 15 hektardan çoxdur. Bu ərazidə neftlə çirklənmiş torpaqlar təmizlənib. Həmçinin çirklənmiş yeraltı suların gölə daxil olmasının qarşısı tamamilə alınıb və drenaj sistemi qurulub.

Bildirildi ki, sahilboyu gəzinti zolağının uzunluğu 2,5 kilometr, bulvar sahəsinin ümumi eni isə 94 metrdir. Burada idman və uşaq oyun meydançaları qurulub, ayrıca qaçış və velosiped zolaqları salınıb, minlərlə ağac və bəzək kolu əkilib. Gölün içində quraşdırılmış fəvvarələr kompleksi şəhərimizin qonaqlarının zövqünü oxşamaqla yanaşı, həm də gölün suyunun keyfiyyətinin yaxşılaşdırılması üçün onu oksigenlə zənginləşdirir. Gölün idarə edilməsi, su keyfiyyətinin yaxşılaşdırılması və monitorinqi üçün günəş enerjisi ilə qidalanan xüsusi qurğulardan istifadə edilir.

Bakı Olimpiya Stadionuna yaxın olan Böyükşor gölünün sahilində həyata keçirilən abadlıq-quruculuq tədbirləri şəhərimizin daha da gözəlləşməsinə, insanların rahatlığına xidmət edəcək və paytaxtımızın sakinlərində və qonaqlarında xoş təəssüratlar, dərin məmnunluq hissi yaradacaq. Bir vaxtlar burada mövcud olan ekoloji fəlakətin aradan qaldırılması indi bu ərazini geniş yaşıllıq zolaqlarının, təbii landşaftın olduğu məkana çevirib. Burada iaşə və əyləncə məkanlarının yaradılması isə onun paytaxtın arxitekturasına xüsusi yaraşıq verəcəyini bir daha təsdiqləyir.

Qeyd edildi ki, beynəlxalq ekspertlərin qiymətləndirmələrinə əsasən, Böyükşor gölü dünyada ən çox çirklənmiş sututarlardan hesab olunurdu. Qısa müddətdə görülmüş işlər nəticəsində gölün ekoloji göstəricilərinin dinamikası müsbətə doğru əhəmiyyətli dərəcədə dəyişib. Uzun illər Böyükşor gölünə axıdılan sənaye və məişət tullantı sularının və neft qalıqlarının qarşısı artıq böyük həcmdə alınıb. Belə ki, layihənin icrasına başlamazdan əvvəl gölə 76 mənbədən sənaye və məişət tullantı suları axıdılırdı. Layihə ərazisində bu mənbələr tamamilə ləğv edilib, qalan sahədə isə 20-yə endirilib və bu göstərici azalmaqdadır. Gölün dibinin təmizlənmiş ərazilərində neftlə çirklənmənin səviyyəsi 121 min mq/kiloqramdan 86-ya enib ki, bu da gölün dibinin artıq ekoloji normalar çərçivəsində olması deməkdir. Layihə ərazisinin cənub sahili boyunca kanalizasiya xətti çəkilib və bu hissədə çirklənmə mənbələrinin qarşısı tamamilə alınıb. Gölə axıdılan bütün mənbələrin qarşısının alınması suyun keyfiyyətini yaxşılaşdı-

rır. Neftlə çirklənmiş əsas ərazi layihə ərazisinin Balaxanı qəsəbəsi tərəfindədir. Gölün şimal hissəsi sovet dövründə, əsasən də İkinci Dünya müharibəsi zamanı xam neft üçün açıq anbar ərazisi kimi istifadə edilib və bu, gölü həddən artıq çirkləndirib. Qədim Balaxanı neft yataqlarından gölün bu hissəsini çirkləndirən neft tullantılarının qarşısının alınması üçün 1850 metr uzunluğunda xüsusi bənd inşa edilib. Bu bənd Balaxanı qəsəbəsi tərəfdən gölün tarixi məcrasının sərhədləri boyunca tikilib. Eyni zamanda, yüz ildən artıq müddətdə göl dibinə yığılmış çirkli çöküntülərin çıxarılması və zərərsizləşdirilməsi işləri görülür.

Layihənin ilkin mərhələsində gölün dibindən 2,8 milyon kubmetr həcmində çöküntü çıxarılaraq gələcəkdə zərərsizləşdirilməsi üçün müvəqqəti təcrid edilmiş anbar ərazisinə toplanıb. Gələcəkdə dib çöküntülərinin zərərsizləşdirilməsi üçün 100 hektar ərazidə müvəqqəti saxlanc anbarı inşa edilib. Gölün mühafizə zonası da daxil olmaqla, ciddi mühafizə işi təşkil edilib, göl və sahil xətlərinin məişət və tikinti tullantıları ilə çirklənməsinin qarşısı tamamilə alınıb. Bundan əlavə, burada su səviyyəsinin tənzimləyən üç su keçid hidrotexniki qurğusu inşa edilib. Suyun səviyyəsinin və keyfiyyətinin idarə edilməsi üçün avtomatlaşdırılmış nəzarət-monitorinq sistemi quraşdırılıb.

Gölün Bakı Olimpiya Stadionu tərəfində ümumi uzunluğu 7200 metr olan 2 neft, 2 qaz və 2 su borusu yeraltı dəhlizə köçürülüb. Gölün mühafizə zonasında 11 mühafizə məntəqəsi quraşdırılıb və bərk tullantıların atılmasının və əraziyə kənar müdaxilələrin qarşısı tam alınıb. Birinci mərhələnin icrası və layihə ərazisinin təcrid edilməsi məqsədilə burada 1570 metr uzunluğunda bənd çəkilərək Böyükşor gölü iki hissəyə ayrılıb. Gölün digər tərəfinin təmizlənməsi işləri layihənin növbəti mərhələsində həyata keçiriləcək. Bu bənd gələcəkdə Ziya Bünyadov prospekti ilə Balaxanı şosesini birləşdirəcək 8 zolaqlı magistral yolun özülü olacaq. Buradan da görünür ki, Böyükşor gölünün 300 hektara yaxın hissəsində icra olunan birinci mərhələ üzrə işlər uğurla həyata keçirilib.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən gölün tam bərpasını nəzərdə tutan növbəti mərhələdə göl öz təbii tarixi məcrasına qaytarılacaq, su səviyyəsi tənzimlənəcək və ekosistem bərpa olunacaq.

*22 may 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "DALĞA BEACH-AQUA PARK" AİLƏVİ İSTİRAHƏT MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 26-da "Dalğa Beach-Aqua Park" ailəvi istirahət mərkəzinin açılışında iştirak ediblər.

Paytaxtın Xəzər rayonunun Mərdəkan qəsəbəsində yeni inşa edilmiş "Dalğa Beach-Aqua Park" xidmətin müxtəlifliyi və quruluşunun cazibədarlığı ilə fərqlənir.

Ailəvi istirahət parkında yaradılan şəraitlə bağlı dövlətimizin başçısına məlumat verildi. Qeyd edildi ki, "Dalğa Beach-Aqua Park"ın ümumi sahəsi 68 min kvadratmetrdir. Ərazisinə görə bu, Azərbaycanda ən böyük Aqua Parkdır. Xəzər dənizinin sahilində yerləşən istirahət mərkəzi nəfis tərtibatda, orijinal üslubda inşa olunub. İstirahət kompleksində ümumi sahəsi 12 min kvadratmetr olan 7 hovuz yaradılıb. Bu hovuzlarda qonaqlar süni dalğalar vasitəsilə sörfinqlə məşğul ola biləcəklər. Hovuzlarda 7 su attraksionu quraşdırılıb. Burada balacaların mənalı istirahəti üçün 700 kvadratmetr sahəsi olan hovuz və digər əyləncə qurğuları yaradılıb. İstirahət edənlərə xidmətin ən müasir səviyyədə təşkili üçün kompleksdə çoxlu sayda restoran və xidmət obyektləri inşa edilib. "Dalğa Beach-Aqua Park"ın Disco Klubunda dünyanın

məşhur şirkətlərinin səs və işıq effektləri avadanlığı quraşdırılıb. Bu isə Disco Klubda müxtəlif səpkili əyləncəli şou və proqramları təşkil etməyə imkan verir.

Qonaqların istirahətinin mənalı təşkili üçün ərazidə hər şey yüksək zövqlə tərtib olunub. Rəngarəng yaşıllıq guşələri, hovuzların əlverişli arxitektura ilə salınması istirahət üçün buraya üz tutanlarda gözəl əhval-ruhiyyə yaradacaq. İstirahət mərkəzinə gələnlərə buradakı restoranlarda Azərbaycan və dünya mətbəxinin nümunələri, həmçinin dəniz məhsullarından hazırlanmış müxtəlif çeşidli yeməklər təklif olunacaq. Yeni istirahət mərkəzini fərqləndirən əsas cəhətlərdən biri də burada daimi fəaliyyət göstərən və orijinallığı ilə seçilən su attraksionunun olmasıdır.

Dövlətimizin başçısı və xanımı dənizin içində inşa edilmiş "Mayak" restoranında da oldular. Bu iaşə obyekti xidmətin orijinal təşkili ilə yanaşı, Bakının köhnə mayaklarının arxitektura üslubunda tikilməsi ilə də diqqəti cəlb edir. Buradan Xəzərə açılan mənzərə istirahətə gələnlərdə xoş ovqat yaradacaq.

İstirahət mərkəzində 26 min kvadratmetr sahəsi olan çimərlik zonası da var.

"Dalğa Beach-Aqua Park" kompleksində VIP-house da inşa olunub. Burada müştərilərin rahatlığını tam təmin etmək məqsədilə hərtərəfli şərait yaradılıb. VIP-house-un pəncərələrindən Xəzər dənizinə və istirahət mərkəzinə gözəl mənzərə açılır.

Təmiz hava və füsunkar dəniz mənzərəsinə malik "Dalğa Beach-Aqua Park" yerli və xarici turistlərin sevimli əyləncə və istirahət məkanına çevriləcək. Bu obyektin istifadəyə verilməsi Bakının turizm potensialını artırmaq və şəhərimizə gələn qonaqların istirahətini mənalı təşkil etmək baxımından da mühüm əhəmiyyət daşıyır. Belə müasir infrastrukturla təchiz edilən ailəvi istirahət məkanının "Bakı-2015" ilk Avropa Oyunları ərəfəsində açılması bu yarışlarla bağlı paytaxtımıza gələn turistlərdə ölkəmiz haqqında yaranacaq təəssüratları daha da zənginləşdirəcək.

*26 may 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN RƏSMİ QƏBULDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.

Azərbaycanın dövlət himni səsləndi.

Prezident İlham Əliyev rəsmi qəbulda nitq söylədi.

### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar.

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması dünya miqyaslı tarixi hadisə idi. Çünki müsəlman aləmində ilk demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu tarixi Azərbaycan xalqı yazıb. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması bir daha onu göstərir ki, Azərbaycan xalqı çox istedadlı, vətənpərvər və mütərəqqi xalqdır. Azərbaycan xalqı müstəqilliyə qovuşurdu.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsi bizim üçün əzizdir. Azərbaycan dövləti və Azərbaycan xalqı onların xatirəsini ehtiramla yaşadır. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Bu gün səhər mən o abidəni ziyarət etdim.

Dövlət quruculuğu prosesi başlamışdı. Demokratik institutlar təsis edilmişdi. Siyasi islahatlar aparılmağa başlamışdı. Bizim dövlət atributlarımız qəbul edilmişdi - dövlət himnimiz, milli bayrağımız təsdiq edilmişdi. Qadınlara səsvermə hüququ verilmişdi. Onu da qeyd etməliyəm ki, Azərbaycan Xalq Cümhuriyyəti bunu bəzi Avropa ölkələrindən daha da əvvəl etmişdi. Bir sözlə, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti çox müsbət, uğurlu idi. Baxmayaraq ki, Xalq Cümhuriyyəti bunu çox ağır geosiyasi şəraitdə edirdi.

Eyni zamanda, əfsuslar ki, itkilərimiz də olmuşdur. Onların içində ən böyük itkimiz İrəvanın Ermənistana verilməsi olmuşdur. Bu, sağalmayan yaradır. Əlbəttə, biz tarixi həqiqətləri bilməliyik. Əfsuslar ki, tarix yaşlı nəslə təhrif edilmiş şəkildə təqdim olunurdu. Biz oxuduğumuz tarix kitablarında tarixi həqiqətləri görmürdük. Ona görə, bəzi qaranlıq məqamlar da olmuşdur. Bu gün Azərbaycan müstəqil dövlət kimi dünyaya açıqdır. Bu gün bütün tarixi həqiqətlər hər bir Azərbaycan vətəndaşı üçün bəllidir, artıq sirr deyil. İrəvanın Ermənistana verilməsi əlbəttə ki, böyük səhv idi. Əfsuslar olsun ki, bu addım gələcəkdə Azərbaycana yönəlmiş erməni işğalçı siyasətini dayandırmamışdır.

Respublikanın ömrü qısa olmuşdur. Əgər iki ildən sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etməsəydi, bəlkə də bu gün Azərbaycan dünya miqyasında ən inkişaf etmiş ölkə ola bilərdi. Ondan sonra sovet dövrü başlamışdır. Sovet dövründə həm müsbət, həm mənfi tərəflər var idi. Hesab edirəm ki, bizim alimlər sovet dövrünü də və Azərbaycanın rolunu da daha geniş şəkildə təhlil etməli, sanballı elmi əsərlər təqdim edilməlidir. Necə ki, vaxtilə mənim məsləhətimlə alimlərimiz İrəvan xanlığı haqqında çox dəyərli, tarixi həqiqətə əsaslanmış elmi əsər yaratmışlar.

Sovet dövrü də mürəkkəb dövr idi, Azərbaycan müstəqil, azad deyildi. Ancaq, eyni zamanda, xalqımız inkişaf edirdi. Azərbaycanda o illərdə elm, təhsil inkişaf edirdi. Bu gün biz qürur hissi ilə deyirik ki, Azərbaycanda savadlılıq 100 faiz səviyyəsindədir. Bunun əsası əlbəttə ki, sovet dövründə qoyulmuşdur.

Ölkəmizin sənaye potensialı inkişaf edirdi, xüsusilə neft sənayesi. Bu yaxınlarda faşizm üzərində Qələbənin 70 illiyini qeyd edərkən bütün dünya bir daha gördü ki, Azərbaycan xalqı, Azərbaycan neftçiləri ümumi Qələbəyə nə qədər böyük töhfə vermişlər. Azərbaycan nefti olmasaydı, müharibənin nəticələri fərqli ola bilərdi.

Sovet dönəmində Azərbaycanın sürətli inkişaf dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Sadəcə olaraq, statistik rəqəmlərə baxmaq kifayətdir ki, bunu hər kəs görsün. Məhz 1970-ci illərdən başlayaraq Azərbaycanda çox böyük quruculuq işləri aparılmışdır. Əgər 1970-ci illərə qədər Azərbaycan Sovet İttifaqında ən geridə qalmış yerlərdə idisə, 1980-ci illərin əvvəllərində Azərbaycan ən qabaqcıl yerlərə çıxa bilmişdir. Rusiya Federasiyasından başqa, cəmi iki respublika donor kimi fəaliyyət göstərirdi, onlardan biri də Azərbaycan idi.

Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. O dövrü də biz hamımız yaxşı xatırlayırıq. O dövr də çox ağır dövr idi. O dövrdə Azərbaycan böyük itkilər vermişdir. Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçmişdir. Xaos, anarxiya, iqtisadi və siyasi böhran, vətəndaş müharibəsi, torpaqlarımızın işğal altına düşməsi. Xüsusilə Kəlbəcər, Laçın, Şuşa rayonlarının işğalından sonra Ermənistan ilə Dağlıq Qarabağ arasında coğrafi bağlantı yarandı və bu, müharibənin birinci mərhələsinin yekunlarına əlbəttə ki, öz mənfi təsirini göstərmişdir.

1993-cü ildə xalqın tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra vəziyyət sabitləşdi. Əlbəttə, sabitlik başlıca şərt idi ki, Azərbaycan inkişaf etsin. Siyasi

sabitlik, ondan sonra iqtisadi sabitlik təmin edildi. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir, siyasi, iqtisadi islahatlar aparılmağa başlanmışdır. Bir sözlə, o tarix – 1993-cü il müstəqil Azərbaycanın yeni dövrünün başlaması idi. Əslində müstəqilliyimiz məhz o vaxt başlamışdır. O dövrdən başlayaraq bu günə qədər Azərbaycan sürətlə inkişaf edir.

Mayın 10-da - Ulu Öndərin doğum günündə o dövrü və ondan sonrakı dövrü mən geniş təhlil etdim. Bu gün Azərbaycan dövləti möhkəm əsaslar, milli maraqlar üzərində qurulub. Bizim milli ideologiyamız, azərbaycançılıq fəlsəfəsi bütün cəmiyyəti birləşdirir. Müstəqil Azərbaycan dövləti möhkəm milli dəyərlər üzərində qurulubdur. Bizim güclü iqtisadi dayaqlarımız var. İqtisadi potensial həm iqtisadi, həm də siyasi müstəqilliyimizi şərtləndirir. Beynəlxalq aləm Azərbaycanın dünyadakı rolunu qiymətləndirir və bizə çox böyük dəstək verir.

Ölkəmizdə bütün işlər müsbət istiqamətdə inkişaf edir. Bir neçə il bundan əvvəl yaşanan iqtisadi və maliyyə böhranı, - bu böhran bütün dünyanı bürümüşdü, - Azərbaycana çox az təsir etmişdir. Hazırda yenə də dünyada yaşanan siyasi, hərbi və iqtisadi böhran Azərbaycana təsir etmir. Ona görə ki, biz düşünülmüş siyasət aparırıq. Bizim siyasətimiz milli maraqlar üzərində qurulubdur. Milli maraqlar, Azərbaycan xalqının maraqları bizim üçün hər şeydən üstündür. Biz öz gələcəyimizi bunda görürük. Müstəqil siyasətin aparılması həm ölkədəki vəziyyəti daha da sabitləşdirir, eyni zamanda, dünya miqyasında Azərbaycan etibarlı tərəfdaş kimi tanınır. Bizim sözümüzün çəkisi var və bizim rolumuz həm regionda, həm qitədə, həm də dünyada artmaqdadır.

Biz buna özümüz nail olmuşuq - Azərbaycan xalqının zəhməti, istedadı hesabına və düşünülmüş siyasət nəticəsində. Heç kim bizə kömək etməmişdir. Bu gün reallıqlar onu göstərir ki, dünya miqyasında Azərbaycan kimi sürətlə inkişaf edən ölkə çətin tapılsın.

Eyni zamanda, ölkəmizdə ictimai proseslər müsbət istiqamətdə inkişaf edir. Azərbaycanda vətəndaş cəmiyyəti tam formalaşıb. Azərbaycanda azad cəmiyyət mövcuddur. Bütün azadlıqlar təmin edilir, o cümlədən iqtisadi, siyasi sahədə. Bu, bizim uğurlu inkişafımızı təmin edir. Baxın, dünyanın müxtəlif yerlərində qanlı toqquşmalar, müharibələr, böhranlar yaşanır. Əvvəldən qalan münaqişələr öz həllini tapmır, üstəgəl yeni münaqişə zonaları yaradılır. Bu, bizim gözümüzün qabağındadır. Ancaq Azərbaycan burada yenə də sabitliklə, düşünülmüş siyasətlə seçilir. Azərbaycan bu gərgin məkanda nəinki sabitlik adasıdır, eyni zamanda, sabitləşdirici amildir. Bizim bölgəyə çox müsbət təsirimiz var. Siyasi təşəbbüslər, iqtisadi, enerji, nəqliyyat təşəbbüsləri regional əməkdaşlığın əsasını təmin edir və burada Azərbaycanın rolu artır. Əlbəttə, bu, bizi sevindirir. Ancaq ən önəmlisi ondan ibarətdir ki, bizim artan beynəlxalq nüfuzumuz ölkəmizin inkişafına çox müsbət təsir göstərir.

Neftin qiymətinin aşağı düşməsi də bizə o qədər də böyük problem yaratmadı. Hər halda, bütün sosial proqramlar, nəzərdə tutulmuş bütün infrastruktur layihələri icra edilir. Əlbəttə ki, biz öz xərclərimizə yenidən baxmalı olduq. Ancaq hesab edirəm ki, burada müsbət məqamlar da çoxdur. Biz gələcəkdə öz maliyyə resurslarımızdan daha da qənaətlə istifadə edəcəyik, ölkəmizin və real sektorun inkişafı üçün daha çox diqqət göstərəcəyik, əsas vəsaiti bu istiqamətə yönəldəcəyik. Təbii ki, sosial proqramlar və sosial məsələlər, o cümlədən sosial infrastrukturun yaradılması da diqqət mərkəzində olacaqdır.

Bu gün bayram ərəfəsində mən qarşıda duran vəzifələr haqqında öz fikirlərimi bildirmək istəyirəm. Mən bu məsələlərlə bağlı mütəmadi qaydada öz sözlərimi deyirəm, çıxış edirəm, xalqa hesabat verirəm və gələcək istiqamətlər haqqında fikirlərimi çatdırıram.

Daxili siyasətlə bağlı bizim çox konkret proqramlarımız var. Azərbaycanda daxili sabitlik qorunur, bütün azadlıqlar təmin edilir. Gələcəkdə Azərbaycanda demokratiyanın

inkişafı prosesi daha da sürətlə gedəcək. Hüquqi dövlət quruculuğu prosesi də uğurla gedir. Bütün azadlıqlar bundan sonra da təmin ediləcək. Mətbuat azadlığı, söz azadlığı, siyasi fəaliyyət azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan, din azadlığı tam şəkildə təmin edilir və biz gələcəkdə də bu yolla gedəcəyik. Biz möhkəm demokratik əsaslar qururuq ki, ölkəmizin inkişafı dayanıqlı və uzunmüddətli olsun.

Azərbaycanda dinlərarası münasibətlər ən müsbət şəkildə tənzimlənir. Bunu Azərbaycan xalqı qeyd edir, görür. Eyni zamanda, Bakıya, Azərbaycana gələn bütün xarici qonaqlar da bunu qeyd edirlər ki, Azərbaycanda dinlərarası, mədəniyyətlərarası münasibətlər ən yüksək səviyyədə təmin edilir. Bu da bizim çox böyük sərvətimizdir və ölkəmizin gələcəkdə uğurlu, təhlükəsiz inkişafı üçün əsas şərtdir. Bundan sonra da Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayacaq. Bizim dövlət siyasətimiz bundan ibarətdir. Milli, etnik, dini müxtəliflik bizim böyük sərvətimizdir və bizim üçün güc mənbəyidir.

Cəmiyyəti narahat edən məsələlərlə bağlı konkret addımlar atılır. Korrupsiyaya, rüşvətxorluğa qarşı çox ciddi mübarizə aparılır. Həm inzibati tədbirlər, lazım gəldikdə cəza tədbirləri həyata keçirilir. Ən əsası odur ki, bu sahədə sistem xarakterli islahatlar, institusional islahatlar mühüm rol oynayır. Biz bu sahədə “ASAN xidmət”in fəaliyyətini qeyd etməliyik. Bu yaxınlarda “ASAN xidmət” BMT tərəfindən yüksək mükafatla təltif edilib. Qısa müddətdə, iki il ərzində 4 milyondan çox insan bu xidmətin imkanlarından faydalanıb. Biz bu şəffaflıq prinsiplərini bütün sistemimizə - dövlət quruculuğu sisteminə, maliyyə sisteminə tətbiq etməliyik və bu müsbət təcrübəni yaymalıyıq. Konkret tapşırıqlar verilib və əlavə tədbirlərin görülməsi üçün indi iş gedir.

İdarəetmə sahəsində müsbət islahatlar aparılır. Mən burada ictimai nəzarətin əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm. Mən bu barədə dəfələrlə fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm ki, bu, mənim çox səmimi fikirlərimdir. İctimai nəzarət olmasa ölkəmiz uğurla inkişaf edə bilməz. Bir adam - Prezident, yaxud da ki, rəhbər işçilər hər bir sahəni daim diqqət mərkəzində saxlaya bilməz. Ona görə, bəzi hallarda qanunsuzluqlar, qanun pozuntuları, sosial ədalətin pozulması halları baş verir. Bu, bizi çox üzür. Biz buna yol verə bilmərik. Bunun qarşısını almaq üçün mütləq çox güclü ictimai nəzarət olmalıdır. Belə olarsa, o zaman işlər daha da sürətlə gedər və xoşagəlməz halların aradan qaldırılması üçün yeni bir mexanizm yarana bilər. Burada əlbəttə ki, dövlət idarəetmə prinsiplərində ciddi islahatlar aparılmalıdır və eyni zamanda, ictimaiyyət də daha fəal olmalıdır. Biz bunu son vaxtlar görürük. Bizim ictimaiyyət hər hansı bir yerdə qanunsuzluqlar, pozuntular, ədalətsizliklər baş verdikdə dərhal reaksiya verir. Mən bunu alqışlayıram. Bu, bizə kömək edir. Bu canlı bağlantı daim olmalıdır və güclənməlidir.

Azərbaycanda daxili siyasətlə bağlı digər məsələlər də müsbət istiqamətdə tənzimlənir. Xalqla iqtidar arasında birlik bizim uğurlu inkişafımızın əsas şərtidir. Azərbaycanın uğurlu inkişafı təmin edilir.

Təhlükəsizliklə bağlı tədbirlər indi bütün ölkələri düşündürür. Biz bu işlərlə ciddi məşğuluq və məhz buna görə Azərbaycanda kriminogen durum çox müsbətdir. Biz adambaşına düşən cinayətlərin sayının azlığına görə dünyada ən yaxşı yerlərdən birini tuturuq. Azərbaycanda siyasi, iqtisadi islahatlar, insanların rifah halının yaxşılaşması, eyni zamanda, təhlükəsizlik tədbirlərinin tətbiqi nəticəsində bu gün deyə bilərəm ki, ölkədə daxili təhlükə mənbəyi yoxdur. Əlbəttə ki, xaricdən təhdidlər ola bilər, xüsusilə, terrorizmlə bağlı təhdidlər. Ancaq bizim hüquq mühafizə orqanları bu məsələlərlə bağlı ciddi fəaliyyət göstərirlər. Əminəm ki, Azərbaycan xalqı bundan sonra da təhlükəsizlik şəraitində yaşayacaqdır.

Ölkəmizdə çoxsaylı beynəlxalq tədbirlər keçirilir. Mən bunu alqışlayıram. Deyə bilərəm ki, bir çox hallarda bu tədbirlərin təşəbbüskarı da mənəm. Mən hesab edirəm

ki, bu, ölkəmizin inkişafı üçün çox vacibdir. Eyni zamanda, dünyada Azərbaycanı daha da çox tanıyacaqlar, Azərbaycana daha da çox hörmət edəcəklər. Deyə bilərəm, təmasda olduğum və Bakıya gələn bütün qonaqlarla apardığım söhbət əsnasında onlar qeyd edirlər ki, Azərbaycanın və Bakının bu qədər inkişaf etmiş ölkə və şəhər olduğunu gözləmirdilər.

Azərbaycanda siyasi tədbirlər, dövlət və hökumət başçılarının iştirakı ilə müzakirələr, forumlar, mədəniyyətlərarası forumlar keçirilir. Bu yaxınlarda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və Qlobal Bakı Forumu keçirilmişdir. Azərbaycanda Beynəlxalq Humanitar Forum keçirilir. Bu tədbirlər, eyni zamanda, idman tədbirləri, Avropa Oyunları, İslam Həmrəylik Oyunları, digər beynəlxalq idman yarışları Azərbaycanı dünyaya inkişaf edən, müasir, güclü dövlət kimi təqdim edir. Bu, özlüyündə Azərbaycana qoyulan investisiyaların həcmində də, turistlərin artan sayında da özünü göstərir. Yəni, həm imic, həm təqdimat, həm də real iqtisadiyyat baxımından bunlar çox önəmli tədbirlərdir. Biz gələcəkdə də Azərbaycanda müxtəlif qlobal tədbirlərin keçirilməsini təmin edəcəyik. Bu gün Bakı, Azərbaycan regionun iqtisadi, siyasi və mədəni mərkəzlərindən biridir.

Xarici siyasətlə bağlı bizim düşünülmüş addımlarımız ölkəmizin imicini yüksəldir. Bu da göz qabağındadır. Biz bütün ölkələrlə bundan sonra da bərabərhüquqlu əlaqələrin inkişafını təmin edəcəyik. Bu, xarici siyasətimizin əsas prinsiplərindən biridir. Biz daha çox ikitərəfli formata üstünlük veririk. Biz görürük ki, ikitərəfli formatda çox böyük nailiyyətlər əldə etmək olar - həm siyasi əlaqələr, həm də iqtisadi investisiya baxımından. Azərbaycanın ikitərəfli formatda heç bir ölkə ilə heç bir problemi yoxdur. Əksinə, biz bütün ölkələrlə çox sağlam əlaqələr yarada bilmişik. Bu əlaqələr əlbəttə ki, prinsiplər üzərində qurulmalıdır və qurulubdur. Bizim siyasətimiz həmişə bundan ibarət olmuşdur ki, burada bərabərhüquqlu, bir-birinə hörmət və bir-birinin işinə qarışmamaq prinsipləri əsasında üfüqi əlaqələr olmalıdır. Biz buna nail oluruq. Bizim həmişə təbliğ etdiyimiz bu prinsiplər bu gün başqa ölkələrlə əlaqələrimizdə üstünlük təşkil edir.

Beynəlxalq təşkilatlarla əlaqələrimiz də yüksək səviyyədədir. Biz beynəlxalq təşkilatlarda fəal iştirak edirik və bundan sonra da fəal iştirak edəcəyik. İlk növbədə, BMT-də və Qoşulmama Hərəkatında. Bu qurum BMT-dən sonra ölkələrin sayına görə ikinci təşkilatdır. Azərbaycan Qoşulmama Hərəkatına bir neçə il bundan əvvəl üzv olmuşdur və dərhal bu qurum Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü əsasında həlli ilə bağlı qətnamə qəbul etmişdir.

Azərbaycan müsəlman aləminin bir parçasıdır və İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının baş katibi ölkəmizdə olarkən Azərbaycanın rolu haqqında danışırdı. Eyni zamanda, biz Avropa Şurasının üzvüyük və bu yaxınlarda Avropa Şurasına sədrlik edirdik. Bu əməkdaşlıq da həm bizim, həm də Avropa Şurası üçün çox önəmlidir. Bu yaxınlarda III Beynəlxalq Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində qeyd edilirdi ki, məhz Azərbaycan "Bakı prosesi"nin müəllifi olmuşdur. "Bakı prosesi" Avropa Şurası ilə İslam Əməkdaşlıq Təşkilatı arasında mədəniyyət sahəsində və başqa sahələrdə dialoqun əsasını təşkil etmişdir.

Bizim bu nadir rolumuz bu gün həm müsəlman aləmində, həm də Avropada yüksək qiymətləndirilir. Sizə deyə bilərəm ki, heç bir başqa ölkə hazırda bu rolu öz üzərinə götürə bilməz, götürsə də bizim qədər uğur əldə edə bilməz. Çünki Azərbaycanda bu müsbət prosesin inkişafı üçün çox möhkəm tarixi əsaslar var. Əsrlər boyu Azərbaycanda multikulturalizm meyilləri yaşayıb. Sadəcə olaraq bu, yeni söz olduğu üçün biz bu sözü bilmirdik və bu sözü tələffüz etmək o qədər də asan deyil. Ancaq bu anlayış Azərbaycanda həmişə var idi. Üstəgəl bu gün bizim dövlət siyasətimiz də bu əsaslar üzərində qurulur və bu siyasət real siyasətdir. Bu, hansısa şüar naminə deyilən sözlər deyil. Çünki, bilirsiniz, beynəlxalq aləmdə, hər kəs şüarı real işdən ayıra bilir. Ona görə, bu nadir rolu Azərbaycan öz üzərinə

götürüb. Götürməyə də bilərdi. Götürməsəydik də, bilirsiniz, hər halda bizim iqtisadi, siyasi inkişafımız üçün heç bir problem yaranmazdı. Amma biz bu rolu üzərimizə götürürük. Çünki biz istəyirik ki, dünyada müsbət meyillər üstünlük təşkil etsin. Biz istəyirik ki, dinlərarası əlaqələr normal, sağlam məcrada olsun. Əks təqdirdə, dünyada parçalanma meyilləri daha da güclənəcək. Biz onu görürük. Hazırda dini, milli zəmində, məzhəb əsasında qarşıdurmalar, qanlı toqquşmalar dünyanı fəlakətə aparır. Əlbəttə ki, ölkəmizin dünya xəritəsindəki coğrafi yeri o qədər də böyük deyil. Amma gördüyümüz işlər çox böyükdür. Biz bundan sonra da bu istiqamətdə səylərimizi göstərəcəyik.

Xarici siyasətimizin əsas problemi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Burada da bizim siyasətimiz və mövqeyimiz birmənalıdır. Birincisi, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Erməni lobbisinin çirkin səylərinə baxmayaraq, hesab edirəm, biz son illər ərzində apardığımız siyasət nəticəsində sübut edə bilmişik ki, bu, əzəli Azərbaycan torpağıdır. İkincisi, Dağlıq Qarabağ bütün beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınır. Biz BMT-yə üzv olduqda Dağlıq Qarabağ da bütün dünya tərəfindən Azərbaycanın tərkib hissəsi, Azərbaycanın bir parçası kimi qəbul edildi. Bu gün siyasi müstəvidə, əlbəttə ki, Azərbaycanın siyasi çəkisi Ermənistanın çəkisi ilə müqayisəedilməz dərəcədədir. Üçüncüsü, iqtisadi amildir. Azərbaycan iqtisadiyyatı Ermənistan iqtisadiyyatından ən azı on dəfə böyükdür və güclüdür. Əlbəttə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi var. Postsovet məkanında buna oxşar münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası qətnamə qəbul etməyib. Ancaq bu məsələ ilə bağlı qəbul olunmuş qətnamələrdə açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır. Ermənistan bunu nə qədər təhrif etməyə çalışsa da, mümkün deyil, çünki bu, yazılıb və dərc edilib. Odur ki, siyasi, tarixi, hüquqi əsaslar var, onların hamısı bizim mövqeyimizi dəstəkləyir.

Eyni zamanda, Azərbaycanda çox müsbət demoqrafik dinamika var, əhalimizin sayı artır. Artıq 9 milyon 600 mindir. Ermənistanda isə əhali azalır. Həm təbii azalma, həm də ki, kütləvi köç baş alıb gedir. Onların rəsmi statistikasına görə, hər il təxminən 70-80 min vətəndaş Ermənistanı həmişəlik tərk edir. Hesab edirəm ki, real statistika bundan daha böyükdür. Ona görə, bu güclər nisbəti göz qabağındadır. Münaqişə ancaq ölkələrin ərazi bütövlüyü çərçivəsində həllini tapa bilər.

Azərbaycanın ərazi bütövlüyü heç bir başqa ölkənin ərazi bütövlüyündən az əhəmiyyət kəsb etmir. Bunu hamı bilməlidir. Məsələ ərazi bütövlüyü çərçivəsində həllini tapacaq. Dağlıq Qarabağa heç vaxt heç bir müstəqillik verilməyəcək. Azərbaycan bunu heç vaxt qəbul etməyəcək və dünya bunu heç vaxt tanımayacaq. Bu yaxınlarda orada separatçı rejim və Ermənistan tərəfindən keçirilmiş saxta və qanunsuz "seçkilər" bir daha onu göstərdi ki, heç kim bunu tanımayıb və ölkələrin bir çoxu bu "seçkilər"i qınayıb.

Ordu quruculuğu prosesi bundan sonra da sürətlə gedəcək. Bu, bizim diplomatik sahədə apardığımız səylərə böyük dəstəkdir. Son vaxtlar, keçən ilin yayından başlayaraq bu günə qədər Azərbaycan Ordusu təmas xəttində tam üstünlüyü təmin edib və düşmənə sarsıdıcı zərbələr endirib. Bu gün artıq Ermənistan rəhbərliyi etiraf edir ki, xarici yardım olmadan Azərbaycanın qabağını almaq mümkün olmayacaq. Biz isə həmişə deyirik ki, siz əgər ölmək istəmirsinizsə Dağlıq Qarabağdan, işğal edilmiş torpaqlardan çəkilin. Ondan sonra sülh yarana bilər, ondan sonra Azərbaycan və erməni xalqları barışa bilərlər. Biz hər halda gələcəyi belə görürük. Biz hesab edirik ki, bu ədavət və düşmənçilik əbədi ola bilməz. Amma buna, ilk növbədə, sülhə nail olmaq üçün erməni silahlı qüvvələri Dağlıq Qarabağdan və işğal edilmiş torpaqlardan çəkilməlidir. Burada ən məqbul variant mərhələli həlldir. Biz dəfələrlə bu barədə öz sözümüzü demişik. Ancaq mərhələli həll burada

məsələnin həllinə gətirib çıxara bilər. Əks təqdirdə, Ermənistan bundan sonra da daim qorxu, təşviş, isterika, vahimə içində yaşayacaq və gün gələcək ki, artıq Azərbaycan Ordusu öz sözünü deməli olacaq.

Bütün bu müsbət inkişafın təməlində əlbəttə ki, bizim iqtisadi islahatlarımız, iqtisadi uğurlarımız dayanır. Mən bu barədə də kifayət qədər öz sözlərimi demişəm. Bütün iqtisadi göstəricilər ən müsbət mənzərə yaradır. Hətta bu il neftin qiymətinin iki dəfə aşağı düşməsinə baxmayaraq, iqtisadiyyatımız ötən dörd ayda beş faizdən çox, qeyri-neft sektorumuz təxminən yeddi faiz artıb. Qeyri-neft sektorumuz ümumi daxili məhsulumuzun təxminən 70 faizini təşkil edir. Valyuta ehtiyatlarımız ümumi daxili məhsulumuzun təxminən 70-75 faizini, bəlkə də daha çox təşkil edir. Xarici borc 10 faiz ətrafındadır. Yoxsulluq, işsizlik beş faiz səviyyəsindədir. Daha bundan artıq deməyə söz qalmır və ehtiyac da yoxdur.

Gələcəklə bağlı siyasətimiz ondan ibarətdir ki, qeyri-neft sektorunun, sahibkarlığın inkişafı təmin ediləcək. Azərbaycanda dayanıqlı inkişaf modeli tətbiq edilir. Əlbəttə ki, gələcəkdə sənayenin inkişafı, kənd təsərrüfatı istehsalının, ixrac potensialımızın artırılması daim diqqət mərkəzində olacaqdır.

Azərbaycanda indi sənayeləşmə prosesi gedir. Kənd təsərrüfatı da sürətlə inkişaf edir. Bu il “Kənd təsərrüfatı ili” elan edilmişdir. Əsas hədəfimiz budur ki, biz özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz təmin etməliyik. Həmçinin güclü rəqabətqabiliyyətli ixrac potensialı da yaratmalıyıq. Çünki gələcəkdə kənd təsərrüfatımız ancaq ixrac hesabına sürətlə inkişaf edə bilər. Yaxın bir neçə il ərzində biz daxili tələbatı tam yerli istehsal hesabına təmin edəcəyik.

Nəqliyyatla bağlı gələcək planlarımız artıq görülmüş işlər əsasında qurulur. Ümid edirəm ki, Bakı-Tbilisi-Qars dəmir yolu yaxın vaxtlarda işə düşəcək. Bu da dünya üçün çox əhəmiyyətli layihədir. Hazırda Azərbaycanda yeddi aeroport fəaliyyət göstərir, onlardan beşi beynəlxalq statusa malikdir. Xəzərdə ən böyük dəniz limanı yaradılır. Eyni zamanda, gəmiqayırma zavodu işə düşüb, vaqonqayırma zavodu tikilir. Yəni, Azərbaycan logistik və nəqliyyat mərkəzi kimi artıq dünya xəritəsində öz mövcudluğunu təsdiq edir. Gələcəkdə bu sahəyə qoyulacaq investisiyalar əlbəttə ki, çoxşaxəli nəqliyyat infrastrukturunun yaradılmasına kömək göstərəcək. Şimal–Cənub və Şərq-Qərb dəhlizləri Azərbaycan ərazisindən keçir. Hər iki istiqamətdə çox fəal iş aparılır.

Son müddət ərzində, keçən bayramlardan sonra, görün, energetika sahəsində nə qədər əhəmiyyətli hadisə baş vermişdir. Keçən il sentyabrın 20-də “Cənub” qaz dəhlizinin təməli qoyulmuşdur. O tarix də çox rəmzi məna daşıyır. Ondan sonra Bakıda “Cənub” qaz dəhlizinin Məşvərət Şurasının ilk toplantısı keçirilmişdir. Mart ayında isə Türkiyədə TANAP layihəsinin təməli qoyulmuşdur. İndi bütün səylərimiz ona yönəlib ki, bizi Gürcüstanla birləşdirən Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsini və TANAP-Trans-Anadolu layihəsinin inşasını vaxtında, bəlkə də vaxtından əvvəl təmin edək. Məncə, biz qarşımıza qoyduğumuz hədəflərə vaxtında, bəlkə də daha tez çatacağıq. Eyni zamanda, ümid edirəm ki, TAP-Trans-Adriatik layihəsinin qarşısında da heç bir süni əngəl meydana çıxmayacaq. Çünki əgər belə əngəl olarsa, o zaman əlbəttə ki, burada udan tərəf olmayacaq.

Onu da qeyd etməliyəm ki, Azərbaycanın zəngin qaz resursları bizi və tərəfdaşlarımızı bundan sonra ən azı 100 il ərzində təmin edəcək. Əlbəttə ki, bizim bazarlara çıxışımızla bağlı konkret addımlar atılır. Əgər TAP layihəsində hər hansı bir problem yaranarsa, o zaman biz qazımızı daha çox Türkiyə bazarına ixrac edəcəyik. Hər halda, onu qeyd etməliyəm ki, bazarlarla bağlı bizim heç bir narahatlığımız yoxdur. Sadəcə olaraq, TAP iştirakçılarının hamısı gərək məsuliyyətli davransınlar və süni şəkildə problem yaratmasınlar. Gələcəkdə əlbəttə ki, “Cənub” qaz dəhlizinin tam şəkildə işə düşməsi “Şahdəniz” yatağının işlənməsi ilə bərabər bizim strateji hədəfimizdir.

Əslində qarşıda duran vəzifələr daha da çoxdur, bir çıxışda onların hamısını qeyd etmək mümkün deyil. Sadəcə olaraq, bəziləri haqqında fikirlərimi bildirdim. Həm söylədiyim sözlər, həm aparılan təhlil, həm gələcəyə olan baxışlarımız bir daha bizi əmin edir ki, Azərbaycanın inkişafı davamlı olacaq. Biz bundan sonra da inkişaf yolu ilə gedəcəyik. Bu inkişafın əsası bizim müstəqilliyimizdir. Müstəqilliyimiz bizim ən böyük dəyərimizdir, ən böyük sərvətimizdir. Biz müstəqilliyi qoruyuruq və qoruyacağıq.

Sağ olun.

* * *

Sonra bədii proqram nümayiş etdirildi.

*27 may 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT ETMİŞDİR

Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.

Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.

* * *

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın tarixinə şanlı hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurmağı qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarıb, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirib.

Doxsan yeddi il əvvəl mayın 28-də Tiflisdə qəbul edilmiş "İstiqlal Bəyannaməsi"ndən – "Əqdnamə"dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirib.

XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarıb. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüb, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar edib. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoyub.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoyub. Xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı bu şərəfli tarixi - 28 Mayı Respublika Günü kimi qeyd edir.

*27 may 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV "BAKI AĞ ŞƏHƏR" BULVARININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

İyunun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Arzu Əliyeva Bakı Ağ Şəhər bulvarının açılışında iştirak ediblər.

Yeni "Ağ Şəhər bulvarı" layihəsi çərçivəsində işlər yüksək səviyyədə həyata keçirilib. Bu bulvar əvvəllər paytaxtın "Qara şəhər" kimi tanınan və bir çox sənaye müəssisələ-

rinin yerləşdiyi ərazisində Prezident İlham Əliyevin tapşırığı ilə ən müasir standartlara uyğun şəkildə salınıb.

Prezident İlham Əliyev bulvarın rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısının Sərəncamı ilə inşa olunan Bakı Ağ Şəhər bulvarının uzunluğu 2,7 kilometr, sahəsi 33 hektardır. Burada gələcəkdə Uşaq kinoteatrının inşası da nəzərdə tutulub. Yeni bulvarda basketbol, voleybol və iki futbol meydançası, ümumilikdə dörd yeni meydança inşa edilib. Bundan başqa, açıq havada yaradılan trenajor sahəsi də istirahətə gələnlərin ixtiyarına veriləcək.

Prezident İlham Əliyev təməli qoyulduğu ilk gündən başlayaraq Ağ Şəhər bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə mütəmadi maraqlanıb, layihənin yüksək keyfiyyətlə icra olunmasına şəxsən nəzarət edib.

**Burada istirahət edən sakinləri salamlayan Prezident İlham ƏLİYEV dedi:**

-Necəsiniz? Necə istirahət edirsiniz?

SAKİNLƏR: Çox sağ olun. “Son zəng”lə bağlı istirahət edirik.

Prezident İlham ƏLİYEV: Çox yaxşı. Burada yeni yol açılıb, köhnə bulvar Ağ Şəhər bulvarı ilə birləşib.

SAKİNLƏR: Bəli, çox sağ olun.

Azərbaycan Prezidenti və xanımı sakinlərlə xatirə şəkli çəkdirdilər.

Yeni bulvarın inşası ekologiyası bərpa edilən sənaye zonasında həyata keçirilən və dünyanın ən iri müasir layihələrindən biri olacaq “Bakı Ağ Şəhər” layihəsini tamamlayır. Bundan başqa, bu layihənin reallaşması paytaxtımızın simasını daha da gözəlləşdirir. Bu bulvardakı “Bulvar Hotel”dən Bayıl bulvarındakı Bakı Su İdmanı Sarayının qarşısınadək xüsusi qatarlar da hərəkət edəcək. Qatarların bulvar boyu bir neçə yerdə dayanacağı olacaq.

Ağ Şəhər bulvarında infrastruktur ən müasir tələblər səviyyəsində yaradılıb. Bu nəhəng istirahət guşəsi sürətlə böyüyən və inkişaf edən Bakının görməli və gəzməli yerlərinə yeni bir ünvan da artırdı.

Bakı Ağ Şəhər bulvarı Ağ Şəhərdən Xəzərə açılan mənzərəni xüsusi bir yaraşıqla daha da cazibədar edir. Belə müasir istirahət məkanının dünyanın diqqət mərkəzində olan birinci Avropa Oyunları ərəfəsində istifadəyə verilməsi şəhərimizə gələn turistlərin istirahətini yüksək səviyyədə təmin etmək üçün şərait yaradır. Bu layihə bir daha onu göstərir ki, Bakının inkişafı ilə bağlı qarşıya qoyulan bütün məqsədlərə vaxtında və keyfiyyətlə nail olunur.

***1 iyun 2015-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASININ YAXINLIĞINDA SALINAN YENİ PARKDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva paytaxtın Yasamal rayonunda Azərbaycan Milli Konservatoriyasının inzibati-tədris kompleksinin yaxınlığında salınan yeni parkda yaradılan şəraitlə tanış olublar.

Parkda geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, dekorativ bəzək və gül kolları əkilib, oturacaqlar qoyulub, müasir fəvvarə quraşdırılıb. Azərbaycan Milli Konservatoriyasının yeni inzibati-tədris kompleksinin yaxınlığında yerləşən bu müasir istirahət məkanının özəlliyini artıran məqamlardan biri də odur ki, burada klassik musiqilər səsləndiriləcək. Bu da parka gələnlər üçün əlavə mənəvi istirahət imkanı yara-

dacaq. Bir sözlə, yeni parkda sakinlərin istirahətini mənalı təşkil etmək üçün bütün zəruri işlər görülüb.

Son dövrlərdə Prezident İlham Əliyevin tapşırığı ilə Bakı şəhərində parklar və xiyabanlar əsaslı şəkildə yenidən qurulur, yeni istirahət guşələri yaradılır. Bütün bunlar sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığı üçün reallaşdırılan layihələrin bir hissəsidir. Bu park da Bakı şəhərinin simasının daha da gözəlləşməsi baxımından olduqca əhəmiyyətlidir. Bu cür layihələrin icrası bir daha sübut edir ki, paytaxtımızın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır, onlar yüksək keyfiyyətlə və vaxtında yerinə yetirilir.

Müasir üslubda, orijinal dizaynda yaradılan bu park ilə Bakının gəzməli yerlərinə daha bir ünvan əlavə edilib. Beləliklə, "Bakı-2015" birinci Avropa Oyunları ərəfəsində açılan bu park ölkəmizə gələn qonaqlara paytaxtımızın daha bir istirahət mərkəzinin gözəlliyini nümayiş etdirəcək.

*4 iyun 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV DƏNİZKƏNARI MİLLİ PARKDAKI "SADKO" LİMANINDA "BAKI-2015"İN MƏŞƏLİNİ QƏBUL ETMİŞDİR

Avropa idman tarixində yeni səhifə açacaq "Bakı-2015"-in başlamasına sayılı günlər qalır. Birinci Avropa Oyunlarının aprelin 26-da qədim od məbədi olan "Atəşgah"da start götürən məşəli Azərbaycanın hər bir guşəsini gəzib-dolaşaraq 60 rayonun sakinlərinə bu Oyunların ruhunu çatdırıb.

Avropa Oyunlarının yoluna işıq saçan məşəl bölgələrə və əfsanəvi Neft Daşlarına səyahətini başa çatdırdıqdan sonra iyunun 7-də paytaxt Bakıya gətirilib.

Məşəli Bakının Dənizkənarı Milli Parkındakı "Sadko" limanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qəbul edib.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri elektromobillə "Sadko" limanına gəldilər.

Burada şəhər ictimaiyyətinin nümayəndələri, Bakının qonaqları, idmançılar, Avropa Oyunlarının könüllüləri dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Məşəli Neft Daşlarından Bakıya gətirən kater limana yan aldı.

Azərbaycan Prezidenti İlham Əliyev neftçi Nahid Nuriyevdən məşəli qəbul etdi.

Dənizkənarı Milli Parka toplaşanlar məşəllə irəliləyən dövlətimizin başçısını "Yaşasın Azərbaycan!", "Prezident İlham Əliyevə eşq olsun!", "Birinci Avropa Oyunlarına uğurlar!" nidaları ilə alqışladılar.

Azərbaycan Prezidenti birinci Avropa Oyunlarının məşəlini Böyük Vətən Müharibəsinin veteranı Fatma Səttarovaya təqdim etdi.

Bununla da birinci Avropa Oyunlarının məşəlinin Bakı estafeti başladı.

Qürurverici çoxsaylı idman yarışlarını özündə birləşdirən birinci Avropa Oyunlarının məşəlinin Bakı marşrutunun növbəti məkanı möhtəşəm Ağ Şəhər bulvarı oldu. Çoxsaylı məşəlçilərin bir-birinə ötürdükləri "Bakı-2015"-in məşəli estafet boyunca böyük coşqu ilə qarşılandı. Ağ Şəhər bulvarına səyahətini başa çatdıran məşəl yenidən paytaxtın mərkəzinə doğru irəlilədi.

Paytaxtın Neftçilər prospekti daha izdihamlı idi. "Bakı-2015"-in məşəlçisi şərəfinə layiq görülmüş xalq artisti Arif Babayev burada məşəli Azərbaycanın birinci xanımı, ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya təqdim etdi.

Süvarilərin müşayiəti, bu unudulmaz anların sevincini yaşayan çoxsaylı insanların sürəkli alqışları altında birinci xanım Mehriban Əliyeva məşəli Montröy Beynəlxalq caz festivalının qalibi, əməkdar artist, "Zirvə" dövlət mükafatı laureatı, pianoçu və bəstəkar İsfar Sarabskiyə ötürdü.

Sonra məşəli Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva daşıdı.

Sərbəst güləş üzrə Avropa çempionu, yeniyetmələrin II Yay Olimpiya Oyunlarının qızıl medalçısı İqbal Hacızadədən "Bakı-2015"-in məşəlini Arzu Əliyeva qəbul etdi.

Sərbəst güləş üzrə dünya və Avropa çempionatlarının qalibi Hacı Əliyev məşəli növbəti estafetçiyə - Heydər Əliyevə təqdim etdi.

"Bakı-2015"-in məşəlini bir-birinə ötürən məşəlçilərin estafeti Dövlət Bayrağı Meydanından və "Baku Crystal Hall"dan keçərək açılış mərasiminə qədər gecələr saxlanılacaq məkana – Qız Qalasına gətirildi. Burada məşəli sonuncu estafetçi - Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti, Olimpiya çempionu Namiq Abdullayevdən qəbul etdilər.

Ümumilikdə şəhər boyunca məşəl 16 kilometr məsafədə 100 məşəlçi tərəfindən daşındı.

Məşəlçilərdən biri olan Azərbaycan Respublikasının gənclər və idman naziri, "Bakı-2015" Avropa Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov dedi: "Məşəl səyahəti ötən altı həftə ərzində Azərbaycan ictimaiyyətinin Avropa Oyunları barədə məlumatını artırıb. Bu axşam keçirilən şənliklərdə digər bölgələrin əhalisi kimi, Bakı sakinlərinin və şəhərimizin qonaqlarının da böyük maraqla iştirak etdiyini görmək möhtəşəm duyğular yaradır. Açılış mərasimi ərəfəsində paytaxt Bakıda məşəl səyahəti insanlarda maraq hissini gücləndirir. Əminəm ki, növbəti dörd gün ərzində Bakının bütün füsunkarlığını bu mərasimlərdə bir daha əyani görəcəyik".

*7 iyun 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA OYUNLARI PARKININ QARŞISINDA YARADILMIŞ PARKDAKI ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva iyunun 8-də Avropa Oyunları Parkının qarşısında yaradılmış parkdakı şəraitlə tanış olublar.

Dövlətimizin başçısının diqqətinə çatdırılıb ki, ümumi sahəsi 15,5 hektar olan parkda müasir suvarma və işıqlandırma sistemləri quraşdırılıb, gəzinti yolları salınıb, geniş yaşıllaşdırma işləri görülüb. Burada quraşdırılan fəvvarələr istirahətə gələnlərin zövqünü oxşayacaq. Park füsunkarlığı və səliqə-sahmanı ilə diqqəti cəlb edir. Sakinlərin asudə vaxtlarını səmərəli təşkil etmək məqsədi ilə parkda üç kafe yaradılıb.

Prezident İlham Əliyev "Park Land" kafesinin rəmzi açılışını bildirən lenti kəsdi.

Müasir tələblər səviyyəsində yaradılan bu iaşə obyektində müştərilərə yüksək səviyyədə xidmət göstərmək üçün bütün imkanlar var.

Bu istirahət ocağı da Azərbaycanda aparılan yenidənqurma tədbirlərinin miqyası və keyfiyyətinin əyani göstəricilərindəndir. Parkda milli memarlıq üslubu ilə beynəlxalq təcrübə böyük peşəkarlıqla uzlaşdırılıb.

*8 iyun 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV BAYIL BULVARININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

İyunun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Bayıl bulvarının açılışında iştirak ediblər.

Dövlətimizin başçısına məlumat verildi ki, Bayıl bulvarının inşasına 2013-cü ildə başlanılıb. Layihə çərçivəsində bulvarda işlər yüksək səviyyədə həyata keçirilib. Ümumi sahəsi 24 hektar olan yeni istirahət mərkəzinin uzunluğu 2,3 kilometrdir. Burada 16 hektar yaşıllıq zonası yaradılıb.

Dövlətimizin başçısı Bayıl bulvarının rəmzi açılışını bildirən lenti kəsdi.

Yeni istirahət mərkəzində müasir işıqlandırma və suvarma sistemləri quraşdırılıb. Dövlət Bayrağı Meydanı istiqamətindən başlayan Bayıl bulvarında görülən işlər Dənizkənarı Milli Parkın simasını daha da gözəlləşdirir, paytaxta xüsusi yaraşıq verir. Bu cür istirahət mərkəzlərində yaradılan infrastrukturun ən müasir tələblər səviyyəsində olması sakinlərin rahatlığı baxımından mühüm əhəmiyyətə malikdir. Xəzərə açılan mənzərə buraya gələn sakinlərin və turistlərin zövqünü oxşayacaq.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Bakının müasirləşməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində son illərdə yeni istirahət guşələrinin, park və xiyabanların yaradılması xüsusi əhəmiyyət daşıyır. Müasir istirahət mərkəzləri içərisində Bayıl bulvarının özünəməxsus yeri var.

Bir neçə gündən sonra paytaxtımızda əlamətdar və tarixi idman bayramına - birinci Avropa Oyunlarına start veriləcək. Bayıl bulvarının məhz dünyanın diqqət mərkəzində olan birinci Avropa Oyunları ərəfəsində istifadəyə verilməsi çox önəmlidir. Ölkəmizə gələn turistlər Bakıda aparılan abadlıq-quruculuq və yenidənqurma işlərinin miqyası ilə yaxından tanış olmaq imkanı əldə edəcəklər.

*8 iyun 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YARAT MÜASİR İNCƏSƏNƏT MƏRKƏZİNİN İLK DAİMİ MƏKANI İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva iyunun 8-də YARAT Müasir İncəsənət Mərkəzinin ilk daimi məkanı ilə tanış olublar.

Diqqətə çatdırılıb ki, YARAT-ın yeni məkanı 1960-cı illərdə dəniz gəmiləri üçün texniki baza kimi fəaliyyət göstərən, sonradan bərpa edilən binada yerləşir. Bərpa nəticəsində ikimərtəbəli dəbdəbəli sərgi məkanı yaradılıb. Yeni kitabxananın fəaliyyət göstərəcəyi bu məkanda YARAT-ın keçirdiyi sərgilər və il ərzində aparıcı beynəlxalq rəssamlar tərəfindən yeni yaranan hərəkatların dörd müvəqqəti sərgisi nümayiş olunacaq. Auditoriya nümayişlər, performanslar və YARAT-ın maarifləndirici tədbirləri üçün xüsusi məkan rolunu oynayır. Bu mərkəzin başlıca prinsipi təhsil proqramlarını daha da inkişaf etdirmək və beynəlxalq rəssamlar, auditoriya və institutlarla əməkdaşlığı gücləndirməkdir.

*8 iyun 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV FONDUNUN YENİ LAYİHƏSİ OLAN "XX-XXI ƏSR AZƏRBAYCAN RƏNGKARLIĞI" EKSPOZİSİYASININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

İyunun 8-dən Dövlət Bayrağı Meydanı ərazisində Heydər Əliyev Fondunun daha bir layihəsi olan yeni ekspozisiya açılıb. Bu, ölkəmizin təsviri incəsənətinin inkişafının yüzillik tarixini əhatə edən "XX-XXI əsr Azərbaycan rəngkarlığı" ekspozisiyasıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva ekspozisiyanın açılışında iştirak ediblər.

Məlumat verildi ki, burada özündə dəzgah rəngkarlığının əsasını qoymuş ilk peşəkar rəssamlarla yanaşı, həm tanınmış korifeylərin, həm də qismən unudulan sənətkarların əsərləri sərgilənir.

Müasir Azərbaycanın təsviri incəsənət tarixi nisbətən gəncdir və XX yüzilliyin birinci yarısına təsadüf edir. Avropa incəsənət ənənələri Azərbaycana hələ XVIII əsrdən nüfuz etməyə başlayıb. Lakin müasir təsviri incəsənət məktəbinin formalaşmasında ciddi və əhəmiyyətli addım Bakıda 1920-ci ildə ilk Rəssamlıq Məktəbinin açılışı ilə atılıb. Artıq Rəssamlıq Məktəbinin ilk buraxılışı Azərbaycana əsl sənətkarları – milli rəngkarlıq məktəbinin formalaşmasının əsasında duran çox müxtəlif və son dərəcə istedadlı rəssamları bəxş edib. Milli rəngkarlıq məktəbinin inkişafında növbəti mərhələdə rəssam-nonkonformistlər tamamilə başqa bədii -plastik məsələləri həll etməklə Azərbaycanda avanqardizm üçün yol açıblar. Onların əsərləri müasir təsviri incəsənətin əsasını qoyub. Bu parlaq və bənzəri olmayan sənətkarların yaradıcılıq metodu "Abşeron rəngkarlıq məktəbi" adını alıb.

Bu gün Azərbaycanda incəsənətin inkişafı üçün bütün imkanlar mövcuddur. Yeni formasiya rəssamlarının yaradıcılığı əsl düşüncə oyunlarıdır.

Sərgi realizm, modernizm və postmodernizm kimi bir-birindən fərqlənən bədii istiqamətlərdən bəhs edir və Azərbaycan təsviri incəsənətinin parlaq, sirli və dərkedilməz dünyası ilə tanış olmağa imkan yaradır.

*8 iyun 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DAŞ SALNAMƏ MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Birinci Avropa Oyunları ərəfəsində paytaxt sakinləri və şəhərimizin qonaqları üçün Bakıda Heydər Əliyev Fondunun layihəsi olan yeni mədəniyyət obyekti fəaliyyətə başladı. Dövlət Bayrağı Meydanı ərazisində Daş salnamə muzeyinin açılışı oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva muzeylə tanış oldular.

Dövlətimizin başçısı və xanımına muzey haqqında məlumat verildi. 1921-ci ildə inşa olunan və vaxtilə neft mədənlərinin enerji təminatı üçün nəzərdə tutulan elektrik stansiyasının binası bərpa işlərindən sonra muzey kimi fəaliyyət göstərəcək. Azərbaycanda mənəvi həyatın ən arxaik xüsusiyyətləri məhz daş plastika ənənələrində saxlanılıb.

«Daş salnamə» sərgisinin ekspozisiyası daş plastikanın bir çox növlərini əhatə edir. Azərbaycanın daş plastikası tarixinə həsr edilmiş «Daş salnamə» ekspozisiyasına «Qo-

bustan» və «Qala» qoruqlarından gətirilmiş eksponatlarla yanaşı, heykəltəraş Hüseyn Haqverdinin əsərləri də daxildir. Bu əsərlərdə sanki ötən dövrlərin əks-sədası eşidilir. Heykəltəraş bu sərgidə «Arteriya» adlandırdığı səpkidə bir tarixi təqdim edir. Azərbaycan torpağı ən qədim dövrlərdən daş plastikasının inkişafına imkan verən müxtəlif daş növlərinin zənginliyi ilə məşhurdur. Azərbaycanın müxtəlif guşələrində aşkar edilən çoxlu sayda daş plastikasının gözəl nümunələri ilə yanaşı, qədim eksponatların əhəmiyyətli hissəsini funksional məna daşıyan və heç bir bəzəyi olmayan müxtəlif məişət əşyaları təşkil edir. Minilliklər boyunca və bu günə qədər daş plastika həm incəsənətin bir növü, həm də maddi mədəniyyətin ayrılmaz hissəsi kimi ənənələrimizi, Azərbaycan xalqının mənəvi dəyərlərini və dünyagörüşünü əsrlərdən-əsrlərə adladaraq öz sonsuz salnaməsini yazmaqda davam edir.

Epiqrafik abidələr də tarixin öyrənilməsində ən qiymətli mənbədir. Yazılı mənbələrdə nadir hallarda yer alan məlumatlar daşlar üzərindəki yazılarda saxlanılır. Ekspozisiyada müxtəlif məzmunlu epiqrafik yazılar qorunub saxlanılır, xatirə plastikasının qiymətli eksponatları təqdim edilir. Bütövlükdə, sənduqələr və başdaşılarında orta əsr dövrünün müxtəlif ictimai-siyasi, sosial, mədəni, ideoloji hadisələri haqqında orijinal informasiya verilir.

Muzeyi ziyarət edən qonaqlar sərgidə təqdim edilən eksponatlar vasitəsilə Azərbaycanda daş plastika ənənələrinin tarixi inkişaf və təkamül mərhələlərini əyani şəkildə izləyə biləcəklər.

*8 iyun 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN EVİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

İyunun 13-də Bakıda, Dövlət Bayrağı Meydanı ərazisində Azərbaycan Evi fəaliyyətə başlayacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva iyunun 8-də Azərbaycan Evində yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısına məlumat verildi ki, Azərbaycan Evində birinci Avropa Oyunları zamanı hər axşam yarışların nəticələri, idmançıların uğurları müzakirə ediləcək, qaliblərin şərəfinə bayramlar təşkil olunacaq. Müasir üslubda qurulan bu məkan əslində hər bir Olimpiadanın ayrılmaz hissəsi hesab edilir. Burada idmançılara, şəhərimizin qonaqlarına əyləncəli proqramlar təqdim ediləcək.

Azərbaycan Evində qonaqların həm istirahəti, həm də onların öz sevimli komandaları və idmançılarının uğurlarının sevincini bölüşmək üçün hər cür şərait yaradılıb.

*8 iyun 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİNİ QƏBUL ETMİŞDİR

İyunun 22-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini qəbul edib.

**Görüş iştirakçılarını salamlayan Prezident İlham ƏLİYEV dedi:**

- Hörmətli səfirlər, mən sizi ürəkdən salamlayıram.

Bizim görüşlərimiz Ramazan ayında ənənəvi xarakter daşıyır və sizi görməyimə çox şadam.

Xahiş edirəm ki, mənim səmimi salamlarımı və xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Təmsil etdiyiniz ölkələr ilə Azərbaycanın çox sıx əlaqələri var. Biz ikitərəfli formatda gözəl əməkdaşlıq edirik və bu əməkdaşlıq gündən-günə dərinləşir. Biz maraqlıyıq ki, müsəlman ölkələri ilə siyasi, iqtisadi əlaqələrimiz, mədəniyyət sahəsində əlaqələr daha da inkişaf etsin. Eyni zamanda, biz beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik. Xüsusilə, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında bizim əməkdaşlığımız çox yüksək səviyyədədir.

Son vaxtlar İslam Əməkdaşlıq Təşkilatı ilə bizim əlaqələrimiz daha da inkişaf edir. Aprel və may aylarında Ciddədə və Bakıda təşkilatın baş katibi ilə mənim görüşlərim olmuşdur. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın uğurlu inkişafını qeyd edir, Azərbaycanda gedən işlərə çox yüksək qiymət verir. Biz də təşkilatın fəal üzvü kimi çalışırıq ki, ölkələr arasındakı həmrəyliyi daha da gücləndirək. Ümumiyyətlə, Azərbaycanın mövqeyi bundan ibarətdir ki, İslam həmrəyliyi daha da möhkəmlənməlidir və müsəlman ölkələri bir-birinə daha da böyük dərəcədə dəstək verməlidir. Xüsusilə ölkələrimizi narahat edən məsələlərdə bu dəstəyə daha da böyük ehtiyac var. Biz bu dəstəyi görürük, xüsusilə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində Azərbaycanın mövqeyi müsəlman ölkələri tərəfindən dəstəklənir. Həm BMT-də müsəlman ölkələrinin mütləq əksəriyyəti bizim mövqeyimizi dəstəkləyir. İslam Əməkdaşlıq Təşkilatı isə dəfələrlə münaqişə ilə bağlı reallığı, ədaləti, beynəlxalq hüququ və Azərbaycanın mövqeyini əks etdirən qətnamələr qəbul etmişdir. Bu dəstəyə görə təşkilatın üzvü olan ölkələrə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması region üçün ən böyük təhlükə mənbəyidir. Bildiyiniz kimi, uzun illərdir ki, ölkəmizin ərazi bütövlüyü Ermənistan tərəfindən pozulub, bir milyondan çox azərbaycanlı öz doğma torpağından qaçqın və köçkün vəziyyətinə düşmüşdür, xalqımıza qarşı Xocalı soyqırımı törədilmişdir. İşğal edilmiş torpaqlarda bütün binalar dağıdılıb, yerlə-yeksan edilib. Erməni vəhşiləri məscidlərimizi də dağıdıb, yerlə-yeksan ediblər. Amma biz o torpaqlara qayıdandan sonra bütün tarixi, dini abidələrimizi bərpa edəcəyik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Ermənistan isə beynəlxalq hüquq normalarını kobudcasına pozur və BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmir. Ancaq haqq, ədalət, o cümlədən tarixi ədalət və beynəlxalq hüquq bizim mövqeyimizi dəstəkləyir. Ədalət bərpa olunacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək.

Keçən bayramdan ötən dövr ərzində ölkəmizin həyatında çox əlamətdar hadisə baş vermişdir. Bakıda ölkəmizin ən böyük məscidi - Heydər məscidi tikilib istifadəyə verilmişdir. Azərbaycan dövləti öz tarixi keçmişinə, tarixi abidələrinə çox böyük diqqətlə yanaşır. Bizim bütün tarixi məscidlərimiz əsaslı şəkildə təmir olunub, bərpa edilib. Bizim qədim və müasir dini abidələrimiz bütün müsəlman aləminin sərvətidir. Dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı məscidi Azərbaycanda yerləşir, 743-cü ildə tikilmişdir. O, bir memarlıq əsəridir. Dünyanın ən yeni məscidlərindən biri olan Heydər məscidi 2014-cü ildə Bakıda tikilmişdir. Bu məscid də gözəl memarlığa malik olan bir sənət əsəridir. Yəni, bu, bir daha ölkəmizin öz keçmişinə, xalqımızın öz dininə olan hörmətini əks etdirir.

Biz bundan sonra da çalışacağıq ki, müsəlman ölkələri arasındakı həmrəyliyi gücləndirək. İki ildən sonra Bakıda İslam Həmrəylik Oyunları keçiriləcək. Əminəm ki, bu Oyunlar bütün müsəlman ölkələrini biri-biri ilə daha da sıx birləşdirəcək.

Hörmətli səfirlər, sizi bir daha salamlayır və sizə fəaliyyətinizdə uğurlar arzu edirəm.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*22 iyun 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRİ İSMAİL SERAGELDİNİ QƏBUL ETMİŞDİR

Dövlətimizin başçısı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri kimi göstərdiyi fəaliyyəti ilə bağlı İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldinin Azərbaycanın yüksək dövlət mükafatlarından olan "Dostluq" ordeninə layiq görüldüyünü dedi və ordeni ona təqdim etdi.

İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldin Azərbaycanın yüksək dövlət mükafatlarından olan "Dostluq" ordeninə layiq görülməsinə görə minnətdarlığını ifadə etdi və bundan böyük şərəf hissi duyduğunu dedi. Nizami Gəncəvini Azərbaycanın bəşəriyyətə töhfəsi kimi dəyərləndirən qonaq İsgəndəriyyə Kitabxanasının Nizami Gəncəvi ilə bağlı ərəb dilində mükəmməl bir kitab hazırladığını dedi və kitabın ilk nüsxəsini Prezident İlham Əliyevə təqdim etdi. İsmail Serageldin bildirdi ki, Mərkəzin məqsədi təkcə böyük siyasətçilərin görüşlərini təşkil etməkdən ibarət deyil. Əsas məqsəd həm də istənilən şəxsin dahi Azərbaycan mütəfəkkiri Nizami Gəncəvi haqqında biliklər əldə etməsinə imkan yaratmaqdan ibarətdir.

Dövlətimizin başçısı İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri kimi İsmail Serageldinin fəaliyyətini yüksək qiymətləndirdi, Mərkəzin artıq böyük beynəlxalq instituta çevrilməsinin önəmini qeyd etdi.

Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin gələcək fəaliyyəti ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

*26 iyun 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

İyulun 11-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başladı.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür PAŞAZADƏ mərasimdə çıxış edərək dedi:

- Bismillahir-rəhmanir-rəhim.

Zati-aliləri, möhtərəm Prezident.

Hörmətli qonaqlar, əziz din qardaşlarım.

Mənim dəvətimi qəbul etdiyinizə və bu mərasimdə iştirakınıza görə sizə minnətdarlığımı bildirir və hamınıza "Xoş gəlmisiniz" deyirəm. Ramazan ayında – "Qurani-Şərif"in nazil olduğu bu müqəddəs ayda Azərbaycanda yaşayan dini konfessiyaların rəhbərləri ilə birlikdə iftar süfrəsi arxasında dövlət başçısı ilə bir yerdə olmaq bizim üçün həm böyük şərəfdir, həm də bu, bir ənənə halı almışdır. Bu ənənənin bünövrəsini qoyan, milli mənəvi dəyərlərimizə həyat verən ulu öndər Heydər Əliyev həzrətləri olmuşdur. Allah-Təala Heydər Əliyev həzrətlərinə, onun ömür-gün yoldaşı Zərifə xanıma rəhmət eləsin!

Zati-aliləri, dindarlarımız həmişə sizinlədir və Sizin müzəffər olmağınız üçün həmişə Allah-Təalaya dualar edirlər. Peyğəmbər əleyhissəlamın hədisi var, buyurur ki, əgər Allah bir xalqı istəsə ona müdrik rəhbər göndərər, o, xalqı zülmətdən nura tərəf aparacaq. Bu, həqiqətən belə oldu. Azərbaycan dağılmaqda, xəritədən silinmək ərəfəsində ikən Allahın mərhəməti, xalqın dəstəyi və çağırışı ilə ulu öndər Heydər Əliyev həzrətləri Azərbaycana gəldi, dövlətçiliyin bünövrəsini bərpa etdi və müstəqilliyi bizə əmanət qoyub getdi. Heydər Əliyev həzrətlərinin Azərbaycan xalqına ən böyük əmanəti isə onun siyasi kursunun və məktəbinin davamçısı İlham Əliyev həzrətləridir. Mən deyərdim ki, bu, həm də Allah-Təalanın Azərbaycan xalqına böyük lütfü və kərəmidir.

Zati-aliləri, bu ilin aprel ayında Sizin Səudiyyə Ərəbistanına səfəriniz və İki Müqəddəs Ocağın Xadimi Kral həzrətlərinin hava limanına gələrək Sizi qarşılama mərasimində iştirak etməsi və Sizə olan münasibəti məndə qürur hissi oyatdı, mən bununla fəxr etdim. Çünki Kral həzrətləri çox az dövlətlərin rəhbərlərinin pişvazına çıxır. Bu, fəqət Səudiyyə Ərəbistanının Azərbaycana və onun rəhbərinə olan münasibəti deyildi. Bəlkə də bütün İslam dünyasının Azərbaycana və onun rəhbərinə olan münasibəti idi.

Xüsusən, Zati-aliləri, müqəddəs Kəbə Evinin qapılarının Sizin üzünüzə açılması. Kəbə Evinin daxilində ibadət zamanı Siz xalqımıza, Vətənimizə, torpağımıza, şəhidlərə, Ulu Öndərə dua etdiniz. Mən orada bir daha əmin oldum ki, Allah-Təalanın yandırdığı Heydər çırağını söndürmək olmaz. Xüsusən, mən bir şeyi demək istərdim. Bu 35 il ərzində mən heç bir dövlət rəhbəri üçün, ya da bir şəxsiyyət üçün Peyğəmbər zərihinin qapısının açılmasının şahidi olmamışam, nə də eşitməmişəm. Zati-aliləri, bu qapılar Sizin üzünüzə açıldı. Siz Heydər qapısından Peyğəmbərin sevimli övladı Fatimeyi-Zəhra əleyhissalamın otağına daxil oldunuz, ziyarət etdiniz. Oradan Peyğəmbər Məscidinə daxil oldunuz və Peyğəmbər mehrabını ziyarət etdiniz, əl sürtdünüz. Oradan isə Peyğəmbər əleyhissalamın qəbrinin üstünə gəlib dualar etdiniz. Bu, ancaq Allahı istəyən və Allahın istədiyi insanlara nəsib ola bilər. Mən arzu edərdim ki, Allah-Təala bütün müsəlmanlara, arzu edənlərə həm Məkkəni, həm Peyğəmbər zərihini ziyarət etməyi nəsib etsin, inşallah. Əlbəttə, Allah-Təala buyurur ki, sən mənə tərəf bir addım at, mən sənə tərəf on addım ataram.

Azərbaycan inkişaf etmiş bir dövlətə çevrilmişdir. Müstəqil Azərbaycan regionda lider dövlətdir. Müstəqilliyimizə heç kim xələl gətirə bilməz. Zati-aliləri, Sizin siyasətinizin nəticəsində Azərbaycan güclü, qüvvətli bir dövlətə çevrilmişdir. Azərbaycan beynəlxalq müstəvidə öz sözünü deyən, haqqını tələb edən bir dövlətə çevrilmişdir.

Azərbaycan nəinki öz iqtisadiyyatını, siyasi potensialını möhkəmləndirməklə bərabər, həm də ilklərə imza atan bir dövlətə çevrilmişdir. Buna birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi misal ola bilər. Bəli, Zati-aliləri, Siz demişdiniz. Avropa Oyunları yaxınlaşdıqca, bizə iftira atanlar, şayiələr yayanlar çox olacaq, çünki bizi gözü götürməyən bəzi qüvvələr də var. Amma onların heç biri istəklərinə nail ola bilmədi. Çünki söylədikləri yalan, şayiə idi. Avropa Oyunlarının açılış mərasimində dövlət rəhbərlərinin,

Zati-aliləri, Sizin ətrafınızda olması və minlərlə insanın dünyanın müxtəlif nöqtələrindən Azərbaycana axışıb gəlməsi, xalqımızla təmasda, ünsiyyətdə olması, Azərbaycanın tarixi, mədəniyyəti, multikulturalizm dəyərləri, tolerantlıq ənənələri, zəngin mənəviyyatı, iqtisadiyyatı ilə tanış olması bizim qələbəmizdir. Ən böyük qələbəmiz isə o idi ki, hər dəfə bizim himnimiz çalınanda, bayrağımız ucalanda bununla bərabər, həm Azərbaycan ucalırdı, həm də onun siyasəti. Mən idmançıları da bu qələbə münasibətilə təbrik edirəm. İnanıram ki, bu, bizim böyük mənəvi qələbəmizdir.

Zati-aliləri, mən inanıram ki, inşallah, əzəli Azərbaycan əraziləri olan Dağlıq Qarabağ torpaqlarında tezliklə bayrağımız ucalacaq, himnimiz çalınacaq. Ali Baş Komandan kimi, Sizin rəhbərliyinizlə biz o torpaqları azad edərik, inşallah. Şəhidlərimizin qanı yerdə qalmayacaq. Allah onlara rəhmət eləsin!

Mən Heydər Əliyev Fondunun prezidenti, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım haqqında bir neçə söz demək istərdim. Mehriban xanımı arenaya dəvət etdilər. O, tribunaya yaxınlaşaraq çıxışını "Qoy, Tanrı Azərbaycanı hər zaman qorusun!" sözləri ilə başladı. Budur, yüksək mənəviyyatın təntənəsi. Mən Mehriban xanımı Azərbaycanın ən yüksək mükafatı, Ulu Öndərin adını daşıyan "Heydər Əliyev" ordeni ilə təltif olunması münasibətilə milyonlarla dindarlar adından təbrik edirəm.

Zati-aliləri, Siz Azərbaycanın adını bəşəriyyətin tarixinə qızıl hərflərlə yazdınız. Azərbaycan qədər böyük bir məşəl Avropa qitəsi üzərindən bütün dünyaya, inşallah, öz nurunu saçacaq. Bu, qardaşlıq, dostluq, tolerantlıq, multikultural, mədəniyyət nuru olmaqla bərabər, həm də Azərbaycanı tərənnüm edəcək. Bu da bizim üçün böyük fəxrdir, böyük fəxarətdir.

Azərbaycanda milli mənəvi dəyərlərimiz inkişaf edir. Məscidlər, ziyarətgahlar, sinaqoqlar, kilsələr tikilir, ya da bərpa olunur, dindarların istifadəsinə verilir. Azərbaycan dindarlarına ən böyük töhfəniz isə paytaxtımızın mərkəzində əzəmətlə ucalan Heydər məscidi oldu. Qafqazda analoqu olmayan bu məscidin, arxitektura baxımından, deyərdim, bəlkə də dünyada analoqu yoxdur. Heydər məscidinin 95 metrlik minarələri Azərbaycanda milli mənəvi dəyərlərin ucalığını göstərir.

Mən bir şeyi də deməyə bilmərəm. Bu gün dünyada baş verən hadisələrə nəzər yetirəndə, görürük ki, dünya, təəssüflər olsun, mənəvi uçuruma, tənəzzülə doğru gedir. Çox təhlükə var. Müsəlman müsəlmanın qanını tökür, məscidlər, sinaqoqlar, kilsələr dağılır, insan qanı axıdılır. Avropada xristian-müsəlman qarşıdurması, dinlər, məzhəblər arasında qarşıdurma, islamofobiya. Bu, nə Musa, nə İsa, nə də Peyğəmbər əleyhissalamın dinində yoxdur.

Zati-aliləri, Siz bir dəfə burada, iftar süfrəsində çıxış edəndə dediniz ki, Azərbaycanda olan tolerantlıq, dostluq, münasibətlər, dinlər arasında münasibət, qardaşlıq başqa dövlətlər üçün nümunə ola bilər. Bu, Sizin Azərbaycan xalqına olan böyük mükafatınızdır.

Allah-Təala Sizi qorusun, ailənizi qorusun!

Allah-Təala bizim ibadətlərimizi, dualarımızı, oruc və namazlarımızı qəbul etsin. Bir daha Sizin hamınıza "Xoş gəlmisiniz" deyirəm. Əssalamu aleykum və rəhmətullahi və bərəkətuhu!

* * *

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

# PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli Şeyx həzrətləri.

Hörmətli din xadimləri.

Hörmətli mərasim iştirakçıları.

İlk növbədə, sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Hər bir Azərbaycan ailəsinə sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram.

Bizim mübarək Ramazan ayında görüşlərimiz ənənəvi xarakter daşıyır. Bu ənənəni ulu öndər Heydər Əliyev və şeyx həzrətləri qoymuşlar. Bu ənənə yaşayır və yaşayacaqdır. Əslində bu, din-dövlət münasibətlərinin çox gözəl təzahürüdür. Azərbaycanda din-dövlət münasibətləri sağlam təməl üzərində formalaşıb və inkişaf edir. Bu, hər bir ölkə üçün önəmli məsələdir. Bizim amalımız birdir. Bizim amalımız Azərbaycanı inkişaf etdirmək, Azərbaycan xalqının maraqlarını müdafiə etmək və Azərbaycanı daha da güclü dövlətə çevirməkdir. Biz bu məqsədə doğru inamla, uğurla irəliləyirik.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri vardır. Əgər 1993-cü ildə Azərbaycan xalqı onu hakimiyyətə dəvət etməsəydi, Azərbaycanın taleyi çox ağır ola bilərdi. Əslində müstəqilliyimizin ilk illəri bunu əyani şəkildə göstərmişdir. Məhz onun qətiyyəti, siyasəti, cəsarəti, müdrikliyi nəticəsində Azərbaycan ağır sınaqlardan üzüağ çıxmışdır, inkişaf yoluna qədəm qoymuşdur və bugünkü Azərbaycan reallıqları məhz o illərdə başlanmışdır.

Şeyx həzrətləri nəinki Azərbaycanda, Qafqazda, dünya miqyasında din xadimi kimi böyük rəğbətə malik olan bir şəxsiyyətdir. Əlbəttə ki, ulu öndər Heydər Əliyevin siyasi bacarığı, şeyx həzrətlərinin din aləmində bacarığı, dünyagörüşü, müasirliyi bugünkü Azərbaycanın reallıqlarını 1990-cı illərin ortalarında mümkün etmişdir. Bu gün din-dövlət münasibətləri, o cümlədən mənimlə şeyx həzrətləri arasındakı münasibətlər dostluğa söykənir. Bir daha demək istəyirəm ki, Azərbaycanın inamlı, uğurlu inkişafı çox möhkəm təməl üzərində qurulubdur.

Əlbəttə ki, iqtisadi inkişafımız bizi sevindirir. Bu da düşünülmüş siyasətin nəticəsidir. Beynəlxalq nüfuzumuz kifayət qədər yüksəkdir. Bu gün Azərbaycan dünya miqyasında böyük dəstəyə və hörmətə malik olan bir ölkədir. Ancaq möhkəm təməl olmasaydı, biz bu nailiyyətlərə çata bilməzdik. Düşünülmüş siyasət, xalqla iqtidar arasındakı birlik, din-dövlət münasibətlərinin möhkəm təməl üzərində qurulması bizim uğurlarımızın əsas şərtidir.

Bu gün Azərbaycan müstəqil dövlət kimi ən yüksək zirvələrə çatıb. Əgər tarixə nəzər salsaq görərik ki, Azərbaycan xalqı heç vaxt indiki kimi yaxşı yaşamamışdır, Azərbaycan heç vaxt indiki kimi güclü olmamışdır. Bu uğurlar cəmi 24 il ərzində qazanılıb. Özü də müstəqilliyin ilk illəri acınacaqlı və fəlakətli illər idi. Dünyada 200-dən çox ölkə var. Onların hamısı müstəqildir. Ancaq bir çox hallarda bu müstəqillik ya yarımçıqdır, ya da şərti xarakter daşıyır. Biz isə sözün əsl mənasında müstəqil dövlətik, bununla fəxr edirik, hər bir vətənpərvər Azərbaycan vətəndaşı bununla fəxr edir.

Dövlət, eyni zamanda, Azərbaycanda dinlərarası münasibətlərin tənzimlənməsində də öz rolunu oynayır. Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq forumlar, konfranslar, dinlərarası dialoqla, multikulturalizmlə, humanitar məsələlərlə bağlı forumlar, əlbəttə ki, ölkəmizi dünyaya nümunəvi ölkə kimi təqdim edir, eyni zamanda, Azərbaycanda dinlərarası münasibətlərin gələcəkdə də sağlam şəkildə inkişaf etməsinə şərait yaradır. Azərbaycanda İslam dini ilə bağlı çoxsaylı tədbirlər keçirilir. Bu tədbirlərdə həm bizim qonşu

dövlətlərdən nümayəndələr iştirak edir, eyni zamanda, uzaq ölkələrdən qonaqlar gəlir. Yəni, budur bugünkü Azərbaycanın reallıqları. Dövlət bu istiqamətdə öz səylərini göstərir və göstərəcək.

Azərbaycanda bütün tarixi məscidlərimiz dövlət hesabına əsaslı şəkildə bərpa edilibdir. Bibiheybət, Təzəpir, Əjdərbəy məscidləri, 743-cü ildə tikilmiş, müsəlman aləmində ən qədim məscidlərdən biri olan Şamaxı məscidi, "İmamzadə" Dini Kompleksində indi əsaslı təmir-bərpa işləri aparılır. Əlbəttə ki, keçən ilin sonlarında Heydər Məscidinin tikilib istifadəyə verilməsi tarixi hadisə idi.

Bir neçə il bundan əvvəl mən Məkkə ziyarətində müqəddəs Kəbənin içində dualar edərək niyyət etmişdim ki, Azərbaycanda böyük, möhtəşəm məscid tikiləcək və bu məscidin adı Heydər Məscidi olacaq. Bu ilin aprel ayında mənə yenidən Kəbənin içində dualar etmək xoşbəxtliyi nəsib olub. Şeyx həzrətlərinin dediyi kimi, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanı Kralının şəxsi göstərişi ilə müqəddəs Kəbənin qapıları mənim, şeyx həzrətlərinin, ailə üzvlərimin üzünə açılmışdır və yenidən müqəddəs Kəbənin içində dualar edərək, ürəyimdə dedim ki, Heydər Məscidi tikildi. Bir müsəlman kimi mənim üçün bundan böyük xoşbəxtlik ola bilməz. Bu, atamın ruhu qarşısında mənim borcumdur. Bir müsəlman kimi mən xoşbəxt adamam ki, buna nail ola bilmişəm və eyni zamanda, xoşbəxt adamam ki, müqəddəs Kəbənin içində üç dəfə dualar etmişəm.

Səudiyyə Ərəbistanında səfərdə olarkən mən İslam Əməkdaşlıq Təşkilatını da ziyarət etdim. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Təşkilatın baş katibi ilə görüşüm, çox məqamlar ətrafında apardığım fikir mübadiləsi bir daha göstərir ki, Azərbaycan bu təşkilatın fəal və dəyərli üzvüdür. May ayında isə İslam Əməkdaşlıq Təşkilatının baş katibi cənab Mədəni Azərbaycanda səfərdə idi və Bakıda keçirilmiş Sivilizasiyalararası Dialoq Forumunda çıxışında Azərbaycanda dini məsələlərin nə qədər yüksək səviyyədə həll olunduğunu xüsusilə qeyd etmişdir. Ümumiyyətlə, bütün müsəlmanları birləşdirən təşkilatın rəhbərinin Azərbaycan, ölkəmizin reallıqları haqqında sözləri əlbəttə ki, böyük qiymətə malikdir. Qeyd etməliyəm ki, may ayında keçirilmiş tədbirdə UNESCO-nun, İslam Əməkdaşlıq Təşkilatının, ISESCO-nun baş katibləri və digər qonaqlar iştirak etmişlər. Onların iştirakı əslində Azərbaycanda bu sahədə görülən işlərə verdikləri yüksək qiymətdir. Bizim üçün bu, adi hala çevrilib. Azərbaycanda hökm sürən ab-hava, dinlərarası, millətlərarası münasibətlər, multikulturalizm dəyərləri - bunlar bizim üçün həyat tərzidir. Ancaq əgər biz bəzi başqa ölkələrə nəzər yetirsək görərik ki, bu, heç də hər yerdə belə deyil. Əksinə, milli, dini zəmində qarşıdurmalar, müharibələr, toqquşmalar baş verir, məzhəb zəminində qan tökülür. Bu, dözülməzdir və mən də şeyx həzrətlərinin sözləri ilə razıyam ki, bugünkü dünyada proseslər daha çox mənfi istiqamətdə gedir. Biz bir il bundan əvvəl bu salonda toplaşmışdıq. Görün, bu bir il ərzində dünyada nə qədər böyük təhlükələr yarandı, hansı ki, bir il bundan əvvəl onlar haqqında heç söhbət aparılmırdı.

Dinlərarası münasibətlərdə böhran yaşanır. İslamafobiya, ksenofobiya, antisemitizm meyilləri güclənir. Multikulturalizm dəyərləri haqqında hətta yüksək vəzifə sahibləri tərəfindən çox təhlükəli ifadələr səslənir ki, multikulturalizm iflasa uğrayıb, multikulturalizm işləmir və onun gələcəyi yoxdur. Gəlsinlər, Azərbaycana baxsınlar. Azərbaycanda multikulturalizm yaşayır, möhkəmlənir. Heydər Məscidinin açılışında mən, şeyx həsrətləri, Aleksandr ata, Milix Yevdayev çıxış etmişik. Budur, bizim reallıqlarımız. Bu, bizim üçün adi qaydadır. Ancaq, eyni zamanda, bizim xristian, yəhudi qardaşlarımızın orada çıxışı bir mesaj, siqnal idi, həm Azərbaycan cəmiyyətinə, həm bölgəyə, həm də dünyaya. Bax, belə olmalıdır. Budur, normal həyat tərzi, budur, normal siyasət.

Bir daha demək istəyirəm ki, Azərbaycanın gələcək uğurlu inkişafı məhz bu istiqamətdə ola bilər. Biz heç vaxt imkan verə bilmərik ki, hansısa kənar bir qüvvə Azər-

baycanda dini, yaxud da ki, milli zəmində nifaq toxumlarını səpsin. Azərbaycan dövləti buna heç vaxt imkan verməyəcək və Azərbaycan reallıqları bunu əyani şəkildə göstərir.

Biz Azərbaycanda əlbəttə ki, bu işləri ən yüksək səviyyədə tənzimləmişik. Bizim gələcək inkişafımız uğurla davam etdiriləcək. Ancaq biz istəyirik ki, hər yerdə belə olsun. Əgər hər yerdə belə olarsa, o zaman dini zəmində qarşıdurmalar da olmayacaq, qan tökülməyəcək və insanlar yaradıcılıqla məşğul olacaq, öz həyatlarını quracaq, ailələrinə diqqət yetirəcəklər. Ona görə Azərbaycanda multikulturalizmlə, dinlərarası dialoqla bağlı keçirilən tədbirlərin çox böyük mənası var.

Azərbaycan nümunəvi bir ölkədir. Onu Azərbaycana gələn hər bir qərəzsiz qonaq görür və etiraf edir. İstənilən sahədə - şəhərimizin gözəlliyi, təhlükəsizlik, iqtisadi inkişaf, sosial ədalət, din-dövlət münasibətləri, dinlərarası dialoq, imkanlarımız və Avropa Oyunlarının keçirilməsi bizim potensialımızı bütün dünyaya göstərdi. Biz bu potensialı bilirdik. Biz bilirdik ki, nəyə qadirik. Ancaq bəziləri bunu bilmək, görmək istəmirlər, ağa qara deyirlər, bizə şər, böhtan atırlar. Bizim heç kimlə işimiz yoxdur, öz həyatımızı qurmuşuq, heç kimə də heç bir məsələni diktə etmirik. Ancaq heç vaxt imkan vermərik ki, hansısa bir kənar qüvvə bizə diktə etsin. Biz müstəqil ölkəyik, ləyaqətli ölkəyik. Azərbaycan xalqının taleyi onun öz əlindədir. Ona görə Azərbaycana gələn qərəzsiz, xoşniyyətli insanlar bu reallıqları görürlər. Biz ölkə daxilində bütün əsas məsələləri həll etmişik. Əlbəttə ki, sosial problemlər var, torpaqlarımız işğal altındadır, qaçqınların bir hissəsi hələ ki çox ağır vəziyyətdə yaşayır, ancaq onların problemləri həll olunur. Bu, qarşımızda duran problemlərdir, biz onları həll edəcəyik, o cümlədən Dağlıq Qarabağ məsələsi də Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacaq. Bunun başqa yolu yoxdur. Azərbaycan heç bir başqa variantla heç vaxt razılaşmayacaq.

Ancaq biz digər sahələrdə, - sosial ədalət, iqtisadi inkişaf, dinlərarası dialoq, - artıq bütün lazımi tədbirləri görmüşük ki, bax, bu möhkəm təməl qurulub. Biz istəyirik ki, dünyada da belə olsun. Biz istəyirik ki, ölkələr arasındakı əlaqələr əməkdaşlıq üzərində qurulsun. Rəqabət üzərində qurulmasın, xoş niyyət üzərində qurulsun. Biz öz işlərimizi bu istiqamətdə davam etdirəcəyik.

Bir məsələni də vurğulamaq istəyirəm, milli, dini dəyərlərimiz bizim üçün hər şeydən üstündür. Biz çalışmalıyıq və çalışırıq ki, bizim gənclərimiz də milli ruhda böyüsünlər, tərbiyə alsınlar. Milli ruhda, eyni zamanda, multikulturalizm ruhunda. Burada heç bir ziddiyyət yoxdur. Hər bir vətənpərvər insan, öz vətənini, millətini sevən insan böyük hörmətə layiqdir. Eyni zamanda, başqa dinlərə hörmət edən, başqa millətdən olan insanlara hörmətlə yanaşan insan da böyük hörmətə layiqdir. Ona görə bizim gənclərimiz bax, bu ruhda tərbiyə olunmalıdır. Biz gənclərimizi kənar təsirlərdən qorumalıyıq. Kənar təsir cəhdləri var, biz hamımız bunu yaxşı bilirik. Nə qədər gücüm varsa mən bu kənar təsirin qarşısında duracağam və heç kimə imkan verməyəcəyəm ki, kimsə öz iradəsini Azərbaycana diktə etsin.

Azərbaycan gəncləri vətənpərvərdir, biliklidir, savadlıdır. Birinci Avropa Oyunları bunu bir daha göstərdi. Bu Oyunlarda iyirmi minə yaxın könüllü iştirak etmişdir. Onlar təmənnasız iştirak etmişlər, gecə-gündüz, səhərdən axşama qədər çalışmışlar. Azərbaycan gəncliyi budur. Bilikli, xarici dili bilən, savadlı, peşəkar, mədəni, gözəl gənclərdir. Onların hər birinə artıq mənim adımdan və Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın adından təşəkkürnamə sertifikatı verilməyə başlanmışdır. Onlar buna layiqdirlər. Bizim gənclər milli ruhda, vətənpərvərlik ruhunda böyüməlidirlər, eyni zamanda, savadlı, bilikli olmalıdırlar.

Bu gün dünyada terrorizm, ekstremizm, radikalizm meyilləri baş alıb gedir. Hər yerdə - Yaxın Şərqdə, Avropanın özündə, müxtəlif yerlərdə. Bunun təzahürləri fərqli ola bilər.

Ancaq mahiyyət etibarilə bu, necə deyərlər, bir anlayışdır. Buna qarşı ən gözəl sığorta, ən gözəl sədd təhsildir. Bilikli, savadlı insan çox nadir hallarda yolunu aza bilər. Savadsız insanların beynini zəhərləmək asandır. Ona görə bizim gənclər savadlı, biliklidirlər. Biz bunu təqdirlə qeyd edirik və bizim siyasətimiz bundan sonra bu istiqamətdə davam etdiriləcək. Burada həm dövlət qurumları, həm dini qurumlar yenə də bir yerdə olmalıdır. Azərbaycanda həm ali, həm orta məktəblərdə, eyni zamanda, dini təhsil yüksək səviyyədə olmalıdır. Azərbaycan dövləti bu istiqamətdə bütün lazımi tədbirləri görür və görəcəkdir.

Bir sözlə, əziz dostlar, bugünkü iftar məclisində biz bir daha ürək sözlərimizi ifadə edirik. Ölkəmizin gələcəyi ilə bağlı fikirlərimizi bildiririk. Qeyd etməliyəm ki, mən Azərbaycanın gələcəyini çox parlaq görürəm. Çünki biz haqq yolundayıq, ədalət yolundayıq. Azərbaycanda ictimai-siyasi vəziyyət çox sabitdir. Xalqla iqtidar arasındakı birlik bizi daha da gücləndirir. Heç bir qüvvə bizim uğurlu yolumuza təsir edə bilməz.

Bütün dünya müsəlmanlarını qarşıdan gələn mübarək bayram münasibətilə bir daha təbrik edirəm.

* * *

Şeyxülislam Allahşükür PAŞAZADƏ dedi:

-Cənab Prezident, bizə və dinə olan münasibətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Məni yenə də o Kəbə Evinin içərisinə apardınız, kövrəltdiniz. Allah-Təaladan arzu edirəm ki, burada olanların hamısına bir daha Kəbə Evində olmağı və dua etməyi nəsib etsin, inşallah.

Sizin hamınıza mərasimimizə gəldiyiniz üçün minnətdaram.

* * *

Sonra iftar süfrəsi açıldı.

*11 iyul 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV "QALAALTI HOTEL & SPA" MÜALİCƏ-İSTİRAHƏT KOMPLEKSİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şabran rayonunun ərazisində yerləşən "Qalaaltı Hotel & SPA" müasir müalicə-istirahət kompleksinin açılışında iştirak edib.

Ölkəmizdə turizmin inkişafı üçün əlverişli mühitin yaradılmasının məntiqi nəticəsi olaraq, Azərbaycanın dilbər guşələrindən biri sayılan Şabran rayonunda "Qalaaltı Hotel & SPA" müasir müalicə-istirahət kompleksinin inşası regionun turizm imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Kompleks Azərbaycanın qədim tarixi-mədəniyyət abidələrindən olan Çıraqqalanın yaxınlığında, sıldırım qayanın altında yerləşir. Dəniz səviyyəsindən 700 metr yüksəklikdə yerləşən yeni kompleks məşhur "Qalaaltı" kurortunun bazasında inşa edilib. Təxminən 7,1 hektar sahəsi olan kompleksdə 354 nəfəri qəbul edə biləcək otel, villa və kotteclər var.

Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.

Bakıdan cəmi 127 kilometr məsafədə yerləşən bu kompleksin 171 otaqdan ibarət otel binası ən müasir standartlara cavab verir. Burada qonaqların zövqünü oxşayan interyer işləri aparılıb, müxtəlif tədbirlərin keçirilməsi üçün iclas və konfrans zalları yaradılıb. Binadakı 112 superior otağın 33-ü iki, 79-u isə birnəfərlikdir. Bundan başqa, burada 11 suit

və 1 lüks otaq da var. Kompleksdə istər uzunmüddətli müalicəvi istirahət, istərsə də həftə sonlarında asudə vaxt keçirmək üçün hər cür şərait yaradılıb. Otel binasındakı "Mənzərə" restoranı, "Lavanda", "Qala" və "Vitamin" barları qonaqların həm yüksək səviyyədə qidalanmalarına, həm də asudə vaxtlarını daha maraqlı keçirmələrinə geniş imkanlar açır. Müalicə-istirahət mərkəzində aptek, market, suvenir mağazası, kişi və qadın bərbərxanaları fəaliyyət göstərir, qonaqlara bank xidmətləri təklif olunur.

Kompleksdə ziyarətçilərə SPA xidmətləri də təqdim edilir. Həmçinin hamam, sauna, türk hamamı, bio-sauna, masaj, buxar və ekzotik duş otaqları, hovuz, trenajor zalı fəaliyyət göstərir. Burada yaradılan qar otağı da qonaqların ixtiyarındadır. "Tai SPA" və "Aura SPA" mərkəzlərini ziyarət edənlər buradan xoş əhval-ruhiyyə ilə ayrılacaqlar.

"Qalaaltı" kompleksində yerləşən tibbi mərkəz də müasir avadanlıqla təchiz edilib. Müasir laboratoriya, rentgen və ultrasəs müayinələri üçün lazımi şərait yaradılan mərkəzdə fizioterapiya, elektroterapiya, maqnitoterapiya, hidroterapiya, hidrokolonterapiya otaqları var. Burada müalicə alanlar masaj və palçıq applikasiya otaqlarından istifadə edə bilərlər. Tibbi mərkəzdə uroloji xidmətlər də göstəriləcək. Kosmetoloji bölmədə kosmetoloji prosedur otağı, krioterapiya, solyarium, ozon kapsula və haloterapiya-duz otaqları var.

Sonra dövlətimizin başçısı kompleksin kollektivi ilə görüşdü.

**Kollektivi salamlayan Prezident İlham ƏLİYEV dedi:**

- Mən sizi ürəkdən təbrik etmək istəyirəm. Bu gün biz "Qalaaltı" müalicəvi istirahət mərkəzinin açılışını qeyd edirik. Gözəl, əlamətdar hadisədir və bu hadisə bir daha onu göstərir ki, ölkəmiz sürətlə və hərtərəfli inkişaf edir.

Qalaaltı suyu çox məşhur sudur, nadir keyfiyyətlərə malikdir və indi bu gözəl mərkəz yaranandan sonra əminəm ki, həm Azərbaycan vətəndaşları, həm də ki xarici qonaqlar bu imkanlardan istifadə edəcəklər.

Bu gün "Qalaaltı" kurortuna yeni həyat verilir, Qalaaltının yeni dövrü başlayır. Bu, müasir dövrdür, gözəl dövrdür və burada yaradılan şərait ən yüksək standartlara uyğundur.

"Qalaaltı" kurortu 1970-ci illərdə yaradılmışdır. Əlbəttə ki, o vaxt şərait belə deyildi, ancaq buna baxmayaraq, Sovet İttifaqının müxtəlif yerlərindən buraya qonaqların axını müşahidə olunurdu. Minlərlə insan hər il Sovet İttifaqının müxtəlif yerlərindən buraya gəlirdi, müalicə alırdı, istirahət edirdi.

Bu gündən sonra artıq Qalaaltı dünya səviyyəli beynəlxalq müalicə və istirahət kompleksi kimi fəaliyyətə başlayacaq və burada yaradılan şərait, - siz də bunu yaxşı bilirsiniz, - ən yüksək standartlara uyğundur. Beşulduzlu otel, SPA mərkəzi, əyləncə zonaları, əlbəttə, bunun özəlliyi ondan ibarətdir ki, burada yerin altından çıxan gözəl su insanların sağlamlığına müsbət təsir göstərəcək.

Bununla bərabər, deyə bilərəm ki, bu mərkəzin açılışında bizim siyasətimiz də öz əksini tapır. Çünki regionların inkişafı, qeyri-neft sektorunun, turizm sektorunun inkişafı bizim üçün prioritet sahədir. Regionların inkişafı ilk növbədə infrastruktur layihələrindən başlamışdır, yollar çəkilməli idi. Əgər yol olmasaydı burada heç kim vəsait qoyub bu mərkəzi yaratmazdı. Həm Bakı-Quba-Rusiya sərhədi magistral yolu, eyni zamanda, Siyəzən şəhərindən çəkilən yol və digər infrastruktur layihələri ki, bu gün bütün bölgələrdə bu layihələr icra edilir. İçməli su, elektrik enerjisinin təchizatı, kənd yolları, qazlaşdırma və digər infrastruktur layihələri ölkəmizdə uğurla icra edilir. Regionların inkişafı, o cümlədən turizmin inkişafı ilə bağlıdır, xüsusilə nəzərə alsaq ki, bizim çox gözəl təbiətimiz var. Biz çox xoşbəxt insanlarıq ki, belə gözəl ölkədə yaşayırıq. Xəzər dənizi, dağlar, çaylar, bulaqlar, göllər, meşələr - bütün bunlar bizdə var. Belə olan halda, turizmin inkişafı bir neçə il bundan əvvəl prioritet istiqamət kimi müəyyən edilmişdir və hazırda ölkəmizin müxtəlif yerlərində dünya səviyyəli turizm mərkəzləri və kurortlar fəaliyyət göstərir.

Sovet dövründə iki məşhur kurortumuz var idi - biri Qalaaltı, biri də Naftalan. Naftalan kurort mərkəzi də bu gün ən yüksək səviyyədə yaradılıb. Artıq beşulduzlu üç otel fəaliyyət göstərir. Mən o otellərin hər birinin açılışında şəxsən iştirak etmişəm və dördüncü otel də tikilməkdədir. Beləliklə, Naftalana hər il istirahət üçün artıq on minlərlə insan gəlir və son vaxtlar şadam ki, xarici ölkələrdən də gələnlərin sayı gündən-günə artır. Əminəm ki, Qalaaltı da o səviyyəyə qalxacaq. Çünki burada da müalicə almaq, istirahət etmək, dincəlmək üçün çox gözəl imkanlar var.

Beləliklə, biz bu iki tarixi kurort mərkəzini nəinki bərpa etdik, ən yüksək dünya səviyyəsində yenidən yaratdıq.

Bizim digər kurort yerlərimiz də var, misal üçün bir neçə il bundan əvvəl Naxçıvanda "Duzdağ" mağarasının ətrafında gözəl otel tikilmişdir. O mağaralarda da gözəl işlər görülmüşdür. O daha çox ağciyər xəstəlikləri üçün yararlıdır. "Qalaaltı" kompleksində böyrək, öd kisəsi, Naftalanda revmatizm, oynaq xəstəlikləri müalicə olunur. Bax, bu müxtəliflik artıq Azərbaycanı dünya səviyyəli turizm mərkəzinə çevirir. Nəzərə alsaq ki, bizim gözəl Xəzər dənizimiz var, dəniz boyu yerlərdə otellər tikilir. Avropa Oyunlarının keçirilməsi, əlbəttə ki, turizmin inkişafına çox müsbət təsir göstərmişdir. Biz bunu görürük. Minlərlə qonaq gəldi və Bakıya heyran oldu. Bakının gözəlliyi, abadlığı, yaradılan şərait, insanlarımızın qonaqpərvərliyi, əlbəttə ki, turistləri cəlb edir.

Hər bir ölkə, xüsusilə Azərbaycan kimi belə gözəl yerlərə, təbii sərvətlərə malik olan bir ölkə mütləq turizmi inkişaf etdirməlidir. Çünki bu, daimi gəlir mənbəyidir. Təbii sərvətlər, neft, qaz - bunlar tükənən sərvətlərdir. Ancaq ölkəmizin dayanıqlı inkişafı üçün daim gəlir gətirən sahələr mütləq inkişaf etməlidir. Onların içərisində turizm xüsusi yer tutur. Biz bəzi ölkələrin gəlirlərinə fikir versək görərik ki, ən çox gəlir gətirən sahə turizmdir. Bəs turizmin inkişafı üçün nə lazımdır? İlk növbədə gərək səni tanısınlar. Biz ölkəmizi tanıtdırırıq, dünya miqyasında, xarici ölkələrdə təqdimatlar, mədəniyyətimizlə, inkişafımızla bağlı tədbirlər keçiririk. Eyni zamanda, Azərbaycanda mötəbər beynəlxalq yarışlar, mədəni tədbirlər, festivallar, müsabiqələr təşkil olunur. Avropa Oyunları başa çatdı, gələn il "Formula-1" yarışı, iki ildən sonra İslam Həmrəylik Oyunları keçiriləcək. Bütün bunlar qonaqları cəlb edir və ondan sonra qonaqlar da vətənlərinə qayıdaraq öz fikirlərini bölüşürlər. Misal üçün, dünən mən Beynəlxalq İdman Atıcılıq Federasiyasının prezidenti ilə görüşmüşəm, - dünən Qəbələdə dünya kubokunun yarışları başlamışdır, - o, mənə dedi ki, Avropa Oyunlarının açılışında iştirak edərkən, Bakı ilə tanış olarkən şəhərimiz çox xoşuna gəldi və bu dəfə öz ailəsi ilə Bakıya gəldi. Bax, budur bizim imkanlarımız. Biz beynəlxalq tədbirlər keçiririk ki, bizi daha çox tanısınlar. Bu, birinci şərtdir. Turizmin inkişafı üçün ikinci şərt infrastrukturun mövcudluğudur. Bizim Heydər Əliyev Beynəlxalq Aeroportumuz dünya miqyasında ən birinci yerlərdədir. Avtomobil yolları, infrastruktur, xidmət sahəsi və əlbəttə, insanlarımızın qonaqpərvərliyi ki, bu da həmişə var. Bu, bizim bəlkə də ən böyük sərvətimizdir. Ona görə, bax, bütün bu amilləri nəzərə alaraq biz görürük ki, Azərbaycanda turizmin inkişafı üçün çox gözəl imkanlar var. Biz bu imkanlardan maksimum dərəcədə istifadə etməliyik.

Bölgələrdə yeni gözəl beşulduzlu mərkəzlər tikilir, Bakı şəhərində ən aparıcı dünya otellər brendləri fəaliyyət göstərir. Təkcə bu il iki otel açılmışdır - "İnturist", hansı ki, tarixi ədaləti bərpa etmişik. Vaxtilə "İnturist" oteli tikilmişdi, sonra əfsuslar olsun ki, söküldü. İndi "İnturist" bərpa edildi. Nəinki Azərbaycanın, bölgənin ən böyük oteli "Bulvar" otelidir və bu il istifadəyə verilmişdir.

Ona görə, Bakı artıq bu istiqamətdə dünya miqyasında fərqlənən şəhərlər arasındadır. Mən istəyirəm ki, bizim hər bir şəhərimizdə belə imkanlar yaradılsın. Baxın, son vaxtlar nə qədər gözəl otellər tikilmişdir. Biz "Şahdağ" Xizək Mərkəzini yaratdıq. Orada artıq üç

beşulduzlu, iki üçulduzlu və dördulduzlu otellər inşa olunub. Qış aylarında şənbə, bazar günlərində bəlkə də beş minə qədər insan oraya gedib istirahət edir. Buradan Şahdağa qədər avtomaşınla bir saatyarımlıq yoldur.

Qəbələdə ikinci xizək kurortu, eyni zamanda, bir neçə gözəl otel yaradılıb. İki il əvvəl Qubada "Rixos" kimi gözəl otel tikilib. Şamaxıda, Naftalanda, Qalaaltıda, cənub zonasında da otellər inşa olunub. Budur bizim siyasətimiz və inkişafımız və biz bunu dünyada yaşanan maliyyə və iqtisadi böhran dövründə əldə edirik. Bu gün elə bir ölkə tapmaq çətindir ki, bu böhran ona təsir etməsin - hansısa ölkələrə daha çox, hansısa ölkələrə daha az. Amma Azərbaycan böhranlı illərdə inkişaf edir, belə gözəl əsərlər yaradır.

İnfrastruktur layihələri icra edilir, neftin qiyməti keçən ilə nisbətən iki dəfədən çox aşağı düşdü. Əlbəttə ki, bu, bizim gəlirlərimizə mənfi təsir göstərir, az pul qazanırıq, amma bununla bərabər, iqtisadiyyatımızın şaxələndirilməsi hesabına yaradılan potensial imkan verir ki, Azərbaycan vətəndaşı bunu hiss etməsin. Dayanıqlı inkişaf bu istiqamətdə gedəcək. Biz nefti, qazı kənara qoymalıyıq, ümumiyyətlə unutmalıyıq. Gün gələcək neft qiymətləri bizim üçün heç bir əhəmiyyət daşımayacaq. Çünki sənaye, kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları - Azərbaycanda bu sahələr inkişaf edir və daha da sürətlə inkişaf etməlidir.

Ona görə, "Qalaaltı" müalicəvi istirahət mərkəzinin açılışı sadəcə olaraq bir otelin açılışı deyil, bu, bizim siyasətimizin əksidir və bizim niyyətimizi ifadə edir. Əminəm, yerli və xarici investorlar bu imkanlardan ruhlanaraq Azərbaycanda yeni gözəl otellər, istirahət zonaları yaradacaqlar ki, həm vətəndaşlarımız, həm qonaqlarımız bundan istifadə etsinlər.

Siz, burada işləyən insanlar əminəm ki, öz vəzifə borcunuzu şərəflə yerinə yetirəcəksiniz, qonaqlara yaxşı xidmət göstərəcəksiniz. Əminəm ki, bir dəfə buraya gələn qonaqlar yenidən qayıtmaq istəyəcəklər.

Sizi bir daha ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram.

* * *

Daha sonra xatirə şəkli çəkdirildi.

"Qalaaltı Hotel & SPA" kompleksinin mühüm özəlliklərindən biri də burada müalicəvi xidmətlərin təklif edilməsidir. Kompleksdə qonaqlara Qalaaltı kəndi ərazisindən çıxan məşhur müalicəvi təbii sular əsasında müayinə məqsədli tibbi xidmətlər təqdim olunur. Kəndin ərazisindən çıxan təbii müalicə əhəmiyyətli "Naftsu"nun tərkibində yüksək miqdarda üzvi maddələr var. Müalicəvi xüsusiyyətlərinə görə dünyada məşhur təbii müalicə əhəmiyyətli sulardan sayılan Qalaaltı suyundan qaraciyər, öd yolları iltihabı, böyrək daşı və böyrəyin xroniki iltihabı və digər uroloji xəstəliklərin müalicəsində istifadə edilir. Kompleksdə peşəkar tibbi heyətin nəzarəti altında Qalaaltı suyu ilə müalicə kursları təqdim olunur. Müalicənin səmərəliliyini təmin etmək məqsədilə ziyarətçilərə xüsusi kartlar verilir. Həkimlər tərəfindən hər bir ziyarətçiyə müəyyən edilən fərdi müalicə qaydası, suyun qəbul edilmə miqdarı, temperaturu elektron şəkildə həmin kartlara yazılır. Qonaqlar müalicəvi su içmə zalında lazımi qədər və zəruri temperaturda su əldə edə bilərlər. Bu müasir texnoloji yenilik Azərbaycan tarixində ilk dəfə olaraq məhz burada tətbiq edilir.

Sonra Prezident İlham Əliyev kompleksin ərazisində yaradılan şəraitlə tanış oldu.

Buradakı panoramlı liftdən istifadə edənlər Qalaaltı zonasının gözəlliyini aydın seyr etmək imkanı qazanırlar. Bu kompleks böyük əyləncə mərkəzi, istirahət və gəzinti məkanları ilə də diqqəti cəlb edir. Həmin istirahət ocağı eyni zamanda şəhər mühitinin səs-küyündən yorulan və təbiətdə istirahət etmək arzusunda olanlar üçün gözəl ailəvi məkan hesab olunur.

Kompleksdə müştərilərə geniş əyləncə xidmətləri təklif edilir. Buradakı 5,4 min kvadratmetrlik əyləncə binası regionda bu qəbildən ən böyük mərkəzlərdən biri sayılır. Binada "Xəzər" kafesi və "Bouling bar" ziyarətçilərin istifadəsinə veriləcək. Kompleksdə idmanın müxtəlif növləri üçün nəzərdə tutulmuş meydançalar, o cümlədən fitnes, aerobika zalı, örtülü hovuz, tennis kortları, çöl idman meydançası, geniş park sahəsi, əyləncə məkanları, uşaqlar üçün oyun meydançaları, uşaq mərkəzi və hovuzu, qar otağı, elektron oyunlar məkanı var.

Kompleksdə təbiətin qoynunda, ətraf mühitlə harmoniyada yaşamağa üstünlük verənlər üçün milli faunanın elementlərini özündə əks etdirən 4 kiçik otel binası da inşa edilib. "Lalə", "Zanbaq", "Bənövşə" və "Mimoza" adlanan həmin binaların hər birində 10-u superior və 1-i suit olmaqla, ümumilikdə 44 otaq var. Daha dəbdəbəli istirahət arzusunda olanlar üçün isə villalar təklif edilir. "Şahdağ" villası 5, "Kəpəz" və "Murov" villalarının hər biri isə 4 otaqdan ibarətdir.

Gözəl və füsunkar təbiətə malik olsa da kompleksin ərazisində əlavə yaşıllıq zonası yaradılıb, 15 min kvadratmetr ərazidə ot örtüyü salınıb, həmçinin 48 növdə 1200-dən çox ağac əkilib. Uzunluğu 246 metr olan süni çay, fəvvarələr və şəlalə ziyarətçilərin istirahətini daha da maraqlı edəcək. Otelin və parkın işıqlandırılması sistemi də müasirliyi ilə diqqəti çəkir. Kompleksin ərazisindəki yollarda fiziki qüsurlu şəxslər üçün əlavə imkanlar yaradılıb.

"Qalaaltı Hotel & SPA" kompleksinə regionda ən böyük sərmayələrdən biri qoyulub. Kompleksin fəaliyyətə başlaması əksəriyyəti yerli işçilər olmaqla 170 yeni iş yerinin yaranmasına imkan verib. Burada 148 avtomobil yerlik dayanacaq da yaradılıb.

Ölkə vətəndaşlarının və xarici qonaqların xidmətinə verilən bu müasir istirahət kompleksi respublikamızın turizm infrastrukturuna, xüsusilə də müalicəvi turizmin inkişafına mühüm töhfə verəcək. Beləliklə, "Qalaaltı Hotel & SPA" müalicə-istirahət kompleksi ölkəmizin turizm və müalicəvi turizm sektorunda özünəməxsus yer tutacaq. Bütün bunlar bir daha sübut edir ki, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları çərçivəsində görülən kompleks işlər nəticəsində ölkənin iqtisadi qüdrəti yüksəlib, işgüzar fəallıq artıb, bölgələrdə sahibkarlıq fəaliyyəti daha da genişlənib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyələrinə uyğun olaraq, son illər ölkəmizin turizm potensialının inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması, mövcud turizm potensialının beynəlxalq aləmdə tanıdılması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi istiqamətlərində çoxsaylı tədbirlər davam etdirilir və daha da genişləndirilir.

*8 avqust 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV CƏLİLABAD RAYONUNUN GÖYTƏPƏ ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV ADINA PARK-BULVARIN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəlilabad rayonunun Göytəpə şəhərinin mərkəzində, Göytəpə çayının sahilində inşa edilmiş Heydər Əliyev adına park-bulvarın açılışında iştirak edib.

Park-bulvarın ərazisində ümummilli lider Heydər Əliyevin bürüncdən abidəsi ucaldılıb.

Bu istirahət məkanının ümumi ərazisi 30 min kvadratmetrdir. Burada iki artezian quyusu qazılıb. Park-bulvarda musiqili fəvvarə, müasir işıq dirəkləri, rahat oturacaqlar

quraşdırılıb, 15 min kvadratmetr sahədə yaşıllıq zolağı salınıb. Ərazinin genişləndirilməsi və abadlaşdırılması məqsədilə burada qəza vəziyyətində olan beşmənzilli kommunal yaşayış binası, 69 saylı Cəlilabad-Biləsuvar-Masallı seçki dairəsinin inzibati binası və Göytəpə bələdiyyəsinin yerləşdiyi bina sökülərək başqa ərazidə əvəzi ödənilməklə yeni layihə əsasında tikilir. Bərbad vəziyyətdə olan Göytəpə şəhər xəstəxanası da başqa əraziyə köçürülür.

Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Parkla tanışlıq zamanı Prezident İlham Əliyevə məlumat verildi ki, tikinti işlərinə ötən ilin mayında başlanılıb. Burada sakinlərin istirahətini dolğun və mənalı təşkil etmək məqsədilə bütün zəruri işlər görülüb.

Son dövrlərdə Azərbaycan Prezidentinin tapşırığı ilə Bakıda və regionlarda parklar və xiyabanlar əsaslı şəkildə yenidən qurulur, yeni istirahət guşələri yaradılır. Bütün bunlar sakinlərin və ölkəmizə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir.

Parkın ətrafına 5 min kvadratmetrlik asfalt döşənib, yeni elektrik xətləri çəkilib. Ətrafda bütün evlər və ictimai obyektlər abadlaşdırılıb.

Bu cür layihələrin icrası bir daha sübut edir ki, şəhərlərimizin və rayonlarımızın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır və vaxtında, yüksək keyfiyyətlə yerinə yetirilir.

***11 avqust 2015-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM CƏLİLABAD RAYONUNDA HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Cəlilabad rayonuna səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin açılışında iştirak edib.

Bu gün respublikamızın bütün bölgələrində ulu öndər Heydər Əliyevin zəngin irsini, xalqımız qarşısındakı tarixi xidmətlərini daha dərindən öyrənmək məqsədilə Ümummilli Liderin adını daşıyan muzeylər və mərkəzlər istifadəyə verilir. Bu baxımdan Cəlilabadda yaradılan Heydər Əliyev Mərkəzinin də xüsusi əhəmiyyəti var. Orijinal üslubda inşa edilən Mərkəz həm də rayonun görkəminə əlavə çalarlar qatır. Bu Mərkəz ilk növbədə, rayon sakinlərinin Ulu Öndərin xatirəsinə dərin ehtiramını nümayiş etdirir. Mərkəzin yaradılması həm də dahi şəxsiyyətin zəngin və çoxşaxəli irsinin təbliğində və öyrənilməsində mühüm rol oynayır, xalqımızın böyük oğlunun Azərbaycan naminə gördüyü işləri gələcək nəsillərə çatdırmaq baxımından mühüm əhəmiyyət daşıyır. Buradakı fotolar və digər eksponatlar bir daha sübut edir ki, Azərbaycanın tənəzzül dövründən inkişaf mərhələsinə qədəm qoyması və hazırkı hərtərəfli yüksəlişi, beynəlxalq nüfuzunun artması, respublikamızda demokratik, hüquqi dövlət quruculuğu prosesi, vətəndaş cəmiyyətinin formalaşması, əsaslı siyasi və iqtisadi islahatların həyata keçirilməsi, ölkəmizin dünyada etibarlı tərəfdaş kimi tanınması və təbliği məhz ümummilli lider Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri ilə bağlıdır. Müasir dövlətin möhkəm təməl və milli dəyərlər üzərində qurulması, xalqımızın milli ideya ətrafında birləşməsi, azərbaycançılıq ideologiyası Heydər Əliyev siyasətinin əsas istiqamətlərindən idi. Bu cür çoxfunksiyalı mərkəzlər Azərbaycanın Heydər Əliyev irsinə əsaslanan davamlı inkişaf konsepsiyasının mahiyyətinin aydın şəkildə öyrənilməsinə real zəmin yaradır.

Dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, inşasına 2014-cü ildə başlanılan Mərkəzin ümumi sahəsi 8800 kvadratmetrdir. Burada ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən muzey yaradılıb. Muzeydə dünya şöhrətli siyasi xadim Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitablar, fotolar, fəxri diplomlar və digər sənədlər sərgilənir. Fotolarda Ulu Öndərin uşaqlıq, yeniyetməlik, tələbəlik illəri, Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi dövr və Cəlilabada səfərləri əks olunub. Dahi şəxsiyyətin müxtəlif dövrlərdə Cəlilabad rayonuna etdiyi səfərlər zamanı çəkilən fotolar da böyük maraqla qarşılanır. Bu fotolar bir daha onu göstərir ki, müasir Azərbaycan tarixinin çox mühüm və taleyüklü səhifəsi məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin dövlətçilik fəlsəfəsinin öyrənilməsi, Heydər Əliyev irsinin tədqiqi və təbliği, bütün sahələrin inkişaf etdirilməsinə xidmət edən layihələrin həyata keçirilməsini öyrənmək baxımından bu Mərkəzin çox böyük əhəmiyyəti var.

Mərkəzdə, həmçinin 110 kvadratmetr sahəsi olan sərgi salonu, qrim otağı, 700 yerlik böyük və kiçik konfrans zalları, amfiteatr, yeni ailə quranlara psixoloji məsləhət, ana və uşaq, geyim, milli rəqs, mərkəzi idarəetmə otaqları var. Burada məntiqi təfəkkür kursu, şən və hazırcavablar klubu, kompyuter kursu-virtual sinif, xarici dil kursları, rəsm studiyası-heykəltəraşlıq, gimnastika və aerobika otaqları, müasir formatlı 3D kinozal, fotostudiya, nikah salonu, gənclər klubu, adi və elektron kitabxanalar, xalça və tikiş otaqları, internet kafe də fəaliyyət göstərəcək.

Bu Mərkəzin istifadəyə verilməsi ilk növbədə, Ulu Öndərin zəngin irsini, onun dərin dövlətçilik ənənələrini öyrənməyə imkan verəcək. Bundan başqa, Cəlilabaddakı Heydər Əliyev Mərkəzi həm də rayon sakinlərinə asudə vaxtlarını səmərəli keçirmək üçün hərtərəfli imkanlar verir. Mərkəzin ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb, dekorativ gül və bəzək kolları, ağaclar əkilib.

Mərkəzlə tanışlıqdan sonra Prezident İlham Əliyev Heydər Əliyev Seyrəngahına gəldi, burada görülmüş yenidənqurma işləri ilə tanış oldu.

Dövlətimizin başçısı seyrəngahda istirahət edən rayon sakinləri ilə görüşüb söhbət etdi.

SAKİNLƏR: Cənab Prezident, Cəlilabada xoş gəlmisiniz. Allah Sizə uzun ömür, cansağlığı versin. Azərbaycan xalqı Heydər Əliyev ailəsinə həmişə borcludur. Hər şey gözəldir. Çox sağ olun.

Ulu Öndərimiz 1969-cu ildə hakimiyyətə gələndən sonra bizim rayonumuz çiçəkləndi, qüdrətləndi. Allah Sizin ailənizin, Əliyevlər ailəsinin canını sağ etsin. Allah Sizi heç vaxt elimizdən, obamızdan əksik etməsin, gələcək günlərinizi xeyirli, uğurlu etsin. Çox sağ olun, cənab Prezident.

Ulu Tanrı xanımınız Mehriban Əliyevanın da canını sağ etsin. Mehriban xanım çox gözəl işlər görür.

Siz bütün dünya dövlətlərinə sübut etdiniz ki, Azərbaycan irəli gedir. İlk Avropa Oyunları yüksək səviyyədə keçirildi. Bütün dünya gördü ki, Azərbaycan irəli gedir, daha da irəli gedəcək.

Allah Ümummilli Liderimizə rəhmət eləsin. Bütün Azərbaycan xalqı Sizinlə - Ulu Öndərin layiqli davamçısı ilə fəxr edir. Biz hər zaman Sizi dəstəkləyəcəyik.

Prezident İlham ƏLİYEV: Sağ olun. Çox şadam ki, Cəlilabad uğurla inkişaf edir. Bu gün Heydər Əliyev Mərkəzinin açılışını etdik. Oradan çıxdım, dedim çoxdandır seyrəngahda olmamışam, gedək oraya da bir baş çəkək.

Cəlilabadda çox gözəl əhval-ruhiyyə var. Rayon inkişaf edir, insanlar rahat yaşayır. Bu gün kənd yolunun açılışını etdik.

SAKİNLƏR: Çox sağ olun. Minnətdarıq.

Prezident İlham ƏLİYEV: Sosial obyektlər tikilir. Ən əsası ondan ibarətdir ki, sizin də qeyd etdiyiniz kimi, Azərbaycan irəli gedir, hamıdan da qabaqdadır.

SAKİNLƏR: Bəli, televiziyadan izləyirik, cənab Prezident, çox məmnun oluruq. Allah Sizi həmişə var eləsin.

Prezident İlham ƏLİYEV: Ölkəmizdə təhlükəsizlik, inkişaf, rahatlıq, ədalət var, sosial məsələlər həll olunur, ən əsası insanların üzü gülür.

SAKİNLƏR: Bəli. Çox minnətdarıq.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*11 avqust 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV ASTANADA QAZAX XANLIĞININ 550 İLLİK YUBİLEYİ İLƏ BAĞLI TEATRLAŞDIRILMIŞ TAMAŞAYA BAXMIŞDIR

Tamaşa Astanadakı "Barıs" arenasında nümayiş olundu.

Mədəni tədbirdə Qazax xanlığının yaradılması, onun inkişafı və müxtəlif mərhələləri səhnələşdirilmiş kompozisiya ilə təqdim edildi.

*11 sentyabr 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAX XANLIĞININ 550 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ ASTANADA KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Təntənəli mərasim Qazaxıstanın dövlət himninin səsləndirilməsi ilə başladı.

Sonra Prezident Nursultan Nazarbayev mərasimdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevi, Qırğızıstan Prezidenti Almazbek Atambayevi, Türkiyə Böyük Millət Məclisinin sədri İsmət Yılmazı və Türkmənistan Baş nazirinin müavini Sapardurdu Toyliyevi salamladı.

Qazax xanlığının 550 illik yubileyinin ölkəsində geniş qeyd edildiyini vurğulayan Prezident Nursultan Nazarbayev xanlığın yaranma tarixindən danışdı. Qeyd etdi ki, əsası 1465-ci ildə qoyulan Qazax xanlığı sonrakı dövrdə daha da qüdrətlənərək Qazaxıstanda milli mədəniyyətin, dövlətçilik ənənələrinin formalaşmasında, qorunmasında və inkişafında mühüm rol oynayıb.

Qazaxıstan Prezidenti vurğuladı ki, ölkə müstəqilliyə qovuşduqdan sonra qədim dövlətçilik ənənələrinə malik olan türkdilli xalqların tarixi, o cümlədən Qazax xanlığı ilə bağlı sanballı tədqiqat əsərləri yazılıb, tarixi şəxsiyyətlərin adları əbədiləşdirilib.

Qazaxıstanın müstəqilliyə qovuşmasından sonrakı dövrdən danışan Nursultan Nazarbayev ölkəsinin son illərdə sürətlə inkişaf etdiyini, mühüm layihələrin həyata keçirildiyini diqqətə çatdırdı.

Prezident Nursultan Nazarbayev türkdilli xalqların ortaq kökə və tarixə malik olduğunu bildirərək türkdilli dövlətlər və xalqlar arasında birliyin, həmrəyliyin, əməkdaşlığın vacibliyini vurğuladı, ulu türk elinin ortaq vətənimiz olduğunu söylədi.

*11 sentyabr 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV AĞSUDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Sentyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kürdəmirə səfərini başa çatdıraraq Ağsu rayonuna gəldi.

Dövlətimizin başçısı əvvəlcə rayon mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Ənvər Seyidəliyev məlumat verdi ki, Ulu Öndərin abidəsinin ucaldıldığı Heydər Əliyev Parkında son vaxtlar geniş abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb. Park rayon sakinlərinin ən sevimli istirahət mərkəzlərindən birinə çevrilib.

*17 sentyabr 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜRDƏMİRDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Kürdəmir rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı əvvəlcə rayon mərkəzində Heydər Əliyev adına parkda Ümummilli Liderin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov Prezident İlham Əliyevə Ulu Öndərin adını daşıyan parkda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi. Bildirildi ki, bu parkdakı fəvvarə yenidən tikilib, burada oturacaqlar quraşdırılıb, yaşıllıq işləri görülüb. Parkda istər rayon sakinləri, istərsə də qonaqların mənalı istirahəti üçün bütün şərait yaradılıb.

*17 sentyabr 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV KÜRDƏMİRDƏ ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULAN TARİX-DİYARŞÜNASLIQ MUZEYİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Sentyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kürdəmirdə əsaslı şəkildə yenidən qurulan Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanış olub.

Dövlətimizin başçısı muzeyin yerləşdiyi Qələbə parkına gəldi.

Məlumat verildi ki, parkda İkinci Dünya müharibəsində həlak olmuş kürdəmirlilərin xatirəsini əbədiləşdirmək məqsədilə tikilmiş abidə son vaxtlar tamamilə yenidən qurulub. Parkda fəvvarələr yenilənib, geniş abadlıq və yaşıllıq işləri görülüb. Bir sözlə, park şəhər əhalisinin istirahət yerinə çevrilib.

Tarixi keçmişimizə həssas münasibət dövlət siyasətinin tərkib hissəsidir. Tarixi abidələrin, müqəddəs yerlərin bərpası yeni muzeylərin, mədəniyyət mərkəzlərinin tikintisi milli mənəvi dəyərlərimizə hörmət və ehtiramın təzahürüdür. Bu proses ölkənin bütün regionlarını əhatə edir. Kürdəmirdəki Tarix-Diyarşünaslıq Muzeyinin əsaslı şəkildə yenidən qurulması qədim tariximizin və mədəni irsimizin öyrənilməsi, gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Muzeydə həm ölkəmizin, həm də Kürdəmirin tarixini əks etdirən çoxlu sayda eksponat var.

Bu muzey 33 il bundan əvvəl ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb və cəmi 627 eksponatla fəaliyyətə başlayıb. İndi isə Prezident İlham Əliyevin müvafiq tapşırıq və tövsiyələrinə əsasən bu maddi-mədəniyyət mərkəzi tamamilə yenilənib və eksponatları zənginləşdirilib.

Dövlətimizin başçısı Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, muzeydə əsaslı yenidənqurma işlərinə 2014-cü ildən başlanılıb. Əlavə tikinti-quraşdırma işləri aparılaraq ümumi sahəsi 400 kvadratmetrə çatdırılıb. Burada iki yeni salon tikilib, əməkdaşlar üçün iş otağı və digər xidməti otaqlar yaradılıb.

Muzeyin mövzu-ekspozisiya planı tam şəkildə yenidən işlənib. Hazırda burada 4070 eksponat var. Bu mədəniyyət ocağının mövzu-ekspozisiyası 4 salonda 7 bölmədə nümayiş etdirilir. Ekspozisiyanın 4 bölməsində Kürdəmir rayonunun tarixinə, mədəniyyətinə, məişətinə aid eksponatlar sərgilənir.

Muzeydə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Kürdəmir rayonuna səfərlərini, rayon ictimaiyyəti ilə görüşlərini əks etdirən fotolar yerləşdirilib.

Muzeyin birinci bölməsi paleolit dövrünün mədəniyyətini və tarixini özündə əks etdirən materiallarla zəngindir. Bölmədə eramızdan əvvəl XVI-XII əsrlərə aid əşyalar nümayiş etdirilir. Qədim Kürdəmir haqqında və ərazidə aparılmış arxeoloji qazıntıları əks etdirən materiallar da böyük maraq doğurur. Vaxtilə rus çarı II Nikolayın Kürdəmirdəki şərab zavodunun açılışında iştirakını əks etdirən foto tarixiliyi ilə diqqəti cəlb edir. Üçüncü bölmədə isə son orta əsrlərə və XX əsrin əvvəlinə aid eksponatlar sərgilənir. Burada erməni terroruna, xüsusilə 1918-ci ildə ermənilərin Kürdəmirdə törətdikləri qırğınlara həsr olunan çoxlu sayda foto və sənədlər toplanıb.

Kürdəmirin tanınmış ziyalılarına həsr olunan bölmədə isə rayonun yetişdirməsi olan tanınmış insanlar barədə geniş məlumatlar toplanıb. Rayonda aparılan abadlıq-quruculuq işlərinin tarixi, mühüm layihələrin açılış mərasimləri də xüsusi bölmədə nümayiş etdirilir.

Muzeydə aparılan təmir-tikinti işləri çərçivəsində ərazi abadlaşdırılıb, geniş yaşıllıq işləri görülüb, yeni fəvvarə inşa olunub.

*17 sentyabr 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜRDƏMİR ŞƏHƏRİNDƏ BAYRAQ MEYDANININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Sentyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kürdəmir şəhərində Bayraq Meydanının açılışında iştirak edib.

Dövlətimizin başçısı əvvəlcə bayraq meydanının yerləşdiyi ərazinin əvvəlki və indiki vəziyyətini əks etdirən fotostendə baxdı.

Dövlətimizin başçısı Bayraq Meydanının rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, meydanda hündürlüyü 62 metr olan bayraq dirəyi ucaldılıb. Dirəyin yerləşdiyi üst meydançada dövlət himninin mətni, dövlət gerbinin və Azərbaycanın xəritəsinin təsvirləri yerləşdirilib. Burada Prezident İlham Əliyevin dövlət bayrağı haqqında söylədiyi kəlam qızılı hərflərlə həkk olunub. Bayraq Meydanı əhalinin asudə vaxtının səmərəli təşkili, dövlət rəmzlərinin təbliği və gənc nəslin dövlətçilik ənənələrinə sədaqət ruhunda tərbiyə edilməsi işinin yaxşılaşdırılması məqsədilə inşa olunub.

Qeyd edildi ki, beş hektar sahədə yerləşən Bayraq Meydanının ərazisində geniş abadlıq-quruculuq işləri görülüb, fəvvarələr quraşdırılıb. Meydanda Bayraq Muzeyi inşa edilib, rayon gənclərinin asudə vaxtının və istirahətinin səmərəli təşkili məqsədilə gənclər kafesi inşa olunub. Burada, həmçinin idman qurğuları meydançası, velosiped zolağı salınıb.

Prezident İlham Əliyev Bayraq muzeyi ilə tanış oldu.

Diqqətə çatdırıldı ki, muzeydə ölkəmizin tarixində mövcud olmuş bayraqlar, şəhərlərin gerbləri, Azərbaycanın orden və medallarının, həmçinin qədim pullarının nümunələri yer alır. Muzeydə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin dövlət bayrağına bəslədikləri hörmət və ehtiramları özündə əks etdirən tarixi fotolar böyük maraqla qarşılanır.

Möhtəşəmliyi ilə diqqəti cəlb edən Bayraq Meydanı kürdəmirlilər və rayona gələn qonaqların hər birinin qəlbində iftixar və qürur hissi oyadır. Bütövlükdə, geniş yaşıllıq işlərinin aparıldığı kompleks rayonda gedən abadlıq-quruculuq tədbirlərinin ardıcıl xarakter aldığını nümayiş etdirir. Müasir səviyyədə inşa olunan bu meydan indi rayonun ən gözəl yerlərindən birinə çevrilib.

*17 sentyabr 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV DÜNYA ŞÖHRƏTLİ AKTYOR VƏ REJİSSOR STİVEN SİQALI QƏBUL ETMİŞDİR

Azərbaycana səfərindən böyük məmnunluq hissi keçirdiyini bildirən Stiven Siqal ölkəmizdə gördüklərinin onda dərin təəssürat yaratdığını dedi. Stiven Siqal Bakıda birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkil olunmasının və bu yarışlarda çoxlu sayda idmançının iştirakının onda böyük heyranlıq yaratdığını dedi. Birinci Avropa Oyunları ilə bağlı görülən işlərin misilsiz dərəcədə möhtəşəm olduğunu vurğulayan qonaq, ümumiyyətlə, Azərbaycanda qazanılan nailiyyətlərin dünyada tanıdılması və təbliğinin önəmini qeyd etdi.

Xoş sözlərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı birinci Avropa Oyunlarının ölkəmiz və eləcə də Avropa üçün tarixi hadisə olduğunu dedi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan bu Oyunları yüksək səviyyədə keçirməklə əslində Avropa Oyunlarının standartlarını müəyyən etdi. Dövlətimizin başçısı ölkəmizin artıq müxtəlif beynəlxalq tədbirlərin, o cümlədən mühüm idman yarışlarının keçirildiyi bir məkana çevrildiyini vurğuladı.

Görüşdə son illər Azərbaycanda bütün istiqamətlərdə, o cümlədən mədəniyyət və idman sahələrində əldə edilən uğurlardan danışıldı.

*21 sentyabr 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖYÇAYDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ucara səfərini başa çatdıraraq Göyçay rayonuna gəlib.

Dövlətimizin başçısı əvvəlcə Göyçay şəhərinin mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu.

Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Ağayev rayonda görülən abadlıq-quruculuq işləri barədə Prezident İlham Əliyevə məlumat verdi.

Bildirildi ki, Göyçay şəhəri öz simasını sürətlə dəyişir. Xüsusilə son vaxtlar şəhərin ən görməli hissəsində yerləşən Heydər Əliyev Mərkəzinin ətrafındakı ərazidə böyük tikinti və abadlıq işləri görülüb. Mərkəzin yerləşdiyi ərazinin ümumi sahəsi 3 hektara çatdırılıb. Qısa müddətdə burada Gənclər Mərkəzi, Bayraq Meydanı və Bayraq Muzeyi, fəvvarə kompleksləri tikilib, mərkəzin qarşısında Ulu Öndərin ağ mərmərdən abidəsi

ucaldılıb. Mərkəzin qarşısındakı ərazi başdan-başa abadlaşdırılıb. Burada genişmiqyaslı yaşıllaşdırma işləri görülüb.

Abidənin ətrafında yeni işıqlandırma sistemi qurulub, 500-dən artıq ağac, 10 mindən artıq gül və bəzək kolu əkilib, yaşıllıq zolağı salınıb. Parkda böyük monitor da quraşdırılıb. Burada ana və uşaq kafesi inşa edilib, uşaqlar üçün müxtəlif attraksionlar qurulub. Bir sözlə, burada rayon sakinləri və qonaqların istirahəti üçün hərtərəfli imkan yaradılıb.

*6 oktyabr 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV GÖYÇAY ŞƏHƏR UŞAQ MUSİQİ MƏKTƏBİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Açılışda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak edib.

Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycanda mədəniyyət sahəsinə dövlət səviyyəsində qayğı gündən-günə güclənir və bu sahədə çalışanların iş şəraitinin müasir tələblər səviyyəsində qurulması üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Bu tədbirlər paytaxtla yanaşı, regionlarda da geniş vüsət alıb. Son dövrlərdə bölgələrdə müasir tipli yeni mədəni infrastruktur yaradılıb, çoxlu mədəniyyət və incəsənət obyekti tikilərək istifadəyə verilib. Göyçayda inşa olunmuş uşaq musiqi məktəbinin binası da bu sırada mühüm yer tutur.

Hələ kiçik yaşlarından uşaqların incəsənətin bu növünə marağını artırmaq, onların musiqi intellektini istədikləri istiqamətə yönəltmək məqsədilə zövqlə tikilən binada işlərin keyfiyyətlə həyata keçirilməsinə xüsusi diqqət yetirilib. Binanın ətrafında geniş abadlıq və yaşıllaşdırma işləri görülüb.

Ümumi sahəsi 650 kvadratmetr olan ikimərtəbəli binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Burada ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin mədəniyyət və incəsənət xadimləri ilə görüşlərini, həmçinin bu sahəyə göstərdikləri diqqət və qayğını nümayiş etdirən fotolar var. Binada müxtəlif mədəni tədbirlərin keçirilməsi üçün 80 yerlik konsert zalı yaradılıb. Məktəbin fortepiano, skripka, qarmon, xalq çalğı alətləri, tar, kaman, xanəndəlik şöbələrində uşaqlar zəngin incəsənətimizin və musiqimizin sirlərinə yiyələnirlər. Bütün sinif otaqları zəruri alət və avadanlıqla təchiz olunub.

Qeyd edildi ki, məktəbdə 430 şagirdin musiqi təlimi ilə 107 müəllim məşğul olacaq. Musiqi məktəbinə 7-13 yaşlı uşaqlar qəbul edilir. Burada təhsil müddəti 5-7 ildir.

*6 oktyabr 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAYRAQ MEYDANI KOMPLEKSİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Göyçaya səfəri çərçivəsində Bayraq Meydanı kompleksində yaradılan şəraitlə tanış olub.

Ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin atributu olan üçrəngli, ay-ulduzlu bayrağın yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində mümkün olub. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra milli bayrağımız ilk dəfə Ulu Öndər tərəfindən Naxçıvanda qaldırı-

lıb. İndi bu bayraq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə dalğalanır. Hər bir azərbaycanlı dövlət bayrağını özünün iftixar mənbəyi hesab edir. Bu mühüm amili şərtləndirən əsas səbəblərdən biri də Prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşmasıdır. Fərəhli haldır ki, dünyanın ən hündür bayraq dirəyinin ucaldığı Bakıdan sonra ölkənin əksər bölgələrində üçrəngli bayrağımızın şərəfinə meydanlar yaradılır, bununla bağlı xüsusi layihələr həyata keçirilir.

Bildirildi ki, Göyçayda Bayraq Meydanının və Muzeyinin inşasına bu ilin aprelində başlanılıb. Muzeyin qarşısında hündürlüyü 66 metr olan bayraq dirəyi ucaldılıb. Burada dalğalanan bayrağın eni 12, uzunluğu isə 24 metrdir. Meydan dövlət rəmzlərinin təbliği və gənc nəslin dövlətçilik ənənələrinə sədaqət ruhunda tərbiyə edilməsi işinin yaxşılaşdırılması məqsədilə inşa olunub. Bayraq Meydanının ərazisində geniş abadlıq-quruculuq işləri görülüb.

Prezident İlham Əliyev Bayraq Muzeyi ilə də tanış oldu.

Diqqətə çatdırıldı ki, muzeydə ölkəmizin tarixində mövcud olmuş dövlətlərin bayraqları, şəhərlərin gerbləri, Azərbaycanın orden və medallarının nümunələri sərgilənir. Muzeydə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin dövlət bayrağına bəslədikləri hörmət və ehtiramı özündə əks etdirən tarixi fotolar böyük maraqla qarşılanır. Müasir səviyyədə inşa olunan bu meydan indi rayonun ən gözəl məkanlarından birinə çevrilib.

*6 oktyabr 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV GÖYÇAYDA GƏNCLƏR MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Oktyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Göyçayda Gənclər Mərkəzinin açılışında iştirak edib.

Dövlətimizin başçısı Gənclər Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.

Ölkəmizdə gənclər siyasətinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər ardıcıl xarakter alıb. Azərbaycanda gənclər siyasətinin formalaşdırılması, yeni inkişaf mərhələsinə qədəm qoyması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu sahənin inkişafı 2003-cü ildən sonra yeni müstəvidə davam etdirilib. 2005-2009-cu illəri əhatə edən "Azərbaycan Gəncliyi Dövlət Proqramı" bu baxımdan çox mühüm rol oynayıb. Hazırda həyata keçirilməkdə olan "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı bu tədbirlərin məntiqi davamıdır. Gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik, milli mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Gənclərin asudə vaxtının səmərəli təşkili, onların müxtəlif peşə və sənətə yiyələnməsi məsələsi də daim diqqətdə saxlanılır. Bu baxımdan bölgələrdə yaradılan gənclər mərkəzləri müstəsna əhəmiyyət kəsb edir.

Qeyd olundu ki, Göyçay Gənclər Mərkəzinin tikintialtı sahəsi 3400 kvadratmetr olan ikimərtəbəli binasının inşası yüksək zövq və keyfiyyətlə həyata keçirilib. Burada gənclər üçün hərtərəfli şərait yaradılıb. Binanın foyesində Ulu Öndərin büstü qoyulub, Ümummilli Liderin Göyçaya səfərlərini, sakinlərlə görüşlərini əks etdirən fotolardan ibarət stendlər yaradılıb. Mərkəzdə Prezident İlham Əliyevin həyat və fəaliyyətini, həmçinin gənclərlə görüşlərini əks etdirən fotoguşələr də var.

Burada rayon gəncləri boulinq zalı, qolf, intellektual oyunlar otaqları, kafe, rəqs studiyası, xarici dil kursları, rəsm, xalçaçılıq, poliqrafiya, heykəltəraşlıq dərnəkləri və fotos-

tudiyaların xidmətindən yararlana biləcəklər. Mərkəzdə 60 yerlik böyük iclas və 15 yerlik konfrans zalları var. Bu zallarda rayon gənclərinin müxtəlif tədbirləri keçiriləcək.

Prezident İlham Əliyev görülən işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.

***6 oktyabr 2015-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UCAR TARİX-DİYARŞÜNASLIQ MUZEYİ ÜÇÜN İNŞA OLUNAN YENİ BİNANIN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Oktyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ucar Tarix-Diyarşünaslıq Muzeyi üçün inşa olunan yeni binanın açılışında iştirak edib.

Dövlətimizin başçısı muzeyin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyevə məlumat verildi ki, ümumi sahəsi 650 kvadratmetr olan bina bütün lazımi kommunikasiya xətləri və müvafiq avadanlıqla təchiz olunub.

Bu gün ölkəmizdə bir sıra yeni muzeylər tikilir, eləcə də mövcud olanları əsaslı şəkildə yenilənir. Qədim tarixi olan və geniş turizm potensialına malik Azərbaycan üçün bu cür muzeylərin yaradılması olduqca vacib məsələdir. Bu sırada Ucar Tarix-Diyarşünaslıq Muzeyi üçün tikilən yeni binanı göstərmək olar. Qədim tariximizin və mədəni irsimizin öyrənilməsi, gələcək nəsillərə çatdırılması baxımından Ucar Tarix-Diyarşünaslıq Muzeyi mühüm əhəmiyyətə malikdir. Muzeydə həm ölkəmizin, həm də Ucarın tarixini əks etdirən və turistlər üçün böyük maraq doğuran çoxlu sayda eksponat var. Bu eksponatlar bölgənin tarixini öyrənmək baxımından olduqca əhəmiyyətlidir. Bütün bunlar onu göstərir ki, ölkədə muzey işinin təşkilində əhəmiyyətli uğurlar qazanılıb. Gənc nəslin tarixi keçmişimizə maraq göstərməsini təmin etmək, onların vətənpərvərlik ruhunda tərbiyə olunması baxımından muzeylərin böyük rolunu nəzərə alaraq bu sahədə tədbirlərin daha da gücləndirilməsinə böyük diqqət göstərilir və bu məsələdə Ucar Tarix-Diyarşünaslıq Muzeyi xüsusi yeri ilə seçilir.

Ucar şəhərinin mərkəzində orijinal layihə əsasında inşa olunan Tarix-Diyarşünaslıq Muzeyinin yeni binası xüsusi dizaynı ilə də diqqəti çəkir.

***6 oktyabr 2015-ci il***

## PREZİDENT İLHAM ƏLİYEV ŞƏKİDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Noyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zaqatala rayonuna səfərini başa çatdıraraq Şəkiyə gəlib.

Dövlətimizin başçısı Şəki şəhərinin mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov Azərbaycan Prezidentinə məlumat verdi ki, Ulu Öndərin abidəsinin ucaldıldığı Heydər Əliyev Parkında geniş abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb.

***4 noyabr 2015-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏKİDƏ "MARXAL" MÜALİCƏ-İSTİRAHƏT KOMPLEKSİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Şəkidə "Marxal" müalicə-istirahət kompleksində tikinti işlərinin gedişi ilə tanış olub.

Prezident İlham Əliyevin 2012-ci ildə "Marxal" müalicə-istirahət kompleksinin yaradılması haqqında imzaladığı Sərəncamdan sonra başlayan inşaat işləri sürətlə davam etdirilir. Ərazisi 30 hektar olan kompleksdə 412 yerdən ibarət 178 otaqlı yeddimərtəbəli mehmanxana binası inşa olunur. Burada 126 birotaqlı, 52 ikiotaqlı nömrələr olacaq.

Dövlətimizin başçısı kompleksdə hazır nümunəvi otaqlara baxdı.

Diqqətə çatdırıldı ki, kompleksdə 250 nəfərlik restoran, lobbi bar, 6 ticarət mağazası, 2 kinoteatr zalı, konfrans, uşaqlar üçün əyləncə zalları qonaqların ixtiyarında olacaq. Ərazidə 600 nəfərlik restoran, 40 nəfərlik yay kafesi, həmçinin 164 yerlik 27 ikimərtəbəli kottec də olacaq.

Prezident İlham Əliyev hazır kotteclərdə yaradılan şəraitlə də tanış oldu. Kotteclərin hər biri müasir standartlar səviyyəsində inşa olunub. Bildirildi ki, burada yaradılacaq süni göl kompleksə xüsusi yaraşıq verəcək. Kompleksin ərazisində uşaqlar üçün su attraksionları və böyük hovuz qurulacaq. Kompleks istifadəyə veriləndən sonra burada müxtəlif əyləncə bölmələri də fəaliyyət göstərəcək. Məsələn, 6 boulinq xəttinin olduğu mərkəz, mini futbol, tennis və basketbol meydançaları, 500 nəfərlik amfiteatr, SPA mərkəzi, qapalı hovuz, sauna, fitnes zalı, müxtəlif müalicə prosedurlarının aparılacağı otaqlar kompleksin özəlliyini daha da artırır. Bu müalicə və istirahət kompleksinin inşasının gələn il başa çatdırılması nəzərdə tutulub. Kompleks istifadəyə veriləndən sonra burada 310 nəfər işlə təmin ediləcək.

Dövlətimizin başçısı inşaat işlərinin gedişi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

*4 noyabr 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV ZAQATALA ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Noyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zaqatala şəhərində Heydər Əliyev Mərkəzinin açılışında iştirak edib.

Əvvəlcə dövlətimizin başçısı Mərkəzin binasının ətrafında aparılan yenidənqurma və abadlıq işləri ilə tanış oldu.

Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycan Prezidentinə məlumat verildi ki, inşasına 2013-cü ildə başlanılan binanın ümumi sahəsi 2765 kvadratmetrdir. Mərkəzin girişində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Birinci mərtəbədə Ümummilli Liderin həyat və fəaliyyətini əks etdirən fotolardan ibarət zəngin ekspozisiya yaradılıb. Burada dünya şöhrətli siyasi və dövlət xadiminin həyat və fəaliyyətindən bəhs edən kitablar, fotolar, fəxri diplomlar, digər sənədlər nümayiş etdirilir. Ekspozisiyada Ulu Öndərin və Prezident İlham Əliyevin müxtəlif dövrlərdə Zaqatala rayonuna etdikləri səfərlər zamanı çəkilən fotolar da böyük maraqla qarşılanır. Ümummilli Liderin dövlətçilik fəlsəfəsinin öyrənilməsi, onun zəngin irsinin tədqiqi və təbliği, bütün sahələrin inkişafına xidmət edən layihələrin həyata keçirilməsini öyrənmək

baxımından bu Mərkəzin böyük əhəmiyyəti var. Burada, həmçinin 350 yerlik konfrans zalı, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı otağı, kinozal, kulinariya və rəsm otaqları, heykəltəraşlıq studiyası, poliqrafiya emalatxanası fəaliyyət göstərəcək.

Mərkəzin ikinci mərtəbəsi elektron kitabxana, arxiv, virtual sinif və kompyuter otaqları, dizayn və xalq sənətkarlığı studiyaları, xarici dil dərnəyi və 44 nəfərlik dairəvi konfrans zalından ibarətdir. Bu Mərkəzin istifadəyə verilməsi rayon gənclərinin ilkin peşə vərdişlərinə yiyələnmələrində və asudə vaxtlarını səmərəli keçirmələrində mühüm rol oynayacaq.

Binanın ətrafında geniş abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb.

Mərkəzin binası ilə tanışlıqdan sonra Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

## PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Sabahınız xeyir olsun.

Mən sizi səmimiyyətlə salamlayıram. Zaqatalada yenidən olmağımdan çox məmnunam. Bu, mənim Prezident kimi Zaqatalaya yeddinci səfərimdir. Bu, özlüyündə onu göstərir ki, Zaqatala rayonunun inkişafına, burada gedən işlərə çox böyük diqqət və dəstək verilir.

Bu gün Zaqatala üçün çox əlamətdar bir gündür. Gözəl bina – Heydər Əliyev Mərkəzi açılır. Yadımdadır ki, iki il bundan əvvəl elə bu yerdə bu binanın təməl daşını qoyduq və indi biz bunun açılışına toplaşmışıq. Doğrudan da həm memarlıq, həm də funksionallıq baxımından çox gözəl binadır. Ulu Öndərin adına yaraşan bir binadır.

Burada Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən materiallar, fotoşəkillər nümayiş etdirilir. Eyni zamanda, burada bir çox dərnəklər və studiyalar da var. Yəni, bu Mərkəzin çox böyük mənası var, funksional tərəfi çox gözəldir, müasirdir. Əminəm ki, Zaqatala sakinləri bu Mərkəzdən səmərəli şəkildə istifadə edəcəklər.

Zaqatalanın inkişafı ilə bağlı xüsusi tədbirlər görülür. Rayonda infrastruktur layihələrinin icrası uğurla gedir. Sənaye potensialı möhkəmlənir, güclənir. Bir sözlə, bu gün Zaqatala müasir şəhərdir. Əminəm ki, şəhərin və rayonun gələcək inkişafı da müsbət olacaqdır. Çünki biz çalışırıq ki, ilk növbədə əsas infrastruktur layihələrini icra edək. İki il bundan əvvəl Zaqatalanın içməli su problemi həllini tapmışdır. Bu gün bu layihələr ölkəmizdə geniş vüsət almışdır. Ancaq Zaqatala ilk rayonlardandır ki, içməli su problemi şəhərdə və bir neçə kənddə öz həllini tapmışdır. İndi şəhərə fasiləsiz içməli su verilir və bu, əlbəttə ki, insanların normal yaşaması üçün çox önəmli bir hadisədir.

Qazlaşdırma ilə bağlı işlər gedir. Şəhər demək olar ki, tam qazlaşdırılıbdır. Kəndlərdə hələ ki, görüləcək işlər var. Ancaq Zaqatalanın relyefini nəzərə alsaq görərik ki, burada hər bir kəndə qaz çəkmək o qədər də asan məsələ deyil. Buna baxmayaraq, Dövlət Neft Şirkətinə göstəriş verilmişdir ki, kəndləri maksimum dərəcədə, mümkün qədər qazlaşdırsın və bu problem də öz həllini tapsın.

Kənd yollarının tikintisi aparılır. Bu gün bir kənd yolunun rəsmi açılışı oldu. Eyni zamanda, digər layihələr var. Bilirəm ki, hələ kənd yollarının tikintisinə böyük ehtiyac var. Gələcək illərdə bu məsələlər də imkan daxilində öz həllini tapacaq.

Belə gözəl memarlıq abidələri yaradılır. Bu gün biz Müəllimlər İnstitutunun filialının açılışını qeyd edəcəyik. Məktəblər, uşaq bağçaları tikilir. Əlbəttə, mən istərdim ki, işlər daha da sürətlə getsin. Ancaq bildiyiniz kimi, imkan daxilində bütün bu işləri görürük, özü də hər bir yerdə, hər bir şəhərdə, hər bir rayonda.

Zaqatala aeroportunun yenidən qurulması və zolağın uzadılması prosesi başa çatandan sonra bu aeroport beynəlxalq status alacaqdır. Ümumiyyətlə, Zaqatala aeroportunun inşa edilməsi mənim təşəbbüsüm idi və aeroport tikildi. İndi isə qarşıya vəzifə qoyulubdur ki, zolaq daha da uzadılsın, bütün növ təyyarələr buraya enə bilsin. Belə olan halda həm beynəlxalq uçuşlar həyata keçiriləcək, həm də turistlərin axını daha da artacaq.

Zaqatalanın çox gözəl təbiəti var, görməli yerləri, tarixi və qədim memarlıq abidələri çoxdur. Mən çox istəyirəm ki, Azərbaycan vətəndaşları bunu görsünlər və ilk növbədə, daxili turizm inkişaf etsin. Eyni zamanda, xarici turistlər də gəlsinlər, görsünlər ki, Azərbaycanda nə qədər gözəl işlər gedir və necə səfalı, gözəl yerlər vardır.

Ölkəmizdə bütövlükdə işlər uğurla gedir. Biz 2015-ci ili uğurla başa vuracağıq, bütün sosial-iqtisadi göstəricilərimiz yüksək səviyyədədir. Baxmayaraq ki, bu gün dünyada hələ də böhran davam edir. Əslində, dünyada maliyyə və iqtisadi sahədə yaşanan böhran bir neçə ildir ki, davam edir. İndi bu böhrana siyasi və hərbi böhran əlavə olunubdur. İndi dünyada gedən prosesləri siz də izləyirsiniz. Görürsünüz ki, dünyanın müxtəlif yerlərində, bizim qonşuluğumuzda çox narahatedici proseslər gedir. Həm Avropada, həm MDB məkanında, Yaxın Şərqdə qanlı toqquşmalar, qarşıdurmalar baş verir, qan tökülür. Belə olan halda hər bir ölkə ilk növbədə öz təhlükəsizliyi haqqında daha da ciddi düşünməlidir. Əslində, biz bu barədə həmişə düşünmüşük. Azərbaycan xalqının təhlükəsiz şəraitdə yaşaması bizim üçün ən birinci prioritet məsələ idi. Çünki əgər biz buna nail ola bilməsə idik, heç bir inkişafdan söhbət gedə bilməzdi. Sabitlik olmayan yerdə inkişaf mümkün deyil.

Ancaq indiki şəraitdə buna daha da böyük diqqət göstərilir. Azərbaycanda təhlükəsizlik yüksək səviyyədə təmin edilir. Sabitlik möhkəmlənir, xalq ilə iqtidar arasındakı birlik daha da güclənir. Son parlament seçkiləri bunu bir daha təsdiqlədi. İlk növbədə, qeyd etməliyəm ki, parlament seçkiləri yüksək fəallıqla müşahidə olunurdu. Eyni zamanda, bütün demokratik normalar təmin edilmişdir. Ədalətli, şəffaf keçirilən seçkilər Azərbaycanın demokratik inkişafa nə qədər sadiq olduğunu bir daha göstərdi. Beş yüzdən çox xarici, on minlərlə yerli müşahidəçi dediyim bu sözləri təsdiqlədilər. Bütün beynəlxalq müşahidəçilər seçkilərin yüksək səviyyədə keçirildiyini qeyd etdilər. Onu da qeyd etdilər ki, bu seçkilər Azərbaycan xalqının iradəsini ifadə edib.

Bu, doğrudan da böyük nailiyyətdir, böyük uğurumuzdur. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı ölkədə aparılan siyasəti bəyənir, dəstəkləyir və seçkilər vasitəsilə öz fikrini ifadə edir. Biz də çalışmalıyıq ki, bundan sonra da xalqın etimadını doğruldaq, ölkəmizdə aparılan prosesləri sürətləndirək ki, bir dənə də olsun sosial və iqtisadi problem qalmasın.

Son illər ərzində bu istiqamətdə çox böyük işlər görülmüşdür. Bütün beynəlxalq qurumlar bunu təsdiqləyir. Ölkələrin rəqabət qabiliyyətliliyinə görə Azərbaycan dünya miqyasında 40-cı yerdədir, bir çox inkişaf etmiş ölkələri də qabaqlayır. Eyni zamanda, yoxsulluğa, işsizliyə qarşı mübarizəmiz beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilir. Bu yaxınlarda - sentyabr ayında BMT Azərbaycanı bu nailiyyətlərə görə yüksək mükafatla təltif etmişdir.

Cəmi on il ərzində Azərbaycanda yoxsulluq 50 faizdən 5 faizə düşüb. Mən, ümumiyyətlə, qarşıya vəzifə qoymuşam ki, Azərbaycanda yoxsulluq olmamalıdır. Azərbaycanda bir nəfər də olsun yoxsul şəraitdə yaşayan insan olmamalıdır və biz bu hədəfə yaxınlaşırıq.

Son vaxtlar işsizliklə bağlı böyük addımlar atılmışdır. İşsizlik çox aşağı səviyyədədir. Ancaq dünyada gedən maliyyə böhranı nəticəsində işsizlik bir qədər arta bilər. Yəni, bəzi iş yerləri bağlanır. Ancaq açılan iş yerləri bağlanan yerlərdən daha da çoxdur və müsbət dinamika burada da özünü göstərmişdir. Əgər 30 min iş yeri bağlanıbsa, 67 min iş yeri açılıbdır.

Əlbəttə ki, gələcəkdə iqtisadi islahatların aparılması da prioritet olaraq qalacaq – sahibkarlığın, kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi. Bu sahələrdə Zaqatala rayonunun çox böyük potensialı var. Biz indi çalışmalıyıq ki, öz təbii imkanlarımızdan maksimum dərəcədə istifadə edək. Biz sahibkarlara daha da yaxşı şərait yaratmağa çalışmalıyıq ki, onlar daha da çox məhsul yetişdirsinlər və məhsulu daxili və xarici bazarlarda sata bilsinlər. Bu məqsədlə çox ciddi addımlar atılmışdır, mənim tərəfimdən Sərəncam imzalanmışdır, qanun qəbul edilmişdir ki, biznes mühitini biz daha da yaxşılaşdıraq, sahibkarlara heç kim mane olmasın, onların işinə heç kim müdaxilə etməsin.

Mən əminəm ki, görülən işlər nəticəsində Azərbaycan gələcəkdə də müsbət iqtisadi inkişaf dinamikasını saxlaya biləcək. Bunu etmək indiki şəraitdə o qədər də asan deyil. Bir çox ölkələrdə, həm qonşuluqda, həm dünyada iqtisadi tənəzzül, Azərbaycanda isə iqtisadi inkişaf yaşanır. Bu ilin doqquz ayında iqtisadiyyat təxminən 4 faiz, qeyri-neft iqtisadiyyatı 6 faizdən çox artmışdır. Əlbəttə ki, bu, görülən işlər nəticəsində mümkün olub. Ancaq əldə edilmiş nailiyyətlər bizi arxayınlaşdırmamalıdır. Bizim hər birimiz daha da fəal olmalıyıq, çalışmalıyıq ki, doğma Vətənimizi daha da irəliyə aparaq, Azərbaycanda bu gözəl ictimai-siyasi mühit daimi olsun. Əminəm ki, belə də olacaq.

Bir çox beynəlxalq təşkilatlar, siyasətçilər, politoloqlar, alimlər Azərbaycanda dinlərarası, millətlərarası münasibətləri nümunə kimi göstərirlər. Bu, həqiqətən də belədir və Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda yaşayan hər bir millətin nümayəndəsi dəyərli vətəndaşdır, eyni hüquqlara malikdir. Heç vaxt Azərbaycanda dini, milli zəmində qarşıdurma olmamışdır və biz bu siyasətə sadiqik. Harada ki, bu məsələlər müsbət istiqamətdə getmir, o ölkələr fəlakətlə üzləşir. Azərbaycanda isə bu sahədə mövcud olan vəziyyət, ilk növbədə, ölkəmizi gücləndirir, digər tərəfdən başqa ölkələrə də yol göstərir ki, bu, mümkündür - birgə yaşamaq, bir-birinə dəstək olmaq, bir-birinin dininə, adət-ənənələrinə, milli dəyərlərinə hörmət etmək mümkündür.

Baxın, bu gün Avropada mənəvi böhran yaşanır. Avropa bəyan etdiyi dəyərlərə sadiq çıxa bilmir, miqrantlara - müsəlman qaçqınlarına nə qədər böyük əzab-əziyyət verilir, onların ləyaqəti alçaldılır, onlara qarşı çox dözülməz, qəbuledilməz addımlar atılır. Mən dəfələrlə demişəm, o insanların heç bir günahı yoxdur. Xarici müdaxilə nəticəsində onların ölkələri darmadağın edildi, onlar on minlərlə, yüz minlərlə yaxınlarını itirdilər, milyonlarla insan qaçqın vəziyyətinə düşdü və indi onlar Avropaya pənah aparırlar. Orada isə onların qarşısında sədlər tikilir, tikanlı məftillər çəkilir, onlara itlərlə hücum edilir, onlar qəfəsə salınır. Sonra isə insana yaraşmayan o qəfəsin üstündən onlara yemək atılır. XXI əsrdə bu qədər dözülməz hərəkət heç kimə şərəf gətirmir. Bu, bir sınaq dövrüdür. Avropa indi bu sınaqdan çıxmalıdır, bəyan etdiyi dəyərlərə sadiq qalmalıdır. Yoxsa, əgər bu vəziyyət davam edərsə heç bir başqa ölkə qarşısında heç bir tələb qoyula bilməz. İlk növbədə, sən özün daxildə bu prosesləri normal məcraya salmalısan, özün daxildə bəyan etdiyin dəyərlərə sadiq çıxmalısan, ondan sonra kimdənsə nəsə tələb edə bilərsən.

Bu proseslər bizi çox narahat edir, incidir, ürəyimizi ağrıdır. O yazıq insanları bu vəziyyətdə görəndə əminəm ki, hər bir normal insan çox ağır hisslər yaşayır. Digər tərəfdən, bu, dini qarşıdurmadır, - mən bunu belə adlandırardım, - bu, miqrant böhranı deyil, bu, dini qarşıdurmadır, bu, islamafobiyanın əlamətidir. Bu, son illər ərzində anti-müsəlman təbliğatının nəticəsidir və bu, daha da böyük problemlərə və dünyada sivilizasiyalararası toqquşmaya gətirib çıxara bilər.

Biz Azərbaycanda multikulturalizm dəyərlərini təbliğ edirik. Biz müxtəlif forumlar, konfranslar, beynəlxalq tədbirlər keçiririk və sübut edirik ki, bir yerdə yaşamaq mümkündür. Azərbaycanın timsalında bunu hər kəs görə bilər.

Ancaq bu gün biz görürük ki, dini zəmində qarşıdurma daha da böyük problemlərə gətirib çıxara bilər. Biz də bunu bilməliyik. Bəzi hallarda belə sözlər işlədilir ki, biz inteqrasiya etməliyik, Avropaya inteqrasiya etməliyik. Mən artıq dəfələrlə demişəm, biz heç yerə inteqrasiya etməməliyik. Biz öz milli dəyərlərimiz üzərində möhkəm dövlət, bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmuşuq. Xüsusilə indiki ayrı-seçkilik, islamafobiya dövründə inteqrasiya etməyə heç bir ehtiyac yoxdur. Biz hansı formada inteqrasiya edə bilərik. Bizi orada qəbul edə bilərlərmi? Yox. Bu, artıq reallıqdır, ancaq acı reallıqdır. Ona görə biz bundan sonra da ancaq daxili resurslar hesabına yaşamalıyıq.

Onsuz da heç kim bizə heç vaxt kömək etməmişdir. Nəyi əldə etmişiksə, öz hesabımıza əldə etmişik. Biz heç kimdən heç bir yardım gözləmirik, buna ehtiyac yoxdur. Sadəcə olaraq, bizim işimizə də heç kim qarışmasın, bizimlə diktat dili ilə danışmağa cəhd etməsin. Onsuz da bu səylər əbəsdir.

Hesab edirəm ki, Azərbaycan xalqı bu gün öz milli ləyaqətini qoruya bilir, bunu sübut edib. Bizim gücümüz xalqla iqtidar arasındakı birliyimizdədir. Ona görə də dünyada gedən acınacaqlı proseslərə baxmayaraq, biz Azərbaycanda inkişaf görürük. Yeni binalar, yeni sənaye müəssisələri tikilir, insanlar rahat yaşayır, seçkilər gözəl şəraitdə keçirilir. Bax, budur Azərbaycanın uğurlu inkişaf modeli. Mən əminəm ki, biz gələcəkdə də bu uğurlu yolla gedəcəyik.

Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*4 noyabr 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TBİLİSİDƏ QƏHRƏMANLAR MEMORİALINI ZİYARƏT ETMİŞDİR

Noyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstana rəsmi səfəri çərçivəsində Tbilisidə Qəhrəmanlar Memorialını ziyarət edib.

Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev Qəhrəmanlar Memorialının önünə əklil qoydu.

Sonra Azərbaycanın və Gürcüstanın dövlət himnləri səsləndirildi.

*5 noyabr 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV TBİLİSİDƏ HEYDƏR ƏLİYEV ADINA MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Tbilisidə Heydər Əliyev adına mədəniyyət və istirahət parkında xalqımızın Ümummilli Liderinin abidəsini ziyarət edib.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.

*5 noyabr 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN PRAVOSLAV KİLSƏSİNİN PATRİARXI II İLİYA İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Prezidentini səmimiyyətlə salamlayan Gürcüstan Pravoslav Kilsəsinin Patriarxı II İliya ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyev ilə şəxsi münasibətlərini yüksək dəyərləndirdi. O qeyd etdi ki, Azərbaycan ilə Gürcüstan arasındakı münasibətlər nümunə xarakteri daşıyır. Hər iki dövlət Qafqazda sülhü və əmin-amanlığı qorumaq üçün səylərini əsirgəmir. Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan Gürcüstan Pravoslav Kilsəsinin Patriarxı bundan sonra da xalqlarımızın sülh və firavanlıq şəraitində yaşayacaqlarını bildirdi. II İliya ölkələrimizin dini sahədə münasibətlərinin də çox yaxşı olduğunu dedi.

Gürcüstanda 300-dən çox məscidin fəaliyyət göstərdiyini deyən Pravoslav Kilsəsinin Patriarxı Azərbaycan Prezidenti İlham Əliyevə ölkəmizdə yaşayan gürcülərə göstərilən yüksək diqqətə görə minnətdarlığını bildirdi. O, Azərbaycanda Gürcüstanın yepiskopunun olması və bir sıra digər dini məsələlərlə bağlı fikirlərini çatdırdı. Gürcüstana Azərbaycandan təbii qazın verilməsi ilə bağlı Prezident İlham Əliyevə təşəkkürünü çatdıran Patriarx II İliya ölkələrimiz arasında bundan sonra da münasibətlərin yüksək səviyyədə olacağına inamını ifadə etdi.

Gürcüstan Pravoslav Kilsəsinin Patriarxı ilə Bakıdakı səmimi görüşlərini xatırladan Prezident İlham Əliyev Azərbaycanda II İliyaya böyük hörmət bəsləndiyini vurğuladı. Dövlətimizin başçısı Gürcüstanın dini liderinin fəaliyyətinin hər zaman regionda sülhün bərqərar olmasına, bütün münaqişələrin həllinə, dünyadakı dinlərarası münasibətlərdə qarşılıqlı anlaşmaya, qarşılıqlı hörmətə və sülhə əsaslandığını dedi. Prezident İlham Əliyev çoxmillətli və çoxkonfessiyalı Azərbaycan və Gürcüstanın digər ölkələr üçün ümumbəşəri dəyərlərə sadiqlik nümunəsi olduqlarını xüsusi vurğuladı. Marneulidə Azərbaycan icması ilə görüşünə toxunan dövlətimizin başçısı ölkəmizdə yaşayan gürcülərə də yüksək münasibət göstərildiyini bildirdi. Müstəqillik dövründə ölkələrimiz arasında strateji münasibətlərin formalaşdığını deyən Prezident İlham Əliyev bu baxımdan Gürcüstana rəsmi səfəri zamanı dövlət başçılarının imzaladıqları Birgə Bəyannamənin əhəmiyyətini xüsusi qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünün bərpasının hər iki ölkənin dinamik inkişafı üçün zəruriliyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq qurumlar çərçivəsində fəal qarşılıqlı fəaliyyətinin mövcud olduğunu bildirdi.

SOCAR-ın Gürcüstandakı fəaliyyətini yüksək dəyərləndirən Prezident İlham Əliyev hər iki ölkənin uğurlu gələcəyinin yalnız sıx qarşılıqlı əməkdaşlıq sayəsində mümkün olduğunu dedi. Dövlətimizin başçısı Gürcüstana rəsmi səfərinin iki ölkə arasında əməkdaşlıq və qardaşlığın daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini vurğuladı.

Sonda qarşılıqlı hədiyyələr təqdim olundu.

*6 noyabr 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV AMEA-NIN 70 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ ÜMUMİ YIĞINCAQDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yığıncaqda iştirak edib.
Dövlətimizin başçısı AMEA-nın ümumi yığıncağında nitq söyləyib.

## PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli xanımlar və cənablar, əziz dostlar.

İlk növbədə, mən sizi və bütün Azərbaycan xalqını Dövlət Bayrağı Günü münasibətilə ürəkdən təbrik edirəm. Biz bu əziz gündə Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyini qeyd edirik. Bu münasibətlə də bütün Azərbaycan alimlərini ürəkdən təbrik edirəm, onlara yeni uğurlar, nailiyyətlər arzulayıram.

Bu 70 ildə Akademiya böyük və uğurlu yol keçmişdir. Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin intellektual potensialının möhkəmlənməsinə çox dəyərli töhfələr vermişdir. Kadr hazırlığı işinə də dəyərli töhfələr vermişdir. Bu gün də Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin ümumi inkişafında fəal rol oynayır, alimlər öz elmi araşdırmalarını apararaq ölkəmizin gələcək inkişaf dinamikasını sürətləndirirlər.

Mən çox istəyirəm ki, Azərbaycan alimləri gələcəkdə də ölkəmizin hərtərəfli inkişafında daha fəal rol oynasınlar. Çünki ölkəmizin gələcəyi elmi potensialın səviyyəsi ilə bilavasitə bağlıdır. Hər bir ölkədə, o cümlədən Azərbaycanda inkişaf elmin səviyyəsi ilə bağlıdır. Bu gün yeni texnologiyalar əsridir. O ölkələr ki, bu texnologiyaların sahibidir, əlbəttə, onlar dünya miqyasında öz maraqlarını daha böyük dərəcədə müdafiə edə bilirlər.

Azərbaycan da o ölkələrin sırasında olmalıdır. Bu gün biz çalışırıq ki, həyatımızın müxtəlif istiqamətlərində ən müasir texnologiyalar Azərbaycana gətirilsin, tətbiq edilsin və bizim alimlərimiz də gələcəkdə öz işlərini bu texnologiyalar əsasında daha səmərə ilə qura bilsinlər.

Bildiyiniz kimi, müstəqilliyimizin ilk illərində Akademiyanın işinə münasibət o qədər də müsbət deyildi. Alimlər yaxşı xatırlayırlar ki, 1992-ci ildə o vaxtkı hakimiyyət hətta Akademiyanın bağlanması ilə bağlı təklif irəli sürmüşdü. Ümumiyyətlə, o vaxtkı rəhbərlik hesab edirdi ki, Azərbaycanda Milli Elmlər Akademiyasına ehtiyac yoxdur.

Bu, çox səhv bir yanaşma idi. Xoşbəxtlikdən 1993-cü ildə ulu öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra, əlbəttə, bütün bu söhbətlərə son qoyuldu. Ulu Öndərin ictimaiyyətlə ilk görüşü məhz alimlərlə, Milli Elmlər Akademiyasının binasında olmuşdu. O vaxtdan bu günə qədər Azərbaycan elminin inkişafına çox böyük diqqət göstərilir. Bu sahə bu gün də prioritet sahələrdən biridir.

Əlbəttə ki, müstəqilliyimizin ilk illərində bizim maliyyə vəziyyətimiz indiki kimi deyildi. Azərbaycan çox ağır dövr yaşayırdı. Həm siyasi böhran, hərbi böhran, vətəndaş müharibəsi, torpaqlarımızın işğal altına düşməsi və iqtisadi tənəzzül, əlbəttə, imkan vermirdi ki, Akademiyanın inkişafına lazımi səviyyədə maliyyə vəsaiti ayrılsın. Ancaq o vaxt da imkan daxilində bu məsələlər öz həllini tapırdı.

Əlbəttə, indiki dövrdə Azərbaycan artıq dünya miqyasında öz iqtisadi inkişaf modelini ortaya qoyub və iqtisadi inkişaf templərinə görə çox böyük rəğbətlə qarşılanır. Ona görə də bu gün biz Akademiyanın işinə daha da böyük həcmdə vəsait ayıra bilirik, bunu edirik. Onu da qeyd etməliyəm ki, bu sahədə alimlərin, elmi ictimaiyyətin təklifləri də nəzərə alınır. Mən xatırlayıram ki, dörd il bundan əvvəl bu binada, bu salonda çıxış edərək fikirlərimi bildirmişdim. O vaxt çıxış edən alimlər də təkliflərini irəli sürmüşdülər. O təkliflərin demək olar ki, hamısı ya icra edilibdir, ya da icra edilir.

Son illər ərzində Akademiyanın maddi-texniki bazası möhkəmlənib, gözəl bina əsaslı təmir edilib. Akademiya institutlarının təmirinə vəsait ayrılıb. Elmi kitabxana kompleksi yaradılıb. Şamaxı Astrofizika Rəsədxanası əsaslı təmir edilib. Milli Ensiklopediya üçün gözəl bina tikilibdir. Yəni, bütün bunlar Azərbaycan dövlətinin siyasətini ifadə edir. Biz çox istəyirik ki, elmi inkişaf üçün daha da gözəl şərait yaradılsın. Bununla bərabər, elmin inkişafı üzrə milli strategiya və dövlət proqramı artıq beş-altı ildir ki, qəbul edilib

və icra olunur. Hesab edirəm ki, Elmin İnkişafı Fondunun yaradılması da bu istiqamətdə atılan çox önəmli addımdır. Çünki bu Fond imkan yaradır ki, həm gənc alimlərə qrantlar verilsin, həm də elmi araşdırmalar aparılsın. Ümumiyyətlə, bu, əlbəttə, elmin inkişafına müsbət təsir göstərir.

Bu gün bu salonda alimlər qarşısında çıxış edərkən ölkəmizin gələcək inkişafı və alimlərin bu inkişafda rolu ilə bağlı bəzi fikirlərimi bölüşmək istəyirəm.

Bu gün dünyada yeni bir dövr yaşanır. Bunu televiziyadan və kütləvi informasiya vasitələrindən hər bir vətəndaş görür ki, həm bölgədə, həm dünyada inkişaf, əfsuslar olsun, müsbət istiqamətdə getmir. Yeni təhlükələr, təhdidlər, risklər, qarşıdurmalar, müharibələr yaranır. Əfsuslar olsun ki, gələcəklə bağlı proqnoz verərkən nikbinlik üçün heç bir əsas yoxdur. Belə bir şəraitdə hər bir ölkə, əlbəttə, ilk növbədə daxili resurslara arxalanmalı, öz təhlükəsizliyini daha da böyük dərəcədə təmin etməli, dünyada yaşanan maliyyə və iqtisadi böhran zamanı öz iqtisadi modelində müəyyən düzəlişlər aparmalıdır.

Azərbaycan artıq neçə ildir ki, müstəqil siyasət apararaq həm siyasi, həm iqtisadi sahələrdə, beynəlxalq münasibətlər sahəsində müstəqil fəaliyyət göstərir. Bizim fəaliyyətimiz xalqın milli maraqları üzərində qurulubdur. Bu, bizim üçün əsas şərtdir, əsas vəzifədir və bütün səylərimiz bu məqsədə xidmət göstərir.

Əlbəttə, biz də dünyada, bölgədə gedən prosesləri izləyərək çalışmalıyıq ki, ölkəmiz üçün riskləri nə qədər mümkünsə minimum səviyyəsinə endirək və buna nail ola bilirik. Bu gün alovlanan bölgədə Azərbaycan sabitlik adasıdır, sülh, əmin-amanlıq məkanıdır. Azərbaycan vətəndaşları əmin-amanlıq şəraitində yaşayırlar, yaradırlar. Əminəm ki, görülən və görüləcək tədbirlər nəticəsində bu müsbət dinamika, müsbət ab-hava Azərbaycanda daha da güclənəcək.

Eyni zamanda, bu gün dünyada yaşanan iqtisadi böhran hələ ki, davam edir, sonu görünmür. Belə olan halda biz iqtisadi sahədə daha da ciddi islahatlar aparmalıyıq.

Ümumiyyətlə, son illər ərzində bizim siyasətimiz ondan ibarət idi ki, neft-qaz amilindən asılılığımızı maksimum dərəcədə aşağı salaq, ölkə iqtisadiyyatının şaxələndirilməsinə nail olaq, bölgələrdə yeni iş yerlərinin, sənaye müəssisələrinin yaradılması məsələlərini həll edək. Hələ 2004-cü ildə birinci regional inkişaf proqramının qəbulu məhz bu məqsədi güdürdü. Şadam ki, bu proqramlar artıq ardıcıllıqla icra edilir və bölgələrin siması dəyişilib. Yeni müəssisələr, sosial obyektlər, infrastruktur layihələri ölkəmizi gücləndirir və neft-qaz amilindən asılılığımızı böyük dərəcədə azaldır. Əgər ümumi daxili məhsulumuzun strukturuna baxsaq görərik ki, hazırda neft-qaz sektoru burada təqribən 30 faiz təşkil edir, gələcəkdə bu rəqəm daha da aşağı düşməlidir.

Ancaq bununla bərabər, bu gün biz iqtisadiyyatın yeni modeli haqqında düşünürük. Hökumətə, dövlət qurumlarına müvafiq göstərişlər verilmişdir və çox istərdim ki, bizim alimlərimiz də bu işlərdə fəal iştirak etsinlər.

Əminəm ki, bizim iqtisadi inkişaf dinamikamız davam edəcəkdir. Çünki bunun təməlində həm artıq görülmüş işlər, infrastruktur layihələri, gözəl investisiya iqlimi dayanır, eyni zamanda, dünyanın mötəbər iqtisadi qurumları da fəaliyyətimizi yüksək qiymətləndirirlər. Həm Dünya Bankı, həm Beynəlxalq Valyuta Fondu hesab edir ki, bu bölgədə - Şərqi Avropada gələcək illərdə ən yüksək iqtisadi templərlə inkişaf edən ölkə Azərbaycan olacaqdır. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumu ölkə iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 40-cı yerə layiq görüb. Bu, çox böyük nəticədir. İki yüz ölkənin arasında 40-cı yeri tutmaq, bir çox inkişaf etmiş ölkələri qabaqlamaq doğrudan da böyük nailiyyətdir və bunu biz neftin, qazın hesabına əldə etməmişik. Düşünülmüş siyasət, iqtisadi islahatlar bunu mümkün etmişdir. Biz çalışmalıyıq ki, bu yüksək templəri növbəti illərdə də saxlayaq və beləliklə, iqtisadi inkişafı uzunmüddətli, dayanıqlı edək.

Çünki bizim iqtisadi uğurlarımız və iqtisadi müstəqilliyimiz dövlət müstəqilliyimizin əsasıdır. Əgər biz başqa ölkələrdən asılı vəziyyətdə olsaydıq müstəqil siyasət apara bilməzdik. Bizim gücümüz məhz bundadır. Ona görə də biz çalışırıq ki, daxili resurslardan maksimum dərəcədə istifadə edək və heç kimdən asılı olmayaq. Asılı oldunsa, gərək başqasının sifarişlərini yerinə yetirəsən, yaxud da ki, əziyyət çəkəsən. Biz istəmirik ki, heç kimdən asılı olaq. İstəyirik ki, öz yolumuzla gedək, xalqımız daha da yaxşı yaşasın, dövlətimiz daha da güclənsin. Bir daha demək istəyirəm ki, iqtisadi müstəqillik dövlət müstəqilliyinin əsasıdır. Ona görə hesab edirəm ki, alimlər bu yeni vəziyyətlə bağlı öz dəyərli təkliflərini verməlidirlər və verəcəklər.

Bir məsələni də əlavə etmək istəyirəm. Azərbaycanda çox müsbət demoqrafik vəziyyət mövcuddur. Bu da son illər ərzində ölkənin inkişafı ilə bağlıdır. Çünki əgər biz demoqrafiyanın statistikasına nəzər yetirsək, görərik ki, ölkəmiz üçün ən ağır illərdə demoqrafik vəziyyət çox mənfi idi. Ancaq ölkə iqtisadiyyatı inkişaf etməyə başlayandan, sabitlik tam bərqərar olandan sonra demoqrafik vəziyyət yaxşılaşdı. Bu gün Azərbaycan əhalisi sürətlə artır, bir neçə ildən sonra 10 milyon səviyyəsinə çatacaqdır. Əlbəttə ki, bu, bizim böyük sərvətimizdir. Əhalimiz nə qədər çox olarsa, ölkəmiz də o qədər güclü olacaqdır. Ancaq bu vəziyyət, eyni zamanda bir çox məsələlərin həllini diktə edir. Artan əhali artan iş yerləri deməkdir. Biz son on il ərzində bir milyondan artıq daimi iş yeri açdıq. Ancaq bu proses davam etməlidir. İş yerlərinin açılması üçün həm dövlət investisiyaları, həm də xarici investisiyalar qoyulmalıdır. İndi bizim gəlirlərimiz azalır, bu, təbiidir, neftin qiyməti 100 dollardan 50 dollara, ondan da aşağı səviyyəyə düşübdür. Biz gələn ilin dövlət büdcəsində ixtisarlar etmişik, bəzi investisiya layihələrini təxirə salmışıq. Ona görə iş yerlərinin yaradılması gələcəkdə investisiya iqliminin daha da yaxşılaşması ilə bağlı olmalıdır. Biz çalışmalıyıq ki, Azərbaycana daha çox xarici sərmayə cəlb edək. Ümumiyyətlə, hesab edirəm ki, bizim alimlərimiz demoqrafik vəziyyətlə bağlı daha da fəal işləməlidirlər. Burada sosial yük artacaq, yəni, yeni uşaq bağçaları, yeni məktəblər tikilməlidir, yeni sənaye müəssisələri yaradılmalıdır, binalar, evlər, o cümlədən fərdi evlər inşa edilməlidir. Bunun üçün torpaq sahələri lazımdır. Biz o torpaq sahələrini haradan əldə edək? Şəhərsalma ilə bağlı yeni çağırışlar üzə çıxır. Nəqliyyatın yükü böyük olacaqdır. Yəni, bütün bunlar reallıqdır. Əgər biz bunlar barədə fikirləşməsək, gün gələcək ki, bu, böyük problemlərə gətirib çıxaracaq. Ona görə biz indidən bütün bu demoqrafik inkişafı əsas götürərək, bütün istiqamətlər üzrə yeni strategiyamızı buna uyğun şəkildə müəyyən etməliyik.

Bu günə qədər və hətta bu gün bizim əsas vəzifəmiz infrastruktur layihələri idi. Biz onları Bakıda və bölgələrdə icra edirik. Əlbəttə, elektrik enerjisi ilə təchizat, qazlaşdırma, içməli su, meliorasiya, kənd yolları, magistral yollar, təmir işləri bundan sonra da davam edəcək. Ancaq bunlarla bərabər, mütləq yeni yanaşma da olmalıdır.

Son illər ərzində sənayenin inkişafı ilə bağlı çox ciddi addımlar atılmışdır. Bunun nəticəsidir ki, bu ilin doqquz ayında bizim qeyri-neft sənayemiz 10 faizdən çox artıbdır. İndiki şəraitdə bu, tarixi nailiyyətdir. Hazırda Azərbaycanda reallaşan və planlaşdırılan böyük sənaye layihələri gələcəkdə qeyri-neft potensialımızı gücləndirəcək, ixrac potensialımızı böyük dərəcədə artıracaq. Texnoparklar yaradılır. Kimya Sənaye Parkının artıq təməli qoyulubdur. Orada artıq ilk müəssisələr yaradılıb. Azərbaycan alimləri bütün bu işlərdə fəal iştirak etməlidirlər. Əlbəttə ki, bütün bu istiqamətdə inşaat və mühəndislik işlərini xarici podratçılar icra edirlər. Ancaq müvafiq dövlət qurumlarına göstəriş verilmişdir ki, Azərbaycan alimlərini də bu işə cəlb etsinlər. Xahiş edirəm ki, alimlər özləri də bu işlərdə fəallıq göstərsinlər.

Azərbaycanda ərzaq təhlükəsizliyi ilə bağlı çox böyük işlər görülübdür. Biz özümüzü bütün əsas ərzaq məhsulları ilə demək olar ki, ya 100 faiz, ya 90 faiz təmin edirik. Bu

proses davam etdiriləcəkdir. Son illər ərzində taxılçılıqda 20-yə yaxın iri fermer təsərrüfatı yaradılmışdır. Bu təsərrüfatlarda bir hektarda məhsuldarlıq 55-60 sentnerdir. Yəni, ümumi məhsuldarlıqdan iki dəfə çoxdur. Nəyə görə? Çünki orada elmi yanaşma, müasir texnologiyalar tətbiq olunur, onlardan istifadə edilir. Bu nəticələrin qazanılmasında alimlərin çox böyük zəhməti var. Nəzərə alsaq ki, əhalimizin təxminən 50 faizi aqrar bölgələrdə yaşayırlar, gələcəkdə kənd təsərrüfatının inkişafı həm iqtisadi, həm sosial məsələ kimi daim gündəlikdə olacaqdır.

Təsadüfi deyil ki, bu il Azərbaycanda "Kənd təsərrüfatı ili" elan edilmişdir. Bu ilin 9 ayında kənd təsərrüfatı təxminən 7 faiz artmışdır. Bu da çox böyük göstəricidir. İndi Azərbaycan dövləti suvarma, meliorasiya işlərinə böyük sərmayə qoyur. İki böyük su anbarı - Taxtakörpü və Şəmkirçay su anbarları tikilib. Bu, tarixi nailiyyətdir. İndi suvarılan torpaqların sahəsi böyük dərəcədə artır və artacaq. Yeni suvarılan və suvarılması yaxşılaşdırılan torpaq sahələri 100 min hektarla ölçüləcək. Burada mütləq elmi yanaşma olmalıdır. Biz burada xaotik vəziyyətə imkan verə bilmərik. İşlər planlı şəkildə görülməlidir ki, hansı sahələrdə hansı məhsullar yetişdirilsin. O məhsulların yetişdirilməsi üçün dövlət hansı işləri görməlidir? Burada alimlərin sözü əsas olmalıdır. Müvafiq qurumlara - həm İqtisadiyyat və Sənaye Nazirliyinə, həm də Kənd Təsərrüfatı Nazirliyinə tapşırılmışdır ki, görüləcək bütün işlər elmi əsaslar üzərində qurulmalıdır. Xahiş edirəm, Azərbaycan alimləri də, Milli Elmlər Akademiyası da bu işlərə çox fəal qoşulsunlar.

Biz ixrac potensialımızı böyük dərəcədə artıra bilərik. Yəni, biz dünya bazarlarına daha böyük həcmdə kənd təsərrüfatı məhsulları ilə çıxa bilərik. Beləliklə, fermerlərin həyat səviyyəsini böyük dərəcədə yaxşılaşdıra bilərik. Bizim gələcək inkişafımızı sənaye və kənd təsərrüfatı sahələri müəyyən edəcək. Ona görə dövlət siyasəti birmənalıdır. Dövlət qurumlarına göstərişlər verilib. Alimlərdən xahiş edirəm ki, bu məsələ ilə çox ciddi məşğul olsunlar.

Burada mənim son çıxışımdan ötən illər ərzində Azərbaycanda çox əlamətdar hadisələrdən biri də kosmik sənayenin yaradılması olmuşdur. Birinci telekommunikasiya peyki orbitə çıxarıldı. Ondan sonra Yer səthini müşahidə etmək üçün orbitə peyk buraxıldı. İndi biz üçüncü peykin buraxılması ilə məşğuluq. Doğrudan da ölkədə yeni sənaye istiqaməti, yeni elmi sahə yaradılmışdır. Əlbəttə ki, bu sahədə ilk növbədə beynəlxalq əməkdaşlıq daha da dərinləşməlidir. Çünki bu sahə bizim üçün yenidir. Xarici tərəfdaşlarla mütləq müxtəlif tədbirlər - seminarlar, konfranslar, elmi–praktik tədbirlər keçirilməlidir. Biz kadr potensialının hazırlanması işində daha da fəal olmalıyıq. Çünki bu yeni kosmik sənaye artıq yaradılıbdır. Azərbaycan dünyanın sayı o qədər də çox olmayan kosmik klubuna da üzv olmuşdur. Bu, bizim siyasətimizi əks etdirir. Biz gələcəyə bu cür baxırıq: müasirlik, dinamik inkişaf, texnologiyaların tətbiqi. Bunlar olmasa biz istədiyimiz qədər inkişaf edə bilmərik. Biz isə istəyirik ki, inkişaf etmiş ölkələrin sırasına daxil olaq və imkanlar da var. Çünki kadr potensialı güclüdür. Təhsil lazımi səviyyədədir. Savadlılıq təxminən 100 faizdir. Bu, elmin inkişafı üçün əsas bazadır. Elmin inkişafına diqqət və qayğı göstərilir. Bütün bu amillər var. Əsas məsələ ondan ibarətdir ki, bütün bu strategiyamızı düzgün planlaşdıraq və addımlarımızı düzgün ataq ki, Azərbaycan bu sahədə də birincilər sırasında olsun.

Azərbaycanda hərbi sənaye yaradılıbdır. Artıq 10 ildir ki, Müdafiə Sənayesi Nazirliyi yaradılıbdır. Əgər o vaxt bu qərar qəbul edilməsə idi, bu gün biz sənayenin bu sahəsinin inkişafından bəhrələnə bilməzdik. Biz hazırda mindən çox adda hərbi təyinatlı məhsul istehsal edirik.

Ordumuzun tələbatının böyük hissəsini Azərbaycan özü təmin edir. Xüsusilə nəzərə alsaq ki, biz müharibə şəraitindəyik, bu, tarixi nailiyyətdir. Lazım olan texnikanı, silahları bəzi hallarda əldə edə bilmirik. Bəzi hallarda embarqolar var. Onların heç bir əsası yox-

dur. Amma bu, başqa məsələdir. Biz bunu bilirdik. Bu gün Azərbaycan Ordusunun əsas təminatı daxili istehsal sayəsində mümkündür. Bilirəm, alimlər burada iştirak edirlər, amma daha da fəal iştirak etməlidirlər. Biz əlbəttə ki, müasir texnologiyalar alırıq. Onları aldıqca biz o texnologiya ilə tanış oluruq. Bizə lazım olan bütün növ silahları gələcəkdə özümüz istehsal edə bilərik. Heç olmasa o nümunələrdən istifadə edə bilərik. Ona görə burada Azərbaycan alimlərinin fəaliyyəti üçün çox geniş bir meydan var. Azərbaycan dövləti də öz tərəfindən çalışacaq ki, alimləri bu işlərə daha da böyük dərəcədə cəlb etsin.

Əlbəttə ki, iqtisadi inkişafımızın ənənəvi neft-qaz sahəsi haqqında da bir neçə kəlmə demək istəyirəm. Alimlər yaxşı bilir ki, Xəzər dənizinin bütün neft-qaz yataqlarını Azərbaycan alimləri kəşf ediblər. Azərbaycanın elmi məktəbi olmasaydı, bu yataqlar kəşf edilməyəcəkdi, yaxud da ki, nə vaxtsa ondan sonra kəşf ediləcəkdi. Bu gün Azərbaycan alimləri ölkədə aparılan neft-qaz əməliyyatlarının uğurla həyata keçirilməsində mühüm rol oynayırlar. Həm xarici tərəfdaşlarla əməkdaşlıqda, həm də Azərbaycan Dövlət Neft Şirkətinin həyata keçirdiyi layihələrdə iştirak edirlər. Əlbəttə, bizim üçün bu sahə də strateji sahədir. Bizim neft-qaz yataqlarımız kifayət qədər böyükdür. Qaz yataqlarımızın ehtiyatları azı 100 il özümüzə və tərəfdaş ölkələrə ixrac etmək üçün kifayət edəcək. Əlbəttə, bizim alimlərimiz də dünyada bu sahədə mövcud olan və yeni yaranan texnologiyalarla tanış olmalıdırlar. Çünki son illər ərzində bu sahədə böyük bir inkişaf müşahidə olunur. Əvvəlki illərdə qaza bilmədiyimiz dərinliklərə indi biz nəinki asanlıqla quyular qazırıq, hətta Bakıda, yerin ən dərin qatında qazma işləri apara biləcək böyük qazma qurğuları inşa edilir. Ona görə bu sahə həm bizim üçün, həm də tərəfdaşlarımız üçün strateji sahədir.

Azərbaycan bu gün dünyada etibarlı tərəfdaş kimi tanınır, neft-qaz sektorunda, bəzi ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində həlledici rol oynayır. Bir neçə ildən sonra bizim tərəfdaşlarımızın sayı daha da artacaq. Çünki "Cənub" qaz dəhlizinin icrasından sonra 10-a yaxın, gələcəkdə ondan da çox ölkə Azərbaycan qazını əldə etmək üçün imkan qazanacaq. Ona görə ki, bu sahədə də Azərbaycan liderliyi öz üzərinə götürmüşdür. "Cənub" qaz dəhlizinin, TANAP layihəsinin nəinki təşəbbüskarı, aparıcı qüvvəsi də Azərbaycandır. Biz, eyni zamanda, öz maliyyə resurslarımızı da bu sahəyə yönəldirik.

Əlbəttə, alimlərin qarşısında duran vəzifələr çoxdur. Mən burada hər bir vəzifə haqqında öz fikirlərimi desəm yəqin ki, çox vaxt gedər. Hesab edirəm ki, dediklərim kifayətdir. Çünki mənim əsas istəyim ondan ibarətdir ki, ilk növbədə Azərbaycan elmi inkişaf etsin, digər tərəfdən ölkəmizin ümumi inkişafına öz töhfəsini versin. Yəni, elmi araşdırmalar sadəcə olaraq araşdırmalar üçün deyil, ölkə iqtisadiyyatının təhlükəsizlik potensialının güclənməsinə yönəlməlidir.

Çıxışımın sonunda humanitar elmlər haqqında bir neçə kəlmə demək istəyirəm. Bu sahə daim diqqət mərkəzindədir. Azərbaycanda son illər ərzində keçirilən müxtəlif tədbirlər – Bakı Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu artıq Azərbaycanı dünyada multikulturalizmin mərkəzi kimi təqdim edibdir. Multikulturalizm Azərbaycanda dövlət siyasətidir və eyni zamanda, ictimai sifarişdir. Çünki bu, bizim üçün normal həyat tərzidir. Halbuki, biz indi bəzi ölkələrdə fərqli mənzərə görürük. Hətta bəzi siyasi liderlər çox təhlükəli ifadələr işlədirlər ki, multikulturalizm iflasa uğrayıb, bunun gələcəyi yoxdur. Bu, həm yanlış, həm də təhlükəli fikirlərdir. Çünki multikulturalizmin alternativi yoxdur. Nədir alternativ – ksenofobiya, diskriminasiya, ayrı-seçkilik, irqçilik. Əfsuslar olsun ki, biz bütün bunları hər gün televizorlarda görürük. Azərbaycan bu sahədə də öz modelini ortaya qoyur. Hesab edirəm ki, Azərbaycan alimləri bu mövzu ilə bağlı daha da fəal ola bilərlər. Azərbaycanda multikulturalizmin tarixi, ənənələri, bugünkü reallıqları haqqında elmi əsaslandırmalar və dövlət siyasəti əsasında həm Azərbaycan dilində, həm

xarici dillərdə daha da böyük elmi əsərlər yaradıla bilər. Hesab edirəm ki, bu sahədə elmi araşdırmalar həm çox maraqlı, həm də bizim üçün çox faydalı olacaqdır.

Əsrlər boyu Azərbaycan xalqını bir xalq kimi qoruyan bizim mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, xalçaçılıq sənətimiz və digər ənənələrimiz olubdur. Bizim bu sahədəki bütün fəaliyyətimizin əsasında Azərbaycan dili dayanır. Azərbaycan dili bizi bir xalq, millət kimi qoruyub. Əsrlər boyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrdə milli dəyərlərimizi, ana dilimizi qoruya, saxlaya bilmişik. Azərbaycan dilinin saflığını qoruya bilmişik. Ona görə, bu gün bəzi hallarda görəndə ki, dilimizə xaricdən müdaxilələr edilir və bəzi hallarda bu müdaxilələr Azərbaycanda da dəstək qazanır, bu, məni doğrudan da çox narahat edir. Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik. Əlbəttə, bizim vətəndaşlar, xüsusilə gənc nəsil nə qədər çox xarici dil bilsələr, o qədər yaxşıdır. Ancaq, ilk növbədə, öz ana dilini bilməlidirlər. Digər tərəfdən, imkan verməməlidirlər ki, ana dilimizə yad kəlmələr daxil olsun. Buna ehtiyac yoxdur. Ancaq biz bunu görürük. Bəzi ictimai xadimlərin, hökumət üzvlərinin çıxışlarında, bəzi televiziya verilişlərində, Milli Məclisdə eşidirəm ki, kənar kəlmələrdən istifadə edilir. Buna ehtiyac yoxdur. Əlbəttə, mən bu sahədə mütəxəssis deyiləm, ancaq bir vətəndaş kimi, hesab edirəm ki, yeni kəlmələrin icad edilməsinə heç bir ehtiyac yoxdur. Lüğətimiz o qədər zəngindir ki, bunu qorusaq və gələcək nəsillərə əmanət kimi təhvil versək bu, bizim bu sahədəki ən böyük nailiyyətimiz olacaqdır.

Sonda tarix elmləri ilə bağlı bir neçə kəlmə demək istəyirəm. Azərbaycanın çox zəngin tarixi vardır. Azərbaycan alimləri də, Azərbaycan ictimaiyyəti də bunu yaxşı bilirlər. Biz öz tariximizi, bu reallıqları dünya miqyasında daha da dolğun təqdim etməliyik. Nəyə görə? İlk növbədə, bizi tanısınlar, görsünlər ki, nə qədər zəngin tariximiz var. Digər tərəfdən, bizə qarşı təxribatlar aparılır. Yəni, Azərbaycan tarixini ermənilər təhrif etməyə çalışırlar və diaspor imkanlarından istifadə edərək, bəzi hallarda buna nail olurlar. “Erməni alimləri” xüsusilə regionun, Cənubi Qafqazın tarixi ilə bağlı yalan, uydurma əsasında kitablar dərc edirlər, təqdimatlar keçirirlər. Əlbəttə ki, bizim tariximiz bizim böyük sərvətimizdir. Bizim tariximiz onu göstərir ki, azərbaycanlılar bu torpaqda əsrlər boyu yaşamışlar. Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində yerləşən kəndlərin, şəhərlərin mütləq əksəriyyətinin adları Azərbaycan mənşəlidir. Budur reallıq. İrəvan xanlığının əhalisinin 70-80 faizi azərbaycanlılar olubdur. Çox şadam ki, mənim tövsiyəmlə İrəvan xanlığı haqqında çox sanballı elmi əsər yaradılıb, bir neçə xarici dilə tərcümə edilibdir. Bu əsərlər faktlar, həqiqətlər üzərində yaradılır.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. “Qarabağ”, “Xankəndi” Azərbaycan sözləridir. Mən dəfələrlə bildirmişəm ki, əgər Xankəndinin hər hansı bir tarixi adı olsaydı ermənilər o adı bərpa edərdilər. Onun “Stepanakert” adı bolşevik erməni quldur dəstəsinin rəhbəri Stepan Şaumyanın şərəfinə qoyulubdur. Yəni, bunu biz hamımız bilirik, amma dünya da bilməlidir. Hər yerdə bilməlidirlər ki, bu, bizim torpağımızdır, bizim haqqımız var o torpaqda yaşamağa. Beynəlxalq hüquq təbii ki, bizim mövqeyimizi müdafiə edir. Ancaq bütün dünya ictimaiyyəti bilməlidir ki, təkcə beynəlxalq hüquqla məsələ məhdudlaşmır. Bu, bizim tarixi, əzəli torpağımızdır. Ermənilər Dağlıq Qarabağa və bəzi başqa yerlərə XIX əsrdə İrandan, Şərqi Anadoludan köçürülmüşlər. Hansı məqsədlə köçürülmüşlər biz bunu yaxşı bilirik. Bütün bunları biz gərək kitablar formasında daha da geniş şəkildə yayaq və beləliklə, bütün dünyaya sübut edək ki, bu, bizim tarixi, əzəli torpağımızdır.

Hesab edirəm, vaxt gəlib çatıb ki, müstəqillik dövrünə həsr edilən sanballı elmi əsər də yaradılsın. Gələn il biz müstəqilliyimizin 25 illiyini qeyd edəcəyik. Hesab edirəm ki, o vaxta qədər əgər belə sanballı elmi əsər yaradılarsa, bayramımıza çox yaxşı töhfə ola bilər.

Əziz dostlar, Akademiya üzvləri, alimlər, mən sizi bir daha salamlayıram, Akademiyanın 70 illiyi münasibətilə təbrik edirəm. Sizi əmin edirəm ki, mən gələcəkdə də Akademiyanın inkişafına daim diqqət göstərəcəyəm və Akademiya qarşısında duran bütün vəzifələrə daim dəstək olacağam. Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*9 noyabr 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNESKO BAŞ KONFRANSININ 38-Cİ SESSİYASININ LİDERLƏR FORUMUNDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Forumda iştirak ediblər.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda iştirak etmək üçün təşkilatın mənzil-qərargahına gəldilər.

Bu il UNESCO-nun Nizamnaməsinin qəbulundan 70 il ötür. Təşkilatın yaradılmasının 70 illiyi münasibətilə bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulub. UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumu da təşkilatın yaradılmasının 70 illiyinə həsr edilib.

Əvvəlcə Prezident İlham Əliyev UNESCO-nun qonaq kitabına ürək sözlərini yazdı.

Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın UNESCO-nun sabiq baş direktoru Koişiro Matsuura ilə qısa söhbətləri oldu.

UNESCO Baş Konfransının 38-ci sessiyasının sədri, Namibiyanın informasiya və kommunikasiya texnologiyaları nazirinin müavini Stanley Mutumba Simataa tədbiri açaraq Forumun gündəliyi barədə məlumat verdi.

Maltanın Prezidenti xanım Mari-Luiz Koleyro Forumda çıxış edərək UNESCO-nun yarandığı 70 il ərzində dünyanın xeyli dəyişdiyini bildirdi. Qeyd etdi ki, bu Forum UNESCO-nun gələcəyini müəyyənləşdirmək üçün yaxşı tədbirdir. Malta Prezidenti dedi ki, inkişaf real mədəni mühitlə bağlıdır. O, mədəni müxtəliflik, təhsil, yoxsulluq, savadsızlıq, gender bərabərliyi məsələlərinə toxundu, qlobal problemlərin həllində UNESCO-nun rolunu və birgə fəaliyyətin əhəmiyyətini qeyd etdi.

Sonra Slovakiya Baş nazirinin müavini, xarici işlər naziri Miroslav Layçak çıxış etdi. O, Parisdə baş vermiş terror aktlarını pisləyərək terrorçuların bütün bəşəriyyətin düşməni olduğunu vurğuladı, terrorla birgə mübarizənin önəmini diqqətə çatdırdı. Baş nazirin müavini vurğuladı ki, UNESCO terrorizm və ekstremizmin yer almadığı dünyanın qurulmasında mühüm əhəmiyyətə malikdir. Miroslav Layçak qlobal problemlərin həllində birgə səylərin göstərilməsinin zəruriliyini vurğuladı.

Foruma sədrlik edən Stanley Mutumba Simataa Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın davamlı iqtisadi inkişafından, beynəlxalq aləmdə qazandığı böyük nüfuzdan danışdı. O, ölkəmizin UNESCO-nun etibarlı tərəfdaşına çevrildiyini bildirdi.

Prezident İlham Əliyev Forumda çıxış etdi.

Dövlətimizin başçısı əvvəlcə noyabrın 13-də Parisdə baş vermiş dəhşətli terror hadisəsi ilə bağlı Azərbaycan xalqı adından Fransa xalqına başsağlığı verdi. Bildirdi ki, bu dəhşətli terror hadisəsi beynəlxalq ictimaiyyətin bu bəla ilə mübarizə aparmaq üçün öz səylərini birləşdirməli olduğunu bir daha göstərir. Prezident İlham Əliyev keçmişdə çoxsaylı terror hadisələrindən əziyyət çəkən Azərbaycanın terrorizmə qarşı mübarizədəki rolundan danışdı.

Azərbaycan-UNESCO əlaqələrinə toxunan Prezident İlham Əliyev ölkəmizin bu təşkilatın fəal üzvü kimi bəşəri dəyərlərin təşviqinə öz töhfəsini verməkdə davam etdiyini dedi. Bildirdi ki, Azərbaycan UNESCO-nun bütün konvensiyalarını və digər sənədlərini imzalayıb, ratifikasiya edib. 2003-cü ildə Azərbaycan və UNESCO arasında mədəniyyət, elm, təhsil və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi imzalanıb. Bu, Azərbaycana UNESCO-nun donorlarından birinə çevrilmək imkanı verib. Prezident İlham Əliyev əminliklə vurğuladı ki, UNESCO-nun təhsil, mədəniyyət və elm sahələrinin inkişafına verdiyi dəstək dünyamızı daha da təhlükəsiz edəcək.

Dövlətimizin başçısı dedi ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin Ermənistan tərəfindən işğalı bu günə kimi davam edir. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Çoxlu sayda tarixi abidələrimiz, muzeylərimiz ermənilər tərəfindən tamamilə dağıdılıb. Prezident İlham Əliyev Ermənistanın nəinki beynəlxalq hüquq normalarını, həm də tarixi ədaləti pozduğunu, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən qətnamələrə məhəl qoymadığını vurğuladı. “Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir”, - deyən Prezident İlham Əliyev ölkəmizin ərazi bütövlüyünün bərpa ediləcəyinə əminliyini bildirdi.

Dövlətimizin başçısı Azərbaycanda mövcud olan tolerantlıqdan, multikulturalizmdən danışdı, ölkəmizin mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa töhfələri barədə Forum iştirakçılarına ətraflı məlumat verdi. Prezident İlham Əliyev UNESCO-nun 70 illiyi münasibətilə Forum iştirakçılarına təbriklərini çatdırdı.

Sonra ABŞ Prezidenti Barak Obamanın Foruma ünvanladığı məktub oxundu.

Daha sonra Fransa Prezidenti Fransua Olland çıxış etdi. O, Parisdə törədilən son terror aktlarından bəhs etdi, Fransanın terrorçulara sərt cavab verəcəyini bildirdi. Fransa Prezidenti terrorizmin bəşəri dəyərlərə böyük təhdid olduğunu qeyd etdi.

Prezident Fransua Olland terror hadisələri ilə bağlı bütün dünyada Fransa xalqına göstərilən həmrəylikdən də danışdı. O vurğuladı ki, Parisdə terror aktlarını törədənlər qatillərdir və onlar heç bir sivilizasiyaya aid deyillər.

Fransa dövlətinin başçısı bəşəri dəyərlərin qorunmasında UNESCO-nun mühüm rol oynadığını bildirdi, təşkilatın Əfqanıstanda, Malidə və digər ölkələrdə dağıdılmış abidələri bərpa etdiyini vurğuladı. Fransa Prezidenti UNESCO-nun mədəni dəyərlərin qorunması ilə bağlı çoxlu layihələr həyata keçirdiyini də diqqətə çatdırdı.

Forumdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva UNESCO-nun baş direktoru İrina Bokova ilə görüşdülər.

Görüşdə Azərbaycan ilə UNESCO arasında uzun illər səmərəli uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda iştirakı əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirildi. Prezident İlham Əliyevin bu tədbirdə çıxışının önəmi qeyd edildi.

Söhbət zamanı Azərbaycanın UNESCO-nun fəaliyyətində rolu, bu təşkilatın işinə verdiyi töhfə yüksək qiymətləndirildi. Həmçinin Azərbaycanda multikulturalizmin inkişafı, ölkəmizin mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə verdiyi töhfələr

diqqətə çatdırıldı. UNESCO-nun xətti ilə Azərbaycanda mühüm beynəlxalq tədbirlərin keçirilməsinin əhəmiyyəti qeyd edildi.

Görüşdə əməkdaşlığımızın bundan sonra da genişləndirilməsinə əminlik ifadə olundu və bu əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva UNESCO-nun mənzil-qərargahında təşkilatın İcra Şurasının zalı və nümayəndə heyətlərinin salonu ilə tanış oldular. Qeyd edildi ki, bu zalın və salonun yüksək səviyyədə təmir olunması Azərbaycan dövlətinin dəstəyi ilə həyata keçirilib. Zalda İcra Şurasının tədbirləri ilə yanaşı, xoşməramlı səfirlərin görüşləri, toplantıları da keçirilir.

Dövlətimizin başçısı və xanımı ölkəmizin UNESCO-ya üzv olmasının 20 illiyi münasibətilə Azərbaycan Respublikası tərəfindən hədiyyə edilən daş at və daş qoç abidələrinə baxdılar.

UNESCO-nun mənzil-qərargahının həyətində qoyulan bu heykəllər burada daimi olaraq sərgilənir. Həmin heykəllər XII-XIII əsrlərə aiddir və Tovuz rayonunun Aşağı Ayıblı kəndindən tapılıb.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva digər ölkələrin UNESCO-ya təqdim etdiyi abidələrə də baxdılar. Qeyd edildi ki, UNESCO-nun mənzil-qərargahının həyətində və binada sərgilənən bu abidələr tarixi, mədəni əhəmiyyət daşıyır.

*17 noyabr 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV VƏ YUNESKO-NUN XOŞMƏRAMLİ SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA PARİSDƏ YUNESKO BAŞ KONFRANSININ 38-Cİ SESSİYASININ LİDERLƏR FORUMUNDA İŞTİRAK ETMİŞLƏR

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda iştirak etmək üçün təşkilatın mənzil-qərargahına gəldilər.

Bu il UNESCO-nun Nizamnaməsinin qəbulundan 70 il ötür. Təşkilatın yaradılmasının 70 illiyi münasibətilə bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulub. UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumu da təşkilatın yaradılmasının 70 illiyinə həsr edilib.

Əvvəlcə Prezident İlham Əliyev UNESCO-nun qonaq kitabına ürək sözlərini yazdı.

Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın UNESCO-nun sabiq baş direktoru Koişiro Matsuura ilə qısa söhbətləri oldu.

UNESCO Baş Konfransının 38-ci sessiyasının sədri, Namibiyanın informasiya və kommunikasiya texnologiyaları nazirinin müavini Stanley Mutumba Simataa tədbiri açaraq Forumun gündəliyi barədə məlumat verdi.

Maltanın Prezidenti xanım Mari-Luiz Koleyro Forumda çıxış edərək UNESCO-nun yarandığı 70 il ərzində dünyanın xeyli dəyişdiyini bildirdi. Qeyd etdi ki, bu Forum UNESCO-nun gələcəyini müəyyənləşdirmək üçün yaxşı tədbirdir. Malta Prezidenti dedi ki, inkişaf real mədəni mühitlə bağlıdır. O, mədəni müxtəliflik, təhsil, yoxsulluq, savadsızlıq, gender bərabərliyi məsələlərinə toxundu, qlobal problemlərin həllində UNESCO-nun rolunu və birgə fəaliyyətin əhəmiyyətini qeyd etdi.

Sonra Slovakiya Baş nazirinin müavini, xarici işlər naziri Miroslav Layçak çıxış etdi. O, Parisdə baş vermiş terror aktlarını pisləyərək terrorçuların bütün bəşəriyyətin düşmə-

ni olduğunu vurğuladı, terrorla birgə mübarizənin önəmini diqqətə çatdırdı. Baş nazirin müavini vurğuladı ki, UNESCO terrorizm və ekstremizmin yer almadığı dünyanın qurulmasında mühüm əhəmiyyətə malikdir. Miroslav Layçak qlobal problemlərin həllində birgə səylərin göstərilməsinin zəruriliyini vurğuladı.

Foruma sədrlik edən Stanley Mutumba SİMATAA dedi:

-Zati-aliləri, xanımlar və cənablar.

İndi isə bizim növbəti mötəbər qonağımızı, Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi məmnuniyyətlə salamlamaq istəyirəm. Onun rəhbərliyi ilə Azərbaycan Respublikası sürətli iqtisadi artıma nail olaraq UNESCO-nun etibarlı tərəfdaşına çevrilmiş və təşkilatımızın mandatına uyğun bütün sahələrdə UNESCO-ya dəstək göstərmişdir.

Zati-alilərinin "Bakı prosesi" təşəbbüsü ilə çıxış etməsini xüsusi vurğulamaq istəyirəm. Bu təşəbbüs iki fərqli coğrafi regiona mənsub olan mədəniyyət nazirlərini bir araya gətirməklə Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatını əhatə edir. Ötən illər ərzində Azərbaycan mədəniyyətlərarası dialoq üzrə üç dünya forumuna müvəffəqiyyətlə ev sahibliyi edib və yaxın gələcəkdə BMT-nin Sivilizasiyalar Alyansının yeddinci Qlobal Forumunu təşkil edəcək. Bütün bunlar Azərbaycanın mədəniyyətlərarası dialoqun təşviqinə sadiq qalmasının göstəricisidir.

Cənab Prezident, Sizi UNESCO-da salamlamaqdan məmnunluq hissi keçiririk və Sizin bizə söyləyəcəklərinizi səbirsizliklə eşitmək istəyirik. İndi isə böyük məmnuniyyətlə sözü Sizə verirəm.

* * *

Dövlətimizin başçısı Forumda çıxış etdi.

## PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Baş Konfransın cənab sədri.

İdarə heyətinin cənab prezidenti.

Xanım baş direktor.

Hörmətli dostlar, xanımlar və cənablar.

Əvvəlcə, noyabrın 13-də Parisdə baş vermiş dəhşətli terror hadisəsi ilə bağlı Azərbaycan xalqı adından Fransa xalqına dərin hüznlə başsağlığı vermək istəyirəm. Azərbaycan xalqı Fransa xalqının kədərini bölüşür və Fransa Respublikasının tarixində bu faciəli məqamda Fransa xalqı ilə çiyin-çiyinə dayanır. Bu dəhşətli terror hadisəsi bir daha göstərir ki, beynəlxalq ictimaiyyət bu bəla ilə mübarizə aparmaq üçün səylərini birləşdirməlidir. Dünyanın heç bir ölkəsinə bu cür hücumlara məruz qalmayacağı barədə yüz faiz zəmanət verilə bilməz. Buna görə də beynəlxalq ictimaiyyətin birgə səyləri bizə bu bəla ilə mübarizə aparmağa kömək edə bilər. Keçmişdə çoxsaylı terror hadisələrinin qurbanı olmuş bir ölkə kimi Azərbaycan terrorizmə qarşı mübarizədə öz rolunu oynayır və bu rol beynəlxalq ictimaiyyət tərəfindən qiymətləndirilir.

Azərbaycan UNESCO-nun fəal üzvüdür. 23 ildən artıqdır, - demək olar ki, müstəqilliyini bərpa etdikdən dərhal sonra, - Azərbaycan UNESCO-nun üzvü olmuşdur və bəşəri dəyərlərin təşviqində öz rolunu oynamaqdadır. Azərbaycan demək olar ki, UNESCO-nun bütün konvensiyalarını və digər hüquqi aktlarını imzalamış və ratifikasiya etmişdir. 2003-cü ildə Azərbaycan ilə UNESCO arasında mədəniyyət, elm, təhsil və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi imzalanmışdır. Bu da Azərbaycana UNESCO

donorlarından birinə çevrilmək imkanı vermişdir. Bu, ən zəif inkişaf etmiş ölkələr qarşısında bizim öhdəliyimizdir.

Müstəqillik dövrünün əvvəlində Azərbaycan özü yoxsulluq, siyasi böhran, işğal və iqtisadi tənəzzüllə üzləşmişdi və o zaman biz beynəlxalq yardım alırdıq. İndi isə bu yaxşılığın əvəzini ödəmək və dünyanın inkişaf məramına töhfə vermək növbəsi bizimdir. Tamamilə əminəm ki, UNESCO-nun təhsil, mədəniyyət və əlbəttə, elm kimi fəaliyyət sahələri bəşəriyyətin inkişafı üçün əsas istiqamətlərdir. Bu sahələrin inkişafı dünyamızı daha da təhlükəsiz edəcək.

Dünya irsi siyahısına daxil olan İçərişəhər, Şirvanşahlar sarayı, Qız qalası, Qobustan qayaüstü rəsmləri kimi tarixi abidələrimizin UNESCO tərəfindən qorunan abidələr sırasında yer alması bizi fərəhləndirir. Azərbaycan qədim mədəniyyət, tarix, adət-ənənələr diyarıdır. Lakin, eyni zamanda, müstəqil dövlət kimi yalnız 24 il yaşayan çox gənc bir dövlətdir. Bu illər bir siyasi sistemdən digər siyasi sistemə, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid illəri olmuşdur. Bu illər ərzində ölkəmiz uğurlar əldə edə bilmişdir.

Bu gün Azərbaycan beynəlxalq arenada etibarlı tərəfdaş və təmsil olunduğu təşkilatların fəal üzvüdür. Bizim ən böyük siyasi və diplomatik uğurumuz 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasına üzv seçilməyimiz olub. Bu da beynəlxalq ictimaiyyət tərəfindən qlobal arenada Azərbaycanın rolunun, uğurlu fəaliyyətinin tanınması və bizim nailiyyətlərimizə hörmət, etimad və minnətdarlıq əlaməti idi. Beynəlxalq ictimaiyyətin etibarlı üzvü kimi Təhlükəsizlik Şurasında sədrlik etdiyimiz iki il ərzində biz diqqəti iki vacib məsələyə yönəltdik. Bunlar beynəlxalq terrorizmə qarşı mübarizə və mədəniyyətlərarası dialoqdur. Əfsuslar olsun ki, müstəqillik illərinin lap əvvəlindən Azərbaycan erməni təcavüzünün qurbanına çevrilmişdir. Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin Ermənistan tərəfindən işğalı bu günə kimi davam edir. Ermənistan tərəfindən yürüdülən etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. 250 min azərbaycanlı Ermənistandan deportasiya olunmuş və etnik təmizləməyə məruz qalmışdır, 750 min nəfər isə öz ölkəmizdə məcburi köçkünə çevrilmişdir.

Biz humanitar fəlakətlə üzləşmişdik. Biz o zaman iqtisadi cəhətdən o qədər də inkişaf etməmişdik, çox kasib ölkə idik. Bu gün televiziyada Avropanın üzləşdiyi miqrasiya böhranı ilə bağlı reportajları izləyərkən əlbəttə ki, biz evlərini tərk etmək məcburiyyətində qalan insanların ağrısını baş düşürük. Eyni zamanda, biz bu prosesin Avropada yaşayanlar üçün çətinliklər törətdiyini də anlayırıq. Lakin, eyni zamanda, 1992-ci, 1993-cü illəri xatırlayırıq. Bu illər ərzində biz Azərbaycanda bir milyona yaxın insanı yerləşdirməli idik. O vaxtlar Azərbaycanın əhalisi təxminən səkkiz milyondan bir az artıq idi. Beləliklə, bu, dünya miqyasında adambaşına düşən qaçqın və məcburi köçkünlərin sayının ən yüksək göstəricisi idi. Qaçqın və məcburi köçkünlərin cəmiyyətimizə inteqrasiyası üçün əlimizdən gələni etdik. Bu gün onlar ölkəmizin inkişafında çox vacib rol oynayırlar.

Ermənistan nəinki beynəlxalq hüquq normalarını, həm də tarixi ədaləti pozur. BMT-nin Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, o dövrdən iyirmi ildən artıq vaxt ötmüşdür və bu qətnamələr icra olunmur. Burada biz beynəlxalq arenada qlobal təhlükəsizlik və qlobal konfiqurasiya ilə bağlı çox vacib məsələ ilə üzləşirik. Söhbət aparıcı beynəlxalq təşkilatların qərarları və qətnamələrinə məhəl qoyulmamasından və buna görə heç bir cəzanın tətbiq edilməməsindən gedir. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymamaqda davam edir və bu hərəkətinə görə heç bir təzyiqlə qarşılaşmır.

Bu məsələ ciddi şəkildə nəzərdən keçirilməlidir. Biz Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin icra mexanizmlərini təkmilləşdirməliyik ki, ikili standartlara yol verilməsin. Çünki biz hamımız bilirik ki, bəzi hallarda Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günə, hətta bir neçə saata icra olunur. Lakin bizim timsalımızda 20 ildən artıqdır ki, danışıqlar masasında heç bir irəliləyiş yoxdur, çünki Ermənistan sülh istəmir. Onlar bizimlə sülh şəraitində yaşamaq istəmirlər. Onlar imkanları olduğu qədər işğalçılıq siyasətini davam etdirmək istəyirlər və əfsuslar olsun ki, bu günə qədər buna nail ola biliblər.

Lakin zaman bizim tərəfimizdədir, zaman ədalətin tərəfindədir, beynəlxalq hüququn tərəfindədir və mən əminəm ki, Azərbaycan bütün dünya tərəfindən tanınan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir. İşğal nəticəsində bizim tarixi, memarlıq və dini abidələrimiz məhv edilmişdir.

Siz bu vəziyyətlə video və rəsmlərlə, internet vasitəsilə tanış ola bilərsiniz. Azərbaycanın 600-dən çox tarixi və memarlıq abidəsi erməni silahlı qüvvələri tərəfindən tamamilə məhv edilmişdir. Daxilində 40 min eksponat sərgilənən 22 muzey məhv edilmişdir. O cümlədən bizim tarixi irsimizə aid olan qiymətli nümunələr muzeylərdən oğurlanaraq sonradan müxtəlif hərraclarda satılmışdır. Erməni işğalçıları tərəfindən 10 məscid yerlə-yeksan olunmuşdur. Buna baxmayaraq, siz bu gün Bakının mərkəzində Azərbaycan hökuməti tərəfindən bərpa olunmuş erməni kilsəsini görə bilərsiniz. Bu, multikulturalizmə olan yanaşmada bir fərqdir, bu, dini tolerantlığa olan yanaşmada bir fərqdir və bu, bir daha terrorizmin heç bir dinə, milli mənsubiyyətə aid olmadığını nümayiş etdirir.

İslamı terrorizmlə əlaqələndirmək tamamilə qəbuledilməzdir. Mən müsəlman ölkəsini, erməni terrorizmindən, işğalından, tarixi abidələrinin məhv edilməsindən əziyyət çəkən bir ölkəni təmsil edirəm. Əlbəttə ki, biz torpaqlarımıza qayıdacağıq, şəhərlərimizi bərpa edəcəyik, orada yeni məktəb və xəstəxanalar inşa edəcəyik, lakin tarixi abidələrimizi bərpa edə bilməcəyik. Ermənilər bizim tarixi irsimizi məhv ediblər, lakin onlar bizim iradəmizi, evlərinə geri qayıtmaq istəyən qaçqın və məcburi köçkünlərin, Bakıda və Azərbaycanın digər şəhərlərində dünyaya gələn, öz tarixi torpaqlarını heç vaxt görməyən, lakin doğma torpaqlarına qayıtmaq üçün qəlbində böyük iradə ilə yaşayan insanların nəvə və nəticələrinin iradəsini məhv edə bilməzlər. Onlar geri qayıdacaqlar! Biz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün hər şeyi edəcəyik. Bir daha qeyd etmək istəyirəm ki, beynəlxalq hüquq normaları Azərbaycanın mövqeyini tamamilə dəstəkləyir. Eyni zamanda, Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. "Qarabağ" sözünün mənşəyi Azərbaycana məxsusdur. Bu, Qara Bağ deməkdir, bunun erməni dilində heç bir mənası yoxdur.

Ermənilər bu ərazidə XIX əsrin ortalarında məskunlaşıblar. Çar Rusiyasının XX əsrin əvvəllərinə təsadüf edən xəritələrinə baxsanız görəcəksiniz ki, Ermənistanın bugünkü ərazisinin, bütün şəhərlərinin və kəndlərinin, bütün toponimlərinin mütləq əksəriyyətinin adları öz mənşəyini Azərbaycan dilindən götürüb. Rusiya imperiyasının süqutundan sonra 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaradılmışdır. Bu respublikanın qəbul etdiyi ilk qərarlardan biri Yerevanı Azərbaycandan Ermənistana vermək oldu. Ermənistanın bugünkü paytaxtı XX əsrin əvvəlində əhalisinin 80 faizini azərbaycanlılar təşkil edən bizim tarixi İrəvan şəhərimizdir. Bu gün bu şəhər tamamilə etnik təmizlənməyə məruz qalıb. Beləliklə, tarix və beynəlxalq hüquq bizim mövqeyimizi dəstəkləyir və sizin də təsəvvür edə bildiyiniz kimi, bu məsələ Azərbaycan üçün, Azərbaycanın hər bir vətəndaşı üçün bir nömrəli məsələdir. Bu faciəvi hadisələrə və bu günədək davam edən işğala baxmayaraq Azərbaycan transformasiyada böyük uğura imza ata bilmişdir.

Biz güclü demokratik təsisatlar yaratmışıq, müasir siyasi və çoxpartiyalı sistem qurmuşuq. Azərbaycan bütün azadlıqlara hörmət edildiyi bir ölkədir. Söhbət siyasi fəaliyyət azadlığından, mətbuat azadlığından, toplaşma azadlığından gedir. Dünya Bankının qiymətləndirməsinə əsasən 2008-ci ildə azərbaycanlıların yalnız 17 faizi internet istifadəçisi idi, 2015-ci ildə bu göstərici artıq 75 faiz təşkil edir. Bizim planımız bütün ölkə ərazisini genişzolaqlı pulsuz internet rabitəsi ilə əhatə etməkdir. Bu, mətbuat azadlığının, informasiya azadlığının bizim üçün prioritet məsələlər sırasına daxil edildiyini aydın nümayiş etdirir.

Cənab sədrin qeyd etdiyi kimi, Azərbaycan iqtisadi inkişaf sahəsində böyük irəliləyiş əldə edib. Buna üzərimizdə olan qaçqın və məcburi köçkün yükünə rəğmən nail olunmuşdur. Ötən onillikdə iqtisadi inkişaf dünyada ən sürətlilər sırasında idi – 300 faizdən çox. İnsan kapitalına sərmayə yatırmaqla biz 10 il müddətində yoxsulluğun səviyyəsini əhəmiyyətli dərəcədə - demək olar ki, 50 faizdən 5 faizə qədər azalda bildik. İşsizlik səviyyəsi hətta 5 faizdən azdır. Bizim çox az xarici borcumuz var, ümumi daxili məhsulun yalnız 12 faizini təşkil edir. Ümumdünya Davos İqtisadi Forumunun hesabatına əsasən Azərbaycan iqtisadiyyatı qlobal rəqabətliliyinə görə 40-cı yerdədir. Beləliklə, iqtisadi islahatlar bizə maliyyə ehtiyatlarımızı toplamağa, onları sosial inkişafa və infrastrukturun inkişafına yönəltməyə imkan verdi.

Biz gələcəyə, təhsilə investisiya yatırırıq. Azərbaycanda məktəblərin ümumi sayı 5 minə qədərdir. Bunların 3 mindən çoxu ötən on il ərzində inşa edilmişdir. Biz demək olar ki, yüz faizlik savadlılığa nail olmuşuq. Bu da öz növbəsində bizim gələcəyimizin çox güclü intellekt mənbəyidir. Ötən on il ərzində tikilmiş 500-dən artıq xəstəxana və digər səhiyyə müəssisəsi insanlarımıza müasir tibb xidmətlərindən faydalanmaq imkanı verir. Beləliklə, insan kapitalının inkişaf etdirilməsi bizim üçün həmişə ciddi qəbul edilən prioritet məsələ olmuş və olmaqda davam edir.

Cənab sədrin qeyd etdiyi kimi, Azərbaycan sivilizasiyalararası və mədəniyyətlərarası dialoqda çox fəal rol oynayır. Biz mədəniyyətlərarası dialoq mövzusunda keçirilən üç forumda UNESCO-nun rəsmi tərəfdaşımız olmasından və Azərbaycanın Şərq ilə Qərbin qovuşuğunda yerləşən, əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən, lakin, eyni zamanda, dünyəvi cəmiyyəti və hökuməti olan, Avropa Şurasının və İslam Əməkdaşlıq Təşkilatının üzvü olan bir ölkə kimi nadir rol oynamasından qürur hissi duyuruq. Biz bu çox əlverişli fürsətdən istifadə edərək insanları, sivilizasiyaları bir-birinə daha da yaxınlaşdırmağa çalışırıq. Biz 2008-ci ildə İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin mədəniyyət nazirlərinin Avropa Şurasına üzv olan ölkələrin mədəniyyət nazirlərinin görüşündə iştirakını təmin edən "Bakı prosesi" adlı forum təşəbbüsünü irəli sürdük. Bu, tərəfimizdən atılmış birinci addım idi. Sonra 2009-cu ildə biz əksini etdik. İslam ölkələrinin mədəniyyət nazirlərinin görüşünə Avropa Şurasına üzv olan ölkələrin mədəniyyət nazirlərini dəvət etdik.

Bu gün mədəniyyətlərarası dialoqa heç zaman olmadığı qədər böyük ehtiyac var. "Bakı prosesi" təşəbbüsünü irəli sürəndə dünyadakı vəziyyət tamamilə fərqli idi. Bu gün etimadsızlığın səviyyəsinin artdığını görürük. Müvafiq tədbirlər görməsək, dini zəmində qarşıdurmaların hamımız üçün daha da böyük problemlərə gətirib çıxaracağını görürük. Lakin biz sülh şəraitində yaşaya bilərik və düşünürəm ki, Azərbaycan kimi ölkələrin nümunələri bunu əyani şəkildə göstərir. Bizim ölkəmizdə bütün dinlərin nümayəndələri sülh və dostluq şəraitində yaşayırlar. Hökumətimiz, dövlətimiz nəinki məscidlərin tikintisinə, həmçinin kilsələrin, pravoslav və katolik kilsələrinin, sinaqoqların yenidən qurulmasına və inşasına sərmayə yatırır. Qafqaz regionunda ən qədim kilsələrdən birinin Azərbaycanda, qədim Şəki şəhərinin yaxınlığında yerləşməsindən fərəhlənirik. Eyni zamanda, 743-cü ildə tikilmiş ən qədim məscidlərdən birinin Azərbaycanın qədim Şamaxı şəhərində yerləşməsindən qürur hissi keçiririk. Azərbaycanda müxtəlif konfessiyaların nümayəndələri

dini bayramları eyni masa arxasında qeyd edirlər. Buna görə də multikulturalizm bizim üçün bu gün müzakirə olunan, sadəcə, işləyib-işləməməsindən, həyata keçirilib-keçirilməməsindən asılı olmayaraq bir ideya deyil. Multikulturalizm bizim adət-ənənəmizdir.

Bu gün multikulturalizm təkcə ənənə deyil, bu, dövlət siyasətidir və bizim həyat tərzimizdir. Bu, mümkündür, çünki bizim bu sahədə topladığımız çox vacib təcrübəmiz var. Bunun bir nümunəsi bu il Azərbaycanın ilk Avropa Oyunlarına ev sahibliyi etməsidir. Çox qəribədir ki, Avropadan başqa bütün qitələrin öz oyunları var idi. Olimpiya Oyunlarının ana vətəni qədim Yunanıstan olmuşdur, sonra Baron de Kuberten Oyunları burada - Fransada bərpa etmişdir. Lakin Avropanın heç zaman özünəməxsus Oyunları olmamışdı. Beləliklə, Avropa Olimpiya Komitəsinin müsəlman ölkəsində Avropa Oyunlarının bərpası ilə əlaqədar müdrik qərarı multikulturalizm və tolerantlıq ideyalarının hamımız üçün əhəmiyyət kəsb etdiyini nümayiş etdirir.

Oyunlar uğurla keçirilmişdir və Avropanın 50 Olimpiya Komitəsini təmsil edən 6 mindən çox atlet Oyunlarda iştirak etmişdir. Biz 2017-ci ildə İslam Həmrəylik Oyunlarına ev sahibliyi edəcəyik. Ola bilsin ki, uzun illər ərzində Azərbaycan və Bakı bu iki yarışın bir məkanda keçiriləcəyi yeganə yer olaraq qalacaqdır. Biz qarşılıqlı anlaşmaya töhfə verməyi davam etdirəcəyik, çünki multikulturalizm qarşılıqlı anlaşmaya, qarşılıqlı hörmətə əsaslanır.

Siz digər dinlərə öz dininizə rəğbət bəslədiyiniz kimi hörmət etməlisiniz. Siz qonşunuzdan milliyyətini, kilsədə, sinaqoqda və ya məsciddə ibadət etməsini soruşmadan onunla yanaşı yaşamalısınız. Yalnız bu halda biz potensial riskləri azalda bilərik. Biz artan gərginlikləri aradan qaldıra bilərik. Əfsuslar olsun ki, dünyada vəziyyət bizim istədiyimiz istiqamətə doğru dəyişmir. Biz səylərimizi birləşdirməliyik. Biz Azərbaycanda qitələri, sivilizasiyaları bir araya gətirmək üçün üzərimizə düşən vəzifəni yerinə yetiririk. Konfransın sədrinin qeyd etdiyi kimi, gələn il biz xüsusilə multikulturalizm, dini və etnik tolerantlıq məsələlərinin müzakirəsini nəzərdə tutan BMT-nin Sivilizasiyaların Alyansının qlobal forumuna ev sahibliyi edəcəyik. Bu məsələdə UNESCO-nun nadir rolunu vurğulamaq istəyirəm. Biz UNESCO-nun fəaliyyətini və Baş direktoru xanım İrina Bokovanın güclü rəhbərliyini dəstəkləyirik. Azərbaycan UNESCO-ya şərəfli fəaliyyətində dəstək olmaq üçün əlindən gələni edəcəkdir. Bir daha sizi salamlamaq, sizə hörmətimi ifadə etmək və UNESCO-nun 70-ci ildönümü münasibətilə sizi təbrik etmək istəyirəm. Çox sağ olun.

* * *

Stanley Mutumba SİMATAA dedi:

-Zati aliləri, çox sağ olun! Çox ətraflı və maarifləndirici çıxışınız üçün təşkilata üzv olan bütün ölkələr adından Sizə səmimi minnətdarlığımı bildirmək istəyirəm.

* * *

Sonra ABŞ Prezidenti Barak Obamanın Foruma ünvanladığı məktub oxundu.

Daha sonra Fransa Prezidenti Fransua Olland çıxış etdi. O, Parisdə törədilən son terror aktlarından bəhs etdi, Fransanın terrorçulara sərt cavab verəcəyini bildirdi. Fransa Prezidenti terrorizmin bəşəri dəyərlərə böyük təhdid olduğunu qeyd etdi.

Prezident Fransua Olland terror hadisələri ilə bağlı bütün dünyada Fransa xalqına göstərilən həmrəylikdən də danışdı. O vurğuladı ki, Parisdə terror aktlarını törədənlər qatillərdir və onlar heç bir sivilizasiyaya aid deyillər.

Fransa dövlətinin başçısı bəşəri dəyərlərin qorunmasında UNESCO-nun mühüm rol oynadığını bildirdi, təşkilatın Əfqanıstanda, Malidə və digər ölkələrdə dağıdılmış abidələ-

ri bərpa etdiyini vurğuladı. Fransa Prezidenti UNESCO-nun mədəni dəyərlərin qorunması ilə bağlı çoxlu layihələr həyata keçirdiyini də diqqətə çatdırdı.

Forumdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva UNESCO-nun baş direktoru İrina Bokova ilə görüşdülər.

Görüşdə Azərbaycan ilə UNESCO arasında uzun illər səmərəli uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda iştirakı əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirildi. Prezident İlham Əliyevin bu tədbirdə çıxışının önəmi qeyd edildi.

Söhbət zamanı Azərbaycanın UNESCO-nun fəaliyyətində rolu, bu təşkilatın işinə verdiyi töhfə yüksək qiymətləndirildi. Həmçinin Azərbaycanda multikulturalizmin inkişafı, ölkəmizin mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə verdiyi töhfələr diqqətə çatdırıldı. UNESCO-nun xətti ilə Azərbaycanda mühüm beynəlxalq tədbirlərin keçirilməsinin əhəmiyyəti qeyd edildi.

Görüşdə əməkdaşlığımızın bundan sonra da genişləndirilməsinə əminlik ifadə olundu və bu əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva UNESCO-nun mənzil-qərargahında təşkilatın İcra Şurasının zalı və nümayəndə heyətlərinin salonu ilə tanış oldular. Qeyd edildi ki, bu zalın və salonun yüksək səviyyədə təmir olunması Azərbaycan dövlətinin dəstəyi ilə həyata keçirilib. Zalda İcra Şurasının tədbirləri ilə yanaşı, xoşməramlı səfirlərin görüşləri, toplantıları da keçirilir.

Dövlətimizin başçısı və xanımı ölkəmizin UNESCO-ya üzv olmasının 20 illiyi münasibətilə Azərbaycan Respublikası tərəfindən hədiyyə edilən daş at və daş qoç abidələrinə baxdılar.

UNESCO-nun mənzil-qərargahının həyətində qoyulan bu heykəllər burada daimi olaraq sərgilənir. Həmin heykəllər XII-XIII əsrlərə aiddir və Tovuz rayonunun Əyyublu kəndindən tapılıb.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva digər ölkələrin UNESCO-ya təqdim etdiyi abidələrə də baxdılar. Qeyd edildi ki, UNESCO-nun mənzil-qərargahının həyətində və binada sərgilənən bu abidələr tarixi, mədəni əhəmiyyət daşıyır.

***18 noyabr 2015-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ISESCO-NUN BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR

ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri rəhbərlik etdiyi təşkilatın XII Baş konfransının və İcraiyyə Şurasının növbəti iclasının Bakıda keçirilməsinə göstərdiyi dəstəyə və yüksək qonaqpərvərliyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Qonaqların Bakı ilə ilk tanışlıqdan valeh olduqlarını vurğulayan Əbdüləziz Osman əl-Tuveycri paytaxtda gedən sürətli inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını dedi.

ISESCO-nun XII Baş konfransının və İcraiyyə Şurasının növbəti iclasının Bakıda keçirilməsinin önəmini vurğulayan dövlətimizin başçısı yüksək səviyyəli qonaqların ölkəmizlə yaxından tanış olmaları üçün tədbirin yaxşı imkan yaratdığını dedi.

Görüşdə Azərbaycan ilə ISESCO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi, bu əməkdaşlığın daha da genişləndiriləcəyinə əminlik ifadə olundu. Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

*25 noyabr 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV ISESKO BAŞ KONFRANSININ XII SESSİYASININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Noyabrın 26-da Bakıda İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş Konfransının XII sessiyasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva sessiyada iştirak ediblər.

Sessiyanın açılışında beynəlxalq təşkilatların və xarici ölkələrin yüksək səviyyəli nümayəndələri, mədəniyyət və təhsil nazirləri, diplomatlar iştirak ediblər.

Təşkilatın ali qərarverici orqanı olan Baş Konfrans hər üç ildən bir toplanır. ISESCO-nun ümumi fəaliyyət strategiyasını müəyyən edən Baş Konfrans zamanı təşkilatın fəaliyyət sahələrinə aid olan məsələlərlə bağlı əlaqələndirmə və qiymətləndirmə həyata keçirilir, qurumun növbəti üç il üçün Fəaliyyət Planı və büdcəsi təsdiqlənir.

ISESCO-nun Baş Konfransının XII sessiyası "Qurani-Kərim"dən ayənin oxunması ilə başladı.

Dövlətimizin başçısı sessiyada çıxış etdi.

## PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Hörmətli cənab baş direktor.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz. ISESCO-nun Baş Konfransının XII sessiyasının Bakıda keçirilməsi ölkəmiz üçün əlamətdar hadisədir. Çox şadam ki, bu tədbir Bakıda, Azərbaycanda keçirilir. Əminəm ki, qonaqlar ölkəmizin keçmişi, reallıqları ilə tanış olmaq üçün gözəl imkanlar əldə edəcəklər.

Son illər ərzində ISESCO dünya miqyasında çox önəmli beynəlxalq təşkilata çevrilibdir. ISESCO-nun əsas vəzifəsi İslam aləmində elmin, təhsilin inkişafıdır, İslam aləminin zəngin mədəni irsinin qorunmasıdır. ISESCO bu sahədə çox böyük uğurlara nail olubdur. Eyni zamanda, bu gün dünya miqyasında beynəlxalq təşkilatlar arasında da ISESCO-nun öz yeri var. Qeyd etdiyim kimi, son illər ərzində baş direktor cənab əl-Tuveycrinin rəhbərliyi ilə ISESCO dünya miqyasında çox önəmli və böyük nüfuza malik olan təşkilata çevrilibdir.

Biz Azərbaycanda daim çalışırıq ki, ISESCO-nun nüfuzu daha da artsın. Azərbaycan ISESCO-nun fəal üzvlərindən biridir. Bizim Bakıda keçirilmiş bir çox tədbirlərdə ISESCO təmsil olunur, cənab əl-Tuveycri Azərbaycana tez-tez səfərlər edir. Bakı şəhəri 2009-cu ildə ISESCO-nun dəstəyi ilə İslam mədəniyyətinin paytaxtı elan edilmişdir. 2018-ci ildə isə bu şərəfli ada bizim digər qədim şəhərimiz Naxçıvan layiq görülüb. Bu, ISESCO tərəfindən Azərbaycana, Azərbaycan mədəniyyətinə və bu gün Azərbaycanın İslam aləmində oynadığı rola verilən yüksək qiymətdir.

Onu da qeyd etmək istəyirəm ki, yaxın zamanlarda Bakıda ISESCO-nun regional mərkəzi yaradılacaq. Azərbaycan dövləti bu mərkəzin yaradılması üçün bütün lazımi tədbirləri görür. Əminəm ki, bu mərkəz öz fəaliyyəti ilə həm regionda, həm ümumiyyətlə, İslam aləmində humanitar əməkdaşlığın dərinləşdirilməsi, İslam həmrəyliyinin gücləndirilməsi üçün fəal yol oynayacaqdır.

ISESCO Azərbaycanı daim dəstəkləyir. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində ISESCO daim Azərbaycanın mövqeyini, yəni, haqq-ədaləti açıq şəkildə dəstəkləyir. Cənab əl-Tuveycrinin çoxsaylı çıxışlarında bu məsələ ilə bağlı birmənalı mövqe nümayiş etdirilir. Buna görə biz ISESCO-ya minnətdarıq, bütün müsəlman aləminə minnətdarıq.

Bildiyiniz kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi uzun illərdir ki, öz həllini tapmır. Uzun illərdir ki, Azərbaycan erməni işğalından əziyyət çəkir. Beynəlxalq birlik tərəfindən tanınmış ərazimizin 20 faizi erməni işğalı altındadır. Bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Xalqımıza qarşı ermənilər tərəfindən etnik təmizləmə siyasəti aparılmışdır. Ermənilər Xocalı soyqırımı törətmişlər. Bu gün 10-dan çox ölkə Xocalı faciəsini soyqırımı kimi tanıyır. Ermənistan bütün beynəlxalq hüquq normalarını kobudcasına pozur. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır ki, orada erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. İyirmi ildən çoxdur ki, Ermənistan bu qətnamələrə məhəl qoymur. Digər beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası da oxşar qərar və qətnamələr qəbul etmişlər. Yəni, beynəlxalq hüquq tam şəkildə Azərbaycan mövqeyini dəstəkləyir. Eyni zamanda, tarixi ədalət də bizim tərəfimizdədir. Çünki Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşamışdır. "Qarabağ" sözünün özü Azərbaycan mənşəlidir. Ona görə həm tarix, həm beynəlxalq hüquq ölkəmizin mövqeyini dəstəkləyir və bu münaqişə yalnız ölkələrin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həllini tapa bilər.

Onu da qeyd etməliyəm ki, ATƏT işğal edilmiş ərazilərə iki dəfə missiya göndərmişdir. Missiyaların məruzələri göstərir ki, işğal edilmiş torpaqlarda hər şey - bizim şəhərlərimiz, kəndlərimiz, tarixi, dini abidələrimiz dağıdılıb. Ermənilər işğal edilmiş torpaqlarda 10 məscidi dağıdıblar. Bu, vəhşilikdir. Bu, İslam mədəniyyətinə qarşı terrorizmdir. Bir daha qeyd etmək istəyirəm ki, ISESCO bu məsələdə Azərbaycanın haqlı işini daim dəstəkləyir.

Onu da qeyd etməliyəm ki, erməni terror təşkilatları 1990-cı illərin əvvəllərində Azərbaycanda 30-dan çox terror aktı törətmişlər. Bu terror aktları nəticəsində 2 mindən çox günahsız insan həlak olmuşdur. Biz dəfələrlə bəyan etmişik ki, terrorizmin nə milləti, nə də dini var. Əfsuslar olsun ki, son vaxtlar bəzi Qərb dairələri, media nümayəndələri İslamı terrorla bağlamaq istəyirlər. Biz bu çirkin əməlləri qətiyyətlə pisləyirik. İslam sülh dinidir, mərhəmət dinidir, dostluq dinidir. Biz İslam dəyərlərini dünyaya təqdim etmək üçün Azərbaycanda fəal iş aparırıq. Azərbaycan o ölkələrdəndir ki, dünyanın ən məşhur Luvr muzeyində İslam bölməsinin təşkilində fəal rol oynamış, öz maliyyə töhfəsini vermişdir.

Azərbaycan müsəlman aləmində birinci ölkədir ki, Vatikanda öz sərgisini nümayiş etdirə bilmişdir. Biz islamofobiyaya qarşı açıq şəkildə mübarizə aparırıq. Ən yüksək səviyyədə - Prezident səviyyəsində bəyanatlar verilib. İslamofobiya çox böyük təhlükədir, böyük ədalətsizlikdir. Gələcəkdə sivilizasiyalararası münaqişələrə gətirib çıxara bilər. Ona görə, həm ölkə daxilində, həm xaricdə biz İslam mədəniyyətini təbliğ edirik. Dünyanın inkişaf etmiş ölkələrində Azərbaycanın təşkilatçılığı ilə mütəmadi qaydada sərgilər, təqdimatlar, mədəni proqramlar təşkil edilir. Azərbaycan dinlərarası, millətlərarası əlaqələrin inkişafı üçün də fəal rol oynayır. Bizim təşəbbüsümüz ilə Bakıda artıq bir neçə dəfə

Beynəlxalq Humanitar Forum keçirilmişdir. Üç dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Dünya dinlərinin liderlərinin Zirvə görüşü keçirilmişdir. Gələn il BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu keçiriləcəkdir. Qeyd etməliyəm ki, bütün bu tədbirlərdə ISESCO fəal iştirak edir. Budur bizim dinlərarası, mədəniyyətlərarası münasibətlərə töhfəmiz.

Bu yaxınlarda Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Azərbaycan artıq dünyada multikulturalizmin mərkəzi kimi tanınır. Azərbaycanda heç vaxt milli, dini zəmində qarşıdurma olmamışdır və əminəm ki, olmayacaqdır.

Biz tam əminik ki, multikulturalizmin gözəl gələcəyi var. Sadəcə olaraq bəzi siyasətçilər, ictimai xadimlər öz çıxışlarında daha da diqqətli olmalıdırlar. Çünki multikulturalizmin alternativi yoxdur. Alternativ ayrı-seçkilikdir, diskriminasiyadır, islamofobiyadır, ksenofobiyadır. Bu, gələcəyə aparan yol sayıla bilməz. Ona görə, biz bu bölgədə öz siyasətimizlə və təşəbbüslərimizlə dinlərarası münasibətlərin gücləndirilməsi üçün çalışırıq və çalışacağıq.

Azərbaycan zəngin tarixə malik olan bir ölkədir. Əminəm ki, qonaqlar Bakının qədim tarixi abidələri ilə tanış olacaqlar. Azərbaycan İslam həmrəyliyinin gücləndirilməsi, İslam dəyərlərinin müdafiəsi üçün beynəlxalq müstəvidə fəal iş aparır.

Onu da qeyd etməliyəm ki, Azərbaycan gənc müstəqil dövlətdir. Cəmi 24 ildir ki, biz müstəqil dövlət kimi yaşayırıq. Sovet dövründə Azərbaycanda cəmi 17 məscid var idisə, bu gün məscidlərin sayı 2 mindən çoxdur. Biz fəxr edirik ki, dünyanın ən qədim məscidlərindən biri - 743-cü ildə tikilmiş Şamaxı məscidi Azərbaycanda yerləşir. Bu yaxınlarda məscid əsaslı şəkildə təmir edilibdir və bu gün həm dini abidədir, həm də memarlıq abidəsidir. Ona görə, bu məsələlərdə əlbəttə ki, beynəlxalq təşkilatların, aparıcı siyasətçilərin rolu kifayət qədər böyükdür - xüsusilə indiki şəraitdə, çox həssas vaxtda. Əfsuslar olsun ki, dünyada münaqişələr daha da alovlanır, qarşıdurmalar daha da çoxalır. Azərbaycan öz tərəfindən çalışır ki, humanitar əməkdaşlıq risklərin azaldılmasına gətirib çıxarsın.

ISESCO-nun bilavasitə məşğul olduğu sahələr də Azərbaycanda uğurla inkişaf edir. Qeyd etdiyim kimi, bizim çox zəngin tarixi irsimiz, qədim mədəniyyətimiz var. Bizim bütün mədəni abidələrimiz dövlət tərəfindən qorunur. Təhsilə böyük diqqət göstərilir. Azərbaycanda savadlılıq təxminən 100 faizə çatıbdır. Elmin inkişafına böyük diqqət göstərilir. Elmin inkişafı üçün əsaslı işlər görülür, vəsait ayrılır. Elmin İnkişafı Fondu yaradılıbdır. Azərbaycanda yeni texnologiyalar inkişaf edir. O cümlədən bir neçə il bundan əvvəl Azərbaycan dünyanın o qədər də böyük olmayan kosmik klubuna üzv olub. Azərbaycanda kosmik sənaye sürətlə inkişaf edir. Çünki hər bir ölkənin gələcəyi elmin, təhsilin səviyyəsindən asılıdır, gələcəkdə daha da böyük dərəcədə asılı olacaqdır. Çünki ölkələrin inkişafını şərtləndirən əsas yeni texnologiyalardır, innovasiyalardır, elmin inkişafıdır, təhsilin səviyyəsidir. Biz bu sahəyə çox böyük diqqət göstəririk. Hesab edirəm ki, Azərbaycanın əldə etdiyi təcrübə bəzi ölkələr üçün maraqlı ola bilər.

Bu il Bakıda tarixdə ilk dəfə olaraq Avropa Oyunları keçirilmişdir. Onu da qeyd etməliyəm ki, Avropa Oyunları Azərbaycanda Olimpiya Oyunları səviyyəsində keçirilmişdir. Altı mindən çox idmançı, minlərlə qonaq ölkəmizə gəlmişdir. Qısa müddətdə - cəmi iki il yarım ərzində bütün hazırlıq işləri görüldü və bu Oyunlar tarixə ən gözəl, ən mötəbər, yaxşı təşkil edilmiş Oyunlar kimi daxil oldu. Birinci Avropa Oyunlarının müsəlman ölkəsində keçirilməsi, hesab edirəm ki, sadəcə olaraq idman məsələsi deyil. Bu, eyni zamanda, dediyim kimi, bizim multikulturalizmə, dinlərarası, millətlərarası münasibətlərə verdiyimiz dəyərli töhfə olmuşdur. İki ildən sonra - 2017-ci ildə isə Bakıda İslam Həmrəylik Oyunları keçiriləcəkdir. Cəmi iki il ərzində Azərbaycanda həm Avropa Oyunları keçirilib, həm də İslam Həmrəylik Oyunları keçiriləcəkdir. Bax, bu iki hadisə əslində Azərbaycanın hansı mövqelərə malik olduğunu əyani şəkildə göstərir.

Biz 2008-ci ildə “Bakı prosesi”nə təkan verdik. O vaxt Azərbaycanın təşəbbüsü ilə Bakıda keçirilən Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini dəvət etdik. Çünki Azərbaycan həm Avropa Şurasının, həm İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Bu, birinci belə toplantı idi. Ondan sonra 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısına biz Avropa Şurasına üzv ölkələrin nazirlərini dəvət etdik. Yəni, bu prosesə “Bakı prosesi” adı verilibdir. Dünyada artıq “Bakı prosesi” özünəməxsus rol oynayır. Yəni, biz çalışırıq ki, bütün bu məsələlər tənzimlənsin, dünyada daha da böyük anlaşma olsun, qarşıdurmaya yol verilməsin, insanlar rahat, sülh, əmin-amanlıq şəraitində yaşasınlar.

ISESCO-nun Baş Konfransının XII sessiyasının Bakıda keçirilməsi qeyd etdiyim kimi, ölkəmiz üçün çox böyük hadisədir. Əminəm ki, qonaqlar burada səmərəli işləyəcəklər. Burada müzakirə olunan məsələlər gələcəkdə həm İslam həmrəyliyini gücləndirəcək, humanitar sahədə görülən işlərə daha böyük təkan verəcək, eyni zamanda, dünya miqyasında qarşılıqlı anlaşmanın dərinləşməsinə xidmət göstərəcəkdir.

Mən çıxışımın sonunda bir daha Azərbaycan xalqının böyük dostu cənab əl-Tuveycrinin fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Cənab əl-Tuveycri həm ISESCO-nun rəhbəri, həm də ictimai xadim kimi dünyada çox böyük rol oynayır, Azərbaycanı dəstəkləyir. ISESCO-nun bu səviyyəyə qalxmasında onun xüsusi xidmətləri var. Mən istəyirəm ki, bugünkü toplantıda qonaqların iştirakı ilə gözəl missiyanı icra edim. Cənab əl-Tuveycri mənim Sərəncamımla Azərbaycanın dövlət ordeni olan “Dostluq” ordeni ilə təltif edilibdir. İstəyirəm bu gün bu toplantıda bu ordeni ona şəxsən özüm təqdim edim.

* * *

Prezident İlham Əliyev “Dostluq” ordenini ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycriyə təqdim etdi.

* * *

Daha sonra mükafatlandırma mərasimi oldu. ISESCO-nun 2015-ci il üzrə “Savadlılıq” mükafatına Nigeriyanın nümayəndəsi layiq görüldü.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Baş Konfransın nümayəndələri ilə xatirə şəkli çəkdirdilər.

Daha sonra dövlətimizin başçısı və xanımı konfrans iştirakçıları ilə görüşərək onlarla söhbət etdilər.

Xatırladaq ki, Prezident İlham Əliyev bu ilin iyulunda ISESCO-nun Baş Konfransının XII sessiyasının və İcraiyyə Şurasının toplantısının Bakıda keçirilməsi ilə bağlı Sərəncam imzalamışdı. Budəfəki konfransda müzakirə olunan məsələlərin müsəlman xalqlarının həyatında inkişafa doğru yeni pəncərə açacağı, qəbul ediləcək qərarların isə İslam ölkələri arasında əməkdaşlığın daha da dərinləşməsinə töhfə verəcəyi bildirilir.

Azərbaycan 1991-ci ildən ISESCO-nun üzvüdür. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın 2006-cı ildə ISESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi ilə ikitərəfli əlaqələr uğurlu inkişaf mərhələsinə qədəm qoyub və hazırda ən məhsuldar dövrünü yaşayır.

***26 noyabr 2015-ci il***

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUS DÖVLƏT BÖYÜK VƏTƏN MÜHARİBƏSİ TARİXİ MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Belarus Dövlət Böyük Vətən Müharibəsi Tarixi Muzeyi ilə tanış olub.

Azərbaycan Prezidentinə muzey haqqında ətraflı məlumat verildi. Bildirildi ki, muzey Böyük Vətən müharibəsində faşizm üzərində Qələbə uğrunda canlarından keçmiş insanların xatirəsini əbədiləşdirmək üçün yaradılıb. Bu muzey 1944-cü il oktyabrın 22-dən Minskdəki Azadlıq meydanında müharibə illərində ziyan görməmiş "Həmkarlar Evi"ndə fəaliyyətə başlayıb. Ötən il isə hazırda muzeyin yerləşdiyi yeni Memorial Kompleksin açılışı olub. Burada Böyük Vətən müharibəsi illərində istifadə olunan silah-sursat, texnika və digər maraqlı eksponatlar sərgilənir.

Muzeydə Böyük Vətən müharibəsi illərinin hərb tarixinə aid çox dəyərli eksponatlar saxlanılır. Ümumilikdə ümumi sahəsi 4200 kvadratmetr olan muzeydə 10 ekspozisiya zalı və 8 mindən çox ekspozisiya materialı var. Fondu 28 kolleksiya və 144 mindən çox müxtəlif əşyalardan, o cümlədən foto, sənəd, məktub və Böyük Vətən müharibəsi iştirakçılarının şəxsi əşyalarından ibarət olan muzey daim yeni eksponatlarla zənginləşdirilir. "Partizanların əlyazma jurnalları" və "Əldəqayırma partizan silahı" kolleksiyaları birinci dərəcəli tarixi-mədəni dəyərə malikdir.

Bölmələrin birində müharibənin başlanması, Belarus ərazisində ilk müdafiə, o cümlədən Smolensk və Moskva döyüşləri barədə məlumat verilir. Brest qalası müdafiəçilərinin qəhrəmanlığı ziyarətçilərə xüsusi instalyasiya vasitəsilə təqdim olunur. Muzeydə faşizm üzərində ümumi Qələbənin qazanılmasında və Belarusun faşist işğalçılarından azad olunmasında Azərbaycan xalqının qəhrəman oğullarının böyük şücaətini əks etdirən eksponatlar nümayiş etdirilir. Brest qalasının müdafiəsi zamanı da azərbaycanlılar qəhrəmanlıqları ilə seçiliblər.

Muzeydə nasist Almaniyasının Belarus ərazisində yaratdığı ölüm düşərgələri, həmçinin digər həbsxanalarla bağlı maraqlı eksponatlar sərgilənir. Məlumata görə, Belarusda hitlerçilər 260-dan çox ölüm düşərgəsi və insanları kütləvi məhvetmə məntəqəsi yaradıblar. Bu faşist düşərgələrində sovet xalqlarının digər nümayəndələri ilə yanaşı, 30 azərbaycanlı hərbçi də qətlə yetirilib.

"Belarusda partizan hərəkatı və antifaşist gizli mübarizəsi" adlanan zal maraqlı dizaynı ilə seçilir. Faşistlərin Belarusu işğal etdiyi dövrdə burada partizan hərəkatının Mərkəzi və Belarus qərargahları yaradılıb. Muzeydə Belarusdakı partizan hərəkatında iştirak edən azərbaycanlıların göstərdikləri şücaətlər barədə də ətraflı məlumat verilir. Həmyerlilərimiz Ələkbər Əliyev və Məmməd Məmmədov partizan hərəkatında xüsusi qəhrəmanlıqlar göstəriblər. Muzeydə Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyevin rəşadəti haqqında da məlumat verilir. Hazırda Minskdə onun adını daşıyan küçə var.

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin bu muzeylə tanışlığından bəhs edən fotoşəkillərə baxdı. Ümummilli Lider 1978-ci ilin dekabrında Belarus SSR-in və Kommunist Partiyasının yaradılmasının 60 illiyi münasibətilə keçirilən tədbirlər çərçivəsində rəsmi nümayəndə heyətinin rəhbəri kimi bu muzeydə olub və xatirə kitabına ürək sözlərini yazıb.

Ulu Öndərin muzeylə tanışlığını əks etdirən fotoşəkillər dövlətimizin başçısına hədiyyə olundu.

Muzeydəki "Qələbə" zalında Azərbaycanın səkkiz qəhrəman oğlunun - Sovet İttifaqı qəhrəmanlarının adları qızıl hərflərlə həkk olunub. Onlar Belarusun işğaldan azad

olunmasında mərdlik və qəhrəmanlıq göstəriblər. Onların arasında iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun da adı var. O, Smorqon şəhərinin fəxri vətəndaşı adına layiq görülüb, Vileyka şəhərində şərəfinə abidə ucaldılıb. Hər iki şəhərdə Həzi Aslanovun adını daşıyan küçələr var. Muzeydə Həzi Aslanovla bağlı kitablar da sərgilənir.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

Sonda xatirə şəkli çəkdirildi.

***28 noyabr 2015-ci il***

## PREZİDENT İLHAM ƏLİYEV MİNSKDƏ "QƏLƏBƏ" MEYDANINI ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasına rəsmi səfəri çərçivəsində noyabrın 28-də Minsk şəhərindəki "Qələbə" meydanında 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin şərəfinə ucaldılmış abidəni ziyarət edib.

Meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

Azərbaycanın və Belarusun dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlətimizin başçısının qarşısından keçdi.

***28 noyabr 2015-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NAXÇIVANDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət etdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov dövlətimizin başçısına abidənin ətrafında aparılan abadlıq və yenidənqurma tədbirləri barədə məlumat verdi.

***1 dekabr 2015-ci il***

## PREZİDENT İLHAM ƏLİYEV NAXÇIVANA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ 2 SAYLI UŞAQ MUSİQİ MƏKTƏBİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Naxçıvana səfəri çərçivəsində şəhər 2 saylı uşaq musiqi məktəbinin açılışında da iştirak edib.

Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyevə məlumat verildi ki, bu musiqi məktəbi 1987-ci ildə yaradılıb. Məktəb binasının darısqallığı son vaxtlar burada tədrisin müasir səviyyədə qurulmasına əngəl törədirdi. Bu çətinliyi nəzərə alaraq muxtar respublika rəhbərliyi məktəb üçün yeni bina tikilməsi haqqında qərar verib. Şəhərin görməli yerlərindən birində - Atatürk

küçəsində ümumi sahəsi 2540 kvadratmetr olan 4 mərtəbəli yaraşıqlı bina qısa müddətdə ucaldılıb. Burada 300 şagird müxtəlif musiqi alətlərində ifaçılıq sənətinə, həmçinin milli və klassik musiqinin sirlərinə yiyələnəcək. Bunun üçün 4 şöbədə 7 ixtisas üzrə tədris aparılacaq. Təlim və tədrisin yüksək səviyyədə aparılması üçün bütün zəruri tədbirlər görülüb. 39 fərdi sinif otağı, tədris otaqları və müxtəlif tədbirlərin keçirilməsi üçün zal ən müasir avadanlıqla təchiz edilib.

Ölkənin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da yeni mədəniyyət və incəsənət ocaqlarının gənc nəslin istifadəsinə verilməsi, mövcud olanların yüksək səviyyədə bərpası, onların müasir avadanlıqla təchiz edilməsi dövlətin mədəniyyət sahəsinə hərtərəfli qayğısının bariz nümunəsidir.

Dövlətimizin başçısı məktəbdə təlim və tədrisin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

*1 dekabr 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇİNİN SİAN ŞƏHƏRİNDƏKİ TERRAKOTA ORDUSU MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində dekabrın 9-da Sian şəhərindəki Terrakota Ordusu (yeraltı heykəllər ordusu) Muzeyi ilə tanış olub.

Sian şəhəri Çinin mərkəzində yerləşən Şaansi əyalətinə mənsubdur. Qədim İpək Yolunun üzərində yerləşən bu əyalət zəngin tarixi və mədəniyyəti ilə diqqəti cəlb edir. Bu şəhər Çinin dörd qədim paytaxtından biridir.

Dövlətimizin başçısına əvvəlcə muzeyin yerləşdiyi ərazinin planı barədə məlumat verildi.

Diqqətə çatdırıldı ki, yeraltı heykəllər ordusu 1974-cü ildə təsadüf nəticəsində - bir kəndlinin ərazidə qazıntı işləri apardığı zaman aşkar edilib və dünya tarixinin ən önəmli arxeoloji tapıntılarından hesab olunur. 1977-1985-ci illərdə burada iki dəfə arxeoloji qazıntı işləri aparılıb. Həmin ərazidə tədqiqatlar nəticəsində boyları 183 və 193 santimetr arasında dəyişən əsgər heykəlləri aşkarlanıb. Heykəllərin özəlliyi onların hər birinin üz ifadəsinin və geyimlərinin fərqli olmasıdır. Lakin tapılan heykəllər torpaqdan çıxarılandan sonra üzlərindəki boyalar pozulduğuna və təbii rənglərini dəyişdiyinə görə arxeoloqlar qazıntı işlərini yarımçıq qoymağa məcbur olublar. Çinlilər tərəfindən dünyanın səkkizinci möcüzəsi kimi qəbul edilən terrakota əsgərləri ilə bağlı qazıntı işləri 2009-cu ildə yenidən bərpa olunub. Qazıntı aparılan ərazidən indiyədək təxminən iki min əsgər heykəli tapılıb. Ərazidə 520 atla 8 min əsgərin, 130 döyüş arabasının, 150 süvarinin olduğu təxmin edilir. Onlar 600-ə yaxın yeraltı çuxurda toplanıb. Çin imperatoru Sin Şi Huangın məzarı da buradadır. Əfsanəyə görə, terrakota ordusu imperator Sin Şi Huangın məzarını qoruyurmuş.

Məlumat verildi ki, 1987-ci ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən terrakota ordusu üç ayrı çuxurda dəfn edilib. Çuxurlardan ən böyüyü əsasən piyada əsgərlərin heykəllərindən ibarətdir. Müxtəlif hərbi rütbələri daşıyan hərbçilər dövrün döyüş nizamına və strategiyasına uyğun şəkildə, döyüş meydanında hazır mövqedə basdırılıblar. Çuxurların birində imperatorun mərasim batalyonu öz nizami düzülüşü ilə diqqəti cəlb edir. Əsgərlərin yanında o dövrə aid təxminən 10 min bürünc silah da var.

Bu muzey Çin tarixini, həmçinin o dövrə məxsus texnologiya, incəsənət və mədəniyyəti öyrənmək və tədqiq etmək üçün əvəzsiz mənbədir. Lakin araşdırmalar hələ də terrakota ordusunun sirrini açmağa kömək etməyib. Qədim məxəzlərdə yazılıb ki, impe-

rator Sin Şi Huang dövrünün görkəmli dövlət xadimi olaraq Çin ərazilərini vahid dövlətdə birləşdirən lider kimi tarixə düşüb. Bəzi mənbələr Çin səddinin inşasına başlanmasının da onun adı ilə bağlı olduğunu bildirir. Tarixçi Si Maqian isə yazır ki, bu məzarın inşası 30 il davam edib və tikintidə 700 min insan işləyib.

İmperatorun ordunu dəfn etdirmək üçün niyə Sian ərazisini seçməsinin də maraqlı tarixçəsi var. Tarixçilər hesab edirlər ki, imperator Li Şan adlanan dağı o dövrün məşhur fəlsəfəsi ilə əlaqələndirib. Məhz buna görə özünün də burada dəfn olunmasını əmr edib. İmperatorun məzarı yerin 36 metr dərinliyindədir və o, inanırdı ki, daş heykəllərdən ibarət terrakota ordusu onu öldükdən sonra da qoruyacaq.

Prezident İlham Əliyev terrakota ordusunun müxtəlif rütbələrdə olan hərbçilərinin heykəllərinə də baxdı.

Dövlətimizin başçısına qazıntı işləri zamanı ərazidən tapılan bürünc silah nümunələri barədə məlumat verildi.

Qeyd edək ki, il ərzində bu muzeyə dünyanın müxtəlif yerlərindən minlərlə turist gəlir. Onlar dünya tarixinin və mədəniyyətinin bu əvəzolunmaz incisi ilə tanış olmaq, onu öz gözləri ilə görmək istəyirlər.

Prezident İlham Əliyev muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

Sonra xatirə şəkli çəkdirildi.

*9 dekabr 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV PEKİNDƏ PAYTAXT MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində dekabrın 10-da Pekində Paytaxt Muzeyi ilə tanış olub.

Dövlətimizin başçısına məlumat verildi ki, Paytaxt Muzeyi Pekində incəsənət mərkəzi kimi də məşhurdur. Çinin qədim tarixinin, mədəniyyətinin nümayiş etdirildiyi mühüm mərkəzlərdən olan bu muzey 1981-ci ildə yaradılıb və hazırda yerləşdiyi binaya 2006-cı ildə köçürülüb. Paytaxt Muzeyinin memarlıq-dizayn konsepsiyası insan və mədəniyyət irslərinin cəmiyyətə xidmət etməsinə əsaslanır, keçmişin və indiki dövrün, tarixin və müasirliyin, incəsənətin və təbiətin ahəngləşdirilmiş inteqrasiyasını əks etdirir.

Muzeydə Çin mədəniyyətinin müxtəlif dövrlərinə aid zəngin kolleksiyalar nümayiş olunur. Bunların arasında Çin folkloruna, adət-ənənələrinə, həmçinin məişətinə aid eksponatlar maraq doğurur. Burada qədim farfor, bürünc, rəsm, heykəltəraşlıq nümunələrindən, bütpərəstlik abidələrindən ibarət böyük kolleksiya da var.

Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, Paytaxt Muzeyində hazırda 200 mindən çox eksponat olsa da, kolleksiyanın yalnız kiçik bir hissəsi nümayiş etdirilir. Muzeyin incəsənət kolleksiyasının böyük hissəsi Pekində yerin altından tapılmış artefaktlardan ibarətdir.

Muzeydə üç əsas bölmə var. Burada sərgilənən eksponatlar əsasən keçmiş dövrün kolleksiyalarına aiddir. Bütün sərgilərdə tarixi irsə aid ümumilikdə 5622 eksponat nümayiş etdirilir. Muzeyin zalları ən müasir texnologiya ilə təchiz edilib.

Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.

Sonda xatirə şəkli çəkdirildi.

*10 dekabr 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PEKİNDƏ XALQ QƏHRƏMANLARI ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Dekabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində Xalq Qəhrəmanları Abidəsini ziyarət edib.

Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycanın və Çinin dövlət himnləri səsləndirildi.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

Bu milli abidə Çin xalqının azadlıq mübarizəsində həyatlarını itirən qəhrəmanların xatirəsinə ehtiram əlaməti olaraq ucaldılıb.

***11 dekabr 2015-ci il***

## PREZİDENT İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 12 il keçir.

Vəfatından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan öz nəcib əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zamana və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan həqiqətdir. Zaman bu həqiqəti də təsdiq edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin mənalı ömür yoludur. Bu mənada Heydər Əliyevin ömür yolu Azərbaycanın tarixidir. Elə bu səbəbdən də bu ömür yolu hər zaman yaddaşlarda yaşayacaq.

Ulu Öndərin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. Əfsanəvi şəxsiyyət, ulu öndər, böyük rəhbər, ümummilli lider, müasir müstəqil Azərbaycanın qurucusu, xalqın sevimli, unudulmaz övladı... Bu ifadələrin hamısı yalnız ona aiddir, yalnız onun ünvanınadır. Çünki o, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya, dünyanı Azərbaycana tanıtdı. O, Azərbaycanı qorumaq üçün yaşadı, Azərbaycanı yaşatmaq üçün qurub yaratdı. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli lideri zirvəsinə yüksəltdi, dünya siyasətinin nəhənglərindən birinə çevirdi. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olmuşdur". Bu sözləri deyən ulu öndər Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdriklik və uzaqgörənliyi ilə Azərbaycanı dünya dövlətləri sırasında layiqli yerə çıxardı. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasi xadimlərindən biri idi. Buna görə də "Azərbaycan sənin üçün kiçikdir, sən İttifaqa lazımsan", - deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi. Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən doğma Vətəni Azərbaycana gəldi. Özü də tək gəldi. Amma milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Hər kəsi sözünün qüdrəti ilə inandırdı. Sözünü əməlləri ilə gerçəyə çevirdi. Düzgün, müdrik

siyasəti ilə Azərbaycanı fəlakətlərdən xilas etdi. O, sözün həqiqi mənasında xalqının xilaskarına çevrildi.

Meydana silahsız gələn bu dahi insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlunun danılmaz xidmətlərindən biri güclü, sabitliyə qovuşmuş Azərbaycan idisə, digəri özünə layiq siyasi varisin yetişdirilməsi idi. O, öz baxışlarını, ideyalarını, öz yolunu davam etdirməyə qadir bir Prezident yetişdirdi. O, uzunömürlü bir dövlətçilik məktəbi və bu məktəbi ondan sonra davam etdirə biləcək bir şəxsiyyət qoyub getdi...

Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və oğlu Heydər Əliyev Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

*12 dekabr 2015-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ZİRƏ MƏDƏNİYYƏT MƏRKƏZİNİN VƏ EKO-PARKIN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Dekabrın 30-da Heydər Əliyev Fondunun yeni layihəsi olan Zirə Mədəniyyət Mərkəzinin və eko-parkın açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva açılış mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zirə Mədəniyyət Mərkəzində yaradılmış şəraitlə tanış oldular.

Bildirildi ki, Heydər Əliyev Fondunun Bakının Zirə qəsəbəsində həyata keçirdiyi bu layihə möhtəşəmliyi ilə diqqəti cəlb edir və son illərdə ölkədə icra olunan ən orijinal layihələrdən biridir. Bu nadir məkanın qəsəbədə yaradılması isə onun əhəmiyyətini daha da artırır. Belə ki, yerli sakinlər, xüsusilə də gənclər üçün cəlbedici olan bu yer qəsəbənin sosial-mədəni inkişafında mühüm rol oynayacaq. Digər tərəfdən, bu layihə Heydər Əliyev Fondunun regional inkişaf konsepsiyasında önəmli yer tutur.

Xüsusi layihə əsasında tikilmiş Zirə Mədəniyyət Mərkəzinin ümumi sahəsi 6 min kvadratmetrdir. İkimərtəbəli binanın girişində ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Burada Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ic-

timai-siyasi fəaliyyətlərini əks etdirən fotostend qurulub. Qalereyada yaşıllıq sahəsi salınıb, müxtəlif növ ekzotik bitkilər, gül və ağaclar əkilib, köşklər qurulub, su-kanal sistemi yaradılıb. Mərkəzin xarici dil kabinetində ingilis, rus və fransız dillərinin öyrənilməsi üçün bütün dərs vəsaitləri var. Kabinetdə elektron lövhə qurulub, hər bir şagird masası son elektron texnologiyalı kompyuterlərlə təchiz olunub. Zirə Mədəniyyət Mərkəzindəki IDEA resurs mərkəzi ölkə üzrə fəaliyyət göstərən analoji mərkəzlərdən biridir və Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq Təşkilatının ideyası ilə yaradılıb. Burada qlobal iqlim, flora və fauna dəyişikliyi problemləri, kimyəvi tullantılar, ekoloji tarazlığın pozulması ilə bağlı görüşlərin, "dəyirmi masa"ların keçirilməsi planlaşdırılır. Mərkəzdə yaşıllaşdırma, landşaft dizaynı və bağçılıqla bağlı treninqlər də keçiriləcək. Xatırladaq ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təsis etdiyi IDEA kampaniyası nəsli kəsilməkdə olan heyvanların - xüsusilə də Qafqaz faunasının nəsli kəsilməkdə olan beş növünün populyasiyasının qorunub saxlanılmasına və qoruqların mühafizəsinə həsr olunub.

Şahmat sinfində bu qədim oyunun sirlərini öyrənmək istəyənlərin məntiqi düşüncələrinin düzgün formalaşdırılması üçün ən üstün elektron texnologiya qurulub. Kabinet elektron şahmat lövhələri ilə təmin edilib. Oyunlar eyni vaxtda internet vasitəsilə monitorda nümayiş olunur.

Moda studiyası da müasir tikiş avadanlıqları ilə təmin olunub. Bura dərzilik kursu, tikiş dərsləri ilə yanaşı, geyimlərin sifarişi, həm də nümayiş xarakterli bir məkandır. Paltarların biçimi və tikişi kursu fərdi və qrup xarakteri daşıyır.

Muzey formatında yaradılan Zirə Xalça Muzeyi də Mədəniyyət Mərkəzində yerləşir. Muzeydə 150 ildən çox yaşı olan Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri qorunur. Burada xovlu və xovsuz xalçalar, kilim, palaz nümunələri nümayiş olunur. Xüsusi elektron tanıtım sistemi ilə təchiz edilən muzeydə hər bir xalça haqqında Azərbaycan və ingilis dillərində geniş məlumat verilir. Xalça Muzeyinin nəzdində Xalçaçılıq Tədris Mərkəzi də fəaliyyət göstərir. Burada xalçalarımız haqqında praktik və nəzəri dərslər keçirilir. Bu dərslərdə müxtəlif yaş qruplarına aid insanlar iştirak edir. Tədris mərkəzi xalçaçılıqda istifadə olunan ləvazimatlarla və hanalarla təchiz olunub. Dərslərin səmərəli keçirilməsi üçün mərkəz Azərbaycan xalçaçılığından bəhs edən audio və video materiallar, kitablar, kataloq və jurnallarla təmin olunub. Mərkəzdə tədris zamanı istifadə olunan xalça eskizlərinin və çeşnilərin hazırlanması üçün rəssamlıq otağı da yaradılıb. Burada 30-dan artıq şagirdə xalçaçılığın sirləri öyrədiləcək. Perspektivdə xalça fabrikinin yaradılması nəzərdə tutulur.

Mərkəzdə 300 nəfərlik 3D kinozalı da fəaliyyət göstərir. "Nizami" Kino Mərkəzində nümayiş olunan filmlərin müasir texnologiya ilə təchiz olunan bu kinozalda da yayımlanması nəzərdə tutulub. Burada xüsusi akustik sistem, lisenziyalı proyektor, işıq və havalandırma sistemləri qurulub. Zalda konsert, musiqili gecələr, iclas, toplantı və təqdimatların keçirilməsi də mümkündür.

Nikah evində nikahların qeydiyyatı aparılacaq və bununla əlaqədar tədbirlər keçiriləcək. Yeni evlənənlərin tibbi müayinəsi və onlara tibbi arayışın verilməsi, yeni doğulmuş körpələrin qeydiyyatı da burada aparılacaq. Mədəniyyət Mərkəzində yeni evlənənlər üçün müxtəlif mərasimlərin və əyləncələrin təşkili ilə bağlı geniş imkanlar var.

Mərkəzdə idman və bədii gimnastika təlimləri üçün nəzərdə tutulan gimnastika zalı da yaradılıb və zal Gimnastika Federasiyası tərəfindən müvafiq avadanlıqlarla təchiz olunub. Art-studiya isə rəngkarlığın sirlərini öyrənmək istəyən müxtəlif yaş qruplarına aid istedadlı gənclərin cəlb olunması üçün nəzərdə tutulub. Studiya zəruri avadanlıq və rəngkarlıq vasitələri ilə təchiz edilib. Burada gələcəkdə tanınmış rəssamların ustad dərslərinin təşkili planlaşdırılır.

Elektron kitabxana mərkəzləşdirilmiş sistemlə təchiz olunub və üç mindən çox elektron vəsait bazaya yüklənib. Kitabxana xüsusi dizaynla tərtib olunub. İstifadəçilərin rahatlığı üçün kitablar sərbəst istifadəyə verilib.

Foto-video studiya da rəqəmsal texnologiyanın ən son avadanlıqları ilə təchiz edilib. Burada müasir fotostudiya - xüsusi fon pərdələri, işıq sistemi, kompyuterləşmiş fotoavadanlığı qurulub. Studiyada peşəkar çəkiliş və xidmətlə yanaşı, foto-video-montaj dərslərinin keçirilməsi, mərasimlərin işıqlandırılması nəzərdə tutulub.

Zirə Mədəniyyət Mərkəzində seçicilər, qəsəbə sakinləri ilə qəbul və görüşlərin keçirilməsi üçün də hər cür şərait yaradılıb. Seminar, treninq, iclas, təqdimat və yığıncaqların təşkili üçün zəruri avadanlıqla təchiz olunan 60 nəfərlik konfrans zalı qurulub.

Mərkəzin özəlliyini artıran mühüm amillərdən biri də burada Orxideya Evinin yaradılmasıdır. Ölkədə ilk dəfə yaradılan bu məkanda 150 nəfərlik qonaq qəbulu və müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait var. Zalın tərtibatında müxtəlif ekzotik gül və ağac kompozisiyalarından, rəngarəng orxideya növlərindən istifadə olunub.

Sonra Prezident İlham Əliyev və ailə üzvləri Xəzər rayonunun və Zirə qəsəbəsinin bir qrup sakini ilə görüşdülər.

Prezident İlham ƏLİYEV dedi:

-Bu gün çox əlamətdar bir gündür. Zirədə belə gözəl Mədəniyyət Mərkəzi və ekopark açılır. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu, doğrudan da nadir layihədir. Deyə bilərəm ki, bu, nəinki ölkəmizdə, dünya miqyasında seçilən layihələrdən biridir. Burada həm böyük park yaradılıbdır, 10 hektar ərazidə, eyni zamanda, bu Mədəniyyət Mərkəzində müxtəlif dərnəklər, studiyalar fəaliyyət göstərir, xalça muzeyi, kinozal, kitabxana, konfranslar üçün müxtəlif otaqlar var. Yəni, bu, doğrudan da müasir, çox gözəl mərkəzdir və şadam ki, bu mərkəz Zirə qəsəbəsində yaradılıbdır.

Son vaxtlar ölkəmizin hər bir yerində, o cümlədən Bakı şəhərində ictimai yerlər yaradılır, parklar salınır. Misal üçün bizim ən böyük parkımız bulvardır. Əvvəlki uzunluğu 3 kilometr idisə, indi 16 kilometrə çatıb və ən yüksək səviyyədə qurulubdur. Həmçinin yeni parklar salınıbdır. Məsələn, Mərkəzi Park – Heydər Əliyev Sarayının arxasında yerləşən park yeni yaradılıbdır. Yasamal parkı – bu da yeni yaradılıb, şəhərimizin ən böyük parklarından biridir, Dədə Qorqud parkı və digər parklar. Şəhərdə indi ekoloji layihələr icra edilir. Böyükşor gölünün bir hissəsi təmizlənib, orada da gözəl bulvar salınıb, böyük park yaradılıbdır. Heydər Əliyev Mərkəzinin qarşısında təqribən 7-8 hektar ərazidə park yaradılıbdır. Şadam ki, nəinki şəhərin mərkəzində, eyni zamanda, qəsəbələrdə də gözəl parklar salınır. Bu imkanlardan həm qəsəbə sakinləri, həm də qonşu qəsəbələrdən gələn qonaqlar istifadə edəcəklər. Eyni zamanda, hesab edirəm ki, buraya mütləq şəhərimizin sakinləri və xarici qonaqlar da gələcəklər. Çünki mehmanxanalarımızda bu parkla bağlı kitabçalar təqdim ediləcək və xarici qonaqlar gəlib görəcəklər ki, Azərbaycanda belə gözəl əsərlər yaradılır.

Zirə qəsəbəsinin inkişafı uğurla gedir və burada xüsusilə sizin deputatınızın fəaliyyətini qeyd etmək istəyirəm.

**Sakinlər:** Allah cansağlığı versin.

Prezident İlham ƏLİYEV: Mehriban artıq 10 ildir ki, sizin deputatınızdır. Zirə qəsəbəsində və digər qəsəbələrdə inkişaf Mehribanın adı ilə bağlıdır. Bu layihə də Heydər Əliyev Fondu tərəfindən icra edilibdir. Şadam ki, bu layihənin ekoloji komponentinin müəllifi mənim qızım Leyladır.

**Sakinlər:** Allah saxlasın, xoşbəxt olsun.

Prezident İlham ƏLİYEV: O da çalışır ki, ölkəmizin ümumi inkişafına töhfə versin, xüsusilə ətraf mühitin, nadir heyvanların qorunması istiqamətində çox böyük işlər görür. Azərbaycanda ekoloji vəziyyətlə bağlı görülən işlər artıq beynəlxalq səviyyədə yüksək

qiymətləndirilir. Bu yaxınlarda Parisdə iqlim dəyişikliyi ilə bağlı dünya əhəmiyyətli beynəlxalq konfrans keçirilmişdir. Azərbaycanın təqdim etdiyi nailiyyətlər orada xüsusilə qeyd edilmişdir. Çünki ətraf mühitin qorunması işində biz doğrudan da böyük uğurlara nail ola bilmişik. Xüsusilə Bakıda, Abşeronda, əfsuslar olsun ki, on illiklər ərzində neft hasilatı nəticəsində böyük ərazilər çirklənmişdir. İndi o ərazilərin təmizlənməsi işi gedir və o cümlədən dediyim kimi Böyükşor gölünün, Bibiheybət buxtasının təmizlənməsi artıq reallıqdır.

Son illər Zirə qəsəbəsində müxtəlif sosial layihələr icra edilmiş, səhiyyə, təhsil ocaqları yaradılmışdır. Əminəm ki, bu gözəl yeni layihə Zirə sakinlərinin sərəncamına veriləndən sonra buraya insanlar gələcəklər, istirahət edəcəklər. Uşaqlar burada müxtəlif dərnəklərdə təlim alacaqlar. Yəni, Zirə qəsəbəsinin son illərdəki inkişafı doğrudan da çox müsbətdir, uğurludur. Əminəm ki, Heydər Əliyev Fondu gələcəkdə bu qəsəbədə və bütün başqa yerlərdə öz fəaliyyətini uğurla davam etdirəcəkdir.

İnfrastruktur layihələri icra edilir və yollar salınır. İndi bu gözəl aeroport yolundan ta Pirallahıya qədər yeni yol artıq salınır, genişləndirilir, onun bir hissəsi istifadəyə verilmişdir. Pirallahıya gedən yol əsaslı şəkildə təmir olunur, yenidən qurulur, körpü tikilir. O körpünün də çox böyük ekoloji mənası var. Çünki bu günə qədər bu bənd sanki dənizi bölür və imkan vermir ki, su təmizlənsin. İmkan vermir ki, ekoloji vəziyyət normallaşsın. İndi bəndin əvəzinə körpü salınır və bunun çox böyük müsbət ekoloji təsiri olacaqdır.

Ümumiyyətlə, son illər ərzində Bakı qəsəbələrində gedən işlər demək olar ki, mövcud problemlərin böyük hissəsini həll edibdir. Çünki hər bir qəsəbədə yollar salınır, içməli su xətləri çəkilir, qazlaşdırma demək olar ki, başa çatmışdır, elektrik enerjisi təchizatı normallaşıb, iş yerlərinin yaradılması istiqamətində addımlar atılıbdır, o cümlədən Zirə qəsəbəsində.

Bildiyiniz kimi, bütün bu işlər Bakı və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramının nəticəsində mümkün olmuşdur. Proqram davam edir, gələn il də bir çox layihələr icra ediləcəkdir. Qarşıya vəzifə qoyulmuşdur ki, Bakıətrafı qəsəbələrdə bütün infrastruktur, sosial məsələlər öz həllini tapsın. Yaxşı yollar salınsın, məktəblər, uşaq bağçaları, tibb ocaqları, idman obyektləri tikilsin, iş yerləri yaradılsın. Biz bu istiqamətdə ardıcıl şəkildə bütün işləri görürük və əminəm ki, yaxın gələcəkdə qəsəbələrdə bütün problemlər öz həllini tapacaq.

Mən xüsusilə içməli su layihələrini qeyd etmək istəyirəm. Bu yaxınlarda Ceyranbatan su anbarında yeni, dünyanın ən böyük sutəmizləyici qurğusu istifadəyə verilmişdir. Bu qurğu hesabına Bakı sakinlərinə Dünya Səhiyyə Təşkilatının səviyyəsinə uyğun 24 saat ərzində içməli su verilməlidir. Artıq bu proqram da başlanıbdır.

Biz sizinlə bu gün Yeni il, Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində görüşürük. 2015-ci ildə mənim bir çox ölkələrə rəsmi və işgüzar səfərlərim olmuşdur. Mən xaricdə 20 beynəlxalq tədbirdə iştirak etmişəm. Ölkə üzrə də təqribən 20-dən çox rayonda olmuşam. Amma ili mən burada, Zirədə ailəmlə, sizinlə bərabər başa vururam və sizi bir daha salamlayıram. Xahiş edirəm ki, mənim salamlarımı bütün Zirə sakinlərinə çatdırasınız. 2016-cı ildə sizə, bütün Azərbaycan xalqına xoşbəxtlik, uğurlar, əmin-amanlıq arzulayıram.

2015-ci il sınaq ili olmuşdur. Dünyada gedən proseslər istər-istəməz bizə də təsir etmişdir. Ancaq 2015-ci ildə Azərbaycanda ictimai sabitlik təmin edildi, xalqımız sülh, əmin-amanlıq şəraitində yaşayır və yaşamalıdır. Baxmayaraq ki, indi ətraf bölgələrdə müşahidə olunan mənzərə çox acınacaqlıdır. Əfsuslar olsun ki, 2015-ci ildə həm dünyada, həm bölgədə qanlı toqquşmalar, müharibələr, ayrı-seçkilik və anlaşılmazlıq özünü daha qabarıq şəkildə büruzə verir. Azərbaycanda isə bütün işlər normal məcrada davam edir,

xalqımızın təhlükəsizlik şəraitində yaşaması təmin edilir, milli birlik, həmrəylik hökm sürür. Əlbəttə, biz diqqəti xüsusən gələcək iqtisadi inkişafımıza yönəltməliyik. Son illər ərzində bu istiqamətdə böyük uğurlar əldə edilmişdir. Şəhərlərimizin siması dəyişdi, Bakı dünyanın ən gözəl şəhərinə çevrildi. Ancaq görüləsi işlər çoxdur. Gələn il xüsusilə idarəetmə sahəsində çox ciddi islahatlar davam etdiriləcək. Bu islahatlar daim aparılır. Ancaq gələn il daha da ciddi struktur islahatları aparılacaq. Biz xüsusilə idarəetmə sahəsində artıq yeni formatda daha böyük səmərə ilə işləməliyik. Bütün sahələrdə tam şəffaflıq təmin edilməlidir ki, dövlət büdcəmizin gəlirləri ilə bağlı heç bir problem olmasın. Biz elə işləməliyik ki, neftin qiymətindən asılılığı aradan götürək. Mən bunu dəfələrlə bəyan etmişəm və son illərdə qeyri-neft sektorunun inkişafı, bax, bu məqsədi güdür. Əgər biz bu islahatları aparmasaydıq, bu gün çox ağır vəziyyətdə ola bilərdik.

Ancaq neftdən asılılıq hələ ki, davam edir və davam edəcək. Bu asılılığı ən aşağı səviyyəyə endirmək üçün həm iqtisadi islahatlar, həm idarəetmə sahəsində çox ciddi islahatlar aparılmalıdır. İlk növbədə, bütün sahələrdə şəffaflıq tam təmin edilməlidir. İcra orqanlarının, vergi-gömrük orqanlarının fəaliyyəti, ümumiyyətlə, bizim bütün maliyyə sistemimiz şəffaf olmalıdır. Biz dünyanın inkişaf etmiş ölkələrinin praktikasını tam şəkildə tətbiq etməliyik. Gəlirlərə, xərclərə nəzarət gücləndirilməlidir, xüsusilə ictimai nəzarət. Mən bu barədə də dəfələrlə demişəm ki, ictimaiyyət daha da fəal olsun.

Əhaliyə göstərilən xidmətlərdə çox ciddi islahatlar aparılmışdır. “ASAN xidmət” artıq iki ildir fəaliyyət göstərir, 7 milyondan çox insan bu xidmətin imkanlarından istifadə edib və əvvəlki illərdə olan pozuntular, nöqsanlar artıq yoxdur. Yəni, bunu etmək mümkündür. Hər bir sahədə şəffaflıq olmalıdır, yerli və mərkəzi icra orqanları, ilk növbədə, insanlara xidmət göstərməlidirlər, anlamalıdırlar ki, onlar insanlar üçün çalışırlar. Xalq tərəfindən onlara verilən qiymət, yəni, münasibət əsas meyardır. Mən onların fəaliyyətinə qiymət verəndə, ilk növbədə, bu amili nəzərə alıram və alacağam.

Əlbəttə ki, 2016-cı il iqtisadi cəhətdən asan il olmayacaq. Biz bunu bilməliyik. Ancaq elə işləməliyik ki, mənfi tərəfləri minimum səviyyəsinə endirək. Mən əminəm ki, 2016-cı ildə Azərbaycan iqtisadiyyatı inkişaf edəcək, heç bir sosial proqramın icrası ilə bağlı heç bir problem olmayacaq. Biz daha da ciddi sosial siyasət aparacağıq və çalışacağıq ki, daha çox xarici sərmayəni cəlb edək, israfçılığa yol verməyək. Qeyd etdiyim kimi, idarəetmə sistemində xoşagəlməz halların aradan qaldırılması işində daha da fəal işləyəcəyik.

Mən bir daha sizi qarşıdan gələn bayramlar münasibətilə təbrik etmək istəyirəm. Azərbaycan inamla inkişaf edəcək. Biz inkişaf yolu ilə, müstəqillik yolu ilə gedirik, müstəqil siyasət aparırıq. Ona görə bəzi hallarda əsassız təzyiqlərə məruz qalırıq. Ancaq biz ləyaqətli siyasət aparırıq. Azərbaycan xalqının maraqları mənim üçün hər şeydən üstündür və mən bundan sonra da bu maraqları müdafiə edəcəyəm. Mən xalqın dəstəyini hiss edərək bu işləri daha da inamla aparıram. Bir daha sizi təbrik edirəm, bayramlarınızı təbrik edirəm.

Sakinlər: Çox sağ olun, Allah Sizə cansağlığı versin.

**Zirə qəsəbəsinin sakini:** Bu gün çox sevindirici haldır. Siz ailənizlə üçüncü dəfədir Zirə kəndinə təşrif buyurursunuz. Bu, sevindirici haldır. Mən öz adımdan, Zirə kəndinin əhalisi, ziyalıları, ağsaqqalları adından Sizə təşəkkür edirəm. Demək istəyirəm ki, Zirə qəsəbəsində bütün yollar qısa zamanda asfaltlaşdırılıb. Az vaxt ərzində Heydər Parkı, xəstəxana, idman kompleksi, bu mərkəz və eko-park yaradılıb. Kimin təşəbbüsü ilə? Hamısı bizim hörmətli Prezidentimiz və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə! Yəni, demək istəyirəm ki, bu kiçik qəsəbədə bu qədər işlər görülübsə, baxın, Azərbaycanın rayonlarında, qəsəbələrində nə qədər böyük işlər görülüb. Bu işlərin hamısı Sizin təşəbbüsünüzlə, göstərişinizlə görülüb. Ona görə də qəsəbəmizin, Bakıətrafı

kəndlərin əhalisi adından Sizə öz təşəkkürümüzü bildiririk. Bir neçə gün bundan əvvəl Sizin ad gününüz olub. Camaatımız, ağsaqqallarımız, ziyalılarımız adından Sizi təbrik edirik, Sizə uzun ömür, cansağlığı arzu edirik. Allah-Təaladan arzu edirik ki, Sizə, ailənizə ən gözəl nemət olan cansağlığı versin. Allah-Təala Sizi yerin, göyün bəlalarından hifz etsin. Allah-Təala Sizin kimi Prezidenti biz Azərbaycan xalqına çox görməsin. Allah Sizi hifz etsin.

**Türkan qəsəbəsinin sakini:** Bu gün Zirədəyik, Zirə qəsəbəsindən danışırıq. Amma bu, o demək deyil ki, təkcə elə Zirə qəsəbəsi abadlaşır. Mən Türkan qəsəbəsinin ağsaqqalı kimi deyə bilərəm ki, Türkanda illər boyu qazla bağlı çətinlik olub. Biz sovet vaxtı da orada qaz görməmişik. Bu gün heç kimin qazla bağlı problemi yoxdur. Bu da ölkə rəhbərinin təşəbbüsü ilə mümkün olub. İşıqla bağlı qəti problem yoxdur. Su haqqında danışdınız, çox sağ olun, o vaxt Siz Ağsuda çıxış edəndə mən televizorda baxırdım. Siz dediniz ki, su bizim həyatımızdır. Su gələcəyimiz, balalarımızın sağlam həyatı üçün vacibdir. Artıq iki aydır ki, biz də sudan fasiləsiz istifadə edirik. Gecə-gündüz Sizə də, Mehriban xanıma da, Leyla xanıma da dua edirik. Televizora baxanda görürük ki, dünyanın bir çox yerində uşaqlar, qocalar üçün binalar tikilir. Həqiqəti deyirəm, adam sevincdən kövrəlir. Ona görə biz əgər başqa ölkələrdə də xeyirxah işlər görmüşüksə, özümüzü, ölkəmizi Sizin timsalınızda tanıtdırmışıqsa, bu, bizim üçün fəxrdir.

Mehriban xanımın təşəbbüsü ilə Türkanda məktəb tikilib, internat məktəbi təmir olunub. Gözəl Mədəniyyət Evi var. Əvvəl Mədəniyyət Evi yox idi. Bu gün gözəl ikimərtəbəli, geniş, 200 nəfərlik mədəniyyət evimiz var. Uşaq bağçası tikildi. Keçən il poliklinika çox yüksək səviyyədə inşa olundu. Məktəblərimiz var, asfalt yol da ki öz yerində. Mən də Türkan camaatı adından Sizə təşəkkür edirəm. Bu gün burada bildik ki, Mehriban xanımın təşəbbüsü var. Prezidentimizə və ona cansağlığı arzu edirik. Biz arzu edirik ki, Prezidentimizlə, deputatımız Mehriban xanımla həmişə belə xoş işlərdə görüşək, Sizin rəhbərliyinizlə ölkəmiz, şəhərlərimiz, qəsəbələrimiz, kəndlərimiz gündən-günə abadlaşsın. Allah Sizə cansağlığı versin. Mən türkanlılar adından Sizə bir daha təşəkkür edirəm. Çox sağ olun.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban ƏLİYEVA çıxış edərək dedi:

-Çox minnətdaram. Bu fürsətdən istifadə edərək, seçkilər zamanı mənə göstərdiyiniz yüksək dəstəyə, inama görə sizə dərin minnətdarlığımı bildirirəm. Artıq biz illərdir ki, bərabər çalışırıq və bütün bu işləri, əlbəttə, Heydər Əliyev Fondu sizin dəstəyinizlə həyata keçirir. Əminəm ki, qalan bütün problemləri də gələcək illərdə birgə həll edəcəyik və belə gözəl açılışlarda daha çox iştirak edəcəyik. Mən sizi təbrik edirəm, sizə cansağlığı arzu edirəm.

Sakinlər: Çox sağ olun. Biz də sizə cansağlığı arzu edirik.

Prezident İlham ƏLİYEV dedi:

-Son illərdə Xəzər rayonunun demək olar ki, bütün qəsəbələrində doğrudan da çox böyük quruculuq işləri aparılır. Bu, çox böyük təqdirəlayiq bir haldır. İnfrastruktur yaradılır, sosial obyektlər, məktəblər, poliklinikalar, tibb mərkəzləri tikilir. Mən dəfələrlə demişəm ki, əgər hər bir qəsəbənin, kəndin problemi həll olunarsa, onda ölkədə bütün problemlər həll olunacaq. Ancaq bilirsiniz, vaxtilə tikilmiş binalar artıq yararsız vəziyyətə düşmüşdür. Son 10 il ərzində 3 mindən çox məktəb tikildi, təmir edildi. Təsəvvür edin, Azərbaycanda təxminən 5 minə yaxın məktəb var. Onun 3 mini yenidən tikildi, bərpa edildi. Ancaq hələ ki, qəzalı məktəblər var. Mən rayonlarda olarkən hər dəfə arayış alıb baxıram ki, neçə məktəb qəzalıdır. Yəni, bütün bunları etmək üçün vəsait, büdcə vəsaiti, gəlirlər lazımdır.

Biz neftin qiymətinin yuxarı səviyyədə olduğu dövrdə imkandan istifadə etdik ki, insanları narahat edən əsas problemləri tezliklə həll edək. Bu problemlər nə idi? İşıq yox idi, heç Bakıda yox idi. Gecə vaxtı kəsilirdi. Yaxud qazlaşdırma. İndi Bakı yüz faiz qazlaşdırılıb. İndi bölgələr də buna yaxındır, ölkə üzrə təxminən 90 faizə yaxınlaşır. İçməli su maşınlarla daşınırdı. Biz də vaxt olub Bakıda evimiz olmayanda qəsəbələrdə qalmışıq. Biz də bilirik bu nədir! Ona görə də hər bir yerdə, hər qəsəbədə içməli su olmalıdır. Xətlər çəkilib, Oğuz-Qəbələ xətti istifadəyə verilib, Ceyranbatan sutəmizləyici qurğusu yaradılıb ki, təmiz su gəlsin. Hələ ki, bunu tam təmin edə bilməmişik. On il bundan əvvəl Bakı əhalisinin təxminən 45-46 faizi 24 saat su alırdı, indi bu rəqəm 78 faizdir, amma qalan 22 faiz almır. Bu, problemdir. O da həll olunmalıdır, ona da vəsait lazımdır. Bax, biz bu işlərlə məşğul olmuşuq - elektrik stansiyalarının tikintisi, qaz xətləri, içməli su üstəgəl sosial obyektlər.

Son 10 ildə Bakıda, bütün bölgələrdə 500-dən çox səhiyyə müəssisəsi yaradılıb. İndi elə bir rayon yoxdur ki, orada müasir səhiyyə ocağı olmasın. Uşaq bağçalarına böyük ehtiyac var. İndi bizdə əhali artır, bu da çox müsbət haldır. Hər il təxminən 130-140 min körpə dünyaya göz açır. Yəni, uşaq bağçaları problemdir. Çünki yerlər çatmır. Təminat aşağı səviyyədədir. Yeni bağçalar tikilməlidir, ərazi ayrılmalıdır. Yenə də vəsait lazımdır. Ona görə də sosial məsələlərin həlli daim diqqət mərkəzindədir. Ancaq bu məsələləri həll etmək üçün iqtisadi imkan olmalıdır. Əgər sənin imkanın, gəlirin yoxdursa, sən bunu nəyin hesabına edə bilərsən? Bizim indi gəlirlərimiz çox ciddi şəkildə azalıb. 2015-ci ildə heç kim gözləyə bilməzdi ki, neftin qiyməti 3 dəfə aşağı düşəcək. Yəni, bu, o deməkdir ki, bizim gəlirlərimiz 3 dəfə azalıb. Ona görə, indiki şəraitdə biz ancaq və ancaq çox düşünülmüş siyasət, səmərəli iş, yenə də deyirəm, idarəetmə sahəsində aparılan və aparılacaq islahatlar hesabına öz iqtisadi inkişafımızı təmin edə bilərik. Bu, iqtisadiyyat üçün bir stress idi. Əlbəttə, bunun çox böyük mənfi fəsadları var. Amma digər tərəfdən bu, bizim hamımızı daha da səmərəli işə sövq etməlidir. İndi cəmiyyəti, insanları narahat edən xoşagəlməz hallara son qoyulmalıdır. Burada əlbəttə ki, insanlardan çox şey asılıdır. Dövlət siyasəti də aparılır, aparılacaqdır. Elə tədbirlər görülməlidir ki, xoşagəlməz halların meydanı, necə deyərlər, daralsın. Sistem xarakterli islahatlar aparılmalıdır. Məsələn, “ASAN xidmət”, orada 30-a yaxın xidmət göstərilir və heç bir problemsiz, bürokratiyasız, rüşvətsiz. Bir arayışı almaq üçün hansı əzablardan çıxırdıq. İndi yoxdur. Yəni, mümkündür. Hər yerdə, hər sahədə, bütün icra orqanlarında, yerli, mərkəzi, dövlət strukturlarında belə olmalıdır. Dövlət məmurları vicdanla işləməlidirlər. Onların, necə deyərlər, vicdanı imkan verməməlidir ki, ayrı yolla getsinlər. Amma, eyni zamanda, ictimai nəzarət də güclü olmalıdır. Xalq da siqnal verməlidir, deməlidir, məlumat ötürməlidir ki, bax filan yerdə bu və ya digər çatışmazlıq var. Belə olan halda heç bir problem bizim qarşımızı kəsə bilməz.

Yenə də deyirəm, 2016-cı il iqtisadi cəhətdən asan il olmayacaq. Ancaq mən tam əminəm ki, Azərbaycan inkişaf edəcək, biz bütün sosial proqramları icra edəcəyik. Bununla bərabər, investisiyalar üçün də bizdə kifayət qədər vəsait olacaqdır. Hesab edirəm ki, gələn ilin əvvəlində biz dövlət büdcəmizə yenidən baxmalıyıq. Dürüstləşmə aparılmalıdır və orada həm insanların sosial təminat məsələləri öz həllini tapacaq, həm investisiya məsələləri ki, biz 2016-cı ildə uğurla inkişaf edək. Bax, bizim vəzifəmiz bundan ibarətdir.

**Sakin:** Möhtərəm Prezidentimiz, bu gün mənim üçün bəlkə də burada oturanlardan daha uğurlu bir gündür. Bəlkə də 2015-ci il daha uğurlu ildir. Sizin dekabr ayında imzaladığınız Sərəncama əsasən mənim işlədiyim təhsil müəssisəsi ilin ən yaxşı ümumtəhsil müsabiqəsinin qalibi olub.

Prezident İlham ƏLİYEV: Təbrik edirəm.

**Sakin:** Çox sağ olun. Mən buna görə şəxsən heç inanmazdım ki, üzbəüz gəlib Sizə bu barədə öz təşəkkürümü bildirərəm. Biz Sizin gördüyünüz o uğurlu işləri dəstəkləyirik. Deyirsiniz ki, birlik lazımdır. Əlbəttə, biz Sizinlə birlikdəyik. Əgər xalq öz rəhbəri, lideri ilə birləşməsə heç bir uğur əldə etmək olmaz. Amma bu gün Sizinlə xalqın arasında olan bu gözəl münasibət bunun bariz nümunəsidir ki, biz uğurla addımlayırıq. Sizə dəstək olan gözəl xanımınız, bizim rayonumuzun deputatı Mehriban xanımla həmişə qürur duyuruq. Mehriban xanım, Sizə bildirirəm ki, inşalarımızda mən bu birliyi həmişə şagirdlərimizə nümunə çəkmişəm. Sizin ailəniz bizə nümunə olub. Bu gün Sizin tərbiyə etdiyiniz bu gözəl Leyla balamız bizim gənclərimizə nümunədir.

Hörmətli cənab Prezident, Sizin 148 nömrəli məktəbdə etdiyiniz çıxışdan irəli gələn vəzifələr bu gün bizim fəaliyyət planımızda ən prioritet sahə kimi qarşımızda qoyulan istiqamətlərdəndir. Siz bu çıxışınızda milli mənəvi dəyərlərimizə, azərbaycançılıq məfkurəsinə böyük qiymət vermişiniz, milli ruhumuzun, milli şüurumuzun formalaşmasına böyük diqqət yetirmisiniz. Çünki uğurumuzun rəhni yalnız budur. Biz də öz işimizlə Sizin bu uğurlarınıza, əlbəttə, dəstək olmalıyıq. Gözəl adət-ənələrimizdən biri də qeyd olunur ki, sələflərimizin xələflərinə verdikləri adlardır. Bu gün həmin adı, Ulu Öndərimizin adını daşıyan bir balamız var. Biz inşamızda da yenə bildirirəm ki, bunu qeyd etmişik. Ulu Heydər Əliyevin adını daşıyan kiçik Heydər Əliyevimiz. O da bizim gənclərimizə nümunədir. Biz onun bu gün nümunəvi davranışını Azərbaycan gənclərinə nümunə göstəririk. Arzumuz budur ki, gələcəkdə bu adın məsuliyyətini Sizə layiq şəkildə davam etdirsin, inşallah.

Bir daha Sizi bu həmrəylik günü münasibətilə təbrik edirik. Bizimlə görüşməyinizi bir xəyal hesab edirdik. Bayaq orada "dəyirmi masa"da ağsaqqallarımızla bir yerdə əyləşmişdik. Deyirdik Allahın bizə lütfüdür ki, biz bu gün Sizinlə yeni təqvim ilimizi, 2016-cı ili qarşılayırıq. Allah-Təala həmrəyliyimizi bizə çox görməsin. Mən əminəm ki, bu xalq həmişə Sizin arxanızda olacaq, bu tandemin arxasında olacaq.

Sosial rifahımızın yüksəlməsi üçün əlinizdən gələni edirsiniz. Ölkəmizdə, bölgələrimizdə, rayonlarımızda, kəndlərimizdə hətta hər xırda problemi belə hamıdan gözəl bilirsiniz. Allah-Təala Sizə o qədər cansağlığı versin ki, bu məqsədlərinizə çatmağa nail olasınız, inşallah. Allah balalarınızı xoşbəxt etsin. Sağ olun.

Prezident İlham ƏLİYEV: Çox sağ olun.

Sonda xatirə şəkli çəkdirildi.

* * *

Daha sonra Prezident İlham Əliyev və ailə üzvləri Zirə Mədəniyyət Mərkəzinin ətrafında salınan eko-parkda yaradılan şəraitlə tanış oldular. Burada müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva olan "Ürək" əsərinin 3 metrlik abidəsi də ucaldılıb. On hektar ərazidə salınan eko-park xüsusi landşaft dizaynı ilə layihələndirilib. Burada geniş yaşıllaşdırma işləri görülüb, minlərlə müxtəlif növ nadir dekorativ və meyvə ağacları, bəzək kolları və güllər əkilib. Parkda müxtəlif növ attraksionlardan ibarət uşaq meydançası yaradılıb, idman trenajor qurğuları quraşdırılıb. Elektromobillər və velosipedlər üçün xüsusi yollar salınıb. Parkın özəlliyini artıran mühüm cəhətlərdən biri də burada 25 adda 150-dək ekzotik quşların saxlanmasıdır. Onların saxlanması və artırılması üçün burada quş parkı yaradılıb. Bundan əlavə, parkda kiçik süni su hövzələri - gölməçələr də var. Ərazinin suvarılması xüsusi sistemlə həyata keçirilir və avtomatik idarə olunur.

Parkda asudə vaxtın səmərəli keçirilməsi üçün istirahət zonaları da yaradılıb, köşklər qurulub. Fəvvarələr meydançası əraziyə xüsusi yaraşıq verir. Pilləli formada yaradılan meydançada rəngarəng işıqlandırma sistemi də qurulub.

Qeyd edək ki, 2005-ci ildən başlayaraq Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın başçılığı ilə bütün ölkədə olduğu kimi, Xəzər rayonunda da çoxsaylı layihələr həyata keçirilib. İndiyə qədər Zirə qəsəbəsində Böyük Vətən müharibəsi iştirakçılarının xatirəsinin əbədiləşdirildiyi Xatirə bağı yenidən qurulub, müasir Müalicə-Diaqnostika Mərkəzi tikilib, qəsəbə sakinlərinin asudə vaxtının səmərəli təşkili üçün salınan parkda Mədəniyyət Evi, Zirə İdman Kompleksi, stadion və digər sosial obyektlər istifadəyə verilib, təhsil müəssisələri inşa olunub, yollar salınıb. Qəsəbə sakinlərinin məşğulluğunun təmin olunması məqsədilə mühüm tədbirlər həyata keçirilib. Təsadüfi deyil ki, Zirə Mədəniyyət Mərkəzinin və eko-parkın fəaliyyətə başlaması ilə burada 60-a yaxın yerli sakin daimi işlə təmin olunub.

Ərazi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev və ailə üzvləri eko-parkda ağac əkdilər.

Qeyd edək ki, Zirə Mədəniyyət Mərkəzi xüsusi xidməti avtobuslarla təchiz olunub. Bundan əlavə, qəsəbə sakinlərinin rahatlığının təmin olunması üçün Zirə bələdiyyəsinə sərnişin avtobusları da verilib. Onu da deyək ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Zirə Mədəniyyət Mərkəzinin yaxınlığında Suraxanı rayonu 2 saylı uşaq evi üçün 140 yerlik yay düşərgəsinin inşası başa çatmaq üzrədir.

***30 dekabr 2015-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XALQ ŞAİRİ ZƏLİMXAN YAQUBUN VİDA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Yanvarın 11-də Təzəpir məscidində müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, xalq şairi Zəlimxan Yaqub ilə vida mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Əvvəlcə Qurani-Kərimdən ayələr oxundu.

Dövlətimizin başçısı mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verdi.

Zəlimxan Yaqubun ailə üzvləri mərhumun xatirəsinə göstərilən ehtirama görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.

Sonra xalq şairi Zəlimxan Yaqubun cənazəsi son mənzilə yola salındı.

Vida mərasimində dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri, mədəniyyət xadimləri iştirak ediblər.

Ömrünün 66-cı ilində dünyasını dəyişən Zəlimxan Yaqub özündən sonra zəngin bədii irs qoyub. Şifahi xalq ədəbiyyatını dərindən bilən şair yaradıcılığında bu qaynaqdan məharətlə istifadə edərək, ümumbəşəri və milli dəyərləri özündə əks etdirən qiymətli əsərlər yaradıb. O, bir çox mükafatlara, o cümlədən Azərbaycan Respublikasının yüksək dövlət mükafatlarından olan "Şöhrət" və "Şərəf" ordenlərinə layiq görülüb. Görkəmli şair, tanınmış ictimai xadim və səmimi insan Zəlimxan Yaqubun əziz xatirəsi xalqımızın qəlbində daim yaşayacaq.

* * *

Xalq şairi Zəlimxan Yaqub birinci Fəxri Xiyabanda dəfn olundu.

***11 yanvar 2016-cı il***

# PREZİDENT İLHAM ƏLİYEV ŞƏHİDLƏR XİYABANINDA 20 YANVAR ŞƏHİDLƏRİNİN ƏZİZ XATİRƏSİNİ YAD ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər.

Qanlı Yanvar hadisələrindən 26 il keçir. 1990-cı il yanvarın 20-də ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlığından və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına çıxaraq buna qəti etirazını bildirən xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməyən faciəyə səbəb oldu. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlıq əleyhinə törədilən ən ağır cinayətlərdən biri kimi bəşər tarixinə yazıldı. Böyük itkilər, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi mərkəzi hakimiyyət başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının həm də mübarizliyini, əyilməzliyini və məğrurluğunu nümayiş etdirdi.

20 Yanvar Azərbaycan xalqının tarixində sadəcə ağrı və acı ilə xatırlanacaq gün deyil. 20 Yanvar Azərbaycan xalqının şan və şərəf günüdür. Xalq həmin gün üstünə şığıyan dəhşətli kabusa, sovet hərbçilərinin qorxunc qaragüruhuna qarşı sinəsini sipər etməyi, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı pozulan hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə sahibdir.

Təəssüf ki, həm SSRİ, həm də o vaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçıları və iştirakçıları olduqlarından nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə bu vəhşiliyi gizlətmək üçün əllərindən gələni etdilər. 20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı səfirliyinə gedərək xalqımızın kədərini bölüşməsi və qırmızı rejimin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

Uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləyən, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü olan, SSRİ rəhbərliyinin qəzəbinə tuş gələrək təqaüdə göndərilən Heydər Əliyev yenə də bütün məhrumiyyətlərə baxmayaraq o ağır günlərdə xalqının sırasında, onunla birgə, həmrəy oldu.

Heydər Əliyev bəyanatı ilə əslində Azərbaycanda gedən proseslərə qiymət verdi. Ulu Öndər SSRİ rəhbərliyinin Azərbaycana münasibətdə qətiyyən xoşniyyətli davranmadığını diqqətə çatdırmaqla yanaşı, həm də hakimiyyəti onda qınadı ki, Azərbaycana siyasi savadı olmayan, kölə xislətli insanın rəhbər təyin edilməsi xalqla hakimiyyət arasında dərin uçurumun yaranmasına səbəb olmuşdu. Bu uçurumun yaradılması da ilk növbədə mərkəzi hakimiyyətin maraqlarına xidmət edirdi və bununla belə gələcəkdə yaranacaq bütün problemlərin, konkret desək, 20 Yanvar faciəsinin baş verməsinə səbəb olmuşdu.

Bir müddət sonra - 1990-cı il noyabrın 21-də ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu hadisəyə siya-

si-hüquqi qiymət verdi. Bu tarixi sənəddə Azərbaycan xalqına qarşı törədilən siyasi və hərbi qəsdin cavabdehləri və günahkarları açıqlandı. Sovet hakimiyyətinin süqutundan və Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra bir müddət başları hakimiyyət uğrunda mübarizəyə qarışan Azərbaycan rəhbərləri xalqımıza qarşı törədilən bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində heç bir iş aparmadılar. Yalnız ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra - 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı.

Azərbaycanın azadlığı uğrunda canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı həmişə dövlətimizin başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncamlar və fərmanlar verib. Bundan başqa əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Ötən il əlil və şəhid ailələrinə yeni mənzillər verilib ki, onların arasında 20 Yanvar əlilləri və şəhidlərinin ailələri də var. 20 Yanvar faciəsində şəhid olan şəxslərin ailələrinə Prezident təqaüdü verilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir.

* * *

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldilər.

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın dövlət himni səsləndi.

* * *

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.

***20 yanvar 2016-cı il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÖLKƏ GƏNCLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞ KEÇİRMİŞDİR

Yanvarın 29-da Prezident İlham Əliyev Azərbaycan Gənclərinin Birinci Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşüb.

Dövlətimizin başçısı görüşdə nitq söyləyib.

### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

-Bir neçə gündən sonra biz birinci Gənclər Forumunun 20-ci ildönümünü qeyd edəcəyik. Biz bu əlamətdar tarix ərəfəsində görüşürük. 1996-cı il fevralın 2-də Prezident

Heydər Əliyevin təşəbbüsü ilə birinci Gənclər Forumu keçirilmişdir. Doğrudan da çox əlamətdar hadisə idi. Məhz o vaxt Azərbaycanın gənclər siyasətinin əsas istiqamətləri müəyyən olundu.

Ümumiyyətlə, 1996-cı il müstəqil tariximizin xüsusi ili idi. Çünki 1996-cı ildən sonra ölkəmizdə inkişaf dövrü başlamışdır. Sabitləşmə dövrü isə xalqın tələbi ilə Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsindən sonra başlamışdır. Ancaq 1996-cı ilə qədər ölkəmizdə gedən proseslər imkan vermirdi ki, ölkə inamla inkişaf dövrünə qədəm qoysun. Əgər statistik göstəricilərə nəzər salsaq görərik ki, 1996-cı ildən sonra iqtisadi artım başlamışdır, iqtisadiyyatda tənəzzül aradan götürülmüşdür, inflyasiyanın səviyyəsi aşağı düşməyə başlamışdır. Ümumiyyətlə, Azərbaycanın müstəqillik tarixinin ilk illəri ölkəmiz, xalqımız üçün çox ağır keçmişdir. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa edəndən sonra çox ağır vəziyyətlə üzləşmişdi. Daha doğrusu, bu vəziyyət ondan əvvəlki dövrdə yaranmışdır. Azərbaycana qarşı erməni iddiaları, torpaq iddiaları və Sovet hökumətinin bu məsələdə ermənilərin tərəfini tutması əlbəttə ki, ölkəmiz üçün böyük problemlər yaratmışdı. Hələ 1980-ci illərin sonlarında Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağda, Dağlıq Qarabağ muxtar vilayətində xüsusi komitə yaradılmışdır və faktiki olaraq Dağlıq Qarabağ Azərbaycan tabeçiliyindən çıxarılmışdır. Bu, əlbəttə ki, xalqımıza qarşı məkrli planların tərkib hissəsi, onun başlanğıcı idi.

Ondan sonra Sovet hökuməti, Sovet ordusu tərəfindən xalqımıza qarşı qanlı cinayət törədilmişdir. Sovet rəhbərliyinin bilavasitə tapşırığı ilə Qanlı Yanvar faciəsi törədilmişdir, günahsız insanlar şəhid olmuşlar. Bildiyiniz kimi, faciədən sonra Heydər Əliyev Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək öz etiraz səsini ucaltmışdır. Sovet hökumətini, Sovet rəhbərliyini, onların hərəkətlərini, cinayətlərini pisləmişdir. Deyə bilərəm ki, Sovet dövründə bu, çox nadir bir hadisə idi. Çünki hələ Sovet İttifaqının dağılmasına 2 il vaxt qalırdı. Sovet hökuməti kifayət qədər güclü idi. Heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı, kommunist partiyası dağılacaq. Ona görə, Heydər Əliyevin bu addımı çox cəsarətli addım idi. Əsl vətənpərvər, xalqını hər şeydən üstün tutan insanın addımı idi. Təbii ki, o, böyük siyasətçi kimi başa düşürdü ki, ona qarşı təzyiqlər, təqiblər başlanacaq. Belə də oldu. Hətta onun həbsi haqqında da qərar qəbul edilmişdir və o, məcbur olub Moskvadan Bakıya, özü də böyük çətinliklərlə gələ bilmişdi. Bakıda da ona qarşı təxribatlar planlaşdırılırdı. Ona görə Naxçıvana getdi və ondan sonrakı dövrünü siz tarixdən bilirsiniz. Naxçıvan camaatı, əhalisi onu müdafiə etdi. Ondan sonra isə o, Naxçıvanı müdafiə etdi. İmkan vermədi ki, Ermənistan Naxçıvanda da Dağlıq Qarabağda törətdiyi əməlləri törətsin.

Yəni, o illər doğrudan da ağır idi və gələcək inkişafımız üçün həlledici idi. 1991-ci ildə Sovet İttifaqı dağıdıldı, bütün respublikalara sanki tarixi bir şans verildi ki, öz dövlətini qursunlar. Əgər bu gün biz keçmiş müttəfiq respublikaların indiki vəziyyətinə nəzər salsaq görərik ki, bəzi ölkələr bu günə qədər də xarici təsirdən yaxasını qurtara bilməmişlər. Azərbaycan isə müstəqil dövlətdir, güclü dövlətdir, uğurlu inkişaf yolunu keçən dövlətdir.

Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçmişdir. Erməni işğalı, torpaqlarımızın itirilməsi, Dağlıq Qarabağdan azərbaycanlıların qovulması, 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi əlbəttə ki, bizim böyük faciəmizdir. 1993-cü ilin aprel ayında Kəlbəcərin erməni işğalı altına düşməsi nəticəsində faktiki olaraq, biz Dağlıq Qarabağı Ermənistanla ayıran bölgəni də itirdik və beləliklə, Dağlıq Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı. Bu da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində əlbəttə ki, çox mənfi rol oynamışdır.

Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Bu, bizim dədə-baba torpağımızdır. Heç vaxt Azərbaycan xalqı və dövləti bu vəziyyətlə barışmayacaq. Mən tam əminəm ki,

biz ərazi bütövlüyümüzü bərpa edəcəyik, azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar və Dağlıq Qarabağa, eyni zamanda, tarixi Azərbaycan torpaqlarına qayıdacaqlar. İndiki Ermənistan tarixi Azərbaycan torpağıdır. Əgər keçən əsrin əvvəlində dərc edilmiş xəritələrə baxsaq görərik ki, orada şəhərlərin adlarının böyük əksəriyyəti Azərbaycan mənşəlidir. Ermənistan-Azərbaycan müharibəsinin yaranması əlbəttə ki, bizim dövlətçiliyimizə, dövlətimizə, xalqımıza qarşı törədilən böyük cinayətdir. Ermənistanın əlbəttə ki, böyük havadarları var idi, bu gün də var. Siz bunu yaxşı bilirsiniz və məsələnin həll olunmamasının səbəbi məhz bundadır. Çünki Ermənistan təkbaşına deyil, onun böyük havadarları, dəstək verənləri var. Dünya gücləri, - təkcə dünya erməniliyindən söhbət getmir, - böyük dövlətlər müxtəlif səbəblərə görə Ermənistanın işğalçılıq siyasətini faktiki olaraq şərtləndirirlər. Ancaq mən bir daha demək istəyirəm və siz də gənclər kimi bunu bilməlisiniz ki, bizim əsas vəzifəmiz ərazi bütövlüyümüzün bərpasıdır, tarixi torpaqlarımıza qayıtmağımızdır, o cümlədən indiki Ermənistan ərazisinə Azərbaycan əhalisi qayıtmalıdır və qayıdacaq. Əlbəttə ki, bu, zaman aparacaq. Ancaq bu, bizim amalımızdır, müqəddəs amalımızdır. Biz hamımız bu amalla yaşamalıyıq. Bu gün Azərbaycanın uğurlu inkişafı, eyni zamanda, əhalimizin artması əminəm ki, buna gətirib çıxaracaq. Yəni, biz öz işimizlə hər gün bu günü yaxınlaşdırmalıyıq.

O vaxt problemlərimizdən biri də hakimiyyətdə olan adamların təcrübəsizliyi, bəzi hallarda xəyanəti olmuşdur. Çünki siz gənclər təbii ki, o illəri xatırlamırsınız. Əlbəttə ki, bizim nəsil - o illəri yaşamış insanlar kimi biz o dövrü yaxşı xatırlayırıq. Azərbaycan Xalq Cəbhəsi-Müsavat hakimiyyəti xalqımız üçün böyük bəla, böyük biabırçılıq idi. Birincisi, 1992-ci ildə onlar hakimiyyəti qanunsuz yollarla zəbt etmişdilər. O vaxt Dağlıq Qarabağda qanlı döyüşlər gedirdi. Ancaq onların əsas məqsədi nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək idi. Hətta bəziləri sevinirdilər ki, Şuşa, Laçın işğal altına düşüb və bu, tezliklə əvvəlki hakimiyyətin yıxılmasına gətirib çıxaracaqdır. O vaxtkı tarix çox acınacaqlıdır, çox ağırdır, o, tariximizin qara səhifələridir. Hakimiyyəti zəbt edəndən sonra onlar Azərbaycanı faktiki olaraq uçurum kənarına qoymuşdular. Birincisi, əgər o vaxt Azərbaycana rəhbərlik edənlərin şəxsiyyətlərinə nəzər salsaq, heç bir şərhsiz görərik ki, bu adamlar nəinki ölkəni, bir kolxozu da idarə edə bilməzlər. İndi gənclər təbii ki, bu tarixi, əlbəttə bilə bilməzlər. Amma baxın, kimlər Azərbaycanı idarə etmişlər. Parlamentin sədri kiçik elmi işçi idi, 11 il ərzində kiçik bir dissertasiyanı müdafiə edə bilməmişdir. Baş nazir, yumşaq desək, ticarətlə məşğul idi, kiçik ticarətlə, özü də o ticarət mövsümi xarakter daşıyır. Dövlət katibi komsomolçu idi - sonradan flyuger kimi əqidəsini dəyişmiş və xalq hərəkatına qoşulmuş birisi. Ondan sonrakı dövrdə də bir neçə dəfə əqidəsini dəyişmişdi. Hətta 1990-cı illərin ortalarında hakimiyyətlə sıx əlaqədə olaraq parlamentdə də təmsil olunurdu. Ancaq silahdaşları, yoldaşları onu yaxşı tanıyırlar. Ağır vaxtda öz liderinə xəyanət etmiş insan əlbəttə ki, yüksək keyfiyyətlərə malik ola bilməz. Müdafiə nazirinin Şuşanın ermənilərə verilməsində bilavasitə əli, günahı var. Daxili işlər naziri canlı efirdə bir müxalifət nümayəndəsini döymüşdür. Görün, hüquq mühafizə orqanının yüksək vəzifəli şəxsi veriliş gedə-gedə nə isə onun xoşuna gəlməyib, gedib studiyaya onu xalq qarşısında döymüşdür və buna görə heç bir məsuliyyət daşımamışdır. Xarici işlər naziri Fizika İnstitutunun kiçik elmi işçisi idi və belə önəmli vəzifəyə irəli sürülmüşdü. Heç bir xarici dil bilməyən, hətta rus dilində düz əməlli danışa bilməyən, yəni, yumşaq desək, statusuna adekvat olmayan bir adam idi.

Yəni, budur, Azərbaycan Xalq Cəbhəsi-Müsavat hakimiyyətinin öndə gedənləri. Bu adamlar ölkəni necə idarə edə bilərdilər?! Hakimiyyətə gələndən sonra dərhal onlar bir-biri ilə mübarizəyə başlamışlar. Bu mübarizə və eyni zamanda, xalq tərəfindən onlara olan inamsızlıq, mənfi münasibət nəticəsində cəmi 1 il hakimiyyətdə qala bilmişlər. On-

dan sonra onlar üçün vəziyyət gərginləşəndə - 1993-cü ilin yaz-yay aylarında onlar bütün vəzifələrdən gedərək bəziləri ölkəni tərk etmişlər, qaçıb gizlənmişlər və onların dırnaqarası cəsarəti artıq aradan getmişdir.

Bax bu ağır vəziyyətdə - 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlmişdir və xalqın dəstəyi, inamı hesabına vəziyyət sabitliyə doğru getməyə başlamışdır. Amma vəziyyət 1996-cı ilə qədər yenə də çox gərgin idi. 1994-cü il sentyabrın 20-də "Əsrin kontraktı" imzalanmışdır və bu gün də bizim inkişafımızın uğurlu olmasında çox mühüm rol oynayır. Bu, çox ciddi bir siyasi və iqtisadi addım idi. Bu, bəzi xarici ölkələri çox narahat etmişdir və iki həftə keçmədən Azərbaycanda dövlət çevrilişinə cəhd göstərilmişdir. Əlbəttə, Azərbaycan xalqı imkan vermədi ki, bu, baş tutsun. Amma bu, xalqımıza, dövlətimizə qarşı çox ciddi bir hərbi əməliyyat idi. 1995-ci ildə artıq digər qruplaşma - xarici oriyentasiyadan olan qruplaşma yenə də dövlət çevrilişinə cəhd göstərmişdi. O cəhd də yatırıldı. Yenə də xalq küçələrə, meydanlara çıxıb hakimiyyəti, Heydər Əliyevi müdafiə etmişdir. 1996-cı il artıq sabitləşmə ili kimi tarixdə qalır. Təsadüfi deyil ki, 1996-cı ilin əvvəlində Gənclər Forumu keçirilmişdir.

Mən bu tarixə nəyə görə qayıdıram? Çünki birincisi, bu, həqiqətdir. Dediyim sözlər və xüsusilə verdiyim qiymətlər ən diplomatik və yumşaq qiymətlərdir. Gənclər bunu bilməlidirlər ki, biz hansı vəziyyətdən çıxıb, hansı vəziyyətə gəlib çıxmışıq. Digər tərəfdən, əgər bu tarixi yaddan çıxarsaq, onda biz öz gələcək planlarımızı düzgün qura bilməyəcəyik.

Biz bu gün güclü dövlət qururuq. O dövlət ki dünya miqyasında böyük hörmətə malikdir. Biz çalışmalıyıq və çalışırıq ki, inkişafımız dayanıqlı olsun. Buna nail olmaq üçün sadəcə güclü iqtisadiyyata malik olmaq kifayət deyil. Dayanıqlı inkişaf üçün gərək gələcəkdə ölkəmizi idarə edəcək insanlar da daim dövlətçiliyə, inkişafa töhfə versinlər. Siz gənclər gələcəkdə ölkəmizi idarə edəcəksiniz. Ölkəmizin taleyi sizdən asılı olacaqdır. Ona görə sizin fəaliyyətiniz, baxışlarınız və fikirləriniz gələcəkdə ölkəmiz üçün həlledici olacaq.

Azərbaycan əsrlər boyu müstəqillikdən məhrum olmuşdur. Xalqımız müstəqillik arzuları ilə yaşamışdır. Bu, tarixi bir şansdır ki, bizə verildi. Sovet İttifaqının dağılmasını heç kim təsəvvür edə bilməzdi. Hətta böyük dövlətlərin analitik mərkəzlərində də belə ssenari nəzərdən keçirilmirdi. Bu fürsət bizə verildi və bu məsuliyyət bizim üzərimizdədir. Biz Azərbaycanda güclü, özünə güvənən, müstəqil dövlət qururuq. Bu dövlət əbədi yaşamalıdır və uğurla yaşamalıdır.

Ona görə son 20 il inkişaf, sabitlik dövrü olmuşdur. Bu dövr ərzində Azərbaycan dünya miqyasında, bir daha demək istəyirəm ki, çox güclü dövlətə çevrilmişdir. Təsadüfi deyil ki, 155 ölkə bizim namizədliyimizi BMT Təhlükəsizlik Şurasına seçilməyimiz zamanı dəstəkləmişdir. Güclü iqtisadiyyat yaratmışıq, güclü sosial siyasət aparılır, güclü ordu qurmuşuq. Hətta beynəlxalq hesablamalarda Azərbaycan Ordusu dünya miqyasında 40 ən qüdrətli ordu sırasındadır. Mən bunu dəfələrlə bəyan etmişəm ki, bizim ordumuz güclü ordular sırasındadır. Mənim təhlilimi beynəlxalq qurumlar da təsdiqləyir.

Biz bu illər ərzində enerji siyasətində tarixi layihələrə imza atdıq, Xəzər dənizini Aralıq dənizi ilə birləşdirdik. Hazırda "Cənub" qaz dəhlizini icra edirik. Bu da bizim təşəbbüsümüzdür. Özü də 1994-cü ildə "Əsrin kontraktı" imzalananda əlbəttə ki, bizim iqtisadi və siyasi vəziyyətimiz indiki kimi deyildi. Bizə hər tərəfdən təzyiqlər göstərilirdi və o vaxt iqtisadiyyatımız demək olar ki, dağılmış vəziyyətdə idi. Ancaq Heydər Əliyevin güclü iradəsi, cəsarəti və gələcəyə olan baxışları bunu mümkün etmişdir. Biz bu illərdə iqtisadi şaxələndirmə ilə məşğul olmuşuq. Amma bu sahə ilə yenə də məşğul olmaq lazımdır. Ancaq bir çox məsələləri həll edə bilmişik. Azərbaycan indi kosmik dövlətə çevrilibdir. Elmin, təhsilin inkişafı, infrastruktur layihələrinin icrası - bütün bunlar ölkəmizi gücləndirir.

Hesab edirəm ki, bu gün ölkəmiz üçün yeni dövr başlayır. Əminəm ki, bu dövr də uğurlu olacaqdır. Bu, postneft dövrüdür. Postneft dövrü bizim hesablamalarımıza görə 2040-cı ildən sonra başlamalı idi. Ancaq neftin qiymətinin kəskin düşməsi nəticəsində artıq biz postneft dövründə yaşayırıq.

Əlbəttə ki, iqtisadi sahədə ciddi islahatların aparılmasına çox böyük ehtiyac var. Bu islahatlar başlayıb və dərinləşəcək. Biz çalışmalıyıq və əminəm, buna nail olacağıq ki, Azərbaycan iqtisadiyyatı inkişaf etmiş ölkələrin iqtisadiyyatlarından fərqlənməsin, o səviyyədə olsun. Çünki gərək bütün mexanizmlər, bütün meyarlar bu tələbləri ehtiva etsin.

Bizim çox güclü intellektual potensialımız var, coğrafi vəziyyətimiz çox əlverişlidir. Bu gün Azərbaycan tranzit ölkə kimi artıq dünya miqyasında böyük hörmətə malikdir. Siz də yəqin izləyirsiniz ki, tranzit yollar artıq Azərbaycandan keçir. Digər üstünlüklərimiz var. Azərbaycanda savadlılıq 100 faizdir. Bu da bizim böyük sərvətimizdir. Ona görə mən ölkəmizin uğurlu inkişafına nəinki inanıram, əminəm ki, belə də olacaq.

Növbəti 2-3 il ərzində, xüsusilə iqtisadi sahədə yeni iqtisadi model artıq işləməyə başlayacaqdır. Birinci mərhələdə, 1990-cı illərin əvvəllərində biz tənəzzülün qabağını almalı idik və almışıq. Bundan sonra Heydər Əliyev neft strategiyasının icrası nəticəsində böyük layihələrə nail ola bilmişik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum bizə çox böyük imkanlar yaratdı. Neft Fondu yaradıldı. Azərbaycan böyük həcmdə nefti ixrac etməyə və gəlir əldə etməyə başlamışdır. Biz gəliri də ölkəmizin inkişafına yönəltdik. Bölgələrdə, Bakıda yeni infrastruktur layihələri həyata keçirildi, məktəb binaları, xəstəxanalar tikildi, yəni, infrastruktur tamamilə yeniləndi. Hələ ki, görüləsi işlər çoxdur. Amma infrastruktur layihələrinin böyük hissəsi artıq reallaşıb. Buna biz vəsait sərf etdik ki, gələcəkdə neftdən asılılığı daha da azaldaq.

İndiki dövr isə inkişaf etmiş ölkələrdəki kimi, daha çox innovasiya, intellektual inkişaf dövrü olacaq. Onlar nəyin hesabına inkişaf edirlər? İnkişaf etmiş ölkələrdə, onların böyük əksəriyyətində neft-qaz yoxdur. Onların böyük şirkətləri var. Onlar gedib xarici ölkələrdə neft-qaz hasil edirlər və öz büdcələrinə vergi ödəyirlər. Onlar nəyin hesabına inkişaf edirlər? Ancaq texnologiya, bilik və savad hesabına.

Bu gün əlbəttə ki, dünyada bizdən qat-qat çox neft hasil edən, ixrac edən ölkələr var. Ancaq onlar da texnologiyaları Qərbdən alırlar. Bu, bu günün reallıqlarıdır. Əlbəttə, mən çox istərdim ki, Azərbaycanda alimlər ixtiralar ortaya qoysunlar, dünya elminə töhfələr versinlər. Əminəm ki, bu, olacaq.

Amma indiki dövrdə biz Azərbaycana qabaqcıl texnologiyaları gətirməliyik və kadr potensialı da hazırlanmalıdır ki, gələcəkdə texnoloji tərəqqidən kənarda qalmayaq. Bundan sonrakı dövrdə həm siyasi müstəvidə, həm də iqtisadi və hərbi sahələrdə texnologiyalar, bilik, savad hər şeyi həll edəcək. Bu gün artıq hərbi sahədə yeni texnologiyalar hər şeyi dəyişir. O qədər də böyük orduya malik olmayan ölkələr bəlkə də hərbi cəhətdən ən güclü ölkələrə çevrilir. Ona görə biz bu sahəni daim diqqət mərkəzində saxlamalıyıq. Ona görə Azərbaycanda elmin inkişafına, yeni texnologiyaların, İKT-nin, kosmik sənayenin inkişafına böyük diqqət verilir. Təkcə ona görə yox ki, biz bu sahəni yaradaq və onunla öyünək. Ona görə ki, bu, intellektual inkişafa təkan verir.

Xüsusilə bu, gənclərə aiddir. Burada təhsil, bilik ön plandadır. Yəqin, biz hamımız və balaca uşaqlar, tələbələr də tez-tez eşidirlər ki, oxumaq, təhsil almaq lazımdır. Bəziləri buna öyrəşir, amma doğrudan da budur əsas. Bu olmasa, ölkələr inkişaf edə bilməyəcək. Neftlə, qazla zəngin olan ölkələr bundan sonra da texnologiyalar alacaqlar. Xarici şirkətlər gəlib onlar üçün infrastruktur yaradacaqlar və s. Amma nə vaxtsa bu neft, qaz qurtaracaq. Ondan sonra nə olacaq?!

Biz gələcəyə bax, bu prizmadan yanaşmalıyıq. Uzunmüddətli strategiyamızı müəyyən edirik, edəcəyik. Neftdən asılılıq tamamilə aradan götürülməlidir. Biz iqtisadi isla-

hatlar, sahibkarlığın inkişafı, şəffaflığın hesabına buna nail oluruq və olacağıq. Gənclər cəmiyyətimizin fəal üzvləri kimi əlbəttə ki, bütün bu işlərdə fəal rol oynamalıdırlar. Mən buna əminəm ki, belə də olacaq və gənclərdən fəallıq gözləyirəm. Cəmiyyəti narahat edən, incidən məsələlərin ortaya çıxmasında gənclərin də böyük rolu var. Biz çalışmalıyıq ki, bütün qüsurları aradan götürək və hər sahədə ədalət tam təmin edilsin. Çünki ədalət olmasa, inkişaf ola bilməz. Ədalət ailədə də, məişətdə də, siyasətdə də, hər sahədə olmalıdır.

Belə olan halda ölkəmiz uzunmüddətli inkişafa nail olacaq. Mən demişəm, bizim müstəqilliyimiz əbədidir. Amma biz gərək müstəqilliyi möhkəmləndirək. O qədər müstəqil ölkə var ki, müstəqil siyasət apara bilmir. Yəni, müstəqillik şərti xarakter daşıyır. Biz müstəqil siyasət aparırıq. Buna görə bir çox hallarda hədəfə çevrilirik. Bizə qarşı olan təzyiqlər, qarayaxma kampaniyalarının əsas səbəbi də odur ki, biz həmişə özümüzü ləyaqətlə aparırıq. Bütün auditoriyalarda, açıq və qapalı görüşlərdə sözümüzü deyirik, xalqımızın, dövlətimizin maraqlarını müdafiə edirik. Bəzilərinin bundan xoşu gəlmir. Ona görə müxtəlif yollarla bizə təzyiq etməyə başlayırlar. O təzyiq mexanizmləri də çox primitivdir. Burada da hesab edirəm ki, bu təzyiqləri edənlər bir balaca gərək innovasiyalara şərait yaratsınlar, yeni bir üsul icad etsinlər. Çünki eyni, şablon ittihamlara artıq heç kim inanmır.

Amma bu, bizim iradəmizə əlbəttə ki, təsir edə bilməz. Çünki mən həmişə bu fikirdə olmuşam: əgər hesab edirsən ki, sən düzgün yoldasan, gərək bu yola davam edəsən. Əgər şübhən varsa soruş. Əgər nəyisə bilmirsənsə bunu etmə. Bax, budur mənim yanaşmam və bilirəm ki, biz düzgün yoldayıq. Azərbaycan reallıqları bunu göstərir. Bir çox məsələlərdə Azərbaycan başqa ölkələr üçün nümunədir və bu, bizim töhfəmizdir.

Bu il Azərbaycanda Sivilizasiyalar Alyansının Qlobal Forumu keçiriləcək. Çox mötəbər, dünya miqyaslı beynəlxalq tədbirdir. BMT-nin himayəsi altında keçirilən tədbirdir. Nəyə görə? Ona görə ki, biz burada artıq bir neçə ildir buna oxşar tədbirləri keçirmişik. Ona görə ki, bu sahədə Azərbaycan doğrudan da dünya üçün nümunədir və bu, reallıqdır. Bu, cəmiyyətimizin bugünkü statusudur. Həm dövlət siyasətidir, həm cəmiyyətin sifarişidir. Ona görə biz bütün istiqamətlər üzrə fəal işləyəcəyik. İslahatları dərinləşdirəcəyik. O ki qaldı xarici siyasət məsələlərinə, burada əlbəttə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi bizim əsas prioritetimizdir. Əfsuslar olsun ki, bu münaqişə öz həllini tapmır. Mən həmişə demişəm ki, əgər müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə olsaydı, heç vaxt Dağlıq Qarabağ münaqişəsi yaranmazdı. Çünki mən özüm şəxsən yaxşı xatırlayıram ki, 1980-ci illərdə Heydər Əliyev Dağlıq Qarabağa, Şuşaya, Xankəndiyə gedəndə onu o yerli əhali necə qarşılayırdı - həm azərbaycanlılar, həm də ermənilər. Böyük hörmətlə, böyük sevgi ilə, gurultulu alqışlarla və bu, təbii idi. Çünki mən də o səfərlərdə atamla bərabər olmuşam və görmüşəm ki, doğrudan da orada qarşıdurma üçün heç bir əsas yox idi. Xatırlayıram, Şuşa şəhərində Vaqif məqbərəsinin açılışında qarlı bir hava idi. Orada erməni və Azərbaycan şairlərinin çıxışları olmuşdu. Erməni şairləri Azərbaycan dilində şeir söyləyirdilər. Özləri yazdıqları şeirləri söyləyirdilər. Yəni, doğrudan da heç kimin ağlına gələ bilməzdi ki, bu süni münaqişə yarana bilər. Ancaq yenə də demək istəyirəm ki, bu, xalqımıza qarsı törədilən böyük təxribat idi. Bunu erməni millətçiləri və sovet hökuməti törətdi.

İndi bu məsələni həll etmək üçün bilirsiniz ki, biz çox çalışırıq. Ancaq əfsuslar olsun ki, Ermənistan tərəfi vaxtı uzatmağa çalışır. Çox təəssüf edirəm ki, bu məsələ ilə bilavasitə məşğul olmalı olan Minsk qrupunun həmsədrləri münaqişənin həllinə yox, dondurulmasına çalışırlar. Onların bugünkü fəaliyyəti tamamilə mənasızdır. Onlar nəinki Ermənistana təzyiq etmirlər, hətta Ermənistanı mümkün olan problemlərdən qoruyurlar. Baxın, Avropa Şurasında son dinləmələrdə onların təxribatçı fəaliyyəti nəyə gətirib çıxardı. Sual olunur: onlar özlərini nə sayırlar? Yəni, bütün beynəlxalq təşkilatlara təzyiqmi edəcəklər? Bütün

beynəlxalq təşkilatlara göstərişmi verəcəklər? İndi Avropa Şurası bu məsələni gündəliyə çıxarır. Məruzəçi təyin edilibdir. Avropa Şurası beynəlxalq təşkilatdır. Düzdür, Azərbaycan bu təşkilatla əlaqələri 15 ildir ki, qurubdur və münasibətlərdə heç də hər zaman problemsiz dövr olmamışdır. Ancaq Avropa Şurası ilk dəfə olaraq 2005-ci ildə Ermənistanın işğalını pisləyən qətnamə qəbul etmişdir. Həmin sənəddə göstərilir ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edib. Əlbəttə, orada müxtəlif adamlar var. Anti-Azərbaycan mövqeyində adamlar var, islamofob adamlar kifayət qədər çoxdur. Ümumiyyətlə, Ermənistanla həmrəy olanlar, erməni lobbisi ilə bağlı olanlar var. Mən orada üzv olmuşam, bunu bilirəm. Ancaq bu təşkilat indi bu məsələni gündəliyə çıxarıb. Minsk qrupunun həmsədrləri onlara təzyiq edirlər ki, bu məsələyə baxılmasın. Məhz bu təxribatçı fəaliyyətə görə bizə 4 səs çatmadı ki, bu qətnamə qəbul olunsun.

Ona görə Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə hansı qiymət vermək olar? Ancaq mənfi. Mən onların üzünə də demişəm və deyirəm. Bu gün bunu açıq deyirəm ki, ictimaiyyət də bilsin. Məsələnin həll olunmamasında onların ən böyük rolu var. Nə üçün? Çünki ikili standartlar var. Səbəb nədir? Soruşanda cavab yoxdur. O da bir taktikadır. Nə vaxt ki, sual sərf etmir, cavab vermirlər. Amma bu cavabı biz bilirik - ikili standartlar. Əlbəttə ki, burada siz də bilməlisiniz, Azərbaycan xalqı da bilməlidir. Daha doğrusu bilir, amma mən bunu deyəcəyəm. Burada din amili rol oynayır. Müsəlman olduğumuza görə bizə ikili standartlar münasibəti göstərilir. Xüsusilə indiki dövrdə ki, Avropada islamofobiya pik həddinə çatıb.

İndi o müharibədən əziyyət çəkənlər Avropaya pənah gətirirlər. Orada onlarla necə rəftar edirlər? Qəfəsə salırlar. Qəfəsin içinə ərzaq tullayırlar. Elə bil ki, onları zooparkda qəfəsə salıblar. Budurmu dəyərlər?! Haradadır mərhəmət, insan haqları, tolerantlıq? Ancaq şüar üçün. Ona görə bu, dünyada gedən real proseslərdir. Avropaya nə qədər çox miqrant üz tutur, Avropada radikal qüvvələrin gücü o qədər də çox artır. Əgər Avropanın aparıcı ölkələrində keçirilmiş seçkilərin nəticələrinə nəzər salsanız, görərsiniz ki, 10 il ərzində radikal islamofob partiyaların faizi nə qədər artıb. Bəlkə də iki dəfə və bu, meyildir. Bu gün onlar əlbəttə ki, siyasətdə söz sahibi deyillər. Amma bu, meyildir. Bu meyil nəyə gətirib çıxaracaq? Ona gətirib çıxaracaq ki, bəlkə də 10 ildən, 15 ildən sonra onlar hakimiyyətə gələcəklər. Onda necə olacaq? Onda müsəlmanlara artıq rəsmi mövqe necə olacaq? Belə olan halda bizim orada yerimiz varmı?

Biz dünyəvi, tolerant ölkəyik, tolerant xalqıq. Biz istəyirik ki, bütün millətlər bir yerdə olsunlar. Biz ona görə bu forumları keçiririk. Bu il "Multikulturalizm ili" elan olunmuşdur ki, sivilizasiyaları, dinləri birləşdirək. Yenə də demək istəyirəm ki, Azərbaycan nümunədir. Amma demək olar ki, biz bu dünyada təkik. Ona görə inteqrasiya məsələsi müzakirə olunanda biz bu reallığı daim nəzərə almalıyıq.

Biz Avropa İttifaqı ilə Assosiasiya Sazişini imzalamadıq. Bunun bir neçə səbəbi var idi. Birinci səbəb, ona görə ki, bizim təkidimizə baxmayaraq, o sənəddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqe nəzərdə tutulmamışdır. Mən də dedim ki, əgər bu, olmasa biz Assosiasiya Sazişinə qol qoymayacağıq. Hesab edirdilər ki, biz burada, necə deyərlər, şantaj edirik. Amma bu, bizim mövqeyimizdir. Belə də oldu. Başqa səbəblər də var idi. Amma əsas səbəb bu idi. Bu, ikili standartlardır. Bu, dözülməzdir.

Əgər bu gün ikili standartlar dünya miqyasında, dünya siyasətində bir meyardırsa, onda onu bəyan etsinlər. Onda riyakarlığa son qoyulsun. Deməsinlər ki, biz demokratiyanın, bərabərliyin tərəfdarıyıq, bütün xalqlar bərabərdir, insan haqlarının tərəfdarıyıq. Bəs 1 milyon Azərbaycan vətəndaşının insan haqları barədə onlar heç düşünürlərmi? Yox, bu, onları maraqlandırmır! Real vəziyyət bundan ibarətdir. Biz əlbəttə ki, real dünyada yaşayırıq. Bunu nəzərə almalıyıq. Öz siyasətimizdə də nəzərə alırıq. Ancaq, eyni zamanda,

öz sözümüzü həmişə demişik və deyəcəyik. Bu təzyiqlərin səbəblərindən biri də budur. Bu, nəyi göstərir? Birincisi onu göstərir ki, dünyada ədalət yoxdur. İkincisi onu göstərir ki, beynəlxalq hüquq normaları dünyada kobudcasına tapdalanır. Elə bil ki, bu normalar kiçik ölkələr üçün yazılıbdır. Böyük ölkələr bunlara məhəl qoymurlar, bu normaları istədikləri kimi yozurlar. Nə vaxt sərf edir ərazi bütövlüyü, nə vaxt sərf edir öz müqəddəratını təyinetmə prinsipi və digər məsələlər də, necə istəyirlər elə də yozurlar. Beynəlxalq hüququ pozan ölkələrə qarşı təzyiq mexanizmi yoxdur. Ancaq kiçik ölkələrə qarşı belə addımlar atılır. Ona görə, o qədər də böyük olmayan ölkə belə vəziyyətdə nə etməlidir, ilk növbədə öz daxili resurslarına arxalanmalıdır. İşlər elə getməlidir ki, ölkə güclənsin, insanlar daha da yaxşı yaşasınlar və təhlükəsizlik təmin edilsin. Biz təhlükəsizliyi özümüz təmin edirik. Azərbaycanda insanlar təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşayırlar. Bu gün Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır.

Gənclər isə əlbəttə ki, cəmiyyətimizin fəal üzvləri kimi ölkəmizin güclənməsində əsas rol oynayırlar. Mən gənclərin fəaliyyətini yüksək qiymətləndirirəm. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində mən görürəm ki, bu gün böyüyən gənclər xalqa, dövlətə bağlıdırlar. Bu, çox önəmlidir. Gənclər gərək milli ruhda tərbiyə alsınlar. Biz milli dəyərlərimizi hər şeydən üstün tutmalıyıq. Hətta sovet dövründə dilimizi, adət-ənələrimizi, bayramlarımızı qorumuşuq. Yadımdadır, Moskvada oxuyanda Novruz bayramında bufetə şəkərbura, paxlava, səməni gətirəndə məni orada tənqid edir, tənbeh edirdilər ki, Əliyev burada dini bayramı qeyd edir. Yəni, o da olub. Amma qorumuşuq və müdafiə etmişik. Baxmayaraq ki, Novruz bayramı dini bayram deyil, indiki şəraitdə əlbəttə, biz onu qorumalıyıq. Çünki indi başqa risklər, başqa çağırışlar var - qloballaşma, digər kənar təsirlər. Bəzi xarici dairələr gənclər arasında iş aparırlar və aydındır ki, bunun məqsədi nədir. Məqsəd özləri üçün dayaq yaratmaqdır. O dayaq ki, nə vaxtsa işə salına bilər. Amma gənclər milli ruhda böyüyəndə əlbəttə ki, xarici təsirin heç bir əhəmiyyəti olmayacaq. Ona görə vətənpərvərliyi, milli dəyərləri, ənənələri qorumalıyıq və biz qoruyuruq. Əsas budur. Bugünkü Azərbaycan iqtidarı bu sahəyə çox böyük diqqət göstərir. Elə etməliyik ki, bu, davamlı olsun. Bizdən sonra hakimiyyətə gələn nəsil də bu amalla yaşasın - dövlətçilik, milli maraqlar, azərbaycançılıq, ləyaqət və güclü dövlət.

Mən qarşıdan gələn tarix münasibətilə sizi bir daha ürəkdən təbrik etmək istəyirəm. Əminəm ki, siz bundan sonra da, - burada əyləşənlər gəncliyin seçilmiş nümayəndələridir, - ölkəmizin inkişafına xidmət edəcəksiniz, öz töhfənizi verəcəksiniz.

* * *

Sonra Azərbaycanda gənclər siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətlərinə görə bir qrup gəncə Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomları təqdim olundu.

* * *

**Gənclər və İdman Nazirliyi yanında Gənclərlə İş üzrə İctimai Şuranın sədri Nurəddin MEHDİYEV** gənclərə göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə təşəkkür edərək dedi:

-Möhtərəm cənab Prezident, çox sağ olun. Bu təltifə görə dərin minnətdarlığımızı bildiririk. Azərbaycan gəncliyi, Azərbaycan gənclər təşkilatları, gənclər hərəkatının nümayəndələri hər zaman Sizin diqqət və qayğınızı hiss etmiş, hər zaman bu diqqət və qayğı ilə əhatə olunmuşlar. Azərbaycan gəncləri, gənclər təşkilatları bu etimada görə Sizə minnətdarlığını bildirir. Biz çalışmışıq ki, bu etimadı həmişə doğruldaq. Biz əzmlə çalışacağıq ki, bu etimadı bundan sonra da doğruldaq. Hörmətli cənab Prezident, Sizə bir daha minnətdarıq.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**"ASAN Könüllüləri" Gənclər Təşkilatı İctimai Birliyinin sədri Fərid SADIXLI** çıxış edərək dedi:

-Möhtərəm cənab Prezident, bu gün dəyərli vaxtınızı bizə ayırdığınız üçün Sizə təşəkkür edirik. Bu gün Azərbaycanda 300-dən çox gənclər təşkilatı fəaliyyət göstərir və onlar 30-dan çox beynəlxalq platformada təmsil olunublar. Bundan savayı, diqqətinizə çatdırmaq istəyərdik ki, əksəriyyəti könüllü əsaslarla fəaliyyət göstərir. Sizin də qeyd etdiyiniz kimi, könüllülük nəcib bir fəaliyyətdir və bu gün könüllülər cəmiyyətimizin artıq ayrılmaz bir parçasına çevrilmişdir. Könüllülük hərəkat səviyyəsindən institut səviyyəsinə qədər yüksəlmişdir. Eyni zamanda, biz bunu "Bakı-2015" ilk Avropa Oyunları vaxtı da müşahidə etmişdik. Bundan başqa, bu gün Bakı şəhərində, həmçinin bir sıra regionlarda 6 mindən çox gənci əhatə edən "ASAN" könüllülərini, həmçinin "SABAH" qrupları könüllülərini də qeyd etmək istərdim.

Möhtərəm cənab Prezident, burada gənclər sektorunu təmsil etdiyimə görə icazənizlə bir sıra təkliflərimi bildirərdim. İlk növbədə Gənclər Evi məsələsinə toxunmaq istəyərdik. Bizdə ən yüksək standartlara cavab verən gənclər evləri mövcuddur və Sizin də çıxışınızda qeyd etdiyiniz kimi, gənclər vətənpərvər, bilikli və milli ənənələr ruhunda tərbiyə olunmalıdırlar. Məhz Gənclər evləri gənclərimizin məşğulluq məsələsinin həllində böyük rol oynaya bilər. Bu məsələdə də normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədəuyğun olardı. İkincisi, təhsilimizlə bağlı da bir sıra təkliflər irəli sürmək istəyərdik. Sizin də çıxışınızda qeyd etdiyiniz kimi, postneft erasına daxil olduq və artıq iqtisadiyyatımız daha da şaxələnəcək. Bundan başqa, sırf dar ixtisaslaşmış kadrlara ehtiyac olduğundan bu gün əksər Azərbaycan universitetlərində fakültələr ümumi sahələri əhatə edir, daha dar ixtisaslaşmış fakültələrə də ehtiyac vardır. Həmçinin peşə məktəblərini də diqqətinizə çatdırmaq istəyərdik. Çünki vacib deyil ki, hamı ali təhsil alsın. Bundan öncə Sizin qeyd etdiyiniz kimi, regionlarda xalçaçılıq və digər sənətkarlıq növləri inkişaf etdirilməlidir. Bunun üçün peşə məktəbləri mühüm rol oynaya bilər.

Ümumiyyətlə, son illər ərzində könüllülük fəaliyyəti o səviyyəyə çatmışdır ki, artıq nəinki Bakını, eyni zamanda, regionları da əhatə etmişdir. Artıq biz bir neçə qurumun məhz könüllülük fəaliyyətini əhatə etdiyini görə bilərik. Bunların hamısı Sizin siyasətinizin, diqqət və qayğınızın nəticəsidir. Həmçinin ADA Universitetinin sonuncu kurs tələbəsi olaraq mənim kimi bir çox tələbəni də maraqlandıran bir məsələyə də toxunmaq istərdim. Xaricdə təhsil proqramının perspektivləri haqqında Sizin fikirlərinizi bilmək istərdik.

Bu gün bizi qəbul etdiyinizə görə Sizə bir daha təşəkkür etmək istərdik. Bu, bizim üçün həm böyük qürurverici amildir və eyni zamanda, böyük şərəfdir.

Çox sağ olun, diqqətinizə görə minnətdaram.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, çox yaxşı. Bu təklifləri mən bəyənirəm. Hesab edirəm ki, Gənclər və İdman Nazirliyi bu təklifləri irəli sürsün. Gənclər evlərinə gəldikdə, bildiyiniz kimi indi bütün regionlarda gənclər evləri yaradılır. Mən də regionlarda olarkən mütləq oraya baş çəkirəm, bir çox açılışlarda da iştirak etmişəm. Əsas məsələ ondan ibarətdir ki, Gənclər evləri işləsin və gəncləri cəlb etsin. Əlbəttə ki, Bakıda da Gənclər evləri yaradılmalıdır. Hesab edirəm ki, bu, çox müsbət addımdır.

Könüllülər hərəkatına gəldikdə, bu, bizim üçün nisbətən yeni bir hərəkatdır. Amma qısa müddət ərzində geniş vüsət almışdır. "ASAN xidmət"dən başlayan könüllülər sonra Avropa Oyunlarında çox fəal işlədilər. Bu hərəkatın çox böyük gələcəyi var. Həm kadrların hazırlanması, eyni zamanda, cəmiyyətdə müsbət meyillərin gücləndirilməsi üçün könüllülər institutu çox mühüm funksiya daşıyır. Çünki bu, insanlara və dövlətə ürəkdən gələn, təmənnasız kömək etmək hərəkatıdır. Mən bunu belə qəbul edirəm və şadam ki,

artıq Azərbaycanda könüllülər institutu formalaşıb. Hesab edirəm ki, bunun böyük gələcəyi olacaqdır.

O ki qaldı gənclərin xaricdə təhsilinə, əlbəttə, mənim buna münasibətim çox müsbətdir. Mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl Dövlət Neft Fondundan xüsusi vəsait ayrılmışdır ki, biz gəncləri xarici ölkələrin aparıcı ali məktəblərində oxudaq.

Bildiyiniz kimi, Dövlət Neft Fondunun xətti ilə ancaq ölkəmiz üçün strateji əhəmiyyətli layihələr icra edilir. Onların içində birinci yerdə məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması layihələridir. Son illər ərzində Dövlət Neft Fondunun xətti ilə köçkünlər üçün 90-a yaxın qəsəbə tikilmişdir. Həmçinin strateji infrastruktur layihələri, o cümlədən Taxtakörpü su anbarı, Samur-Abşeron kanalı, Bakı-Tbilisi-Qars dəmir yolu, ən müasir qazma qurğusunun inşası, "Cənub" qaz dəhlizinin yaradılması - bax, bu layihələr bilavasitə Dövlət Neft Fondunun xətti ilə icra edilir. O cümlədən xaricdə tələbələrin oxuması da bu sıradadır. Yəni, bu, bizim üçün prioritetdir. Bu, birinci mərhələ idi və əlbəttə ki, bu mərhələ davam edəcək. Keçən il və bu il bu məqsədlər üçün təqribən 40 milyon manat vəsait nəzərdə tutulub. Ancaq əlbəttə, mən çox istərdim, Azərbaycanda təhsilin səviyyəsi elə olsun ki, buna ehtiyac qalmasın. Ona görə xarici ali məktəblərin Azərbaycanda filiallarının açılması prosesi də başlamışdır. Lomonosov adına Moskva Dövlət Universiteti, Seçenov adına Moskva Dövlət Tibb Universiteti, indi Fransa ilə Təhsil Nazirliyi əməkdaşlıq haqqında saziş imzalayıb və birgə ali məktəb yaradılacaqdır. Biz çox istəyirik, dünyanın aparıcı ali məktəbləri Azərbaycanda filiallar açsınlar ki, daha xaricə getməyə ehtiyac qalmasın.

Siz peşə ixtisası üzrə çox mühüm məsələyə toxundunuz. Artıq həm Təhsil Nazirliyinə, həm İqtisadiyyat Nazirliyinə müvafiq göstərişlər verilmişdir ki, peşə təhsili Azərbaycanda geniş vüsət almalıdır. Çünki bu gün bizə daha çox mühəndis, müxtəlif peşə sahibləri lazımdır. Peşə təhsili elə qurulmalıdır ki, ümumi iqtisadi inkişafımızla uzlaşsın. Çünki biz iqtisadi inkişafımızı, o cümlədən sənaye inkişafımızı planlaşdırırıq. Əlbəttə, dövlət müəyyənləşdirir ki, hansı sahələr inkişaf edəcək və beləliklə, bizə hansı sahələrdə daha çox mütəxəssis lazım olacaq. Bu gün bizdə bəzi hallarda insanların bir hissəsi işsizdir, amma, eyni zamanda, çoxlu vakansiyalar var. Sadəcə olaraq o vakansiyaları doldurmaq üçün bəzi insanlarda peşə qabiliyyəti çatmır. Ona görə peşə təhsilinin inkişafı gələcək illər üçün prioritet olacaqdır və yeni peşə məktəblərinin tikilməsi üçün dövlət büdcəsindən vəsait ayrılacaqdır.

**Nazir Azad RƏHİMOV:** Cənab Prezident, Sizin tapşırığınıza əsasən Xəzər, Suraxanı, Sabunçu, Qaradağ rayonlarında Gənclər evləri açılıbdır və bu il də Binəqədi rayonunda açılacaq. Bu Gənclər evlərində hər cür şərait yaradılıb, səslənən təkliflərə əsasən orada bu işləri aparmaq olar.

**Prezident İlham ƏLİYEV**: İndi bizim neçə rayonumuzda artıq Gənclər evi var?

**Nazir Azad RƏHİMOV:** 31-i var, 32-cisi də olacaq.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Hər rayonda olmalıdır.

**"Tələbələrin İqtisadiyyat və Menecmentlik üzrə Assosiasiyası" İctimai Birliyinin sədri Məryəm MƏCİDOVA** qeyri-formal təhsilin inkişafı və intellektual oyunların keçirilməsi ilə bağlı fikirlərini bölüşərək dedi:

-Cənab Prezident, təşkilatımız Azərbaycanda son 10 ildir fəaliyyət göstərir və əsas məqsədimiz gənclər arasında menecment və eyni zamanda, idarəetmə qabiliyyətlərinin artırılmasıdır. Biz bunu beynəlxalq mübadilələr proqramında edirik. Çünki bildiyiniz kimi, bu, beynəlxalq təşkilatdır, 67 ildir bütün dünyada fəaliyyət göstərir. 2025-ci il gənclər siyasətinin strategiyalarından biridir. Məqsədimiz beynəlxalq arenada Azərbaycanın gənc dostlarının sayının artırılması, eyni zamanda, mədəniyyətinin, tarixinin tanıdılmasıdır.

Azərbaycan son 15 ildə müxtəlif beynəlxalq qurumlara üzv olub və onlardan biri də BMT-dir. Bu təşkilat 2015-ci ilin sentyabr ayında dayanıqlı inkişaf məqsədlərini çağırış edib. Üzv ölkə kimi fəxr edirik ki, biz 2017-ci ilin məqsədləri üzərində də çalışacağıq. Məqsədlərdən biri keyfiyyətli təhsildir. Azərbaycanda, Sizin qeyd etdiyiniz kimi, təhsil sahəsində inkişaf gedib. Mənim təklifim qeyri-formal təhsil sahəsində inkişafın artırılmasıdır. Yəni, məsələn, intellektual oyunların və digər bu kimi forumların Azərbaycanda keçirilməsidir. Bilirsiniz, artıq Gənclər və İdman Nazirliyi tərəfindən "Xəmsə" intellektual təşkilatı yaradılıb. Rusdilli əhalisi olan 15 ölkədə artıq bu oyunlar keçirilir. Bunlar onlayn rejimdə həyata keçirilir və bu, həm büdcə, həm də Azərbaycanın tanınması baxımından bilavasitə əhəmiyyətlidir. Məsələn, gələcək illərdə sırf intellektual forumların Azərbaycanda keçirilməsinə necə baxırsınız?

**Prezident İlham Əliyev:** Çox yaxşı, çox müsbət baxıram. Mən hesab edirəm ki, bu, bizim ümumi intellektual potensialımızı göstərir. İntellektual oyunların Azərbaycanda keçirilməsi və xüsusilə televiziya vasitəsilə göstərilməsi çox böyük effekt verir. Misal üçün, "Nə? Harada? Nə vaxt?", "Xəmsə", ondan sonra "Brain Ring" - onları mən indi vaxtaşırı televiziyada izləyirəm. Bundan başqa, "Parlaq zəka", "Mən azərbaycanlıyam". Deyə bilərəm ki, bir çox kanallarda intellektual oyunlar keçirilir. Bir çox yaxşı verilişlər var. Onlar həm intellektual səviyyəni qaldırır, eyni zamanda, vətənpərvərlik hisslərini artırır. Ölkəmizin tarixi haqqında həm oyunlarda iştirak edənlər, həm də ki, geniş auditoriya üçün maraqlı məqamları təqdim edir. Hesab edirəm ki, Azərbaycanda bir çox intellektual oyunların beynəlxalq yarışları da keçirilə bilər. Mən bunu dəstəkləyirəm, siz də keçirirsiniz.

**Nazir Azad RƏHİMOV:** Daim olur, davamı da olacaq.

**Prezident İlham ƏLİYEV**: Çox yaxşı.

**"BMT-nin modeli" layihəsinin əlaqələndiricisi Elmira MƏMMƏDOVA** gördükləri işlər və Azərbaycan nümayəndələrinin beynəlxalq təşkilatlarda təmsilçiliyi ilə bağlı məsələyə toxunaraq dedi:

-Cənab Prezident, mən də həm tarixi ekskursa görə, həm qeydlərə görə Sizə təşəkkürümü bildirirəm. Həqiqətən bunu şəxsən Sizdən eşitmək çox maraqlı idi. İcazənizlə, beynəlxalq əməkdaşlıq haqqında qısa məlumat verim. Gənclər və İdman Nazirliyi beynəlxalq əməkdaşlıq sahəsində müxtəlif istiqamətlərdə bir çox layihələrə imza atıb. Burada həm xarici, yəni, fərqli hökumətlərlə, həm qeyri-hökumət təşkilatları ilə, həm gənclər səviyyəsində əməkdaşlıq aparılır. Maraqlı layihələrdən biri "Mən Azərbaycan haqqında nə bilirəm?" layihəsidir. "Azərbaycan gəncləri 2011-2015-ci illərdə" Dövlət Proqramı çərçivəsində keçirilən bu layihə nəticəsində Azərbaycana 40 xarici ölkədən 400-ə yaxın gənc səfər edib. Bu səfərlər əslində onlara bir hədiyyə idi. Çünki səfərdən qabaq onlar Azərbaycanın tarixi, mədəniyyəti, enerji resursları ilə bağlı müxtəlif mövzularda maraqlı araşdırma aparmışdılar. Sonra onlara şans verilmişdi ki, onlar araşdırdıqları mövzuları gəlib Azərbaycanda öz gözləri ilə görsünlər.

Başqa bir maraqlı layihə "Univision" layihəsidir. Bu, Azərbaycanın "Eurovision" mahnı müsabiqəsində uğurlarının davamıdır. "Univision" mahnı müsabiqəsinin maraqlı məqamı ondan ibarətdir ki, burada məhz qeyri-peşəkarlar yarışır və onlar tələbələrdir. Yəni, fərqli universitetlərdə, - bu, həkimlər, mühəndislər ola bilər, - onlar öz vokal istedadlarını göstərirlər. Bu da beynəlxalq layihədir və böyük əks-sədaya səbəb olub. Lakin əlbəttə ki, bizim əsas tərəfdaşlarımızdan biri Birləşmiş Millətlər Təşkilatı və onun alt qurumlarıdır. 2014-cü ildə Bakıda gənclər siyasəti üzrə Birinci Qlobal Forum keçirilib. Siz o Forumda şəxsən çıxış etmişdiniz. Forumun ən böyük müsbət nəticəsi Gənclər Siyasəti üzrə Bakı Öhdəlikləri sənədinin qəbul edilməsi olub. Hazırda Birləşmiş Millətlər Təşkila-

tının baş katibi Pan Gi Munun gənclər siyasəti üzrə son hesabatında da həmin öhdəliklər sənədi xüsusən qeyd edilib.

Bundan başqa, bizim maraqlı bir layihəmiz də var. Bu, "BMT modeli" layihəsidir. Layihə çərçivəsində gələcək diplomatlar üçün imkan yaradırıq ki, onlar diplomatiyanı yaşasınlar. Orada onlar müxtəlif ölkələri təmsil edərək, - düzdür, biz hamımız azərbaycanlıyıq və öz kökümüzə bağlıyıq, - bir-iki gün azərbaycanlı olduqlarını unudaraq başqa ölkənin mövqeyindən çıxış etməyi öyrənirlər. Düşünürəm ki, gələcək diplomatları yetişdirmək üçün bu, maraqlı bir təşəbbüsdür.

Son olaraq onu qeyd etmək istəyirəm ki, bizim BMT ilə əməkdaşlığımız çərçivəsində Azərbaycan hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının baş katibinin gənclər siyasəti üzrə xüsusi elçisinin ofisi arasında Anlaşma Memorandumu imzalanıb. Bu da çox önəmli bir sənəddir. Çünki Pan Gi Mun bu ofisi yaradanda bütün ölkələrə müraciət etmiş və bu ofisə dəstək verməyə çağırmışdı. Azərbaycan Sizin təşəbbüsünüzlə bu çağırışa cavab verən ilk ölkələrdən biri olub. Bu memorandumun nəticəsi olaraq bir azərbaycanlı mütəxəssis BMT sistemində yer alıb və hazırda fəaliyyət göstərir. Təəssüf ki, BMT sistemində azərbaycanlı gənclər istisna haldır, baxmayaraq ki, orada "Gənc nümayəndə" və "Gənc peşəkar" kimi proqramlar var. Siz necə düşünürsünüz, Azərbaycan bu istiqamətdə hansı addımlar ata bilər və gənc mütəxəssislərin, gələcək diplomatların beynəlxalq təşkilatların sistemlərinə yerləşdirilməsi üzrə hansı qərarlar qəbul edə bilər?

Təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, qaldırdığınız məsələlər doğrudan da çox önəmlidir. Xüsusilə bu son məsələyə toxundunuz. Bu məsələ ilə bağlı mən artıq neçə dəfə müvafiq göstərişlər vermişəm ki, Azərbaycan nümayəndələrinin beynəlxalq təşkilatlardakı sayı çox aşağı səviyyədədir. Bu, o qədər də asan proses deyil. Mənə indi bəziləri deyirlər ki, belə istedadlı mütəxəssisləri bizim bəzi dövlət qurumlarımız buraxmaq istəmirlər. İstəmirlər ki, onları itirsinlər. Mən bunu başa düşürəm. Amma Azərbaycanı dünyada daha da geniş şəkildə təmsil etmək üçün, eyni zamanda, kadrların təcrübə toplamaları baxımından da beynəlxalq təşkilatlarda əlbəttə ki, bizim olmağımız çox önəmlidir. Xarici İşlər Nazirliyinə və Prezident Administrasiyasına göstəriş verilmişdir ki, biz çalışmalıyıq, gənclərimiz, xüsusilə gənc mütəxəssislərimiz bütün beynəlxalq təşkilatlarda təmsil olunsunlar, beynəlxalq məmur statusuna malik olsunlar və orada çalışsınlar. Onlar azərbaycanlıdırlar. Onlar həmişə öz dövlətinə xidmət edəcəklər, eyni zamanda, gözəl təcrübə toplayaraq Vətənə qayıdandan sonra burada daha fəal işlərlə məşğul olacaqlar.

Ümumiyyətlə, bizim beynəlxalq təşkilatlarla əlaqələrimiz kifayət qədər güclüdür. Azərbaycan bir çox beynəlxalq təşkilatların üzvüdür. Onların içində əlbəttə ki, birinci yerdə BMT dayanır. BMT-də də bizim mövqelərimiz kifayət qədər güclüdür. Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş kimi tanınır. Təsadüfi deyil ki, biz Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə seçilmişik. Onu da qeyd etməliyəm ki, bu, o qədər də asan olmamışdır. Çünki bizim iki rəqibimiz var idi. Hər iki rəqib həm Avropa İttifaqına, həm NATO-ya üzv dövlət idi. Azərbaycan Şərqi Avropa ölkələri qrupundan namizədliyini vermişdi. Birinci turdan sonra bir rəqib az səs topladığı üçün kənarda qaldı və ondan sonra 15, ya 16 raund səsvermə aparılmışdır. Bu da BMT tarixində nadir bir hadisə idi. Bunun da səbəbi ondan ibarət idi ki, bəzi qüvvələr, Azərbaycanı istəməyən qüvvələr çalışırdılar bizim seçilməyimizi əngəlləsinlər. Səsvermə 3 gün davam etdi. Yadımdadır, bizim xarici işlər nazirimiz Nyu-Yorkda idi və demək olar ki, hər saat mənə zəng edirdi. İki rəqib – Azərbaycan ilə digər ölkə qalanda hər bir səsvermədə biz daha üstün səs toplayırdıq. Getdikcə bu fərq böyüyürdü. Ancaq müəyyən bir səviyyəyə qalxmalı idik ki, ondan sonra seçilək. Orada qaydalar belədir. Yüz neçə səs lazım idi ki, ölkəmiz seçilsin. Rəqib ölkə də öz namizədliyini geri götürmürdü.

Baxmayaraq, yaxşı anlayırdılar ki, onların seçilmə şansı yoxdur. Sadəcə olaraq, onlara bəzi ölkələr təlimat vermişdilər ki, siz axıra qədər bu səsvermədə iştirak edin, biz Azərbaycanı Təhlükəsizlik Şurasına buraxmayaq. Ondan sonra bəzi ölkələr belə bir təklif irəli sürdülər ki, bir halda, bu seçkilər nəticə vermir, gəlin, belə təklif irəli sürək - hər iki ölkə öz namizədliyini geri götürsün və üçüncü bir kompromis ölkə seçilsin. Bu da bizə qarşı təxribat planlarının tərkib hissəsi idi. Əlbəttə, biz buna getmədik və mən göstəriş verdim ki, axıra qədər gedəcəyik, bu səsvermə bir ay, bir il çəksə də biz məqsədimizdən dönməyəcəyik. Beşinci gün idi, ondan sonra təxirə saldılar, birinci günə. İki gün ərzində müxtəlif ölkələrlə iş apardılar ki, Azərbaycanın əleyhinə səs versinlər. Amma yenə də nail ola bilmədilər və 16-cı, ya 17-ci turdan sonra Azərbaycan seçildi.

Demək istəyirəm ki, BMT doğrudan da Azərbaycana çox böyük hörmətlə yanaşır. BMT o təşkilatdır ki, beynəlxalq birlik tərəfindən söz deyə bilər. Çünki bəzi hallarda məhdud sayda üzvü olan təşkilat özünü dünya birliyi kimi təqdim etməyə çalışır və deyirlər ki, dünya birliyinin mövqeyi belədir. Amma halbuki, o təşkilatda 20-30 üzv var. Bu, dünya birliyini necə təmsil edə bilər? Dünya birliyi BMT-dir. Azərbaycan BMT-də çox güclü mövqelərə malikdir və mən çox şadam ki, siz də BMT ilə çox sıx əlaqədə işləyirsiniz. Bu, çox müsbət haldır. Çox şadam ki, artıq Azərbaycana gəlmək üçün insanlar müsabiqədən də keçirlər və bu da ölkəmizin önəmini göstərir. Əlbəttə, biz çalışmalıyıq ki, qonaqları, gəncləri, ümumiyyətlə, dünyada, öz ölkələrində söz sahibi olan insanları maksimum dərəcədə Azərbaycana dəvət edək.

Biz xaricdə tariximizlə, mədəniyyətimizlə, siyasətimizlə bağlı çoxsaylı təqdimat mərasimləri keçiririk. Onların əlbəttə ki, böyük səmərəsi var. Amma biz ən böyük səmərəni xarici qonaq Azərbaycana gələndə hasil edirik. Çünki yenə də erməni lobbisi bizi qaralamaq, ləkələmək, bizə şər-böhtan atmaq üçün durmadan çalışır. Anti-Azərbaycan qüvvələr onlara qoşulublar. Bizim müstəqil siyasətimizi həzm edə bilməyənlər də bizi ləkələyirlər. Ona görə bəziləri hesab edə bilər ki, Azərbaycanda vəziyyət çox ağırdır. Hətta bax, dünyada yaşanan böhranlı vəziyyətlə bağlı görün, indi Azərbaycan haqqında həqiqəti əks etdirməyən nə qədər yazılar gedir. Ona görə xarici qonaqları Azərbaycana dəvət edirik. Onlar öz gözləri ilə Azərbaycan reallıqlarını görürlər. Görürlər ki, doğrudan da Azərbaycan çox inkişaf edən, mütərəqqi bir ölkədir.

Dünyada böhran yaşandığı indiki vəziyyətdə neft hasil edən ölkələr müəyyən çətinliklərlə üzləşiblər. Yenə də xarici mətbuatı izləyərkən görürəm ki, anti-Azərbaycan qüvvələr necə də sevinirlər və uydurmalar yayırlar. Əfsuslar olsun ki, mötəbər mətbu orqanlar da bu yalan kampaniyasına qoşulmuşlar. Xüsusilə, bu yaxınlarda "Financial Times" qəzeti iki, ya üç məqalə dərc etmişdi. Tamamilə cəfəng mövzuda olan yazılar ki, guya Azərbaycan beynəlxalq maliyyə qurumlarından yardım istəmişdir. Birincisi, bu, yalandır. Biz heç kimdən yardım istəməmişik. Buna ehtiyac yoxdur. Bizim maliyyə vəziyyətimiz kifayət qədər möhkəmdir. İkincisi, bu yalan məlumatı əgər Azərbaycanın hər hansı bir müxalifət saytı yazsa idi, buna biz heç fikir verməzdik, təəccüb etməzdik. Amma mötəbər, beynəlxalq aləmdə nüfuzlu mətbu orqan belə yalanları dərc edəndə, əlbəttə ki, sual yaranır: Nə üçün? Yəni, bu məsələni yoxlamaq üçün imkanınızmı olmamışdır? Yəni, bu, bizə qarşı növbəti bir kampaniyadır ki, göstərsinlər, Azərbaycanda hər hansı bir çətin vəziyyət yaranıbdır. Heç bir çətin vəziyyət yoxdur. Bizim maliyyə göstəricilərimiz dünya miqyasında ən yüksək səviyyədədir – istər xarici borc olsun, istər valyuta ehtiyatları, istərsə də iqtisadi inkişaf olsun.

İndi bir mövzunu da xarici mətbuat xüsusilə gündən-günə qabardır ki, Azərbaycanda kütləvi etirazlar baş veribdir. İndi sual olunur - bir gün əgər 100, ya 150 nəfər hər hansı bir etiraz edibsə, bu, nə dərəcədə kütləvi etiraz sayıla bilər? Bir gün. Ermənistanda prezident

seçkilərində saxtakarlığa görə müxalifət aylarla meydanlarda idi, polis onlara zor tətbiq edirdi, su ilə, qaz ilə onları dağıdırdı. Onlar meydanda kiçik çadırlar qurmuşdular. Bir dənə də olsun xarici mətbu orqan bunu işıqlandırmamışdır. Ondan sonra Ermənistanda "Elektromaydan" hadisəsi baş verdi. Aylarla insanlar meydanları zəbt etmişdilər. Bir dənə də olsun Qərb mətbuatında bu barədə heç bir məlumat getməmişdir. Yəni, bunu görmürsünüzmü? Azərbaycanda bir gün 150 nəfər unun bahalaşmasına görə etiraz edəndə bunu bunlar hər gün, necə deyərlər, çeynəyirlər və təqdim etmək istəyirlər ki, Azərbaycanda bax, vəziyyət belədir. Bu, nəyi göstərir? Yenə də bizə qarşı qərəzli mövqeyi. Anti-Azərbaycan qüvvələr, bizim inkişafımızı istəməyən, son illər ərzində inkişafımıza paxıllıq edənlər hesab edirlər ki, bax, indi bunlar nə isə əldə edə biləcəklər. Heç bir şey əldə edə bilməyəcəklər. Azərbaycan inamla inkişaf edir. Bizim iqtisadi inkişafımız son illər ərzində dünya miqyasında ən sürətli idi. Görüləcək işlər və aparılacaq dərin islahatlar nəticəsində biz tamamilə neft amilindən asılılığı kənara qoyacağıq. Ona görə bir daha demək istəyirəm ki, sizin fəaliyyətinizi mən dəstəkləyirəm. Çalışın bundan sonra da qonaqları Azərbaycana maksimum dərəcədə dəvət edin.

**Gənc sahibkar, Davos İqtisadi Forumunun "Global Shapers" təşkilatının üzvü Müşfiq HƏSƏNOV** gənc sahibkarlara daha geniş imkanların yaradılması məsələsindən danışaraq dedi:

-Hörmətli cənab Prezident, mən gənc sahibkar olaraq gənclərin məşğulluğu ilə və sahibkarlıqla bağlı fikrimi bölüşmək istərdim. Mənim fikrimcə, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı çərçivəsində bir çox effektiv tədbirlər keçirilib və nailiyyətlər əldə edilib. Dövlət Proqramında öz əksini tapmış vacib məqamlardan biri gənclərin məşğulluğunun təmin edilməsi idi və bu illər ərzində bir çox karyera yarmarkaları keçirilib. Bu əmək yarmarkalarında on minlərlə gənc iş yerləri tapıb. Gəncə, Bakı kimi şəhərlərdə Gənclər və İdman Nazirliyi tərəfindən dəstəklənən gənclər üçün karyera mərkəzləri qurulub. Bu mərkəzlərin hər bir ali məktəbdə yaradılması gənclərin işə düzəlmələri üçün güclü dəstək ola bilər.

Dövlət Proqramının digər çox vacib tərəfi gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsidir. 2011-ci ildə Sizinlə görüşdə gənclər tərəfindən bir ideya irəli sürülmüşdü ki, Azərbaycanda biznes inkubasiyaları yaradılsın. Bundan sonra gənc sahibkarlara dəstək daha da gücləndi. İndi Bakıda 9 biznes inkubator fəaliyyət göstərir. Məsələn, Dövlət İqtisad Universitetinin biznes inkubatoru artıq 6 biznes yetişdirib və 6 biznes yaradıb. Bizim "Youth Inc." proqramı da "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı çərçivəsində fəaliyyətə başlayıb. Bu layihə cəmiyyətin, dövlətin və şirkətlərin effektiv əməkdaşlığı sahəsində gənc sahibkarlara dəstək proqramıdır. Biz üç il ərzində beş mindən çox gəncə müxtəlif təlimlər keçmişik və artıq bir neçə biznes yaranıb. Bu nümunələr onu göstərir ki, Azərbaycanda biznesə başlamaq çox asandır. Dünya Bankının biznes qeydiyyatı və başlanılması üzrə dünya reytinqində Azərbaycan 189 ölkə arasında 7-ci yerdədir. Ancaq Dünya Bankının ümumi biznes fəaliyyəti üzrə ölkələr reytinqində orta sıralardayıq. Biz gənc sahibkarlarla işləyərək görürük ki, əsasən bizi geri çəkən səbəblər investisiyalara çıxış problemi və texnoloji transfer çətinliyidir. Azərbaycan gənc sahibkarlar, investorlar, innovasiya və texnologiyalar üçün regional mərkəzə çevrilə bilər və çevrilməlidir. Bu sahədə irəliləyiş üçün Azərbaycanda da əla şərait yaranıb. İlk növbədə bu, strateji əhəmiyyət daşıyan Böyük İpək Yolunun bərpası layihəsidir. Bu layihə ölkəni vacib ticarət və iqtisadi mərkəzə çevirə bilər və gənc sahibkarlara bu sahədə biznes qurmaq imkanı yaradar.

Sizin bu yaxınlarda qeyd etdiyiniz və təməlini qoyduğunuz olduqca vacib digər məsələ "Made in Azerbaijan" brendinin yaranmasıdır. Məsələn, ölkəmizin kənd təsərrüfatının üstün cəhəti ondan ibarətdir ki, Azərbaycanda geni dəyişdirilməmiş məhsullar yetişdirilir. Dünya

trendi onu göstərir ki, bu, güclü rəqabət üstünlüyü yaradılmasında vacib amildir. Bizim bu baxımdan güclü rəqabət üstünlüyümüz var. Burada gənc sahibkarlara dəstək vermək lazımdır. Bu sahələrdə biznes dəstəyi üçün Sahibkarlara Kömək Milli Fondu artıq bir çox tədbirlər həyata keçirir. 2011-ci ildən 2015-ci ilədək 3341 gənc sahibkara və fermerə 197 milyon manat güzəştli kredit verilib. Lakin bundan əlavə, innovasiyaları, startupları, texnoloji transferi dəstəkləmək və belə layihələri inkişaf etdirmək üçün gənc sahibkarlarla fəaliyyət göstərən və koordinasiya həyata keçirən effektiv bir alət yaradılması, mənim fikrimcə, zəruridir. Bu istiqamətdə praktiki addımlardan biri Gənc Sahibkarlara Dəstək Fondunun yaradılması ola bilər. Bu Fonda bir neçə ictimai təşkilat, biznes strukturları, investisiya fondları və ölkənin biznes inkubatorları daxil ola bilər. Fondun fəaliyyəti gənc sahibkarların innovativ layihələrinə investisiyalar ayrılması və bu investisiyaların istifadəsinə nəzarətin həyata keçirilməsi, texnoloji transferə dəstək, biznesin inkişafının qanunvericilik əsaslarının yaxşılaşdırılması istiqamətində hökumətə təkliflər verilməsi və digər işlər ola bilər.

Təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV**: Sağ olun. Mən hesab edirəm ki, qaldırdığınız məsələlər təqdirəlayiqdir, diqqətəlayiqdir. Onları təklif şəklində tərtib edin və mənə təqdim edin. Hökumətə, İqtisadiyyat Nazirliyinə müvafiq göstərişlər veriləcək.

Qaldırdığınız məsələlər doğrudan da çox vacibdir. Ölkəmizin gələcəyi sahibkarlığın inkişafından asılı olacaqdır. Xüsusilə indi geniş özəlləşdirmə proqramı nəzərdə tutulur. Dövlət ancaq strateji aktivləri öz inhisarında saxlayacaqdır. Bu, ona görə lazımdır ki, dövlətin strateji aktivləri dövlətin nəzarətində olsun. Ancaq geniş özəlləşdirmə sahibkarlığın inkişafına yeni təkan verəcək.

Sahibkarlığın inkişafı üçün siz də qeyd etdiyiniz kimi, çox böyük işlər görülür. Bu günə qədər sahibkarlara güzəştli şərtlərlə 1 milyard 700 milyon manat kredit verilmişdir. Bu il də 250 milyon manat nəzərdə tutulubdur. Bu, iqtisadiyyatın real sektoruna qoyulan birbaşa vəsaitdir, yeni iş yerləri yaradır, idxaldan asılılığı azaldır. Əlbəttə ki, bu gün ixracyönümlü məhsulların istehsalı da prioritetdir.

Biznes inkubatorlarının yaradılması prosesi də gedir. Siz qeyd etdiniz, Bakıda doqquz, amma, eyni zamanda, bölgələrdə də var. Şimal bölgəsində, ondan sonra göstəriş verilmişdir ki, digər bölgələrdə də olsun. Gənc sahibkarların da müəyyən struktur çərçivəsində formalaşması, hesab edirəm ki, yaxşı təklifdir. Əgər gənc sahibkarları dəstəkləmək üçün xüsusi bir mexanizm lazımdırsa onu da təklifinizdə təqdim edin. Mən bunu istisna etmirəm, biz gərək buna baxaq. Əlbəttə ki, orada gərək yaş həddi müəyyən olunsun. Gənclər daha çox yəqin ki, innovasiyalarla bağlı olan sahələrə investisiya cəlb edə bilərlər. Hesab edirəm ki, burada daha çox intellektual sahə, investisiyalar, texnologiya transferti, - necə ki, siz qeyd etdiniz, - mühüm rol oynayacaq. Çünki sahibkarlığın inkişafı müxtəlif istiqamətlərdən ibarətdir. Əlbəttə, biz hesab edirik ki, ilk növbədə, kənd təsərrüfatı, emal sənayesi, yüngül sənaye, ümumiyyətlə, sənayenin inkişafı daha da sürətlə getməlidir. Eyni zamanda, intellektual məhsulların istehsalı, investisiyaların cəlb edilməsi.

Nəzərə alsaq ki, dünya miqyasında böyük firmalar Azərbaycana çox böyük maraq göstərirlər, biz bundan istifadə etməliyik. Bu, Davos Forumunda mənim onuncu iştirakım idi. Hətta Forumun rəhbəri Klaus Şvab bunun əlaməti kimi mənə xüsusi bir nişan təqdim etdi. Yəni, Forumda on dəfə iştirak edən artıq Forumun ailə üzvünə çevrilir. Bütün forumlarda mən həmişə çalışıram ki, Azərbaycana diqqəti daha da artırım. Bu dəfə də çoxsaylı görüşlərim olmuşdur - saat 07:30-dan başlayaraq saat 10-a qədər. Eyni zamanda, İKT şirkətlərinin, böyük transmilli şirkətlərin rəhbərləri də görüşlər əsnasında Azərbaycana böyük maraq olduğunu göstərmişlər. Biz onları cəlb etməliyik. Azərbaycanda bütün istiqamətlər üzrə sahibkarlıq inkişaf etməlidir. Ona görə təklifləri təqdim edin və biz buna baxacağıq.

Mən bir məsələni də qeyd etmək istəyirəm. Bilirsiniz ki, mən Azərbaycanda istifadəyə verilən bir çox müəssisələrin açılışında şəxsən iştirak edirəm - həm Bakıda, həm bölgələrdə. Öz müşahidələrim və eyni zamanda, məndə olan məlumat onu göstərir ki, çox böyük layihələrin həm icrasında, həm də ondan sonra idarə edilməsində daha çox xarici mütəxəssislərə üstünlük verilir. Mən bunu normal qarşılayıram. Çünki Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır. Xarici mütəxəssislər də burada olmalıdırlar, işləməlidirlər. Ancaq hesab edirəm vaxt tez gəlməlidir ki, Azərbaycan menecerləri bu işi öz öhdələrinə götürsünlər. Bizim demək olar ki, bütün 4-5 ulduzlu otellərin menecerləri xarici vətəndaşlardır. Əlbəttə, bu, böyük dünya şəbəkələridir. Onların öz kadrları, öz menecment heyəti var. Onlar ölkədən-ölkəyə miqrasiya edirlər. Amma biz də elə kadr yetişdirməliyik ki, vaxt gəlsin, Azərbaycan menecerləri böyük şirkətlərin qlobal məsələlərində iştirak etsinlər.

Misal üçün sənaye müəssisələrinin açılışlarında görürəm ki, xarici mütəxəssislərdir. Aydındır, ona görə ki, menecment daha da düzgün aparılsın. Amma biz də gərək bu sahəyə çox böyük diqqət verək və 5-10 il ərzində bu strategiyanı düzgün qursaq, ondan sonra artıq bizim bütün şirkətlərimizin başında Azərbaycan vətəndaşları dayanacaq. Əlbəttə ki, burada ümid gənclərədir. Çünki siz xarici dil bilirsiniz, müasir insanlarsınız və idarəetmədə, əlbəttə ki, daha da böyük işlər görə bilərsiniz.

**"Gəncə 2016 – Avropa gənclər paytaxtı" İctimai Birliyinin beynəlxalq əlaqələr üzrə katibi Aysun ZEYNALOVA** Gəncənin Avropanın gənclər paytaxtı elan edilməsi ilə bağlı görülən işlər barədə məlumat verərək dedi:

-Möhtərəm cənab Prezident, bildiyiniz kimi, 2012-ci ildə Gəncə şəhəri Azərbaycanın ilk gənclər paytaxtı seçilmişdi. Bundan sonrakı hədəf isə "2016-cı il Avropa Gənclər Paytaxtı" seçilmək idi. Ümumiyyətlə, "Avropa Gənclər Paytaxtı" titulu Avropa Gənclər Forumu tərəfindən hər il bir Avropa şəhərinə təqdim olunur. Gəncənin "Avropa Gənclər Paytaxtı" seçilməsi onu göstərir ki, həmin şəhərin gəncləri fəal şəkildə fəaliyyət göstərirlər və orada gənclərin istifadəsi üçün infrastruktur da mövcuddur. 2013-cü ildə Gəncə Avropanın 15 digər şəhərini geridə qoyaraq bu titula layiq görülüb.

İndi biz hazırlıqlar dövründəyik. Fevral ayından sonra "Avropa Gənclər Paytaxtı" ilinin açılış mərasimi planlaşdırılır. Ümumilikdə, bu il ərzində 43 layihənin həyata keçirilməsi planlaşdırılır. Onların 25-i beynəlxalq, 18-i isə yerli layihələrdir. Fəaliyyət planı hazırda bizim gənclərimiz üçün çox önəmli mövzu olan beş prioritet sahəyə ünvanlanıb. Bunlar, məsələn, gənclərin məşğulluğu, gənclərin cəmiyyətdə fəal iştirakı, könüllülük, təhsil və sosial rifah kimi mövzulardır.

Əlbəttə ki, "Avropa Gənclər Paytaxtı" titulu bizim ölkəmiz üçün çox böyük bir imkandır. Düşünürük ki, bu titul Gəncə və digər region gəncləri ilə yanaşı, ümumiyyətlə, respublika gənclərinin Avropaya yaxınlaşmasına kömək göstərəcək. Artıq bizim şəhərimiz böyük, dünya miqyaslı layihələrə ev sahibliyi etmək imkanına malik olacaq. Yüzlərlə avropalı gənc Gəncəyə səfər edəcək, Azərbaycan gənclərinin də Avropada və dünyada keçirilən beynəlxalq layihələrdə iştirakı artacaq.

Xüsusilə qeyd etmək istərdim: Gəncə ilk "Avropa Gənclər Paytaxtı"dır ki, Avropa İttifaqına daxil olmayan ölkəni təmsil edir. Bu, hazırda Azərbaycanda gedən uğurlu gənclər siyasətinin nəticəsidir. Bizim regionda gənclərin istifadəsi üçün mövcud olan infrastruktur buna imkan verir, şərait yaradır ki, biz artıq böyükmiqyaslı layihələrə ev sahibliyi edək və Avropada öz sözümüzü deyək. Əlbəttə ki, bu, böyük imkan olmaqla yanaşı, həmçinin böyük məsuliyyətdir. Ona görə də əlimizdən gələni edəcəyik ki, Avropanın digər şəhərləri üçün nümunəvi bir "Gənclər Paytaxtı" olaq.

Bu gün bizimlə görüşdüyünüz üçün Sizə təşəkkür etmək istərdim. Əminəm ki, bu görüş biz gənclərə regionların da inkişafına töhfəmizi verməyə bir təkan olacaq.

Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Mən çox şadam ki, Gəncə bu şərəfli ada layiq görülüb. Bu, çox böyük hadisədir. Sizi, bütün Gəncə sakinlərini təbrik edirəm. Əminəm ki, Gəncə Avropaya öz inkişafını göstərəcək. Mən çox şadam ki, Gəncə tarixi simasını saxlamaq şərti ilə gözəlləşir, abadlaşır. Gəncə bizim qədim diyarımızdır, Nizami yurdudur. Şadam ki, Avropa gəncləri də Gəncə ilə daha geniş şəkildə tanış olacaqlar.

Bu, bir daha ölkəmizin indiki vəziyyətini və inkişafını göstərir. Bakıda Avropa mahnı müsabiqəsi, Avropa Oyunları, "Gəncə - Avropa Gənclər Paytaxtı" tədbirləri keçirilib və keçiriləcəkdir. Eyni zamanda, Bakı bir neçə il bundan əvvəl "İslam mədəniyyətinin paytaxtı" elan olunmuşdur. 2018-ci ildə Naxçıvan "İslam mədəniyyətinin paytaxtı" olacaqdır. Gələn il İslam Həmrəylik Oyunları keçiriləcək. Doğrudan da bunlar bizim nadir vəziyyətimizi əks etdirir. Təbii ki, bunun tarixi əsasları, tarixi səbəbləri var. Ancaq burada daha çox bizim apardığımız siyasət öz rolunu oynayır. Çünki biz dünyada özümüzü müasir, dünyaya açıq, qitələrin birləşmə yeri olan ölkə kimi təqdim etmişik. Burada, əlbəttə ki, bir neçə amil öz rolunu oynayıb. Əsrlər boyu Azərbaycan xalqı öz tolerantlığı, dözümlülüyü ilə fərqlənmişdir. Əsrlər boyu ölkəmizdə yaşayan bütün xalqlar, bütün dinlərin nümayəndələri heç vaxt ayrı-seçkiliyə, diskriminasiyaya məruz qalmamışlar. Dini, etnik zəmində heç vaxt qarşıdurma olmamışdır, yoxdur və olmayacaqdır. Həm bir neçə əsr bundan əvvəl, təbii ki, həm də sovet dövründə və postsovet dövründə. Bu, bizim böyük sərvətimizdir. Xüsusilə indiki şəraitdə ki, dünyada qarşılıqlı inamsızlıq, aqressiya, mənfi münasibət artır. Müsəlman ölkəsinin Gəncə şəhərinin "Avropa Gənclər Paytaxtı" elan olunması çox önəmli hadisədir. Necə ki, Avropa Oyunlarının Bakıda keçirilməsi təkcə idman yarışı kimi deyil, eyni zamanda, çox ciddi bir siyasi addım idi.

Biz göstərəcəyik ki, öz milli dəyərlərimizi qoruyuruq. Bizim zəngin mədəniyyətimiz, tariximiz, ədəbiyyatımız, musiqimiz var. Biz müsəlman aləminin ayrılmaz hissəsiyik, eyni zamanda, müsəlman ölkələri arasında bəlkə də Avropaya ən yaxın olan ölkəyik. Bu iki amil bir-birini inkar etmir. Biz dünyəvi dövlətik, cəmiyyətin statusu da dünyəvidir. Əhalimizin mütləq əksəriyyəti dərin milli köklər üzərində müasirlik prinsiplərinə sadiqdir. Mən hesab edirəm ki, bizim gələcək inkişaf modelimiz, yəni, ideoloji inkişaf modelimiz bax, bu əsas üzərində qurulub və inkişaf etməlidir. Biz milli köklərə bağlılıq, dünyaya açıq olmağımız, Avropa və digər qitələrlə sıx əməkdaşlıq formatında inkişaf edəcəyik.

Əminəm ki, Gəncə bu yüksək statusu şərəflə daşıyacaq və ölkəmizi daha da yüksəklərə qaldıracaqdır. Mən Gəncədə on dəfədən çox olmuşam. Hər il oluram və olacağam.

**Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru Fərhad HACIYEV** fond tərəfindən həyata keçirilən layihələrdən danışaraq dedi:

-Cənab Prezident, icazənizlə, Sizin tapşırığınızla yaradılmış Gənclər Fondu haqqında məlumat vermək istərdim.

Siz bu Fondu yaradanda tapşırdınız ki, hər bir gəncin bu Fondla əməkdaşlıq etmək imkanı olsun. Biz də tam şəffaf formada internet resurs yaratdıq və bütün layihələr bizə yalnız internet vasitəsilə daxil olur. Bu da bir növ şəffaflığın və operativliyin həyata keçirilməsi üçün çox müsbət bir təkan oldu. Eyni zamanda, biz ümumiyyətlə, Avropada belə tətbiq olunmayan bir təcrübəyə başladıq. Azərbaycanın hər bir gənc vətəndaşı Gənclər Fonduna müraciət edib bizdən birbaşa dövlət dəstəyi alır. Yəni, bu, bir daha göstərir ki, Azərbaycan dövləti öz vətəndaşına nə qədər inanır və onun inkişafına nə qədər investisiya qoyur.

Ümumilikdə, 5 mindən artıq layihə qəbul olunub və 2333 layihə dəstəklənib. Çox maraqlı məqamdır ki, bu yaxınlarda Ağsunun bir kəndindən bizə məktub gəlmişdi ki, biz layihə həyata keçiririk, xahiş edirik, nümayəndənizi göndərin monitorinq etsin. Artıq bölgələrdə də Gənclər Fondunun layihələri icra olunmaqdadır.

Fondun layihələri çərçivəsində dörd mindən artıq gənc müvəqqəti işlə təmin olunub: mühasib, koordinator, ekspert, təlimçi, hüquqşünas. Biz öz təcrübəmizi bu mərhələdə artıq beynəlxalq səviyyəyə keçirmişik. İstəyirik ki, Gənclər Fondu beynəlxalq təşkilatlar arasında da tanınsın. Avropa Şurasında biz Gənclər Fondunun təqdimatını edəndə onlar çox təəccüblənmişdilər ki, Azərbaycanda fərdə qrant verilir. Yəni, bu, onlar üçün böyük bir yenilik idi.

İcazənizlə, cənab Prezident, iki təklifim də var. Burada gənclər artıq səsləndirdi, Arzu xanım bu yaxınlarda Topçubaşovun nümayəndə heyətinin Parisə səfəri haqqında "Əbədi ezamiyyət" adlı çox gözəl bir film təqdim etdi. Orada çox maraqlı bir məqam var idi. Topçubaşovun nümayəndə heyətinə Parisə getməyə viza vermirdilər və o, Bakıya, hökumətə yazır ki, ermənilər artıq 50 il bundan öncə Avropada çalışırlar və bizim oraya getməyimizi əngəlləyirlər. Amma indi artıq elə bir şərait yaranıb ki, biz ermənilərdən də öncə bir çox prosesləri həyata keçiririk. Bu da təbii ki, Sizin həyata keçirdiyiniz uğurlu siyasətin nəticəsidir. Burada Elmira artıq bu təcrübə proqramını qeyd etdi. Cənab Prezident, bu, çox gözəl imkandır ki, bizim gənclər beynəlxalq təşkilatlarda təcrübə keçsinlər. Düzdür, bu, bir az maliyyə vəsaiti tələb edən məsələdir. Amma biz onu yaxşı təqdim etsək, qura bilsək, Azərbaycan gənclərinin hətta xarici ölkələrin parlamentlərində təcrübə keçmək imkanı yaranar. Avropa strukturlarında, BMT-də təcrübə keçmək imkanı çoxdur. Biz Gənclər Fondu tərəfindən bunu edə bilərik.

Bir təklifim də startuplarla bağlıdır. Bizim Gənclər Fondu sosial layihələrə dəstək verir. Əgər icazə versəniz, biz startuplara kiçik maliyyələr də ayırardıq ki, Müşfiqin dediyi gənclərin layihələrinə dəstək göstərə bilək.

Diqqətinizə görə bir daha təşəkkür edirəm. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV**: Sağ olun. Mən bunu dəstəkləyirəm. Siz təkliflər formasında təqdim edin. Biz onların hamısını həll edəcəyik. Bu, doğrudan da çox önəmli bir təşəbbüsdür. Bu, imkan verir ki, - sən də qeyd etdiyin kimi, - fərdi qaydada qrantlar verilsin. Həm gənclər öz istedadını ortaya qoysunlar, eyni zamanda, əlbəttə ki, ölkəmiz üçün faydalı layihələri icra etsinlər. Mən çox istəyirəm ki, bu, daha da kütləvi xarakter alsın. Əgər lazım olarsa, bu məsələni qaldırın. Biz Fonda əlavə vəsait də ayırarıq.

**Heydər Əliyev Mərkəzinin baş mütəxəssisi, hüquq üzrə fəlsəfə doktoru Zafiq XƏLİLOV** gənclərin elmi tədqiqatlara daha çox cəlb olunması məsələsini qaldıraraq dedi:

- Qeyd edim ki, mən özüm spesifik bir elm sahəsini araşdırıram. Beynəlxalq hüququn hava hüququ və kosmos hüququ sahəsini. 2014-cü ildə də Milli Aviasiya Akademiyasında "Beynəlxalq hava hüququnda hava azadlıqlarının nəzəri və praktiki problemləri" adlı dissertasiya işimi müdafiə etmişəm.

Siz Milli Elmlər Akademiyasının 70 illik yubileyindəki çıxışınızda, ümumiyyətlə, bütün çıxışlarınızda qeyd etmisiniz ki, Azərbaycanda kosmik sənaye inkişaf edir. Bu sahədə tədbirlərin həyata keçirilməsi təbii ki, gənc alimlərə yeni bir müstəvidə imkanlar açır. Bu baxımdan mən fikirləşirəm ki, artıq elmlər doktorluğu dissertasiyamı "Azərbaycan Respublikasında beynəlxalq kosmos hüququnun aktual problemləri və inkişaf perspektivləri" mövzusuna həsr edim.

Ümumiyyətlə, bu gün Azərbaycanda tədqiq olunmamış elm sahələri var və təbii ki, bu da aktual bir məsələdir. Elə elm sahələri var ki, o sahədə elmi dissertasiyalar, tədqiqat işləri yazılmamışdır. Bu baxımdan da yaxşı olar ki, gələcəkdə və ümumiyyətlə, inkişaf etmiş ölkələrin təcrübəsinə istinad etməklə magistratura və doktorantura səviyyəsində dar ixtisaslaşma modeli aparılsın. Hətta belə bir imkan yaradıla bilər ki, müxtəlif ali təhsil müəssisələrində müəyyən elm sahələrinin yarımsahələri üzrə dar ixtisaslaşma olsun və bu ixtisasların sayəsində həmin ali təhsil müəssisələrində gənclərin işlə təminat imkanı yaransın.

Mən Azərbaycanda sosiologiya və psixologiya elmlərinin inkişafı məsələsini xüsusi qeyd etmək istəyirəm. Məsələn, biz inkişaf etmiş ölkələrin təcrübəsinə əsasən görürük ki, orada müxtəlif sosioloji, yaxud da ki, psixoloji təhlillər aparılır. Bunun sayəsində həmin ölkədə uğurlu rəylər, təkliflər, proqnozlar verilir ki, bu da müvafiq dövlət orqanlarının işinə, ümumiyyətlə, dövlətdə, cəmiyyətdə gedən proseslərə müsbət təsir göstərir.

Azərbaycanda isə bu gün biz görürük ki, sosiologiya və psixologiya elmləri sahələrində araşdırmalar, məsələn, Elmlər Akademiyasında, yaxud da ali təhsil müəssisələrində sadəcə şöbə və ya hər hansı bir kafedra çərçivəsində aparılır və tədris prosesinə yönəldilir. Bu baxımdan Azərbaycanda bu işin vahid qurumda, mərkəzdə təşkil edilməsi yaxşı olardı. Ümumiyyətlə, bu sahədə mərkəzləşdirilmiş ayrıca elmi-tədqiqat institutunun yaradılması çox vacib, əhəmiyyətli sayıla bilər. Bu, həm də Azərbaycanın inkişaf perspektivlərinə böyük bir təkan vermiş olar. Diqqətinizə görə minnətdaram. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Bu təkliflərə də baxılacaq. Əlbəttə, biz çalışmalıyıq ki, elmin bütün istiqamətləri inkişaf etsin, o cümlədən qeyd etdiyiniz sosiologiya, psixologiya sahələri. Sosiologiyanın əlbəttə ki, çox böyük mənası və iqtisadiyyat üçün də çox böyük faydası var. Çünki bu, o sahədir ki, insanların həm rəyini öyrənərkən, eyni zamanda, cəmiyyətin sosioloji durumunu təhlil edərkən düzgün tövsiyələr verə bilər. Xüsusilə indiki şəraitdə buna daha da böyük ehtiyac var.

Əziz dostlar, sizə uğurlar diləyirəm. Əminəm ki, siz ölkənin inkişafında bundan sonra da öz dəyərli sözünüzü deyəcəksiniz. Bir daha təbrik edirəm. Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*29 yanvar 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV DUBAYDAKI MƏŞHUR "BÜRC-XƏLİFƏ" İLƏ TANIŞ OLMUŞDUR

Birləşmiş Ərəb Əmirliklərində rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Abu Dabidən Dubaya gəlib.

Prezident İlham Əliyev Dubaydakı məşhur "Bürc-Xəlifə" binası ilə tanış olub.

Dövlətimizin başçısına məlumat verildi ki, dünyanın ən böyük göydələni olan "Bürc-Xəlifə"nin tikintisi 2004-2009-cu illərdə həyata keçirilib. 2010-cu ildə binanın möhtəşəm açılışı olub. Əvvəllər "Bürc-Dubay" adlandırılan 165 mərtəbəli bu möhtəşəm tikilinin hündürlüyü 828 metrdir. Binanın 150-ci mərtəbəsindən sonrakı hissələrinin tikintisində polad konstruksiyalardan istifadə olunub. Bununla da "Bürc-Xəlifə" dünyada ilk dəfə beton kütlə üzərində polad konstruksiyalardan istifadə olunan tikili kimi tarixə düşüb.

Dünya memarlığının nadir incilərindən olan "Bürc-Xəlifə"nin özəllikləri bununla bitmir. Əsas diqqət tikinti zamanı küləkdən qorunmaya yönəldilib. Dünyada ən hündürə qalxan və ən sürətli liftlər də bu binada işləyir. "Bürc-Xəlifə"nin 158-ci mərtəbəsində dünyanın ən yüksəklikdə yerləşən məscidi, 76-cı mərtəbəsində ən hündür üzgüçülük hovuzu və 122-ci mərtəbəsində restoran fəaliyyət göstərir. Kompleksin daxilində otellər, evlər, ofislər və ticarət mərkəzləri yerləşir. Binanın daxili məxsusi olaraq "Bürc-Xəlifə" üçün hazırlanmış ətirlərlə təravətləndirilir. Göydələnin şüşələri günəş şüalarının qarşısını alaraq daxildə optimal temperatur rejiminin saxlanmasına şərait yaradır. "Bürc-Xəlifə" öz möhtəşəmliyi ilə Dubayın yeni işgüzar hissəsinin rəmzi sayılır.

*1 fevral 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABU DABİDƏ ŞEYX ZAYED MƏSCİDİ KOMPLEKSİNİ ZİYARƏT ETMİŞDİR

Dövlətimizin başçısına məlumat verildi ki, məscid Birləşmiş Ərəb Əmirliklərinin qurucusu Şeyx Zayed bin Sultan Əl Nəhyanın təşəbbüsü ilə inşa edilib. Onun məzarı da buradadır.

Prezident İlham Əliyev Şeyx Zayed bin Sultan Əl Nəhyanın məzarını ziyarət etdi.

Şeyx Zayed məscidi ölkənin ən böyük məscidi hesab edilir. Cümə və bayram namazlarında buraya gələnlərin sayının 40 min nəfərə çatdığı bildirilir. Məscidin nadir elementlərindən biri də əsas ibadət otağının xalçasıdır. Bu xalça dünyanın ən böyük xalçası sayılır. Ümumi sahəsi 5627 kvadratmetr olan xalçanın çəkisi 35 tondur. Məscid kompleksinin kitabxanasında İslam dininə aid bir sıra klassik nəşrlər, 200 ildən çox yaşı olan sikkələr, xəttatlıq nümunələri var.

Məscidlə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev məscidin xatirə kitabına ürək sözlərini yazdı.

*1 fevral 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV TOVUZ ŞƏHƏRİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Tovuz rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Tovuz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov dövlətimizin başçısına məlumat verdi ki, Ulu Öndərin abidəsinin ucaldığı Heydər Əliyev Parkında geniş abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb. Park rayon sakinlərinin sevimli istirahət mərkəzidir. Burada əhalinin istirahəti üçün hər cür şərait yaradılıb.

*16 fevral 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TOVUZA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ QOVLAR ŞƏHƏRİNDƏ GƏNCLƏR EVİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Fevralın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tovuz rayonuna səfəri çərçivəsində Qovlar şəhərindəki Gənclər Evinin açılışında iştirak edib.

Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasəti 2003-cü ildən başlayaraq Azərbaycanda uğurlu nəticələrlə yadda qalıb. 2005-2009-cu illəri əhatə edən "Azərbaycan Gəncliyi Dövlət Proqramı" bu proseslərdə çox mühüm rol oynayıb. Daha sonra həyata keçirilən "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı" bu tədbirlərin məntiqi davamıdır. Bu gün ölkəmizdə gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri, həmçinin tarixi-mədəni keçmişimizə, milli mənəvi dəyərlərimizə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir. Əsas məqsəd

gənclərin cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul yaratmaqdır.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramlar həyata keçirilir. Ölkəmizin bölgələrində müasir tələblərə cavab verən sosial infrastruktur obyektləri və Gənclər mərkəzləri, o cümlədən Tovuz rayonunun Qovlar şəhərində Gənclər Evinin yaradılması da bu məqsədə xidmət edir.

Dövlətimizin başçısına Qovlar şəhər parkında görülən işlər barədə ətraflı məlumat verildi.

Gənclər və idman naziri Azad Rəhimov Azərbaycan Prezidentinə məlumat verdi ki, Gənclər Evinin binası zirzəmi ilə birgə dörd mərtəbədən ibarətdir. Ərazisi 4400 kvadratmetr olan Gənclər Evinin binası respublikada ən böyük gənclər mərkəzlərindən biridir. Gənclər Evinin foyesində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ictimai-siyasi fəaliyyətinin müxtəlif məqamlarını, Tovuz rayonuna səfərlərini, həmçinin gənclərlə görüşlərini əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Gənclər Evində istedadlar, ünsiyyət və gənclərin intellektual klubları fəaliyyət göstərəcək. Bu layihələr Dövlət Proqramı çərçivəsində Gənclər və İdman Nazirliyinin dəstəyi ilə həyata keçirilir. Əsas məqsəd yeniyetmələr arasında elmi-texniki biliklərin təbliği, onların elmi-yaradıcı təşəbbüslərinin artırılması, bu sahədə istedadlı gənclərin üzə çıxarılmasıdır.

Diqqətə çatdırıldı ki, burada gənclərin intellektual klubu, gənc iqtisadçılar klubu, kompyuter dərnəyi, peşəyönümü mərkəzi, istedadların hazırlıq laboratoriyası, elektron kitabxana, karyera mərkəzi, rəqs zalı, toxuculuq və tikiş dərnəkləri, vətənpərvərlik klubu fəaliyyət göstərəcək. Gənclər Evindəki 120 yerlik akt, 36 yerlik toplantı zallarında rayon və respublika əhəmiyyətli tədbirlər keçirmək mümkündür. Sərgi salonunda gənc rəssamların əl işləri nümayiş etdirilir. Bilyard, tennis və fitnes zallarında yaradılan şərait gənclərin asudə vaxtlarının səmərəli keçməsinə imkan verəcək.

Azərbaycanda gəncliyə dövlət qayğısı gələcək uğurlara hesablanan siyasətdir. Bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bu da Azərbaycan gəncliyinin sabahına inamla baxmağa əsas verir. Gənclər evlərinin yaradılması isə bu siyasətin uğurla həyata keçirilməsində mühüm rol oynayacaq.

*16 fevral 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GƏNCƏDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev ərazidə aparılan yenidənqurma işləri barədə Prezident İlham Əliyevə məlumat verdi.

*17 fevral 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV GƏNCƏ DÖVLƏT FİLARMONİYASININ BİNASINDA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə tanış olub.

Gəncədə mədəniyyət və incəsənət müəssisələrinin tikintisi və müasirləşməsi prosesi də uğurla davam etdirilir. Onların sırasında Gəncə Dövlət Filarmoniyası xüsusi yer tutur. Dövlətimizin başçısı 2012-ci il yanvarın 21-də Gəncədə olarkən Dövlət Filarmoniyası binasının təməlini qoymuşdu. Hazırda bu obyektdə işlərin əsas hissəsi görülüb.

Məlumat verildi ki, bu tikili qəzalı vəziyyətə düşmüş köhnə filarmoniya binası, "Bakı" kinoteatrı və Uşaq Yaradıcılıq Mərkəzinin yerində ucaldılır. Bir hektardan çox ərazidə tikilən altımərtəbəli yeni binada layihə üzrə 1200 tamaşaçı yeri olan konsert zalı, iki kinozal, açıq havada yay estradası meydanı, şəkil qalereyası, baxış qülləsi yaradılır. Binada restoran və kafelər, o cümlədən 800 kvadratmetrlik yeraltı qaraj tikilir.

Dövlətimizin başçısı tikinti işlərinin uğurla yekunlaşdırılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

*17 fevral 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "GƏNCƏÇAY" PARK-BULVAR KOMPLEKSİ İLƏ TANIŞ OLMUŞDUR

Ölkəmizin bütün bölgələrində müasir səviyyədə ictimai yerlər, bulvar, park və xiyabanlar yaradılması işləri sürətlə davam etdirilir. Bu proses Gəncədə də geniş vüsət alıb. Bu sahədə görülən işlər sakinlərin rahatlığı, onların asudə vaxtlarının daha səmərəli təşkili məqsədi daşımaqla yanaşı, qədimliyini qoruyaraq müasirləşən Gəncənin gözəlliyinə əlavə çalarlar qatır. Gəncəçay çayı boyunca yeni yaradılan bulvar kompleksində geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, oturacaqlar qoyulub. Burada quraşdırılan fəvvarələr ərazinin gözəlliyini daha da artırır. Görülən bu işlər sakinlərin və şəhərə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir. Yeni park, istirahət məkanı və guşələrin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması həm də Gəncənin daha da gözəlləşməsi işinin davamlı xarakter almasından və ümumilikdə şəhərin sosial-iqtisadi inkişafından xəbər verir.

Dövlətimizin başçısına məlumat verildi ki, bulvar kompleksinin uzunluğu 1,2 kilometrdir. Ümumi sahəsi 34 hektar olan bu kompleksdə istirahət üçün hərtərəfli şərait yaradılıb, geniş işıqlandırma işləri görülüb, 15 fəvvarə və müxtəlif kompozisiyalı 10 heykəl quraşdırılıb. Çayın məcrasının hər iki tərəfində betondan ümumi uzunluğu 2,4 kilometr olan istinad divarı tikilib. Bulvarda Bayraq Meydanı, "Əli və Nino" kompleksi, Mətbuat evi, Kitab evi, Uşaq Əyləncə və Ticarət Mərkəzi, altımərtəbəli və yeddimərtəbəli üç yaşayış binası, üç kafe, restoran və kinoteatr, açıq havada attraksionlar və digər sosial obyektlər inşa edilib. Burada 1,7 kilometr uzunluğunda velosiped yolu və iki velosiped dayanacağı inşa edilib, böyük monitor quraşdırılıb.

Bulvarın yuxarı hissəsindən keçən Azərbaycan Bayrağı küçəsi abadlaşdırılıb, 1,5 hektar ərazidə avtomobillər üçün dayanacaq inşa edilib. Bulvara yaxın ərazidə yerləşən üç yaşayış binası əsaslı təmir olunub. Bundan əlavə, bulvar kompleksində kanalizasiya, yağış suları ötürücüsü və içməli su təchizatı sistemi əsaslı şəkildə yenidən qurulub.

*17 fevral 2016-cı il*

# PREZİDENT İLHAM ƏLİYEV GƏNCƏDƏ "İMAMZADƏ" DİNİ KOMPLEKSİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycanın müxtəlif bölgələrində Məhəmməd peyğəmbərin nəslindən olan insanların məzarları var. Bu insanlar imamların övladları olduğu üçün həmin yerlər "İmamzadə" adlandırılıb. Hazırda Azərbaycan ərazisində Naxçıvan, Şamaxı, Bərdə və Masallıda İmamzadə adlı ziyarətgahlar mövcuddur. Bu sahədə araşdırma aparmış bəzi tədqiqatçılara görə, Səudiyyə Ərəbistanı və İraqdan sonra Peyğəmbər nəslinin nümayəndələrinin ən çox məzarları Azərbaycandadır. Belə ziyarətgahlardan biri də Gəncədəki VIII əsrə aid tarixi memarlıq abidəsi - xalq arasında "Göy günbəz", "Göy məscid" yaxud "Göy İmam" kimi tanınan "İmamzadə" dini–mədəniyyət kompleksi şəhərin və bütövlükdə ölkəmizin ən dəyərli memarlıq abidələrindən biri hesab edilir. Bu kompleksin ən qiymətli abidəsi türbədir. Burada beşinci imam Məhəmməd Baqirin oğlu İbrahim dəfn olunub.

Memarlıq quruluşuna görə türbənin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi ehtimal edilir. Türbə sonralar ziyarətgaha çevrilib və onun ətrafında müxtəlif binalar inşa edilib. Azərbaycan memarlığının dəyərli nümunələrindən olan "İmamzadə" piri Şərqin qədim karvan-ticarət yolunun üzərində yerləşib. "İmamzadə" əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahı olub.

Müxtəlif vaxtlarda dağıntılara məruz qalan "İmamzadə" ziyarətgahı 1946-cı ildən "İmamzadə" piri kimi fəaliyyət göstərib. 1970-ci illərdə "İmamzadə"nin idarə olunması Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin tabeliyinə verilib. Müxtəlif vaxtlarda, hətta sovet dövründə, xüsusilə ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə "İmamzadə"də tarixi abidə kimi təmir-bərpa işləri aparılıb. Eyni zamanda, bu, sovet dövründə rəsmi dövlət qeydiyyatından keçmiş yeganə ziyarətgah olub. Bu dini abidə Gəncənin qədimliyini sübut etməklə yanaşı, şəhərin İslam aləmindəki yerini və nüfuzunu da göstərir. Kompleks Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşir. Ölkənin dini–tarixi abidələrinin tamamilə yenidən qurulmasına və gələcək nəsillərə çatdırılmasına həssaslıqla yanaşan Prezident İlham Əliyev bu kompleksin də təmiri və bərpasına xüsusi diqqət göstərib. İnsanların inam və inanc yeri kimi üz tutduğu bu məbəd məhz dövlətimizin başçısının sərəncam və göstərişləri sayəsində belə gözəl görkəm alıb.

Azərbaycan Prezidenti İlham Əliyev əvvəlcə respublika ictimaiyyətinin nümayəndələri və din xadimləri ilə görüşdü.

Mərasim müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başladı.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

## PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli Şeyx həzrətləri, hörmətli din xadimləri, mərasim iştirakçıları.

"İmamzadə" dini mədəniyyət abidəsinin yenidənqurma və əsaslı bərpadan sonra açılışı münasibətilə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bugünkü mərasimdə ölkəmizin hər bir bölgəsindən din xadimləri, nümayəndələr iştirak edirlər. Onları mən dəvət etmişəm. Çünki "İmamzadə" abidəsi bizim ümumxalq sərvətimizdir. "İmamzadə" bütün müsəlman aləminin qiymətli, dəyərli abidəsidir. Azərbaycan xalqı əsrlər boyu ictimai-siyasi quruluşdan asılı olmayaraq bu abidəni qorumuşdur, qoruyur və bundan sonra da qoruyacaqdır. "İmamzadə" bizim milli sərvətimizdir. Bir

neçə il bundan əvvəl dini mədəniyyət abidəsinin yenidən qurulması və əsaslı təmiri üçün mənim tərəfimdən müvafiq Sərəncam imzalanmışdır, işlər başlanmışdır və bu işlər bu gün göz qabağındadır. Yeni məscid, mərasim zalı, inzibati binalar tikilmişdir, ərazi genişləndirilmişdir. Bu, Azərbaycan dövlətinin öz milli, dini dəyərlərinə göstərdiyi münasibətdir. Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, yenidən tikilir. Müstəqillik dövründə 2 minə yaxın məscid, digər dinlərin məbədləri tikilmişdir. Pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikintisi, təmiri həyata keçirilmişdir. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. 2014-cü ildə ölkəmizin ən böyük məscidi – Heydər Məscidi tikilmişdir ki, bu da müsəlman aləminin mühüm tarixi, memarlıq və dini abidəsidir.

Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir, həll olunur. Cəmiyyətimizin, ölkəmizin dayanıqlı inkişafı üçün dövlət-din münasibətlərinin çox böyük əhəmiyyəti var. Azərbaycan modeli, Azərbaycan nümunəsi bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Bizim bu istiqamətdəki siyasətimiz artıq özünü həm ölkəmizdə, həm bölgədə və həm də dünyada təsdiq etmişdir. Biz öz milli mənəvi, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq, eyni zamanda, müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərimizi əsirgəmirik. Əfsuslar olsun ki, müsəlman aləmində son vaxtlar vəziyyət o qədər də ürəkaçan deyil. Ənənəvi ziddiyyətlərə yeni ziddiyyətlər, yeni qarşıdurmalar əlavə olunur. Bu, bizi çox narahat edir.

Azərbaycan müstəqillik dövründə həmişə çalışıb ki, müsəlman aləmində birlik, həmrəylik daha da möhkəm olsun. Bu məqsədlə ölkəmizdə müxtəlif tədbirlər keçirilmişdir. İslam Əməkdaşlıq Təşkilatının, ISESCO-nun xətti ilə onlarla tədbir keçirilmişdir. Deyə bilərəm ki, bu gün müsəlman aləmində, müsəlman aləminin bütün seqmentlərində Azərbaycan və onun siyasəti çox böyük rəğbətlə qarşılanır. Biz bundan sonra da çalışacağıq ki, öz siyasətimizlə, o cümlədən diplomatik səylərlə müsəlman ölkələri arasındakı ixtilafları aradan götürək, gərginliyi azaldaq və bu, bizim borcumuzdur. Biz bunu belə qəbul edirik. Azərbaycanda bütün müsəlmanlar bir ailə kimi yaşayırlar. Tarixdə Azərbaycanda heç vaxt məzhəbçilik zəminində heç bir məsələ olmamışdır. Kiçik anlaşılmazlıq belə olmamışdır, olmamalıdır və olmayacaqdır. Bunun bariz nümunəsi bu yaxınlarda Heydər Məscidində bütün müsəlmanların vəhdət namazı qılmasıdır.

Biz bu istiqamətdə səylərimizi göstərəcəyik. Bir daha demək istəyirəm ki, Azərbaycan müsəlman aləmində çox böyük nüfuza malik olan ölkədir. Biz bunu təkcə iqtisadi və sosial inkişafımıza görə əldə etməmişik. O cümlədən dinlərarası münasibətlərdə oynadığımız rol bütün müsəlman aləmi tərəfindən yüksək qiymətləndirilir. Mənim müsəlman ölkələrinə səfərlərim, müsəlman ölkələrinin rəhbərlərinin Azərbaycana səfərləri dediyimi bir daha təsdiq edir.

Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, bizim böyük sərvətimizdir. Qeyd etdiyim kimi, Azərbaycanda pravoslav, katolik, alban kilsələri, sinaqoqlar tikilir, təmir edilir. Azərbaycanda dinlərarası münasibətlər çox sağlam zəmində həllini tapır. Biz dünyada bu istiqamətdə də öz rolumuzu oynayırıq. Azərbaycanda dünya dinləri liderlərinin zirvə görüşü keçirilmişdir. Ənənəvi humanitar forumlar, mədəniyyətlərarası dialoq forumları keçirilir. Bu il isə Azərbaycanda BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu keçiriləcəkdir ki, bu, dünya miqyasında dinlərarası, mədəniyyətlərarası dialoqun aparılması üçün ən mötəbər forumdur. Bu il bu şərəfli missiyanı Azərbaycan öz üzərinə götürür.

Bütün bu işlərin bir məqsədi var ki, ilk növbədə, ölkəmizin uğurlu inkişafı təmin edilsin, Azərbaycanda yaşayan bütün insanlar özlərini rahat hiss etsinlər, bölgədə təhlükəsizlik tədbirləri gücləndirilsin, dünya miqyasında Azərbaycanın rolu və bizə olan hör-

mət, inam, rəğbət daha da artsın. Biz bunu görürük və eyni zamanda, mən tam əminəm ki, əgər dünyada bundan sonra da dini zəmində qarşıdurmalar davam edərsə, bu, böyük fəlakətə gətirib çıxaracaqdır. Biz artıq hər il yeni münaqişə ocaqlarını, yeni problemli yerləri görürük. Bu gün daha çox miqrantlar böhranından danışırlar. Mən dövlət başçısı kimi bu məsələ ilə bağlı ölkəmizin mövqeyini dəfələrlə ifadə etmişəm və hesab edirəm ki, belə də olmalıdır. Biz bu məsələyə biganə qala bilmərik. Bu gün xarici müdaxilədən əziyyət çəkən insanlar öz canlarını, ailələrinin canlarını qurtarmaq üçün məcburi köçkün vəziyyətinə düşmüşlər. Onlar sadəcə olaraq ölməmək üçün bu əzablara qatlaşıb, böyük təhlükələrlə üzləşib Avropaya üz tuturlar. Yolda da onların çoxu ya dənizdə batır, ya başqa yerdə həlak olur. Biz görürük ki, bunlara qarşı münasibət heç də Avropanın bəyan etdiyi prinsiplərə uyğun gəlmir. Bu adamların heç bir günahı yoxdur. Əgər onların ölkələrinə xaricdən müdaxilə olunmasaydı, onlar öz ölkələrində yaşayardılar. Onlar - yaxınlarını itirmiş, qaçqın-köçkün vəziyyətinə düşmüş milyonlarla insan indi sadəcə olaraq öz canını xilas etmək istəyir. Onlara qarşı bəzi hallarda çox nalayiq hərəkətlər edilir. Onların şəxsiyyəti alçaldılır. Onlar haqqında artıq dünya mediasında çox mənfi rəy formalaşır.

Mən bu barədə dəfələrlə fikirlərimi bildirmişəm. O cümlədən bu yaxınlarda Suriya böhranı ilə bağlı Londonda keçirilmiş konfransda çıxış edərkən demişəm ki, Azərbaycan 1990-cı illərin əvvəllərində humanitar fəlakətlə üzləşmişdi. Bir milyon insan erməni işğalı nəticəsində öz yerindən didərgin düşmüşdür. O vaxt bizim nə imkanımız, nə pulumuz var idi, iqtisadiyyat tamamilə dağılmış vəziyyətdə idi. Biz demək olar ki, təkbaşına o böhranın öhdəsindən gəlirdik. Düzdür, o vaxt - 2010-cu ilə qədər beynəlxalq donor təşkilatları bizə yardımlar edirdilər. Amma təbii ki, o yardımlar 1 milyon insanın tələbatını ödəyə bilməzdi. Yəni, biz bunu təkbaşına etmişik, bu sınaqdan çıxmışıq. Bu gün də köçkünlərin məşğulluğu, yaşayış şəraitinin yaxşılaşdırılması üçün çox böyük işlər görülür. Doxsana yaxın qəsəbə salınıb, 250 minə yaxın köçkün yeni gözəl mənzillərə, evlərə köçüb. Ona görə, bəzi hallarda Yaxın Şərqdən köç edən miqrantlara olan belə münasibət başadüşülən deyil.

Bunun digər tərəfi də var. Bu barədə də mən demişəm, bir daha demək istəyirəm. Belə vəziyyət və xüsusilə Qərb mediasında miqrantlarla bağlı gedən birtərəfli antitəbliğat ona gətirib çıxarır ki, Avropada radikal partiyaların gücü, onlara səs verən əhalinin sayı artır. Onlar getdikcə daha çox siyasi dəstək alırlar. Əgər bu, belə davam edərsə, bir neçə ildən sonra onlar öz ölkələrində hakimiyyətə gələ bilərlər. Belə olan halda necə olacaq? Belə olan halda dinlərarası münasibətlər necə tənzimlənəcək? Bu gün Avropanın, demək olar, bütün ölkələrinin rəsmi mövqeyi təbii ki, müsbətdir. Avropa hökumətləri, onların bəziləri çalışır ki, miqrantlara layiqli münasibət göstərilsin. Biz bunu da görürük və təqdirlə qarşılayırıq. Ancaq bir daha demək istəyirəm, əgər dini zəmində bu qarşıdurma və təbliğat davam edərsə, gələcəkdə biz çox böyük problemlərlə üzləşəcəyik.

Azərbaycan, əlbəttə ki, dünya miqyasında o qədər də böyük ölkə deyil. Ancaq bizim sözümüzün böyük mənası və çəkisi var. Ona görə, şəxsən mən bütün bu məsələlərlə bağlı Azərbaycanın mövqeyini dünya birliyinə çatdıranda, eyni zamanda, bunun həll yollarını da göstərirəm. Həll yolları da Azərbaycan nümunəsidir. Nə üçün bu gün bəzi ölkələrdə deyirlər ki, multikulturalizm iflasa uğrayıb, multikulturalizmin gələcəyi yoxdur? Bu, səhv bir fikirdir. Baxın, Azərbaycanda multikulturalizm yaşayır. Baxın, o qədər də böyük müstəqillik tarixi olmayan, böyük çətinliklərlə üzləşən və işğala məruz qalan, heç vaxt bu işğalçının dini mənsubiyyətinə işarə vurmayan ölkə görün, bu məsələləri necə tənzimləyir. Nəyə görə? Çünki dövlət siyasəti aparılır. Bir daha demək istəyirəm, dövlət siyasəti əsas rol oynayır. Digər tərəfdən, bizim din xadimlərimiz bu istiqamətdə çox böyük rol oynayırlar. Xüsusilə şeyx həzrətlərinin fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. O, həm ölkə daxilində, həm MDB məkanında, dünyada Azərbaycanı tolerant, bütün dinlərin birgə yaşadığı ölkə kimi təqdim edir. Bizim

digər din xadimlərimiz, - onlar burada əyləşiblər, - bu gün çıxış edəcəklər. Mən onların fəaliyyətini yüksək qiymətləndirirəm. Onların da çoxsaylı xarici səfərləri olur. Bu səfərlərdə də onlar sadəcə olaraq Azərbaycan reallıqları haqqında danışırlar. Yəni, bu, əsas amildir. Eyni zamanda, Azərbaycanın bu modelinin təməlində əlbəttə ki, ictimai fikir də dayanır. Azərbaycan ictimaiyyəti də bu siyasəti tam dəstəkləyir.

Ona görə biz bütün dini bayramları bir yerdə qeyd edirik. Bütün mərasimlərdə bir yerdə iştirak edirik. Bu gün burada pravoslav, yəhudi, katolik icmalarının rəhbərləri öz sözlərini deyəcəklər. Bu, təbiidir, bu, belə olmalıdır. Ancaq əfsuslar olsun ki, bəzi hallarda bəzi ölkələrdə biz bunu görmürük.

Biz öz yolumuzla gedəcəyik. Bu gün Azərbaycan istənilən istiqamət üzrə öz inkişaf modelini ortaya qoyur və gözəl nəticələr də bu modelin nə qədər düzgün olduğunu sübut edir. Biz multikulturalizmlə bağlı əlavə tədbirlər də görəcəyik. Bildiyiniz kimi, bu il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Keçən il Azərbaycanda Avropa Oyunları keçirilib, gələn il isə İslam Həmrəylik Oyunları keçiriləcəkdir. Bu, sadəcə olaraq İslam və Avropa ölkələri idmançılarının yarışı deyil, bu, bizim ümumi, ümumbəşəri dəyərlərə verdiyimiz töhfədir. Biz öz məsuliyyətimizi belə qəbul edirik, belə başa düşürük. Biz bu məsuliyyəti ilk növbədə, dövlətimizin, xalqımızın mənafeyi, digər tərəfdən bölgədə sabitliyin bərpası üçün daşıyacağıq. Çünki əgər bölgədə sabitlik bərpa olunmasa, istər-istəməz bu, bizə də təsir edə bilər. Siz də, indi mətbuatı izləyən insanlar, bizim ictimaiyyət də bilir ki, Azərbaycanı müxtəlif düşərgələrə, bizə aid olmayan işlərə cəlb etmək istəyirlər. Biz öz yolumuzla gedirik. Biz heç bir başqa ölkənin daxili işinə qarışmırıq və belə fikrimiz də yoxdur. Heç bir ölkəyə imkan vermirik ki, daxili işimizə qarışsın və imkan verməyəcəyik. Nə qədər bizə təzyiqlər və təhdidlər olsa belə, biz bu yoldan dönməyəcəyik. Ona görə biz öz sözümüzü deyirik. Biz görürük ki, harada vəziyyət ağırdır bunu deyirik, yol göstəririk, öz nümunəmizi göstəririk. Sadəcə olaraq, kimisə tənqid etmək üçün hansısa fikirləri demirik. Deyirik ki, baxın, Azərbaycanda bu məsələlər necə həll olunur. Niyə Azərbaycanda bu mümkündür? Niyə Azərbaycanda xalq vahid amal, ideya uğrunda birləşə bilir, başqa ölkələrdə süni səbəblər üzündən bir-birini öldürür, qanını tökür, qırır? Heç başa düşmür nəyə görə? Yaxın Şərqdə vuruşanların böyük əksəriyyəti anlamır ki, onlar nəyə görə, kimin tərəfində vuruşurlar, kimin maraqlarını müdafiə edirlər. Qardaş qanı axıdırlar, şəhərləri dağıdırlar, elə günə salırlar ki, o şəhərlərin, o ölkələrin bərpası bundan sonra mümkün olmayacaq. Nəyə görə? Çünki təbliğat, xarici təsir və hakimiyyətlərin zəifliyi. Harada ki, hakimiyyət möhkəmdir, xalqla bir yerdədir heç bir kənar qüvvə o hakimiyyətin iradəsinə təsir edə bilməz, o hakimiyyəti heç bir avantüraya çəkə bilməz.

Bir daha demək istəyirəm, Azərbaycan o ölkələrdəndir ki, öz sözünü deyir, öz siyasətini aparır. Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır. Əgər Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləməsə, biz müstəqil siyasət apara bilmərik. Bu gün müstəqil Azərbaycan istənilən məsələ ilə bağlı fəxr edə bilər. Həm siyasi, həm beynəlxalq nüfuzumuz artır, həm də iqtisadi inkişaf göz qabağındadır və dinlərarası, millətlərarası münasibətlər ən yüksək səviyyədə təmin olunur.

Bu gün burada bütün Azərbaycan toplaşıbdır. Azərbaycanın hər bir rayonundan nümayəndələr buradadır. Onları salamlayıram. Xahiş edirəm ki, mənim salamlarımı yaşadıqları bölgələrin sakinlərinə çatdırsınlar. Gəncə sakinlərini salamlayıram, təbrik edirəm ki, "İmamzadə" dini-mədəniyyət mərkəzi yeni görkəm alıbdır. Sağ olun, sizə yeni uğurlar arzulayıram.

* * *

Şeyxülislam Allahşükür Paşazadə dövlətimizin başçısına "Qurani-Kərim" hədiyyə etdi.

* * *

Mübariz Yusifov "Gəncə İmamzadə ziyarətgahı" kitabını Azərbaycan Prezidentinə təqdim etdi.

* * *

Mərasimdən sonra dövlətimizin başçısı "İmamzadə" kompleksində yaradılan şəraitlə tanış oldu.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev Prezident İlham Əliyevə "İmamzadə" dini kompleksinin təmiri, bərpası və ətrafında aparılan abadlaşdırma işləri barədə məlumat verdilər. Bildirildi ki, ümumi sahəsi 1000 kvadratmetr olan digər korpusda Hüseyniyyə və Zeynəbiyyə namazgahları yerləşir. Burada müxtəlif diametrli 46 günbəz ucaldılıb. Xüsusi qurbangahda və 850 nəfərlik ehsan zalında zəvvarların ziyarəti üçün hər cür şərait yaradılıb.

Dövlətimizin başçısı beşinci imam Məhəmməd Baqirin oğlu İbrahimin məzarının yerləşdiyi türbədə oldu.

Azərbaycan Prezidentinin din xadimləri ilə söhbəti zamanı Qafqaz Müsəlmanları İdarəsi sədrinin qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbasov dinimizə göstərdiyi qayğıya, bu dəyərli sənət əsərini Gəncəyə hədiyyə etdiyinə görə dövlətimizin başçısına şəhər sakinləri və dindarlar adından dərin minnətdarlığını bildirərək dedi:

- Cənab Prezident, Allah Ulu Öndərimizin ruhunu şad etsin. Allah onun qəbrini nurla doldursun. Çünki bu gün Azərbaycan Ulu Öndərimizin müəyyənləşdirdiyi siyasət yolu ilə gedir. Bu məscidlərin tikintisi dinimizə, imanımıza, milli mentalitetimizə, xalqımıza olan qayğısının, sayğısının nəticələridir. Siz Ulu Öndərimizin siyasətini uğurla davam etdirirsiniz. Xalqımız Sizə inanır və güvənir. Mən Sizə bütün gəncəlilər, bütün dindarlar adından təşəkkür edirəm.

Siz ilk dəfə Prezident seçiləndən sonra şəhərimizə gəldiniz, bu ziyarətgahı ziyarət etdiniz. Hələ o zaman bu ziyarətgahın bərpasına qayğı göstərəcəyinizi dediniz və tez bir zamanda vədinizə əməl etdiniz. "İmamzadə"də çox böyük iş görülmüşdür.

Cənab Prezident, bu ibadətgahın əvəzi yoxdur. Şeyx həzrətləri bilir, bütün dünyada ziyarətgahlar var. O ziyarətgahları kimsə tikib. Ətrafdakı binaları isə xeyriyyəçilər inşa ediblər. Amma burada bu işi dövlətimiz görüb. Bu, dövlətimizin dinə olan məhəbbətidir, Sizin dinimizə olan məhəbbətinizdir. Burada bir hərəmin, sağ-sol məscidin, Zeynəbiyyənin, Hüseyniyyənin tikilməsi, yol çəkilməsi, yaşıllıq salınması, fəvvarələrin qurulması, inzibati binanın, mərasim zalının inşası və s. üçün Sizə Gəncə camaatı adından təşəkkür edirik. Allah Sizi qorusun. Çox sağ olun.

Prezident İlham ƏLİYEV: Sağ olun.

* * *

Ziyarətgahın müsəlman aləmi üçün əhəmiyyətini və yaxın-uzaq xaricdən gələn zəvvarların sayının ildən-ilə artmasını nəzərə alaraq tikilmiş mehmanxanada 33 müsafir otağı var. Burada da ayrı-ayrılıqda qadınlar və kişilər üçün dəstəmazgah, yeməkxanalar, konfrans zalı, dini kitabxana, muzey fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev "İmamzadə" kompleksində təmir və yenidənqurma işlərini hər zaman diqqətdə saxlayıb, üç dəfə bu kompleksə gələrək tapşırıq və tövsiyələrini verib. Dövlətimizin başçısının Sərəncamı ilə müxtəlif illərdə Prezidentin ehtiyat fondundan kompleksin təmir-bərpa işlərinə ümumilikdə 26 milyon manat vəsait ayrılıb. Təmir-bərpa

işlərinin layihələndirilməsi və icrası yerli qurumlar tərəfindən aparılıb. Belə ki, Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutunun Gəncə filialı tərəfindən hazırlanmış yenidənqurma və bərpa layihəsini "Gəncəkörpütikinti-2" Səhmdar Cəmiyyətinin inşaatçıları icra ediblər. Ziyarətgahda təmir-bərpa və tikinti işləri zamanı qədim memarlıq üslubunu saxlamağa xüsusi diqqət yetirilib. Yenidənqurma zamanı kompleksin ərazisi abadlaşdırılıb, geniş yaşıllıq zolağı salınıb, avtomobil dayanacağı tikilib.

Tədbirin sonunda xatirə şəkli çəkdirildi.

Daha sonra Prezident İlham Əliyevin adından "İmamzadə" dini kompleksində ehsan süfrəsi açıldı.

*17 fevral 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ ANMA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

İyirmi dörd il əvvəl erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı faciəsi qurbanlarının xatirəsini yad edirlər.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva anma mərasimində iştirak etdilər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anma mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzdülər.

* * *

1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verən Xocalı soyqırımı bəşər tarixində ən qanlı faciələrdən biridir. Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecədə erməni silahlı dəstələri hələ SSRİ dövründən Xankəndi şəhərində yerləşən, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etdilər.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin

davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz ədalətli hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Belə ki, bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürəkağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondu, xüsusilə, Fondun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras, Qvatemala, Panama, Sudan parlamentləri, eləcə də, ABŞ-ın 21 ştatının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyan və pisləyən sənədlər qəbul ediblər. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1951-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də, hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

*26 fevral 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN LATVİYALI VƏ MİSİRLİ HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri, Latviya Respublikasının keçmiş Prezidenti xanım Vayra Vike-Freyberqanı və Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldini qəbul edib.

Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin keçirdiyi Qlobal Bakı Forumunun beynəlxalq əhəmiyyətindən danışıldı. Forumun ənənəvi olaraq hər il yüksək səviyyədə təşkil edildiyi bildirildi. Qlobal Bakı Forumunun ildən-ilə genişləndiyi və tədbirə marağın getdikcə daha da artdığı vurğulandı.

Söhbət zamanı qonaqlar qeyd etdilər ki, Forumun uğur qazanması Prezident İlham Əliyevin nüfuzu, uzaqgörənliyi və dəstəyi sayəsində mümkün olub.

*8 mart 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV IV QLOBAL BAKI FORUMUNUN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən IV Qlobal Bakı Forumunda bu dəfə münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunması kimi mühüm məsələlər müzakirə edilir. Bundan başqa, enerji və qlobal idarəçiliyin perspektivləri ilə bağlı məsələlər də Forumun gündəliyinə daxildir.

Albaniya, Monteneqro, Bolqarıstan, Gürcüstan prezidentlərinin də qatıldığı Forumda 27 sabiq prezident və 23 sabiq baş nazir də daxil olmaqla, 53 ölkədən 300-dən çox nümayəndə iştirak edir.

Forumu Misirin İsgəndəriyyə Kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail SERAGELDİN açaraq dedi:

-Burada bu möhtəşəm tədbirin açılışında iştirak etmək mənim üçün böyük şərəfdir. Bizim IV Qlobal Bakı Forumu üçün müstəsna proqramımız var. XX əsrin sonunda üstünlük təşkil edən ənənəvi iqtisadi baxışlar XXI əsrin əvvəlindən başlayaraq bir sıra təhdidlərə məruz qalıb. Qərbin siyasi və iqtisadi baxışlarının təkəbbürü sərhəd tanımırdı, bu da Sovet İttifaqının süqutundan sonra və Çinin yüksəlişinə artıq göz yummaq mümkün olmazdan əvvəl bəzilərini tarixin sonu gəlməsi barədə, digərlərini isə yeni birqütblü dünya barədə danışmağa sövq edirdi. Buna baxmayaraq, yeni əsrin onilliyi ərzində bu mənzərə əsaslı şəkildə dəyişdi. 2008-ci ildə Qərbin maliyyə bazarlarının çökməsi, bunun ardınca bir sıra üzv ölkələrin, əsasən də Yunanıstanın borcu ilə bağlı avrozonadakı böhran göstərdi ki, qlobal bazarların fəaliyyətində dərin nöqsanlar var. İnsanlar unutdular ki, bazar yaxşı xidmətçi, lakin pis sahibdir və o, qayğıkeş dövlətin müşayiəti altında olmalıdır.

Eyni zamanda, ekoloji vəziyyətin pisləşməsi ilə bağlı mürəkkəb çağırış bütün dünya ölkələri tərəfindən daha yaxşı başa düşülməyə başladı və 2015-ci ilin sonlarında dünya liderləri BMT-də yeni davamlı inkişaf məqsədlərini qəbul etdilər. İlin sonunda Parisdə iqlim dəyişikliyi ilə bağlı ümidverici razılaşma imzaladılar. Elm və texnologiya sahəsində İKT inqilabı tam gücü ilə davam edərək yeni imkan və yeni çağırışlara yol açdı, eyni zamanda, qlobal səviyyədə yeni bioloji elmlər də sürətli və iri addımlar atmağa başladı.

Siyasi cəhətdən əsasən 1990-cı illəri əhatə edən birqütblü perspektiv yeni, birgə çoxqütblü perspektivlə əvəzlənərək daha çox ölkə arasında məşvərətçi qüvvələri genişləndirmək və G7 və ya G8 formulunu artırmaqla G20-nin yaranmasının əsasını qoydu. Sonra qlobal terrorizmin vüsət alması bütün hökumətlər üçün yeni çağırış yaratdı. İlkin olaraq Nyu-Yorkda 11 sentyabr dəhşətləri ilə başlayan terrorizm beynəlxalq miqyasda öz simasını tapmağa başladı.

Terrorizmin daha konkret təzahürü "Ərəb baharı" inqilablarının iflası ilə başladı. Biz Yaxın Şərq və Şimali Afrikada iflasa uğramış dövlətlərin meydana gəlməsinin, vətəndaş müharibələrinin şahidi olduq. Suriya, İraq, Yəmən, Somali, Sudan, Liviya, Sinay və Afrika Səhrası kimi uzaq yerlərdə sözlə ifadə edilə bilməyən dəhşətlər törədildi. "Əl-Qaidə" və "İŞİD" terrorçuları islam uğrunda qəddar təşviqata başladıqlarına görə, həm əhalisinin əksəriyyəti müsəlman olan ölkələrdə, həm də Qərbin özündə və İslamın ikinci din olduğu Qərbi Avropa ölkələrində Qərb və müsəlman icmaları arasında artmaqda olan uçurum yaranır. Buna görə də məsələlər təkcə siyasi, iqtisadi, hərbi deyil, həm də mədəni, sosial, dini, kimliyimiz və əvvəlki əsrlərdən bizə miras qalmış bir çox paradiqmaların yenidən nəzərdən keçirilməsinə səhnə olan ümumi bəşəriyyətimiz üçün ciddi çətinlik törədir.

Beləliklə, buna görə də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi IV Qlobal Bakı Forumu bizim çoxqütblü dünyaya doğru irəliləyib-irəliləməməyimiz və nə dərəcədə yaxşı irəliləməyimizlə bağlı məsələlərin araşdırılmasına həsr olunub. Çoxqütblü dünya əməkdaşlığın genişləndirilməsi üçün çoxlu imkanlar təklif edə, həlli çətin olan bütün problemlərə yeni baxış gətirə bilər. Biz İtaliya və başqa yerlərdə keçirilmiş görüşlər ilə IV Qlobal Bakı Forumuna hazırlaşarkən yadlaşmanın aradan qaldırılması, plüralizmin təbliği və icmalar arasında körpülərin qurulmasında dinlərarası dialoqun roluna nəzər saldıq. Bu gün biz dünya nizamına nəzər salacağıq. Bu gün bizdən xüsusi diqqət tələb edən bəzi əsas elementləri müəyyənləşdirməyə çalışacağıq. Bir çoxları razılaşar ki, Suriyadakı fəlakət müxtəlif miqyasda çağırışlara səbəb olur və qlobal səviyyədə reaksiya tələb edir. Bu səbəbdən də Suriyaya xüsusi sessiya həsr olunacaq. Sonda, biz onu da bilirik ki, dünya iqtisadiyyatı, açıq və bərabərhüquqlu cəmiyyətlərin hökumətləri, habelə gender əsaslı və insanlar üzərində qurulmuş qanunlar bizim diqqətimizi cəlb edəcək. Plüralizm və müxtəliflik, həmçinin insan haqlarına dərin hörmət bizim cəmiyyətlərimizin strukturuna əlavə olunmalıdır. Qadın hüquqları həm qadınların, həm də insan hüquqlarıdır.

Gələcəyin qadınlarını gücləndirərkən biz dünənin insanını yenidən hazırlamalıyıq. Hər şeydən əvvəl biz gənclərə qulaq asmaq üçün proqramımızda yer ayırmışıq. Çünki bizim qurulmasına yardım etməyə çalışdığımız dünya onlarındır. Sonda lazımi diqqət və dərin düşüncə tələb edən bir neçə əlavə problem var. Birincisi odur ki, Avropa və ABŞ-dakı kimi yaxşı təşkil olunmuş demokratiyalarda ictimaiyyət ölkələrindəki siyasi proseslərdən və gördükləri kimi fəaliyyət göstərən demokratiya maşınından ciddi şəkildə uzaqlaşır. Bir çox ölkələrdə ekstremist populist siyasətçilər qurulmuş sistemə qarşı çıxır.

İkincisi, İKT inqilabı gəncləri əlçatan edir, bu vəziyyət əvvəlkindən tamamilə fərqlənir. Ekstremizm və zorakılıq məqsədləri üçün gənclərin cəlb olunmasını təmin edən yeni vasitələrə göz yummaq olmaz.

Üçüncüsü, demokratik təhlükəsizliklə bağlı artmaqda olan problem mövcuddur. Biz terrorizmlə üzləşdikcə vətəndaşlarımızı qorumalıyıq, bu, bütün vətəndaşların başlıca insan hüququdur. Lakin, eyni zamanda, biz əmin olmaq istəyirik ki, bu, demokratiyanın təmin etdiyi insan haqları və azadlıqları bahasına başa gəlmir. Bu, həqiqətən də bizim iki gün ərzində nəzərdən keçirməli olduğumuz çox zəngin proqramdır.

İndi isə zati-aliləri, xanımlar və cənablar, böyük məmnuniyyət və şərəflə ev sahibimizə, Prezidentimiz İlham Əliyevə söz vermək istəyirəm.

* * *

Dövlətimizin başçısı rəsmi açılışda nitq söylədi.

## PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Əvvəlcə hamınıza Azərbaycana "Xoş gəlmisiniz" deyirəm, sizi yenidən görməyimə çox şadam. Eyni zamanda, şadam ki, Bakı Qlobal Forumu yaxşı ənənəyə çevrilir.

İlk öncə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Şurasına və həmsədrlər xanım Vayra Vike-Freyberqaya və cənab İsmail Serageldinə təşəkkürümü bildirmək istərdim ki, onların böyük töhfəsi sayəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qısa bir zamanda dünya miqyaslı beynəlxalq təsisata çevrilib.

Bu gün biz beynəlxalq gündəlikdə duran geniş məsələləri müzakirə edəcəyik. Əlbəttə, müzakirələrin mövzuları hamımız, bütün bəşəriyyət üçün çox əhəmiyyətlidir. Lakin əminəm ki, Forumda iştirak edən qonaqlar öz dəyərli fikir və ideyaları ilə dünyada sülh, təhlükəsizlik və proqnozlaşdırıla bilmə naminə bu işə töhfələrini verəcəklər. Hər bir beynəlxalq forum, onun səviyyəsi əsas etibarilə tədbir iştirakçılarının səviyyəsindən asılıdır. Burada, qonaqlarımız arasında 50-dən artıq hazırkı və sabiq dövlət və hökumət başçıları, görkəmli siyasətçilər, ictimai xadimlər və mütəxəssislər vardır. Bu isə bizim bu gün və sabah aparacağımız müzakirələrin səviyyəsini nümayiş etdirir.

Sonuncu dəfə ötən ilin yazında görüşümüzdən bu günədək dünyada vəziyyət dəyişmişdir. Hamımız bunun şahidiyik və təəssüf ki, dəyişikliklər müsbət məcrada olmamışdır. Dünya daha da sakit və təhlükəsiz olması əvəzinə, daha da təhlükəli olmuşdur. Bizim regionda da vəziyyət kəskin şəkildə dəyişmişdir. Mövcud münaqişələr həll edilməmiş qalır, bununla yanaşı, yeni münaqişələr, yeni qarşıdurma və təhlükə bölgələri yaranmışdır. Bu səbəbdən hesab edirəm ki, dövlət və hökumət başçıları, siyasətçilər olaraq biz gərginliyin azaldılması üçün rolumuzu oynamalıyıq. Çalışmalıyıq ki, əməkdaşlıq, qarşılıqlı anlaşma və hörmət üçün zəmin yaransın. Əks təqdirdə, gələcəkdə vəziyyət pisləşməkdə davam edəcək.

Yaxın Şərqdə və Avropanın müəyyən yerlərindəki vəziyyət, qaçqın böhranı – bunlar son illərin reallıqlarıdır. Odur ki, IV Qlobal Bakı Forumunun əsas məqsədlərindən biri bu məsələlərin müzakirəsidir və xüsusilə də iştirakçıların səviyyəsi, onların beynəlxalq məsələlərə töhfələri, təcrübə və biliklərini nəzərə alsaq, bunların hamısı yaranmış vəziyyətdən çıxış yolunun tapılmasına yardım edə bilər.

Düşünürəm ki, hamımız vahid məqsəd - əməkdaşlıq, qarşılıqlı anlaşma, sabitlik və sülhün təşviqi ətrafında birləşmişik. Çünki biz bir-birimizlə bağlıyıq. Bəzən adama elə gələ bilər ki, televiziya vasitəsilə izlədiyimiz qorxulu hadisələr yad bir planetdə baş verir. Lakin reallıqda bu, qonşuluqda baş verir və qaçqın böhranı nümayiş etdirdi ki, biz bir-birimizlə əlaqəliyik. Hər bir əməl, addım və ya digər dövlətlərin daxili işlərinə müdaxilə mütləq həmin müdaxiləni edənlər üçün çətinliklər yaradacaqdır.

Hesab edirəm ki, bugünkü reallıqların ibrət dərsi məhz budur. Biz bir-birimizə ehtiram nümayiş etdirməli, seçimə, ərazi bütövlüyünə və gələcəklə bağlı planlara hörmətlə yanaşmalıyıq. Bunların hamısı təmasda olmaq üçün zəruridir. Çünki əsas məqsədimiz gərginliyin və mövcud təhlükələrin azaldılmasıdır.

Bu il Azərbaycan müstəqilliyinin 25-ci ildönümünü qeyd edəcək. Bu illərdə, xüsusilə müstəqilliyin ilk illərində biz vətəndaş müharibəsi, humanitar böhran, işğal, təcavüz, iqti-

sadi çətinliklər və deyərdim, iqtisadi iflasdan əziyyət çəkmişik. Azərbaycan terror hücumlarının hədəfinə çevrilmişdir. 1990-cı illərin əvvəlində erməni terror təşkilatları dəfələrlə mülki vətəndaşlara qarşı terror aktları törətmişlər. Bu gün təəssüf ki, Ermənistan və Azərbaycan arasında olan münaqişə həll olunmamış qalır.

Müstəqillik illərində ölkəmizin böyük uğurlara nail olaraq, müasir, sabit, proqnozlaşdırıla bilən, özünü təmin edən dövlətə çevrilməsinə baxmayaraq, bu münaqişə öz həllini tapmalıdır. Onun üçün həll olunmalıdır ki, 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün evlərinə qayıtsın, zorakılığa son qoyulsun və regionumuzda sülh bərqərar olunsun. Belə olmadığı halda bütün ölkələr əziyyət çəkəcəkdir. Azərbaycanın tarixi və hüquqi ərazilərini işğal edən Ermənistan bundan bəhrələnə bilməmişdir. İqtisadi çətinliklər, təcridolunma, miqrasiya və yoxsulluq həmin təcavüzün və işğalın nəticəsidir.

Dağlıq Qarabağ Azərbaycanın tarixi və hüquqi bir parçasıdır. Bütün beynəlxalq birlik Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bu münaqişə nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, bizə qarşı etnik təmizləmə aparılmışdır. Ərazimizin 20 faizinin işğalı hələ də davam etməkdədir. Beynəlxalq təşkilatlar, xüsusilə də BMT və onun Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən çoxsaylı qətnamələr qəbul etmişdir. Təəssüf ki, bu qətnamələr həyata keçirilməmişdir.

Düşünürəm ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasının mexanizmi məsələsi xüsusi mövzu kimi müzakirə edilməlidir. Bəzən Təhlükəsizlik Şurasının qətnamələri bir neçə saat və ya gün içərisində icra edilir. Bizə gəldikdə isə, artıq iyirmi il keçir. Bu, siyasi iradənin, xüsusilə də həmin qətnamələri qəbul edən dövlətlərin siyasi iradəsinin olmamasının təzahürüdür.

Bu gün danışıqlar prosesi davam edir və burada hər hansı bir uğur yoxdur. Bunun başlıca səbəbi isə Ermənistanın sülh istəməməsidir. Onlar işğal edilmiş ərazilərin özlərinin qeyri-qanuni nəzarətində saxlanılmasını və status-kvonun dəyişməz olaraq qalmasını istəyirlər. Bu isə mümkünsüzdür – status-kvo dəyişməlidir. Danışıqlar prosesində həmsədrlik edən üç ölkə - Təhlükəsizlik Şurasının daimi üzvü olan üç dövlət dəfələrlə çıxış edərək status-kvonun qəbuledilməz və dəyişməli olduğunu bəyan etmişdir. Buna nail olmaq üçün Ermənistan işğal edilmiş əraziləri tərk etməli və işğala son qoymalıdır. XXI əsrdə hər bir nöqteyi-nəzərdən, istər siyasi, istər hüquqi, istərsə də humanitar baxımdan qonşu dövlətin ərazisinin işğalı və danışıqlar prosesinin əngəllənməsi tamamilə anormal haldır.

Hesab edirəm ki, münaqişənin həlli üçün ilk olaraq Azərbaycan daha da qüdrətli olmalıdır və proses davam edir. İkincisi isə beynəlxalq ictimaiyyət, xüsusilə də bu münaqişə ilə məşğul olmaq mandatına sahib dövlətlər siyasi iradə nümayiş etdirməli və təcavüzkarı işğala son qoymağa məcbur etməlidirlər. Necə ki, biz bunu dünyanın bir çox yerlərində görürük - təcavüzkar dayandırılır, cəzalandırılır, sanksiyalara məruz qalır və işğala son qoyulur.

İşğal edilmiş ərazilərimizdə hər şey darmadağın edilmişdir. ATƏT oraya iki dəfə faktaraşdırıcı missiya göndərmişdir və hər iki halda onların hesabatları real vəziyyəti əks etdirmişdir. Bu, bizə də məlumdur. Bizim bütün tarixi abidələrimiz, məscidlərimiz, məzarlıqlarımız dağıdılmışdır. Bu gün biz tez-tez televiziya kanallarında Yaxın Şərqdə tarixi abidələrin məhv edilməsi ilə bağlı reportajlar izləyirik. İyirmi il bundan öncə eyni hadisələr Azərbaycanın işğal edilmiş ərazilərində baş vermişdir. Fərq ondan ibarətdir ki, o zaman beynəlxalq ictimaiyyət və media bu mövzuya o qədər də əhəmiyyət verməmiş, bəlkə də həmin məlumatlara çıxış əldə edə bilməmişdir. Ancaq mahiyyət dəyişmir – eyni məsələ və eyni yanaşma. Bu isə regionun sülh və təhlükəsizliyi baxımından çox qorxulu məsələdir. Çünki təcavüzkar cəzalandırılmadığı halda o, yeni bir ssenari planlaşdıracaq.

1990-cı illərin əvvəlində üzləşdiyimiz bu vəziyyətə və humanitar böhrana baxmayaraq, Azərbaycan uğurla inkişaf etmişdir. Yeri gəlmişkən deyim ki, həmin vaxt adambaşına düşən qaçqın sayına görə ən yüksək göstərici bizdə idi – 1 milyondan artıq insan doğma torpaqlarında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. O zaman bizim əhalimizin sayı təqribən 8 milyona bərabər idi. Yəni, biz humanitar böhranın öhdəsindən gəlməyi bacaran ölkəyik.

O vaxtkı Azərbaycan bugünkü Azərbaycandan fərqli idi. Yoxsul, müstəqilliyini yeni bərpa etmiş, iqtisadiyyatı bərbad vəziyyətdə və sənayesi dağılmış olan ölkənin gələcək ilə bağlı perspektivləri yox vəziyyətində idi. Əsas məqsədimiz dövlətimizi qurmaq, güclü iqtisadiyyat yaratmaq, ölkəni xarici sərmayələr üçün açmaq və dünyanın bazar iqtisadiyyatı sisteminin tərkib hissəsinə çevrilməkdən ibarət idi.

Biz buna nail ola bildik. Bu gün ölkə sabitdir və biz islahatları davam etdiririk. Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır. Bütün fundamental azadlıqlar təmin edilir – söz azadlığı, toplaşma azadlığı, dini azadlıq, media azadlığı. Bizdə azad internet mövcuddur. Son iyirmi ildir ki, senzura ləğv olunub və vətəndaşlarımızın 70 faizdən çoxu internet istifadəçisidir. Siyasi azadlıqlar iqtisadi islahatlarla dəstəklənir.

2004-2014-cü illərdə Azərbaycan iqtisadiyyatı dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatı olmuşdur. Biz işsizlik və yoxsulluğu kəskin şəkildə azaldaraq 40 faizdən 5 faizə endirməyə müvəffəq olmuşuq. İqtisadiyyatımız daha da rəqabətqabiliyyətli olmuşdur və Davos İqtisadi Forumunun hesablamalarına əsasən rəqabət qabiliyyətinə görə Azərbaycan iqtisadiyyatı dünyada 40-cı yerdədir. Biz əsas infrastruktur layihələrini, o cümlədən insanlarımızın yaşayış standartlarını yaxşılaşdırmaq üçün sosial infrastruktur layihələrini icra etmişik və bununla da həm də sərmayələr üçün daha münbit şərait yarada bilmişik.

Adambaşına düşən birbaşa xarici sərmayəyə görə biz ən qabaqcıl mövqelərdəyik. Bu, ilk növbədə neft-qaz sahəsinə yatırılmış sərmayələr idi. Hazırda isə biz qeyri-neft sektoruna sərmayəçilər cəlb etməyə çalışırıq. Neft və qazdan asılılığımızın azaldılması islahatlarımızın tərkib hissəsi olmuşdur və bunun nəticəsində bu gün neft-qaz sahəsi bizim ümumi daxili məhsulun təqribən 30 faizini, büdcə gəlirlərimizin isə 50 faizini təşkil edir. Məqsədimiz neft və qazdan asılılığımızı tamamilə aradan qaldırmaqdır. Bu yaxınlarda dediyim kimi, Azərbaycan üçün postneft dövrü artıq başlamışdır. Ona görə yox ki, biz hasilatı azaltmışıq. Neftin qiyməti kəskin şəkildə - dörd dəfə aşağı düşmüşdür. Bu səbəbdən tamamilə yeni bir vəziyyət yaranır və dünyanın heç bir ölkəsi buna hazır deyildi. Heç kəs təsəvvür edə bilməzdi ki, bir ilin içində qiymət bu dərəcədə kəskin şəkildə aşağı düşsün. Bu səbəbdən biz bu vəziyyətin mənfi nəticələrinin aradan qaldırılması üçün fəal və səmərəli işləməli olduq. Hazırda bizim maliyyə vəziyyətimiz yenidən sabitdir, proqnozlaşdırıla biləndir və məlumat vermək istərdim ki, büdcəmizdə neftin barrelinin qiyməti 25 dollar səviyyəsində nəzərdə tutulmuşdur. Bu isə hər hansı bir iqtisadi çətinliyə qarşı bir növ zəmanət deməkdir. Bizim Neft Fondunda böyük vəsaitlərimiz var ki, bu, yaranmış vəziyyətdən minimum risklə çıxmağımıza imkan verir.

Eyni zamanda, bu vəziyyət bizi islahatlarla bağlı daha da səmərəli işləməyə məcbur edir və artıq islahatların böyük hissəsi tətbiq edilməkdədir. Bu islahatlar Beynəlxalq Valyuta Fondu tərəfindən də dəstəklənir – yəni, biz düzgün yoldayıq. Hazırda biz iqtisadiyyatımızın şaxələndirilməsi məsələsi ilə məşğul oluruq və iqtisadi inkişafın yeni sahələrini müəyyən edirik. Onlardan biri bizim illərdir ki, çalışdığımız, lakin beynəlxalq birlik üçün tamamilə yeni sahə olan nəqliyyat infrastrukturunun yaradılmasıdır. Biz Azərbaycana gələcəkdə bu regionda güclü mövqeyə malik olmağa imkan verəcək nəqliyyat infrastrukturu şəbəkəsi yaradırıq.

Bizim coğrafi mövqeyimiz çox əlverişlidir. Bu səbəbdən nəqliyyat infrastrukturuna, o cümlədən dəmir yollarının, hava və dəniz limanlarının inşasına yatırılan sərmayələr

sayəsində biz nəqliyyat infrastrukturlarının kəsişmə nöqtəsinə çevrilirik. Artıq Şərq-Qərb nəqliyyat dəhlizi fəaliyyətə başlamışdır və ümid edirəm ki, bu il biz Azərbaycan, Gürcüstan və Türkiyə dəmir yollarının birləşdirilməsini başa çatdıracağıq. Beləliklə, Avropa və Asiya yeni, ən qısa nəqliyyat marşrutu əldə edəcəkdir. Çindən Avropaya gedən ilk konteyner qatarı artıq Azərbaycan ərazisindən keçmişdir. Bu, müasir infrastruktura malik olan yeni İpək Yoludur və biz bu marşrutu daha da cəlbedici etmək üçün tərəfdaşlarımıza vahid tariflərin tətbiqini təklif etmişik.

Qonşularımız və tərəfdaşlarımızla birgə çalışdığımız daha bir layihə Şimal-Cənub nəqliyyat dəhlizidir ki, onun sayəsində yüklər Pakistandan Hindistana, daha sonra İrana, oradan Azərbaycan ərazisindən Rusiyaya və Şimali Avropaya nəql ediləcəkdir. Azərbaycan müasir infrastruktura sərmayə qoyur və ümid edirəm ki, tezliklə bu marşrutdan istifadə olunmağa başlanacaqdır. Yəni, bütün bu marşrutlar bizim ərazidən keçir. Təbii ki, bu, Azərbaycanın geosiyasi əhəmiyyətini artırır və gələcəkdə bizə ölkəmizin inkişafına sərf ediləcək əlavə gəlirlər gətirəcəkdir.

Əlbəttə, iqtisadiyyatımız üçün enerji sektoru öz önəmini saxlayır və bu gün enerji təhlükəsizliyi baxımından onun əhəmiyyəti artmaqdadır. Ötən ayın sonu - fevralın 29-da biz Bakıda, həmin bu zalda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının ikinci iclasını keçirmişik. Biz bu layihəni XXI əsrin layihəsi adlandırırıq. Bu, bir meqalayihədir və bu gün Avropada həyata keçirilən ən iri infrastruktur və enerji layihələrindən biridir. Onun təşəbbüskarı Azərbaycandır və Azərbaycan burada həm də təşkilatçı və sərmayəçi qismində aparıcı rol oynayır. Layihənin dəyəri 45 milyard dollara bərabərdir və bu işdə biz müxtəlif dövlət və şirkətlərdən ibarət güclü komanda yaratmışıq.

Həmin Məşvərət Şurasının yaradılmasında əsas məqsəd səylərimizin əlaqələndirilməsi və layihənin cədvəl üzrə icrasını təmin etməkdən ibarətdir. Bu layihə bir neçə mərhələdən ibarətdir. "Cənub" qaz dəhlizinin dörd elementi var. Azərbaycanın nəhəng qaz yatağından hasil olunan qaz öz aralarında birləşmiş 3500 kilometr uzunluğunda üç qaz boru kəməri vasitəsilə Bakını İtaliyanın limanları ilə birləşdirəcəkdir.

Əlbəttə, bu, nəhəng sərmayədir və bu layihənin əlaqələndirməyə ehtiyacı vardır. Fevralın 29-da məhz bu zalda 11 dövlətin və Avropa Komissiyasının iştirakı ilə Bəyannamə imzalanmışdır ki, orada Azərbaycanın "Cənub Qaz Dəhlizi" layihəsinin həyata keçirilməsində mühüm və strateji rolu vurğulanmışdır. Biz həqiqətən də müxtəlif ölkələrdən ibarət komanda yaratmışıq və kəmərin marşrutu boyu yerləşən ölkələrin adlarını sadalamaq istərdim – Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya "Cənub Qaz Dəhlizi" layihəsinin üzvləridir. Daha iki dövlət – Xorvatiya və Monteneqro da Bəyannaməni imzalamışlar və əminəm ki, qarşıdan gələn illərdə onlar da heyətimizə qoşulacaqlar. Bəyannaməni imzalayanlar sırasında ABŞ və Böyük Britaniya hökumətlərinin yüksək səviyyəli nümayəndələri və Avropa Komissiyasının vitse-prezidenti də olmuşdur. Yəni, bu 12 imza onu nümayiş etdirir ki, "Cənub" qaz dəhlizi artıq reallıqdır.

Bu, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və azad rəqabət layihəsidir. Zənnimcə, bütün enerji layihələri məhz bu şəkildə icra edilməlidir. Bizim əsas məqsədimiz bu layihəni başa çatdırmaqdır və onu kommersiya layihəsi kimi həyata keçirməkdir. Bəzən enerji təhlükəsizliyinə aid olan məsələlər həddindən artıq siyasiləşdirilir və biz bunun əleyhinəyik. Siyasət və enerji bir-birindən ayrı olmalı, enerji siyasi alət kimi istifadə edilməməlidir. Həmçinin onun bu şəkildə istifadə edilməsi, biznes fəaliyyətinə müdaxiləsi də çətinliklər yaradır.

Bu layihə sayəsində Azərbaycan bundan sonra onilliklər ərzində öz təbii sərvətlərini ixrac edəcək və bazarları şaxələndirəcək. Avropa üçün isə bu, ehtiyac duyacağı qazın yeni mənbəyi deməkdir və bununla avropalı istehlakçıların tələbatı təmin ediləcəkdir. Baxma-

yaraq ki, bu gün biz dünyada iqtisadi çətinliklərin şahidi oluruq, ancaq bu, müvəqqətidir və neftin qiyməti uzun müddət belə aşağı səviyyədə qalmayacaqdır. İqtisadi artım fəallığı yüksəldəcək və Avropanın təbii qaza olan tələbatı yalnız artacaqdır. Burada hər kəs üçün yer olacaqdır. Düşünürəm ki, lüzumsuz rəqabətin olmaması üçün istehsalçılar da səylərini əlaqələndirməlidir. Həm istehsalçıların, həm də istehlakçıların öz məqsədləri var.

"Cənub Qaz Dəhlizi" layihəsində biz istehsalçı, istehlakçı və tranzit dövlətlər arasında balans yaratmağa nail olmuşuq. Yəni, burada uduzan tərəf yoxdur və bu səbəbdən o, olduqca uğurla inkişaf edir. Bu qədər iştirakçıların olduğu, qısa bir zamanda və neftin qiymətinin aşağı olduğu bir vaxtda milyardlar tələb edən belə bir nəhəng layihənin həyata keçirilməsi böyük çağırışdır. Enerji təhlükəsizliyi şübhəsiz ki, siyasi gündəlikdə əsas yer tutacaq. Hesab edirəm, "Cənub" qaz dəhlizi vasitəsilə göstərdiyimiz nümunə nümayiş etdirir ki, enerji ilə siyasəti ayıranda uğur əldə oluna bilər.

Bu il Azərbaycanda "Multikulturalizm ili"dir. Müxtəlif etnik köklərə, dinlərə malik insanlar əsrlər boyu Azərbaycanda sülh, əmin-amanlıq şəraitində yaşamışlar və biz bununla fəxr edirik. Fərəhlənirik ki, müstəqillik illərində bu müsbət meyil daha da güclənmişdir. Multikulturalizm və dini dözümlülük Azərbaycanda dövlət siyasətidir. Eyni zamanda, bu, cəmiyyətdə olan əhval-ruhiyyənin təcəssümüdür. Bu isə çox vacibdir ki, həmin sahədə dövlət siyasəti və ümumi ab-hava bir-birindən fərqlənmir.

2008-ci ildə biz "Bakı prosesi"nə start verdik və ilk dəfə İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin mədəniyyət nazirlərini Avropa Şurasına üzv olan dövlətlərin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına dəvət etdik. "Bakı prosesi" artıq bir reallıqdır. Biz Azərbaycanda multikulturalizm dəyərlərini təşviq edən çoxsaylı beynəlxalq tədbirlər keçirmişik. Dünya dini liderlərinin zirvə görüşü, bir neçə dəfə Mədəniyyətlərarası Dialoq Forumu və Beynəlxalq Humanitar Forum təşkil etmişik. Təqribən bir aydan sonra biz BMT-nin təşkilatçılığı ilə Azərbaycanda Sivilizasiyalar Alyansının 7-ci toplantısını keçirəcəyik.

Azərbaycanın bu sahədəki təcrübəsi aparıcı beynəlxalq təşkilatlar və beynəlxalq birlik tərəfindən yüksək qiymətləndirilir. Bu, multikulturalizmin yaşadığını, onun gələcəyinin olmasını sübut edir, sadəcə siyasətçilər, ictimai rəyə təsir etmək iqtidarında olanlar, o cümlədən media nümayəndələri daha məsuliyyətli olmalıdırlar. Hesab edirəm ki, bu məsələdə medianın rolu daha müsbət olmalıdır. Təəssüf ki, bir çox hallarda biz xəbərlərdə qarşıdurma, qaçqın böhranı və bunlarla bağlı kadrlar görürük.

Bu yanaşma yalnız təcridolunmaya gətirir. Biz buna imkan verə bilmərik. Çünki qeyd etdiyim kimi, biz bir-birimizlə bağlıyıq və eyni planetdə yaşayırıq. Artıq şahid olduğumuz kimi, Avropa ilə Yaxın Şərq arasındakı məsafə o qədər də böyük deyil. Yəni, məsafə insanların sığınacaq tapmaq və öz ailələrini xilas etmək naminə oralara üz tutmağın qarşısını almır. Odur ki, multikulturalizmin müsbət nümunələri üzərində dayanmaqla, bu dəyərlərin təşviqi hamımıza yardımçı olar. Çünki gələcəkdə heç bir ölkə və millət təcrid olunmuş vəziyyətdə yaşaya bilməz. Biz bir-birimizə bağlıyıq. Dünya ölkələrinin mütləq əksəriyyətinin əhalisi çoxmillətli və çoxdinlidir. Biz bununla fəxr etməliyik.

Ötən ay biz müsəlman dünyasının ən müqəddəs məkanlarından olan İmamzadə Dini-Tarixi Kompleksinin yenidənqurma və bərpadan sonra açılışında iştirak etdik. Yeri gəlmişkən, bu kompleks Gəncədə, Nizami Gəncəvinin vətənində yerləşir. Azərbaycan xalqı bu abidəni VIII əsrdən bəri qoruyur. Ərazidə yeni məscid də inşa edilmişdir və mən Azərbaycanın müxtəlif bölgələrindən olan insanları ora dəvət etmişdim. Orada mənimlə yanaşı çıxış edənlərin arasında Azərbaycanın müxtəlif dini icmalarının rəhbərləri olmuşlar – Azərbaycan müsəlmanlarının, Azərbaycanın Rus Pravoslav kilsəsinin, yəhudi icmasının və Azərbaycanın Katolik kilsəsinin rəhbərləri. Onlar bu tədbirdə yalnız iştirak etməmiş,

həm çıxış etmiş və həm də yeni inşa edilmiş məscidi ziyarət etmişlər. Bu işlər bizim ölkədə belə qurulub. Bu, bizim cəmiyyətimizə, xalqımıza və dünyaya olan mesajımızdır.

Bir neçə ay bundan öncə Azərbaycanın ən böyük məscidində sünni və şiə müsəlmanlar bir yerdə namaz qılmışlar və bunu vəhdət namazı adlandırmışlar. Bu da bir daha real vəziyyəti əks etdirir. Burada nə müsəlman icması daxilində, nə də, ümumiyyətlə, cəmiyyətimizdə fərq qoyulmur. Bu, Azərbaycan reallığıdır, bizim ən böyük sərvətlərimizdəndir və uğurlu inkişafımızın zəmanətidir. Çünki bu konsensus, bu birlik olmadan biz uğur əldə edə bilmərik. Biz daha da böyük nailiyyətlər əldə etməkdə, ölkəmizi müasirləşdirməkdə davam etmək istəyirik. Biz buna yalnız dostluq və multikulturalizm kimi birgə dəyərlərə əsaslanaraq nail ola bilərik.

Ötən il Azərbaycan ilk Avropa Oyunlarına, 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsinə ev sahibliyi etmişdir. Bakı İslam Mədəniyyəti Paytaxtı elan edilmişdir və gələn il biz İslam Həmrəylik Oyunlarını təşkil edəcəyik. Azərbaycan Avropa Şurasının və eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Bu, mədəniyyətlər, ənənələr, dinlər arasında körpüdür və bu, bizim məsuliyyətimizdir. Biz bu rolu ilk öncə öz ölkəmizin uğurlu gələcəyi və regionda sabit proqnozlaşdırıla bilən vəziyyətin yaradılması naminə oynayırıq.

Əminəm ki, proqramın vacib mövzuları üzrə müzakirələr regionumuzda və dünyada müsbət inkişafa böyük töhfə olacaqdır. Forumun işinə uğurlar diləyirəm. Təşəkkür edirəm.

* * *

Sonra birgə foto çəkdirildi.

*10 mart 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər.

Milli geyimli oğlanlar və qızlar Azərbaycan Prezidentinə bayram xonçası təqdim etdilər, dövlətimizin başçısına və xanımına Novruz bayramı münasibətilə təbriklərini çatdırdılar.

İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.

Ulu Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.

Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.

Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.

### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqına xoşbəxtlik, yeni uğurlar arzulayıram.

Azərbaycan xalqı öz milli mənəvi dəyərlərinə həmişə sadiq olmuşdur. Bu gün Azərbaycan dövləti milli dəyərlərimizin qorunması üçün ardıcıl siyasət aparır.

Novruz bayramı bizim milli sərvətimizdir. Müstəqil Azərbaycan dövləti də milli mənəvi dəyərlər üzərində qurulmuşdur. Bu il biz müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd edəcəyik. Bu illər ərzində Azərbaycan sürətlə inkişaf edib.

Müstəqilliyimizin ilk illərində ölkəmizdə gedən proseslər bütün Azərbaycan xalqını çox narahat edirdi. Vətəndaş müharibəsi, iqtisadi və siyasi böhran, torpaqlarımızın işğal altına düşməsi nəticəsində Azərbaycanın gələcəyi sual altında idi. Xalqın tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət dəyişdi, sabitlik, asayiş bərpa edildi və Azərbaycan inkişaf yoluna qədəm qoydu. O vaxtdan bu günə qədər biz bu inkişaf yolundan dönməmişik.

Son illər sürətli inkişaf dövrüdür. Azərbaycan bütün sahələrdə böyük uğurlara imza atıb və bu gün, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkədir.

Azərbaycanda təhlükəsizlik yüksək səviyyədə təmin edilir. Bu gün Azərbaycan xalqı yaxşı görür ki, müxtəlif regionlarda, bölgələrdə vəziyyət gərginləşir, yeni münaqişə, müharibə ocaqları yaranır. Keçən il burada, Novruz şənliyində çıxış edərkən, əlbəttə, biz təsəvvür edə bilmirdik ki, bir il ərzində bu qədər dəyişikliklər olacaq. Bu dəyişikliklər müsbətə doğru dəyişikliklər deyil, yeni münaqişə, qarşıdurma ocaqları, yeni müharibələr, miqrant böhranı. Azərbaycan isə sabitlik, təhlükəsizlik məkanıdır. Biz çalışırıq və çalışacağıq ki, ölkəmizi bütün mümkün risklərdən qoruyaq, xalqımızın rahat yaşamasını, təhlükəsiz həyatını təmin edək və ölkəmizi inkişaf yolu ilə irəliyə aparaq.

Bugünkü dünyada bir çox ölkələr üçün təhlükəsizlik məsələləri ön plana çıxır. Azərbaycan bu sahədə nümunəvi ölkədir. Azərbaycan xalqı rahat, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşayır. Azərbaycanda kriminogen durum çox yaxşıdır. Bu göstəriciyə görə biz dünya miqyasında liderlər sırasındayıq. Bir sözlə, hər bir ölkənin inkişafı üçün ictimai-siyasi sabitlik, iqtisadi inkişaf, təhlükəsizlik əsas şərtlərdir. Biz qürur hissi ilə deyə bilərik ki, müstəqillik illərində, xüsusilə son illər ərzində Azərbaycanda təhlükəsizlik tədbirləri ən yüksək səviyyədə təmin edilir. Biz heç bir ölkənin daxili işinə qarışmırıq, heç bir avantüraya qoşulmuruq, öz işimizlə məşğuluq, öz ölkəmizi inkişaf etdiririk, xalqımızın rifahını təmin edirik. Əlbəttə, heç vaxt imkan verməmişik və verməyəcəyik ki, kimsə bizim daxili işimizə qarışsın. Çünki Azərbaycan xalqı öz taleyinin sahibidir. Biz ölkəmizin inkişafı, çiçəklənməsi üçün əlimizdən gələni edirik. Bütün Azərbaycan cəmiyyəti vahid ideya, amal uğrunda birləşibdir - ölkəmizi gücləndirək, iqtisadiyyatı inkişaf etdirək, xalqımızın rifah halını daha da yüksəklərə qaldıraq.

Azərbaycan dünya miqyasında böyük hörmətə malik olan bir ölkədir. Bu ilin ilk ayları bunu bir daha göstərir. Bütün beynəlxalq məsələlərlə bağlı bizim prinsipial mövqeyimiz var və bu mövqeyə heç bir kənar qüvvə təsir edə bilməz. Biz ədalətin, beynəlxalq hüququn, əməkdaşlığın tərəfdarıyıq. Biz heç vaxt imkan verməmişik, vermirik və verməyəcəyik ki, Azərbaycan başqa dövlətlərin maraqlarını təmin etmək üçün qarşıdurma məkanına çevrilsin. Əksinə, Azərbaycan əməkdaşlıq məkanıdır. Biz bölgədə sabitləşdirici, barışdırıcı rol oynayırıq. Bizə olan hörmət getdikcə artır. Çünki bizim sözümüzlə əməlimiz birdir. Biz prinsipial mövqe nümayiş etdiririk. Bəzi ölkələrin bu mövqedən xoşu gəlməyə bilər, ancaq bu, bizim problemimiz deyil. Belə olan halda, əlbəttə ki, təzyiqlər də olacaq, bizi müxtəlif səmtlərə çəkmək üçün səylər göstəriləcək. Amma, eyni zamanda, bizə olan hörmət daha da artacaq. Biz öz siyasətimizlə dünya miqyasında böyük hörmət qazanmışıq və bu hörmət getdikcə artır.

Son iki ay ərzində - yanvarın sonlarından bu günə qədər səkkiz dövlət və hökumət başçısı Azərbaycana səfər etmişdir. Mən son iki ay ərzində bir çox beynəlxalq tədbirlərdə

iştirak etmişəm, həmçinin Davos Dünya İqtisadi Forumunda. Bu Forum dünya miqyasında bir nömrəli iqtisadi və siyasi Forumdur. Azərbaycan bu Forumda fəal iştirak edir, öz sözünü deyir. Azərbaycana olan maraq getdikcə artır. Münxen Təhlükəsizlik Konfransı, hesab edirəm ki, dünya miqyasında əhəmiyyət baxımından Davosdan sonra ikinci beynəlxalq tədbirdir. Orada da Azərbaycan hər il iştirak edir, öz sözünü deyir. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın işğalçı siyasəti ilə bağlı öz sözünü deyir və bütün arqumentlərlə erməni təbliğatını darmadağın edir.

Bu il mən London konfransında iştirak etmişəm. Bu konfrans da çox önəmli idi. O konfransda iştirak Azərbaycanın önəmini, dünyada oynadığı rolu və əlbəttə ki, bizə olan rəğbəti göstərir.

Mənim Birləşmiş Ərəb Əmirliklərinə, İran İslam Respublikasına, Türkiyəyə rəsmi və işgüzar səfərlərim olub. Yəni, yanvar ayının sonundan bu günə qədər Azərbaycan çox fəal xarici siyasət aparmışdır. Sadaladıqlarım ancaq mənim iştirak etdiyim tədbirlərdir. Bundan başqa digər böyük tədbirlər də keçirilmişdir. Bakıda IV Qlobal Forum keçirilmişdir. Bu Forumda 50-dən çox fəaliyyətdə olan və keçmiş dövlət, hökumət başçısı iştirak etmişdir. Bütün bu amillər onu göstərir ki, Azərbaycan dünya miqyasında çox böyük rol oynayır və bu rol xüsusilə indiki zamanədə daha da artır. Dünya ictimaiyyəti görür ki, bizim bölgədə sabit olan, prinsipial siyasət aparan ölkələrin sayı o qədər də çox deyil.

Beynəlxalq əlaqələr daha da genişlənəcək. İl ərzində bir çox başqa tədbirlər də gözlənilir, xüsusilə gələn ay Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçiriləcəkdir. Bu Forumun Bakıda keçirilməsi Azərbaycana olan hörmətin təzahürüdür.

Beynəlxalq məsələlərə gəldikdə, bizim üçün əsas məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, bu istiqamətdə heç bir irəliləyiş yoxdur. Bunun başlıca səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyi, bu məsələ ilə bilavasitə məşğul olanların biganəliyi və bəzi hallarda təxribatıdır. Mən bunu açıq deməliyəm. Azərbaycan xalqı bunu bilir, bilməlidir. Onsuz da Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə Azərbaycan xalqının o qədər də böyük inamı olmamışdır. Amma yanvar ayında onların törətdikləri əməllər bu inamı tamamilə dağıtmışdır. Bildiyiniz kimi, Avropa Şurası Parlament Assambleyasında iki qətnamə irəli sürülmüşdür. Bu qətnamələr çox dərin təhlil üzərində tərtib edilmişdir. Böyük iş görülmüşdür və bir qətnamə səs çoxluğu ilə qəbul edildi. Orada erməni işğalı pisləndi, erməni millətçilərinin Azərbaycan xalqına qarşı törətdikləri vəhşiliklərlə bağlı Avropa deputatları öz səslərini ucaltdılar. Əfsuslar olsun ki, digər qətnamə qəbul edilmədi. Lehimizə cəmi dörd səs çatmamışdır. Bizim bütün təhlillərimiz göstərirdi ki, hər iki qətnamə rahatlıqla keçəcək. Çünki bizdə bununla bağlı kifayət qədər məlumatlar var idi. Avropa Şurası Parlament Assambleyasının deputatları, bir çox ölkələrin Xarici İşlər nazirlikləri bu əminliyi bizdə yaratmışdılar. Ancaq Minsk qrupunun həmsədrlərinin Avropa Şurasının işinə kobudcasına müdaxiləsi bu xoşagəlməz vəziyyətə gətirib çıxarıb. Onlar Avropa Şurasına səfər etmişlər. Orada Avropa Şurasının rəhbərliyinə bu qətnamənin qəbul olunmaması üçün təzyiq göstərmişlər ki, guya bu qətnamə münaqişənin həllinə problem yaradır. Biz bunu təxribat kimi qəbul edirik. Onu da qeyd etməliyəm ki, nəinki Strasburqda, eyni zamanda, bir çox Avropa ölkələrinin Xarici İşlər nazirliklərinə də onlar oxşar siqnalları, mesajları vermişlər ki, bu qətnamə qəbul edilməsin. Bunun nəticəsində, bir daha demək istəyirəm ki, bizə cəmi dörd səs çatmadı. Əlbəttə, bu qətnamə qəbul olunsaydı daha yaxşı olardı. Nəzərə alsaq ki, birinci qətnamə qəbul edilmişdir və orada bizə lazım olan bütün müddəalar öz əksini tapmışdır, ikinci qətnamənin qəbul edilməməsi böyük facię deyil. Mən bunu sadəcə ona görə deyirəm ki, Azərbaycan xalqı bir daha bilsin, münaqişənin həll olunmaması təkcə Ermənistanın mövqeyi ilə bağlı deyil. Bu məsələ ilə bilavasitə məşğul olmağa mandat alan Minsk qrupunun həm-

sədrləri pozucu fəaliyyətləri ilə münaqişənin dondurulmasına xidmət edirlər. Onlar öz səlahiyyətlərini aşaraq beynəlxalq təşkilatların işinə müdaxilə edirlər. Ermənistana təzyiq etmək əvəzinə ermənilərə himayədarlıq edirlər, onları qoruyurlar. Münaqişənin həlli əvəzinə qəribə təkliflər verirlər ki, təmas xəttində təhlükəsizlik tədbirləri möhkəmləndirilsin. Yəni, bu, nə deməkdir? O deməkdir ki, işğalçı dövlət özünü daha rahat hiss etsin və işğalı, status-kvonu daha da möhkəmləndirsin. Biz burada, əlbəttə, həm Azərbaycana qeyri-dost, qeyri-səmimi münasibət, eyni zamanda, riyakarlıq görürük və bunu açıq deyirik, onların üzünə deyirik. Mən burada artıq ictimaiyyətə də bunu deyirəm, bir tərəfdən onların dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Digər tərəfdən, Minsk qrupunun həmsədrlərinin pozucu fəaliyyəti status-kvonun möhkəmlənməsinə xidmət edir. Bax, budur münaqişənin uzadılmasının əsas səbəbi və hesab edirəm ki, bu siyasətin arxasında hansı amillərin dayandığını Azərbaycan xalqı çoxdan bilir. Bu, ədalətsizlikdir. Bu, ikili standartlar siyasətidir. Biz bu siyasəti rədd edirik və bundan sonra bütün kürsülərdə öz sözümüzü deyəcəyik. Ancaq istəyirəm Azərbaycan ictimaiyyəti onu da bilsin ki, bu, reallıqdır, real siyasətdir. Bunu etiraf etmək nə qədər acı olsa da bu, real siyasətdir və biz bu siyasəti qəbul etmirik. Azərbaycan dövlətinin siyasəti beynəlxalq hüquqa, ədalətə, əməkdaşlığa əsaslanır. Ancaq bizə qarşı belə təxribatçı addımların atılması, əlbəttə ki, cavabsız qalmır və qalmayacaqdır.

Münaqişənin həlli üçün ilk növbədə ölkəmiz, ordumuz daha da güclü olmalıdır. Bu istiqamətdə böyük işlər görülür. Bu gün biz təmas xəttində tam üstünlüyü əldə etmişik. Düşmənə sarsıdıcı zərbələr vurulur, qarşı tərəf panikaya qapılır və anlayır ki, xaricdən siyasi, iqtisadi və hərbi dəstək olmasa işğal edilmiş torpaqları bir həftə belə işğal altında saxlaya bilməyəcək. Biz isə güclənirik, güclənməliyik. Bu məsələni Azərbaycan xalqı həll edəcək. Mən buna əminəm.

2016-cı ildə siyasi və iqtisadi islahatlar daha da dərinləşir. Azərbaycan demokratiya yolu ilə gedir. Azərbaycanda bütün azadlıqlar təmin edilir, insan haqları yüksək səviyyədə qorunur. Səmimi deyə bilərəm ki, Azərbaycan demokratik inkişafa görə bu gün bir çox ölkələr üçün nümunə ola bilər.

İqtisadi sahədə aparılan dərin islahatlar əminəm ki, neft amilindən asılılığımızı tamamilə aradan götürəcək. Bu, bizim məqsədimizdir. Biz bu məqsədə doğru gedirik. Keçən ilin sonlarından başlayaraq bu il də davam edən islahatlar siyasəti artıq gözəl nəticələr verir. Qanunvericilikdə dəyişikliklər edilmişdir. Mənim tərəfimdən müvafiq sərəncamlar imzalanmışdır. Azərbaycanın uzunmüddətli, dayanıqlı iqtisadi inkişafının təmin edilməsi üçün konkret addımlar atılır. Əminəm, ilin sonuna qədər davam edən əsas islahatlar, yəni, qəbul ediləcək qərarlar ondan sonra elə şərait yaradacaq ki, Azərbaycan iqtisadiyyatı neft amilindən asılılığını azaldacaq və dediyim kimi, tam aradan götürəcəkdir. Dayanıqlı inkişaf bizim hədəfimizdir. Onu da qeyd etmək istəyirəm ki, biz ancaq öz resurslarımıza əsaslanırıq. Düzdür, bəzi kütləvi informasiya vasitələrində yazılıb ki, Azərbaycan xarici dəstək, xarici maliyyə yardımı istəyib. Bu, tamamilə yalan və mötəbər mətbu orqanlara yaraşmayan təxribatdır. Biz öz hesabımıza yaşamışıq, yaşayacağıq. İndi bizim nə qədər imkanımız varsa, iqtisadi inkişafı o qədər də təmin edəcəyik. Ancaq qeyd etməliyəm ki, mötəbər beynəlxalq qurumlar, xüsusilə Beynəlxalq Valyuta Fondu bizim siyasətimizi, iqtisadi islahatlarımızı dəstəkləyir və bu siyasətimizə çox yüksək qiymət verir. Onu da qeyd etməliyəm ki, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə dünya miqyasında 40-cı yerə layiq görübdür. Bu da çox böyük göstəricidir. İslahatlar dərinləşəcək, bütün sahələrdə şəffaflıq tam təmin ediləcək. Biz gələcək iqtisadi fəaliyyətimizi, si-

yasətimizi yeni iqtisadi model üzərində aparacağıq və əminəm ki, yaxın zamanlarda daha da böyük nəticələrə nail olacağıq.

Onu da qeyd etmək istəyirəm ki, dövlət tərəfindən qəbul edilmiş təcili tədbirlər nəticəsində təkcə ilin birinci rübündə, - hələ ki rüb başa çatmayıb, - dövlət sektorunda 30 minə yaxın yeni iş yeri açılmışdır. Bu, mənim göstərişimlə həyata keçirilən tədbirlərdir. Əlbəttə, biz yaxşı başa düşürük, hər bir ölkə çalışmalıdır ki, özəl sektorda iş yerləri açılsın. Bu istiqamətdə də işlər gedir. Biznes qurumlarına müvafiq tövsiyələr verildi. Onlara maliyyə dəstəyi də veriləcək. Xüsusilə bu il icrası nəzərdə tutulan layihələrin həcmi təxminən 1,5-2 milyard manat ətrafındadır. Yəni, bu, on minlərlə yeni iş yerinin yaradılmasına gətirib çıxaracaq. Ancaq təcili tədbirlərin görülməsi də labüd idi. Yenə də deyirəm, dövlət sektorunda, dövlət şirkətləri və dövlət qurumları tərəfindən 30 minə yaxın iş yeri açılmışdır. Bax, budur bizim sosial siyasətimiz. Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Baxmayaraq ki, gəlirlərimiz azalıb, neftin qiyməti kəskin şəkildə aşağı düşüb, biz maaşların, pensiyaların artırılması ilə bağlı qərar qəbul etmişik, 10 faiz artıbdır. Hələlik bizim buna imkanımız çatır. Ancaq onu da qeyd etmək istəyirəm ki, əgər ətrafa baxsaq görərik ki, bu da nadir bir haldır, çünki xüsusilə dünya böhranı zamanı maaşlar artırılmır, kəsilir, verilmir. Biz isə sosial siyasətimizi bir daha göstəririk. Göstəririk ki, Azərbaycan inamla inkişaf edəcək. Bu əminlik var. Heç bir böhran, neftin qiymətinin ucuzlaşması bizim siyasətimizə təsir etməyəcək. Bizim kifayət qədər resurslarımız, valyuta ehtiyatlarımız var, iqtisadi göstəricilərimiz çox müsbətdir. Əlbəttə ki, aparılan islahatlar bizi daha da gücləndirəcəkdir.

Biz yeni sahələri işə salırıq ki, o sahələr ölkəmizə böyük siyasi və iqtisadi mənfəət gətirəcək. Nəqliyyat sektorunu xüsusilə qeyd etmək istərdim. Biz indi Şərq-Qərb və Şimal–Cənub dəhlizlərinin yaradılması üzərində işləyirik, ilkin nəticələr var. Apardığımız siyasət, irəli sürdüyümüz təşəbbüslər nəticə verir. Biz Şərq-Qərb nəqliyyat dəhlizinin cəlbediciliyini artırmaq üçün qonşu ölkələr olan Gürcüstan və Türkiyə ilə vahid tarif siyasəti aparmaq barədə təşəbbüs irəli sürmüşük. Bu təşəbbüs müsbət qarşılanıb. Artıq işlər görülür. Keçən ilin sonlarında mənim Gürcüstana, Çinə və bu yaxınlarda Türkiyəyə səfərlərim çərçivəsində həmin məsələlər müzakirə edilmişdir. Biz yeni dəhliz yaradırıq. Asiyadan Avropaya ən qısa yol Azərbaycan ərazisindən keçəcək. Buna nail olmaq üçün biz lazımi infrastrukturu yaratmışıq və yaradırıq, eyni zamanda, qonşu ölkələrlə vahid tarif siyasəti aparılmalıdır ki, burada xərclər daha da azalsın.

Şimal-Cənub nəqliyyat dəhlizinin bu yaxınlarda icrasının sürətlənməsi yenə də bizim təşəbbüsümüzlə bağlıdır. İndi həm İran, həm Rusiya ilə danışıqlar aparılır və yenə də Azərbaycan burada öz önəmli rolunu oynayır. Əminəm ki, bu dəhlizi də biz yaradacağıq. Beləliklə, bu dəhlizlər yaranandan sonra onilliklər ərzində Azərbaycan böyük siyasi və iqtisadi mənfəət götürəcək. Nəqliyyat sektorunun gəlirləri neftdən fərqli olaraq tükənən sərvət deyil.

Neft-qaz sektoru ilə bağlı bu ilin fevral ayında Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının ikinci toplantısı keçirilmişdir. Çox böyük uğurla keçirilmişdir. Azərbaycan bir daha öz liderlik rolunu göstərmişdir. Məşvərət Şurası toplantısının yekunları ilə bağlı Birgə Bəyannamə imzalanmışdır. Bu Bəyannaməni 11 ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya, Xorvatiya, Monteneqro, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya və Avropa Komissiyası imzalamışdır. Yəni, bu Bəyannaməni 12 tərəf imzalayıb. Bəyannamənin əsas mahiyyəti ondan ibarətdir ki, əlaqələndirmə işləri bundan sonra da davam etdiriləcək. Sənəddə Azərbaycanın bu işlərdə aparıcı, strateji, liderlik rolu qeyd edilib. Yəni, bu, artıq bütün beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilir və bilinir, tanınır ki, əgər biz təşəbbüs göstərməsəydik, əgər biz maliyyə və-

saiti ayırmasaydıq, "Cənub" qaz dəhlizi gözəl ideya kimi hələ qalacaqdı, bunu onilliklər bundan sonra da müzakirə edəcəkdik. Biz bu ideyanı reallığa çeviririk. "Cənub Qaz Dəhlizi" bizim üçün çox böyük əhəmiyyətə malik olan bir layihədir və imkan verəcək ki, zəngin qaz resurslarımızı ixrac edək. Əgər bu layihə icra edilməsəydi bu ehtiyatlar dənizin dibində qalacaqdı. Biz onları çıxarırıq, minlərlə, on minlərlə iş yeri yaradılmaqdadır. Azərbaycanın ixrac potensialı güclənəcək. Bizim önəmimiz daha da artacaq. Azərbaycan Avropa üçün əvəzolunmaz ölkəyə çevrilir. Bizim maraqlarımız təmin ediləcək, gücümüz daha da artacaq.

Bildiyiniz kimi, bu il Azərbaycanda "Multikulturalizm ili" elan edilib. Təkcə ona görə yox ki, bu il Azərbaycanda Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçiriləcəkdir. Ona görə ki, indiki şəraitdə dünyada gedən toqquşmalar, o cümlədən milli, dini zəmində toqquşmalar bizi çox narahat edir. Biz yol göstəririk, nümunə göstəririk. Göstəririk ki, multikulturalizm yaşayır. Multikulturalizmin iflasa uğradığını deyənlər elə multikulturalizmin məhv edilməsinə çalışanlardır. Onlar bəlkə də başa düşmürlər ki, necə böyük səhv buraxırlar. Biz göstəririk ki, bu, mümkündür. Biz göstəririk ki, belə olmalıdır. Biz göstəririk ki, bütün millətlər, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar, yaşayacaqlar. Azərbaycan dövləti onları, onların maraqlarını, milli duyğularını, ləyaqətini qoruyur. Onlar bizim qardaşlarımızdır. Bizim gücümüz birliyimizdədir. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim sərvətimizdir. Biz bunu qorumalıyıq, qoruyacağıq və bir daha demək istəyirəm ki, dünyaya yol göstəririk. Bir çox məsələlərlə bağlı yol göstəririk - inkişaf, müstəqillik, ləyaqət, prinsipial siyasət, xalqlararası, millətlərarası münasibətlər, din–dövlət münasibətləri, energetika siyasəti, nəqliyyat siyasəti. Budur bugünkü Azərbaycanın reallıqları.

Əminəm ki, biz 2016-cı ili də uğurla başa vuracağıq. Azərbaycanın uğurlu inkişafı təmin ediləcəkdir.

Bir daha sizi və bütün Azərbaycan xalqını gözəl bayram münasibətilə təbrik edirəm. Sağ olun.

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dənizkənarı Milli Parka gəldilər.

Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar.

Kosa və Keçəl Prezidenti və xanımını bayram münasibətilə təbrik etdilər, dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bayram konsertinə baxdılar.

Dövlətimizin başçısı və xanımı Kənd Təsərrüfatı Nazirliyinin bayram münasibətilə təşkil etdiyi "Novruz" yarmarkası ilə tanış oldular. Burada bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsullar nümayiş etdirilir. Yarmarkada ölkəmizin 10 iqtisadi rayonundan 42 şirkət məhsullarını təqdim edir. Son dövrlərdə Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində digər sahələrdə olduğu kimi, kənd təsərrüfatında da mühüm nailiyyətlər əldə olunub. Bu gün Azərbaycan özünü keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin edir. Azərbaycanın ekoloji cəhətdən təmizliyi ilə seçilən kənd təsərrüfatı məhsullarına dünyada da tələbat artır.

Novruz xalqımızın tarixi yaddaşından süzülüb gələn ənənələri yaşadan, keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayan bayramdır. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində qoyulan qadağalar digər milli mənəvi dəyərlərimiz kimi, Novruzu da Azərbaycan xalqının şüurundan silə bilmədi. Hər bir xalqın milli mənəvi dəyərlərinin qorunmasında və

inkişafında tarixi şəxsiyyətlərin də üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyevin tariximiz qarşısındakı xidmətləri sırasına Novruzun yenidən xalqımıza qaytarılması kimi ümummilli məsələ də var. Çünki məhz Heydər Əliyevin sayəsində ümumi mədəni hərəkatın tərkib hissəsi kimi, milli bayramımız olan Novruz ötən əsrin 70-80-ci illərində əvvəlki dövrlərlə müqayisədə kütləvi qeyd olunmağa başladı. Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə Novruz təntənələri xalqımızın həyatına birdəfəlik daxil oldu. Bu gün Prezident İlham Əliyev də mədəni-mənəvi irsimizə xüsusi diqqətlə yanaşır. Novruzun gəlişi ilə bağlı dövlətimizin başçısının hər il xalqa ünvanladığı təbriklər də onun milli mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşdığını göstərir.

Qeyd edək ki, 2010-cu ildə BMT-nin qərarı ilə martın 21-i Beynəlxalq Novruz Günü elan olundu. Bu, böyük bir arealda yaşayan 200 milyondan çox insanın milli mənəvi yaddaşına dünyanın ən mötəbər qurumu səviyyəsində verilən dəyərin təzahürü idi. Qədim tarixə malik Novruz həm də əcdadlarımızın bizə töhfəsi, onlardan qalan mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, mühüm insani dəyərləri təcəssüm etdirir. Varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlər boyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə səsləyir. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıb.

Prezident İlham Əliyev və Mehriban Əliyeva "Natiq" ritm qrupunun və aşıqların ifalarını dinlədilər, Azərbaycan xalçalarının nümunələri ilə tanış oldular.

Milli Parkda təşkil edilən "Şərq bazarı" bayram şənliyinin iştirakçılarında xüsusi maraq doğururdu. Burada ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və sənətkarlıq nümunələri maraqla qarşılandı. Bir tərəfdə isə gənc pəhləvanlar xalça üzərində qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və şənliyin digər iştirakçıları bu səhnələri maraqla izlədilər, qədim el sənətlərinin nümunələrinə baxdılar.

Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu mərasimdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də təqdim edilirdi. Müxtəlif rayonlardan gətirilmiş Novruz mətbəxinin nümunələri də şənlik iştirakçılarında maraq doğurdu.

Prezident və xanımı mayın 5-dən 21-dək Bakıda keçiriləcək 17 yaşadək futbolçular arasında Avropa çempionatının final mərhələsi ilə bağlı yaradılan guşəyə baxdılar. Burada dövlətimizin başçısına və xanımına çempionatın açılış mərasiminin biletləri təqdim olundu.

Qeyd edək ki, çempionatın ölkəmizdə keçirilməsi ilə bağlı qərar 2012-ci ilin martında İstanbulda UEFA İcraiyyə Komitəsinin iclasında qəbul edilib. Çempionatın 16 komandanın qatılacağı final mərhələsinin bütün oyunları Bakıda keçiriləcək. Bu mötəbər yarışların təşkilinə 800 könüllünün cəlb edilməsi nəzərdə tutulub. Könüllülərin fəaliyyət sahələrinə biletlərin yoxlanılması, media, protokol, marketinq, qeydiyyat, qonaqpərvərlik, tibb, nəqliyyat və digər məsələlər daxildir.

İyunun 19-da Bakıda keçiriləcək "Formula-1" üzrə Avropa Qran-prisinin başlanmasına bu gün düz üç ay vaxt qalır. Bununla bağlı "Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti Novruz bayramı günlərində dənizkənarı bulvarda "Formula-1" əyləncə zonası yaradıb. Simulyasiya oyunlarına, azyaşlı uşaqlar üçün əyləncə məkanına, könüllülərin və marşalların fəaliyyətini işıqlandıran xüsusi guşələrə yer veriləcək bu zonada konsert proqramlarının təşkili də nəzərdə tutulub.

Burada da Prezident İlham Əliyevə və Mehriban Əliyevaya yarışları izləmək üçün biletlər təqdim olundu.

Azərbaycan Prezidenti onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirdi.

Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

Bayram şənliyi incəsənət ustalarının, el sənətkarlarının ifasında rəngarəng konsert proqramı ilə davam etdi.

*19 mart 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XALQ YAZIÇISI MAQSUD İBRAHİMBƏYOVUN MƏZARINI ZİYARƏT ETMİŞDİR

Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva Fəxri xiyabanda Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Dövlət mükafatı laureatı, Əməkdar İncəsənət Xadimi, Xalq Yazıçısı Maqsud İbrahimbəyovun məzarını ziyarət edərək xatirəsinə dərin ehtiramlarını bildirdilər.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Maqsud İbrahimbəyovun həyat yoldaşı Anna İbrahimbəyovaya bir daha başsağlığı verdilər.

Anna İbrahimbəyova həyat yoldaşının xatirəsinə göstərilən ehtirama görə dövlətimizin başçısına və xanımına minnətdarlıq etdi.

*28 mart 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV “AITF-2016” XV AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İLƏ TANIŞ OLMUŞDUR

Aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində “AITF-2016” XV Azərbaycan Beynəlxalq turizm və səyahətlər və “HOREX Caucasus-2016” X Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olublar.

Regionda turizm sənayesi üzrə aparıcı tədbirlərdən biri olan “AITF-2016” sərgisi bu il 15 illik, “HOREX Caucasus-2016” sərgisi isə 10 illik yubileyini qeyd edir. “AITF-2016” sərgisi keçirildiyi illər ərzində bütövlükdə Xəzəryanı regionda mühüm tədbirlərin təşkil olunduğu, tərəfdaşlıq müqavilələrinin imzalandığı, habelə yeni proqram və istiqamətlərin elan edildiyi əsas turizm tədbirinə çevrilib, bu sənaye sahəsinin qovşağı statusunu qazanıb.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev dövlətimizin başçısına və xanımına məlumat verdi ki, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Turizm Assosiasiyası, Dünya Turizm Təşkilatı və Asiya-Sakit Okean Turizm Assosiasiyası sərgiyə fəal dəstək verib. Turizm ölkəmizin qeyri-neft sektorunun perspektivli sahələrindən biri olduğu üçün bu sahənin inkişafına xüsusi diqqət göstərilməsi və onun dəstəklənməsi hazırda dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi də bu prosesə töhfə verir. Təsadüfi deyil ki, 2002-ci ildə keçirilən ilk sərgidə 5 ölkədən 26 şirkət iştirak edirdisə, sonrakı illərdə müsbət dinamika əldə olunub. Builki sərgidə 40 ölkədən 200-dən artıq şirkət iştirak edir. Müstəqil auditin məlumatlarına əsasən,

bu sərgi regionda ölkə, şirkət və turizm marşrutlarının sayı üzrə bütün digər turizm sərgiləri arasında birinci yeri tutur.

Azərbaycanın 20-dən artıq turizm şirkətini, eləcə də otel və sanatoriyalarını öz stendində bir araya gətirən Azərbaycan Turizm Assosiasiyası da ölkədə turizmin inkişafına güclü dəstək verir. 2009-cu ildən fəaliyyətdə olan Assosiasiya hazırda ölkəmizdə turizm və otel sahəsində təlim və inkişaf həllərini təmin edən ən böyük qeyri-hökumət təşkilatlarından biridir.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ölkəmizin turizm regionlarını əks etdirən ekspozisiyalara baxdılar.

Qeyd edək ki, daxili turizm Azərbaycanda əsas təmayül olaraq qalır. Hazırda diqqət paytaxtla yanaşı, bölgələrdə də geniş turizm şəbəkəsinin yaradılmasına yönəldilib. Naxçıvan Muxtar Respublikası da daxil olmaqla ölkəmizin malik olduğu təbii gözəllikləri, ecazkar təbiəti və digər istiqamətləri nümayiş etdirmək baxımından sərgi bir çox özəllikləri ilə seçilir. Qax, Qəbələ, Gəncə, Zaqatala, İsmayıllı, Lənkəran, Mingəçevir, Masallı, Sumqayıt və digər regionların ənənəvi ekspozisiyalarında Azərbaycanın daxili turizm potensialı təqdim edilir, milli mədəniyyətimizin zəngin nümunələri qonaqlara nümayiş olunur. Qarabağ regionunun gözəlliyini və turizm imkanlarını nümayiş etdirən ənənəvi stend də sərgidə yer alıb. Bakıda keçiriləcək "Formula-1" Avropa Qran-prisinin təşkilatçısı "Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti də sərgidə ayrıca stendlə təmsil olunur. Burada yarışların proqramı, eləcə də hamının səbirsizliklə gözlədiyi Qran-priyə biletləri harada və necə əldə etməklə bağlı ətraflı məlumat verilir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sərgidə xarici ölkələrin milli pavilyonları ilə də tanış oldular.

Bildirildi ki, keçirildiyi illər ərzində Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgilərində dünyanın 40-dan çox ölkəsindən təxminən 2200 şirkət iştirak edib. Bu il də sərgidə çoxlu xarici şirkətin iştirakı diqqət çəkir. İndoneziya milli pavilyonunda bu ölkə ecazkar təbiəti, zəngin mədəniyyəti və qonaqpərvər insanlara malik olan dünyanın möhtəşəm səyahət məkanlarından biri kimi təqdim olunur. Bu ölkənin turizm obyektləri tarixi məkanlar da daxil olmaqla, təbiət və mədəniyyət mənzərələrini əhatə edir. Rusiyanın şəhərlərinin, xüsusilə də Stavropol vilayətinin təqdim etdiyi imkanlar da sərgidə böyük maraqla qarşılanır.

Bu il tibbi və sağlamlıq turizmi istiqamətlərini təmsil edən iştirakçıların sayı əhəmiyyətli dərəcədə artıb. Belə ki, sərgidə Azərbaycan, Belarus, Gürcüstan, İtaliya, Latviya, Xorvatiya, Çexiya, Rusiya, Türkiyə, Ukrayna və digər ölkələri təmsil edən şirkətlər, o cümlədən tibb mərkəzi, sağlamlıq ocağı və sanatoriyalar müalicə-sağlamlıq və SPA turizmi üzrə ən son nailiyyətləri təqdim edirlər. Hindistan da builki sərgidə fəal iştirak edir. Ümumiyyətlə, bu ölkə din, dil və adət-ənənələrin heyrətamiz rəngarəngliyinə malik olmaqla bütün mədəniyyətlərin fərqli ənənələrinin sintezini təqdim edir. Hindistan hər zaman tarixi abidələri, dağ kurortları, vəhşi təbiəti və maraqlı ekoloji sistemi ilə turistlərin diqqətini çəkir.

İran İslam Respublikasının milli pavilyonunda bu ölkənin müxtəlif turizm istiqamətləri barədə geniş məlumat verilir. Burada İranın turizm şəbəkəsinin malik olduğu potensial qonaqlara əhatəli şəkildə təqdim edilir.

Belarus, Bolqarıstan, Gürcüstan, Dominikan, İspaniya, Tailand, Monteneqro, Çexiya və Ukrayna şirkətləri öz ölkələrinin turizm potensialını və milli koloritini parlaq şəkildə nümayiş etdirmək məqsədilə sərgidə özəl pavilyonlar quraşdırıblar. ABŞ, İordaniya, İsveçrə, Latviya, Maldiv adaları, Sloveniya, Yunanıstan və digər ölkələrin turizm şirkətləri və otelləri də sərgiyə qatılıb. Qonşu Gürcüstan da builki sərginin iştirakçıları sırasındadır. Bu ölkənin Milli Turizm Assosiasiyasının qatıldığı sərgidə Gürcüstanın malik olduğu tu-

rizm potensialı barədə geniş informasiya çatdırılır. Məqsəd Gürcüstana gəlmək istəyən turistlərin təəssüratlarını zənginləşdirmək və ölkədə turizmin davamlı inkişafını təmin etməkdir.

Sərgidə Türkiyə də geniş təmsil olunur. Mütəxəssislər deyirlər ki, dünyanın ən məşhur və tanınmış turizm məkanlarından olan Türkiyənin potensialının təqdim olunması baxımından bu sərgi əla fürsətdir. Bu, həm də turizm sahəsində yeni marketinq strategiyalarının müəyyən olunmasına və təşviqinə geniş imkanlar açır.

Hər bir sərgi yeni aviareys və hava xətlərinin elan edildiyi, memorandum və beynəlxalq müqavilələrin imzalandığı, sənayedəki yeni məhsul və nailiyyətlər barədə hesabatların səsləndirildiyi platformadır. Odur ki, bu sərgi Azərbaycanın zəngin turizm potensialını xarici iştirakçılara təqdim edir. Bu da ölkəmizin turizm məkanı kimi məşhurlaşmasına şərait yaradır. Bakı Ekspo Mərkəzində İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunun xüsusi pavilyonunun yaradılması, milli əl işlərindən ibarət ekspozisiyanın quraşdırılması da ölkəmizin turizm potensialının kompleks təbliğinə xidmət edir.

Sərgi ilə tanışlıqdan sonra dövlətimizin başçısı və xanımı turistlər üçün şəhər turlarında istifadə ediləcək avtobusa və mikroavtobusa baxdılar, onlarda yaradılan şəraitlə tanış oldular.

Prezident İlham Əliyev sərgilərin işinə uğurlar arzuladı.

***8 aprel 2016-cı il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSTANBULDA İƏT-İN XIII SAMMİTİNİN BİRİNCİ SESSİYASINDA ÇIXIŞ ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birinci sessiyada çıxış edib.

### PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Hörmətli cənab sədr,

Hörmətli cənab baş katib.

Zati-aliləri, Sammit iştirakçıları.

İlk növbədə əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana İslam Əməkdaşlıq Təşkilatının Sammitinə dəvətə və tədbirin əla təşkilinə görə təşəkkür edirəm.

Son illərdə qardaş Türkiyə beynəlxalq aləmdə artan nüfuzu sayəsində “Böyük İyirmiliyin” üzvü kimi qlobal inkişafa mühüm töhfə verir. İslam Əməkdaşlıq Təşkilatına sədrliyi dövründə Türkiyəyə uğurlar arzulayıram. İslam Əməkdaşlıq Təşkilatının baş katibi cənab Mədəniyə təşkilatımızın inkişafı üçün göstərdiyi səylərə görə təşəkkür edirəm.

Azərbaycan İslam ölkələri ilə əməkdaşlığı prioritet hesab edir. Son illər ərzində Bakıda İƏT-ə üzv ölkələrin xarici işlər, mədəniyyət, turizm, təhsil, əmək və digər nazirlərinin 10-a yaxın görüşü olmuşdur. Mən İƏT-in qarşılıqlı dəstək və həmrəylik yolunda fəaliyyətini yüksək qiymətləndirirəm. Bu gün dünyada islamofobiya ciddi təhlükələrdən biridir. Biz bu tendensiyanı qətiyyətlə pisləyirik. Əslində İslam sülh, mərhəmət, dözümlülük, ədalət dinidir. İslamı terrorla eyniləşdirmək isə səhv və qərəzli yanaşmadır. Terrordan ən çox əziyyət çəkən elə müsəlman ölkələridir.

Hörmətli Sammit iştirakçıları, mən sizin diqqətinizi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb etmək istəyirəm. Ermənistan 20 ildən artıqdır ki, Azərbayca-

na qarşı işğalçılıq siyasəti aparır. Bu siyasət nəticəsində Azərbaycan ərazisinin 20 faizi - Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon Ermənistan tərəfindən işğal edilmiş, həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılmış və bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan Xocalı soyqırımını törətmişdir. Beynəlxalq birlik və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Eyni zamanda, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul etmişlər. Mən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyən ədalətli qətnamələrə görə İƏT-ə səmimi minnətdarlığımı bir daha ifadə edirəm. Lakin işğalçı Ermənistan bu qərarlara məhəl qoymur və danışıqlar prosesini pozmaq üçün vaxtaşırı silahlı təxribatlara əl atır. Onlardan biri də aprelin əvvəllərində törədilmişdir. Silahlı hücum nəticəsində Azərbaycan hərbçiləri və mülki şəxslər həlak olmuşlar. Azərbaycan Ordusu Ermənistanın təxribatının qarşısını aldı. Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar İƏT qərar qəbul edib ki, xarici işlər nazirləri səviyyəsində kontakt qrupu yaradılsın. Bu qərara görə təşəkkür edirəm.

Hörmətli Sammit iştirakçıları, Azərbaycan mütəmadi olaraq mədəniyyətlər və dinlərarası dialoqa öz töhfəsini verir. Aprelin sonunda biz BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu keçirəcəyik. Azərbaycan İslam ölkələri arasında həmrəyliyə böyük əhəmiyyət verir. 2017-ci ildə IV İslam Həmrəylik Oyunları Bakıda keçiriləcəkdir. Bu münasibətlə mən sizin hamınızı bu oyunları seyr etmək üçün Bakıya dəvət edirəm. İnanıram ki, bu tədbir İslam aləmində sülhün və həmrəyliyin möhkəmlənməsinə xidmət edəcəkdir.

Sonda mən bir daha Prezident Rəcəb Tayyib Ərdoğana səmimi qonaqpərvərliyə görə təşəkkür edir, Zirvə görüşünün işinə uğurlar arzulayıram. Diqqətinizə görə minnətdaram.

*14 aprel 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV İSTANBULDA İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ XIII SAMMİTİNDƏ İŞTİRAK ETMİŞDİR

Aprelin 14-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) XIII Sammiti işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Sammitdə iştirak edirlər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.

Sonra dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

İƏT-in qurucu üzvlərindən olan Türkiyənin ev sahibliyi etdiyi XIII Sammit "Ədalət və sülh üçün birlik və həmrəylik" devizi altında keçirilir. Bu Sammit İslam dünyasının layiq olduğu ədalətə və sülhə təhlükə yaradan mövcud problemlərin həll edilməsi, risklərin və təhdidlərin qarşısının alınması yollarının tapılması ilə bağlı İslam aləmində birlik və həmrəyliyə ehtiyac yarandığı bir dövrdə təşkil olunur.

Sammit müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başladı.

İslam Əməkdaşlıq Təşkilatının XII Sammitinə sədrlik edən Misirin xarici işlər naziri Sameh Şukri çıxışında müsəlmanların və İslam ölkələrinin maraqlarının qorunması

baxımından İƏT-in fəaliyyətini yüksək qiymətləndirdi. O, Misirin sədrliyi dövründə üzv ölkələrlə əməkdaşlıq şəraitində İslam dünyasında mövcud problemlərin həlli istiqamətində fəal səy göstərdiyini vurğuladı. Hazırda İslam dünyasında, ərəb ölkələrində, ümumilikdə Yaxın Şərq regionunda ciddi böhranların yaşandığını vurğulayan sədr dedi ki, bu münaqişələrin, terrorun arxasında xarici qüvvələrlə yanaşı, daxili narazılıqlar da var.

Sameh Şukri son aylarda bölgədə silahlı münaqişələrin, terror hadisələrinin daha da şiddətləndiyini vurğulayaq, bunun ciddi bir təhdid olduğunu bildirdi. O, İslam dünyasında mövcud problemlərin, o cümlədən Fələstin məsələsinin, Suriya böhranının, həmçinin son illər artmaqda olan islamofobiyanın və digər problemlərin həlli üçün səylərin birləşdirilməsinin vacibliyini bildirdi. Misirin xarici işlər naziri İslam Əməkdaşlıq Təşkilatına sədrliyin Türkiyə Respublikasına keçdiyini elan etdi.

İƏT-ə sədrliyi qəbul edən Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Sammitdə çıxış edərək bu tədbirin bütün İslam dünyası üçün uğurlu olmasını arzuladı.

İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəni Sammitə yüksək səviyyədə ev sahibliyinə, eləcə də dünyada İslam ölkələrinin mənafeyini fəal müdafiə etməsinə görə Türkiyəyə minnətdarlığını bildirdi. İƏT-in baş katibi təcavüzkar Ermənistanın Azərbaycana qarşı davam etdirdiyi işğalçılıq siyasətini pisləyərək dedi:

-Ermənistanın Dağlıq Qarabağda işğalı davam etməkdədir. Biz problemin Birləşmiş Millətlər Təşkilatının münaqişə ilə bağlı qərarlarına uyğun olaraq həllini istəyirik. Azərbaycan dövlətinin beynəlxalq aləmdə tanınan sərhədlərinin və suverenliyinin bərpasının, bölgədə sülhün və təhlükəsizliyin bərqərar edilməsinin vacibliyini düşünürük.

Müsəlman ölkələrindəki qarşıdurmaların tezliklə həll olunmasını müasir dünyanın qarşısında duran əsas vəzifə olduğunu deyən baş katib diqqətə çatdırıb ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr əsasında həll olunmalıdır. O qeyd edib ki, İƏT problemin həllində Azərbaycana dəstəyini davam etdirəcəkdir. Baş katib əminliklə vurğulayıb ki, İƏT-in İstanbul Sammiti digər müsəlman ölkələrindəki münaqişələr kimi, Dağlıq Qarabağ problemi barədə də ədalətli və qətiyyətli mövqe nümayiş etdirəcək.

Baş katib, həmçinin üzv ölkələri arasında iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsi, elm, təhsil sahəsində əlaqələrin, ən müasir texnologiyaların tətbiqi imkanlarının genişləndirilməsi və sair sahələr üzrə görülən işlər barədə məlumat verdi.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan nitq söyləyərək Sammitin əsas mövzusu olan prinsiplərin dünyada baş verən böhranların, xüsusən də İslam aləmində yaşanan gərginliklərin həll edilməsi baxımından qısa zamanda bərqərar olunmasının əhəmiyyətini vurğuladı. Rəcəb Tayyib Ərdoğan bu problemlərin əsas səbəbinin dünyada irqçilik, məzhəbçilik, etnik və dini ayrı-seçkiliyin olduğunu qeyd edərək həmin münaqişələr, böhranlar nəticəsində milyonlarla insanın əziyyət çəkdiyini dedi. "Dünyada yaşanan problemlərdən, münaqişələrdən, böhranlardan daha çox əziyyət çəkən sadəcə İslam dünyası və müsəlman ölkələridir", - deyən Rəcəb Tayyib Ərdoğan bu Sammitin müsəlman ölkələrinin səylərini birləşdirməsi, əməkdaşlığı inkişaf etdirməsi yolunda dönüş nöqtəsi olacağına əminliyini bildirdi.

Son illərdə Türkiyədə baş verən terror hadisələrinə diqqət çəkən Prezident Rəcəb Tayyib Ərdoğan bəzi Qərb ölkələrinin terror təşkilatlarına və onların qanlı aksiyalarına ikili standartlarla yanaşdığını, Parisdə, Brüsseldə baş verən terror hadisələri anıldığı halda, Ankara, İstanbul və Lahorda baş verənlərin yad olunmadığını dedi. İslam ölkələrinin qarşıdakı dövrdə sülh, inkişaf və təhlükəsizlik məsələlərinə daha çox diqqət göstərmələrinin əhəmiyyətini vurğulayan Rəcəb Tayyib Ərdoğan qardaşlığı sadəcə sözdə yox, siyasi, iqtisadi, mədəniyyət və bir çox istiqamətlərdə qurulan əməkdaşlıqla da göstərməyin vacib olduğunu bildirdi, gənclərin fəaliyyətinin təşkilatlanmasının, qadın hüquqlarının

qorunmasının zəruriliyinə diqqət çəkdi. İƏT-in qadınlarla bağlı konfransının keçirilməsi, bu sahədə qadın təşkilatının yaradılması təşəbbüsü ilə çıxış edən Rəcəb Tayyib Ərdoğan ortaq Qızıl Aypara Cəmiyyətinin yaradılmasının mümkünlüyünü bildirdi, İslam İnkişaf Bankını bu təşəbbüslərə fəal dəstək verməyə çağırdı.

Sonra müsəlman ölkələrində baş verən proseslərlə bağlı qısa film nümayiş etdirildi.

Daha sonra Asiya, ərəb və Afrika ölkələri qrupları adından çıxışlar dinlənildi.

Bəhreyn, Bruney, Küveyt, Qətər, Səudiyyə Ərəbistanı, Türkiyə, İran, Qazaxıstan, Pakistan, Fələstin, Əfqanıstan, İndoneziya, Malayziya, Banqladeş, İordaniya, Livan, Oman, Özbəkistan, Tacikistan, Qırğızıstan, Maldiv adaları, Birləşmiş Ərəb Əmirlikləri, Yəmən, Türkmənistan, Suriya, İraqın daxil olduğu Asiya qrupu adından çıxış edən Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:

-Hörmətli cənab baş katib, Zati-aliləri, Zirvə iştirakçıları.

Asiya qrupu adından əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğana və Türkiyə Respublikasının Hökumətinə İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitinə ev sahibliyi etməsinə və bütün nümayəndə heyətlərinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm. İslam Əməkdaşlıq Təşkilatına sədrliyi qəbul etmiş Türkiyə Respublikasını təbrik edir və bu önəmli vəzifələri yerinə yetirməkdə ona uğurlar arzulayırıq.

Türkiyənin sədrliyinin İslam dünyasında davamlı inkişafa, tərəqqiyə və əmin-amanlığa əhəmiyyətli töhfə verəcəyinə inanırıq və təşkilatın məqsədlərinə nail olmaq istiqamətində İslam Əməkdaşlıq Təşkilatının yeni sədri ilə əməkdaşlıq etməyə tam hazır olduğumuzu bildiririk. Sağ olun.

* * *

Sonra ərəb ölkələri qrupu adından Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani, Afrika ölkələri qrupu adından isə Qambiya Prezidenti Yəhya Camme çıxış etdilər.

Daha sonra Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Əl Səud çıxış etdi.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışlara görə dövlət başçılarına minnətdarlığını bildirdi.

Sammit işini sessiyalarla davam etdirib.

*14 aprel 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NƏSİMİ RAYONUNDAKI YENİ PARKDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 20-də Bakının Nəsimi rayonunun Səməd Vurğun və Bakıxanov küçələrinin kəsişməsindəki ərazidə yeni salınmış istirahət parkında yaradılan şəraitlə tanış olublar.

Park salınmazdan əvvəl burada istismar müddəti başa çatmış binalar yerləşib və ətraf ərazilər yarasız vəziyyətdə olub. Bir sözlə, bu ərazi paytaxtın müasir simasına uyğun deyildi. Məhz buna görə də bu ərazidə yeni parkın salınması layihəsinin icrasına başlanılıb.

Yeni parkın salınması ərazinin simasını tamamilə dəyişib və paytaxt sakinlərinin istirahəti üçün müasir tələblərə cavab verən daha bir istirahət guşəsi yaradılıb.

Parkda görülən işlər barədə dövlətimizin başçısına məlumat verildi. Ümumi ərazisi 10 min kvadratmetrə qədər olan yeni parkın salınmasında yüksək keyfiyyətli tikinti materiallarından istifadə edilib. Parkın 5 min kvadratmetr ərazisində yaşıllıq zolağı salınıb,

çoxlu sayda şam, zeytun və çinar ağacları əkilib. Parkda, həmçinin müasir standartlara uyğun işıqlandırma sistemi quraşdırılıb.

İstirahət guşəsində müasir iaşə obyektləri də inşa edilib. Bu obyektlərin tikintisində sınmayan, təhlükəsiz şüşələrdən istifadə olunub. İaşə obyektləri də müasir tələblərə cavab verən işıqlandırma sistemi ilə təchiz edilib. Parkda istirahət üçün hər cür şərait yaradılıb.

Görülən işlərlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.

*20 aprel 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV BƏƏ-NİN TOLERANTLIQ ÜZRƏ DÖVLƏT NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) tolerantlıq üzrə dövlət naziri xanım Şeyxə Lubna Al Qassimini qəbul edib.

Ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinə uğurlu rəsmi səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırladı. İki ölkə arasında dostluq və tərəfdaşlıq münasibətlərinin olduğunu vurğulayan Prezident İlham Əliyev bildirdi ki, əvvəllər daha çox azərbaycanlı turistlər Birləşmiş Ərəb Əmirliklərinə səfər edirdilərsə, son dövrlər Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana gələn turistlərin sayı da artmaqdadır.

Xanım Şeyxə Lubna Al Qassimi Azərbaycanda böyük infrastruktur layihələrinin həyata keçirilməsi nəticəsində sürətli inkişafa nail olunduğunu, Bakının gözəl və müasir bir şəhərə çevrildiyini məmnunluqla qeyd etdi. Azərbaycana bu dəfə tolerantlıq üzrə dövlət naziri vəzifəsində səfər etdiyini deyən qonaq Birləşmiş Ərəb Əmirliklərinin çoxmillətli ölkə olduğunu, burada yaşayan müxtəlif icmaların ölkənin inkişafı və iqtisadi uğurların əldə olunmasındakı rolunu vurğuladı.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığının önəmi qeyd olundu, ikitərəfli əlaqələrin mədəniyyət, ticarət, turizm və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

*25 aprel 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN SİVİLİZASİYALAR ALYANSININ VII QLOBAL FORUMUNUN RƏSMİ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, o cümlədən dünyanın 140 ölkəsindən dəvət olunmuş qonaqlar mərasimdə iştirak ediblər.

BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna Bakının ev sahibliyi etməsi təsadüfi deyil. Çünki tolerantlığın məkanı, multikultural dəyərlərə sadiq olan müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanmasına və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönələn mühüm layihələrin reallaşdırılması, mötəbər forumların keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir.

2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə Bakıda keçirilməsi barədə qərar qəbul

edilib. Ötən ilin iyul ayında Prezident İlham Əliyev Forumun Bakı şəhərində keçirilməsi ilə bağlı Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzalayıb.

"İnklüziv cəmiyyətlərdə birgəyaşama: çağırış və məqsəd" devizi altında keçirilən Foruma BMT-yə üzv ölkələrin dövlət və hökumət başçıları, xarici işlər nazirləri, siyasi liderlər, tərəfdaş qurumlar, beynəlxalq və regional təşkilatların nümayəndələri, özəl sektor, incəsənət, media və akademiyaların təmsilçiləri, donor təşkilatlar və fondlar daxil olmaqla, çoxlu qonaq qatılıb. Onların arasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan da var.

Malta Prezidenti Mari-Luiz Koleyro Prekanın da iştirak etdiyi BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakı şəhərində yüksək səviyyədə təşkili Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun daha da artırılmasında, xalqımızın tarixi-mədəni irsinin geniş miqyasda tanıdılmasında əhəmiyyətli rola malikdir. Çünki tarixi İpək Yolu üzərində yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadıqları diyar kimi tanınıb. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilib. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması isə müasir dövrdə ölkəmizdə gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir.

Dövlət və hökumət başçıları, Forumun digər yüksək səviyyəli iştirakçıları birgə foto çəkdirdilər.

Dövlətimizin başçısı Forumun açılışında nitq söylədi.

## PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

-Zati-aliləri, prezidentlər.

Hörmətli dostlar, dəyərli qonaqlar.

İlk növbədə hamınızı ölkəmizdə salamlayıram, hər birinizi Azərbaycanda görməkdən məmnunluq duyuram. BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi etmək bizim üçün böyük fəxrdir. Biz bunu mədəniyyətlərarası dialoq və multikulturalizm dəyərlərinin təşviqi sahəsində fəaliyyətimizin yüksək qiymətləndirilməsi əlaməti kimi qəbul edirik.

İlk olaraq, Alyansın təsisçilərinə - Türkiyə və İspaniyaya, Prezident Ərdoğan və Baş nazir Sapateroya 10 ildən artıq davam edən və olduqca əhəmiyyətli təşəbbüsə görə minnətdarlığımı bildirirəm. Alyansın yaradılması fikri siyasətçilərin – qardaşım Prezident Ərdoğan və Baş nazir Sapateronun müdrikliyinin əlaməti idi və bu fikir beynəlxalq ictimaiyyət tərəfindən də dəstəkləndi.

Bununla yanaşı, mən BMT-nin Sivilizasiyalar Alyansındakı ali nümayəndəsi cənab Əl-Nasirə sülh, həmrəylik və dostluq dəyərlərinin təşviqi istiqamətində rəhbərliyi və töhfəsinə görə təşəkkürümü bildirmək istərdim.

Fərəhlənirik ki, bu gün 140-dan artıq ölkənin nümayəndəsi Sivilizasiyalar Alyansı ilə bağlı mühüm məsələlərin müzakirəsi üçün Bakıda toplaşıb. Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olmuşdur. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud ol-

muşdur. Multikulturalizm sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb.

Bunun nəticəsidir ki, bu gün Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin və etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Bu, bizim ən böyük sərvətimizdir və biz tariximizlə fəxr edirik. Biz müxtəlif mədəniyyətləri özündə əks etdirən tarixi abidələrimizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri Azərbaycanın qədim şəhəri olan Şamaxıda 743-cü ildə inşa edilmişdir.

Bununla yanaşı, ən qədim kilsələrdən biri - qədim Qafqaz Albaniyası dövrünə aid kilsə də məhz Azərbaycanda, daha bir qədim şəhər olan Şəkinin yaxınlığında yerləşir. Hökumətimiz məscidlərin, pravoslav və katolik kilsələrinin, habelə sinaqoqların inşası və təmirinə maliyyə vəsaiti ayırır. Bu, bizim siyasətimiz və həyat tərzimizdir. Əsrlər boyu Azərbaycan ölkəmizdə mövcud olan siyasi və sosial vəziyyətə baxmayaraq bu sərvəti qoruyub saxlamışdır. Ölkəmiz yalnız 25 ildir ki, müstəqil dövlətdir. Lakin bu, qədim dövlətdir, dərin tarixi və mədəni köklərə malikdir.

Bizim üçün multikulturalizm dövlət siyasətidir. Biz bu vacib məsələlərin müzakirə edilməsi üçün müxtəlif tədbirlər təşkil edirik. Biz hər iki ildən bir Azərbaycanda Mədəniyyətlərarası Dialoq Forumunu təşkil edirik. Mütəmadi olaraq biz Bakı Beynəlxalq Humanitar Forumuna ev sahibliyi edirik. Burada da əsas məqsəd müxtəlif dinlərin nümayəndələrinin bir araya gətirilməsindən, aramızda daha mühüm qarşılıqlı anlaşmanın yaradılmasından ibarətdir.

Azərbaycan dinlərarası dialoq kimi vacib məsələyə həsr edilmiş Dünya Dini Liderlərinin zirvə toplantısına ev sahibliyi etmişdir. Hesab edirəm ki, bu mövzu bu gün dünyanın gündəliyində duran ən mühüm məsələlərdəndir və Sivilizasiyalar Alyansının rolu artmaqdadır. Əfsuslar olsun ki, biz, eyni zamanda, regionumuzda, Avropada, Yaxın Şərqdə, keçmiş Sovet İttifaqı ərazisində böyük narahatlıq doğuran meyillərin şahidi oluruq. Etnik və ya dini zəmində baş verən qarşıdurma və toqquşmalar çox təhlükəli meyillərdir.

Hesab edirəm ki, Bakıda keçirilən belə bir toplantı – VII Qlobal Forum bu məsələlərin müzakirəsinə həsr ediləcək və həmrəylik, sülh, qarşılıqlı anlaşma və tərəfdaşlıq işinə öz töhfəsini verəcəkdir.

2008-ci ildə biz "Bakı Prosesi"nin təşəbbüskarı olduq ki, bu da mədəniyyətlərarası dialoq üçün geniş bir platformaya çevrildi. Azərbaycan, eyni zamanda, həm İslam Əməkdaşlıq Təşkilatına, həm də Avropa Şurasına üzv olan yalnız bir neçə dövlətdən biridir. Beləliklə, 2008-ci ildə Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin Bakıda təşkil edilmiş toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərini dəvət etdik. Bu iki təşkilatı təmsil edən 100-dən artıq nazir ilk dəfə Bakıda bir araya gəldi.

Növbəti il, 2009-cu ildə biz İslam Əməkdaşlıq Təşkilatının mədəniyyət nazirlərini burada topladıq və Avropa dövlətlərinin mədəniyyət nazirlərini Bakıya dəvət etdik. Bu proses "Bakı Prosesi" adlandırıldı və biz fəxr edirik ki, bu müsbət təşəbbüs artıq bizim qədim şəhərimizlə bağlıdır. Bu proses inkişaf edir və getdikcə daha çox dəstəklənir. O, qlobal təşəbbüsə çevrilir, həmrəylik, qarşılıqlı anlaşma və mədəniyyətlərarası dialoqa öz töhfəsini verir. Azərbaycanın coğrafi mövqeyi hər kəsə məlumdur, eyni zamanda, bizim təşəbbüslərimiz mədəniyyətlər və sivilizasiyalar arasında körpü kimi ölkəmizin mövqelərinin gücləndirilməsi məqsədini daşıyır. O ölkə ki, qarşılıqlı anlaşmaya daha çox töhfə vermək iqtidarındadır, bunu etməlidir.

Çox fəxr edirik ki, ötən il Bakı ilk Avropa Oyunlarına ev sahibliyi etdi. Gələn il isə biz Bakıda 4-cü İslam Həmrəylik Oyunlarını təşkil edəcəyik. Yəni, iki il içərisində Avropa və İslam dövlətlərinin idmançıları eyni şəhərdə oyunlarda iştirak etmiş olacaqlar.

Məsələ yalnız idman və medalların sayı, nailiyyətlərlə bağlı deyil. Bu, dostluq, qarşılıqlı anlaşma, həmrəylik və tərəfdaşlıq deməkdir.

Bizim aramızda bölüşdürəcəyimiz heç nə yoxdur. Hamımız eyni planetdə yaşayırıq. Bütün xalqlar sülh, əmin-amanlıq və təhlükəsizlik şəraitində yaşamağı, ailələrini qorumağı, övladlarını böyütməyi arzulayır. Bütün dinlər eyni dəyərləri – insanlıq, mərhəmət, həmrəylik və sülhü təbliğ edir. Bu gün dünyanın tələb etdiyi səylərimizin birləşdirilməsidir. Bugünkü toplantı, bu Forum multikulturalizm ideyasının beynəlxalq ictimaiyyət tərəfindən güclü dəstəklənməsinin aydın göstəricisidir. Dediyim kimi, bu gün burada 140-dan artıq dövlətin nümayəndəsi iştirak edir.

Multikulturalizmin alternativi yoxdur. Əlbəttə, bizə məlumdur ki, bununla bağlı müxtəlif fikir və baxışlar var. Bəziləri multikulturalizmin iflasa uğradığını iddia edirlər, ancaq müsbət nümunələr var. Bizim üçün multikulturalizm dövlət siyasətidir və bizim həyat tərzimizdir.

Gəlin, alternativlərə nəzər salaq, onlar nədən ibarətdir? Bunlar çox təhlükəli alternativlərdir – ksenofobiya, islamofobiya, antisemitizm, irqçilik, diskriminasiya, nifrət. Bu səbəbdən multikulturalizm dəyərlərinin gücləndirilməsi hesab edirəm ki, müasir siyasətin çox müsbət meyli olacaqdır. Bütün məsuliyyətli siyasətçilər bu müsbət dinamikaya töhfələrini verməlidirlər.

Bildirdiyim kimi, Azərbaycan nisbətən gənc dövlətdir, bu il biz müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd edəcəyik. Bu illər bizim siyasi və iqtisadi sistemimizin transformasiya illəri olmuşdur. Bu, dövlət quruculuğu illəri olmuşdur. Düşünürəm ki, bütün mühüm hədəflərimizə nail olmuşuq.

Azərbaycan beynəlxalq ictimaiyyətin nüfuzlu üzvünə çevrilmişdir. Azərbaycan BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Qoşulmama Hərəkatı və bir sıra digər beynəlxalq qurumların üzvüdür. Biz güclü beynəlxalq dəstəyə malikik. 2011-ci ildə 155 dövlətin dəstəyi ilə Azərbaycanın ilk dəfə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi məhz bunun təzahürü oldu. Bu, ölkəmizin böyük qələbəsi və Azərbaycana böyük ehtiramın əlaməti oldu.

Olduqca qısa zamanda, 25 il içərisində biz özümüzü etibarlı beynəlxalq tərəfdaş, müstəqil xarici siyasətə malik, regional inkişafa, təhlükəsizliyə, sabitliyə və multikulturalizmə töhfə verən ölkə kimi təqdim etməyə müvəffəq olmuşuq. Müstəqillik illəri bizim siyasi sistemimizin transformasiyası, demokratik təsisatların yaradılması illəri olmuşdur. Biz buna nail olmuşuq, Azərbaycanda bütün azadlıqlar təmin edilir, o cümlədən media və internet azadlığı. Ölkə əhalisinin 70 faizdən çoxu internet istifadəçisidir. Toplaşma və din azadlığı, yəni, bütün azadlıqlar təmin edilir. Bu isə öz növbəsində sürətli iqtisadi inkişaf üçün yaxşı zəmin yaradır. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar siyasi islahatlarla paralel şəkildə aparılmışdır.

Təəssüflər olsun ki, dövlətçiliyimizin yaranması zamanı qonşu Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü dominant amil olmuşdur. Həmin təcavüz ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin bir hissəsinin işğalı ilə nəticələnmişdir. Dağlıq Qarabağ Azərbaycanın tarixi parçasıdır, hüquqi baxımdan da bu, belədir. Azərbaycan BMT-yə üzv olarkən Dağlıq Qarabağ ölkəmizin tərkib hissəsi kimi qəbul edilmişdir.

Lakin həmin təcavüz nəticəsində Dağlıq Qarabağ Ermənistan tərəfindən tamamən işğal edilmişdir. Nəinki Azərbaycanın Dağlıq Qarabağ bölgəsi, Dağlıq Qarabağın ətrafında yerləşən digər yeddi rayonu da işğal altındadır. İşğal nəticəsində bizim 1 milyondan artıq qaçqın və məcburi köçkünümüz yaranıb. Ermənistan bizə qarşı etnik təmizləmə aparmışdır və ərazimizin 20 faizi 20 ildən artıqdır ki, işğal altındadır.

İşğal edilmiş ərazilərimizdə hər şey dağıdılmışdır. ATƏT oraya iki dəfə faktaraşdırıcı missiya göndərmişdir və onlar dəhşətli hesabatlar təqdim etmişlər. Bütün tikililərimiz,

tarixi abidələrimiz, məscidlərimiz, məzarlıqlarımız dağıdılmış vəziyyətdədir. Burada, Bakının mərkəzində, siz erməni xalqının dini mirasının tərəfimizdən necə qorunduğunun şahidi ola bilərsiniz. Erməni kilsəsi bərpa edilmiş və ilk gündən inşa edildiyi yerdə yerləşir. Lakin işğal edilmiş torpaqlarda bizim bütün məscidlərimiz viran edilmişdir.

Bu işğala son qoymaq üçün beynəlxalq ictimaiyyət müvafiq qətnamə və qərarlar qəbul etmişdir. Ən ali beynəlxalq qurum olan BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, Ermənistan sadəcə bu qətnamələrə məhəl qoymur və onlara əməl etmir.

Burada ən mühüm element beynəlxalq təşkilatların qətnamə və qərarlarının icrası mexanizmidir. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün, hətta bir neçə saat ərzində həyata keçirilir. Bizə gəldikdə isə, artıq 20 ildən çox keçir və münaqişə həll olunmamış qalır.

ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı da Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən bənzər qətnamə və qərarlar qəbul etmişlər. Ermənistan isə bunlara məhəl qoymur və işğalçını beynəlxalq hüququn normalarına əməl etməyə məcbur edəcək beynəlxalq təzyiq isə göstərilmir.

Xalqımıza qarşı soyqırımı həyata keçirilmişdir. Xocalı soyqırımı artıq 10 dövlət tərəfindən tanınmışdır. Həmin soyqırımı nəticəsində iki yüzü qadın və uşaq olmaqla, yüzlərlə azərbaycanlı - mülki şəxslər qətlə yetirilmişdir. Bu, insanlığa qarşı törədilmiş cinayətdir və bir daha bizim hansı təhlükəyə məruz qaldığımızı nümayiş etdirir.

Ermənistan ilə Azərbaycan arasındakı münaqişə beynəlxalq hüquq normaları, BMT Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktı əsasında həll edilməlidir. Ərazilərimiz azad edilməlidir, insanlarımız evlərinə geri dönmək imkanına malik olmalıdır.

1990-cı illərin əvvəlində biz böyük humanitar fəlakətlə üzləşdik. Çünki 250 min azərbaycanlı Ermənistandan qovulmuş, daha 700 mindən çox məcburi köçkün isə Dağlıq Qarabağ və digər bölgələrdən idi. O zaman Azərbaycanın əhalisinin 8 milyondan az olduğunu nəzərə alsaq, adambaşına düşən qaçqın və məcburi köçkün sayına görə Azərbaycan çox güman ki, dünyada birinci yer tuturdu.

Biz bilirik ki, onların yerləşdirilməsi, zəruri şəraitin yaradılması nə dərəcədə çətin məsələdir. O vaxt biz tamamilə maliyyə vəsaitindən məhrum vəziyyətdə, dünyanın ən yoxsul, yaşayış səviyyəsinin yoxsulluqdan aşağı olduğu ölkələrindən biri idik. Əlbəttə, o zaman bizə müəyyən beynəlxalq dəstək göstərilirdi, lakin əsasən biz bu məsələnin öhdəsindən özümüz gəldik.

Bu günə qədər 90-dan artıq qəsəbə inşa etməyimizə və hər il 20 min qaçqın və köçkünü yerləşdirməyimizə baxmayaraq, onların bəziləri hələ də çətin şəraitdə - yataqxana, məktəb və uşaq bağçalarında yaşayır. Biz onların yaşayış şəraitinin yaxşılaşdırılması üçün əlimizdən gələni edirik, lakin bu, uzun zaman tələb edir.

Yəni, bu gün biz bəzi ölkələrin qaçqınlarla bağlı üzləşdiyi vəziyyəti aydın şəkildə anlayırıq. Bu, həqiqətən də humanitar fəlakətdir və bütün beynəlxalq ictimaiyyət bu məsələlərin həllində iştirak etməlidir. Ən çox qaçqın qəbul etmiş ölkələr hazırda dəstəklənməlidir – yalnız sözlə deyil, ciddi maliyyə yardımları ilə. Bir daha qeyd etmək istəyirəm ki, işğaldan əziyyət çəkməkdə davam edən ölkə kimi bunların nə dərəcədə çətin olduğu bizə yaxşı məlumdur. Hər bir nöqteyi-nəzərdən – siyasi, mənəvi, iqtisadi və sosial baxımdan.

İşğala baxmayaraq, ölkəmiz inkişaf edir. Biz onillik ərzində - 2004-2014-cü illərdə dünyada ən yüksək iqtisadi artım göstəricilərinə malik olmuşuq. Biz yoxsulluğu kəskin şəkildə, 50 faizdən təqribən 5 faizə endirə bilmişik. İşsizliyin səviyyəsi də 5 faizə yaxındır. Biz təhsilə

sərmayə yatırırıq. Azərbaycanda savadlılığın səviyyəsi 100 faizə yaxındır. Son illər ərzində 3 mindən artıq yeni məktəb tikilib və ya bərpa edilib. Ölkə ərazisində 500-dən artıq xəstəxana inşa edilib. Bu isə uşaq ölümlərinin kəskin şəkildə azaldılmasına yardım etdi.

Azərbaycanda gender bərabərliyi tam olaraq müdafiə edilir. Əslində, Azərbaycanda qadınlar təqribən 100 ildir ki, yəni, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövründən səsvermə hüququna malikdir. Yeri gəlmişkən, həmin respublika müsəlman dünyasının ilk demokratik respublikası olmuşdur.

Biz ətraf mühitin qorunmasına sərmayə yatırırıq. Burada, Abşeron yarımadasında neft hasilatı səbəbindən çirklənmiş geniş ərazilər mövcud idi və biz bu əraziləri təmizləməli olduq. Yerində isə parklar və ictimai yerlər yaratdıq. Başqa sözlə desək, biz BMT-nin Minilliyin İnkişaf Məqsədləri ilə bağlı çox vacib irəliləyiş əldə edirik və düzgün yoldayıq.

Hətta bu gün, neftin qiymətində kəskin ucuzlaşma baş verdiyi və bütün neft istehsalçısı olan dövlətlərin iqtisadi böhranla üzləşdiyi bir vaxtda bu, bizim iqtisadiyyatımıza ciddi təsir göstərməmişdir və mən əminəm ki, biz 2016-cı ildə bütün əsas məqsədlərimizə nail olacağıq.

Azərbaycan enerji resursları ilə zəngin ölkə kimi tanınır. Ancaq bizim əsas məqsədimiz "qara qızıl"ın, yəni, neftin insan kapitalına çevrilməsidir. Bu səbəbdən, təhsil sahəsinə sərmayələrin qoyuluşu, sosial müdafiənin gücləndirilməsi və islahatlar elə bir vəziyyət yaradıb ki, iqtisadiyyatımız şaxələndirilib və neftdən asılılıq azalmaqdadır.

Bununla yanaşı, biz irimiqyaslı enerji layihəsinin – "Cənub Qaz Dəhlizi"nin təşəbbüskarı olmuşuq. Bu, enerji əməkdaşlığı və enerji təhlükəsizliyi layihəsidir. Eyni zamanda, biz coğrafi mövqeyimizi nəzərə alaraq nəqliyyat dəhlizlərinin təşviqi ilə məşğul olan ölkələrdən ibarət heyətin fəal üzvüyük. Ölkələrin sayına nəzər salsaq hansı regional əməkdaşlıqdan söhbət getdiyi aydın görünər. İcazənizlə, mən onların adlarını sadalamaq istərdim. Bu enerji və nəqliyyat dəhlizləri yalnız enerji və yüklərin daşınması demək deyil. Bu, əməkdaşlıq dəhlizləridir. "Cənub Qaz Dəhlizi" layihəsinin üzvləri Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyadır. Əminəm ki, sonrakı mərhələdə Balkan ölkələri də layihəyə qoşulacaq.

Şərq-Qərb dəhlizi – İpək Yolu layihəsi üç dövlət - Azərbaycan, Gürcüstan və Türkiyə tərəfindən irəli sürülmüşdür. Bu gün o, genişlənməkdədir, Mərkəzi Asiya və Çini, Türkiyədən isə Avropa istiqamətini əhatə edir. Bu, yeni İpək Yolu olacaqdır. Şimal-Cənub dəhlizi də Azərbaycanın fəal iştirak etdiyi layihədir. Bu layihə Şimali Avropa ölkələrini, Rusiya, Azərbaycan, İran, Pakistan və Hindistanı əhatə edir.

Bu layihələr tərəfdaşlıq layihələridir. Çünki bütün bu dövlətlər bir-biri ilə bağlı olur. Əgər siz bir-birinizlə bağlı, bir-birinizə arxayın vəziyyətdəsinizsə, o zaman daha çox proqnozlaşdıra bilmə, təhlükəsizlik və əməkdaşlıq olur.

Enerji təhlükəsizliyi və nəqliyyat kimi iqtisadi maraqlar, çətinliklərin öhdəsindən gələrək xalqlarımıza daha yaxşı şərait yaratmaq kimi dəyərlərin paylaşılması və bütün bunların təməlində birgə dəyərlərimiz olan dini dözümlülük, qarşılıqlı anlaşma və multikulturalizm əsasında qurulmuş beynəlxalq əməkdaşlıq formatları hesab edirəm ki, region xalqlarının həyatını daha da yaxşılaşdıracaq.

Bir daha bu vacib tədbirdə bu gün bizimlə olduqlarına görə bütün qonaqlarımıza minnətdarlığımı bildirir, Forumun işinə uğurlar arzulayıram.

* * *

Forum işini plenar və bölmə iclasları, BMT-nin Sivilizasiyalar Alyansının Dostları Qrupunun yüksək səviyyəli toplantısı ilə davam etdirib.

*26 aprel 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ MƏDƏNİYYƏT VƏ İNFORMASİYA NAZİRİNİ QƏBUL ETMİŞDİR

Səudiyyə Ərəbistanı Krallığının mədəniyyət və informasiya naziri Adel bin Zaid Əl Toraifi İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Əl Səudun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, Kral Salman bin Əbdüləziz Əl Səudun tapşırığı ilə BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda iştirak etməsindən məmnun olduğunu dedi.

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanına bir il bundan əvvəlki rəsmi səfərini və səfər zamanı Kral Salman bin Əbdüləziz Əl Səudun ona və nümayəndə heyətinə göstərdiyi qonaqpərvərliyi məmnunluqla xatırladığını bildirdi. Dövlətimizin başçısı bu səfəri iki dost ölkə arasında güclü əlaqələrin göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycan ilə Səudiyyə Ərəbistanının yaxın dost və tərəfdaş ölkələr olduqlarını və bir-birlərini daim dəstəklədiklərini vurğuladı. Dövlətimizin başçısı Səudiyyə Ərəbistanı Krallığının BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda bu səviyyədə iştirakını tədbirə verilən önəmin və ölkəmizlə dostluq əlaqələrinin göstəricisi kimi qiymətləndirdi.

Prezident İlham Əliyev İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Əl Səudun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Kral Salman bin Əbdüləziz Əl Səuda çatdırmağı xahiş etdi.

*27 aprel 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR BAĞINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də paytaxtın Nizami rayonunun 8-ci Kilometr qəsəbəsindəki Heydər bağında yaradılan şəraitlə tanış olub.

Bildirilib ki, bu istirahət guşəsi 1997-ci ilin mayında ulu öndər Heydər Əliyevin iştirakı ilə açılıb. Ümummilli Lider burada daş palıd da əkib. Heydər bağında həyata keçirilən yenidənqurma tədbirləri zamanı əlavə yaşıllaşdırma işləri görülüb, yeni skamyalar və işıqlandırma sistemi qurulub. Ərazisi 5 hektardan çox olan bağın yenidən qurulmasında yüksək keyfiyyətli tikinti materiallarından istifadə edilib, sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb.

Görülən işlərlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.

*4 may 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 93-CÜ İLDÖNÜMÜ VƏ FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN 71 İLLİYİ MÜNASİBƏTİLƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı rəsmi qəbulda nitq söylədi.

# PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Bu gün Azərbaycanda faşizm üzərində Qələbə günü qeyd edilir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Azərbaycan Qələbənin əldə olunmasında çox böyük rol oynamışdır - həm ön cəbhədə, həm də arxa cəbhədə. Altı yüz mindən çox Azərbaycan nümayəndəsi müharibədə iştirak etmiş, onlardan 300 mini həlak olmuşdur. Azərbaycan xalqı müharibə illərində qəhrəmanlıq göstərmişdir. Azərbaycanın bir çox nümayəndələri yüksək orden və medallarla təltif olunmuşlar. Arxa cəbhədə - Azərbaycanda böyük işlər görülmüşdür. Bizim zavodlarımızda hərbi texnika istehsal olunurdu. O texnika və silahlar ki, müharibənin ən ağır anlarında sovet ordusuna əvəzsiz xidmət edirdi. Azərbaycan neftçiləri bu illər ərzində yorulmadan çalışmış və sovet ordusunu yanacaqla təmin etmişlər. Sovet ordusunun yanacağının mütləq əksəriyyəti Azərbaycan neftçiləri tərəfindən təmin edilirdi. Bütün bu amillər deməyə əsas verir ki, Azərbaycan Respublikası faşizm üzərində Qələbənin əldə edilməsində çox böyük rol oynamışdır. Bu gün mən müharibə veteranları ilə görüşmüşəm, onlarla söhbət etmişəm, onları təbrik etmişəm. Onlar bu gün bu mərasimdə iştirak edirlər və bir daha onlara öz hörmətimi ifadə etmək istəyirəm.

Builki Qələbə günü Azərbaycanda xüsusi ruh yüksəkliyi ilə qeyd edilir. Bildiyiniz kimi, keçən ayın əvvəlində Ermənistanın Azərbaycana qarşı növbəti silahlı təxribatı nəticəsində Ordumuz uğurla əks-hücum əməliyyatı keçirmişdir. İşğal olunmuş torpaqlarımızın bir hissəsi əks-hücum əməliyyatı nəticəsində işğalçılardan azad edilmiş, təmas xəttindəki mövqelərimiz daha da möhkəmlənmişdir. Bu gözəl tarixi və parlaq qələbə münasibətilə bir daha bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Aprel döyüşləri dövlətimizin və Ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirmişdir. Bilirəm ki, döyüşçülərimizin qarşısında həmişə veteranlarımızın obrazı, Böyük Vətən müharibəsi veteranlarının nümunəsi dayanır. Bu gün veteranlarla söhbət əsnasında onlar mənə deyirlər ki, əgər lazım olarsa, biz onların imkanlarından da müharibə zonasında istifadə edə bilərik. Yəni, öz yaşlarına baxmayaraq, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində onlar bu gün öz rolunu oynamağa hazırdırlar.

Mən bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan öz tarixi keçmişinə çox böyük hörmətlə yanaşır. İkinci Dünya müharibəsində qazanılmış Qələbə bizim ümumi qələbəmizdir. Biz Azərbaycanda həm tarixi həqiqətləri qoruyuruq, imkan vermirik ki, tarix təhrif olunsun, eyni zamanda, müharibə veteranlarını da daim dəstəkləyirik və bundan sonra da dəstəkləyəcəyik.

Onu da qeyd etməliyəm, əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində 9 May – Qələbə Günü bayram kimi qeyd edilmirdi. Bayram siyahısından çıxarılmışdı. Ancaq ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra bu bayram bərpa edildi və bu gün bu bayram dövlət bayramı kimi qeyd edilir.

Sabah biz Ulu Öndərin anadan olmasının 93-cü ildönümünü qeyd edəcəyik. Heydər Əliyev Azərbaycan tarixində müstəsna xidmətlər göstərmişdir, böyük tarixi rol oynamışdır. İki dəfə Azərbaycana rəhbərlik etmişdir. Hər iki dəfə Azərbaycanı tənəzzüldən, anarxiyadan, xaosdan inkişafa, tərəqqiyə doğru aparmışdır. 1969-cu ildə Azərbaycan Sovet İttifaqı respublikaları arasında ən aşağı yerlərdə qərarlaşmışdı. Heydər Əliyevin səyləri, bacarığı, biliyi, xalqa olan bağlılığı nəticəsində cəmi 13 il ərzində Azərbaycan ən qabaqcıl respublikaya çevrilmişdir. Sovet İttifaqında Rusiya Federasiyasından başqa, cəmi

iki respublika var idi ki, onlar mərkəzdən dotasiya almırdı. Onlardan biri də Azərbaycan idi. Məhz o illərdə Azərbaycanda sənaye istehsalı, kənd təsərrüfatı sahələrində, infrastruktur layihələrinin icrasında çox böyük işlər görülmüşdür və o işlər bu gün də müstəqil Azərbaycana kömək göstərir. O illərdə xüsusilə infrastruktur layihələrinin icrası, neft-qaz sektorundakı nəticələr və emal sənayesinin inkişafı sahələrində əldə edilmiş nailiyyətlər bu gün bizə, müstəqil Azərbaycana xidmət göstərir.

1970-1980-ci illərdə Azərbaycanda elm sürətlə inkişaf edirdi. Azərbaycanda milli mənəvi dəyərlər təbliğ edilirdi. Əlbəttə, biz müstəqil dövlət deyildik və bəzi məsələlərdə fəaliyyətimiz məhdud xarakter daşıyırdı. Ancaq buna baxmayaraq, milli mənəvi dəyərlər, milli ruh, milli ədəbiyyat, mədəniyyət daim diqqət mərkəzində idi. Təsadüfi deyil ki, 1978-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunanda məhz Heydər Əliyevin təkidi ilə Azərbaycan dili Konstitusiyaya ana dili kimi daxil edilmişdir. Yəni, o illər doğrudan da böyük inkişaf illəri olmuşdur. Heydər Əliyevin fəaliyyətini və böyük nailiyyətlərini nəzərə alaraq, o, Moskvaya dəvət edilmiş və ona çox böyük vəzifə verilmişdir - Sovet İttifaqının Baş nazirinin birinci müavini vəzifəsi. Super dövlətin Baş nazirinin birinci müavini vəzifəsi, əlbəttə, bir daha göstərirdi ki, Heydər Əliyev nə qədər istedadlı, peşəkar və işgüzar adam idi. Həmin illərdə o, fəal işləyirdi, bir çox sahələrə nəzarət edirdi və həmin sahələrdə böyük uğurlar əldə olunurdu. Bununla bərabər, heç vaxt Azərbaycanı unutmurdu və çalışırdı ki, özünün böyük imkanlarından istifadə edib, Azərbaycanı daha da gücləndirsin. Burada bir çox sənaye, infrastruktur layihələri icra edildi. O, Azərbaycanın inkişafına daim diqqət yetirirdi. Hər il məzuniyyətə çıxıb Azərbaycana gəlirdi. Mən yaxşı bilirəm ki, o məzuniyyət formal xarakter daşıyırdı. Çünki o, məzuniyyəti daim görüşlərdə keçirirdi və onun verdiyi tapşırıqlar 1980-ci illərdə Azərbaycanın inkişafına çox böyük xidmət göstərmişdir.

Ancaq 1987-ci ildə Heydər Əliyev tamamilə əsassız olaraq bütün vəzifələrdən kənarlaşdırıldı. Bu, ona qarşı, eyni zamanda, Azərbaycana qarşı böyük ədalətsizlik və təxribat idi. Onun istefasından iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək haqqında məsələ qaldırmışdılar. Yəni, Heydər Əliyev amili onlara imkan vermirdi ki, bu çirkin niyyətlərini ifadə etsinlər. Ancaq Heydər Əliyev siyasi səhnədən gedəndən sonra bu məsələ qalxdı və dərhal ondan sonra Dağlıq Qarabağda xoşagəlməz hadisələr başladı, Ermənistanın təhriki ilə orada separatçı meyillər gücləndi. Əfsuslar olsun ki, o vaxtkı sovet rəhbərliyi cinayət törədərək bu xoşagəlməz meyillərin qarşısını almadı. Nəinki almadı, almaq istəmədi. Sovet İttifaqının dağılması prosesi məhz o vaxtdan başladı.

Mən yaxşı xatırlayıram ki, Heydər Əliyev bu vəziyyətlə bağlı çox məyus olmuşdu. Onun qurub-yaratdığı vəziyyət dağılırdı. O, burada rəhbər vəzifədə işləyəndə mütəmadi qaydada Dağlıq Qarabağa səfərlər etmişdi - Xankəndiyə, Şuşaya. Mən də o səfərlərin canlı şahidiyəm, iştirakçısıyam. Heç bir amil onu göstərmirdi ki, orada separatçı meyillər güclənə bilsin. Yəni, bu, süni şəkildə ortaya atılmış bir təxribat idi. Əfsuslar olsun ki, bu günə qədər Azərbaycan bu təxribatın acı nəticələrini yaşayır.

Azərbaycan xalqına qarşı növbəti təxribat 1990-cı ildə törədilmişdir - Qanlı Yanvar cinayəti. Günahsız insanlar öldürülmüşdür, qətlə yetirilmişdir. 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı törədilmiş böyük cinayətdir. Heydər Əliyev dərhal öz səsini ucaltdı. Ertəsi gün Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmişdir. Mən də onunla bərabər orada idim. Mətbuat konfransında sovet rəhbərliyini ittiham etmişdir. Onların hərəkətlərini pisləmişdir. Deyə bilərəm ki, o vaxt sovet məkanında bu, çox nadir bir hadisə idi. Çünki Sovet İttifaqının dağılmasına hələ 2 il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı kimi nəhəng bir dövlət dağıla bilər. O vaxt belə cəsarətli ad-

dımın atılması bir daha onu göstərdi ki, Heydər Əliyev öz xalqına nə qədər bağlıdır, bu insan nə qədər fədakardır, nə qədər cəsarətlidir.

Təbii ki, ondan sonra ona qarşı təzyiqlər, təqiblər, mətbuatda qarayaxma kampaniyası başlamışdır. Ancaq bu çirkin, təxribatçı addımlar onu yolundan döndərə bilməmişdir. O, bu hadisələrə etiraz olaraq, uzun illər, onilliklər ərzində xidmət etdiyi Kommunist Partiyasının sıralarından çıxmışdır. Bakıya qayıtmışdır. Çünki artıq Moskvada yaşamaq təhlükəli idi. Əfsuslar olsun ki, Bakıda da yaşamağa imkan verməmişlər və doğulduğu yerə - Naxçıvana üz tutmuşdur. Naxçıvan əhalisi onun ətrafında birləşərək o ağır illəri şərəflə yaşamışdır. İlk növbədə naxçıvanlılar Heydər Əliyevi bütün təzyiq və təxribatlardan qorudular. Sonra isə o, Naxçıvanın rəhbəri kimi, Naxçıvanı işğaldan qorudu. O illər müstəqilliyimiz üçün həlledici illərdir. Çünki mən hesab edirəm ki, müstəqilliyə gedən yol məhz o illərdə Naxçıvanda başlamışdır. Çünki Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı - bizim dövlət bayrağımız Naxçıvanda dövlət bayrağı kimi elan edilmişdir. O vaxt hələ Sovet İttifaqı yaşayırdı və yenə də deyirəm, Sovet İttifaqının dağılması haqqında bəlkə də çoxları heç fikirləşmirdi.

Azərbaycanda isə əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində vəziyyət tənəzzülə uğrayırdı. Siyasi böhran iqtisadi böhranla tamamlanırdı. Xalq arasında o vaxtkı iqtidara inam tamamilə tükənmişdi. Vətəndaş müharibəsi başlamışdı. Ermənistanın işğalı alovlanırdı, genişlənirdi, torpaqlarımız işğal altına düşürdü. Şuşa, Laçın, ondan sonra Kəlbəcər rayonlarının işğalı nəticəsində Dağlıq Qarabağ ilə Ermənistan arasında coğrafi bağlılıq yaranmışdı. Belə ağır vəziyyətdə xalq yenə də Heydər Əliyevə müraciət etdi. Onu hakimiyyətə dəvət etdi və ümidləri ancaq ona bağlayırdı. Müstəqilliyimiz üçün ən ağır anlarda yenə də Heydər Əliyev öz xalqının yanında idi. Öz xalqına rəhbərlik etməyə razılıq vermişdir. 1993-cü ildən başlayaraq, Azərbaycanda bütün sahələrdə dönüş yarandı. Vətəndaş müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərksilah edildi. Azərbaycanda qayda-qanun yaradıldı və ölkə inkişaf dövrünə qədəm qoydu.

Ondan sonrakı dövr - 1993-2003-cü illəri əhatə edən dövr inkişaf, sabitlik dövrü olmuşdur. Azərbaycanda siyasi sistem formalaşmışdır. Konstitusiya qəbul olunmuşdur. Azərbaycan dünyaya öz imkanlarını təqdim etmişdir. “Əsrin kontraktı” imzalanmışdır. Sonra isə “Şahdəniz” qaz yatağının işlənməsi üzrə kontrakt imzalanmışdır. Demokratik islahatlar aparılmağa başlanılmışdır. Məhz o illərdə milli ideologiyamız - Azərbaycançılıq məfkurəsi formalaşmışdır ki, bu gün də bütün Azərbaycan xalqını birləşdirir. Azərbaycanda çoxmillətli, çoxkonfessiyalı cəmiyyətin inkişafı və buna güclü təkan verilməsi prosesi başlanmışdır. Bu gün bu, bizim böyük sərvətimizdir. Azərbaycan dünya miqyasında multikultural cəmiyyət kimi özünü təqdim edir və bizim nümunəmiz bir çox ölkələrdə dərin təhlil olunur.

1993-2003-cü illərdə Azərbaycanda dövlət quruculuğu prosesi uğurla getmişdir, dövlətin əsasları qoyulmuşdur. Məhz buna görə biz həmişə deyirik ki, Heydər Əliyev müstəqil Azərbaycanın banisidir. Hər dəfə o tarixi yada salaraq, təəssüf hissi ilə qeyd edirik ki, əgər müstəqilliyimizin ilk illərindən Heydər Əliyev hakimiyyətdə olsaydı, bizim ölkəmiz Dağlıq Qarabağ problemi ilə üzləşməzdi. O, heç vaxt imkan verməzdi ki, orada separatçılar baş qaldırsınlar. Heç vaxt imkan verməzdi ki, xalqımıza qarşı bu qanlı cinayət törədilsin.

Müstəqilliyimizin ilk illərində baş vermiş hadisələr bizə çox baha başa gəldi. O hadisələri yada salarkən bir daha görürük ki, bu gün Azərbaycan sözün əsl mənasında inkişaf yolundadır. Bu gün Azərbaycan müstəqil dövlət kimi özünü dünya miqyasında təsdiqləyib. Müstəqilliyə gedən yol, bax, qeyd etdiyim hadisələrdən başlamışdır.

2003-cü ildən sonra Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. Bu siyasətin alternativi yoxdur. Son illərin təcrübəsi onu göstərir ki, ölkəmiz və xalqımız yalnız bu yolla qabağa gedə bilər. Biz Ulu Öndərin siyasi irsinə sadiqik, onun siyasətini davam

etdiririk, zənginləşdiririk. Təbii ki, vəziyyət dəyişir, dünya dəyişir. Bu gün bölgədə yaşanan hadisələr, problemlər o vaxt mövcud deyildi. Biz bütün çağırışlara hazırıq. Azərbaycan Heydər Əliyev siyasətini zənginləşdirir, müasir dövrün çağırışlarını nəzərə alaraq bu dövrə uyğunlaşdırır, ancaq ümumi siyasi xətdən kənara çıxmır. Bizim siyasi xəttimiz müstəqilliyin möhkəmlənməsidir. Bu gün Azərbaycan dünya miqyasında müstəqil siyasət aparan ölkələrdən biridir. Son illərin tarixi bunu bir neçə dəfə sübut etmişdir.

Azərbaycanda vətəndaş cəmiyyəti formalaşıb. Cəmiyyət vahid amal uğrunda birləşib. Azərbaycanın gələcək inkişafı ilə bağlı, inkişafa gedən yollarla bağlı cəmiyyətdə heç bir fikir ayrılığı yoxdur. Xalq-iqtidar birliyi bu gün bizim inkişafımızın əsas şərtidir, sabitliyimizin əsas amilidir. İctimai-siyasi sabitlik göydən düşmür. Buna nail olmaq üçün düşünülmüş siyasət aparılmalıdır. O siyasət ki, xalqın tələblərinə, ümidlərinə cavab verir.

Bu gün bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, təhlükəsizliyi dayanır. Azərbaycanda təhlükəsizlik məsələləri lazımi səviyyədə təmin edilir. İctimai-siyasi sabitlik mövcuddur. İnsanların rifah halı yaxşılaşır. Baxmayaraq, bu gün hələ ki, davam edən dünya iqtisadi və maliyyə böhranı bizə də öz təsirini göstərmişdir. Ancaq hesab edirəm ki, biz bu böhrandan şərəflə çıxa bilmişik və bu gün iqtisadi sahədə heç bir problem yaşanmır. Maliyyə vəziyyətimiz sabitdir, iqtisadi inkişaf davam edir, neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi ilə əlaqədar problemlər olsa da, ancaq biz bu problemlərin öhdəsindən şərəflə gəlirik. Əminəm ki, 2016-cı ili də biz uğurla başa vuracağıq. Nəyə görə? Ona görə ki, əvvəlki illərdə dayanıqlı iqtisadi inkişaf təmin edilmişdir, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində çox ciddi addımlar atılmışdır. Bununla bərabər, Heydər Əliyevin neft strategiyası Azərbaycanda uğurla icra edilmişdir.

Bu strategiya 1994-cü ildən icra edilməyə başlamışdır. "Əsrin kontraktı"nın imzalanması tarixi hadisədir. Bu gün "Əsrin kontraktı" çərçivəsində aparılan işlər bizim iqtisadi gücümüzü artırır. 1996-cı ildə "Şahdəniz" qaz yatağının işlənməsi ilə bağlı imzalanmış kontrakt bu gün nəinki Azərbaycanın, bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir, Azərbaycanın geosiyasi imkanlarını və vəziyyətini böyük dərəcədə möhkəmləndirir. 1999-cu ildə Bakı-Supsa neft kəmərinin inşası və Ulu Öndərin şəxsi iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməl daşının qoyulması Heydər Əliyev neft strategiyasının əsas amilləridir. Bu gün bu istiqamətdə əlavə tədbirlər görülür. Ulu Öndərin başladığı layihələr tam icra edilibdir. 2006-2007-ci illərdə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri istismara verildi. Bu gün biz "Cənub Qaz Dəhlizi" layihəsinin icrası ilə fəal məşğuluq və bu istiqamətdə də çox böyük uğurlara imza atmışıq.

Azərbaycan bu gün dünyada etibarlı tərəfdaş kimi tanınır. Bizim beynəlxalq mövqelərimiz böyük dərəcədə möhkəmlənmişdir. Azərbaycanı indi bütün dünya ictimaiyyəti tanıyır və bizim fəaliyyətimizə böyük rəğbətlə yanaşır. Azərbaycanda keçirilən qlobal beynəlxalq tədbirlər həm imkanlarımızı, gücümüzü göstərir, eyni zamanda, bizə olan hörməti daha da artırır. Bu il Bakıda BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çox böyük uğurla keçirilmişdir. Keçən il Avropa Oyunları böyük uğurla keçirilmişdir, gələn il İslam Həmrəylik Oyunları keçiriləcəkdir. Bu və digər mötəbər tədbirlər dünyanın diqqətini cəlb edir. Bu, bizim dövlətimizi gücləndirir. Əfsuslar olsun ki, Ermənistan, onun xaricdəki havadarları və erməni lobbisinin nümayəndələri uzun illərdir bizə qarşı çirkin kampaniya aparırlar. Onlar böhtan, şər, qarayaxma kampaniyası aparırlar ki, bizi ləkələsinlər. Onların geniş maliyyə imkanları var. Bir çox hallarda onlar başqa müəlliflərin arxasında gizlənərək müxtəlif mətbu orqanlarda Azərbaycana qarşı qərəzli və təhqiredici yazılar da dərc edirlər, daim anti-Azərbaycan kampaniyası aparırlar. Onların bir nömrəli hədəfi Azərbaycandır. Belə olan halda, əlbəttə ki, biz öz həqiqətlərimizi, real vəziyyəti dünyaya çatdırmalıyıq. Əlbəttə, bu istiqamətdə bir çox işlər görülür. Ancaq Bakıda, Azərbaycanın

digər yerlərində keçirilən mötəbər beynəlxalq tədbirlər, əlbəttə ki, xüsusi əhəmiyyət daşıyır. Çünki buraya gələn qonaqlar Azərbaycan reallıqlarını öz gözləri ilə görürlər. Görürlər ki, bu, müasir, inkişafda olan ölkədir. Görürlər ki, Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Görürlər ki, Azərbaycanda insanlar rahat, demokratiya şəraitində yaşayırlar. Azərbaycanda insan haqları qorunur, bütün azadlıqlar mövcuddur.

Azərbaycan sürətli inkişaf yolundadır. Bu inkişafı biz öz hesabımıza qazanmışıq. Nəyi qazanmışıqsa, nəyi əldə etmişiksə, ancaq Azərbaycan xalqının zəhməti hesabına, düşünülmüş siyasət nəticəsində əldə etmişik. Bizə heç kim kömək etməmişdir, etmir və etməyəcəkdir. Buna ehtiyac da yoxdur. Ancaq biz öz işimizi elə qurmuşuq ki, bütün sahələr üzrə konkret proqramlarımız var və onlar icra edilir.

Azərbaycan gələcək illərdə beynəlxalq aləmdə daha da böyük hörmətə layiq olacaqdır. Ölkə daxilində proseslər müsbət istiqamətdə gedir. Bizim regional əməkdaşlıqla bağlı təşəbbüslərimiz nəinki ölkəmizi, qonşu ölkələri də gücləndirir. Bizdə gələcək inkişafla bağlı çox dəqiq proqramlar var və gələcəyə baxışımız çox dəqiqdir. Növbəti illərdə görüləcək işlər bizi daha da gücləndirəcəkdir. Ölkəmizin gələcək inkişafı ilə bağlı bizdə heç bir şübhə yoxdur. Azərbaycan bundan sonra da inkişaf yolu ilə gedəcək. Ölkə qarşısında duran bütün problemlər öz həllini tapır, tapacaq, o cümlədən sosial sahədə. Baxmayaraq ki, neftin qiyməti 3-4 dəfə düşüb, Azərbaycanda maaşlar və pensiyalar bu il 10 faiz artırılıb, sosial proqramlar icra edilir, məktəb, xəstəxana tikintisi, köçkünlərin problemləri və digər sosial məsələlər öz həllini tapır.

Qarşımızda duran əsas vəzifə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Biz bu istiqamətdə həm siyasi, həm diplomatik və digər amillərdən istifadə edərək öz mövqeyimizi danışıqlar prosesində gücləndiririk. Haqq-ədalət bizim mövqeyimizi dəstəkləyir, müdafiə edir. Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır, hüquqi cəhətdən Azərbaycanın ayrılmaz hissəsidir. Beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr bizim mövqeyimizi gücləndirir və müdafiə edir.

O ki qaldı, Ermənistan ilə Azərbaycan arasındakı fərqə, bu fərq göz qabağındadır. Mən dəfələrlə demişəm, həm siyasi müstəvidə, iqtisadi sahədə, bütün digər sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində Azərbaycanın üstünlüyünü görməmək mümkün deyil. Aprel döyüşləri onu da göstərdi ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və istənilən vəzifəni icra edə bilər.

Beləliklə, bizim gələcək planlarımızla bağlı çox dəqiq təsəvvürümüz var. Biz ölkəmizi daha da gücləndirməliyik, Azərbaycan xalqının rifah halını daha da artırmalıyıq və dünya miqyasında Azərbaycan daha da möhkəm yer tutmalıdır. Bir sözlə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün əlbəttə ki, beynəlxalq norma və prinsiplər əsas rol oynayır. Amma biz daha da güclü olmalıyıq və bu yolla gedirik. Bu yol Heydər Əliyev yoludur. Biz onun siyasətinə sadiqik, bu yolla gedirik və bundan sonra da gedəcəyik, Azərbaycan xalqının xoşbəxt gələcəyini təmin edəcəyik. Sağ olun.

*9 may 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV 9 MAY - QƏLƏBƏ GÜNÜ MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladı.

Müharibə veteranları ilə görüşən Prezident İlham Əliyev onları Qələbə bayramı münasibətilə təbrik etdi və ən xoş arzularını çatdırdı.

Dövlətimizin başçısına xatirə hədiyyələri təqdim olundu.

Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşüblər. Qəhrəman azərbaycanlılar Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak ediblər. Partizan hərəkatında iştirak edən soydaşlarımızın da qəhrəmanlıq nümunələri saysız-hesabsızdır. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlıq və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir. Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl əzmkarlıq nümayiş etdirib. İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynayıb. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşüb. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçan 7 min hərbi təyyarənin yanacaq təchizatında mühüm rol oynayıb. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərib, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəal mövqeyi ilə seçilib. Azərbaycan faşizm üzərində Qələbə naminə bütün imkanlarını maksimum səfərbər edib.

Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirib, onlara hərtərəfli qayğı ilə yanaşıb və sosial məsələlərinin həlli istiqamətində mühüm addımlar atıb. Məhz Ulu Öndərin ədaləti uca tutması sayəsində İkinci Dünya müharibəsi iştirakçılarının mənəvi haqları müstəqilliyin ilk illərində özlərinə qaytarılıb və 1994-cü ildən başlayaraq Azərbaycanda 9 may - Qələbə Günü qeyd olunur. Ulu öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır.

Qələbə bayramı ərəfəsində Prezident İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması artıq ənənə halı alıb. Dövlətimizin başçısının bu il imzaladığı sərəncamla Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqradın mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə Prezidentin təqaüdünün aylıq məbləği 10 faiz artırılaraq, 2016-cı il fevralın 1-dən 110 manat müəyyən edilib. Azərbaycan Prezidentinin imzaladığı digər sərəncamla Böyük Vətən müharibəsi iştirakçılarına 1 000 manat məbləğində, Böyük Vətən müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, Böyük Vətən müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Böyük Vətən müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif

edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardım verilib. Respublikamızda müharibə veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncama əsasən isə Veteranlar Təşkilatının maddi-texniki bazasının gücləndirilməsi, habelə Təşkilatın fəaliyyəti ilə əlaqədar cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması məqsədi ilə 2016-cı ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Veteranlar Təşkilatına 500 min manat ayrılıb. Bütün bunlar bir daha təsdiqləyir ki, müharibə veteranlarına hərtərəfli qayğı və diqqət Azərbaycanda dövlət siyasətinin başlıca prioritetlərindən biridir.

Azərbaycan Prezidenti iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri ilə görüşdü, onları Qələbə bayramı münasibətilə təbrik etdi.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoyan Prezident, Ali Baş Komandan İlham Əliyev İkinci Dünya müharibəsində qəhrəmanlıq göstərən cəsur sərkərdənin, xalqımızın igid oğul və qızlarının, tarixi Qələbənin qazanılmasında payı olan milyonlarla insanın əziz xatirəsini dərin ehtiramla yad etdi.

Dövlətimizin başçısı İkinci Dünya müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Ali Baş Komandanın qarşısından keçdi.

Prezident İlham Əliyev veteranları Qələbə bayramı münasibətilə bir daha təbrik etdi, ən xoş arzularını çatdırdı.

Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Dadaş RZAYEV dedi: Cənab Prezident, 1 milyon 300 min pensiyaçı və veteran həmişə Sizin xarici və daxili siyasətinizi dəstəkləyir, Sizin arxanızdadır. Sizin cəbhə bölgəsinə səfəriniz bütün Azərbaycan xalqını, biz veteranları çox sevindirdi.

Prezident İlham ƏLİYEV: Çox sağ olun. Mən həmişə sizi dəstəkləyirəm. Çalışıram ki, sizə öz köməyimi göstərim. Bayram ərəfəsində bütün veteranlara mükafat verildi. İldən-ilə mükafatları artırırıq.

VETERAN: Bəli, 1000 manat, 500 manat. Hər şeyimiz var. Heç yerdə belə bir şey yoxdur.

VETERAN (qadın): Sağ olsun, bizim Prezidentimiz. Yenə də sağ olsun. Onu da deyim ki, mənim balam, Sizi Mehriban xanımla birgə cəbhə xəttində görəndə ürəyim dağa döndü. Dedim, halal olsun sizə. Azərbaycan xalqı bəxtəvərdir ki, bizim belə Prezidentimiz, xanımlar xanımı Mehribanımız var. Allah sizi qorusun.

Dadaş RZAYEV: Cənab Prezident, bizə bağışladığınız inzibati bina muzey olub.

Prezident İlham ƏLİYEV: Keçən il bərabər açmışdıq.

VETERAN (qadın): Bizim Prezidentdən yoxdur, ola da bilməz.

Prezident İlham ƏLİYEV: Mən sizi bu gün rəsmi ziyafətə dəvət edirəm. Heydər Əliyev Mərkəzində rəsmi ziyafət olacaq. Mən sizi oraya dəvət edirəm. Gəlin, görüşümüzü orada da davam etdirərik.

* * *

Mərasimdə Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

***9 may 2016-cı il***

## PREZİDENT İLHAM ƏLİYEV ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü günüdür. Artıq 13-cü ildir ki, qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü Azərbaycanın hər yerində olduğu kimi, dünya ölkələrində də geniş qeyd edilir. Ölkəmizin bütün bölgələrində bu əlamətdar gün – Azərbaycan xalqının xilaskarı, müasir müstəqil dövlətimizin banisi, respublikamızı sarsılmaz, dönməz yüksəliş yoluna çıxarmış əbədi inkişaf strategiyasının müəllifi ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə silsilə təbirlər keçirilir, dahi şəxsiyyətin Vətən və dövlət qarşısındakı xidmətləri yad olunur. Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, eləcə də diasporumuzun təmsilçiləri də ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə silsilə tədbirlər keçirərək görkəmli siyasi xadimin zəngin və çoxşaxəli fəaliyyətini, Vətən və xalq qarşısındakı xidmətlərini geniş təbliğ edirlər.

Hər il xalqımızın xilaskar oğlunun doğum günündə olduğu kimi, bu il mayın 10-da da səhər tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana üz tutur, ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, təzə-tər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edir, ruhuna dua oxuyurlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, Ulu Öndərin doğmaları xalqımızın xilaskar oğlunun doğum günündə onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Burada fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, onun xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.

*10 may 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSTANBULDA DÜNYA HUMANİTAR SAMMİTİNDƏ ÇIXIŞ ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Sammitdə iştirak ediblər.

Dünya Humanitar Sammiti liderlərin səhər yeməyi ilə başladı.

Sonra Sammit iştirakçıları birgə foto çəkdirdilər.

Sammitin açılış mərasimi dünyanın humanitar fəlakət bölgələrində mövcud vəziyyəti və həmin ərazilərə yardımların çatdırılmasını əks etdirən təqdimatla davam etdi.

BMT-nin baş katibi Pan Gİ MUN çıxış edərək Humanitar Sammitin keçirilməsinə verdikləri dəstəyə görə bütün dünya liderlərinə təşəkkürünü bildirdi. Dörd il əvvəl bu ideyanın yaranmasına səbəb kimi dünyada humanitar böhranın getdikcə dərinləşdiyini deyən Pan Gi Mun bildirdi ki, bu böhran hər il dərinləşir və insanların bu sahədəki çətinlikləri daha da artır. Dünyada münaqişələrin qarşısının alınmasının vacibliyini diqqətə çatdıran Pan Gi Mun humanitar böhranların səbəbinə çevrilən siyasi sabitsizliyin qarşısının alınmasının və mülki şəxslərin daha çox qorunmasının zəruriliyini qeyd etdi. Qaçqın probleminin qarşısının alınmasında yeni forma və ideyaların yaradılmasının vacibliyini qeyd edən BMT-nin baş katibi böhran içərisində olan milyonlarla insanın problemlərinin həllində bütün dövlətləri və cəmiyyətləri həmrəy olmağa çağırdı. "Biz insanlara yaşamaq və şərəflə həyat sürmək imkanını verməliyik", - deyən Pan Gi Mun əmin olduğunu bildirdi ki, dünya liderləri bu prosesə güclü dəstək verəcək.

Türkiyə Prezidenti Rəcəb Tayyib ƏRDOĞAN Sammitin dünyada ehtiyac içində yaşayan milyonlarla insanın problemlərinin həlli baxımından mühüm imkan olduğunu bildirdi. Müharibələrin, təbii fəlakətlərin, iqlim dəyişikliyinin bütün bəşəriyyətin təhlükəsizliyini və gələcəyini ciddi təhdid etdiyini deyən Rəcəb Tayyib Ərdoğan Türkiyənin humanitar problemlərin həllində fəal rol oynadığını qeyd etdi. Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin bu gün dünyanın 140-dan çox ölkəsində humanitar yardım və sosial inkişaf sahəsində müxtəlif layihələr reallaşdırdığını diqqətə çatdırdı. Hazırda qlobal humanitar yardım sisteminin mövcud problemlərin həlli baxımından səmərəsiz olduğunu qeyd edən Rəcəb Tayyib Ərdoğan bildirdi ki, bu sistemin yükünü sadəcə bəzi ölkələr öz çiynində daşıyır. Buna görə də bütün dünya ölkələri bu məsuliyyəti bərabər şəkildə bölüşməli, liderlər və beynəlxalq ictimaiyyətin nüfuzlu şəxsləri səylərini birləşdirməlidirlər.

Sonra dünyanın müxtəlif ölkələrində münaqişələrdən, təbii fəlakətlərdən əziyyət çəkən insanların üzləşdikləri çətinliklərdən bəhs edən maraqlı kompozisiya təqdim olundu və videoçarx nümayiş etdirildi.

Qısa fasilədən sonra Sammit işini plenar iclasla davam etdirdi.

Plenar iclasın həmsədri, BMT-nin baş katibi Pan Gi Mun Sammitin qarşısında duran əsas öhdəlikləri açıqladı. O, müzakirələrin bu öhdəliklərin həyata keçirilməsi, qarşıda duran problemlərin həlli istiqamətində aparılacağını diqqətə çatdırdı.

İclasın digər həmsədri, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sülhyaratma, qlobal sülhə nail olma və digər məsələlərdə Türkiyənin bundan sonra da eyni əzmlə çalışacağını bildirdi.

Almaniya Kansleri Angela MERKEL silahlı münaqişələrdə mülki şəxslərin həlak olmasının qarşısının alınması üçün səylərin artırılmasının vacibliyini bildirdi. O, Almaniyanın bundan sonra da humanitar yardımların dəstəklənməsi və müvafiq vəsaitin daha da artırılması istiqamətində fəaliyyətini gücləndirəcəyini vurğuladı. Bu sahədə mövcud fəaliyyətlərin əlaqələndirilməsinin əhəmiyyətini qeyd edən Kansler bununla bağlı daha səmərəli qlobal sistemin yaradılmasının vacibliyini diqqətə çatdırdı.

Küveyt Dövlətinin Əmiri Şeyx Sabah Əl-Əhməd Əl-Cabir ƏS-SABAH qeyd etdi ki, bu Sammit BMT-nin öz məqsədlərinə çatması üçün mühüm vasitədir. Küveyt Əmiri bildirdi ki, yeni meyarların müəyyənləşdirilməsi, bütün dövlətlərin və beynəlxalq təşkilatların humanitar böhranın aradan qaldırılmasına fəal dəstək verməsi xüsusi əhəmiyyət daşıyır.

Mali Prezidenti İbrahim Bubakar KEYTA dünyada humanitar məsələlərin müzakirə olunduğu ilk Sammitin keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndirdi. Ölkəsində bu

sahədə çətinliklərdən danışan Mali Prezidenti terror qruplaşmalarının humanitar və digər sosial problemlərdən istifadə etdiyini vurğulayaraq, bu təhdidlərin qarşısının alınması üçün bütün ölkələri humanitar sahəyə sərmayə qoymağa çağırdı.

Azərbaycan Prezidenti İlham Əliyev Sammitin plenar iclasında çıxış etdi.

## PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Cənab sədr.

Xanım sədr.

Xanımlar və cənablar.

İnanıram ki, Sammitin nəticələri bütün dünyada humanitar böhrandan əziyyət çəkən insanların həyat səviyyəsinin yaxşılaşmasına öz töhfəsini verəcək.

Biz azərbaycanlılar qaçqınlığın və məcburi köçkünlüyün nə demək olduğunu çox yaxşı bilirik. Artıq 20 ildən çoxdur ki, bir milyondan artıq azərbaycanlı Ermənistanın hərbi təcavüzü və işğalından əziyyət çəkir. Bu təcavüz nəticəsində bizim beynəlxalq səviyyədə tanınmış ərazilərimizin 20 faizi işğal altındadır. Bir milyondan artıq azərbaycanlı qaçqına və məcburi köçkünə çevrilib.

Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı törədib. 1992-ci ildə Ermənistanın törətdiyi Xocalı soyqırımı 10-dan artıq ölkə tərəfindən soyqırımı kimi tanınıb. Xocalı soyqırımı nəticəsində 613 mülki şəxs qəddarcasına qətlə yetirilib. Onların arasında 106 qadın, 63 uşaq, 70 yaşlı insan olub. Mindən artıq adam itkin düşüb. Ermənistan Azərbaycana qarşı təcavüzkar siyasətini davam etdirir.

2016-cı ilin aprelində Ermənistan dinc Azərbaycan vətəndaşlarına qarşı yeni hücum həyata keçirdi. Bu hücum nəticəsində bizim əsgər və zabitlərimiz, o cümlədən 6 mülki şəxs qətlə yetirilib, 30-dan artıq mülki şəxs yaralanıb. Bizim kəndlərimizin atəşə tutulması nəticəsində 500-dən artıq evə ziyan dəyib, 100-dən çox ev tamamilə dağıdılıb və yandırılıb. Ermənistan ordusu mülki şəxslərə qarşı qadağan olunmuş kimyəvi silahdan, xüsusilə ağ fosfor bombalarından istifadə edib.

Ermənistan tərəfindən törədilən bütün müharibə cinayətləri sənədlərlə sübuta yetirilib və beynəlxalq müşahidəçilərə təqdim olunub. Mülki əhalimizi qorumaq üçün Azərbaycan Ordusu uğurlu əks-hücum həyata keçirdi və yalnız bundan sonra təcavüzkar dayandırıldı. Ermənistan BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə məhəl qoymur. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətrafındakı 7 rayonu işğal olunub. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün, hətta bir neçə saat ərzində icra edilir. Bizə gəldikdə isə onlar 20 ildən çoxdur kağız üzərində qalır. Bu, Azərbaycana qarşı ikili standartlar siyasətidir. Ermənistan bu qətnamələrə əməl etməli və ya bu ölkəyə qarşı sanksiya tətbiq olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Bütün region üçün başqa bir təhlükə mənbəyi Ermənistandakı istismar müddəti başa çatmış Metsamor Atom Elektrik Stansiyasıdır. Ermənistanın radioaktiv tullantılardan qanunsuz istifadə etməsinə dair məlumatlar var. Sabiq baş nazir, parlament üzvü və digər Ermənistan rəsmiləri bu ilin aprelində Ermənistanın “çirkli bomba” adlandırılan nüvə silahına malik olduğunu bəyan ediblər. Bu bəyanat müvafiq beynəlxalq təşkilatlar tərəfindən ciddi şəkildə araşdırılmalıdır. Ermənistanın nüvə təhdidi və şantajına son qoyulmalıdır. Azərbaycan səbəbkarı Ermənistan olan humanitar fəlakətin fəsadlarının öhdəsindən gəlmək üçün əlindən gələni edir.

Bizim qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün 6 milyard dollardan artıq vəsait sərf olunub. Qaçqın və məcburi köçkünlər arasında yoxsulluq

səviyyəsi 75 faizdən 12 faizə endirilib. Ümumilikdə, son 12 ildə Azərbaycanda yoxsulluq səviyyəsi 50 faizdən 5 faizə enib. Azərbaycan oxşar problemlərdən əziyyət çəkən ölkələrə yardım edir və edəcək. Biz BMT-nin Ebola virusu ilə mübarizə və bərpa tədbirlərinə maddi yardım ayırmışıq. Biz əhalinin qabaqcadan xəbərdarlıq sistemi və fəlakət riski ilə bağlı informasiyaya çıxışını təmin etmək üçün müvafiq təsisatlar və maraqlı tərəflər arasında əməkdaşlığın təbliğinə sadiqik. Təşəkkür edirəm.

* * *

Sonra Ukrayna Prezidenti Petro Poroşenko, Makedoniya Respublikasının Prezidenti George İvanov, Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili çıxışlarında dünyada humanitar problemlərin həlli istiqamətində bütün fəaliyyətləri dəstəklədiklərini vurğuladılar.

Qeyd edək ki, Türkiyə Respublikasının və BMT-nin təşkilatçılığı ilə ilk dəfə keçirilən Sammit dünyada baş verən humanitar problemlərin həlli baxımından beynəlxalq ictimaiyyətə mühüm çağırışdır. Sammitdə BMT-nin üzvü olan ölkələrdən 60-dək dövlət və hökumət başçısı, böhranlardan əziyyət çəkən ölkələrin rəsmiləri, beynəlxalq təşkilatların, QHT-lərin və özəl sektorun təmsilçiləri olmaqla, ümumilikdə, 5 mindən çox nümayəndə iştirak edir.

Hazırda dünyada 130 milyondan çox insanın humanitar yardıma və sosial müdafiəyə ehtiyacı var. Bu isə humanitar yardım üçün xərclərin məbləğini böyük dərəcədə artırıb. BMT-nin məqsədi bu problemlərin aradan qaldırılması üçün nəzərdə tutulan vəsaitin həcmini 21 milyard dollara çatdırmaqdır. Sammitin əsas hədəfi isə münaqişələrin həllinə və onların baş verməsinin qarşısının alınmasına, humanitar fəlakətlərə yol verilməməsi üçün güclü norma və prinsiplərin bərqərar edilməsinə, fəlakət zonalarındakı insanlara humanitar yardımlar çatdıraraq onların ehtiyaclarının ödənilməsinə, humanitar sahəyə böyük sərmayələrin yatırılmasına yönəlib.

*23 may 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı tədbirdə nitq söylədi.

### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli xanımlar və cənablar.

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, Azərbaycan daim inkişaf etsin, xalqımız rahat yaşasın, ölkəmizdə sabitlik, təhlükəsizlik daim möhkəmlənsin.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımız və dünya üçün tarixi hadisədir. Ona görə ki, ilk dəfə idi müsəlman aləmində demokratik respublika yaranmışdı. Bu respublikanı Azərbaycan xalqı, onun qabaqcıl nümayəndələri yaratmışlar. Biz təbii olaraq bununla fəxr edirik. Məhz bizdən sonra digər müsəlman ölkələrində demokratik respublikalar yaranmağa başlamışdır. Azərbaycan xalqı və dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə həmişə çox böyük hörmətlə yanaşıb və yanaşır, onların xatirəsini qəlbində yaşadır. Əfsuslar ki, Azərbaycan Demokratik Respublikasının ömrü uzun olmadı. Respublika iki ildən sonra süqut etdi. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qorumaq onu əldə etməkdən daha da çətindir.

Xalqımız üçün yeni dövr - sovet dövrü başlamışdır. Əlbəttə, biz müstəqil deyildik, özümüz müstəqil siyasət apara bilmirdik. Ancaq bununla bərabər, o dövrdə də müsbət məqamlar az deyildi. İlk növbədə, təhsillə bağlı məsələlər öz həllini tapdı və bu gün Azərbaycanda savadlılığın səviyyəsi təxminən 100 faizdir. Elmin, mədəniyyətin, incəsənətin, kənd təsərrüfatının, sənayenin inkişafı sovet dövründə təmin olunmuşdur. Xüsusilə, o dövrdə ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik edirdi. Əgər Sovet Azərbaycanının sosial-iqtisadi statistikasına nəzər salsaq, bunu görmək mümkündür ki, 1970-ci illərə qədər Azərbaycan ən geridə qalmış yerlərdə idi. Ancaq Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycan inkişaf etməyə başladı və qısa müddət ərzində donor respublikaya çevrildi. Sovet İttifaqında Rusiya Federasiyasından sonra iki respublika – Belarus və Azərbaycan özünü təmin edirdi və ümumittifaq xəzinəsinə öz maddi töhfəsini verirdi.

Bu, böyük nailiyyət idi. Çünki Azərbaycan o illərdə inkişaf etmiş, sənaye müəssisələri yaradılmış, kənd təsərrüfatı sürətlə inkişaf etmiş, xalqımız daha da yaxşı yaşamağa başlamışdır. Hesab edirəm ki, məhz buna görə, məhz o illərdə görülən işlərə və Heydər Əliyevə xalq tərəfindən olan hörmətə görə ən çətin anlarda xalqımız yenə də Ulu Öndərə üz tutdu, 1993-cü ildə onu hakimiyyətə dəvət etdi və bir daha öz müdrikliyini göstərdi. Əgər 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlməsə idi, müstəqilliyimizin taleyi çox faciəli ola bilərdi.

1991-ci ildə bərpa edilən müstəqillik böyük tarixi şans, böyük sərvət idi. Ancaq əfsuslar olsun ki, o illərdə ölkəmizə rəhbərlik edən şəxslər bu şansdan istifadə edə bilmədilər. Ölkəmizi xaos bürümüşdü. Daxili çəkişmələr, anarxiya, silahlı quldur dəstələri meydan oxuyurdu. Özbaşınalıq, iqtisadi tənəzzül, hərbi böhran və bütün bu xoşagəlməz hallar nəticədə vətəndaş müharibəsinə gətirib çıxarmışdı. Bu dəhşətli vətəndaş müharibəsində qardaş qanı axıdıldı. Belə bir vəziyyətdən istifadə edən erməni millətçiləri, Ermənistan işğalçıları torpaqlarımızı işğal etdilər. 1992-ci ildə Şuşa və Laçın, 1993-cü ilin aprelində Kəlbəcər işğal altına düşdü və beləliklə, Dağlıq Qarabağ ilə Ermənistan arasında coğrafi əlaqə yarandı.

Həmin ağır və faciəli şəraitdə xalq Heydər Əliyevə müraciət etdi. O, bu müraciətə öz dəstəyini verdi, hakimiyyətə gəldi və ondan sonra Azərbaycan inkişaf etməyə başladı. Təxminən üç il vaxt lazım idi ki, iqtisadi sabitləşmə təmin edilsin. Biz bunu statistikadan görürük ki, məhz 1996-cı ildə iqtisadi sabitləşmə əldə edilmiş, ondan sonra isə Azərbaycan iqtisadiyyatı inkişaf etməyə başlamışdır. Siyasi sistem yaradıldı, 1995-ci ildə Konstitusiya qəbul olundu, Azərbaycan xarici investorları ölkəmizə dəvət etdi və inkişaf dövrü başladı. 1993-2003-cü illər inkişaf, sabitlik illəri oldu. Məhz o illərdə dövlətçiliyimizin əsasları qoyuldu, milli ideologiya - azərbaycançılıq ideologiyası xalq tərəfindən dəstəkləndi. Bu gün biz o illərdə həyata keçirilən işlərin bəhrəsini görürük, əlbəttə ki, Azərbaycanı bu möhkəm təməl üzərində uğurla, inamla irəliyə aparırıq.

2003-cü ildən bu günə qədər Azərbaycan Heydər Əliyev yolu ilə gedir, bu siyasətə sadiqdir. Əlbəttə dünya dəyişir, bölgə dəyişir. Biz indi tam fərqli geosiyasi vəziyyətdə yaşayırıq. Ancaq biz həm xarici, həm daxili siyasətlə bağlı prinsipial seçimimizə sadiqik. Azərbaycanda xalq vahid amal uğrunda çalışır, vahid amal ətrafında birləşib ki, ölkəmizi daha da gücləndirək, xalqımızın rifah halını yüksəldək, Azərbaycanın dünyadakı nüfuzu daha da artsın və biz dayanıqlı, uzunmüddətli inkişaf strategiyamızı icra edə bilək. Buna nail olmaq üçün əlbəttə ki, qarşımızda önəmli vəzifələr durur. Son illər ərzində qarşımıza qoyduğumuz bütün məsələlər öz həllini tapır.

2003-cü ildən bu günə qədər görülən işlər haqqında çox danışmaq istəməzdim. Hər şey göz qabağındadır. Azərbaycanın beynəlxalq nüfuzu artıb, biz 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv olmuşuq, milli iqtisadiyyat üç dəfədən çox artıb, maaş-

lar, pensiyalar dəfələrlə artırılıb. Azərbaycan çox böyük əhəmiyyət kəsb edən transmilli, enerji və nəqliyyat layihələrini uğurla icra edib. Azərbaycan qaz, elektrik enerjisi idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişdir. Biz enerji, xüsusilə neft-qaz layihələrinin icrasında liderlik keyfiyyətlərimizi bütün dünyaya nümayiş etdiririk. Biz indi regional nəqliyyat mərkəzinə çevrilirik. Azərbaycanda bütün dinlərin, bütün millətlərin nümayəndələri bir ailə kimi rahat yaşayır. Yəni, bu siyahını uzatmaq olar. Mən görülən işlər haqqında danışsam, saatlarla vaxt lazım olacaq.

Əsas məsələ ondan ibarətdir ki, biz görüləcək işlər haqqında danışaq. Çünki möhkəm təməl var. Həm 1993-2003-cü illərdə, eyni zamanda, son illər ərzində əldə edilmiş nailiyyətlər inkişaf üçün möhkəm təməl yaradıb. Biz bu təməl üzərində müstəqil dövlət quruculuğu prosesini davam etdiririk.

Vəzifələrə gəldikdə, daxili siyasətlə bağlı ilk növbədə, Azərbaycanda bundan sonra da təhlükəsizlik və sabitlik təmin edilməlidir. Təhlükəsizlik və sabitlik. Bu iki amil olmasa heç bir ölkə inkişaf edə bilməz. Azərbaycanda təhlükəsizlik lazımi səviyyədə təmin edilir. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşayır. Xüsusilə, indiki şəraitdə, - dünyada gedən prosesləri biz görürük, - bu, yüksək qiymətə layiq olmalıdır. Sabitliyə gəldikdə isə, bunun təminatçısı Azərbaycan xalqıdır. Azərbaycan xalqı dövlət siyasətini dəstəkləyir, xalq-iqtidar birliyi möhkəmlənir və əlbəttə, Azərbaycan xalqı ölkəmizin seçiminə sadiqdir. Azərbaycan xalqı istəyir ki, sabitlik möhkəmlənsin, Azərbaycan daha da güclənsin. Ona görə sabitliyin təminatçısı Azərbaycan xalqıdır, onun iradəsidir.

Demokratiyanın inkişafı hər bir ölkə üçün böyük önəm daşıyır, o cümlədən Azərbaycan üçün. Hesab edirəm ki, biz bu istiqamətdə də böyük uğurlara nail olmuşuq. Azərbaycanda bütün demokratik təsisatlar uğurla fəaliyyət göstərir, bütün azadlıqlar - söz azadlığı, mətbuat azadlığı, sərbəst toplaşma azadlığı, siyasi fəaliyyət azadlığı təmin edilir, heç bir məhdudiyyət yoxdur və olmayacaq. Bu da qarşıya bir vəzifə kimi qoyulur ki, biz gələcəkdə də demokratik inkişafa sadiq olmalıyıq.

Əgər təhlükəsizlik və sabitlik olmasa, əlbəttə ki, demokratiyadan, iqtisadi və sosial inkişafdan söhbət belə gedə bilməz və biz bunu yaxın tarixdən görürük. Ancaq indi bunu bütün dünya görür. Həm MDB məkanında, Avropada, Yaxın Şərqdə, həm də bizim qonşuluğumuzda çox təhlükəli proseslər gedir. Demokratik normalar pozulur, ayrı-seçkilik meyilləri güclənir, milli-dini zəmində qarşıdurmalar, anlaşılmazlıq və müharibələr başlayır. Televizordan görürük ki, inkişaf etmiş ölkələrdə nümayişçilərə qarşı necə zorakılıq tətbiq edilir. Bəziləri əvvəllər bizi ittiham etməyə çalışırdılar ki, Azərbaycanda hüquqlar pozulur, demokratiya zəifdir, burada sərbəst toplaşma azadlığı yoxdur. Əlbəttə, hər kəs bilir ki, bunun hamısı yalandır. Azərbaycanda heç kim vəhşicəsinə döyülmür, heç kim söyülmür, heç bir məhdudiyyət qoyulmur. Necə ola bilər ki, bizə gəldikdə bu uydurma ittihamlar avtoritar rejim kimi xarakterizə edilir, ancaq demokratiyanın beşiyi sayılan ölkələrdə bu günlərdə televizordan gördüyümüz o videosüjetlər demokratiya sayılır. Necə ola bilər ki, nümayişçilər vəhşicəsinə döyülür, söyülür, təhqir edilir, bu, demokratiya hesab edilir. Azərbaycanda sabit vəziyyət mövcuddur, xalq rahat, azad şəraitdə yaşayır, amma bu, demokratiya hesab olunmur. Bu ikili standartlar siyasətinə son qoyulmalıdır. Bu, artıq dözülməz hala gəlib çatıb. Əlbəttə ki, Azərbaycan xalqı hər şeyi çox yaxşı görür və bilir. Bilir ki, bizə qarşı aparılan kampaniyanın səbəbi nədir, hədəfi kimdir və hansı nəticə gözlənilir. Səbəbi odur ki, biz öz yolumuzla, müstəqillik yolu ilə gedirik. Heç bir başqa ölkənin daxili işinə qarışmırıq, heç kimi də qoymuruq ki, bizim daxili işimizə qarışsın. Bu da bəzi qüvvələr tərəfindən qəbul edilmir. Çünki onlar öyrəşiblər, başqa yerlərdə ölkələr onların iradəsi ilə idarə olunur. Hədəf isə əlbəttə ki, Azərbaycanın siyasi rəhbərliyidir və

mənəm. Çünki mən bu ölkənin başında dayanıram və Azərbaycanın siyasətini mən müəyyən edirəm. Azərbaycanın müstəqilliyinin də qarantı mənəm və Azərbaycan xalqıdır.

Mübarizə üsullarına gəldikdə isə burada da heç bir innovasiya, yenilik yoxdur, köhnə, şablon, trafaret ittihamlar, əsassız iftiralar, uydurmalar, provokasiyalar, yalan, böhtan. Biz artıq bütün bunlara öyrəşmişik. Bunların heç biri bizim siyasətimizə və iradəmizə zərrə qədər təsir edə bilməz. Ancaq mən bir daha demək istəyirəm ki, demokratiya bizim şüurlu seçimimizdir, yolumuzdur. Azərbaycan bu istiqamətdə böyük uğurlara imza atıb, ancaq biz etiraf etməliyik, hələ ki, görüləsi işlər çoxdur. Heç bir cəmiyyət kamil deyil. Biz bu istiqamətdə səylərimizi davam etdirəcəyik.

Azərbaycanda bu il "Multikulturalizm ili" elan edilibdir. Bu da xüsusilə indiki şəraitdə dünyaya bir mesajdır. Azərbaycan cəmiyyəti əsrlər boyu multikulturalizm şəraitində yaşayır. Hələ bu ifadə yaranmadan biz milli barışıq, tolerantlıq, qarşılıqlı dəstək və hörmət şəraitində yaşayırdıq. Bu gün bizim nümunəmiz dünyada öyrənilir və dəstəklənir. Biz çalışacağıq və çalışmalıyıq, - bunu da qarşıya vəzifə kimi qoyuram, - həm Azərbaycan təcrübəsi dünyada daha da geniş şəkildə təbliğ edilsin, həm də biz bu təcrübəni digər ölkələrlə paylaşaq ki, dini, milli dözümlülük, tolerantlıq, multikulturalizm meyilləri güclənsin. Əks təqdirdə, bu, bizə də problemlər yarada bilər. Çünki biz adada yaşamırıq və istər-istəməz xarici təsir də mümkündür. Necə ki, biz təsir edirik, Azərbaycana da təbii olaraq, media və digər vasitələrlə təsir göstərilir. Ona görə biz əlbəttə, maraqlıyıq ki, bölgədə və dünyada multikulturalizm meyilləri güclənsin. Biz bu istiqamətdə fəaliyyətimizi davam etdirməliyik.

Xarici siyasətə gəldikdə, bizim siyasətimiz müstəqil siyasətdir, Azərbaycan xalqının maraqlarını təmin edir və uğurla təmin edir. Biz bütün ölkələrlə qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında münasibətlər qurmuşuq və Ermənistandan başqa bizim heç bir ölkə ilə heç bir problemimiz yoxdur. Qonşularla münasibətlərimiz bizim üçün prioritet təşkil edir. Hesab edirəm ki, hər bir ölkə üçün bu, belə olmalıdır. Çünki biz bu coğrafiyada, bu qonşuluqda yaşayırıq. Biz maraqlıyıq ki, qonşuluqda sabitlik olsun, inkişaf getsin, xoşagəlməz hallar, təhlükələr olmasın. Qonşularımızın təhlükəsizliyi bizim təhlükəsizliyimizdir. Əgər qonşunun evi yanırsa, təbii olaraq, ilk növbədə, sən gedib qonşuya yardım edirsən. Digər tərəfdən sən özünü qoruyursan. Siyasətdə də belədir. Ona görə bizim qonşularla münasibətlərimiz formalaşıb, oturuşub və çox gözəl münasibətlərdir. Türkiyə, Rusiya, İran və Gürcüstan ilə həm ikitərəfli, həm çoxtərəfli formatlarda çox gözəl siyasi-iqtisadi, mədəni əlaqələrimiz var. Bu əlaqələr bizim üçün çox önəmlidir. Qonşular da bizə eyni mövqedən yanaşır. Biz bu əlaqələri gələcəkdə prioritet kimi daim diqqət mərkəzində saxlamalıyıq. Biz bu əlaqələri gücləndirmək üçün nə lazımdırsa edəcəyik. Bununla bərabər, biz üçtərəfli formatda da işləyirik. Bu üçtərəfli formatın yaradılmasının təşəbbüskarı da biz olmuşuq. Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-İran-Rusiya. Bütün qonşularla ayrı-ayrılıqda üçtərəfli format artıq formalaşıb və bu, sadəcə olaraq formal xarakter daşımır. Çünki bu üçtərəfli əməkdaşlıq çərçivəsində bir çox önəmli məsələlər həll olunur, təhlükəsizliklə, iqtisadi əməkdaşlıqla, enerji və nəqliyyatla bağlı layihələr icra edilir. Yəni, bu əməkdaşlıq bizə də, qonşularımıza da böyük xeyir gətirir.

Müsəlman ölkələri ilə əməkdaşlığımız həmişə ən yüksək səviyyədə olmuşdur. Biz İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində çox önəmli addımlar atmışıq. Beynəlxalq arenada, BMT-də bizi ən çox dəstəkləyən məhz müsəlman ölkələridir, biz də onları dəstəkləyirik. Bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə qəbul edilmiş qətnamə Azərbaycanı birmənalı şəkildə dəstəklədi, Ermənistanın təcavüzünü, aprel təxribatını qətiyyətlə pislədi və bununla bərabər, İslam Əməkdaşlıq Təşkilatı Ermə-

nistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrupunu da yaratmışdır. Bu əməkdaşlıq bizim üçün böyük əhəmiyyət daşıyır. Bu əməkdaşlıq tarixə, mədəniyyətə, dinə, ortaq maraqlara əsaslanır və daim diqqət mərkəzində olmalıdır.

Avropa ölkələri ilə də bizim əməkdaşlığımız genişlənir. Həm ikitərəfli formatda çox gözəl əlaqələrimiz var, həm də Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafı istiqamətində böyük işlər görülür, görülübdür. Hazırda münasibətlər yüksələn xətlə inkişaf edir. Bu, bizi sevindirir, əminəm ki, Avropa qurumlarını da sevindirir. Avropa İttifaqının üzvü olan 8 ölkə ilə bizim strateji tərəfdaşlığımız haqqında sənədlər imzalanıb və ya qəbul edilib. Bu, Avropa İttifaqına üzv ölkələrin üçdəbir hissəsidir. Bütövlükdə, Azərbaycan-Avropa İttifaqı əlaqələrinin formalaşdırılması istiqamətində təkliflər indi masa üzərindədir. Ümid edirəm ki, yaxın zamanlarda ciddi danışıqlar başlanacaqdır.

Əlbəttə, xarici siyasətimizin və nəinki xarici siyasətimizin, ümumiyyətlə, siyasətimizin əsas məsələsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Mən bu məsələ ilə bağlı dəfələrlə fikirlərimi bildirmişəm. Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və xalq da bu mövqeyi dəstəkləyir, bəyənir. Bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Erməni silahlı qüvvələrinin torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir, status-kvo dəyişdirilməlidir. Mən şadam, Minsk qrupuna həmsədrlik edən ölkələrin rəhbərləri, xarici işlər nazirləri, digər nümayəndələr artıq birmənalı şəkildə deyirlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi işğala son qoyulması deməkdir. Çünki status-kvo Ermənistanı qane edir, onlar sülh istəmirlər. Onlar istəyirlər ki, bu status-kvo əbədi qalsın. Onlar istəyirlər ki, bu danışıqlar sonsuz olsun. Yəni, görüntü, imitasiya naminə danışıqlar aparılsın. Biz dəfələrlə demişik ki, bu, mümkün deyil. Biz artıq 20 ildən çoxdur ki, gözləyirik. Vasitəçilər həmişə bizə gözləyin, sülh yolu ilə həll edin deyirlər. Son vaxtlar bunu daha da tez-tez təkrarlayırlar. Biz də istəyirik ki, sülh yolu ilə həll olunsun. Kim istəyər ki, müharibə başlasın?! Amma biz istəyirik ki, həll olunsun. Burada Ermənistan ilə Azərbaycan arasında fərq məhz bundadır. Ermənistan istəyir ki, sülh yolu ilə həll olunsun, amma bunun həllini əngəlləyir, ortaya süni əngəllər qoyur. Qabaqcadan qəbuledilməz şərtlər qoyur ki, biz bunu qəbul etməyək və beləliklə, danışıqlar onilliklər ərzində belə davam etsin. Bizim isə mövqeyimiz konstruktivdir və bunu vasitəçilər bilir. Rəsmi açıqlamasalar da, bunu etiraf edirlər. Konstruktiv mövqe nümayiş etdiririk ki, bu məsələ həll olunsun, torpaqlarımız işğaldan azad edilsin, Azərbaycan köçkünləri öz dədə-baba torpaqlarına qayıda bilsinlər. Bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bir daha demək istəyirəm, nə Azərbaycan xalqı, nə Azərbaycan dövləti heç vaxt imkan verə bilməz ki, tarixi torpaqlarımızda ikinci erməni dövləti yaradılsın. Biz buna heç vaxt imkan verməyəcəyik.

O ki qaldı Dağlıq Qarabağda yaşayan ermənilərə, onlar orada necə yaşayırlar, elə də yaşasınlar. Düzdür, Ermənistan rəhbərliyi bizim mövqeyimizi öz xalqına həmişə təhrif edərək çatdırır. Amma mən bir daha demək istəyirəm, bizim mövqeyimiz ondan ibarətdir ki, kim harada yaşayıb orada da yaşamalıdır.

Bir daha demək istəyirəm ki, Azərbaycan dünya miqyasında multikulturalizm, dini, milli tolerantlıq baxımından nümunəvi bir ölkədir. Sadəcə olaraq Ermənistanın siyasi rəhbərliyi, millətçi qruplar, Azərbaycana daim nifrətlə yanaşan insanlar bütün bu müsbət meylləri pozmaq, üzərindən xətt çəkmək istəyirlər. Ərazi bütövlüyümüz danışıqlar mövzusu deyil və hesab edirəm ki, Vyana görüşü uğurlu görüş idi. Biz gözləyirik ki, tezliklə, vaxt itirmədən çox ciddi, vasitəçilərin dedikləri kimi substantiv, yəni, mənalı danışıqlar başlasın.

Bununla bərabər, əlbəttə, biz gələcəkdə də hərbi gücümüzü artırmalıyıq və artırırıq. Neçə ildir ki, ordu quruculuğu prosesi uğurla gedir. Ordumuzun döyüş qabiliyyəti, mad-

di-texniki təminat yüksək səviyyədədir. Ən müasir silahlar, texnikalar gətirilir, eyni zamanda, Azərbaycanda istehsal olunur. Azərbaycanda artıq mindən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Bu gün Azərbaycan Ordusu dünyanın aparıcı orduları sırasındadır. Mən bunu dəfələrlə demişəm. Aprel ayında Ermənistanın törətdiyi təxribat, Azərbaycan Ordusunun əks-hücum əməliyyatı bunu həm Ermənistana, həm bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu güclü ordular sırasındadır. Biz gələcəkdə bu istiqamətdə əlavə tədbirlər görəcəyik və artıq müvafiq göstərişlər verilib. Mən onları açıqlamaq istəmirəm. Maddi-texniki təminat baxımından və əlavə müasir avadanlıq alınması üçün lazımi tədbirlər görülür. Azərbaycan xalqı əmin olsun ki, bu məsələ daim diqqət mərkəzindədir. Biz öz gücümüzü bilirik, öz gücümüzdən istifadə etmirik, sadəcə olaraq təxribatlara layiqli cavabımızı vermişik, veririk, lazım gələrsə, verəcəyik və çalışacağıq ki, bu məsələ tezliklə və sülh yolu ilə həll edilsin.

Əlbəttə, bütün bu nailiyyətlərə çatmaq üçün güclü iqtisadiyyat olmalıdır. Son on il ərzində Azərbaycanda iqtisadi inkişaf çox sürətli idi. İndi isə biz yeni dövrdə yaşayırıq. Dünyada iqtisadi, maliyyə böhranı dərinləşir, neftin qiyməti aşağı səviyyədədir, gəlirlərimiz azalıb, təbii ki, xərclərimiz də azalır. Ancaq bununla bərabər, biz iqtisadiyyatı şaxələndirməklə, islahatlar aparmaqla bu çətinliyi aradan götürürük.

2016-cı il sabitləşmə ili olmalıdır. Düzdür, hələ ki, iqtisadi inkişafdan söhbət getmir. Milli iqtisadiyyat hələ ki, tənəzzülə uğrayır, bu, təbiidir, amma bunun insanların gündəlik həyatına heç bir təsiri olmamalıdır. Əminəm ki, sabitləşmə artıq yaxınlaşır, makroiqtisadi göstəricilər yaxşılaşacaq.

Əksər neft-qaz ölkələrinin bu il maaşları, pensiyaları kəsmələrinə, ödəmələri dayandırmalarına baxmayaraq, biz maaşları, pensiyaları 10 faiz artırmışıq. Bu, nəyi göstərir? İlk növbədə, bizim siyasətimizi, - həmişə demişəm ki, biz sosial siyasət aparırıq, - digər tərəfdən, bizim imkanlarımızı. Bizim kifayət qədər imkanlarımız var. Maliyyə vəziyyətimiz də yaxşıdır, sabitdir, valyuta ehtiyatlarımızı yığmışıq. Bu ilin əvvəlində hesab olunurdu ki, bizim Neft Fondunun gəlirləri, yəni, vəsaiti azalacaq, ancaq artır. Nəyə görə? Çünki islahatlar, şaxələndirmə siyasəti aparılır, xərclərə qənaət edilir, maliyyə nizam-intizamı güclənir. O resurslar ki, onlardan səmərəli istifadə olunmurdu, indi onlardan səmərəli istifadə olunur, bütün maliyyə sisteminə şəffaflıq gətirilibdir. Ancaq hələ ki, görüləsi işlər çoxdur.

İqtisadi inkişaf bizim müstəqilliyimizin, hərbi gücümüzün və müstəqil xarici siyasətimizin təməlidir. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaq, onda biz müstəqil siyasət apara bilməyəcəyik. Ona görə bütün səylərimizi indi bu istiqamətə yönəltmişik. Həm cəmiyyətdə, həm ekspert səviyyəsində ciddi diskussiyalar gedir. Mən bunu alqışlayıram. Mən ekspertlərlə dəfələrlə görüşmüşəm və yeni fikirlər, yeni təkliflər ortaya çıxır. Biz bütün bunları təhlil edirik və ən düzgün variantı seçirik.

Ölkə iqtisadiyyatı dayanıqlı inkişaf etməlidir. Neft amilindən asılılıq aradan götürülməlidir. Hesab edirəm, hələ bizə bir neçə il lazımdır ki, bu hədəfə çataq və çatacağıq. Bu il həm sənaye potensialının artırılması, həm də kənd təsərrüfatının inkişafı ilə bağlı çox önəmli qərarlar qəbul olunub və konkret addımlar atılıbdır ki, bunlar özünü statistik göstəricilərdə də büruzə verəcək.

Əlbəttə, bu ilin sonuna qədər "Cənub" qaz dəhlizinin icrası ilə bağlı bütün lazımi tədbirlər görülməlidir. Heç bir yubanma olmamalıdır. Bizim kifayət qədər maliyyə resurslarımız var. Eyni zamanda, biz xarici bazarlardan maliyyə resursları cəlb etmişik. Özü də qısa müddət ərzində. Heç bir həftə keçmədi. Azərbaycan "Cənub" qaz dəhlizinə dünya bazarlarından 1 milyard dollar vəsait cəlb edib. Bu, nəyi göstərir? Onu göstərir ki, xarici investorların bizə inamı kifayət qədər böyükdür, 2 milyard istəsəydik, 2 milyardı

da götürəcəydik. Yəni, bizim xarici borcumuz aşağı səviyyədə, maliyyə vəziyyətimiz və valyuta ehtiyatlarımız isə yüksək səviyyədə olduğuna görə belə imkanlarımız var. Eyni zamanda, biz öz vəsaitimizi qoyuruq və qoymalıyıq. Kifayət qədər böyük vəsaitdir. Ancaq "Cənub" qaz dəhlizi strateji layihədir. Bu, imkan verəcək ki, uzun illər, on illiklər bundan sonra biz böyük həcmdə əlavə gəlirlər əldə edək və bu, yeni bir əməkdaşlıq formatıdır.

"Cənub" qaz dəhlizində iştirak edən ölkələr təbii müttəfiqlərə çevrilir. Bu müttəfiqlik regionumuzdan kənara çıxır. Bu, bizim maraqlarımıza xidmət göstərir. Azərbaycan Avropa üçün əvəzolunmaz tərəfdaşa çevrilir və biz də çox böyük bazar əldə etmiş oluruq. Ona görə "Cənub" qaz dəhlizinin qrafik üzrə icra edilməsi daim diqqət mərkəzindədir. Mənə mütəmadi qaydada məruzələr edilir. Əminəm ki, biz bu layihəni qrafik əsasında icra edəcəyik.

Bu ilin sonuna qədər Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi gözlənilir. Bildiyiniz kimi, Azərbaycan öz üzərinə düşən bütün öhdəlikləri yerinə yetirib. Məndə olan məlumata görə, bu yol bu ilin sonuna qədər açılacaq. Artıq yük göndərən müvafiq tərəflərlə danışıqlar aparılır. Əminəm ki, Asiyadan Avropaya gedən bu ən qısa yol qısa müddət ərzində istifadəyə veriləcək və Azərbaycana çox böyük fayda gətirəcək.

Bu ilin sonuna qədər digər önəmli dəhlizin yaradılması istiqamətində vacib addımlar atılacaq. Azərbaycan öz dəmir yolunu İran sərhədinə qədər çatdırmalıdır. Bu da qarşıya qoyulan bir vəzifədir. Astara çayı üzərində yeni dəmir yolu körpüsü tikilməlidir. Beləliklə, Şimal-Cənub dəhlizinin önəmli hissəsi həll edilmiş olur. Qalan hissənin yaradılması üçün Azərbaycan gələcək illərdə öz dəstəyini verəcək və o cümlədən maliyyə resurslarını cəlb etməyə hazırdır.

Ölkə qarşısında duran əsas vəzifələr bundan ibarətdir. Mən heç şübhə etmirəm ki, ilin sonuna qədər bütün bu vəzifələr icra olunacaq. Biz 2016-cı ili də uğurla başa vuracağıq. Hesab edirəm ki, ondan sonra iqtisadi inkişaf daha da sürətli olmalıdır.

Bütün bunlar, bütün bu nailiyyətlər ancaq müstəqillik dövründə mümkün olmuşdur. Müstəqilliyin əhəmiyyəti bu gün göz qabağındadır. Heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır. Biz öz taleyimizin sahibiyik. Biz müstəqil ölkəyik. Biz azad xalqıq. Biz dünya miqyasında öz yerimizi, layiqli yerimizi tutmuşuq. Bundan sonra da müstəqillik, inkişaf yolu ilə gedəcəyik. Bu yolda bütün Azərbaycan xalqına yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonra bədii proqram nümayiş etdirildi.

*27 may 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT ETMİŞDİR

Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.
Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.
Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.

* * *

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın həyatına böyük və tarixi hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika

qurulmasını qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarıb, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirib.

98 il əvvəl mayın 28-də Tiflisdə qəbul edilmiş "İstiqlal Bəyannaməsi"ndən – "Əqdnamə"dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirib.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarıb. Ümummilli lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüb, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar edib. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində sürətli inkişafını uğurla davam etdirir.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonlarında yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoyub. Xalqımız bu şərəfli tarixi - 28 Mayı Respublika Günü kimi qeyd edir.

*27 may 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN VƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN RƏHBƏRLƏRİNİ QƏBUL ETMİŞDİR

İyunun 8-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı diplomatik nümayəndəliklərinin və beynəlxalq təşkilatlarının rəhbərlərini qəbul edib.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

### PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Hörmətli səfirlər, mən sizin hamınızı müqəddəs Ramazan ayının başlaması münasibətilə ürəkdən təbrik edirəm. Ramazan ayında bizim görüşlərimiz gözəl ənənəyə çevrilibdir.

Mən şadam ki, müsəlman ölkələrinin səfirliklərinin sayı Azərbaycanda artır. Bu, bizim dostluğumuzu, həmrəyliyimizi göstərir. Xahiş edirəm ki, Ramazan ayının başlaması münasibətilə mənim salamlarımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Təmsil etdiyiniz ölkələrlə Azərbaycanın çox sıx əlaqələri vardır. Biz həm ikitərəfli, həm də çoxtərəfli formatda uğurlu əməkdaşlıq edirik. Əminəm ki, bu əməkdaşlıq gələcək illərdə daha da dərinləşəcək. Müsəlman ölkələri ilə əməkdaşlıq bizim xarici siyasətimizin prioritet istiqamətlərindən biridir. Respublika Gününə həsr edilmiş rəsmi qəbulda xarici siyasət prioritetləri haqqında danışarkən mən bu məqamı xüsusi qeyd etmişdim. Biz, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq edirik və daim bir-birimizi dəstəkləyirik. Biz həmişə BMT-də Azərbaycan ilə bağlı məsələlər müzakirə olunarkən müsəlman ölkələrinin dəstəyini hiss edirik və öz növbəmizdə həmişə BMT-də müsəlman ölkələrini dəstəkləyirik. Aprel ayında İstanbulda İslam Əməkdaşlıq Təşkilatı-

nın Zirvə Görüşündə də biz bir daha bu həmrəyliyi nümayiş etdirmişik. Bildiyiniz kimi, Zirvə Görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox ciddi sənəd qəbul edilmişdir, aprel ayında Azərbaycana qarşı törədilən erməni təxribatı pislənilmişdir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrupu yaradılmışdır. Biz bu addımları çox yüksək qiymətləndiririk və bütün bunlara görə müsəlman ölkələrinə minnətdarlığımızı bildiririk.

Bildiyiniz kimi, Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmaması region üçün böyük təhlükədir. Bizə qarşı ədalətsizlik törədildi, torpaqlarımızın təxminən 20 faizi işğal altındadır və 1 milyondan çox qaçqın-köçkün bu münaqişədən əziyyət çəkir. Ermənistan bizə qarşı etnik təmizləmə siyasəti aparmışdır, Xocalı soyqırımı törədilmişdir. İşğal edilmiş torpaqlarımızda bütün tarixi-dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Məscidlərimizin böyük hissəsi dağıdılıb, qalan yarıdağılmış məscidlərdə ermənilər hərbi qərargahlar yaratmışlar. Bu barədə bu yaxınlarda xarici jurnalistlər də məlumat vermişlər və fotomateriallar təqdim etmişlər. Bununla bərabər, Ermənistanın rəhbərliyi Avropa ölkələrində olarkən daim münaqişə ilə bağlı həm təhrif edilmiş məlumatları ötürür, eyni zamanda, bu münaqişəyə dini don geyindirməyə çalışır. Bir çox hallarda Ermənistan rəhbərliyi qeyd edir ki, onlar bu çətin coğrafi vəziyyətdə - üç müsəlman ölkəsinin əhatəsində xristian dəyərlərini müdafiə edirlər. Bu, böyük riyakarlıqdır. Siz - Azərbaycanda yaşayan insanlar yaxşı bilirsiniz ki, Azərbaycanda dini, milli zəmində heç vaxt heç bir münaqişə, yaxud da ki, anlaşılmazlıq olmamışdır. Azərbaycanda məscidlərlə bərabər, kilsələr, sinaqoqlar tikilir. Erməni kilsəsi şəhərin mərkəzində toxunulmaz olaraq qalır və eyni zamanda, Azərbaycan dövləti o kilsənin təmirinə vəsait ayırıbdır. Ona görə Ermənistan prezidentinin və digər şəxslərin belə ucuz, nalayiq çıxışları, əlbəttə, bir daha demək istəyirəm ki, riyakarlığın təzahürüdür. Bu, bir daha onu göstərir ki, Ermənistan rəhbərliyi müsəlman ölkələrinə düşmən gözü ilə baxır, əks təqdirdə, belə cəfəng bəyanatlar verməzdi. Amma bununla bərabər, öz çirkin niyyətlərini pərdələmək üçün beynəlxalq arenada cəhdlər göstərir ki, müsəlman ölkələri ilə sıx əlaqələr qursun. Mən əminəm, müsəlman ölkələrinin rəhbərliyi və ictimaiyyəti kifayət qədər məlumatlıdır ki, Ermənistan İslam abidələrini dağıdıb, məscidlərimizi təhqir edib və Azərbaycan torpaqlarını işğal altında saxlamaq üçün cəhdlər göstərir.

Bir sözlə, bütün müsəlman aləmi həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə, həm də bütün başqa məsələlərlə bağlı birlik, həmrəylik nümayiş etdirməlidir. Azərbaycan İslam həmrəyliyinin güclənməsi üçün çox böyük səylər göstərir, ciddi addımlar atır. Azərbaycan müxtəlif ölkələrdə baş qaldıran islamofobiyaya qarşı çox ciddi mübarizə aparır. Biz açıq şəkildə müxtəlif səviyyələrdə, ən yüksək səviyyələrdə bu məsələ ilə bağlı öz sözümüzü deyirik, islamofobiyanı pisləyirik və öz nümunəmizi təqdim edirik. İslamofobiya həm müsəlman ölkələri və xalqları, eyni zamanda, bu çirkin meyillərə rəvac verənlər üçün də təhlükədir. Bu, qarşıdurmanı daha da dərinləşdirir, qarşılıqlı inamsızlığı artırır. Azərbaycanda bütün dinlərin nümayəndələri rahat, bir ailə kimi, sülh şəraitində yaşayırlar. Biz qardaşlıq, dostluq şəraitində yaşayırıq. Nümayiş etdiririk ki, multikulturalizm dəyərləri yaşayır və yaşamalıdır. Bildiyiniz kimi, bu il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. BMT-nin Sivilizasiyalar Alyansının bu il Azərbaycanda Qlobal Forumunun nəticələri bir daha onu göstərir ki, Azərbaycan bu yolda çox böyük uğurlara imza atıb.

Ötən il Bakıda birinci Avropa Oyunları keçirildi, gələn il isə İslam Həmrəylik Oyunları keçiriləcək. Əminəm ki, İslam Həmrəylik Oyunları tarixdə təkcə idman yarışı kimi qalmayacaq. Biz istəyirik ki, İslam Həmrəylik Oyunları gələn il bütün dünyaya nümayiş etdirsin ki, İslam aləmi birliyə, sülhə, sabitliyə çağırır. Eyni zamanda, əminəm ki, bu Oyunlar İslam mədəniyyətinin təzahürü olacaqdır.

Həmrəylik Oyunlarından bir il sonra - 2018-ci ildə qədim Azərbaycan şəhəri Naxçıvan İslam mədəniyyətinin paytaxtı elan olunacaq. Bir neçə il bundan əvvəl Bakı bu şərəfli ada layiq görülüb. İndi isə Naxçıvan bu şərəfli missiyanı icra edəcək.

Bir sözlə, bir daha qeyd etmək istəyirəm ki, biz Azərbaycanda çalışırıq ki, İslam ölkələri arasındakı birliyi daha da gücləndirək. Biz bu istiqamətdə səylərimizi davam etdirəcəyik.

Bir daha sizi salamlayıram və sizə fəaliyyətinizdə uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*8 iyun 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

İftar mərasimi müqəddəs Qurani-Kərimdən ayənin oxunması ilə başladı.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə dövlətimizin başçısının iftar mərasimində iştirakının artıq ənənə halı aldığını bildirdi və bu ənənənin əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu qeyd etdi. 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edildiyini deyən Allahşükür Paşazadə bunun siyasi, iqtisadi və birgəyaşayış problemləri ilə üzləşən dünya üçün bir mesaj olduğunu diqqətə çatdırdı, son illərdə Bakıda keçirilən mədəniyyətlər və sivilizasiyalararası məsələlərə həsr edilən beynəlxalq tədbirlərin böyük əhəmiyyətə malik olduğunu bildirdi. Dövlətin milli mənəvi dəyərlərin qorunmasına hər zaman yüksək diqqət göstərdiyini deyən bütün Qafqazın şeyxi bu il Prezident İlham Əliyevin qayğısı sayəsində Gəncədəki İmamzadə kompleksinin yenidən qurularaq istifadəyə verildiyini vurğuladı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə qəbul olunan növbəti amnistiya aktı nəticəsində minlərlə insanın öz ailəsinə qovuşduğunu diqqətə çatdırdı.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri Aleksandr Ata "Multikulturalizm ili"nə təsadüf edən mərasimin bu baxımdan xüsusi əhəmiyyətini vurğuladı. "Multikulturalizm Azərbaycan xalqının xarakteridir və bu amil dövlətin yürütdüyü siyasətdə özünü tam aydın göstərir", - deyən Aleksandr Ata bildirdi ki, indi dünyada baş verən gərginliklər fonunda multikulturalizm bütün dünya xalqlarının həyat tərzinə çevrilməlidir.

"Bütün səmavi dinlər arasında müqəddəs kitablar məhz Ramazan ayında nazil olub". Bu sözləri isə Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev dedi. O bildirdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda müasir, güclü dayaqları olan dövlət formalaşıb və bu cür mərasimlər xalqlarımız arasında olan bağların daha da möhkəmlənməsinə xidmət edir.

Roma Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Vladimir Fekete Ramazan ayının müsəlmanların həyatında mühüm yer tutduğunu, ona görə də bu bayramın böyük bir ailəni xarakterizə etdiyini bildirdi. O, Papa Fransiskin hər il Ramazan ayı münasibətilə dünya, həmçinin Azərbaycan müsəlmanlarına ünvanladığı müraciəti Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.

Mərasimdə çıxış edən Prezident İlham Əliyev dövlət-din münasibətlərinin tənzimlənməsində xalqımızın ümummilli lideri Heydər Əliyevin xidmətlərini xatırladı, Ulu Öndərlə şeyxülislam Allahşükür Paşazadə arasındakı dostluğun dövlət-din münasibətlərinin formalaşmasında mühüm rol oynadığını vurğuladı. "Biz çalışırıq ki, Azərbaycan cəmiy-

yətində xalqımıza xas olan cəhətlər üstünlük təşkil etsin”, - deyən dövlətimizin başçısı ölkəmizin müsəlman aləminin ayrılmaz hissəsi olduğunu və bütün İslam dünyasında böyük nüfuz qazandığını diqqətə çatdırdı.

“Biz İslam həmrəyliyini gücləndirməliyik. Müsəlman aləmində sülh və sabitlik möhkəmlənməlidir”, - deyən Prezident İlham Əliyev Azərbaycanın bu prosesə öz töhfəsini verdiyini xatırlatdı. Bildirdi ki, bütün sahələrdə böyük inkişaf yolu keçən ölkəmiz dünyada baş verən gərginliklər fonunda öz yolu ilə uğurla gedir və öz timsalında göstərir ki, bütün dini konfessiyaların nümayəndələrinin bir yerdə yaşaması mümkündür.

Artıq bir neçə ildir Bakıda mötəbər beynəlxalq tədbirlərin keçirildiyini, bu dəfə isə paytaxtımızın tamaşaçı auditoriyası yarım milyard olan Formula-1 kimi nüfuzlu yarışa ev sahibliyi etdiyini deyən dövlətimizin başçısı bildirdi ki, bütün bunlar ölkəmizin daha yaxşı tanıdılmasına yönəlib və Azərbaycana gələn turistlər reallıqları öz gözləri ilə görürlər. “Bizim uğurlarımızın təməlində vətəndaşlarımızın birliyi durur”, - deyən Prezident İlham Əliyev ölkəmizin çoxmillətli olduğunu, onların Azərbaycanın inkişafında yaxından iştirak etdiklərini vurğuladı.

Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı bu ümummilli məsələnin həllində dini konfessiyaların nümayəndələri də daxil olmaqla bütün vətəndaşlarımızın bir nöqtəyə vurduqlarını bildirdi. Prezident İlham Əliyev dedi ki, münaqişənin tez bir zamanda həll olunması ilə bağlı konkret addımların atılmasının vaxtı çatıb, vasitəçilər də anlamalıdırlar ki, bu münaqişə dondurulmuş deyil, aprel döyüşləri isə Ermənistan rəhbərliyinə yaxşı dərs oldu və Azərbaycan qazandığı üstünlüyü heç vaxt əldən verməyəcək.

Nitqinin sonunda Prezident İlham Əliyev xalqımıza sülh, firavanlıq və xoşbəxtlik arzuladı.

Sonra iftar süfrəsi açıldı.

* * *

Sonra dövlətimizin başçısı mərasimdə nitq söylədi.

## PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli şeyx həzrətləri.

Hörmətli din xadimləri, mərasim iştirakçıları.

Mübarək Ramazan ayında ənənəvi olaraq şeyx həzrətlərinin iftar süfrəsində toplaşmışıq. Bu, gözəl ənənədir. Şeyx həzrətləri qeyd etdiyi kimi, bu ənənənin əsasını ulu öndər Heydər Əliyev qoymuşdur. Ulu öndər Heydər Əliyev müasir Azərbaycanın qurucusudur, onun banisidir. Onun müəyyən etdiyi siyasət bu gün də yaşayır, davam edir, zənginləşir. O cümlədən dövlət-din münasibətlərinin tənzimlənməsində Ulu Öndərin xüsusi rolu və müstəsna xidmətləri vardır.

Ulu Öndər ilə şeyx həzrətlərini dostluq əlaqələri bağlayırdı. Bu dostluq həm şəxsi xarakter daşıyırdı, həm də bu dostluğun çox böyük ictimai mənası var idi. Çünki bu dostluq, bu əlaqələr, bu səmimiyyət dövlət-din münasibətlərinin əsasını təşkil edirdi və bütün cəmiyyətə verilən bir mesaj idi ki, bu münasibətlər bu şəkildə öz həllini tapmalıdır.

Azərbaycan müstəqil dünyəvi dövlətdir, Konstitusiyaya görə din dövlətdən ayrıdır, ancaq din və dövlət həmişə birdir, bir yerdədir. Belə də olmalıdır. Çünki bizim amalımız da, istəyimiz də birdir. Biz istəyirik ki, Azərbaycan daha da güclü dövlətə çevrilsin, insanlar daha da yaxşı yaşasınlar, Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənsin, torpaqlarımız işğalçılardan azad edilsin və uzunmüddətli inkişafımız uğurlu olsun.

Bugünkü məclisdə şeyx həzrətlərinin fəaliyyətini mən xüsusilə qeyd etmək istəyirəm. Şeyx həzrətləri həm ölkə daxilində, həm beynəlxalq aləmdə çox böyük iş görür. Azərbaycan dindarları, Azərbaycan ictimaiyyəti bunu görür və qiymətləndirir. Mən də Prezident kimi bunu yüksək qiymətləndirirəm. Doğrudan da şeyx həzrətlərinin çox böyük işləri bizim ölkəmizi gücləndirir. Çünki dövlət-din münasibətləri təkcə ölkə Prezidenti tərəfindən həll oluna bilməz. Burada əlbəttə ki, dini rəhbərlər, bütün dini konfessiyaların rəhbərləri öz töhfəsini verməlidirlər və verirlər.

Şeyx həzrətləri ilə bizim şəxsi münasibətlərimiz, dostluq əlaqələri bu gün heç kəs üçün sirr deyil. Azərbaycan ictimaiyyəti də bunu görür, bilir və eyni zamanda, biz yol göstəririk. Biz yol göstəririk ki, ölkə necə inkişaf etməlidir, vətəndaş cəmiyyəti necə qurulmalıdır, azadlıqlar necə təmin edilməlidir. Şeyx həzrətlərinin Qafqazda böyük nüfuzu var. Mən Qafqaz respublikalarının rəhbərləri və dini rəhbərləri ilə keçirdiyim çoxsaylı görüşlərdə bunun şahidi olmuşam. Şeyx həzrətlərini müsəlman aləmində, MDB məkanında, qonşu dövlətlərdə yüksək qiymətləndirirlər. Bu, bizim böyük üstünlüyümüzdür. Üstünlüyümüzdür ki, Azərbaycan müsəlmanlarının rəhbəri dünya miqyasında çox böyük nüfuza malik olan şəxsiyyətdir.

Əlbəttə, gələcəkdə biz birgə fəaliyyətimizi davam etdirəcəyik. Çünki bir daha demək istəyirəm ki, bizim məqsədimiz birdir. Biz hamımız çalışırıq ki, Azərbaycanda vəziyyət daha da yaxşılaşsın, sabitlik daha da möhkəmlənsin, insanlar daha da yaxşı yaşasınlar. Biz hamımız çalışırıq və çalışacağıq ki, Azərbaycan cəmiyyətində xalqımıza xas olan dəyərlər, Azərbaycan dəyərləri daim üstünlük təşkil etsin. Dini dəyərlər isə milli mənəvi dəyərlərimizin tərkib hissəsidir. Bizim milli və dini bayramlarımız böyük sərvətimizdir. Biz bu bayramları yaşadırıq, birlikdə qeyd edirik. Dövlət-din münasibətlərinin belə sağlam zəmində inkişafı gələcəkdə ölkəmizi daha da gücləndirəcəkdir.

Azərbaycan müsəlman aləminin ayrılmaz hissəsidir. Azərbaycan müsəlman aləmində çox böyük nüfuza və hörmətə malikdir. Bu yaxınlarda - aprel ayında İslam Əməkdaşlıq Təşkilatının zirvə görüşünün yekunları da bunu bir daha təsdiqləyir. Zirvə görüşündə Azərbaycana çox böyük dəstək verildi. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və aprel hadisələri ilə bağlı Ermənistanın işğalçı və təcavüzkar siyasəti bütün dünya müsəlmanları tərəfindən bir daha pisləndi. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrupu yaradıldı və bütün müsəlman dünyası öz liderlərinin iştirakı, onların səsi ilə Azərbaycanı bir daha dəstəklədi. Bu, bizim böyük uğurumuzdur. Bu, onu göstərir ki, cəmi 25 il ərzində müstəqil dövlət, o vaxta qədər onilliklər ərzində ateist dövlətdə yaşayan bir xalq - Azərbaycan xalqı bütün müsəlman aləmində çox böyük rəğbətə, hörmətə layiqdir. Biz bunu öz əməyimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Öz dini, milli mənəvi dəyərlərimizə sadiqlik nümayiş etdirərək qazanmışıq. Bu gün bütün beynəlxalq təşkilatlarda müsəlman ölkələri bizi dəstəkləyir, biz onları dəstəkləyirik.

Bu yaxınlarda müsəlman ölkələrinin səfirləri ilə ənənəvi olaraq Ramazan ayında görüşüm əsnasında biz bir daha bu məsələlərə toxunduq. Mən qeyd etdim ki, biz İslam həmrəyliyini gücləndirməliyik, müsəlman aləmində gedən proseslər, onların bir hissəsi bizi narahat edir. Biz istəyirik ki, müsəlman aləmində sülh bərqərar olsun, sabitlik bərpa edilsin, məzhəb əsasında münaqişələrə son qoyulsun və birlik olsun. Əgər birlik olmasa biz güclü ola bilmərik. Azərbaycan öz növbəsində, İslam həmrəyliyinin gücləndirilməsi üçün çox böyük işlər görür və biz bu işləri ardıcıl şəkildə aparırıq. Azərbaycanda İslam Əməkdaşlıq Təşkilatının xətti ilə çoxsaylı yüksək səviyyəli tədbirlər keçirilmişdir. Bakı şəhəri bir neçə il bundan əvvəl İslam mədəniyyətinin paytaxtı elan edilmişdir. 2018-ci ildə Naxçıvan bu şərəfli missiyanı daşıyacaqdır. Azərbaycan İslam dəyərlərini dünyada, xüsusilə Avropada təbliğ etmək üçün çox böyük işlər görür, sərgilər, təqdimatlar keçirir,

bədii-musiqi proqramları təşkil edir. Azərbaycan birinci müsəlman ölkəsidir ki, Vatikanda öz sərgisini nümayiş etdirib. Əlbəttə ki, bu, bizim siyasətimizin təzahürüdür, eyni zamanda, ümumbəşəri dəyərlərə verdiyimiz töhfədir. Biz istəyirik ki, İslam aləmində birlik olsun, bütün dünyada anlaşma və qarşılıqlı hörmət daha da artsın.

Bildiyiniz kimi, Azərbaycan, eyni zamanda, Avropa Şurasının üzvüdür. Biz o təşkilatda da fəal iş aparırıq. Bizi istəməyən bəzi qüvvələrin təxribatlarına baxmayaraq, o təşkilatda da böyük hörmət qazanmışıq. Bu gün xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı, Ermənistanın işğalçı siyasətini pisləyən qətnamələr artıq Avropa Şurasında da qəbul edilir. Bu, doğrudan da nadir bir vəziyyətdir. Çünki dünyada hər iki təşkilata üzv olan ölkələrin sayı o qədər də çox deyil və hər iki təşkilatda rəğbət, dəstək qazanmaq, əlbəttə ki, bizim böyük uğurumuzdur. Biz bunu nəyin hesabına qazanmışıq? Hesab edirəm ki, səmimi siyasətimizə görə. Ona görə ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Ona görə ki, biz sözümüzü imzamız qədər qiymətləndiririk və əgər nəyisə deyiriksə, buna əməl edirik. Heç vaxt yalançı vədlər verməmişik. Heç vaxt kiminsə xoşuna gəlmək üçün hər hansı bir addım atmamışıq. Prinsipial mövqeyimizi nümayiş etdirmişik. Eyni zamanda, biz həm ölkə daxilində, həm beynəlxalq müstəvidə uğur qazanmışıq.

Bu gün Azərbaycan o ölkələrdəndir ki, bütün sahələrdə çox böyük inkişaf yolu keçib, uğur qazanıb. Xüsusilə indiki şəraitdə ki, dünyanın müxtəlif yerlərində yeni münaqişə ocaqları yaradılır. Yaxın Şərqdə artıq bir neçə ölkə idarəedilməz vəziyyətə düşüb. Qeyd etdiyim kimi, Yaxın Şərqdə, əfsuslar olsun ki, müharibələr alovlanır. Avropada miqrantlarla bağlı dərin böhran yaşanır. Bu, eyni zamanda, dəyərlər böhranıdır. İstər-istəməz miqrantlar böhranı Avropada islamofobiya meyillərini gücləndirir. Bu, həm müsəlmanlar, həm Avropa üçün çox böyük təhlükədir. Belə bir vəziyyətdə Azərbaycan öz yolu ilə gedir. Əslində bizim siyasətimizdə heç bir dəyişiklik olmamışdır. Sadəcə olaraq, biz həmişə çalışmışıq ki, ölkəmizi mümkün olan bütün risklərdən, mənfi kənar təsirdən qoruyaq və buna müvəffəq olmuşuq.

İndiki şəraitdə, dünyada gedən çox ağır proseslər şəraitində, əlbəttə ki, Azərbaycan nümunəsi özünü daha da gözəl şəkildə büruzə verir. Deməli, mümkündür ki, bütün konfessiyaların nümayəndələri bir ailə kimi yaşasınlar. Mümkündür ki, multikulturalizm meyilləri güclənsin. Mümkündür ki, bir ölkədə dini, milli zəmində heç vaxt qarşıdurma olmasın. Nəinki qarşıdurma, heç anlaşılmazlıq da heç vaxt olmayıb və əminəm ki, olmayacaq. Yəni, bu gün Azərbaycan çox fərqli bir inkişaf modelini nümayiş etdirir. Ona görə yox ki, biz kiməsə nəyisə sübut etmək istəyirik. Sadəcə olaraq, bizim həyat tərzimiz belədir. Bizim siyasətimiz bundan ibarətdir. Getdikcə Azərbaycanı dünyada daha da çox tanıyırlar. Tanıdıqca da görürlər ki, bu gün dünyada, bu coğrafiyada müasir, öz gücünə güvənən, ayaqda möhkəm dayanan, prinsipial siyasət aparan, bütün azadlıqları, bütün dinlərin birgə yaşamasını təmin edən bir ölkə var. Ona görə, əlbəttə ki, bizim təcrübəmiz öyrənilir. Bizi istəyən, dəstəkləyən ölkələr, qüvvələr bizi daha da dəstəkləyirlər, bizi istəməyənlər daha da məyus olurlar. Çünki bədxahlar, antiazərbaycan qüvvələr nə qədər çalışsalar da bizim siyasətimizə, iradəmizə, uğurlu inkişafımıza təsir edə bilməyiblər.

Bu gün Azərbaycan dünya miqyasında nadir rol oynayan bir ölkədir. Mən bunu tam məsuliyyətlə deyirəm. Yəni, bunu özümüzü tərifləmək üçün demirəm. Bu, reallıqdır. Çünki hər şey müqayisədə müəyyən olunur və bu gün müqayisə aparmaq üçün bizim kifayət qədər imkanlarımız var. Biz dünyanın hər bir yerində baş verən hadisələri görürük, izləyirik. Bu fonda Azərbaycanın uğurlu, hərtərəfli inkişafı, əlbəttə ki, daha da böyük rəğbət qazanır.

Azərbaycanda həyata keçirilən islahatlar, aparılan siyasət, əlbəttə ki, bizə diqqəti daha da çox cəlb edir və bu, müsbət haldır. Mən hesab edirəm ki, dünya bizi daha da yaxşı tanımalıdır. Özümüzü tanıtmaq üçün biz, əlbəttə ki, təşəbbüslər irəli sürürük. Artıq bir neçə ildir ki, Azərbaycan dünya ictimaiyyətinin diqqətini çəkən tədbirlər keçirir. Bu

tədbirlər həm qitə, həm dünya miqyaslı tədbirlərdir. Bu gün dünyanın ən mötəbər idman yarışlarından biri olan Formula-1 Bakı küçələrində keçirilir. Bu yarışın auditoriyası dünyada yarım milyard insandır. Bu yarım milyard insan görəcək ki, dünyada belə bir gözəl ölkə, gözəl memarlıq abidələri olan, səliqəli, müasir bir şəhər var – Bakı şəhəri.

Əlbəttə bu, bizim gücümüzü artıracaq. Çünki bizə qarşı aparılan qarayaxma, təxribat kampaniyalarının hamısını alt-üst edir. Azərbaycana, Bakıya gələn on minlərlə turist bizim reallıqlarımızı öz gözü ilə görəcək. Görəcək və haqqımızda yazılan o çirkin məqalələrə daha fikir verməyəcək. Elə bir hal olmayıb ki, ilk dəfə Azərbaycana gələn insan təəccüb etməsin. Bu təəccüb nədən yaranır? Ölkəmizə gəlməzdən əvvəl yəqin ki, o müxtəlif çirkin yazıları oxuyurdular. Gəlib görəndə insanlar azad, rahat, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır, əlbəttə, onların birinci reaksiyası təəccüb, ikincisi isə sual idi ki, siz buna necə nail ola bilmisiniz. Biz buna öz siyasətimizlə nail ola bilmişik. Çünki düşünülmüş siyasət aparırıq. Öz gücümüzə arxalanırıq, Azərbaycan xalqımızın iradəsi ilə idarə olunur. Əlbəttə ki, bizim bütün uğurlarımızın təməlində vətəndaş birliyidir. Vətəndaş birliyi millətlərarası, dinlərarası birlik olmadan mümkün deyil, xüsusilə, çoxmillətli və çoxkonfessiyalı ölkələrdə. Biz fəxr edirik ki, çoxmillətli ölkəyik. Biz fəxr edirik ki, Azərbaycanda bütün dinlərin, millətlərin nümayəndələri rahat yaşayırlar. Onlar fəxr edirlər ki, Azərbaycan vətəndaşlarıdır. Onlar həm ölkə daxilində, həm xaricdə ölkəmizin inkişafına çox böyük töhfələr verirlər. Bizim pravoslav rus icmamız pravoslav rus aləmində Azərbaycanla bağlı həqiqətləri çatdırır, təbliğ edir, izah edir. Bizim yəhudi icmamız bütün dünyada, Avropada, Amerikada, bütün digər ölkələrdə Azərbaycanla bağlı həqiqətləri çatdırır. Bizi xaricdə ən çox dəstəkləyən yəhudi təşkilatlarıdır. Nəyə görə? Çünki birincisi, onların böyük əksəriyyəti Azərbaycandan köçüb gediblər. İkincisi, heç vaxt Azərbaycanla əlaqələri itirməyiblər. Üçüncüsü, onlar bilirlər ki, burada yəhudilər və bütün başqa xalqlar rahat yaşayırlar. Azərbaycanda heç vaxt ksenofobiya, antisemitizm olmayıb və olmayacaq da. Bizim siyasətimiz bundan ibarətdir. Bu, bizim birliyimizi daha da gücləndirir. Biz bütün bayramları bir yerdə qeyd edirik. Şeyx həzrətləri qeyd etdiyi kimi, İmamzadə hər bir müsəlman üçün müqəddəs yerdir. Biz hamımız, bax burada əyləşənlər nəinki orada iştirak etmişik, çıxış etmişik. Mən oraya ölkəmizin hər bir rayonundan nümayəndələr dəvət etmişdim ki, onlar gəlsinlər, o müqəddəs yerin bərpasından sonra açılışında iştirak etsinlər və bizim sözlərimizi eşitsinlər. Orada, müqəddəs yerdə bizim çıxışlarımız artıq bir siqnaldır, cəmiyyətə ünvanlanan bir siqnal. Bax, belə olmalıdır. Ayrı-seçkiliyə, ekstremizmə yol vermək olmaz. Biz ancaq birlikdə ölkəmizi gücləndirə bilərik, ancaq birlikdə xoşbəxt gələcəyə nail ola bilərik. Bizim üçün bu, həm həyat tərzidir, həm dövlət siyasətidir. Bu siyasət Azərbaycan xalqı tərəfindən bəyənilir, dəstəklənir.

Bu gün bu iftar mərasimində səslənən fikirlər çox dəyərli fikirlərdir. Bu mənalı və dəyərli fikirlər bizim birliyimizi daha da möhkəmləndirir. Ona görə biz gələcəyimizi bu müsbət nəticələr əsasında qururuq və uğurla qururuq. Keçən il və bu il ölkəmiz üçün sınaq ili olmuşdur. Çünki dünya iqtisadiyyatı hələ ki, böhran içindədir. Neftin qiyməti üç-dörd dəfə aşağı düşmüşdür. Ona görə, əlbəttə ki, bu, bizim üçün böyük bir sınaq idi. Ancaq biz bu sınaqdan şərəflə çıxırıq. Biz bu müddət ərzində görürük ki, cəmiyyət daha da sıx birləşib, həmrəylik daha da artıb. Bizim siyasətimizə daha da böyük dəstək görürük. Əlbəttə ki, bu, bizi daha da ruhlandırır, gücləndirir və yeni işlər görməyə sövq edir. 2016-cı il iqtisadi sabitləşmə ili kimi tarixdə qalacaq. Gələn ildən isə bizim uğurlu iqtisadi inkişafımız davam edəcəkdir.

Bizim ən ağrılı problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində də Azərbaycanda yaşayan bütün millətlərin, konfessiyaların nümayəndələri bir nöqtəyə vurur. Yəni, bu, bizim ümummilli məsələmizdir. Hər bir Azərbaycan vətəndaşı hər gün çalışmalıdır və əminəm, çalışır ki, bu məsələ tezliklə öz həllini

tapsın. Azərbaycan ərazisinin bir hissəsi uzun illərdir ki, işğal altındadır, torpaqlarımız zəbt edilib. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılıb, Xocalı soyqırımı törədilib. ATƏT-in faktaraşdırıcı missiyasının hesabatlarına görə, işğal edilmiş torpaqlarda bütün binalar dağıdılıb. Bizim tarixi binalarımız, qəbirlər, məscidlər ermənilər tərəfindən dağıdılıbdır. Bu, misli görünməmiş vəhşilikdir. Azərbaycanda isə Bakının mərkəzində erməni kilsəsi yerləşir. Heç kim ona toxunmur, əksinə, təmir olunubdur. Azərbaycanda kilsələr, sinaqoqlar, məscidlər tikilir. Bax, fərq bundan ibarətdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tezliklə öz həllini tapmalıdır. Beynəlxalq hüquq normaları bizim mövqeyimizi müdafiə edir. Tarixi ədalət də bizim tərəfimizdədir. Son vaxtlar bu məsələ ilə məşğul olan vasitəçilər, onların rəhbər şəxsləri qeyd edirlər ki, məsələ tezliklə həll olunmalıdır, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Biz bunu müsbət qarşılayırıq. Ancaq belə bəyanatlar əvvəllər də verilmişdir. Status-kvonun qəbuledilməzliyi haqqında artıq neçə ildir ki, bəyanatlar verilir, amma bəyanatlardan sonra heç bir addım atılmır. Vaxt gəlib çatıb ki, konkret addımlar atılmalıdır. İşğalçıya çox ciddi təzyiqlər göstərilməlidir ki, bu məsələ sülh yolu ilə öz həllini tapsın. Biz bunun tərəfdarıyıq. Həmişə bunun tərəfdarı olmuşuq.

Ancaq bununla bərabər, heç kəs üçün sirr deyil ki, bu gün regionda və xüsusilə Ermənistan ilə Azərbaycan arasında qüvvələr nisbəti kəskin dəyişilib. Azərbaycan hər bir sahədə böyük üstünlüyə nail olub və bu üstünlüyü əldən verməyəcək. Ermənistan ilə Azərbaycan arasında bütün sahələrdə fərq daha da böyüyəcək. Çünki biz inkişaf yolu ilə gedirik. Bizim gələcəyə çox dəqiq və aydın baxışlarımız, proqramlarımız var. Ermənistan isə xarici ianə, dəstək olmasa yaşaya bilməz. Bunu artıq onların iqtisadi vəziyyəti göstərir. Bunu aprel hadisələri göstərir. Ona görə biz gücümüzü bilirik və öz gücümüzə arxalanırıq. Mən bunu qeyd etmişəm, o cümlədən hərbi gücümüzü bilirik və aprel ayında döyüşlər zamanı hərbi potensialımızın ancaq kiçik bir hissəsi nümayiş etdirildi.

Mən hesab edirəm ki, bu, Ermənistan rəhbərliyi üçün yaxşı bir dərs oldu. Eyni zamanda, vasitəçilərə də, dünya ictimaiyyətinə də siqnal oldu ki, bu, dondurulmuş münaqişə deyil. Əgər kimsə fikirləşir ki, biz növbəti iyirmi il də mənasız danışıqlar aparacağıq, səhv edir. Biz mənasız danışıqlar aparmaq fikrində deyilik. İmitasiya naminə danışıqlar aparmayacağıq. Mənalı, məzmunlu danışıqlar dərhal, qeyd-şərtsiz başlanmalıdır. Əgər belə olarsa, məsələnin sülh yolu ilə həlli yaxınlaşa bilər.

May ayında Vyanada görüş keçirildi. Gələn həftə Rusiyada, Sankt-Peterburq şəhərində görüş keçiriləcək. Bizim ümidlərimiz var ki, bu məsələ sülh yolu ilə öz həllini tapa bilər və tapmalıdır. Buna nail olmaq üçün Ermənistan öz işğalçı siyasətindən əl çəkməlidir və bizim torpaqlarımızdan çıxmalıdır.

Bir daha qeyd etmək istəyirəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi ilə bağlı Azərbaycan cəmiyyətində fikir birliyi var. Aprel hadisələri xalqımızı daha da birləşdirdi. Azərbaycan xalqı dövlətə, ordumuza çox böyük dəstək göstərdi. Bu, xalqımızın mətinliyini, səviyyəsini göstərir.

Əminəm ki, biz bütün başqa sahələrdə də inkişaf yolu ilə gedəcəyik, getməliyik. Biz ölkəmizi inamla idarə edirik. Bir daha demək istəyirəm ki, iqtisadi və əlbəttə, enerji məsələləri həll olunur. Amma bizim əsas güc mənbəyimiz birliyimizdir. Bu gün bu salonda əyləşən insanlar Azərbaycan dövlətinin, xalqının birliyini nümayiş etdirirlər.

Hörmətli şeyx həzrətləri, mən bir daha sizə öz hörmətimi ifadə etmək istəyirəm. Minnətdarlığımı bildirmək istəyirəm ki, siz ənənəvi olaraq bizi iftar süfrəsinə dəvət etmisiniz. Burada əyləşənlərə yeni uğurlar, Azərbaycan xalqına xoşbəxtlik, əmin-amanlıq, inkişaf arzulayıram. Sağ olun.

* * *

Şeyxülislam Allahşükür PAŞAZADƏ dedi:

-Zati-aliləri, etimadınıza, mənim haqqımda, dindarlar barədə dediyiniz xoş sözlərə görə Sizə təşəkkürümü bildirirəm. İnşallah, Allah-Taala gələcəkdə də bu cür görüşləri bizə nəsib edəcək. Allah-Taala bütün oruc tutanların, namaz qılanların, ibadət edənlərin ibadətlərini, namazlarını qəbul etsin. Allah-Taala şəhidlərimizə rəhmət eləsin. İnşallah, torpaqlarımız Sizin rəhbərliyinizlə tezliklə azad olsun.

Bir daha Sizə "Xoş gəlmisiniz!" deyirəm.

* * *

Sonra iftar süfrəsi açıldı.

*17 iyun 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV NARDARANDAKI "RƏHİMƏ XANIM" MƏSCİD-ZİYARƏTGAH KOMPLEKSİ İLƏ TANIŞ OLMUŞDUR

Kompleksin rəisi Hacı Ədalət dövlətimizin başçısını salamlayaraq dedi: Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Salam. Xoş gördük. Necəsiniz?

**Hacı Ədalət:** Sağ olun. Siz necəsiniz?

**Prezident İlham Əliyev:** Yaxşıyam. Sağ olun.

**Hacı Ədalət:** Gələn qədəmləriniz mübarək olsun. Bu əziz bayramda bizi yad etmisiniz. Xoş gəlib, səfa gətirmisiniz.

**Prezident İlham Əliyev:** Bəli, mən xüsusi olaraq bu mübarək ayda gəlmişəm.

**Hacı Ədalət:** Siz buraya əvvəl də gəlmisiniz, hədiyyəniz də var.

**Prezident İlham Əliyev:** Bəli, olub. Yadınızdadır?

**Hacı Ədalət:** Bəli. Siz buraya iki hədiyyə vermisiniz. Onlardan biri pansionatdır.

**Prezident İlham Əliyev:** Bəli, pansionatı vermişəm, düzdür.

**Hacı Ədalət:** Buraya bir dənə də çilçıraq hədiyyə etmisiniz. Allah Sizə cansağlığı versin.

**Prezident İlham Əliyev:** O vaxt burada ağsaqqallarla görüşmüşdüm. O görüşdə Siz də iştirak edirdiniz?

**Hacı Ədalət:** Bəli, Siz pansionatın sənədlərini şəxsən mənə verdiniz. Çox sağ olun, Allah Sizə cansağlığı versin.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

"Rəhimə Xanım" məscid-ziyarətgah kompleksi Azərbaycanın ən qədim dini məbədlərindən biridir. VIII əsrdə inşa olunan bu ziyarətgah əhali və dövlət tərəfindən bu günədək qorunub saxlanılıb.

Qeyd edək ki, 1994-cü ildə ulu öndər Heydər Əliyev bu müqəddəs məkanı ziyarət edib.

Azərbaycan Prezidentinin dini və tarixi abidələrə qayğıkeş münasibəti burada da hiss olunur. Prezident İlham Əliyev 1998-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsində çalışarkən bu ziyarətgahda olub. Dövlətimizin başçısının həmin vaxt bu müqəddəs məkan üçün 10 hektar torpaq sahəsinin ayrılması barədə qaldırdığı təşəbbüs nəticəsində ziyarətgahın ərazisi xeyli genişlənib. Prezident İlham Əliyev, həmçinin 2004-cü ildə bu dini komplekse hədiyyələr təqdim edib.

"Rəhimə Xanım" məscid-ziyarətgah kompleksi ilə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.

*21 iyun 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "QƏBƏLƏ" PARK-BULVAR KOMPLEKSİNİN YENİDƏNQURMADAN SONRA İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da "Qəbələ" Park-Bulvar Kompleksinin yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak edib.

Dövlətimizin başçısına məlumat verildi ki, kompleksin inşasına 2013-cü ilin may ayında başlanılıb və bu il başa çatdırılıb. Rayonun daxili imkanları hesabına salınan kompleksin ümumi sahəsi 10 hektardır. Qəbələ şəhərinin ərazisindən keçən, meşə sularından qidalanan Qaraçay çayının hər iki sahilində salınmış parkın ərazisində səkkiz körpü tikilib, doqquz fəvvarə, uşaqlar üçün karusel quraşdırılıb. Geniş yaşıllaşdırma işlərinin görüldüyü ərazidə müxtəlif sosial obyektlər, yay kafesi, çay evi tikilib, 3,5 kilometr uzunluğunda piyada gəzinti zolağı salınıb. Tikinti işləri zamanı çayın ətrafı da genişləndirilib, yollarda yeraltı keçidlər, hər biri 500 kubmetr su tutumu olan 41 pilləvari su hövzəsi inşa olunub. Hazırda hövzələrə gələn suyun təmizlənməsi üçün altı kameralı sutəmizləyici qurğu və çay kənarında üçmərtəbəli restoran inşa edilir. 350 qonaq üçün nəzərdə tutulan restoran açıq zallardan ibarət olacaq. Ərazidə avtomobil dayanacağı üçün xüsusi sahə ayrılıb.

Bütün bunlar göstərir ki, Qəbələnin turizm potensialının mühüm tərkib hissəsi olan sosial obyektlərin, xüsusilə də əhalinin istirahətinin yüksək səviyyədə təşkil edilməsinə yönələn məkanların yaradılması davamlı xarakter alıb.

*10 avqust 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV QƏBƏLƏDƏ İCRASI DAVAM EDƏN TURİZM VƏ İDMAN İNFRASTRUKTURU LAYİHƏLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Layihələrin təqdimatı zamanı dövlətimizin başçısına məlumat verildi ki, "Şinkar Holdinq" MMC tərəfindən aparılan layihələndirmə və tikinti işləri çərçivəsində 2,5 hektar ərazidə 226 nömrədən ibarət yeni "Qafqaz Akva Lənd" otelinin inşası həyata keçirilir.

Tikintisi davam etdirilən infrastruktur layihələrindən biri də "Qafqaz Daymond Akvapark"dır. Bu layihə çərçivəsində müxtəlif təyinatlı hovuzlar şəbəkəsi qurulacaq. Hovuzların ümumi su tutumu 5 min 470 kubmetr olacaq. Bundan əlavə, ərazisi 350 min kvadratmetr olan, "Qəbələnd" əyləncə mərkəzi və "Aqva Lənd" otelinin yaxınlığında dağların bənzərsiz gözəlliyinə açılan mənzərəli bir ərazidə yerləşən "Qəbələ Qolf Villaları" qonaqlara xoş və maraqlı istirahət imkanı təqdim edəcək.

"Qəbələ Qolf Villaları" ərazisində 66 villa inşa edilib. Ərazidə üçmərtəbəli, 24 mənzilli iki bina, SPA və əyləncə mərkəzi, uşaq bağçası da var. Layihənin əsas özəlliyi ərazidə qolf sahələrinin olmasıdır. Burada 72 hektar ərazidə qolf sahəsi salınır. Qolf məşq sahəsi, qolf klub da azarkeşlərin istifadəsinə hazırlanır.

Dövlətimizin başçısı görülən işlərlə bağlı müvafiq tapşırıq və tövsiyələrini verdi.

*10 avqust 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SALYAN RAYONUNA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ TARİX-DİYARŞÜNASLIQ MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Salyan rayonuna səfəri çərçivəsində Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak edib.

Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi və muzeydə yaradılmış şəraitlə tanış oldu.

Prezident İlham Əliyevə məlumat verildi ki, bina 1981-ci ildə inşa edilib və 2016-cı ilin may-avqust aylarında əsaslı təmir olunaraq yenidən qurulub. Binanın tikintialtı sahəsi 620 kvadratmetr, ümumi sahəsi isə 1240 kvadratmetrdir. İki mərtəbədən ibarət binanın birinci mərtəbəsində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin həyat və fəaliyyətlərini əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Bu mərtəbədə, həmçinin fond otağı və digər yardımçı otaqlar yerləşir. İkinci mərtəbə əsasən ekspozisiya zallarından ibarətdir.

Diqqətə çatdırılıb ki, muzeydə 12 mindən çox eksponat mövcuddur və onlardan 800-ü ekspozisiya zallarında nümayiş etdirilir.

Dövlətimizin başçısı görülən işləri yüksək qiymətləndirdi.

*3 sentyabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV MASALLI RAYONUNA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ TARİX-DİYARŞÜNASLIQ MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Masallıya səfəri çərçivəsində Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak edib.

Muzeyin üçmərtəbəli yeni binasının inşası üçün Prezident İlham Əliyevin 2013-cü il 11 sentyabr tarixli Sərəncamı ilə 2 milyon manat vəsait ayrılıb.

Azərbaycan Prezidenti rəmzi açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu.

Dövlətimizin başçısına məlumat verildi ki, Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyi 1950-ci ildə yaradılıb və şəhər mərkəzindən 16 kilometr məsafədə yerləşən keçmiş məktəb binasında fəaliyyət göstərirdi. Ölkəmizdə muzey işinin yüksək səviyyədə təşkil olunması, bu sahədə daha modern layihələrin tətbiq edilməsi, ən əsası da əhali, xüsusilə də gənclər arasında tariximizə marağın artırılması ilə bağlı həyata keçirilən tədbirlərin geniş vüsət alması Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyinin də fəaliyyətinin yenidən təşkili, muzeyin təyinatına uyğun yeni binada yerləşdirilməsi zərurətini yaratmışdı. 2014-cü ildə tikintisinə başlanan muzey binasında inşaat işləri bu ilin iyulunda başa çatdırılıb.

Ümumi sahəsi 1861 kvadratmetr olan muzeydə 5 ekspozisiya zalı yaradılıb. Ekspozisiyalarda Masallının tarixi, bu ərazidə tapılan qədim əşyalar, ümumiyyətlə, rayonun həyatı ilə bağlı məlumatlar toplanıb. Muzeydə 7 mindən çox eksponat mövcuddur və onlardan 2 mini ekspozisiya zallarında nümayiş etdirilir. Burada müstəqillik tariximizə xüsusi yer verilib. Müstəqilliyimizin banisi olan xalqımızın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin həyat və fəaliyyətlərini əks etdirən fotolardan ibarət guşələr qurulub. Muzeyin mansar hissəsində rəsm otağı, sərgi zalı, fond otağı, müxtəlif tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan akt zalı da yaradılıb.

*3 sentyabr 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MASALLIDA UŞAQ-İNCƏSƏNƏT MƏKTƏBİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Sentyabrın 3-də Masallıda 640 yerlik uşaq-incəsənət məktəbi istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısına məlumat verildi ki, Masallı rayon uşaq-incəsənət məktəbi 1979-cu ildə inşa edilib. 1994-cü ildən məktəbdənkənar tədris üçün uyğunlaşdırılmış binada fəaliyyət göstərən məktəbin zamanın tələbinə uyğun daha müasir və geniş binada yerləşdirilməsi yüksək səviyyədə həyata keçirilib. Ümumi sahəsi 2743 kvadratmetr olan bina ikimərtəbəlidir. Burada 33 sinif otağı var. Sinif otaqlarının hamısı müasir avadanlıqla, təlim-tədris ləvazimatları ilə təchiz olunub. 150 yerlik akt zalında müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Kitabxana, rəsm otağı və heykəltəraşlıq emalatxanasında dərslərin keçirilməsi üçün bütün imkanlar nəzərə alınıb. Masallı rayon uşaq-incəsənət məktəbində hazırda 305 şagird təhsil alır və 70 müəllim çalışır. Məktəbin ərazisində yaşıllıq zolağı salınıb, geniş abadlıq işləri görülüb.

Prezident İlham Əliyev məktəbin xor kollektivinin ifasını dinlədi.

Sonda xatirə şəkli çəkdirildi.

*3 sentyabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV MASALLIDA BAYRAQ MEYDANI VƏ AZƏRBAYCANIN DÖVLƏT RƏMZLƏRİ MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Masallıda Bayraq Meydanının və Azərbaycanın Dövlət Rəmzləri Muzeyinin açılışını edib.

Prezident İlham Əliyevə məlumat verildi ki, Bayraq Meydanının və Dövlət Rəmzləri Muzeyinin inşasına 2014-cü ildə başlanıb və tikinti işləri yüksək səviyyədə başa çatdırılıb. Bayraq Meydanının ümumi sahəsi 1,3 hektardır. Meydanda hündürlüyü 62 metr olan bayraq dirəyi ucaldılıb, tikintialtı sahəsi 78 kvadratmetr olan fəvvarə inşa olunub. Ərazidə geniş abadlıq işləri görülüb, 4310 kvadratmetr yaşıllıq zolağı salınıb, müasir suvarma və işıqlandırma sistemləri yaradılıb.

Dövlətimizin başçısı Azərbaycanın Dövlət Rəmzləri Muzeyinin rəmzi açılışını bildirən lenti kəsdi və ekspozisiya ilə tanış oldu.

Bildirildi ki, ekspozisiya zalından və köməkçi otaqlardan ibarət Dövlət Rəmzləri Muzeyində tariximizin müxtəlif dövrlərinə aid eksponatlar, bayraqlar və dövlət rəmzləri qorunur. Bütün bunlar həm Masallı sakinlərində, həm də rayona gələn qonaqlarda şanlı tariximiz haqqında təsəvvür yaratmağa geniş imkanlar açır.

*3 sentyabr 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QUSARDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov abidənin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə Prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, bu məkan rayon sakinlərinin və Qusara gələn qonaqların ən sevimli istirahət yerlərindən biridir.

*8 sentyabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV YALAMA KƏNDİNDƏKİ HEYDƏR ƏLİYEV ADINA PARKDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xaçmaz rayonuna səfəri çərçivəsində Yalama qəsəbəsindəki Heydər Əliyev adına parkda yaradılan şəraitlə tanış olub.

Məlumat verildi ki, parkın ümumi sahəsi bir hektardır. Parkın ərazisində Heydər Əliyev Mərkəzinin Yalama qəsəbə filialı da fəaliyyət göstərir. Ümumi sahəsi 120 kvadratmetr olan mərkəzin binasının qarşısında Ümummilli Liderin büstü ucaldılıb. Prezident İlham Əliyev büstün önünə gül dəstəsi qoydu.

Sonra dövlətimizin başçısı burada ləzgi icmasının nümayəndələri ilə söhbət etdi.

**Sakinlər:** Xoş gəlib, səfa gətirmisiniz, cənab Prezident. Qədəmləriniz mübarək olsun!

**Prezident İlham Əliyev:** Sağ olun. Necəsiniz, işləriniz necədir?

**Sakin:** Bizim şimal bölgəmizə, respublikamızın şimal qapısı olan Yalama qəsəbəsinə xoş gəlmisiniz! Allah Sizin köməyiniz olsun! Sizin siyasətinizin nəticəsi və bəhrəsidir ki, suyumuz beton kanallarla, qazımız təzə polietilen borularla gəlir, işığımız kabelləşib, fasiləsiz təmin olunmuşuq. Allah Sizə yar olsun!

Bu gün gəldiyiniz bu gözəl, yaraşıqlı yol Sizin siyasətinizin uğurudur. Bütün standartlara uyğun bu yola görə camaatımızın adından Sizə minnətdarlığımızı bildiririk, "Çox sağ olun" deyirik. Gələcək işlərinizdə də Sizə uğurlu fəaliyyətlər arzu edirik. Allah köməyiniz olsun! Allah Sizi qorusun!

**Prezident İlham Əliyev:** Çox sağ olun. Mən də çox şadam ki, bu bölgədə - Xaçmaz rayonunda, ümumiyyətlə, şimal bölgəsində işlər yaxşı gedir, abadlıq-quruculuq işləri aparılır. Bütün infrastruktur layihələri həll olunub. Sizin də qeyd etdiyiniz kimi, yeni yol salınıb. Bu gün bu yolun rəsmi açılışını qeyd etdik. Qazlaşdırma davam edir. Bir çox yaşayış məntəqələri artıq qazlaşdırılıb. Xaçmaz rayonunda qazlaşdırma 71 faizdir. Əlavə tədbirlər görüləcək ki, qazlaşdırılmayan kəndlərə də qaz çəkək. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Dayanıqlı enerji təminatı var. İş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görülür. Bu gün Yalama Aqroparkının açılışı olacaq. Orada da yüzlərlə iş yeri yaradılır. Bu bölgənin turizm potensialının inkişafı üçün lazımi addımlar atılır və atılacaq. İnfrastruktur layihələrinin icrası burada əsas məsələdir.

Çox şadam ki, burada insanlar rahat yaşayırlar, öz işləri ilə məşğuldurlar, kənd təsərrüfatı, turizm inkişaf edir. Yeni iş yerləri yaradılır, abadlıq işləri aparılır. Yalama qəsəbəsi, dediyiniz kimi, bizim şimal qapımızdır. Sərhədə ən yaxın olan qəsəbədir. Çox şadam ki,

Azərbaycanın mərkəzindən uzaq məsafədə yerləşən bölgələrdə də işlər yaxşı gedir, dövlətimiz güclənir, insanlar daha da yaxşı yaşayırlar.

**Sakinlər:** Sizin sayənizdə, cənab Prezident. Çox sağ olun. Bunların hamısı Sizin zəhmətinizin bəhrəsidir. Allah Sizi qorusun!

**Sakin:** Möhtərəm cənab Prezident, Siz Yalama qəsəbəsinə xoş gəlmisiniz. Bu, yalamalılar üçün böyük bayramdır. Sizin siyasətinizi bütün yalamalılar dəstəkləyirlər. Bizim dayandığımız bu bir hektar torpaq sahəsi 2008-ci ilə qədər həqiqətən bataqlıq ərazi idi. Xalqın müraciəti ilə biz burada Ulu Öndərin adına layiq gözəl Heydər Əliyev Parkı yaratdıq, Heydər Əliyev Muzeyi tikildi. Heydər Əliyev Parkı ilə bərabər, Ulu Öndərin adını daşıyan küçə də abadlaşdı. Çox sağ olun, Sizə minnətdarıq.

**Prezident İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Bir halda ki, əsas infrastruktur layihələri artıq başa çatır, növbəti mərhələdə daha çox yerli istehsal, kənd təsərrüfatı, turizm inkişaf etməlidir. Turizmin inkişafı üçün əlavə imkanlar var. Siz bilirsiniz ki, bu il ölkəmizə daha çox xarici qonaq gəlmişdir. Əlbəttə ki, bu zona turizm üçün çox gözəl zonadır. Burada həm dəniz, həm meşələr var, yaxın bölgələrdə xizək kurortu da yaradılıb. Yəni, bu zona Azərbaycanın turizm mərkəzlərindən biridir, bəlkə də birincisidir. Gələcəkdə insanları işlə təmin etmək üçün, əlbəttə, həm dövlət, həm özəl sektor tərəfindən əlavə investisiyalar qoyulmalıdır ki, işlər daha da sürətlə getsin və inkişaf dayanıqlı olsun.

**Sakin:** Möhtərəm cənab Prezident, bir daha xoş gəlmisiniz. Mən Yalama məktəbində müəllimə işləyirəm. Bizim məktəbimizdə təmir işləri gedir. Yeni dərs ilində biz əsaslı təmir olunmuş məktəbdə çalışacağıq. Yalama çox abadlaşıb, inkişaf edib. İnanırıq ki, bu inkişaf davamlı olacaq. Cənab Prezident, çox sağ olun. Biz Sizə çox təşəkkür edirik, Sizə minnətdarıq.

**Prezident İlham Əliyev:** Yalamada bir məktəb var?

**Sakin:** Bəli, tam orta məktəbdir, 800 şagird yerlikdir.

**Prezident İlham Əliyev:** Burada yaşayan əhalinin sayı 5020 nəfərdir. Bu, çox yaxşıdır. İndi yol təmir olunub, gediş-gəliş rahat olacaq.

**Sakinlər:** Biz Xudatdan buraya bir saata gələ bilmirdik. İndi 15 dəqiqəyə gəlirik. Çox gözəl yollar salınıb. Çox sağ olun. Bütün camaatımız adından Sizə minnətdarıq. Bizə yaratdığınız bu şəraitə görə Sizə təşəkkür edirik. Allahköməyiniz olsun!

**Prezident İlham Əliyev:** Yol əsasdır. Çünki yol abad olanda həm gediş-gəliş asanlaşır, eyni zamanda, bütün digər məsələlər öz həllini tapır. Misal üçün, biz 3-4 il bundan əvvəl Xaçmazda mərkəzi rayon xəstəxanasını təmirdən sonra istifadəyə verdik. İndi insanlar rayon mərkəzinə çox qısa müddətdə çata bilərlər.

**Sakinlər:** Çox sağ olun. Bu yol qarşıdan gələn Qurban bayramı münasibətilə Sizin bizə hədiyyəniz oldu. Ailənizlə birlikdə Sizi təbrik edirik. Çox sağ olun. Allah köməyiniz olsun! Sizə uğurlar arzulayırıq.

**Prezident İlham Əliyev:** Mən də qarşıdan gələn bayram münasibətilə Sizi təbrik edirəm, sizə uğurlar arzulayıram. Çox sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

***8 sentyabr 2016-cı il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XAÇMAZDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xaçmaz rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Xaçmaz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev Prezident İlham Əliyevə abidənin ətrafında yaradılan şərait, həmçinin rayonda həyata keçirilən layihələr və qarşıda duran vəzifələr barədə məlumat verdi.

*8 sentyabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV XAÇMAZDA BAYRAQ MEYDANINDA VƏ BAYRAQ MUZEYİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Dövlətimizin başçısına məlumat verildi ki, Bayraq Meydanının və Bayraq Muzeyinin binasının inşasına 2014-cü ildə başlanılıb və tikinti işləri 2015-ci ildə başa çatdırılıb. Bayraq Meydanında və muzey binasında inşaat işləri rayonun daxili imkanları hesabına həyata keçirilib.

Ümumi ərazisi bir hektar olan Bayraq Meydanında hündürlüyü 85 metr olan bayraq dirəyi ucaldılıb, tikintialtı sahəsi 240 kvadratmetr olan fəvvarə tikilib, 5360 kvadratmetr sahədə yaşıllıq salınıb, dekorativ ağac və gül kolları əkilib, müasir suvarma və işıqlandırma sistemləri yaradılıb.

Ərazidə tikintialtı sahəsi 320 kvadratmetr olan 1 ekspozisiya zalı, 2 köməkçi açıq eyvan və diametri 11 metr olan günbəzdən ibarət Bayraq Muzeyi inşa edilib.

Muzeydə tariximizin ayrı-ayrı dövrlərinə aid eksponatlar, bayraqlar, xəritələr, konstitusiyalar, orden və medallar, bir sözlə, müxtəlif dövlət rəmzləri qorunur. Burada müstəqillik dövrümüzün tarixi hadisələrinə geniş yer verilib. Bütün bunlar həm Xaçmaz gənclərində, həm də rayona gələn qonaqlarda şanlı tariximiz haqqında təsəvvür yaratmağa geniş imkanlar açır.

*8 sentyabr 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SABİRABADDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Sabirabad şəhərinin mərkəzi meydanındakı abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov Prezident İlham Əliyevə meydanda və rayonda görülən abadlıq-quruculuq işləri barədə məlumat verdi.

*17 sentyabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV MİNGƏÇEVİRDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Mingəçevir şəhərinə səfərə gəlib.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzindəki abidəsi önünə gül dəstəsi qoydu.

Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov son dövrdə Mingəçevirdə görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, Ümummilli Liderin adını daşıyan parkın ərazisi üç hektardır. Parkda şəlalə kompleksi və yeni kafe tikilib, mövcud "Ana və uşaq" kafesi müasir üslubda yenidən qurulub, geniş yaşıllıq işləri görülüb.

*21 sentyabr 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİNGƏÇEVİR ŞƏHƏR TARİX MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Sentyabrın 21-də Mingəçevir Şəhər Tarix Muzeyinin əsaslı yenidənqurmadan sonra təqdimatı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidənqurmadan sonra muzeydə yaradılan şəraitlə tanış olub.

Dövlətimizin başçısına məlumat verildi ki, Mingəçevir Şəhər Tarix Muzeyi 1968-ci ildə Mingəçevir Dövlət Dram Teatrının binasındakı bir otaqda fəaliyyətə başlayıb. 1985-ci ildən 2015-ci ilədək isə doqquzmərtəbəli yaşayış binasının birinci mərtəbəsində fəaliyyətini davam etdirib. Lakin sonradan Heydər Əliyev prospektində yerləşən əvvəlki Heydər Əliyev Muzeyinin binası yenidən quruldu və Mingəçevir Şəhər Tarix Muzeyi də həmin binaya köçürüldü. Yenidənqurma işlərindən sonra indi binanın ümumu sahəsi 810 kvadratmetr təşkil edir.

Muzeydə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin həyat və fəaliyyətindən, ölkəmizin inkişafi istiqamətindəki xidmətlərindən bəhs edən fotoguşə yaradılıb.

Bildirildi ki, üç fond otağından, 50 nəfərlik müşavirə və 2 ekspozisiya zallarından ibarət olan muzeydə 16 min eksponat qorunur və onlardan 400-ü ekspozisiya zallarında nümayiş etdirilir. Bu son dərəcə qiymətli eksponatlar ölkəmizin dünyanın qədim insan məskənlərindən olduğunu bir daha təsdiqləyir.

Diqqətə çatdırıldı ki, muzeydə nümayiş etdirilən eksponatların bir çoxu ötən əsrin ortalarında Mingəçevir Su Elektrik Stansiyasının tikintisi zamanı aparılan qazıntı işləri zamanı tapılıb.

*21 sentyabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV TÜRKİYƏNİN MÜDAFİƏ, MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLƏRİNİN BAŞÇILIQ ETDİKLƏRİ NÜMAYƏNDƏ HEYƏTLƏRİNİ QƏBUL ETMİŞDİR

Müdafiə naziri Fikri İşıq, mədəniyyət və turizm naziri Nabi Avcı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdılar.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında müdafiə, hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, "ADEX-2016" ikinci Azərbaycan Beynəlxalq müdafiə sərgisinin əhəmiyyətindən danışıldı.

Söhbət zamanı, ölkələrimiz arasında mədəniyyət və turizm sahəsində əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı. Son vaxtlar turizm sahəsində görülən tədbirlər nəticəsində ölkəmizdə turistlərin sayının artdığı qeyd edildi, Türkiyənin bu sahədə zəngin təcrübəyə malik olmasının əhəmiyyəti diqqətə çatdırıldı. Dünya Turizm Günündə Türkiyənin mədəniyyət və turizm naziri Nabi Avcının ölkəmizə səfərinin önəmi vurğulandı.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da möhkəmləndiriləcəyinə əminlik ifadə olundu.

Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.

*27 sentyabr 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SUMQAYITDA UŞAQ İNCƏSƏNƏT MƏKTƏBİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səid Rüstəmov adına Sumqayıt şəhər 3 saylı Uşaq İncəsənət Məktəbinin açılışında iştirak edib.

Dövlətimizin başçısı məktəb binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev məktəblə tanış oldu.

Bildirildi ki, məktəb əvvəllər doqquzmərtəbəli yaşayış binasının birinci mərtəbəsində və əlavə tikilmiş qeyri-yaşayış sahəsində yerləşirdi. Məktəbdənkənar tədris üçün uyğunlaşdırılmış binada fəaliyyət göstərən məktəbin zamanın tələbinə uyğun daha müasir və geniş binada yerləşdirilməsi yüksək səviyyədə həyata keçirilib. Yeni binanın inşasına keçən ilin noyabrında başlanılıb. Tikinti işləri bu ilin sentyabrında başa çatdırılıb.

Binanın foyesində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Sumqayıta səfərlərini əks etdirən fotoguşələr yaradılıb. Ümumi sahəsi 2950 kvadratmetr olan bina üçmərtəbəlidir. Buradakı 27 sinif otağının hamısı müasir avadanlıqla, təlim-tədris ləvazimatları ilə təchiz olunub. Yüz iyirmi yerlik akt zalında müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Kitabxana, rəsm otağı və emalatxanalarda dərslərin keçirilməsi üçün bütün imkanlar nəzərə alınıb. Hazırda Uşaq İncəsənət Məktəbində 730 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 217 müəllim məşğuldur.

Prezident İlham Əliyev məktəbin xor kollektivinin ifasını dinlədi.

Sonra xatirə şəkli çəkdirildi.

*27 sentyabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV SUMQAYITDA ƏSASLI TƏMİR EDİLƏRƏK YENİDƏN QURULAN HEYDƏR ƏLİYEV PARKINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıtda əsaslı təmir edilərək yenidən qurulan Heydər Əliyev parkında yaradılan şəraitlə tanış olub.

Dövlətimizin başçısı elektromobillə parkın ərazisini gəzdi.

Məlumat verildi ki, son dövrlərdə Sumqayıtda əsaslı təmir olunaraq yenidən qurulan istirahət məkanlarından biri də Heydər Əliyev parkıdır. Parkın ümumi sahəsi 8 hektardır. Bu park 1995-1996-cı illərdə salınıb. Ötən ildən başlayan əsaslı təmir və yenidənqurma işlərindən sonra parkın ərazisi genişləndirilərək 15 min kvadratmetrə çatdırılıb. Görülən

işlər çərçivəsində parkın girişi və saat qülləsi yenidən qurulub. Burada Bayraq Meydanı da yaradılıb. Buradakı bayraq dirəyinin hündürlüyü 67 metrdir.

Qeyd edildi ki, parkın ərazisində aparılan geniş abadlıq işləri çərçivəsində 5 mindən çox ağac əkilib, 25 min kvadratmetr ərazi yaşıllaşdırılıb. Şəhər sakinlərinin və qonaqların istirahəti üçün parkda hər cür şərait yaradılıb. Heydər Əliyev Mərkəzi, Şahmat Məktəbi, Uşaq İncəsənət Məktəbi bu parkın ərazisində yerləşir.

*27 sentyabr 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SUMQAYIT DƏNİZKƏNARI BULVARININ VƏ ŞƏHƏR ÇİMƏRLİYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Bu gün ölkəmizdə həyata keçirilən sosial-iqtisadi layihələrin tərkib hissələrindən biri də yeni istirahət guşələrinin, park və xiyabanların yaradılmasıdır. Son dövrlərdə Prezident İlham Əliyevin tapşırığına əsasən, Bakı ilə yanaşı, bütün şəhər və rayonlarda yeni parkların, xiyabanların, istirahət guşələrinin yaradılması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması istiqamətində olduqca mühüm layihələr icra edilir. Bu məsələyə Sumqayıtda da xüsusi diqqətlə yanaşılır. Burada həmin istiqamətdə reallaşdırılan ən mühüm layihələrdən biri də Sumqayıtda Dənizkənarı bulvarın və şəhər çimərliyinin yaradılmasıdır. Bu kompleksdəki şərait sübut edir ki, Azərbaycan dövləti vətəndaşların istirahətlərini mənalı təşkil etmək, asudə vaxtlarını səmərəli keçirmək üçün bütün zəruri addımları atır. Bu, həm də dünyada hökm sürən iqtisadi böhran dövründə ölkəmizdə sosial layihələrin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirildiyini nümayiş etdirir. Xəzərin sahilindəki bu kompleks Sumqayıt şəhərinin simasının daha da gözəlləşdirilməsi baxımından da olduqca əhəmiyyətlidir. Bu cür layihələrin icrası bir daha sübut edir ki, Sumqayıtın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır, onlar yüksək keyfiyyətlə və vaxtında yerinə yetirilir. Bir sözlə, müasir üslubda, orijinal dizaynda yaradılan həmin istirahət məkanı Sumqayıtın görməli yerlərinə daha bir ünvanın da əlavə edilməsi deməkdir.

Dövlətimizin başçısı Dənizkənarı bulvarın və şəhər çimərliyinin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, Xəzər dənizinin sahili boyunca 4 kilometr uzunluğu olan bulvar kompleksinin ümumi sahəsi 106 hektardır. Bu istirahət məkanının tikintisinə ötən ilin oktyabrında başlanılıb.

Dövlətimizin başçısı elektromobillə bulvarın ərazisini gəzdi.

Sumqayıt bulvarı və dənizkənarı parkı həm ərazisinə, həm də landşaftına görə ölkəmizdə mövcud olan əksər parklardan seçilir. Bu parkın çimərliyə birbaşa çıxışının olması onu digər bulvarlardan fərqləndirir. Sahəsi 12 hektar olan çimərlik zonasında şəhər sakinlərinin və qonaqların istirahəti üçün zəruri şərait var.

Bulvarda Bayraq Meydanı inşa olunub. Azərbaycan Respublikasının dövlət bayrağı meydanda 42 metr hündürlüyündəki bayraq dirəyi üzərində dalğalanır.

Bildirildi ki, burada 100 min ağac, 500 mindən çox müxtəlif gül kolu əkilib, 60 min kvadratmetr sahədə çəmənlik salınıb, işıqlandırma sistemi qurulub. Park-bulvar kompleksində 10 min oturacaq qoyulub. Beş yerdə böyük fəvvarə kompleksi tikilib, su təchizatı və kanalizasiya şəbəkəsi yaradılıb. Kompleks boyunca 12 min poqonmetr uzunluğunda piyada yolu salınıb, mühafizə kameraları, monitorlar quraşdırılıb.

Qeyd olundu ki, bulvarda kiçik ölçülü gəzinti avtobusları və avtomobil yolu ilə yanaşı, velosiped idmanı ilə məşğul olmaq istəyənlər üçün də 3 metr enində xüsusi hərəkət

zolağı salınıb. Bununla yanaşı, 3 kafe-çay evi, istirahət obyektləri, attraksionlar, kinoteatr, tennis kortu, futbol meydançaları, yay musiqi səhnəsi, ticarət və uşaqlar üçün əyləncə mərkəzləri yaradılıb. Ərazidə 2 yay uşaq-əyləncə mərkəzi tikilib, balacalar üçün 10 attraksion quraşdırılıb.

Diqqətə çatdırıldı ki, sahil hissədə estakada qurulub və şəhərin akvatoriyasında gəzinti gəmilərinin hərəkətinin təmin olunması üçün işlər aparılır. Burada 500-dən çox yeni iş yeri açılacaq.

Bulvarın ərazisində 4,2 kilometr uzunluğunda yeni yol çəkilib.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Bulvar boyunca salınan yeni asfalt yolun eni 16 metrdir. Bundan başqa, 4,2 kilometr uzunluğunda istinad divarı tikilib, mərmərlə üzlənib. Müasir səviyyədə salınan yolda işıqlandırma sistemi də quraşdırılıb.

Sonra dövlətimizin başçısına bulvar ərazisində inşa edilən "Kristal Abşeron" yaşayış kompleksi barədə də məlumat verildi.

Bildirildi ki, bu kompleksdə ehtiyacı olan sakinlər mənzilləri 20 illik ipoteka yolu ilə də ala bilərlər. Beləliklə, kompleks sürətlə dəyişən Sumqayıtda əhalinin mənzil probleminin həllində mühüm rol oynayacaq.

*27 sentyabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV ƏSASLI TƏMİR OLUNARAQ YENİDƏN QURULAN SUMQAYIT DÖVLƏT DRAM TEATRININ BİNASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı təmir olunaraq yenidən qurulan Sumqayıt Dövlət Dram Teatrının binasında yaradılan şəraitlə tanış olub.

Dövlətimizin başçısına məlumat verildi ki, bina 1956-cı ildə istifadəyə verilib. Burada yenidənqurma işlərinə ötən ilin dekabrında başlanılıb. Əsaslı təmir və yenidənqurma tədbirləri zamanı binanın bütün mühəndis-texniki qurğuları tamamilə yenidən qurulub. Binanın 500 yerlik tamaşa və 100 yerlik akt salonu ən müasir avadanlıqla təchiz olunub. Burada tamaşaları bədii və texniki cəhətdən yüksək səviyyədə təqdim etmək üçün 360 dərəcə hərəkət edən səhnə, müasir akustika və işıqlandırma sistemləri və digər avadanlıq quraşdırılıb.

Teatrın interyerinin daha cəlbedici görünməsi üçün milli memarlıq ənənələrindən geniş istifadə edilib. Binanın bütün xidməti, dekorasiya və qrim otaqları müasir üslubda tərtib olunub, mebellər tətbiqi sənətin qədim növü olan oyma üsulu ilə işlənib. Teatrın köhnə parket döşəməsi sökülərək monolit dəmir-beton plitələrlə əvəzlənib, binadakı sütunlar isə mərmərlə üzlənib.

Qeyd olundu ki, binanın müasir üslubda yenidən qurulması sakinlərin teatra marağının artmasına, şəhərin mədəni həyatının daha da canlanmasına təkan verəcək. Teatrın qarşısındakı meydanda 15 min kvadratmetr sahəyə mərmər döşənib, iki yeni fəvvarə və monitor quraşdırılıb.

Yenidənqurma işləri Sumqayıt Dövlət Dram Teatrının 150 nəfərlik kollektivinə işlərini günün tələbləri səviyyəsində qurmaq üçün maksimum şərait yaradır. Ümumilikdə, teatrın binasının əsaslı təmiri və yenidən qurulması Azərbaycan dövlətinin mədəniyyət sahəsinin inkişafına göstərdiyi diqqət və qayğını təcəssüm etdirir. Bu layihənin icrası son dövrdə Sumqayıtda gedən sürətli sosial-iqtisadi inkişafa təkan verməklə yanaşı, şəhərin ümumi görünüşünə də əlavə çalarlar qatır.

*27 sentyabr 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ISESKO-NUN BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycrini qəbul edib.

ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycrinin V Bakı Beynəlxalq Humanitar Forumunda iştirakının əhəmiyyətinə toxunan Prezident İlham Əliyev Forumun dünyada gedən proseslərə münasibət bildirmək üçün yaxşı platforma olduğunu dedi. Dövlətimizin başçısı qeyd etdi ki, V Bakı Beynəlxalq Humanitar Forumunun gündəliyi zəngindir və burada müzakirə edilən məsələlər əhəmiyyətlidir.

Bu mötəbər tədbirin artıq beşinci dəfədir keçirildiyini deyən ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri Forumun çox uğurlu olduğunu dedi. Bildirdi ki, indiyədək keçirilən forumlarda qəbul edilən qərarlar bütün dünyada böyük nəticələrin əldə olunmasına şərait yaradır.

Görüşdə Azərbaycan, o cümlədən Heydər Əliyev Fondu ilə ISESCO arasında çox uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, bu əməkdaşlığın beynəlxalq səviyyədə önəmi qeyd edildi, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

*29 sentyabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV V BEYNƏLXALQ HUMANİTAR FORUMUN RƏSMİ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Sentyabrın 29-da Heydər Əliyev Mərkəzində V Bakı Beynəlxalq Humanitar Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər.

Bakı beşinci dəfə Beynəlxalq Humanitar Foruma ev sahibliyi edir. Bu Forum bəşəriyyətdə maraq doğuran qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə hər il tanınmış dövlət xadimlərini, elmin müxtəlif sahələri üzrə Nobel mükafatı laureatlarını və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli nümayəndələrini bir araya toplayan mötəbər tədbirdir. Humanitar Forumun gündəliyi bu dəfə də aktual məsələlərdən ibarətdir. Budəfəki Forumun mövzuları da son dərəcə maraqlıdır. “Multikulturalizmin müxtəlif modelləri: nəzəriyyədən humanist təcrübəyə doğru”, “İnsanların kütləvi yerdəyişməsi şəraitində insan kapitalının qorunmasının önəmi davamlı inkişafın əsası kimi”, “Jurnalistikanın informasiya dövrünə transformasiyası və onun sivilizasiyalararası dialoqun təmin edilməsində rolu”, “Davamlı inkişaf və ekoloji sivilizasiya”, “Molekulyar biologiya, biofizika, biotexnologiya və müasir tibb sahəsində kadr hazırlığı məsələləri: innovativ və etik problemlər” Forumun müzakirə mövzuları olacaq. Bundan əlavə, “Texnologiyaların konvergensiyası və gələcəyə dair proqnozlar: XXI əsrin əsas çağırışları” mövzusu da ekspertlər tərəfindən müzakirəyə cəlb ediləcək.

Dövlətimizin başçısı Forumun açılışında nitq söylədi.

# PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Bakı Beynəlxalq Humanitar Forumu öz işinə başlayır. Bu Forumda iştirak etmək üçün ölkəmizə gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram, Azərbaycana "xoş gəlmisiniz" deyirəm.

Builki Forumda 80-ə yaxın ölkədən 400-dən çox nümayəndə iştirak edir. Bu, özlüyündə bir göstəricidir. Forum son illər ərzində beynəlxalq aləmdə böyük hörmət qazanıb. Bu Forumun beynəlxalq mötəbər tədbirlər arasında xüsusi yeri var. Azərbaycan beynəlxalq humanitar əməkdaşlığa həmişə çox böyük diqqət verib. Biz hesab edirik ki, dünyada müsbət meyillər güclənməlidir. Beynəlxalq əməkdaşlıq ölkələrarası əlaqələrin inkişafı üçün xüsusi rol oynayır. Son illər ərzində biz bu məqsədlə ölkəmizdə bir çox beynəlxalq tədbirlər keçirmişik. Onların arasında əlbəttə ki, Bakı Beynəlxalq Humanitar Forumu xüsusi yer tutur. İki ildən bir ölkəmizdə Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Bir neçə il bundan əvvəl Bakıda Dünya dinləri liderlərinin Zirvə görüşü keçirilmişdir. Bu il isə BMT-nin Sivilizasiyalararası Alyansının VII Qlobal Forumu keçirilmişdir. Bütün bu mötəbər tədbirlər çərçivəsində beynəlxalq humanitar əməkdaşlığa, multikulturalizmə və digər önəmli məsələlərə dair geniş diskussiyalar, müzakirələr aparılmışdır.

Eyni zamanda, Azərbaycan son illər ərzində mötəbər idman yarışlarına da ev sahibliyi edib. Təkcə bu il Bakıda ilk dəfə olaraq "Formula-1" yarışı və Ümumdünya Şahmat Olimpiadası keçirilmişdir. Keçən il isə tarixdə ilk dəfə olaraq Bakıda birinci Avropa Oyunları keçirilmişdir. Bu, özlüyündə bir göstəricidir. Çünki ilk Avropa Oyunları müsəlman ölkəsində keçirilmişdir və bu, Azərbaycanın dinlərarası, mədəniyyətlərarası dialoqun güclənməsinə töhfəsi kimi qiymətləndirilə bilər. Gələn il isə Bakıda IV İslam Həmrəylik Oyunları keçiriləcəkdir. Yəni, bir şəhərdə cəmi iki il ərzində həm Avropa Oyunları keçirilib, həm də İslam Oyunları keçiriləcəkdir. Bugünkü Azərbaycan, bax, bu yolla gedir.

Bu beynəlxalq tədbirləri ölkəmizdə keçirməyimizdə bir çox məqsədlər var. İlk növbədə, bu, bizim ölkəmizə lazımdır. Çünki Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkədir. Azərbaycanda bütün dinlərin, xalqların nümayəndələri bir ailə kimi yaşayır. Eyni zamanda, bu beynəlxalq, siyasi və humanitar tədbirlər dünyaya da bir siqnal göndərir ki, dünyanın mütərəqqi nümayəndələri səylərini daha da sıx birləşdirməlidirlər. Çünki bu gün əfsuslar olsun ki, dünyada xoşagəlməz meyillər üstünlük təşkil edir. Qanlı toqquşmalar, müxtəlif bölgələrdə müharibələr gedir, dini, milli zəmində qan tökülür. Beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi müəyyən dərəcədə bu mənfi meyillərin qarşısını ala və müsbət meyilləri gücləndirə bilər.

Azərbaycan Avropa Şurasının və İslam Əməkdaşlıq Təşkilatının üzvüdür, hər iki təşkilatda fəal rol oynayır. Hər iki təşkilat Azərbaycanın təşəbbüsü ilə bizim üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox ədalətli və beynəlxalq hüquqa əsaslanan qətnamələr qəbul edib və bu qətnamələrdə Ermənistan işğalçı dövlət kimi göstərilib. Biz bu iki təşkilatda fəaliyyətimizi uğurla davam etdiririk. Bu iki təşkilatda dünyanın 100-dən çox ölkəsi birləşir. Biz bir neçə il bundan əvvəl fikirləşdik ki, yaxşı olar, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatı arasında bir əlaqə yaradılsın. Bu məqsədlə 2008-ci ildə Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilmiş toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini dəvət etmişdik və birgə sessiya keçirilmişdi. Bu, dünyada çox böyük əks-səda yaratmışdı. Bizim bu sahədəki fəaliyyətimiz yüksək qiymətə layiq görüldü və bu

görüşə, bu təşəbbüsə "Bakı prosesi" adı verilmişdir. 2009-cu ildə isə biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini qəbul etdik və bu görüşə Avropadan mədəniyyət nazirlərini də dəvət etdik. Beləliklə, bizim təşəbbüsümüzlə çox önəmli yeni bir proses başlamışdır. Biz əlbəttə, çox fəxr edirik ki, bu təşəbbüsə "Bakı prosesi" adı verilmişdir.

Biz çalışırıq və çalışacağıq ki, bundan sonra da humanitar sahədə dinlərarası, mədəniyyətlərarası dialoqun güclənməsinə öz töhfəmizi verək. Çünki bizim siyasətimiz bundan ibarətdir, eyni zamanda, bizim tariximiz multikulturalizm əsasında qurulubdur. Düzdür, multikulturalizm bir anlayış olaraq yeni bir ifadədir, ancaq bu həmişə Azərbaycanda olub. İctimai-siyasi quruluşdan asılı olmayaraq Azərbaycan bütün dövrlərdə sülh, əməkdaşlıq, qarşılıqlı anlaşma məkanı olmuşdur və biz bu ənənələri yaşadırıq. Bu gün biz müstəqil dövlət kimi belə tədbirlərin keçirilməsi ilə multikulturalizmin inkişafına öz töhfəmizi veririk və Azərbaycanda aparılan siyasət bu müsbət meyilləri gündəlik həyatda gücləndirir.

Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi sülh, mehribanlıq şəraitində yaşayır, heç vaxt ölkəmizdə dini-milli zəmində heç bir qarşıdurma, yaxud da anlaşılmazlıq olmamışdır. Bu, bizim böyük sərvətimizdir. Bütün dinlərin tarixi dini abidələri dövlət tərəfindən qorunur, eyni zamanda, dövlət öz vəsaiti hesabına bu abidələrin bərpasını təmin edir. Azərbaycanda məscidlər, kilsələr, sinaqoqlar tikilir, təmir edilir. Biz bütün dini bayramlarımızı birlikdə qeyd edirik. Bütün dini icmalar bunu birlikdə qeyd edir. Biz tariximizlə, mədəniyyətimizlə fəxr edirik. Bu gün dünyanın ən qədim məscidlərindən biri Azərbaycanda, Şamaxı şəhərində yerləşir. Şamaxı məscidi 743-cü ildə tikilmişdir və bərpa edilərək bu gün fəaliyyət göstərir. Eyni zamanda, Şəki şəhərinin yaxınlığında Qafqazın ən qədim kilsələrindən biri – Qafqaz Albaniyası kilsəsi bir tarixi abidə kimi yaşayır. O tarixi abidə də bərpa edilərək bu gün xidmət göstərir və çoxlu turistləri cəlb edir. Bakının yaxınlığında qədim zərdüştlük, atəşpərəstlik məbədi bu gün qorunub saxlanılır. Bu, bizim tariximizdir. Müxtəlif dinlərin, mədəniyyətlərin nümayəndələri tarix boyu Azərbaycanda yaşamışlar və yəqin, təsadüfi deyil ki, məhz Azərbaycanı birgəyaşayış üçün seçmişlər. Çünki bizim ölkəmizdə, bizim diyarda bu meyillər həmişə üstünlük təşkil edib. Bu gün də bu, dövlət siyasətidir və biz bu siyasəti bundan sonra da aparacağıq.

Bu dövlət siyasəti ölkə daxilində böyük rəğbət qazanır. Eyni zamanda, bu, cəmiyyətin də əhval-ruhiyyəsidir. Çünki dövlət siyasəti o zaman uğurlu icra edilə bilər ki, cəmiyyət də buna müsbət cavab verir. Cəmiyyətdə mövcud olan xoş əhval-ruhiyyə, multikulturalizmlə bağlı meyillər bizim dövlət siyasətimizi daha da gücləndirir. Təsadüfi deyil ki, Azərbaycanda bu il "Multikulturalizm ili" elan edilmişdir. Bakıda Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Dövlət Bayrağı Meydanının, - bu bayraq dövlətçiliyimizin rəmzidir, - yaxınlığında multikulturalizmə abidə ucaldılmışdır.

Biz hesab edirik ki, bu məsələ daim diqqət mərkəzində olmalıdır. Beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələr bu məsələ ilə bağlı öz mövqeyini bildirməlidirlər. Çünki bu gün əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində multikulturalizmlə bağlı fərqli, bədbin fikirlər səslənir. Bəziləri hesab edir ki, multikulturalizm iflasa uğrayıb, bəziləri, ümumiyyətlə, hesab edir ki, belə bir meylə yol vermək olmaz, bu, zərərlidir. Bu, çox təhlükəli fikirlərdir, yanaşmalardır. Çünki gəlin baxaq, multikulturalizmə alternativ nədir, varmı bu alternativ? Əlbəttə ki, var, amma necə alternativdir? Mən hesab edirəm ki, multikulturalizmin alternativi ksenofobiyadır, ayrı-seçkilikdir, irqçilikdir, islamofobiyadır, antisemitizmdir. Bunlar çox təhlükəli meyillərdir. Biz tarixdə bir neçə dəfə görmüşük ki, bu meyillərin güclənməsi hansı böyük fəlakətlərə yol açır. Ona görə, bütün mütərəqqi bəşəriyyət multikulturalizm ideyaları, idealları ətrafında birləşməlidir. Burada birmənalı mövqe nümayiş

etdirilməlidir. Biz öz növbəmizdə, öz fəaliyyətimizlə, səylərimizlə ölkəmizdə mövcud olan ab-havanı dünyaya təqdim edərək göstəririk ki, bu, mümkündür. Multikulturalizmin dünyada bir çox ünvanları var, onlardan biri Azərbaycandır. Biz bundan sonra da çalışacağıq ki, həm beynəlxalq aləmdə, həm ölkə daxilində, regionda bu müsbət meylləri gücləndirək.

Əfsuslar olsun ki, dünyada təhlükələr artır. Biz birinci Bakı Beynəlxalq Humanitar Forumunu təşkil edəndə bu gün mövcud olan təhlükələr yox idi. Son bir neçə il ərzində dünyada - həm bizim bölgədə, Yaxın Şərqdə, Avropada, digər yerlərdə çox təhlükəli, narahatedici hadisələr baş verib və baş verir. Qanlı toqquşmalar, müharibələr, bəzi ölkələr tamamilə dağıdılıb, yüz minlərlə günahsız insan həlak olub, milyonlarla, on milyonlarla insan qaçqın-köçkün vəziyyətinə düşüb. Bu, öz növbəsində bundan əziyyət çəkən ölkələrdə radikalizm meyillərini gücləndirir. Həmçinin bu ölkələr dağılandan sonra, - mən Yaxın Şərqi nəzərdə tuturam, - insanlar öz canlarını qurtarmaq üçün Avropaya üz tutmağa başlamışlar. Miqrantlara qarşı çox alçaldıcı hərəkətlərə yol verilmişdir, eyni zamanda, antimiqrant meyillər güclənmişdir. Bu, Avropada radikal qüvvələrin xeyrinə işləyir. Bəzi Avropa ölkələrində son seçkilərə nəzər salsaq görərik ki, radikal qüvvələr daha böyük dəstək alır. Nəyə görə? Çünki onlar bu vəziyyətdən istifadə edərək daha böyük siyasi çəkiyə malik olurlar. Bu da Avropada radikallaşmaya yol açır. Bu, çox təhlükəli meyildir.

Biz indi sivilizasiyalararası dialoqdan danışırıq, ancaq reallıqda sivilizasiyalararası toqquşmanın ilk təzahürlərini görürük. Əgər bu meyillərin qarşısı alınmasa çox böyük fəlakətə gətirib çıxaracaq. Bütün ölkələr ağır vəziyyətə düşə bilər. Ona görə, indiki zamanda daha çox bu məsələlər gündəlikdə olmalıdır, müsbət meyillər üstünlük təşkil etməlidir. Bizi narahat edən məsələlər haqqında açıq danışmalıyıq. Bakı Forumunun məqsədi bundan ibarətdir. Misal üçün, islamofobiya bütün İslam aləmini narahat edir, incidir. Çünki həm bəzi kütləvi informasiya vasitələri, həm də bəzi qeyri-hökumət təşkilatları, bəzi siyasətçilər qəsdən İslam haqqında, dinimiz haqqında mənfi rəy formalaşdırırlar. İslamı terrorla eyniləşdirirlər. Halbuki terrordan ən çox əziyyət çəkən elə müsəlman ölkələridir. Bəzi Avropa ölkələrinin rəhbərləri "stop İslam" deyirlər. Bəziləri deyir ki, biz miqrantları qəbul etməyə hazırıq, ancaq müsəlman miqrantları yox. Bu, nədir? Bu, XXI əsrdə Avropada yenidənmi faşizmin baş qaldırmasıdır? Əfsuslar olsun ki, buna nə beynəlxalq təşkilatlar, nə ayrı-ayrı ölkələr reaksiya verir, sanki bu, belə də olmalıdır. Çox təhlükəli meyillərdir və biz mütləq bu barədə danışmalıyıq. Müsəlman aləmində gedən radikallaşma, radikal qüvvələrin daha böyük dəstək qazanması da narahatedici amillərdir. Ona görə, hesab edirəm ki, biz bu məsələləri açıq şəkildə müzakirə etməliyik.

Bakı Beynəlxalq Humanitar Forumunda tanınmış dövlət xadimləri, ictimai xadimlər, tanınmış alimlər, - onların arasında 13 Nobel mükafatı laureatı var, - jurnalistlər, qeyri-hökumət təşkilatlarının nümayəndələri, digər dəyərli qonaqlar iştirak edirlər. Ona görə, bu, açıq diskussiyalar, tövsiyələr, hərəkət üçün çox gözəl bir formatdır.

Qeyd etdiyim kimi, Azərbaycan humanitar əməkdaşlığa həmişə böyük diqqət yetirib. Ancaq onu da istəyirəm qonaqlar bilsinlər ki, bizim ölkəmiz və xalqımız özü böyük humanitar fəlakətlə üzləşmişdir. 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana silahlı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşüb. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Bizim tarixi əzəli torpağımız Dağlıq Qarabağ və onun ətrafında yerləşən yeddi rayon Ermənistan tərəfindən işğal edilib, günahsız insanlar qətlə yetirilib, xalqımıza qarşı hərbi cinayət, Xocalı soyqırımı törədilib. Xocalı şəhərində soyqırımı nəticəsində 613 dinc insan qətlə yetirilib. Onlardan 106-sı qadın, 63-ü uşaqdır.

Bütün bu erməni vəhşilikləri sənədləşdirilib, videomateriallar, fotomateriallar, şahidlərin ifadələri var. Artıq dünyanın on ölkəsi Xocalı soyqırımını soyqırımı kimi tanıyıb.

İşğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Bu barədə də faktlar var. ATƏT işğal edilmiş torpaqlara iki dəfə faktaraşdırıcı missiya göndərib və onların məruzələrində bu, açıq şəkildə göstərilir. Bütün şəhərlər yerlə-yeksan edilib, infrastruktur, qəbirlər dağıdılıb. Onlar qəbirlərimizin üstünə buldozer salmışlar, dağıtmışlar. Məscidlərimiz dağıdılıb. Bakının mərkəzində erməni kilsəsi var. Biz o kilsəni bərpa etmişik. İndi o kilsədə erməni dilində 5 mindən çox kitab saxlanılır. Onlar isə bizim məscidlərimizi yerlə-yeksan ediblər. Fərq bundan ibarətdir. Erməni faşizmi böyük fəlakət törədib və günahsız insanlar bu gün də erməni siyasətindən əziyyət çəkirlər.

Bütün beynəlxalq təşkilatlar bizim mövqeyimizi birmənalı şəkildə dəstəkləyir. Xüsusilə dünyanın birinci və ən ali beynəlxalq qurumu olan BMT, onun Baş Məclisi dəfələrlə qətnamələr qəbul etmişdir. BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir ki, orada erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılması nəzərdə tutulur. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymur və bu qətnamələrin icra edilməsi mexanizmi yoxdur. Bu da böyük ədalətsizlikdir. Biz bunu ikili standartlar siyasəti kimi qəbul edirik. Çünki bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri, - yaxın tarix bunu göstərir, - günlər ərzində, bəlkə də saatlar ərzində icra edilir və təcavüzkar cəzalandırılır. Bizə gəldikdə, bu qətnamələrin qəbul edilməsindən 20 ildən çox vaxt keçib və onlar icra edilmir. Bu qətnamələri qəbul edənlər onların icrasını tələb etmirlər.

Digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, Qoşulmama Hərəkatı, ATƏT, yəni, bütün beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tarixi hissəsidir. Eyni zamanda, beynəlxalq hüquq baxımından da ayrılmaz hissəsidir. Ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Ölkəmizin ərazi bütövlüyü heç bir başqa ölkənin ərazi bütövlüyündən az əhəmiyyət kəsb etmir və beynəlxalq hüquq təmin edilməlidir.

Bu problemə baxmayaraq, ölkəmiz inamla inkişaf edir, biz güclənirik. Gələn ay biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd edəcəyik. Bu 25 ilin əksər illəri inkişaf və tərəqqi illəri olmuşdur. Azərbaycan bu gün dünya miqyasında böyük nüfuza malikdir. Bir neçə il bundan əvvəl dünyanın 155 ölkəsi böyük etimad göstərərək bizi BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçmişdir.

Ölkəmizdə humanitar məsələlər öz həllini tapır. Biz bu məsələlərə çox böyük diqqət göstəririk. Son 13 il ərzində Azərbaycanda 3 mindən çox məktəb, 600-dən çox xəstəxana, tibb mərkəzi tikilib, təmir edilib. Məcburi köçkünlərin problemləri həllini tapır. Doxsandan çox qəsəbə salınmışdır və 250 mindən çox köçkünə yeni evlər, mənzillər verilmişdir.

Ölkə iqtisadiyyatı inkişaf edir. Son 13 il ərzində ümumi daxili məhsul üç dəfə artmışdır. Bizim böyük valyuta ehtiyatlarımız var və onlar ümumi daxili məhsulumuza bərabərdir. İşsizliyin, yoxsulluğun azaldılması ilə bağlı çox ciddi addımlar atılmışdır. Bu gün həm işsizlik, həm yoxsulluq ölkəmizdə təxminən beş faiz səviyyəsindədir. Savadlılıq təxminən 100 faizdir. Azərbaycan iqtisadiyyatının böyük bir hissəsi təbii resurslarla bağlıdır. Neftin qiymətinin kəskin düşməsinə baxmayaraq, Azərbaycan bu böhrandan çox az itkilərlə çıxır və bu gün dinamik inkişaf davam edir. Dünən mənə məlumat verildi ki, Davos Dünya İqtisadi Forumu ölkələrin rəqabət qabiliyyətliyinə görə Azərbaycanı 37-ci yerə layiq görüb. Dünya miqyasında rəqabət qabiliyyətliyinə görə 37-ci yeri tutmaq hesab edirəm ki, gənc dövlət üçün böyük nailiyyətdir. Nəzərə alsaq ki, bizim müstəqilliyimizin ilk illəri çox ağır keçirdi, çox dərin siyasi böhran, iqtisadi böhran yaşanırdı. Qaçqınların,

köçkünlərin adambaşına düşən sayına görə Azərbaycan dünyada ilk yerlərdədir. Bu, çox acı statistikadır, amma bu, belədir. Bu da əlbəttə ki, bizim maliyyə resurslarımızı cəlb edib. Bütün bunlara baxmayaraq düzgün iqtisadi siyasət, cəmiyyətdəki əmin-amanlıq, sabitlik, qonşularımızla yaxşı münasibətlər, beynəlxalq təşəbbüslərimiz bu gün Azərbaycanı dünyada sabitlik və inkişaf məkanı kimi təqdim edir.

Biz fəxr edirik ki, 25 il müstəqil dövlət kimi yaşayırıq, öz hesabımıza yaşayırıq, heç kimə borclu deyilik, heç kimdən asılı deyilik, müstəqilliyi hər şeydən üstün tuturuq, xalqımız azaddır, taleyimiz öz əlimizdədir. Gözəl ölkə qurmuşuq və bundan da gözəl olacaq. İstəyirik ki, ümumi işimizə daha böyük töhfə verək. Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi də bu niyyətin bir hissəsidir.

Mən bütün qonaqlara ölkəmizə gəldikləri üçün bir daha minnətdarlığımı bildirmək istəyirəm. Foruma uğurlar arzulayıram. Sağ olun.

* * *

Bununla da V Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimi başa çatdı.

Forum işini plenar iclasla və "dəyirmi masa" rəhbərlərinin çıxışları ilə davam etdirib.

*29 sentyabr 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKININ NƏSİMİ RAYONUNDA YENİ "QIZILGÜL BAĞI" PARKINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva oktyabrın 6-da Bakının Nəsimi rayonunda yeni salınan "Qızılgül bağı" parkında yaradılan şəraitlə tanış oldular.

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlətimizin başçısına və xanımına yeni salınan parkda görülən işlər barədə məlumat verdi.

Yeni park "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin uzun müddət istifadə olunmayan Radio Mərkəzinin 1906-cı ildə inşa edilən binasının ərazisində salınıb. Ümumi sahəsi 6300 kvadratmetr olan istirahət parkı dünyanın məşhur şirkətinin dizaynı əsasında layihələndirilib. Təmir işləri yüksək keyfiyyətlə, müasir tələblər səviyyəsində və qısa vaxtda həyata keçirilib. Əvvəllər Radio Mərkəzinin binası kimi fəaliyyət göstərən tikili də yenidən qurulub. İndi bura kafe kimi fəaliyyət göstərəcək. Təmir zamanı qədim binanın tarixi element və fiqurları yüksək keyfiyyətlə bərpa edilib. Bu isə binanın xarici görünüşünün qorunub saxlanılmasına, eyni zamanda, müasir memarlıqla uzlaşdırılmasına geniş imkanlar yaradıb. İstirahət məkanı orijinal elementlər və formalarla daha da zənginləşdirilib, bu da parka xüsusi yaraşıq verir.

Yeni salınan parkda Bakı sakinlərinin, şəhərin qonaqlarının mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait var. Park yaradılarkən balacalar da yaddan çıxmayıb. Onlar üçün xüsusi istirahət guşəsi, müxtəlif attraksionlar qurulub. Bu istirahət məkanında yaradılan meydança və fəvvarə ərazinin gözəlliyini daha da artırır.

Parkda aparılan abadlıq-quruculuq işləri çərçivəsində həyata keçirilən geniş yaşıllaşdırma işləri də diqqəti cəlb edir. Bu işlər görülərkən ərazidə mövcud olan çoxillik ağaclar

saxlanılıb. Bundan başqa, parkda 200-dən çox müxtəlif növ yeni ağaclar, gül və bəzək kolları əkilib.

Bu cür yeni müasir istirahət ocağının yaradılması Prezident İlham Əliyevin tapşırığı ilə Bakıda parkların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması işinə bir töhfədir. Bu cür layihənin həyata keçirilməsi həm də ümumilikdə paytaxtımızın simasının gündən-günə gözəlləşməsini bütün dünyaya nümayiş etdirmək baxımından mühüm əhəmiyyət daşıyır.

*6 oktyabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV XƏTAİ RAYONUNDA YENİ YARADILAN PARK KOMPLEKSİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva açılışda iştirak ediblər.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva parkın rəmzi açılışını bildirən lenti kəsdilər.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov yeni yaradılan park kompleksi barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, yeni park kompleksinin ümumi ərazisi 3,2 hektardır. Ərazidə aparılan geoloji işlərin nəticəsində neft tullantıları və mərmər tozu aşkar edilib. Ərazinin torpağı mərmər tozundan və neft tullantılarından təmizlənəndən sonra 2016-cı ilin iyunundan parkın yaradılmasına və tikinti işlərinə başlanılıb. Burada işlər sentyabrda başa çatıb.

Qeyd edək ki, ərazisi münbit torpaqla örtülən parkın uzunluğu 288 metr, eni isə 110 metrdir. Park kompleksinin üç girişi var.

Yaşıllaşdırma zamanı IDEA - Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq İctimai Birliyinin təşəbbüsü ilə parkda ağacəkmə kampaniyası keçirilib. Ərazidə 4 mindən artıq müxtəlif növ ağac, o cümlədən 30 illik Eldar şamı, 35 illik sərv, 12 illik tuya ağacları əkilib.

Parkda avtomat suvarma sistemi, su və yanğın çənləri, nasosxana, təhlükəsizlik müşahidə kameraları quraşdırılıb, müasir işıqlandırma sistemi yaradılıb.

Ərazidə təbii daşlardan yonulmuş heykəllər landşaftla vəhdət təşkil edir. Parkda qoyulmuş 14 heykəlin hər biri xüsusi dizaynı və üslubu ilə fərqlənir. Müxtəlif mövzularda olan bu heykəllər Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilmiş "Daşın nəğməsi" birinci Beynəlxalq heykəltəraşlıq simpoziumu çərçivəsində müxtəlif ölkələrdən olan heykəltəraşların yaratdıqları əsərlərdir.

Parkda eləcə də Heydər Əliyev Fondunun dəstəyi ilə "Ürəklər" kompozisiyası təqdim olunur. Bu kompozisiya Bakıya, təbiətə, insanlara olan sevgini əks etdirir.

Yeni istirahət guşəsinin ərazisində yaradılmış şəlalədə dekorativ və təbii daşlardan istifadə olunub. Burada uşaqlar üçün əyləncə meydançası və yelləncəklər quraşdırılıb.

Kompleksin ərazisində iki yerdə avtodayanacaq, bir dekorativ perqola – keçid və kafe var. Ərazidə yanğınsöndürən maşınlar və velosipedçilər üçün hərəkət zolaqları da salınıb.

Parkın ərazisində, həmçinin "GreenCar" mərkəzi tərəfindən elektriklə işləyən nəqliyyat vasitələrinin enerjidoldurma stansiyası quraşdırılıb.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva yeni park kompleksində ağac əkdilər.

*6 oktyabr 2016-cı il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASININ 25-Cİ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ RƏSMİ QƏBULDA İŞTİRAK ETMİŞDİR

Azərbaycanın dövlət himni səsləndi.
Prezident İlham Əliyev rəsmi qəbulda nitq söylədi.

## PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli xanımlar və cənablar.

İyirmi beş il bundan əvvəl - 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etmişdir. Beləliklə, Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşurdu. 1918-ci ildə müsəlman aləmində ilk demokratik respublika Azərbaycanda qurulmuşdur. Haqlı olaraq fəxr edirik ki, biz müsəlman aləmində birinci idik. Bu dəfə - 1991-ci ildə isə Azərbaycan öz dövlət müstəqilliyini elan edən müttəfiq respublikalar arasında birincilər sırasında deyildi. Öz dövlət müstəqilliyini elan edən müttəfiq respublikalar arasında Azərbaycan sayca 13-cü idi. Bu, tarixdir. Biz tarixi bilməliyik, yaddan çıxarmamalıyıq. Hesab edirəm ki, Azərbaycan o vaxt öz dövlət müstəqilliyini daha əvvəl elan edə bilərdi. Bu qədər gözləmək lazım deyildi. Xüsusilə onu da yaddan çıxarmamalıyıq ki, Sovet İttifaqının özəyini təşkil edən Rusiya öz dövlət müstəqilliyini avqust ayında, bizdən iki ay əvvəl elan etmişdi.

Onu da qeyd etməliyəm ki, hələ 1990-cı ildə ulu öndər Heydər Əliyev müstəqillik yolunda çox önəmli və ciddi addımlar atmışdır. 20 Yanvar faciəsindən sonra o, birinci şəxs idi ki, sovet rəhbərliyini pislədi, Qanlı Yanvar faciəsini törədənlərə qarşı öz iradlarını irəli sürdü, onları ittiham etdi, sovet hökumətini, onun rəhbərinin fəaliyyətini pislədi. Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi və bu, müstəqillik uğrunda birinci addımlar idi. Ondan sonra, artıq Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi 1990-cı ilin noyabr ayında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirərək, "Sovet Sosialist" sözlərini oradan çıxardı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı o vaxt Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın dövlət bayrağı kimi elan edilmişdir və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılmışdır ki, burada da bu addım atılsın. Əfsuslar olsun ki, bunu etmədilər. 1991-ci ilin əvvəllərində Sovet İttifaqının saxlanılmasına dair Azərbaycanda referendum keçiriləndə Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə referendum keçirilməmişdir. Bütün bu addımlar müstəqillik yolunda atılan addımlardır. Digər tərəfdən bütün bu addımlar onu göstərir ki, ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təşəbbüskarıdır, onun banisidir.

Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə deyildi. Əgər olsaydı, biz böyük itkilərlə üzləşməzdik. Müstəqilliyimizin birinci dövrü faciəvi dövr idi. 1991-1993-cü illərdə Azərbaycan çox böyük problemlərlə, itkilərlə üzləşmişdir. Bu dövrü iki mərhələyə bölmək olar. Birinci mərhələ 1991-ci ilin oktyabr ayından 1992-ci ilin yay aylarına qədər olan dövrdür. Bu dövr itirilmiş imkanlar, itkilər dövrü idi. Ermənistan Azərbaycana qarşı təcavüzə başlamışdı, azərbaycanlılar Dağlıq Qarabağdan qovulurdular. 1992-ci ilin may ayında Şuşanın və Laçın rayonunun işğal altına düşməsi böyük itki, böyük faciə idi.

O illərdə dövlətçiliyin əsasları qurulmamışdı, ekstremist elementlərə qarşı ciddi mübarizə aparılmamışdı, nizami ordu yaradılmamışdı, cəmiyyətdə milli həmrəylik, milli

birlik yox idi. Bütün bu amillərdən, xüsusilə Şuşanın və Laçın rayonunun işğal altına düşməsindən istifadə edərək, - halbuki bu rayonların işğal altına düşməsində bilavasitə AXC-Müsavat qruplaşmasının rolu vardı, - bu qruplaşma hakimiyyəti qanunsuz olaraq zəbt etmişdi və birinci dövrün ikinci dəhşətli mərhələsi başlamışdı.

1992-ci ilin yay aylarından 1993-cü ilin iyun ayına qədərki dövr biabırçılıq, rüsvayçılıq, fəlakət dövrü idi. Hakimiyyəti qanunsuz olaraq zəbt etmiş AXC-Müsavat qruplaşması ölkəmizi uçuruma aparırdı. Kəlbəcər rayonunun 1993-cü ilin aprel ayında işğal altına düşməsindən sonra Dağlıq Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı. Azərbaycanın daxilində gedən proseslər ölkəmizi çökdürürdü. İqtisadi böhran yaşanırdı, sənaye demək olar ki, iflic vəziyyətə düşmüşdü. O vaxtkı hakimiyyət ancaq öz maraqlarını təmin etmək üçün çalışırdı. O vaxt korrupsiya, rüşvətxorluq son həddə çatmışdı. Ölkəmizdə qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakının küçələrində əlisilahlı adamlar dəstə-dəstə gəzirdi, insanları incidirdi. Baxmayaraq ki, Ermənistan ilə qanlı döyüşlər gedirdi AXC-Müsavat qruplaşması Azərbaycanda öz hakimiyyətini saxlamaq üçün vətəndaş müharibəsinə başlamışdı. Gəncə şəhəri onlar tərəfindən bombalanmışdı, qardaş qanı axıdılmışdı və bunun nəticəsində biz daha da böyük itkilərlə üzləşdik.

Cəmi bir il ərzində AXC-Müsavat qruplaşmasının yarıtmaz, xəyanətkar fəaliyyəti nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini itirmək ərəfəsində idi və tarix sanki təkrarlanırdı. 1918-ci ildə əldə edilmiş müstəqilliyi 1920-ci ildə itirdik - 2 il ərzində. Bu dəfə də 2 ildən sonra artıq buna çox yaxın idik. Əgər o vaxt xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycanın taleyi çox ağır, acınacaqlı ola bilərdi. Onu da qeyd etməliyəm ki, Heydər Əliyevi Naxçıvanda devirmək, o cümlədən silahlı desant göndərmək istəyən AXC-Müsavat qruplaşması özü də ağır vəziyyətə düşəndən sonra Heydər Əliyevə müraciət etdi, onu Bakıya dəvət etdi ki, onların canlarını qurtarsın. Naxçıvana üç dəfə təyyarə göndərmişdilər. Heydər Əliyev Bakıya gəlməklə, ilk növbədə, Azərbaycan xalqının iradəsinə öz hörmətini göstərdi. O, böyük dövlət adamı, vətənpərvər insan kimi o ağır anlarda Bakıya gəldi və ondan sonra Azərbaycanda inkişaf dövrü başlamışdır. 1993-cü il dönüş ili idi. İyun ayında Heydər Əliyev Ali Sovetin sədri seçilmişdir və vəziyyət yavaş-yavaş inkişafa doğru getməyə başlamışdır. İlk növbədə, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, ordu quruculuğunda ciddi addımlar atıldı, dövlətçiliyin əsasları qoyuldu, sabitlik təmin edildi. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul olundu. Ölkəmizdə çox ciddi siyasi islahatlar aparılmağa başlanmışdır. Onu da qeyd etməliyəm ki, əslində, müasir Azərbaycanda siyasi sistemin formalaşmasında Yeni Azərbaycan Partiyasının xüsusi yeri vardır.

1992-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaradılmışdır və siyasi mübarizə nümunəsini göstərmişdir. Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə aparılmış siyasi islahatlar demokratiyanın inkişafına, insan haqlarının qorunmasına hesablanmışdır. Azərbaycan o illərdə beynəlxalq təcriddən çıxa bilmişdir. Çünki ölkəmiz haqqında dünyada informasiya yox idi. Ermənistan erməni lobbisinin imkanlarından istifadə edərək bizə qarşı qarayaxma kampaniyası aparırdı. Bizim isə cavab vermək, reallığı dünya birliyinə çatdırmaq üçün imkanlarımız yox idi. Yəni, beynəlxalq təcridə, informasiya mühasirəsinə son qoyuldu.

Azərbaycanda iqtisadi islahatlara start verildi və bazar iqtisadiyyatı prinsipləri bərqərar oldu. Xarici siyasət prioritetləri məhz o illərdə müəyyən edildi. Azərbaycan müasir dünyəvi dövlət kimi öz inkişafına başladı. Yəni, məhz o illərdə ölkəmizin gələcəyi ilə bağlı strateji addımlar atılmışdır. Bu gün tarix göstərir ki, bu, yeganə düzgün yol idi.

Azərbaycan o vaxt çətin iqtisadi vəziyyətlə üzləşmişdi. Bizim sənayemiz demək olar ki, dağılmışdı, inflyasiya minlərlə faizlə ölçülürdü. Əlbəttə, belə vəziyyətdə xarici sər-

maya olmadan ölkə iqtisadiyyatı inkişaf edə bilməzdi. İqtisadiyyat inkişaf edə bilməsə, təbii ki, ölkə müstəqil həyat sürə bilməzdi. Ona görə 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə "Əsrin kontraktı" imzalanmışdır ki, artıq o vaxtdan 22 il ötür. Amma bu gün də "Əsrin kontraktı" ölkəmizin inkişafında, güclənməsində öz rolunu oynayır. Azərbaycan tarixdə ilk dəfə olaraq Xəzər dənizini xarici investorlara təqdim etdi. Azərbaycana milyardlarla dollar həcmində investisiya qoyuldu və ölkəmiz inkişaf etməyə başladı. 1996-cı ildə "Şahdəniz" qaz yatağının işlənilməsi üzrə kontrakt imzalanmışdır. Bu gün həm Azərbaycanın, həm regionun və müəyyən dərəcədə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında "Şahdəniz" yatağının xüsusi yeri var.

Azərbaycan 1993-2003-cü illərdə öz inkişaf və sabitlik dövrünü yaşayırdı. Bu, müstəqilliyimizin ikinci dövrü idi. Bir daha qayıdıram müstəqilliyimizin ilk illərinə. Əgər o vaxt Heydər Əliyev kimi dahi şəxsiyyət - millətə canı, qanı ilə bağlı olan insan hakimiyyətdə olsaydı, biz o bəlalarla üzləşməyəcəkdik. Ancaq tarix tarixdir. Biz tarixi dəyişdirə bilmərik. Bizim əsas vəzifəmiz ondan ibarətdir ki, ölkəmizi irəliyə aparaq, gücləndirək və müsbət meyillər əsasında inkişafı təmin edək.

Bu baxımdan 2003-cü il, hesab edirəm ki, müstəqil tariximiz üçün də xüsusi əhəmiyyət daşıyır. Çünki 2003-cü ildə ölkənin bundan sonra hansı yolla gedəcəyi haqqında Azərbaycan xalqı öz qərarını verdi: Heydər Əliyev siyasətimi davam edəcək, yoxsa ki, yenə Azərbaycan bəlalarla, fəlakətlərlə üzləşəcək?! Azərbaycan xalqı həmişə olduğu kimi, müdrikliyini göstərərək Heydər Əliyev siyasətinə öz səsini verdi. Onu da qeyd etməliyəm ki, 1993-cü ildə AXC-Müsavat qruplaşmasının iflasının əsas mənbəyi Azərbaycan xalqının iradəsi olmuşdur. Cəmi bir il xalq bunların yarıtmaz fəaliyyətinə dözə bilmişdir və Azərbaycan xalqı bu ləkəni tariximizdən yumaq üçün o hakimiyyətə son qoydu. O vaxtdan bu günə qədər o hakimiyyət tarixin zibilxanasındadır.

Qeyd etdiyim kimi, 2003-cü il seçim ili idi. Bugünkü Azərbaycan reallıqları onu göstərir ki, yenə də Azərbaycan xalqı düzgün seçim etmişdir. 2003-cü ildən bu günə qədər Azərbaycanda sürətli inkişaf dövrü yaşanır, Heydər Əliyev siyasəti davam etdirilir. Bu, müstəqilliyimizin üçüncü dövrüdür. Bu üçüncü dövr ikinci dövrün məntiqi davamıdır.

Bu illər ərzində Azərbaycan bütün istiqamətlər üzrə çox böyük uğurlara imza atdı. Bizim beynəlxalq əlaqələrimiz genişləndi. Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir. İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Bu mövqe daha çox beynəlxalq dəstək qazanır. Artıq dünya ictimaiyyəti bilir ki, reallıq nədən ibarətdir. Yəni, bizim torpaqlarımız işğal altındadır. BMT Təhlükəsizlik Şurasının, digər təşkilatların qətnamələri icra edilmir. Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüquq əsasında həll edilməsi bizim prinsipial mövqeyimizdir. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir.

Beynəlxalq münasibətlər istiqamətində bizim hörmətimizi əks etdirən tarixi hadisə bir neçə il bundan əvvəl baş vermişdir. Biz BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Bu hadisə təkcə ona görə önəmli deyil ki, biz dünyanın ali orqanına seçildik və orada iki dəfə sədrlik etdik. Ona görə önəmlidir ki, dünyanın 155 ölkəsi bizə səs verdi, özü də çox ağır mübarizə şəraitində. Bəzi qüvvələr bizə qarşı birləşmişdi və imkan vermək istəmirdilər ki, Azərbaycan seçilsin. Yəni, biz o yerə böyük çətinliklə sahib olduq. Bu da daha bir göstəricidir. Yəni, dünya birliyi deyəndə biz bütün ölkələri nəzərdə tuturuq. Dünya birliyi bu gün bizi dəstəkləyir.

Biz 2003-cü ildən bu günə qədər iqtisadi sahədə analoqu olmayan inkişaf dövrünü keçmişik və yaşayırıq. İqtisadiyyat üç dəfə artmışdır. Heç bir başqa ölkədə bu qısa müddət ərzində iqtisadiyyat üç dəfə artmayıb. Sənaye istehsalı da üç dəfə artmışdır. Biz yoxsul-

luğa son qoyduq. Təxminən 50 faiz səviyyəsində olan yoxsulluq 5 faizə düşüb. İşsizlik ilə çox ciddi mübarizə aparılır. İşsizlik çox aşağı səviyyədədir. Azərbaycan regionlarının inkişafına start verildi. Dövlət proqramları icra edilməyə başlamışdır və bunun nəticəsində bölgələrdə 1 milyon 300 mindən çox iş yeri yaradılmışdır. Bölgələr canlandı, şəhərlərimiz abadlaşdı, müasir infrastruktur layihələri icra edildi. Biz elektrik enerjisini, qazı idxal edən ölkədən ixrac edən ölkəyə çevrildik. Azərbaycanda sosial məsələlərin həllinə çox böyük diqqət göstərilirdi və göstərilir. Maaşlar, pensiyalar son 13 il ərzində dəfələrlə artmışdır. Sosial infrastruktur layihələri icra edilir. Üç mindən çox məktəb, 600-dən çox tibb ocağı, bölgələrdə 40-dan çox İdman Olimpiya Mərkəzi tikilmişdir. Bütün bunlar son illər ərzində əldə edilmiş nailiyyətlərdir.

Biz texnoloji inkişafa doğru gedirik. Bu gün Azərbaycan kosmik klubun məhdud sayda üzvlərindən biridir. İki peykimiz var, üçüncü peyk də yaxın zamanlarda istifadəyə veriləcək.

Regional əməkdaşlıq məsələlərinin həllində Azərbaycan çox önəmli bir ölkəyə çevrilibdir. Bizim təşəbbüsümüzlə icra edilən böyük enerji layihələri son illər ərzində daha da geniş miqyasa çıxıb. Artıq bu, qitələrarası enerji layihələridir. Xüsusilə "Cənub" qaz dəhlizini qeyd etməliyəm.

Onu da qeyd etməliyəm ki, bu dəhliz 2006-cı ildə və 2007-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin əsasında yaradılır. Əgər o kəmərlər yaradılmasaydı, "Cənub" qaz dəhlizi də yaradılmazdı. Bu gün dünyanın ən böyük enerji layihələrindən biri olan "Cənub" qaz dəhlizi uğurla icra edilir. Biz "Şahdəniz-2" layihəsinin icrasında artıq son mərhələyə yaxınlaşırıq. Layihənin icrası artıq 83 faiz təşkil edir. TANAP layihəsinin icrası təqribən 40 faizə yaxındır. Biz bu nəhəng enerji, iqtisadi layihəni uğurla icra edirik. Bu, bizə gələcəkdə çox böyük əlavə iqtisadi dividendlər gətirəcək. Biz zəngin qaz ehtiyatlarımızı etibarlı yollarla dünyanın ən böyük, bizim üçün ən yaxın bazarlarından biri olan Avropa bazarına çıxarırıq. Bizim enerji siyasətimiz dünya tərəfindən yüksək qiymətləndirilir. Biz beynəlxalq əməkdaşlıq formatını yaratmışıq və bu formatı genişləndiririk.

"Cənub" qaz dəhlizi tarixi layihədir. Bu, bizim uğurlu gələcək inkişafımızı müəyyən edəcək. Bununla bərabər, biz iqtisadiyyatımızın digər sektorlarının inkişafı ilə bağlı çox ciddi addımlar atırıq. Xüsusilə son müddət ərzində Azərbaycanda sənayenin, kənd təsərrüfatının inkişafı artır. Baxmayaraq ki, dünyanın iqtisadi böhranı davam edir, biz bu istiqamətdə də çox ciddi addımlar atmışıq. Əminəm ki, yaxın illərdə qeyri-neft sektorunun inkişafı daha da sürətlə gedəcək. Bu gün iqtisadiyyatımızın təxminən 70 faizi qeyri-neft sektorunda formalaşır. Biz indi ixracın şaxələndirilməsi ilə ciddi məşğuluq. Elə etməliyik ki, neftdən, qazdan asılılıq minimum səviyyəyə endirilsin.

Azərbaycanda idarəçilikdə ciddi islahatlar, xoşagəlməz hallara qarşı mübarizə aparılır. Korrupsiya, rüşvətxorluq bizim uğurlu inkişafımızı əngəlləyən əsas bəlalardır. Bu istiqamətdə də institusional tədbirlərin görülməsi öz gözəl nəticəsini verməkdədir. Biz artıq dünyaya intellektual məhsul təqdim edirik, hətta ixrac edirik. "ASAN xidmət" bizim məhsulumuzdur. Artıq bu xidmətə 12 milyon müraciət olmuşdur, 4 milyona yaxın insan bu imkanlardan istifadə edir və indi başqa ölkələrdə bu təcrübə öyrənilir. Biz gələcəkdə də dünya bazarlarına şaxələndirilmiş ixrac imkanlarımızı təqdim etməliyik. O cümlədən intellektual məhsulun ixracı xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan bu gün dünyada çox etibarlı tərəfdaş kimi tanınır. Çünki bizim iştirak etdiyimiz bütün layihələr əməkdaşlığa hesablanıb. Biz hesab edirik və həyat göstərir, düz hesab edirik ki, ölkələr arasındakı əməkdaşlıq bəzi problemləri aradan götürə bilər. Enerji siyasətimiz xoşniyyətlidir. Bundan heç vaxt hansısa başqa məqsəd üçün istifadə etmə-

mişik. Bütün digər regional təşəbbüslər də əməkdaşlığa hesablanır, o cümlədən nəqliyyat sahəsində. Biz bu gün "Şərq-Qərb" dəhlizinin yaradılmasında fəal rol oynayırıq. Bakı-Tbilisi-Qars dəmir yolu yaxın aylarda istismara veriləcək. Beləliklə, biz özümüzü daha da gözəl imkanlarla təmin etmək üçün Avropanı Asiya ilə birləşdiririk. Çünki bu dəhliz bizə çox böyük iqtisadi mənfəət gətirəcək. Bu dəhlizdən keçən yüklərin həcmi on milyonlarla ton səviyyəsində olacaq. Bununla bərabər, biz "Şimal-Cənub" dəhlizini də yaradırıq. Yenə də təşəbbüs göstərmişik, yenə də regional əməkdaşlıq formatını təqdim etmişik və bu, artıq yaradılıb. Bu da bizə əlavə on milyonlarla ton yük daşımaq imkanları verəcək.

Bax, budur neft amilindən asılılığı azaltmaq, qeyri-neft sektorunun inkişafı. Coğrafi vəziyyətimizdən istifadə edərək biz bu layihələri ortaya qoyuruq və onları icra edirik.

Qonşularla münasibətlər ən yüksək səviyyədədir. Heç bir problemimiz yoxdur. Belə də olmalıdır. Əgər hər bir ölkə bizim kimi qonşularla münasibətləri qura bilsəydi, dünyada heç bir müharibə baş verməzdi. Müharibələrin əsas səbəbi ondan ibarətdir ki, qonşular bir-biri ilə yola getmir. Yenə də deyirəm, əgər 1990-cı illərin əvvəllərində ulu öndər Heydər Əliyev hakimiyyətdə olsaydı, heç vaxt Ermənistan-Azərbaycan müharibəsi başlamazdı. Biz heç vaxt buna imkan verməzdik. Ancaq bu gün biz bu problemi həll etməliyik. Bunun həm diplomatik yolları var, həm digər yolları. Biz ordu quruculuğu istiqamətində çox böyük addımlar atmışıq. Bu gün beynəlxalq ekspertlər də qeyd edirlər ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Biz bunu bilirdik, ancaq bu gün bunu bütün dünya bilir. Bu ilin aprelində təmas xəttində baş vermiş hadisələr Azərbaycan Ordusunun gücünü bir daha göstərdi. Bizim ordumuz əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etdi. Orada indi Azərbaycan bayrağı dalğalanır. Bu, bizim gücümüzü göstərir. Biz gücümüzü bilirik, gücümüzə əminik və düşmənin istənilən hədəfini məhv edə bilərik. Sadəcə olaraq çalışırıq ki, məsələ sülh yolu ilə həll edilsin.

Azərbaycan son illər ərzində dünya miqyasında multikulturalizm mərkəzinə çevrilib. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, dünya forumları, sivilizasiyalararası, humanitar, mədəniyyətlərarası dialoq forumları bunu göstərir. Biz nəinki ölkə daxilində bu məsələləri lazımi səviyyədə tənzimləyirik, eyni zamanda, bir çox ölkələr üçün yol göstəririk. Biz istəyirik ki, bu nümunədən istifadə etsinlər. Əgər etsələr yenə də gərginlik azalar. Çünki bir çox hallarda müharibələr dini və məzhəb zəminində aparılır. İndi yan-yörə, hər tərəf alovlanır, yanır. Azərbaycanda sabitlik hökm sürür, inkişaf dinamikası güclənir. Bizim ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri özlərini rahat hiss edirlər. Onlar hamısı bizim qardaşlarımızdır, dəyərli vətəndaşlarımızdır. Bu da bir nümunədir. Bu, böyük bir sərvətdir. Biz bu sərvəti qoruyuruq. Ümumiyyətlə, ölkəmizi bütün bəlalardan qoruyuruq. Heç kimin işinə qarışmırıq və qoymuruq ki, kimsə bizim işimizə qarışsın. Ancaq xoş niyyət göstəririk. Ancaq hər bir məsələ ilə, xüsusilə bizi maraqlandıran məsələ ilə bağlı prinsipial mövqeyimiz həmişə ifadə olunur. Bizim siyasətimiz güzəştsiz siyasətdir. Biz prinsipial məsələlərlə bağlı heç kimə güzəştə getməmişik və getməyəcəyik. Müstəqil, ləyaqətli siyasət aparırıq, öz gücümüzə, xalqın dəstəyinə güvənirik. Xalq da bizim siyasətimizə öz dəstəyini göstərir. Bu yaxınlarda - ötən ay keçirilmiş referendumda Azərbaycan xalqı bizim siyasətimizə öz dəstəyini bir daha ifadə etdi. Referendumun nəticələrinin əsas mahiyyəti bundan ibarətdir. Biz düzgün yoldayıq. Bu yol inkişaf yoludur, müstəqillik yoludur. Ötən 25 ilin 23 ili şanlı tarix illəridir. Bu gün Azərbaycan dünya miqyasında müasir, sürətlə inkişaf edən, gözəl, qonaqpərvər, ləyaqətli ölkə kimi tanınır.

İyirmi beş il böyük tarixdir. Biz artıq bütün dünyaya sübut etmişik ki, müstəqil həyat yaşaya bilərik, uğurla yaşaya bilərik. Bizim gözəlləşən şəhərlər, abadlaşan regionlar və dünyanın ən gözəl şəhərlərindən biri olan Bakı bunun əyani sübutudur.

Biz gələcəkdə bu yolla gedəcəyik, müstəqil siyasət aparacağıq. Xalqın iradəsi əsasında irəli gedəcəyik. Müstəqilliyimiz dönməzdir, əbədidir. Müstəqilliyimizin möhkəmlənməsində bütün Azərbaycan xalqına yeni uğurlar arzulayıram.

Yaşasın müstəqil Azərbaycan Respublikası!

* * *

Rəsmi qəbul konsert proqramı ilə davam etdi.

*17 oktyabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV AĞSTAFA RAYONUNA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağstafa Rayon Mədəniyyət Mərkəzində əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.

Bu gün digər sahələr kimi mədəniyyət sahəsi də dövlətimizin yüksək qayğısı ilə əhatə olunub. Azərbaycanda mədəniyyət sahəsinə dövlət səviyyəsində gündən-günə güclənən qayğı bu gün özünü daha aydın büruzə verir. Bu sahədə çalışanların iş şəraitini günün tələbləri səviyyəsinə çatdırmaq üçün məqsədyönlü tədbirlər uğurla davam etdirilir. Ağstafa Rayon Mədəniyyət Mərkəzinin əsaslı şəkildə yenidən qurulması bu qəbildən olan tədbirlərdəndir. Bu cür layihələrin paytaxtla yanaşı, regionlarda da geniş vüsət alması, ümumilikdə, respublikamızda mədəniyyət sahəsinin inkişafına töhfə verir.

Dövlətimizin başçısı Mədəniyyət Mərkəzinin binasında yaradılan şəraitlə tanış oldu.

Azərbaycan Prezidentinə məlumat verildi ki, Ağstafa Rayon Mədəniyyət Mərkəzinin yerləşdiyi bina 1950-ci ildə inşa edilib. Ötən müddətdə binada əsaslı təmir işləri aparılmadığından tikili köhnəlib və qəzalı vəziyyətə düşüb. Prezident İlham Əliyevin 2014-cü il 30 iyun tarixli Sərəncamı ilə başlanan əsaslı təmir işləri nəticəsində bina tamamilə yenilənib. Binada yenidənqurma və təmir işləri 2015-ci ilin dekabrında başa çatıb. Mərkəzin əsas tamaşa salonu tamamilə yenilənib və genişləndirilərək 220 yerlik olub. Salonda müasir oturacaqlar quraşdırılıb və yüksək standartlara uyğun səhnə yaradılıb. Havalandırma sistemi ilə təchiz olunan binanın ümumi sahəsi 680 kvadratmetrdir. Burada kafe, inzibati, yardımçı otaqlar və qrim otaqları, həmçinin kitabxana fəaliyyət göstərir. Mərkəzin yerləşdiyi Eyvaz Qələmçəli və Nüsrət Kəsəmənli küçələrində əsaslı təmir işləri aparılıb, müasir işıqlandırma sistemi yaradılıb, səkilərə dekorativ daş döşənib, asfalt örtüyü yenilənib.

*19 oktyabr 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AĞSTAFADA MUSİQİ MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Ağstafa şəhərində Musiqi Mərkəzinin açılışında iştirak edib.

Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Son dövrlərdə bölgələrdə müasir tipli yeni mədəniyyət infrastrukturları yaradılır. Bu, özünü mövcud mədəniyyət və incəsənət obyektlərinin yenidən qurulmasında və yeniləri-

nin inşasında aydın göstərir. Ağstafada müasir üslubda inşa edilən Musiqi Mərkəzi də bu sırada mühüm yer tutur.

Qeyd edək ki, bu mərkəz 1970-ci ildə yaradılıb və indiyədək şəhər 1 saylı tam orta məktəbin yardımçı və təsərrüfat otaqlarında fəaliyyət göstərirdi. Yeni binada zəngin musiqimizin, musiqi alətlərimizin sirlərinə dərindən yiyələnmək üçün hərtərəfli şərait var. Musiqi Mərkəzinin inşası həm də gələcəyimiz olan uşaqların asudə vaxtlarının səmərəli təşkili baxımından vacib layihələrdən hesab olunur. Zövqlə tikilən binada işlərin keyfiyyətlə həyata keçirilməsinə xüsusi diqqət yetirilib. Binanın ətrafında park salınıb, geniş abadlıq və yaşıllaşdırma işləri görülüb, açıq konsert meydançası yaradılıb, suvarılma və işıqlandırılma sistemləri quraşdırılıb.

Mərkəzin binası Prezident İlham Əliyevin 2014-cü il 30 iyun tarixli Sərəncamına uyğun olaraq inşa edilib. Qədim musiqi aləti olan ud formasında inşa edilən mərkəzin 300 şagird yerlik binası 3 mərtəbədən ibarətdir. Binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub, Ümummilli Liderin və dövlətimizin başçısı İlham Əliyevin rayona səfərlərini və mədəniyyət sahəsinə diqqətini əks etdirən şəkillərdən ibarət fotostend yaradılıb. Mərkəzdə Azərbaycanın görkəmli bəstəkarlarının portretləri də asılıb. Yeni binada 39 sinif, qrup və məşğələ otağı var. Burada xor zalı, kitabxana və mətbəx-kafe də şagirdlərin ixtiyarına veriləcək.

Prezident İlham Əliyev mərkəzdə yaradılan şəraitlə tanış oldu.

Dövlətimizin başçısına məlumat verildi ki, hazırda Ağstafa şəhər Musiqi Mərkəzində 90 müəllim çalışır və 269 şagird təhsil alır. Burada təhsil müddəti 5 və ya 7 ildir. Təhsil ocağında 400 yerlik müasir konsert zalı yaradılıb. Mərkəz yeni musiqi alətləri və inventarla təchiz edilib. Ümumi tikinti sahəsi 2400 kvadratmetrə yaxın olan bina mərkəzi isitmə sistemi ilə təchiz olunub, müasir havalandırma qurğuları quraşdırılıb.

Prezident İlham Əliyev şagirdlərin ifasını dinlədi.

Sonda xatirə şəkli çəkdirildi.

*19 oktyabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV AĞSTAFADA ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULAN HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Ağstafaya səfəri çərçivəsində əsaslı şəkildə yenidən qurulan Heydər Əliyev Mərkəzində yaradılan şəraitlə tanış olub.

Respublikamızda bütün sahələrin inkişafında, dövlətimizin beynəlxalq nüfuzunun artmasında, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin zəngin irsi ölkəmizin bütün bölgələrində öyrənilir. Ümummilli Liderin xalqımız qarşısındakı tarixi xidmətlərini daha dərindən öyrənmək məqsədi ilə Ulu Öndərin adını daşıyan muzeylər və mərkəzlər müstəsna əhəmiyyətə malikdir. Son dövrlərdə bir çox bölgələrdə bu cür mərkəz və muzeylər istifadəyə verilib. Bu baxımdan Ağstafada əsaslı şəkildə təmir edilərək yenidən qurulan Heydər Əliyev Mərkəzi də xüsusi rola malikdir.

Ağstafada Heydər Əliyev Mərkəzinin inşasına 2008-ci ilin fevralında başlanılıb və həmin ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə açılışı olub. Mərkəzin binasında 2016-cı ilin yanvar-fevral aylarında əsaslı təmir və yenidənqurma işləri aparılıb.

Əsaslı yenidənqurma işləri çərçivəsində mərkəzin dam örtüyü, havalandırma sistemi təzələnib. Mərkəzin 320 tamaşaçı yerlik açıq konsert meydanı yaradılıb. Dördmərtəbəli

binanın foyesində ulu öndər Heydər Əliyevin barelyefi qoyulub. Mərkəzdə Ümummilli Liderin həyat və fəaliyyətini əks etdirən fotolardan ibarət ekspozisiya zalları yaradılıb. Zallarda dahi şəxsiyyətlə bağlı bir-birindən maraqlı fotolar, sənədlər və digər eksponatlar nümayiş olunur. Burada Ulu Öndərin uşaqlıq, gənclik, tələbəlik illərində, həmçinin müxtəlif vəzifələrdə çalışdığı dövr və Ağstafaya səfərləri, rayon zəhmətkeşləri ilə görüşləri zamanı çəkilən fotoları maraqla qarşılanır.

Aparılan əsaslı təmir işləri nəticəsində mərkəzin funksionallığı daha da artırılıb. Mərkəzdə "Saloğlu" mebel və "Akkord" tikiş fabriklərinin sərgi salonları açılıb.

Burada yaradılan 400 yerlik akt zalı müasir akustika avadanlığı ilə təchiz olunub. Akt zalında rayon əhəmiyyətli mühüm tədbirlərin keçirilməsi üçün hərtərəfli şərait yaradılıb. Mərkəzdə nikah mərasimləri üçün otaq, memarlıq, incəsənət, reklam, xalçaçılıq studiyaları fəaliyyət göstərəcək. Bundan başqa, burada distant təhsil, ekoturizm, uşaq yaradıcılığı və informasiya mərkəzləri, rəqs studiyası, rəsm qalereyası və dil kursları da yaradılıb. Kiçik kino zalı, 30 və 70 yerlik konfrans zalları da rayon sakinlərinin ixtiyarına veriləcək. Mərkəzin bütün inzibati otaqları zəruri avadanlıqla təchiz olunub.

*19 oktyabr 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAX RAYONUNA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ TARİX-DİYARŞÜNASLIQ MUZEYİNİN YENİ BİNASININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qazax Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının açılışını edib.

Dövlətimizin başçısı əvvəlcə binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, 1984-cü ildə yaradılan muzey müasir tələblərə cavab verməyən birmərtəbəli binada fəaliyyət göstərirdi. Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının inşasına 2015-ci ilin noyabr ayında başlanılıb və 2016-cı ilin oktyabrında tikinti işləri başa çatdırılıb.

Binanın tikinti sahəsi 432,6 kvadratmetr, ümumi sahəsi 1728 kvadratmetrdir. Muzeyin ikimərtəbəli binasında rayonun təbiətini və tarixini əks etdirən 2450 eksponat mühafizə olunur.

Binanın birinci mərtəbəsində ümummilli lider Heydər Əliyevin və Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətini əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Həmçinin bu mərtəbədə Muzey barədə ümumi məlumat, təbiət, arxeologiya, qədim daş dövrü, orta əsrlər və "bəy evi" bölmələri var.

Tarix-Diyarşünaslıq Muzeyinin ikinci mərtəbəsində "Qazax xalça məktəbi", "Etnoqrafiya və folklor", "Qazax XIX-XXI əsrin əvvəllərində", "Səməd Vurğun", "Görkəmli şəxsiyyətlər", "1929-1990-cı illər", "Müasir dövr" və "Azərbaycan XXI əsrdə" bölmələri yaradılıb. Burada Qazaxın qədimdən bu günədək keçdiyi inkişaf yolu, təbiəti, mədəniyyəti, adət-ənənəsi, məişəti, tanınmış insanları haqda maraqlı məlumatlar və eksponatlar toplanıb.

Binanın mansardasında isə iş otaqları, konfrans zalı, kitabxana, mətbəx və kafe yaradılıb.

Muzeyin binası müasir havalandırma sistemi və müşahidə kameraları ilə təchiz edilib.

*19 oktyabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV BEYLƏQANDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonuna səfərini başa çatdıraraq Beyləqan rayonuna gəlib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Beyləqan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev Prezident İlham Əliyevə son vaxtlar rayonda görülən işlər, həyata keçirilən layihələr, o cümlədən abidənin yerləşdiyi Heydər Əliyev Parkında yaradılan şərait barədə məlumat verdi. Bildirildi ki, burada sakinlərin və qonaqların istirahəti üçün hər cür şərait yaradılıb, yaşıllıqlar salınıb.

*12 noyabr 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYLƏQANDA BAYRAQ MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı Bayraq Muzeyinin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, muzeyin inşası cari il ərzində aparılıb. Rayonun daxili imkanları hesabına həyata keçirilən layihə çərçivəsində ümumi sahəsi 420 kvadratmetr olan bina tikilib. Zəruri infrastrukturla təchiz olunan muzeydə 129 eksponatın sərgilənməsi üçün hər cür şərait yaradılıb. Bayraq Muzeyində tariximizin müxtəlif dövrlərinə aid eksponatlar, Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin bayraqları, gerbləri, xəritələr, konstitusiyalar, orden və medallar, bir sözlə, müxtəlif dövlət rəmzləri qorunur.

Azərbaycan Xalq Cümhuriyyətinə aid əsginaslar, Azərbaycan Respublikasının poçt markaları, müxtəlif güc nazirliklərinin zabitlərinin hərbi geyim formaları da burada sərgilənir. Muzeydə müstəqillik dövrümüzün tarixi hadisələrinə də geniş yer verilib.

Muzeydə nümayiş etdirilən eksponatlar həm Beyləqan gənclərində, həm də rayona gələn qonaqlarda Azərbaycanın şanlı tarixi haqqında təsəvvür yaratmağa geniş imkanlar açır.

*12 noyabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV HORADİZ ŞƏHƏRİNDƏ DÖVLƏT RƏSM QALEREYASININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Bu gün Azərbaycanda bütün sahələrdə olduğu kimi, mədəniyyətin inkişafı ilə bağlı ciddi addımlar atılır. İndi paytaxtla yanaşı, regionlarda da mədəniyyət ocaqları əsaslı təmir edilir və yeniləri tikilir. Bölgələrdə müasir tipli yeni mədəniyyət infrastrukturunun yaradılması isə, ilk növbədə, bu sahənin regionlarda hərtərəfli inkişafına stimul verir. Bütün bu tədbirlər bir daha onu göstərir ki, qədim və zəngin mədəni dəyərlərə malik olan Azərbaycanda mədəniyyət məsələləri daim diqqətdə saxlanılır. Horadiz şəhərində Dövlət Rəsm Qalereyasının yaradılması da ölkədə mədəniyyət və incəsənətin inkişafına göstərilən diqqətin daha bir nümunəsidir.

Prezident İlham Əliyev qalereya binasının rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.

Diqqətə çatdırıldı ki, binanın sahəsi 324 kvadratmetrdir. Burada ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin müxtəlif illərdə Füzuli rayonuna səfərlərini əks etdirən fotolardan ibarət guşə yaradılıb. Qalereyanın ikimərtəbəli binasında rəsm əsərlərinin nümayiş etdirilməsi üçün sərgi zalı fəaliyyət göstərir.

Belə bir qalereyanın Füzuli rayonunda tikilib istifadəyə verilməsi rəsmlə maraqlanan, bu sahəyə həvəs göstərən gənclər üçün son dərəcə böyük əhəmiyyət daşıyır. Gələcəkdə qalereyanın fondunun zənginləşdirilməsi nəzərdə tutulub. Rəsm qalereyasında 25 nəfər daimi işlə təmin ediləcək.

***12 noyabr 2016-cı il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FÜZULİ XALÇA KOMBİNATININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Noyabrın 12-də Füzuli rayonunda “Azərxalça” ASC-nin ilk filialının - xalça kombinatının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kombinatın açılışında iştirak edib.

Azərbaycan xalçaları bütün dövrlərdə dünyanı heyran qoyub, milli naxışlarımızın şöhrəti dünyanı qarış-qarış gəzib, böyük diqqətə səbəb olub. Azərbaycan xalçalarının ta qədimlərdən başlayan şöhrəti bu gün yeni layihələrlə zənginləşir. Prezident İlham Əliyevin bu il imzaladığı Sərəncamla “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin yaradılması da məhz bu amildən qaynaqlanıb. ASC-nin əsas məqsədi xalça və xalça məmulatlarının istehsalı, onların ölkə daxilində və xaricdə satışının təşkili, istehsalatda yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsidir.

İqtisadiyyat naziri Şahin Mustafayev Prezident İlham Əliyevə məlumat verdi ki, ilkin mərhələdə “Azərxalça” ASC-nin Füzuli rayonu ilə yanaşı, Ağdam, Tovuz, Ağstafa, Qazax, Şəmkir, Quba, İsmayıllı, Xaçmaz, Qəbələ rayonlarında da filiallarının yaradılması nəzərdə tutulub. Hazırda bu rayonlarda filial binalarının tikintisinə başlanılıb. Yerlərdə “Azərxalça”nın xalçaçılıq üzrə hazırlıq-tədris kursları, ustad dərsləri təşkil edilib, işçi potensialının müəyyənləşdirilməsi və gücləndirilməsi üçün müvafiq tədbirlər görülüb.

“Azərxalça” ASC-nin idarə heyətinin sədri Vidadi Muradov dövlətimizin başçısına görülən işlərlə bağlı ətraflı məlumat verdi.

Bildirildi ki, Horadizdə yaradılan filial Azərbaycanın tarixi xalçaçılıq mərkəzlərindən olan Qarabağ xalçaçılıq məktəbini təmsil edəcək. Filialın ümumi sahəsi 586 kvadratmetr olan binasında 160 toxucu, 10 nəfər inzibati-təsərrüfat işçisi fəaliyyət göstərəcək. Bina toxuculuq emalatxanası, anbar, yeməkxana, tibb otağı və digər bölmələrdən ibarətdir. Emalatxanada 160 toxucu müxtəlif ölçülü 43 dəzgahda Qarabağın tarixi xalça çeşniləri əsasında xalçalar toxuyacaq. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında “Azərxalça”nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla təmin edilib. Toxucular həm Horadiz şəhərinin, həm də Füzuli rayonunun ayrı-ayrı kəndlərinin, o cümlədən hazırda işğal altında olan kəndlərin sakinlə-

ridir. Onlar bir neçə ay ərzində "Azərxalça"nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında mütəmadi iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər.

Dövlətimizin başçısı kombinatın işçiləri ilə söhbət etdi.

**İşçilər:** Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Xoş gördük. Necəsiniz? İşlər necədir?

**Mahnur Alıyeva**: Möhtərəm cənab Prezident, bütün füzulililər adından Sizi salamlayırıq və Sizə təşəkkürümüzü bildiririk ki, bizə belə müəssisə, belə iş yeri açmısınız. Hazırda 160 nəfər qadın burada işlə təmin olunub. Gün o gün olsun ki, işğal altındakı torpaqlarımız qaytarılsın və orada belə müəssisələr açılsın, bizim qarabağlı qadınlar Qarabağ xalçaları toxuyub nümayiş etdirsinlər.

**Prezident İlham Əliyev:** Mən çox şadam ki, artıq "Azərxalça" fəaliyyətə başlayır. Bilirsiniz ki, bir müddət bundan əvvəl mənim Sərəncamımla "Azərxalça" şirkəti yaradılmışdır. Bu qurumun əsas vəzifəsi Azərbaycanda xalçaçılığı inkişaf etdirmək, bizim tarixi mirasımızı qorumaq və eyni zamanda, ölkəmizdə güclü xalçaçılıq sənayesi yaratmaqdır. Bu məqsədlə bir çox rayonlarda, o cümlədən Füzuli rayonunda "Azərxalça"nın xətti ilə belə gözəl müəssisələr yaradılıb və yaradılır. Hamımız yaxşı bilirik ki, xalçaçılıq sənətini qadınlar yaşadırlar. Bu müəssisələrin yaradılması, fəaliyyətə başlaması qadınlar üçün iş yerlərinin açılması deməkdir. Bu da çox vacibdir. Çünki qadınlar üçün iş yerləri açmaq o qədər də asan məsələ deyil. Ancaq bu gün siz burada işləyirsiniz, yaxşı maaş alırsınız, həm ailə büdcəsinə bunun böyük töhfəsi olur, eyni zamanda, qədim sənətimiz yaşayır, yaşayacaq, gənc nəslə də siz öz təcrübənizi ötürəcəksiniz. Bununla bərabər, Azərbaycanın çox gözəl ixrac məhsulu olan xalça artıq dünya bazarlarına çıxacaq. Bu, həm ölkəmizin təbliğatına xidmət edəcək, həm də bütün dünya görəcək ki, xalqımız nə qədər istedadlı xalqdır. Digər tərəfdən, bu, ölkəmizə pul gətirəcək. Beləliklə, ölkə iqtisadiyyatı çoxşaxəli surətdə inkişaf edəcək. Bu müəssisənin fəaliyyəti nəticəsində ildə neçə xalça istehsal olunacaq?

**"Azərxalça" ASC-nin idarə heyətinin sədri Vidadi Muradov**: Cənab Prezident, bu müəssisədə dəzgahların əksəriyyəti Azərbaycan brendidir. Ayda 251 kvadratmetr xalça istehsal olunacaq. Qarabağın 16 rayonunun müxtəlif çeşniləri, tarixi ənənələri əsasında toxunulacaq. Biz üç ay ərzində burada tədris kursları təşkil etdik. Peşəkar ustalarımız bu kurslarda 160 nəfəri öyrətdilər. Bu yerlər bizə bir az azlıq edir. Biz düşünürük ki, filialları başqa yerlərdə də açmaq, genişləndirmək lazımdır.

**Prezident İlham Əliyev:** Bəli, genişləndirmək lazımdır.

**Vidadi Muradov:** Xalçaçılar çoxdur. Füzuli rayonunda 500-600 xalçaçı var.

**Prezident İlham Əliyev:** Bəli, onları da cəlb etmək lazımdır.

**Vidadi Muradov:** Biz istəyirik ki, hamısı xalçaçılıqla məşğul olsunlar və Azərbaycanın Qarabağ xalçaları dünyada nə qədər şöhrət tapıbsa, bu gün də bu Qarabağ xanımları, xalçaçıları ilə, cənab Prezident, Sizin də köməyiniz sayəsində yenə də dünyada öz şöhrətinə çatdıraq.

**Prezident İlham Əliyev:** Siz xalçaçılığı harada öyrənmisiniz?

**Röya Abbasova:** Bura mənim ilk iş yerimdir. Sağ olsun müəllimlərimiz, onlar öyrədiblər. İndi işə başlayırıq. Çalışırıq ki, öyrəndiklərimizi işdə tətbiq edək. İstəyirik ki, xalçalarımız yaxşı alınsın.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Mən gənc qızları görürəm və bizim peşəkar ustalarımız öz təcrübələrini onlarla bölüşəcəklər. Bəs siz bu vaxta qədər harada işləyirdiniz?

**Mahnur Alıyeva:** Bizim əvvəl işimiz olmayıb. İşlə indi təmin edilmişik.

**Prezident İlham Əliyev:** Yəqin ki, xalçaçılığı yaxşı bilirsiniz.

**Mahnur Alıyeva:** Bəli, bu, bizim nənələrimizdən qalan bir sənətdir. Bizim rayonumuzun bu sənətdə anlayışı olub. Mənim yaşadığım kəndin özünün xalçası olub – “Xanlıq” xalçası. Ancaq bir az unudulmuşdu. Sizin sayənizdə o, artıq bərpa olundu. Ona görə Sizə çox minnətdarıq. Çox sağ olun. Çalışacağıq ki, Sizin etimadınızı doğruldaq.

**Prezident İlham Əliyev:** Əlbəttə, bunun çox böyük mənası var. Biz bu qədim sənəti yaşadırıq. İndi biz haqlı olaraq hesab edirik ki, xalçaçılıq sənətinin vətəni Azərbaycandır. Bunu deməyə kifayət qədər əsaslar var. Digər tərəfdən bu, ənənəvi sənət növüdür. Nadir xalçalarımız var. Ona görə də bunu yaşatmalıyıq. Gənc nəsil də bu işlərə çox maraq göstərir. Bir daha qeyd etmək istəyirəm ki, həm dünyada Azərbaycanı geniş şəkildə təbliğ edəcəyik, həm də bu, böyük ixrac məhsuludur. Ona görə də bütün bu məsələləri həll etmək üçün “Azərxalça” yaradılmışdır və ilk müəssisə bu gün artıq fəaliyyətə başlayır.

* * *

Sonra dövlətimizin başçısı müəssisədə iş prosesini izlədi.

Sonda xatirə şəkilləri çəkdirildi.

*12 noyabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV QAFQAZ XALQLARI ALİ DİNİ ŞURASININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də “Qafqazda dini tolerantlıq ənənələri və Azərbaycanın multikulturalizm modeli” mövzusunda beynəlxalq konfransda iştirak edən Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham ƏLİYEV dedi:

-Sizi Azərbaycanda yenidən görməkdən çox şadam, xoş gəlmisiniz. Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Mən elə bu gün əvvəlki görüşlərimizi xatırlayırdım. Biz hər il görüşürük və bu görüşlər də həm bizim münasibətlərimiz üçün, həm də Rusiya-Azərbaycan münasibətləri, Qafqazda sabitlik, təhlükəsizlik üçün böyük əhəmiyyət daşıyır. Mənə bizim tarixi məscidlərimizin bərpadan sonra açılışında sizin iştirak etməyiniz çox xoşdur. Bu da həmrəyliyin, bizim dostluğumuzun göstəricisidir. Təbii ki, Şimali Qafqaz respublikalarını və Azərbaycanı böyük dostluq tarixi, qarşılıqlı hörmət, qarşılıqlı dəstək birləşdirir. Mən şadam ki, bu gün bu əlaqələr Qafqaz respublikaları arasında bütün səviyyələrdə, o cümlədən də dini liderlər arasında davam edir. Bu, Qafqaz müsəlmanlarının birliyini möhkəmləndirir və həmçinin dünya müsəlmanlarına bizim birlikdə olmağımızın vacibliyi üçün bir nümunədir. Biz müsəlman ölkələrində müsəlmanların bir-birini qırmasına, qardaş qanı axıdılmasına laqeyd baxa bilmərik. Düşünürəm ki, bizim praktiki işlərimizin və rəsmi bəyanatlarımızın nümunəsi hamı üçün yaxşı dərs olmalıdır. Biz öz fəaliyyətimizlə nəinki Qafqaz regionunda münasibətlərimiz çərçivəsində birliyi möhkəmləndiririk, həm də Azərbaycan dünyada bütün müsəlmanların həmrəyliyi üçün böyük işlər görür. Biz fəxr edirik ki, Bakıdan sonra artıq Azərbaycanın ikinci şəhəri Naxçıvan 2018-ci il ərzində ISESCO tərəfindən ona təqdim edilən İslam dünyasının mədəniyyət paytaxtı adını şərəflə daşıyacaq. Bu, əlbəttə ki, bizə, bizim fəaliyyətimizə olan hörmətin əlamətidir. Biz də İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal işləyirik. Bu il İslam Əməkdaşlıq Təşkilatının Sammiti keçirildi. Tədbirdə Azərbaycanın İslam həmrəyliyindəki roluna dəstək bir daha vurğulandı. Həmçinin dünyanın bütün müsəlmanları bu ilin aprelində erməni təcavüzünü pisləyiblər və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə kontakt qrupu yaradıblar.

Bu il sona yaxınlaşır. İlin əvvəlində biz 2016-cı ili “Multikulturalizm ili” elan etmişdik. Bugünkü konfransın mövzusu da Qafqazda multikulturalizmə, həmçinin Azərbaycanda bu sahədə əldə etdiyimiz nailiyyətlərə həsr olunub. Bu il bir çox mühüm tədbirlərin keçirilməsi ilə əlamətdar oldu. Onlardan ən əhəmiyyətlisi əlbəttə ki, Bakıda keçirilən və bütün dünyanın görkəmli nümayəndələrini toplayan BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu oldu. Biz bir daha nümayiş etdirdik ki, multikulturalizm millətindən, dinindən asılı olmayaraq yaşayır və yaşamalıdır və bütün insanlar dinc yaşamaq hüququna malikdirlər.

Bu il ölkəmizdə daha bir mühüm hadisə baş verdi. Bu, dünya katoliklərinin rəhbəri Roma Papasının Azərbaycana rəsmi səfəri idi. O, Katolik Kilsəsində ibadət etdi, sonra Heydər Məscidini ziyarət etdi, mötəbər şeyxlə, eləcə də digər dini konfessiyaların rəhbərləri ilə görüşü oldu. Roma Papası buradan, Bakıdan bütün dünyaya yaxşı mesaj göndərdi. Yəni, bizim multikulturalizm sahəsində əldə etdiyimiz nailiyyətlər bütün dini aləmdə layiqincə dəyərləndirilib.

Əlbəttə ki, şəxsən mənim və ölkəmiz üçün ötən il möhtərəm şeyximizlə müqəddəs yerləri - Məkkəni, Mədinəni yenidən ziyarət etməyimiz, mənə bir daha müqəddəs Kəbədə ibadət etmək və Mədinədə Peyğəmbərin məzarını ziyarət etmək xoşbəxtliyi şərəfi qismət oldu. Bu, hər bir müsəlman üçün xoşbəxtlikdir. Təbii ki, bu cür hadisələr bizim doğru yolda olduğumuzu nümayiş etdirir. Mən sizin - Qafqazın nüfuzlu liderlərinin fəaliyyətini çox yüksək qiymətləndirirəm. Bu gün ağsaqqal sözü həmişəkindən daha əhəmiyyətlidir. Sizin fəaliyyətiniz də təhlükəsizliyə, Rusiyanın Qafqaz respublikalarının inkişafına doğru aparır. Həm də Rusiya-Azərbaycan birgə münasibətlərini möhkəmləndirir. Çünki artıq dəfələrlə qeyd etdiyim kimi, Rusiya və Azərbaycan Qafqaz ölkələridir, biz qonşuyuq, yaxşı qonşuyuq və dostluğumuzu da davam etdirəcəyik. Bir daha xoş gəlmisiniz, tez-tez gəlin.

Sonra Şimali Qafqaz Müftiləri Əlaqələndirmə Şurasının sədri, Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl BERDİYEV çıxış edərək dedi:

-Mən ilk növbədə istərdim ki, Sizə Rusiya ilə Türkiyə arasında münasibətlərin yaxşılaşdırılması üçün etdiklərinizə görə minnətdarlığımı bildirim. Bu münaqişə baş verəndə, inanın, mənim ürəyim ağrıyırdı. Müsəlman ölkəsi olan Türkiyə ruhən bizə doğmadır. Buna görə də çox ağır idi. Sizin bu məsələdə fəaliyyətiniz həlledici oldu. Atanızın müdrikliyi Sizə də keçib, inanın. Siz bu işi gördünüz, buna görə Sizə “Çox sağ ol” deyirik. Ən başlıcası isə xidmətlərinizin qiymətini böyük Allahdan alacaqsınız. İnşallah, Sizin həyatdakı savabınız bu, olacaq.

Atanızın vəfatının ildönümü yaxınlaşır. Biz həqiqətən onunla fəxr edirdik. Sovet dövründə də onunla iftixar hissi keçirirdik. O vaxt Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunda müsəlmanın olması nadir hadisə idi. İnanın, biz bununla fəxr edirdik. Dünən biz Fəxri xiyabanda idik, dua edirdik. Biz bunu təkcə burada olanda deyil, həmişə, öz evimizdə olanda da edirik.

Möhtərəm şeyxülislam həmişə bizimlədir. O, Sizin sayənizdə daim bizə baş çəkir. Bax, bu multikulturalizm bizdə də mövcuddur. Şeyxülislam vaxtilə də demək olar bütün respublikalarda müsəlmanların qurultayını keçirir, özü də iştirak edirdi, hamı da bu barədə danışırdı. Bu, həqiqətən çox dəyərli işlər idi. Elə alındı ki, Sovet İttifaqı dağıldı, dövlətlər arasında sərhədlər yarandı. Bizdə isə bu, yoxdur. Bizim ağsaqqalımız məhz odur. O isə bütün bunları Sizin sayənizdə edir. Kömək etdiyinizə görə çox sağ olun. Həqiqətən də çox mühüm məsələdir.

İnsan yaxşı iş görəndə qəlbində sözlə ifadə oluna bilməyən sevinc duyur. Bu, əsl cənnət sevincidir. İnşallah, bu sevinci duyanlara görə Sizə təşəkkür edirəm. Atanızın fəaliyyəti, ümumiyyətlə, ölkəni xilas etdi. Biz Elçibəyin vaxtında da burada olmuşuq, baxmışıq. Müqayisə etməli çox şeylər var. İndi tamam başqa vaxtdır. Azərbaycan tamam başqa

ölkədir. Siz ötən ilin yayında Avropa Oyunlarını keçirdiniz. Bəli, şeyxülislam deyir ki, indi isə İslam ölkələrinin Oyunları keçiriləcək. Ümid edirəm ki, biz də iştirak edəcəyik.

**Prezident İlham Əliyev:** Əlbəttə, mütləq. Avropa Oyunlarında olduğu kimi, siz mənim qonaqlarımsınız.

**Müfti İsmayıl Berdiyev:** Sağ olun, çox sağ olun. Dünən Qafqaz Xalqları Ali Dini Şurasının iclasını keçirdik. Şeyxülislam bizim ağsaqqalımız idi. Onun müdrikliyi həqiqətən də kömək edir. Bax, bu müdriklik ona Sizin atanızdan keçib. Çünki o, onunla birlikdə çox olub.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Müfti İsmayıl Berdiyev:** Budur, bizim iclasımızdan Sizə hədiyyə etmək istərdik. Mən eşitdim ki, tezliklə ad gününüz olacaq.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun.

**Müfti İsmayıl Berdiyev:** Əgər müşahidə edərsinizsə.

**Prezident İlham Əliyev:** Əlbəttə.

Şimali Qafqaz Müftiləri Əlaqələndirmə Şurasının sədri, Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Berdiyev Prezident İlham Əliyevə hədiyyə təqdim etdi.

Sonda xatirə şəkli çəkdirildi.

*2 dekabr 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AĞDAM MUĞAM MƏRKƏZİNİN TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Dekabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin təməlqoyma mərasimində iştirak ediblər.

Ağdam Muğam Mərkəzi Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə tikiləcək.

"Azəraqrartikinti" ASC-nin sədri Ağalar Vəliyev məlumat verdi ki, Mərkəzin tikintisi üçün rayon icra hakimiyyəti tərəfindən Xındırıstan-Quzanlı avtomobil yolunun kənarında böyük torpaq sahəsi ayrılıb. Mərkəzin binasının ümumi sahəsi 1800, ümumi daxili sahəsi isə 1580 kvadratmetr olacaq. Ərazidə 60 avtomobil üçün dayanacaq tikiləcək. Binada 328 yerlik zal, foye, qalereya, dekorasiya, qrim, gözləmə və dərs otaqları yaradılacaq.

Xalqımızın zəngin milli-mənəvi sərvəti olan muğamın təbliğinə və onun yaşadılmasına xidmət edəcək bu mühüm layihə də ölkəmizdə musiqi mədəniyyətinin inkişafına öz töhfəsini verəcək.

Prezident İlham Əliyev Ağdam Muğam Mərkəzinin təməlini qoydu.

Dövlətimizin başçısı Mərkəzin inşasının keyfiyyətlə və vaxtında başa çatdırılması ilə bağlı tapşırıqlarını verdi.

*3 dekabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV AĞDAM RAYONUNUN QUZANLI QƏSƏBƏSİNDƏ YENİ İNŞA EDİLMİŞ BAYRAQ MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 3-də Ağdam rayonunun Quzanlı qəsəbəsində yeni inşa edilmiş Bayraq Muzeyinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı muzeyin binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Ötən əsrin əvvəllərində Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayrağın yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində mümkün olub. Azərbaycanın müstəqilliyinin bərpasından sonra milli bayrağımız ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvanda qaldırıldı. İndi bu bayraq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə dalğalanır və hər bir azərbaycanlı dövlət bayrağını özünün qürur mənbəyi hesab edir. Bu mühüm amili şərtləndirən əsas səbəblərdən biri də Prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşmasıdır. Fərəhli haldır ki, paytaxt Bakıdan sonra əksər bölgələrimizdə də üçrəngli bayrağımızın şərəfinə muzeylər yaradılır, xüsusi layihələr həyata keçirilir.

Muzeylə tanışlıq zamanı Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, inşaat işləri bu il ərzində həyata keçirilib. Muzeyin ümumi sahəsi 300 kvadratmetr olan binasında 146 eksponatın sərgilənməsi üçün hər cür şərait yaradılıb. Bayraq Muzeyində tariximizin müxtəlif dövrlərinə aid eksponatlar, Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin bayraqları, xəritələr, konstitusiyalar, orden və medallar, bir sözlə, müxtəlif dövlət rəmzləri qorunur.

Muzeydə müstəqillik dövrümüzün tarixi hadisələrinə də geniş yer verilib. Bütün bunlar həm Ağdam gənclərində, həm də rayona gələn qonaqlarda şanlı tariximiz haqqında geniş təsəvvür yaratmağa imkan verir. Bu, həm də cəbhə bölgəsində yaşayan soydaşlarımızda, xüsusilə də gənc nəsildə vətənpərvərlik hisslərinin daha da güclənməsinə xidmət edir.

***3 dekabr 2016-cı il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AĞDAMDA HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 3-də Ağdam rayonunun Quzanlı qəsəbəsində Heydər Əliyev Mərkəzinin açılışında iştirak ediblər.

Xalqımızın tarixində müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə ölkəmizdə silsilə tədbirlər həyata keçirilir. Ağdam rayonunun Quzanlı qəsəbəsində yeni inşa olunan Heydər Əliyev Mərkəzi də bu tədbirlərin ardıcıl xarakter aldığını nümayiş etdirir. Bu, ilk növbədə, Ağdam sakinlərinin dahi rəhbərin xatirəsinə dərin ehtiramının əlamətidir.

Yeni Mərkəzin yaradılması həm də ulu öndər Heydər Əliyevin zəngin və çoxşaxəli siyasi və dövlətçilik irsinin təbliğində mühüm rol oynayır. Mərkəzdə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar yer alıb. Burada dünyanın nüfuzlu siyasi xadimlərindən biri olan Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, ağır böhran keçirən ölkə iqtisadiyyatının inkişaf yoluna çıxarılması və ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən fotolar və sənədlər nümayiş olunur. Bu cür mərkəzlər Azərbaycanın əsası Heydər Əliyev tərəfindən qoyulan və hazırda uğurla davam etdirilən inkişaf strategiyasının mahiyyətinin öyrənilməsinə real zəmin yaradır.

Prezident İlham Əliyev Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Mərkəzlə tanışlıq zamanı dövlətimizin başçısına və xanımına məlumat verildi ki, ümumi sahəsi 1900 kvadratmetr olan binanın inşası yüksək səviyyədə həyata keçirilib. Mərkəzdə Ulu Öndərin mənalı həyatının və çoxşaxəli dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar nümayiş olunur. Burada Ulu Öndərin həyat və fəaliyyətinə dair tarixi sənədlərə də geniş yer verilib. Ümummilli Liderin uşaqlıq, gənclik və tələbəlik illəri, həmçinin sovet dövrünə və müstəqillik illərinə aid müxtəlif fotoları maraqla qarşılanır. Bu fotolarda ümummilli lider Heydər Əliyevin istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərlik edərkən ölkəmizin inkişafına xüsusi diqqət göstərməsi dolğun əksini tapıb. Dahi şəxsiyyətin hakimiyyətdə olduğu illərdə bölgələrimizə, o cümlədən Ağdama səfərləri bunun bariz nümunəsidir.

Ulu Öndərin ölkədəki müxtəlif obyektlərin açılışında iştirakı, ictimaiyyətin nümayəndələri, ziyalılar və zəhmətkeşlərlə görüşlərinin əks olunduğu fotolar da maraq doğurur. Rəqs zalının, kompüter otağının, xalçaçılıq dərnəyinin, elektron kitabxananın yaradıldığı Heydər Əliyev Mərkəzində müxtəlif tədbirlərin keçirilməsi üçün 130 yerlik iclas zalı da var. Bundan əlavə, mərkəzdə 3D kino zalı, 20 nəfərlik konfrans zalı, rəsm otağı, kompüterlərlə və ən müasir avadanlıqla təchiz olunan xidməti otaqlar fəaliyyət göstərir.

Mərkəzdə şanlı ordumuzun aprel döyüşləri zamanı qəhrəmanlığını əks etdirən fotoguşə də yaradılıb. Fotoşəkillərdə Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatları zamanı göstərdiyi şücaət və mərdlik əks olunub.

Son vaxtlar Heydər Əliyev mərkəzlərində yeni ailə quran gənclərin nikah mərasimlərinin təşkili kimi xoşməramlı tədbirlər də keçirilir. Ağdamdakı Heydər Əliyev Mərkəzində də bu məqsədlə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı otağı yaradılıb. Burada nikah bağlayan gənclərin qanunvericiliklə müəyyən edilmiş qaydada tibbi müayinəsi və onlara tibbi arayışın verilməsi də həyata keçiriləcək.

Sonda xatirə şəkli çəkdirildi.

*3 dekabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRLƏRİNİ VƏ İDARƏ HEYƏTİNİN ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri, Latviyanın sabiq Prezidenti xanım Vayra Vike-Freyberqanın, Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldinin, Mərkəzin İdarə Heyətinin üzvləri, Serbiyanın sabiq Prezidenti Boris Tadiçin, Bolqarıstanın sabiq Prezidenti Peter Stoyanovun, Albaniyanın sabiq Prezidenti Recep Meydaninin, Latviyanın sabiq Prezidenti Valdis Zatlersin və Moldovanın sabiq Prezidenti Petru Luçinskinin daxil olduqları nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı qonaqları salamlayaraq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım tədbirində iştiraklarına görə onlara minnətdarlığını bildirdi.

İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldin dedi: "Cənab Prezident, bu, bizim üçün böyük şərəfdir. Bu, Sizin atanız böyük şəxsiyyət, sözün əsl mənasında, ümummilli lider Heydər Əliyevin xatirəsinə olan böyük ehtiramın təzahürüdür".

Latviyanın sabiq Prezidenti xanım Vayra Vike-Freyberqa qeyd etdi ki, biz bu gün Azərbaycan xalqının ümummilli lideri və müasir Azərbaycanın banisi Heydər Əliyevin anım günündə Sizinlə və xalqınızla birlikdəyik. Ulu Öndərin xatirəsinə dərin ehtiramını bildirən xanım Vayra Vike-Freyberqa Heydər Əliyevin böyük təcrübəyə malik lider olduğunu dedi.

Bolqarıstanın sabiq Prezidenti Peter Stoyanov Bakıya səfəri zamanı Ulu Öndərlə görüşlərini məmnunluqla xatırladı.

Ulu Öndərlə bağlı dərin xatirələrə malik olduğunu deyən Moldovanın sabiq Prezidenti Petru Luçinski onun böyük şəxsiyyət kimi Azərbaycanın müstəqilliyinin təmin olunmasında müstəsna xidmətlər göstərdiyini vurğulayaraq Azərbaycanın bugünkü inkişafının və firavanlığının əldə olunmasında Prezident İlham Əliyevin rolunu xüsusi olaraq qeyd etdi.

Prezident İlham Əliyev dedi: "Ulu öndər Heydər Əliyev daim Azərbaycanın müstəqilliyi uğrunda çalışıb. Məhz onun yorulmaz səyləri nəticəsində ölkəmiz əsl müstəqillik əldə edib. O, xalqımızın ümummilli lideri kimi Sovet sistemindən müstəqilliyə keçid dövrünü təmin etmişdir. Ulu öndər Heydər Əliyev sovet rəhbərliyində çalışan zaman o vaxtkı Kommunist Partiyasının rəhbərliyini açıq şəkildə ittiham edən ilk insanlardan biri olmuşdur. Bu, hələ Sovet İttifaqı dağılmamışdan iki il qabaq baş vermişdi. O, hələ 1990-cı ildə Azərbaycanın müstəqilliyinin zəruriliyini bəyan edən ilk insanlardan idi. 1990-cı ilin yanvarında sovet ordusu Bakıda yüzdən artıq günahsız adamın həlak olması ilə nəticələnən Qanlı Yanvar hadisələrini törədən zaman o, Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəldi və mən də onunla bir yerdə idim. Orada xeyli sayda azərbaycanlılar toplaşmışdılar və onlar Heydər Əliyevə böyük dəstək nümayiş etdirdilər. Heydər Əliyev orada Qanlı Yanvar hadisələrinə görə SSRİ-nin siyasi rəhbərliyini kəskin şəkildə ittiham etdi və bundan sonra Kommunist Partiyası sıralarından çıxdı. O zaman Heydər Əliyev işləmirdi, təqaüddə idi, sovet rəhbərliyi ona qarşı böyük təbliğat kampaniyasına başlamışdı, ona təzyiqlər edir, hətta həbs etmək istəyirdilər. Belə çətin şəraitdə Bakıya gəlmək qərarı verdi. Bakıda minlərlə insan onun ətrafına toplaşır və ona öz dəstəklərini göstərirdilər. Bundan narahat olan Azərbaycanın o vaxtkı rəhbərliyi ona Bakıda da ciddi təzyiqlər göstərməyə başladılar. Heydər Əliyev doğulduğu Naxçıvan şəhərinə getdi".

Ulu öndər Heydər Əliyevin Naxçıvandakı fəaliyyətinə toxunan dövlətimizin başçısı xalq tərəfindən Heydər Əliyevin Naxçıvanın Ali Sovetinin sədri seçildiyini vurğuladı və hələ 1990-cı ildə Azərbaycanın ilk demokratik respublikasının bayrağını dövlət bayrağı kimi qaldırdığını və bu bayrağın Azərbaycan Respublikasının bayrağı kimi qəbul edilməsi ilə bağlı Azərbaycan parlamentinə müraciət etdiyini dedi. Dövlətimizin başçısı 1991-ci ildə Sovet İttifaqının saxlanılması ilə bağlı keçirilən referendumun o vaxt Naxçıvan tərəfindən boykot edildiyini də dedi. Prezident İlham Əliyev daha sonra bildirdi ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə ölkədə vətəndaş müharibəsinin qarşısı alındı, sabitlik və əmin-amanlıq təmin edildi və yeni inkişafın başlanğıcı qoyuldu. Dövlətimizin başçısı Ulu Öndərin müasir Azərbaycanın dövlət quruculuğunda müstəsna xidmətlərinin xalq tərəfindən daim ehtiramla xatırlandığını dedi.

Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə əməkdaşlığın perspektivləri ətrafında geniş fikir mübadiləsi aparıldı.

***12 dekabr 2016-cı il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 13 il keçir.

Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün ilboyu insanlar

buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıtmış, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınmış böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 13-cü ildönümü günü – dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın Ümummilli Liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirdilər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və Ulu Öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

*12 dekabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV İÇƏRİŞƏHƏRDƏ MARİONET TEATRININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı teatrın binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycan Prezidenti və xanımı teatrın binasında yaradılan şəraitlə tanış oldular.

Dövlətimizin başçısına və xanımına görülən işlərlə bağlı ətraflı məlumat verildi. Bildirilib ki, Müslüm Maqomayev 20 ünvanında yerləşən Marionet Teatrının binası 1880-ci ildə antik obraz və motivlərdən istifadə edilərək neoklassisizm üslubunda inşa olunub.

Yerli əhəmiyyətli tarixi-memarlıq abidəsi olan bina Bakı zadəganlarından olan Səlimxanovlara aid idi. Tarixi binanın fasadında XIX əsrin sonuna xas klassik rus memarlığı elementlərindən və Avropa dekorlarından istifadə edilib.

Qeyd olunub ki, milli dəyərlərə bağlılığı qorumaq və mədəni irsimizi gələcək nəsillərə ötürmək məqsədilə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin nəzdində Marionet Teatrı 2013-cü ildən fəaliyyət göstərir. Tarixi və mədəni irsimizin, milli-mənəvi dəyərlərimizin qoruyucusu olan, onu beynəlxalq aləmdə tanıdan Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın xüsusi dəstəyi ilə teatrın fəaliyyətinin genişləndirilməsi istiqamətində kompleks işlər həyata keçirilib. Nəticədə teatr üçün İçərişəhərdə bina ayrılıb və bu binanın teatrın fəaliyyətinə uyğunlaşdırılması işləri uğurla tamamlanıb. Teatrda istifadə olunan kuklalar buradakı emalatxanada hazırlanacaq.

Marionet Teatrı fenomeni yetərincə maraqlı olmaqla yanaşı, dünyada populyar olan teatr incəsənəti janrlarındandır. Bu janr teatr növləri arasında çox çətin başa gələn və eyni zamanda, ən maraqlı və cəlbedici sayılanlardan biridir. Çətin olduğuna görə, əksər ölkələrdə belə teatr ənənəsi mövcud deyil. Azərbaycanda Marionet Teatrı ilk dəfə 1980-ci illərin ortalarında rejissor və rəssam Tərlan Qorçunun təşəbbüsü ilə yaranıb. Bütün yaş qrupuna aid insanlarda maraq doğuran bu teatr janrı xalqımızın zəngin, çoxşaxəli mədəni irsinin ən müxtəlif sahələrini - memarlıq, milli geyim və musiqi, dilimizin nitq melodikasını, xalqımızın həyat tərzini və bayramlarımızı, rəqslərimizi özündə birləşdirir.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva teatrın səhnəsində marionet kuklalarının ifasında "Leyli və Məcnun" operasından bir hissəyə tamaşa etdilər.

Qədim Şərq folkloruna məxsus məhəbbət əfsanəsi "Leyli və Məcnun" orta əsrlər dövrü ədəbiyyatının ən məşhur mövzusu olub, 50-dən çox şair, o cümlədən dahi Azərbaycan şairləri Nizami Gəncəvi və Məhəmməd Füzuli eyniadlı poemalar yazıblar. Dahi bəstəkar Üzeyir Hacıbəyli 1907-ci ildə Şərq muğamı və Qərb klassik musiqisinin sintezi əsasında "Leyli və Məcnun" operasını bəstələyib. "Arşın mal alan" operettası və "Leyli və Məcnun" operası hazırda Marionet Teatrının repertuarında xüsusi yerlərdən birini tutur. Teatr 1990-cı ildə Fransada "Arşın mal alan"ın uğurlu premyerasını keçirib, sonrakı illərdə bu operettanı dünyanın bir çox ölkələrində nümayiş etdirib. Bu gün isə artıq teatrın qastrol xəritəsində Almaniya, ABŞ, Rusiya, Polşa, İsveçrə kimi ölkələr də yer alır.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva burada İçərişəhər Ənənəvi İncəsənət Mərkəzinin yeni "Şirvanşahlar" kolleksiyası ilə də tanış oldular.

İncəsənət Mərkəzi 2012-ci ilin oktyabrında Heydər Əliyev Fondunun təşəbbüsü ilə Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Londonda yerləşən Ənənəvi İncəsənət üzrə Şahzadə Məktəbi arasındakı razılaşma əsasında yaradılıb. Mərkəzin dördillik uğurlu fəaliyyəti nəticəsində Azərbaycan incəsənəti və sənətkarlığının gələcək inkişafı üçün yaradıcı gənc sənətkarlar qrupu yetişdirilib. Mərkəzdə Azərbaycanın tarixi və mədəni irsindən ilhamlanan, eyni zamanda, müasir bazarın kommersiya tələblərinə və estetik həssaslığına cavab verən müxtəlif məhsullar ərsəyə gətirilir. IX-XVI əsrlərdə Azərbaycan ərazisində hökmranlıq edən Şirvanşahlar dövlətinin zəngin mədəniyyəti kolleksiyada öz əksini tapıb. XIII əsrdə Şirvanşah III Fəribürzün əmri ilə tikilən Bayıl Qəsri, Şirvan-Abşeron memarlıq məktəbinin XIII-XVI əsrlərə aid Şirvanşahlar Saray Kompleksi memarlıq abidəsi, eləcə də Şirvanşahlar dövlətinin atributları kolleksiyanı yaradan dizaynerlər tərəfindən əsas ilham mənbəyi olaraq seçilib.

Bütün bunlar göstərir ki, Azərbaycan memarlığının və mədəniyyətinin nadir incisi sayılan İçərişəhərin qorunması diqqət mərkəzindədir. Xalqımızın milli sərvəti olan İçərişəhər dövlətimizin başçısının diqqət və qayğısı sayəsində intibah dövrünü yaşayır, bu-

rada həyata keçirilən bərpa işləri bu qədim şəhəri xalqımızın çoxəsrlik tarixinə həmişəlik daxil edib. Şirvan-Abşeron memarlıq məktəbinin ən məşhur nümunəsi olan İçərişəhərin UNESCO-nun Dünya İrs Siyahısına daxil edilməsi Azərbaycan xalqının bəşər mədəniyyətinə töhfələr verdiyini bir daha təsdiqləyir.

Sonda xatirə şəkli çəkdirildi.

*24 dekabr 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İÇƏRİŞƏHƏRDƏKİ "BƏYLƏR" MƏSCİDİNDƏ BƏRPA İŞLƏRİNDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə məsciddə yaradılan "Müqəddəs əmanətlər" ekspozisiyası ilə tanış olublar.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi Əsgər Ələkbərov dövlətimizin başçısına və xanımına görülən işlərlə bağlı ətraflı məlumat verib. Bildirilib ki, qədim Bakının inkişaf mərhələlərinə nəzər salanda bu şəhərdə qədim dövrlərdən başlayaraq müxtəlif din və həyat tərzlərinin bir-birini əvəz etdiyini və nəticə etibarilə mənəvi mədəniyyətin mənbəyinə çevrildiyini görürük. VII əsrin birinci yarısından Azərbaycanda, o cümlədən Bakıda İslam dininin yayılmasının geniş vüsət alması bu şəhərdə çoxsaylı dini memarlıq abidələrinin - məscid, təkyə, məktəb-məscid və türbələrin tikilməsinə səbəb olub və bu proses yüzilliklər boyu davam edib, nəticədə günümüzə onlarla qədim mədəniyyət abidələrini gətirib çıxarıb. 1895-ci ildə inşa olunan "Bəylər" məscidi də yerli əhəmiyyətli tarix-memarlıq abidəsidir.

Qeyd olunub ki, İçərişəhər ərazisində inşa olunan bu sonuncu məscid zalın böyüklüyünə və tikinti quruluşuna görə digər dini abidələrdən fərqlənir. Onun inşasında Avropa, Şərq, eləcə də yerli memarlığın konstruktiv prinsiplərindən istifadə olunub. Mükəmməl görünüşlü minarənin yuxarı hissəsi Qərbi Avropaya xas olan dekorativ elementlərlə bəzədilib. Məscidin zalında və mehrabında mükəmməl bədii daşyonma sənəti nümunələrindən məharətlə istifadə edilib. Memarlıq abidəsi qədim məscidin yerində tikilib.

"Bəylər" məscidində bərpa və konservasiya işləri "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin dəvət etdiyi avstriyalı məşhur bərpaçı ekspert Erix Pummer tərəfindən aparılıb. 2014-2015-ci illərdə görülən işlər zamanı məscidin bərpasında "İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi" də iştirak edib, qapı və pəncərələri memarlıq elementləri ilə bəzəyib. Nəticədə təyinatına uyğun muzeyləşdirilən məsciddə "Müqəddəs əmanətlər" ekspozisiyası yaradılıb.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın diqqətinə çatdırılıb ki, ekspozisiyada İslam dininin müqəddəs əmanəti olan müxtəlif dövrlərə aid qədim "Qurani-Kərim" kitabları nümayiş etdirilir. Burada 73 Quran, 7 dini kitab, 19 dini atribut - ümumilikdə, 99 eksponat nümayiş olunur. Yanğından hifz olunan kitabların vərəqləri, Dərbənd məscidinə aid və axund tərəfindən divara hörülərək qorunan Quran, eləcə də burada nümayiş etdirilən Quranın cüzləri ekspozisiyada diqqəti cəlb edən eksponatlardır. Azərbaycanın müxtəlif regionlarından toplanılan müqəddəs əmanətlər yanğına məruz qalan kitabxanalar və şəxsi mülklərdən aşkar edilib.

Burada yaradılan şərait bir daha təsdiqləyir ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlətimizin başçısının təşəbbüsü və tapşırıqlarına əsasən, paytaxtda və ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, tarixi abidə və ziyarətgah inşa edilib, bərpa olunub və ya yenidən qurulub. Heydər Əliyev Fondu da bu prosesə böyük töhfələr verib, mədəni və mənəvi mühitin qorunmasında mühüm xidmətlər göstərib. İçərişəhərdəki "Bəylər" məscidinin bərpa və konservasiyası da ölkəmizdə milli-mənəvi dəyərlərin inkişafı ilə bağlı görülən işlərə önəmli bir töhfədir.

*24 dekabr 2016-cı il*

## PREZİDENT İLHAM ƏLİYEV XALQ ARTİSTİ ZEYNƏB XANLAROVAYA "HEYDƏR ƏLİYEV" ORDENİNİ TƏQDİM ETMİŞDİR

Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə görkəmli müğənni, Xalq Artisti Zeynəb Xanlarovanı "Heydər Əliyev" ordeni ilə təltif edib.

**Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:**

- Əziz və hörmətli Zeynəb xanım.

Mən sizi, ilk növbədə, qarşıdan gələn yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Siz uzun illərdir ki, xalqımızı öz gözəl sənətinizlə sevindirirsiniz. Xalqımızın musiqi tarixində sizin çox böyük yeriniz vardır. Siz dünya şöhrətli müğənnisiniz və Azərbaycanı, bizim xalqımızı, dövlətimizi dünyada təbliğ edirsiniz, uzun illər ərzində, həm sovet dövründə, həm müstəqillik dövründə. Azərbaycan xalqı sizi çox sevir. Siz bunu yaxşı bilirsiniz.

Ulu öndər Heydər Əliyev həmişə sizə çox böyük diqqət, qayğı göstərmişdir, həm 1970-1980-ci illərin əvvəllərində, həm də müstəqillik dövründə. Ulu Öndər sizi çox qiymətləndirirdi, çox sevirdi. Xatırlayıram ki, atam təqaüddə olan zaman siz Moskvaya gəlib ona baş çəkdiniz. Mən də o görüşdə iştirak edirdim. O vaxt da siz öz iradənizi, öz mərdliyinizi göstərmisiniz. Çünki o vaxt Heydər Əliyevə qarşı əsassız ittihamlar irəli sürülübdür. Ovaxtkı sovet və Azərbaycan rəhbərliyi ona qarşı kampaniya aparırdı. Onun, necə deyərlər, qanadı altında böyümüş insanların bir çoxu ona nəinki baş çəkmirdi, hətta zəng etməyə də qorxurdu.

Yəni, mən o günləri çox yaxşı xatırlayıram və heç vaxt unutmuram. Siz isə Moskvada, onun evinə gəldiniz. Mən də o görüşdə idim. Ona mənəvi dəstək verdiniz. Sizin çox gözəl, səmimi söhbətiniz olubdur. Mən o günü heç vaxt unutmuram və unutmayacağam.

Siz xalqımızın mərd qızısınız. Həmişə prinsipial olmusunuz, həmişə həqiqəti demisiniz və heç bir şeydən qorxmadan həmişə öz mövqeyinizdə olmusunuz. Bu gün Azərbaycan parlamentinin üzvü kimi də Sizə çox böyük hörmət var. Çünki Siz xalqımızı narahat edən məsələləri daim diqqətdə saxlayırsınız, öz prinsipial mövqeyinizi göstərirsiniz. Buna görə də mən sizə minnətdarlığımı bildirmək istəyirəm. Sizə cansağlığı, yeni uğurlar arzu etmək istəyirəm.

Xalq, dövlət qarşısında göstərdiyiniz böyük xidmətlərə görə mənim Sərəncamımla siz Ulu Öndərin adını daşıyan, dövlətimizin ən ali mükafatı – "Heydər Əliyev" ordeni ilə təltif olunursunuz. İcazə verin, bu yüksək mükafatı, bu ordeni sizə təqdim edim.

* * *

Dövlətimizin başçısı “Heydər Əliyev” ordenini Zeynəb Xanlarovaya təqdim etdi.

Xalq Artisti Zeynəb XANLAROVA dedi:

- Ay Allah, kaş Ulu Öndərimiz sağ olaydı və görəydi ki, Siz bu ordeni mənə vermisiniz.

* * *

Azərbaycanın ən yüksək dövlət mükafatı olan “Heydər Əliyev” ordeni ilə təltif olunmasını ona göstərilən böyük diqqətin və qayğının ifadəsi kimi dəyərləndirən və buna görə minnətdarlığını bildirən Xalq Artisti Zeynəb Xanlarova xalqımızın ümummilli lideri Heydər Əliyevin işıqlı xatirəsini dərin ehtiramla yada saldı. Ulu öndər Heydər Əliyevin elm, mədəniyyət və incəsənət xadimlərinə həmişə yüksək qayğı göstərdiyini vurğulayan Xalq Artisti bu ənənələrin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini minnətdarlıq hissi ilə qeyd edərək dedi:

- İnanın, mən bütün dünyanı gəzmişəm. Yəni, mən dünyanın harasına getmişəmsə mükafatlar almışam. Ancaq inanın, aldıqlarım mükafatların içərisində həyatım boyu ən çox sevdiyim bu ordendir. Mən həmişə deyirəm, bu cavanlığında adam Azərbaycanı elə bil təzədən qurub-yaradıb.

Mən ömrüm boyu Sizə minnətdaram. Həmişə demişəm, Siz əsl kişinin oğlusunuz. Siz Heydər müəllimin yadigarısınız. Sizə Allah bundan sonra yüz il ömür versin və Siz Azərbaycanı yaşadasınız.

Siz hər bir azərbaycanlının Prezidentisiniz. Sizinlə gənclər də, ahıllar da fəxr edirlər. Allah Sizi qorusun.

Prezident İlham Əliyev: Çox sağ olun, Zeynəb xanım.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

***26 dekabr 2016-cı il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKI KONQRES MƏRKƏZİNİN QARŞISINDA YENİ SALINMIŞ İSTİRAHƏT PARKININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Konqres Mərkəzinin qarşısında yeni salınmış istirahət parkının açılışında iştirak ediblər.

Keçmiş Səttarxan adına maşınqayırma zavodunun ərazisində geniş abadlıq işləri aparılaraq burada müasir tələblərə uyğun yeni istirahət parkı salınıb. Bu ərazi əvvəllər zavodun istismarı zamanı sürtkü və kimyəvi maddələrlə yararsız vəziyyətə düşmüşdü. İnşaat işləri zamanı ərazi illərlə qalmış tullantılardan təmizlənib, torpaq səthi dəyişdirilib, genişmiqyaslı abadlıq işləri aparılıb.

Prezident İlham Əliyev istirahət parkının rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısı və xanımı parkda yaradılan şəraitlə tanış oldular.

Parkın tikintisini “İlk inşaat“ şirkəti həyata keçirib. Ümumi sahəsi 7 hektardan çox olan park qısa müddətdə yaradılıb.

Avstriyanın məşhur memarı Yans Hoffmanın layihələndirdiyi bu istirahət məkanında genişmiqyaslı yaşıllıq işləri də həyata keçirilib. Parkın ümumi ərazisində 300-dən çox müxtəlif növ ağac, 50 mindən artıq gül və kol bitkiləri əkilib. Burada çinar, tut, dəmirağa-

cı, söyüd və palıd ağaclarının bir neçə növləri var. İstirahət parkının yaşıllaşdırma konsepsiyasında ilin fəsilləri nəzərə alınıb. Bu məkanın yaşıllaşdırma işləri aparılarkən flora və iqlim mühiti təhlil edilərək əsasən İtaliyadan gətirilmiş bitki və ağaclara üstünlük verilib. Buradakı yaşıllıqların suvarılması üçün müasir drenaj sistemi yaradılıb, 20 kilometrdən çox boru-damcı suvarma və 1000-ə yaxın çiləyici vasitə quraşdırılıb.

Ərazidə 4 müxtəlif istirahət zonası salınıb. Parkdakı idman zonasında müxtəlif trenajorlar və qurğular qoyulub. Parkda uşaqlar üçün də xüsusi zonalar quraşdırılıb, həmin zonalar 2700 kvadratmetrə yaxın yumşaq səthlə örtülüb. İstirahət parkının ərazisində fəvvarə və ümumi sahəsi 2200 kvadratmetrə yaxın 3 göl yaradılıb. Göllərin yaradılmasında müasir texnologiya və avadanlıqdan istifadə edilib. Parkda sintetik örtüklə təchiz edilmiş buz meydançası da var. İlin bütün fəsillərində fəaliyyət göstərəcək meydançanın ümumi sahəsi 2130 kvadratmetrdir.

İstirahət parkı müasir mühəndislik, işıqlandırma və infrastrukturun bir mərkəzdən idarəolunma və təhlükəsizlik kameraları ilə təchiz edilib. Ümumilikdə, bu parkın inşası ilə Heydər Əliyev Mərkəzi və Təbriz küçəsi arasında olan ərazinin vətəndaşlarımızın mənalı istirahəti üçün abadlaşdırılması layihəsi tam yekunlaşdırılıb.

*26 dekabr 2016-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ DİRİJOR, MAESTRO NİYAZİNİN BAKIDA ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı maestro Niyazinin abidəsinin açılışını etdi.

Prezident İlham Əliyev abidənin önünə gül dəstəsi qoydu.

Abidənin hündürlüyü 3, pyedestalının hündürlüyü isə 1 metrə yaxındır. Heykəlin üst plitəsi royalın qapağı formasındadır. Abidənin pyedestalı isə qara qranitdən hazırlanıb. Bürüncdən hazırlanan heykəlin müəllifi Xalq Rəssamı Ömər Eldarov, memarı isə Əməkdar Memar Elbay Qasımzadədir.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

## PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Əziz dostlar, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Azərbaycan xalqının böyük oğlu Niyazinin abidəsi açılır. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm.

Niyazi böyük Üzeyir Hacıbəylinin layiqli davamçısı idi. Niyazi Azərbaycan dirijorluq məktəbinin əsasını qoymuşdur və bu gün onun davamçıları öz sənəti ilə bizi sevindirirlər. Niyazi Azərbaycan musiqi mədəniyyətinə çox böyük töhfə vermişdir. O, Sovet İttifaqında ən tanınmış və ən istedadlı dirijorlardan biri idi. Niyazi Azərbaycanı, Azərbaycan xalqını həm sovet məkanında, həm dünyada layiqincə təmsil edirdi, xalqımızın istedadını nümayiş etdirirdi. Onun dirijorluq sənəti xalqımızın böyük dəyəridir və demək olar ki, Azərbaycan bəstəkarlarının bütün simfonik əsərlərinin birinci dirijoru Niyazi olmuşdur.

Dünyada və sovet məkanında dirijor kimi tanınan Niyazi, eyni zamanda, gözəl bəstəkar idi, onun əsərləri bu gün də yaşayır. Onun əsərlərində Azərbaycan musiqi mədəniyyəti özünü büruzə vermişdir.

Niyazinin çox böyük ictimai fəaliyyəti də olmuşdur. O, bir neçə çağırış Azərbaycan Ali Sovetinin deputatı seçilmişdir. Onun fəaliyyəti xalq, ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. O, Sovet İttifaqının Xalq Artisti adına layiq görülmüşdür. Sovet İttifaqının ən böyük mükafatı - Sosialist Əməyi Qəhrəmanının qızıl ulduzu ilə təltif edilmişdir. Bu təltiflər və eyni zamanda, ona verilmiş beynəlxalq mükafatlar doğrudan da onu göstərir ki, Niyazi böyük şəxsiyyət, böyük sənətkar və Azərbaycan xalqının layiqli nümayəndəsi idi. Biz haqlı olaraq onun sağlığında da onunla fəxr edirdik, bu gün də fəxr edirik.

Mənim Niyazi ilə bağlı öz xatirələrim var. Atam, ulu öndər Heydər Əliyevlə onu dostluq əlaqələri bağlayırdı. Heydər Əliyev həmişə Niyaziyə çox böyük diqqətlə, qayğı ilə yanaşırdı. Dəfələrlə Niyazi müəllim və Həcər xanım bizim evimizdə olmuşlar. O məclislərdə mən də iştirak etmişdim və görürdüm ki, doğrudan da Niyazi çox gözəl insandır. Onu tanıyanlar bilirlər ki, onun çox gözəl xatirələri olmuşdur, gözəl əhvalatlar bilirdi, çox zarafatcıl idi, onda çox böyük yumor hissi var idi. Doğrudan da o xatirələr bu gün də mənim yaddaşımda yaşayır, bu, unudulmaz günlər idi. İndi vaxt keçdikcə, əlbəttə, biz daha aydın şəkildə görürük ki, Niyazi dahi şəxsiyyət idi və yenə də deyirəm, o, xalqımızı ləyaqətlə təmsil edirdi.

Azərbaycan dövləti öz mədəni irsinə həmişə böyük diqqətlə yanaşır. Biz görkəmli şəxsiyyətlərimizin xatirəsini yaşadırıq, əbədiləşdiririk. Son bir neçə il ərzində şəhərimizin mərkəzində ardıcıllıqla görkəmli mədəniyyət xadimlərinin – Fikrət Əmirovun, Qara Qarayevin, Bülbülün, Rəşid Behbudovun abidələri açılmışdır. Bu gün bu gözəl parkda, Niyazinin adını daşıyan bu gözəl küçədə Niyazinin abidəsi də açılır.

Niyazinin adı Azərbaycanda əbədiləşdirilib. Azərbaycan teleradio şirkətinin simfonik orkestri, uşaq musiqi məktəbi, gəmi, küçə onun adını daşıyır, bu gün də Niyazinin möhtəşəm, çox gözəl və əzəmətli, eyni zamanda, bu əraziyə uyğun abidəsi açılır.

Onu da qeyd etməliyəm ki, bu il bir neçə görkəmli şəxsiyyətlərimizin yubiley tədbirləri dövlət səviyyəsində qeyd ediləcək. Bülbülün 120 illik, Tofiq Quliyevin, Cövdət Hacıyevin 100 illik, Mstislav Rostropoviçin 90 illik yubileyləri bu il, Qara Qarayevin 100 illik yubileyi isə gələn il keçiriləcək. Bütün bu əlamətdar tarixlər dövlətin tam dəstəyi ilə yüksək səviyyədə keçiriləcək.

Ümumiyyətlə, demək istəyirəm ki, biz öz mədəni irsimizə çox sadiqik və müstəqil Azərbaycan dövləti çox güclü milli-mənəvi köklər, əsaslar üzərində qurulubdur. Biz müstəqil, müasir ölkəyik. Ancaq bizim gücümüzün mənbəyi milli tariximizdir, keçmişimizdir, mədəniyyətimizdir. Biz xalq olaraq öz mənliyimizi ona görə qoruya bilmişik ki, öz mədəniyyətimizi, dilimizi, ədəbiyyatımızı qoruya bilmişik və bu gün də qoruyuruq.

Azərbaycan xalqı öz görkəmli nümayəndələri ilə fəxr edir. Fəxr edirik ki, bizim görkəmli mədəniyyət, incəsənət nümayəndələrimiz dünya miqyasında özlərinə yer tapa biliblər. Bu, əlbəttə, xalqımızın istedadını göstərir və onu göstərir ki, biz dünya mədəniyyət xəzinəsinə çox böyük və dəyərli töhfələr vermişik.

Bu gün Azərbaycan dövlətinin siyasətinin əsas istiqamətlərindən biri də humanitar sahə - mədəniyyət, incəsənət və ədəbiyyat ilə bağlıdır. Son illər ərzində bu istiqamətlərdə böyük işlər görülmüşdür. Bizim 20-dən çox teatrımız, muzeyimiz əsaslı şəkildə təmir olunub. Azərbaycan o ölkələrdəndir ki, hətta iqtisadi çətinliklərə baxmayaraq, mədəniyyətin inkişafına maliyyə və maddi dəstəyini əsirgəmir. Çünki bu, həm bu gün üçün, həm də gələcək üçün lazımdır. Öz mədəniyyətini qoruyan dövlətlər həm hörmətə layiqdir, eyni zamanda, daha böyük uğurlar qazanır. Bax, biz o dövlətlərdənik. Bizim mədəniyyətimiz qürur mənbəyimizdir. Biz mədəniyyətimizi qoruyuruq və çox şadam ki, çox gözəl gənc nəsil yetişir. Bizim gənc nəsil artıq həm müasir musiqini öyrənir, eyni zamanda, öz milli köklərinə çox sadiqdir. Azərbaycanda keçirilən, həm yerli, həm də beynəlxalq iştirakçıların qatıldığı muğam festivalları, muğam müsabiqələri çox böyük maraq doğurur və

bütün bölgələrdən olan gənclər, uşaqlar, yeniyetmələr çalışırlar ki, o müsabiqələrdə iştirak etsinlər, özlərini göstərsinlər. Bu, çox əlamətdar hadisədir. Bu, sadəcə olaraq bir musiqi müsabiqəsi deyil. Muğam müsabiqələri bizim milli musiqimizi yaşadan tədbirlərdir. Bu tədbirlərin çox böyük əhəmiyyəti var. Müxtəlif bölgələrdə muğam evlərinin yaradılması, musiqi məktəblərinin tikilməsi bu istiqamətdə atılan düzgün addımlardır. Mən son illər ərzində bölgələrdə dəfələrlə musiqi məktəblərinin, uşaq yaradıcılıq mərkəzlərinin, muğam mərkəzlərinin açılışlarında olmuşam və bütün bu binalar, orada yaradılmış şərait əlbəttə ki, bizi sevindirir və bir daha bizim niyyətimizi göstərir. Bugünkü mərasim, yəni, böyük sənətkar Niyaziyə ucaldılmış bu abidənin açılışı bax, bu sıradan olan addımlardır.

Mən sizi və bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm. Sağ olun.

* * *

Qeyd edək ki, Azərbaycan dirijorluq məktəbinin formalaşması və inkişafı Niyazinin adı ilə bağlıdır. Niyazi dirijorluq fəaliyyətinə ötən əsrin 30-cu illərində başlayıb. 1935-ci ildə ilk dəfə olaraq Azərbaycan xalq musiqisinin klassik nümunələrini – "Rast" və "Şur"u nota köçürən Niyazi 1946-cı ildə gənc dirijorların baxış müsabiqəsinin laureatı adını qazanıb, 1949-cu ildə ən məşhur əsərini – "Rast" simfonik muğamını yazıb. Böyük sənətkar müxtəlif vaxtlarda Azərbaycan SSR-in Xalq Artisti, SSRİ Xalq Artisti adlarına, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət mükafatına, SSRİ Dövlət mükafatına, Sosialist Əməyi Qəhrəmanı adına, Nehru adına beynəlxalq mükafata layiq görülüb. Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və dirijoru olub.

Dövlətimizin başçısı mərasimdə iştirak edən mədəniyyət və incəsənət xadimləri ilə söhbət etdi.

Sonda xatirə şəkli çəkdirildi.

*2 fevral 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV BELÇİKANIN VATERLO ŞƏHƏRİNDƏ GÖRKƏMLİ AZƏRBAYCAN ŞAİRƏSİ XURŞİDBANU NATƏVANIN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Fevralın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Belçika Krallığının Vaterlo şəhərində görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın abidəsini ziyarət ediblər.

Vaterlo şəhərinin meri Florans Röter Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladı.

Dövlətimizin başçısı və xanımı abidənin önünə gül dəstələri qoydular.

Ötən il fevralın 18-də açılışı olan bu abidənin ucaldılması Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi sayəsində mümkün olub. Şəhərin mərkəzi parkında ucaldılmış abidə Azərbaycanın Xalq Rəssamı Tahir Salahovun rəhbərliyi ilə heykəltəraş İmran Mehdiyev tərəfindən hazırlanıb. Abidənin özülündə Xurşidbanu Natəvanın Qarabağ şahzadəsi olması barədə məlumat var.

*5 fevral 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN İDARƏ HEYƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri - Latviyanın sabiq Prezidenti Vayra Vike-Freyberqa və İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldinin rəhbərlik etdikləri, Serbiyanın sabiq Prezidenti Boris Tadiçin, Bolqarıstanın sabiq Prezidenti Petar Stoyanovun, Xorvatiyanın sabiq Prezidenti İvo Yosipoviçin, Rumıniyanın sabiq Prezidenti Emil Konstantineskunun, Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumdciyanın, Ərəb Liqasının sabiq baş katibi Əmr Musanın və UNESCO-nun xoşməramlı səfiri Marianna Vardinoyannisin daxil olduqları Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev mühüm beynəlxalq tədbir – V Qlobal Bakı Forumunda iştirak etmək üçün ölkəmizə gəldiklərinə görə onlara təşəkkürünü bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan artıq beşinci dəfədir bu Foruma ev sahibliyi edəcək. Prezident İlham Əliyev bu mötəbər tədbirin müzakirələr üçün maraqlı gündəliyinin olduğunu dedi. Forum iştirakçıları arasında çox tanınmış şəxslərin olduğunu və həmin şəxslərin sayının ildən-ilə artdığını deyən dövlətimizin başçısı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətini yüksək qiymətləndirdi.

Nümayəndə heyətinə göstərilən diqqətə görə Prezident İlham Əliyevə təşəkkürünü çatdıran Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti Vayra Vike-Freyberqa qeyd etdi ki, əsası beş il əvvəl qoyulan Bakı Forumu böyük uğurlar qazanıb. Qonaq dedi ki, Azərbaycan dövlətinin başçısının qeyd etdiyi kimi, Bakı Forumuna maraq ildən-ilə artır. O, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətini dəstəklədiyinə görə dövlətimizin başçısına təşəkkürlərini çatdırdı. "Biz Nizami Gəncəvinin və Azərbaycanın dostlarıyıq, işimizi həvəslə görürük", - deyən Vayra Vike-Freyberqa bundan sonra da səylərini əsirgəməyəcəklərini söylədi. Mərkəzin həmsədri dünyanın müxtəlif ölkələrini təmsil edən nüfuzlu qonaqların burada iştirak etdiklərini və Forumun səmərəli dialoqa hərtərəfli imkan yaradacağını vurğuladı.

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nümayəndə heyətinin səyləri və təşəbbüslərini yüksək qiymətləndirdi, onların fəaliyyətinin Qlobal Bakı Forumu kimi geniş beynəlxalq toplantının keçirilməsinə imkan yaratdığını qeyd etdi.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

*15 mart 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV V QLOBAL BAKI FORUMUNUN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Beynəlxalq münasibətlərin gələcəyi: güc və maraqlar" mövzusuna həsr olunan Forumun açılış mərasimində iştirak ediblər.

Beşinci Qlobal Bakı Forumunda 56 ölkədən 300 nəfərədək nümayəndə, o cümlədən müasir dünya siyasətinin yönləndirilməsində, bir çox regional proseslərin qiymətləndirilməsində mühüm rolu olan çox nüfuzlu dövlət xadimləri, siyasətçilər, elm adamları, siyasi ekspertlər iştirak edirlər.

Forumun nüfuzlu qonaqları arasında Latviya Prezidenti Raymonds Veyonis, Makedoniya Prezidenti Georgi İvanov, Albaniya Prezidenti Buyar Nişani, Monteneqro Prezidenti Filip Vuyanoviç, Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili, Səudiyyə Ərəbistanı Şahzadəsi, Kral Faysal Araşdırma və İslami Çalışmalar Mərkəzinin sədri Turki əl-Faysal da var. İki gün davam edəcək Forum Azərbaycan həqiqətlərinin təbliğində və ölkəmizə yeni dostlar qazandırmaqda, lobbi quruculuğunda əhəmiyyətli rola malikdir. Qlobal Bakı Forumu Azərbaycanı tanıtmaq, ölkəmizlə bağlı həqiqətləri dünyaya çatdırmaq üçün çox mühüm və əlverişli platformadır.

Misirin İsgəndəriyyə Kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri **İsmail Serageldin** Prezident İlham Əliyevə bu Foruma ev sahibliyi etdiyinə görə təşəkkürünü bildirərək dedi:

-Zati-aliləri, xanımlar və cənablar. Bakıya xoş gəlmisiniz. Mənim adım İsmayıl Serageldindir. Mən Zati-aliləri Prezident İlham Əliyevin rəhbərliyi ilə, bizə onun verdiyi ilham mənbəyi, dəstəyi və baxışının bir təcəssümü olaraq keçirilən bu tədbirin təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin həmsədriyəm. İşimizə başlamaq üçün bizə Prezident İlham Əliyevin nitqini dinləmək şərəfi nəsib olmuşdur. Cənab Prezident, buyurun.

Dövlətimizin başçısı V Qlobal Bakı Forumunun açılışında nitq söylədi.

## PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

Xanımlar və cənablar.

Hörmətli dostlar.

Əvvəlcə, bu gün bizimlə birlikdə olduqlarına görə Forumun bütün iştirakçılarına təşəkkürümü bildirmək istəyirəm. Beşinci Bakı Beynəlxalq Forumu artıq ənənəvi foruma çevrilmişdir. Artıq beşinci dəfədir ki, biz bu mühüm beynəlxalq tədbiri təşkil edirik. Eyni zamanda, mən fürsətdən istifadə edərək, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, onun idarə heyəti və həmsədrlərinə - xanım Freyberqaya və cənab Serageldinə minnətdarlığımı ifadə edirəm. Onların əhəmiyyətli fəaliyyəti və verdikləri töhfə nəticəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal beynəlxalq təsisata çevrilmişdir. O, olduqca fəal və səmərəli fəaliyyət göstərir və bugünkü Forum həmin fəaliyyətin bir istiqamətidir.

Mən burada 50-dən artıq ölkəni təmsil edən iştirakçıları salamlayıram. Ümumi qonaqlarımızın sayı isə 260 nəfərdir. Hər bir beynəlxalq forumun əhəmiyyəti və gələcəkdə qərarların qəbul edilməsi prosesinə təsiri müzakirə olunan mövzularından, daha çox isə kimlərin iştirak etməsindən asılıdır. Burada iştirakçılar arasında 40-dan çox fəaliyyətdə olan və sabiq prezident, baş nazir və parlament sədrləri var.

Bu, bizim toplantının yüksək səviyyəsini və bu günlərdə Bakıda keçirilən bu tədbirdə maraqlı müzakirələr aparılmasını və dəyərli fikirlərin səslənməsini əvvəlcədən müəyyən edir.

Azərbaycan artıq bir çox mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edib. Bu tədbirlər beynəlxalq gündəlikdə duran məsələlərin müzakirəsi baxımından böyük əhəmiyyət kəsb edir. Bununla yanaşı, Azərbaycan müstəqil ölkə olaraq nisbətən gənc dövlətdir. Biz ötən il müstəqilliyimizin bərpasının 25 illiyini qeyd etmişik. Bizim beynəlxalq və regional fəaliyyətimiz, bütün regiona müsbət təsir göstərən təşəbbüskarı olduğumuz müxtəlif layihələr ölkəmizin dünyaya təqdim edilməsi üsullarından biridir. Əlbəttə, Bakı Qlobal Forumu kimi böyük beynəlxalq tədbirlər də həmin fəaliyyətimizin bir hissəsidir.

Təəssüf ki, Bakıda sonuncu görüşümüzdən bəri dünya heç də daha təhlükəsiz olmayıb. Hələ də regionumuzda həll olunmamış münaqişə, qarşıdurma və müharibələr var. Bu isə olduqca təhlükəli tendensiyadır.

Azərbaycan yerləşdiyi regionda sabitləşdirici amil rolunu oynayır. Bizim təşəbbüslərimiz regional əməkdaşlıq, proqnozlaşdırılabilmə və regionumuzda təhlükəsizlik tədbirlərinin güclənməsinə yönəldilib. Lakin biz adada yaşamırıq və sərhədlərimizdən kənarda, bilavasitə qonşuluğumuzda mövcud olan vəziyyət bizdə narahatlıq doğurur.

Qeyd etdiyim kimi, biz hələ də çox ciddi çağırışlar, müharibə, münaqişə və miqrant böhranı ilə üzləşirik. Bu, böyük bir humanitar fəlakətdir. Eyni zamanda, miqrant böhranı, mən deyərdim ki, dünyanın müxtəlif regionları arasında anlaşmanın azalmasına səbəb olur. Çünki o, miqrantların üz tutduğu ölkələrin əhalisi üçün müəyyən narahatçılıq yaradır. Ancaq bu, yalnız baş verən hadisələrin nəticəsidir. Həmin miqrant böhranının əsas səbəbi ölkələrin daxili işlərinə kənardan siyasi və hərbi müdaxilədir.

Beş-on il bundan əvvəl miqrant böhranı baş vermirdi. Bu, yaxın keçmişdə məhz qeyd etdiyim səbəblər üzündən baş verməyə başladı. Hesab edirəm ki, bu, Yaxın Şərq dövlətləri ilə bağlı düşünülməmiş siyasətin nəticəsidir.

Bu isə öz növbəsində miqrantların üz tutduğu ölkələrdə ilkin olaraq cəmiyyətin, daha sonra isə siyasi elitanın radikallaşması ilə nəticələnir. Beləliklə, təəssüflər olsun ki, seçki kampaniyaları zamanı ən cəlbedici siyasi şüarlar milliyyətçi və antimiqrant ruhuna çox yaxındır. Biz son aylar və illər ərzində bunun şahidi oluruq və bu, artıq bir tendensiyaya çevrilib ki, həmin tendensiya vəziyyətin inkişafını əvvəlcədən müəyyən edir.

Bu səbəbdən hesab edirəm ki, qlobal gündəlikdə duran mühüm məsələlərdən biri həmin tendensiyanın istiqamətini dəyişdirməkdir. Özgələşdirmə və siyasi qarşıdurma, habelə sivilizasiyalararası dialoqun inkar olunması əvəzinə, daha çox əməkdaşlıq, qarşılıqlı anlaşma və hörmətə üstünlük verilməlidir.

Azərbaycanın yerləşdiyi coğrafiya ölkəmizin regionda oynadığı rolu bir növ əvvəlcədən müəyyən edir və biz mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa töhfəmizi veririk.

Azərbaycan özü də erməni təcavüzü, ərazimizin işğalı nəticəsində müharibə və humanitar fəlakətdən əziyyət çəkir. Bu işğal 20 ildən artıqdır ki, davam edir və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi - Dağlıq Qarabağ və ətraf yeddi rayon erməni işğalı altındadır.

Orada bütün infrastruktur dağıdılmış, bütün tarixi və dini abidlərimiz isə məhv edilmişdir. ATƏT oraya faktaraşdırıcı iki missiya çərçivəsində nümayəndə və müşahidəçi göndərmişdir. Onların hesabatlarında aydın bildirilir ki, orada bütün tikililər, Azərbaycanın tarixi irsi tamamilə məhv edilmişdir.

Bu münaqişə Ermənistanın öz qonşusuna qarşı təcavüzünün, habelə separatçılığın və müharibənin nəticəsidir. Bir milyon azərbaycanlı bundan əziyyət çəkir, qaçqın və məcburi köçkünə çevrilmişdir. Bu rəqəm isə dünyada adambaşına düşən qaçqın sayına görə ən yüksək göstəricilərdəndir.

Bu gün Azərbaycan əhalisinin sayı 10 milyona yaxındır. Münaqişə başlayanda bu rəqəm 8 milyona bərabər idi. Yəni 8 milyonun 1 milyonu 1990-cı illərin əvvəlində yurd-yuvasından məhrum edildi. Bu, gənc bir dövlət üçün çox ciddi siyasi, iqtisadi və sosial problem idi. Çünki həmin vaxt Azərbaycan yoxsul ölkə idi, iqtisadi xaos hökm sürürdü və gələcək iqtisadi inkişaf üçün vasitələr mövcud deyildi. Bundan əlavə isə işğal edilmiş ərazilərdən gəlmiş 1 milyon insanın ehtiyaclarını təmin etmək lazım idi.

Əlbəttə, o zamandan bəri Azərbaycan inkişaf etmişdir və biz soydaşlarımız üçün lazımi yaşayış şəraiti yaratmaq iqtidarındayıq. Ancaq münaqişə həll olunmamış qalır.

Bütün mötəbər beynəlxalq təşkilatlar müvafiq qətnamə və qərarlar qəbul etmişlər ki, orada Ermənistan qoşunlarının işğal edilmiş torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Dünyanın ən ali beynəlxalq qurumu olan BMT Təhlükəsizlik Şu-

rası 4 qətnamə qəbul etmişdir və burada sitat gətirmək istəyirəm, "dərhal və qeyd-şərtsiz olaraq Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılması" tələb olunur.

Lakin həmin qətnamələr kağız üzərində qalır, Ermənistan onlara məhəl qoymur və onların qəbul edilməsindən artıq 25 il keçib. Bütün bunlar bir tərəfdən beynəlxalq qurumlar, xüsusilə də BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən qərarların icrası mexanizminin mövcud olmamasını nümayiş etdirir. Digər tərəfdən, bu, bir daha ardıcıl mövqeyin olmamasını göstərir. Çünki biz yaxşı bilirik ki, bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qərarları bir neçə gün, hətta bir neçə saat içərisində icra olunur. Bizə gəldikdə isə artıq 25 il keçir və hələ də irəliləyiş yoxdur, qaçqın və məcburi köçkünlərimiz hələ də doğma torpaqlarına qayıda bilmirlər.

Biz bunu ikili standartlar siyasəti hesab edirik. Təəssüflər olsun, ümumilikdə bu gün dünyada baş verənlər onu nümayiş etdirir ki, ikili standartlar siyasəti beynəlxalq münasibətlərdə standart bir yanaşmaya çevrilib. Beynəlxalq hüquq və normalar müxtəlif dövlətlər tərəfindən öz istəkləri və cari siyasi maraqlarına uyğun təhrif olunur.

Hesab edirəm ki, BMT çərçivəsində islahatlar və ümumiyyətlə beynəlxalq təşkilatların qərarlarının icrası barəsində danışarkən məhz bu məsələyə diqqət yetirməyimiz çox vacibdir.

Qərarlar qəbul olunub icra edilmirsə, müəyyən çətin vəziyyətdə olan və əziyyət çəkən ölkənin vəziyyəti daha da pisləşir. Ancaq bu, həm də bütün dünya üçün bir təhlükədir. Bu o deməkdir ki, ərazi işğalı məqsədilə istənilən ölkə real vəziyyəti zorla dəyişərək milyonlarla insana əzab verə, nəticədə isə cəzasız qala bilər.

Bu səbəbdən biz dəfələrlə bu məsələni müxtəlif dövlətlər və beynəlxalq təşkilatlar qarşısında qaldırmışıq ki, bu təcavüz, işğal və dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş hərbi cinayətlərə görə Ermənistana sanksiyalar tətbiq edilməlidir. Bax, o zaman bu, ədalət və vahid standartın göstərici olacaqdır.

Bəzi hallarda müəyyən ölkələr sanksiyalara məruz qalır, digər hallarda isə bu, baş vermir. Münaqişənin həlli beynəlxalq hüquqa əsaslanmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli və əhalimiz doğma torpaqlarına qayıtmaq hüququna malik olmalıdır.

Bu, region üçün təhlükədir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi sülh və sabitliyə daimi təhlükədir. Biz münaqişənin sülh yolu ilə həllini arzulayırıq. Ancaq biz onun real həllini istəyirik. Ermənistan isə status-kvonun saxlanılmasını istəyir və vasitəçilərin - BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü olan Fransa, Rusiya və ABŞ-ın mühüm bəyanatlarına məhəl qoymur. Həmin dövlətlərin rəhbərləri dəfələrlə status-kvonun qəbuledilməz və onun dəyişməli olduğunu bəyan etmişlər. Status-kvonun dəyişməsi isə işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi prosesinə başlanılması deməkdir.

Bu böyük çətinliyə və qeyd etdiyim kimi, humanitar böhrana baxmayaraq, Azərbaycanın inkişafı dinamik və dayanıqlı olmuşdur. Bizim ölkənin iqtisadi transformasiya sahəsində böyük nailiyyətləri var və 25 illik azadlıq və müstəqillik dövrü nümayiş etdirir ki, Azərbaycan xalqı yalnız müstəqil olaraq yaşamağı və gələcəyini qurmağı deyil, müxtəlif sahələrdə uğur qazanmağı da bacarır.

Azərbaycanın, xüsusilə də son illər ərzindəki iqtisadi göstəricilərinə nəzər salsanız görərsiniz ki, bizim iqtisadi sahədəki nailiyyətlərimiz onu göstərir ki, güclü siyasi iradə, səfərbər olunmuş cəmiyyət, iqtidar və xalq arasında birlik mövcud olduğu halda hətta münaqişə, işğal və o qədər də sadə olmayan geosiyasi mühit şəraitində belə bir çox nailiyyətlər əldə etmək mümkündür.

Bizim iqtisadiyyatımız dayanıqlı inkişaf nümayiş etdirir. Xarici borcumuzun səviyyəsi olduqca aşağıdır – ümumi daxili məhsulun 20 faizi qədərdir. Bu da bugünkü dünya

üçün bir az qeyri-adidir. Yəni, biz həmişə qazandığımızdan az xərcləməyə çalışmışıq və bizim xarici valyuta ehtiyatımız xarici borcumuzdan 5 dəfə artıqdır.

Beləliklə, Azərbaycan müxtəlif layihələr üçün böyük həcmdə maliyyə vəsaiti cəlb edə bilir. Lakin biz xarici borcun səviyyəsini artırmamaq üçün daxili resurslarımızdan istifadə etməyə çalışırıq. Xarici borcun səviyyəsinin aşağı olmasına baxmayaraq, bizim hədəfimiz onu daha da azaltmaqdır.

Regionların geniş inkişaf proqramı sayəsində biz son 14 il ərzində yoxsulluğun səviyyəsini 10 dəfə azaltmağa müvəffəq olmuşuq. Bu gün bu göstərici 6 faiz səviyyəsindədir. İşsizlik də təqribən 5 faiz səviyyəsindədir.

Azərbaycan iqtisadiyyatının neftin qiymətinin kəskin şəkildə aşağı düşməsindən əziyyət çəkməsinə baxmayaraq, həmin vəziyyət bizi iqtisadi islahatların icrası sahəsində daha fəal olmağa məcbur etmişdir və biz qısa zaman ərzində bütün çətinliklərin öhdəsindən gəlməyi bacardıq.

Təsəvvür edin ki, gəlirləriniz 3-4 dəfə azalırsa, bu, istənilən dövlət, istənilən ailə üçün böyük çağırışdır. Çünki ölkələr və insanlar müəyyən həyat tərzinə və inkişaf səviyyəsinə öyrəşir və birdən-birə gəlir kəskin şəkildə, 3-4 dəfə azalır. Yəni, bu, hökumətimiz üçün ciddi bir çağırışdır. Lakin hesab edirəm ki, çətinliklərə baxmayaraq, biz bunun öhdəsindən gələ bildik, halbuki, müəyyən çətinliklər qalmaqdadır.

Düşünürəm ki, neftin qiymətinin aşağı olması şəraitinə uyğunlaşma artıq geridə qalıb və 2017-ci il iqtisadi artım ili olacaqdır. Hətta ötən il, son 14 il ərzində ilk dəfə üzləşdiyimiz iqtisadi tənəzzül zamanı iqtisadiyyatımızın qeyri-neft göstəricilərinə nəzər salsanız artımın şahidi ola bilərsiniz.

Ötən il ərzində qeyri-neft sektorumuz 5 faiz, kənd təsərrüfatımız isə 2 faizdən çox artmışdır. Cari ilin ilk 2 ayı ərzində yenə də qeyri-neft sektorunda 5 faiz, kənd təsərrüfatında isə 3 faiz artım müşahidə edilir. Ümumi daxili məhsul artmağa başlamışdır və bu ilin ilk 2 ayı ərzində qeyri-neft ixracımız təqribən 50 faiz artmışdır.

Beləliklə, uzun illər həyata keçirilən iqtisadiyyatın şaxələndirilməsi siyasəti artıq öz bəhrəsini verir. Qarşıdan gələn illər üçün hədəfimiz ixracın şaxələndirilməsidir. Bizim yeni bazarlara ehtiyacımız var. Əlbəttə, yeni bazarlara çıxış əldə etmək üçün biz, ilk növbədə, cəlbedici bazar hesab etdiyimiz həmin dövlətlər ilə yaxşı siyasi əlaqələrə malik olmalıyıq.

Xarici siyasət sahəsində Azərbaycan regionda və dünyada güclü mövqeyə malikdir. Beynəlxalq ictimaiyyət bizə hörmətlə yanaşır. Çünki biz müstəqil siyasət aparırıq və hər zaman vədlərimizə sadiqik. Yəni, biz etibarlı tərəfdaşıq və bütün qonşular ilə yaxşı, eyni zamanda, praqmatik əlaqələr qura bilmişik. Bu əlaqələr tarix, dostluq, qarşılıqlı maraq, qarşılıqlı hörmət, habelə bir-birinin işlərinə müdaxilə etməmək prinsiplərinə söykənir.

Regional əməkdaşlıq və bütün qonşularımız ilə münasibətlərimiz bizim üçün mühüm əhəmiyyət kəsb edir. Məncə bunu hər bir ölkəyə şamil etmək olar. Bir dövlətin qonşusu ilə hər hansı bir problem varsa, burada hər iki tərəf əziyyət çəkir.

Bu səbəbdən Ermənistan istisna olmaqla bizim bütün qonşularımız ilə çox yaxşı əlaqələrimiz var. Biz çoxlu sayda enerji, nəqliyyat, ticarət və mədəniyyət layihələri həyata keçiririk ki, onlar xalqlarımızı daha da yaxınlaşdırır.

Biz Avropa İttifaqına üzv olan dövlətlərlə sıx əlaqələr yaratmışıq. Onların 9-u, yəni, üçdəbiri ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında saziş imzalanıb və ya qəbul edilib. Hesab edirəm ki, bunun özü də böyük nailiyyətdir. Bir çox Avropa ölkəsi Azərbaycanı strateji tərəfdaş kimi qəbul edir.

Bu, yalnız enerji ehtiyatlarına görə deyil. Bizim əməkdaşlığımız daha geniş sahələri əhatə edir. Ötən ay biz Avropa Komissiyası ilə yeni sazişin müzakirəsinə başlamışıq. Bu, tərəfdaşlıq sazişi olacaqdır və fəaliyyətimizin bir çox sahələrini əhatə edəcəkdir.

Belə bir siyasət bəzən tarazlaşdırılmış siyasət adlandırılır. Bəlkə də bu, məqbul termindir. Ancaq hesab edirəm ki, bu, dövlətimizin milli maraqları üzərində qurulan siyasətdir. Milli maraqlarımız isə onu diktə edir ki, biz münasibətlərimizi real yanaşma üzərində qurmalıyıq və əlçatmaz hədəflər müəyyən etməməliyik ki, sonradan məyus olmayaq.

Bunu Avropa İttifaqı ilə əlaqələrimizə də şamil etmək olar. Biz olduqca real hədəflər müəyyən etmişik və müzakirələr zamanı görürük ki, həmkarlarımız da artıq Azərbaycanla bağlı real yanaşma nümayiş etdirirlər.

Yəni, Avropa İttifaqı ilə assosiasiya sazişini imzalamaq əvəzinə, - hansı ki, səmimi danışsaq, heç bir real nəticə verə biləcək müqavilə deyildi, - biz fərqli yol ilə getməyə və tərəfdaşlıq sazişinin işlənib hazırlanmasına üstünlük verdik. Bunu həm də strateji tərəfdaşlıq sazişi adlandırmaq olar ki, o, balanslı, qarşılıqlı faydalı və praktik nəticə verə bilən sənəd olacaqdır.

Çünki nəticəsiz siyasət populizmdir. Bizim isə bu işlərə itirəcək vaxtımız yoxdur. Biz siyasətimizi real vəziyyətə uyğun qururuq. Bəzən biz vəziyyəti dəyişməyə müvəffəq oluruq. Azərbaycan həm də bəzi dövlətlər arasında problemlərin olduğu vaxtda kommunikasiya baxımından sabitləşdirici amil rolunu oynayır.

Bu, çox yaxın keçmişdə də baş vermişdir. Qonşularımız arasında anlaşılmazlıq və müəyyən toqquşma olduğu zaman biz həmişə öz töhfəmizi verməyə çalışırıq. Azərbaycan isə öz siyasəti baxımından, sözün əsl mənasında, müstəqil dövlət hesab edildiyindən biz uğur qazana bilmişik.

Ötən ay burada - Bakıda baş vermiş bir hadisəni də qeyd etmək istərdim. ABŞ-ın yeni administrasiyasının hərbi komandanlığı, yəni, ABŞ ordusunun baş qərargah rəisi ilə Rusiyanın baş qərargah rəisi ilk dəfə olaraq Bakıda görüşdülər.

Azərbaycanın bu görüş üçün məkan kimi seçilməsi bir daha mənim sözlərimin təsdiqidir. Halbuki bu, bizim təşəbbüsümüz deyildi və hər iki tərəf bizə bununla bağlı müraciət etmişdir.

Azərbaycan etibarlı tərəfdaş hesab olunur. Böyük dövlətlər ona hörmətlə yanaşır və onun müstəqil siyasəti artıq bir reallıqdır. Bu, yüksək qiymətləndirilir. Çünki tərəfdaşın hər zaman proqnozlaşdırıla bilən olması satelit ölkə olmasından yaxşıdır. Bizim qonşuluğumuzda satelit ölkə var. Ancaq bu, müvəffəqiyyət və hörmət gətirmir.

Gələcəkdə də xarici siyasətə gəldikdə bizim siyasətimiz praqmatizm, milli maraqlar və təhlükəsizliyimiz üzərində qurulacaq. Biz terrorçuluqla mübarizədə çox fəal iştirak edirik. Azərbaycan 2001-ci ildən Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edən etibarlı tərəfdaşdır. İlk gündən etibarən orada bizim hərbçilərimiz xidmət edir.

Biz çox vacib olan "Şimal Paylaşma Şəbəkəsi" adlanan nəqliyyat şəbəkəsinin də fəaliyyətini təmin edirik. Bu istiqamətdə NATO uçuşları üçün hava məkanımızı təqdim etmişik. Bu isə sülhməramlı əməliyyatlara mühüm töhfədir. Azərbaycan NATO-ya üzv olmayan bir neçə ölkədən biridir ki, Əfqanıstan hökumətinə ciddi hərbi və iqtisadi yardım göstərir.

Sizə nəqliyyat sahəsində cərəyan edən son hadisələr haqqında məlumat vermək istərdim. Bu, bizim daxili məsələmiz deyil. Çünki bizim regionda təşəbbüskarı olduğumuz bu layihələr artıq genişlənir və qlobal layihələrə çevrilir.

Biz tərəfdaşlarımız – Gürcüstan və Türkiyə ilə dəmir yolunun inşasının təşəbbüskarı olduq. Bu dəmir yolu üç ölkəni və qitələri birləşdirir. Biz qarşılıqlı ticarət dövriyyəmizi bu dəmir yolu xətti olmasa belə artıra bilərdik. Ancaq bu dəmir yolu Asiyanı Avropa ilə birləşdirməyə lazımdır. Bu, ən qısa nəqliyyat marşrutudur. Ola bilsin ki, qiymət baxımından bu, ən ucuz marşrut deyil və biz tariflərin aşağı salınması üzərində çalışırıq. Lakin bu, ən qısa marşrutdur və yüklərinin qısa biz zamanda nəql edilməsinə üstünlük verən şirkətlər bu nəqliyyat şəbəkəsindən mütləq istifadə edəcəklər.

Şərq-Qərb nəqliyyat dəhlizi əməkdaşlıq və biznes dəhlizidir. Bu layihə artıq Azərbaycanda və qonşu ölkələrdə minlərlə yeni iş yeri yaratmaqdadır və ölkələrimizə böyük mənfəət gətirəcəkdir. Əlbəttə, bizim tranzit ölkə kimi də rolumuz artacaqdır.

Bu layihəni ilhamlandıran enerji şaxələndirilməsinin təmin edilməsi idi. Bir daha qeyd edim ki, biz bu layihəni gürcü və türk qonşularımızla birlikdə icra etməyə başladıq. Hazırda o, genişlənir və artıq bir sıra neft və qaz kəmərlərinin inşası nəticəsində çoxlu sayda ölkələr bu prosesdə iştirak edirlər.

İlk layihə Azərbaycanı Qara dəniz limanları ilə birləşdirən neft kəməri idi. Növbəti kəmər bizi Aralıq dənizindəki liman ilə birləşdirdi. Nəhayət, növbə qazpaylayıcı infrastrukturun yaradılmasına çatdı ki, bu da uğurla həyata keçirilir.

Artıq 7 ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və Albaniya Cənub Qaz Dəhlizinin üzvüdür. Daha üç Balkan ölkəsi – Xorvatiya, Monteneqro və Bosniya-Herseqovina isə layihənin növbəti mərhələsində bizim tərəfdaşlarımız olacaq.

Bu, həqiqətən də XXI əsrin layihəsidir və onun dəyəri 40 milyard dollardır. Bu layihə Azərbaycan tərəfindən irəli sürülüb və tərəfdaşlarımız, Avropa Komissiyası tərəfindən dəstəklənib. Hətta son iki il ərzində neftin qiymətlərinin aşağı olduğu bir vaxtda bu layihə uğurla həyata keçirilir və onun icrası ilə bağlı bizim maliyyə öhdəliklərimizin ödənişi baxımından heç bir gecikmə olmamışdır. Sərmayələr Xəzər dənizində yerləşən nəhəng qaz yatağı ilə bağlıdır və bu, Bakıdan İtaliya sahillərinə qədər uzanan, bir-biri ilə əlaqəli 3 kəmərdən ibarət vahid bir sistem layihəsidir.

Bu, enerji təhlükəsizliyinə töhfədir. Eyni zamanda, bu, regional əməkdaşlığa töhfədir. "Cənub Qaz Dəhlizi" layihəsinə üzv olan ölkələr artıq təbii, uzunmüddətli tərəfdaşlara çevrilmişlər. Yəni, biz burada Qafqazda və Türkiyədə olan müsbət regional əməkdaşlığı Avropa, Avropa İttifaqı istiqamətində apara bilmişik. Bu isə, öz növbəsində, bənzərsiz bir əməkdaşlıq formatı yaradır.

Artıq üçüncü dəfədir ki, hər ilin fevralında Bakıda biz Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclasını təşkil edirik. Bu il də belə bir toplantı keçirildi və Şuranın bütün üzvlərinin iştirakı ilə qəbul edilmiş yekun bəyanatda Azərbaycanın aparıcı rolu bir daha qeyd olundu.

Biz həmin layihələrin təşəbbüskarı olduq. Biz qonşuları və tərəfdaşları dəvət etdik və artıq yaxşı nəticələrin şahidi oluruq. İstər nəqliyyat, istərsə də enerji sektorunda təşəbbüskarı olduğumuz heç bir layihə uğursuz olmamışdır. Çünki onların hər biri real yanaşma üzərində qurulmuşdur. Onların heç biri səs-küy salmaq, özümüzü tərifləmək və ya populist ideyalar vasitəsilə potensialımızı nümayiş etdirmək naminə irəli sürülməmişdir.

Bizim potensialımız nümayiş etdiriləndən daha genişdir. Biz imkan olan hər yerdə Azərbaycanı göstərməyə çalışmırıq. Biz ev tapşırığımızı yerinə yetiririk və zaman göstərir ki, biz düzgün seçim etmişik.

Bu gün qeyd etmək istədiyim son məsələ bizim mədəniyyətlərarası dialoqa olan töhfəmizdir. Bu gün burada demək olar ki, bütün qitələrin nümayəndələri var. Burada 56 ölkənin nümayəndəsi var ki, bu da BMT-yə üzv olan dövlətlərin dördəbiri deməkdir.

İki aydan sonra Azərbaycan IV Dünya Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi edəcəkdir. Bu da bir ənənəvi tədbirə çevrilmişdir və onun həmtəşkilatçıları UNESCO, ISESCO, Avropa Şurası, Dünya Turizm Təşkilatı və BMT-nin Sivilizasiyalar Alyansı kimi beynəlxalq təşkilatlardır. Yəni, bu, bir qlobal tədbirdir, mən deyərdim ki, dünyada mədəniyyətlərarası və dinlərarası dialoq məsələlərinin müzakirəsinə həsr edilmiş bənzərsiz bir tədbirdir.

Azərbaycanın seçilməsi yalnız bizim bu tədbirin təşəbbüskarı olmağımız ilə bağlı deyil. Bu, bizim sivilizasiyalar və dinlər arasında oynadığımız körpü rolu ilə bağlıdır.

Azərbaycanda dini dözümlülük və multikulturalizm ənənəsi artıq kifayət edir ki, biz belə bir müsbət tədbirin mərkəzində olaq.

Biz həmin foruma və bu hərəkata böyük əhəmiyyət veririk. Çünki bu gün dünyanın məhz buna ehtiyacı var. Çıxışımın əvvəlində dediyim kimi, təəssüflər olsun ki, biz dialoq haqqında danışırıq, ancaq əslində özgələşdirmənin şahidi oluruq. Tolerantlıq haqqında danışırıq, ancaq nifrətin şahidi oluruq. Bunlar artmaqdadır və bu, hamımız üçün təhlükədir. İstər bunun baş verdiyi ölkələr olsun, istərsə də bundan əziyyət çəkənlər üçün.

Bu səbəbdən Azərbaycanın mədəniyyət körpüsü rolu olduqca vacibdir. Eyni zamanda, bu gün ölkəmizin müsbət, dayanıqlı, təhlükəsiz və sabit inkişafı onu nümayiş etdirir ki, yalnız qarşılıqlı etimad və multikulturalizm, habelə başqalarının ənənə, din və kökünə hörmət ruhunda uğura imza atmaq olar.

Azərbaycan çoxkonfessiyalı və çoxmillətli ölkədir və bu, bizim böyük sərvətimizdir. Biz nümayiş etdiririk ki, yalnız bu yolla inkişaf etmək olar. Özünütəcrid, nifrət hisslərinin bəslənilməsi və ya özünün digərlərindən üstün tutulması bumeranq effekti verəcək və nəticədə bu işlə məşğul olanların özlərinə xələl gətirəcək.

Bu gün bizimlə birlikdə olduğunuza görə sizə bir daha təşəkkür edirəm və Forumun işinə uğurlar arzu edirəm.

* * *

Beşinci Qlobal Bakı Forumu işini martın 16-da iclaslar və plenar panellərlə davam etdirdi.

***16 mart 2017-ci il***

## PREZİDENT İLHAM ƏLİYEV V QLOBAL BAKI FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLƏN ZİYAFƏTDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirak etdikləri ziyafətdə Latviya, Makedoniya, Albaniya, Monteneqro və Gürcüstan prezidentləri, Səudiyyə Ərəbistanının şahzadəsi, həmçinin bir sıra ölkələrin sabiq dövlət və hökumət başçıları, dünya siyasətində əhəmiyyətli rol oynayan ictimai-siyasi xadimlər, ekspertlər və mütəxəssislər də var idi.

Qlobal Bakı Forumu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə artıq beşinci dəfədir keçirilir. İki gün davam edəcək builki Forumda beynəlxalq münasibətlərin gələcəyi, münaqişələrin qarşısının alınmasında dialoqun rolu, miqrasiya, multikulturalizm, qlobal təhlükəsizliyin təmin olunması və digər mühüm məsələlər müzakirə olunur. Forumda 50-dən çox ölkədən 300-dək nümayəndə iştirak edir. Artıq Qlobal Bakı Forumu ənənəvi mötəbər tədbirə çevrilib. Bir çox mühüm beynəlxalq tədbirlərin keçirilməsində zəngin təcrübə toplayan Azərbaycan Qlobal Bakı Forumuna da uğurla ev sahibliyi edir. Bu cür tədbirlər ölkəmizin beynəlxalq birliyə təqdim olunması baxımından da vacib əhəmiyyət daşıyır.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti **Vayra VİKE-FREYBERQA** ziyafətdə çıxış edərək dedi:

-Axşamınız xeyir, Zati-aliləri İlham Əliyev.

Zati-aliləri Birinci vitse-prezident xanım Mehriban Əliyeva.

Əziz dostlar, həmkarlar, Qlobal Bakı Forumunu və Nizami Gəncəvi Mərkəzini dəstəkləyənlər.

Hesab edirəm ki, bizi həqiqətən çox böyük qonaqpərvərliklə qəbul etdiyinizə, ürəklərinizi bizə geniş açdığınıza və əvvəllər ölkənizi tanımayanlara ölkənizi təqdim etdiyinizə görə Azərbaycan Prezidentinə səmimi minnətdarlığımı ifadə etməklə hamımızın adından danışmış olaram. Artıq buraya müəyyən müddətdir ki, gələnlər hər səfərdə ölkədəki tərəqqinin, nəzərəçarpan inkişafın şahidi olurlar. Yeni gözəl memarlıq nümunələrini görürlər, Heydər Əliyevin xatirəsinə ucaldılan bu muzey kimi dünya səviyyəli tikililərin şahidi olurlar. Ölkənizin tarixində dahi şəxsiyyət olan Nizami Gəncəvinin əldə etdiyi nailiyyətləri təbliğ edən Mərkəzin təsis olunması ilə bağlı ideyanıza və səylərinizə görə Sizə minnətdarıq.

Beş məşhur poemanın müəllifi Nizami Gəncəvi fikirlərini, mövzularını saysız-hesabsız təqlid edənlər və davamçıları üçün ilham mənbəyi olmuşdur. Ən azı, məsələn, Şekspirin müəllifi olduğu "Romeo və Cülyetta" əsərini qeyd etmək olar. Bu əsərlər çox uzun və keşməkeşli yollarla bir hekayət kimi İtaliyaya, sonra isə İngiltərəyə və dünyanın başqa yerlərinə gəlib çıxmışdır.

Bizə bir araya gəlmək fürsəti yaratdığınıza görə Sizə həqiqətən də minnətdarıq. Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanda olmaqdan həzz aldığımızı söyləsəm hamımızın adından danışmış olaram. Sizin qonaqpərvərliyiniz bizim ürəyimizcədir. Bu qonaqpərvərliyin öz çaları və tərzi var. Biz bunu həqiqətən yüksək qiymətləndiririk. Bu, çox böyük və səxavətli bir addımdır. Buna görə biz Sizə minnətdarıq. Artıq V Bakı Qlobal Forumu keçirilir və buna görə Sizə minnətdarıq. Hər bir forum əvvəlkindən yaxşı olmuşdur. Beləliklə, biz, Sizin burada gördüyünüz kimi bir çox müxtəlif və uzaq yerlərdən olan insanları bir araya gətirən, onlara dünyaya dair baxışını, narahatlıqlarını və hamımızın bir yerdə dünyanı necə daha da yaxşı etmək üçün yaradıcı ideyalarını paylaşmaq imkanını verən tədbirin beynəlxalq müstəvidə davamlı olaraq inkişafını səbirsizliklə gözləyirik. Hesab edirəm ki, qısa müddət ərzində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi çox iş görə bilmişdir. Beş il çox yaxşı bir ildönümüdür, lakin tarix baxımından çox qısa vaxtdır. Bizim Bakı Forumuna əlavə olaraq çoxlu sayda ölkələrdə dəstək proqramlarımız var və bu il biz ilk dəfə Çinə gedəcəyik. Beləliklə, biz dünyada baş verən hadisələr barədə məlumatlıyıq və onlara açığıq.

Əziz dostum və qardaşım doktor İsmail Serageldinin həmsədr olduğu Nizami Gəncəvi Mərkəzinin beynəlxalq idarə heyəti adından beşinci ildönümü münasibətilə bizim Sizə kiçik hədiyyəmiz var. Bu hədiyyədə idarə heyətinin üzvləri və Nizami Gəncəvi Mərkəzini dəstəkləyən digər şəxslərin keçmiş tarixinə və onların Azərbaycan ilə əlaqələrinə nəzər salınır. Ümid edirəm ki, bu hədiyyə Sizin xoşunuza gələcək.

Mən fəxr edirəm ki, Azərbaycan ilə ilkin təmasım Azərbaycanın o zamankı Prezidenti Heydər Əliyevin vasitəsilə olmuşdur. Bu, Baltik dənizi və Qara dəniz ölkələri arasında Yaltada keçirilən çox xüsusi bir görüş idi. Bu görüşü artıq bu gün keçirmək mümkün deyil. Lakin Baltikyanı üç ölkənin prezidentlərinə Stalinə satıldığımız yeri öz gözləri ilə görmək, Stalin, Ruzvelt və Çörçilin oturduğu üç kreslonu görmək üçün Levadiya qəsrinə səfər etmək imkanı verilmişdi. Bu, rəsmi deyildi və təəssüf ki, məndə o günün şəkilləri yoxdur. Çünki biz bunu sadəcə ona görə etdik deyək ki, onlar bizi o realist siyasət dönəmində düşmənlərə bax belə satdılar və qisamüddətli maraqlar üçün zəruri olan siyasətlə məşğul idilər. Ümid edirik ki, bu realist siyasət keçmişdə qalacaq. Biz bunu bu gün müzakirə etdik ki, ölkələrə beynəlxalq hüquqları, suverenliyi və ərazi bütövlüyünə görə hörmət edilməlidir. Biz bilirik ki, Azərbaycan ərazi bütövlüyünə qarşı bu cür hörmətsizlikdən əziyyət çəkən ölkələrdən biridir. Qeyd etməliyəm ki, bütün Avropa İttifaqi ölkələri, o

cümlədən Latviya belə bir ideyanı güclü surətdə dəstəkləyirlər ki, hər bir ölkə öz ərazi bütövlüyünü beynəlxalq hüquqa uyğun şəkildə bərpa etmək hüququna malik olsun.

Böyük məmnuniyyətlə bildirmək istəyirəm ki, bu albomda mənim Prezident Heydər Əliyev ilə gözəl bir şəklim var. Mən bundan qürur duyuram. Biz burada, bu salonda əyləşmiş bir çox insanların inkişaf yolunu, onların Azərbaycan və Sizinlə, Sizin sələfiniz olan görkəmli atanızla əlaqələrini görürük. Beləliklə, xahiş edirik ki, bizim minnətdarlığımızı, təşəkkürümüzü qəbul edin. Arzumuz budur ki, Siz Nizami Gəncəvi Mərkəzinə dəstək olmaqda davam edəcəksiniz. Çünki Nizami Gəncəvi artıq XII əsrdə bu regionu bütün dünyaya tanıtmışdır və bu, uzunmüddətli şöhrət olmuşdur, bunu hələ də təkrar edən olmamışdır.

Latviyanın sabiq Prezidenti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ayrı-ayrı dövlət başçıları ilə görüşlərini əks etdirən fotoşəkillərdən ibarət xatirə albomunu Prezident İlham Əliyevə təqdim etdi.

* * *

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Misirin İsgəndəriyyə Kitabxanasının direktoru **İsmail SERAGELDİN** çıxış edərək dedi:

-Təşəkkür edirəm, xanım Freyberqa.

Hesab edirəm ki, mənim söyləmək istədiyim bütün sözləri siz dediniz. Sizin söylədiklərinizi bir daha təsdiq edərək Prezident Əliyevə bizə verdiyi ilham mənbəyinə görə minnətdarlığımızı və təşəkkürümüzü bildirirəm.

Mən, həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə gələn, Zati-aliləri xanım Mehriban Əliyevaya xüsusi salamlarımı çatdırmaq istəyirəm.

Uzun illər bundan öncə mənə Heydər Əliyev Fondunda Misir ilə Azərbaycan arasında mədəni mübadilənin təşkili məsələlərini xanım Mehriban Əliyeva ilə müzakirə etmək və bunun davamı olaraq səfərləri təşkil etmək şərəfi nəsib olmuşdur. Beləliklə, ümidvaram ki, Azərbaycana gələn zaman Sizinlə daha tez-tez görüşmək şərəfinə nail olacağıq. Əminəm ki, siz kiçik bir təşəbbüsü çox böyük platformaya çevirdiyinə görə bizim minnətdar olduğumuz və rəhbərliyindən ruhlandığımız Zati-aliləri Prezident İlham Əliyevin təməlini qoyduğu bu prosesə daha inamla qatılacaqsınız.

Zati-aliləri, icazə verin qeyd edim ki, biz bu tədbirin gələn il daha möhtəşəm olacağına və bəlkə də üç gün davam edəcəyinə ümidvarıq. Çox sağ olun, cənab Prezident.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti **İlham ƏLİYEV** çıxış edərək dedi:

-Xanım Prezident Vike-Freyberqa, doktor Serageldin, əziz dostlar və qonaqlar.

Əvvəlcə xanım Prezidentə bu dəyərli xatirə üçün təşəkkürümü bildirmək istəyirəm. Atamın dünya liderləri ilə olan fotoşəkilləri. Onların böyük bir hissəsi bu gün buradadır. Onlar 1997-ci ildən bəri çox dəyişməyiblər. Bu hədiyyə üçün çox təşəkkür edirəm.

Xanım Prezident, Siz Heydər Əliyevlə olan görüşünüzü qeyd etdiniz. Bunu bilirəm, çünki o, həmin görüşdən qayıdanda mənə öz təəssüratları və Sizin barədə danışmışdı. Onu Sizin baxışınız, ölkəniz üçün etdikləriniz çox təsirləndirmişdi. Düşünürəm ki, ölkələrimiz arasında bu gün çox yüksək səviyyədə olan əlaqələr bu şəxsi əlaqə vasitəsilə yaranmışdı.

Azərbaycan üçün Heydər Əliyev xalqımızı burada baş verə biləcək bir çox faciəvi hadisələrdən xilas etmiş bir liderdir. O, Azərbaycanın sovet dövründə lideri idi. Daha sonra o, Sovet İttifaqının mərkəzi hakimiyyətində işləyən ilk azərbaycanlı olaraq çox önəmli vəzifə sayılan Sovet İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə yüksəlmişdi. Daha sonra o, təqaüdə çıxdı və 1990-cı ilin yanvarında sovet ordusu Bakıya hücum

etdikdə o, artıq təqaüdçü idi. O, səsini ilk dəfə qaldıranlardan və sovet rəhbərliyini, sovet ordusunu mülki azərbaycanlılara qarşı bu qəddar təcavüzə görə pisləyənlərdən biri idi. Qara Yanvar tariximizdə faciəvi bir hadisədir. Bu faciəvi hadisənin sabahısı biz birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə getdik, o vaxtlar səfirlik yox idi.

Orada yüz nəfərdən çox insanın, o cümlədən qadınların, uşaqların sovet ordusu tərəfindən qəddarlıqla öldürülməsinə, yüzlərlə insanın yaralanmasına və bir çoxunun itkin düşməsinə görə kədərini ifadə etmək, məyusluqlarını və faciəvi anı bölüşmək üçün gələn azərbaycanlılardan ibarət böyük bir kütlə gördük.

O vaxt Heydər Əliyev iki ildən artıq idi ki, təqaüdə çıxmışdı. Biz kütləyə yaxınlaşdıqda insanlar kənara çəkilməyə və binaya daxil olması üçün ona və onu müşayiət edən bizə bir dəhliz açmağa başladılar. Bu, çox emosional bir an idi. Azərbaycanlıların birliyinin rəmzi idi – bu faciə onları birləşdirmişdi. Bu, onun heç vaxt şəxsən görmədiyi və öz növbəsində onu da görməyən insanların ona hörmətinin əlaməti idi.

Onlar ona hörmət göstərdilər, onun heç bir vəzifəsi yox idi. Əksinə, 1990-cı illərin əvvəli idi, sovet ittifaqı hələ də çox güclü idi və kommunist partiyası hər yerdə təsir imkanlarına malik idi. O, təqaüddə idi. Əgər, belə yüksək vəzifədən təqaüdə çıxırdınızsa, siz nəinki ictimai fəaliyyətdən uzaqlaşdırılırsınız, siz həm də mənəvi və fiziki olaraq təcrid edilirsiz. Biz binaya daxil olduq və o, mətbuat konfransı təşkil etdi. Həmin mətbuat konfransının videoları mövcuddur və dəfələrlə göstərilib. O, sovet rəhbərliyini, bu terror hadisəsini törədənləri pislədi. Bundan sonra o, kommunist partiyasından – gənc yaşlarından sıralarında olduğu partiyadan çıxdığını bəyan etdi. Bu, onun insanlara yanaşması idi, onun çox cəsarətli hərəkəti idi və o, bir daha nümayiş etdirdi ki, vəzifəsinin olub-olmamasından asılı olmayaraq o, Azərbaycan xalqının lideri idi.

Daha sonra biz, əlbəttə, çətinliklərə düşdük. Ailəmizin hamısı, o cümlədən mən işlərimizi itirdik. Bu, bizim taleyimiz idi. Onun üçün Moskvada qalmaq çox təhlükəli idi, çünki onu həbs etmək haqqında planlar var idi. O, Bakıya qayıtdı. O vaxt Azərbaycanın kommunist rəhbərliyi ona qarşı maneələr yaratmağa başladı. Bunun üçün də o, doğulduğu yerə, Naxçıvana qayıtdı. Orada o, özünü təhlükəsizlikdə hiss edirdi, çünki insanlar dərhal onu qəbul etdilər və onu Naxçıvan Muxtar Respublikasının lideri seçdilər. Fikrimcə, bu, sovet dövründə bir presedent idi, insanlar azad olduqlarını nümayiş etdirdilər. Onlar göstərdilər ki, mərkəzi sovet hökuməti artıq onların iradəsinə nəzarət edə bilmir. Azərbaycanın kommunist rəhbərliyi sadəcə olaraq heç nə edə bilmirdi. Onlar insanların iradəsi önündə gücsüz idilər. Əslində, bu, bizim müstəqilliyə aparan yolumuzun başlanğıcı idi. O, Naxçıvan Muxtar Respublikasının parlamentinin sədri seçildi. Eyni zamanda, Azərbaycan parlamentinə seçkilər keçirildi, o, Azərbaycan parlamentinin üzvü seçildi. Bu dövr çox çətin idi. İqtisadi vəziyyət çox pis idi. O, müstəqilliyə yol açan çox vacib üç qərar qəbul etdi. Naxçıvan Muxtar Respublikası o vaxt Naxçıvan Sovet Sosialist Muxtar Respublikası adlanırdı. Parlamentin qərarı ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı.

İkinci qərar, yadınızdadırsa, sovet ittifaqının saxlanması haqqında referendum keçirilirdi. Əfsuslar olsun ki, Bakıdakı hökumət bu referendumu təşkil etdi və nəticələr çox qəribə idi. İnsanların azad olmaq istəməsinə baxmayaraq, guya əksəriyyəti sovet ittifaqının saxlanılmasına səs vermişdi. Beləliklə, Heydər Əliyev bu referendumun Naxçıvanda keçirilməsinə icazə vermədi.

Üçüncü qərar isə onun Naxçıvan Muxtar Respublikasının parlamentinin sessiyasına 1918-ci ildə yaradılmış Azərbaycan Demokratik Respublikasının bayrağını gətirərək onu Naxçıvanın dövlət bayrağı elan etməsi idi. Eyni zamanda, o, Azərbaycan parlamentinin üzvlərindən eyni qərarın qəbul olunmasını xahiş edən bir bəyanat qəbul etdi. Əfsuslar

olsun ki, onlar bu qərarı qəbul etmədilər və Sovet Azərbaycanının bayrağı müstəqil Azərbaycanın bayrağına ancaq sovet ittifaqı dağıldıqdan sonra dəyişdirilmişdir. Bunlar tamamilə bütün həyatını ancaq xalqına həsr etmiş bir liderin ata biləcəyi addımlar idi. Biz bununla qürur duyuruq. Tariximizlə qürur duyuruq. Mən atamla qürur duyuram. Düşünürəm ki, indi həyatda olsaydı, o da bu ölkə ilə qürur duyardı. Bu gün Azərbaycan güclü mövqeyi, özünü təmin edən, sözün əsl mənasında özünə inanan, çoxlu dostları, dünyaya açıq olan və gələcəyə nikbinliklə baxan, özünü artıq dünya xəritəsində göstərmiş bir ölkədir.

Xanım Prezidentə, cənab Serageldinə və bütün dostlarımıza bu gün bizimlə birlikdə olduqlarına görə çox təşəkkür edirəm. Bu səhər də dediyim kimi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi artıq çox mötəbər beynəlxalq bir instituta çevrilib. Nizami dünyada məşhur olan şəxsiyyətdir, ancaq indi Mərkəzin fəaliyyəti onu dünyada daha da məşhurlaşdırır. Mərkəz nə qədər böyük olsa, imkanları nə qədər çox olsa, Nizami Gəncəvini tanımayan insanlar belə bir böyük beynəlxalq Mərkəzin adını daşıdığı şəxsiyyətin kim olduğunu bir o qədər də çox öyrənməyə çalışacaqlar.

Əlbəttə, Nizami hər bir azərbaycanlı üçün milli ləyaqət, milli qürur rəmzidir. O, qədim Azərbaycan şəhəri Gəncədə anadan olub və orada da vəfat edib. Onun türbəsi Azərbaycan xalqının istedadının, insaniyyətinin rəmzidir.

Forumdakı fəaliyyətinizə görə sizə bir daha təşəkkür edirəm. Sizin gündəlik şəxsi öhdəlik və fəaliyyətiniz olmadan Forum bu cür mötəbər beynəlxalq hadisəyə çevrilə bilməzdi. Əlbəttə, ümid edirik ki, gələn il daha çox ölkədən daha çox qonağımız olacaq və biz tərəfdaşlığımıza davam edəcəyik. Çox sağ olun və sizə Bakıda yaxşı vaxt keçirməyi arzu edirəm.

* * *

Beşinci Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə verilən ziyafətdə Azərbaycanın incəsənət ustalarının ifasında konsert proqramı təqdim olundu.

*16 mart 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Novruz şənliyində iştirak ediblər.

Bakıda keçirilən V Qlobal Bakı Forumunun yüksək səviyyəli iştirakçıları da Novruz şənliyinə qatılıblar.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər.

Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnılarının sədaları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.

Bahar qız Azərbaycan Prezidentinə Novruz xonçası təqdim etdi, dövlətimizin başçısına və xanımına bayram münasibətilə təbriklərini çatdırdı.

Dünyanın yaranışını tarixən ilk yaz günü ilə bağlayan xalqımız əsrlər boyu Novruz bayramını əziz tutub. Azərbaycanda hər il mart ayında qeyd edilən Novruz baharın gəlişi, təbiətin canlanması, torpağın oyanması ilə bağlıdır. Bu bayram insanlar arasında birlik

və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər üzərində qurulub. Hər il olduğu kimi, bu il də Azərbaycanda Novruz bayramı təntənə ilə qeyd olunur. Bu da xalqımızın bayram sevincinə gözəl ovqat qatır.

İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.

Ulu Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.

Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.

## PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, bütün Azərbaycan xalqına əmin-amanlıq, yeni uğurlar arzulayıram. Novruz bayramı bizim sevimli bayramımızdır. Əsrlər boyu xalqımız bu bayramı qeyd edir.

Azərbaycan dövləti möhkəm milli-mənəvi dayaqlar üzərində qurulubdur. Biz öz mədəniyyətimizi, incəsənətimizi, ana dilimizi, bayramlarımızı qoruyuruq, yaşadırıq. İyirmi beş illik müstəqillik dövrü onu göstərir ki, ancaq milli köklər üzərində qurulmuş dövlətlər uğur qazana bilər və o dövlətlərin gələcəyi var. Azərbaycan dəyərləri, milli-mənəvi dəyərlərimiz bizim üçün hər şeydən üstündür. Şadam ki, gənc nəsil də bu ruhda, vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə alır və bu gün Vətəni sevən hər bir Azərbaycan vətəndaşı haqlı olaraq Vətəni ilə fəxr edir.

Azərbaycanda əldə edilmiş uğurlar ölkəmizi gücləndirir, gələcəyə nikbinliklə baxmaq üçün əsas verir, eyni zamanda, dünya miqyasında qiymətləndirilir. Daxili vəziyyətimiz sabitdir. Bu sabitliyin qarantı, təminatçısı Azərbaycan xalqıdır, xalq-iqtidar birliyidir. Bizim siyasətimiz xalq tərəfindən dəstəklənir və sabitliyin əsas amili də məhz budur. Hər şey müqayisədə ölçülür.

Bu gün regionumuzda, dünyada yaşanan xoşagəlməz hadisələr, qanlı toqquşmalar, müharibələr, əlbəttə ki, bizi çox narahat edir. Çünki biz təcridolunmuş vəziyyətdə yaşamırıq, bizim bölgəmizdə əgər vəziyyət gərginləşirsə, risklər artırsa, əlbəttə ki, bizə də bunun mənfi təsiri ola bilər. Ona görə bizim əsas vəzifəmiz ölkəmizi, xalqımızı mövcud olan və gələcək risklərdən qorumaqdır və biz buna nail oluruq. Ona görə bu gün ölkəmizdə yaşanan sabitlik, əmin-amanlıq, vətəndaş birliyi, həmrəyliyi əlbəttə ki, bizim böyük sərvətimizdir və biz bunu qoruyuruq. Yenə də qeyd etmək istəyirəm, bunu ancaq xalq-iqtidar birliyi qoruya bilər.

Azərbaycanda təhlükəsizlik təmin edilib, xalqımız rahat şəraitdə, təhlükəsizlik şəraitində yaşayır. Qurub-yaratmaq üçün bütün imkanlar var. İndiki dövrdə həm bölgəmizdə, həm Avrasiya qitəsində vəziyyət əfsuslar olsun ki, gərginləşib. Biz əlbəttə ki, ölkəmizdə mövcud olan təhlükəsizliyi daha da möhkəmləndirməliyik. Azərbaycanda daxili risklər, təhlükələr demək olar ki, yoxdur. Xarici risklərdən isə biz özümüzü qoruyuruq. Biz özümüzü həm fiziki risklərdən, həm mümkün olan ideoloji risklərdən qoruyuruq.

Azərbaycan xalqı bu 25 il ərzində açıq-aydın görür ki, bizim siyasətimiz ən düzgün siyasətdir. Biz öz taleyimizin sahibiyik. Biz siyasətimizi özümüz müəyyən edirik. Biz hər hansı bir kənar təsirə davam gətirə bilirik və yaxın tarix bunu göstəribdir. Eyni zamanda, yaxın tarix onu da göstərib ki, biz əgər hansısa kənar qüvvənin istəyi, diktəsi ilə hərəkət etsəydik, böyük problemlərlə üzləşə bilərdik.

Mən dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, bizim müstəqil siyasətimiz qürur mənbəyimizdir. Bu, onu göstərir ki, Azərbaycan xalqı öz gələcəyini özü müəyyən edir. Eyni zamanda, müstəqil siyasətimiz bizi mövcud olan risklərdən də qoruyur. Hələ 5-6 il bundan əvvəl yaxın bölgələrdə vəziyyət tam başqa idi. Heç kim təsəvvür edə bilməzdi ki, bu bölgələrdə münaqişə, müharibə ocaqları yaranacaq, yüz minlərlə insan həlak olacaq, milyonlarla insan qaçqın-köçkün vəziyyətinə düşəcək. Ancaq bütün bunlar artıq reallıqdır. Nəyə görə bu, baş verdi?! Əlbəttə ki, xarici müdaxiləyə görə. Biz bunu bilirik və mən həmişə bütün bu məsələlərlə bağlı öz mövqeyimi bildirmişəm. Eyni zamanda, o ölkələr müstəqil həyata hazır deyildilər. O ölkələrdə xalq-iqtidar birliyi yox idi. O ölkələrdə kütləvi narazılıq var idi. Ona görə belə acınacaqlı, bədbəxt hadisələr baş verdi. Bütün bunlar bizim gözümüzün önündə baş verir və bir daha həm xalqımıza, həm bütün dünyaya göstərir ki, bu gün Azərbaycan doğrudan da dünya miqyasında öz siyasəti ilə fərqlənən və bir çox ölkələr üçün nümunəyə çevrilən bir ölkədir.

Bizim beynəlxalq mövqelərimiz də möhkəmlənir. Yanvar ayının ortalarından bu günə qədər mənim xarici səfərlərimin coğrafiyasına nəzər salsaq görərik ki, Azərbaycan çoxşaxəli və uğurlu xarici siyasət aparır. Son iki ay ərzində mən 7 dəfə xaricə səfər etmişəm. Azərbaycan dünyanın aparıcı, ən mötəbər Davos Forumunda və Münxen Konfransında ləyaqətlə təmsil olunub. Dünyanın həm biznes, həm də siyasi elitasından bizə olan hörmət göz qabağındadır. Avropa Komissiyasına mənim uğurlu səfərim olubdur. Bu səfər nəticəsində Avropa Komissiyası ilə Azərbaycan arasında yeni sazişlə bağlı danışıqlara start verildi. Onu da qeyd etməliyəm ki, bu da nadir hadisədir. Bu danışıqların aparılması üçün layihəni Azərbaycan təqdim edib və bu layihə qəbul edilibdir. Ümid edirəm ki, yaxın zamanlarda danışıqlarda fəal proses başlanacaq və tezliklə bu mühüm saziş bağlanacaq.

Qətərə, Pakistana, İran İslam Respublikasına mənim rəsmi səfərlərim olubdur. Müsəlman ölkələri ilə bizim əlaqələrimiz möhkəmlənir. Xalqımız yaxşı bilir ki, Azərbaycan İslam həmrəyliyi üçün çox böyük işlər görür, çox böyük töhfələr verir. Bunu İslam aləmi qiymətləndirir. İslam Əməkdaşlıq Təşkilatının rəhbərləri dəfələrlə bizim siyasətimizə ən yüksək qiymət vermişlər. Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının zirvə görüşündə fəal iştirak edib. Biz son 5 ildə bu təşkilata uğurlu sədrlik etmişik. Bu yaxınlarda Fransaya rəsmi səfərim də çox uğurlu keçdi. Fransa dünyanın aparıcı ölkələrindən biridir və mənim səfərimi izləyən vətəndaşlar gördülər ki, ölkəmizə çox böyük hörmət, çox böyük maraq var. Biz həm siyasi, həm iqtisadi, həm enerji sahələrində və digər sahələrdə uğurlu əməkdaşlıq edirik. Onu da qeyd etməliyəm, Azərbaycan postsovet məkanında yeganə ölkədir ki, Avropa İttifaqına üzv 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayıb.

Xarici siyasətimizin və ümumiyyətlə, siyasətimizin əsas məsələsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Əfsuslar olsun ki, bu məsələnin həlli istiqamətində ciddi irəliləyiş yoxdur. Mən bunun səbəbləri haqqında dəfələrlə bildirmişəm. Ermənistan sülh istəmir, status-kvonu saxlamaq istəyir, işğal edilmiş torpaqlardan çıxmaq istəmir. Ona görə biz və beynəlxalq ictimaiyyət, vasitəçilər onları məcbur etməlidirlər. Bunun başqa yolu yoxdur. Çünki indi Ermənistan danışıqları boykot etməyə çalışır, özünü təcrid vəziyyətinə salır. Vasitəçilər, Minsk qrupunun həmsədr ölkələri artıq açıq bəyan edirlər ki, tezliklə substantiv, yəni, mənalı danışıqlar bərpa edilməlidir. Ona görə hesab edirəm ki, Ermənistan işğal edilmiş torpaqları işğal altında saxlaya bilməyəcəyini nə qədər tez anlasa, bu, onlar üçün də o qədər yaxşı olacaq. Biz bu vəziyyətlə barışmayacağıq. Biz gücümüzü artırırıq. Hərbi gücümüzü, siyasi gücümüzü, beynəlxalq mövqelərimizi möhkəmləndiririk.

Bu günlərdə Bakıda V Qlobal Forum keçirilir. Forumda 40-dan çox fəaliyyətdə olan və sabiq dövlət, hökumət başçıları iştirak edirlər. Azərbaycan nəinki bölgədə, artıq dünya

miqyasında önəmli ölkəyə çevrilib. Ermənistan isə bütün ümidlərini itirmiş, depressiyada yaşayan bir ölkədir və bunun səbəbi Ermənistanı qanunsuz yollarla zəbt etmiş kriminal xunta rejimidir. Erməni xalqı üçün ən böyük təhlükə elə Ermənistanın indiki rəhbərliyidir.

Biz öz səylərimizi davam etdirəcəyik. Dəfələrlə bildirmişəm, bir daha demək istəyirəm ki, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik. Beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Bölgədə vəziyyət bizim xeyrimizə işləyir. İqtisadi, hərbi potensial da aydındır ki, bizim tərəfimizdədir. Keçən ilin aprel hadisələri bunu bir daha göstərdi. Ona görə biz daha da güclü olmalıyıq, daha da güclənməliyik və bunu edirik.

Ermənistan isə xarici yardımsız yaşaya bilmir. Əgər aprel döyüşlərinə qədər onlar öz mifoloji fəaliyyətlərində müəyyən dərəcədə uğurlar qazana biliblərsə, aprel döyüşləri onların təbliğatına ciddi zərbə vurub, erməni cəmiyyətini sarsıdıb. O sarsıntının fəsadları bu günə qədər orada hiss olunur. Aprel hadisələri orada dərin hərbi və siyasi böhrana gətirib çıxarıb. Bu, hələ qısamüddətli döyüşlər idi. Ona görə onlar düzgün nəticə çıxarmalıdırlar və bilməlidirlər ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Nəyin bahasına olursa-olsun ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunu etmək üçün əlbəttə ki, biz uğurlu siyasət aparırıq, hər gün, hər il biz o günü yaxınlaşdırırıq. Bilirsiniz ki, Azərbaycan bayrağı bu gün Lələtəpədə və Ağdərədə dalğalanır, Şuşada da, Xankəndidə də dalğalanacaq.

Son illərin beynəlxalq münasibətləri göstərir ki, əfsuslar olsun, beynəlxalq təşkilatlar artıq o qədər də ciddi təsirə malik deyillər. Böyük dövlətlər isə öz maraqlarını güdürlər, beynəlxalq hüququ istədikləri kimi təhrif edirlər. Belə olan halda güc əsas amildir və biz bunu bilirik.

İqtisadi vəziyyətimiz yaxşılaşır. Keçən il, - mən ötən il burada demişdim, - iqtisadi sabitləşmə, dərin iqtisadi islahatlar ili idi. Bu islahatlar öz bəhrəsini verməyə başlamışdır. Bu il isə artıq inkişaf ilidir. İlin iki ayının göstəriciləri bunu təsdiqləyir. Böyük olmasa da, iqtisadi artım var. Ümumi daxili məhsul 0,4 faiz artıbdır. Qeyri-neft sənayemiz isə 5 faiz, kənd təsərrüfatı 3 faizdən çox artıb. Yəni, bu, iqtisadi inkişafımızın əsas göstəriciləridir. Neft-qaz ixrac edən bir çox başqa ölkələrdən fərqli olaraq, keçən il biz öz valyuta ehtiyatlarımızı qoruya bilmişik, xərcləməmişik. Halbuki, xərcləyə bilərdik. Ancaq biz ölkəmizin uzunmüddətli maraqları haqqında düşünürük. Biz hər il valyuta ehtiyatlarımızı artırmalıyıq. Buna nail oluruq. Bu gün bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan beş dəfədən çox artıqdır. Bəlkə də dünya miqyasında çox az ölkə tapılar ki, bu göstərici bu səviyyədə olsun.

Bizim iqtisadi inkişafımız Davos Dünya İqtisadi Forumu tərəfindən də yüksək qiymətləndirilib. Bu il ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycan 37-ci yerə layiq görülüb. Keçən il biz 40-cı yerdə idik. Yəni, bu, onu göstərir ki, hətta neftin qiymətinin kəskin düşməsinə baxmayaraq, Dünya İqtisadi Forumu bizim iqtisadiyyatımızı daha da yüksək pilləyə qaldırıb.

Əlbəttə ki, dünya miqyasında iqtisadi rəqabətliliyə görə, ən inkişaf etmiş 40 ölkə sırasında olmağımız uğurlu iqtisadi siyasətimizi əks etdirir. Onu göstərir ki, biz bu uğuru təkcə neft, qaz hesabına deyil, ciddi şaxələndirmə və islahatlar hesabına əldə etmişik.

Davos Forumunun ikinci önəmli reytinqi inkişafda olan ölkələrin inkişaf səviyyəsidir. Biz burada da bütün inkişaf edən ölkələr arasında birinci-ikinci yerləri bölüşürük. Bu, bizim siyasətimizə, iqtisadi siyasətimizə verilən ən gözəl qiymətdir.

Əminəm ki, bu il iqtisadi inkişaf davam etdiriləcək. Çox böyük planlarımız var. İnvestisiya proqramı real sektorun inkişafına xidmət göstərəcək. Bu il kənd təsərrüfatında il ərzində 150 min hektardan çox torpağa su veriləcək. Bu, 100 minlərlə iş yerinin ya-

radılması deməkdir. Bu, kənd təsərrüfatının və ixracın artırılması deməkdir. Biz ilin iki ayında ancaq dövlət sektorunda 40 mindən çox yeni iş yeri yaratmışıq. Nəyə görə? Ona görə ki, işsizlik artmasın. Çünki keçən il dövlət investisiyaları azalmışdır, xüsusilə tikinti sektorunda. Bəzi vətəndaşlar işlərini itirmişlər. Bank sektorunda da problemlər yaşandı. Bəzi banklar bağlandı, vətəndaşlar işlərini itirdilər. Ona görə, mən biznes qurumlarına da çağırış etdim ki, hər bir şirkət heç olmasa bir-iki nəfəri işə götürsün. Bəlkə bu, onlara o qədər də lazım deyil, ancaq biznes də sosial məsuliyyətini dərk etməlidir. Bizim dövlət şirkətlərimiz və yerli icra orqanları üçün xüsusi büdcə ayrılıb. İndi 40 mindən çox insan ictimai işlərə və digər təmir-tikinti işlərinə cəlb edilib. Ona görə, əminəm ki, bu il Azərbaycan öz iqtisadi inkişafını davam etdirəcək.

Sosial sahədə də böyük planlarımız var. Bu il ənənəvi olaraq beş milyon insan pulsuz diaqnostikadan, müayinədən keçir. Hesab edirəm ki, bu da dünya miqyasında nadir təşəbbüsdür. Artıq bunu etmək üçün hər cür imkan var. Hər bir rayonda müasir tibb müəssisələri yaradılıb. Son illər ərzində 600-dən çox tibb ocağı təmir olunub və tikilib.

Biz bu il İslam Həmrəyliyi Oyunlarını keçirəcəyik. Bu, növbəti dəfə ölkəmizin potensialını göstərəcək və eyni zamanda, İslam həmrəyliyinə də növbəti töhfəmiz olacaq. Çünki buna böyük ehtiyac var. Bu Oyunlar təkcə idman yarışı deyil. Bu Oyunlar bütün İslam aləmini bir araya gətirəcək. Əfsuslar olsun ki, bəzi müsəlman ölkələri arasında münasibətlər, yumşaq desək, lazımi səviyyədə deyil. Azərbaycan isə çalışır ki, müsəlman aləmində birlik möhkəmlənsin, güclənsin. Bu, bizim ailəmizdir. Biz bu ailənin üzvüyük. Ona görə, biz istəyirik ki, bu ailədə əmin-amanlıq, inkişaf olsun, müharibələrə, münaqişələrə son qoyulsun.

Yəni, biz uğurlu siyasətimizlə ölkəmizi gücləndiririk. Əgər bütün tariximizi götürsək, Azərbaycan heç vaxt indiki qədər güclü olmamışdır. Bizim uğurlu siyasətimiz, regional təşəbbüslər, enerji, nəqliyyat layihələri geniş mənada beynəlxalq əməkdaşlığı formalaşdırır. Biz beynəlxalq əməkdaşlığa öz fəlsəfəmizi gətirmişik. Beynəlxalq əməkdaşlıq hər bir iştirakçı üçün uğurlu olmalıdır. Bu, zorla ola bilməz. Heç bir ölkəni zorla, məcburən hansısa təşəbbüsə cəlb etmək olmaz. Bunun heç bir effekti olmayacaq. Ölkələr bəlkə buna müqavimət göstərə bilmirlər, ancaq daxilən narahat olacaqlar ki, onları nəyəsə məcbur edirlər. Ona görə, bizim beynəlxalq əməkdaşlıq doktrinamız əməkdaşlıq və qarşılıqlı dəstək üzərində qurulub. Məhz buna görə biz Cənub Qaz Dəhlizi kimi həm maliyyə, həm texniki, həm siyasi cəhətdən mürəkkəb olan bir layihəni icra edirik. Üçüncü dəfədir ki, Bakıda Məşvərət Şurası keçirilib və iştirak edən bütün ölkələr öz mənfəət payını alacaqlar. Biz bir çox layihələri icra etmişik və vəsait də xərcləmişik. Əlbəttə, bu vəsait həm vəsait olaraq, həm siyasi divident kimi qayıdacaq, həm də ki, bölgədə yeni əməkdaşlıq mühiti yaranmışdır.

Azərbaycan bütün bu önəmli nəqliyyat və enerji layihələrinin təşəbbüskarıdır. Vaxt keçdikcə dünyada ölkəmiz haqqında daha da dolğun məlumat yayılır. Bizə böhtan, şər atan, bizə pis gözlə baxan qüvvələr yavaş-yavaş sıradan çıxırlar. Artıq onların bir çoxu siyasi səhnədən kənarlaşdırılıb. İndi dünyada yeni inkişaf dinamikası yaranır. Azərbaycan müasir, müstəqil, inkişafda olan ölkə kimi dünyada daha çox tanınır.

Əziz dostlar, mən bu gözəl bayram ərəfəsində hər bir Azərbaycan ailəsinə uğurlar, cansağlığı arzulamaq istəyirəm. Arzu edirəm ki, ölkəmizdə həmişə sülh, inkişaf olsun, xalqımız rahat, firavan yaşasın. Bayramınız mübarək olsun. Sağ olun!

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ümumxalq şənliyinin iştirakçıları Dənizkənarı Milli Parka gəldilər.

Azərbaycanın müxtəlif bölgələrindən gələn özfəaliyyət dərnəklərinin, rəqs və mahnı qruplarının çıxışları maraqla qarşılandı.

Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar.

Prezidenti və xanımını Kosa və Keçəl bayram münasibətilə təbrik etdilər, dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bayram konsertinə baxdılar.

Dövlətimizin başçısı, xanımı, xarici qonaqlar və ümumxalq şənliyinin digər iştirakçıları "Novruz" yarmarkası ilə tanış oldular.

Burada bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsullar nümayiş etdirilirdi. Yarmarkada ölkəmizin iqtisadi rayonlarından onlarla şirkət öz məhsullarını təqdim edirdi. Son dövrlərdə ölkəmizdə aparılan siyasət nəticəsində digər sahələrdə olduğu kimi, kənd təsərrüfatında da mühüm nailiyyətlər əldə olunub. Bu gün Azərbaycan özünü keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin edir. Bu isə ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Ona görə də ekoloji cəhətdən təmizliyi ilə seçilən Azərbaycan məhsullarına dünyada böyük tələbat var.

Xalqımızın qədim ənənələrini, dəyərlərini, mətbəxini, məişətini əks etdirən stendlər Milli Parkda təşkil olunan bayram şənliyinə xüsusi çalar qatırdı. Burada ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və hazırlanmış sənətkarlıq nümunələri maraqla qarşılandı. Bir tərəfdə isə gənc pəhləvanlar qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər. Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu şənlikdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də yer almışdı.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və şənliyin digər iştirakçıları bu səhnələri maraqla izlədilər, qədim el sənətlərinin nümunələrinə, Azərbaycan xalçalarına baxdılar, pəhləvanların, güləşçilərin çıxışlarını izlədilər, aşıqların, "Nənələr", "Rəfti" özfəaliyyət kollektivlərinin, "Natiq" ritm qrupunun, Azərbaycan Dövlət Kukla Teatrının nəzdindəki "Oyuq" teatr-studiyasının kollektivinin ifalarını dinlədilər.

Novruz xalqımızın tarixi yaddaşından süzülüb gələn ənənələri yaşadan, keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayan bayramdır. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində həyata keçirilən siyasət digər milli-mənəvi dəyərlərimiz kimi, Novruzu da Azərbaycan xalqının şüurundan silə bilmədi. Hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunmasında və inkişafında tarixi şəxsiyyətlərin də üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyevin tariximiz qarşısındakı xidmətləri sırasına Novruzun yenidən xalqımıza qaytarılması kimi ümummilli məsələ də vardı. Çünki məhz Heydər Əliyevin sayəsində ümumi mədəni hərəkatın tərkib hissəsi kimi milli bayramımız olan Novruz ötən əsrin 70-80-ci illərində əvvəlki dövrlərlə müqayisədə kütləvi qeyd olunmağa başladı. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə Novruz təntənələri xalqımızın həyatına birdəfəlik daxil oldu. Bu gün Prezident İlham Əliyev də mədəni-mənəvi irsimizə xüsusi diqqətlə yanaşır. Novruzun gəlişi ilə bağlı dövlətimizin başçısının hər il xalqa ünvanladığı təbriklər də onun milli-mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşdığını göstərir.

Xalqımız özünün milli və tarixi ənənəsinə çevrilən Novruzu həmişə olduğu kimi, bu il də böyük sevinclə qarşılayır. Yazın gəlişi, təbiətin, bütün canlıların oyanışı, gecə ilə gündüzün bərabərləşdiyi bir günlə bağlı olan bu bayram Azərbaycan xalqının milli düşüncəsini və milli ruhunu özündə əks etdirir.

2010-cu ildə BMT-nin qərarı ilə martın 21-i Beynəlxalq Novruz Günü elan olundu. Bu, böyük bir arealda yaşayan 200 milyondan çox insanın milli-mənəvi yaddaşına dünyanın ən mötəbər qurumu səviyyəsində verilən dəyərin təzahürü idi. Qədim tarixə malik

Novruz həm də əcdadlarımızın bizə töhfəsi, onlardan qalan dəyərli mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, mühüm insani dəyərləri təcəssüm etdirir. Varlığın yenidən canlanmasını müjdələyən Novruz əsrlər boyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə səsləyir. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıb.

Dövlətimizin başçısına və xanımına "İctimai Wi-Fi" layihəsi barədə təqdimat nümayiş olundu.

Bildirildi ki, ilkin mərhələdə əhalinin daha çox sıx istirahət etdiyi yerlər seçilib. Dənizkənarı Milli Park və Dövlət Bayrağı Meydanı, həmçinin "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində ictimai internetdən istifadəni təmin edən avadanlıq quraşdırılıb. Növbəti mərhələdə Heydər Əliyev Mərkəzinin ətraf ərazilərində işlər həyata keçiriləcək.

Bu gün Azərbaycan dünyada həm də idman ölkəsi kimi tanınır. Mötəbər beynəlxalq idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edən Azərbaycanda bu ilin mayında IV İslam Həmrəyliyi Oyunları, iyunda Formula-1 Azərbaycan Qran-Prisi keçiriləcək.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qonaqlar burada Formula-1 yarışlarının bolidinə baxdılar.

Dövlətimizin başçısına və xanımına IV İslam Həmrəyliyi Oyunlarının ilk biletləri təqdim olundu.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Olimpiya çempionları, Formula-1 Azərbaycan Qran-Prisinin və IV İslam Həmrəyliyi Oyunlarının könüllüləri ilə görüşdülər.

Ümumxalq şənliyinin iştirakçıları müxtəlif rayonlardan gətirilmiş Novruz mətbəxinin ləziz təamlarından, bu bayramın rəmzi olan şirniyyat nümunələrindən daddılar.

Azərbaycan Prezidenti onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın yüksək səviyyəli qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirdi.

Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

Bayram şənliyi incəsənət ustalarının, el sənətkarlarının ifasında rəngarəng konsert proqramı ilə davam etdi.

***18 mart 2017-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SAATLIDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Saatlı rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Saatlı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov bildirdi ki, son dövrdə abidənin yerləşdiyi parkda geniş abadlıq-quruculuq işləri aparılıb. Dövlətimizin başçısına rayonda icra olunan layihələr və qarşıda duran vəzifələr barədə məlumat verildi.

***28 mart 2017-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YEVLAXDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Yevlax rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Yevlax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Qoca Səmədov rayonda görülən işlər, həyata keçirilən layihələr barədə Azərbaycan Prezidentinə məlumat verdi.

Bildirildi ki, son illər rayonun sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb. Rayonda çoxlu sosial infrastruktur obyektləri tikilib, yeni istehsal müəssisələri yaradılıb.

*16 aprel 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV BİBİHEYBƏT MƏDƏNİNİN ƏRAZİSİNDƏ DÜNYADA SƏNAYE ÜSULU İLƏ QAZILMIŞ İLK QUYUNUN BƏRPADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞ OLMUŞDUR

SOCAR-ın prezidenti Rövnəq Abdullayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bildirildi ki, XIX əsrdə burada "Nobel qardaşları neft hasilatı şirkəti"nə məxsus neft və neft məhsullarının daşınması üçün ağcaqayın ağacından hazırlanmış faner borunun bir hissəsi, həmçinin həmin şirkətin sifarişinə əsasən Bakıya gətirilmiş quyuüstü avadanlıqlar da nümayiş olunur. Hələ qədim dövrlərdən Azərbaycan dünyada neftin vətəni sayılırdı. Bakının neft mədənlərində quyular bir qayda olaraq əl ilə qazılırdı. XIX əsrin əvvəllərindən etibarən neft quyularının daha mütərəqqi üsullarla qazılması istiqamətində araşdırmalara başlanıldı. 1840-cı illərdə daha mütərəqqi üsullarla quyular qazmaq və neft hasilatını artırmaq üçün yollar axtarılırdı. Tarixi mənbələr və son illərdə Rusiyanın Mərkəzi Dövlət Tarix Arxivindən tapılmış sənədlər dünyada sənaye üsulu ilə neft quyusunun qazılmasına Bibiheybətdə başlanıldığını bir daha sübut edir. Belə sənədlərdən biri Zaqafqaziya Vilayəti Baş İdarəsinin Şura üzvü, dövlət müşaviri Vasili Semyonovun bu vilayətin baş komandanı general Aleksandr Neydqarta yazdığı 1844-cü il 22 dekabr tarixli məktubdur. Məktubda Semyonov Abşeron yarımadasındakı neft mədənlərini ətraflı təsvir edir, hasilatın artırılması üçün konkret texniki və təşkilati təkliflər verir. Semyonovun məktubuna müsbət rəy verildikdən sonra 1845-ci ilin aprelində maliyyə naziri Fyodor Vronçenkonun göstərişi ilə Kaspi Xəzinə Palatası tərəfindən qazma işlərinə min gümüş sikkə ayrılır və Bibiheybət rayonunda kəşfiyyat quyusunun qazılması haqqında tapşırıq verilir. 1846-cı ilin yanvarında Bakı neft və duz mədənlərinin direktoru, dağ mühəndisləri korpusunun podpolkovniki Nikolay Voskoboynikovun rəhbərliyi ilə Bibiheybət yatağında iki quyunun qazılmasına başlanılır. Quyulardan biri 21 metr dərinlikdən neft verir və bununla da dünyada sənaye üsulu ilə neft hasilatının əsası qoyulur. 1847-ci il 8-14 iyul tarixlərində Qafqaz canişini knyaz Mixail Vorontsovun imzaladığı hesabatlarda da dünyada ilk neft quyusunun Xəzər dənizinin sahilində qazılması faktı təsdiq olunur. Neftçıxarma işində əldə olunmuş inqilabi yeniliklər XIX əsrin 50-ci illərində Abşeronda hasilatın yüksəlməsinə, emal sənayesinin yaranmasına böyük təkan verib. Mexaniki üsulla quyu qazılması texnikasının və texnologiyasının inkişafı sayəsində Bakıda bir sıra yeni neft

yataqları istismara verilib, quyular qazılıb, hasilat artırılıb, neft sənayesi infrastrukturu inkişaf etdirilib. 1899-1901-ci illərdə 11,5 milyon ton neft hasil edən Bakı neft sənayesi dünyada birinci yeri tuturdu. Müqayisə üçün deyək ki, 1859-cu ildə sənaye üsulu ilə neft quyularının qazılmasına başlanılmış Amerika Birləşmiş Ştatlarında isə bu göstərici o zaman 9,1 milyon ton təşkil edirdi.

Dövlətimizin başçısı burada quraşdırılan xüsusi interaktiv köşkə baxdı.

Bildirildi ki, bu köşk vasitəsilə Azərbaycanın neft tarixi, o cümlədən sənaye üsulu ilə qazılmış ilk quyu barədə ətraflı məlumat almaq mümkündür. İnteraktiv köşkə, eyni zamanda, ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdikləri neft strategiyası haqqında məlumat, Azərbaycanın neft sənayesi ilə bağlı tarixi foto və videolar da yerləşdirilib.

Prezident İlham Əliyev neftçilərlə söhbət etdi.

SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt YUSİFZADƏ dedi:

- Bu il bizim 2 milyard ton hasilatımız olacaq. 1971-ci il martın 28-də neft hasilatı bir milyard ton olub. Həmin il aprelin 2-də Moskvada 24-cü qurultay keçirilib. Orada cənab Heydər Əliyev çıxış edib, deyib ki, Azərbaycan neftçiləri bir milyard ton neft çıxarıblar. Sonra Azərbaycana gəlib aprelin 21-də Bakıda müşavirə keçirib. O müşavirədə SSRİ-nin neft sənayesi naziri Valentin Şaşin də, mən də iştirak etmişdik. Cənab Heydər Əliyev Azərbaycan neftçilərini təbrik etdi. Deməli, neftçilərimiz 1 milyardıncı ton nefti cənab Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə hasil ediblər. İki milyardıncı ton neft isə Sizin hakimiyyətiniz dövründə hasil olunacaq. İndiyədək 1 milyard 971 milyon ton neft çıxarılıb. Bir milyard ton dənizdən, 971 milyon ton qurudan.

Prezident İlham ƏLİYEV: Çox yaxşı.

Xoşbəxt YUSİFZADƏ: O vaxt cənab Heydər Əliyev çıxışında demişdi ki, kiçik bir respublikanın qocaman neft sənayesinin tarixində 1 milyard ton neft çıxarılıb.

Prezident İlham ƏLİYEV: Biz də gərək bunu qeyd edək.

Xoşbəxt YUSİFZADƏ: İndi həmin respublika neft hasilatını 2 milyard tona çatdıracaq. Neftçilərimiz həm də 700 milyard kubmetr qaz hasil ediblər.

Prezident İlham ƏLİYEV: Çox yaxşı. Bu, yaxşı hadisə olacaq, biz də onu qeyd edəcəyik. Bu quyunun burada aşkarlanması da artıq tarixdir.

Xoşbəxt YUSİFZADƏ: Bəli, tarixdir. Bu barədə film çəkməyə gəlmişdilər. Mən dedim ki, burada ilk quyu 1847-ci ildə qazılıb. Mənə dedilər ki, sənədin var? Yoxdur, burada hamımız bir-birimizdən eşitmişik. Onda komissiya sənədlərin hamısını qaldırdı.

Rövnəq ABDULLAYEV: Cənab Prezident, arxivlərdə bütün sənədlər qaldırıldı.

Prezident İlham ƏLİYEV: Bunlar arxiv sənədləridir?

Rövnəq ABDULLAYEV: Bəli, arxiv sənədləridir.

Prezident İlham ƏLİYEV: Biz gərək bunu dünyada yaxşı təbliğ edək. Çünki mən dəfələrlə demişəm ki, sənaye üsulu ilə ilk neft Azərbaycanda çıxarılıb, ancaq onun yeri dəqiq bilinmirdi. Ona görə mən tapşırıq verdim ki, o yer müəyyən olunsun. Əlbəttə ki, biz bilirdik bu, Bibiheybət ərazisində olubdur, ancaq indi onun yeri də dəqiqləşdi və gözəl bir abidə yaradıldı. Hesab edirəm ki, bu, həm neftçilər, həm də ölkəmizə gələn turistlər üçün çox gözəl hadisədir.

Neftin vətəni Azərbaycandır, neft sənayesi, bax, buradan başlanmışdır. Bu gün - artıq 200 ilə yaxın vaxt keçəndən sonra da Azərbaycan dünyada neft ölkəsi, qaz ölkəsi kimi öz sözünü deyir. Bu gün bizim neftimiz xalqımıza məxsusdur. O vaxt biz çar Rusiyasının tərkibində idik və buradan çıxarılan təbii ehtiyatlar xalqımızın güzəranına o qədər də təsir etmirdi. Kasıbçılıq, səfalət idi. Azərbaycan xalqı böyük bir sərvətin sahibi idi, ancaq özü bu sərvətdən istifadə edə bilmirdi. Sovet dövründə də Azərbaycan neft respublikası kimi

özünü göstərmişdir. İkinci Dünya müharibəsi dövründə Azərbaycan neftçilərinin əməyi olmasaydı, müharibənin nəticələri tam başqa cür ola bilərdi. Azərbaycan neftçiləri faşizm üzərində Qələbədə həlledici rol oynayıblar. Biz bu il 2 milyard ton neftin hasil olunmasını qeyd edəcəyik. Təsəvvür edin, əgər Azərbaycan müstəqil ölkə olsaydı, indi dünyanın ən zəngin ölkələrindən biri olacaqdı.

Bu gün isə bizim neftimiz xalqımıza xidmət edir, dövlətimizi gücləndirir. Bax, bütün bu ərazi hələ də neft buruqları ilə doludur və birinci quyu da burada qazılmışdır. Bu ərazinin fotoşəkilləri, videogörüntüləri var. Onlar yaxın tarixin görüntüləridir. Bura ekoloji fəlakət zonası idi. Hər tərəfdə neft gölməçələri, köhnə buruqlar var idi, ərazi neftlə çirklənmişdi. İndi bu ərazi şəhərimizin ən abad yerlərindən birinə çevrilibdir. Yəni, biz neftdən gələn gəliri ölkəmizin inkişafına yönəltdik, insan kapitalına, infrastruktur layihələrinə qoyduq və bu gün neft Azərbaycan xalqının inkişafını təmin edir. Bax, müstəqillik budur və 25 il müstəqil dövlət kimi yaşayan Azərbaycan bu gün ayaqda möhkəm dayanır. Neft bizim təbii sərvətimizdir, xalqımızın böyük sərvətidir, biz də ondan istifadə edib ölkəmizi inkişaf etdiririk. Əlbəttə, neftçilərin də burada əməyi xüsusi qiymətə layiqdir. Mən həmişə neftçilərin əməyini, onların cəsarətini qiymətləndirirəm. Onlar ağır şəraitdə çalışırlar, ölkəmizin inkişafı üçün işləyirlər. Çalışırlar ki, öz əməyi ilə ölkəmizi gücləndirsinlər.

Bugünkü hadisə də tarixi hadisədir. Biz artıq o tarixi həqiqəti, bax, burada əyani şəkildə bütün dünyaya nümayiş etdiririk. Əminəm ki, şəhərimizə gələn bütün qonaqlar çox böyük maraqla buraya gəlib, bax, bu buruğun önündə şəkil çəkdirəcəklər. Sizi təbrik edirəm.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*26 aprel 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ISESKO-NUN BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrini qəbul edib.

Görüşdə Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti qeyd edildi, ISESCO-nun ilk gündən Forumun təsisçisi və fəal iştirakçısı olduğu, Forumun keçirilməsinə böyük dəstək verdiyi bildirildi.

Söhbət zamanı Azərbaycanın sivilizasiyalararası və dinlərarası dialoqa verdiyi töhfənin önəmi vurğulandı, ölkəmizdə 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsinin və IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsinin müsəlman ölkələrinin bir-birinə daha da yaxınlaşması işinə xidmət etdiyi qeyd olundu.

Görüşdə, həmçinin Azərbaycan ilə ISESCO arasında uzun illər səmərəli və uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, ISESCO-nun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyini müdafiə etməsi yüksək qiymətləndirildi, əməkdaşlığımızın bundan sonra daha da genişləndiriləcəyinə əminlik ifadə olundu.

Baş direktor Əbdüləziz bin Osman əl-Tuveycri ISESCO tərəfindən həyata keçirilən işlər və nəzərdə tutulan planlar barədə Prezident İlham Əliyevə məlumat verdi.

*4 may 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV BMT-NİN SİVİLİZASİYALAR ALYANSI ÜZRƏ ALİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Görüşdə Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi baxımından önəmi qeyd edildi.

Nassir Abdulaziz Al-Nasser dedi: "BMT Sizin liderliyinizi yüksək qiymətləndirir. Bu liderlik özünü xüsusilə mədəniyyət, dinlərarası dialoqda və qarşılıqlı anlaşmada göstərir. Bu, çox önəmli məsələdir. Dünya çətin bir dövrü yaşayır. Biz digər ölkələrlə müqayisədə Azərbaycana baxanda burada Sizin rəhbərliyinizlə sabitliyin və təhlükəsizliyin yüksək səviyyədə təmin olunduğunu görürük. Dünyada Sizin kimi liderlərə böyük ehtiyac var, biz bunu yüksək qiymətləndiririk".

Dövlətimizin başçısı xoş sözlərə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Nassir Abdulaziz Al-Nasserin dünyada sivilizasiyalararası dialoqun inkişafı və möhkəmləndirilməsi işinə böyük töhfə verdiyini vurğuladı, ötən il Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun, həmçinin IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkilində onun rolunu və verdiyi dəstəyi yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev Azərbaycan ilə BMT arasında uğurlu əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminliyini bildirdi.

*4 may 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ ETNİK ANLAŞMA FONDUNUN PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayeri qəbul edib.

Görüşdə Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyi vurğulandı.

Söhbət zamanı Azərbaycanda müxtəlif millətlərin və dini konfessiyaların nümayəndələrinin mehriban qardaşlıq şəraitində yaşamaları məmnunluqla qeyd edildi, yüksək səviyyədə tolerantlığın mövcudluğu bir nümunə kimi vurğulandı.

Görüşdə, həmçinin Azərbaycan-ABŞ əlaqələrinə toxunularaq iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdirildiyi bildirildi.

*4 may 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Dünya Turizm Təşkilatının baş katibi Taleb Rifai ilə görüşüb.

Görüşdə IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti qeyd olundu, belə mötəbər tədbirlərin keçirilməsinin xalqların və ölkələrin bir-biri ilə daha da yaxınlaşması işinə xidmət etdiyi vurğulandı.

Söhbət zamanı Azərbaycan ilə Dünya Turizm Təşkilatı arasında əlaqələrin inkişafından məmnunluq ifadə edildi. Azərbaycanın turizmin inkişafı ilə bağlı Dünya Turizm Təşkilatının tövsiyələrindən uğurla bəhrələndiyi, ölkəmizdə bu sahənin sürətlə inkişaf etdiyi qeyd olundu. Həmçinin yeni turizm marşrutlarının açılmasının, viza rejiminin sadələşdi-

rilməsinin, gələcəkdə Azərbaycan vasitəsilə xüsusi tranzit reyslərin təşkilinə dair təkliflər müzakirə olundu.

Dövlətimizin başçısı son illər ölkəmizdə turizmin sürətlə inkişaf etdiyini, bu baxımdan geniş imkanların olduğunu vurğuladı. Prezident İlham Əliyev turistlərin ölkəmizə rahat gələ bilmələri üçün hər cür şəraitin yaradıldığını qeyd edərək, son dörd ayda artımın 26 faiz təşkil etdiyini diqqətə çatdırdı. Azərbaycan Prezidenti bildirdi ki, ölkəmizdə turist artımı bir sıra sahələrin inkişafına mühüm töhfə verir.

*5 may 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNESKO-NUN BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR

Görüşdə Azərbaycan ilə UNESCO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olundu, bu baxımdan dünyada böyük nüfuz qazanan IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti yüksək qiymətləndirildi.

UNESCO-nun Foruma böyük önəm verməsindən məmnunluğunu ifadə edən Prezident İlham Əliyev bildirdi ki, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna maraq ildən-ilə artır və bu tədbir artıq qlobal hadisəyə çevrilib.

İrina Bokova UNESCO-nun bu Forumun əsas tərəfdaşlarından biri olmasından məmnunluq duyduqlarını bildirdi. Qeyd etdi ki, bu mötəbər tədbirə böyük əhəmiyyət verən UNESCO tərəfindən Forumda 15 müxtəlif layihə təqdim olunur. Xanım İrina Bokova dedi: “UNESCO regionda böyük nüfuz sahibi olan Azərbaycanın mövqeyini, bütün qonşu ölkələrlə dost və mehriban münasibətlərini yüksək dəyərləndirir”.

Forumun dünyada böyük uğur qazanması münasibətilə dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təbriklərini çatdıran UNESCO-nun baş direktoru Bakının dünyada mədəniyyətlərarası dialoq məkanı kimi tanındığını vurğuladı.

*5 may 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV IV ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNUN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Mayın 5-də UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası, ISESCO-nun tərəfdaşlığı ilə Bakıda “Mədəniyyətlərarası dialoqun inkişafı: İnsan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar” mövzusunda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Heydər Əliyev Mərkəzində rəsmi açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

Əvvəlcə birgə foto çəkdirildi.

Dövlətimizin başçısı Forumun açılış mərasimində nitq söylədi.

# PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Əvvəlcə, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etdiklərinə görə qonaqlarımıza təşəkkürümü bildirmək istəyirəm. Altı il bundan əvvəl biz bu təşəbbüsü irəli sürdük və birinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Bakıda keçirilmişdir. O vaxtdan bəri beynəlxalq gündəlikdə duran ən mühüm məsələlərdən olan mədəniyyətlərarası dialoqun müzakirə edildiyi bu Forum qlobal beynəlxalq tədbirə çevrilmişdir. Hər bir beynəlxalq tədbirin, hər bir forumun əhəmiyyəti təkcə müzakirə edilən mövzularla deyil, həm də iştirakçıların sayı ilə ölçülür. Biz çox şadıq ki, 120 ölkədən olan 800-dən artıq qonaq bugünkü Forumda iştirak edir, 50-dən çox beynəlxalq qurum özünün yüksək səviyyəli nümayəndəsini Bakıya göndərmişdir.

Bu, ilk növbədə, Forumun bu gün və sabah aparacağımız müzakirələrin əhəmiyyətini nümayiş etdirir. Biz fəxr edirik ki, Forumun tərəfdaşlarının, həm də təşkilatçı qurumların sayı artmaqdadır. Azərbaycan hökuməti bu Forumu UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, ISESCO, Avropa Şurası, Dünya Turizm Təşkilatı və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ilə birlikdə təşkil etmişdir.

Əminəm ki, Forum çərçivəsində aparılacaq müzakirələr və fikir mübadiləsi mədəniyyətlərarası dialoqun təşviqinə töhfə verəcəkdir. Azərbaycan əsrlər boyunca sivilizasiyaların və mədəniyyətlərin bir-birinə qovuşduğu məkan olmuşdur. Bizim coğrafiyamız və tariximiz, habelə Azərbaycandakı inkişaf onu nümayiş etdirir ki, mədəniyyətlərarası dialoq həm tarixən, həm də bu gün vacib məsələlərdən biri olaraq qalır. Çünki əks təqdirdə, dünya daha çox təhlükələrə məruz qalacaqdır.

Tarix, ənənələr və coğrafiyamız bizə onu diktə edib ki, Azərbaycan sivilizasiyaların qovuşduğu bir məkan ola bilər və bu, məhz belə də olmalıdır. Əsrlər boyu Azərbaycanda xalqlar həmişə müxtəliflik mühitində yaşayıb. Multikulturalizm, etnik və dini müxtəliflik tariximizin bir parçası və bugünkü reallıqdır. Biz bununla fəxr edirik.

Bu gün Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir ki, burada bütün etnik qrup və dinlərin nümayəndələri sülh və harmoniya şəraitində yaşayırlar. Bizim tarixi abidələrimiz də Azərbaycanın mədəni müxtəlifliyini və onun qədim tarixini aydın şəkildə nümayiş etdirir. Fəxr edirik ki, dünyanın ən qədim məscidlərindən biri - 743-cü ildə inşa olunan Cümə məscidi Azərbaycanın qədim şəhərlərindən biri sayılan Şamaxıda yerləşir. Dünyanın ən qədim kilsələrindən olan, Qafqaz Albaniyası dövləti dövrünə aid kilsə Azərbaycanın digər qədim şəhəri Şəkidə yerləşir.

Bakının yaxınlığında yerləşən və atəşpərəstlik dininə məxsus olan Atəşgah Məbədi də bizim tarixi və dini müxtəlifliyimizi nümayiş etdirir. Bu gün Azərbaycanda məscid, kilsə və sinaqoqlar dövlət tərəfindən qorunur. Onların bir çoxunun dövlətin maliyyə dəstəyi ilə inşa olunması bizim tariximizi və bu sahədə olan siyasətimizi nümayiş etdirir.

Azərbaycanda multikulturalizm dövlət siyasətidir. Eyni zamanda, bu, bizim həyat tərzimizdir. Multikulturalizmin nisbətən yeni və bəzən çətin tələffüz edilən termin olmasına baxmayaraq, multikulturalizm ideyaları hər zaman ölkəmizdə mövcud olmuşdur. Tarixi dönəmdən və siyasi sistemdən asılı olmayaraq, xalqımız hər zaman istər ölkədə, istərsə də onun hüdudlarından kənarda multikulturalizmi fəal müdafiə və təşviq etmişdir.

Əslində, 2011-ci ildə ilk dəfə mədəniyyətlərarası dialoq forumunun təşkil edilməsi ideyası tariximiz, reallığımız və həmçinin belə məsələlərin müzakirəsi üçün geniş formatın yaradılması arzumuzdan qaynaqlanırdı. Bu gün buna əvvəlkindən daha çox ehtiyac

var. Təəssüf olsun ki, bu gün dünyada narahatlıq doğuran bəzi tendensiyalar mədəniyyətlərarası dialoqla deyil, özgələşmə ilə nəticələnir. Biz mütəmadi surətdə bunun şahidi oluruq. Dünyanın müxtəlif yerlərində münaqişə, qarşıdurma və vətəndaş müharibələrinin səbəbi müxtəlif din və etnik qrup nümayəndələrinin arasında anlaşmanın olmamasıdır. Bizim multikulturalizm siyasətimiz xalqımız tərəfindən tam dəstəklənir və 2016-cı il Azərbaycanda "Multikulturalizm İli" elan edilmişdi. Bu il isə ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilib. Azərbaycanda gündəlik həyatın bu hər iki çox vacib elementinin birləşməsi, ilk növbədə, cəmiyyətimizin vəziyyətini, dövlət siyasətimizi nümayiş etdirir, eyni zamanda, regionda daha da yaxşı anlaşmaya səbəb olur.

Biz məhz bu məsələlərin müzakirəsinə həsr olunmuş bir neçə beynəlxalq tədbir təşkil etmişik. Azərbaycan artıq 5 dəfə Beynəlxalq Humanitar Forum təşkil edib. Bir neçə il bundan əvvəl Dünya Dini Liderlərinin Zirvə Görüşünü təşkil etmişik. Ötən il Bakı BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna uğurla ev sahibliyi etdi. Nəhayət, biz 4-cü dəfədir ki, toplaşaraq mədəniyyətlərarası dialoq məsələsini müzakirə edirik.

Bütün bunlar bizə gərginlik və risklərin azaldılması, müxtəlif xalqlar və dinlər arasında daha yaxşı anlaşmanın təmin olunması yollarını müəyyənləşdirməyə yardım edir. Hesab edirəm ki, Azərbaycanın tarixi və bugünkü inkişafı uğur qazanmağın mümkünlüyünün yaxşı nümunəsidir.

Multikulturalizmə münasibət fərqlidir. Biz bəzən müəyyən ictimai və siyasi xadimdən, habelə dövlət rəhbərlərindən skeptik fikirlər eşidirik. Hesab edirəm ki, biz səylərimizi birləşdirsək, - bu gün burada beynəlxalq ictimaiyyətin mütləq əksəriyyətini təmsil edən nümayəndələr iştirak edirlər, - nümayiş və sübut edə bilərik ki, multikulturalizm yaşayır və onun alternativi yoxdur. Onun alternativi yalnız ksenofobiya, islamofobiya, antisemitizm, irqçilik və ayrı-seçkilik ola bilər. Multikulturalizm yalnız bir tendensiya deyil, o, eyni zamanda, dünyanı daha təhlükəsiz etməyin yeganə yoludur.

Düşünürəm ki, sizin bu Forumda iştirakınız və müzakirələrin mövzuları bizim vahid iradəmizi və bu dəyərlərin təşviqi ilə bağlı siyasət və yanaşmamızı əyani şəkildə nümayiş etdirir.

Azərbaycan 2008-ci ildə çox vacib prosesin təşəbbüskarı olmuşdur və o, sonradan "Bakı prosesi" adlandırılmışdır. Bu gün həmin təşəbbüs beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Bu təşəbbüs də artıq çıxışımda qeyd etdiyim amillərdən qaynaqlanırdı. Bununla yanaşı, Azərbaycan həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvü olan məhdud sayda dövlətlərdən biridir.

Avropa Şurası ölkələrinin nazirlərinin 2008-ci ildə toplantısını təşkil edərkən biz İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin müvafiq nazirlərini də dəvət etdik. Yəni, ilk dəfə idi ki, belə böyük tədbir təşkil edildi və 100-dən artıq dövlətin nümayəndəsi mədəniyyətlərarası münasibətlər mövzusunu müzakirə etmək üçün bir araya gəldi.

İslam Əməkdaşlıq Təşkilatının üzvü kimi Azərbaycan 2009-cu ildə nazirlər səviyyəsində toplantıya ev sahibliyi etdi. O vaxt biz Avropa Şurasına üzv dövlətlərin nazirlərini Bakıya dəvət etdik. Bu təşəbbüs və bu format sonradan "Bakı prosesi" adlandırıldı və biz bununla fərəhlənirik. Birincisi, ona görə ki, bu, bizim təşəbbüsümüz idi. İkincisi isə ona görə ki, Bakı və Azərbaycan mədəniyyətlərarası dialoqun mərkəzi olmağa layiqdir.

Gələn il biz "Bakı prosesi"nin 10-cu ildönümünü qeyd edəcəyik. Azərbaycan Hökuməti və BMT-nin Sivilizasiyalar Alyansı tərəfindən mədəniyyətlərarası dialoq sahəsində liderlik xidmətlərinə görə "Bakı Prosesi Mükafatı"nın təsis edilməsi təşəbbüsü irəli sürülüb ki, həmin mükafat mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviqində olduqca fəal rol oynamış şəxslərə təqdim ediləcəkdir.

Azərbaycan tərəfindən irəli sürülmüş daha bir mühüm təşəbbüs Bakıda Avropa Oyunlarının keçirilməsi idi. Digər qitə oyunlarından fərqli olaraq, Avropada belə oyunlar heç vaxt təşkil edilməmişdi. Avropa Olimpiya Komitəsi belə bir oyunların keçirilməsi qərarını qəbul edəndə onlara ev sahibliyi etmək arzusunda olan ölkələrin sayı az idi. Səmimi desək, Azərbaycan Oyunların təşkilini öz üzərinə götürməyi təklif edən yeganə dövlət idi. Belə olmasaydı, həmin Oyunlar heç vaxt təşkil edilməyəcəkdi.

2015-ci il ilk Avropa Oyunlarının keçirilməsi ili oldu. Oyunlar Bakıda 5 mindən artıq avropalı idmançının iştirakı ilə baş tutdu. Təbii ki, bu Oyunlar bir idman tədbiri idi, lakin hesab edirəm ki, onların rəmzi mənası da var idi. Çünki ilk dəfə təşkil olunan Avropa Oyunları bir müsəlman ölkəsində keçirilirdi. Bu, multikulturalizmin və dini dözümlülüyün göstəricisi idi. Oyunlar yüksək səviyyədə təşkil edildi. İdmançılar, qonaqlar olduqca məmnun və xoşbəxt idilər - istər təşkilatçılıq səviyyəsi, istərsə də Azərbaycan xalqı tərəfindən qarşılanma baxımından. Xalqımız avropalı qonaqlara özünün ənənəvi qonaqpərvərliyini nümayiş etdirdi.

Bir həftədən sonra biz bütün müsəlman ölkələrini təmsil edən 3 min idmançının iştirakı ilə IV İslam Həmrəyliyi Oyunlarının açılışını edəcəyik. Yəni, iki il müddətində eyni şəhərdə Avropa Oyunları ilə yanaşı, İslam Həmrəyliyi Oyunlarının keçirilməsi bizim siyasətimizin və niyyətimizin göstəricisidir. Əminəm ki, burada güclü rəqabət olacaqdır. Ancaq bir daha da qeyd etmək istəyirəm ki, bu, sadəcə idman tədbiri deyil. Bu, insanları birləşdirən hadisədir. Bizim İslam aləmində, ilk növbədə, birliyə ehtiyacımız var.

Təəssüf ki, terrorçuluqdan ən çox əziyyət çəkən məhz elə müsəlman dövlətləridir. Azərbaycan İslam dəyərlərinin təbliği baxımından çox vacib rol oynayır. Biz Avropa paytaxtlarında müxtəlif beynəlxalq tədbirlər – təqdimat və sərgilər təşkil edərək qədim İslam mədəniyyətini təbliğ edirik. Azərbaycan islamofobiya və İslamı terrorçuluqla əlaqələndirmə əleyhinə ən fəal mübarizə aparan ölkələrdəndir. Yəni, regionumuzu daha təhlükəsiz etmək üçün bizim müsəlman dünyasında birliyə ehtiyacımız var. Eyni zamanda, gərginliyin azaldılması üçün bizim İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və digər beynəlxalq təsisatlar arasında əlaqələndirməyə ehtiyacımız var.

Beləliklə, mədəniyyətlərarası dialoq haqqında danışanda biz aydın şəkildə anlayırıq ki, həmin dialoqun uğurunun təsirini hər bir sahədə – siyasi həyatda, təhlükəsizlik ilə bağlı sahələrdə və iqtisadi əməkdaşlıqda görmək olar. Proqnozlaşdırılan tərəfdaşlığa və qarşılıqlı etimada söykənən münasibətlər olmadığı halda istənilən dövlət üçün qarşıya qoyulan məqsədlərə çatmaq çox çətin olar.

Bu təşəbbüslər və Azərbaycanın uğur hekayəsi, onun multikulturalizmin mərkəzinə çevrilməsi, - yeri gəlmişkən, biz Azərbaycanda Multikulturalizm Mərkəzi yaratmışıq, – onu nümayiş etdirir ki, biz həm doğru yol ilə, həm də uğurla irəli gedirik. Bütün dünyanı əhatə edən bu Forum da bizim niyyətimizin bariz nümunəsidir.

Azərbaycan nisbətən gənc müstəqil dövlətdir. Böyük tarix, ənənə və mədəniyyətə malik olmağımıza baxmayaraq, müstəqil dövlət olaraq bizim 25 yaşımız var. Ötən il biz müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd etdik. Bu illər onu nümayiş etdirdi ki, ölkənin taleyi öz əlimizdə olanda böyük uğur əldə etmək olar. Əsrlər boyu Azərbaycan müxtəlif dövlətlərin və imperiyaların tərkibində olub və 25 illik müstəqillik sübut edir ki, yalnız azad olan halda uğur qazanmaq olar. Dövlətimizin tarixində Azərbaycan bugünkü qədər güclü olmayıb.

Biz sosial, iqtisadi və siyasi həyatda mühüm nailiyyətlər əldə etmişik. Bu gün Azərbaycan sürətlə inkişaf edən, müasir və dinamik ölkədir. Bu ölkə öz ənənəvi köklərinə bağlı olmaqla yanaşı, dünyaya açıq olan müasir bir dövlətdir.

Üzləşdiyimiz ən böyük problem erməni işğalıdır. Təəssüf ki, müstəqilliyimizin bərpası erməni işğalı ilə müşayiət edilirdi və bunun nəticəsi olaraq, ərazimizin 20 faizi - Dağlıq Qarabağ və digər yeddi rayonumuz Ermənistan tərəfindən işğal edildi. İşğal nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi. Xalqımıza qarşı etnik təmizləmə həyata keçirildi. Bu gün işğal olunmuş ərazilərimizdə bütün tarixi abidələr və tikililərimiz Ermənistan tərəfindən dağıdılıb, məscidlərimiz yerlə-yeksan edilib.

Bakıda, şəhərin mərkəzində erməni kilsəsi yerləşir və biz onu təmir etmişik. Ermənistan isə işğal olunmuş ərazilərdə bizim tarixi və dini irsimizi məhv edib. Bu fotoşəkilləri internetdə tapmaq mümkündür. Bununla yanaşı, ATƏT işğal edilmiş ərazilərə iki dəfə faktaraşdırıcı missiya göndərib və onların hesabatlarında da ərazilərin viran olunması öz əksini tapıb. BMT Təhlükəsizlik Şurası – dünyanın ən ali beynəlxalq qurumu 4 qətnamə qəbul etmişdir ki, orada Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Həmin qətnamələrə 20 ildən artıqdır ki, əməl olunmur. Ermənistan Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və beynəlxalq hüququ kobudcasına pozur. Ancaq təcavüzkarı qətnamələrə əməl etməyə məcbur edən mexanizm mövcud deyil. Bu isə çox mühüm və xalqımızı dərindən narahat edən məsələdir. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün, hətta bir neçə saat ərzində icra olunur. Bizə gəldikdə isə 20 ildən artıq bir müddət keçir. Bu, ilk növbədə, ikili standartların və müəyyən mənada qərarların icra mexanizminin səmərəsizliyinin bariz nümunəsidir.

Münaqişənin həlli beynəlxalq hüquq normalarına, BMT-nin Nizamnaməsinə, Helsinki Yekun Aktına və Azərbaycanın ərazi bütövlüyü prinsipinə əsaslanmalıdır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Dağlıq Qarabağ Azərbaycanın tarixi və hüquqi bir parçasıdır.

Bu faciəyə və onun çox böyük iqtisadi yükünə baxmayaraq, - nəzərə alsaq ki, 1990-cı illərin əvvəlində ölkəmiz çox yoxsul olduğu halda bizim 1 milyondan artıq qaçqınımız var idi, yəni, bu, bizim üçün çox ciddi iqtisadi və sosial problem idi, - biz onun öhdəsindən gələ bildik. Səylərimizi səfərbər edərək güclü ölkə yarada bildik. Bu gün Azərbaycan siyasi və iqtisadi cəhətdən sabit ölkədir. Azərbaycan beynəlxalq birliyin hörmətli üzvüdür. Bunu sübut etmək üçün bir sıra faktlar sadalaya bilərəm. Ancaq düşünürəm ki, yalnız biri kifayət edər.

Bir neçə il bundan əvvəl 155 ölkə Azərbaycana səs verərək onu BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçdi. Dünya dövlətlərinin mütləq əksəriyyətinin dəstəyi nümayiş etdirir ki, Azərbaycan böyük nüfuza malikdir. Biz İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüyük. Eyni zamanda, Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında sənədlər imzalanıb və ya qəbul edilib.

Bu, bizim regionda oynadığımız roldur. Biz coğrafi yerləşməyimizi mühüm infrastruktur imkanlarına çevirməyə müvəffəq olmuşuq. Bizim təşəbbüskarı olduğumuz layihələr bu gün Asiyanı Avropa ilə dəmir yolu vasitəsilə birləşdirir və artıq mənfəət gətirir, eyni zamanda, ölkələr arasında çox vacib əlaqə yaradır.

Bununla bərabər, Azərbaycan nəhəng enerji layihələrinin təşəbbüskarıdır. Onlardan biri hazırda icra olunan və Avropanın ən böyük infrastruktur layihəsi olan "Cənub Qaz Dəhlizi" layihəsidir. Layihəyə yatırılan sərmayə 40 milyard dollara bərabərdir və o, ilk mərhələdə 7 ölkəni birləşdirərək, regionumuzun, Mərkəzi və Cənubi Avropanın bir çox ölkəsinin enerji şaxələndirilməsini və enerji təhlükəsizliyini təmin edəcək. Bu, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və enerji əməkdaşlığı layihəsidir. Çünki bizim bütün enerji və nəqliyyat layihələrində iştirak edən ölkələr təbii tərəfdaşlara çevrilir və burada

birgə qarşılıqlı bağlılıq yaranır. Qarşılıqlı bağlılıq isə iqtisadi əməkdaşlıq və qarşılıqlı hörmət üçün ən vacib amillərdəndir.

Beləliklə, Azərbaycan tərəfindən irəli sürülmüş nəqliyyat və enerji layihələri inkişaf və firavanlığın təmin edilməsi məqsədinə xidmət edir. Eyni zamanda, bu, bizim beynəlxalq əməkdaşlıq və mədəniyyətlərarası dialoqa olan sərmayəmizdir.

Bizim iqtisadi göstəricilərimiz də çox yüksək olmuşdur. Son 13 il ərzində ümumi daxili məhsulumuz 3 dəfədən çox artıb. Biz işsizliyin səviyyəsini 5 faizə endirə bilmişik, yoxsulluq 6 faizdən azdır. Xarici borcumuz olduqca aşağı səviyyədədir və ümumi daxili məhsulun 20 faizini təşkil edir. Valyuta ehtiyatlarımız isə xarici borcumuzdan 5 dəfə artıqdır. Yəni, iqtisadi göstəricilərimiz həqiqətən də yüksəkdir və bu fakt beynəlxalq təsisatlar tərəfindən yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumu iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 37-ci yerə layiq görüb. Həmin təşkilatın qiymətləndirməsinə əsasən, inkişafda olan ölkələrin inkişaf templərinə görə Azərbaycan siyahıda digər bir ölkə ilə birinci və ikinci yerləri paylaşır.

Bütün bunlar müstəqillik illərində əldə etdiyimiz böyük bir sərvətdir. Biz təhsilə böyük sərmayə qoyuruq. Bu gün Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Son on ildə ölkəmizdə 3 mindən artıq yeni məktəb istifadəyə verilib. Bildiyimiz kimi, təhsilə qoyulan sərmayə gələcəyə yatırılan sərmayədir. Eyni zamanda, bu, sabitliyə qoyulan sərmayədir. Çünki radikalizmin, ekstremizmin və fundamentalizmin kökündə savadsızlıq dayanır. Gənc nəslin “beyini yuyulur” və gənclər dəhşətli terror aktlarının törədilməsinə sövq edilir. Savadsızlıq, yoxsulluq, sosial qeyri-bərabərlik və ədalətsizlik radikalizmin əsas mənbəyidir. Buna görə radikalizmi aradan qaldırmaq üçün biz onun fundamental səbəblərini müzakirə etməliyik. Eyni zamanda, mədəniyyətlərarası münasibətlərin dəyərlərini təbliğ etməliyik ki, insanlar sülh şəraitində birgəyaşayışın üstünlüyünü aydın görsünlər.

Burada da biz çox vacib olan məsuliyyət məsələsinə toxunuruq. Siyasətçilərin məsuliyyətini qeyd edirəm. Bəzən radikal kəsimin səslərini əldə etmək üçün siyasətçilər öz proqramlarını milliyyətçilik ideyası üzərində qururlar. Qeyri-hökumət təşkilatlarının məsuliyyəti. Onların bəziləri məqsədyönlü şəkildə dini və etnik zəmində gərginlik yaradır. Nəhayət, medianın məsuliyyəti. Beynəlxalq mediaya nəzər salsaq, əsasən miqrant böhranı, müharibə, dağıntı, toqquşma, dini və etnik münaqişə görürük.

Ancaq bir çox müsbət nümunələr də var və biz onları nümayiş etdirməliyik. Hesab edirəm ki, bu Forumun əhəmiyyəti və məqsədlərindən biri də onu nümayiş etdirməkdir ki, biz bu məsələləri müzakirə edir və səylərimizi səfərbərliyə alırıq. Əminəm ki, Forumun bütün iştirakçılarının burada eyni gündəliyi var – mədəniyyətlərarası dialoqun dəyərlərini təşviq etmək və gücləndirmək.

Ümidvaram ki, Forumun nəticələri uğurlu olacaq və biz onun bütün qərarlarını həyata keçirəcəyik. Bizimlə bir yerdə olduğunuza görə bir daha sizə təşəkkür edir, Forumun işinə uğurlar diləyirəm. Sağ olun.

* * *

Sonra Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən yüksək səviyyəli qonaqların şərəfinə nahar verildi.

***5 may 2017-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Nazir Nabi Avcı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətindən danışıldı, tədbirin mədəniyyətlərin və xalqların bir-birinə yaxınlaşması və bu sahədə əməkdaşlığın genişləndirilməsi işinə xidmət etdiyi vurğulandı.

Dövlətimizin başçısı IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Türkiyənin bu səviyyədə təmsil olunmasının önəmini qeyd etdi.

Nabi Avcı Avropa Şurası Parlament Assambleyasının Türkiyə ilə bağlı bu yaxınlarda qəbul etdiyi ədalətsiz qərarla əlaqədar Azərbaycanın ölkəsinə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı bu qərarın ədalətsiz olduğunu bir daha vurğuladı və Azərbaycanın bu qərarı qətiyyətlə pislədiyini bildirdi. Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlarda sıx əməkdaşlığının bundan sonra da davam etdiriləcəyinə əminliyini ifadə etdi.

Türkiyənin mədəniyyət və turizm naziri Nabi Avcı Azərbaycanda turizmin inkişafının ölkəsində maraqla izlənildiyini dedi.

Azərbaycanda turizm sektorunun inkişafına dövlətin xüsusi diqqət göstərdiyini vurğulayan Prezident İlham Əliyev bildirdi ki, məqsədimiz turizmi iqtisadiyyatın əsas sahələrindən birinə çevirməkdir.

Görüşdə mədəniyyət və turizm sahəsində əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, bu sahədə təcrübə mübadiləsinin aparılmasının əhəmiyyəti qeyd olundu və əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

*6 may 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV 9 MAY - QƏLƏBƏ GÜNÜ MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İkinci Dünya müharibəsinin veteranları ilə görüşdülər, onları Böyük Qələbə münasibətilə təbrik etdilər.

Müharibə veteranları Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Qələbə Günü münasibətilə təbrik etdilər, onlara göstərdikləri yüksək diqqətə və qayğıya görə minnətdarlıqlarını bildirdilər. Vurğuladılar ki, təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasını Prezident İlham Əliyev uğurla davam etdirir. Azərbaycan və onun paytaxtı Bakı şəhəri gündən-günə inkişaf edir, gözəlləşir, abadlaşır.

Xanım Mehriban Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması münasibətilə təbrik edən Böyük Vətən müharibəsi veteranları bildirdilər ki, dövlətimiz

onlara yüksək qayğı göstərir. Onlar bu qayğıya cavab olaraq gənclərimizin vətənpərvərlik ruhunda böyümələri, Vətəninə və xalqına layiqli övlad kimi yetişmələri üçün öz bilik və bacarıqlarını əsirgəməyəcəklərini dedilər.

Dövlətimizin başçısı və birinci xanım müharibə veteranlarını bir daha təbrik etdilər, onlara uzun ömür və möhkəm cansağlığı arzuladılar.

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. İkinci Dünya müharibəsində SSRİ-nin qazandığı şanlı Qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 700 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddə üç hissəsi, aviasiya benzini və yüksəkkeyfiyyətli yağların 85-90 faizi Azərbaycanın payına düşürdü.

Azərbaycanın əsgər və zabitləri Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarus, Pribaltika cəbhələrində cəsarətlə vuruşublar. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci milli diviziyalar Simferepolun, Odessanın, Polşanın, Çexoslovakiyanın və Yuqoslaviyanın azadlığı uğrunda döyüşlərdə fəal iştirak ediblər.

İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri yaddaşlardan silinmir, bu qəhrəmanlıq gənc nəslə vətənpərvərlik nümunəsidir.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi. Ümummilli Lider onları "Xalqımızın qızıl fondu" adlandırırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həlli istiqamətində daim mühüm addımlar atır, 9 May - Qələbə bayramı ərəfəsində onlara birdəfəlik maddi yardımlar göstərilir. Bu isə həmin kateqoriyadan olan insanların sosial vəziyyətinin daim diqqət mərkəzində olduğunu nümayiş etdirir.

Böyük Vətən müharibəsi veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdikləri qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 72 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə Günü münasibətilə onları təbrik etdilər, xatirə şəkli çəkdirdilər.

Dövlətimizin başçısı və birinci xanım iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun qəbirüstü abidəsi önünə əklil qoydular, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdilər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin qarşısından keçdi.

* * *

Mərasimdə Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

*9 may 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDERİN ANADAN OLMASININ 94-CÜ İLDÖNÜMÜNƏ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTİNİN 13 İLLİYİNƏ HƏSR OLUNAN TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümüdür. Bu gün Azərbaycan xalqı Ulu Öndərin əziz xatirəsinə bir daha dərin ehtiramını ifadə edir. Heydər Əliyev dahi şəxsiyyətdir, böyük liderdir, uzaqgörən, cəsarətli siyasi xadimdir. O, bütün dövrlərdə Azərbaycan xalqına sədaqətlə xidmət edirdi, xalq üçün yaşayırdı, yaradırdı. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Hər iki dəfə Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna qoymuşdur. Bu, onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev həmişə ən düzgün siyasət aparmış, Azərbaycan xalqının maraqlarını müdafiə və təmin etmişdir. 1969-cu ildə ilk dəfə sovet Azərbaycanına rəhbərliyə başlayanda ovaxtkı Azərbaycan Respublikasının sosial-iqtisadi göstəriciləri demək olar ki, sovet məkanında ən aşağı səviyyədə idi. Heydər Əliyevin rəhbərliyi ilə 13 il ərzində Azərbaycan Respublikası ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə qədər yol keçmişdir və əgər Sovet İttifaqında Rusiya Federasiyasından başqa iki özünü təmin edən və donor respublika var idisə, onlardan biri Azərbaycan idi.

Məhz onun rəhbərliyi və təşəbbüsü ilə bir çox önəmli layihələr icra olunmuşdur, kənd təsərrüfatı sürətlə inkişaf etmişdir. Kənddə yaşayanlar öz həyat səviyyələrini yaxşılaşdıra bilmişlər. O vaxt Azərbaycanda sənayenin inkişafı çox sürətlə gedirdi. Neft sənayesi inkişaf edirdi. Bir çox önəmli infrastruktur layihələri icra edilmişdir ki, bu gün də müstəqil Azərbaycan üçün onların böyük əhəmiyyəti vardır. Heydər Əliyevin rəhbərliyi ilə o vaxt Azərbaycanda rüşvətxorluğa, korrupsiyaya qarşı çox ciddi mübarizə aparılırdı və bu göstəriciyə görə də Azərbaycan sovet məkanında fərqlənirdi.

Bir sözlə, 1969-1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə respublika çox böyük uğurlu yol keçmişdir. Heydər Əliyevin fəaliyyəti sovet rəhbərliyi tərəfindən də yüksək qiymətləndirilirdi. Təsadüfi deyil ki, 1982-ci ildə hakimiyyətə gəlmiş Yuri Andropov ilk təyinatını Heydər Əliyevi Moskvaya dəvət etməklə etdi. Yuri Andropov hakimiyyətə geniş islahatlar gündəliyi ilə gəlmişdi. Nizam-intizamın möhkəmləndirilməsi, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizənin aparılması, iqtisadi islahatlar o proqramın tərkib hissələri idi. Əlbəttə ki, Heydər Əliyev kimi böyük şəxsiyyət, lider bütün bu yeni meyarlara tam cavab verirdi.

Bakıdan Moskvaya gedəndən sonra Heydər Əliyev üçün yeni dövr başladı. Heydər Əliyev Sovet İttifaqının rəhbərliyində ən yüksək vəzifələrdən birini tuturdu, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büronun üzvü idi. Onun kurasiyasında bir çox sahələr var idi ki, o sahələr Heydər Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf etməyə başlamışdı. Əlbəttə ki, Azərbaycanda mövcud vəziyyət, Azərbaycanın problemləri onu daim maraqlandırırdı və o, çalışırdı ki, yeni imkanlardan istifadə edərək Azərbaycan Respublikasına kömək etsin. O vaxt Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı önəmli qərarlar qəbul edilmişdir.

Ancaq əfsuslar olsun ki, Heydər Əliyev Moskvaya gedəndən sonra Azərbaycanda işlər yavaş-yavaş tənəzzülə uğramağa başladı. Bu tənəzzül özünü müxtəlif sahələrdə büruzə verirdi. Artıq o dinamika hiss olunmurdu. Ancaq Heydər Əliyevin müəyyənləşdirdiyi yol bu dövrdə də Azərbaycanın inkişafına xidmət edirdi və yeganə təkanverici qüvvə idi.

Bildiyiniz kimi, 1987-ci ildə Heydər Əliyev tamamilə əsassız ittihamlarla bütün vəzifələrdən kənarlaşdırıldı. Bunun səbəbləri haqqında geniş ictimaiyyətdə kifayət qədər məlumat var. Sovet rəhbərliyində ən fəal, işgüzar və nəticə verən şəxs heç bir əsas olmadan bütün vəzifələrdən kənarlaşdırıldı. Burada əlbəttə ki, şəxsiqərəzlik məsələləri öz rolunu oynamışdır. Heydər Əliyev böyük şəxsiyyət idi, həmişə bütün məsələlərlə bağlı öz mövqeyini müdafiə edirdi, o vaxt yenidənqurma adı altında aparılan bir çox işlərə tənqidi yanaşırdı, onları qəbul etmirdi. Bilirdi ki, onların heç bir səmərəsi olmayacaq, əksinə, bunlar çox böyük zərər gətirə bilər. Əlbəttə ki, belə bir müstəqil şəxsiyyətin, özü də sovet məkanında böyük nüfuza malik olan şəxsiyyətin mövcudluğu o vaxt öz imkanlarına inanmayan, təsadüf nəticəsində hakimiyyətin zirvəsinə qalxan şəxsin xoşuna gələ bilməzdi. Bir də əlbəttə ki, Heydər Əliyevin istefasını ona qarşı olan paxıllıq, qısqanclıq və digər mənfi xüsusiyyətlər şərtləndirdi. Onu da qeyd etməliyəm ki, Heydər Əliyevə qarşı o vaxt sovet məkanında formalaşan erməni qruplaşmaları da rol oynamışdır. Əfsuslar olsun ki, burada, Azərbaycanda donos, anonim məktub yazanlar, vaxtilə rüşvətxorluğa, digər pozuntulara görə onun tərəfindən cəzalandırılan ünsürlər də öz məkrli məktubları ilə Heydər Əliyevə zərbə vurmaq, ondan qisas almaq üçün çirkin əməllər törədirdilər.

Heydər Əliyevin istefasından sonra Azərbaycanın problemləri başladı. İki həftə keçmədən erməni separatçıları məsələ qaldırdılar ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməlidir. Beləliklə, Dağlıq Qarabağ probleminin əsası qoyuldu, birinci addım atıldı. Əfsuslar olsun ki, ovaxtkı sovet rəhbərliyi həmin separatçıların fəaliyyətinə heç bir məhdudiyyət qoymadı, heç bir reaksiya vermədi və nəticə etibarilə bu meyillər Sovet İttifaqının dağılmasına gətirib çıxardı. Əlbəttə, Sovet İttifaqının dağılmasının səbəbləri kifayət qədər çoxdur. Ancaq onun əsas səbəbləri əlbəttə ki, yanlış milli siyasət olmuşdur. Sovet İttifaqını böyük dövlət kimi saxlayan məhz düzgün milli siyasət olub. Ancaq 1985-ci ildən sonra bu siyasətə cavabdehlik daşıyan şəxslər ya öz məsuliyyətini dərk edə bilmirdilər, ya da ki, qəsdən çox ziyanlı addımlar atmışlar. Onların arasında Dağlıq Qarabağdakı erməni millətçilərinin, separatçılarının vaxtında cəzalandırılmaması məsələsi xüsusi yer tutur. Dağlıq Qarabağ münaqişəsindən sonra digər yerlərdə də toqquşmalar baş verdi və nəticə etibarilə Sovet İttifaqı dağıldı.

Heydər Əliyev 1990-cı ilə qədər pensiyaçı həyatını yaşayırdı. 1990-cı ildə xalqımıza qarşı qanlı 20 Yanvar cinayəti törədildi. Bu cinayətin də başında dayanan məhz ovaxtkı sovet rəhbəri olmuşdur. Əfsuslar olsun ki, bu günə qədər o, bu və digər cinayətlərə görə məsuliyyət daşımır və bu məsuliyyətdən yayına bilmişdir.

Heydər Əliyev xalqımız üçün ağır anda yenə də göstərdi ki, o, xalqla bir yerdədir. Yaxşı yadımdadır, 1990-cı il yanvarın 21-də o, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə getmişdi, - mən fəxr edirəm ki, onun yanında idim, - və orada böyük bir

izdiham yaranmışdı. Oraya yığışan azərbaycanlılar öz etirazlarını hansısa formada ifadə etməyə çalışırdılar. Biz oraya yaxınlaşanda sakitlik idi. Yəni, insanlar sadəcə olaraq nümayəndəliyin önündə dayanmışdılar, sanki nəyisə gözləyirdilər və Heydər Əliyev gəldi, onlar onun simasında yenə də lideri gördülər. Baxmayaraq ki, o, heç bir vəzifə daşımırdı, 3 il idi pensiyaçı həyatı yaşayırdı. Eyni zamanda, ona qarşı həm sovet, həm də Azərbaycan mətbuatında təşkil edilmiş çirkin, böhtan xarakterli yazılar da gedirdi. Ona qarşı çox ədalətsiz və çirkin kampaniya aparılırdı. Ancaq insanların qəlbində Heydər Əliyev milli lider və güclü şəxsiyyət kimi yaşayırdı. İnsanlar onu görəndə kənara çəkildilər və biz açılan o canlı dəhlizlə binaya daxil olduq. Mətbuat konfransı təşkil edildi və Heydər Əliyev sovet rəhbərliyini, onun siyasətini qətiyyətlə pislədi, Azərbaycan xalqına başsağlığı verdi və sovet hakimiyyətinin hərəkətlərinə öz kəskin münasibətini bildirdi.

Deyə bilərəm, Sovet İttifaqında bəlkə də ilk hadisə idi ki, sovet rəhbərliyi, onun başında dayanan şəxs açıq mətbuat konfransında belə pislənildi. Onu da qeyd etməliyəm ki, Sovet İttifaqının dağılmasına hələ 2 il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı dağılacaq.

Yəni, bu addımı atmaqla Heydər Əliyev, ilk növbədə, xalqla bir yerdə olduğunu, cəsarətini, milli ruhunu göstərdi. Göstərdi ki, onun üçün Azərbaycan xalqının maraqları hər şeydən üstündür. Göstərdi ki, ən ağır faciəvi günlərdə o, xalqla bir yerdədir. Təbii ki, ondan sonra ona qarşı aparılan kampaniya daha da eybəcər formalar almışdır. Ona qarşı yenə də mətbuat kampaniyaları aparılırdı, təzyiq göstərilirdi. Bizdə olan məlumata görə, sovet rəhbərliyi onun həbsi ilə bağlı qərar da qəbul etmişdi.

Ondan sonrakı tarixi Azərbaycan ictimaiyyəti yaxşı bilir. Heydər Əliyev Kommunist Partiyasının sıralarından çıxıb Azərbaycana gəldi. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi də sovet rəhbərliyinin göstərişi ilə oturub-dururdu və Heydər Əliyevə qarşı Bakıda da ədalətsizlik göstərilmişdir. Təşkil edilmiş insanlar aeroportda mitinq keçirirdilər, onun gəlişinə maneçilik törətməyə çalışırdılar və digər xoşagəlməz, insana yaraşmayan addımlar da atılmışdır.

Heydər Əliyev Naxçıvana üz tutdu və bu da hesab edirəm ki, tarixi zərurət idi. Çünki o vaxt Naxçıvan da təhlükə altında idi. Erməni qəsbkarları Naxçıvana da öz çirkin əllərini uzatmışdılar. Tam əminliklə deyə bilərəm ki, əgər o vaxt Heydər Əliyev Naxçıvanda olmasaydı, bəlkə Naxçıvan da işğal oluna bilərdi. O, Naxçıvanı qorudu, naxçıvanlılar da onu qorudular. O vaxt Naxçıvanda da qanlı döyüşlər gedirdi və özünümüdafiə qüvvələri erməni qəsbkarlarını yerinə oturtdular.

Heydər Əliyev Naxçıvanda yaşayırdı, işləyirdi. Xalq onu dəstəkləyirdi və o da xalq üçün yaşayırdı. O vaxt Naxçıvanda önəmli qərarlar qəbul edilmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı rəsmi bayraq kimi qəbul edildi. Sovet İttifaqının saxlanmasına dair referendum Naxçıvanda keçirilmədi. Naxçıvan Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı. Yəni, bu, müstəqilliyə aparan ilk addımlar idi. Naxçıvanda Yeni Azərbaycan Partiyası öz birinci təsis konfransını keçirdi və beləliklə, Azərbaycanda siyasi sistem formalaşdı. Əlbəttə ki, xalq da bunu bilirdi, görürdü, həm Naxçıvanda, həm Bakıda. Xalq Heydər Əliyevin Bakıya gəlməsini səbirsizliklə gözləyirdi.

Sonra AXC-Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti nəticəsində ölkəmiz çox ağır problemlərlə üzləşdi. Şuşa, Laçın, Kəlbəcər rayonları işğal altına düşdü. Beləliklə, Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yarandı. AXC-Müsavat cütlüyü ölkənin ərazi bütövlüyünü müdafiə etmək əvəzinə, Azərbaycanda vətəndaş müharibəsinə start verdi. Gəncəni bombalayırdılar. Orada torpaqlar əldən gedirdi, bunlar da burada öz laxlayan hakimiyyətini saxlamaq üçün Gəncə şəhərini bombalayırdılar. Əlbəttə ki, Azərbaycan

xalqı o antimilli hakimiyyətə dözə bilməzdi, cəmi bir il dözə bildi və 1993-cü ildə Heydər Əliyevi hakimiyyətə dəvət etdi.

O da bir dönüş nöqtəsi idi. Çünki Azərbaycan çox ağır vəziyyətlə üzləşmişdi. Həm siyasi böhran, hərbi böhran, iqtisadi tənəzzül yaşanırdı və əlbəttə ki, ölkəmizin gələcək taleyi çox qaranlıq idi. Xalq o ağır günlərdə yeganə nicat yolunu Heydər Əliyevdə görürdü və o da xalqın etimadını həmişə olduğu kimi doğrultdu. Onun rəhbərliyi ilə aparılan siyasət qısa müddət ərzində Azərbaycanda sabitliyə, inkişafa gətirib çıxarmışdır. Baxmayaraq ki, hələ 1994-cü və 1995-ci illərdə iki dəfə dövlət çevrilişinə cəhd göstərilmişdir və o cəhdin də qarşısını Azərbaycan xalqı aldı. Heydər Əliyev o vaxt da liderlik keyfiyyətlərini nümayiş etdirib, xalqa televiziya vasitəsilə müraciət edib, onu dövləti müdafiə etməyə dəvət edib və onun müraciətinə cavab olaraq on minlərlə insan meydanlara, küçələrə, Prezident Administrasiyasının önünə toplaşdı və beləliklə, həm 1994-cü ildə, həm 1995-ci ildə dövlət çevrilişinə cəhd alınmadı.

1996-cı ildən isə artıq sabitlik, inkişaf dövrü başlayır. Müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev bir çox önəmli təşəbbüslər irəli sürdü. O vaxt dövlətçiliyin əsasları qoyuldu. O vaxt azərbaycançılıq ideologiyasının təqdimatı oldu və xalq da buna çox müsbət yanaşdı və bu gün də azərbaycançılıq fəlsəfəsi bizim mühüm ideoloji əsasımızdır. O vaxt ciddi iqtisadi islahatlar aparılmışdır. Azərbaycan beynəlxalq təcriddən çıxa bilmişdir. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir. 1994-cü ildə "Əsrin kontraktı" imzalanmışdır. Bu gün də "Əsrin kontraktı"nın əhəmiyyətini hər bir Azərbaycan vətəndaşı gündəlik həyatda görür. Abadlaşan şəhərlər, gözəlləşən ölkəmiz, yaradılan infrastruktur və inkişafda olan Vətənimiz, bunun əsas səbəbi o vaxt Azərbaycana böyük həcmdə xarici sərmayənin gətirilməsi idi.

1993-2003-cü illər sabitlik, inkişaf illəri olmuşdur. Heydər Əliyev bir daha göstərdi ki, ən ağır, böhranlı vəziyyətdən çıxış yolu var. O da düşünülmüş siyasətdir, cəsarətdir, müstəqil siyasət və addımlardır.

Heydər Əliyev 2003-cü ildə Azərbaycan xalqına son müraciətində gördüyü işlər haqqında danışmışdır və eyni zamanda, demişdir ki, hələ onun bir çox planları var. O, öz ümidini ifadə etmişdir ki, onun görə bilmədiyi işləri onun davamçıları görəcək və belə də oldu.

2003-cü ildən bu günə qədər Heydər Əliyev siyasəti yaşayır, yeni formalarla zənginləşir, Azərbaycan inkişaf edir. Heydər Əliyev Azərbaycana sabitlik gətirdi. Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir və bizdə olan sabitlik xalqın iradəsinə əsaslanır. Sabitliyin mənbəyi də Azərbaycan xalqının iradəsidir. 2003-cü, 2008-ci, 2013-cü illərdə keçirilmiş prezident seçkiləri bir daha Azərbaycan xalqının iradəsini ifadə etdi. Keçən il keçirilmiş referendum da Azərbaycan xalqının mütləq əksəriyyəti tərəfindən dəstəkləndi. Bu gün xalq-iqtidar birliyi ən yüksək səviyyədədir və sabitliyin əsasını qoyan, bax, bu amillərdir.

Heydər Əliyev 1993-cü ildə Azərbaycanda dərin siyasi islahatlara start verdi. O, başqa yol da seçə bilərdi. Ancaq o, həmişə deyirdi ki, bizim yolumuz demokratik inkişaf yoludur. Siyasi islahatların aparılması ilə Azərbaycanda demokratiyanın inkişafına çox böyük təkan verilmişdir. Bu gün Azərbaycanda bütün azadlıqlar var. Azərbaycan cəmiyyəti azadlıq şəraitində yaşayır, siyasi islahatlar davam etdirilir. Biz demokratik yolumuza dəfələrlə öz sadiqliyimizi göstərmişik.

Heydər Əliyev 1993-cü ildə uğurlu xarici siyasət aparmağa başlamışdır. Bu siyasət nəticəsində Azərbaycan beynəlxalq təcriddən çıxa bilmişdir. O vaxta qədər Azərbaycan haqqında dünyada, ümumiyyətlə, məlumat yox idi, ya da ki, erməni lobbiçiləri dünya ictimaiyyətinə ölkəmiz haqqında yanlış, təhrif edilmiş məlumat çatdırırdılar. Heydər Əliyev o informasiya blokadasını dağıda bildi. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan bir ölkədir. Azərbaycanda bir çox önəmli beynəlxalq tədbirlər,

forumlar keçirilir. Azərbaycan 155 ölkənin dəstəyi ilə dünyanın ən ali orqanı olan BMT Təhlükəsizlik Şurasına üzv olmuşdur. Biz bu istiqamətdə də Heydər Əliyevin siyasətinə sadiqliyimizi göstərdik, onun siyasətini davam etdirdik.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda da biz Heydər Əliyev kimi prinsipial mövqeyimizi müdafiə edirik və bu mövqe gündən-günə güclənir. 2003-cü ildən bu günə qədər aparıcı beynəlxalq təşkilatların qərarları, qətnamələri də bunu təsdiqləyir. Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı. Bütün bu təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimizi əks etdirən ədalətli qərarlar, qətnamələr qəbul etmişlər və Ermənistanın işğalçı siyasətini pisləmişlər. Artıq bu illər ərzində Xocalı soyqırımını dünyanın bir çox ölkələri rəsmən soyqırımı kimi tanıyıb və bu yaxınlarda Dağlıq Qarabağda keçirilən qondarma "referendum"u heç kim tanımayıb. Minsk qrupuna həmsədrlik edən ölkələr bunu bəyan etdilər ki, bu "referendum"u tanımırlar. Qonşu ölkələr eyni bəyanatlar verdilər, beynəlxalq təşkilatlar bu bəyanatlarla bir daha göstərdilər ki, onlar ölkəmizin ərazi bütövlüyünə hörmətlə yanaşırlar və Dağlıq Qarabağı, bu qondarma qurumu tanımırlar və əminəm ki, tanımayacaqlar.

Ordu quruculuğu Heydər Əliyev üçün prioritet məsələ idi. Çünki o, hakimiyyətə gələndə bizdə nizami ordu yox idi. Bizim əsas problemimiz də bundan qaynaqlanırdı. Ordu quruculuğu prosesi Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün ordu quruculuğu prosesi uğurla gedir. Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bunu bütün beynəlxalq reytinqlər də təsdiqləyir. Həm maddi-texniki təminat, təchizat, döyüş qabiliyyəti, vətənpərvərlik ruhu baxımından bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bunu keçən ilin aprel ayında baş vermiş toqquşma da göstərdi. Qəhrəman Azərbaycan əsgər və zabitləri işğal edilmiş torpaqların bir hissəsini – Ağdərə - keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin bir hissəsi, - Füzuli, Cəbrayıl rayonlarının torpaqlarını işğalçılardan azad etdilər, orada Azərbaycan bayrağı qaldırıldı. Budur, bugünkü Azərbaycan Ordusu. Biz Ordumuzla fəxr edirik və heç kimə imkan verə bilmərik ki, Ordumuzun uğurlarına kölgə salsın.

Əfsuslar olsun ki, ölkəmizdə fəaliyyət göstərən beşinci kolon və xüsusilə bu gün özünü müxalifət kimi göstərmək istəyən antimilli satqın ünsürlər dövlətimizin ən müqəddəs dəyərlərinə də zərbə vurmağa çalışırlar. Çalışırlar, amma heç nə alınmır. Ancaq özlərini ifşa edirlər. Bir daha göstərirlər ki, onlar Azərbaycan dövlətinin düşmənləridir, bir daha göstərirlər ki, dövlətə nə qədər pis olsa, onlar üçün bir o qədər yaxşıdır. Azərbaycan xalqı o antimilli ünsürləri 1993-cü ildə hakimiyyətdən qovub və bu günə qədər onların əlindən bir şey gəlmir. Xaricdən təlimat alanda fəallaşırlar, təlimat almayanda oturub o təlimatı gözləyirlər. Onların mitinqlərinə, əgər belə demək mümkündürsə, öz qohumlarından başqa heç kim gəlmir. Heç qohumları da gəlmir. Yəni, tamamilə marginallaşıb və bir dəstə zəhər buraxan, özünü müxalifət adlandıran ünsür, əlbəttə ki, bizim işimizə təsir göstərə bilməz. Ancaq çalışırlar ki, bizim inkişafımızı, dövlətimizin uğurlarını, Ordumuzu ləkələsinlər. Bizim Ordumuz keçən il göstərdi ki, nəyə qadirdir və Azərbaycan Ordusu işğal edilmiş torpaqları hər an azad etməyə qadirdir. Ordu quruculuğunun təməlini Heydər Əliyev qoymuşdur. Biz isə onun davamçılarıyıq, bu yolla gedirik və Ordumuz üçün nə lazımdırsa onu da edəcəyik.

Heydər Əliyev dərin iqtisadi islahatların başlanmasına təkan verdi. Bu gün Azərbaycan iqtisadiyyatı bütün parametrlərə görə bütün ölkələr üçün nümunə ola bilər. Son illər ərzində - 2004-cü ildən bu yana ümumi daxili məhsul 3 dəfə artıb, 1 milyon 700 min yeni iş yeri yaradılıb, bütün infrastruktur demək olar ki, yeniləşib. Xarici borc ümumi daxili məhsulun 20 faizini təşkil edir. Valyuta ehtiyatlarımız xarici borcdan beş dəfə çoxdur. Valyuta ehtiyatlarımız təxminən ümumi daxili məhsula bərabərdir. Davos Dünya İqtisadi

Forumu rəqabətqabiliyyətliliyinə görə iqtisadiyyatımızı 37-ci yerə layiq görüb. İnkişafda olan ölkələrin reytinqinə gəldikdə isə Davos Forumu bizi 1-ci, 2-ci yerə layiq görür. Budur, bu gün Azərbaycan iqtisadiyyatı və bizim uğurlu iqtisadi siyasətimiz.

Bunu sosial siyasətə də aid etmək olar. Məktəblər, xəstəxanalar. Hər il beş milyondan çox insan pulsuz tibbi müayinədən keçir. Məncə, heç bir başqa ölkədə belə bir praktika yoxdur. Bizim dövlətimizin sosial siyasəti çox uğurludur. Həmişə demişəm ki, biz bütün işləri xalq üçün edirik və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

Heydər Əliyevin rəhbərliyi ilə uğurlu neft siyasəti aparılır. Heydər Əliyevin neft strategiyası bu gün də davam etdirilir. Onun öz əlləri ilə təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verildi. Ondan sonra Bakı-Tbilisi-Ərzurum, daha sonra demək olar ki, həmin xətlə gedən Bakı-Tbilisi-Qars dəmir yolu, bu gün Cənub Qaz Dəhlizi. Azərbaycanın qaz yataqları dünya ilə birləşir. Biz dənizləri birləşdirdik. Xəzər dənizini Aralıq dənizi ilə, Qara dənizlə, Adriatik dənizi ilə birləşdirdik. Heydər Əliyevin neft strategiyası bu gün davam etdirilir.

Bakı şəhəri bu gün dünya miqyasında ən gözəl şəhərlərdən biridir. Bakının müasir rəmzləri yaradıldı. Onlardan biri də Ulu Öndərin adını daşıyan bu möhtəşəm Heydər Əliyev Mərkəzidir. Bu gün Heydər Əliyev Mərkəzinin açılışının beşinci ildönümüdür. Beş il bundan əvvəl biz Heydər Əliyev Mərkəzində ilk görüşü keçirmişdik. Bu, bir müstəqillik, inkişaf rəmzidir. Mənim fikrimcə, müasir memarlıq əsərləri arasında Heydər Əliyev Mərkəzi birinci yerdədir.

Yəni, dediyim sözlər bir daha onu göstərir ki, Ulu Öndər həmişə olduğu kimi, xalqa son müraciətində də düzgün proqnoz verdi. O, inanırdı və bildirdi ki, onun davamçıları onun görə bilmədiyi işləri görəcəklər, belə də oldu. Biz – onun davamçıları bununla fəxr edirik. Fəxr edirik ki, onun ideyalarını yaşadırıq. Fəxr edirik ki, müstəqilliyimizi möhkəmləndiririk və Heydər Əliyev yolu ilə gedirik və gedəcəyik. Sağ olun.

* * *

Təntənəli mərasim bədii hissə ilə davam etdi.

*10 may 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü günüdür. Artıq 14-cü ildir ki, qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü Azərbaycanın hər yerində olduğu kimi, dünya ölkələrində də geniş qeyd edilir. Ölkəmizin bütün bölgələrində bu əlamətdar gün – Azərbaycan xalqının xilaskarı, müasir müstəqil dövlətimizin banisi, respublikamızı sarsılmaz, dönməz yüksəliş yoluna çıxarmış əbədi inkişaf strategiyasının müəllifi ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə silsilə tədbirlər keçirilir, dahi şəxsiyyətin Vətən və dövlət qarşısındakı xidmətləri minnətdarlıqla xatırlanır. Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, eləcə də diasporumuzun təmsilçiləri ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə tədbirlər keçirərək görkəmli siyasi xadimin zəngin və çoxşaxəli fəaliyyətini, Vətən və xalq qarşısındakı xidmətlərini geniş təbliğ edirlər.

Xalqımızın xilaskar oğlunun hər doğum günündə olduğu kimi, bu il mayın 10-da da səhər tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana üz tuturlar. Ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, təzə-tər güllər qoyulur, əziz xatirəsi dərin ehtiramla yad edilir, ruhuna dualar oxunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri, Ulu Öndərin doğmaları və yaxınları xalqımızın xilaskar oğlunun doğum günündə onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.

***10 may 2017-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN RƏSMİ QƏBULDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.

Azərbaycanın dövlət himni səsləndirildi.

Dövlətimizin başçısı rəsmi qəbulda nitq söylədi.

### PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar.

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqına yeni uğurlar, qələbələr arzulayıram.

Doxsan doqquz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, bizim xalqımız bu respublikanı yaradıb. Bu, tarixi hadisədir, xalqımız üçün və dünya miqyasında tarixi hadisədir. Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Dünya miqyasında birinci müsəlman demokratik respublikası Azərbaycanda yaradılmışdır. Bu, özlüyündə xalqımızın nə qədər mütərəqqi və istedadlı olduğunu bir daha göstərirdi.

Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, onun qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini qeyd etmək üçün bu yaxınlarda mənim tərəfimdən Sərəncam imzalanmışdır.

Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki ildən sonra müstəqilliyimiz əlimizdən alınmışdır. Əgər Azərbaycan dövlət müstəqilliyini qoruya bilsəydi, əminəm ki, bu gün Azərbaycan dünya miqyasında ən inkişaf etmiş, ən zəngin ölkələrdən biri olacaqdı. Ancaq xarici müdaxilə nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi.

Ondan sonra 70 il Azərbaycan xalqı Sovet İttifaqının tərkibində yaşayırdı. Baxmayaraq ki, müstəqil deyildik, Azərbaycan xalqı inkişaf edirdi. Xüsusilə 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf etmişdir, həm iqtisadi, həm sosial sahədə böyük uğurlar qazanmışdır.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmuşdur. Ancaq tarix sanki təkrarlanırdı və iki ildən sonra yenə də müstəqilliyimiz üçün böyük təhlükələr yaranmışdı. Əslində, müstəqilliyimizin ilk iki ili formal xarakter daşıyırdı. Çünki Azərbaycan öz müstəqil siyasətini tam miqyasda apara bilmirdi. Bundan əlavə, ölkəmizdə yaşanan siyasi, iqtisadi, hərbi böhran, torpaqlarımızın işğal altına düşməsi, ovaxtkı hakimiyyət tərəfindən vətəndaş müharibəsinin başlanması, əlbəttə, gənc dövlətimizi uçurum kənarına qoymuşdu. 1993-cü ildə Azərbaycan yenə də böyük təhlükə ilə üz-üzə qalmışdı. Azərbaycan xalqının müdrikliyi ölkəmizi, dövlətimizi bu bəladan xilas etdi.

Azərbaycan xalqı müdriklik göstərərək böyük lideri – Heydər Əliyevi hakimiyyətə dəvət etdi. 1993-cü ildən sonra Azərbaycanda inkişaf dövrü başlamışdır və bu gün bu dövr davam edir. Bütün xoşagəlməz hallara, vətəndaş müharibəsinə son qoyuldu, qeyri-qanuni silahlı birləşmələr tərksilah edildi. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi, ölkəyə böyük həcmdə xarici sərmayə gəlməyə başladı. Azərbaycan beynəlxalq təcriddən, informasiya blokadasından çıxa bildi. Bir sözlə, 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan inkişaf yolu ilə gedir. Bugünkü Azərbaycan bir daha mənim sözlərimi təsdiqləyir ki, əgər 1920-ci ildə müstəqillik əlimizdən alınmasaydı, indi Azərbaycan ən öndə gedən ölkələrdən biri ola bilərdi.

Bunu deməyə əsas verən bizim müstəqillik tariximizdir. Cəmi 23 il ərzində – 1993-cü ildən başlayaraq, görün, Azərbaycan nə qədər inkişaf edib, Azərbaycan nə qədər güclənib, görün, Azərbaycan dünyada hansı möhkəm mövqelərə sahib olub. İqtisadi sahədə, sosial sahədə, bütün başqa sahələrdə Azərbaycan böyük uğurlara imza atıb və bu gün bütün dünya bunu bilir və qəbul edir. Bu gün Azərbaycan bir çox ölkələr üçün nümunədir.

Bu gün qarşıda duran vəzifələr haqqında danışmaq istərdim. Biz gələcək illərdə də müsbət dinamikanı saxlamalıyıq və əminəm ki, saxlayacağıq. Daxili siyasətə gəldikdə, ilk növbədə, Azərbaycanda bundan sonra da təhlükəsizlik təmin edilməlidir. Deyə bilərəm ki, Azərbaycanda daxili risk mənbələri mövcud deyil. Mümkün olan risklər xaricdə formalaşır. Belə olan halda biz ölkəmizi bundan sonra da xarici risklərdən qorumalıyıq, həm fiziki nöqteyi-nəzərdən, eyni zamanda, düzgün siyasət aparmaqla. Biz sərhəd mühafizəsini kifayət qədər gücləndirmişik və bu istiqamətdə əlavə addımlar atılacaqdır. Eyni zamanda, Azərbaycan bizə sərf etməyən, şübhə doğuran heç bir beynəlxalq hərəkətlərə, avantüralara qoşulmur. Baxmayaraq ki, müxtəlif tərəflər bizi müntəzəm olaraq bu hərəkətlərə cəlb etməyə çalışırdılar. Bu gün də belə səylər var. Ancaq Azərbaycan bizə sərf etməyən heç bir hərəkətə, təşəbbüsə qoşulmur və qoşulmayacaq.

Biz, ilk növbədə, öz maraqlarımız, öz təhlükəsizliyimiz, inkişafımız, rifahımız haqqında düşünürük. Əgər hansısa beynəlxalq təklif və təşəbbüs bizim maraqlarımızla üst-üstə düşürsə, əlbəttə ki, biz buna müsbət yanaşa bilərik. Ancaq, ilk növbədə, milli maraqlar, Azərbaycanın maraqları, xalqımızın rahatlığı, firavanlığı və ölkəmizin təhlükəsizliyi məsələləri ön plandadır, xüsusilə indiki şəraitdə. Biz bu siyasəti uzun illərdir ki, aparırıq. Bəzən buna görə də müxtəlif yerlərdən Azərbaycana təzyiqlər göstərilir və bizə

qarşı kampaniyalar aparılır. Ancaq indiki şərait, bugünkü beynəlxalq vəziyyət bir daha göstərir ki, bu, yeganə düzgün siyasətdir. Çünki bu gün bölgədə, dünyada risklər, təhlükələr artır, təhlükə mənbələri genişlənir, əfsuslar olsun ki, bizim coğrafiyamızda sabitlik təmin edilmir, əksinə, ildən-ilə vəziyyət daha da gərginləşir. Ona görə təhlükəsizlik məsələləri ön planda olmalıdır.

Bununla bərabər, Azərbaycanda bütün azadlıqlar bundan sonra da təmin ediləcək və bu iki yanaşma arasında heç bir ziddiyyət olmamalıdır. Azərbaycan azad dövlətdir, demokratik dövlətdir, demokratik inkişaf istiqamətində bir çox nailiyyətlərimiz var və bu proses davam etdirilməlidir. Bütün fundamental azadlıqlar Azərbaycanda bundan sonra da təmin ediləcək və xalqımız azadlıq şəraitində yaşayacaqdır.

Azərbaycanda bundan sonra da millətlərarası, dinlərarası münasibətlər ən yüksək səviyyədə öz həllini tapacaq. Biz indi bir çox ölkələr üçün nümunəyik. Bunu artıq heç kim gizlətmir. Nəinki ölkəmizdə keçirilmiş beynəlxalq tədbirlər, eyni zamanda, Azərbaycanda mövcud olan vəziyyət bir çox ölkələr üçün nümunədir. Həmkarlarım və təmasda olduğum xarici qonaqlar bunun sirrini öyrənmək üçün mənə dəfələrlə suallar verirdilər. Bunun sirri çox sadədir. Sadəcə olaraq, düzgün siyasət aparılmalıdır, inkişaf olmalıdır, savadlılıq artmalıdır, milli və dini siyasət düzgün aparılmalıdır. Azərbaycanda yaşayan bütün xalqların, bütün dinlərin nümayəndələri özlərini rahat hiss etməlidirlər. Bu gün bu vəziyyət reallıqdır. Azərbaycanda bütün xalqların nümayəndələri bir ailə kimi, mehribanlıq, sülh, qarşılıqlı anlaşma şəraitində yaşayırlar. Bu da bizim böyük sərvətimizdir, gücümüzdür və biz bunu qoruyuruq, qorumalıyıq. Şadam ki, bizim siyasət, bu istiqamətdə atılan addımlar xalq tərəfindən tam dəstəklənir. Ona görə, bu gün Azərbaycan dünyada multikulturalizmin mərkəzi sayılır.

Bununla bərabər, biz öz milli-mənəvi dəyərlərimizə sadiqik. Təsadüfi deyil ki, keçən il Azərbaycanda "Multikulturalizm İli", bu il "İslam Həmrəyliyi İli" elan edilmişdir. Bu, bir daha göstərir ki, öz köklərinə bağlı olan xalq və dövlət həmişə düzgün siyasət aparacaq. Milli dəyərləri möhkəm olan xalq həmişə uğur qazanacaq, inkişaf edəcək. Hesab edirəm ki, Azərbaycan modeli, o cümlədən bu istiqamətdə əldə etdiyimiz uğurlar bir çox ölkələr üçün çox cəlbedicidir. Həm ənənələr, tariximiz, mədəniyyətimiz, dinimiz bizim üçün müqəddəsdir, eyni zamanda, biz dünyaya açığıq, müasirik, bütün ölkələrlə yaxşı münasibətlər qurmağa çalışırıq.

Əlbəttə, bütün bu amilləri nəzərə alaraq, bundan sonra da Azərbaycanda sabitlik davam etdiriləcək. Bu gün artıq reallıqdır ki, sabitlik olmadan heç bir inkişafdan söhbət gedə bilməz, sabit olmayan ölkələrə heç kim sərmayə qoymaz, heç kim turist kimi gəlməz, belə ölkələrlə heç kim gözəl münasibətlər qurmağa çalışmaz. Ona görə, sabitlik hər bir ölkənin əsas amilidir, inkişafın əsas amilidir. Ancaq sabitliyi inzibati yollarla əldə etmək mümkün deyil. Bu, müvəqqəti olacaq. İndi bir neçə ölkədə xüsusi təhlükəsizlik tədbirləri görülür, xüsusi rejim tətbiq olunur. Bu, inzibati yollardır. Amma sabitliyin əsl mahiyyəti ondadır ki, xalq dövlət siyasətini dəstəkləsin, xalq vəziyyətlə razı olsun, xalq inkişafla qürur duysun. Biz bax, bu sabitliyi yaratmışıq və Azərbaycanda hökm sürən sabitliyin təməlində bu amillər dayanır - xalq-iqtidar birliyi, bizim siyasətimiz və əldə edilmiş uğurlar. Ən yaxşı təbliğat vasitəsi real həyatdır. Bu gün Azərbaycan çoxşaxəli şəkildə inkişaf edir və bütün istiqamətlərdə böyük uğurlar qazanıb.

Daxili siyasət məsələlərinə gəldikdə, əlbəttə ki, biz sosial sahəyə bundan sonra da xüsusi diqqət ayıracağıq. Bu sahə bizim üçün prioritetdir. Mən dəfələrlə demişəm ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz bütün işləri ona görə görürük ki, xalqımız daha da yaxşı yaşasın. Azərbaycanda bir çox sosial təşəbbüslər irəli sürülmüşdür, sosial infrastruktur layihələri geniş vüsət alıb. Eyni zamanda, Azərbaycan elə təşəbbüslər irəli sürür ki, bu, dünya üçün bir yenilikdir. Mən bunların arasında kütləvi müayinədənkeçmə proqramını xüsu-

si qeyd etmək istərdim. Bir neçə ildir ki, bu proqram icra edilir. Bu proqramı icra etmək üçün, ilk növbədə, səhiyyə sahəsində islahatlar aparılmalı və müasir infrastruktur yaradılmalı idi. Artıq 600-dən çox xəstəxananın tikintisi, təmiri bizə belə imkanları yaradır. Kütləvi müayinədənkeçmə proqramını əhatə edən bütün qurumlar bu nəticəni əldə ediblər - bu il 5 milyondan çox Azərbaycan vətəndaşı pulsuz müayinədən keçibdir. Bax, bizim siyasətimiz bundan ibarətdir. Bizim siyasətimiz 3 mindən artıq məktəbin tikilməsində, maaşların, pensiyaların artırılmasında özünü göstərir. Azərbaycan büdcəsində sosial xərclər əlbəttə ki, prioritet olaraq qalacaq və bundan sonra da bu istiqamətdə əlavə addımlar atılmalıdır.

Azərbaycan xarici siyasət sahəsində böyük uğurlar əldə edib. Bunu artıq Azərbaycan ictimaiyyəti bilir. Biz beynəlxalq arenada öz milli maraqlarımızı bundan sonra da müdafiə edəcəyik. Biz bu gün dünyada çox böyük hörmətə malik olan ölkə kimi tanınırıq. Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. Ermənistandan başqa heç bir ölkə ilə ikitərəfli formatda bizim problemimiz yoxdur. Biz bir çox üçtərəfli əməkdaşlıq formatları irəli sürdük.

Bu gün bizim beynəlxalq təşkilatlarla da çox yaxşı münasibətlərimiz var və biz bu təşkilatlarda fəal rol oynayırıq. Mən onların içərisində, ilk növbədə, İslam Əməkdaşlıq Təşkilatını qeyd etmək istərdim. Azərbaycan bu təşkilatın fəal üzvüdür. Bu təşkilat erməni təcavüzü ilə bağlı keçən il Kontakt Qrupu yaratmışdır. Erməni təcavüzü, ötən ilin aprel ayında onların törətdikləri təxribat hadisələri İslam Əməkdaşıq Təşkilatı tərəfindən pisləndi. Azərbaycan dövlətinə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyinə daim dəstək göstərilir.

Eyni zamanda, Azərbaycan bu təşkilat çərçivəsində ikitərəfli əlaqələri də genişləndirir. Mən bu yaxınlarda Səudiyyə Ərəbistanında Ərəb-İslam-Amerika Zirvə görüşünü xüsusi qeyd etmək istəyirəm. Azərbaycan bu Zirvədə yüksək səviyyədə iştirak etmişdir. Hesab edirəm ki, bu Zirvənin çox böyük mənası var. İlk növbədə, müsəlman aləmi həmrəylik nümayiş etdirmişdir və təqdirəlayiq haldır ki, Amerika Prezidenti cənab Tramp öz ilk xarici rəsmi səfərini müsəlman ölkəsinə edibdir. Biz bunu Azərbaycanda yüksək qiymətləndiririk. Hesab edirəm ki, bu, bütün müsəlman aləminə Amerika Prezidenti tərəfindən göstərilən böyük hörmətin əlamətidir. Yəni, bu səfərin və Zirvə görüşünün təşkilinin özü artıq böyük hadisədir və orada Amerika Prezidenti tərəfindən səslənən fikirlər əlbəttə ki, çox yüksək qiymətləndirilməlidir. Xüsusilə o demişdir ki, Amerika Birləşmiş Ştatları bundan sonra müsəlman ölkələrinin daxili işlərinə qarışmayacaq, onlara öyüd-nəsihət verməyəcək, onlara mühazirə oxumayacaq. Bu, çox ciddi bəyanatdır və deyə bilərəm ki, Zirvə görüşünün demək olar bütün iştirakçıları bu bəyanatları yüksək qiymətləndiriblər, o cümlədən Azərbaycan. Çünki biz hamımız yaxşı bilirik ki, Azərbaycan xarici müdaxilə nəticəsində ən çox atəş altında olan ölkələrdən biridir.

Ümid edirəm ki, bu ciddi siqnal bütün aidiyyəti qurumlara, o cümlədən Avropa təsisatlarına da çatacaq və bizim işimizə qarışma cəhdləri aradan götürüləcək. Onsuz da bu ildən başlayaraq Amerika rəhbərliyində dəyişikliklər oldu və görürük ki, artıq bu müdaxilələrin təzahürləri yavaş-yavaş aradan götürülür. Biz bunu alqışlayırıq və ümid edirik ki, bu, davam etdiriləcək. Çünki yeganə düzgün siyasət də məhz budur. Mən əvvəllər də demişəm, bu gün də demək istəyirəm ki, əgər ölkələr bir-birinin işinə qarışmasalar onda nə müharibə, nə münaqişə olacaq, ancaq sülh olacaq, əməkdaşlıq olacaq.

Azərbaycan heç bir ölkənin işinə heç vaxt qarışmayıb və heç vaxt qoymayıb və qoymayacaq ki, kimsə gəlib bizim işimizə qarışsın, bizə dərs desin və bizə yuxarıdan aşağı baxsın. Azərbaycan ləyaqətli dövlətdir. Öz qürurumuzu qorumuşuq və qoruyacağıq.

Xarici siyasətimizin əsas istiqaməti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Bu istiqamətdə bizim prinsipial mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Bu gün də belədir, sabah da belə olacaqdır. Münaqişə

beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ölkələrin ərazi bütövlüyü çərçivəsində, Helsinki Yekun Aktının qərarlarına uyğun şəkildə öz həllini tapmalıdır. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim tarixi torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın. Elə mövcud olan erməni dövləti bizim torpağımızda yaradılıbdır. Biz yaxşı bilirik ki, 1918-ci ildə İrəvan Ermənistana hədiyyə kimi verilmişdir. Ona görə, torpağımızda ikinci qondarma erməni dövlətinin yaradılması mümkün deyil. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan qeyd–şərtsiz çıxarılmalıdır.

Beynəlxalq təşkilatların qərar və qətnamələri bizi qane edir. Bu, münaqişənin həlli üçün hüquqi əsasdır. Eyni zamanda, son müddət ərzində səslənən bəyanatlar və atılan addımlar da yüksək qiymətləndirilməlidir. Xüsusilə həm Minsk qrupuna həmsədrlik edən ölkələr, həm Avropa İttifaqı, digər qurumlar artıq birmənalı şəkildə deyirlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Düzdür, hələ ki, bu bəyanatlardan sonra heç bir addım atılmır. Gözləyirik ki, bu addım da atılacaq və işğalçıya təzyiq göstəriləcək. Onlara qarşı sanksiya tətbiq olunacaq və mütləq olmalıdır. Əgər Ermənistana bu işğalçı siyasətinə görə sanksiyalar tətbiq edilməsə, bu, ikili standartların növbəti əlaməti olacaqdır. Buna baxmayaraq, belə bəyanatların özü də hesab edirəm ki, müsbət addımdır.

Eyni zamanda, Dağlıq Qarabağda keçirilmiş qondarma "referendum"a çox sərt reaksiya verildi, həm qonşu ölkələr tərəfindən, həm Minsk qrupundan, həm Avropa İttifaqından və digər ölkələrdən. Heç kim bu qondarma yığıncağı, bu biabırçılığı qəbul etmədi, əksinə bunu pislədi. Bir daha sübut etdilər və göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz torpağıdır, ölkəmizin ayrılmaz hissəsidir. Biz isə öz siyasətimizi davam etdirəcəyik. Danışıqlarda bizim prinsipial mövqeyimiz tam əsaslıdır və biz bu siyasətdən bir millimetr də geri çəkilən deyilik.

Məcburi köçkünlərlə bağlı bizim siyasətimiz göz qabağındadır. Son illər ərzində 100-ə yaxın qəsəbə salınıb. Hazırda yeni qəsəbələr salınır. Eyni zamanda, biz Bakı, Sumqayıt şəhərlərində qəzalı binalarda yaşayan köçkünlər üçün də yeni binaların tikintisinə başlayırıq. Bu da çox geniş bir proqram olacaqdır. Bir neçə min ailə, məcburi köçkün yaxın gələcəkdə yeni, gözəl evlərə, mənzillərə köçürüləcək.

Ordu quruculuğu istiqamətində siyasətimiz özünü tam doğruldub. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Beynəlxalq reytinqlər də bunu göstərir. Ordumuzun maddi-texniki təchizatı, döyüş qabiliyyəti, orduda vətənpərvərlik ruhu yüksək səviyyədədir. Bu gün biz ən qabaqcıl texnologiyalara malik olan texnika alırıq, silahlar alırıq və alacağıq. Ordumuz üçün nə qədər vəsait ayırmaq lazımdırsa, biz o qədər də ayıracağıq. Dilənçi Ermənistandan fərqli olaraq, biz Ordumuzu öz hesabımıza təmin edirik, müstəqil ölkə kimi yaşayırıq. Onlar isə başqa yolu seçiblər, bu, müstəmləkə yoludur, bu, onların seçimidir.

Bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Keçən ilin aprel döyüşləri bunu göstərdi. Aprel döyüşləri xalqımızın, Ordumuzun gücünü göstərdi. Bir daha göstərdi ki, Azərbaycan Ermənistanın silahlı təxribatlarına heç vaxt dözməyəcək və göstərdi ki, Azərbaycan indiki vəziyyətlə heç vaxt barışmayacaq.

Əlbəttə, bütün planlarımızı həyata keçirmək üçün biz güclü iqtisadiyyata malik olmalıyıq. Bu istiqamətdə də çox böyük addımlar atılır. Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünyada 37-ci yerdədir. Baxmayaraq ki, beynəlxalq maliyyə böhranı bizə də təsir etdi. Baxmayaraq ki, neftin qiymətinin aşağı düşməsi təbii ki, gəlirlərimizə mənfi təsir etdi. Artıq Azərbaycan iqtisadiyyatı mövcud vəziyyətə adaptasiya olundu, milli valyutamız sabitləşdi, qeyri-neft ixracımız artır. Dörd ayın iqtisadi göstəriciləri çox müsbətdir. Bizim valyuta ehtiyatlarımız, ticarət dövriyyəsi artıb. Ticarət dövriyyəsində

müsbət saldo 1,2 milyard dollara çatıbdır. Ticarət dövriyyəsi 11 faiz, ixrac 41 faiz, qeyri-neft ixracı 22 faiz, kənd təsərrüfatı ixracı 44 faiz artmışdır.

Azərbaycanda bugünkü maliyyə və iqtisadi vəziyyət sabitdir, dayanıqlıdır. Bütün büdcə proqnozları yerinə yetirilir. Mən nə bu il, nə gələn il ölkə iqtisadiyyatı üçün heç bir problem görmürəm. Xüsusilə nəzərə alsaq ki, bizim valyuta ehtiyatlarımız da artır, bu il də artıbdır. Valyuta ehtiyatlarımız xarici borcdan 4-5 dəfə çoxdur. Ona görə, istənilən ölkə, bax, bu vəziyyəti özü üçün arzulaya bilər.

Əlbəttə, bu gün qarşımızda duran vacib məsələlərdən biri Cənub Qaz Dəhlizinin başa çatdırılmasıdır. Azərbaycan bu istiqamətdə də öz tərəfdaşları ilə uğurlara imza atıbdır. "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir. Mən sözlərimi əsaslandırmaq üçün bəzi rəqəmləri də səsləndirə bilərəm. Bildiyiniz kimi, Cənub Qaz Dəhlizi dörd layihədən ibarətdir. "Şahdəniz-2" layihəsinin icrası 93 faizə çatıbdır. İkinci layihə Cənubi Qafqaz kəməridir. Orada icra səviyyəsi 85 faizdir. Üçüncü layihə Trans-Anadolu qaz kəməri – TANAP-dır. Burada işlərin 72 faizinin görülməsi təmin edilibdir. Dördüncü layihə Trans-Adriatik kəməri – TAP-dır. Orada isə icra səviyyəsi 42 faizdir. Onu da qeyd etmək istəyirəm ki, plana görə TAP-ın icra səviyyəsi bu günə 45 faiz olmalı idi. Yəni ki, o səviyyəyə yaxındır. Mən bunu xüsusilə vurğulamaq istəyirəm. Çünki Azərbaycan ictimaiyyəti bilir ki, TAP layihəsini əngəlləmək üçün indi böyük səylər göstərilir, qruplar təşkil olunur, ekoloji məsələlər bəhanə kimi ortalığa atılır. Bizdə olan məlumata görə, bunun arxasında böyük pullar dayanır. Yəni, o qruplar süni şəkildə, heç bir əsası olmadan təşkil edilir. Amma aydındır nə üçün, bu layihəni dayandırmaq, yaxud da ki, ləngitmək üçün. Bütün bunlara baxmayaraq, TAP layihəsinin icrası plandan cəmi 3 faiz geridədir. Ona görə, əminəm ki, bu layihənin icrasında da heç bir problem olmayacaq.

Bilirsiniz ki, bu gün biz böyük nəqliyyat layihələri üzərində işləyirik. Bakı-Tbilisi-Qars və Şimal-Cənub layihələri ilə bağlı Azərbaycanın üzərinə düşən vəzifələr tam icra edilib. İndi əlbəttə ki, tərəfdaş ölkələrdə bu işlərin sürətləndirilməsi prosesi gedir. Biz də gələcəkdə bu işlərdə iştirak edə bilərik. Belə olan halda indi əsas böyük nəqliyyat layihələri arasında prioritet Ələt Beynəlxalq Dəniz Limanının tikintisinin başa çatdırılmasıdır və bunun üçün lazımi vəsait ayrılıb. Əminəm ki, bundan sonra bir il ərzində, yəni, hesab edirəm, gələn ilin yayına qədər Bakı Ələt Beynəlxalq Dəniz Limanı istifadəyə veriləcək. Bu, Xəzər dənizində ən böyük liman olacaq və bizim nəqliyyat imkanlarımızı böyük dərəcədə artıracaq.

Əlbəttə ki, qarşıda duran vəzifələr qeyd etdiyim vəzifələrdən daha da çoxşaxəlidir və çoxdur. Sadəcə olaraq, mən əsas istiqamətlər üzrə gələcək fəaliyyətimizi xalqa təqdim etdim. Əminəm ki, biz bütün istiqamətlər üzrə bundan sonra da sürətlə inkişaf edəcəyik. Bizim uğurlarımızın təməlində, əlbəttə, düşünülmüş siyasət dayanır və o amil dayanır ki, bu gün Azərbaycan xalqı müstəqillik şəraitində yaşayır. Müstəqilliyin dəyərləri, o cümlədən real həyatda özünü göstərir. Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir. Biz müstəqilliyi qoruyuruq və qoruyacağıq. Sağ olun.

* * *

Rəsmi qəbul konsert proqramı ilə davam etdi.

*26 may 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT ETMİŞDİR

Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.

Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.

Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.

* * *

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın tarixinə şanlı hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurmağı qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarıb, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirib.

Doxsan doqquz il əvvəl mayın 28-də qəbul edilmiş "İstiqlal Bəyannaməsi"ndən – "Əqdnamə"dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirib.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarıb. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüb, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar edib. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoyub.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoyub. Xalqımız Cümhuriyyətin yarandığı bu şərəfli tarixi 28 May Respublika Günü kimi qeyd edir.

Gələn il xalqımız Şərqdə ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyini qeyd edəcək. Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi haqqında mayın 16-da Sərəncam imzalayıb. Sərəncama əsasən Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikamızda dövlət səviyyəsində geniş qeyd ediləcək.

*26 may 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV COCUQ MƏRCANLIDA TİKİLMİŞ MƏSCİDLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən Cocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzəri olan məscid tikilib. Bu müqəddəs ocağın inşası işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesajdır. Bu, bir daha dünyaya bəyan edir ki, Azərbaycan İslam dünyasının bir parçasıdır, öz tarixi keçmişinə sadiqdir. Cocuq Mərcanlıda Şuşa məscidinin bənzərinin inşası həm də o deməkdir ki, gün gələcək Şuşadakı məscid də bərpa ediləcək. Məscidin tikilməsi, həmçinin 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsinə dəyərli töhfədir.

Prezident İlham Əliyev məsciddə yaradılan şəraitlə tanış oldu.

Azərbaycan Prezidentinə Qurani-Kərim hədiyyə edildi.

Dövlətimizin başçısına məlumat verildi ki, 50 sot ərazidə inşa edilən məscidin minarələrinin hündürlüyü 26 metrdir. Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan bu dini ibadətgahda dindarlar üçün hər cür şərait yaradılıb. Bütün bunlar göstərir ki, Prezident İlham Əliyev ölkədə milli-mənəvi dəyərlərin qorunub saxlanmasında müstəsna xidmətlər göstərir. Dövlətimizin başçısı İslam dininin xalqımızın həyatındakı rolunu, onun milli kimliyimizin formalaşmasındakı əhəmiyyətini nəzərə alaraq ölkədəki dini ibadətgahların qorunmasında, onların gələcək nəsillərə çatdırılmasında əsl fədakarlıq nümayiş etdirir.

Məscidlə tanışlıq zamanı xatirə şəkilləri çəkdirildi.

*14 iyun 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV GÖRKƏMLİ OPERA MÜĞƏNNİLƏRİ FİDAN VƏ XURAMAN QASIMOVALARI QƏBUL ETMİŞDİR. PREZİDENT İLHAM ƏLİYEV XALQ ARTİSTİ FİDAN QASIMOVAYA "İSTİQLAL" ORDENİ TƏQDİM ETMİŞDİR

Dövlətimizin başçısı Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı xüsusi xidmətlərinə görə Fidan Qasımovanı "İstiqlal" ordeni ilə təltif edib.

Görüşdə çıxış edən Prezident İlham ƏLİYEV dedi:

- Hörmətli Fidan xanım.

Sizi qarşıdan gələn yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram.

Siz uzun illər öz sənətinizlə Azərbaycan xalqını sevindirmisiniz. Azərbaycan xalqı sizin fəaliyyətinizə yüksək qiymət verir, sizi sevir. Siz xalqımızı müxtəlif ölkələrin səhnələrində ləyaqətlə təmsil etmisiniz və bu gün də təmsil edirsiniz.

Sizin fəaliyyətiniz həm sovet dövründə, həm də müstəqillik dövründə yüksək qiymətləndirilmişdir. Siz hələ sovet dövründə Azərbaycan Respublikasının Xalq Artisti, SSRİ Xalq Artisti adlarına layiq görülmüsünüz. Bu, sizin istedadınıza verilən yüksək qiymət idi.

Siz yaxşı bilirsiniz ki, ulu öndər Heydər Əliyev sizə və Xuraman xanıma həmişə böyük diqqət və qayğı ilə yanaşırdı, sizi çox sevirdi, sizin fəaliyyətinizlə maraqlanırdı. Mən də öz növbəmdə çalışıram ki, sizə lazımi qayğı və diqqəti göstərim. Azərbaycan dövləti, müstəqil Azərbaycan sizin fəaliyyətinizi çox yüksək qiymətləndirib. 1997-ci ildə Ulu Öndərin Sərəncamı ilə siz "Şöhrət" ordeni ilə təltif olunmusunuz. 2010-cu ildə isə mənim Sərəncamımla "Şərəf" ordeni ilə təltif edilmisiniz. Siz bir çox beynəlxalq mükafatlara da layiq görülmüsünüz. Bu gün mənim Sərəncamımla Siz Azərbaycan dövlətinin ən yüksək ordenlərindən biri olan "İstiqlal" ordeni ilə təltif olunursunuz. Bu, yüksək mükafatdır, siz buna layiqsiniz. Sizə yeni uğurlar arzulayıram.

* * *

Dövlətimizin başçısı "İstiqlal" ordenini Fidan Qasımovaya təqdim etdi.

* * *

Prezident İlham Əliyevə minnətdarlığını bildirən Xalq Artisti Fidan QASIMOVA dedi:

- Çox sağ olun, cənab Prezident, Sizə minnətdaram.

Cənab Prezident, heç vaxt yadımdan çıxmır, birinci ordenlə məni Sizin atanız, Ulu Öndərimiz, unudulmaz Heydər Əliyev təltif etmişdi. Bu gün isə mənim sənətimi Siz yüksək qiymətləndirirsiniz. Məni belə yüksək mükafata layiq gördüyünüz üçün Sizə böyük minnətdarlığımı bildirmək istəyirəm. Sizin bütün ailənizə təşəkkürümü bildirmək istəyirəm. Bizim Birinci vitse-prezidentimiz Mehriban xanıma minnətdarlığımı bildirirəm. O da bizə qarşı həmişə çox diqqətli olub.

Biz Xuraman xanımla xaricdən - Florensiyadan təzə gəlmişik. Orada italiyalı tələbələrə ustad dərsləri keçirdik. Onlar bizim ölkəmizlə bağlı çox şey eşidiblər və Azərbaycanı yaxşı tanıyırlar. Azərbaycanı Avropada, bütün dünyada tanıyırlar. Bu, Sizin sayənizdə olub.

Biz də öz sadə sənətimizlə Azərbaycanı tanıtdırırıq. Amma Siz bu istiqamətdə daha böyük işlər görürsünüz. Buna görə mən Sizə bir daha minnətdaram. Xuraman da mənim sözlərimə qatıla bilər. Çünki o, şahid idi ki, İtaliyada rektor və prorektor Azərbaycan haqqında necə xoş sözlər söyləyirdilər. Bir-iki ay bundan əvvəl vokal müəllimi Leonardo Belisi Azərbaycana gəlmişdi. O, bizim Bakı şəhərini gördü, onun gözəlliyinə valeh oldu. O, Sizin haqqınızda burada eşitdiklərini İtaliyada, Florensiyada bizə həvəslə danışırdı. Bu, bizi çox sevindirirdi. Bu uğurlara görə Sizə bir daha səmimi qəlbdən minnətdarlığımı bildirirəm.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*16 iyun 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başladı.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür PAŞAZADƏ mərasim iştirakçılarını salamlayaraq dedi:

-Bismillahir-rəhmanir-rəhim.

Zati-aliləri, möhtərəm cənab Prezident.

Hörmətli qonaqlar.

Əziz qonaqlarımıza, xüsusən dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev cənablarına məclisimizdə iştirak etdiyinə görə Azərbaycan dindarları adından və şəxsən öz adımdan salam-dualarımı və dərin minnətdarlığımı bildirirəm. Məclisimizdə iştirak edən dəyərli dövlət və din xadimlərinə, dini konfessiya rəhbərlərinə, deputatlara, xarici ölkələrin təmsilçilərinə "Xoş gəlmisiniz!" deyirəm.

Zati-aliləri, "Qurani-Kərim"in nazil edildiyi, bütün duaların qəbul olunduğu mübarək Ramazan ayında iftar məclislərini bizimlə birgə keçirməyiniz Azərbaycan dindarlarına və şəxsimə olan yüksək ehtiram və etimaddır. Mən bunu yüksək dəyərləndirirəm. Bu məqam müqəddəs ənənə halını almışdır. Bu ənənənin bünövrəsini – ali mənəviyyat yolunun başlanğıcını Azərbaycan xalqının ümummilli lideri, böyük dövlət xadimi, xatiri mənim üçün bir qardaş qədər daim əziz olan Heydər Əliyev qoymuşdur. Bu mübarək ayda mən Heydər Əliyevə və ömür-gün yoldaşı Zərifə xanıma Allahdan rəhmət diləyirəm.

Möhtərəm Prezident, Sizin rəhbərliyinizlə Azərbaycan gündən-günə inkişaf edir, yeni zəfərlər qazanır. Mən Sizin simanızda görkəmli dövlət xadimini, siyasi lideri, ölkə başçısını görməklə bərabər, Allah-Təalanın Azərbaycan xalqına lütfünü, inayətini və

mərhəmətini görürəm. Uca Allahın lütfündəndir ki, Azərbaycan dindarları öz dövlətinin başçısını – Zati-alinizi Məkkədə, mübarək Qurban bayramı ərəfəsində seçmək imkanına malik oldular. İslam tarixində ilk və istisna hal olan bu özəl məqamı dindarlar heç vaxt unutmayacaqlar.

Zati-aliləri, müqəddəs Kəbə Evinin daxilində etdiyiniz niyyətin hasili olan Heydər məscidi dualarımızın müstəcab olmasının təsdiqidir. Sizin dövlət-xalq birliyinə əsaslanan müdrik siyasətiniz, qətiyyətli iradəniz sayəsində Azərbaycan yeni zəfərlər qazanır və qlobal təşəbbüslərin mərkəzinə çevrilir. Sizin təşəbbüsünüzlə keçirilən Mədəniyyətlərarası Dialoq, Qlobal, Humanitar forumlar, Dünya Dini Liderlərinin Sammiti, müəllifi olduğunuz "Bakı prosesi" buna bariz nümunədir. Bakı dünyanın humanitar mərkəzinə çevrilməkdədir.

Sizin multikultural dəyərləri təşviq edən, islami həmrəyliyə dəvət edən qlobal ideyalarınız zamanın çağırışlarına cavab verir, nəinki ölkəmizin, bölgəmizin, habelə bütün bəşərin mənafeyinə xidmət edir. Siz yüksək xitabət kürsülərindən İslam dininin sülhsevər mahiyyətini, mütərəqqi dəyərlərini təşviq edir, islamofobiya hallarına qarşı öz qətiyyətli mövqeyinizi bildirirsiniz. Sizin səyləriniz sayəsində Azərbaycan ekstremizm, radikalizm, terrorizmə qarşı mübarizənin önündə gedən dövlətlərdən biridir və İslam dünyasının inkişafına öz töhfəsini verir.

Zati-aliləri, ötən ili "Multikulturalizm İli", bu ili isə "İslam Həmrəyliyi İli" elan etmək kimi müdrik, beynəlxalq əhəmiyyətli qərarlarınız islami və bəşəri dəyərlərə ali xidmətinizdir. Bu, qlobal əhəmiyyətli addımdır. Hər dövlət başçısı bu addımı atmaq imkanında deyil. Bunun davamı olaraq, "İslam Həmrəyliyi İli" çərçivəsində mötəbər idman bayramı - İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi, 54 müsəlman ölkəsini, hətta münaqişə vəziyyətində olan dövlətləri belə bir araya gətirən həmrəylik bayramı, Azərbaycan idmançılarının zəfəri Sizin misilsiz səylərinizin bəhrəsidir. Bütün bu nailiyyətlərə görə İslam dünyası adından Sizə dərin təşəkkürlərimizi qəbul edin. Mən Azərbaycan idmançılarını təbrik edirəm. Hər dəfə ucalan bayrağımız, səslənən himnimiz bizə qürur gətirdi. Azərbaycan xalqı bir daha sübut etdi ki, onun lideri həm siyasi, həm mənəvi, həm də fiziki cəhətdən güclüdür. Siz bu qüruru bizə yaşatdınız.

Çox hörmətli cənab Prezident, bugünkü müqəddəs iftar süfrəsində ilin mühüm hadisəsi - möhtərəm Mehriban xanım Əliyevanın ölkəmizin Birinci vitse-prezidenti təyin olunması ilə bağlı müdrik qərarınıza görə ölkə dindarları adından Sizə dərin minnətdarlığımızı bildirmək istərdim. Mehriban Əliyevanın azərbaycançılıq naminə, milli, mənəvi irsimizin qorunması istiqamətində uzun illər ərzində misilsiz səylərinin, ölkə daxilində və xaricində uğurlu fəaliyyətinin şahidiyik. Mehriban xanıma Allah-Təaladan Azərbaycan naminə gələcək fəaliyyətinə xeyir-dua və uğurlar diləyirəm.

Hörmətli cənab Prezident, Siz din xadimlərinin mənəvi dayağısınız. Dini icmalar, axund və imamlarımızın maddi-mənəvi ehtiyacları hər zaman Sizin diqqət mərkəzinizdədir. "Dini etiqad azadlığı haqqında" Qanuna son əlavələr, İslam dini təhsilinin inkişafı ilə bağlı tarixi qərarınız dini maarifləndirmə işinə böyük töhfələrdir və bunlara görə dindarların təşəkkürlərini Sizə çatdırıram. Yasamal rayonundakı Hacı Cavad məscidinin münasib yerə köçürülərək şəxsi vəsaitiniz hesabına yenidən inşası barədə qərarınız dindarlar tərəfindən rəğbətlə qarşılandı. Buna görə Sizə və ailənizə dualar edirlər.

Zati-aliləri, Siz təkcə Azərbaycanın deyil, bütün Qafqaz müsəlmanlarının mənəvi dayağısınız. Qafqaz xalqları Ali Dini Şurası üzvlərinin arzusunu nəzərə alaraq, azərbaycanlı xeyriyyəçi Murtuza Muxtarovun XX əsrin əvvəllərində Vladiqafqazda Azərbaycan milli memarlığı üslubunda inşa etdirdiyi Cümə məscidinin təmiri üçün Sizin ayırdığınız maddi yardım hesabına tarixi dini məkan əsaslı şəkildə bərpa edilib. İslam Həmrəyliyi Oyunla-

rının açılışına şəxsi qonağınız kimi dəvət etdiyiniz Qafqaz müftiləri Zati-alilərinizə xas olan bu diqqət və qayğı nümunəsinə görə təşəkkürlərini Sizə çatdırmağı Qafqaz Xalqları Ali Dini Şurasının sədri olaraq məndən xahiş ediblər.

Möhtərəm Prezident, Qafqaz Müsəlmanları İdarəsi həm "Multikulturalizm İli", həm də "İslam Həmrəyliyi İli" çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, dini konfessiyaların rəhbərləri, ictimai təşkilatlar ilə birgə həm ölkə daxilində, həm də xarici ölkələrdə dövlət qurumları, elmi, dini mərkəzlərdə, nüfuzlu universitetlərdə milli, dini tolerantlığımızı, mənəvi dəyərlərimizi, multikultural həyat tərzimizi böyük qürurla təqdim və təbliğ etmişik. Təşkil etdiyimiz çoxsaylı beynəlxalq konfrans və görüşlərdə ölkəmizdəki dini konfessiya rəhbərləri ilə bərabər, Azərbaycandakı nümunəvi dinlərarası dialoq və məzhəblərarası münasibətlərin yüksək səviyyəsini dünya ictimaiyyətinin diqqətinə çatdırmışıq. Zati-alinizin tövsiyəsi ilə "İslam Həmrəyliyi İli" çərçivəsində ölkəmizdə və xaricdə tədbirlərimiz davam edəcək, inşallah!

Bu gün dünya ictimaiyyəti Azərbaycanın nümunəvi tolerantlıq, multikulturalizm modelini, dinlərarası dialoq mədəniyyətini qəbul və təqdir edir. Roma Papası Fransisk Azərbaycana səfəri zamanı ilk dəfə müsəlman ibadət məkanında - Heydər məscidində dünyaya yayımlanan çıxışında Azərbaycanın multikultural həyat nümunəsini yüksək qiymətləndirdi. Həmçinin Qafqaz Müsəlmanları İdarəsi olaraq, bu il ərzində Rusiya Patriarxı Kiril həzrətləri, Ümumgürcüstan Katolikos-Patriarxı II İliya həzrətləri ilə səmərəli görüşlərimiz Azərbaycanın dinlərarası dialoq və əməkdaşlıq prosesinə töhfələrimizdir.

Zati-aliləri, Siz dərin məzmunlu çıxışlarınızdan birində buyurdunuz ki, Azərbaycan öz tarixi boyunca heç vaxt indiki qədər güclü olmayıb. Bu, həqiqətən, belədir. Dünyanın böyük dövlətlərinin miqrant böhranı qarşısında aciz qaldığı bir dövrdə Azərbaycan öz əzəli torpaqlarından didərgin salınmış bir milyondan artıq vətəndaşının problemlərini öz daxili imkanları hesabına həll etmək iqtidarı nümayiş etdirir.

Şanlı aprel qələbəmiz, Lələtəpə üzərində dalğalanan bayrağımız, məcburi köçkün soydaşlarımızın erməni işğalından azad etdiyiniz əzəli Azərbaycan torpaqlarına qayıdışı, Cocuq Mərcanlıda Şuşa memarlığı üslubunda inşa olunan nəfis, əzəmətli məscid və onun minarələrindən ucalacaq azan çağırışı bizim Böyük Qayıdışımızın başlanğıcı olacaq, inşallah! Bütün bunlar Sizin - qüdrətli ordumuzun Ali Baş Komandanı olaraq düzgün siyasətinizin, yenilməz iradənizin, atdığınız cəsarətli addımların bəhrəsidir.

Mən yenə də Ulu Öndəri yada salmaq istəyirəm. Ulu öndər Heydər Əliyev həzrətləri Bibiheybətdə çıxışında demişdi ki, Azərbaycanın bütün ərazilərində məbədləri bərpa edəcəyik, yenilərini tikəcəyik. Mənim edə bilmədiyimi mənim davamçılarım yerinə yetirəcəklər. Bu gün Heydər Əliyev siyasətinin davamçısı kimi Zati-alinizin Cocuq Mərcanlıda tikdirdiyi məscid buna sübutdur ki, həmin dua Allah tərəfindən qəbul olundu. Hazırda işğal altında olan ərazilərimizdə də, inşallah, biz məbədlərimizi bərpa edəcəyik.

Allah-Təala Vətən şəhidlərimizə rəhmət eləsin!

Qoy Ulu Yaradan ədalətli haqq mücadiləmizdə şanlı qələbəmizə rəvac versin!

Zati-aliləri, Ramazan ayı duaların qəbul olunduğu aydır. Bu ay ərzində biz dualar edirik ki, Uca Allah Vətənimizin inkişafı, millətimizin xoşbəxtliyi naminə fəaliyyətinizdə Sizi müzəffər, dəyərli ailənizi bəxtiyar qərar versin, Azərbaycanımızın qoşa qanadları olan Zati-alinizə və möhtərəm Mehriban xanıma himayəsini əsirgəməsin! Allah-Təala Sizi, övladlarınızı, nəvələrinizi qorusun. Allah-Təala Azərbaycan xalqını hifz etsin!

Bugünkü iftar məclisində iştirak edən möhtərəm qonaqlarımızı bir daha salamlayır, mübarək Ramazan ayında sizlərə, ailə üzvlərinizə ən xoş arzularımı yetirir, hamınıza Allah-Təaladan xeyir-dualar diləyirəm.

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu!

* * *

Sonra dövlətimizin başçısı mərasimdə nitq söylədi.

## PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli şeyx həzrətləri.

Hörmətli din xadimləri.

Xanımlar və cənablar.

İlk növbədə, sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bütün Azərbaycan xalqına sülh, firavanlıq, yeni-yeni uğurlar arzulayıram.

Biz mübarək Ramazan ayında ənənəvi olaraq şeyx həzrətlərinin iftar süfrəsinə toplaşmışıq. Bu ənənə yaşayır və yaşamalıdır. Bu ənənənin əsasını ulu öndər Heydər Əliyev və şeyx həzrətləri qoymuşlar.

Ulu öndər Heydər Əliyev Azərbaycan dövlətinin qurucusudur, onun banisidir. Onun hakimiyyətə gəlişi Azərbaycanı inkişaf yoluna çıxardı. Biz hamımız təəssüf hissi ilə qeyd edirik ki, Ulu Öndər müstəqilliyimizin ilk illərindən Azərbaycanda rəhbərlikdə olmamışdır. Əgər olsaydı, o, xalqımızı, dövlətimizi böyük bəlalardan qoruya bilərdi. Heydər Əliyev ölkəmizin bütün istiqamətlər üzrə əsas inkişaf strategiyasını müəyyən etmişdir, onu həyata keçirmişdir. O cümlədən dövlət-din münasibətlərinin tənzimlənməsi işində Ulu Öndərin xüsusi rolu olmuşdur. Onu da qeyd etməliyəm ki, 1993-cü ilə qədər bütün sahələrdə olduğu kimi, dini məsələlər sahəsində də vahid siyasət yox idi. Bu boşluq əlbəttə ki, özündə çox böyük risklər saxlayırdı. 1993-cü ildən etibarən bütün istiqamətlər üzrə - xarici siyasət, daxili siyasət, iqtisadi, təhlükəsizlik məsələlərinin həlli, o cümlədən dövlət-din münasibətləri istiqamətlərində ardıcıl siyasət formalaşmağa başlamışdır. Bu siyasətin əsas prinsipləri bu gün də bizim üçün aktualdır. Bugünkü Azərbaycan bu möhkəm təməl üzərində inkişaf edir və inkişaf edəcəkdir.

Ənənəvi iftar süfrəsinin təşkilində də Ulu Öndər və şeyx həzrətləri nümunə göstərmişlər. Əslində, bu ənənəvi iftar məclisləri din-dövlət münasibətlərinin tərkib hissəsidir. Bu gün mən şeyx həzrətlərinin bu işlərdə xüsusi rolunu qeyd etmək istəyirəm. Şeyx həzrətləri həm Azərbaycanda, Qafqazda, postsovet məkanında, həm də dünya miqyasında çox böyük nüfuza malik olan xadimdir. Mən bilirəm ki, şeyx həzrətlərinə dünya dini liderlərinin böyük hörməti var. Şeyx həzrətləri öz fəaliyyəti ilə ölkəmizin nüfuzunu beynəlxalq aləmdə gücləndirir, ölkəmizi təbliğ edir, Azərbaycanı müasir, öz dini, milli köklərinə bağlı olan, ancaq, eyni zamanda, tolerant, dünyaya açıq ölkə kimi təqdim edir. "İslam Həmrəyliyi İli" çərçivəsində həm ölkə daxilində, həm xaricdə şeyx həzrətlərinin rəhbərliyi ilə bir çox tədbirlər keçirilmişdir və keçiriləcəkdir. Bu, bir daha Azərbaycanı dünyaya inkişaf edən, müasir və dinamik ölkə kimi təqdim edəcək.

Bizim şeyx həzrətləri ilə şəxsi dostluq münasibətlərimiz var. Bu münasibətlər həm bizim üçün, həm də ölkə üçün önəmlidir. Biz nümunə və yol göstəririk ki, dövlət-din münasibətləri necə qurulmalıdır. Bu sahədə əldə edilmiş nailiyyətlərə görə Azərbaycan bir çox ölkələr üçün nümunə ola bilər. Azərbaycanda dövlət dini məsələlərə qarışmır, əksinə, çalışır ki, kömək göstərsin. Dövlət xətti ilə təmir edilmiş və tikilmiş tarixi məscidlərimiz, dini abidələrimiz, eyni zamanda, kilsələr, sinaqoqlar artıq bunun bariz sübutudur. Din də dövlət işinə, siyasi işlərə qarışmır. Hesab edirəm ki, bu da nümunəvi bir yanaşmadır. Bununla bərabər dövlət və din bir yerdədir. Çünki bizim amalımız birdir. Biz istəyirik ki, ölkəmiz daha da möhkəmlənsin, daha da güclənsin, Azərbaycan xalqı daha da yaxşı yaşasın və dinamik inkişafımız uzunmüddətli

və dayanıqlı olsun. Ona görə din-dövlət münasibətlərinin sağlam zəmində formalaşması bizim böyük sərvətimizdir. Yenə də deyirəm, bizim bu nümunəmiz hesab edirəm ki, bir sıra ölkələr üçün çox cəlbedicidir. Təsadüfi deyil ki, Azərbaycana gələn xarici qonaqlar, o cümlədən dini liderlər bizim təcrübəmizi öyrənirlər, maraqlanırlar və Azərbaycan reallıqları ilə tanış olarkən, əlbəttə, daim öz hörmətlərini ifadə edirlər.

Keçən Ramazan ayından ötən dövr ərzində Azərbaycanda dinamik inkişaf davam etdirilmişdir, bir çox önəmli hadisələr baş vermişdir. Onların arasında Roma Papasının Azərbaycana səfərini xüsusi qeyd etmək istərdim. Roma Papasının səfəri Müqəddəs Taxt-Tacın Azərbaycana olan münasibətinin təzahürüdür. Onu da qeyd etməliyəm ki, Azərbaycan ilk müsəlman ölkələrindən biridir ki, Roma Papası bu ölkəyə səfər edibdir. Səfər zamanı onun bəyanatları Azərbaycanda dinlərarası münasibətlərə verilən yüksək qiymətdir. Əlbəttə, biz - Azərbaycanda yaşayan və bu siyasəti aparan insanlar bilirik ki, bu, bizim böyük sərvətimizdir, ancaq, eyni zamanda, bunu artıq dünya da bilir və dünyanın nüfuzlu şəxsiyyətləri bunu qeyd edirlər.

Onu da qeyd etməliyəm ki, Roma Papası Heydər məscidində Azərbaycanda bütün ənənəvi dini icmaların rəhbərləri ilə də görüşmüşdür. Bu görüşün də çox böyük rəmzi mənası var. Çünki Roma Papası ilə həmin görüşdə bax, bu gün masa arxasında əyləşən və digər dini icmaların rəhbərləri də iştirak etmişlər. Bu, yenə də dünyaya göndərilən növbəti bir mesaj idi ki, dinlərarası münasibətlər necə həll olunmalıdır. Azərbaycan ictimaiyyəti onu da yaxşı bilir ki, dini bayramlarda, mərasimlərdə bütün dini icmalar fəal iştirak edirlər. Yeni tikilmiş məscidlərdə və əsaslı təmir olunan tarixi məscidlərimizdə bütün konfessiyaların nümayəndələri nəinki iştirak edir, hətta çıxış edirlər. Hesab edirəm ki, bu da dünya miqyasında nadir bir təcrübədir və bu təcrübənin müəllifi Azərbaycandır.

Bir çox sahələrdə Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər yenilik, yeni dinamika, yeni yanaşma gətirir. Biz bəzi stereotipləri qıraraq bir çox sahələr üzrə, o cümlədən dini məsələlərin həlli işində yeni davranış formatını təqdim edirik. Təsadüfi deyil ki, Azərbaycanda bu sahədə görülən işlər, əldə edilmiş nailiyyətlər, demək olar, bütün aparıcı beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Onu da qeyd etməliyəm ki, bizim təşəbbüsümüzlə başlanan və inkişaf edən müxtəlif tədbirlər, forumlar sonrakı mərhələdə beynəlxalq təşkilatlar tərəfindən də dəstəklənir. Mən buna misal olaraq bu il keçirilmiş IV Mədəniyyətlərarası Dialoq Forumunu qeyd edə bilərəm. Biz bu Forumu bir təşəbbüs kimi irəli sürdük. Amma bu gün dünyanın aparıcı beynəlxalq təşkilatları – UNESCO, ISESCO, Avropa Şurası, Ümumdünya Turizm Təşkilatı və digər qurumlar bu Forumun təşkilatçılarıdır. Belə mötəbər tədbirlərin Azərbaycanda keçirilməsi həm bizim siyasətimizi, niyyətimizi göstərir və eyni zamanda, bütün dünyaya göstərir ki, bu gün dünyada multikulturalizmin mərkəzi olan ölkə var, bu ölkənin adı Azərbaycandır.

Bizim təşəbbüsümüzlə 2008-ci ildə "Bakı prosesi" başlamışdır. Bu gün "Bakı prosesi" ən yüksək kürsülərdən hörmətlə qeyd edilir. Deyə bilərəm ki, "Bakı prosesi" dünya miqyasında aparıcı istiqamətdir. Dinlərarası münasibətlər bu proses çərçivəsində öz həllini tapır. Biz bu işlərə təqribən 10 il bundan əvvəl çox fəal başlamışıq. O vaxt hələ bu gün mövcud olan təhlükələr, risklər yox idi. Bu risklər son 5-6 il ərzində yarandı. Həm müsəlman aləmində, digər yerlərdə, Avropada narahatedici məqamlar əfsuslar olsun ki, kifayət qədər çoxdur. Amma biz bu məsələyə diqqət yetirəndə, bu təşəbbüsləri irəli sürəndə bu təhlükələrin böyük əksəriyyəti mövcud deyildi. Yəni, vaxtında atılmış addımlar hesab edirəm ki, dinlərarası münasibətlərdə, sivilizasiyalararası məsələlərdə öz müsbət rolunu oynayır. Bu gün Azərbaycan bu sahədə də nümunəvi ölkə kimi qeyd edilir və tanınır.

Onu da qeyd etməliyəm ki, Azərbaycan dövləti çox möhkəm milli dəyərlər üzərində qurulubdur. İslam dəyərləri isə milli dəyərlərimizin ayrılmaz tərkib hissəsidir. Yəni, bizim

çox möhkəm təməlimiz var. Bu, bizim milli dəyərlərimizdir və bu dəyərlər bizim üçün hər şeydən üstündür. Biz çalışırıq və nail oluruq ki, gənc nəsil də milli ruhda böyüyür, yetişir. Milli dəyərlər bizim üçün həmişə ən prioritet məsələ olmalıdır.

Bununla bərabər, Azərbaycan dünyəvi, müasir, dünyaya açıq olan dövlətdir. Azərbaycanda radikalizm, fundamentalizm yoxdur, daxildə hər hansı təhlükə mənbəyi yoxdur. Bunun səbəbi təkcə bizim hansısa inzibati addımlarımız deyil. Bunun səbəbi cəmiyyətdə mövcud olan ab-havadır. Radikalizm, terrorizm harada canlanır, harada baş qaldırır?! O ölkələrdə ki, savadlılıq yoxdur. O ölkələrdə ki, sosial ədalət pozulur. O ölkələrdə ki, ədalətsizlik mövcuddur və səfalət yaşanır. Ona görə radikalizmə qarşı ən gözəl sığorta sosial ədalətdir, maddi rifahdır, savadlılıqdır, düzgün siyasətdir. Bu amillər olan yerdə radikalizm üçün heç bir əsas yoxdur. Düzdür, kənardan ölkəmizə müdaxilə oluna bilər. Ancaq Azərbaycan bu müdaxiləyə qarşı öz tədbirlərini görən, Azərbaycan xalqının rahat həyatını təmin edən kifayət qədər güclü dövlətdir.

Bax, budur, bugünkü Azərbaycan. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, bizim bütün uğurlarımızın təməlində düşünülmüş siyasət dayanır. Biz bütün istiqamətlər üzrə böyük uğurlara imza atmışıq. Bu gün də qeyd olundu ki, Azərbaycan İslam Həmrəyliyi Oyunlarında böyük uğurlar qazanıb, komanda hesabında birinci yerə layiq görülüb. Bu, böyük qələbədir. Ondan iki il əvvəl keçirilmiş Avropa Oyunlarında Azərbaycan komanda hesabında bütün Avropa ölkələri arasında ikinci yerə layiq görülmüşdür. İqtisadi sahədə bu ilin beş ayının göstəriciləri də çox ümidvericidir və müsbətdir. Qeyri-neft iqtisadiyyatımız 2 faizdən çox artıb. Qeyri-neft sənayemiz təxminən 4 faiz artıb. Kənd təsərrüfatı 2 faiz artıb. İxrac 44 faiz artıb, idxal təxminən 17 faiz azalıb. Bütün bunlar iqtisadi islahatlar, düşünülmüş siyasət hesabına mümkün olmuşdur.

Xarici siyasət məsələlərinin həllinə gəldikdə, bu gün Azərbaycanın dünya miqyasında o qədər böyük nüfuzu var ki, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. Biz bütün ölkələrlə bərabərhüquqlu və qarşılıqlı hörmət əsasında münasibətlər qura bilmişik. Avropa ölkələri ilə, müsəlman ölkələri ilə və digər ölkələrlə biz çox gözəl münasibətlər qura bilmişik. Azərbaycan sivilizasiyalararası dialoqun inkişafında, - bu gün mən tam qətiyyətlə bunu deyirəm, - əvəzolunmaz rol oynayır və bundan sonra da biz bu rolu oynayacağıq. Bu, bir növ bizim məsuliyyətimizdir, eyni zamanda, bu, bizə lazımdır. Biz istəyirik ki, Azərbaycanda dinlərarası münasibətlər həmişə indiki kimi olsun. Azərbaycanda bütün dinlərin, millətlərin nümayəndələri həmişə bir ailə kimi yaşasın, necə ki, bu gün yaşayırlar. Bax, bizim siyasətimiz bundan ibarətdir. Mən demişəm, bir daha demək istəyirəm ki, öz xalqına, dininə hörmət başqa dinə, xalqa olan hörmətdən başlayır. Budur, bizim siyasətimiz və bu siyasət Azərbaycan ictimaiyyəti tərəfindən tam bəyənilir və dəstəklənir. Məhz bunun sayəsində biz bugünkü gözəl nəticələri görürük və bunu qeyd edirik.

Bu yaxınlarda xalqımızın, dövlətimizin tarixində çox əlamətdar hadisə baş vermişdir. İşğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində yeni qəsəbənin açılışı olmuşdur. Bu iki ay ərzində tikilmiş 50 ev, məktəb, yol və bütün infrastruktur həm bizim gücümüzü, həm də siyasətimizi göstərir. Onu göstərir ki, biz işğaldan azad ediləcək bütün əraziləri qısa müddət ərzində bərpa edəcəyik. O ərazilərə də həyat qayıdacaq, o ərazilərdə də Azərbaycan bayrağı qaldırılacaq. Necə ki, bu gün Füzuli, Cəbrayıl, Ağdərə rayonlarında işğaldan azad edilmiş torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, quruculuq işləri aparılır.

Cocuq Mərcanlı erməni faşizminin canlı şahididir. Bu kənd cəmi 3-4 ay ərzində işğal altında olmuşdur. O kənddə bir dənə də salamat bina qalmamışdır. Erməni vəhşiləri bütün binaları dağıdıblar. Ancaq biz bu kəndi iki ay ərzində bərpa etdik və əlavə yüz evin tikintisi də yaxın zamanlarda öz həllini tapacaq. Cocuq Mərcanlıda Şuşa məscidinin bənzəri

olan məscid tikilib. Bu da böyük tarixi məna daşıyır. Cocuq Mərcanlı və digər torpaqlar bizim əzəli torpaqlarımızdır. Biz bu torpaqlarda yeni həyat yaradırıq.

Bu, onu göstərir ki, Azərbaycan xalqının iradəsini heç kim sındıra bilməz. Biz Bakıda erməni kilsəsini bərpa etdik və onu qoruyuruq. Ermənilər isə işğal edilmiş torpaqlarda bizim məscidlərimizi dağıdıblar. Bənzəri Cocuq Mərcanlıda tikilən həmin o Gövhərağa məscidi dağılmış vəziyyətdədir. O binanı dağıtmaq olar, amma düşmən bilməlidir ki, dağılmış məscidlər bizim qəlbimizdə yaşayır. Biz bu məscidləri qəlbimizdə ucaltmışıq və torpaqlar işğaldan azad olunandan dərhal sonra iki ay ərzində gözəl məscid tikilib istifadəyə verilib. Bunun çox böyük tarixi mənası var. Mən əminəm ki, biz işğal edilmiş bütün torpaqlara qayıdacağıq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və o torpaqlarda da belə gözəl iftar süfrələri açılacaq, İnşallah.

Əziz dostlar, mən sizi bir daha salamlayıram və qarşıdan gələn müqəddəs bayram münasibətilə təbrik edirəm. Sağ olun.

* * *

Şeyxülislam Allahşükür PAŞAZADƏ bir daha minnətdarlıq edərək dedi:

-Zati-aliləri, arzu edirəm ki, deyilən bu sözlərin hamısını Allah-Təala bizə nəsib etsin. Allah-Təala hamımıza nəsib etsin ki, o torpaqlarda, o məscidlərdə ibadətlər edək, namaz qılaq və onların evlərində qonaq olaq. İnşallah, Allah-Təala bunu bizə nəsib edəcək.

Çox sağ olun, minnətdaram. Mənim haqqımda, din haqqında dediyiniz çox gözəl sözlər Sizin İslam dininə və dindarlara olan münasibətinizdir. Bu gün Siz dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında bir Sərəncam da imzalamısınız, bizi sevindirmisiniz və ona görə də Sizə təşəkkürümüzü bildiririk. Burada əyləşən konfessiya nümayəndələrinin adından Sizə təşəkkürümüzü bildiririk. Çox sağ olun.

* * *

Sonra iftar süfrəsi açıldı.

*20 iyun 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VARŞAVADA "NAMƏLUM ƏSGƏR" ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Varşavada "Naməlum əsgər" abidəsini ziyarət edib.

Abidənin qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə abidənin yerləşdiyi əraziyə gəldi.

Azərbaycanın və Polşanın dövlət himnləri səsləndi.

Dövlətimizin başçısı "Əbədi məşəl"in önünə əklil qoydu, xatirə kitabına ürək sözlərini yazdı.

Süvari dəstəsi hərbi marşın sədaları altında dövlətimizin başçısının qarşısından keçdi.

*27 iyun 2017-ci il*

# PREZİDENT İLHAM ƏLİYEV YASAMAL RAYONUNDA YENİ SALINAN PARKDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov parkda görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, antisanitariya mənbəyinə çevrilən ərazi tam təmizlənərək müasir layihə əsasında yüksək səviyyədə abadlaşdırılıb. Burada çoxillik ağaclar əkilib, yaşıllıqlar salınıb. Parkda müasir standartlara uyğun işıqlandırma sistemi quraşdırılıb. Ətrafdakı yaşayış binaları ilə əlaqə qurulması, eləcə də insanların buraya rahat gediş-gəlişini təmin etmək üçün parkın yuxarı hissəsində yeni pilləkənlər tikilib və əlil arabaları üçün xüsusi yol salınıb. Əhalinin mədəni istirahətini təmin etmək məqsədilə çoxlu sayda oturacaq və parkın ərazisinin bir hissəsində idman qurğuları quraşdırılıb. Bundan əlavə, avtonəqliyyat vasitəsilə istirahət parkına gələn əhalinin rahatlığı üçün yeni parklanma sahəsi yaradılıb. Beləliklə, yeni parkın salınması ərazinin simasını tamamilə dəyişib və paytaxt sakinlərinin istirahəti üçün müasir tələblərə cavab verən daha bir istirahət guşəsi yaradılıb.

Xatırladaq ki, bundan əvvəl parkın yerləşdiyi ərazidə "Böyük Plaza" yaşayış və ticarət mərkəzinin inşası aparılırdı. Lakin tikintini həyata keçirən şirkət qanunları pozaraq ərazidəki 54 ağacı və yaşıllıqları tamamilə məhv etmişdi. Bu məsələyə Prezident İlham Əliyev dərhal və kəskin reaksiya verdi. Dövlətimizin başçısının göstərişi ilə "Ovçular evi" ərazisində inşa olunan həmin binanın tikintisi dayandırıldı, məsələ nəzarətə götürülərək araşdırılmağa başlandı. Əraziyə baxış keçirən Ekologiya və Təbii Sərvətlər Nazirliyi ağacların məhv edilməsi barədə akt tərtib edərək tikintini həyata keçirən şirkəti 130 min manat məbləğində cərimələdi və fakt üzə cinayət işi açıldı.

Prezident İlham Əliyev ağacların qanunsuz kəsilməsinin yolverilməz olduğunu dəfələrlə bildirib. Bu cür hallara qarşı daim ciddi tədbirlərin görülməsini, buna yol verən şəxslərin məsuliyyətə cəlb edilməsini tapşırıb. Azərbaycanı yaşıl diyara çevirməyi, paytaxtda və bölgələrdə ekoloji tarazlığı qorumağı daim diqqətdə saxlayan dövlətimizin başçısının bu sahəyə göstərdiyi qayğının nəticəsidir ki, 2010-cu il ölkəmizdə "Ekologiya İli" elan edilib. Bu sahədə vəziyyətin daim nəzarətdə saxlanması istiqamətində Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar, dövlət proqramları xüsusi rol oynayıb. Odur ki, Yasamal rayonunun "Ovçular evi" adlanan ərazisində yaşayış binasının tikintisi zamanı ağacların qanunsuz kəsilməsi və yaşıllıqların tamamilə məhv edilməsi faktına dövlətimizin başçısının dərhal və kəskin reaksiyası bir daha təsdiqlədi ki, ətraf mühitin mühafizəsi və ekoloji durumun yaxşılaşdırılması Prezident İlham Əliyevin hər zaman diqqətindədir. Dövlətimizin başçısının tapşırıqlarına əsasən ərazidə salınan yeni park bunu bir daha təsdiq edir.

Parkla tanışlıqdan sonra Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin professor və müəllim heyəti üçün tikilən binanın və ətrafdakı evlərin sakinləri ilə görüşdü.

Prezident İlham ƏLİYEV dedi:

-Bu gün şəhərimizdə yeni park açılır. Bu, gözəl hadisədir və burada yaşayan insanlar üçün gözəl hədiyyədir. Son illər ərzində Bakı şəhərində bir çox parklar, ictimai yerlər, istirahət guşələri yaradılmışdır. İndi Bakı parklar, bağlar şəhəridir. Həm şəhərin mərkəzində, həm də digər ərazilərdə yeni ictimai yerlər yaradılır.

Bu parkın da xüsusi tarixçəsi var. Bu ərazidə heç vaxt park olmamışdır. Bu ərazidə bir çox hündürmərtəbəli binanın tikintisi nəzərdə tutulurdu. Əfsuslar olsun ki, bu işləri görən insanlar buradakı ağacları da kəsmişdilər. Mən bütün dövlət məmurlarına, özəl qurumlara dəfələrlə xəbərdarlıq etmişəm ki, ağaclar kəsilməməlidir, ağacları kəsmək olmaz. Ancaq bir şərtlə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi rəy versin və əgər hansısa dövlət əhəmiyyətli bir layihə üçün ağaclar götürülməlidirsə, onların yeri dəyişdirilməli və yeni ağaclar əkilməlidir. Ona görə

mən bu məsələdən xəbər tutan kimi dərhal göstəriş verdim, şəhər icra hakimiyyətinin başçısını buraya göndərdim və nəticədə belə gözəl bir ictimai yer yaradılıb. Yeni park bu binalarda yaşayan vətəndaşlar üçün istirahət yeridir. Əlbəttə ki, burada hündürmərtəbəli böyük binalar tikilsəydi, bu, ətrafda yaşayan insanlar üçün də problem yaradardı. Ona görə şəhərimizin bu ərazisində yeni park salınıb və hesab edirəm ki, bu, çox əlamətdar hadisədir. Bir daha demək istəyirəm, bu parkın xüsusi tarixçəsi vardır və bütün qurumlara da, şirkətlərə də, iş adamlarına da dərs olacaq ki, ağacı kəsirsənsə cəzan cərimə ilə bitməyəcək.

Qaldı ki, şəhərimizin abadlaşmasına, görülən bütün işlər göz qabağındadır. Mən bir daha qeyd etmək istəyirəm ki, indi Bakı gözəl parklar şəhərinə çevrilibdir. Bizim mövcud parklarımızın demək olar ki, hamısı son illər ərzində əsaslı şəkildə bərpa edilib, yeni istirahət zonaları yaradılıb. Bizim ən böyük parkımız dənizkənarı bulvardır, onun uzunluğu 3 kilometrdən 16 kilometrə çatdırılıb. Burada indi idman, incəsənət şəhərcikləri, ictimai yerlər yaradılıb. Diqqətçəkən digər layihələr arasında Heydər Əliyev Sarayının arxasındakı yeri də qeyd edərdim. Orada gözəl park yaradılıb. Dövlət Dram Teatrının arxasında yeni park salınır. "Sovetski" adlanan ərazidə həm yol infrastrukturu, həm ictimai yerlər, gözəl yaşıllıqlar salınacaqdır. İndi işlər o qədər sürətlə gedir ki, bəzən əvvəlki görüntülər yaddan çıxır. Misal üçün, siz yaxşı xatırlayırsınız ki, aeroportun ətrafında yarmarka var idi. Bu səliqəsiz antisanitariya mərkəzinin mənzərəsi hamımızı incidirdi. O yarmarka başqa əraziyə köçürülüb, yerində meşəlik salınıb. İndi o yerdən keçəndə bəziləri unudur ki, burada əvvəllər mənzərə necə idi.

Böyükşor gölünün bir hissəsi təmizlənib, onun ətrafı abadlaşdırılıb, 1 kilometr uzunluğunda yeni bulvar salınıb. Bibiheybət ərazisində indi gözəl park salınır. Yəni, görülən bütün bu işlər bir daha onu göstərir ki, vətəndaşların rahat istirahəti üçün şəhərimizdə çox böyük tədbirlər görülür. Yeni parkların salınması baxımından hesab edirəm ki, Bakı şəhəri bu gün dünyada birinci yerdədir. Bunu siz də yaxşı bilirsiniz, şəhərimizin digər vətəndaşları da görürlər, əgər harada söküntü gedirsə, o yerdə mütləq ictimai guşələr, parklar yaradılır, yeni geniş yollar salınır ki, tıxaclar azalsın. Növbəti böyük park Yusif Səfərov küçəsində salınır, ümid edirəm ki, yaxın aylarda istifadəyə veriləcək. Onun yanında olan park artıq fəaliyyətdədir, Heydər Əliyev Mərkəzinin ətrafında böyük park indi xidmət göstərir, gənclər, uşaqlar hər həftə orada müxtəlif tədbirlər keçirirlər. Bakı Konqres Mərkəzinin ətrafında yeni park salınıb. Keçmiş Səttarxan adına zavodun ərazisi olan bu yer ekoloji fəlakət zonası idi. Balaxanı zibilxanası təmizləndi, orada abadlıq işləri aparıldı, şəhərimizin vətəndaşlarına problem yaradan tüstünün qarşısı alındı. Ona görə mən bu sahəyə xüsusi diqqət yetirirəm. Çünki istəyirəm ki, Bakı daha da gözəlləşsin və şəhərimizin ekoloji vəziyyəti daha da yaxşılaşsın. Biz artıq buna nail ola bilmişik. Havanın, suyun keyfiyyəti yaxşılaşıb. Bu, insan sağlamlığı üçün əsas amillərdir.

Bilirəm ki, bu binalarda ziyalılar, alimlər yaşayır. Sizin üçün burada gözəl park salınıb ki, ailə üzvlərinizlə birlikdə istirahət edəsiniz. Bu münasibətlə sizi - burada yaşayan vətəndaşları təbrik edirəm.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*15 iyul 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAXDA BAYRAQ MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Qax şəhərində Bayraq Muzeyinin açılışında iştirak edib.

Prezident İlham Əliyev Bayraq Muzeyinin rəmzi açılışını bildirən lenti kəsdi.

Bildirildi ki, inşasına 2016-cı ildə başlanılan Bayraq Meydanı kompleksi istifadəyə tam hazırdır. Ərazisi üç hektar olan kompleksin inşası rayonun daxili imkanları hesabına həyata keçirilib. Azərbaycan Respublikasının dövlət bayrağı hündürlüyü 62 metr olan bayraq dirəyində dalğalanır. Geniş yaşıllaşdırma işlərinin görüldüyü kompleksdə müasir işıqlandırma sistemi quraşdırılıb. Bundan əlavə, bayraq meydanının ərazisində ümumi sahəsi 730 kvadratmetr olan muzey binası inşa edilib.

Muzeydə milli bayrağımızın təbliği ilə bağlı xüsusi eksponatlar və dövlət atributları sərgilənir. Ekspozisiya zalında Azərbaycanda mövcud olmuş dövlətlərin bayraqlarına və bayraqla bağlı atributlara geniş yer verilib. Bu eksponatlar Azərbaycan dövlətçiliyinin keçdiyi tarixi yolu əks etdirməklə yanaşı, həm də gənc nəsil üçün xüsusi əhəmiyyətə malikdir. Prezident İlham Əliyevin gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə bağlı irəli sürdüyü təşəbbüslərə dəstək baxımından regionlarda həyata keçirilən bu cür layihələr bir daha əminlik yaradır ki, Azərbaycan dövlətçiliyi etibarlı əllərdədir və onun gələcəyi parlaqdır.

Qeyd edək ki, ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayrağın yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində mümkün oldu. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra milli bayrağımız ilk dəfə Ulu Öndər tərəfindən Naxçıvanda qaldırıldı. İndi bu bayraq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərində dalğalanır və hər bir azərbaycanlı dövlət bayrağını özünün qürur mənbəyi hesab edir. Bu mühüm amili şərtləndirən əsas səbəblərdən biri də Prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşmasıdır. Fərəhli haldır ki, dünyanın ən hündür bayraq dirəyinin ucaldığı Bakıdan sonra ölkənin əksər bölgələrində üçrəngli bayrağımızın şərəfinə meydanlar yaradılır, bununla bağlı xüsusi layihələr həyata keçirilir. Bu layihələrdən biri də bayraq muzeylərinin təşkilidir. Ölkəmizdə ilk Bayraq Muzeyi paytaxtımızda fəaliyyətə başlasa da, indi bu layihənin davamı olaraq regionlarda da belə muzeylər yaradılır. Qaxda yaradılan Bayraq Muzeyi də bu sırada xüsusi yeri ilə seçilir.

*3 avqust 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV BALAKƏNDƏ BAYRAQ MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Avqustun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Balakən şəhərində inşa olunan Bayraq Muzeyinin açılışında iştirak edib.

Prezident İlham Əliyev Balakən Bayraq Muzeyinin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısı muzeylə tanış oldu. Məlumat verildi ki, muzeyin tikintisinə 2017-ci ilin fevralında başlanılıb və bu ilin iyulunda başa çatdırılıb. Balakən Rayon İcra Hakimiyyətinin sifarişi əsasında inşa edilən muzey binasının ümumi sahəsi 510 kvadratmetrdir. Binada zallar və konfrans otağı yaradılıb. Ekspozisiya zalında maraqlı eksponatlar sərgilənir. Burada müxtəlif dövrlərdə Azərbaycanda atribut kimi qəbul edilmiş bayraq-

lar, gerblər, o cümlədən Nuxa, Yelizavetpol, Naxçıvan, Quba, Şuşa, Şamaxı, Lənkəran, Zaqatala qəzalarının və Bakı quberniyasının, Azərbaycan SSR-in, Azərbaycan İctimai Şuralar Cəmiyyətinin və müstəqil Azərbaycanın gerbinin fotoları nümayiş etdirilir. Muzeydə Azərbaycanın Səfəvilər, Ağqoyunlu, Qaraqoyunlu və Eldəgizlər dövlətləri dövründəki, həmçinin 1918-1920-ci illərdəki və 1991-ci ildəki xəritələri də var. Güc strukturlarının geyimlərinin, tarixin müxtəlif dövrlərində ölkəmizdə istifadə edilən sikkələrin, pulların nümayiş olunduğu ekspozisiyalar da maraq doğurur.

Bu cür layihələrin həyata keçirilməsi, həmçinin milli atributlarımızın tarixi və onların gələcək nəsillərə çatdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.

Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyətinin atributlarından biri olan üçrəngli, ay-ulduzlu bayrağımızla hər bir azərbaycanlı fəxr edir. Xalqımız həmişə bu bayrağa böyük sevgi, dərin ehtiramla yanaşıb. Hər bir azərbaycanlı dövlət bayrağını özünün milli qürur mənbəyi hesab edir.

Üçrəngli bayrağımız ötən əsrin sonlarında yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrildi. Bu məsələdə ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri var. Bu tarixi iş Ümummilli Liderin dahiyanə ideyalarından biri idi. Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra bayrağımız ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvanda qaldırıldı. Bu, dünya şöhrətli siyasi xadimin Azərbaycan dövlətçiliyi və xalqımız üçün gördüyü tarixi əhəmiyyətli işlərdən biri idi. İndi Azərbaycan bayrağı dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında və mötəbər məclislərində qürurla dalğalanır. Vətənə və dövlətin atributlarına hörmət və ehtiram Ulu Öndərin bizə ən böyük əmanətidir.

Prezident İlham Əliyev dövlət atributlarımıza xüsusi ehtiramla yanaşır. Bu gün paytaxtla yanaşı, respublikanın bölgələrində də Dövlət Bayrağı meydanlarının və muzeylərinin inşası dövlətimizin bu sahədə həyata keçirdiyi siyasətin nəticəsidir. Balakən şəhərində inşa edilən Bayraq Muzeyi də bu istiqamətdə görülən tədbirlərin davamıdır.

*3 avqust 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖYGÖLDƏKİ QƏLƏBƏ PARKINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Dövlətimizin başçısına parkda görülən işlər, yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, Qələbə parkında geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, dekorativ bəzək və gül kolları əkilib, oturacaqlar qoyulub. Parkın rayonun mərkəzində yerləşməsi onun özəlliyini daha da artırır. Parkda istirahətin yüksək səviyyədə təşkili üçün geniş imkan yaradılıb.

Qeyd olundu ki, bu parkın yaradılması ilə rayon sakinlərinin sevə-sevə üz tutduqları istirahət məkanlarının sayı daha da artıb. Parkın yaradılması zamanı balacalar da diqqətdən kənarda qalmayıb. Burada uşaqların asudə vaxtının səmərəli təşkili üçün əyləncə kompleksi yaradılıb, attraksionlar quraşdırılıb.

Dövlətimizin başçısı parkda Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılan abidə kompleksini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Diqqətə çatdırıldı ki, ümumi sahəsi iki hektar olan parkda əsaslı şəkildə yenidənqurma işlərinə 2016-cı ildə başlanılıb. Burada fəvvarələr quraşdırılıb, istirahət guşələri yaradılıb. Parkda kafe də fəaliyyət göstərir.

Yeni parkların, istirahət məkanlarının yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması həm də turizm bölgəsi kimi böyük şöhrət qazanmış Göygölü daha da müasirləşdirir. Qələbə parkının yenidən qurulması rayonda bu istiqamətdə reallaşdırılan layihələrin bir hissəsidir.

***19 avqust 2017-ci il***

## PREZİDENT İLHAM ƏLİYEV ŞƏMKİRDƏ ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULAN TARİX-DİYARŞÜNASLIQ MUZEYİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Avqustun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəmkirdə əsaslı şəkildə yenidən qurulan Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanış olub.

Muzeydə həm ölkəmizin, həm də Şəmkirin tarixini əks etdirən eksponatlar var. Bu eksponatlar turistlər üçün böyük maraq doğuracaq, onlara ölkəmizin tarixi ilə daha yaxından tanış olmaq imkanı yaradacaq. Həmçinin muzey bu bölgənin tarixinin müxtəlif dövrlərini araşdırmaq üçün mühüm əhəmiyyətə malikdir.

Dövlətimizin başçısına məlumat verildi ki, Tarix-Diyarşünaslıq Muzeyində əsaslı yenidənqurma və təmir işlərinə 2015-ci ilin aprelində başlanılıb. Bu işlər ötən ilin noyabrında başa çatdırılıb. Muzeydə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Şəmkirə səfərlərini əks etdirən fotolar, rayonun tanınmış ziyalıları, qəhrəmanları barədə məlumatlar var.

Prezident İlham Əliyev yenidənqurmadan sonra muzeydə yaradılan şəraitlə və eksponatlarla tanış oldu.

Bildirildi ki, muzeyin ümumi ərazisi 0,26 hektardır. İki mərtəbədən ibarət muzey binasının ümumi sahəsi isə 800 kvadratmetrdir. Muzeyin birinci mərtəbəsində iki bölmə yerləşir. Birinci bölmədə miniatür rəsm sərgisi və ekspozisiya zalı, ikinci bölmədə isə elektron informasiya lövhəsi və ekspozisiya zalı var. Muzeydə mövcud olan 6 minə yaxın eksponatdan 350-si ekspozisiya zallarında sərgilənir. Bu eksponatlar əsasən qədim tunc dövrünə və XVIII-XIX əsrlərə aiddir. Qədim tarixi və geniş turizm potensialı olan Azərbaycanda belə muzeylərin yaradılması olduqca vacib məsələdir. Bu baxımdan Şəmkir Tarix-Diyarşünaslıq Muzeyinin də böyük əhəmiyyəti var.

Binanın həyətyanı sahəsində yaradılmış "Açıq muzey"də müxtəlif filmlərin personajlarının heykəlləri qoyulub. Həyətdə müasir işıqlandırma sistemi quraşdırılıb və yaşıllıq zolağı salınıb.

***20 avqust 2017-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GƏDƏBƏYDƏ HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Azərbaycan dövlətçiliyinin möhkəm əsaslar üzərində qurulmasında, respublikanın hərtərəfli inkişafında və ölkədə bütün sahələrin canlanmasında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə respublikamızda çox mühüm tədbirlər görülür. Bu tədbirlər sırasında dahi şəxsiyyətin adını daşıyan, Ulu

Öndərin zəngin və çoxşaxəli siyasi irsinin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edən mərkəzlərin rolu böyükdür.

Orijinallığı ilə Gədəbəy şəhərinin gözəlliyini daha da artıran Heydər Əliyev Mərkəzinin yaradılması, ilk növbədə, gədəbəylilərin dahi şəxsiyyətin xatirəsinə dərin ehtiramlarını nümayiş etdirir. Mərkəzdəki fotoşəkillər və eksponatlar bir daha sübut edir ki, Azərbaycanın tənəzzül dövründən tərəqqi mərhələsinə qədəm qoyması və indiki hərtərəfli inkişafı, beynəlxalq nüfuzunun artması məhz ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətləri ilə bağlıdır.

Dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Foyedə ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Gədəbəy rayonuna səfərlərini əks etdirən fotolardan ibarət stendlər quraşdırılıb. Mərkəzin yerləşdiyi ərazidə hündürlüyü 70 metr olan bayraq dirəyi ucaldılıb. Bayraq dirəyinin ay-ulduz formasında inşa olunmuş postamentinin üzərində Azərbaycan Respublikasının gerbi, xəritəsi və dövlət himninin sözləri əks etdirilib.

Məlumat verildi ki, ümumi sahəsi 3500 kvadratmetrdən çox olan Heydər Əliyev Mərkəzinin tikintisi yüksək səviyyədə həyata keçirilib. Mərkəzdə ulu öndər Heydər Əliyevin həyatının və çoxşaxəli dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar, tarixi sənədlər və fotoşəkillər nümayiş olunur. Bu fotolarda ümummilli lider Heydər Əliyevin istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərlik edərkən ölkəmizin inkişafına xüsusi diqqət göstərməsi dolğun əksini tapıb. Ulu Öndərin ölkədəki müxtəlif obyektlərin açılışında iştirakı, ictimaiyyətin nümayəndələri, ziyalılar və zəhmətkeşlərlə görüşlərinin əks olunduğu fotolar da maraq doğurur.

Rəqs zalının, elektron kitabxananın yaradıldığı Heydər Əliyev Mərkəzində müxtəlif tədbirlərin keçirilməsi üçün 242 yerlik konfrans zalı da var. Bundan əlavə, Mərkəzdə rəsm, foto və poliqrafiya studiyaları, heykəltəraşlıq dərnəyi, intellektual oyun otağı, saz emalatxanası, həmçinin ingilis, rus və fransız dilləri kabinetləri, o cümlədən ən müasir avadanlıqla təchiz olunan xidməti otaqlar fəaliyyət göstərəcək.

Son illər respublikamızda yeni ailə quran gənclərin Heydər Əliyev mərkəzlərində nikah mərasimlərinin təşkili kimi xoşməramlı tədbirlər də keçirilir. Gədəbəydəki Heydər Əliyev Mərkəzində də bu məqsədlə Vətəndaşlıq Vəziyyəti Aktlarının qeydiyyatı otağı yaradılıb. Burada nikaha daxil olmaq istəyən gənclərin qanunvericiliklə müəyyən edilmiş qaydada tibbi müayinəsi aparılacaq və onlara tibbi arayışlar veriləcək.

*20 avqust 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 21-də Bakıda keçirilən Qlobal Gənc Liderlər Forumunda iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldinin başçılıq etdiyi, Latviyanın sabiq Prezidenti Valdis Zatlers, Bolqarıstanın sabiq prezidentləri Rosen Plevneliev və Petar Stoyanov, Xorvatiyanın sabiq Prezidenti İvo Yosipoviç, İsrailin sabiq Prezidenti Dalia İtzik, Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumciya və Türkiyənin sabiq xarici işlər naziri Hik-

mət Çətinin daxil olduqları Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nümayəndə heyətini qəbul edib.

Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünyada nüfuzunun getdikcə artdığı, tərəfdaşlarının çoxaldığı, fəaliyyət istiqamətlərinin genişləndiyi vurğulandı və Mərkəzin gələcək fəaliyyəti ətrafında fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Bakıda keçirilən Qlobal Gənc Liderlər Forumunun əhəmiyyəti qeyd edildi.

*21 avqust 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LƏNKƏRANDA "XƏZƏR PALACE" OTEL KOMPLEKSİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Lənkəranda "Xəzər Palace" otel kompleksinin açılışında iştirak edib.

Lənkəranda inşası yeni başa çatan "Xəzər Palace" otel kompleksi ölkəmizdə turizmin inkişafı istiqamətində həyata keçirilən əsaslı addımlardan biridir. Son illərdə bölgələrdə istifadəyə verilən müasir mehmanxana kompleksləri böyük əhəmiyyət kəsb edir. Bu cür komplekslərin sayının çoxalması Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, həm də ölkəyə gələn turistlərin sayının artmasına zəmin yaradır. Bu kompleks təkcə Lənkəran üçün deyil, bütün bölgə üçün əhəmiyyətli turizm obyektidir.

Dövlətimizin başçısı "Xəzər Palace" otel kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi.

Yeni turizm obyekti ilə tanışlıq zamanı Azərbaycan Prezidentinə məlumat verildi ki, otel kompleksi iki hektar sahədə inşa edilib. Otelin beşmərtəbəli binasının tikintisinə 2015-ci ilin mayında başlanılıb və bu ilin avqustunda başa çatdırılıb. Müxtəlif çeşidli yüksək xidmətlərin göstəriləcəyi otel kompleksi müasir standartlar səviyyəsində inşa olunub. Binanın interyerinin tərtibatında orijinal mebel və aksesuarlardan istifadə edilib. Otuz doqquz nömrədən ibarət oteldə qonaqların rahat istirahəti üçün hər cür şərait yaradılıb.

Qeyd olundu ki, oteldə xidmət göstərəcək heyət yüksək hazırlıq kursu keçib və onların əksəriyyətini yerli kadrlar təşkil edir. Əməkdaşlar otelin istənilən xidmət sahəsində qonaqlara yüksək səviyyəli qulluğun göstərilməsi ilə bağlı xüsusi təlim kurslarına cəlb olunublar. Otel kompleksində müxtəlif tədbirlərin keçirilməsi üçün geniş imkanları olan konfrans zalı, müasir restoranlar da fəaliyyət göstərir. Restoranlarda turistlərə Azərbaycan və dünya mətbəxinin nümunələri təqdim olunacaq.

Dövlətimizin başçısı oteldəki nömrələrdə yaradılan şəraitlə maraqlandı. Məlumat verildi ki, müxtəlif kateqoriyalı bu nömrələr ən müasir tələblər səviyyəsindədir və yüksək dizaynı ilə seçilir. Oteldə uşaqların da istirahətinin təşkili üçün lazımi şərait yaradılıb. Burada balacalar üçün müxtəlif əyləncə və idman sahələri qurulub. Oteldə qonaqların vaxtlarını səmərəli keçirmələri üçün xüsusi idman zalları da var. Burada qonaqlara təqdim olunan xidmətlər çoxçeşidliliyi ilə fərqlənir. Müxtəlif trenajorlar, müasir idman avadanlığı və hovuzlar qonaqların istirahət imkanlarını daha da artırır.

"Xəzər Palace" otel kompleksində 100 nəfər üçün daimi iş yeri nəzərdə tutulur. Kompleksin ərazisi tam abadlaşdırılıb, yaşıllıq sahəsi salınıb. Otel kompleksinin ərazisində, həmçinin 8 kottec qonaqların istifadəsinə verilib.

*2 sentyabr 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV SALYANA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ BAYRAQ MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Salyana səfəri çərçivəsində Bayraq Muzeyinin açılışında iştirak edib.

Ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayrağın yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində mümkün oldu. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra milli bayrağımız ilk dəfə Ulu Öndər tərəfindən Naxçıvanda qaldırıldı. İndi bu bayraq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə qürurla dalğalanır və hər bir azərbaycanlı dövlət bayrağını özünün qürur mənbəyi hesab edir. Bu mühüm amili şərtləndirən əsas səbəblərdən biri də Prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşmasıdır. Fərəhli haldır ki, paytaxtdan sonra əksər bölgələrimizdə də üçrəngli bayrağımızın şərəfinə muzeylər yaradılır, xüsusi layihələr həyata keçirilir.

Prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısına burada görülən işlərlə bağlı məlumat verildi. Bildirildi ki, Bayraq Muzeyinin yerləşdiyi ərazidə Bayraq Meydanı yaradılıb, burada dövlət bayrağı ucaldılıb, ərazidə geniş abadlaşdırma işləri görülüb. Bayraq Muzeyinin inşası bu il ərzində həyata keçirilib. Rayonun daxili imkanları hesabına reallaşdırılan layihə çərçivəsində ümumi sahəsi 410 kvadratmetr olan bina tikilib. Zəruri infrastrukturla təchiz olunan muzeydə çoxlu sayda eksponatın sərgilənməsi üçün hər cür şərait yaradılıb. Bayraq Muzeyində tariximizin müxtəlif dövrlərinə aid eksponatlar, qədim Azərbaycan dövlətlərinin bayraqları, xəritələr, konstitusiyalar, orden və medallar, bir sözlə, müxtəlif dövlət rəmzləri qorunur. Burada müstəqillik dövrümüzün tarixi hadisələrinə geniş yer verilib. Bütün bunlar həm Salyan gənclərində, həm də rayona gələn qonaqlarda şanlı tariximiz haqqında təsəvvür yaratmağa geniş imkanlar açır.

***24 sentyabr 2017-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YENİ YARADILAN ŞAMAXI SAFARİ PARKI İLƏ TANIŞ OLMUŞDUR

Oktyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni yaradılan Şamaxı Safari Parkı ilə tanış olublar.

Müasir dövrdə ekoturizmin geniş yayılmış növlərindən biri də safari turizmidir. Turizmin bu növü ilk olaraq zəngin təbiəti ilə seçilən Afrikada yaranıb. "Safari" sözü də Afrika xalqlarından olan tanzaniyalıların dilindən götürülüb, səyahət etmək, yolçuluq, gəzinti mənasını verir. Bu cür turlar Afrikanın bir sıra ölkələrində Qərbi Avropadan və Amerikadan gələn imkanlı turistlərin maraqlarını yerli vəhşi fauna nümunələri ilə cəlb etmək üçün həyata keçirilib. Bu gün safari turizmi ovçuluq və ya fotoovçuluq, balıq tutmaq, açıq məkanda təbii halda heyvanları müşahidə etmək məqsədilə təşkil olunan turizm növü kimi məşhurdur. Ənənəvi safarilər heyvanları nəsli kəsilmək təhlükəsi ilə üz-üzə qoyduğu üçün son dövrlərdə təşkilatçılar ov məqsədli turlardan imtina edərək sırf fotosafarilərə istiqamətləniblər. Fotosafariləri bədii dillə "sakit ov" da adlandırırlar. Azərbaycanda da fotosafari turlarının həyata keçirilməsi üçün geniş imkanlar var. Ölkəmizin müxtəlif guşələ-

rində xüsusi mühafizə olunan təbiət əraziləri - milli parklar, qoruqlar xarici turistlərin belə turlara cəlb edilməsində mühüm rol oynaya bilər.

Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycanda ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə də bununla bağlı məsələlər yer alıb. Strateji Yol Xəritəsində qeyd edilib ki, Mədəniyyət və Turizm Nazirliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə Azərbaycanın ekoloji turizm imkanlarının tədqiqini həyata keçirərək, bunun əsasında milli parklarda müxtəlif turizm fəaliyyətlərinin təşkili ilə bağlı tədbirlər planı hazırlayacaq. Yaradılacaq marşrutlar üzrə əlverişli fəaliyyət cədvəli tərtib ediləcək. Buraya milli parklarda potensial turizm kampinq yerlərinin müəyyən edilməsi və işlənib hazırlanması üzrə də təkliflərin irəli sürülməsi daxildir. Təhlil nəticəsində məqsədəuyğun hesab edilərsə, bu kampinq yerlərinin işlədilməsi özəl operatorlara da həvalə oluna bilər. Qeyd edək ki, sənəddə Şamaxı Safari Parkının yaradılacağı da qeyd olunmuşdu. Artıq Şamaxı Safari Parkı hazırdır.

Parkla tanışlıq zamanı dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, Azərbaycanda elmi əsaslarla ov ekologiyasının yaranması, vəhşi populyasiyada olan heyvan növlərinin Azərbaycan təbiətinə adaptasiyası məqsədilə 2014-cü ildə yaradılan "Azər Ekov" MMC qısa müddətdə bu istiqamətdə zəruri olan işləri görməyə başlayıb. "Azər Ekov" MMC ilk olaraq vəhşi dırnaqlılar və maral fermerlərinin Beynəlxalq Assosiasiyasına - IDUBA-ya üzv olub. Bununla da "Azər Ekov" MMC bu assosiasiyanın Cənubi Qafqazda təmsilçilik hüququnu əldə edib və bu quruma Ermənistanın üzv olmasının qarşısını alıb. IDUBA-nın təşkil etdiyi görüşlər sayəsində üzvlər müəyyən vaxt ərzində yığıncaqlar təşkil edib heyvan yetişdirilməsi, ovların təşkili, buynuz ticarəti, yem və yem əlavələrinin istehsalı və s. ilə bağlı fikirlərini bölüşürlər. Bu assosiasiyanın tədbirlərində bərabərhüquqlu üzv kimi iştirak edərkən "Azər Ekov" MMC qarşısına beynəlxalq təcrübəni mənimsəmək, xarici mütəxəssislərin Azərbaycan təbiətinə marağını cəlb etmək kimi hədəflər qoyub.

Bildirildi ki, "Azərbaycanda ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"dəki tapşırıqlara uyğun olaraq vəhşi heyvanlar üçün ekoloji qoruğun yaradılması məqsədilə Şamaxı rayonunun ərazisində olan Pirqulu adlanan dağ-meşə sahəsində 620 hektar ərazinin hüdudları içərisində 480 hektar ərazi beynəlxalq standartlara uyğun formada çəpərlənib. Buraya Latviya, Polşa, Slovakiya, Çexiya və Macarıstan təsərrüfatlarından üç növdən ibarət 420 baş nəcib maral, lan və muflon adlı genetik qiymətli heyvanın gətirilərək xüsusi mühafizə olunan əraziyə buraxılması təmin edilib. Görülən seleksiya və baytarlıq tədbirləri nəticəsində bu heyvanların sayı iki dəfəyə yaxın artıb. Belə ki, hazırda parkda 790 heyvan, o cümlədən 260 baş nəcib maral, 250 baş muflon və maral cinsinə daxil olan 280 baş lan var.

Ekoloji parkın daxili infrastrukturunun yaradılması istiqamətində də mühüm işlər görülüb. Belə ki, 36 kilometr uzunluğunda enli yol çəkilib. Bundan başqa, heyvanlar üçün çox sayda təbii daldalanacaqlar düzəldilib. Maral, lan və muflonları kənar təsirlərdən və yoluxucu xəstəliklərdən qorumaq üçün beynəlxalq standartlara uyğun dəmir-beton dayaqlara hörülmüş 52 kilometr uzunluğunda çəpər çəkilib. Bundan başqa, parkın ərazisində inzibati bina və qonaq evi də inşa olunub. İnzibati bina və qonaq evinin ərazisində geniş abadlıq işləri aparılıb.

***2 oktyabr 2017-ci il***

## PREZİDENT İLHAM ƏLİYEV BAKIDA YENİ İSTİFADƏYƏ VERİLƏN İDMAN VƏ İSTİRAHƏT PARKINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov parkda görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Qeyd edildi ki, rayonda aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri, həyata keçirilən layihələr və sosial proqramlar çərçivəsində bu ilin may ayından 20-ci yaşayış sahəsindəki Su İdmanı Sarayı ilə üzbəüz 1,7 hektarlıq ərazidə yeni idman və istirahət parkının salınmasına başlanıb və artıq işlər başa çatdırılıb. Parkın layihəsi dünya şöhrətli memar və dizaynerlər tərəfindən ingilis layihəsi əsasında hazırlanıb və Azərbaycanda ilk dəfə olaraq həyata keçirilib. Xüsusi layihə çərçivəsində görülən işlər yüksək keyfiyyətlə və zövqlə yerinə yetirilib.

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Bakıda abadlıq-quruculuq işləri geniş vüsət alıb. Əhalinin istirahəti üçün hərtərəfli şəraitə malik olan bu parkın salınması da həmin işlərin tərkib hissəsidir. Digər tərəfdən, bu park Su İdmanı Sarayının ətrafında həyata keçirilən genişmiqyaslı yenidənqurma və abadlıq işlərinə mühüm töhfə olub. Parkın digər özəlliyi buraya istirahətə gələnlərin idmanla məşğul olmasına şərait yaradılmasıdır. Bu məqsədlə parkda 900 kvadratmetr sahədə iki basketbol, habelə həndbol və mini futbol meydançaları qurulub.

Bundan əlavə, açıq havada məşq etmək üçün müxtəlif idman trenajorları qoyulub. Ekstremal idman növlərinə həvəs göstərən uşaq və yeniyetmələrin marağı da nəzərə alınıb. Onlar üçün 450 kvadratmetr sahədə ikihissəli - həm böyüklər, həm də balacalar üçün skeytbordinq meydançası düzəldilib. Parkın digər hissəsində stolüstü tennis, uşaq əyləncə qurğuları, yelləncəklər quraşdırılıb. İdman və istirahət parkı xüsusi işıqlandırma sistemi ilə təchiz edilib.

Parkın giriş-çıxışını dekorativ arkalar bəzəyir. Üzəri müasir dizaynla rənglənən və cizgi filmləri qəhrəmanlarının şəkilləri ilə bəzədilən 350 metrlik divar da parka xüsusi yaraşıq verir. Parkda yaşıllaşdırma işlərinə də xüsusi diqqətlə yanaşılıb. Beş min kvadratmetrlik sahədə müxtəlif ağaclar və bəzək kolları əkilib, gül kompozisiyaları yaradılıb, suvarma sistemi qurulub. Bununla da park rayon sakinləri və şəhərimizin qonaqları üçün gözəl idman, əyləncə və istirahət məkanına çevrilib.

*28 oktyabr 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XALQ ARTİSTİ RAUF ABDULLAYEVƏ "İSTİQLAL" ORDENİ TƏQDİM ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru, Xalq Artisti, Dövlət Mükafatı Laureatı Rauf Abdullayevə "İstiqlal" ordenini təqdim edib.

Xalq Artistini təbrik edən Prezident İlham ƏLİYEV dedi:

-İlk növbədə, Sizi yubileyiniz münasibətilə təbrik etmək istəyirəm. Sizə cansağlığı, yeni uğurlar arzulayıram. Siz uzun illərdir ki, Azərbaycanın musiqi sənətinə böyük töhfə verirsiniz. Siz 20 ildir ki, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət simfonik orkestrinin bədii rəhbəri və dirijoru vəzifəsində çalışırsınız. Sovet dövründə siz bu orkestrə rəhbərlik etmisiniz, 1980-ci illərdə. Ondan sonra bir müddət xaricdə çalışmısınız və iyirmi il bun-

dan əvvəl Azərbaycana qayıdıb yenə də bu orkestrə rəhbərlik etməyə başlamısınız. İyirmi ildir ki, bizim hamımızı öz sənətinizlə sevindirirsiniz.

Ulu öndər Heydər Əliyev sizin fəaliyyətinizə çox yüksək qiymət verirdi. Mən sizinlə onun çoxsaylı görüşlərinin şahidi olmuşam. Bilirəm ki, onun sizə münasibəti çox yaxşı, çox müsbət idi. Bütün rəsmi tədbirlərdə siz iştirak edirdiniz.

Azərbaycan dövləti sizin fəaliyyətinizi çox yüksək qiymətləndirir və siz 1997-ci ildə "Şöhrət", 2012-ci ildə isə "Şərəf" ordenləri ilə təltif olunmusunuz. Bu yaxınlarda mənim Sərəncamımla Azərbaycan dövlətinin ali ordeni olan "İstiqlal" ordeni ilə də təltif edilmisiniz.

* * *

Prezident İlham Əliyev "İstiqlal" ordenini Xalq Artisti Rauf Abdullayevə təqdim etdi.

* * *

Ümummilli lider Heydər Əliyevin incəsənət adamlarına, o cümlədən onun rəhbərlik etdiyi orkestrə daim diqqət göstərdiyini minnətdarlıqla xatırlayan Xalq Artisti Rauf ABDULLAYEV dedi:

-Ulu öndər Heydər Əliyev bizə, bizim orkestrə həmişə dəstək idi, bizim yanımızda idi. Hər dəfə konsertlərdən sonra yığışanda söhbət zamanı həmişə soruşardı, nə var-nə yox, işlər necədir? Arzularımızı ona söyləyərdik və o, hamısını həll edərdi. Bu, bizim üçün böyük qayğı idi.

Siz də onun layiqli davamçısı olaraq bizim incəsənət, mədəniyyət işçilərimizə həmişə hörmət etmisiniz, onlara fəxri adlar, ordenlər vermisiniz. Sizin qayğınızı hamımız hiss edirik. Ona görə də Sizə, Mehriban xanıma möhkəm cansağlığı, xoşbəxtlik arzulayır, işlərinizdə uğurlar diləyirəm.

Prezident İlham ƏLİYEV: Çox sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*2 noyabr 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV GƏNCƏ DÖVLƏT FİLARMONİYASININ YENİ BİNASININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı filarmoniyanın rəmzi açılışını bildirən lenti kəsdi və bina ilə tanış oldu.

Prezident İlham Əliyevə məlumat verildi ki, altımərtəbəli binada inzibati, məşq, qrim, rejissor və istirahət otaqları, bufet yaradılıb. Burada, eyni zamanda, 1200 nəfərlik konsert və 300 yerlik iclas zalları, 10 loja və 1 VİP loja da tamaşaçıların ixtiyarına veriləcək. Filarmoniyada kitab satışı da həyata keçiriləcək. Binanın üçüncü mərtəbəsinin eyvanında Üzeyir Hacıbəylinin, Fikrət Əmirovun, Qara Qarayevin, Niyazinin və Arif Məlikovun heykəlləri qoyulub. Ərazidə açıq havada yay konsert meydançası, baxış qülləsi, 500 avtomobil yerlik yeraltı dayanacaq və ümumi sahəsi 2 min kvadratmetr olan iki korpusdan ibarət ikimərtəbəli qalereya inşa edilib.

Filarmoniyanın yeni binasında mədəni tədbirlərin yüksək səviyyədə keçirilməsi, əməkdaşların və yaradıcı kollektivlərin səmərəli fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb.

Gəncə Dövlət Filarmoniyasının yeni binasının istifadəyə verilməsi Azərbaycanda mədəniyyət sahəsinə göstərilən dövlət qayğısının əyani təsdiqidir.

Filarmoniyanın ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb, dekorativ gül kolları əkilib. Binanın qarşısında iki fəvvarə quraşdırılıb və milli ornamentlərlə bəzədilib.

Sonra Prezident İlham Əliyev Gəncə şəhəri ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

## PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Bu gün Gəncənin həyatında çox gözəl və əlamətdar bir gündür. Biz Gəncə Dövlət Filarmoniyasının açılışını birlikdə qeyd edirik. Bu münasibətlə sizi və bütün gəncəliləri ürəkdən təbrik edirəm. Bu, doğrudan da çox gözəl, əlamətdar hadisədir. Filarmoniya ən yüksək standartlara uyğun tikilib, həm xarici görünüşü, həm də daxili tərtibatı baxımından ən yüksək standartlara cavab verir. Gəncəyə əlavə yaraşıq verəcək bu filarmoniyanın şəhərin mədəniyyət və incəsənət sahələrinə çox böyük töhfəsi olacaq.

Gəncə qədim mədəniyyət mərkəzidir. Gəncədə bütün dövrlərdə ədəbiyyat, incəsənət, memarlıq sənəti inkişaf etmişdir. Gəncənin bugünkü qədim siması onun zəngin tarixini əks etdirir. Gəncə dahi Nizaminin yurdudur. Azərbaycan xalqının Gəncədə yaşayıb-yaratmış görkəmli nümayəndələri bizim milli sərvətimizdir. Əlbəttə, Gəncə kimi gözəl, qədim şəhərə çox gözəl filarmoniya binası da lazım idi. Gəncəlilər bir neçə il bundan əvvəl bu təkliflə müraciət etdilər və göstəriş verildi ki, filarmoniya tikilsin. Gəncənin demək olar ki, ən gözəl yerlərindən biri seçildi və çox gözəl memarlıq üslubunda filarmoniya tikildi. Burada iki konsert zalı yaradılıbdır. Böyük konsert zalının oturacaqlarının sayı 1200-dür, yəni, çox böyük konsert zalıdır. Filarmoniyanın ümumi sahəsi 40 min kvadratmetrə yaxındır. Onu da qeyd etməliyəm ki, Bakı Filarmoniyası ilə müqayisədə Gəncə Filarmoniyası həm böyükdür, həm daha da əzəmətlidir, möhtəşəmdir, gözəldir. Əlbəttə, belə gözəl binada keçiriləcək tədbirlər, konsertlər, tamaşalar əminəm ki, gəncəlilər üçün çox xoş olacaq.

Gəncə qədim mədəniyyət mərkəzidir və öz qədimliyini saxlamaqla bu gün yeniləşir, gözəlləşir. Mən son illər ərzində Gəncədə dəfələrlə olmuşam. Bu, mənim Prezident kimi Gəncəyə 15-ci səfərimdir. Gəncənin yeniləşməsi ilə bağlı bir çox addımlar atılıbdır. Bu gün həm qədim, həm müasir Gəncə nəinki Azərbaycanın, regionun mərkəzlərindən biridir. Burada infrastrukturla bağlı bir çox layihələr icra edilib. Qazlaşdırma 100 faiz səviyyəsindədir, elektrik enerjisi tam təmin edilir, içməli su layihəsi icra olunur. Bildiyiniz kimi, bu layihə çox böyük vəsait tələb edən layihədir, texniki cəhətdən də o qədər də asan layihə deyil. Bu layihənin icrası üçün əlavə addımlar atılacaq. Əminəm ki, 2019-cu ildə Gəncədə içməli su problemi də tamamilə aradan qaldırılacaq və sakinlər 24 saat təmiz içməli su ilə təmin olunacaqlar.

Yol infrastrukturunun təkmilləşdirilməsi, müasirləşməsi üçün addımlar atılıb, yenə də atılacaq. Bakı-Gəncə avtomagistralı dünyanın ən yüksək standartlarına cavab verir, dördzolaqlı gözəl, hamar, sürətli bir yoldur. Biz gələn ildən başlayaraq Gəncə-Gürcüstan sərhədi avtomobil yolunu da genişləndirəcəyik. Bizim həm digər şəhərlərimizə, həm də sərhədə gedən bu yol indi ikizolaqlıdır, genişləndirildikdən sonra dördzolaqlı olacaq.

İstəyirəm gəncəlilər onu da bilsinlər ki, Bakı-Gəncə sürət qatarının işə salınması ilə bağlı məsələlərin araşdırılması üçün mənim tərəfimdən göstəriş verilmişdir. Bilirsiniz ki, indi Azərbaycan dünyanın ən müasir qatarlarını alır və bu proses davam etdiriləcək. Birinci sürət qatarları Bakı-Sumqayıt, Bakı-Gəncə qatarları olacaqdır. Dəmir yolunun yenidən qurulması prosesi uğurla gedir. Bakı-Böyük Kəsik dəmir yolu indi də təbii ki, tam

istismardadır, ancaq o yolun keyfiyyətinin yaxşılaşdırılması nəticəsində qatarların sürəti təqribən 120 kilometrə bərabər olacaq. Beləliklə, Bakıdan Gəncəyə qatarla çox qısa müddət ərzində və çox komfortlu şəkildə gəlmək mümkün olacaqdır. Bütün bu layihələr ona görə icra edilir və ediləcək ki, biz insanlar üçün daha da yaxşı şərait yaradaq, insanlar daha yaxşı yaşasınlar. İnfrastruktur layihələrinin icrası məhz bu məqsədi güdür. Onların bir çoxu həll olunub, qalan məsələləri də həll edəcəyik.

Əvvəlki illərdə də Gəncədə sosial layihələrlə, sənaye layihələri ilə bağlı bir çox gözəl işlər görülübdür. Bu gün mən bir neçə obyektin açılışında və təqdimatında iştirak edəcəyəm. Onlardan biri Dövlət Aqrar Universitetinin yataqxana binasıdır. Bu, ikinci bina olacaq. Birinci binanı da mən açmışam, o, 520 yerlik binadır. Bu binada da 500-dən çox tələbə yaşayacaq. Şəhərdəki 1 saylı məktəb də əsaslı təmir olunub, mən oraya da baxacağam. Böyük ticarət mərkəzləri - "Gəncə Mall", "Grand Qafqaz" kompleksi açılır. Bu iki böyük ticarət obyektində minlərlə insan işlə təmin olunacaqdır. Gəncədə yeni parklar salınıb. Onların da təqdimatı bu gün nəzərdə tutulubdur. Biz yeni muzeyin açılışını da edəcəyik. İndi Gəncə muzeylər şəhəridir. Gəncə Azərbaycan xalqına o qədər görkəmli şəxsiyyətlər bəxş edib ki, onların hamısının Gəncədə muzeyləri olmalıdır və bu məsələ də öz həllini tapır.

Yadımdadır, əvvəlki illərdə Gəncədə müalicə-diaqnostika mərkəzinin, şəhər xəstəxanasının, "ASAN xidmət" mərkəzinin, Olimpiya-İdman Kompleksinin, sənaye obyektlərinin açılışları olub. Görülən bütün bu işlər Gəncənin həm sənaye, həm iqtisadi, həm mədəni həyatında çox mühüm rol oynayan amillərdir.

Növbəti illərdə biz bu günə qədər həllini tapmayan, ancaq həllini gözləyən məsələləri də həll edəcəyik, ilk növbədə, əlbəttə, iqtisadi inkişafla bağlı məsələləri. Gəncədə yeni müəssisələrin yaradılması nəzərdə tutulur, iş yerlərinin açılması istiqamətində böyük işlər görülür və iki önəmli obyektin də tikintisi nəzərdə tutulur. Mən bu gün sizə onu da bildirmək istəyirəm və gəncəlilər də bilsinlər ki, Gəncə Dram Teatrının tikintisi ilə bağlı göstəriş verilib. Çox güman ki, gələn ildən başlayaraq teatrın tikintisi davam etdiriləcək, lazımi vəsait ayrılacaq və artıq bu teatrın tikintisinin nə vaxt başa çatacağı gəncəlilərdən asılı olacaq. Müasir böyük idman sarayının tikintisi də nəzərdə tutulur. Hələ 2000-ci illərin əvvəllərində Azərbaycanın ilk Olimpiya İdman mərkəzlərindən biri Gəncədə tikilmişdir. Artıq o vaxtdan təqribən 15 il keçir. Sonra bu Olimpiya İdman Mərkəzi əsaslı təmir olundu. Ancaq Gəncə əhalisinin və idmanla məşğul olmaq istəyənlərin sayı artır, uşaqlar idmana böyük maraq göstərirlər. Ona görə yeni müasir idman sarayının tikintisi də nəzərdə tutulur.

Bilirəm ki, gəncəliləri bir məsələ də narahat edir. O da çoxmənzilli binaların təmiri məsələsidir. Şəhərdə 72 belə bina var və bu binaların təmiri də nəzərdə tutulacaqdır.

Beləliklə, bugünkü görüşümüz hesab edirəm ona görə əlamətdardır ki, bu gözəl, möhtəşəm filarmoniyanı biz birlikdə açırıq. Eyni zamanda, Gəncənin gələcək inkişafı ilə, görüləcək işlərlə bağlı sizə və gəncəlilərə bu məlumatı verirəm biləsiniz ki, Gəncə daim diqqət altındadır və şəhərin inkişafı, abadlaşdırılması, gözəlləşdirilməsi məni çox-çox sevindirir. Çünki Gəncə hər bir Azərbaycan vətəndaşı üçün əziz, doğma şəhərdir, bizim qədim mədəniyyət, incəsənət mərkəzimizdir. Son illər Gəncənin abadlaşdırılması istiqamətində çox yaxşı işlər görülür. Mən onu da bildirmək istəyirəm, - 15 səfərimin təcrübəsi müqayisə aparmaq üçün əlbəttə, mənə kifayət qədər imkan verir, - görürəm ki, son illər ərzində Gəncə doğrudan da çox sürətli inkişaf dövrünü yaşayır. Tarixi binalar bərpa olunur, yeni binalar tikilir, xiyabanlar, parklar, yaşıllıqlar salınır. Gəncə şəhərinə giriş indi çox gözəl və möhtəşəmdir, dahi Nizaminin əsərləri göz oxşayır. İndi dünya miqyasında böyüklüyünə görə üçüncü park Gəncədədir. Bu, hamımızı sevindirir. Heydər Əliyev Parkı doğrudan da möhtəşəm bir ictimai istirahət zonasıdır.

Mən bütün bu uğurlar, nailiyyətlər münasibətilə gəncəliləri, şəhər rəhbərliyini təbrik etmək istəyirəm, onların fəaliyyətini yüksək qiymətləndirirəm. Mən bundan sonra da Gəncənin hərtərəfli inkişafı üçün əlimdən gələni edəcəyəm ki, şəhər daha da gözəlləşsin, daha da abadlaşsın. Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm.

* * *

**Prezident İlham ƏLİYEV dedi:**

- Çox sağ olun. Doğrudan da bu gün çox əlamətdar bir gündür. Bu filarmoniyanın tikintisi, açılışı doğrudan da çox tarixi bir hadisədir. Təkcə ona görə yox ki, belə bir möhtəşəm bina tikilib və gəncəlilərin sərəncamına verilir. Eyni zamanda, ona görə ki, bu binanın, bu möhtəşəm memarlıq abidəsinin tikilməsi dövlətimizin gücünü və siyasətini göstərir, xüsusilə indiki şəraitdə ki, dünyada müəyyən dərəcədə tənəzzül yaşanır, iqtisadi böhran, maliyyə böhranı, xoşagəlməz halların çoxalması. Deyə bilərəm ki, indi bir çox ölkələrdə nəinki filarmoniyalar tikilmir, ümumiyyətlə, inkişafla bağlı perspektivlər də yoxdur. Amma görün, Azərbaycan nə dərəcədə inkişafda olan ölkədir, bizim imkanlarımız nə dərəcədə böyükdür ki, biz hətta o qədər də asan olmayan illərdə də mədəniyyət ocaqlarına bu qədər diqqət göstəririk, bu qədər vəsait ayırırıq. Filarmoniyanın binası başqa cür də ola bilərdi. Daha sadə, daha az xərc tələb edən bina ola bilərdi. Ancaq bizim yanaşmamız ondan ibarətdir ki, Gəncə kimi tarixi şəhərə bu cür gözəl memarlıq abidəsi yaraşır. Ona görə biz bunu da etdik. Həm gəncəlilər sevinir, həm də mən çox sevinirəm. Çünki hər bir adam öz əməyinin nəticəsini görəndə, əlbəttə ki, çox sevinir.

Bu gün ölkəmizdə səhiyyə, təhsil, mədəniyyət, sənaye, infrastruktur inkişaf edir, bütün sahələrdə inkişaf var. Siz də qeyd etdiyiniz kimi, Gəncə bu gün, eyni zamanda, böyük sənaye mərkəzinə çevrilir. Buradakı bir çox zavodlar ölkəmizin qeyri-neft sektorunun inkişafında çox önəmli rol oynayır. Burada minlərlə iş yeri yaradılıb. Gəncə avtomobil zavodunu qeyd etmək kifayətdir ki, biz onun timsalında Azərbaycanda sənaye istehsalının necə inkişaf etdiyini görək. Biz vaxtilə Belarus ilə traktor istehsalı sahəsində müqavilə bağladıq və burada Belarus traktorları, ondan sonra yük maşınları, avtobuslar yığılmağa, istehsal olunmağa başlanmışdır. İndi bu zavod nəhəng bir sənaye mərkəzidir. Gəncə avtomobil zavodu indi digər ölkələrdə sənaye sahələrinin yaradılmasında iştirak edir. Yəni, bu inkişaf buna gətirib çıxarıb ki, həm daxili tələbat təmin edilir, iş yerləri yaradılır, qeyri-neft sektoru inkişaf edir və biz artıq qonşu ölkələrə də öz məhsulumuzla, texnologiyalarımızla çıxırıq.

Burada Nizami Gəncəvi Beynəlxalq Mərkəzi haqqında qeyd olundu. Bu da çox tarixi bir hadisədir. Çünki bu Mərkəzin yaradılması dünya miqyasında bir hadisə oldu. Biz bu Mərkəzi yaradarkən, əlbəttə, görürdük ki, bunun çox böyük gələcəyi var. Ancaq hesab edirəm, bir çoxları təsəvvür etmirdilər ki, bu Mərkəzin dünya miqyasında nə qədər böyük rolu olacaq. Bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin xətti ilə keçirilən qlobal forumlar dünya miqyasında nadir beynəlxalq tədbirlərdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən artıq beş dəfə Bakı Qlobal Forumu keçirilib. Bu forumlarda həm onlarla fəaliyyətdə olan, həm də keçmiş dövlət və hökumət başçıları iştirak edirlər. Hər il bu Forum keçirilir və Forumun işində mən də iştirak edirəm. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətini ən azı ildə bir dəfə qəbul edirəm. Həmişə onlara tövsiyə edirəm ki, mütləq Gəncəyə də gedin. Onlar dəfələrlə burada olublar və Gəncə haqqında onların təəssüratları çox müsbətdir.

Biz Gəncənin timsalında ölkəmizin ümumi inkişafını görürük. Sənaye istehsalı, iş yerlərinin, insanlar üçün şəraitin yaradılması, humanitar sahədəki fəaliyyətimiz – bütün bunlar hərtərəfli inkişaf deməkdir. Bu gün Azərbaycan cəmiyyəti bu inkişafdan bəhrələ-

nir. Bu gün ölkəmizdə sabitlik, inkişaf təmin olunur. Biz bir çox önəmli layihələrə imza atdıq. Təkcə bu ilin hadisələrini sadalamaq kifayətdir ki, bizim energetika, nəqliyyat, dəmir yolu, idman sahələrində nə qədər uğurlarımız var. Bu il İslam Həmrəyliyi Oyunlarının keçirilməsi böyük hadisədir. Bu Oyunlarda əllidən çox ölkədən üç mindən artıq idmançı iştirak edirdi. Dördüncü İslam Həmrəyliyi Oyunlarını ən yüksək səviyyədə keçirmişik və idmançılarımız da bizi sevindiriblər, birinci yerə layiq görülüblər. Biz müsəlman aləmində birinci, Avropada ikinciyik.

Gəncədən keçəcək Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı tarixi hadisədir. Biz bu tarixi layihəni qonşu ölkələrlə birlikdə reallaşdırdıq.

Energetika sahəsində. "Azəri-Çıraq-Günəşli" yatağının istismar müddətinin uzadılması ölkəmizə on milyardlarla dollar əlavə sərmayə gətirəcək. Bütün bunlar ölkəmizin xeyrinə işləyir. Həm iqtisadiyyatımız, həm də siyasi gücümüz artır. Bütün uğurlarımızın təməlində Azərbaycan xalqının zəhməti dayanır. Bu gün hər bir yerdə inkişaf göz qabağındadır. Həm Bakıda, həm Gəncədə, həm də bütün bölgələrdə, bütün şəhərlərdə vətəndaşlar çox böyük həvəslə quruculuq işlərində iştirak edirlər.

Gəncə Dövlət Aqrar Universitetinin də indi çox böyük funksiyaları, çox böyük əhəmiyyəti var. İndi kənd təsərrüfatı ölkəmizdə çox böyük sürətlə inkişaf edir. Kənd təsərrüfatı məhsullarının ixracı təqribən 40 faiz artıbdır. Ona görə yataqxanaların tikintisi o məqsədi güdür ki, qonşu bölgələrdən gələn tələbələr orada rahat qala bilsinlər. Bilirəm ki, avadanlıqla, texnika ilə təmin olunursunuz ki, orada oxuyan uşaqlar artıq bu texnikaya öyrəşsinlər.

Ölkəmizin çox böyük potensialı var - ilk növbədə, insan kapitalı. Biz vəsaiti əsasən insan kapitalına yönəltmişik. Əlbəttə ki, iqtisadiyyatımızın dayağı olan enerji sektorunu, qeyri-neft sektorunu, kənd təsərrüfatını, sənaye istehsalını da inkişaf etdiririk. Ona görə, bu gün dünya xəritəsinə baxanda, - əlbəttə, mən Azərbaycanı heç bir ölkə ilə müqayisə etmək istəmirəm, - istər-istəməz görürük ki, doğrudan da Azərbaycan uğurlu, sürətli, dayanıqlı inkişaf nümunəsi göstərir. Bu, bizi çox sevindirir. Biz bu ili də yaxşı göstəricilərlə başa vuracağıq. Gələn il daha da uğurlu olacaqdır. Mən bu yaxınlarda qeyd etdim ki, bizim heç bir maliyyə problemimiz yoxdur. Əgər olsaydı biz sosial layihələrə bu qədər vəsait yönəldə bilməzdik. Ona görə, bir daha demək istəyirəm ki, Dram Teatrının və İdman Sarayının, o cümlədən çoxmənzilli 72 binanın təmiri və tikintisi ilə bağlı vəsait qıtlığı olmayacaq. Sadəcə olaraq, siz burada işləri elə qurun ki, bu məsələlər tezliklə öz həllini tapsın və biz sizinlə növbəti açılışlarda görüşək. Sağ olun.

***10 noyabr 2017-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GƏNCƏDƏ MİRZƏ ŞƏFİ VAZEH MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilən muzey binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən Gəncədə tarixi-mədəni irsin qorunması və təbliği istiqamətində görülən işlər 2017-ci ildə də davam etdirilir. Bu məqsədlə Gəncədə XIX əsrdə yaşamış Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və tanınmış maarifçi Mirzə Şəfi Vazehin adını daşıyan muzey yaradılıb. Mirzə Şəfi Vazeh 1794-cü il iyunun 14-də Gəncədə anadan olub. Erkən yaşlarından poeziyaya böyük

həvəs göstərən Mirzə Şəfi Vazeh mədrəsədə dinin əsaslarını öyrənib, burada təhsilini başa çatdırdıqdan sonra isə ərəb və fars ədəbiyyatı, Azərbaycan və rus klassiklərinin əsərləri, sufilik fəlsəfəsi ilə dərindən maraqlanıb. Ərəb və fars dillərini öyrəndikdən sonra Şərqin bir çox klassiklərinin yaradıcılığı ilə yaxından tanış olub. Cavad xanın qızı Püstə xanımın yanında mirzəlik edən Şəfi sonralar Vazeh təxəllüsü ilə Azərbaycan və fars dillərində şeirlər yazaraq bu dillərin poeziya ənənələrini inkişaf etdirib. Şair öz əsərlərində insan ruhunun əzəmətini, sevgi, həyat eşqi, gözəllik kimi dəyərləri vəsf edirdi. Vazeh "Kitabi-türki" adlı ilk Azərbaycan dili dərsliyinin müəlliflərindən biri olub. Şair sonradan yaradıcılığını Tiflisdə davam etdirib. O, 1820-ci illərdə Gəncədə yaratdığı "Divani-Hikmət" ədəbi məclisinin fəaliyyətini 1844-cü ildə Tiflisdə yenidən bərpa edib. Həmin dövrün tanınmış şair, yazıçı və filosoflarının çoxu, o cümlədən Vazehin şagirdi və davamçısı Mirzə Fətəli Axundzadə axşamlar tez-tez bu məclisdə toplaşardılar. O vaxt Qafqaza gəlmiş alman şairi və şərqşünası Fridrix fon Bodenştedt də sözün həqiqi mənasında mədəniyyət və ədəbiyyat ocağı olan, Qərbi Avropa, rus və Azərbaycan poeziyasını özündə birləşdirən "Divani-Hikmət" məclisinə gəlir, burada Vazehdən fars və Azərbaycan dili dərsləri alırdı. Vazehdən Şərq dilləri dərsi alan Bodenştedt Almaniyaya qayıtdıqdan sonra şairin şeirlərini tərcümə edərək nəşr etdirir. Onun tərcüməsində Mirzə Şəfi Vazehin şeirləri dünya şöhrəti qazanır. Bir sözlə, milli poeziyamızın klassiki Mirzə Şəfi Vazehin yaradıcılığı Azərbaycan ilə Avropa arasında ədəbi-mədəni əlaqələrin inkişafında mühüm yer tutur.

Dövlətimizin başçısına muzeydə görülən işlərlə bağlı məlumat verildi. Bildirildi ki, şəhərin "Gülüstan" ərazisində yerləşən muzeyin inşasına 2016-cı ilin martında başlanıb və tikinti işləri 2017-ci ilin noyabrında sona çatdırılıb. Milli memarlıq üslubunda inşa olunan muzeyin ətrafında Mirzə Şəfi Vazehin adını daşıyan park salınıb.

Diqqətə çatdırıldı ki, muzeydə mütəfəkkir şairin həyat və yaradıcılığına, həmçinin qəzəllərinə, müxəmməslərinə, məsnəvilərinə və rübailərinə həsr olunmuş müxtəlif tablolar və sənədlər toplanıb. Burada, həmçinin Mirzə Şəfi Vazehin yaradıcılıq irsinin öyrənilməsinin gücləndirilməsi haqqında ulu öndər Heydər Əliyev tərəfindən 1981-ci il iyunun 8-də imzalanmış qərar və Prezident İlham Əliyevin "Mirzə Şəfi Vazehin 220 illik yubileyinin keçirilməsi haqqında" 2014-cü il 3 fevral tarixli Sərəncamı da nümayiş olunur. Muzeydə şairin yaradıcılığında xüsusi yer tutan "Divani-Hikmət" ədəbi məclisinə aid xüsusi guşə yaradılıb. Qeyd edək ki, bu ədəbi fəlsəfi məclisin üzvləri arasında Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Molla Abdulla, Mirzə Mehdi Naci, Mirzə Yusif Vidadi, maarifçilərdən Eristavi, Çavçavadze, Qriqoriyev ilə yanaşı, alman şərqşünasları Bodenştedt, Adolf Berje və başqaları var idi. Məclisdə ədəbi-irfani-fəlsəfi mübahisələr, təhlillər aparılır, yaxşı şeir yazmaq uğrunda yarışlar keçirilir, diqqət çəkən hər hansı bir şeirə bənzətmələr yazılır, yeni fikirlər formalaşırdı. Vazeh "Divani-Hikmət" ədəbi məclisinin yığıncaqlarını canlı fəlsəfi diskussiyalar formasında keçirirdi.

Bildirildi ki, muzeyin ikimərtəbəli binasında sərgi və konfrans zalları, inzibati otaqlar yaradılıb. Burada şairin şeirlərinin nəşrləri, ədibin həyat və yaradıcılığına həsr olunan elmi tədqiqat və bədii əsərlər, həmçinin mütəfəkkirin 220 illik yubileyi ilə bağlı Gəncə nəşrləri nümayiş olunur.

Azərbaycan mədəniyyəti və incəsənətinin təbliğinə xüsusi önəm verən Heydər Əliyev Fondu da Mirzə Şəfi Vazehlə bağlı 2007-2015-ci illər ərzində müxtəlif kitablar nəşr etdirib. Dövlətimizin başçısına məlumat verildi ki, Mirzə Şəfi Vazehin Almaniyada 1850-ci ildən 1924-cü illərə qədərki dövrdə nəşr olunmuş kitabları Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü və dəstəyi ilə 2014-cü ildə Azərbaycana gətirilib. Həmin kitablar muzeydə sərgilənir.

Bütün bunlar onu deməyə əsas verir ki, Vazeh Şərq poeziyasının çoxəsrlik ənənələrini layiqincə yaşadıb və yüksək insanpərvərliyi, mənəvi gözəlliyi tərənnüm edən diqqətəlayiq irs yaradıb. Onun yaradıcılığı Azərbaycanın Avropa ilə ədəbi-mədəni əlaqələrinin inkişafında özünəməxsus yer tutur. Mirzə Şəfi Vazehin şəxsiyyəti və yaradıcılığı onu Şərq poeziyası klassikləri pleyadasının parlaq nümayəndələrindən biri hesab etməyə əsas verir. Görkəmli şair, pedaqoq və maarifçi-filosofun həyat və yaradıcılığına, onun Şərq və Qərb sivilizasiyalarının müdrikliyini özündə üzvi şəkildə birləşdirən poetik irsinin qeyri-adi taleyinə maraq bu gün də azalmır.

Məlumat verildi ki, muzeyin yerləşdiyi parkın ərazisi 2 hektardır. Parkın giriş hissəsində müasir və klassik memarlıq elementlərini təcəssüm etdirən mərmər üzlüklə bəzədilmiş, hündürlüyü 7 metr, uzunluğu 17 metr olan tağbənd qurulub. Parkın ərazisində yaşıllıq salınıb, dekorativ gül kolları əkilib, 2 fəvvarə quraşdırılıb. Bir sözlə, parkda sakinlərin və şəhərin qonaqlarının istirahəti üçün hər cür şərait yaradılıb. Parka gələnlər görkəmli maarifçi Mirzə Şəfi Vazeh barədə ətraflı məlumat da əldə edə biləcəklər. Parkda şairin heykəli ucaldılıb. Heykəlin arxasındakı divara mozaika işləmələrlə Mirzə Şəfi Vazehin və onun müasirləri olan Fridrix Bodenştedtin, Abbasqulu ağa Bakıxanovun, Qasım bəy Zakirin, Mirzə Fətəli Axundzadənin, eləcə də bir sıra tarixi şəxsiyyətlərin süjetli təsvirləri həkk olunub.

***10 noyabr 2017-ci il***

## PREZİDENT İLHAM ƏLİYEV GƏNCƏDƏ GÖRKƏMLİ DÖVLƏT XADİMİ ƏZİZ ƏLİYEVİN ADINI DAŞIYAN MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı parkın rəmzi açılışını bildirən lenti kəsdi.

Parkda görkəmli dövlət xadimi Əziz Əliyevin abidəsi ucaldılıb. Abidənin postamentlə birlikdə hündürlüyü 4 metrdir.

Prezident İlham Əliyev abidənin önünə gül dəstəsi qoydu.

Dövlətimizin başçısına parkda yaradılan şəraitlə bağlı məlumat verildi. Bildirildi ki, ümumi ərazisi 2 hektar olan park şəhərin "Gülüstan" yaşayış massivindəki Əziz Əliyev prospektində yerləşir. Bu istirahət məkanının inşasına 2016-cı ilin martında başlanılıb, tikinti işləri 2017-ci ilin oktyabrında başa çatdırılıb. Parkın ərazisində yaşıllıq zolaqları salınıb, dekorativ gül kolları əkilib, geniş abadlıq-quruculuq işləri görülüb. Burada dörd fəvvarə quraşdırılıb.

Yeni istirahət məkanında sakinlərin, eləcə də uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıb. Bundan başqa, parkda idmanla məşğul olmaq üçün imkanlar var. İstirahət guşəsində 25 ədəd müxtəlif idman qurğusu quraşdırılıb və mini futbol meydançası inşa edilib. Parkın ərazisinə dekorativ hasar da çəkilib. Bir sözlə, bu park şəhər sakinlərinin və Gəncəyə gələn qonaqların ən sevimli istirahət məkanlarından biri olacaq.

Ölkəmizin ikinci böyük şəhəri olan Gəncədə istifadəyə verilən Əziz Əliyev adına parkda yaradılan şərait və imkanlar şəhərdə gedən inkişafın mühüm elementi olmaqla ölkəmizdə həyata keçirilən sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayandığını bir daha təsdiqləyir.

***10 noyabr 2017-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XIRDALAN ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Abşeron rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı əvvəlcə Xırdalan şəhərinin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova Prezident İlham Əliyevə Heydər Əliyev parkında aparılan yenidənqurma tədbirləri, rayonda görülən abadlıq-quruculuq işləri və həyata keçirilən layihələr barədə ətraflı məlumat verdi.

*16 noyabr 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV SABİRABAD RAYONUNDA BAYRAQ MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Noyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabirabad rayonunda Bayraq Muzeyinin açılışında iştirak edib.

Dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdə millilik, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi xüsusi yer tutur. Bu baxımdan bölgələrdə də üçrəngli bayrağımızın şərəfinə meydanlar, muzeylər yaradılır və xüsusi layihələr həyata keçirilir.

Məlumat verildi ki, Sabirabad Bayraq Muzeyinin inşasına 2017-ci ilin fevralında başlanılıb və sentyabrda başa çatdırılıb. Muzeyin binası iki sərgi zalından və müxtəlif yardımçı otaqlardan ibarətdir. Sərgi zallarında 6 bölmə yaradılıb. Burada Azərbaycanın xanlıqlar dövrünün xəritəsi və bayraqları, orta əsrlərə aid döyüşçülərin geyimləri, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycanın Xalq Cümhuriyyətinə dair sənədlər, SSRİ və müstəqillik dövrünün konstitusiyaları, gerbləri, bayraqları, poçt markaları, orden və medallar nümayiş olunur.

Diqqətə çatdırıldı ki, Bayraq Muzeyinin yerləşdiyi meydanın ərazisi son vaxtlar genişləndirilərək iki hektara çatdırılıb. Hündürlüyü 97 metr olan dövlət bayrağı dirəyinin postament hissəsinin ətrafı abadlaşdırılıb və yaşıllıq salınıb, yeni işıqlandırma sistemi yaradılıb, uşaqlar üçün attraksionlar qoyulub. Meydandakı iki fəvvarə yenidən qurulub.

*28 noyabr 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AĞCABƏDİDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Noyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağcabədi rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Ağcabədi şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov ümummilli lider Heydər Əliyevin abidəsinin ətrafında və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə

Prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, son dövrlərdə Ağcabədidə abadlıq-quruculuq işləri geniş vüsət alıb.

*28 noyabr 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV AĞCABƏDİDƏ TARİX-DİYARŞÜNASLIQ MUZEYİNİN YENİDƏNQURMADAN SONRA AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Prezidenti muzeydə yaradılan şəraitlə tanış oldu.

Respublikamızın bölgələrində yeni yaradılan və ya əsaslı şəkildə yenidənqurmadan sonra istifadəyə verilən Tarix-Diyarşünaslıq muzeyləri tarixi keçmişimizə həssas münasibəti əks etdirir. Bu, dövlət siyasətinin tərkib hissəsidir. Tarixi abidələrin, müqəddəs məkanların bərpası, yeni muzeylərin, mədəniyyət mərkəzlərinin tikilməsi milli mənəvi dəyərlərimizə hörmət və ehtiramın təzahürüdür. Təqdirəlayiq haldır ki, bu proses ölkəmizin bütün regionlarını əhatə edir.

Azərbaycanın bölgələrindəki Tarix-Diyarşünaslıq muzeylərinin əsaslı şəkildə yenidən qurulması qədim tariximizin və mədəni irsimizin öyrənilməsi, gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Belə muzeylərdə həm ölkəmizin, həm də müxtəlif rayonların tarixini əks etdirən çoxlu sayda eksponatlar toplanır. Azərbaycan tarixinin əsrlərin dərinliklərindən qaynaqlanan izlərini yaşadan belə muzeylərin başlıca üstünlüklərindən biri də ölkəmizin bölgələrinə xas mədəniyyət elementlərinin qorunub saxlanması ilə bağlıdır. Prezident İlham Əliyev qədim və zəngin mədəniyyət abidələrimizin qorunub saxlanması və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyan Tarix-Diyarşünaslıq muzeylərinin yaradılmasına xüsusi diqqət yetirir. Bu, bir daha Azərbaycan dövlətinin milli mənəvi dəyərlərimizə sadiqliyini əyani şəkildə nümayiş etdirir. Ağcabədidəki Tarix-Diyarşünaslıq Muzeyinin əsaslı şəkildə yenidən qurulması da bu həqiqəti təsdiq edən amillərdən biridir.

Binada yaradılan şəraitlə tanışlıq zamanı bildirildi ki, bu muzey 1980-ci ildən fəaliyyət göstərir. Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə əsaslı surətdə yenidən qurulan ikimərtəbəli binanın birinci mərtəbəsində fond otaqları, dəftərxana və digər inzibati otaqlar var. Burada, həmçinin 60 yerlik konfrans zalı da yaradılıb. İkinci mərtəbə isə ekspozisiya zallarından ibarətdir. Ekspozisiya zallarında "Təbiət", "Arxeologiya", "Etnoqrafiya", "Azərbaycan SSR dövrü", "Azərbaycan müstəqillik dövrü" və "Görkəmli şəxsiyyətlər" adlı altı bölmə var.

Diqqətə çatdırıldı ki, muzeydə saxlanılan 4782 eksponatdan 360-ı ekspozisiya zalında nümayiş olunur. Əsasən rayon ərazisindən tapılmış və bəziləri bərpa olunmuş sənətkarlıq nümunələri, döyüş ləvazimatlarının qalıqları, milli adət-ənənələrimizi əks etdirən ekspozisiyalar qədim keçmişimiz və mədəniyyətimiz barədə dolğun təsəvvür yaradır. Bütövlükdə şanlı tariximizin gənclərə dərindən öyrədilməsi və gələcək nəsillərə çatdırılması baxımından belə muzeylərin müstəsna əhəmiyyəti var. Bu cür muzeylər həm də Azərbaycan tarixinin zənginliyini bir daha nümayiş etdirir.

*28 noyabr 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AĞCABƏDİDƏ BAYRAQ MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Noyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağcabədi rayonuna səfəri çərçivəsində Bayraq Muzeyinin açılışında iştirak edib.

Dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycanda dövlət atributlarına hörmət və ehtiram ulu öndər Heydər Əliyevin xalqımıza ən böyük əmanətidir. Prezident İlham Əliyevin yürütdüyü siyasətdə də millilik, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi xüsusi yer tutur. Bu baxımdan bölgələrdə də müvafiq tədbirlər görülür. Paytaxtımızla yanaşı, ölkənin bütün bölgələrində üçrəngli bayrağımızın şərəfinə meydanlar, muzeylər yaradılır və xüsusi layihələr həyata keçirilir. Bu gün hər bir azərbaycanlı dövlət bayrağını özünün qürur mənbəyi və and yeri hesab edir. Azərbaycan bayrağı dövlətimizin suverenliyinin rəmzlərindən biri, milli mənəvi dəyərlərimizə və ümumbəşəri ideallara sadiqliyimizin təcəssümüdür. Məhz ölkəmizdə dövlət bayrağına ehtiram bəslənməsi ilə bağlı aparılan məqsədyönlü və kompleks işlərin məntiqi nəticəsi olaraq indi Azərbaycanın üçrəngli bayrağı müxtəlif mötəbər beynəlxalq tədbirlərdə, o cümlədən ən nüfuzlu idman yarışlarında yüksəklərdə dalğalanır. Bu da Azərbaycan dövlətinin gücünün və durmadan artan nüfuzunun əyani göstəricisidir. Təqdirəlayiq haldır ki, hər bir azərbaycanlı Vətənimizin bayrağının əbədiliyi və daim ucalarda dalğalanması naminə əlindən gələni əsirgəmir. Ağcabədi rayonunda bir il ərzində tikilmiş bayraq muzeyi də dövlət bayrağımızın tarixi haqqında dolğun məlumatlarla zəngindir.

Dövlətimizin başçısı muzeydə yaradılan şəraitlə tanış oldu.

Muzeyin sərgi zalında ümumilikdə üç bölmə yaradılıb. Burada Azərbaycanda xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçülərin geyimləri, müxtəlif dövrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin bayraqları, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid sənədlər, Azərbaycan SSR-in və müstəqil respublikamızın konstitusiyaları, dövlət atributları, Ulu Öndərimizin dövlət rəmzləri haqqında kəlamları, poçt markaları, orden və medallar nümayiş olunur.

Muzeyin ikimərtəbəli binasında akt və konfrans zalları, elektron kitabxana və digər inzibati otaqlar yaradılıb.

Yeni muzeyin yerləşdiyi Bayraq Meydanı da gözəlliyi ilə diqqəti cəlb edir. Son vaxtlar meydan genişləndirilib, burada yenidənqurma işləri görülüb. Meydanda hündürlüyü 65 metr olan bayraq dirəyinin postament hissəsi abadlaşdırılıb, ətrafda yaşıllıq zolaqları salınıb. Burada quraşdırılan yeni işıqlandırma sistemi və fəvvarə də ərazinin gözəlliyini daha da artırıb.

*28 noyabr 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV TƏRTƏR TARİX-DİYARŞÜNASLIQ MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, Tərtər Tarix-Diyarşünaslıq Muzeyi 1982-ci ildə fəaliyyətə başlayıb və müxtəlif illərdə köhnə, uyğunlaşdırılmış binalarda yerləşdirilib. Ötən il muzey üçün yeni binanın inşasına başlanılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri artıq başa çatdırılıb. İkimərtəbəli binada iki ekspozisiya zalı var. Bu zallarda “Təbiət”, “Arxeologi-

ya", "Qafqaz Albaniyası", "Orta əsrlər", "Misgərlik", "XIX əsr", "Azərbaycan milli geyimləri", "Ənənəvi ev", "Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan SSR dövrü", "Azərbaycan müstəqillik dövrü", "Qarabağ münaqişəsi" adlı bölmələr qurulub.

Muzeydə ümumilikdə 2000 eksponat var ki, onlardan 250-si ekspozisiya zalında nümayiş olunur. Bütün bunlar onu göstərir ki, ölkədə muzey işinin təşkilində əhəmiyyətli uğurlar qazanılıb. Gənc nəslin tarixi keçmişimizə maraq göstərməsini təmin etmək, onların vətənpərvərlik ruhunda tərbiyəsi baxımından muzeylərin böyük rolunu nəzərə alaraq bu sahədə tədbirlərin daha da gücləndirilməsinə xüsusi diqqət göstərilir. Bu məsələdə Tərtər Tarix-Diyarşünaslıq Muzeyi mühüm rol oynayır. Muzeydə 40 yerlik konfrans zalı, elmi araşdırmalar şöbəsi üçün otaq da yaradılıb.

***28 noyabr 2017-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QUBA BAYRAQ MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 7-də Quba Bayraq Muzeyinin açılışında iştirak ediblər.

Prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, muzeyin inşasına 2017-ci ilin martında başlanılıb və tikinti işləri noyabr ayında başa çatdırılıb. Muzey binası sərgi zalından, inzibati və yardımçı otaqlardan ibarətdir. Sərgi zalında ümumilikdə 6 bölmə yaradılıb. Burada Azərbaycanın xanlıqlar dövrünün xəritəsi, xanlıqların bayraqları, orta əsrlərə aid döyüşçüləri əks etdirən manikenlər, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar nümayiş olunur. Muzeydə nümayiş olunan Azərbaycan Xalq Cümhuriyyətinə aid sənədlər, Azərbaycanın SSR və müstəqillik dövrlərində qəbul olunmuş konstitusiyaları, gerblər, bayraqlar, poçt markaları, orden və medallar da böyük maraqla qarşılanır.

Muzey Quba Bayraq Meydanında yerləşir. Meydanın ərazisi də abadlaşdırılıb və yaşıllıq sahələri salınıb. İndi bu ərazi də şəhərin gözəl və maraqlı yerlərindən birinə çevrilib.

Qeyd edək ki, bu cür layihələrin icrası Azərbaycanda dövlət atributlarına yüksək diqqət və qayğını aydın şəkildə nümayiş etdirir. Belə muzeylər gənc nəsildə vətənpərvərlik hisslərinin aşılanması, onlarda dövlət rəmzlərinə, o cümlədən üçrəngli bayrağımıza olan məhəbbətin daha da artırılmasında mühüm rol oynayır.

Azərbaycanda dövlət atributlarına, o cümlədən üçrəngli, ay-ulduzlu bayrağımıza hörmət, sevgi və ehtiram ümummilli lider Heydər Əliyevin bizə ən böyük əmanətidir. Azərbaycanın şanlı bayrağının ucalarda dalğalanması üçün dahi şəxsiyyət tarixi işlər görüb. Məhz Ümummilli Liderin səyləri nəticəsində bayrağımız ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə bərpa edilərək muxtar respublikanın dövlət bayrağı kimi qəbul edilib. Prezident İlham Əliyev də dövlət atributlarına xüsusi diqqətlə yanaşır. Təsadüfi deyil ki, bu gün ölkəmizdə həyata keçirilən dövlət siyasətində millilik, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi xüsusi yer tutur. Bu baxımdan paytaxtla yanaşı, bölgələrimizdə də müvafiq tədbirlər görülür. Belə işlər arasında Bayraq meydanları və muzeylərinin yaradılmasının böyük əhəmiyyəti var. Qubada yaradılan Bayraq Muzeyi də bu mənada xüsusi önəm daşıyır.

***7 dekabr 2017-ci il***

# PREZİDENT İLHAM ƏLİYEV "AZƏRXALÇA" ASC-NİN QUBA FİLİALININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 7-də "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Quba filialının açılışında iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva filialın rəmzi açılışını bildirən lenti kəsdilər.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya burada görülən işlərlə bağlı ətraflı məlumat verdi. Bildirildi ki, "Azərxalça" ASC-nin Quba filialının binasının ümumi sahəsi 1300 kvadratmetrdir. Burada 150 toxucu və 12 inzibati-təsərrüfat işçisi çalışacaq. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və digər bölmələrdən ibarətdir. Emalatxanadakı müxtəlif ölçülü 43 dəzgahda əsasən Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran rayonlarının kəndlərində hazırlanmış tarixi və orijinal Şirvan çeşniləri əsasında xalçaların toxunmasına üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikanın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib.

Dövlətimizin başçısına məlumat verildi ki, buradakı toxucular Quba şəhərinin və rayonun ayrı-ayrı kəndlərinin sakinləridir. Onlar bir neçə ay ərzində "Azərxalça"nın hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursun məzunları "Azərxalça" ASC-nin tədris sertifikatını alacaqlar. Filialın xalça-satış salonunda isə "Azərxalça" ASC-də toxunan xalça və xalça məmulatlarının sərgisi və satışı həyata keçiriləcək.

Qeyd edək ki, Azərbaycan xalçaları bütün dövrlərdə dünyanı heyran qoyub. Bu baxımdan milli naxışlarımızın şöhrəti dünyanı qarış-qarış gəzib, daim böyük diqqətə səbəb olub. Buna görə də hazırda Azərbaycanda xalçaçılığın inkişafına xüsusi diqqət yetirilir. Dövlətimizin başçısının həmin sahənin daha da inkişafı ilə bağlı qəbul etdiyi qərarlar isə bu baxımdan xüsusilə əhəmiyyətlidir. Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərxalça" ASC-nin yaradılması bu istiqamətdə dövlət tərəfindən görülən işlərin məntiqi davamıdır. Bu qurumun əsas məqsədi xalça və xalça məmulatlarının istehsalı, ixracı, onların ölkə daxilində və xaricdə satışının təşkilidir. Bununla yanaşı, "Azərxalça" ASC xalça və xalça məmulatlarının istehsalında yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsini də qarşısına məqsəd qoyub. İlkin mərhələdə "Azərxalça"nın bir neçə rayonda filiallarının yaradılması nəzərdə tutulurdu. ASC-nin ilkin mərhələdə yaradılması nəzərdə tutulan 10 filialından ikisi - Füzuli və Şəmkir rayon filialları artıq tam gücü ilə fəaliyyət göstərir. Hər iki filialın Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilməsi dövlətimizin başçısının bu sahəyə göstərdiyi diqqətin nümunəsidir. Hazırda digər filialların binalarının tikintisi davam etdirilir. Bundan başqa, yerlərdə "Azərxalça"nın xalçaçılıq üzrə hazırlıq-tədris kursları, ustad dərsləri təşkil edilib, işçi potensialının öyrənilməsi və gücləndirilməsi üçün müvafiq tədbirlər görülüb. Bütün bu işlər Azərbaycanda xalçaçılığın inkişafına böyük təkan verəcək, həmin sahəni stimullaşdıracaq, gənclər arasında xalçaçılığa olan marağı daha da artıracaq.

Sonra dövlətimizin başçısı filialın xalçaçıları ilə görüşüb söhbət etdi.

**Prezident İlham Əliyev:** Sizi yeni xalça fabrikinin açılışı münasibətilə təbrik edirəm. Bu, çox gözəl hadisədir. Azərbaycanın qədim xalçaçılıq sənəti var. Ölkəmizin müxtəlif bölgələrində özünəməxsus xalçaçılıq əsərləri mövcuddur. Bu da bizim milli sərvətimizdir. Quba da həmişə xalçaçılıq mərkəzlərindən biri olub. Qubanın xalçaları həm ölkəmizin, həm də xarici ölkələrin muzeylərində nümayiş etdirilir. Yəni, Qubada həmişə çox güclü xalçaçılıq ənənələri olmuşdur. Hazırda Qubada xalça istehsal edən bir neçə müəssisə fəaliyyət göstərir. Onlardan biri də "Azərxalça"nın bu fabrikidir. Biz "Azərxalça"nı bu yaxınlarda yaratmışıq. Artıq "Azərxalça"nın xətti ilə on fabrik istifadəyə verilib. Mən Horadiz və Şəmkir xalça fabriklərinin açılışlarında olmuşam. Bu gün biz bu fabrikin açılışını qeyd edirik. Eyni zamanda, yeddi digər fabrik fəaliyyətdədir. Gələn il isə ölkəmizin müxtəlif yerlərində əlavə on xalça fabriki açılacaq. Beləliklə, 20 yeni xalça fabriki işə düşəcək.

Bu fabriklərdə işləyənlərin mütləq əksəriyyəti qadınlardır. Burada qadınlar üçün də yaxşı iş şəraiti yaradılıb. Qadınların məşğulluğu bizim üçün çox vacibdir. Xalçaçılıq qadın sənətidir. Bəli, qadınlar bu sənəti yaşadırlar. Hər fabrikdə təqribən 150 iş yeri yaradılır və 20 fabrikdə ən azı üç min qadın işlə təmin olunacaq.

Xalçaçılıq bizim milli sərvətimizdir. Siz bu sərvəti qoruyursunuz, bu sənəti yaşadırsınız. Biz də kömək edirik ki, bu sənət daimi olsun və nəsildən nəslə davam etsin.

**Xalçaçı qadın:** Çox sağ olun, bütün bunlar Sizin sayənizdədir. Allah Sizdən razı olsun. Bu sənət bizə nənələrimizdən miras qalıb.

**Prezident İlham Əliyev:** Bəli, onlar sizi öyrədiblər, siz də gəncləri öyrədirsiniz. Mən burada gəncləri də görürəm. Buna da çox sevinirəm. Yəni, bu sənətə çox böyük maraq var. Ölkəmizin dünyada təbliği işində xalçaçılıq bəlkə də ən öndə gedən sənətlərdən biridir. Eyni zamanda, xalçaçılıq sənəti iqtisadi cəhətdən də ölkəmizi gücləndirir. Çünki bu, ixrac məhsuludur. Biz çalışmalıyıq və çalışırıq ki, qeyri-neft ixracını artıraq. Əlbəttə ki, ilk növbədə, sənayenin, kənd təsərrüfatının, eyni zamanda, xalçaçılığın inkişafı bizə belə bir imkanlar yaradacaq.

Biz, eyni zamanda, Sumqayıtda əyirici-boyaq fabrikinin açılışına da hazırlaşırıq. Yəni, elə etməliyik ki, bütün xammal daxildə istehsal olunsun. Boyalar, iplər, hətta bütün dəzgahlar, yun tədarükü olacaq. Ona görə bugünkü hadisə çox böyük məna daşıyır. Biz gərək xalçaçılığı bərabər qoruyaq. Sizi təbrik edirəm.

**Xalçaçı qadın:** Cənab Prezident, çox hörmətli Mehriban xanım, Sizi Qubada görməyimizə çox şadıq. Xoş gəlmisiniz. Biz çox sevinirik ki, Quba rayonunda çoxlu müəssisələr, iş yerləri açmısınız, çox səy göstərmisiniz. Buna görə biz çox sevinirik, Sizə çox minnətdarıq.

Mən özüm 45 ildir toxucuyam, qızım, gəlinlərim də toxucudur, çoxlu sayda yetirmələrim var. Hamısı da bu sənəti sevə-sevə davam etdirirlər. Bizə diqqət göstərdiyinizə, belə yüksək şəraitə görə Sizə çox minnətdarıq. Çox sağ olun.

**Prezident İlham Əliyev**: Burada gənclər də öyrənirlər?

**Xalçaçı qadın:** Gənclər də öyrənirlər. Bildiyimizi gənclərə öyrədirik, əsirgəmirik.

**Prezident İlham Əliyev:** Çox yaxşı.

**Digər xalçaçı qadın:** Cənab Prezidentimiz, hörmətli Mehriban xanım, xoş gəlmisiniz. Çox sağ olun ki, bizim bu gözəl rayonumuza gözəllik qatdınız. Allah Sizdən razı olsun. Bizim gözəl gənclərimiz Sizin sayənizdə toxuculuq müəssisəsinə həvəslə gəlib işləyirlər. Mən özüm gənc toxucuyam, bu kurslara yeni başlamışam. Çox sağ olun ki, bizim üçün belə gözəl, isti, işıqlı şəraiti olan müəssisəni açmısınız. Allah Sizdən razı olsun. Bu gün "ASAN xidmət"imizin də açılışı oldu. Çox sağ olun ki, rayonumuzda belə gözəl şərait yaradırsınız.

**Prezident İlham Əliyev:** "ASAN xidmət" Quba və qonşu rayonlara xidmət göstərəcək, 500 min vətəndaşa xidmət göstərəcək. İndicə o mərkəzin açılışı olubdur. Məsləhət görürük ki, siz də gedib bu mərkəzin xidmətlərindən istifadə edəsiniz. Orada əhaliyə çox

gözəl xidmət göstəriləcək. Orada 170, burada isə 150 iş yeri yaradılıb. İş yerlərinin yaradılması prosesi belə davam etməlidir. Orada da işləyənlərin əksəriyyəti qadınlardır. Biz çalışırıq ki, qadınların məşğulluq məsələlərini həll edək.

**Xalçaçı qadınlar:** Çox sağ olun, çox minnətdarıq. Allah Sizi qorusun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*7 dekabr 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarəti mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və Ulu Öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətlərdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün il boyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıdan, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınan böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 14-cü ildönümü günü – dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nü-

mayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın Ümummilli Liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirlər.

*12 dekabr 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV SUMQAYITDA BAYRAQ MUZEYİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıtda Bayraq Muzeyinin açılışında iştirak edib.

Prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Muzeylə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, binanın inşasına 2017-ci ilin fevralında başlanılıb və sentyabr ayında tikinti işləri başa çatdırılıb. İnşaat işləri yüksək keyfiyyətlə aparılıb. Ümumi ərazisi 10 min kvadratmetr olan muzeyin üçmərtəbəli binasında iki sərgi zalı, inzibati və yardımçı otaqlar yaradılıb. Sərgi zallarında 6 bölmə fəaliyyət göstərəcək. Burada Azərbaycan xanlıqlar dövrünün xəritəsi, bayraqları, orta əsrlərə aid döyüşçüləri əks etdirən manikenlər nümayiş olunur. Muzeyin eksponatları arasında XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid sənədlər, keçmiş Azərbaycan SSR-in və müstəqil Azərbaycan Respublikasının konstitusiyaları, gerblər, bayraqlar var. Ekspozisiyalarda müxtəlif illərə aid poçt markaları, orden və medallar da nümayiş olunur.

Bayraq Muzeyi Sumqayıt Dənizkənarı Bulvarın ərazisində yerləşir. Muzeyin məhz bu ərazidə inşa edilməsi şəhər sakinləri ilə yanaşı, qonaqların da buradakı eksponatlarla tanış olmalarına imkan yaradır.

Prezident İlham Əliyevə məlumat verildi ki, bulvarın sahilində gəmilərin yanalması üçün uzunluğu 800 metr olan körpü inşa edilib. Burada 10 metr hündürlüyündə estakada salınıb. Ərazidə müasir işıqlandırma sistemi və oturacaqlar quraşdırılıb.

Qeyd edək ki, bu cür muzeylərin yaradılması gənc nəsildə vətənpərvərlik hisslərinin aşılanması, onların Vətənə, dövlətə məhəbbət ruhunda yetişməsi və bir şəxsiyyət kimi formalaşması məsələsində mühüm rol oynayır.

*15 dekabr 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SUMQAYITDA "KİMYAÇI" MƏDƏNİYYƏT SARAYINDA ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Dövlət Neft Şirkətinin "Azərikimya" İstehsalat Birliyinin Müşahidə Şurasının sədri Muxtar Babayev görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi.

Bildirildi ki, Sumqayıtda "Kimyaçı" Mədəniyyət Sarayı 1986-cı ildə istifadəyə verilib. 2011-ci ildə Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfəri zamanı "Kimyaçı" Mədəniyyət Sarayının mövcud vəziyyəti ilə tanış olub, bu mədəniyyət ocağının əsaslı şəkildə yenidən qurulması ilə bağlı tapşırıqlar verib. 2013-cü ilin oktyabr ayında isə burada əsaslı təmir işlərinə başlanılıb. Elə həmin il dövlətimizin başçısı Sumqayıta səfəri zamanı Mədəniyyət Sarayında və ətraf ərazidə aparılan abadlıq-quruculuq işləri ilə tanış olub. Ye-

nidənqurma işləri bu ilin sentyabr ayında tam başa çatdırılıb. Sarayın yenidən qurulması işləri yüksək keyfiyyət və müasir dizaynla yerinə yetirilib. Üçmərtəbəli binanın ümumi sahəsi 6900 kvadratmetrdir. Saraydakı 750 tamaşaçı yerlik konsert zalı yüksək səviyyədə qurulub. Zalın yenidən qurulması zamanı müasir akustik sistemlərdən istifadə olunub. Həmçinin binada qonaq, qrim və rejissor otaqları yaradılıb. Sahəsi 270 kvadratmetr olan rəqs zalı, kafe və dərnək otaqları da mədəniyyətsevərlərin ixtiyarına verilib.

"Kimyaçı" Mədəniyyət Sarayında təsviri və tətbiqi incəsənət, əl ilə toxuma dərnəkləri fəaliyyət göstərir.

Dövlətimizin başçısına Mədəniyyət Sarayındakı xalça qobelen haqqında da məlumat verildi. Bildirildi ki, müəllifi Xalidə Seyidova olan bu xalça 1980-ci ildə toxunub. Yun tərkibli xovsuz toxunuşlu, sadə və mürəkkəb keçirtmə əl işi olan xalça bir-birinə birləşdirilmiş altı hissədən ibarətdir. Ara sahənin üzərində Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinin və mədəniyyət xadimlərinin portretləri, Qobustan qayaüstü təsvirlər, xalça naxışları təsvir olunub.

Prezident İlham Əliyev sumqayıtlı sənətkarların əl işləri ilə tanış oldu.

Sarayda xanəndəlik, zərb alətləri, rəqs, instrumental ifaçılıq dərnəkləri də fəaliyyət göstərir.

Azərbaycan zəngin mədəniyyəti ilə həmişə fəxr edib. Azərbaycanın mədəni dəyərləri dünya mədəniyyətinin ayrılmaz parçasıdır. Son illərdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycanda mədəniyyət sahəsinin inkişafı istiqamətində çox mühüm və tarixi işlər görüblər. Bu baxımdan yeni mədəniyyət ocaqlarının yaradılması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması ilə bağlı layihələrin coğrafiyası son illərdə daha da genişlənib. "Azərikimya" İstehsalat Birliyinin "Kimyaçı" Mədəniyyət Sarayının əsaslı şəkildə yenidən qurulması da bu işlərin ardıcıl surətdə davam etdirilməsini nümayiş etdirir.

Mədəniyyət Sarayının qarşısındakı 5 hektarlıq meydanda geniş abadlıq-quruculuq və yaşıllaşdırma işləri aparılıb, kommunikasiya xətləri və işıqlandırma sistemi yenidən qurulub. Burada fəvvarə və 100 avtomobil yerlik dayanacaq yaradılıb.

***15 dekabr 2017-ci il***

## PREZİDENT İLHAM ƏLİYEV LÜDVİQŞAFEN PARKINDA ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıta səfəri çərçivəsində şəhərin Lüdviqshafen parkında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

Son illərdə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi, regionların simasına yeni elementlərin daxil olması ilə müşayiət olunur. Ölkəmizin bütün bölgələrində müasir səviyyədə ictimai yerlərin, bulvarların, parkların və xiyabanların yaradılması tədbirləri davam etdirilir. Bu proses Sumqayıtda da geniş vüsət alıb. Bu sahədə görülən işlər sakinlərin rahatlığı, asudə vaxtlarının daha da səmərəli təşkili məqsədi daşımaqla yanaşı, müasirləşən Sumqayıtın gözəlliyinə əlavə çalarlar qatır.

Sumqayıtın Lüdviqshafen parkında geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb. Burada aparılan yenidənqurma işləri ərazinin gözəlliyini daha da artırır. Görülən bu işlər sakinlərin və şəhərə gələn qonaqların rahatlığı üçün müasir istirahət

guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir. Yeni parkların, istirahət məkanlarının və guşələrinin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması Sumqayıtın daha da gözəlləşməsi işinin davamlı xarakter almasından və ümumilikdə şəhərin sosial-iqtisadi inkişafından xəbər verir.

Şəhərin 9-cu mikrorayonunun ərazisində yerləşən Lüdviqshafen parkı müasir səviyyədə yenidən qurulub. Bu istirahət məkanı Sumqayıt şəhəri ilə qardaşlaşmış Almaniyanın Lüdviqshafen şəhərinin şərəfinə salınıb.

Onu da deyək ki, Lüdviqshafen şəhərində də Sumqayıt parkı mövcuddur. Bu park 1997-ci ildə Sumqayıt-Lüdviqshafen əlaqələrinin 20 illiyi münasibətilə salınıb. Ümumi ərazisi 2 hektar olan parkda sakinlərin istirahəti üçün geniş imkanlar yaradılıb. Yenidənqurma işləri zamanı müasir işıqlandırma sistemi yaradılıb, yaşıllıq zolaqları salınıb, dekorativ ağaclar və gül kolları əkilib. Bu park Sumqayıtın gəzməli yerlərinə daha bir ünvan əlavə edib. Mövcud istirahət mərkəzlərinin, parkların, xiyabanların yenidən qurulması, yeni istirahət guşələrinin açılması, ilk növbədə, sosial layihədir. Bununla yanaşı, belə layihələrin icrası ölkəmizin iqtisadi potensialını nümayiş etdirir.

***15 dekabr 2017-ci il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XALQ RƏSSAMI ÖMƏR ELDAROVA "HEYDƏR ƏLİYEV" ORDENİ TƏQDİM ETMİŞDİR

Prezident İlham Əliyev Xalq Rəssamı, heykəltəraş Ömər Eldarovu qarşıdan gələn yubileyi münasibətilə təbrik etdi, ona yeni yaradıcılıq uğurları arzuladı. Ömər Eldarovun sənətinin artıq neçə onilliklərdir hamımızı sevindirdiyini deyən dövlətimizin başçısı onun yaratdığı əsərlərin xalqımızın maddi-mədəniyyət nümunəsinə çevrildiyini bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Ömər Eldarovun yaratdığı əsərlər ölkəmizdə, həmçinin bir çox keçmiş sovet respublikalarında məşhurdur. Ulu öndər Heydər Əliyevin Ömər Eldarovun sənətini hər zaman yüksək qiymətləndirdiyini deyən dövlətimizin başçısı onun yaratdığı əsərlərin yüksək mədəniyyət nümunəsi olduğunu vurğuladı. Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin və görkəmli alim, akademik Zərifə Əliyevanın, həmçinin Azərbaycan mədəniyyətinin bir sıra məşhur simalarının – Məhəmməd Füzulinin, Natəvanın, Hüseyn Cavidin, Üzeyir Hacıbəylinin, Niyazinin və digərlərinin abidələrinin müəllifi olan Ömər Eldarovun ölkəmizin hüdudlarından uzaqlarda da tanındığını, onun yaratdığı abidələrin xarici ölkələrdə də ucaldıldığını məmnunluqla qeyd etdi. Ömər Eldarovun Rəssamlıq Akademiyasının rektoru kimi də fəaliyyətini yüksək qiymətləndirildiyini deyən Prezident İlham Əliyev gənc kadrların hazırlanmasında onun böyük rol oynadığını qeyd etdi. Dövlətimizin başçısı Ömər Eldarovun Vətəninə və xalqına ləyaqətlə xidmət etdiyini, dərin istedada malik şəxsiyyətinin böyük maraq doğurduğunu vurğuladı. Prezident İlham Əliyev Ömər Eldarovu fəaliyyətinin və xidmətlərinin dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirildiyini, 1997-ci ildə xalqımızın Ümummilli Lideri tərəfindən "İstiqlal" ordeni ilə, 2009-cu ildə Heydər Əliyev mükafatı ilə, 2012-ci ildə "Şərəf" ordeni ilə təltif olunduğunu dedi, indi isə Azərbaycanın ən yüksək mükafatına – "Heydər Əliyev" ordeninə layiq görüldüyünü bildirdi, ona fəaliyyətində yeni uğurlar arzuladı və mükafatı Ömər Eldarova təqdim etdi.

Xalq Rəssamı, heykəltəraş Ömər Eldarov onun fəaliyyətini yüksək qiymətləndirdiyinə və "Heydər Əliyev" ordeni ilə təltif etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürü-

nü bildirdi və bundan qürur duyduğunu dedi. Ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini dərin ehtiramla yad edən Ömər Eldarov Ümummilli Liderin bir çox abidələrinin müəllifi olmaqdan şərəf hissi duyduğunu vurğuladı və qeyd etdi ki, bundan sonra da xalqımıza və Vətənimizə öz yaradıcılığı ilə xidmət göstərməkdə davam edəcək.

*20 dekabr 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV ISESKO-NUN BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR

ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri Bakıda keçirilən "2017 – İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransın yüksək səviyyədə təşkilinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Konfransın əhəmiyyətini vurğulayan Əbdüləziz Osman əl-Tuveycri tədbirdə müxtəlif ölkələrdən ayrı-ayrı dinlərin nümayəndələrinin iştirakının önəmini qeyd etdi. ISESCO-nun baş direktoru bildirdi ki, Prezident İlham Əliyevin konfransdakı dərin məzmunlu nitqi böyük əhəmiyyət daşıyır.

Prezident İlham Əliyev xoş sözlərə görə təşəkkürünü bildirdi və Əbdüləziz Osman əl-Tuveycrinin konfransda iştirakının və çıxışının önəmini qeyd etdi. Dövlətimizin başçısı Əbdüləziz Osman əl-Tuveycrinin konfransdakı çıxışı zamanı və eləcə də digər tədbirlərdə hər zaman Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı nümayiş etdirdiyi ədalətli mövqeyi yüksək qiymətləndirdi.

ISESCO-nun baş direktoru bildirdi ki, Azərbaycanda gedən hərtərəfli, davamlı inkişaf prosesləri və Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə əldə olunan möhtəşəm uğurlar İslam dünyasında və ondan kənarda böyük maraqla qarşılanır.

Görüşdə Azərbaycan ilə ISESCO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi və əlaqələrimizin bundan sonra daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

*21 dekabr 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "2017-İSLAM HƏMRƏYLİYİ İLİ: DİNLƏR VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQ" KONFRANSININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə elan edilən "İslam Həmrəyliyi İli"nin yekunlaşması ilə bağlı keçirilən konfrans Qafqaz Müsəlmanları İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən birgə təşkil olunub.

Beynəlxalq konfransın açılışında 40-a yaxın ölkədən 150-dək nümayəndə, o cümlədən tanınmış dövlət, din və elm xadimləri, 8 beynəlxalq təşkilatın rəhbərləri və təmsilçiləri, müxtəlif ölkələrin dövlət başçılarının xüsusi nümayəndələri, dini konfessiya rəhbərləri, hökumətin və parlamentin üzvləri, diplomatik korpusun və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Konfrans müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başladı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda nitq söylədi.

# PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli din xadimləri.

Hörmətli xanımlar və cənablar.

Bildiyiniz kimi, 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilmişdir. İl ərzində Azərbaycanda və bir çox ölkələrdə beynəlxalq konfranslar, tədbirlər keçirilmişdir. Sonuncu beynəlxalq konfrans isə bu gün Bakıda öz işinə başlayır. Mən konfransda iştirak etmək üçün ölkəmizə gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram, onlara "Xoş gəlmisiniz!" deyirəm. Qeyd etməliyəm ki, bu gün konfransda 40-a yaxın ölkədən 150-dək xarici qonaq iştirak edir. Hörmətli qonaqlarımızın iştirakı bu konfransın və bu mövzunun əhəmiyyətini bir daha göstərir.

Azərbaycan İslam həmrəyliyi işinə böyük töhfələr verir. Bu məsələ bizim üçün prioritet məsələlərdən biridir. Azərbaycan qədim tarixə malik olan bir ölkədir. Azərbaycan xalqı əsrlər boyu öz milli mənəvi dəyərlərini yaşatmış, qorumuşdur. İslam dəyərləri isə milli mənəvi dəyərlərimizin tərkib hissəsidir. Ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün ölkəmizi gücləndirən amillərdən biridir.

Xalqımız qədim tarixə malikdir. Bizim dini memarlıq abidələrimiz bunun əyani sübutudur. Biz fəxr edirik ki, müsəlman aləminin ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş, Azərbaycan xalqı tərəfindən qorunmuş və bir neçə il bundan əvvəl əsaslı şəkildə bərpa edilmiş Şamaxı Cümə məscidi bizim böyük sərvətimizdir. Bu məscid onu göstərir ki, Azərbaycan qədim müsəlman diyarıdır. Bizim digər tarixi dini abidələrimiz də milli sərvətimizdir.

Azərbaycan beynəlxalq aləmdə müsəlman ölkələri ilə çox yaxın münasibətlər qura bilmişdir. Biz cəmi 26 ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Bu illər ərzində ikitərəfli və üçtərəfli formatlarda, beynəlxalq təşkilatlar çərçivəsində müsəlman ölkələri ilə əlaqələrimiz inkişaf edir, gündən-günə güclənir. Biz BMT-də və digər beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Keçən il İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı çox önəmli qətnamə qəbul edilmişdir və Kontakt Qrupu yaradılmışdır. Onu da qeyd etməliyəm ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının çox fəal üzvüdür, ölkəmizdə bir çox konfranslar, tədbirlər keçirilmişdir. Azərbaycanın təşəbbüsü ilə İƏT-in Gənclər Forumu, Əmək Mərkəzi və Jurnalistlər Assosiasiyası yaradılmışdır. Eyni zamanda, Azərbaycan ISESCO-nun fəal üzvüdür. ISESCO İslam aləminin təhsil, elm, mədəniyyət təşkilatıdır və bu təşkilat çərçivəsində Azərbaycan çox uğurlu fəaliyyət göstərir. Beləliklə, ISESCO və bütün müsəlman aləmi Azərbaycana daim diqqət və dəstək göstərir. Bir neçə il bundan əvvəl ISESCO tərəfindən Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı elan edilmişdir və bir il ərzində ölkəmizdə, Bakıda bir çox tədbirlər keçirilmişdir. Qeyd etməliyəm ki, gələn il isə bizim digər qədim şəhərimiz – Naxçıvan İslam mədəniyyəti paytaxtı adına layiq görülübdür.

Ölkə daxilində İslam həmrəyliyi tam təmin olunubdur. Biz çalışırıq və çalışmalıyıq ki, bütün müsəlman aləmində birlik, həmrəylik təmin olunsun. Azərbaycan bu istiqamətdə öz töhfəsini verir, önəmli addımları atır. Bizim beynəlxalq təşkilatlar çərçivəsində və dünya gündəliyində duran məsələlərin həlli işində onlara münasibətimiz bir daha göstərir ki, İslam həmrəyliyi bizim üçün, sadəcə olaraq, bir şüar deyil, bizim üçün bu, əsas istiqamətlərdən biridir.

Bununla bərabər, Azərbaycanda bütün dinlərin nümayəndələri eyni, bərabər hüquqlara malikdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır, heç bir ayrı-seçkilik yoxdur, olmayıb və ola da bilməz. Bu, bizim böyük sərvətimizdir.

Ölkəmizdə dinlərarası, mədəniyyətlərarası dialoqla bağlı bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunu qeyd edə bilərəm. Bir neçə dəfə keçirilmiş və ənənəvi xarakter alan Mədəniyyətlərarası Dialoq Forumu və Bakı Humanitar Forumu da, ilk növbədə, öz işini dinlərarası, mədəniyyətlərarası dialoqa həsr etmişdir. Belə beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsi təbiidir. Çünki ilk növbədə, Azərbaycan sivilizasiyalar arasında həmişə müsbət rolunu oynayıb və Asiya ilə Avropa arasında həm coğrafi, həm mədəni və bu gün siyasi baxımdan bir körpü rolunu oynayır. Digər tərəfdən, Azərbaycan o ölkələrdəndir ki, burada dini, milli zəmində heç bir problem yoxdur, heç bir - hətta kiçik bir anlaşılmazlıq yoxdur. Əksinə, Azərbaycanda yaşayan bütün millətlər, bütün dinlərin nümayəndələri bizim dəyərli vətəndaşlarımızdır və ölkəmizin ümumi inkişafına öz töhfələrini verirlər. Ona görə məhz Azərbaycanın dinlərarası dialoq işində fəal olması təbiidir.

Mən bir daha qeyd etmək istəyirəm ki, ölkə daxilində bu məsələlər ən yüksək səviyyədə həllini tapıbdır. Biz istəyirik ki, həm müsəlman aləmində, həm Avropada, ümumiyyətlə, dünyada dinlərarası dialoq güclənsin. Əfsuslar olsun ki, son vaxtlar biz tam əks mənzərə ilə üzləşirik - dözümsüzlük, islamofobiya, ksenofobiya, antisemitizm artır. Bu, bəşəriyyət üçün böyük təhlükədir və böyük bəladır. Din xadimlərinin, ictimai xadimlərin, siyasətçilərin, geniş ictimaiyyətin bu məsələ ilə bağlı fikri və mövqeyi əlbəttə ki, dünya ictimaiyyəti üçün də çox önəmlidir. Bakıdan, yüksək mötəbər kürsülərdən dəfələrlə dünyaya çağırış edilmişdir ki, dinlərarası münasibətlər hər bir ölkə üçün önəmlidir. Dünyada əksər ölkələr çoxmillətli və çoxkonfessiyalı ölkələrdir. Belə olan halda bu mövzu vətəndaş sülhü, vətəndaş həmrəyliyi üçün, hər bir ölkə üçün xüsusi əhəmiyyət kəsb edir. Biz öz tərəfimizdən ölkə daxilində bütün məsələləri ən yüksək səviyyədə həll edirik. Eyni zamanda, əminəm ki, bölgədə və dünyada Azərbaycan təcrübəsi öyrənilir.

Azərbaycan keçən ili "Multikulturalizm İli" elan etmişdi. Multikulturalizm bizim dövlət siyasətimizdir, eyni zamanda, həyat tərzimizdir. Azərbaycanda yaşayan bütün dinlərin, millətlərin nümayəndələri bunu təsdiq edə bilərlər. Multikulturalizmin alternativi yoxdur. Alternativ dünyanı, ölkələri sarsıdan çox təhlükəli meyillər - islamofobiya, ksenofobiya, antisemitizmdir. Dünya Azərbaycanın timsalında görür ki, multikulturalizm yaşayır. Lakin multikulturalizmlə bağlı bəzən çox bədbin fikirlər səslənir, özü də yüksək səviyyədən. Buna baxmayaraq, biz hamımız çalışmalıyıq ki, bu ülvi dəyərləri qoruyaq, möhkəmləndirək. Multikulturalizm hər bir ölkə üçün adi hala çevrilməlidir.

Qeyd etdiyim kimi, Azərbaycanın İslam ölkələri ilə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində həm özəl münasibətləri var, həm də Azərbaycan bu təşkilat çərçivəsində fəal rol oynayır və böyük dəstəyə malikdir. Eyni zamanda, bizim Avropa ölkələri ilə də sıx əlaqələrimiz var. Avropa İttifaqına üzv 9 ölkə ilə Azərbaycan strateji tərəfdaşlıq sənədi imzalamışdır. Yəni, bu da Avropa İttifaqının üzvlərinin üçdəbir hissəsidir. Avropa İttifaqı ilə də bizim çox sıx əlaqələrimiz var. Bir sıra məsələlər ətrafında çox ciddi iş gedir və bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək saziş üzərində iş başlamışdır. Bu, bir daha ölkəmizin həm beynəlxalq gündəlikdə duran məsələlərə münasibətini, eyni zamanda, bizim siyasətimizi əks etdirir. Azərbaycan xalqı öz milli mənəvi köklərinə çox bağlıdır. Müstəqil Azərbaycan dövlətinin təməli məhz bu milli dəyərlərdir. Bizim milli dəyərlərimiz isə ümumbəşəri dəyərlərin tərkib hissəsidir. Həm coğrafi yerləşməyimiz, bizim tariximiz, sivilizasiyaların Azərbaycan ərazisindəki keçmişi və rolu, əlbəttə ki, Azərbaycanı, bax, dinlərarası, mədəniyyətlərarası dialoqun aparılmasında əvəzolunmaz ölkəyə çevirir.

Bir məsələni də qeyd etməliyəm ki, əlbəttə, bu istiqamətdə dövlət siyasəti aparılır və aparılacaq. Ancaq bizim bu istiqamətdəki siyasətimiz ictimai rəyə söykənir. Çünki

Azərbaycan cəmiyyəti, Azərbaycan xalqı bu duyğularla, bu fikirlərlə yaşayır. Bizim uğurlu inkişafımız göstərir ki, dinlərarası, millətlərarası münasibətlər lazımi səviyyədə olanda inkişaf da, sabitlik də olur və bütün Azərbaycan vətəndaşları gələcəyə də nikbinliklə baxırlar.

Bu il biz İslam Həmrəyliyi Oyunlarını yüksək səviyyədə keçirmişik. IV İslam Həmrəyliyi Oyunları Bakıda keçirilmişdir. Əllidən artıq ölkədən 3 mindən çox idmançı, minlərlə qonaq gəlmişdi. Bu, həm böyük idman yarışı idi, eyni zamanda, bu, bir dostluq bayramı, qardaşlıq bayramı idi. Bütün İslam ölkələrinin aparıcı idmançıları Bakıda idilər. Əlbəttə, biz fəxr edirik ki, Azərbaycan milli komandası bu yarışların qalibi oldu, birinci yerə layiq görüldü. Amma əsas məsələ bunda deyil. Əsas məsələ ondadır ki, bu Oyunlar bir daha göstərdi ki, İslam həmrəyliyi var və gənc nəsil gərək gələcəkdə bu gözəl dəyərləri daim dərk etsin və gücləndirsin. İki il bundan əvvəl isə Bakıda tarixdə ilk dəfə olaraq Avropa Oyunları keçirilmişdir. Digər qitə oyunlarından fərqli olaraq, Avropa Oyunları 2015-ci ilə qədər heç vaxt keçirilməmişdir. İlk Avropa Oyunları Azərbaycanda keçirilmişdir və Avropadan 5 mindən çox idmançı burada yarışırdı, minlərlə qonaq gəlmişdi. Azərbaycan komandası bu Oyunlarda ikinci yerə layiq görüldü.

Yəni, bu iki hadisə özlüyündə bir göstəricidir. Əlbəttə ki, bunlar böyük, möhtəşəm idman tədbirləri idi. Amma, eyni zamanda, həm Avropa, həm İslam Oyunlarının iki il ərzində bir şəhərdə, bir ölkədə keçirilməsi həm Avropa, həm İslam aləminin bizə olan münasibətini göstərir, həmçinin onu göstərir ki, bir daha dediyim fikirlərə qayıdıram - Azərbaycan sivilizasiyalar, dinlər və qitələr arasında nadir rol oynayır.

Digər önəmli təşəbbüs 2008-ci ildə Azərbaycan tərəfindən irəli sürülmüşdür. Bildiyiniz kimi, Azərbaycan, eyni zamanda, Avropa Şurasının üzvüdür. Biz belə qərara gəldik ki, Avropa Şurasının mədəniyyət nazirlərinin toplantısına İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini dəvət edək. Tarixdə ilk dəfə olaraq iki təşkilatın nazirləri Bakıda görüşdülər. Çox səmərəli görüş keçirilmişdir, çox səmimi fikir mübadiləsi aparılmışdır. Biz hesab etdik ki, bu təşəbbüsün davamı olmalıdır, yəni, bu, sadəcə olaraq, bir görüş olmamalıdır. Bu məqsədlə növbəti il biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin tədbirini keçirdik və Avropadan nazirləri dəvət etdik. Yəni, bu, artıq ənənəyə çevrildi və sonra bu təşəbbüsə "Bakı Prosesi" adı verildi. Bu gün "Bakı Prosesi" yaşayır, inkişaf edir. Gələn il biz "Bakı Prosesi"nin on illik yubileyini qeyd edəcəyik. "Bakı Prosesi" bütün beynəlxalq mötəbər təşkilatlar tərəfindən, xüsusilə BMT tərəfindən çox yüksək qiymətləndirilir. Bu, İslam Əməkdaşlıq Təşkilatı və Avropa Şurası arasında əlaqələrin inkişafı üçün dünya miqyasında nadir bir platformadır. Yenə də təşəbbüs Azərbaycan tərəfindən gəldi.

Əminəm ki, biz belə təşəbbüslərlə ümumi işimizə töhfə veririk. Ümumi məqsədimiz ondan ibarətdir ki, dünyada sülh, qarşılıqlı hörmət, qarşılıqlı anlaşma olsun, ölkələr bir-birinin işinə qarışmasın. Belə olan halda müharibələr də olmayacaq və bütün dünyada sülh bərqərar olacaq.

Azərbaycan gənc müstəqil dövlətdir. Müstəqilliyimizin cəmi 26 yaşı var. Müstəqilliyin ilk illəri çox ağır keçmişdir, çox faciəvi hadisələr baş vermişdir. 1993-cü ilə qədər Azərbaycan demək olar ki, idarəolunmaz vəziyyətdə idi. Ölkədə xaos, anarxiya, iqtisadi böhran hökm sürürdü, inflyasiya min faizlərlə ölçülürdü, bütün sənaye müəssisələrimiz, demək olar ki, fəaliyyətsiz qalmışdı və ölkənin inkişafı üçün perspektivlər çox qaranlıq idi. Bundan əlavə, o vaxtkı hakimiyyət Azərbaycanda vətəndaş müharibəsinə start verdi və qardaş qanı axıtdı. Mənfur qonşu Ermənistan bundan istifadə edərək torpaqlarımızın bir hissəsini işğal etmişdir. Yəni, Azərbaycan demək olar ki, uçurum kənarında idi. Belə vəziyyətdə Azərbaycan xalqı özünə xas olan müdriklik göstərərək böyük lider Heydər

Əliyevi hakimiyyətə dəvət etmişdir və 1993-cü ildən bu günə qədər Azərbaycan inkişaf və tərəqqi yolu ilə gedir. 1993-cü ildən başlanan siyasi, iqtisadi islahatlar, beynəlxalq arenada rolumuzun artması, ölkə daxilində bütün qanunsuz silahlı birləşmələrin tərksilah edilməsi, vətəndaş müharibəsinin dayandırılması, yeni Konstitusiyanın qəbul edilməsi və ölkəmizin strateji inkişafı ilə bağlı çox dəqiq qərarlar xalqımızı ağır vəziyyətdən çıxara bildi və bu gün də Azərbaycan uğurla inkişaf edir. Eyni zamanda, müstəqilliyin ilk illərində Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər də demək olar ki, pozulmuşdu. Yumşaq desək, bu sahədə, çox böyük səhvlər, dəqiq desək, cinayətlər törədilmişdir. Məhz Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra Azərbaycanda bu sahədə də dönüş yarandı, dövlət-din münasibətləri lazımi səviyyədə quruldu. Bu gün dövlət-din münasibətlərinin səviyyəsinə və mahiyyətinə görə Azərbaycan bir çox ölkələr üçün nümunə ola bilər.

Bu gün 26 ildir müstəqil dövlət kimi yaşayan Azərbaycan ayaqda möhkəm dayanır. Əlbəttə ki, bizim əsas problemimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bildiyiniz kimi, Ermənistan beynəlxalq birlik tərəfindən tanınan torpaqlarımızın 20 faizini 20 ildən çoxdur ki, işğal edib. Bu torpaqlardan bir milyondan çox vətəndaş qovulub, qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Ermənilər qanlı cinayət – Xocalı soyqırımını törətmişlər. Erməni quldurları tərəfindən 600-dən çox günahsız, dinc insan, onların arasında 100-dən çox qadın, 60-dan çox uşaq qətlə yetirilmişdir. Xocalı soyqırımını 10-dan çox ölkə artıq soyqırımı kimi tanıyıb.

BMT münaqişə ilə bağlı dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz geri çəkilməlidir. Ancaq bu qətnamələr kağızda qalıb. Bu qətnamələri qəbul edənlər bu məsələyə biganə qalırlar. Ermənistan da bundan istifadə edərək öz işğalçı siyasətini davam etdirir. İşğal edilmiş torpaqlarımızda bütün binalar dağıdılıb. Bizim tarixi, dini abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən dağıdılıb. Bu dağılmış məscidlərin fotoşəkilləri indi internetdə kifayət qədər dərc edilib, bunu hər bir insan görə bilər. Bütün infrastruktur dağıdılıb. ATƏT işğal edilmiş torpaqlara iki dəfə faktaraşdırıcı missiya göndərmişdir. O missiyalar dediyim mənzərə ilə üzləşmişlər və öz məruzələrində bunu əks etdirmişlər.

Münaqişə ilə bağlı Azərbaycan dövlətinin mövqeyi beynəlxalq hüquqa tam əsaslanır. İlk növbədə, Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır, tarixi torpağıdır, digər tərəfdən, beynəlxalq hüquq baxımından Azərbaycanın ayrılmaz hissəsidir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Belə olan halda münaqişə yalnız və yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, BMT Təhlükəsizlik Şurasının qətnamələri, - bu sənədlərdən daha üstün sənəd dünyada yoxdur, - tam icra edilməlidir və ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycan dövləti və Azərbaycan xalqı öz torpağında ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək.

O ki qaldı, xalqların öz müqəddəratını təyin etməsi məsələsinə, bu məsələ ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Qeyd etdiyim kimi, dünyanın əksər ölkələri çoxmillətli, çoxkonfessiyalı ölkələrdir. Ermənistan xalqı öz müqəddəratını təyin edib, onların öz dövlətləri var. İkinci erməni dövlətinin tarixi Azərbaycan torpaqlarında yaradılmasına Azərbaycan heç vaxt imkan verməyəcək. Bu, əslində çox zərərli, təhlükəli və xəstə bir məntiqdir. Ermənilər bir çox ölkələrdə yaşayırlar. İndi əgər onlar yaşadıqları bütün ölkələrdə Azərbaycandakı kimi öz müqəddəratını təyin etmək arzusuna düşərlərsə və aqressiv separatizmə əl atarlarsa, onda baxarıq o ölkələrin siyasəti necə olacaq.

Bu gün dünyada gedən proseslər bizim mövqeyimizi dəstəkləyir və gücləndirir. Qeyd etdiyim kimi, həm beynəlxalq hüquq, həm tarix, həm potensial baxımından bizim mövqeyimiz kifayət qədər güclüdür. Ancaq bu gün Avropa da separatizmlə üzləşir. Görün, Avropa ölkələ-

rində separatizmə qarşı hansı addımlar atılır. Bizim problemimiz aqressiv separatizmdir. Əli silahlı erməni quldur dəstələri soyqırımı törətmişlər, zor gücü ilə torpaqlarımızı işğal etmişlər, günahsız insanları bu torpaqlardan qovmuşlar və bu gün bu torpaqlarda qanunsuz fəaliyyətlə məşğuldurlar. Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Bunun üçün bütün imkanlar var və son hadisələr – keçən ilin hadisələri bunu bir daha göstərir. Ölkəmizin ərazi bütövlüyü bütün başqa ölkələrin ərazi bütövlüyü qədər qiymətlidir və dəyərlidir.

Bu böyük və çətin problemə baxmayaraq, ölkəmiz uğurla inkişaf edir. Biz beynəlxalq arenada çox etibarlı tərəfdaşa çevrildik, bir neçə il bundan əvvəl 155 ölkənin səsi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Bu, bizim böyük siyasi qələbəmiz idi. Çünki o vaxt Azərbaycan cəmi 20 il idi ki, müstəqil ölkə kimi yaşayırdı və bu illər ərzində beynəlxalq ictimaiyyətin rəğbətini qazana bilmişdir. Ölkədə çox ciddi iqtisadi islahatlar aparılır. İqtisadi inkişaf baxımından Azərbaycan son 14 il ərzində dünyada ən sürətlə inkişaf edən ölkədir. İqtisadiyyatımız, ümumi daxili məhsul 3 dəfədən çox artmışdır.

Biz, eyni zamanda, çox ciddi sosial siyasət aparırıq və bunun nəticəsində Azərbaycanda işsizlik və yoxsulluq 5 faiz səviyyəsindədir. İnsan kapitalına böyük sərmayə qoyulur. Son 14 il ərzində ölkəmizdə üç mindən çox məktəb, 600-dən çox tibb müəssisəsi tikilmiş və ya təmir edilmişdir, 12 min kilometr yol inşa edilmişdir və digər lazımi sosial infrastruktur yaradılır. Beynəlxalq maliyyə qurumları Azərbaycanda aparılan islahatları çox yüksək qiymətləndirir. Sadəcə bir rəqəmi demək kifayətdir ki, bu barədə təsəvvür olsun: Ümumdünya Davos İqtisadi Forumu Azərbaycanı ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görüb. Yəni, bu, çox böyük göstəricidir və biz bu göstəriciyə enerji resursları hesabına çatmamışıq. Əlbəttə ki, Azərbaycanın zəngin enerji resursları var və bu resurslardan biz səmərəli şəkildə istifadə edirik. Amma ölkələrin rəqabətqabiliyyətliliyi digər parametrlər üzərində hesablanır və bu göstərici bizi dünya miqyasında 35 ən rəqabətqabiliyyətli iqtisadiyyatlar arasına daxil edir.

Məndə və bilirəm ki, cəmiyyətdə ölkəmizin gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər var. Bu gün reallaşan nəhəng enerji layihələri, 40 milyard dollar dəyəri olan "Cənub Qaz Dəhlizi" və bizim digər layihələrimiz ölkəmizin uzunmüddətli uğurlu, dayanıqlı inkişafını dəstəkləyəcək.

Azərbaycan bölgədə çox önəmli nəqliyyat mərkəzinə çevrilir. İki ay bundan əvvəl istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu qitələri - Asiyanı Avropa ilə ən qısa yolla birləşdirdi. Hazırda biz "Şimal-Cənub" nəqliyyat dəhlizi üzərində işləyirik. Bu istiqamətdə də çox önəmli nəticələr var. Biz ilin sonuna qədər növbəti nəticələri gözləyirik ki, qısa müddətdə – bəlkə də iki-üç il ərzində bu yolu da biz qonşu ölkələrlə birlikdə istifadəyə verək. Beləliklə, bundan sonra həm Şərqdən Qərbə və əks istiqamətə, həm də Şimaldan Cənuba və əks istiqamətə dəmir yolları Azərbaycan ərazisindən keçəcəkdir. Bu, bizə əlavə iqtisadi mənfəət və əlbəttə ki, siyasi dividendlər gətirəcək. Bu, regional əməkdaşlığa da çox ciddi müsbət təsir göstərəcək. Eyni zamanda, əminəm ki, bu, bizim bugünkü konfransımızın burada yazılan mövzusuna da öz müsbət təsirini göstərəcək. Çünki millətlərarası, dinlərarası, mədəniyyətlərarası dialoqun aparılması üçün hesab edirəm ki, sadəcə olaraq, söz danışmaq kifayət deyil. Konkret layihələr, konkret maraqlar olmalıdır, maraqların uzlaşması, balansı və qarşılıqlı asılılıq olmalıdır. Bizim regionda icra etdiyimiz layihələr bu qarşılıqlı maraqları təmin edir.

Əlbəttə ki, bütün bu nailiyyətləri biz qonşularımızla birlikdə əldə etmişik. Tranzit olmaq istəyən hər bir ölkə gərək öz qonşuları ilə yaxın münasibətlər qursun. Bizdə də bu, belədir. Biz qonşularımızla çox sıx əlaqələr qurmuşuq. Əlbəttə ki, bu, regional təhlükəsizliyə və sabitliyə də öz müsbət təsirini göstərir.

Bir sözlə, əziz dostlar, mən hesab edirəm ki, Azərbaycan müstəqillik dövründə mədəniyyətlərarası dialoqun inkişafında və İslam həmrəyliyinin güclənməsi işində öz rolunu oynayıb. Biz bundan sonra da bu yolla gedəcəyik.

Fürsətdən istifadə edərək, sizə - bütün qonaqlara Bakıya gəldiyiniz üçün bir daha təşəkkürümü bildirirəm və konfransa uğurlar arzulayıram. Sağ olun.

*21 dekabr 2017-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV XALQ ARTİSTİ FƏRHAD BƏDƏLBƏYLİYƏ "İSTİQLAL" ORDENİ TƏQDİM ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Xalq Artisti, görkəmli pianoçu Fərhad Bədəlbəyliyə "İstiqlal" ordenini təqdim edib.

**Prezident İlham ƏLİYEV dedi:**

-Hörmətli Fərhad müəllim, mən sizi qarşıdan gələn yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Siz uzun illərdir ki, xalqımızı sənətinizlə sevindirirsiniz, həm peşəkar musiqiçi, həm gözəl bəstəkar kimi Azərbaycan musiqi mədəniyyətinə çox böyük töhfə verirsiniz. Siz gənc yaşlarınızdan dünyada da Azərbaycanı ləyaqətlə təmsil edirsiniz, Azərbaycan musiqi sənətini təbliğ edirsiniz. Bildiyimə görə, hələ 50 il bundan əvvəl beynəlxalq müsabiqələrdə laureat adına layiq görülmüsünüz və beləliklə, öz istedadınızı bütün dünyaya nümayiş etdirmisiniz.

Siz həm bəstəkar, həm peşəkar musiqiçi kimi dünya miqyasında öz layiqli yerinizi tuta bilmisiniz və Azərbaycan xalqı sizi sevir və sizi yüksək qiymətləndirir. Siz gənc kadrların hazırlanmasında çox böyük iş görürsünüz. Bakı Musiqi Akademiyasının rektoru kimi bir çox istedadlı gənc kadrların hazırlanmasında sizin çox böyük əməyiniz olubdur. Qəbələ Beynəlxalq Musiqi Festivalının bədii rəhbəri kimi, demək olar ki, bu festivalın dünya miqyaslı mədəni tədbirə çevrilməsində sizin xüsusi rolunuz var. Şadam ki, bu gün Azərbaycan bütün istiqamətlər üzrə beynəlxalq tədbirlərin keçirilməsində öz töhfəsini verir və ölkəmizdə həm siyasi, iqtisadi, həm də idman və mədəni tədbirlər yüksək səviyyədə təşkil olunur.

Bildiyiniz kimi, ulu öndər Heydər Əliyev sizin fəaliyyətinizə həmişə çox böyük diqqət və qayğı göstərirdi. Bilirəm ki, sizin əməyinizi, sənətinizi yüksək qiymətləndirirdi, sizi bir insan kimi, bir gənc kimi də çox sevirdi. Siz bunu yaxşı bilirsiniz, mən də yaxşı bilirəm. Biz bir-birimizi çoxdan tanıyırıq və mən sizi çox gözəl insan kimi tanıyıram. Nəinki görkəmli mədəniyyət xadimi, gözəl, vətənpərvər, prinsipial, xeyirxah insan kimi siz Azərbaycan xalqının sevgisini qazanmısınız. Mən də çox şadam ki, uzun illər biz sizinlə çox yaxın münasibətlərdə olmuşuq və bu gün də bu, belədir. Hələ sovet vaxtında siz gənc ifaçı kimi SSRİ Xalq Artisti adına layiq görülmüsünüz. O da əlbəttə ki, sizin istedadınızın sovet məkanı tərəfindən yüksək qiymətləndirilməsi demək idi. Bilirəm ki, müstəqillik dövründə sizin çoxsaylı xarici qastrollarınız olub və beynəlxalq tədbirlərdə Azərbaycanı həmişə çox yüksək səviyyədə, ləyaqətlə təmsil edirsiniz. Azərbaycan dövləti də sizi çox yüksək qiymətləndirir, sizə dövlət mükafatları verilmişdir. Bu gün isə siz yubileyiniz ərəfəsində Azərbaycan dövlətinin yüksək mükafatı – "İstiqlal" ordeni ilə təltif olunursunuz və mən istərdim ki, bu ordeni sizə təqdim edim.

* * *

Dövlətimizin başçısı İlham Əliyev "İstiqlal" ordenini Fərhad Bədəlbəyliyə təqdim etdi.

* * *

Fərhad BƏDƏLBƏYLİ dedi:

-Çox sağ olun cənab Prezident. Əlbəttə bu, çox sevindirici bir haldır. Bu gün axşam mənim konsertimdir, gündüz isə cənab Prezident mənə belə yüksək mükafatı təqdim edir.

İstiqlal, ümumiyyətlə, bütün Azərbaycanın neçə nəslinin böyük bir arzusu olub. Azad Azərbaycanın böyük Prezidenti mənə bu ordeni verir. Burada böyük bir məna var. Bakı Musiqi Akademiyasında heç vaxt unutmurlar ki, bu ali məktəbə Üzeyir bəyin adını Siz qaytarmısınız. Bütün ziyalılar bunu gözləyirdilər və Siz bunu etdiniz. Siz düz buyurdunuz ki, bizim çoxlu cavan ifaçılarımız neçə-neçə beynəlxalq müsabiqələrdə qalib olurlar, idman öz yerində, amma biz də beynəlxalq müsabiqələrdə, konsertlərdə, neçə-neçə tədbirlərdə bayrağımızı qaldırırıq. Əlbəttə, bu uğurlarda Heydər Əliyev Fondunun, Mehriban xanımın xüsusi rolu var. Bu gün konsertdə dirijorluq edəcək Fuad İbrahimov 9 il Kölndə oxuyub, Fond ona kömək edib. İndi o, gözəl dirijordur. Yəni, biz bu diqqəti həmişə hiss edirik. Vaxtilə Siz bizə pul ayırmısınız, biz gözəl royallar almışıq, indi gözəl təmirimiz var. Yəni, o diqqəti biz həmişə hiss edirik.

Bu da çox vacib məsələdir. Əlbəttə, mən Dağlıq Qarabağın azərbaycanlı icmasının nümayəndəsi kimi Sizə dərin təşəkkürümü bildirirəm. Çünki Siz hər yerdə harada olursunuzsa - Birləşmiş Millətlər Təşkilatında, Avropa Şurasında, Brüsseldə, Parisdə hər dəfə çıxışınızda Qarabağ məsələsini qaldırırsınız. Biz bilirik ki, gec-tez hamımız Sizinlə birlikdə Şuşaya qayıdacağıq. Biz Sizə dərin minnətdarlığımızı bildiririk. Çünki biz hiss edirik ki, bu mövzu Sizin diqqət mərkəzinizdədir. Əlbəttə, biz çalışırıq ki, Azərbaycanın adı hər yerdə ən yüksək səviyyədə səslənsin. Birinci Avropa Oyunlarında, İslam Həmrəyliyi Oyunlarında, olimpiadalarda bizim idmançılarımız qalib olanda, bayrağımız yüksələndə biz hamımız sevincdən az qalırdı ağlayaq. Bir neçə məzunumuz Böyük Teatrda solistdir – Elçin Əzizov, Dinarə Əliyeva. İndi gənclərimizin bir neçəsi La Skalada çıxış edir, yəni, işləyirik.

Prezident İlham ƏLİYEV: Çox sağ olun, sizə yeni uğurlar arzulayıram.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

*25 dekabr 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV “YANARDAĞ” DÖVLƏT TARİX-MƏDƏNİYYƏT VƏ TƏBİƏT QORUĞUNDA OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunda olmuşdur.

Qoruqdakı vəziyyətlə tanış olan dövlətimizin başçısı burada şəraitin dözülməz olduğunu bildirdi. Qeyd etdi ki, bu qoruğa həm Azərbaycan vətəndaşları, həm də çoxsaylı turistlər gəlir və buradakı şərait ölkəmizin bugünkü inkişaf səviyyəsinə uyğun deyil.

Prezident İlham Əliyev aidiyyəti dövlət qurumlarına ciddi tapşırıq verdi ki, bu dözülməz vəziyyət qısa müddət ərzində aradan qaldırılsın, Azərbaycan vətəndaşları və turistlər üçün yüksək standartlara cavab verən şərait yaradılsın.

*29 dekabr 2017-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏHİDLƏR XİYABANINDA 20 YANVAR ŞƏHİDLƏRİNİN ƏZİZ XATİRƏSİNİ YAD ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər.

Qanlı Yanvar hadisələrindən 28 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 28 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlığından və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına çıxaraq buna qəti etirazını bildirən xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməyən faciəyə səbəb oldu. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlıq əleyhinə törədilən ən ağır cinayətlərdən biri kimi bəşər tarixinə yazıldı. Böyük itkilər, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi mərkəzi hakimiyyət başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini və məğrurluğunu nümayiş etdirdi.

20 Yanvar Azərbaycan xalqının tarixində sadəcə ağrı və acı ilə xatırlanacaq gün deyil. 20 Yanvar Azərbaycan xalqının şan və şərəf günüdür. Xalq həmin gün üstünə şığıyan dəhşətli kabusa, sovet hərbçilərinin qorxunc qaragüruhuna qarşı sinəsini sipər etməyi, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı pozulan hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə sahibdir.Təəssüf ki, həm SSRİ, həm də ovaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olduğundan nəinki onun

açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə bu vəhşiliyi gizlətmək üçün əlindən gələni etdi. 20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və qırmızı rejimin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Bu, keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra - 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

* * *

Yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldilər.

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının dövlət himni səsləndi.

* * *

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etdilər.

* * *

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Milli Məclisin sədri Oqtay Əsədov və Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak ediblər.

***20 yanvar 2018-ci il***

## PREZİDENT İLHAM ƏLİYEV QUSARDA "ŞAHDAĞ" QIŞ-YAY TURİZM KOMPLEKSİNİN NÖVBƏTİ İNKİŞAF PLANLARI İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Qusarda "Şahdağ" qış-yay turizm kompleksinin növbəti inkişaf planları ilə tanış olub.

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov Prezident İlham Əliyevə "Şahdağ" qış-yay turizm kompleksinin hazırkı vəziyyəti və burada bu il ikinci mərhələdə görüləcək işlər barədə məlumat verdi. Qeyd edildi ki, burada dəniz səviyyəsindən 2350 metr yüksəklikdə 5 nömrəli lift meydançası inşa ediləcək və 4,2 kilometr uzunluğunda yeni eniş zolağı tikiləcək. Bu, ən uzun zolaq olmaqla yanaşı, mürəkkəbliyinə görə də qırmızı dərəcəli zolaq olacaq.

Həmçinin dövlətimizin başçısına məlumat verildi ki, bu il kompleksin əsas meydanında əyləncə infrastrukturunun qurulması da planlaşdırılır. Burada "Boulinq", tennis və digər stolüstü oyunlar zalı, kinoteatr, musiqi mərkəzi, həmçinin suvenir mağazaları, iaşə və xidmət obyektləri inşa ediləcək.

Kompleksin yay mövsümündə də xidmət göstərməsi üçün burada göl yaradılacaq. Yay mövsümündə turistlər bu göldə həm üzəcək, həm də qayıqlarla səyahət edəcəklər. Qış mövsümündə isə bu göldən qaryaratma üçün ehtiyat mənbəyi kimi istifadə olunacaq.

İkinci mərhələdə görülməsi planlaşdırılan işlərə bu ilin yaz aylarından başlanılacaq. Bunun üçün indidən hazırlıq işləri görülür.

Dövlətimizin başçısına kompleksin yol infrastrukturu barədə də ətraflı məlumat verildi. Bildirildi ki, kompleksin ərazisindən keçən Qusar-Ləzə yolu onun kənarından inşa olunacaq. Bu da imkan verəcək ki, yuxarı kəndlərin sakinləri kompleksin ərazisinə daxil olmadan hərəkət etsinlər. Hazırda bu yolun yarısının torpaq yatağı hazırlanıb. Qalan işlərin ilin sonuna qədər tamamlanması nəzərdə tutulur. Bu yeni yoldan kompleks ərazisinə iki giriş nəzərdə tutulub. Kompleksin girişində böyük avtomobil dayanacağının da istifadəyə verilməsi planlaşdırılır.

Məlumat verildi ki, kompleksin üçüncü mərhələsi ilə bağlı layihələndirmə işləri aparılır.

Kompleksin əsas meydanının ərazisi ilə tanış olan dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verdi.

* * *

Sonra Prezident İlham Əliyev "Şahdağ" qış-yay turizm kompleksində xizək sürdü.

*30 yanvar 2018-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜQƏDDƏS TAXT-TACIN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallagerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallager Roma Papası I Fransiskin və dövlət katibi, kardinal Pietro Parolinin salamlarını Prezident İlham Əliyevə çatdırdı. Azərbaycana ilk dəfədir ki, səfər etdiyini deyən arxiyepiskop Paul Riçard Gallager göstərilən yüksək qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Azərbaycan haqqında çox məlumatlı olduğunu qeyd edən qonaq ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi, buradakı inkişafı öz gözləri ilə görməyin maraqlı olduğunu vurğuladı. Roma Papası I Fransiskin fərmanı ilə Azərbaycan Katolik Kilsəsinin ordinarisi Vladimir Feketenin yepiskop rütbəsinə yüksəldilməsinin çox sevindirici hadisə olduğunu deyən arxiyepiskop Paul Riçard Gallager bunun Müqəddəs

Atanın ölkəmizdəki katolik icmasına və Azərbaycan ilə əlaqələrə verdiyi önəmin mühüm göstəricisi olduğunu bildirdi.

Roma Papası I Fransiskin iki il əvvəl Azərbaycana səfərinin tarixi hadisə olduğunu qeyd edən Prezident İlham Əliyev səfərlə bağlı xoş xatirələrinin olduğunu bildirdi. Dövlətimizin başçısı, həmçinin özünün Vatikana rəsmi səfərini məmnunluqla xatırlayaraq Roma Papası I Fransisk, o cümlədən dövlət katibi, kardinal Pietro Parolin ilə keçirdikləri görüşlərin əhəmiyyətini vurğuladı, bu cür yüksək səviyyəli qarşılıqlı səfərlərin Azərbaycan ilə Vatikan arasında sıx əlaqələrin göstəricisi olduğunu qeyd etdi. Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallagerin Azərbaycana səfərinin səmərəli keçəcəyinə ümidvar olduğunu bildirdi, səfərin iki dövlət arasında mövcud tərəfdaşlıq əlaqələrini möhkəmləndirəcəyinə əminliyini ifadə etdi.

Söhbət zamanı Azərbaycanın nümunəvi multikultural və tolerant bir ölkə kimi dinlərarası və mədəniyyətlərarası dialoqa böyük töhfə verdiyi qeyd edildi.

Prezident İlham Əliyev Roma Papası I Fransiskin və dövlət katibi kardinal Pietro Parolinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papası I Fransiskə və dövlət katibinə çatdırmağı xahiş etdi.

*10 fevral 2018-ci il*

## PREZİDENT İLHAM ƏLİYEV XOCALI SOYQIRIMI QURBANLARININ XATİRƏSİNİ ANMA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu faciədən 26 il keçir. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edirlər.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak etdilər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Birinci vitse-prezident Mehriban Əliyeva, Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anım mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzdülər.

Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşən, şəxsi heyətinin xeyli hissəsi ermənilər-

dən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etdilər.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları və başları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürəkağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

*26 fevral 2018-ci il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİNGƏÇEVİRDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 27-də Mingəçevir şəhərinə səfərə gəliblər.

Dövlətimizin başçısı və xanımı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzindəki abidəsi önünə gül dəstəsi qoydular.

Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov Mingəçevirdə görülən abadlıq-quruculuq işləri barədə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verdi.

*27 fevral 2018-ci il*

# MÜNDƏRİCAT

Giriş sözü ...................................................................................................3

**2013**

Azərbaycan Prezidenti İlham Əliyev Bakının Əhmədli yaşayış massivindəki yenidən qurulan parkda yaradılmış şəraitlə tanış olmuşdur ..........................................7
*18 oktyabr 2013-cü il*

Prezident İlham Əliyev Dövlət Bayrağı Meydanında olmuşdur.......................................7
*19 oktyabr 2013-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Bakının Nərimanov rayonu ərazisində yeni salınan Dədə Qorqud parkında görülən işlərlə tanış olmuşdur ........................................8
*22 oktyabr 2013-cü il*

Prezident İlham Əliyev İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrini qəbul etmişdir ........................................................................................8
*31 oktyabr 2013-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev III Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçıları üçün verilmiş işçi naharda iştirak etmişdir ........................................9
*31 oktyabr 2013-cü il*

Prezident İlham Əliyev Üçüncü Beynəlxalq Humanitar Forumunun açılışında iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ...........................................................9
*31 oktyabr 2013-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Vatikan dövlətinin mədəniyyət üzrə pontifik şurasının prezidenti kardinal Canfranko Ravazinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir .........................................................................................15
*4 noyabr 2013-cü il*

Prezident İlham Əliyev Anıtqəbiri ziyarət etmişdir .....................................................16
*12 noyabr 2013-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Ankarada yenidən qurulan Heydər Əliyev Parkı ilə tanış olmuşdur ..............................................................................16
*13 noyabr 2013-cü il*

Prezident İlham Əliyev "Bakı Ağ şəhər" bulvarında görülən tikinti işlərinin gedişi ilə tanış olmuşdur ..........................................................................................17
*14 noyabr 2013-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzinin açılış mərasimində iştirak etmişdir ................................17
*15 noyabr 2013-cü il*

Prezident İlham Əliyev Kiyevdəki Heydər Əliyev Parkında görülən işlərlə tanış olmuşdur ......................................................................................................23
*18 noyabr 2013-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev “Qolodomor” qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət etmişdir ....23
*18 noyabr 2013-cü il*

Prezident İlham Əliyev “Naməlum əsgər” abidəsini ziyarət etmişdir ....24
*18 noyabr 2013-cü il*

Azərbaycan Prezidenti İlham Əliyevə “Jurnalistlərin dostu” mükafatı təqdim edilmişdir ....24
*24 noyabr 2013-cü il*

Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının baş katibi Ekmələddin İhsanoğlunu qəbul etmişdir....34
*25 noyabr 2013-cü il*

Prezident İlham Əliyev Xalça Muzeyinin yeni binasında sərgilərin tərtibatının təşkili ilə tanış olmuşdur ....35
*2 dekabr 2013-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etmişdir ....36
*12 dekabr 2013-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Dədə Qorqud parkının açılış mərasimində iştirak etmişdir. Prezident İlham Əliyevin çıxışı ....37
*13 dekabr 2013-cü il*

Prezident İlham Əliyev Qusarda “Şahdağ”, “Pik Palas” otellərinin açılışında və 2013-cü ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ....41
*19 dekabr 2013-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev “Rixos Quba Azerbaijan” otel kompleksinin açılış mərasimində iştirak etmişdir ....47
*20 dekabr 2013-cü il*

Prezident İlham Əliyev Qusarda “Şahdağ” Qış-Yay Turizm Kompleksində yaradılan yüksək xidmət şəraiti ilə tanış olmuşdur ....49
*20 dekabr 2013-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Qız Qalasında həyata keçirilən konservasiya işləri və yeni yaradılan muzey ekspozisiyası ilə tanış olmuşdur ....49
*30 dekabr 2013-cü il*

**2014**

Azərbaycan Prezidenti İlham Əliyev Qəbələdə “Tufan” Dağ-Xizək Yay-Qış İstirahət Kompleksinin birinci mərhələsinin açılışında iştirak etmişdir ....51
*3 yanvar 2014-cü il*

Prezident İlham Əliyev Şəhidlər Xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad etmişdir ........ 53
*20 yanvar 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Göygölə səfəri çərçivəsində Bayraq Meydanı Kompleksinin açılışında iştirak etmişdir ........ 54
*21 yanvar 2014-cü il*

Prezident İlham Əliyev Göygöl Gənclər Mərkəzi ilə tanış olmuşdur ........ 54
*21 yanvar 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Gəncəyə səfəri çərçivəsində "VEGO" otelində yaradılmış şəraitlə tanış olmuşdur ........ 55
*21 yanvar 2014-cü il*

Prezident İlham Əliyev Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur ........ 55
*21 yanvar 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Gəncə Qala Qapıları – Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə Kompleksi ilə tanış olmuşdur ........ 56
*21 yanvar 2014-cü il*

Prezident İlham Əliyev Heydər Əliyev Fondunun dəstəyi ilə Gəncədə inşa olunmuş Nizami Gəncəvi Muzeyinin açılışında iştirak etmişdir ........ 57
*21 yanvar 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun dəstəyi ilə Gəncədə inşa olunmuş Məhsəti Gəncəvi Mərkəzinin açılışında iştirak etmişdir ........ 59
*21 yanvar 2014-cü il*

Prezident İlham Əliyev Gəncə şəhərində Heydər Əliyev park-kompleksinin və Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir ........ 60
*21 yanvar 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda görkəmli bəstəkar Qara Qarayevin abidəsinin açılışında iştirak etmişdir ........ 64
*3 fevral 2014-cü il*

Prezident İlham Əliyev Azərbaycan Milli Konservatoriyasının yeni inzibati-tədris kompleksinin açılışında iştirak etmişdir ........ 66
*13 fevral 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev İSESKO-nun baş direktorunu qəbul etmişdir ........ 72
*24 fevral 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıtdakı Nəsimi adına şəhər Mədəniyyət və İstirahət parkında görülən irimiqyaslı abadlıq və yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur ........ 72
*25 fevral 2014-cü il*

Prezident İlham Əliyev Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimində iştirak etmişdir ....72
*26 fevral 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının baş katibini qəbul etmişdir ....75
*5 mart 2014-cü il*

Prezident İlham Əliyev Dənizkənarı Milli Parkın yeni bulvar hissəsində müasir attraksion-panoramın açılışında iştirak etmişdir ....75
*10 mart 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Şirvanşahlar Sarayı Kompleksində yeni yaradılmış muzey ekspozisiyası ilə tanış olmuşdur ....76
*17 mart 2014-cü il*

Prezident İlham Əliyev Novruz bayramı münasibəti ilə keçirilən ümumxalq şənliyində iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ....77
*19 mart 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev "AITF-2014" XIII Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi ilə tanış olmuşdur ....82
*4 aprel 2014-cü il*

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Naxçıvan Gənclər Mərkəzinin açılışında iştirak etmişdir ....85
*7 aprel 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev yeni yaradılan "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olmuşdur ....86
*7 aprel 2014-cü il*

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldini qəbul etmişdir ....87
*28 aprel 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda İkinci Qlobal Açıq Cəmiyyətlər Forumunun açılışında iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ....87
*28 aprel 2014-cü il*

Prezident İlham Əliyev Ağdaşda Heydər Parkında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur ....92
*1 may 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Ağdaşda Bayraq Meydanında yaradılan şəraitlə tanış olmuşdur ....93
*1 may 2014-cü il*

Prezident İlham Əliyev Ağdaşda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir ....94
*1 may 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin yeni binasının açılışında iştirak etmişdir ....96
*5 may 2014-cü il*

Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Kitabxanasının yeni binasının açılışında iştirak etmişdir ....98
*5 may 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi ilə tanış olmuşdur ....101
*6 may 2014-cü il*

Prezident İlham Əliyev Tbilisidə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir ....101
*6 may 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev 9 May - Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak etmişdir ....101
*9 may 2014-cü il*

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 10 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ....103
*10 may 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə paytaxtda təşkil edilmiş Gül bayramında iştirak etmişdir ....109
*10 may 2014-cü il*

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin məzarını ziyarət etmişdir ....110
*10 may 2014-cü il*

Azərbaycan və Fransa Prezidentləri İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunu gəzmişlər ....111
*11 may 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Şamaxı rayonunda "Şamaxı Palace Platinum By Rixos" otelinin açılışında iştirak etmişdir ....111
*14 may 2014-cü il*

Prezident İlham Əliyev 28 May – Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ....115
*27 may 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət etmişdir ....121
*27 may 2014-cü il*

Prezident İlham Əliyev Neftçala şəhərindəki Bayraq Meydanında yaradılan şəraitlə tanış olmuşdur....122
*28 may 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Neftçalada Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir. Prezident İlham Əliyevin çıxışı ........................................123
*28 may 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Bodrumda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə toplantısında iştirak etmişdir. Prezident İlham Əliyevin çıxışı ......127
*5 iyun 2014-cü il*

Prezident İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Heydər Əliyev Mərkəzində olmuşlar ........................................................................129
*14 iyun 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Afina Akropolunda olmuşdur ...........................130
*15 iyun 2014-cü il*

Prezident İlham Əliyev Afinada "Naməlum əsgər" abidəsini ziyarət etmişdir ............131
*16 iyun 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul etmişdir .......................................................131
*9 iyul 2014-cü il*

Prezident İlham Əliyev Romada dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət etmişdir ........................................................................133
*13 iyul 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Romanın "Mercati di Traiano" muzeyində şəhərin meri İqnatsio Marino ilə görüşmüşdür. Prezident İlham Əliyev İtaliya jurnalistlərinə müsahibə vermişdir ........................................................................133
*14 iyul 2014-cü il*

Prezident İlham Əliyev Romada "Naməlum əsgər" abidəsini ziyarət etmişdir ...........135
*14 iyul 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak etmişdir. Prezident İlham Əliyevin çıxışı ...................................135
*17 iyul 2014-cü il*

Prezident İlham Əliyev Cəfər Cabbarlı Parkında yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur ........................................................................141
*22 iyul 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Xızıda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir ........................................................................141
*22 iyul 2014-cü il*

Prezident İlham Əliyev Xızıdakı Heydər Əliyev Parkında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur ........................................................................144
*22 iyul 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Bərdə şəhərində yeni salınan Heydər Əliyev Parkında görülən işlərlə tanış olmuşdur ........ 145
*6 avqust 2014-cü il*

Prezident İlham Əliyev Xalça Muzeyinin açılışında iştirak etmişdir ........ 146
*26 avqust 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Beyləqanda Gənclər Mərkəzinin açılışında iştirak etmişdir ........ 150
*28 avqust 2014-cü il*

Prezident İlham Əliyev Füzuli rayon Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak etmişdir ........ 150
*28 avqust 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Horadiz şəhərində Bayraq Meydanında yaradılan şəraitlə tanış olmuşdur ........ 151
*28 avqust 2014-cü il*

Prezident İlham Əliyev Beyləqanda yeni istifadəyə verilmiş Gənclər Mərkəzində rayon gənclərinin və ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür. Prezident İlham Əliyevin çıxışı ........ 151
*28 avqust 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Qəbələ Arxeoloji Mərkəzinin açılışında iştirak etmişdir ........ 157
*22 sentyabr 2014-cü il*

Prezident İlham Əliyev İsmayıllıda Uşaq İstirahət və Əyləncə Parkında yaradılan şəraitlə tanış olmuşdur ........ 158
*22 sentyabr 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev İsmayıllı Rayon Mədəniyyət Sarayında əsaslı təmirdən sonra yaradılan yeni şəraitlə tanış olmuşdur ........ 158
*22 sentyabr 2014-cü il*

Prezident İlham Əliyev İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir ........ 159
*1 oktyabr 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Dördüncü Beynəlxalq Humanitar Forumun açılış mərasimində iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ........ 159
*2 oktyabr 2014-cü il*

Prezident İlham Əliyev Xırdalanda Musiqi məktəbinin açılışında iştirak etmişdir ........ 164
*3 oktyabr 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Xırdalan şəhərində yaradılan "Park Abşeron" əyləncə mərkəzinin açılışında iştirak etmişdir ........ 165
*3 oktyabr 2014-cü il*

Prezident İlham Əliyev Xırdalanda Bayraq Meydanında olmuşdur ............................165
*3 oktyabr 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Xırdalanda Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur ........................166
*3 oktyabr 2014-cü il*

Prezident İlham Əliyev Xırdalanda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir ..........................................................................................................166
*3 oktyabr 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Düşənbədə İsmoili Somoni abidəsini ziyarət etmişdir ..........................................................................................................169
*16 oktyabr 2014-cü il*

Prezident İlham Əliyev Daşkəsəndə Gənclərin Təlim və İstirahət Mərkəzinin açılışında iştirak etmişdir ....................................................................................169
*17 oktyabr 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Daşkəsəndə Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir ....................................................................................170
*17 oktyabr 2014-cü il*

Prezident İlham Əliyev Naftalanda ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir ..........................................................................................................171
*17 oktyabr 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev "Naftalan Hotel By Rixos" otelinin yeni korpusunda yaradılan şəraitlə tanış olmuşdur ............................................................171
*17 oktyabr 2014-cü il*

Prezident İlham Əliyev Naftalanda "Qarabağ Spa And Resort" otel kompleksinin açılışında iştirak etmişdir ....................................................................................172
*17 oktyabr 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Goranboyda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir ....................................................................................175
*18 oktyabr 2014-cü il*

Prezident İlham Əliyev Goranboyda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir ..........................................................................................................175
*18 oktyabr 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Gəncədə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir ..............................................................................................176
*18 oktyabr 2014-cü il*

Prezident İlham Əliyev Gəncə şəhərində Heydər Əliyev Parkı ilə tanış olmuşdur ......176
*18 oktyabr 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur ....177
*18 oktyabr 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Gəncə Dövlət Dram Teatrının yeni binasının təməlqoyma mərasimində iştirak etmişdir ....177
*18 oktyabr 2014-cü il*

Prezident İlham Əliyev "İmamzadə" kompleksində aparılan təmir-bərpa və tikinti işlərinin gedişi ilə tanış olmuşdur ....178
*18 oktyabr 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda gənclər siyasəti üzrə Birinci Qlobal Forumun açılış mərasimində iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ....179
*29 oktyabr 2014-cü il*

Prezident İlham Əliyev Bakının Xətai rayonu ərazisindəki Fəvvarələr və Şəlalələr Kompleksində işlərin gedişi ilə tanış olmuşdur ....184
*3 dekabr 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etmişdir ....185
*12 dekabr 2014-cü il*

Prezident İlham Əliyev əsaslı şəkildə yenidən qurulan Sabirabad rayon Mədəniyyət Evində yaradılan şəraitlə tanış olmuşdur ....186
*15 dekabr 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev "Baku Sport City"də, Su İdmanı Sarayında və Dövlət Bayrağı Meydanının ərazisində inşaat işlərinin gedişi ilə tanış olmuşdur ....186
*23 dekabr 2014-cü il*

Prezident İlham Əliyev Bakıda inşa olunan Heydər Məscidində son tamamlama işlərinin gedişi ilə tanış olmuşdur ....188
*24 dekabr 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev "Yasamal" parkının açılışında iştirak etmişdir ..189
*25 dekabr 2014-cü il*

Prezident İlham Əliyev Rusiyanın Şimali Qafqaz respublikalarının din xadimlərini qəbul etmişdir ....190
*26 dekabr 2014-cü il*

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda Heydər Məscidinin açılışında iştirak etmişdir. Prezident İlham Əliyevin çıxışı ....190
*26 dekabr 2014-cü il*

Prezident İlham Əliyev Nərimanov rayonunda yeni salınan parkda yaradılan şəraitlə tanış olmuşdur ....195
*29 dekabr 2014-cü il*

**2015**

Azərbaycan Prezidenti İlham Əliyev "Xəyal Adası" layihəsi üzrə görülən işlərin gedişi ilə tanış olmuşdur ........ 196
*12 yanvar 2015-ci il*

Prezident İlham Əliyev Sumqayıta səfəri çərçivəsində Nəsimi adına şəhər Mədəniyyət və İstirahət Parkında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur ..... 197
*13 yanvar 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıtda Gənclər Evinin açılışında iştirak etmişdir ........ 198
*13 yanvar 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Ümumxalq Hüzn Günündə 20 yanvar şəhidlərinin əziz xatirəsini yad etmişdir ........ 199
*20 yanvar 2015-ci il*

Prezident İlham Əliyev "Şahdağ" Qış-Yay Turizm Kompleksinin 1 nömrəli kanat yolunun və xizək enişinin açılışında iştirak etmişdir ........ 200
*29 yanvar 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev "Şahdağ" Qış-Yay Turizm Kompleksində "Park Chalet" otelinin açılışında iştirak etmişdir ........ 201
*29 yanvar 2015-ci il*

Prezident İlham Əliyev Xətai rayonu ərazisində yeni yaradılan Fəvvarələr və Şəlalələr Kompleksi ilə tanış olmuşdur ........ 204
*4 fevral 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Xalq artisti Polad Bülbüloğlunun 70 illik yubiley mərasimində iştirak etmək üçün Bakıya gələn bir qrup tanınmış mədəniyyət və incəsənət xadimi ilə görüşüb ........ 205
*4 fevral 2015-ci il*

Prezident İlham Əliyev Mingəçevirdə "Ağsaray" otelində tikinti işlərinin gedişi ilə tanış olmuşdur ........ 207
*24 fevral 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Mingəçevirdə Heydər Əliyev Parkında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur ........ 208
*24 fevral 2015-ci il*

Prezident İlham Əliyev Mingəçevirdəki "Dostluq" parkında yaradılan şəraitlə tanış olmuşdur ........ 209
*24 fevral 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimində iştirak etmişdir ........ 209
*26 fevral 2015-ci il*

Prezident İlham Əliyev Sofiyada "Naməlum əsgər" abidəsini ziyarət etmişdir ...........211
*4 mart 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Müqəddəs Sofiya kilsəsində olmuşdur .............211
*4 mart 2015-ci il*

Prezident İlham Əliyev Bərdədə 1 nömrəli Uşaq İncəsənət Məktəbinin açılışında iştirak etmişdir ...........................................................................................................211
*12 mart 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Bərdə türbəsində aparılan təmir işlərinin gedişi ilə tanış olmuşdur ..........................................................................................212
*12 mart 2015-ci il*

Prezident İlham Əliyev Bərdədə Heydər Əliyev adına Park-Bulvarın açılış mərasimində iştirak etmişdir ...................................................................................213
*12 mart 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Qarsda ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir ...........................................................................................................214
*17 mart 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ........................................214
*19 mart 2015-ci il*

Prezident İlham Əliyev "Bakı Ağ Şəhər" bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə tanış olmuşdur ..........................................................................................220
*30 mart 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev rusiyalı kinorejissor Nikita Mixalkovu qəbul etmişdir ...........................................................................................................220
*1 aprel 2015-ci il*

Prezident İlham Əliyev "AITF-2015" XIV Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi ilə tanış olmuşdur ........................................................................221
*3 aprel 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının baş katibini qəbul etmişdir ...........................................................................................................223
*6 aprel 2015-ci il*

Prezident İlham Əliyev Mədinədə Peyğəmbər məscidini ziyarət etmişdir ...................226
*7 aprel 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Məkkədə ümrə ziyarətində olmuşdur ................227
*7 aprel 2015-ci il*

Prezident İlham Əliyev Lənkəran Mədəniyyət Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur ...........................................................................................................228
*11 aprel 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Lənkəran Tarix-Diyarşünaslıq Muzeyində aparılan yednidənqurma və bərpa işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur ..231
*11 aprel 2015-ci il*

Prezident İlham Əliyev Astaranın Dənizkənarı park-bulvar kompleksində yaradılan şəraitlə tanış olmuşdur ....................232
*11 aprel 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Çanaqqala zəfərinin 100 illiyi münasibətilə təntənəli mərasimdə iştirak etmişdir ....................232
*24 aprel 2015-ci il*

Prezident İlham Əliyev III Qlobal Bakı Forumunun açılışında iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ....................234
*28 aprel 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev III Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə verilən ziyafətdə iştirak etmişdir. Prezident İlham Əliyevin çıxışı ................239
*28 aprel 2015-ci il*

Prezident İlham Əliyev Bakı Konqres Mərkəzinin açılışında iştirak etmişdir .............241
*29 aprel 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda "İnturist" otelinin açılışında iştirak etmişdir ....................242
*5 may 2015-ci il*

Prezident İlham Əliyev Moskvada Qələbənin 70 illiyi münasibətilə keçirilən bayram tədbirlərində iştirak etmişdir ....................244
*9 may 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 11 illiyinə həsr olunan təntənəli mərasimdə iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi .......246
*10 may 2015-ci il*

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə təşkil olunmuş Gül bayramında iştirak etmişdir ....................251
*10 may 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin məzarını ziyarət etmişdir ....................252
*10 may 2015-ci il*

Prezident İlham Əliyev "Bakı Ağ Şəhər" bulvarında yaradılan şəraitlə tanış olmuşdur .....253
*15 may 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda "Bulvar Hotel"in açılışında iştirak etmişdir ....................254
*15 may 2015-ci il*

Prezident İlham Əliyev YUNESKO-nun baş direktoru xanım İrina Bokovanı qəbul etmişdir ....256
*17 may 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsini qəbul etmişdir ....256
*17 may 2015-ci il*

Prezident İlham Əliyev YUNESKO-nun sabiq baş direktoru Koişiro Matsuuranı qəbul etmişdir ....256
*17 may 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev ISESKO-nun baş direktorunu qəbul etmişdir ....257
*18 may 2015-ci il*

Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədənini qəbul etmişdir ....257
*18 may 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ....257
*18 may 2015-ci il*

Prezident İlham Əliyev Böyükşor Bulvarının və Parkının açılışında iştirak etmişdir...262
*22 may 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev "Dalğa Beach-Aqua Park" ailəvi istirahət mərkəzinin açılışında iştirak etmişdir ....264
*26 may 2015-ci il*

Prezident İlham Əliyev 28 may – Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ....265
*27 may 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət etmişdir ....272
*27 may 2015-ci il*

Prezident İlham Əliyev "Bakı Ağ Şəhər" bulvarının açılışında iştirak etmişdir ....272
*1 iyun 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Milli Konservatoriyasının yaxınlığında salınan yeni parkda yaradılan şəraitlə tanış olmuşdur ....273
*4 iyun 2015-ci il*

Prezident İlham Əliyev Dənizkənarı Milli Parkdakı "Sadko" limanında "Bakı-2015"in məşəlini qəbul etmişdir ....274
*7 iyun 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Oyunları Parkının qarşısında yaradılmış parkdakı şəraitlə tanış olmuşdur ....275
*8 iyun 2015-ci il*

Prezident İlham Əliyev Bayıl bulvarının açılışında iştirak etmişdir ............................276
*8 iyun 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev YARAT Müasir İncəsənət Mərkəzinin ilk daimi məkanı ilə tanış olmuşdur ............................276
*8 iyun 2015-ci il*

Prezident İlham Əliyev Heydər Əliyev Fondunun yeni layihəsi olan "XX-XXI əsr Azərbaycan rəngkarlığı" ekspozisiyasının açılışında iştirak etmişdir ............................277
*8 iyun 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Daş salnamə muzeyinin açılışında iştirak etmişdir ............................277
*8 iyun 2015-ci il*

Prezident İlham Əliyev Azərbaycan Evində yaradılan şəraitlə tanış olmuşdur ............278
*8 iyun 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini qəbul etmişdir ............................279
*22 iyun 2015-ci il*

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldini qəbul etmişdir ............................280
*26 iyun 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak etmişdir. Prezident İlham Əliyevin çıxışı ............................280
*11 iyul 2015-ci il*

Prezident İlham Əliyev "Qalaaltı Hotel & SPA" müalicə-istirahət kompleksinin açılışında iştirak etmişdir ............................286
*8 avqust 2015-ci il*

Prezident İlham Əliyev Cəlilabad rayonunun Göytəpə şəhərində Heydər Əliyev adına park-bulvarın açılışında iştirak etmişdir ............................290
*11 avqust 2015-ci il*

Azərbaycan Prezidenti İlham Cəlilabad rayonunda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir ............................291
*11 avqust 2015-ci il*

Prezident İlham Əliyev Astanada Qazax xanlığının 550 illik yubileyi ilə bağlı teatrlaşdırılmış tamaşaya baxmışdır ............................293
*11 sentyabr 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Qazax xanlığının 550 illik yubileyi münasibətilə Astanada keçirilən təntənəli mərasimdə iştirak etmişdir ............................293
*11 sentyabr 2015-ci il*

Prezident İlham Əliyev Ağsuda ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir ....................294
*17 sentyabr 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Kürdəmirdə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir ....................294
*17 sentyabr 2015-ci il*

Prezident İlham Əliyev Kürdəmirdə əsaslı şəkildə yenidən qurulan Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanış olmuşdur ....................294
*17 sentyabr 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Kürdəmir şəhərində Bayraq Meydanının açılışında iştirak etmişdir ....................295
*17 sentyabr 2015-ci il*

Prezident İlham Əliyev dünya şöhrətli aktyor və rejissor Stiven Siqalı qəbul etmişdir .......296
*21 sentyabr 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Göyçayda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir ....................296
*6 oktyabr 2015-ci il*

Prezident İlham Əliyev Göyçay Şəhər Uşaq Musiqi Məktəbinin açılışında iştirak etmişdir ....................297
*6 oktyabr 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Bayraq Meydanı kompleksində yaradılan şəraitlə tanış olmuşdur ....................297
*6 oktyabr 2015-ci il*

Prezident İlham Əliyev Göyçayda Gənclər Mərkəzinin açılışında iştirak etmişdir ......298
*6 oktyabr 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Ucar Tarix-Diyarşünaslıq Muzeyi üçün inşa olunan yeni binanın açılışında iştirak etmişdir ....................299
*6 oktyabr 2015-ci il*

Prezident İlham Əliyev Şəkidə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir ....................299
*4 noyabr 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Şəkidə “Marxal” müalicə-istirahət kompleksində tikinti işlərinin gedişi ilə tanış olmuşdur ....................300
*4 noyabr 2015-ci il*

Prezident İlham Əliyev Zaqatala şəhərində Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir. Prezident İlham Əliyevin çıxışı ....................300
*4 noyabr 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Tbilisidə Qəhrəmanlar Memorialını ziyarət etmişdir ......304
*5 noyabr 2015-ci il*

Prezident İlham Əliyev Tbilisidə Heydər Əliyev adına mədəniyyət və istirahət parkında ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir ......304
*5 noyabr 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan Pravoslav Kilsəsinin patriarxı II İliya ilə görüşmüşdür ......305
*6 noyabr 2015-ci il*

Prezident İlham Əliyev AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ......305
*9 noyabr 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev YUNESKO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda iştirak etmişdir ......312
*17 noyabr 2015-ci il*

Prezident İlham Əliyev və YUNESKO-nun xoşməramli səfiri Mehriban xanım Əliyeva Parisdə YUNESKO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda iştirak etmişlər. Prezident İlham Əliyevin çıxışı ......314
*18 noyabr 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev ISESKO-nun baş direktorunu qəbul etmişdir ....320
*25 noyabr 2015-ci il*

Prezident İlham Əliyev ISESKO Baş Konfransının XII sessiyasının açılışında iştirak etmişdir. Prezident İlham Əliyevin çıxışı ......321
*26 noyabr 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Belarus Dövlət Böyük Vətən Müharibəsi Tarixi Muzeyi ilə tanış olmuşdur ......325
*28 noyabr 2015-ci il*

Prezident İlham Əliyev Minskdə "Qələbə" meydanını ziyarət etmişdir ......326
*28 noyabr 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvanda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir ......326
*1 dekabr 2015-ci il*

Prezident İlham Əliyev Naxçıvana səfəri çərçivəsində 2 saylı Uşaq Musiqi Məktəbinin açılışında iştirak etmişdir ......326
*1 dekabr 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Çinin Sian şəhərindəki Terrakota Ordusu Muzeyi ilə tanış olmuşdur ......327
*9 dekabr 2015-ci il*

Prezident İlham Əliyev Pekində Paytaxt Muzeyi ilə tanış olmuşdur ..........................328
*10 dekabr 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Pekində Xalq Qəhrəmanları Abidəsini ziyarət etmişdir ..........................329
*11 dekabr 2015-ci il*

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etmişdir ..........................329
*12 dekabr 2015-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Zirə Mədəniyyət Mərkəzinin və eko-parkın açılışında iştirak etmişdir ..........................330
*30 dekabr 2015-ci il*

**2016**

Azərbaycan Prezidenti İlham Əliyev Xalq şairi Zəlimxan Yaqubun vida mərasimində iştirak etmişdir ..........................339
*11 yanvar 2016-cı il*

Prezident İlham Əliyev Şəhidlər Xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad etmişdir ..........................339
*20 yanvar 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev ölkə gənclərinin bir qrupu ilə görüş keçirmişdir. Prezident İlham Əliyevin nitqi ..........................340
*29 yanvar 2016-cı il*

Prezident İlham Əliyev Dubaydakı məşhur "Bürc-Xəlifə" ilə tanış olmuşdur ..........................358
*1 fevral 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Abu Dabidə Şeyx Zayed məscidi kompleksini ziyarət etmişdir ..........................359
*1 fevral 2016-ci il*

Prezident İlham Əliyev Tovuz şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir ..........................359
*16 fevral 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Tovuza səfəri çərçivəsində Qovlar şəhərində Gənclər Evinin açılışında iştirak etmişdir ..........................359
*16 fevral 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Gəncədə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir ..........................360
*17 fevral 2016-cı il*

Prezident İlham Əliyev Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur ..........................361
*17 fevral 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev "Gəncəçay" Park-Bulvar Kompleksi ilə tanış olmuşdur ....................361
*17 fevral 2016-cı il*

Prezident İlham Əliyev Gəncədə "İmamzadə" dini kompleksində yaradılan şəraitlə tanış olmuşdur Prezident İlham Əliyevin nitqi ....................362
*17 fevral 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimində iştirak etmişdir ....................367
*26 fevral 2016-cı il*

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin latviyalı və misirli həmsədrlərini qəbul etmişdir ....................369
*8 mart 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev IV Qlobal Bakı Forumunun açılışında iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ....................369
*10 mart 2016-cı il*

Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ....................376
*19 mart 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Xalq yazıçısı Maqsud İbrahimbəyovun məzarını ziyarət etmişdir ....................383
*28 mart 2016-cı il*

Prezident İlham Əliyev "AITF-2016" XV Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi ilə tanış olmuşdur ....................383
*8 aprel 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev İstanbulda İƏT-in XIII Sammitinin birinci sessiyasında çıxış etmişdir. Prezident İlham Əliyevin çıxışı ....................385
*14 aprel 2016-cı il*

Prezident İlham Əliyev İstanbulda İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitində iştirak etmişdir ....................386
*14 aprel 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Nəsimi rayonundakı yeni parkda yaradılan şəraitlə tanış olmuşdur ....................388
*20 aprel 2016-cı il*

Prezident İlham Əliyev BƏƏ-nin tolerantlıq üzrə dövlət nazirini qəbul etmişdir ........389
*25 aprel 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışında iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ...389
*26 aprel 2016-cı il*

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının mədəniyyət və informasiya nazirini qəbul etmişdir ....................................................................................395
*27 aprel 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Heydər bağında yaradılan şəraitlə tanış olmuşdur ....................................................................................................................395
*4 may 2016-cı il*

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü və faşizm üzərində qələbənin 71 illiyi münasibətilə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ...........................................395
*9 may 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev 9 may - Qələbə günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak etmişdir ..................................................................400
*9 may 2016-cı il*

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin məzarını ziyarət etmişdir ............403
*10 may 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev İstanbulda Dünya Humanitar Sammitində çıxış etmişdir ......................................................................................................................403
*23 may 2016-cı il*

Prezident İlham Əliyev 28 may – Respublika Günü münasibətilə rəsmi qəbulda iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ...................................................406
*27 may 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət etmişdir ..................................................................412
*27 may 2016-ci il*

Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı diplomatik nümayəndəliklərinin və beynəlxalq təşkilatların rəhbərlərini qəbul etmişdir. Prezident İlham Əliyevin çıxışı .....................................413
*8 iyun 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi .....................................415
*17 iyun 2016-cı il*

Prezident İlham Əliyev Nardarandakı "Rəhimə Xanım" məscid-ziyarətgah kompleksi ilə tanış olmuşdur ..........................................................................................421
*21 iyun 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev "Qəbələ" Park-Bulvar Kompleksinin yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak etmişdir ................422
*10 avqust 2016-cı il*

Prezident İlham Əliyev Qəbələdə icrası davam edən turizm və idman infrastrukturu layihələri ilə tanış olmuşdur ......................................................................................422
*10 avqust 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Salyan rayonuna səfəri çərçivəsində Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak etmişdir ........................................423
*3 sentyabr 2016-cı il*

Prezident İlham Əliyev Masallı rayonuna səfəri çərçivəsində Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak etmişdir ........................................423
*3 sentyabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Masallıda Uşaq-İncəsənət Məktəbinin açılışında iştirak etmişdir ........................................424
*3 sentyabr 2016-cı il*

Prezident İlham Əliyev Masallıda Bayraq Meydanı və Azərbaycanın Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak etmişdir ........................................424
*3 sentyabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Qusarda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir ........................................425
*8 sentyabr 2016-cı il*

Prezident İlham Əliyev Yalama kəndindəki Heydər Əliyev adına parkda yaradılan şəraitlə tanış olmuşdur ........................................425
*8 sentyabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Xaçmazda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir ........................................427
*8 sentyabr 2016-cı il*

Prezident İlham Əliyev Xaçmazda Bayraq Meydanında və Bayraq Muzeyində yaradılan şəraitlə tanış olmuşdur ........................................427
*8 sentyabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Sabirabadda ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir........................................427
*17 sentyabr 2016-cı il*

Prezident İlham Əliyev Mingəçevirdə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir ........................................428
*21 sentyabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Mingəçevir Şəhər Tarix Muzeyinin açılışında iştirak etmişdir ........................................428
*21 sentyabr 2016-cı il*

Prezident İlham Əliyev Türkiyənin müdafiə, mədəniyyət və turizm nazirlərinin başçılıq etdikləri nümayəndə heyətlərini qəbul etmişdir ........................................428
*27 sentyabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıtda Uşaq İncəsənət Məktəbinin açılışında iştirak etmişdir ........................................429
*27 sentyabr 2016-cı il*

Prezident İlham Əliyev Sumqayıtda əsaslı təmir edilərək yenidən qurulan Heydər Əliyev parkında yaradılan şəraitlə tanış olmuşdur ........................................429
*27 sentyabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıt Dənizkənarı Bulvarının və şəhər çimərliyinin açılışında iştirak etmişdir ....................................................................430
*27 sentyabr 2016-cı il*

Prezident İlham Əliyev əsaslı təmir olunaraq yenidən qurulan Sumqayıt Dövlət Dram Teatrının binasında yaradılan şəraitlə tanış olmuşdur ............................431
*27 sentyabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev ISESKO-nun baş direktorunu qəbul etmişdir ....432
*29 sentyabr 2016-cı il*

Prezident İlham Əliyev V Beynəlxalq Humanitar Forumun rəsmi açılış mərasimində iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ........................................................432
*29 sentyabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Bakının Nəsimi rayonunda yeni "Qızılgül bağı" parkında yaradılan şəraitlə tanış olmuşdur ................................................................437
*6 oktyabr 2016-cı il*

Prezident İlham Əliyev Xətai rayonunda yeni yaradılan park kompleksinin açılışında iştirak etmişdir ..............................................................................................................438
*6 oktyabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ..........................................................................................439
*17 oktyabr 2016-cı il*

Prezident İlham Əliyev Ağstafa rayonuna səfəri çərçivəsində Mədəniyyət Mərkəzində əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur ..................444
*19 oktyabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Ağstafada Musiqi Mərkəzinin açılışında iştirak etmişdir ...............................................................................................................444
*19 oktyabr 2016-cı il*

Prezident İlham Əliyev Ağstafada əsaslı şəkildə yenidən qurulan Heydər Əliyev Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur ..........................................................445
*19 oktyabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Qazax rayonuna səfəri çərçivəsində Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının açılışında iştirak etmişdir ..................446
*19 oktyabr 2016-cı il*

Prezident İlham Əliyev Beyləqanda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir ..............................................................................................................447
*12 noyabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Beyləqanda Bayraq Muzeyinin açılışında iştirak etmişdir ....447
*12 noyabr 2016-cı il*

Prezident İlham Əliyev Horadiz şəhərində Dövlət Rəsm Qalereyasının açılışında iştirak etmişdir ....447
*12 noyabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Füzuli Xalça Kombinatının açılışında iştirak etmişdir ....448
*12 noyabr 2016-cı il*

Prezident İlham Əliyev Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərini qəbul etmişdir ....450
*2 dekabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Ağdam Muğam Mərkəzinin təməlqoyma mərasimində iştirak etmişdir ....452
*3 dekabr 2016-cı il*

Prezident İlham Əliyev Ağdam rayonunun Quzanlı qəsəbəsində yeni inşa edilmiş Bayraq Muzeyinin açılışında iştirak etmişdir ....452
*3 dekabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Ağdamda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir ....453
*3 dekabr 2016-cı il*

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərini və idarə heyətinin üzvlərini qəbul etmişdir ....454
*12 dekabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etmişdir ....455
*12 dekabr 2016-cı il*

Prezident İlham Əliyev İçərişəhərdə Marionet Teatrının açılışında iştirak etmişdir ....456
*24 dekabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev İçərişəhərdəki "Bəylər" məscidində bərpa işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur ....458
*24 dekabr 2016-cı il*

Prezident İlham Əliyev Xalq artisti Zeynəb Xanlarovaya "Heydər Əliyev" ordenini təqdim etmişdir ....459
*26 dekabr 2016-cı il*

Azərbaycan Prezidenti İlham Əliyev Bakı Konqres Mərkəzinin qarşısında yeni salınmış İstirahət Parkının açılışında iştirak etmişdir ....460
*26 dekabr 2016-cı il*

## 2017

Azərbaycan Prezidenti İlham Əliyev görkəmli dirijor, maestro Niyazinin Bakıda abidəsinin açılış mərasimində iştirak etmişdir. Prezident İlham Əliyevin çıxışı ..........461
*2 fevral 2017-ci il*

Prezident İlham Əliyev Belçikanın Vaterlo şəhərində görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın abidəsini ziyarət etmişdir ..........462
*5 fevral 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin idarə heyətinin nümayəndə heyətini qəbul etmişdir ..........464
*15 mart 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev V Qlobal Bakı Forumunun açılışında iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ..........464
*16 mart 2017-ci il*

Prezident İlham Əliyev V Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə verilən ziyafətdə iştirak etmişdir ..........471
*16 mart 2017-ci il*

Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ..........475
*18 mart 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Saatlıda ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir ..........481
*28 mart 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Yevlaxda ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir ..........482
*16 aprel 2017-ci il*

Prezident İlham Əliyev Bibiheybət mədəninin ərazisində dünyada sənaye üsulu ilə qazılmış ilk quyunun bərpadan sonrakı vəziyyəti ilə tanış olmuşdur ..........482
*26 aprel 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev ISESKO-nun baş direktorunu qəbul etmişdir ....484
*4 may 2017-ci il*

Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsini qəbul etmişdir ..........485
*4 may 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Etnik Anlaşma Fondunun prezidentini qəbul etmişdir ..........485
*4 may 2017-ci il*

Prezident İlham Əliyev Dünya Turizm Təşkilatının baş katibini qəbul etmişdir .........485
*5 may 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev YUNESKO-nun baş direktorunu qəbul etmişdir ....................486
*5 may 2017-ci il*

Prezident İlham Əliyev IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ....................486
*5 may 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin mədəniyyət və turizm nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir ....................492
*6 may 2017-ci il*

Prezident İlham Əliyev 9 may - Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak etmişdir ....................492
*9 may 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev ümummilli liderin anadan olmasının 94-cü ildönümünə və Heydər Əliyev Fondunun fəaliyyətinin 13 illiyinə həsr olunan təntənəli mərasimdə iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ....................494
*10 may 2017-ci il*

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin məzarını ziyarət etmişdir ....................499
*10 may 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev 28 may – Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ....................500
*26 may 2017-ci il*

Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət etmişdir ....................506
*26 may 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Cocuq Mərcanlıda tikilmiş məscidlə tanış olmuşdur ....................506
*14 iyun 2017-ci il*

Prezident İlham Əliyev görkəmli opera müğənniləri Fidan və Xuraman Qasımovaları qəbul etmişdir. Prezident İlham Əliyev Xalq artisti Fidan Qasımovaya "İstiqlal" ordeni təqdim etmişdir ....................507
*16 iyun 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ....................508
*20 iyun 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Varşavada "Naməlum əsgər" abidəsini ziyarət etmişdir ....................514
*27 iyun 2017-ci il*

Prezident İlham Əliyev Yasamal rayonunda yeni salınan parkda yaradılan şəraitlə tanış olmuşdur ....................515
*15 iyul 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Qaxda Bayraq Muzeyinin açılışında iştirak etmişdir ....................517
*3 avqust 2017-ci il*

Prezident İlham Əliyev Balakəndə Bayraq Muzeyinin açılışında iştirak etmişdir .......517
*3 avqust 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Göygöldəki Qələbə parkında yaradılan şəraitlə tanış olmuşdur ....................518
*19 avqust 2017-ci il*

Prezident İlham Əliyev Şəmkirdə əsaslı şəkildə yenidən qurulan Tarix-Diyarşünaslıq Muzeyində yaradılan şəraitlə tanış olmuşdur ....................519
*20 avqust 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Gədəbəydə Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir ....................519
*20 avqust 2017-ci il*

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nümayəndə heyətini qəbul etmişdir ....................520
*21 avqust 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Lənkəranda "Xəzər Palace" otel kompleksinin açılışında iştirak etmişdir ....................521
*2 sentyabr 2017-ci il*

Prezident İlham Əliyev Salyana səfəri çərçivəsində Bayraq Muzeyinin açılışında iştirak etmişdir ....................522
*24 sentyabr 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev yeni yaradılan Şamaxı Safari Parkı ilə tanış olmuşdur .....522
*2 oktyabr 2017-ci il*

Prezident İlham Əliyev Bakıda yeni istifadəyə verilən İdman və İstirahət Parkında yaradılan şəraitlə tanış olmuşdur ....................524
*28 oktyabr 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Xalq artisti Rauf Abdullayevə "İstiqlal" ordeni təqdim etmişdir ....................524
*2 noyabr 2017-ci il*

Prezident İlham Əliyev Gəncə Dövlət Filarmoniyasının yeni binasının açılışında iştirak etmişdir. Prezident İlham Əliyevin çıxışı ....................525
*10 noyabr 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Gəncədə Mirzə Şəfi Vazeh Muzeyinin açılışında iştirak etmişdir ....................529
*10 noyabr 2017-ci il*

Prezident İlham Əliyev Gəncədə görkəmli dövlət xadimi Əziz Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkının açılışında iştirak etmişdir ............................531
*10 noyabr 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Xırdalan şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir ...............................................................532
*16 noyabr 2017-ci il*

Prezident İlham Əliyev Sabirabad rayonunda Bayraq Muzeyinin açılışında iştirak etmişdir ...........................................................................................................532
*28 noyabr 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Ağcabədidə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir .......................................................................................532
*28 noyabr 2017-ci il*

Prezident İlham Əliyev Ağcabədidə Tarix-Diyarşünaslıq Muzeyinin yenidənqurmadan sonra açılışında iştirak etmişdir ...................................................533
*28 noyabr 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Ağcabədidə Bayraq Muzeyinin açılışında iştirak etmişdir .....................................................................................................534
*28 noyabr 2017-ci il*

Prezident İlham Əliyev Tərtər Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak etmişdir ...........................................................................................................534
*28 noyabr 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Quba Bayraq Muzeyinin açılışında iştirak etmişdir ...........................................................................................................535
*7 dekabr 2017-ci il*

Prezident İlham Əliyev "Azərxalça" ASC-nin Quba filialının açılışında iştirak etmişdir ...........................................................................................................536
*7 dekabr 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etmişdir ...........................................................................................................538
*12 dekabr 2017-ci il*

Prezident İlham Əliyev Sumqayıtda Bayraq Muzeyinin açılışında iştirak etmişdir .....539
*15 dekabr 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıtda "Kimyaçı" Mədəniyyət Sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur ..............................................539
*15 dekabr 2017-ci il*

Prezident İlham Əliyev Lüdviqşafen parkında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur .......................................................................................540
*15 dekabr 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Xalq rəssamı Ömər Eldarova "Heydər Əliyev" ordeni təqdim etmişdir ........ 541
*20 dekabr 2017-ci il*

Prezident İlham Əliyev ISESKO-nun baş direktorunu qəbul etmişdir ........ 542
*21 dekabr 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev "2017-İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" konfransının açılışında iştirak etmişdir. Prezident İlham Əliyevin nitqi ........ 542
*21 dekabr 2017-ci il*

Prezident İlham Əliyev Xalq artisti Fərhad Bədəlbəyliyə "İstiqlal" ordeni təqdim etmişdir ........ 549
*25 dekabr 2017-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev "Yanar dağ" dövlət tarix-mədəniyyət və təbiət qoruğunda olmuşdur ........ 549
*29 dekabr 2017-ci il*

**2018**

Azərbaycan Prezidenti İlham Əliyev Şəhidlər Xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad etmişdir ........ 550
*20 yanvar 2018-ci il*

Prezident İlham Əliyev Qusarda "Şahdağ" Qış-Yay Turizm Kompleksinin növbəti inkişaf planları ilə tanış olmuşdur ........ 551
*30 yanvar 2018-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Müqəddəs Taxt-Tacın nümayəndə heyətini qəbul etmişdir ........ 552
*10 fevral 2018-ci il*

Prezident İlham Əliyev Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimində iştirak etmişdir ........ 553
*26 fevral 2018-ci il*

Azərbaycan Prezidenti İlham Əliyev Mingəçevirdə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir ........ 555
*27 fevral 2018-ci il*

**Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası və Azərbaycan Dövlət İnformasiya Agentliyi ilə (AzərTAc-la) birgə layihəsi**

**Redaksiya şurası:** Lətifə Məmmədova – sədr
Mayıl Əhmədov
Xəyal Məmmədov
Aydın Mirzəzadə
Novruz Aslan
Zakir İsmayılov
Zülfiyyə Mütəllimova
Zaur Cəfərzadə
Aytən Namazova
Şəhla Orucova
Elnarə Kərimova
Əli Eyvazov
Vüqar Əmrullayev
Leyla Rəsul
Fikrət Babayev
İsmayıl Hüseynov
Vüqar Şixəmmədov
Rəşad Əliyev
Cəlil Məlikov
Mələk Məmmədova
Vüqar Seyidov
Məhərrəm Məmmədov
Ramiz Göyüşov
Mədinə Həsənova
Natəvan Faiq
Şahin Verdiyev
Xuraman İsmayılova
Esmira Şükürova (Fuad)
Solmaz Əliyeva
Dilarə Zeynalova

AzərTAc-ın təqdim etdiyi rəsmi materiallara və fotoşəkillərə əsasən çap olunmuşdur.

Yığılmağa verilmişdir: 05.02.2018. Çapa imzalanmışdır: 10.03.2018.

Format: 70x100 1/16. Ofset çapı. Fiziki çap vərəqi: 36,5. Sifariş_____
Tiraj: 1000